Nazim Tapdıqoğlu (Vəlişov)

63,5(Az)yo2
T25

# Füzuli rayonu və onun toponimiyası

*(Ensiklopedik dərgi)*













КАРЯГИНСКИЙ УЕЗД
К.Джанг-кулу
Карибент
Ср.Алиханлу
Н.Алиханлу
Кюртмахмудлу
Хаджилу
Ягиябеклу
В.Алиханлу
Караханбеглу
Карвент
Гаджи-кулум-али
Деляарда
Карага
Ишниклу
Гаджилу
Надждр
К.Нара хана
Сеид-агмедлу
Абдурахманбейли
Джуварлу
Гаджилу
Бегманлу
Абдулрахманбейли
Айбасанлу
М.Гаджиду
Бегманлу
Араятлу
Абдуласарлар
Бабы
Молла-
Магеррамлу
Мандылу
Ахмет-беглу
Доршнар
Горадис
Курт Аслангуз тапа
Мирзаджамалы
Тазакчи
Кузгер

18536
...e)+63.5(5Aze)
...dıqoğlu N.
18536

**NAZİM TAPDIQOĞLU (VƏLİŞOV)**

26.89(5Aze)+63.5(5Aze)+81.2Az
T 25

# FÜZULİ RAYONU VƏ ONUN TOPONİMİYASI

*(Ensiklopedik dərgi)*

ton 2015
MƏCBURİ NÜSXƏ
F. Köçərli adına Azərbaycan Dövlət Uşaq KİTABXANASI
İNV. № 18536

**Bakı – 2006**

**ELMİ REDAKTOR:** **Budaq BUDAQOV**, akademik

**ELMİ MƏSLƏHƏTÇİLƏR:**
**Teymur Bünyadov**, akademik
**Arif Quliyev,** AMEA-nın müxbir üzvü
**Tofiq Hacıyev,** AMEA-nın müxbir üzvü

**RƏYÇİLƏR:**
**Tofiq Vəliyev**, professor
**Şövqi Göyçaylı**, professor
**Qəzənfər Kazımov,** professor
**Nadir Məmmədov**, professor
**Vidadi Əliyev**, professor

**Nazim Tapdıqoğlu (Vəlişov).** ***Füzuli rayonu və onun toponimiyası.*** Bakı, " " 2006, 984 səh (496 səh. latın + 488 səh. kiril)

***Kitabda Füzuli rayonunun bütün oykonimləri (yaşayış məntəqələri), yüzlərlə oronimləri (yer adları), hidronimləri (arx, bulaq, kəhriz, çay, göl) haqqında məlumat xarakterli qısa bilgilər öz əksini tapmışdır. Rayonun tarixi, arxeologiyası, etnoqrafiyası, coğrafiyası ilə bağlı olan bu ensiklopedik dərgidə kəndlərin adları - orada yaşamış və yaşayan tayfaların, rayonla bağlı dağ, dərə, qaya, düz, təpə, çay, qobu, bulaq və s. adların mənşəyi, mənsubiyyəti haqqında izahlı şərhlər, eləcə də, rayonun Qarabağ müharibəsində şəhid olmuş, girov götürülmüş, itkin düşmüş sakinləri, tanınmış şəxsiyyətləri, ziyalıları haqqında əlifba sırası gözlənilməklə məlumat verilmişdir.***

***Füzuli rayonunun toponimləri ilk dəfədir ki, bu cür sistemli şəkildə tədqiq olunur. Yaşlı nəslin arzusu nəzərə alınaraq kitab həm də kiril əlifbası ilə verilmişdir. Geniş oxucu kütləsi üçün nəzərdə tutulan bu kitab tədqiqatçılar üçün də bir tarixi mənbə ola bilər.***

4700005002
093-2007

© Үнсиjjәт - 2007

# MÜƏLLİFDƏN ÖN SÖZ ƏVƏZİ

**Əziz oxucu!** Sizinlə hər bir görüş mənim üçün həmişə unudulmazdır, fərəhlidir. Şəxsən mən bundan qürur duyur və zövq alıram...

Son illərdə mühüm elm sahələrindən olan toponimikanın ayrı-ayrı sahələrinin araşdırılması geniş miqyas almışdır. **Toponimika** bir çox problemlərin öyrənilməsinə kömək edir. Onun bir sıra problemləri hərtərəfli tədqiqata cəlb olunur. **Toponim yaradıcılığı** xalqımız üçün əlbəttə ki, çox gərəklidir. Azərbaycanda ayrı-ayrı adamların, xüsusilə də, tarixçilərin öz təşəbbüsləri və istəkləri ilə bu və ya digər şəkildə toponimləri toplamaqlarını ancaq alqışlamaq olar. Amma bu da vacibdir ki, toplanan bu toponimlər, onomastik vahidlər elmi, tarixi, hüquqi, coğrafi, dil, üslubiyyat baxımından qruplaşdırılaraq Dövlət səviyyəsində nəşr olunub oxuculara çatdırılmalıdır.

Hər hansı bir regionun, rayonun və s. qədim və müasir toponimlərinin toplusu həmin regionun, rayonun və s. toponimik fondu sayılır. Çox təəssüf ki, Azərbaycanda hələ də elmin tələb etdiyi formada yaradılmış belə fond yoxdur. Belə fondun yaradılması dövlət əhəmiyyətli vacib bir işdir. Bu mənada Füzuli rayonunun da toponomik fondunun yaradılması gözəl bir iş olardı...

Toponimlər dilçiləri, coğrafiyaçıları, tarixçiləri daha çox maraqlandırır. Xalqımızın minillik yaddaşı, mifik düşüncəsi keçmişi bu günə çatdırmağına görə bizim hər birimiz də bizə bəxş olunan tale dünyamızda, əgər belə ifadə etmək düzgündürsə, böyük və ulu tariximizin bir hissəsini, müəyyən parçasını yaşadırıq.

Toponimçinin işinin xüsusiyyəti həm də toponimləri toplayarkən müxtəlif insanlarla, ziyalılarla, ağsaqqallarla görüşməkdir. Çünki, bu cür dəyərli, böyük, ulu insanların söhbətlərində, fikirlərində bəzən tarixi təcrübənin sınağından çıxmış ölçülü-biçili həqiqətlər də faydalı olur. Bu mənada onların gücü keçmişimizə körpü olmalarında, tarixin bəzi dərin və qaranlıq səhifələrinə işıq salmalarındadır. Hər hansı bir coğrafi obyektə müxtəlif səbəblərdən müəyyən ad verilir: iqliminə, rənginə, relyefinə, xarici

görünüşünə, bitki və heyvanat aləminə və s. görə. Toponimçinin vəzifəsi məhz bu adları düzgün izah etməkdir.

Əzəli Azərbaycan torpaqlarını itirə-itirə gəldiyimiz bir dövrdə toponimik araşdırma və tədqiqatların toplanıb öyrənilməsi, çapı, Azərbaycan toponimik lüğəti, eləcə də, xalq coğrafi terminləri lüğətinin tərtib edilməsi, respublikanın toponimik fondunun yaradılması **millət** olaraq qarşımızda duran həlli vacib məsələlərdəndir.

**Tarix** uydurulmur, o, yazılır. Yazılmayan səhifələr isə zamanın diqtəsinə uyğun olaraq ağılla, şüurla araşdırılır, öyrənilir, aşkarlanır. **Toponim tarixi** də belədir. Onu tədqiq edən də həqiqətləri üzləşdirir, tutuşdurur, çünki **Tarix** adına yazılan hər fikrin möhürlü arayış qədər etibarlı olması şübhəsizdir, coğrafi adlar tarixi abidələrdir. Respublikamızın müxtəlif coğrafi adlarına aid kifayət qədər tədqiqat əsərləri və mənbələr var. Onların bir hissəsini bu kitabın ədəbiyyat siyahısına da daxil etmişəm. Coğrafi adların öyrənilməsində, tədqiqində böyük xidmətləri olan alimlərimiz çoxdur...

Bu gün toponimlərin öyrənilməsinin əhəmiyyətini, gərəkliyini şərh etmək, məncə, artıqdır. İndiyədək Azərbaycanın qədim sakinləri, onların etnik mənsubiyyəti haqqında müxtəlif sənəd və materiallarda çoxlu ziddiyyətli fikirlər səslənməkdədir. Bu cür müxtəlifliyin aydınlaşması üçün elmi və hüquqi söykəncəyi olan təhlil və tədqiqatlar demək olar ki, aparılmamışdır. Əlbəttə, bu və ya digər dərəcədə müəyyən tədqiqat işləri var, amma bütün bunlar, əgər belə demək mümkündürsə, şəxsi təşəbbüs müstəvisindən o yana qalxa bilmir. Təbii ki, bu kimi tədqiqatlar Dövlət müstəvisində, necə deyərlər, Dövlətin qayğısı, köməyi ilə aparılmalıdır. Məsələn, sübut olunmuşdur ki, miladdan öncə II minilliyin ortalarında Qafqazdakı, o cümlədən, Azərbaycandakı dəfn mərasimləri, müxtəlif qəbir əşyaları qədim Mesopatomiya mədəniyyəti ilə oxşardır. Amma çox təəssüf ki, böyük əhəmiyyət kəsb edən bu kimi məsələlərə münasibətdə dövlətin əlaqədar institutları, təşkilatları nədənsə daha çox susmağa üstünlük verirlər.

Belə nümunələri çox sayda misal gətirmək olar. Məsələn: qədim azərbaycanlıların soykökü, adətləri haqqında danışarkən orada



yaşayan oturaq, köçəri sakların, massagetlərin, skiflərin, sarmatların müxtəlif əsası olmayan ehtimallarla irandilli və s. hesab olunması, əlbəttə ki, qəbul edilməzdir. Əslində, bu cür böyük əhəmiyyət kəsb edən məsələlər məncə, **Dövlət Proqramı**na daxil edilməlidir...

Toponimlər müəyyən bir xalqın, tayfanın adından və həmin xalqın dilələrindəki coğrafi obyekt ünvanlı sözlərdən ibarət olduğu üçün **Tarix, Coğrafiya, Dilçilik** elmləri ilə, xüsusilə, sıx bağlıdır. Aydındır ki, ayrı-ayrı **tayfalar** xalqların yaranmasında mühüm rol oynamışdır. Ümumiyyətlə, etnogenez problemi elə mürəkkəb məsələdir ki, onun həllində təkcə müəyyən elm sahəsinə aid olan mənbələrə əsaslanmaq düzgün deyildir.

Toponimikanın tarix, coğrafiya və dilçiliklə bağlılığına baxmayaraq, onları bir-biri ilə eyniləşdirmək olmaz. **Toponimika** konkret bir regionun oronimlərini, oykonimlərini, hidronimlərini tədqiq etməklə bərabər, eyni zamanda, insanlar tərəfindən mənimsənilmiş və ya mənimsənilməyən mənbələri, mətləbləri də öyrənir. Hər bir toponimçi tədqiq etdiyi coğrafi adların, xüsusilə, Qədim Azərbaycan mənşəli toponimlərin etimologiyası, tarixi və dil mənsubiyyətinin, qruluşunun öyrənilməsinə ciddi fikir verməlidir. Toponimçi istənilən bir sözün mənşəyi və mənası haqqında deyilmiş mübahisəli fikirləri qeyd etməklə bərabər, öz fikrini də deməli, bunları elmi şəkildə təhlil etməlidir.

Respublikamızın ərazisində, müxtəlif rayonlarda yaşayan xalqlar etnik tərkib baxımından qarışıq olduğu üçün ona uyğun oronimlərin tərkibindəki terminlər də müxtəlif dillidir. Tədqiqatlar göstərir ki, türkdilli oronimlər Azərbaycan xalqının etnogenezində, formalaşmasında iştirak etmiş qədim türk tayfalarının adlarını özündə qoruyub saxlaya bilmişdir. Çoxtəbəqəli Azərbaycan oronimiyası Azərbaycan, türk, avar, ləzgi, talış, tat, ərəb, fars, kürd, saxur, rus, udin, gürcü və başqa dillərdədir.

Azərbaycan ərazisində lap qədim dövrlərdən məskən salan xalqların və müxtəlif tayfaların dil tarixinin öyrənilməsində oronimlərin xüsusi yeri vardır. Bilirik ki, xalqımızın etonogenezində

türkdilli tayfalar daha yaxından iştirak etmişlər. Bununla bağlı olan oroqrafik obyekt adlarının mənşəyinin həqiqətə yaxın elmi izahı xalqımızın tarixi keçmişinə aid qiymətli faktlar aşkara çıxarır. İndiyə qədər müəyyən təşəbbüs və böyük həvəslə toplanılan oronimik məlumatlar respublikamızda yaşayan xalq, etnik qrup, qəbilə və tayfaların tarixinə, dillərinə, adət-ənənələrinə , təsərrüfat həyatına aid qiymətli mənbələrdir.

Coğrafi adların tədqiqinin əhəmiyyəti çox böyükdür. Aydındır ki, heç bir xəritəni coğrafi adsız, hər toponimi də adını daşıdığı obyektsiz təsəvvür etmək çətindir. Toponimlərin əksəriyyəti yerin landşaft komponentlərini özündə əks etdirdiyinə görə coğrafi adları **coğrafiyanın açarı** adlandırmaq olar. Coğrafi adların linqvistik, tarixi və coğrafi baxımdan böyük əhəmiyyəti vardır. Toponimlərin müxtəlif növləri arasında tarixi genetik əlaqələr mövcuddur.

Hər bir toponim tarixi sənəddir, bizə keçmişdən xəbər verən mənbədir. Qədim mənbələri nəzərdən keçirmədən, tarixi heç olmasa müəyyən səviyyədə bilmədən hər hansı bir coğrafi adın, toponimin mənşəyi haqqında tam əhatəli, düzgün söz demək olmaz. Bu mənada toponimiyanın tədqiqində tarixçilərin rolu danılmazdır, əvəzsizdir. Hər bir coğrafi adın etimologiyasının tədqiqi zamanı tarixi və linqvistik faktlar mütləq nəzərə alınmalıdır. Çox təəssüf ki, Azərbaycanımızda qədim toponimlərə bəzən həvəskar münasibət hallarına da rast gəlirik. Coğrafi adlar hər bir xalqın milli və mənəvi sərvəti hesab edilir. Coğrafi adların tədqiqi, yuxarıda qeyd etdiyim kimi, çox böyük əhəmiyyətə malikdir. Ən azı ona görə ki, bu adlarda keçmişimizin-dədələrimizin, nənələrimizin nəfəsi, torpağımızın, xalqımızın həm ruhu, həm də dili yaşayır. Coğrafi adları tədqiq edən **Toponimika** özlüyündə **Onomastika** elminin bir qoludur, şaxəsidir. **Topos** yunan sözü olub "relyef, yer, ərazi, sahə", **onoma** isə "ad" mənasını bildirir.

Coğrafi adları məhz **Toponimika** elmi toponimik səviyyədə-metod və prinsiplər əsasında araşdırır. Elə coğrafi adlar var ki, onların yarandığı tarix məlumdur; amma elə toponimlər də var ki, onların yaşını dəqiq müəyyən etmək mümkün deyildir. Əlbəttə, bu



qəbildən olan toponimlərə bəzi qədim coğrafi adları da aid etmək olar. Bəzən coğrafi adları bəşəriyyətin zaman və məkan daxilində yer üzərinə səpdiyi qiymətli almaz dənələrinə bənzədirlər. Bu ifadənin özündə, doğrudan da, bir həqiqət vardır.

Əslində "pis" coğrafi ad yoxdur. Onlar müqəddəs sayılmalı, qətiyyən dəyişdirilməməlidir. Coğrafi adlara "yamaq vurmaq", o adın mənsub olduğu xalqa, onun mənşəyinə, kökünə zərbə endirmək deməkdir. Heç bir coğrafi adı "elə-belə"- özbaşına dəyişmək olmaz. Əgər bu cür hallar baş vermişsə, belə mənəvi zərbələrin qarşısı hökmən alınmalı, onun kökü kəsilməlidir. Yeri gəlmişkən, ermənilər işğal etdikləri ərazilərdə türk toponimlərini dəyişdirməklə, həqiqi tarixi faktları baltalamaqla əslində tarixin əleyhinə getmişlər və bu gün də "gedirlər". Əlbəttə, bunu onlara heç tarix də bağışlamaz.

Yuxarıdakı fikirlərimi ümumiləşdirib belə deyə bilərəm ki, hər bir yaşayış məntəqəsi ərazisində (rayonlarda, qəsəbələrdə, kəndlərdə) olan bütün coğrafi adları toplayaraq onların keşiyində möhkəm durmaq lazımdır. İnsan öz adını özü ilə ömrü boyu gəzdirdiyi kimi əslində ana torpağa verilən coğrafi adları da özü ilə daşıyır. Valideynlərinin adı kimi doğulub boya-başa çatdığı yerdə, ərazidə olan coğrafi adlar da insan ürəyində fərəh doğurmalı, sevinc hissi, xoş əhval-ruhiyə yaratmalıdır.

Dərindən düşünsək, görərik ki, mənası olmayan coğrafi ad yoxdur. Coğrafi adları öyrənən hər bir şəxs tarix, coğrafiya və dilçilik elmlərini mükəmməl bilərsə, deməli, onları yaxşı tədqiq edə bilər. Hər bir toponimin arxasında sirli bir məna durur. Deməli, onlar adi söz ola bilməz. Toponimlər təbii ki, xalqın keçmişi, məişəti və dili ilə sıx bağlıdır. Təəssüf hissi ilə qeyd etmək lazımdır ki, Qədim Azərbaycan əhalisinin etnik tərkibi və dili haqqında əlimizdə hələlik o qədər də çox tutarlı mənbə yoxdur.

Hər bir toponimi insan yaratdığı üçün "coğrafi adlar yerin yaddaşıdır" desək, heç də səhv etmərik. Müəyyən zaman müddətində verilmiş bu adlar illər, əsrlər boyu lazımi səviyyədə izah və tədqiq olunmalıdır, çünki, etnogenetik bilgilərin araşdırıl-

masında toponimikanın əvəzsiz xidməti danılmazdır.

1972-ci ildə Akademiyanın Coğrafiya İnstitutunun nəzdində yaradılmış Toponimika şöbəsi toponimik lüğətlər tərtib etmək, toponimika fondu yaratmaq, coğrafi adların transkripsiya və unifikasiyası ilə məşğul olmaq vəzifələrini qarşıya məqsəd qoymuşdur. Burada aparılan tədqiqatlar nəticəsində Azərbaycanın toponimik lüğəti və xalq coğrafi terminləri lüğəti tərtib edilmiş, respublikanın toponimik fondu yaradılmışdır.

İnsan tarixi yaratdığı üçün **tarix** insanı həmişə yaşadacaqdır. İnsanları yaşadan bilmədiklərini öyrənmək həvəsidir. İnsan üçün hara gedir-getsin, **Vətən,** yenə elə Vətəndir. **Vətən havası** onu ürəyinə çəkənlər üçün **can dərmanıdır.** Vətən elə **Vətən** olduğu üçün gözəldir.

Doğru deyirlər ki, **ömür** beşikdən başlanır. "Geniş yolların kökü xırda cığırlardır" - deyənlər yanılmırlar. Hər birimiz kiçik evlərin astanasından **Böyük Vətən** dünyasına düşürük. Yollar bizi **"Böyük Dünyaya"** apardıqca, balaca **Vətən dünyası** yadımızdan çıxmır. Bəli, doğulduğumuz ocağı duymadan, sevmədən, öyrənmədən **Böyük Vətənimizi,** yurdumuzu, duya, sevə, öyrənə bilmərik. Haralardasa ondan, **Vətəndən,** yaxşı yer olub-olmamasının **Vətən** sevgisinə qətiyyən dəxli yoxdur. Vətəninin, xalqının, doğulduğu **Yurdun** tarixi keçmişini bilmək, öyrənmək hər bir Vətən övladı üçün həm borc və həm də şərəfdir.

**Vətən** də, **millət** də, **dövlət** də torpaqdan başlanır. Ağacın barını haradan aldığı məlumdur. **İnsan, Tarix** isə araşdırılmalıdır, ən azı ona görə ki, onun kökləri müxtəlif istiqamətlərə gedib çıxır. Hər şeyin aydın olması üçün **köklərə** baxmaq lazımdır. Bu, həm də vacibdir. Biz millət olaraq əgər yurdumuzun, Vətənimizin tarixini yaxşı öyrənməsək, bilməsək, onda gələcəkdə də hələ başımıza çox faciələr, bəlalar gələ bilər. Bilməyəndə isə susuruq. Susanda da düşmənlərimiz üstümüzə ayaq alırlar...

Aydındır ki, xalqın tarixi kimi, sözün də **tarixi** var. Bu mənada düşünürəm ki, tarixi-toponimik araşdırmalar keçmiş və ötənlər haqqında olsa da, keçmiş üçün yox, bu gün üçün - bu günü dərk



etmək və sabahlara yol açmaq üçündür. Onu da unutmamalıyıq ki, HƏQİQƏT bütün kitablardan böyük və ucadır. Bəzən elə olur ki, kiçicik bir sübut, balaca bir dəlil, adi bir fakt xalqın tarixinin bütöv bir qaranlıq dövrünü işıqlandırır. Məlumdur ki, yazıya düşməyən adlar yavaş-yavaş tarix səhnəsindən silinir, itib-batır. Adı yazıya düşən coğrafi adlar isə çox yaşayır, tarixdən silinmir. Füzuli şəhərinin əvvəlki Qaryagin adı fəal toponimik fonddan artıq çoxdan passiv fonda keçib. Bəzən də belə olur ki, ad passiv fonddan yenidən fəal fonda qayıdır (məsələn: Gəncə, Beyləqan, Biləsuvar və s.). Əlbəttə, bütün bunlar zamanın işidir. Yəqin ki, Füzuli şəhərinin (rayonunun) keçmiş **Qarabulaq** adı da nə vaxtsa passiv fonddan fəal fonda keçəcək, özünə qayıdacaq...

Sən ey adına VƏTƏN dediyim yarası qabar bağlamış bağrı dağlı Füzulim...




**Füzuli rayonu** Qarabağ dağ silsiləsinin cənub-şərq ətəklərindən Araz çayına qədər maili düzənlik və alçaq sahələri əhatə edir. O, Cəbrayıl, Xocavənd (Hadrut, Martuni), Ağcabədi, Beyləqan rayonları və Araz çayı boyunca İranla həmsərhəddir.

Rayonun ilkin adı **Qarabulaq** (1827-ci il) olmuş, sonralar çar polkovniki Qaryaginin şərəfinə **Qaryagin** adlandırılmışdır.

Az bir müddət yaşayış məntəqəsi inqilabçı B.Sərdarovun şərəfinə **Sərdar** adını da daşımışdır.

Rayon 8 avqust 1930-cu ildə təşkil olunmuşdur. 1959-cu ilin aprelindən rayon böyük Azərbaycan şairi **Məhəmməd Füzulinin** adını daşıyır.

Füzuli rayonunun ərazisi **1392** kv.km. (bəzi sənədlərdə **1386** kv. km.də yazılır) və ya **139** min hektar, əhalisi təxminən yüz qırx min nəfərdir. Rayonda **1** şəhər, **1** şəhər tipli qəsəbə, **75** kənd və başqa yaşayış məntəqələri vardır. Rayon ərazisindən axan Quruçay, Köndələnçay, Qozluçay, Çərəkən çayları Araz hövzəsinin çaylarıdır.

Məhsuldarlıq baxımından kənd təsərrüfatına yararlı boz, şabalıdı, boz-qəhvəyi və s. kimi torpaq sahələri var. Qarabağın dilbər guşəsi olan Füzuli rayonu ərazisində müxtəlif dövrlərdə Qaraköpəktəpədə, Qarabulaq kurqanlarında. Günəştəpədə, Quruçay sahillərində və digər yerlərdə tədqiqat işləri aparılmış, orada yaşamış qədim tayfaların tarixi öyrənilərək tədqiq edilmişdir.

Rayonun ən iri yaşayış məntəqələri **Füzuli şəhəri** (işğal altındadır), Horadiz qəsəbəsi (işğaldan azad edilib), **Böyük Bəhmənli kəndi** (işğaldan azad olunub), **Horadiz** və **Qacar** kəndləridir (işğal altındadırlar). Rayon dəniz səviyyəsindən **400-900** m hündürlükdə yerləşir. Yağıntının illik miqdarı orta hesabla **500** mm-ə qədərdir.

1968-ci ilin yayında mərhum arxeoloq-alim Məmmədəli Hüseynov tərəfindən aşkar olunmuş preneandertal - Azıxantrop adamının alt çənəsinin sümükləri Füzuli rayon mərkəzindən 15 km aralı məsafədə yerləşən Azıx mağarasından tapılmışdır. Azərbaycan arxeologiya elminin böyük nailiyyətləri olan bu abidə Qarabağın Füzuli ərazisində vaxtilə qədim poleolit dövrünün mövcudluğunu aşkarladı.

**Azıx mağarası** Quruçayın sol sahilində yerləşdiyi üçün mağara və onun ətrafından tapılan daş dövrü nümunələrini tədqiqatçılar



**"Quruçay mədəniyyəti"** təxminən (bir milyon beş yüz min il yaşı olan mədəniyyət) adı ilə izah və təhlil edirlər. Azıx mağarası Fransada qədim insan institutunun keçmiş SSRİ ərazisində xəritəyə aldığı ən qədim daş dövrü məskəni hesab edilmişdir.

Azərbaycanın qorunan memarlıq abidələrinin siyahısını bəzəyən Əcəmi memarlıq məktəbinin təsiri ilə inşa olunan Əhmədalılar və ya Arğalı türbəsi (XIII əsrin sonu), Babı türbəsi (1273-cü il), Aşağı Veysəlli kəndində hamar daşdan tikilən qülləvari Mirəli türbəsi (XIV əsr), Qarğabazar kəndində Hacı Qiyasəddin məscidi (1682-ci il), Karvansara (1684-cü il), Qoçəhmədli kəndində məscid (XVIII əsr), Füzuli şəhərində Hacı Ələkbər məscidi (XIX əsr), "Məşədi Həbib" hamamı (XIX əsr), Merdinli kəndi yaxınlığında daşdan yonulan at, qoç fiquru qədim abidələri (XVIII-XIX əsrlər) və s. bu torpaqlardadır.

Rayonda taxılçılıq, heyvandarlıq, üzümçülük, qoyunçuluq, quşçuluq, baramaçılıq geniş inkişaf etmişdir. İşğala qədər kənd təsərrüfatı ilə yanaşı, rayonda sənaye də inkişaf edirdi. Rayonda tikinti tresti, 6 nəqliyyat təşkilatı, 13 sənaye müəssisəsi və s. fəaliyyət göstərirdi...

İşğala qədər rayonda 70 kitabxana, 20 mədəniyyət evi, 45 klub, xalq və dövlət dram teatrları, 685 çarpayılıq 13 xəstəxana, 40 feldşer-mama məntəqəsi, vərəm və dəri-zöhrəvi xəstəliklər dispanseri, 20 kinoqurğu (15 daimi, 5 səyyar), texnikum, 2 TPM, 38 məktəbəqədər müəssisə, 2 muzey, KKİC, stadion, 65 kolxoz və sovxoz, 12 fermer təsərrüfatı və s. obyektlər vardı. Füsunkar təbiətli Füzuli rayonu Qarabağın əsrarəngiz gözəlliklər diyarının bir parçasıdır. Bu yerlər xalqımızın uzaq keçmişinə aid çoxlu maddi-mədəniyyət nümunələri və gözəl memarlıq abidələri ilə zəngindir. Rayon ərazisində müxtəlif toponimiyalarla bağlı kəndlər, abidələr və s. vardır ki, onların dəqiq öyrənilməsi ciddi elmi axtarışlar tələb edir...

Füzulinin 400 nəfərdən çox alim ziyalısı ölkəmizdə və onun hüdudlarından kənarda elmi pedaqoji nailiyyətlərini davam etdirirlər. Füzuli torpağı 10 akademik (AMEA-nın həqiqi və

müxbir üzvləri), 90 professor, 300-dən çox dosent və elmlər namizədi yetişdirmişdir. Ç.Cuvarlı, İ.İbrahimov, C.Zülfüqarlı, Y.Qəmbərov, B.Eyvazov, A.Quliyev, B.Zeynalov, Ə.Nuriyev, H.Quliyev, A.Musayev və digər onlarla tanınmış füzulili alimlərin şöhrəti Azərbaycandan çox-çox uzaqlarda dillər əzbəridir.

Füzuli torpağı ölkəmizə çoxlu sayda tanınmış siyasətçilər bəxş etmişdir. Bu torpaq Azərbaycan mədəniyyətinə onlarla, yüzlərlə dəyərli sənətçi verib: Seyid Şuşinski, İlyas Əfəndiyev, İslam Rzayev, Qəndab Quliyeva, Məmməd Cavadov, Səfər İbrahimov, Mürşüd Haşımlı, Çingiz Əlioğlu, Seyran Səxavət, Vaqif Bəhmənli, Nemət Veysəlli, Əfsər Cavanşirov, Əşrəf Veysəlli, Kamran Hacıyev, Süleyman Abdullayev, Mələksima Həsənova, Ağabala Abdullayev, Cəmil Cəfərov, Allahyar Əliyev, Zahid Quliyev, Eldar Novruzov, Təşkilat Nəsirov, Səyyad Əlizadə, Ramiz Əliyev, Mahir Məmmədov, Bağman Kərimbəyli, Nadir Bayramlı, Nizami Abdullayev, Təvəkkül Musayev, Rəhman Məmmədli, Mətləb Misir, Oruc Səda, Sabir Arazlı Özgün, Nəsir Əliyev, Sabir Rüstəmov, Mahmud Qacar, Vahid Əlifoğlu və başqaları bu qəbildəndirlər. Füzuli həm də dünya şöhrətli idmançılar yurdudur.

Azərbaycanın dilbər guşəsi olan **Füzuli rayonu** təkcə siyasətçi, müğənni, xanəndə, alim, idmançı, sənətkarlar yox, həm də görkəmli sərkərdələr, generallar, igidlər yetirmişdir. 1988-ci ildən başlayan erməni təcavüzünə qarşı mübarizədə minlərlə füzulili döyüşmüş, yüzlərlə füzulili şəhid olmuş, yaralanmış, itkin düşmüşdür. Füzuli rayonunun əhalisi Qarabağ müharibəsində ölkəmizdə ən çox itkin və şəhid vermişdir. Füzulinin 1100-dən çox şəhid və itkini (Qarabağ müharibəsində 6000 mindən çox füzulili döyüşmüşdür), 9 Milli Qəhrəmanı (Salatın Əsgərova, Faiq Rəfiyev, Seymur Məmmədov, Nazim Quliyev, Pəhləvan Fərzəliyev, Elxan Zülfüqarov, Bəşir Kərimov, Rasim İbrahimov, Mirələkbər İbrahimov), 113 girovu, 1450 nəfər müxtəlif dərəcəli əlili var. Müharibənin əsas ağırlığını Qacar, Divannalar, Yuxarı Veysəlli, Aşağı Veysəlli, Qaradağlı, Hoğa (Üçbulaq), Arış, Qoçəhmədli, Cuvarlı, Güzdək, Gorazıllı, Cəmilli, Dilağarda,



Yağlıvənd, Govşad, Xələfşə, Mollavəli kəndlərinin əhalisi çəkmişlər. Avqustun 23-də (1993-cü il) ecazkar Füzuli torpaqları da girov düşdü, əsir alındı. Hazırda 51 kənd və rayon mərkəzi erməni tapdağı altında zillət çəkir. 55 min nəfərə yaxın füzulili məmləkətimizin 55 rayonunda əzablı köçkün ömrü yaşayır...

Sonu görünməyən bu müharibə hələ də davam etməkdədir. Müharibə təbii hadisə deyil ki, kimsə onun nə vaxt olacağını duya bilə. Müharibəyə hazırlıq çoxlu vaxt tələb edir və bir neçə müddətə həyata keçirilir. Bədxah qonşularımız olan ermənilər bu müharibəyə neçə illərdir ki, hazırlaşırmışlar...

Bu müharibədə doğma torpaqlarımızın hər qarışını azğın erməni işğalçılarından qoruyub şəhidlik zirvəsinə yüksələn neçə-neçə oğullarımız oldu. Bu gün də var belə oğullar, sabah da olacaq onlar...

Etiraf etmək lazımdır ki, bu üzücü müharibədən istifadə edib əyri yollarla varlanaraq pul yığanlarımız da, bir tikə çörək üçün taleyinə acı göz yaşları axıdanlarımız da var. Sanki dünyanın gərdişi bu məlum paradoksdan ibarət imiş...

Ermənilərin torpaqlarımızda gözləri var. Onlar neçə illərdir ki, dəridən-qabıqdan çıxıb strateji əhəmiyyəti olan rayonlarımızı, kəndlərimizi ələ keçirmək niyyətindədirlər. Düşmən əvvəlcədən düşünülmüş planlarını həyata keçirərək, bir-bir rayonlarımızı, kəndlərimizi işğal edir, evlərimizə, torpaqlarımıza od vurur, olub-qalan var-dövlətimizi talayıb aparır. Xalqımız öz torpaqlarımızda qaçqına, məcburi köçkünə çevrilir, yurdundan, ev-eşiyindən didərgin düşür. Qeyrətimiz, namusumuz düşmən əlində oyuncaq olub tapdanır...

Bu günlər çətin imtahan qarşısındayıq. Bu gün "hər şey cəbhə üçün, hər şey qələbə üçün!" şüarı əsas olmalıdır. İtirilən torpaqlarımızı geri almalı, gənc ordumuzda möhkəm nizam-intizam yaradıb düşmən üzərində qəti qələbəyə can atmalıyıq. İndi böyüyün də, kiçiyin də arzusu itirilən torpaqlarımızı geri qaytarmaq olmalıdır.

Vətəni müdafiə etməyə gücümüz də var, qüdrətimiz də. Əlində silah torpağı qorumağa getməyə hazır olan oğullarımız da az

deyildir. Başa düşməliyik ki, torpaqlarımızı düşmənə verməyimizi, öz *evimizdə* düşmən tərəfindən girov aparılmağımızı nə gələcək nəsillər, nə də TARİX bizə bağışlamayacaq...

*Bəli, 23 avqust 1993-cü il* tarixdə Füzuli rayonunun artıq 50-dən çox kəndi ermənilər və onun havadarları tərəfindən işğal edildi. Bir neçə saatın içərisində Füzuli rayonunun böyük bir hissəsi düşmən tərəfindən zəbt olundu. Deyilənə görə, hətta, ermənilərin kiçik kəşfiyyat dəstəsi irəliləyərək, səngərlərin və yaşayış məntəqələrinin bomboş olduğunu görüb geriyə xəbər vermişlər. Erməni zabitləri isə bunun bir tələ olduğunu güman edərək ehtiyatlı olmağı, kəndləri bir-bir tutmağı məsləhət görmüşlər. Heyhat, Füzulidə ermənilərə tələ qurulmamışdır, TƏLƏ füzulilərin özlərinə qurulmuşdur...

1994-cü ilin əvvəllərində rayonun Horadiz qəsəbəsi və 16 kəndi işğaldan azad edildi. Hazırda rayonun 22 yaşayış məntəqəsində qaynar həyat hökm sürür. 140 minlik rayon əhalisinin yarısı demək olar ki, doğma ərazilərdə yaşayır. İndi rayonda 27 məktəb, 20 mədəniyyət müəssisəsi, 16 tibb məntəqəsi, 2 xəstəxana və s. fəaliyyət göstərir. Bu gün füzulilər qəti şəkildə inanırlar ki, dahi şairin adını daşıyan rayona QAYIDIŞ artıq reallaşmaq üzrədir...

Füzuli rayonu özünün zəhmətkeş insanları, əmək qəhrəmanları ilə həmişə fəxr edib, indi də belədir. Təsadüfi deyil ki, əməkdə fərqlənən Sosialist Əməyi Qəhrəmanlarının çoxluğuna görə, Füzuli rayonu Respublikamızda birinci yeri tutur. Ələbaxımlıq, tənbəllik kimi xüsusiyyətlər adamlarımıza yaddır. İndinin özündə də hamı çalışır ki, cüzi də olsa, özünə güzəran yaratsın və halal zəhmət ilə yaşasın. İnşallah torpaqlarımız tamamilə azad olunduqdan, Respublikamızın ərazi bütövlüyü tam təmin olunandan sonra bu yerlərdə həyat yeni vüsət alacaq. Mən buna inanıram.

Bu üzücü Qarabağ müharibəsində Vətən torpağı uğrunda canından keçənlərin hamısına Allahdan rəhmət diləyirəm, onların ailə üzvlərinə başsağlığı verirəm, əlil və şikəst olanlara isə deyirəm: "Başını dik tut, Vətən oğlu! Elə zənn et ki, Sənin döyüş



meydanında qalmış *qolun,* yaxud *ayağın* düşmən qarşısını kəsən keçilməz sədd oldu. Şəhidlərimiz ilə birlikdə torpaq altında uyuyan o *əzan* şəhidlik mərtəbəsindədir". Gözü yolda qalan, didərgin həyatı keçirən həmyerlilərimə üzümü tuturam: "İşğalda olan Füzuli torpağı öz sahibinin sığalı, tumarı üçün qəribsəyib; intizarla yolumuzu gözləyir". İnanıram ki, Vətən torpaqları erməni əsarətindən tezliklə azad ediləcək. Elin toy-düyünü, çal-çağırı əvvəlki qaydasına, öz ahənginə düşəcəkdir...

Bu illər ağrılı günlər yaşayırıq. Öz vətənimizdə yurd-yuvası olmayan qaçqına, köçkünə çevrilmişik. Kaş *siyasət yükü* ilə ağırlaşmış dünyamızda Qarabağ düyününün də sirləri açılmış olsun. Tale bizə yar olsun ki, şəhid qanı ilə suvarılmış itirilən torpaqlarımıza hər hansı bir yolla qayıdıb ölənlərimizin ruhlarını şad edək. Amin!..

Tez-tez yuxularımda Ərgünəşi, Quruçayı, Köndələni, Qaraköpəktəpəni, Məngələnatanı, qəbiristanlıqlarımızı görürəm - daş qəbirlərin harayını eşidirəm. Yaralarından qan sızan sinəsi, bağrı dağlı, torpağı bərəkətli, çörəkli, ruzulu, adına VƏTƏN dediyim Füzulimi azad görüb sonra ölsəydim, daha heç bir dərdim olmazdı.

Müharibəni qələbə ilə başa çatdırmaq, sinəsi dağlı, torpağı bərəkətli, başdan-başa gözəlliklər diyarı olan Füzulini azad etmək biz füzulilərin ən ümdə arzusudur. Kaş bu arzumuz çin olsun!.. Daşlaşmış qəbirlər, Ərgünəş, Xəzəz, Üryandaq, Haçagədik, Qızılqaya, Peykanlı dağ, Qaraköpəktəpə, Çaldağ, Ələkbər yalı, Bəytəpə dağı, İlanlı dağ, Miralılar yalı, Heydər quzeyi, Güllüdərə, Qarabulaq kurqanları, Kirişdi dərə, Yelligədik, Xaldaş, Qozludərə, Dördtəpə dağı, Cinqobu, Qaraarxac dərəsi, Dördçinar güneyi, Üçarmurd təpəsi, "Ləlli", "Şır-şır", "Qarammədli", "Qarabulaq", "Söyüdlü", "Yarğan", "Ulu", "Əsgərxan" bulaqları... bizi haraylayır. Elxanların, Yavərlərin, Bağırların, Mətləblərin, "Kələntər" ləqəbli Yaqubların, "Rembo" təxəllüslü Qürbətlərin "Qəmlo" ləqəbli Maislərin, Şikarların, Vəlilərin, Möhtərəmlərin, Nazimlərin, Əbillərin, Ərzənalıların, Bəxtiyarların, Bəkirlərin, Gülbarların... ruhları bizi düşməndən qisas almağa səsləyir...



KİTABXANASI
İNV. № 15236

Bütün bu qeydləri qələmə aldıqca ürəyim neçə il bundan öncə girov düşmüş yurduma həsr etdiyim şerimin misralarını pıçıldayır:

**Yad əllərdə girov qalan yurdum, oy!..**

***Yuvasından perik düşən quş kimi***
***Doğma, isti ocağımdan olmuşam.***
***Çırpılmışam divarlara daş kimi,***
***Çadırlarda, küçələrdə qalmışam.***

***Vətənsizəm, dindirməyin, qəmliyəm,***
***Gəmilərim dəryalarda qərq olub.***
***Yanaqları göz yaşımdan nəmliyəm, -***
***Vətənsizlik mənə ağır dərd olub...***

***İlahidən qismətimə nə düşdü,***
***Öz yurdumda köçgün olmaq betərdir...***
***Anlamadıq, illər belə ötüşdü, -***
***Quru sözlə mübarizə hədərdir.***

***Fikir, xəyal Məni məndən alıbdır,***
***Yaman dərddir, "özün varsan, Vətən yox".***
***Quruçayın gözü yolda qalıbdır,***
***Harayına, imdadına yetən yox.***

***Ümidimiz kimə qalıb, bilmirik,***
***Taleyimiz yaman düşüb kələyə.***
***Gözümüzdən axan yaşı silmirik, -***
***Allah görə, bəlkə əlac eləyə...***

***Hər gələndən yurd yerini sordum, oy,***
***Ocaq yanır, tüstüləyir, his olur.***
***Yad əllərdə girov qalan yurdum, oy,***
***Yurd yerinin göynərtisi pis olur.***



***Bu nə yazı, bu nə qismət, bu nə gün,***
***Yazı yazan insafını itirmiş.***
***Öləziyir inamımız günbəgün,***
***Tale bizə nə bəlalar yetirmiş?..***

***Ürək gərək bu dərdləri çəkməyə,***
***Dözümümüz, təpərimiz azalıb.***
***Tab qalmayıb göz yaşları tökməyə,***
***Sızlamaqdan bənizimiz sozalıb.***

***Yuxularım bir-birinə qarışır,***
***Əsməcədir qəm yükündən əllərim.***
***Köndələnçay niskil ilə soruşur:***
***"Qayıdarmı köçüb gedən ellərim?"***

***Əynimizə kəfən geysək hamımız,***
***Ölüm bizə yaxınlaşmaz qorxudan.***
***Birləşməsək necə olar halımız?***
***Aman Allah, budur məni qorxudan.***

***Gündən-günə püxtələşən ordumun***
***Məqsədi də, amalı da döyüşdür.***
***Neçə ildir haray çəkən yurdumun***
***Harayına yetəmmirəm, nə işdir?..***

***Ərgünəşim yağıların əlində,***
***Ermənilər nədən belə qudurdu?***
***Qoyma qalsın dığaların əlində,***
***Ey Türk oğlu, azad edək bu yurdu!..***

**Füzuli rayonu!** Mənim doğan günəşim! Ulularımın ulu məskəni, müqəddəs yanğım, içim, özüm! Onu məndən qoparıb ayırmaq, almaq istəyirlər. Bu gün çətin sınaq qarşısındayıq. Biz, bugünki nəsillər gələcək nəsillər qarşısında məsuliyyət hissimizi

F. Köçərli adına Azərbaycan Res. Resp. Uşaq KİTABXANASI
İNV. № 18536

unutmamalıyıq. Bizə miras qalan torpağı, toponimləri qorumaq və gələcək nəsillərə çatdırmaq hamımızın müqəddəs amalımız olmalıdır.

İnsan tarixi yaratdığı üçün **tarix** insana borcludur. Mənim doğma ellərim! Sən təbiət qədər ulu bir varlıq olduğun üçün Səni sevə-sevə öyrənmək, öyrənə-öyrənə sevmək gərəkdir. Hara qaçırsan qaç, hara gedirsən get - **Vətən** yenə Vətəndir...

Toponimlər xalqın keçmişidir, qiymətə gəlməyəcək dərəcədə olan böyük sərvətidir. Bu sərvəti qorumaq, gələcək nəsillərə çatdırmaq vətən övladı kimi hər birimizin müqəddəs borcu olmalıdır. Bəzən üzdəniraq qonşularımız xalqımızın əvəzsiz sərvəti olan toponimlərimizin üzərində sərbəst şəkildə müxtəlif "əməliyyatlar aparırlar. Bu kitab ilə mən də istəmişəm elə bir **dayaq** yaradım ki, ona dayaqlananda şər hücumları dəf edib aşırmaq mümkün olsun.

Bu kitabda Füzuli rayonunun bütün yaşayış məntəqələri (76 kənd, 1 şəhər tipli qəsəbə) və mədəniyyət abidələri haqqında məlumat verilmişdir. Müxtəlif zaman kəsiklərində ulu babalarımız yaşadıqları ərazilərdə dərələrə, dağlara, çaylara, qayalara, enişlərə, yoxuşlara, gədiklərə, təpələrə, yaylalara, bulaqlara, meşələrə, kəndlərə... müəyyən adlar vermişlər. Oxuculara təqdim edilən bu kitabda da Füzulinin coğrafi və relyef adlarından bəhs olunur.

Ümumiyyətlə, hər bir yaşayış məntəqəsində olan bütün coğrafi adları toplamaq və onların keşiyində durmaq lazımdır. Məncə, hər bir yaşayış məntəqəsinin, rayonun bir **"Qırmızı kitab"**ı olsa, daha yaxşı olardı. Yaşadığımız həyatda hər bir kəs peşəsindən, ixtisasından asılı olmayaraq doğma kəndinin, şəhərinin, ölkəsinin adlarının yaranma tarixini, mənşəyini, mənasını öyrənib bilməlidir.

Toponimləri toplayarkən ilk növbədə onların necə əmələ gəlməsini, dəqiq tələffüzünü, hansı köklər ilə bağlılığını öyrənib bilmək vacibdir. Toponimçinin vəzifəsi adi söz olmayan toponimlərin sirli mənalarını açmaq, həmin coğrafi adın yaranma tarixini öyrənmək, adın mənşəyi və tərkibindəki terminləri, komponentləri dəqiq və düzgün izahlandırmaqdır. Qədim tayfa və



xalqların yaşadıqları əraziləri məhz toponimlərin köməyi ilə müəyyənləşdirmək olar.

Coğrafi adların yaranmasında dilin inkişaf tarixinin də rolu böyükdür. Toponimlərin bir qismi dilin özü kimi çox qədim olduğu üçün coğrafi adların tədqiqində də bəzən dilin ən qədim xüsusiyyətlərinə rast gəlmək mümkündür. Təəssüflər olsun ki, qədim Azərbaycan əhalisinin etnik tərkibi və dili haqqında olan mənbələrimiz hələ də azlıq təşkil edir.

**Toponimlər** xalqın keçmişini, dilini və təfəkkürünü özündə əxz etdiyi üçün o, xalqın dilinin və tarixinin öyrənilməsində bir əsas mənbə rolunu oynayır. Mənə elə gəlir ki, hər bir **toponim** dünən ilə bu günümüzü, keçmişimizlə gələcəyimizi birləşdirən bir körpüdür. Bu körpünü qorumaq isə hər birimizin müqəddəs borcumuz olmalıdır.

**Hörmətli oxucu!** İnsana onun üçün əziz olan, qəlbən bağlandığı coğrafi adın dəyişməsi yəqin ki, mənəvi əzab verir. İşğal olunmuş Qarabağ ərazilərində də **yaşayış** məntəqələrinin əksəriyyətinin adı ermənilər tərəfindən saxtakarcasına ucdantutma dəyişdirilir. Bu təbii ki, adamı ağrıdan bir məsələdir. Fikrimcə, coğrafi adların toxunulmazlığı hansısa beynəlxalq səviyyədə təmin olunmalıdır...

Həmişə düşünürəm ki, BİZ nə qədər dözməliyik: 30-cu illərdə (XX əsr) Ermənistanda azərbaycanlılar yaşayan kəndlərin adları dəyişdirildi, 40-cı illərdə azərbaycanlıların böyük bir hissəsi oradan qovuldu, 50-ci illərdən başlayaraq Azərbaycan torpaqları hesabına *Böyük Ermənistan* yaratmaq ideyası ilə xəritələr cızıldı, kitablar yazıldı və bütün bunlar dərsliklərdə özünə yer tapdı, ali və orta məktəblərdə tədris olundu... BİZ isə susduq... Əvəzində erməni millətindən olanları nazirliklərdə, raykomlarda, idarə və təşkilatlarda irəli çəkdik. "Qardaş olub Hayastan - Azərbaycan" mahnısını qoşduq, Şaumyanlara rayonların adını verdik, onlara qranitdən heykəl düzəltdik, Avakyanların, Osipyanların, Əmiryanların, Stepanyanların adlarını əbədiləşdirmək üçün antrotoponimlər qarışdırdıq... İndi ayılmışıq ki, itirə-itirə gedirik. İtirdiklərimizi geri qaytarmaq üçün indi gərək biz BİZ olaq...

Mən qəlbən inanıram ki, yaxın zamanlarda torpağı bərəkətli, ərlər-ərənlər yurdu olan Füzulimi azad görəcəyəm. Bunun üçün də Məngələnatının, Quruçayın, Qaraköpəktəpənin, əlləri qoynunda, gözləri yollarda qalmış Ana Heykəlinin, Peykanlı dağın, Yelligədiyin, Qozludərənin, Kültəpənin, Cinqobunun, Günəştəpənin, "Söyüdlü", "Yarğan", "Əsgərxan" bulaqlarının harayına elliklə hay vermək, məkrli düşməndən Elxanların, Yavərlərin, Bağırların, Yaqubların, Qürbətlərin, Maislərin, Möhtərəmlərin, Əbillərin, Bəkirlərin, Ərzanalıların, Gülbarların, Əsədlərin... qisasını almaq lazımdır:

*Bağlı qapıları döy, ağacdələn,*
*Yurdumda qaçqınam, belə dərd olar?..*

Toponimlər **dünən** ilə **bu gün,** bu gün ilə **sabah** arasında **körpü** olduğu üçün onları lazımınca gələcək nəsillərə çatdırmaq müqəddəs borc hesab olunur. Toponimləri toplayarkən onların necə əmələ gəldiyini, dəqiq tələffüzünü, hansı köklə bağlılığını və s. öyrənmək gərəkdir. Bu mənada toponimçinin vəzifəsi toponimlərin tərkibindəki komponentləri düzgün şərh etmək, onların sirli mənalarını açmaqdır. Mən də Füzuli rayonunun toponimlərini işləyib hazırlayarkən bu meyarları, nüansları nəzərə almağa çalışmışam...

**Hörmətli oxucu!** Bu kitabdakı toponimlərlə tanış olanda bilirəm ki, gah şübhələnəcək, gah heyrətlənəcək, gah da qəhərlənəcəksən. Səni şübhələndirə bilər toponimlər haqqında faktların dəqiqliyi... Səni heyrətləndirə bilər Füzuli rayonunda olan maddi-mədəniyyət abidələrinin, yaşayış məntəqələrinin qədimliyi, tarixi... Səni qəhərləndirə bilər rayon mərkəzi də daxil olmaqla 51 kəndin ermənilərin tapdağı altında olması...

Rayonumuzun tarixi, etnoqrafiyası, coğrafiyası ilə bağlı olan toponimlər haqqında toplayıb yazdığım bu məlumat kitabını Füzuli rayonunun oykonimiyasına, oronimiyasına aid tədqiqat işi də adlandırmaq olar. Bunlar mənim uzun illər axtarışlarımın



məhsuludur. Eyni zamanda bu işləri gələcəkdə də davam etdirmək niyyətindəyəm. Rayonumuza aid olan, lakin söz kimi nəsildən-nəslə keçib yaşayan tarixi toponimləri düzgün və elmi faktlarla açıqlayıb, inşallah, gələcəkdə oxuculara böyük monoqrafiya şəklində çatdırmaq fikrindəyəm...

"Ağırdır dünyanın siyasət yükü" - deyənlər görünür, haqlıdırlar. Füzulinin qeyrətli övladları **dünən** də olub, **bu gün** də var, **sabah da** olacaqlar. Bu oğuz yurdunu azad etməyə hazır olan qəhrəman füzulilər də siyasət tərəzisinin o biri gözündəki "ağırlığı" **gözləyirlər.** Amma çox təəssüf ki, siyasətin əksər hallarda məkrli oyunları da olur. Kaş ulu Tanrı bütün qaçqın və məcburi köçkünlərimizi, o cümlədən də, füzuliləri tezliklə doğma yurd yerlərinə qovuşdursun!.. **Amin!..**

**Nazim Tapdıqoğlu (Vəlişov)**

# MÜQƏDDƏS QARABAĞIM

**Qarabağım!**
**Sən mənim doğan Günəşimsən! Ulularımızın ulu məskəni! Döyünən ürəyim, görən gözümsən. Müqəddəs yanğımsan, içimsən, özümsən. Səni məndən ayırmaq, qoparmaq, almaq istəyirlər...**

**Qarabağ** Azərbaycanın Kiçik Qafqaz dağlarının cənub-şərq ətəklərindən başlayaraq Kür və Araz çayları arasındakı ərazisini əhatə edən tarixi vilayətdir. "Qarabağ" sözü mənbələrdə VII əsrdən başlayaraq öz əksini tapmışdır. **"Qara"** qədim türkdilli xalqlarda "böyük" mənasında, **"bağ"** sözü isə fars dilində "bağçılıq" mənasında işlənir.

Tarixi gerçəkliyi nəyəsə və kiməsə görə təhrif etmək, bir millətin dirçəlişini, səadətini başqa xalqın, millətin tarixini məhdudlaşdırmaq üçün fərqləndirmək cəhdi vətəndaşlıqdan və alimlikdən kənar hərəkətdir...

**Qarabağ** qədim dövrlərdə və erkən orta əsrlərdə Qafqaz Albaniyasının tərkibində olub. Qarabağda həmişə alban tayfaları yaşamışlar. XX əsrə qədər Dağlıq Qarabağ anlayışı mövcud olmayıb. Artsax adlanan yer Albaniyanın əyaləti olmuş, Atabəylər, Qaraqoyunlu, Ağqoyunlu dövlətlərinin tərkibində **Qarabağ** adlanmışdır. Səfəvilər dövründə **Qarabağ** Azərbaycanın 3 bəylərbəyliyindən biri idi. XVIII əsrin 40-cı illərində o, Azərbaycanın son feodal dövlətlərindən biri olan **Qarabağ xanlığı** adlanmışdır. 14 may 1805-ci il Kürəkçay müqaviləsinə görə, Qarabağ xanlığı Rusiyanın tabeliyinə keçmiş, 1822-ci ildə isə rəsmi olaraq ləğv edilib **Qarabağ əyalətinə** çevrilmişdir. 1840-ci il islahatı ilə **Qarabağ əyaləti** ləğv olunaraq, əvəzində **Şuşa qəzası** yaradılmış, qəza əvvəl Kaspi vilayətinin, 1968-ci ildən isə Yelizavetpol (Gəncə) quberniyasının tərkibində olmuşdur, 1920-ci ildən isə Azərbaycan SSR-in tərkibinə qatılmışdır.

XIX əsrin 20-ci illərində Yermolovun tələbi və təkidi ilə keçirilən siyahıyaalmada Qarabağ regionunda yaşayan 18.563



ailədən yalnız 1559-u (**8%**-i ) erməni ailəsi olmuşdur. Bundan cəmi bir neçə il sonra 1832-ci ildəki kameral sayıma görə, İran və Türkiyədən köçürülən erməni ailələrinin hesabına Qarabağda ermənilərin sayı artdı...

Fevral ayının ikinci həftəsindən (1988-ci il) etibarən Dağlıq Qarabağ erməniləri müxtəlif əsassız arqumentlərlə Azərbaycana qarşı açıq surətdə ərazi iddialarına başladılar. Fevralın 20-də DQMV Xalq Deputatları Sovetinin yalnız erməni deputatlarının iştirakı ilə keçən növbədənkənar sessiyası vilayəti "Azərbaycanın tərkibindən çıxarıb, Ermənistanın inzibati ərazi bölgüsünə daxil etmək haqqında" qərar qəbul etdi. Əlbəttə, Azərbaycan SSR Ali Soveti DQMV XDS-nin bu qərarını Konstitusiyaya zidd qəbul etdi.

1988-ci ilin fevralından Xankəndini (Qarabağ xanlığı Rusiyaya birləşdikdən sonra Xankəndi Mehdiqulu xanın arvadı Pəricahan bəyimə bağışlanmışdır), eləcə də, DQMV-nin digər yaşayış məntəqələrini ermənilərin hay-küylü mitinqləri bürüməyə başladı. Moskvanın bu məsələlərdə ikiüzlü mövqeyi Ermənistanın məkrli planlarının həyata keçməsinə rəvac verdi. 21 iyun 1988-ci il tarixdə DQMV XDS-nin sessiyası yaranmış vəziyyətlə bağlı SSRİ Ali Sovetinə müraciət etdi. Vilayətə rəhbərlik Moskvanın səlahiyyətli nümayəndəsi, ermənipərəst Arkadi Volskiyə tapşırıldı. Onun rəhbərliyinin təkcə ikinci həftəsində (18-21 sentyabr 1988-ci il) Xankəndindən 12 mindən çox azərbaycanlı qovuldu, onların evləri yandırıldı. 1988-ci ilin sonunadək bütün azərbaycanlılar Ermənistandan da çıxarıldı. Çox keçmədi ki, müxtəlif dövlətlərdən dəstək alan bədnam qonşularımız Tuğ (30.10.1991), Cəmilli (16.12.1991), Meşəli (23.12.1991), Kərkicahan (28.12.1991), Malıbəyli (11.02.1992), Qaradağlı (17.02.1992), Xocalı (26.02.1992), Şuşa (8.05.1992), Kosalar (9.05.1992) faciələrini törətdilər; onlar DQMV-ni azərbaycansızlaşdırdılar. Bütün bunlardan həvəslənən erməni daşnakları Azərbaycanın Laçın, Kəlbəcər, Zəngilan, Qubadlı, Ağdam, Cəbrayıl, Füzuli rayonlarını da işğal etdilər. Qarabağ ərazisində bütövlükdə Azərbaycanın 870

kəndi zəbt olundu. Bir milyona yaxın azərbaycanlı öz torpağında qaçqına, köçkünə çevrildi. Bunlardan biri də **mənəm...** Budur bizim acı taleyimiz!.. Sovetlər birliyi zamanı biz beynəlmiləlçiliyə aludə olanda ermənilər öz körpələrinin də gözündə türk düşməni yaratdılar...

Tarixdə **Qarabağ mahalı, Qarabağ əyaləti, Qarabağ vilayəti, Qarabağ xanlığı** mövcud olmuşdur. Görkəmli səyyah A.Olearinin (XVII əsr) xəritəsinə görə 39 dərəcə şimal nöqtədə (bu şəhərin qalıqları indiki Füzuli rayonunun Horadiz dəmir yolu stansiyasından azacıq şərqdə olmalıdır) vaxtilə **Qarabağ şəhəri** mövcud olmuşdur. Mülahizələrə görə, **Qarabağ şəhəri** VII əsrdən XVII əsrə qədər-təxminən min il mövcud olmuşdur. İrandan Kiçik Qafqaza gedən böyük ticarət yolu da buradan keçirmiş. Bir çox alimlərimiz də indi bu fikirdədirlər...

Ş.Cəmşidov **Qarabağ** sözünü "şimal-qərb bağı" kimi izahlandırır. Onun fikrincə, Qarabağ düzünə ad Beyləqandan verildiyi üçün (Qarabağ düzü Beyləqan şəhərinin şimal-şərqində olmuşdur) o, belə adlandırılmışdır. Bir çox mütəxəssislər ərazidə qara üzüm yetişdirildiyindən, **qara** yarpaqlı bağlar olduğundan onun **Qarabağ** adlanması fikri üzərində dayanırlar. **Qara** sözünün "böyük, rəng, qərb, ağır, çoxluq, tünd, sıx, qalın" mənaları da var.

Taleyin diktəsi ilə Qarabağın "**qara**" keçən günləri, illəri bizim payımıza düşdü, tez-tez yuxularımızda gördüyümüz həmin "**bağ**"da isə ermənilər neçə illərdir yeyib-içir, şənlənirlər. "Babək, Koroğlu, Qaçaq Nəbi nəsliyik" düşünəndə utanıb xəcalət çəkirikmi? Bəlkə, ayılmağın, oyanmağın, birləşməyin, mübarizə aparmağın vaxtı çoxdan çatıb? Yoxsa...

Müxtəlif dövrlərə aid qədim Qarabağ ərazilərində, Quruçay sahillərində, Qaraköpəktəpə, Günəştəpə, Xantəpə, Uzuntəpə, Meynətəpə, Zərgərtəpə, Şomutəpə, Kültəpə, Qarabulaq kurqanlarında və başqa yerlərdə yaşamış qədim tayfaların tarixi öyrənilib sübut olunmuşdur. Qarabağ zonasında Eneolit dövrü b.e.ə. VI-V minilliklərdən başlanmışdır. Tarixi qaynaqlardan aydın olur ki, bu



dövrdə regionda qədim əkinçilik, maldarlıq təsərrüfatı və oturaq əkinçilik mədəniyyəti təşəkkül tapmışdır.

**Əziz oxucu,** nə gizlədim, son vaxtlar mən belə bir qənaətə gəlmişəm ki, **Qarabağ** artıq bizim deyil: nə qədər ki, Xankəndinə, Şuşaya, Xocalıya, Malıbəyliyə, Quşçulara, Kosalara, Cəmilliyə, Qaradağlıya, Xocavəndə, Qacara, Füzuliyə, Tuğa, Vesəlliyə və s. yerlərə əlimiz çatmır, addımımız dəymir, demək, **Qarabağ** hələ bizim deyil. Bakıda oturub "Qarabağ bizimdir" - demək asandır. Bizim Qarabağın ***bizimki*** olması üçün biz də gərək BİZ olaq... Qəlbimə doğma olan Qarabağdan danışıb Azıx mağarasından, Quruçay dərəsindən söhbət açmasam, günaha batmış olaram...

XX əsrin 60-cı illərinin ortalarında Azərbaycanın qədim daş dövrü tarixinin tədqiqi sahəsində mühüm elmi addım atıldı. Görkəmli arxeoloq-alim Məmmədəli Hüseynov 1968-ci ilin yayında Füzuli rayon mərkəzindən 15 km aralıda yerləşən Azıx mağarasında apardığı qazıntı işləri zamanı Preneandertal - **Azıxantrop** adamının (19-20 yaşlı qadının - N.T.) alt çənə sümüyünü aşkar etmişdir.

Məlumdur ki, ən qədim insan qalıqları planetin dörd guşəsində Cənub-Şərqi Asiyada (Yava adası, **Pitekantrop,** 1891, Yevgeni Dyuba), Almaniyada Heydelberq şəhəri yaxınlığında **Heydelberq adamı,** 1907, Şeatenzak), Çində, Pekin yaxınlığında **Sinantrop** - "Çin adamı", 1927, Devitsov Bleyk), Afrikada, Tanzaniyada **Allantrop - Prezincantrop,** Olduvay) aşkar edilib. Azıxantropun (yaşı təxminən 400 min ildir) tapıntısı ilə yeni bir kəşf də qədim insan məskənlərinə aid edildi. Bu, Azərbaycan arxeologiya elminin nailiyyəti olan böyük elmi bir kəşf idi. Bu abidə Azərbaycanda, Qarabağda qədim paleolit dövrünün mövcud olduğunu sübut etdi...

Mağara Tuğ kəndi ərazisində yerləşir. Uzunluğu 250 m, hündürlüyü 20-25 m, ümumi sahəsi 1200 kvadrat metrdir. Mağaradan tapılan materialların tədqiqi göstərdi ki, ***Azıx mağara paleolit düşərgəsi*** öz qədimliyinə, çox təbəqəliliyinə, stratiqrafit ardıcıllığına, arxeologi zənginliyinə görə dünyada yeganə abidədir.

Mağara düşərgəsi M.Hüseynovla, yanaşı, Ə.Cəfərovun, D.Hacıyevin, V.Hacıyevin, M.Süleymanovun, N.Şirinovun, V.Veliçkonun və başqa tədqiqatçıların da diqqətini cəlb etmişdir. Qədim daş dövrünə aid tapıntıların tədqiqi bunu deməyə əsas verir ki, Mustye mədəniyyəti Azərbaycanda, Qarabağda ən azı 150 min illik bir dövrü əhatə edir (orta paleolit - N.T.).

Azıxantropun məskəni Azıx mağarası Quruçayın sol sahilində yerləşdiyinə görə mağaradan aşkar edilən Qədim daş dövrü nümunələrinin təhlilini tədqiqatçılar **"Quruçay mədəniyyəti"** adlandırırlar. Azıx mağarasında **Quruçay mədəniyyəti dövrü** özünün uzunmüddətli inkişafından sonra qədim Aşel mədəniyyəti ilə əvəz olunmuşdur. ***Azıx mağarası*** Fransada Qədim İnsan İnstitutunun keçmiş SSRİ ərazisində xəritəyə aldığı başlıca daş çağı məskənidir.

20-ci illərin ortalarında görkəmli arxeoloq, etnoqraf Ə.Ələkbərov Quruçay və Köndələnçay vadisində yerli əhalinin həyat tərzini öyrənmək məqsədi ilə tədqiqat işləri aparan zaman çoxlu sayda küp qəbirlərinə rast gəlmişdir. Ə.Ələkbərov bununla da tarixi ədəbiyyatda ilk dəfə olaraq küp qəbirlərin yayılmasının tarixi coğrafiyası haqqında əvvəllər mövcud olan ehtimalları xeyli dəqiqləşdirmişdir.

Ş.Mkrtıçyan "Dağlıq Qarabağın tarixi və memarlıq abidələri" əsərində (Yerevan, 1986-cı il) yazır ki, guya Azıx mağarasında Aşel dövrünə aid erməni qadınının heykəli var. Hətta guya onun paltarı da müasir erməni qadınının paltarına bənzəyir. S.Xanzadyan həmin kitaba yazdığı rəydə göstərir: Azıx mağarasında Azərbaycan alimlərinin apardıqları tədqiqatlardan aydın olmuşdur ki, bu həqiqətən Aşel dövründə yaşamış erməni qadınının heykəlidir. Əlbəttə, bu, heç bir elmi əsası olmayan cəfəngiyyatdan, tarixi bilərəkdən, saxtalaşdırmaqdan başqa bir şey deyildir.

Erməni millətçi siyasətbazları şantaj dolu əsərlərində Qarabağı həyasızcasına özününküləşdirirlər. Amma bu elmi şantajlara qarşı bizim də söykənəcək olan kifayət qədər elmi mənbələrimiz, dəlillərimiz vardır. Lakin nədənsə gözləmə mövqeyi tutmuşuq və bunun acı nəticəsidir ki, Qarabağı hissə-hissə "pay veririk", M.MNəvvabın, X.B.Natəvanın, Q.B.Zakirin, N.Vəzirovun, Ə.B.Haqverdiyevin, F.B.Köçərlinin, Y.V.Çəmənzəminlinin, S.S.Axundovun, M.C.Qarabağinin, M.M.Xəzaninin, Mirzə Adıgözəl bəyin, Əhməd bəy Cavanşirin, Məşədi İsinin, Bülbülcanın (Ə.Zülalov), Qaçaq Süleymanın, Üzeyir bəyin, Niyazinin, Xanın, Bülbülün, Cabbarın, Sadıqcanın, Hacı Hüsünün, Keçəçi oğlu Məhəmmədin və daha kimlərin ruhları bizi nəyəsə, harasa səsləmirmi?.. Aslan və Hatəm Məlik məscidləri, Ağoğlan və Qanzasar məbədləri, Babı, Mirəli, Bərdə, Axsadanbaba türbələri, Qarabağ xanlarının sarayları, dünyada analoqu olmayan Ağdam Çörək muzeyi, Qaraköpəktəpə, Məngələnata, Qarabağ kurqanları, Tərtərçay, Qarqarçay, Köndələnçay, İncəçay, Qozluçay, Quruçay... bizi çağırmırmı?..

Suverenliyi o xalq qazanır ki, suverenliyə layiq olsun. Tarixi təcrübədən məlumdur ki, ***milli lovğalıq*** milli heysiyyətsizliyə gətirib çıxarır. Bəzən deyirik ki, müasir təfəkkür səviyyəmizin dünya xalqları səviyyəsindən geri qalmaması üçün onu qaldırmalı, inkişaf etdirməliyik. Özümüz də qardaş-bacılarımızı ali məktəblərə pulun gücü ilə daxil edirik, diplomu onlara rüşvətlə alırıq; tarixi keçmişimizi müxtəlif millətlərin müəlliflərinin yazılı mənbələrindən öyrənirik...

**Qarabağ** toponiminə yazılı mənbələrdə yuxarıda qeyd etdiyim kimi ilk dəfə VII əsrdə (Samuel Anili) rast gəlinir. **XIII** əsrdə F.Rəşidəddin (1284-cü ildə) "Cami ət Təvarix" əsərində **Qarabağ** sözünü **Aran Qarabağı** şəklində işlədir. Əslində **Qarabağ** adının neçənci əsrdən foromalaşması hələ tam yəqinləşməyib...

M.C.Cavanşir Aran məmləkətinin bir hissəsi olan **Qarabağ** vilayətinin ərazisini (sərhəddini) Xudafərin körpüsündən Sınıq körpüyə, şimaldan Gəncə ilə sərhədi Kür çayına qədər olan Goran çayı, şərqdən Kür və Araz çaylarının qovuşağına, qərb tərəfdən isə Salvartı, Kazbek, Ərikli dağlarına qədər göstərmişdir. **Qarabağ xanlığı** zamanı orada **250-**dən çox kənd olmuşdur.

**Qarabağ** adı həm düzən, həm də dağlıq hissəyə aiddir. Konstantin Baqryanarodnıya görə, peçeneq tayfalarından birinin adı **Karabaq/karaboq** olmuşdur. İ.Şopen **Qarabağ** adını **Xaraba** sözü ilə bağlayır. Ş.Sədiyev göstərir ki, **Qarabağ** adı **qara** və **bağ** sözlərindən ibarətdir. Ə.Fərzəli qeyd edir ki, **qara** - "böyük, nəhəng, qaranlıq, xalq, qəm, sevinc, yaraşıq..." mənaşındadır; **bağ, baq, boq** - "Tanrı" anlamındadır. M.Seyidovun fikrincə, **qara** - "rəng, pis, bədbəxt, şimal, böyük, başçı, güclü...", **bağ** - "meyvə ağacı əkilmiş sahə, ip, düyün..." deməkdir. S.Aşurbəyliyə görə, toponim **bağı** qəbiləsinin adından yaranmışdır... Mənbələrdə **bak, baq, bağ** tayfa adına da rast gəlinir. Belə fikir də işlətmək olar ki, **Qarabağ** sözü (**"böyük bağ"**) tayfa adından törənmiş etnotoponimdir...

Praazərbaycan toponimlərindən olan **bağ** toponimi slavyan dillərində **boq, boğ, boh, biq** formalarında işlənir. Bu sözün ilkin mənasını bəzi tədqiqatçılar "var-dövlət" anlamındakı **"boqat" (boqatstvo)** sözü ilə əlaqələndirirlər. **Baq** sözünün qədim hind dilində "paylayan" anlamı da məlumdur. Uzun illərdir ki, **baq\boq** sözünün İran dilli və ya slavyan mənşəli olması ilə bağlı mübahisələr getməkdədir. **Orxon-Yenisey** abidələrində **bağa** sözü teonim determinativi ("bağa") kimi işlədilmişdir. Mənbələrə istinad etsək, görərik ki, Midiyada Tanrıya **Bağa** deyilirmiş. Bir çox xalqların qədim mifologiyasında **bağa** (tısbağa) müqəddəs yerin, torpağın rəmzidir. **Bağa** Azərbaycanda indi də müqəddəs heyvan hesab olunur.

**Baq** teonimi daha çox türk xalqları və onlarla kontaktda olan tayfaların dillərində işlədilir. **Baq** teoniminin sonrakı semantik dəyişmələri onun **maq, mağ, bağ, bah, bağa, beq, bay** və s. fonetik fariantını ortaya çıxarmışdır. Yeri gəlmişkən, S.Aşurbəyli **Bakı** toponimini haqlı olaraq qədim **baq, bak** qəbilələrinin adı ilə bağlamışdır...

Türkiyədə, Türkmənistanda, Özbəkistanda və s. ərazilərdə də **Qarabağ** sözü ilə bağlı çoxlu toponimlər qeydə alınmışdır.



**Qarabağ...** Qədim vaxtlardan bu ərazi Qafqaz Albaniyasının tərkib hissəsi idi. IV əsrin 30-40-cı illərində baş verən hadisələrdən danışan erməni tarixçisi Favstos Buzantsi Habaid torpağının adını (Yuxarı Qarabığın böyük bir hissəsini) Albaniyada yerləşən bir ərazi kimi çəkir (*F.Buzandtsi:* "Ermənistan tarixi", Yerevan, 1953-cü il). Alban hökmdarı Cavanşir haqqında məlumat verən *M.Kalankatlı və K.Trever* Cavanşirin "İberiyadan Hunna" (Dərbəndə) və Araza qədər "Əla və müstəqil hökmdarlığını" göstərirlər (*M.Kalankatlı:* "Albaniya tarixi, Bakı, "Elm", 1993-cü il, "*K.V.Trever:* "Qafqaz Albaniyasının tarixi və mədəniyyəti oçerkləri", Moskva-Leninqrad, 1959-cu il)...

Müasir erməni tarixçiləri Qarabağı və Naxçıvanı qoparmaqla olmayan *"Böyük Ermənistan"* yaratmaq xəyalına düşüblər. Erməni millətçiləri özləri də bunu gizlətmirlər. Hətta bəzi erməni millətçiləri belə deyirlər ki, Kür-Araz çaylararası torpaqları Ermənistanın şimal-şərq hissəsinin özünün ərazisidir və "erməni Albaniyasının bu hissəsinin əhalisi də ta qədimlərdən ermənilərdən ibarət olmuşdur." Onlar dünyanın müxtəlif mətbuat orqanlarında böhtanlı və saxta yazılar çap etdirərək, ədalətsiz ərazi iddialarını əsaslandırmaqdan ötrü dəridən-qabıqdan çıxırlar.

Tarixə müraciət etsək, görərik ki, **"Qarabağ məsələsi"** Sovet dönəmində həmişə Ermənistan SSR tərəfindən qaldırılmışdır. Bu qayda ilə Ermənistan başqa bir suveren respublikanın daxili işlərinə qarışmaqdan çəkinməmişdir. Erməni müəlliflərinin haqsız olduğunu elmi dəlillərlə aydınlaşdırmaq üçün Azərbaycan tarixçiləri dəfələrlə elmi diskussiyalar aparılmasını təklif etsələr də, erməni tarixçiləri buna razılıq verməmişlər. Ümumiyyətlə, onlar bu məsələlərdə hər hansı Dəyirmi Masaya yaxın düşmək belə istəmirlər.

Erməni tərtibçiləri "Tarixi arayış"da (Yerevan, 1988-ci il) həyasızcasına göstərirlər ki, Utilərin (Udinlərin - N.T.) də yaşadıqları Artsax "Yerevandidt Ermənistanın tərkibində" olmuşdur. Bu günə qədər də bu faktın hələ heç bir elmi əsası yoxdur və təbii ki, ola da bilməz.

Tarixdən məlumdur ki, alban tayfaları Kürün həm sol, həm də sağ sahilində yaşamışlar. Cənub-Şərqi Zaqafqaziyadakı albanlar (alban tayfa ittifaqları - N.T.) yerli idilər. Ermənilər isə Cənubi Qafqaz vilayətlərinə ən yaxşı halda miladın V əsrində gələ bilərdilər. Başqa sözlə desək, **ermənilər** Cənubi Qafqaza **gəlmədirlər.**

Erməni millətçiləri çoxlu təkid və səylər nəticəsində rus din qardaşları ilə birgə Sovetlər İttifaqının "mənəm-mənəmçi" zamanında Moskvada tərtib etdikləri xəritələrdə qonşu ölkələrə olan ərazi iddialarını gizli siyasi xətlərlə həyata keçirirdilər (Narodı i peredvijeniya Yevrope V, IV-VII vv. M.-1960), "Rus knyazlığı XII əsrdə və XIII əsrin əvvəllərində"(Batının hücumuna qədər) - M., 1968, "Rus knyazlığı və Qızıl Orda XII əsrdə" - M., 1960, "XVI əsr Rus dövləti" - M., 1981, "Rus dövləti XVII əsrdə" - M., 1980-ci il və s.

Qarabağın həm dağlıq, həm aran hissəsi birlikdə tarixən Azərbaycan feodal dövlətlərinin - **Albaniya, Girdiman, Şəddadi, Atabəylər, Hülakülər, Qaraqoyunlu** dövlətlərinin, sonralar **Qarabağ xanlığının** ərazisi olub...

Bir sıra keçmiş sovet və erməni tarixçiləri (Trever, Novoselsev, Yeremyan, Akopyan, Ulubabyan, Ter-Gevondyan, Sumbatyan və b.) Kürdən cənubdakı Azərbaycan ərazisinin eradan əvvəl II əsrdən 387-ci ilə qədər Böyük Ermənistanın tərkib hissəsi olduğunu qeyd etsələr də, görkəmli alimlərimiz Z.Bünyadov, İ.Əliyev, F.Məmmədova və başqaları bu çürük konsepsiyaları haqlı olaraq tənqid etmişlər.

"Alban tarixi"ni erməni dilindən rus dilinə tərcümə etmiş Ş.İ.Sumbatyan bir neçə yerdə "şərq" sözündən sonra mötərizədə "əyalət", "ölkə" sözlərini əlavə etmişdir. Bu da "Şərq əyaləti" ifadəsinin alınmasına, Qarabağın "Ermənistanın şərq əyaləti" kimi mənalandırılmasına gətirib çıxarır.

Albanşünas alimlərimiz öz əsərlərində "şərq" ifadəsinin "Ermənistanın şərqi" kimi başa düşülməsinin səhvliyini tutarlı



faktlarla əsaslandırırlar. Alban tarixçisi Musa Kalankatlı xristian olduğu üçün əsərlərində əsasən, albanların xristian hissəsinin tarixini verir. "Şərq" və "bizim Şərq" isə "alban xristianlarının şərqi" mənasında başa düşülməlidir. Əsərdəki **Qərb** sözü də "Ermənistanın qərbi" kimi yox, "xristian dünyasının qərbindəki Bizans" kimi başa düşülməlidir.

"Alban tarixi" əsərində heç yerdə "erməni" adı çəkilmədiyi halda, erməni tarixçiləri coğrafi adları təhrif edərək, Aralıq, Qara və Xəzər dənizləri arasında yerləşən ərazini **Ermənistan,** orada yaşayan əhalini isə **"ermənilər"** adlandırırlar. Əgər doğrudan da, Albaniya Ermənistanın tərkib hissəsi olsaydı, bütün qədim erməni mənbələrində də bu ölkənin adı **"Ağvan"** yox, **"Hayastan"** olardı...

**Ermənistan** erməni etnosunun vətəni deyildir. Həmin etnos Ermənistana gəlmədir. Herodotun vaxtında **ermənilər** Erməni yaylası deyilən ərazinin yalnız Qərb hissəsində məskunlaşmışlar. Ksenefont da Herodotun bu məlumatlarını təsdiq edir.

Tarixdən məlumdur ki, Albaniya dövləti təxminən b.e.ə. III əsrdə meydana gəlib. Bizim eranın birinci əsrindən Albaniyanı mənşəcə parfiyalı Arşagidlər sülaləsi idarə edib. Bu dövr haqqında məlumat verilən mənbələrdə göstərilir ki, Araz çayı Albaniyanın cənub sərhəddidir. Başqa sözlə, Kür və Araz çayarası ərazisi **Albaniya** dövlətinin tərkibində idi.

Moisey Xorenski təsdiq edir ki, utilər (indiki udinlərin əcdadları), hardmanlar, savdeylər, qarqarlar və s. Aranın nəsillərindən mənşə götürmüşlər. Bunlar alban tayfalarıdır və tarixən Qarabağ zonasında yaşamışlar. Deməli, Qarabağ ərazisində yaşayan tayfaların alban mənşəli olması faktını təsdiq edən kifayət qədər mənbələr vardır...

Bizim eradan əvvəl 56-cı ildə romalılar II Tiqranı darmadağın etdikdən sonra "Ermənistan dövləti" heç cür təcavüzkarlıq siyasəti apara bilməzdi, çünki o, növbə ilə Romadan və Parfiyadan asılı olmuşdur.

Albaniya isə I-V əsrlərdə bəzən Roma və Parfiya oriyentasiyasına tabe olmuşsa da, o, Ermənistandan fərqli olaraq öz müstəqilliyini itirməmişdir. I əsr numizmatika materialları Ermənistanın siyasi taleyi haqqında mühüm məlumatlar verir. O dövr pullarında Ermənistan Roma imperatorunun ayaqları altında oturmuş qadın obrazında, aman istəyən erməni döyüşçüsü və s. şəkildə təsvir edilmişdir. Elə həmin əsrdə Ermənistan imperator Avqustin tərəfindən Atropatenanın hakimlərinə verilib. Dion Kassinin və Tatsitin məlumatlarına görə, 30-50-ci illərdə Ermənistanda İberiya şahzadələri hökmranlıq edirdilər.

Suren Ayvazyan "Erməni taleyi" romanında sübut etməyə çalışır ki, guya nə qədim zamanlarda, nə də onun təsvir etdiyi XVII-XVIII əsrlərdə Azərbaycan adlı xalq olmayıb. O, göstərir ki, Naxçıvanın, Qarabağın həqiqi sahibləri qədim ermənilərdir. Azərbaycanlılar isə bura gəlmədirlər...

Vardhes Petrosyanın "Erməni eskizləri" kitabında başkəsən, zalım, Çiçerinin "Antantanın casusu" adlandırdığı qəddar Andronik ***milli qəhrəman*** səviyyəsinə qaldırılır. Zori Balayan "Ocaq" kitabında həyasızcasına özgə əraziləri haqqında əsassız, fitnəkar ruhlu iddialarını irəli sürür. B.A.Ulubabyan lap ağ edərək b.e.ə. II əsrdə Kür-Araz ərazisində yaşayan əhalinin erməni dilində danışması fikrini də irəli atır.

Erməni tarixçilərinin bəzi əsərlərində tarixi hadisələr, faktlar "Böyük Ermənistan" ideyası naminə təhrif olunur. Guya "Böyük Ermənistan" yüz illər boyu Xəzər dənizindən Qara dənizədək sahəni əhatə edirmiş. Ermənilərə görə, "Ermənistan dövləti" b.e.ə. II-I əsrlərdə yaradılıb. Bizə görə isə, bu dövlət nə Ermənistandır, nə erməni torpağıdır, nə də ermənilərin məskun olduqları torpaqlardır. O, erməni çarlarının qonşulardan silah gücünə, zorakılıqla, işğal nəticəsində aldıqları torpaqlardır...

Kürdən aşağı Azərbaycan torpağını "İçəri Ermənistan" adlandıran A.Ş.Mnatsakanyan yazır ki, bura da "Ermənistan dövləti"nə daxil idi. Mnatsakanyana görə, ("Qafqaz Albaniyasının



ədəbiyyatı haqqında" Yerevan, 1969-cu il) *Qarabağın* Ermənistan torpağı olduğunu sübut edən "bütöv buket" toponimlər var. Əlbəttə, müəllif həmin adların mənalarını açmır. Adların əksəriyyəti Artsaxdandır. Yeri gəlmişkən, **Artsax (Arsak, Arsaq)** haqqında fikirlərimi hörmətli oxucularla bölüşmək istəyirəm:

Albaniyanın **Artsax vilayəti** Kür çayının sahilində 12 kiçik inzibati ərazi vahidindən ibarət olub. İlk vaxtlarda əhalini əsasən qarqarlar, hunlar, bassillər, xəzərlər və utilər təşkil edirdi. Bu əyalətin əhalisinin dili xalqımızın indi danışdığı dilin fövqündə duran müxtəlif soy ləhcələri idi.

E.ə. I əsrdə yaşamış yunan tarixçi və sərkərdəsi Arrian **Arsaq** adlı tarixi şəxsiyyət haqqında maraqlı məlumat verir. O, göstərir ki, **Arsaq** Mərkəzi Asiyada yaşayıb. Onun mənsub olduğu sülalə makedoniyalılara qarşı çıxaraq yadelli işğalçıları ölkədən qovmuşdur. Ölkə azad olandan sonra bu görkəmli sərkərdə öz hakimiyyətini qurur...

Yunan coğrafiyaçı Strabon da qüdrətli hökmdar olan **Arsaq** haqqında təxmini də olsa, bir sıra qiymətli məlumatlar vermişdir. Strabona görə, mənşə etibarı ilə skif olan, dailərin bir hissəsinə yiyələnən və özünü *parna* adlandıran **Arsaq** Parfiyaya daxil olaraq, onu özünə tabe edir. Sonrakı mübarizələrdə o, yeni uğurlar qazanaraq Dəclə çayı sahili boyu bütün torpaqlara sahib olur. Antik dövr tarixçisi Plini (I əsr) də Strabon kimi **Arsaq** sülaləsinin kökünü dailərlə bağlamışdır.

VIII əsrdə yaşamış Bizans müəllifi Georgi Singel **Arsaqın** Tridat adlı qardaşı olduğunu bildirir. O, göstərir ki, bu qardaşlar Baktriyanın satrapları olmuş və Makedoniyanın İrandakı canişini Aqafokla qarşı çıxmışlar.

Türk xalqlarının fəxri sayılan Arsaqın tarixi şəxsiyyət, sərkərdə və dövlət başçısı olması haqqında dövrümüzə əlbəttə, çox az məlumat gəlib çatmışdır. Arsaq haqqında Roma tarixçisi Pompey Troq da 44 kitabdan ibarət olan "Filippin tarixi" əsərlərində məlumat verərək onun Makedoniyalı Iskəndər dövründə yaşadığını

və böyük şöhrətə malik olduğunu göstərir. Onun mülahizələrinə görə; **Arsaq** Selevkilərin və baktriyalıların hökmdarı olan Feodot tərəfindən təhlükəni, gözlənilən yürüşü dəf etmək üçün qoşun toplayır. Feodot öləndən sonra, **Arsaq** onun oğlu ilə müqavilə bağlayır və çox keçmir ki, Selevkə qalib gəlir...

Roma tarixçisinin də verdiyi məlumatdan aydın olur ki, **Arsaq** qüdrətli bir imperiyanın hökmdarı olub. Amma onun hökmdarlıq illəri barədə məlumatlar azdır. Ümumilikdə bu da məlum olur ki, *Arsaq* türkdilli **Saq (sak)** tayfasına məxsus olmuşdur. Bu ada mənbələrdə **Arsaq, Ərsaq, Arşaq** və s. formalarda rast gəlirik. **Arsaq** sözü "sak igidi", "saq kişisi" kimi mənalandırılır...

Tədqiqatçılar **Arsak** toponimlərini **Ər** və **Sak** sözlərinə ayırırlar. Saklar bu ərazidə ilk dəfə Azərbaycan ərazisində məskunlaşdığı dövrdən-bizim eradan əvvəl VII yüzillikdə məskən salmışlar. Artsax xaçpərəstlikdən sonra Albaniyanın siyasi və ideoloji həyatında mühüm rol oynamışdır. Burada bir neçə yepiskopluq olmuşdur.

Hunların, xəzərlərin arasında xaçpərəstliyi yaymaq üçün alban çarları nümayəndələri məhz Artsaxdan göndərilirdi. Hunların, xəzərlərin nümayəndələri getdikləri yerin əhalisi ilə qanbir, dilbir qardaş idilər. Bu isə xaçpərəstliyi yaymaq üçün kiçik amil deyildir. Yerevanın "Sovetakan Qrok" nəşriyyatı 1984-cü ildə Zori Balayanın "Ocaq" kitabını rus dilində çapdan buraxmaqla bu məqsədi həyata keçirmişdir. Müəllif Qarabağın bütünlükdə Odlar yurdunun əzəli sakinlərinin - azərbaycanlıların milli heysiyyatını alçaldan sözlərdən çəkinməyərək, onları öz oxucusuna *köçəri, barbar* və *gəlmə* elementi kimi tanıtdırır.

"Ermənistan dövləti" anlayışı iki mənada - siyasi və coğrafi mənada işlədilir. Bu anlayış ("Böyük Ermənistan") XVIII əsrdə Şərq məsələsinin tərkib hissəsi kimi meydana gəlmişdir. Bu anlayışın tərəfdarları Xəzərlə Qara dəniz arasındakı torpaqları "Böyük Erməni dövləti" adı altında birləşdirərək, "Böyük Erməni imperiyası" yaratmaq iddiasındadırlar. Qafqazşünas və Albanşünas



olan S.T.Yeremyanın əsərlərində, xüsusilə, "SSRİ tarixinin oçerkləri" (Moskva, 1958-ci il) əsərində "Böyük Ermənistan" anlayışına faktların, tarixi gerçəkliyin saxtalaşdırılması zəmini əsasında "haqq" qazandırmaq məqsədi güdülür.

Məlum olduğu kimi, "Ermənistan dövləti" siyasi anlayış kimi **e.ə. 66**-cı ildə II Tiqranın ordusunun Roma sərkərdəsi Pompey tərəfindən darmadağın edilməsindən sonra süqut etmişdir.

Tarixi araşdırmalar göstərir ki, Ermənistanın bölüşdürülməsi prosesini Qafqaz Albaniyasına, onun ərazi sərhəddinə heç bir təsiri olmamışdır. Onun ərazi bütövlüyü e.ə.IV əsrdən eramızın VIII əsrinə qədər sabit olmuş, heç bir əsaslı sərhəd dəyişikliyi olmamışdır.

Azərbaycan əhalisinin Qarabağda yaşayan ermənilərin alban xətti ilə qohum olduqlarını qeyd edən qafqazşünas A.P.Novoselsev yazır ki, "Qarabağ və Azərbaycanın başqa vilayətlərinin erməniləri onun (alban əhalisinin) nəsilləridir. Deməli, qədim Albaniya əhalisi həm də müasir azərbaycanlı və ermənilərin bir hissəsinin ümumi əcdadıdır"

Son odontoloji tədqiqatlar bir daha sübut edir ki, Yuxarı Qarabağın ərazisində ermənilər gəlmə elementdir. Erməni tarixşünaslığında artıq çoxdan belə nisbi ideya var ki, DQMV ərazisi Ermənistanın "ayrılmaz" hissəsidir. Bu ideyanın nəzəri əsası keçən əsrdə M.Çamçyan, K.Şahnazaryan, İ.Emin, K.Patkanov və başqaları tərəfindən qoyulmuş, sonralar Y.A.Manandyan, M.A.Kevorqyan, L.S.Xaçikyan, S.Kaputikyan, S.T.Yeremyan tərəfindən konseptual cəhətdən işlənib sabitləşmişdir. Hələ indi də erməni şərqşünas tarixçiləri həmin mövqelərdən çıxış edirlər. Təhrif olunan faktlar və inandırıcı olmayan erməni mühakimələri əsasən iki tezisin sübutuna xidmət edir:

1. Kürün sağ sahili az qala 600 il (b.e.ə. II əsrdən- b.e. IV əsrinədək) Ermənistanın tərkibində olub. Həmin dövrdə oranın əhalisi nə etnik, nə də dil cəhətdən ermənilərdən fərqlənmirdi;

2. Kürün sağ sahili ərazisində lap qədimlərdən erməni əhalisi

yaşamışdır. Bu əhali indiyədək erməni xalqı ilə etnik-mədəni birliyini saxlamışdır;

Kür və Araz çayları ətrafındakı etnik birliklərin yerləşdirilməsi Mnatsakanyanın, Akopyanın, Sumbatyanın və başqalarının şərhləri ilə uyğun gəlmir. Burada etnik kütlə utilər adı ilə hələ Herodota məlum olardı. Utilər Uti və Artsax əyaləti əhalisinin müəyyən hissəsini təşkil etmişlər. Şübhə yeri qalmır ki, DQMV-nin erməni dilli əhalisi erməniləşdirilmiş yerli əhalinin müxtəlif Alban tayfalarının - utilərin, tsodların nəsilləridir...

387-ci il müqaviləsinə görə imperator Roması ilə Sasani İranı *Arşagid Ermənistanını* bölüşdürmüşlər. Ermənistanın təxminən dörddə üç hissəsi İrana, dörddə bir hissəsi Romanın payına düşmüşdür. IV-VI əsrlərdə Qarabağda xristianlıq yayılmağa başladı. VII əsrdə də Qarabağın ulu əcdadlarımıza məxsus olması barədə kifayət qədər faktlarımız var. Ərəb işğalından sonra Qarabağın düzənlik hissəsində və şəhərlərində yaşayan əhali islam dinini qəbul etdi. Qarabağın dağlıq hissəsi olan Artsaxda yaşayan əhalinin çoxu **xristianlığı** qoruyub saxladı...

VII-VIII əsrlərdə Artsax Albaniyası Mehrani sülaləsi çarlarına tabe idi. Mehranilərin axırıncı çarı Varaz Tridat 821-ci ildə Artsaxda öldürülüb. Bundan sonra Artsaxda Syuninin hakimi, Zarmixrə mənsub alban çar sülaləsindən olan Səhl oğlu Sumbat hakimiyyətə keçir. Lakin o, Artsaxa bütünlüklə sahib deyildi. Ərazinin müəyyən hissəsi Alban knyazı Stepan Ablasadın, ondan sonra İsayi Əbu Musanın hakimiyyəti altında olmuşdur. 866-cı ildə Mehranilər sülaləsindən Hammam da Albaniyanın xristian əhalisi yaşayan hissələrinin knyazı olmuşdur.

VIII yüzillikdə Artsax ərəblər tərəfindən azad edildikdən sonra da Artsax camaatının bir hissəsi öz xaçpərəst dinlərini qorudular. Mənbələrin məlumatına görə, IX yüzilliyin məşhur **Babək hərəkatı** Qarabağı da bürümüşdü. Alban kilsəsinin zəifləməsi, erməni kilsəsinin xilafətlə ittifaqı nəticəsində Artsax əhalisinin qriqoriyanlaşdırılması xaçpərəstliyin ermənilərə məxsus



məzhəbinə keçməsinə, onların dilinin itirilməsinə səbəb oldu. Artsax əhalisinin bir hissəsinin erməniləşdirilməsi X-XIII yüzilliklərdə başa çatdırıldı. Ərəb xəlifələrindən sonra (VII-IX əsrlər) bütün orta əsrlər boyu əvvəllərdə olduğu kimi **Qarabağ** Azərbaycan hökmdarlıqlarının ərazisi olmuşdur...

X əsrdən **Qarabağ** Şəddadilərin, XI əsrin ortalarından Səlcuqların hakimiyyətinə keçdi. XII əsrin II yarısından isə Qarabağ Eldəgəzlər dövlətinin tərkibində idi. XII-XIII əsrlərdə Dağlıq Qarabağın ərazisi Xaçın feodal xanlığının tərkibində olmuşdur. Bu xanlığın (knyazlığın) hökmdarı Həsən Cəlal bəzi mənbələrdə göstərildiyi kimi, erməni yox, "Alban hökmdarı" adını daşıyırdı. Bu knyazlıq özündə 5 məlikliyi (Xəmsə) birləşdirirdi. XII əsrdə Artsaxda Xaçın knyazlığı yüksəldi. Bu knyazlığın görkəmli nümayəndəsi Həsən Cəlal (**1215-1261**) Mehrani çar sülaləsinin nəslindən idi.

Beləliklə, X-XIII əsrlərdə "**erməniləşdirilmiş"** Artsax əhalisi Alban knyazlığına, Qafqaz dilləri qrupuna daxil olan əhali deyil, indi bizim danışdığımız Azərbaycan dilinin kökünə uyğun ləhcə ilə danışan əhali olmuşdur. Tarixi məlumatlar göstərir ki, Artsaxın ərəb işğallarından sonra Ermənistanla ərazi birliyi olmayıb, amma xristian albanların erməniləşməsi prosesi gedirdi.

1136-1225-ci illər Azərbaycan Atabəylər dövlətinin (Eldəgizlər sülaləsinin) hakimiyyəti illəridir. Bu dövrdə də Qarabağın ərazisi Erməni dövlətinin tərkib hissəsi ola bilməzdi, çünki, Ermənistan (Qərbi Azərbaycan) torpağının özü Eldəgizlərin ixtiyarında idi. XIII əsrdə Azərbaycan ərazisi indiki Qarabağ da daxil olmaqla Xarəzmşah Məhəmmədin oğlu Sultan Cəlaləddin tərəfindən tutulmuşdur. O dövrün tarixçisi Şəhabəddin Məhəmməd ən-Nəsəvi məhz indiki *Dağlıq Qarabağ* ərazisini "**Aran"** kimi göstərmişdir.

XIII əsrin 30-cu illərində Qarabağı monqollar işğal etdilər. 1239-cu ildə monqollar tərəfindən Azərbaycanın işğalı demək olar ki, başa çatır. 1258-ci ildə Azərbaycan Hülakülər dövlətinin tərkibinə qatılır. Bu dövrdə **Qarabağ** adı artıq sırf coğrafi ərazi

kimi çəkilir. Yuxarıda qeyd etdiyim kimi, F.Rəşidəddinin "Came ət-təvarix" əsərində **"Arran Qarabağ"** adı 1284-cü il hadisələrinin şərhi ilə əlaqədar xatırlanır. XIII-XIV əsrlərdə **Qarabağ** Hülakülər dövlətinin siyasi tarixində mühüm rol oynamışdır. Monqollardan sonra **Qarabağ** paytaxtı Təbriz olan Azərbaycan dövlətinin ərazisi olmuşdur.

XIV əsrin sonlarından Qarabağda Teymurun varisləri ağalıq edirdilər. Teymur xristian albanların böyük bir hissəsini Qarabağdan Qəndəhara köçürür... XIV əsrin sonlarında Qarabağ Teymurilərin hakimiyyətinə keçdi. Onun ölümündən (1405-ci il) sonra xalq kütlələrinin Teymurilərə qarşı çıxışlarından istifadə edən Şirvanşah I İbrahim (1382-1417) Qarabağın düzənlik hissəsini Şirvana birləşdirdi. Amma 1412-ci ildə Qaraqoyunlularla Kür sahilində baş verən vuruşmadan sonra Qarabağ tamamilə Qaraqoyunlu dövlətinə qatıldı. Səfəvilərin hakimiyyəti dövrünə qədər **Qarabağ** monqolların, Qaraqoyunlu və Ağqoyunlu hakimlərinin idarəsi altında idi. XV əsrdə ***Qarabağ*** Azərbaycan Qaraqoyunlu (1410-1467) və Ağqoyunlu (1468-1501) dövlətlərinin tərkibində olmuşdur. ***Qarabağ*** bu dövrdə də Azərbaycanda mövcud olan üç bəylərbəyliyndən biri olmuşdur, mərkəzi də Gəncə şəhəri idi (1501-1736).

XVI əsrdə **Qarabağ** Səfəvilər dövlətinin hakimiyyətinə keçdi. Səfəvilər Azərbaycanda 4 bəylərbəylik yaratmışdır ki, onlardan da biri **Qarabağ** və ya **Gəncə bəylərbəyliyi** idi. 1593-cü il məlumatına görə, Gəncə-Qarabağ əyaləti 7 sancaq, 36 nahiyəyə bölünürdü. Burada qeydə alınan 1,3 mindən çox toponimik vahidlərin demək olar ki, hamısı (təxminən 96%-i) Azəri türkcəsində idi.

Səfəvilər dövründə Azərbaycan bəylərbəyliklərə bölünmüşdü ki, bu inzibati bölgü XVIII əsrin ortalarına qədər davam etmişdir. Bəylərbəyliklərdən biri də **"Qarabağ bəylərbəyliyi"** adlanırdı. Bütün Qarabağ ərazisi də bu bərlərbəyliyə daxil edilmişdir. O vaxt Yuxarı Qarabağda özlərini erməni hesab edənlər əslində erməniləşmiş xristian albanları idilər. Onlar özləri də bilə



bilməzdilər ki, erməni yox, albandırlar. Çünki onları bu günə salan **erməni xristian kilsəsi** idi...

XVII əsrin əvvəllərində Qarabağda kəndli hərəkatı genişləndi. 1671-ci ildə burada antifeodal üsyan baş verdi. Səfəvilər dövründə Qarabağı qacar tayfasından olan Ziyadoğulları nəsli idarə edirdi. Bu dövrdə Qarabağda əkinçilik, bağçılıq, ipəkçilik geniş yayılmışdı. XVIII əsrin 40-cı illərində burada **Qarabağ xanlığı** yarandı. Xanlıq dövründə iqtisadiyyatda mühüm dirçəliş oldu. Şuşa şəhəri Azərbaycanın mədəni və ticarət həyatında əhəmiyyətli rol oynayan şəhərə çevrildi.

1747-ci ildən 1828-ci ilə qədər Kür və Araz çayları arasındakı bütün torpaqlar, həmçinin **Qarabağ** Azərbaycan feodal dövlətini təşkil edirdi. 1805-ci ildə Qarabağ xanı İbrahim Xəlil xan ilə P.D.Sisianov arasında bağlanmış **"Kürəkçay"** müqaviləsinə əsasən **Qarabağ** Rusiyanın tərkibinə daxil edildi. 1805-ci ildə mayın 14-də İbrahimxəlil xan Gəncə yaxınlığında tarixə "Kürəkçay" adı ilə düşmüş bu andlı öhdəliyi imzaladı. Az sonra bağlanmış **"Gülüstan"** sülh müqaviləsinə (1813-cü il) görə, **Qarabağ** da Şimali Azərbaycanın tərkibində Rusiyaya birləşdirildi...

1810-cu ilə aid rəsmi məlumata görə Qarabağ vilayətində 12.000 əhali olub ki, bunun da cəmi 2500-ü erməni idi (Prisoedinenie Vostoçnoy Armenii k Rossii, I t. Erevan, 1973, s.562).

1823-cü ildə "Qarabağ əyalətinin 1823-cü ildə həqiqi statski müşavir Mogilyovski və polkovnik Yermolov tərəfindən tərtib edilmiş təsviri" (Tiflis, 1866) vergi reyestrinə görə xanlıq ləğv edilən zaman (1822-ci il) orada 90.000 əhali (20.095 ailə; 15.729-azərbaycanlı ailə, 4.366 - erməni ailə) yaşayırdı. Xanlıq dönəmində 1 şəhər, 610 kənd (cəmisi 140 kənddə erməni yaşayırdı) vardı. Şuşa şəhərində 1048 ailə vardı ki, bunun da cəmi 474-ü erməni ailəsi idi. Kəndlərdə 12.902 (43.311 nəfər) azərbaycanlı ailə yaşayırdı.

XIX əsrin 20-30-cu illərində Zaqafqaziyaya, o cümlədən, Qarabağa 200.000 erməni köçürülür (N.İ.Şavrov: Novaya uqroza

russkomu delu v Zaqafkaze: predstoyaşaya rasprodaja Muqani i narodtsam. SP b.1911, s.59). 10 aprel 1840-cı il çar hökumətinin Qafqazda inzibati-islahatına əsasən az sonra (1.01.1841-ci il) Kaspi vilayəti tərkibində mərkəzi Şuşa şəhəri olan **Şuşa qəzası** yarandı.

1840-cı ildən sonra **Dağlıq Qarabağ** ərazisi Kaspi vilayətinin Şuşa qəzasına; 1846-cı ildən isə Şamaxı (1859-cu ildən Bakı) quberniyasına daxil olub. 1868-ci ildə Yelizavetpol (Gəncə) quberniyası yarananda həmin ərazi Şuşa və Zəngəzur qəzalarının tərkibinə daxil oldu.

Qarabağda ermənilərin çoxalması, yuxarıda qeyd etdiyim kimi, əsasən, XIX əsrin 20-ci illərində baş verdi. Rus-İran və Rus-Türk müharibələrinin qələbəsindən sonra Cənubi Qafqaza İrandan və Türkiyədən on minlərlə erməni axışıb gəldi. "**Türkmənçay**" sülh müqaviləsində (1828-ci il, 10 fevral) də bu, nəzərdə tutulmuşdur. **Yuxarı Qarabağ** əhalisinin milli tərkibinə gəlincə isə, bu, **1832**-ci ildə ermənilər İran və Türkiyədən köçürüldükdən sonra ilk dəfə verilən məlumatlara görə, **65** faiz azərbaycanlılardan, **35** faiz ermənilərdən ibarət olmuşdur ("Rusiyanın Zaqafqaziya hissəsinə aid tədqiqatlar," III hissə, Peterburq, 1836, V cədvəl).

Rus müstəmləkəçiliyinin İran və Türkiyədən erməni ailələrinin köçürülməsi sayəsində 1880-ci ildə Yuxarı Qarabağda ermənilər əhalinin 53 faizini, azərbaycanlılar 42 faizini təşkil etmişdir ("1896-cı il üçün Qafqaz təqvimi, V bölmə"). 1897-ci ildə bu rəqəmlər müvafiq olaraq 53-45 faiz idi ("Əhalinin öyrənilməsi sayəsində ilk tədqiqat", Peterburq, 1904). 1897-ci il üçün Şuşa qəzasının 4911 kvadrat kilometr sahəsi, 140.740 nəfər əhalisi olmuşdur.

XX əsrin ilk ilində ermənilər Cənubi Qafqaz əhalisinin 19 faizini təşkil edirdilərsə, 1921-ci ildə bu rəqəm 22 faizə çatdı. "Bu artımın səbəblərindən biri Türkiyədən ermənilərin Qafqaza köçürülməsidir" (B.İşxanyan, "Qafqaz millətləri", Peterburq, 1916, səh.33)...

XX əsrin əvvəllərində Azərbaycanda, eləcə də, Qarabağda inqilabi mübarizə gücləndi. 1907-ci ilin iyununda Şuşa ipək



fabrikinin fəhlələrinin tətili oldu. 1917-ci ilin iyununda bolşeviklər RSDF(b)P-nin Şuşa təşkilatını yaratdılar.

**25 oktyabr (7 noyabr)** - 1917-ci il tarixdə Rusiyada dövlət çevrilişi oldu - Böyük Oktyabr Sosialist İnqilabı baş verdi. Stepan Şaumyan İcraiyyə Komitəsinin sədri seçildi. Az sonra Bakıda güclü erməni silahlı qüvvələri cəmləşdirildi. 1918-ci ilin mart ayının son günlərində Bakıda ermənilər qırğın törətdilər.

**29 martda** - Bakı limanında Lənkəran əksinqilabçılarına köməyə gedən **"Dikaya diviziya"** hissələri ora göndərilən Qırmızı qvardiyaçılara atəş açdı. Bakı Sovetinin tələbi ilə "Dikaya diviziya" əsgərləri tərksilah edildi...

**30 mart** - Müsavatçılarla Bakı soveti arasında "Dikaya diviziya"nın silahlarını qaytarmaq haqqında danışıqlara başlandı. Danışıqlar zamanı müsavatçılarla sovet qoşun hissələri (ermənilər) arasında Şamaxı (C.Cabbarlı) və Tatarski (N.Krupskaya) küçəsində atışma oldu. Azərbaycanda vətəndaş müharibəsi başlandı. Mart qiyamının (?) yatırılmasına rəhbərlik üçün **martın 30-dan 31-nə** keçən gecə N.Nərimanov, S.Şaumyan, P.Caparidze və başqalarından ibarət **İnqilabi Müdafiə Komitəsi** (İMK) yarandı.

**31 mart** - Sovet qoşunları qəti hücuma keçdi. Müsavatçılar danışıq təklif etdilər. **İMK** müsavatçılardan Bakı Sovetinin hakimiyyətini danışıqsız tanımağı, hərbi hissələrini Bakıdan və onun rayonlarından çıxarmağı və s. tələblər irəli sürdü. Müsavatçılar bu şərtlərlə razılaşdılar. **Mart qiyamı**(?)nın yatırılması Bakıda vətəndaş müharibəsinə son qoydu, sovet hakimiyyətini möhkəmləndirdi, Bakını tutmaq istəyən xarici müdaxiləçilərin planları pozuldu. Bakı və onun rayonlarında hakimiyyət Sovetlərin əlində cəmləndi...

**26 may** 1918-ci il tarixdə Zaqafqaziya Seymi süqut etdi. **28 May**da Azərbaycan Müvəqqəti Milli Şurası Azərbaycan Xalq Cümhuriyyətinin "İstiqlal bəyannaməsi"ni elan etdi. Azərbaycan bütün türk və müsəlman dünyasında ilk **Respublika** oldu. Bu hökumət tez bir zamanda Türkiyə ilə ittifaqa girdi. Vəziyyətin

gərgin anında Osmanlı qoşunları Azərbaycana gəldi. Milli Şura və hökumət Gəncəyə köçdü. Yeni hökumət yarandı. Azərbaycan hökuməti Şuşa, Cavanşir, Cəbrayıl və Zəngəzur qəzalarını Gəncə quberniyasının tərkibindən ayırıb mərkəzi Şuşa şəhəri olan **Qarabağ general-qubernatorluğu** yaratdı...

S.Şaumyan ADR-nı yıxmaq üçün Gəncəyə hücum planı hazırladı. 10 iyunda başlayan bu hücum 27 iyunda Göyçay yaxınlığında Osmanlı hərbi qüvvələrinin köməyi ilə məğlubiyyətə uğradı. Xalq Cümhuriyyətinin qoşunları əks-hücumla 20 iyulda Şamaxını tutdu. Avqustda başda general Denstervil olmaqla ingilis qoşunları Bakıya gəldi. AXC qoşunları Türk hərbi qüvvələri ilə bərabər Bakıya hücum etdi. Sentyabrın ortalarında Bakı azad edildi. AXC Gəncədən Bakıya köçdü. 7 dekabrda 120 deputatdan ibarət Parlament yaradıldı. Belə çətin tarixi şəraitdə hərbi səfərbərlik başladı. Bu zaman Azərbaycan Respublikasının ərazisi 97,3 min kvadrat kilometr (bundan başqa 15,6 kv.km mübahisəli ərazi) idi. Az zaman içərisində 10 min süvari, 30 min piyadadan ibarət qoşun toplandı.

1918-ci il sentyabrın 25-də Türkiyə qoşunları Azərbaycana gəlib Şuşanı tutdular. 1919-cu ilin yayında bolşeviklərin Qarabağ Mahal Partiya Komitəsi yarandı.

11 yanvar 1920-ci il tarixdə Paris sülh konfransının Ali Şurası tərəfindən ADR-ın de-fakto tanınması elan olundu. Bakıda bəzi ölkələrin səfirlikləri, konsulluqları açıldı. 11 fevral 1920-ci ildə Azərbaycan kommunistləri I qurultayda Azərbaycan Kommunist Partiyasını yaratdılar. Mikoyan və başqalarının köməyi, təhriki ilə Qarabağda erməni qiyamı baş verdi. 27 apreldə XI ordu Azərbaycan sərhədini keçdi, az sonra - 28 apreldə Bakıya daxil oldu. Beləliklə, Azərbaycan yenidən işğal olundu.

1920-ci il **aprelin 29-da** Qaryagində, aprelin 30-da Şuşada kommunistlər hakimiyyətə gəldilər. 30 apreldə Şuşada Qəza İnqilab Komitəsi təşkil edildi. Mayın 20-də Qarabağ Vilayət İnqilab Komitəsi yarandı. 1920-ci ilin mayın 25-də hakimiyyət artıq bütünlüklə Qarabağ Vilayət İnqilab Komitəsinin əlində idi.



İyunun 5-də musavatçılar türk generalı Nuru Paşanın rəhbərliyi ilə qiyam qaldırıb Ağdamı, Tərtəri, Şuşanı, Bərdəni ələ keçirsələr də, bir həftə sonra XI Qırmızı Ordu hissələri onları Qarabağdan çıxmağa vadar etdi. Nuru Paşa və başqaları Azərbaycanı tərk etməyə məcbur oldular... Sovet hakimiyyətinin qələbəsindən sonra Qarabağda da bir sıra sosialist tədbirləri həyata keçirildi...

XX əsrin Müsavat hökuməti (ADR) dövründə də **Qarabağ** Azərbaycanın tərkibində olmuşdur. 1918-ci ildən **Qarabağ** Azərbaycan Demokratik Respublikasının, 1920-ci ildən isə Azərbaycan SSR-in ayrılmaz tərkib hissəsi olmuşdur. Bütün bu qeyd etdiklərim, heç vaxt ermənilərə mənsub olmayan **Qarabağın qısa tarixi**dir...

1920-ci ilin 19 iyununda Q.K.Orconikidzenin Vladiqafqazdan V.İ.Leninə və Çiçerinə vurduğu teleqramda deyilir ki, Qarabağda və Zəngəzurda Sovet hakimiyyəti elan edildikdən sonra adı çəkilən hər iki ərazi özünü Azərbaycanın tərkib hissəsi hesab edir. Dağlıq Qarabağ haqqında məsələ 1921-ci ilin 27 iyun tarixi AK(b)P MK-nın Siyasi və Təşkilat bürosunun yığıncağında müzakirə edildi.

**4 iyul** 1921-ci il tarixdə RK(b)P MK Qafqaz Bürosunda"Dağlıq Qarabağ" haqqında məsələ müzakirə edildi (protokol №11). Həmin gün Stalin, Kirov, Orcanikidze, Nazaretyan, Nərimanov, Fiqatner, Maxaradze və Myasnikovun iştirakı ilə bir plenum da keçirildi. "Dağlıq Qarabağ Azərbaycanın hüdudlarında saxlanılsın" fikrinin lehinə Nərimanov, Maxaradze, Nazaretyan, əleyhinə isə Orconikidze, Myasnikov, Kirov, Fiqatner səs verirlər. Nəticədə belə bir qərar qəbul olunur ki, Dağlıq Qarabağ Ermənistan SSR-in tərkibinə qatılsın. N.Nərimanov bu ədalətsiz qərara etiraz etdikdən sonra Qafqaz Bürosu qəti qərar üçün məsələni RK(b)P MK-nin müzakirəsinə verdi.

**5 iyul** 1921-ci il tarixdə RK(b)P MK-nın Qafqaz Bürosunun Plenumunda (Stalin, Orcanikidze, Maxaradze, Kirov, Nərimanov, Myasnikov, Nazaretyan, Oraxelaşvili, Fiqatner-protokol №12) belə qərar qəbul edilir: "Müsəlman və ermənilər arasında milli sülhün,

Yuxarı və Aşağı Qarabağın iqtisadi əlaqəsinin zəruriliyinə, onun Azərbaycanla daimi əlaqəsinə əsaslanaraq Dağlıq Qarabağ Azərbaycan SSR-in hüdudları daxilində saxlanılsın. Muxtar Vilayətin tərkibinə daxil olan inzibati mərkəzi Şuşa şəhəri olmaqla ona geniş vilayət muxtariyyəti verilsin.

**20 iyul 1921-ci il** tarixdə AK (b)P MK-nın Siyasi Təşkilat bürosu **"Qarabağ məsələsi"** üçün Komissiya yaratdı.

**26 sentyabr 1921-ci il** tarixdə AK(b)P MK-nin Siyasi və Təşkilat Bürosu öz iclasında Qarabağ məsələni yenidən müzakirə etdi.

**14 dekabr 1922-ci il** tarixli RK(b)P-nin Zaqafqaziya diyar komitəsinin imzası ilə Dağlıq Qarabağın muxtariyyət məsələsi nəzərdən keçirildi.

**15 dekabrda** AK(b)P MK Rəyasət Heyətinin qərarına uyğun olaraq Azərbaycan SSRİ XKŞ yanında Dağlıq Qarabağ işləri üzrə Mərkəzi Komissiya yaradılır və A.Qaragözov başda olmaqla **"Dağlıq Qarabağ işləri üzrə Komitə"** təsdiq olunur.

**1923-cü** iyunun axırında YİK(b)P Zaqafqaziya Diyar Komitəsinin iclasında Dağlıq Qarabağın muxtariyyət məsələsi yenidən nəzərdən keçirildi. Plenum Ə.H.Qarayevin sədrliyi ilə olan komissiyanın qərarı əsasında Dağlıq Qarabağın Muxtar Vilayətə çevrilməsi haqqında Zaqafqaziya Diyar Komitəsinin qətnaməsini qəbul etdi.

**1 iyul 1923-cü il** tarixdə Azərbaycan Kommunist (bolşeviklər) Partiyasının Mərkəzi Komitəsinin Rəyasət Heyəti belə qərar çıxarır: "Azərbaycan MİK-nə təklif olunsun ki, Dağlıq Qarabağa muxtariyyət verilməsi barədə dekret versin, İcraiyyə Komitəsi başda olmaq etibarı ilə ondan Xankəndi mərkəz olmaqla Qarabağ Muxtar Vilayətini yaratsın.

Qarabağ MV İK yaradılana qədər bu vilayəti idarə etmək üçün 5 nəfərdən ibarət İnqilab Komitəsi və Vilayət Partiya Komitəsi yaradılsın. AK(b)P MK Rəyasət Heyətinin 1 iyul 1923-cü il qərarı da bunu təsdiq etdi.



**7 iyul 1923-cü il** tarixdə Azərbaycan MİK **"Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılması haqqında"** dekret verdi. Bu dekretlə 1923-cü ildə DQMV yarandı. DQMV yaradılması ilə əslində Azərbaycanın vahid ərazisi bölündü. Azərbaycan bolşevikləri ərazi bütövlüyü üçün yaradılan təhlükəni aradan qaldıra bilmədilər. Beləliklə, süni surətdə yaradılan **"Qarabağ məsələsi"** Qarabağın erməni əhalisinin xeyrinə müsbət həll olundu. Təəssüflər olsun ki, həmin zamanlarda Ermənistanda yaşayan on minlərlə azərbaycanlılara muxtariyyət verilməsi məsələsi yada düşmədi...

**1945-ci** ilin payızında da **"Qarabağ məsələsi"** yenidən gündəmə gəldi. Ermənistan KP MK-nin birinci katibi Arutinov DQMV-nin Ermənistan SSR-nın tərkibinə daxil edilməsi haqqında təklifi ÜİK(b)P MK-nin sərəncamına verdi. M.C.Bağırov o zaman Arutinovun dəlillərinə qarşı sərt təkliflər irəli sürdü...

**Hörmətli oxucu,** müxtəlif mənbələrə əsaslanaraq işlədiyim elə bu qısa yazıdan da görmək olar ki, ermənilərin Kürdən cənubda ərazilərimizi qədim erməni torpaqları hesab edərək onu əlimizdən almaq ideyaları göydəndüşmə deyil. Bu, çoxdan düşünülmüş, "elmi" söykəyi olan bir ideyadır...

Əcdadlarımızın XX əsr nəsilləri nədənsə torpaqlarımızın bütövlüyünü saxlaya bilməyib. Göyçə mahalını, Zəngəzur qəzasını Ermənistana "bağışladılar". Bundan bir neçə onillik keçdikdən sonra **"Qarabağ məsələsi"** yenidən qalxdı və bu gün də Qarabağımız çətin sınaq qarşısındadır. Bugünki nəsillər gələcək nəsillər qarşısında məsuliyyət hissini unutmamalıdırlar. Bizə ulularımızdan miras qalan torpağı **sevmək, qorumaq və gələcək nəsillərə çatdırmaq** hamımızın müqəddəs amalımız olmalıdır...

Erməni tarixşünaslığının hakim konsepsiyasında "sübut" etməyə cəhd göstərilir ki, guya ermənilər Ermənistan ərazisinin köklü əhalisi, oradakı azərbaycanlılar (erməni millətçilərinin zorakılıq siyasəti, bizim millətin beynəlmiləlçiliyi, susması nəticəsində indi onlar doğma yurd-yuvalarından qovulmuşlar) isə

XIII əsrdə Mərkəzi Asiyadan gəlmə köçəri türk və monqol-tatarların nəsilləridir.

Erməni tədqiqatçıları tarixi faktları saxtalaşdıraraq, tarix boyu Azərbaycanın tərkib hissəsi olmuş Zəngəzuru (keçən əsrin 20-ci illərində Ermənistana verilib), Qarabağı (Artsaxı), Qazax-Ağstafa zonasını (qədim Girdmanı) binayi-qədimdən erməni torpağı sayır, Kür-Araz ovalığının b.e.ə. II əsrdən eramızın IV əsrinədək "Erməni dövləti" ərazisi, sonralar isə "Şərqi Ermənistan" adlandığını qeyd edirlər. Onlar müxtəlif xarici ölkələrdə çap etdirdiyi kitablarda bütün Qarabağın, hətta, Naxçıvanın da tarixən erməni torpağı olmasını elmi cəhətdən əsaslandırmaq üçün dəridən-qabıqdan çıxırlar...

**Əziz oxucu,** biz də əcəb millətik. 30-cu illərdə (XX əsr) Ermənistanda azərbaycanlılar yaşayan kəndlərin adları dəyişdirildi; 40-cı illərdə azərbaycanlıların bir hissəsi oradan qovuldu; 50-ci illərdən başlayaraq, Azərbaycan torpaqları hesabına ərazisi genişləndirilmiş **"Erməni dövləti"** yaratmaq ideyası ilə xəritələr cızıldı, kitablar yazıldı və bu ideyalar dərsliklərdə özünə yer tapıb ali və orta məktəblərdə tədris olundu... Biz isə nədənsə susduq. Susduruldüq da deməzdim. Əvəzində erməniləri nazirliklərdə, raykomlarda, idarələrdə, nə bilim daha haralarda rəhbər vəzifələrə irəli çəkdik. **"Qardaş olub Hayastan-Azərbaycan"** nəğməsini qoşduq. Şaumyana qranitdən heykəl düzəltdik. Avakyana, Osipyana, Əmiryana, nə bilim nə **"yanlara"** adlarını əbədiləşdirmək üçün küçələr, daha nə bilim nələr verdik. Ermənilərin başbilənləri həmişə millətçilik hissilə yaşayırdılar, bizimkilər isə...

Qonşu torpaqlarını zəbt etmək, **"Böyük Ermənistan"** arzusunun sinəsində yuva saldığı Eçmiədzin kilsəsi üçün Qarabağı ələ keçirmək başlıdca məqsəddir. Vazgen başda olmaqla Eçmiədzin **Qarabağ** üçün bütün milyardlarını qorumağa hazır, ixtiyarında güclü imkanı olan qorxulu bir qüvvədir.

İş elə gətirib ki, yalnız son vaxtlar bilirik ki, Şərqdə ilk parlamentli respublika yaradan bizim xalq olub. Sonralar bilirik ki, bəs



müsavatçılar millət yolunda, Vətən uğrunda canlarından keçiblər. Bizim milli yaddaşımız korşalıbmı? Özümüzü pis günə özümüz salmamışıqmı?..

Şair Oruc Səda necə gözəl deyib:

***Qarabağ qaraldıb ağ günlərimi,***
***Edibdir sinəmə dağ günlərimi.***
***Xəstəhal eləyib sağ günlərimi,***
***Qəmdən havalanıb oynamalıyam.***

***Qafil, paya götür, dur döy dərdimi,***
***Yoxdur yetişdirən bu göy dərdimi.***
***Bişirə bilmirəm bu çiy dərdimi,***
***Deyəsən hələ çox qaynamalıyam...***

Şimali Azərbaycanda nəhayət, **18 oktyabr 1991-ci il** tarixdə müstəqillik elan olundu. Şükür! Heyf ki, bu böyük hadisə namərd erməni qonşumuzun torpaqlarımıza ərazi iddiası ilə eyni vaxta təsadüf etdi. On illər **"böyük qardaş"** saydığımız ruslar da müxtəlif üsullarla bir növ bu təcavüz iddiasının tərəfdarı oldular. Keçmiş quruluş bizə az qala 1905-1918-ci illərdəki xalqımıza qarşı ermənilərin törətdikləri vəhşilikləri, soyqırımlarını unutdurdu. *Qarabağ torpaqları* hərrac malına çevrildi...

**1992-ci il mayın 8-də** Qarabağın tacı olan **Şuşa** şəhəri də erməni işğalçıları tərəfindən zəbt olundu... Elan edilməmiş bu müharibədə yüzlərlə, minlərlə cavanlarımız, qocalarımız canlarını qurban verdilər. Onların adları xalqın tarixi yaddaşında əbədi qalacaqdır...

DQMV Qarabağın dağlıq hissəsində Kiçik Qafqazın cənub-şərqində yerləşir. Ərazisi 4392 kvadrat kilometrdir. Sahəsi şimaldan cənuba 120 km, şərqdən qərbə 40-60 km-dir. Əhalisi 180 min (130 min erməni, 48 min azərbaycanlı, 40-dan çox millətin 2 min nümayəndəsi) nəfərdir. DQMV tərkibinə 5 rayon - Şuşa,

Əsgəran (Xocalı), Mardakert (Ağdərə), Martuni və Hadrut (Xocavənd) daxildir. 26 noyabr 1991-ci il 279-XII nömrəli qanunla DQMV statusu ləğv edilib...

**Qarabağ** adı iki komponentdən - **Qara** və **bağ** sözlərindən əmələ gəlmişdir. **Qara** sözünün çoxlu məna çalarları vardır. Onlardan biri də "çoxluq", "çox sıxlıq" mənası olduğu üçün **Qarabağ** toponimini "çoxlu bağlı-bağatlı yer" (**qora** "üzüm") kimi mənalandırmaq olar. Doğrudan da, XVII əsrin birinci yarısına qədər Araz çayının kənarında **Qarabağ** adında bağlı-bağatlı mühüm bir yaşayış məntəqəsi olmuşdur. Çox güman ki, tariximizdə adları çəkilən **Qarabağ əyaləti, Qarabağ vilayəti, Qarabağ mahalı, Qarabağ bəylərbəyliyi, Qarabağ xanlığı, Qarabağ dağ silsiləsi, Qarabağ kanalı, Qarabağ düzü** və s.də öz adlarını Araz çayı qırağındakı həmin yaşayış məntəqəsinin adından almışdır.

A.Olearinin "İran səltənəti" xəritəsində **Qarabağ şəhəri 39⁰** şimal en dairəsi ilə **82⁰ 21** şərq uzunluq dairəsinin kəsişdiyi nöqtədə göstərilir. Həmin şəhər təxminən indiki Horadiz (Füzuli rayonu) dəmiryol stansiyasından şərqdə - İran ərazisindəki Aslandüz yaşayış məntəqəsindən azacıq şimalda, mövcud olmuşdur... *İsgəndər bəy Münşi* Qarabağın ab-havasının, meşə və bağlarının, bərəkətli çöllərinin, gözəl otlaqlarının dünyada misli-bərabəri olmadığını göstərir...

Yuxarıda qeyd etdiyim **Qarabağ** adı tarixdə VII əsrdən, bir əyalət kimi XIII əsrdən, bir xanlıq kimi XVIII əsrdən məlumdur. Mənim fikrimcə, Qarabağ toponimlərini öyrənmək üçün bu ərazinin toponimikasını da, bilmək başlıca şərtdir. Tədqiqatlar nəticəsində DQMV-dəki **230**-a qədər yaşayış məntəqəsinin **190**-nının adının mənası aydınlaşmışdır. Onlar Azərbaycan dilində olan adlardır. Ərazidəki oykonimlərin **10** faizi hibrid, çox az hissəsi isə erməni adıdır. Vilayətdəki ermənilər yaşayan bir sıra kənd adları da Azərbaycan dilindədir...

**Qarabağ** toponimi **türk** mənşəlidir. Əcəmlər lap qədimdən Qarabağa **"Sisaqan"** demişlər. Qarabağ sonralar yalnız Səlcuqlar



tərəfindən belə adlanmışdır. Türkiyədə, Türkmənistanda, Özbəkistanda və başqa ərazilərdə də **Qarabağ** sözü ilə bağlı çoxlu sayda oykonim və oronimlər qeydə alınmışdır...

Mən **Qarabağ** toponimiyasını tədqiq edən **qarabağlı** toponimçi kimi qətiyyətlə deyə bilərəm ki, DQMV ərazisindəki **230** yaşayış məntəqəsinin **80** faizdən çoxunun adı azəri türkcəsindədir. Vilayət ərazisindəki **23** çaydan **18**-i azərbaycanca olan adlardır (onlardan biri hibrid, dördü isə mənası qismən aydın olan adlardandır). Ərazidəki **7** gölün hamısı *(Zəligöl, Qaragöl, Qamışgöl, Qanlıgöl, Çallıgöl, Sarışıngöl, Köndələngöl)* Azərbaycan dilində mənası aydın olan adlardır. Ümumiyyətlə, DQMV ərazisində tədqiq etdiyim **3000** (**216** kənd adı, **7** şəhər və qəsəbə adı, **23** çay adı, **7** göl adı, **200**-dən çox zootoponim, **40** etnotoponim, **80** antroponim, **15** paleotoponim və **2300** -dən çox oronimlərin (dərə, dağ, təpə, quzey, güney, gədik, düz, qaya və s.) ümumilikdə **95** faizi (**2850**-yə yaxın) Azərbaycan dilində olan coğrafi adlardır. Mənə elə gəlir ki, bu tutarlı arqumentlərdən sonra daha heç bir əlavə şərhə ehtiyac qalmır.

Yuxarıdakı bütün qeydlərimi yekunlaşdırıb bir daha bildirmək istəyirəm ki, Füzuli rayonunun da daxil olduğu **Qarabağ** yarandığı gündən indiyədək Azərbaycanın tərkib hissəsi olmuşdur. Qarabağın Azərbaycan torpağı olması sübuta ehtiyacı olmayan aksiomadır. Dünyada elə bir qüvvə yoxdur ki, əzəli və **müqəddəs Qarabağ** torpaqlarımızı doğma respublikamızdan qoparmağa nail olsun. Torpaqlarımızı yağı düşməndən qorumaq üçün isə xalqın həqiqi birliyinə nail olmaq gərəkdir.

**N.TAPDIQOĞLU**

## FÜZULİ RAYONUNUN TOPONİMLƏRİ

### AĞ CIĞIR

Qacar kəndi yaxınlığında, Xəzəz dağında qeydə alınan oroqrafik obyektlərdən biri **Ağ cığır** adlanır. Bu **cığır** ağac və kolların arasındakı sahədə ot bitməyən kiçik, ensiz bir yoldur. **Ağ cığır** Xəzəz dağının zirvəsi ilə Qacar kəndini birləşdirir. Bu ensiz yola kiçikliyinə və ot bitmədiyinə görə əhali tərəfindən **Ağ cığır** deyilir.

### AĞA MURAD TƏPƏSİ

Yuxarı Yağlıvənd ilə Qacar kəndləri arasında yerləşən oroqrafik obyektin adı **Ağa Murad təpəsi** adlanır. Bu ərazi 160 metr hündürlüyü olan qaya və yüksəkliklərdən ibarətdir. Müsbət relyef formalarından olub, ətəyi ilə zirvəsi arasındakı nisbi hündürlüyü 200 metrədək olan yüksəkliyə **təpə** deyilir. **Təpə** coğrafi termini ilə əlaqədar Azərbaycan oronimiyasında 4.000-dən çox coğrafi ad qeydə alınıb. Toponimin tərkibindəki **Ağa Murad** sözü şəxs adını bildirir. Deməli, **Ağa Murad** (bəzən bu sözü **Ağamurad** şəklində də yazırlar) **təpəsi** coğrafi adı antroponimik toponimdir...

### AĞAÖYLƏ OCAĞI

Yuxarı Divanalılar kəndi yaxınlığında qeydə alınan oroqrafik obyektlərdən biri **Ağaöylə ocağı** adlanır. Aydındır ki, *ocaq* kultu Azərbaycanda *"müqəddəs tapınaq yeri"* kimi mənalandırılır. **Ağaöylə** *ocağı* işğala qədər ziyarət yeri olmuşdur. Çox güman ki, **Ağaöylə** adı **Ağa və övliya** sözlərinin birləşməsinin təhrif olunmuş formasıdır...



### AĞASƏNƏM DƏRƏSİ

**Ağasənəm dərəsi** coğrafi adı Yağlıvənd kəndinin yaxınlığında qeydə alınıb. **Dərə** coğrafi termini mənfi relyef forması bildirir. Azərbaycanda çöl materialları içərisində **dərə** termini ilə bağlı 30.000-dən çox coğrafi ad qeydə alınmışdır.

**Ağasənəm dərəsi** oroniminin tərkibindəki **Ağasənəm** sözü şəxs adıdır, **- si** şəkilçisi isə mənsubluq ifadə edir. Toponim *"Ağasənəmə məxsus dərə"* mənasındadır.

### AĞDAŞ DAĞI

**Ağdaş dağı** Yağlıvənd kəndi Dövlətyarlı kəndi arasında, Füzuli rayonunun şimal-qərbində qeydə alınan dağdır. Toponim **ağ** və **daş** sözlərindən ibarətdir. Burada "daş" komponenti "dağ" və ya "sal qaya" mənasındadır. Oronim "ağ rəngli dağ, qaya" deməkdir. Dağın zirvəsi həqiqətən ağ rəngli sal qayadan ibarətdir. Toponimi **ağ** və **dış** sözləri ilə də mənalandıranlar var. **Dış** - *"çöl, bayır, səhra"* deməkdir. Ağdaş toponimini **ağdış** komponenti ilə əlaqələndirsək, "ağımtıl-boz çöl, bayır" mənalı ifadə olduğunu görərik. **Dış** ifadəsi "Kitabi-Dədə Qorqud" dastanlarından da "bayır", «çöl» mənasında işlənir.

**"Ağ"** sözü ilə formalaşmış toponimlər sistemi əsasında çoxlu oykonim (Ağdam, Ağdaş, Ağsu və s.), hidronim (Ağ göl, Ağ çay və s.) və oronimlər (Ağdağ, Ağtəpə, Ağyal, Ağqaya və s.) vardır. Ümumiyyətlə, "ağ" leksik vahidi oykonim və oronimlərdə əsasən, rəng məna çalarına əsaslanır. Qazax rayonunda da **Ağdaş** adlı dağ var. Kəlbəcər və Cəlilabad rayonlarında **Ağdaş kəndi**, Şirvan düzündə **Ağdaş** adlı şəhər də var.

## AĞIL DƏRƏSİ

Rayon mərkəzindən 42 km cənub-şərqdə, Kərimbəyli kəndi yaxınlığında dərədə qeydə alınıb. Bu oronim dərədə keçmişdə **ağılların** yerləşməsi ilə bağlıdır. **Ağıl** - *"gecələr qoyunların saxlandığı yer"* mənasındadır. Bəzi Azərbaycan oronimləri vaxtilə həmin yerlərdə mövcud olan təsərrüfat tikintilərinin adları ilə adlandırılmışdır.

**Ağıl** komponenti ilə bağlı digər oronimlər bunlardır: **Ağıldərə** (Füzuli rayonu, Dördçinar kəndi), **Bozağıl dağı** (Şərur rayonu, 1174 m), **Burunağıldağ** (Qaradağ rayonu, Korgöz qəsəbəsi), **Gədikağıl** (Babək rayonu, Nehrəm kəndi), **Eyvazxan ağılı dərəsi** (Şərur rayonu, Yuxarı Yaycı kəndi) və s.

## AĞILDƏRƏ

Bəzi coğrafi adların tərkibində iştirak edən **ağıl** sözü *"gecələr qoyun saxlanılan yer"* anlamındadır. Tərkibində **ağıl** sözü olan oroqrafik obyektlər kənd təsərrüfatı sahələri ilə əlaqədar tikintiləri əks etdirən oronimlərdir. **Dərə** mənfi relyef forması bildirən coğrafi termindir. **Dərə** orada heyvan **ağılının** olması ilə əlaqədar olaraq belə ad almışdır.

**Ağıldərə** coğrafi adı Füzuli rayonunun Dördçinar kəndi yaxınlığında qeydə alınmışdır. Bu tipli oroqrafik obyektlərə Füzuli rayonu ilə bərabər, Azərbaycanın digər bölgələrində də rast gəlirik...

## AĞOĞLAN ÇAYI

**Ağoğlan çayı** Yağlıvənd kəndi ərazisində qeydə alınan bu hidronim Köndələn çayının qoludur. Hidronimin tərkibindəki **ağ** komponenti müqəddəslik bildirir. **Ağoğlan** sözü "müqəddəs övlad"



mənasındadır. Bu qəbildən olan toponimlərə Laçın, Cəbrayıl və başqa rayonların ərazilərində də rast gəlirik.

İ.Petruşevskiyə və R.Göyüşova görə, **Ağoğlan** coğrafi adları müqəddəsliklə, tapınaqla bağlıdır. O, belə bir fikir irəli sürür ki, ***Ağ oğlan*** mifi bitki (Ağac) və Günəş mifi ilə ilişgilidir. Onun eşitdiyi tarixi əfsanədə bildirilir ki, igid və yenilməz Ağ oğlan xalqını yağılardan qoruyurdu. Bir dəfə də yenə yağı dəstəsi hücuma keçir. **Ağ oğlan** onlarla vuruşur. Yağı çox idi. **Ağ oğlan** yaralanır və ölür. Onu döyüşüb öldüyü yerdə basdırırlar...

**Ağ oğlan** mif obrazı göy tanrısı, dünya ağacı ilə bağlıdır. Ağ oğlan tapınağı astrial miflə əlaqəlidir. Türk xalqları arasında geniş yayılmış əfsanədə **Ağoğlan** ilk insandır. Azərbaycan mif deyimində də deyilir ki, o, gündə 3 dəfə gözə görünər, günün qalan vaxtını isə meşəyə çəkilib tək yaşayarmış. Ümumiyyətlə, "Ağ oğlan" dastanları müxtəlif əfsanə və rəvayətlərdən ibarətdir. Məsələn, Azərbaycan və Yaqut (Yakut) ***Ağ oğlanı*** təkdir, yalqızdır, göydə doğulub. Ağac xaqanın döşünü əmən Ağ oğlan onun məsləhəti ilə yol gedir və Qaraxan ölkəsində cəhənnəmin yiyəsi Buura Dohsunu öldürür və orada evlənir. "Ağ oğlan"dakı Günəşlə ilişgili Dünya Ağacı da Ağ oğlana yardım edir...

## AXULLU YALI

Füzuli şəhərinin mərkəzindən 10 km qərbdə, Xocavənd (keçmiş Martuni və Hadrut rayonları) rayonu ilə sərhəddə yerləşən yüksəklik **Axullu yalı** adlanır. **Axullu yalı** Qarabağ silsiləsinin ətəyində yerləşir. Toponim vaxtilə Füzuli rayonu ərazisində yaşayan ***Haxıllı*** nəslinin adındandır. Haxıllı nəsli həmin ərazidə **Axullu** adlı kənd də salmışdır. Bəzi tədqiqatçılar **Axullu** toponiminin təhrifə uğradığını qeyd edirlər...

## ALI KÖRPÜSÜ

Saracıq kəndi ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri də **Alı körpüsü** adlanır. Bu körpü XIX əsrdə inşa edilmişdir. **Alı** şəxs adıdır. Toponim «**Alıya məxsus olan körpü**» anlamındadır. **Alı körpüsü** Füzuli rayonunun yerli əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələrindən hesab olunur...

## ALININ KÖRPÜSÜ

Füzuli rayonu ərazisində qeydə alınan maraqlı oroqrafik obyektlərdən biri **Alı körpüsü** adlanır. Bu **körpü** rayonun yerli əhəmiyyətli daşınmaz tarixi-memarlıq abidələrindən hesab olunur. Toponimin tərkibindəki - **sü** şəkilçisi mənsubluq ifadə edir. **Körpü** onu inşa edən **Alı** adlı şəxsin adı ilə əlaqədar olaraq belə adlandırılmışdır. Hazırda **Alı körpüsü** işğal altındadır.

## ALXANLI KƏNDİ

**Alxanlı kəndi** rayon mərkəzindən 18 km şərqdə, Köndələnçayın sol sahilində, Füzuli-Beyləqan şosse yolu kənarında, Mil düzündə yerləşir. Kəndin uzunluğu təxminən 11 km-dir. Yaşayış məntəqəsi Azərbaycanın ən uzun kəndlərindəndir. Əhalisi iki min nəfərdən artıqdır. Əhali əsasən, üzümçülük, taxılçılıq və heyvandarlıqla məşğul olur. Kənddə orta, səkkizillik və iki ibtidai məktəb, klub, kitabxana, mədəniyyət evi, kinoqurğu idarəsi, xəstəxana, uşaq bağçası, böyük şərab emalı zavodu və s. vardır.

Bəzi tarixi sənədlərə görə, Qaraqoyunlu hakimi Qara Yusifin sərkərdələrindən birinin adı **Alı xan** olmuşdur. Yerli məlumata görə, oykonim həmin **Alı xanın** adı ilə əlaqədardir. Sənədlərdə kəndin adını **Alıxanlı** kimi də yazırlar. Kənddə **hacımirzəhüseynlər, səybəylilər, piralılar, axundlular, axutdular, yarılılar, məməlilər, göyçəlilər** və s. adlı tayfalar var.



Kəndi XVIII əsrin ortalarında Qarabağ xanı Pənahəli xanın Naxçıvan ərazilərindən Qarabağa köçürdüyü kəngərlilərin **alıxanlı (alxanlı)** tirəsi saldığı üçün o, həmin ad ilə də adlandırılmışdır...

## ALLAHQULUNUN BAĞI

Dövlətyarlı kəndinin yaxınlığında, Köndələn çayının sahilində, mənzərəli bir ərazidə təxminən 15 hektarlıq sahə **Allahqulunun bağı** adlanır. Bu bağda çoxlu tut, alma, armud, gilas, gilənar, heyva, nar və qoz ağacları vardır. **Bağ** onun yaradıcısı olan **Allahqulu Yadigar oğlunun** adı ilə əlaqədar olaraq belə ad almışdır. Toponim **"Allahquluya məxsus olan bağ"** mənasındadır...

## ARAYATLI KƏNDİ

Füzuli rayonunda, Araz çayının sol sahilində, Mil düzündə, rayon mərkəzindən 34 km cənubi-şərqdə, düzənlikdə yerləşən kənd. Əhalisi təxminən min nəfərə yaxındır. Əhali əsasən üzümçülük (əvvəllər pambıqçılıq), taxılçılıq və heyvandarlıqla məşğul olur. Kənddə orta məktəb, stadion, park, uşaq bağçası, rabitə şöbəsi, doğum evi, kitabxana, tibb və baytarlıq məntəqələri, klub, mədəniyyət evi və s. vardır. Kənd XIX əsrə aid sənədlərdə **Mustafa Sərkarlı** kimi də qeydə alınmışdır.

Yaşayış məntəqəsinin **Arayatlı** adlanmasını kəndin yerinin vaxtilə iki oba arasında yerləşən **yataq** olması ilə də bağlayırlar. Kəndin **fərəclilər, ismixanlılar, danabaşlılar, talıbxanlılar, balabəylilər, qarahüseynlilər, beşdəllər, eyvazlılar, hacılılar, mitillilər, küyçübalabəyimlər** və başqa tayfaları vardır...

**Arayatlı** toponimi çox güman ki, XIII əsrdə Azərbaycana gəlmiş monqolların tərkibindəki **Uryat** tayfasının adını özündə əks

etdirir. Güman edilir ki, burada orta əsrlərdə yaşayış məskəni olub. Kənd işğaldan azad edilib. Tanınmış pambıqçı, iki dəfə Sosialist Əməyi Qəhrəmanı Şamama Həsənova bu kənddəndir...

## ARAZ ÇAYI

Türkiyə, Azərbaycan və Ermənistanda çay; Kürün ən böyük sağ qolu, uzunluğu 1072 km-dir, bəzi mənbələrdə 994 km-dir. Araz çayı Türkiyədə Bingöl silsiləsinin yamaclarından başlanır. Sabirabad rayonu ərazisində, Suqovuşan adlı yerdə Kürlə birləşir. Azərbaycanın İranla dövlət sərhəddində, o cümlədən, təxminən 40 km məsafədə Füzuli rayonunun cənub-şərqi ilə axır.

Araz çayı e.ə. Urartu mənbələrində, sonralar isə yunan və Roma coğrafiyaşünasları, səyyahları, tarixçiləri, ədiblərindən Miletli Hekateyin, Herodotun, Strabonun, Diodorun, Plininin, Plutarxın və başqalarının əsərlərində müxtəlif formalarda (**Araks, Arras, Yeras** və s.) yazılan **Araz** çayının adındandır. Həmin çayın sahillərində yaşamış xalqlardan birinin dilində araz sözünün "çay", "su" mənasında işləndiyi güman edilir...

Araz çayının adı müxtəlif mənbələrdə **Araks** (qədim yunan), **Erasx** (erməni), **Ərras** (ərəb), **Ərəs** (fars), **Rass, Arras, Rude-Aras, Eraks** və s. kimi işlənmişdir. Çox güman ki, hidronimin erkən forması **Araks** olub. Bir çox antik və orta əsr müəllifləri öz əsərlərində **Araz** haqqında məlumat veriblər. Qədim yunan və latın mənbələrində Zaqafqaziya ərazilərində, Parsa (Fars) və Orta Asiyada **Araz** adlı çayın adları çəkilir. Herodot Orta Asiya çayları olan Amudərya və Sırdəryanı **Araks** adlandırmışdır...

"Araz" sözünün etimologiyası ilə bağlı müxtəlif fikirlər var. N.Nəbiyev onu "möhtəşəm", "böyük"mənasında yunan mənşəli vahid kimi izah edir.

A.Nikonov qeyd edir ki, Araz türk mənşəli söz olub «su» mənasını ifadə edir. **Su** türk xalqlarında yaxşılıq bildirən ilkin başlanğıclardandır. N.Əsgərov **Araz** hidronimінin etnonim əsasın-



da **(as, az)** yarandığı qənaətinə gəlir. Son tədqiqatlara görə, çayın adı qədim türk dillərindəki **oraz** (uraz), **ərəz** (sakit, dinc, xeyir verən) sözündəndir.

Hidronim əsasında yaranan "Araz" antroponimi də türk mənşəli leksik vahid kimi izah olunur. Sevimli şairimiz A.Şaiq bu adı öz qəhrəmanına da vermişdir. Arazla bağlı bir çox rəvayətlər vardır ki, bir tədqiqatçı kimi onların bəziləri ilə oxucuları tanış etmək istəyirəm:

Çar Araks prussiyalılar ilə döyüşdə bildirir ki, əgər bu vuruşmada qalib gələrsə, Allahın yolunda iki əziz qızını qurban verəcək. Lakin o, sözünün üstündə durmur. Döyüşdə qalib gəlirsə də, öz qızlarına yazığı gəlir. Əvəzində tabeliyində olan bir şəxsin iki gözəl qızının başını kəsir. Qızların atası Mneskal fürsət düşən kimi çarın iki qızını öldürüb həmin yerdən qaçır. Bunu eşidən **Araks** özünü Halım çayına atır. Bu çayın da adını o vaxtdan **Araz (Araks)** qoyurlar...

Başqa bir rəvayət belədir:

Qədim Qozluçay dərəsinin söykəndiyi Ərgünəş dağının başı həmişə qarla örtülü olarmış. Hər baharda qar əriməyə başlayarmış. Əriyən qarın suyu selə dönər, dərələr boyu baş alıb gedərmiş. Aran torpağının közərən sinəsinə çatmamış quruyarmış.

Bu yerlərdə susuzluqdan vəhşi heyvanların, ilanların mələşməsi eşidilərmiş. Buralarda yaşıllıq deyilən şey olmazmış. Aran torpaqlarının sinəsini sərinlədən bugünkü **Araz çayı** o zaman hələ yox imiş. Təkcə Ərgünəşdən süzülüb gələn qar suyundan yaranan Qozluçay var imiş. Ərgünəş dağı suyunu Aran torpağına verməzmiş. İndiki Maralyan kəndi yerində bir-iki daxma varmış. Orada kasıb bir qoca kişi yaşayarmış. Onun Maral adlı gözəl bir qızı varmış. Gözəlliyi çoxlarını dərdə salarmış.

Bir gün bir varlı oğlu Maralın sorağına kəndə gəlir. Qız onu bəyənmir. Varlı oğlu qəzəblənib hiyləyə əl atır. Qaranlıq bir gecədə Maralı oğurlayır. Nəhəng bir daşın yanına gətirir. Maral oğlana yaxınlıq vermir. Qız səhranın ortasında iri qara daşa üz tutub yalvarır, daşın altından nəhəng bir ilan çıxıb Maralın abır-ismətini tökmək istəyən daşürəkli oğlana tərəf sürünür. Oğlan da, qız da

qorxurlar. Qız hətta, çığırıb özündən gedir. Qara gürzə çəkilib gedəndən sonra zalım oğlan Marala əzab verməkdə davam edir.

İsti yay günü olduğundan Maralın dodağı yerin bağrı kimi od tutub yanırmış. Oğlan dolçasındakı Ərgünəş dağının suyundan bir damcı da Marala vermir. Qızın gözləri qarşısında sudan doyunca içir, qalan bir-iki damcını da onun üstünə atır. Qızın üstünə düşən su damcılarının yerindən tüstü çıxırmış. Qıza yanıq verən oğlan: "Hə, necəsən, Maral, yan, tüstülən" - deyirmiş. Qızın halına acıyan qara gürzə sürünüb Maralı incidən oğlanı elə çalır ki, əvvəlcə onun əti-əzası, sonra da sümükləri çürüyür.

Maralın anası yoxmuş. Atası çox yerlər gəzir, dərələr keçib, dağlar aşır. "Bala" deməkdən dili ağzında kösöv bağlayır. Amma qızını tapa bilmir, onu gördüm deyən olmur. Kişi göz yaşlarını ürəyinə axıda-axıda yanıqlı bayatılar çəkir, elə hey:

***Gülşənim yox, gülüm yox,***
***Bundan böyük zülüm yox,***
***Balam itkin düşübdür***
***Niyə mənə ölüm yox?*** - deyirmiş.

Yazıq ata qəmli bayatılar söyləyib ürəyinin odunu söndürmək istədiyi vaxt onun əziz ciyərparası hamının gözündən uzaq kimsəsiz bir dərədə üzünü göylərə tutub: "su, su"... - deyə yalvarır, imdad diləyirmiş. Çox keçmir ki, göy üzünü qara buludlar bürüyür, güclü şimşək çaxır, göy guruldayır, yağış yağır. Taqəti tükənən Maral qıjıltı ilə axan çaya tərəf sürünür. Bədbəxtlikdən çaya çatmağa **az** qalmış susuzluqdan qızın bağrı çatlayır, ölür. El, oba bu xəbəri eşidib gəlir. Maralın çaya çatmağına **"ara-az"** qalmış öldüyünü görürlər. O zamandan bu torpağın sinəsində qıjıltı ilə axıb gedən bu çayın adı **Araz** qalır.

**Araz (Arras)** sözünü qədim türklərin ulu babası və xaqanı sayılan Əfrasiyabın qardaşı **Aqrerasın** adı ilə bağlayanlar da var: **Aqreras-Areras, Arras-Araz,** "Avesta"da **Aqreras** adı **Aqrerat** şəklində verilib. Dilimizdə **t-s** əvəzlənməsi təbii fonetik hadisədir.



**Araz (Aras)** adının əmələgəlmə tarixi milladdan öncə III-I əsrlərə aiddir. **Araz** adını qədim pars (zend) dilindəki "qaçmaq" feli ilə bağlayanlar da var. Yozumlarda Arazın ərəb sözü olan **ruz** ("qaçmaq") terminindən əmələ gəldiyi fikrə də rast gəlirik. Evstatın fikrincə, yunan dilində **Aras** sözünün mənası "qazıram" deməkdir. **Araz çayı** çox sürətlə axıb sahillərini dağıtdığı üçün belə adlandırılmışdır. Azərbaycan ədəbiyyatında tarixən **Araz** adı **Aras** şəklində yazılıb. Çayın adının **Araz** forması müasir tələffüz əsasında qəbul edilib...

Uzaq keçmişlərdə insanlar çaya çox zaman sadəcə olaraq "su" demişlər. Məsələn: Kür, Don, Dunay və bəzi başqa çaylar müxtəlif dillərdə "su" anlamı verir. Belə bir ehtimal etmək olar ki, **Aras, Arras, Rass, Eraks** sözü də İran mənşəli dillərin birində "su" mənası ifadə edir. Qədim Midiyada **Araks** adlı ikinci bir çayın olması da bu ehtimalımızın doğruluğunu bir az da gücləndirir. Tarixən **Araz** çayı sahillərində ən çox azərbaycanlılar yaşadıqları üçün güman etmək olar ki, **Araz** sözü də elə Azərbaycan dilinə mənsubdur...

Plutarx göstərir ki, bu çayın sahilində **Araz** (tərcüməsi - "qızsevməz") adlı bitki yetişir...

**Araz çayı** tarixin amansız hökmü ilə Azəri türklərini iki yerə bölüb qardaşı qardaşdan ayırdı. Arazın hər iki sahilində Azəri türkləri həsrət və intizar içindədir. Görünür, bu nisgil Vahid Azərbaycan dövləti yaranana qədər davam edəcəkdir. Azərbaycan türkü öz övladına "Araz" antroponiminin adını bəlkə də elə ona görə verir ki, bu rəmz onu uzun onillərin, yüzillərin həsrətindən xilas edib doğma qardaşı qardaşa qovuşduracaqdır...

## ARAZ DİLAĞARDA KƏNDİ

**Araz Dilağarda kəndi** rayon mərkəzindən 39 km şərqdə, Araz çayı sahilində, Füzuli-Beyləqan şosse yolunun kənarında yerləşir. Kəndin ərazisi düzənlikdir. Əhalisi əsasən üzümçülük, taxılçılıq və

heyvandarlıqla məşğul olur. Kənddə məktəb, kitabxana, klub, tibb məntəqəsi və s. vardır.

Kəndin adı **Araz** hidronimi və **Dilağarda** etnonimindən ibarətdir. Mənası "dilağardalıların Araz çayı sahilində kəndi" deməkdir. Yaşayış məntəqəsini **Qobu Dilağarda** kəndindən fərqləndirmək üçün toponimin əvvəlinə **Araz** komponenti əlavə olunub.

Tarixdən məlumdur ki, **Qaraqoyunlu** qəbiləsinə mənsub olan nəsillərdən biri də **dilağarda** adlanır. **Dilağardalılar** tayfasının adını özündə əks etdirən çoxlu sayda mikrotoponimlər də qeydə alınmışdır. Füzuli rayonunun **Dilağarda kəndi** ərazisindəki **Dilağardatəpə dağı,** Masallı rayonunun Dəmbəlov kəndi yaxınlığındakı **Dilağarda dağı, Dilağarda dərəsi, Dilağarda yoxuşu** oronimləri də öz adlarında **dilağarda** etnonimini əks etdirir.

Bəzi sənəd və materiallarda göstərilir ki, **dilağardalılar** XIII əsrdə Azərbaycana gəlmiş monqol-tatarların qoşunlarının tərkibində olan çoxsaylı tayfalardan biri olmuşdur. Onlar Azərbaycanda qalaraq köçəri-maldar həyatı sürmüşlər. Dilağardalıların danışıq dilində cingiltili samitlər gözəl səslənir. Ümumiyyətlə, onların çox maraqlı və maraqlı olduğu qədər də qəribə dil-tələffüz formaları vardır. Qonşu kəndlərin əhalisi ilə müqayisədə dilağardalıların özlərinə məxsus səciyyəvi xüsusiyyətləri olan adət-ənənələri var...

**Qaraqoyunlu** oymağı olan **Dilağarda obası** haqqında belə bir rəvayət də danışırlar:

Qara Yusifin qəfil ölümü oğullarını çaşdırmışdı. Hərki-hərkilik baş alıb gedirdi. Ayrı düşən elləri birləşdirmək lazım idi. Belə bir vaxtda Qara Yusifin altıncı oğlu Cahanşah Mirzə irəli durub: **"kimdir mənimlə"** - dedi. Şair ürəkli, şir biləkli şahzadəni taxta çıxardılar. Cahanşah dar günündə ona arxa, dəstək olanları yanına yığıb xüsusi bir qvardiya yaratdı və həmin qvardiyanı **Dile qarde ("qvardiyanın qəlbi")** adlandırdı...

**Dilağarda** obasının Azərbaycanın bəzi ərazilərində oymaqları var. Təkcə Muğanda onların **Alar, Hüseynxanlı, Təpəbaşı, Fətullahlı, Vəliməmmədli, Cahanşahlı, Gözbulaq** və s. oymaqları var. Arazbarda dilağardalıların **Araz Dilağarda** və **Qobu**



**Dilağarda** adlı iki obası vardır. Bəzi məxəzlərdən aydın olur ki, **dilağardalılar** Qarabağ, Talış, Cavad xanlıqlarına xarici təhlükənin aradan qaldırılmasında yaxından köməklik etmişlər...

Görkəmli Azərbaycan şairi Qasım bəy Zakir Arazbar obalarının mülkədarı olmuş Cəfərqulu xan Cavanşirə (şairin onunla arası yox idi) yazırdı:

***Zərgər, Dilağarda aləm-aşikar,***
***Bir ucdan oğurlar, bir ucdan satar,***
***Vay odur sahibi at başı tutar,***
***Yüz yerdən tökülər üstünə çomaq...***

**Dilağarda** oykonimi mənşə etibarı ilə **qaraqoyunlu** tayfa ittifaqına daxil olan tayfanın adındandır. Onlar təxminən 600 ailə olub, Cənubi Azərbaycanda yaşamışlar. Bir çox ehtimallara görə, XV əsrin sonlarında Ağqoyunluların hakimiyyəti zamanı bəzi **Dilağarda tayfası** Araz çayını keçib indiki Füzuli rayonunun ərazisində məskən salmışlar. Bəzi ailələr isə sonralar - XIX əsrin əvvəllərində buraya gəlmişlər. Onlar yayı Talış silsiləsində, qışı isə Cənubi Azərbaycanın Muğan ərazisində keçirərdilər. Füzuli rayonu ərazisində dilağardalıların yaşadığı digər kənd də vardır.

(Bax: **Qobu Dilağarda** kəndi).

## ARAZ YAĞLIVƏND KƏNDİ

*(Bax: Aşağı Yağlıvənd kəndi)*

## ARAZ ZƏRGƏR KƏNDİ

Füzuli rayonu ərazisində, Araz çayının sahilində, Beyləqan-Füzuli şose yolu kənarında, rayon mərkəzindən 40 km şərqdə, Mil düzündə yerləşən kənd **Araz Zərgər kəndi** adlanır. Əhalisi əsasən üzümçülük və heyvandarlıqla məşğul olur. Kənddə məktəb, kitabxana, klub və s. var.

Toponim **Araz** hidronomindən və **Zərgər** oykonimindən ibarət olub, *"Araz çayı sahilində yerləşən Zərgər kəndi"* mənasındadır. **Zərgərlər** Cənubi Azərbaycanda Savalan dağının cənub-şərq ətəklərində yaşamış Azərbaycan tayfalarındandır. Bədii və tarixi ədəbiyyatda zərgərlər haqqında kifayət qədər məlumat verilib. Bəzi məlumatlara görə Zərgər kəndinin əhalisi Səfəvilər dövründən əvvəl Füzuli rayonu ərazisində məskunlaşmışlar. Bəzi məlumatlara görə isə, kəndin əhalisi 1820-ci illərdə Cənubi Azərbaycandan köçürülmüş ailələrdən ibarət olmuşdur.

**Zərgər** tayfaları Qarabağın qədim sakinlərindən hesab olunurlar. Müəyyən tarixi şəraitlə əlaqədar olaraq onların bir qolu şahsevənlərə qoşularaq İrana getmiş və xeyli müddətdən sonra gedənlərin bir hissəsi geri qayıtmışdır. M.V.Baharlı (1890-1937) Azərbaycanda tayfa, nəsil, qəbilə adlarını qeyd edərkən **zərgərli** tayfasının da adını çəkir...

(Əlavə məlumat üçün bax: **Zərgər kəndi** və **Zərgərtəpə**).

## ARAZBAR

Arazbar (Arasbar) toponimi iki komponentdən - **Araz** (çay adı) və **bar** (fars dilində *"sahil"*, *"kənar"*) sözlərindən ibarət olub, "Araz çayı kənarı, sahili" mənasındadır. **Arasbar** sözünü ilk dəfə XIII əsrdə Fəzlullah Rəşidəddin "Məktublar" əsərində işlətmişdir. Türk səyyahı Övliya Çələbinin (XVI əsr) yazdığına görə, Araz çayının nisbətən yuxarıdan töküldüyü ərazi yerli əhali arasında **Arazbar** adlanırmış...

XVIII əsrin sonlarında **Arazbar** Qarabağ xanı Pənahəli xanın atası İbrahim ağanın otlaq yeri olmuşdur. XIX əsrə aid mənbədə Araz çayının Ordubadla Zəngilan arasındakı dar dərədən axdığı yer **Arasbar** adlanırmış. Araz çayının Füzuli rayonu ərazisindəki sahilində əvvəllər (hətta erkən orta əsrlərdə də) yaşayış məntəqələri olmuşdur.

**Arazbar bölgəsi** Araz çayının hər iki sahili boyunca quzeydə Xudafərindən Beyləqana qədər olan bir ərazini əhatə edir.



Güneydə isə bu bölgə tarixi Qərbi Dizmar mahalından başlayıb, Oltan ərazisinə qədər uzanır. Quzey Arazbara **Qarabağ Arazbarı**, Güney Arazbara isə **Qaradağ Arazbarı** deyirlər.

Qədim yunan müəllifləri Strabon və başqaları Arazbar adını **Araksena** kimi işlətmişlər. **Araksena** adı **Arazan** sözünün yunanca tələffüz formasıdır. Əski farslar Arazbara **Ərəsan** deyiblər. Görünür, yunanlar bu deyimi farslardan əxz etmişlər. Onu da qeyd etmək yerinə düşər ki, çağdaş farsdilli ədəbiyyatlarda Arazbar **Ərəsbaran** adlanır.

Orta əsr müəllifləri - Fəzlullah Rəşidəddin, Zeynəddin bin Həmdullah Qəzvini, Şərəf xan Bitlisi, Övliya Çələbi, İsgəndər bəy Münşi, Türkman, Qaraqoyunlu hökmdarı Cahanşah Həqiqi, onun oğlu Sultan Həsənəli, Şah İsmayıl Xətai və başqaları tarixi, coğrafi əsərlərində, fərmanlarında tez-tez **Arazbar** inzibati ərazi adını hallandırmışlar. 1589-cu ildə Osmanlı ordusu Qarabağı ələ keçirmişdi. Məlumdur ki, 1590-cı il İstanbul sülhü səbəbi ilə Azərbaycan bütövlükdə ələ keçirən Sultan Murad tərəfindən əyalətlərdə bürokratik idarəetmə aparatı yaradılmışdı. 1593-cü ildə "Gəncə-Qarabağ əyalətinin icmal dəftəri" hazırlanmış və həmin dəftərdə Dizaq sancağına bağlı Arazbar nahiyəsindən geniş bəhs olunmuş və burada Arazbarın 115 yaşayış məntəqəsinin adı verilmişdir. 1727-ci il tarixli "Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftri"ndə göstərilir ki, Gəncə əyalətinə tabe olan Arasbar livası və Arasbar qəzasına ***Larican, Riyan, Nurpaşa, Sultanlı, Qızqələm, Aşağı Balağay, Balağay, Davudan, Çaxırlı, Babı, Göyşatlı, Yuxarı Yalıncaq, Aşağı Yalıncaq, Xanarxı, Taşqa, Seyidabad, Kələçi Keşli, Köhərli, Köyük, Amadili (Ohaltı), Arslandüz, Qasımabad, Qutuşan, Qaraqovaq, Alaqarğı (Güllü), Xatunabad, Xərələn Kəbirli, Şəkərabad, Ərişə, Eymirli, Qadılı, Yenili, Yenicə, Dərvişbulaq, Dəlmə, Cırğın, Cərgəlan, Mahmudabad, Firdovsabad, Dürrəxanlı, Nehrəbaz, Çatı, Dəstəcu, Tərkibalı, Nəsriyyə, Kələdən, Kərmədən, Diri, Yuxarı Cəcirli, Arığlı, Danıyal, Balçaq Əmir Seyid, Kəli Kamalabad (Cəyirli, Cılğay), Aşağı Gəlincə, Yuxarı Gəlincə, Fəthabad, Aşağı Bala Nürkü, Məhəmmədcəlil,***

*Əbülfətan, Qaraxanlı, Mədətli, Cünan, Soyqaş, Sarıxan, Cəyirli, Seyid Mahmudlu, Qaşqa, İncili, Gənlinci, Çobanbəyli, Sarısu, Yazılmərə, Əmirməhəmməd* adlı kəndlər daxil idi...

**Arazbar** toponiminin tərkibindəki **bar** sözünün XIX əsr qaynaqlarına görə, Azərbaycan dilində *"köç yeri"*, *"hər hansı bir icma yurdu"* anlamları da var. Nominativ anlamda **bar\var** sözü *"alaçıq yeri"*, geniş anlamda isə, *"yaylaq icmalarına məxsus yurd yeri, məskən, otlaq"* mənasındadır. Ümumiyyətlə, **Arazbar** sözü *"Araz yaxası"*, *"Araz çayı kənarı"* deməkdir.

Cavanşir elinə bağlı Yağləvənd, Dədəli, Tamətli, Gecəgözlü, Seyidəhmədli, Qarıbənd, Dəmirli, Seyidmahmudlu, Mollafazilli, Köçərli, Qaraburunlu oymaqları, Otuziki elinə bağlı Barani, Qaraqoyunlu, Mollalar, Eymirli, Ozan oymaqları, Şahsevən elinin Hacıəlili oymağı, Kəngərli elinin 1 oymağı Arazbar sancağında yaşayan el və oymaqlardır...

## ARĞALI TÜRBƏSİ

*(Bax: **Əhmədalılar türbəsi**)*

## ARXAC DƏRƏSİ

Füzuli rayonu ərazisində qeydə alınan oronimlərdən biri **Arxac dərəsi** adlanır. **Arxac dərəsi** coğrafi adı **arxac, dərə** sözlərindən və mənsubluq ifadə edən **-si** şəkilçisindən ibarətdir.

**Arxac** sözü türk dillərində *"dağın arxası"*, *"dağın, təpənin gün düşməyən hissəsi, quzeyi"* mənasında işlədilir. Otlaq şəraitində həm gecələr, həm də hava isti olanda gündüzlər qoyun və qaramalın dincəlməsi üçün düzəldilmiş yerə **arxac** deyirlər. Arxacları baharın əvvəllərində və payızda külək tutmayan, yayda isə adətən bir qədər hündür yerdə düzəldirlər. Müəyyən zaman keçəndən sonra onların yeri dəyişdirilir.

**Dərə** coğrafi termini mənfi relyef forması ifadə edir. Oronimiyada relyefin dar və çökək forması **dərə** sözü ilə ifadə olunur.



Azərbaycanda çöl materialları içərisində 30.000-dən çox **dərə** adı vardır.

Qubadlı rayonunda **Arxac dərəsi,** Gədəbəy rayonu ərazisində **Qara Arxac,** Oğuz rayonunda **Qaynararxac** və s. bu kimi oronimlər də qeydə alınmışdır. XIX əsrdə İrəvan əyalətinin Şərur-Dərələyəz qəzasında **Arxactəpə** toponimləri də öz adlarında **arxac** termininin adını əks etdirir.

## ARIQ BULAĞI

Qarakollu kəndinin quzeyində, rayon mərkəzindən 10 km məsafədə qeydə alınmış hidronimlərdən biri **Arıq bulağı** adlanır. Hidronim **Arıq sözündən** və **bulaq** hidronimik apelyativindən ibarətdir. Yerli əhalinin söylədiklərinə görə, **Arıq** şəxs adıdır. Qarakollu camaatının dilində bu **bulaq** ilə bağlı belə bir əfsanə yaşayır:

Qarakollu kəndində vaxtilə 2 qardaş yaşayırmış. Dünya varından bir cüt öküzü olan qardaşlar hər yaz gələndə Quzey əldəki dağ yamacında yer əkirmişlər. Günəşli yaz səhərinin birində qardaşlar öküzlərini qoşub dağ döşündəki çınqıllı ərazini şumlayırmışlar. Kiçik qardaş yorulduğundan başını bir daşın üstünə qoyub yatır. **Arıq** adlı həmin qardaş bir qədər yatıbmış ki, su şırıltısına yuxudan oyanır. Gözlərini açanda görür ki, ətrafda boş daşlıqdan başqa heç nə yoxdur. Başını yenə həmin daşın üstünə qoyub yatmaq istəyir. Baxır ki, bayaq eşitdiyi şırıltı həmin daşın altından gəlir. Durub həmin yeri qazmağa başlayır. Torpağı bir qədər qazmışdı ki, dağın dibindən göz yaşı kimi su şırnaq eləyib üzü bəri axır. Arığın səsinə əvvəl qardaşı, sonra Qarakollu kənd camaatı tökülüb gəlir. Əli külüng tutan suyun gözünü açır. Əsrlərdən bəri qayanın altında yatıb qalan su başlayır köpüklənə-köpüklənə axmağa.

Səhəri gün kənd camaatı dağın döşündə bir hovuz tikir. Az sonra hovuzun yanında gözəl bir bağ salırlar. Bağda alma, armud,

gilənar, gilas, zoğal, əzgil, qoz, fındıq, tut və başqa ağaclar əkirlər. Deyilənə görə, Qozluçayda ilk qoz ağacı da bu bulağın suyundan qidalanıb. O zamandan da hidronimin adı **Arıq bulağı** qalır...

## ARIŞ KƏNDİ

**Arış kəndi** Füzuli rayonunun mərkəzindən 10 km cənubda, Qarabağ silsiləsinin ətəyində yerləşən kənddir. Kəndin 400 nəfər əhalisi var. Əhali əsasən heyvandarlıq, qismən də üzümçülük və taxılçılıqla məşğul olur. Kənddə klub, məktəb, mədəniyyət evi və s. var.

Bəzi tədqiqatçılara görə, **Arış** toponimi türk dillərində "tayfanın bir hissəsi, qolu" mənasını daşıyır. Orta əsrlərdə Arış yaxınlığında, Ərgünəş dağı ətəklərində yaşayış məskənləri olmuşdur...

1727-ci ilə aid "Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri" adlı tarixi qaynaqda Dizaq nahiyəsinə tabe olan **Arış** ("Dəftər"də kəndin adı **Əriş** (10 ailə) kimi göstərilmişdir) kəndinin də adı vardır. Kəndin tayfa və tirələrinə nümunə olaraq **Allahverdilər, Məhəmmədlilər, Mehdixanlar, Yusiflilər, Əbülhacılılar, İsmayıllılar, Çoqmaqlar, Mollahəsənlilər, Nəbilər, Seyidlər, Vəlilər, Pirseyidlər, Abdullalar** və başqalarını göstərə bilərik.

Yerli məlumata görə, kəndin qədim adı **Arınc** olub. Çox güman ki, kənd iki dağ arasında yerləşdiyi üçün belə adlanmışdır...

## ARIŞ KÖRPÜSÜ

Qoçəhmədi kəndi ərazisində qeydə alınan oroqrafik abidələrdən biri **Arış körpüsü** adlanır. XIX əsrdə inşa edilmiş bu körpü Füzuli rayonunun yerli əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələri siyahısında əsas yer tutur. Körpünün adının **Arış körpüsü** olması Qoçəhmədli yaşayış məntəqəsinin yaxınlığında yerləşən



Arış kəndinin adı ilə bağlıdır. Bu körpü Arış kəndini Qoçəhmədli kəndi ilə birləşdirir. Coğrafi adın tərkibindəki **-sü** şəkilçisi mənsubluq ifadə edir...

## ARMUD AĞACI

Dövlətyarlı kəndindən 3 kilometr aralıda, "el yolu" qırağında, Füzuli-Ağdam avtomobil yolunun kənarında **Armud ağacı** adlı bir coğrafi ad qeydə alınmışdır. Bu cır **armud ağacı** neçə on illərdir ki, buradan ötən minlərlə yorğun adamların istirahət, kölgəlik yeri olmuşdur. Onun meyvəsi adama güc-qüvvət verərdi. Yerli əhalinin dediklərinə görə, kəndin işğalı ərəfəsində **armud** ağacının yarım əsrə qədər yaşı vardı...

## ASLAN DƏRƏSİ

Azərbaycan oronimiyasında şəxs adlarından düzəlmiş müsbət və mənfi relyef formaları olan antroponimik oronimlər mühüm yer tutur. Bəzən antropooronimlər ayrı-ayrı şəxslərin adını əks etdirir. Füzuli rayonunun Horadiz kəndi ərazisində qeydə alınan **Aslan dərəsi** coğrafi adı da bu qəbildəndir. Oronimin tərkibindəki **Aslan** şəxs adıdır.

Toponimin tərkibindəki **dərə** coğrafi termini mənfi relyef forması bildirir. **Dərələr** - axar suların epoziya fəaliyyəti nəticəsində yaranan, xətti istiqamətdə uzanan və talveq üzrə əksərən qeyri-bərabər enən mənfi relyef formasıdır. Dərələr dib və yamac hissələrinə ayrılır. Oronimin tərkibindəki - **si** şəkilçisi mənsubluq ifadə edir.

## AŞAĞI DƏYİRMAN

**Aşağı dəyirman** oroqrafik obyekt adı Yuxarı Əbdürrəhmanlı kəndi ərazisində qeydə alınıb. Adından göründüyü kimi, bu oronim ərazidəki digər oroqrafik obyektdən **aşağıda** yerləşdiyi üçün belə ad almışdır. **Dəyirman** - dənüyütmə texnikası ilə un istehsal edilən müəssisədir. Dəni qədimdə dən daşında, həvəngdə üyüdərdilər. Eramızdan əvvəl II minillikdə əl dəyirmanları meydana gəldi. Əkinçiliyin inkişafı ilə əlaqədar olaraq quldarlıq və feodalizm dönəmlərində su ilə işləyən **dəyirmanlar** yarandı. Orta əsrlərdə yel dəyirmanları da işlədilmişdir...

## AŞAĞI DİVANALILAR KƏNDİ

*(Bax: **Divanalılar kəndi**)*

## AŞAĞI ƏBDÜRRƏHMANLI KƏNDİ

Füzuli rayonunda, rayon mərkəzindən 12 kilometr cənubda, düzənlikdə, Çərəkən çayı sahilində kənd. Əhalisi əsasən üzümçülük və taxılçılıqla məşğul olur. Kənddə klub, mədəniyyət evi, məktəb, kinoqurğu və s. var. **Aşağı Əbdürrəhmanlı** (bəzən kəndin adını **Əbdülrəhmanlı** kimi də yazırlar) yaşayış məntəqəsi erməni işğalı altındadır.

Kəndi **Əbdürrəhmanlı** nəslinə mənsub olan ailələr saldığına görə bu cür adlandırılmışdır. **Aşağı Əbdürrəhmanlı** kəndi keçmiş Əbdürrəhmanlı kəndinin sonradan yaranmış yeni məntəqəsindəndir. **"Aşağı"** cözü kəndi eyniadlı digər yaşayış məntəqəsindən fərqləndirmək üçün işlədilir.

Tarixi qaynaqlara görə, **Əbdürrəhmanlı obası** Cəbrayıllı elinin bir qoludur. Bu yaşayış məntəqəsi XVIII yüzildə yaşamış böyük



nüfuz sahibi **Əbdürrəhman bəy Ağası bəy oğlunun** adı ilə əlaqədardır...

Kəndin **qarakişilər, vəlibəylilər, gödəklər, məşədieyvazlılar, gülüşlülər, hüseynbəylilər** və s. adlı tayfaları var...

## AŞAĞI GÜZLƏK KƏNDİ

**Aşağı Güzlək kəndi** (bəzən adını **Güzdək** kimi də yazırlar) rayon mərkəzindən 15 kilometr cənubda, Qarabağ silsiləsinin ətəyində, düzənlikdə yerləşir. Əhalisi əsasən taxılçılıq, heyvandarlıq və üzümçülüklə məşğul olur. Kənddə məktəb, klub, mədəniyyət evi, kitabxana və s. vardır. Kənd hazırda işğal altındadır.

**"Güzlək"** və ya **"Güzdək"** toponimlərində türk və Azərbaycan dillərində məkan bildirən **"lək"** şəkilçisi iştirak edir. Oronimin tərkibindəki **"dək"** formantı türk dillərində **"d"** səsinin **"l"** səsi ilə əvəz olunması nəticəsində dəyişilən **"lək"** sözünün fonetik variantıdır. Qədim mənbələrdə adı çəkilən **lək/leq** tayfalarını qədim **gel** tayfası ilə əlaqələndirən araşdırıcılar var. Bəziləri **lək** sözünü "hökmran" anlamı ilə mənalandırır....

Çobanlar adətən payızda doğulan quzuya **güz** deyirlər. Elə bəlkə də dilimizdəki **quzu** adı **güzü** sözünün özündən törəyib. Quzunun payız, qış *olacağına* **güz** deyilir...

**"Güzdək"** coğrafi adı iki komponentdən ibarətdir: **"güz"** və **"dək"**. "Güzdək" və ya "Güzlək" oronimi ilə bağlı müxtəlif mülahizələr var. **"Güz"** - **"quz"** etnoniminin fars dilində **"Deh"** - *"kənd"* sözü ilə birləşib, "Oğuz kəndi" mənasını verdiyini söyləyənlər var. **"Güz"** sözü qədim türk dilində *"payız"* və ya *"payız otu"* mənasındadır. Bu mənada **"Güzdək"** toponiminin açması *"payız yurdu"* deməkdir.

**"Güz"** toponimini *"dağın gün düşməyən tərəfi"* kimi, **"dək"** hissəsini isə *"dağ"* kimi mənalandıran tədqiqatçılar da vardır. Yaşayış məntəqəsi XIX əsrdə Güzdək (indiki Yuxarı Güzlək) kəndindən çıxmış ailələrin burada məskunlaşması nəticəsində

meydana gəlmişdir. *"Güzdək"* kəndinin adı türk dillərindəki *"güz"* və ya *"küz"* (payız), *"yer, məkan"* bildirən - *"dək"*, *"lək"* şəkilçisindən ibarət olub *"payız otlağı"*, *"payız binəsi"*, *"payızlıq"* (müqayisə üçün: yaylaq, qışlaq) mənalarındadır.

Abşeronda *Güzdək kəndi, Güzdək dağı, Güzdək dərəsi, Kəlbəcərdə Güzdək yalı* və s. vardır.

## AŞAĞI KƏHRİZ

Yuxarı Əbdürrəhmanlı kəndi ərazisində qeydə alınan hidronimlərdən biri **Aşağı Kəhriz** adlanır. **Kəhriz** - qrunt sularını toplayıb yer səthinə çıxarmaq üçün olan yeraltı qurğudur. Kəhrizlər peşəkar kankanlar tərəfindən qazılır. Kəhrizlərin lağımları bir-biri ilə şaquli quyular vasitəsi ilə birləşdirilir. XIX əsrin ortalarında Azərbaycanda 900-dən çox kəhriz olub...

Hidronimin tərkibindəki **aşağı** sözü onu kənddə, bir qədər aralıda, yuxarıda yerləşən digər kəhrizdən **(Yuxarı kəhriz)** ayırmaq üçün işlədilmişdir. Kəndin ərazisində **Orta kəhriz** adlanan hidronim də qeydə alınıb...

## AŞAĞI KÜRDMAHMUDLU KƏNDİ

**Aşağı Kürdmahmudlu kəndi** rayon mərkəzindən təxminən 32 km şərqdə, düzənlik ərazidə yerləşir. Kəndin əhalisinin sayı 850 nəfərdir. Əhalisi əsasən üzümçülük, baramaçılıq, heyvandarlıq və taxılçılıqla məşğul olur. Kənddə məktəb, klub, mədəniyyət evi, kitabxana və s. var. Bu kənddən çoxlu tanınmış ziyalı şəxsiyyətlər çıxmışdır.

Kəndin adı keçmişdə maldarlıqla məşğul olan **Kürdmahmudlu** tayfasının adındandır. **Aşağı** sözü kəndi eyniadlı yaşayış məntəqəsindən fərqləndirmək üçün işlədilir. **Aşağı Kürdmahmudlu kəndi** Yuxarı Kürdmahmudlu yaşayış məntəqəsindən sonra salınmışdır. Ümumiyyətlə, **Kürdmahmudlu** oykonimi XVI-XVII



əsrlərdə Türkiyənin Van gölündən şərqdə yaşamış, sonralar isə bir hissəsi Cənubi Qafqaza gələn əhalinin bir tayfasının adını özündə əks etdirir.

Tarixi bilgilərə görə, **Kürdmahmudlu** obası **kəngərli** elinin bir qoludur. Onların böyük bir hissəsi Füzuli rayonu ərazisinə XVIII yüzilliyin 50-ci illərində Naxçıvandan gəlmişdir...

**Kürdmahmudlu** toponimi patronimik toponimdir. **Mahmud** sözünün ərəbcə *"tərifli"*, *"təriflənmiş"* mənaları məlumdur. Əskidən olduğu kimi türklərdə və azərilərdə indi də oğlanlara **Mahmud** adı qoyulur...

Ünlü türkçülərdən olan F.Sümər oğuz boylarının adını yazarkən bu boyların sırasında **kürdmahmudlu** adını da çəkmişdir. Kürdmahmudlu yaşayış məntəqəsinin adı kəngərli bağlılığı olan **kürdmahmudlu** tayfası və onların tirələrinin burada məskunlaşması ilə əlaqədardır.

İmişli rayonunda da **Kürdmahmudlu kəndi** vardır. Hazırda Azərbaycanda (İran) və Türkiyədə **kürdmahmudlu** tirələrinin yaşadığı çoxlu sayda yaşayış məntəqələri var...

## AŞAĞI RƏFƏDİNLİ KƏNDİ

**Aşağı Rəfədinli** kəndi Füzuli rayonunun mərkəzindən təxminən 20 km cənubda, düzənlikdə yerləşir. Kənddə klub, kitabxana, mədəniyyət evi və s. vardır.

Kəndin əhalisi əsasən taxılçılıq, üzümçülük və heyvandarlıqla məşğul olur. Kəndi XIX əsrdə keçmiş **Rəfədinli** kəndindən çıxmış ailələr salmışlar. **Rəfədinli** etnonimi kəndin əsasını qoymuş nəslin adıdır. Kənd hazırda işğal altındadır...

1727-ci aid olan "Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri" adlı tarixi sənəddə Dizaq nahiyəsinə tabe olan kəndlər sırasında **Rəfədinli (Rəfdinli)** kəndinin də adı çəkilir. Bəzi tarixi sənədlərdə kəndin adı **Ruhudinli** formasında da göstərilmişdir. **Rəfədinli obası** qədim **qaradağlı** elinin bir qoludur...

## AŞAĞI SEYİDƏHMƏDLİ KƏNDİ

**Aşağı Seyidəhmədli kəndi** rayon mərkəzindən 16 km cənub-şərqdə, Füzuli-Arayatlı şosse yolu kənarında, Quruçayın sahilində yerləşir. Əhalisi iki min nəfərdən bir az çoxdur. Onlar əsasən baramaçılıq, üzümçülük, taxılçılıq və heyvandarlıqla məşğul olurlar. Kənddə məktəb, klub, kinoqurğu, xəstəxana, kitabxana, avtomat telefon stansiyası və s. vardır.

Toponimin adı kəndi salan **Seyidəhmədli** nəslinin adı ilə bağlıdır. **Seyidəhmədli obası** qaynaqların verdiyi məlumata görə, **hacılı** icmasına daxildir. **Seyidəhmədli obası** Cavanşir elinin aparıcı tayfalarından olan **Yağlavənd oymağının** bir qoludur. Bu obanın bəzi tirələri XIX əsrin əvvəllərində Abbas Mirzənin göstərişi ilə Arazdan keçərək Sərab vilayətinə gətirilərək orada məskunlaşmışdır. Bu nəsillərin bir çox nümayəndələri vaxtilə İranda sürgün həyatı da yaşamışdır. Ancaq çox çətinliklə də olsa, Mirzə Camal bəy Məhəmmədxan bəy oğlu bu obanı əvvəlki əski yurduna qaytarmağa nail olmuşdur. Həmin dövrdən sonra obanın bir neçə ailəsi Mirzə Camala rəiyyət kimi verilmişdir.

1727-ci ilə aid Osmanlı qaynağında göstərilir ki, **Cavanşir** tayfasının Yağləvənd oymağına bağlı **Seyidəhmədli** nəsilləri Dizaq nahiyəsində, Köndələn çayının yaxasında əkinçiliklə məşğul olur, məhsullarını torpaq sahiblərinə verir, vergilərini də ödəyirlər. **Seyidəhmədli oymağı** Arazbarda - Xan arxında qışlayır, İrəvan əyalətinin sərhədində - Kilsəgədik adlanan ərazidə yaylayırlar. Hacılı icmasına qatılan **Seyidəhmədli obası** 1842, 1848, 1849, 1863, 1873, 1886-cı illərdə dövlət tərəfindən siyahıya alınmışdır.

**Seyidəhmədli** obası 2 şenliyə - **Aşağı Seyidəhmədli** və **Yuxarı Seyidəhmədli** kəndlərinə ayrılır. Bu kəndlərdə **Qazılı (Qazı** XVIII əsrdə yaşayıb) tayfasının (bu tayfaya **məşədimirzəlilər, məşədihəsənlilər, məmmədqulular, kərbəlayiəbdülxanlılar, həsənqulular, hüseynqulular** adlı tirələr daxildir), **Kərbəlayi**



**Əlipənahbəy uşağı** tayfasının (bu tayfa **əliməmmədbəyli, ələkbərli, əsgərli, kərbəlayi imaməlibəyli, məmmədəlibəyli, cəfərli, hacıimanqulular** tirələrindən ibarətdir), **Kazımlı (Kazım** XVIII əsrin sonu və XIX əsrin əvvəllərində yaşamış, əsasən, heyvandarlıqla məşğul olmuşdur) tayfasının (bu tayfanın **ismayıllı, alılı, ələsgərli, kərbəlayi, paşalı, şükürlü** adlı tirələri vardır), eləcə də, **hacılı, əbülxanlı, bünyadlı, əlizamanlı, hacıməhəmmədli, hacıimamqulular, xəlillilər, kürdmahmudlular, qaragüvəndikli, səfəralılar** və s. tayfaların nəsilləri yaşamışdır...

## AŞAĞI VEYSƏLLİ KƏNDİ

Rayon mərkəzindən 17 km şimal-şərqdə, Füzuli-Ağdam şosse yolunun 5 kilometrliyində, Qarasu çayının sol sahilində, Mil düzündə yerləşir. Kənd əhalisi əsasən üzümçülük, taxılçılıq və heyvandarlıqla məşğul olur. Kənddə səkkizillik məktəb, klub, kitabxana, tibb məntəqəsi, stadion və s. var. Memarlıq üslub xüsusiyyətlərinə görə XIII əsr abidəsi sayılan qülləvari, üçpilləli kürsü üzərində hamar daşdan tikilmiş Mirəli Türbəsi də Aşağı Veysəlli kəndindədir.

**Veysəlli** toponimi özündə **veysəlli** elinin adını əks etdirir. Toponimin əsasını **veysəlli** (**veysəl** sözü ərəbcə "güc, qüvvə", "qərar, hökm, fərman" deməkdir) elinin adı təşkil edir. **Aşağı** sözü onu eyniadlı digər yaşayış məntəqəsindən fərqləndirmək üçün işlədilir. Oykonimi XIX əsrin ortalarında Göyçay qəzasında yaşamış **veysəlli** elatının adı ilə bağlayanlar da vardır...

Tarixi qaynaqlardan məlum olur ki, **Otuz iki** tayfasının **Veysəlli** adlı oymağı da olub. Bu oymaq qışı Vərəndə nahiyəsinin Hacıözü adlı ərazisində qışlayır, Toxtadaş, Alpağüd, Xonaşen, Qozlu, Qatardaş, Çaqmaq və Üçtəpə adlı yerlərdə yaylayır. Bu oymağın əhalisi Oxbulaq və Qoşacıqlar adlanan ərazilərdə əkinçiliklə (qismən isə heyvandarlıqla) məşğul olur, üşr və behrəni torpaq sahibinə verir. **Veysəllilər** Otuzikilərin bir qoludur.

Veysəllilərin **məhəmmədxanlar (məhəmmədxanuşağı), nurməhəmmədlilər, məşədibehbudlar, əhmədlilər, məmmədlilər, əlirzalar, şahgəldilər, qoşunəlilər, doluxanlar, şamxallılar, ramazanlılar, kazımlılar, şahverdilər, seyidəhmədlilər, əlişirlilər, azadəlilər, ağamirlilər, allahqulular, mirilər** adlı tayfa və tirələri var.

1 iyul 1873-cü il tarixdə Cəbrayıl qəzası yarananda Qarabulaq nahiyə statusu alaraq Cəbrayıl qəzasının tabeçiliyinə verildi. Bu zaman pərakəndə halda olan bir çox kənd və obalar Qarabulaq nahiyəsinin tərkibinə qatıldı. Onların içərisində **Veysəlli** kəndinin də adı vardı...

Göyçayda və Cəbrayılda da **Veysəlli kəndi** mövcuddur.

## AŞAĞI (ARAZ) YAĞLIVƏND KƏNDİ

Rayon mərkəzindən 45 km cənub-şərqdə, Araz çayının sol sahilində, düzənlikdə yerləşən kənd. Əhalisi təxminən 1300 nəfərdir. Əhali əsasən taxılçılıq, üzümçülük və heyvandarlıqla məşğuldur. Kənddə orta məktəb, kitabxana, tibb məntəqəsi, doğum evi, mədəniyyət evi, musiqi məktəbi, dəmiryol stansiyası, stadion, park, dəyirman və s. vardır.

XIX əsrə aid sənədlərdə Cəbrayıl qəzasında maldarlıqla məşğul olan elatlardan biri **yağlavənd** adlanırdı. Toponim həmin elatın adını özündə əks etdirir.

Tarixi qaynaqlardan məlum olur ki, **Yağlıvənd (Yağləvənd) oymağı** Cavanşir tayfasına daxildir. Bu oymaq **Arasbar** sancağında, Xan arxında qışlayır, əkinçilik və heyvandarlıqla məşğul olurdu. 1727-ci ilə aid olan "Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri" adlı tarixi sənəddə Cavanşir elinin **Yağləvənd** oymağı ilə bağlı məlumatlar verilmişdir. Orada göstərilir ki, bu oymaq Kür çayı kənarında, Xan arxı tərəfdə, eləcə də, Köndələn və Kamalkənd çayları kənarında, Aral və Həsirkörpü adlanan



ərazilərdə qışlayır, İrəvan sərhədində - Güney, Zilxaç, Pərixan və Yaxınlı adlı sahələrdə yaylayırlar. Bu oymağın əhalisi Dizaq nahiyəsində Köndələn çayı kənarında əkinçiliklə məşğul olur, üşr və bəhrələrini torpaq sahibinə verirlər...

Yağlıvənd oymağının **Bərxudarlı, Əhmədli, Mirməhəmmədli, Şahverdili, Haqverdilər, Dərvişlər, Hafsalı, Kovxalı, Külədərli, İrənşəlli, Lələli, Qədirli, Aşırlı, Xələfli, Xosrovlar, Qurbanlar, Nəbilər, Novruzlar, Tanrıqulular, Mahmudlar, Qazıxanlar, Dostuxanlı, Seyidxanlar, Qasımlar, Niyarlı, Məhərrəmuşağı, İsalılar, Bağdadlılar, Dəmiroğlular, Lətiflilər, Tağılılar, Ocaqqulular, Şəkərlər, Dünyamalılar, Diyarxanlar, Məhəmmədlilər, Zeynalxanlar, Allahqulular, Şəriflilər, Qırzəlilər, İmamqulular, Təhmaslılar, Seyid Salehlər, Pəricahanlı, Qıvlıyalı** və başqa nəsil-tirələri mövcuddur...

Yağlıvənd kəndinin sayı (**Aşağı Yağlıvənd** və **Yuxarı Yağlıvənd** kəndləri) onu göstərir ki, *Yağlıvənd* əhalisi qışlaq və yaylaq həyatı keçirmişlər. Çox güman ki, kəndin yerləşdiyi indiki yerdə əvvəllər də yaşayış məntəqəsi mövcud olmuşdur...

Qaynaqlar xəbər verir ki, son orta əsrlərdə daimi yaşayış yeri axtaran əhali Araz çayı kənarında xaraba bir yaşayış məskəni olduğunu görüb burada məskunlaşmışdır. Bu da bir məntiqdir ki, özgə tayfalar burada gəlib məskunlaşa bilməzdilər; deməli, bu ərazidə - **Araz Yağlıvənd** kəndində elə bu yaşayış məntəqəsi əhalisinin ulu babaları yaşamışlar...

**Yağlıvənd** toponimini *"yağmalanmış"* anlamı ilə də əlaqələndirənlər var. **Vənd** termininin fars dilində *"ev"*, *"oba"*, *"kənd"*, *"zirvə"* mənaları da var. İran dillərində **vənd** sözünün *"nəsil"*, *"törəmə"*, *"uşağı"* və s. anlamları da məlumdur...

Kənddə **Kovxalı tayfası** (muradxanlı, səfiqulubəyli, ağakişibəyli, şərəfxanlı, azmanlı), **Havsalı tayfası** (xələfli, pəricahanlı, məhərrəmuşağı, kəlbiyəlilər, niyarlılar), **Külədərli tayfası** (abbasqulular, əmirmuradlılar, mirzəli, rüstəmli, ibalı, həsənli, kazımlı, ismayıllı, qırdılı, axıhüseynli, qaralılar, qasımlılar), **Bədirli tayfası** (adıgözəlli, əsədli, eminalılar), **İrənşəlli**, **Lələli** (Məşədiqulu, möhnətli, rəsullu,

seyidli), **Hümbətalılar**, **Aşırlı**, **Alısəfərli** (bayramlı, nəbili), **Ciyəli** (fərhadlı, baxışlı), **Aslanalılar, Teymurlu, Məmmədli** və s. tayfalar vardır...

Deyilənə görə, Əmir Teymur qışlamağa həmişə Qarabağa gələrmiş. Bir dəfə də o, düşərgəsini Külədərli obası ilə qonşu salır. Oba ağsaqqalları Əmirlə görüşmək üçün onun düşərgəsinə gedirlər. Əmir Teymur onları qəbul edib keflərini soruşur, hal-əhval tutur. Ağsaqqallardan biri qayıdıb deyir ki, lap xan kefində dolanırıq. Bu söz Teymura təsir edir və o deyir:

- Əgər sabah mənim bütün qoşun əhlimi yedirib-doyurmasanız, obanızı viran edəcəyəm. Torpağınızı at torbası ilə daşıtdırıb yerinə sarımsaq əkdirəcəyəm. Di, gedib hazırlıq görün!

Teymurla görüşə gələnlər kor-peşman, yersiz danışan həmin adamı da danlaya-danlaya geri qayıdırlar. Onların nəyi vardı ki, Əmir Teymura da nə versinlər. Qoşunun da bir ucu burda, bir ucu da Xudafərin körpüsündə. Nə isə, ağsaqqallar, başbilənlər toplanıb belə məsləhətə gəlirlər ki, qoşun əhli üçün yağlı plov bişirsinlər. Beləliklə, qazanlar asılır. Sabah günorta naharında qoşun əhlindən kim əlini uzadıb plovdan bir pəncə alırsa, elə o an da «doydum» deyib kənara çəkilir. Söz gedib Əmirə çatır. Teymur əmr edir ki, plovdan bir bulud onun özünə də gətirsinlər. Plovu gətirirlər. Teymur plovdan bir tikə ağzına qoyan kimi işi başa düşür. Plov büsbütün yağ idi. O, gülümsəyərək deyir:

- **Yağlı fənd** işlətməklə yaxşı canınızı qurtardınız.

Elə həmin gündən də Külədərli obasının adı **Yağlıvənd (Yağlıfənd)** qalır...

**Yağlıvənd** sözünün tərkibindəki **ləvənd** adının bir anlamı da "soyğunçu", "yağmaçı" mənasına uyğun gəlir. Türkoloq V.R.Radlova görə, **ləvənd** sözünün "azad", "sərbəst", "əsgər", "avara", "igid", "cəsur", "məğrur" anlamları da var. **Ləvənd** sözünün dilimizdə "tənbəl", "çox yeyən", "qarınqulu" mənaları da vardır. Bu söz toxuculuq termini kimi də işlədilir.

Son orta əsrlər dövründə Azərbaycan dövlət qurumlarında müxtəlif tayfalardan toplanmış qeyri-nizami hərbi dəstələrə,



çəriklərə **ləvənd** deyilirdi. Bu çəriklər yürüşlərdə könüllü iştirak edir, yağma hesabına dolanırdılar. **Ləvənd** sözü osmanlılarda *"dəniz piyadası"* anlamında da işlənirdi.

**Yağlıvənd** sözünün mənası **yağıləvənd** deyimindən törəndiyi üçün *"qiyamçı əsgər"* deməkdir. Əlbəttə, bu sözün mənasını başqa yerə yozanlar da var...

Deyilənlərə görə, bir gün Əmir Teymur yenə qışlamaq məqsədilə Arazbarın Haramı düzü deyilən yerinə gəlir. Niyyəti bu olur ki, yaxınlıqdakı obalardan ərzaq, ot-ələf alıb bütün qışı burada keçirsin. Başının dəstəsi ilə yaxın obalara baş çəkməyə çıxır. Öncə Yağlıvənd obasına tərəf gəlir; ora yetişcək bələdçidən soruşur:

- De görüm bu düzün adı nədir?

Bələdçi deyir:

- Haramıdır, qibleyi-aləm.

- Bəs o obanın?

- Yağlıvənddir, - qibleyi-aləm.

Əmir Teymur üz-gözünü turşudur:

- Baho, bu yerlərdə çox qalmaq olmaz. Bunlar özləri elə haramı, yağıdır. Bizə heç nə verməzlər, atlanın, gedək üzü o yana...

**"Yağı"** türk dilində *"düşmən"*, *"qiyamçı"*, **"Ləvənd"** isə *"dəniz piyadası"* və ya *"tayfalardan toplanmış qeyri-nizami ordu"*, yaxud da *"hərif"*, *"vecsiz"* mənasında işlənir. **"Vənd"** hissəciyi *"yer"*, *"məkan"* mənasında işlənir. *"Vənd"* hissəciyinin *"yer"*, *"məkan"* mənasında olduğunu nəzərə alsaq, kəndin adının etimoloji çalarını *"Yağlı yer"* kimi xarakterizə etmək olar. **Yağlıvənd** toponimi ilə bağlı çoxlu əfsanə və rəvayətlər mövcuddur. Onlardan bir neçəsini yada salaq:

1. Bu yerin başçısı ərizə, şikayət və xahiş üçün yanına gələnlərə həmişə yağlı vədlər verdiyindən yaxın məskənlərin əhalisi bu ərazini **Yağlıvəd** adlandırmışlar.

2. **Yağlıvənd** sözündəki **"vənd"** komponentini **"fənd"** forması ilə əlaqələndirənlər də vardır. Bu da onunla bağlıdır ki, buranın sakinləri guya çox fəndkir insanlar olub, başqalarını asanlıqla aldada bilmişlər.

3. Ağa Məhəmməd şah Qacar Şuşaya hücum ərəfəsində kənd əhlinə onun qoşununu doyurmağı əmr edir. Fəndkir yağlıvəndlilər **fənd** işlədib, yağlı plov bişirir və beləliklə, qoşunu doyuraraq Qacarın zülmündən qurtulurlar...

**Aşağı** sözü **Yağlıvənd** komponentinin əvvəlinə onu eyniadlı başqa yaşayış məntəqəsindən fərqləndirmək üçün əlavə edilib. Araz çayı sahilində yerləşdiyi üçün kəndin adına **Araz Yağlıvənd** də deyirlər.

(Əlavə məlumat üçün bax: həmçinin **Yuxarı Yağlıvənd kəndi**).

## AT DAŞI

**At daşı** oroqrafik obyekti Merdinli kəndinin qəbiristanlığında qeydə alınmışdır. Yerli məlumata görə, **daşdan** yonulmuş bu **at** fiqurunun ən azı 350 il yaşı vardır. Əhali bu **At daşını** müqəddəs hesab edir. Son vaxtlara qədər (işğala qədər) **At daşı** ziyarətgah idi. Adamlar buraya gələrək ürəklərində niyyət tutub nəzir də verərdilər...

## AYIBASANLI KƏNDİ

**Ayıbasanlı (Aybasanlı) kəndi** rayon mərkəzindən 2 km məsafədə, düzənlikdə yerləşir. Əsl adı **Yuxarı Ayıbasanlıdır**. "Yuxarı" sözü fərqləndirici əlamət kimi başa düşülməlidir. **Ayı** və **basar** sözləri bu toponimi əmələ gətirir. Yerli məlumata görə, lap əvvəllər burada tez-tez ayı görərmişlər. Talış, Böyük və Kiçik Qafqaz dağlarının meşələrində qonur ayı vardır. Azərbaycanda tərkibində **ayı** adını əks etdirən çoxlu sayda oronimlər vardır.

**Ayıbasanlı tirəsi** Cavanşir tayfasına məxsusdur. Kənd Cavanşir tayfasının **ayıbasanlı** (aybasanlı) tirəsinin burada məskunlaşması nəticəsində yaranmışdır. Oykonimi **Əyyub Həsənli** formasında izah etməyə cəhd göstərən araşdırıcılar da var.



Mənbələrin məlumatına görə **aybasanlılar (ayıbasanlılar)** sərhəd boyunda çapar kimi də xidmət etmişlər. **Hacılı** icmasına daxil olan **Ayıbasanlı (Aybasanlı)** obasının əhalisi dövlət tərəfindən 1842, 1849, 1863, 1873, 1886-cı illərdə siyahıya alınmışdır. Bu obanın əhalisi əsasən heyvandarlıq və əkinçiliklə məşğul olmuşlar.

**Aybasanlı** obasının **Səfərəli, Gülməmmədli, Allahverdili, Qululu, Məmmədhəsənli, Ağalarlı, Əliqulular, Tanrıverdilər, Həsənseyidxanlar, Abdullalar, Bayramalılar, Zeynallılar, Novruzlular, Qaralar, Xudaqulular, İsmixanlar, Baxşalılar, Camallar, Atakişilər, Mirzalılar, Nəcəfqulular, Əlibəylilər, Əlişahməmmədlilər, Şükürlülər, İbrahimlilər, Zeynalabdinlilər, Gülmalılar, Rüstəmlilər, Mirzə Əliaslanlılar, Qurbanlılar, Molla Əli Əkbərlilər, Məmmədcəfərlilər, Ərəbəli Qulular, Nəzərlər, Şahverənlər, Ərəbxanlı, Oruclu, Nəsrullahlı, Hüseynqulular, Cəfərqulular, Mahmudlular, Kərim Kərbəlayi Məmmədəlilər, Adına Həzrətqulular, Mehdi Səfərəlilər, Kərbəlayi Məmmədtağılar, Xankişilər, İmamqulular...** adlı tayfa və tirələri məlumdur.

**Aybasanlı** obasının ən ünlü tayfalarına nümunə olaraq aşağıdakıları göstərə bilərik:

**Oruclu tayfası** - bu tayfanın ulu babası olan **Oruc** XVIII əsrdə yaşamış və heyvandarlıqla məşğul olmuşdur. Onun **Allahqulu** (1772-1882) adlı oğlu olub. Allahqulunun (o, həm də molla idi) Qulu, İman, Səməd, Həzrətqulu adlı oğulları vardı. Qulunun **Mehralı, Gülmalı, Qurbanlı, Kəlbalı, Səfi Ağaverdi,** İmanın **Qəhrəman** və **Qurban,** Kərbəlayi Səmədin **Şahverdi, Haqverdi, Xudaverdi** və **Mövlamverdi,** Həzrətqulunun **Adına, Əmrah, Təhməz, Məmmədrza** adlı oğlanları var idi...

**Camallı tayfası** - bu tayfanın ulu babası **Novruz** XVIII əsrdə yaşayıb və əsasən heyvandarlıqla məşğul olub. Onun **Camal** adlı oğlu 1788-ci ildə Aybasanlı obasında doğulub. Camalın **Hüseynqulu, Nəcəfqulu, Cəfərqulu, Əhməd, Novruz** adlı oğlanları olub. Hüseynqulunun **Bayramalı, Orucalı** və **Qasımxan** adlı,

Məşədi Nəcəfqulunun **Baba, Səməd, İbrahim, Rəhim, Abbas** və **Dünyamalı** adlı, Cəfərqulunun isə **Həmzə** adında oğulları olmuşdur...

**Ərəbxanlı tayfası** - bu tayfanın ulu babası **Ərəbxan** (1752-1812) XVIII əsrin II yarısı, XIX əsrin əvvəllərində yaşayıb. Onun **Əliqulu, Xudaqulu** və **İmamqulu** adlı oğlanları olub. Əliqulunun **Səfəralı, Cəfər, Ərəb, Məmmədtağı, Nağı** və **Məmməd**, Xudaqulunun isə **Məmmədqulu, Rzaqulu, Mürsəlqulu, Hüseynqulu, Həsənqulu** adlı oğulları olmuşdur...

**Nəsrullah tayfası** - bu tayfanın ulu babası **Nəsrulluh** XVIII əsrin sonları, XIX əsrin əvvəllərində yaşamış və əsasən heyvandarlıqla məşğul olmuşdur. Nəsrullahın **Gülməmməd, Allahverdi, Səfərəli** və **Məmmədəli** adlı oğlanları vardı. Məşədi Gülməmmədin **Hüseyn, Hüseynxan, Məmməd,** Kərbəlayi Allahverdinin isə **Həsənxan, İbrahim, Rüstəm** və **Mirzəlı** adlı oğulları olub...

Obanın **Mahmuduşağı, Zeynallı, Qululu** adlı tayfaları da var. Kənd hazırda erməni işğalı altındadır.

SSDNZK kitabında Gəncə quberniyasının Cəbrayıl qəzasında 53 evdən, 308 nəfər əhalidən ibarət **Aybasanlı** adlı bir kəndin, AUPKKK əsərində isə Qaryagin qəzasında **Aybasanlu** adı iki kəndin olduğu göstərilir. Görünür, bu kəndlər **aşağı** və **yuxarı** adları ilə fərqləndirilmişdir. **Aybasanlı** kəndinin səma cismi olan **Ay** ilə heç bir əlaqəsi yoxdur. Bəzi sənədlərdə kəndin adı **Ayıbasanlı** kimi də yazılır. İƏB və ATD kitablarında kəndin adı **Aybasanlı** şəklində yazılmışdır...

**"Basan"** feli-sifəti "məğlub edən", "qələbə çalan" mənasındadır. **"Ayıbasan"** türk mənşəli antroponimin hər iki komponenti arxaikləşmişdir. Ölkəmizdə **ayı** heyvan adı ilə adlandırılan oroqrafik terminlərdən düzəlmiş çoxlu oronimlər vardır: **Ayı vurulan qaya, Ayıçınqıllı dağı** (Kəlbəcər), **Ayı öldürülən yer** (Zaqatala), **Ayı dağı** (Cəbrayıl), **Ayı mağarası dağı** (Qubadlı), **Ayı dərəsi** (Qax, Qubadlı, Ağsu, Şahbuz rayonları) və s.



## AZIX MAĞARASI

Azərbaycanda ən qədim karst mağarası olan **Azıx mağarası** Füzuli şəhərindən 15 km qərbdə, Quruçayın sol sahilində, dəniz səviyyəsindən 900 m hündürlükdə yerləşir. Mağaranın yerini ilk dəfə Bəşir və Lətif Cahangirov qardaşları tapmışlar. Böyük Tağ kəndində dil-ədəbiyyat müəllimi işləyən Bəşir müəllim (onun 40 ildən artıq pedaqoji stajı vardır, Tuğdan Böyük Tağ kəndinə hər gün 8 km-lik yolu meşələrin içi ilə piyada gedib gələrdi. Burada mağara olduğunu o, BDU-nun tarix fakültəsində dekan müavini işləyən qohumu Baxşalı Zülfüqar oğlu Yeganova bildirmiş, o da öz növbəsində tarix institutunun Arxeologiya şöbəsinə bu barədə məlumat vermişdir. Məhz bundan sonra 1960-cı ildə tarixçi-arxeoloq M.Hüseynovun rəhbərliyi ilə mağarada tədqiqat işlərinə başlanılmışdır.





Mağarada dar keçidlərlə birləşmiş 6 salon var. Ən böyüyü 3-cü salondur. Mağaranın 2 girişi var. Mağara Aşağı Paleolit dövrünə aid nadir abidədir. Azıx mağara düşərgəsində aparılan arxeoloji qazıntılar zamanı 10 təbəqə qeydə alınmışdır. **1968**-ci ildə mağaradan Aşöl dövrünə aid ibtidai insanın - **Azıxantropun** (19 yaşlı qadının - N.T.) çənə sümüyünün (professor D.Hacıyev müəyyən edib ki, tapılmış bu çənə keçmiş SSRİ ərazisində ən qədim insan

çənəsi olub) bir hissəsi tapılıb. Azıxantropun yaşı 350-400 min ilə bərabərdir. Azərbaycan arxeologiya elminin nailiyyəti olan bu tapıntı yaşının çoxluğuna görə dünyada **üçüncü** tapıntıdır.

**Azıx Paleolit düşərgəsi**ndə aşkarlanmış maddi mədəniyyət nümunələri özünün xüsusiyyətlərinə görə yeni bir mədəniyyət olduğunu söyləməyə imkan vermiş və **Quruçay mədəniyyəti** adlandırılmışdır. Quruçay mədəniyyətinin bir neçə inkişaf mərhələsi olması da elmi şəkildə aşkarlanmışdır.

Arxeoloji cəhətdən mağara 1960-cı ildən öyrənilir. Mağaradan Preneandertal - Azıxantropun alt çənə sümüyünü mərhum arxeoloq-alim **Məmmədəli Hüseynov** 1968-ci ilin yayında (23 iyun) aşkara çıxardı. Bu abidə Qarabağın Füzuli bölgəsində paleolit dövrünün mövcudluğunu sübut edir. Aşağı Antropogen dövrünə aid yeganə çoxtəbəqəli abidə olan **Azıx mağarası** mağara tipli insan düşərgələrindən ən qədimidir. Füzuli rayonunun ərazisində təxminən milyon il bundan əvvəl yaşayış olduğunu sübut edən **Azıx mağarası** arxantropların və daha qədim adamların məskəni olmuşdur.

Azıx mağarasının və onun ətraf zonasının paleocoğrafi şəraitinin tədqiqi nəticəsində elmi şəkildə sübut olunmuşdur ki, Azıx mağarasında ilk ibtidai insan **1,2 milyon il** bundan əvvəl məskunlaşmış, **120 min il** əvvəl isə mağaranı tərk etmişdir. Lakin insanlar **20 min il** keçdikdən sonra yenidən mağaraya qayıtmış və burada daha **50 min il** yaşamışlar. Paleolit dövrü arxeoloji abidələrindən sayılan **Azıx mağara düşərgəsi** dünya əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidəsidir.

Dünyada elə bir mağara düşərgəsi yoxdur ki, orada mədəni təbəqələr Azıxdakı kimi zəngin olsun və yaşayış uzun müddət davam etsin. Əfsuslar olsun ki, dünya əhəmiyyətli **Azıx mağara düşərgəsi** neçə illərdir ki, erməni tapdağı altında inləyir...



## BABI KƏNDİ

**Babı kəndi** rayon mərkəzindən 35 kilometr cənub-şərqdə, Araz çayının sol sahilində, düzənlikdə yerləşir. Kəndin min nəfərə qədər əhalisi var. Onlar taxılçılıq, üzümçülük, baramaçılıq və heyvandarlıqla məşğul olurlar. Kənddə orta məktəb, xəstəxana, poliklinika, elektrik dəyirmanı, klub, tibb məntəqəsi, uşaq bağçası, kitabxana, rabitə şöbəsi və s. vardır. Kənd işğaldan azad olunub.

Böyük Vətən müharibəsinə getmiş 28 nəfər kənd sakinindən 14-ü geri qayıtmamışdır. Qarabağ döyüşlərində kəndin 5 nəfər sakini (Marks, Seyfulla, Mirzə, Elşad, Sirac) şəhidlik zirvəsinə ucalmışdır. Kənddən 3 nəfər Sosialist Əməyi Qəhrəmanı, 3 nəfər alim, 6 nəfər həkim, 4 nəfər xanəndə, müğənni, 40-dan çox müəllim və başqa tanınmış adamlar çıxmışlar...

Bəzi tədqiqatçılara görə, **Babı** oykonimi keçmişdə köçəri həyat tərzi keçirən **Bavi** adlı ərəb tayfasının adını özündə əks etdirir. Bir çox araşdırıcılar isə onu kəndin yaxınlığındakı qəbiristanlıqda mövcud olan XIII əsr abidəsi Şıx Veys **(Şıxbaba)** adlı pir-türbə ilə əlaqələndirir. Türbənin kitabəsində onun 1272-ci ildə **Şeyx Babı Əbu Yəqub ibn Səd** tərəfindən tikildiyi göstərilib.

Babı kəndi Füzuli rayonunun ən əski yaşayış məntəqələrindən biridir. Bu yaşayış məntəqəsi bəylərbəylik dönəmində Arazbar qəzasına, xanlıq zamanında isə Xırdapara Dizaq mahalına tabe olmuşdur. Son orta əsrlərə aid olan bir çox tarixi sənədlərdə Babı kəndinin adı çəkilir.

Babı kəndində **seyfəlilər, hümbətlilər, qürbətlilər, dağşəkililər, usublular, mollallar və** başqa tayfa və tirələr vardır...

1727-ci ildə Osmanlı sultanı Sultan III Əhmədin fərmanı ilə hazırlanan və "Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri" adlanan vergi-reyestri dəftərində Arazbar sancağına daxil olan kənd və oymaqların sırasında **Babı** yaşayış məntəqəsinin adına da rast gəlirik.

Kəndin **Babı** adlanmasını bəzi araşdırıcılar XIII əsrdə yaşamış böyük nüfuz sahibi olan sufi şeyxi **Babi Yəqubun** adı ilə

əlaqələndirirlər. **Babi** sözü ərəb dilində **"**qapı" "darvaza" "əlavə qapı" anlamı ifadə edir. Kəndin yerləşdiyi ərazi Xudafərin körpüləri yaxınlığında olduğu, şimaldan cənuba və əksinə gedən karvanlar burada qarşılaşdığı və nəhayətdə **qapı** funksiyasını oynadığı üçün kənd belə adlandırılmışdır. Deməli, Babı kəndi "şimalla cənub arasındakı qapı" mənasındadır. Çox güman ki, **Şeyx Babi Yəqub** özünü başlamış olduğu ideologiyanın "qapısı" hesab etdiyi üçün özünə **Babi (Babı)** ləqəbini götürmüşdür...

## BABI TÜRBƏSİ



**Türbələr** dövrün görkəmli şəxslərinin xatirəsini əbədiləşdirmək üçün onların qəbirlərinin üzərində inşa edilən memarlıq abidəsidir. Onlar **xatirə** məqsədilə tikilir.

**Babı türbəsi** Babı kəndinin yaxınlığındakı qəbiristanlıqda yerləşir. Türbənin kitabəsi üzərində onun hicri 670 -ci ildə (miladi 1272-ci il) şeyx Əbu Yaqub ibn Səd tərəfindən tikildiyi qeyd olunub. Bu ansambl-abidədən indi ancaq türbə və zədələnmiş minarə qalmışdır. Türbə planda səkkiz güşəlidir. O, ağ daşdan hörülüb, üst hissəsi isə səkkizbucaqlı çatma günbəzlə örtülüdür. Türbənin günbəzi bir qat sıra daşdan hörülüb. Ornament bəzəklərinə görə Əcəmi memarlıq məktəbinin təsiri duyulur. Bəzi məlumatlara görə, abidə görkəmli Azərbaycan ilahiyyatçısı, şair, filosof, sərkərdə Şeyx Babi Yaqubun şərəfinə ucaldılıb. Bəlkə də, elə bu səbəbdən el arasında bəzən ona **Şıxbaba türbəsi** də deyirlər.



Göründüyü kimi, **türbə** minarədən ayrı düşmüşdür. Bəzi mülahizələrə görə minarənin türbədən ayrılmasına səbəb ya ildırım vurma, ya da top mərmisinin dəyməsi olmuşdur...

Orta əsrlər dövrünün tanınmış tədqiqatçısı A.Brozqula və akademik T.Roskovski "**Şeyx Babı Yəqub**" türbəsinin XII əsrə aid olduğunu iddia edirdilər. Sonralar professor V.Kraçkovskaya da **"Şeyx Babı** türbəsinin öyrənilməsi tarixinə dair" məruzəsində Brozqula və Roskovskinin fikirlərini təsdiqləmişdir. 1940-cı illərdə Peterburq Akademiyasının şərqşünas alimi M.Xonikov da **Babı türbəsi** haqqında maraqlı açıqlamar vermişdir.



XX əsrin ortalarında rus alimləri ilə yanaşı Azərbaycan alimləri (Ə.Salamzadə, Ş.Fətullayev, M.Nemətova, K.Məmmədzadə və s.) də **Şeyx Babı Yəqub** türbəsinin öyrənilməsi istiqamətində maraqlı araşdırmalar aparmışlar. Onlar bu fikrə gəlmişlər ki, Füzuli rayonu ərazisindəki **Babı** və Əhmədalılar türbələri Naxçıvan (Əcəmi) memarlıq məktəbinin təsiri ilə inşa edilmişdir. Babı kümbəzinin yerləşdiyi ərazi araşdırıcılar tərəfindən **Xanəgah** adlandırılmışdır.

Kümbəzin kitabəsinin üzərindəki yazıların tərcüməsi belədir: "Bu müqəddəs məqbərə Zahid, Kamil, Şeyx Babı Yəqub ibn İsmayıl Qur Xər üçün tikilməsinə 672-ci ildə əmr olunmuşdur. Yer üzərində nə varsa, hamısı məhv olacaqdır". Daş kitabədə qeyd olunan bu sözlər burda dəfn edilənin sufi şeyxi olduğunu, məqbərənin müqəddəs ziyarətgah, Şeyxin kamil və zahidliyini ifadə edir. M.Nemətova kitabədəki **Zahid, İsmayıl, Qur Xər** ləqəblərini tarixi qaynaqlarla əlaqədar araşdırmışdır...

Tarixi mənbələrdən aydın olur ki, Şeyx Babi Yəqub öləndən sonra da onun işini müridləri davam etdirmişdir. Eyni zamanda qaynaqlarda göstərilir ki, bu hərəkat Azərbaycanın digər ərazilərini də əhatə etmişdir. Kitabədə Şeyx Babi Yəqubun **İsmayıl, Qur Xər** oğlu kimi qeyd olunması onun İsmaillər hərəkatı ilə əlaqəli olmasından xəbər verir. Qarabağda, Arranda, Azərbaycanın digər ərazilərində aşkar olunmuş bu tipli daş kitabələr İsmaillər hərəkatının burada da yayılmış olduğunu sübut edir. Əgər mövcud tarixi qaynaqlara istinad etsək, deyə bilərik ki, **Şeyx Babi Yəqub** Qarabağda və Arranda böyük nüfuzu, hörməti olan sufi şeyxi olmuşdur.

**Şeyx Babı türbəsi** ölkə əhəmiyyətli daşınmaz tarix və mədəniyyət, memarlıq abidəsi hesab olunur. *Şeyx Babı Yəqub* türbəsi yanında qədim hamam xarabalığı da aşkar edilmişdir.

Yerli əhalidən eşitmişdim ki, türbədən Əhmədalılar kəndinə və İrana yeraltı yol var. Maraq üçün oraya getdim. Gördüm ki, bu yollar var, amma burada əsaslı arxeoloji qazıntılar aparılmadığından yolların istiqamətini müəyyən etmək çətindir. Kümbəzdən azacıq aralıda hamam xarabalığı var. Yeraltı hissəsi salamat qalan bu hamamın divar ornamentləri göy firuzə rəngli mozaika ilə bəzədilmişdir...

## BABINOVU

Rayonun Horadiz kəndi yaxınlığında qeydə alınan oronimlərdən biri **Babınovu** adlanır. Toponimin tərkibindəki **babı** sözü çox güman ki, keçmişdə köçəri həyat tərzi keçirən **babı (bavi)** adlı ərəb tayfasının adını özündə əks etdirir. Oronimi XIX əsrin ortalarında İranda "**Bab**" takma adlı Mirzə Əli Məhəmməd tərəfindən ortaya atılan **babi** dini təriqəti ilə də əlaqəndirirlər. Füzuli rayonunda, **Babınovu** ərazisindən 8 km cənub-şərqdə **Babı** kəndi də vardır. **Babınovu** sözünün tərkibindəki **nov** komponenti fars dilində "su oluğu" anlamına uyğun gəlir...



## BADAR OYMAĞI

Vaxtilə Arazbar qəzasında, indiki Füzuli rayonu ərazisində Qarabağın sayılıb-seçilən ellərindən olan Otuziki elinin **Badar** adlanan **oymağı** olmuşdur. Bu coğrafi ad Bəhmənli və Horadiz kəndləri yaxınlığında qeydə alınmışdır. **Badar oymağı** toponimi öz adında **otuziki elinə** aid olan oymağın adını əks etdirir.

1593-cü ilə aid olan Osmanlı qaynağında Otuziki elinin oymaqlarının sırasında **Badar** (Arazbar qəzası) adına da rast gəlirik. **Badar** sözü türk dillərində "kiçik tarla" "dağınıq sahə", "kiçicik ərazi" mənalarında işlədilir...

## BALA BƏHMƏNLİ KƏNDİ

**Bala Bəhmənli kəndi** Füzuli rayonu mərkəzindən 38 km şərqdə, Mil düzündə, Araz çayının sol sahilində yerləşir. Kəndin min altı yüz nəfərə yaxın əhalisi var. Əhali əsasən üzümçülük, baramaçılıq, taxılçılıq və heyvandarlıqla məşğul olur. Kənddə dəmir yol stansiyası, orta məktəb, kitabxana, tibb məntəqəsi, klub, stadion, müxtəlif ticarət-iaşə obyektləri və s. var.

**Bəhmənli** toponimi Qarabağda yaşamış ***sarıcalı*** və *cavanşir* qollarından ibarət olan **Bəhmənli** tayfasının adındandır. Kəndin adı **Bala** və **Bəhmənli** komponentlərindən ibarət olub *"kiçik Bəhmənli kəndi"* mənasını daşıyır. **Bəhmənli eli** qədim zamanlarda Türküstandan gəliblər.

XIII əsrdə Hülakü xanları hakimiyyətlərini möhkəmləndirmək üçün Azərbaycana 200 min ailə köçürmüşlər. **Ağ hunların** törəmələri olan **Bəhmənlilər** də həmin ailələrin içərisində gəliblər. Cavanşir elindən olan Qarabağ xanı Pənahəli xan Bəhmənli elinin Sarıcalı oymağındandır ki, onlar da əfşar və türkmən elindəndirlər. **Bala** sözü kəndin adına onu eyniadlı toponimdən fərqləndirmək üçün əlavə edilib (bax: **Böyük Bəhmənli kəndi**).

**Bəhmənli oymağı** Cavanşir elinin böyük bir qolu, onun bir oymağıdır. *Cavanşir* tayfasının **Bəhmənli oymağı** XVIII əsrə aid tarixi qaynaqlara görə, qışı Ləmbəran torpağında qışlayar, yayı İrəvan əyalətinin sərhəddindəki Yıxılmış adlı yerdə yaylayarmış. 1727-ci ilə aid olan "Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri" adlı tarixi sənəddə Bəhmənli oymağının əhalisinin əkinçiliklə məşğul olması, üşr və behrələrini torpaq sahibinə verməl̇əri haqqında məlumatlar öz əksini tapmışdır. XIX əsrdə Gəncə (Yelizavetpol) quberniyasının Qarabulaq nahiyəsinə tabe olan kəndlər siyahısında Bala və Böyük Bəhmənli kəndlərinin adı **Saday bəy obası** kimi çəkilir.

Kəndin **əliqulular, arslanxanlar, məşuqoğlular, şirvanlılar, xasməhəmmədlilər, qırzəlilər, mahmudlular, dondarlar, mirzəxanlar, şahgəldilər, muradlılar** adlı tirə və nəsilləri də vardır.

Mənbələrdə göstərilir ki, **bəhmən** tayfaları monqol bəlasından ağıllı istifadə edərək soyqırımdan xilas olmuşlar. Onların bir hissəsi olan **cavanşirlər** sonralar Qarabağın dağlıq hissəsinə, **qaracığatay** nəsli Şirvana köçmüşlər. Tarixi məxəzlərin verdiyi məlumatlardan o da aydın olur ki, əhalinin sonradan burada məskunlaşması XIII-XIV əsrlərə təsadüf edir. Məlumdur ki, monqol-tatar hücumları zamanı böyük Arazqırağı kəndlər kimi **Bəhmənli kəndi** də dağıntıya məruz qalmışdır. Bəzi sənəd və materiallara görə, əhali monqol işğalından az sonra öz köhnə yurd yerlərinə qayıtmışlar. Yerli məlumata əsasən, bu dövrdə **bəhmənli** elindən bir neçə tirə Böyük Bəhmənli kəndindən indiki **Bala Bəhmənli** kəndi yerləşən əraziyə gələrək burada məskunlaşmışlar...

Bir tarixi qaynaqda göstərilir ki, **Bəhmənli kəndi** yaxınlığındakı Alağarda oymağından Məhəmməd adlı bir şəxs Hülakü xanın nəslindən olan Arqun şahın oğlu Əhmədə bir at torbası qızıl verərək, bir tərəfi Naxçıvan, Göyçə, digər tərəfi Ağ göl olan (təxminən 30 min kv. km. ərazi) böyük bir ərazini ondan satın almışdır. O dövrdə Bəhmənli kəndinin yaxınlığında oturaq oymaq başqa yaşayış məskənləri olmadığından böyük ehtimal ilə demək



olar ki, elə həmin şəxs Bala Bəhmənli kəndindən - *Bəhmənli* tayfasından olmuşdur...

Tarixi mənbələrdən məlum olur ki, Səfəvi şahı Təhmasib Şirvanı işğal etdikdən sonra **qaracığataylar** da öz dədə-baba yurdları olan Araz kənarına-Bəhmənliyə qayıtmışlar. Gələnlər arasında Şeyx Yusif Şirvani də olmuşdur.

"Şirvanlıların atası' çağırılan Şeyx Yusif öləndə Bəhmənlidə dəfn olunub. Onun məzarı *"Şirvan ata"* piri kimi sonralar ziyarətə çevrilmişdir. Bu nəsildən olan tirələr hazırda Bəhmənlidə yaşayırlar. İran hökmdarlarından olan Ərdəşirin təxəllüsü **Bəhmən** olmuşdur. **Bəhmən** sözü fars dilində *"ağıllı, zəkalı, bilikli, tədbirli"* deməkdir.

**Bəhmənli** elinin cavanşir, sarıcalı və digər nəsillərinin nümayəndələri XVIII əsrin 30-40-cı illərində Nadir şahın ordusunda yüksək mövqelər tutmuş, qəhrəmanlıqları ilə fərqlənmişlər.

Füzuli rayonunda **Bala Bəhmənli** kəndi ilə yanaşı, **Böyük Bəhmənli** kəndi də var. Bu tip coğrafi adlara antroponimik toponimlər deyilir.

Bala Bəhmənlidə **cəfərlilər, kavdıavdallar, babəylilər, hacıtalıblılar, gülmalılar, ismayıllar, maşadbabalılar** və başqa tayfaların nəsilləri yaşayır.

Zaqatala rayonunda da **Bəhmənli** (keçmiş adı Verxiyan) adlı kənd vardır.

## BALLI QAYA

Qacar kəndinin qərb sərhədi ərazisində qeydə alınan oroqrafik-obyektlərdən biri **Ballı qaya** adlanır. Oronim **bal** və **qaya** sözlərindən, eləcə də, **-lı** mənsubiyyət şəkilçisindən ibarətdir. **Qaya** - müsbət relyef forması bildirən coğrafi termindir. Oronimiyada dağların müəyyən hissəsində çətin keçilən yer, sıra dağlardan ayrılmış qol **qaya** termini ilə ifadə olunur. Çöl materialları içərisində **qaya** termini ilə bağlı 3000-dən çox oronim qeydə alınıb.

**Ballı qaya** toponimi *"bal arısının yuvası olan qaya"* mənasındadır. **Qayadakı** kiçik təbii oyuqlarda vəhşi **bal** arılarının (arı pətəkləri yuva saldıqlarına görə) pətək salması ilə əlaqədar olaraq oronim belə ad almışdır. **Ballıqaya** oroniminə Ağdam, Ağsu, Qubadlı, Goranboy, Laçın, Masallı, Oğuz, Xızı, Xocavənd, Xocalı, Şamaxı, Şuşa rayonlarının ərazisində də rast gəlirik...

## BAŞ BULAQ

Füzuli şəhərinindən 10 kilometr qərbdə, ecazkar təbiətin qoynunda, çoxlu bulaqlar əhatəsində qeydə alınan hidronimlərdən biri **Baş bulaq** adlanır.

Hidronim yaxınlıqdakı bulaqlardan azacıq yüksəklikdə, bir qədər **başda** yerləşdiyi üçün belə ad almışdır. Bulağın göz yaşı kimi çox duru, şəffaf və buz kimi soyuq suyu vardır...

Azərbaycan toponimiyasında **bulaq** hidronimik apelyativinin iştirakı ilə yüzlərlə hidronim qeydə alınmışdır...

## BAYRAMBƏY BAĞI

Yuxarı Əbdürrəhmanlı kəndi ərazisində, böyük sahədə yerləşən bağ **Bayrambəy bağı** adlanır. Bu böyük bağın ərazisində demək olar ki, bütün meyvə ağacları vardır. **Bağ** onun sahibi, əkib-becərəni **Bayram bəyin** adı ilə əlaqədar olaraq belə adlandırılmışdır...

## BAYRAMBƏY YURDU

**Bayrambəy yurdu** coğrafi adı Yuxarı Əbdürrəhmanlı kəndi yaxınlığında qeydə alınıb. Burada XIX əsrədək müxtəlif obaların tayfaları yaşamışlar. XX əsrə qədər yazılmış bəzi tarixi sənədlərdə, qaynaqlarda qonşu yurd yerləri olan Rəbət, Qacarla



birgə **Bayrambəy yurdu** yerinin də adı çəkilir. Bu coğrafi ad antroponimik toponim mahiyyəti daşıyır...

## BAYRAMQULUNUN BAĞI

Dövlətyarlı kəndi ərazisində, Köndələnçayın sahilində, mənzərəli bir təbiət guşəsində, Qaraköpəktəpənin yaxınlığında 5 hektarlıq sahəsi olan yer **Bayramqulunun bağı** adlanır. Bağda çoxlu alma, armud, tut, ərik, gavalı, gilas, gilənar, nar, qoz ağacları vardır. **Bağ** onun yaradıcısı olan Yadigar oğlu **Bayramqulunun** adı ilə əlaqədar olaraq belə adlandırılmışdır...

## BƏHMƏN BULAĞI

Füzuli rayonu ərazisində qeydə alınan hidronimlərdən biri **Bəhmən bulağı** adlanır. Bu bulağın gözyaşı kimi dumduru və buz kimi soyuq suyu vardı. **Bulaq** onun qurucusu olan **Bəhmən** adlı bir şəxsin adı ilə əlaqədar olaraq belə ad almışdır. Hazırda **Bəhmən bulağı** erməni işğalı altında inləyərək "göz yaşı tökür"...

## BƏHMƏNLİ KƏNDİ

(Bax: **Bala Bəhmənli** və **Böyük Bəhmənli** kəndləri)

## BƏYTƏPƏ DAĞI

Füzuli rayonunun ərazisində dağ. Əsl adı **Bəytəpəsidir**. **Təpə** burada bir **bəyə** məxsus olmasına görə belə adlandırılmışdır. **Bəy (bay)** apelyativinin türk dillərində *"varlı"*, *"feodal"* anlamları var. **Bəy** sözünün türk dillərində *"böyük"*, *"uca"* mənaları da məlumdur. Azərbaycan oronimiyasında bir qrup obyektlərin adları

titul və peşə bildirən sözlərin terminlərlə birləşməsindən meydana gəlmişdir. **Bəytəpə** dağı da bu qrupa daxil olan oronimlərdəndir. Astarada **Bəydərə**, Kürdəmirdə **Bəyi kəndi**, Laçının Cağazur kəndində **Dərviş təpə** və s. də belə coğrafi adlardandır...

Bu tipli oronimlərdə birinci tərəf peşə, titul və vəzifə bildirən bir sıra sözlərlə ifadə olunur. Onlar obyektin və ya vaxtilə tabeliyində olduğu, ya da həmin obyektdə yaşayan və ya başına müəyyən bir hadisə gələn peşə... sahibini göstərməyə xidmət edir.

**Bəy** apelyativi qədim türk dilində *"hökmdar"*, *"rəhbər"* mənalarında da işlənib...

Astarada **Bəydərə**, Kürdəmirdə **Bəyi kəndi**, Qazaxda **Molladağ,** Şəkidə **Nalbənddağ,** Dəvəçidə **Bəyimdağ,** Laçında **Keşiştəpə,** Laçının Cağazur kəndində **Dərviş təpə** və s. də belə coğrafi adlardandır...

## BİRİNCİ MAHMUDLU KƏNDİ

**Birinci Mahmudlu kəndi** rayon mərkəzindən 35 km şərqdə, düzənlikdə yerləşir. Əhali əsasən heyvandarlıq, üzümçülük və taxılçılıqla məşğul olur. **Birinci Mahmudlu** oykonimi toponimik cərgə əmələ gətirən **İkinci Mahmudlu** və **Üçüncü Mahmudlu** kəndlərindən fərqləndirilmək üçün belə adlandırılmışdır.

**Mahmudlu** kəndləri **Cavanşir** elinin **Köçərli** oymağından olan **mahmudlu** tayfasının burada məskunlaşması nəticəsində yaranmış yaşayış məntəqələrindəndir. **İkinci** və **Üçüncü Mahmudlu** kəndləri də *Mahmudlu* tayfasının burada məskunlaşması nəticəsində yaranıb.

**Mahmudlu** obasının **cəfərbəyli, səhliyalılar, hacıfatalılar, imamverdilər, ələsgərli** və s. tayfaları vardır.

**Cavanşir** elinin *Köçərli* oymağından çıxan **Mahmudlu obası** Hacılı icmasına qatılan obalardan biridir. **Birinci Mahmud** bu obanın dəyərli, ünlü kişilərindən olub. Onun atası **Mahmudlu** obasının ulu babalarından biri olan Hacı Yusif ağa olub.



Mahmudluların **Hacılı** icması arasında xüsusi çəkisi olub. Onlar igidlik, mərdlik və qeyrətləri ilə seçiliblər. Təsadüfi deyil ki, indiyədək el arasında belə bir məsəl dolaşmaqdadır: *"rus yox, mahmudlu yox, daha nədən qorxacaqsan?"*

Mahmudluların bir qismi, tarixi məxəzlərin verdikləri məlumatlara görə, orta əsrlərdə Türkiyə ərazilərində də yaşamışdır. Bəzi mənbələrdə onların XV-XVII əsrlərdə Van gölündən şərqdə yaşamaları, sonralar bir sıra tirə və nəsillərinin Azərbaycana gəlmələri haqqında da məlumatlar verilir. Hazırda Türkiyə ərazisində, xüsusilə, Van gölündən azacıq şərqdə **mahmudlu** tayfasına məxsus nəsillər yaşayır...

1727-ci ilə aid tarixi Osmanlı qaynağında **Mahmudlu** soyu haqqında da bilgilər verilmişdir. Həmin mənbədə bu soyun Dizaq nahiyəsinin Ziyad qışlağında binələmələri göstərilir, əkinəcək yerlərinin də burda olması qeyd olunur. Sürgündən qayıdan **Mahmudlu obası** *Hacılı* icmasının tərkibinə daxil olub. **Mahmudlular** *hacılı* icmasının tərkibində Qarabağ xanlığının siyasi həyatında da önəmli rol oynamışlar...

*Mahmudlu* adında Cəbrayıl, Qubadlı və Şəmkir rayonlarında da kənd vardır. Etnonim bəzi kənd adlarında *Kürdmahmudlu* kimi işlədilir (Füzuli və İmişli rayonları).

Tarixi qaynaqlardan tam aydın olur ki, *cavanşir* elinin **hacılı** camaatının bir qolu **mahmudlu** adlanır.

Qaynaqlardan o da məlum olur ki, **Mahmudlu obası Hacılı** icmasına daxildir. Bu oba **Cavanşir** elinin **Köçərli** oymağından çıxıb. Bir mənbəyə görə, bu obanın camaatının ulu babalarından biri olan **Hacı Yusif ağa Birinci Mahmudun** atasıdır. Mahmudluların qoçaqlıqlarına görə **hacılı** icması arasında xüsusi yeri olmuşdur...

Bəzi mənbənin verdiyi məlumatda qeyd olunur ki, 1727-ci ildə **Köçərli** obasından ayrılan **Mahmudlu** soyu Dizaq nahiyəsinin Ziyad qışlağında binələyirdi Osmanlı qaynağında da **Mahmudlu** soyu haqqında xeyli bilgilər vardır. Orada göstərilir ki, **Cavanşir** tayfasının *köçərli oymağı* Dizaq nahiyəsinin tərkibində olan Kəlli,

Zəvicik (Zavıcıq) və Quru çaylarının kənarında, Çərəkən, Köndələn, Tülyan, Qaradağlı və Ərşə adlı qışlaqlarda əkinçiliklə məşğul olur, İrəvan əyalətinin Bork adlı yerində yaylayırlar.

*Ərşə* adlı ərazidə tikililəri olan *Köçərli oylağı* Dizaq nahiyəsində, Soyudaş adlı arxın kənarında əkinçiliklə məşğul olurdular. Ümumilikdə Qarabağa tabe olan Köçərli oymağının Tayasoyuq adlı qışlaqları və Qaragüney adlı yaylaqları da olmuşdur. Tarixi şəraitlə əlaqədar olaraq bu obanın bəzi nəsilləri sürgün olunmuş və sürgündən qayıtdıqdan sonra **hacılı** icmasının tərkibinə daxil olmuşdur. **Mahmudlular** Qarabağ xanlığının siyasi həyatında da mühüm rol oynamışlar...

1842, 1849, 1863, 1873 və 1886-cı illərdə **mahmudlu obasının** əhalisi dövlət tərəfindən siyahıya alınıb. Həmin dövrün siyahıyaalınmalarında Mahmudlu obasında yaşayan bəylərin (Praporşik Həsən bəy Cəfər bəy oğlu, Fətəli bəy Cəfər bəy oğlu, Hacı Hüseynqulu bəy Səhliyalı bəy oğlu, Həsənqulu bəy Səhliyalı bəy oğlu, Mahmud bəy Səhliyalı bəy oğlu, Ağa bəy Hüseyn bəy oğlu, Teymur bəy Hüseyn bəy oğlu, Heydər bəy Hüseyn bəy oğlu, Şükür (Şirin) bəy İbrahim bəy oğlu, Firudin bəy Həsən bəy oğlu və onların övladları) də adı göstərilmişdir.

**Mahmudlu obasının** tayfaları bunlardır:

**Cəfərbəyli (Cəfərbəyuşağı)** - Cəfər bəy Kərbəlayi Mahmud ağa oğlu XVIII əsrin II yarısı, XIX yüzilliyin əvvəllərində yaşayıb. Çox varlı və hörmətli ağalardan olan **Cəfər bəyin** Qasım, Fətəli, Həsən, Hüseyn, Paşa, İsgəndər adlı oğulları olmuşdur. Bu tayfanın **Qasımbəyli, Fətəlibəyli, Həsənbəyli, Hüseynbəyli, Paşabəyli** adlanan tirələri var...

**Səhliyalılar (Səhliyalı bəy uşağı)** - **Səhliyalı bəy** Kərbəlayi Mahmud ağanın ikinci oğludur. O, XVIII əsrin sonları və XIX əsrin əvvəllərində yaşayıb. İbrahimxəlil xan və Mehdiqulu xana xidmət göstərən Səhliyalı bəyin Hüseynqulu, Həsənqulu, İbrahim, Mahmud bəy adlı oğulları olub. Bu tayfanın *Hacıhüseynqulular, Hacıhəsənqulular, İbrahimli, Mahmudbəyli* adlı tirələri var...

**Hacıatalılar** - Kərbəlayi Mahmud ağanın oğullarından biri də



**Atalıdır.** 1783-cü ildə Mahmudlu obasında doğulan **Atalı** heyvandarlıqla məşğul olmuş, müqəddəs Məkkəni ziyarət edib **"Hacı"** titulına yiyələnmişdir. Onun **Qulaməli, Qəhrəman** adlı oğulları, **Hürü** adlı qızı vardı. Bu tayfanın **qulaməlilər, qəhrəmanlar, salahlılar, şamılar, şükürlülər, musalılar, əmirmuradlılar, hacıməmmədlilər, xasməmmədlilər, zülfüqarlılar** adlı tirələri var...

**İmamverdilər** - *İmamverdi* Mahmudlu obasının ulu babalarından biri olub. Heyvandarlıqla məşğul olan **İmamverdi bəyin** İsmayıl, Həşim, Kazım, İmamqulu və Tarxan adlı oğulları vardı. Bu tayfaya **ismayıllı, mikayıllı, həşimli, allahverənlilər, həsənqulular** adlı tirələr daxildir...

**Ələsgərlilər - Ələsgər (1816-1886)** Mahmudlu obasının ulu babası Kərbəlayi Mahmud ağanın heyvandarlıqla məşğul olan oğlu Namazın böyük oğlu idi. Namazın Ələsgərdən başqa Əli, Abdulla və Həzrətqulu adlı oğulları da olub. Kərbəlayi Ələsgərin **Rəhim, Səlim, Kərim, Nadir, Əmir, Əbil, Əbdül, Qoca, Məti, Baloğlan** adlı oğlanları vardı...

Qubadlı, İmişli, Cəbrayıl və Şəmkir rayonlarında da **Mahmudlu** etnonimi ilə bağlı kəndlər vardır.

## BÖYÜK BƏHMƏNLİ KƏNDİ

**Böyük Bəhmənli kəndi** rayon mərkəzindən 45 kilometr cənubşərqdə, Quruçay sahilində, düzənlikdə yerləşən kənddir. O, Qarabağda yaşamış qədim oğuz mənşəli **Bəhmənli** tayfasının məskunlaşması nəticəsində yaranmış məntəqələrdən biridir. *Bəhmənlilər* 16 tirədən ibarət olub. Böyük Bəhmənli kəndinin əhalisi 5 min nəfərə yaxındır. Əhali əsasən üzümçülük, taxılçılıq, baramaçılıq və heyvandarlıqla məşğuldur. Kənddə 2 orta məktəb, 26 çarpayılıq xəstəxana, uşaq bağçası, kitabxana, klub, rabitə şöbəsi, avtomat telefon stansiyası, dəmir yol stansiyası və s. var. Kənd işğaldan azad olunub. 450 nəfər ali təhsilli mütəxəssisi olan bu kəndin elmin müxtəlif sahələrində 8 tanınmış alim övladı vardır.

Bəzi tarixi sənədlərə görə, **Bəhmənlilər** Hülakü xanlarının hakimiyyətləri zamanı Türküstandan gəliblər. Ağ hunların törəmələri olan **bəhmənlilərdən** Cavanşir və Sarıcalı oymaqları törəmişdir. Cavanşir elindən olan Pənah xan *Bəhmənli* elinin *Sarıcalı*



oymağındandır ki, onlar da əfşar və türkmən elindəndirlər. Qarabağ xanlığının siyasi həyatında **bəhmənlilər** böyük rol oynamışlar. **Böyük** komponenti kəndin adına onu eyniadlı digər toponimdən fərqləndirmək üçün əlavə edilmişdir. **Bəhmənlilər** Cavanşir elinin böyük bir qolu, onun bir oymağıdır. Cavanşir tayfasının **Bəhmənli oymağı** XVIII əsrə aid tarixi qaynaqlara görə, qışı Ləmbəran torpağında qışlayar, yayı İrəvan əyalətinin sərhəddindəki Yıxılmış adlı yerdə yaylayardı...

1727-ci ilə aid olan **"Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri"** adlı tarixi sənəddə Bəhmənli oymağının əhalisinin əkinçiliklə məşğul olması, üşr və behrələrini torpaq sahibinə vermələri haqqında məlumatlar öz əksini tapmışdır. XIX əsrdə Gəncə (Yelizavetpol) quberniyasının Qarabulaq nahiyəsinə tabe olan kəndlər siyahısında Bala və Böyük Bəhmənli kəndlərinin adı **Saday bəy obası** kimi çəkilir.

Kəndin **əliqulular, arslanxanlar, məşuqoğlular, şirvanlılar, xasməhəmmədlilər, qırzəlilər, seyidlər, qaradəllər, mahmudlular, dondarlar, mirzəxanlar, şahgəldilər, muradlılar** adlı tirə və nəsilləri vardır.

Mənbələrdə göstərilir ki, **bəhmən** tayfaları monqol bəlasından ağıllı istifadə edərək soyqırımdan xilas olmuşlar. Onların bir hissəsi olan **cavanşirlər** sonralar Qarabağın dağlıq hissəsinə, **qaracığatay** nəsli Şirvana köçmüşlər. Tarixi məxəzlərin verdiyi



məlumatlardan o da aydın olur ki, əhalinin sonradan burada məskunlaşması XIII-XIV əsrlərə təsadüf edir. Məlumdur ki, monqol-tatar hücumları zamanı böyük Arazqırağı kəndlər kimi **Bəhmənli kəndi** də dağıntıya məruz qalmışdır. Bəzi sənəd və materiallara görə, əhali monqol işğalından az sonra öz köhnə yurd yerlərinə qayıtmışlar. Yerli məlumata əsasən, bu dövrdə **bəhmənli** elindən bir neçə tirə Böyük Bəhmənli kəndindən indiki **Bala Bəhmənli** kəndi yerləşən əraziyə gələrək burada məskunlaşmışlar.

Bir tarixi qaynaqda göstərilir ki, **Bəhmənli kəndi** yaxınlığındakı Alağarda oymağından Məhəmməd adlı bir şəxs Hülakü xanın nəslindən olan Arqun şahın oğlu Əhmədə bir at torbası qızıl verərək, bir tərəfi Naxçıvan, Göyçə, digər tərəfi Ağ göl olan (təxminən 30 min kv. km. ərazi) böyük bir ərazini ondan satın almışdır. O dövrdə Bəhmənli kəndinin yaxınlığında oturaq-oymaq, başqa yaşayış məskənləri olmadığından böyük ehtimal ilə demək olar ki, elə həmin şəxs Bala Bəhmənli kəndindən - Bəhmənli tayfasından olmuşdur...

Tarixi mənbələrdən məlum olur ki, Səfəvi şahı Təhmasib Şirvanı işğal etdikdən sonra **qaracığataylar da** öz dədə-baba yurdları olan Araz kənarına-Bəhmənliyə qayıtmışlar. Gələnlər arasında Şeyx Yusif Şirvani də olmuşdur.

*"Şirvanlıların atası"* çağırılan Şeyx Yusif öləndə Bəhmənlidə dəfn olunub. Onun məzarı *"Şirvan ata"* piri kimi sonralar ziyarətə çevrilmişdir. Bu nəsildən olan tirələr hazırda Bəhmənlidə yaşayırlar. İran hökmdarlarından olan Ərdəşirin bir təxəllüsü də **Bəhmən** olmuşdur. **Bəhmən** sözü fars dilində "ağıllı, tədbirli, zəkalı" anlamı ifadə edir. **"Bəhmənli"** adlı aşıq havası da vardır...

*Bəhmənli* elinin **cavanşir, sarıcalı** və digər nəsillərinin nümayəndələri XVIII əsrin 30-40-cı illərində Nadir şahın ordusunda yüksək mövqelər tutmuş, qəhrəmanlıqları ilə fərqlənmişlər...

Füzuli rayonunda **Böyük Bəhmənli** kəndi ilə yanaşı **Bala Bəhmənli** kəndi də var. Bu tip coğrafi adlara antroponimik toponimlər deyilir. Bala Bəhmənlidə **cəfərlilər, kavdıavdallar, babəylilər, hacıtalıblılar, gülmalılar, ismayıllar, maşadbabalılar** və başqa tayfaların nəsilləri yaşayır...

## BURĞA BULAĞI

Füzuli rayonunun Horadiz kəndi yaxınlığında qeydə alınan hidronimlərdən biri də **Burğa bulağı** adlanır. **Bulaq** yerin altından qaynayıb çıxan su mənbəyidir. Yerli məlumata görə, həmin bulağın suyu burularaq çıxdığı üçün hidronim belə ad almışdır. Hidronimi mənşə etibarı ilə qədim türkdilli **koman** tayfasının **bulaq** tirəsi ilə də əlaqələndirənlər var...

## BUTAYLI BAĞ

Sərdarlı kəndi ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri də **Butaylı bağ** adlanır. **Butaylı bağ** coğrafi adı çay yatağının **bu tayında** yerləşdiyi üçün belə ad alıb. Bu bağda çoxlu sayda meyvə ağacları, kol və ot bitkiləri, eləcə də, nadir dərman bitkisi çiçəkləri bitirdi...

## CANQULU DAĞI

Füzuli rayonu ərazisində **dağ.** Köndələnçayın aşağı axarından sol tərəfdədir. El arasında bu yüksəkliyə **Canqulutəpə** də deyirlər. Oronim **Canqulu** şəxs adı ilə əlaqədardır. **Dağ** müsbət relyef formasi bildirən termindir.

## CƏLİL TÜRBƏSİ

Qarğabazar və Kürdlər kəndləri arasındakı qədim qəbiristanlıqda qeydə alınan bir tarixi abidə **Cəlil türbəsi** adlanır. Təpə üzərində tikilmiş bu abidənin ümumi hündürlüyü 10 metrdir. Plan quruluşuna görə **Cəlil türbəsi** səkkizguşəli türbələr sırasına daxildir. Türbənin hər tərəfinin eni 2,3 m olmaqla divar qalınlığı 1 metr





olsa da, bu ölçü getdikcə azalaraq günbəzin mərkəzində 21 sm-ə çatır.

**Cəlil türbəsinin** gövdəsi *"epoxa"* adlı 22, x 22x4,5 sm ölçülü bişmiş kərpiclə hörülüb. Gövdəni kümbəzindən yüngül relyefli karniz ayırır. **Cəlil türbəsi** üzərindəki bəzəklər Kərbəlayi Səfixanın tikdiyi minarə bəzəkləri ilə oxşarlıq təşkil edir. **Cəlil türbəsi** daxildən də 8 bərabər tərəflərə bölünür. Hər tərəf üzərində 21 sm dərinlikdə, 2,8 m hündürlüyündə, eni 1 m olan nişalar işlənib. **Türbə** daxildən 1 m qalınlıqlı əhəng məhlulu ilə suvanıb. Türbənin kitabəsində miladi 1889-90-cı (hicri 1307) illərdə memar İbrahim Xəlil tərəfindən **Cəlil** adlı nüfuzlu bir şəxs üçün tikildiyi qeyd olunmuşdur...

## CƏMİLLİ KƏNDİ

**Cəmilli kəndi** rayon mərkəzindən 13 kilometr şimal-qərbdə, Qarabağ silsiləsinin ətəyində, Köndələnçayın sahilində yerləşir. Əhalisi heyvandarlıq, taxılçılıq və üzümçülüklə məşğul olur. Kənddə məktəb, klub, kitabxana var. Kənd ermənilər tərəfindən işğal olunub...

**Cəmilli** sözü antrotoponimdir, yəni, şəxs adına görə adlandırılıb. Oykonimlərin çoxunda **-li** şəkilçili mənsubiyyət əlaqəsi mühüm cəhət kimi mövcuddur. Toponimlərin təhlili göstərir ki, bu əlaqə semantik əsas kimi oronimlərə də xasdır. Belə ki, hər hansı bir coğrafi ərazinin keçmişdə müəyyən şəxsə mənsub olması tamamilə qanunauyğun bir haldır. Mənsubluq bildirən **-lı, -li, -lu, -lü** şəkilçilərinin iştirakı ilə rayon ərazisində **47** oykonim var: **Ələsgərli, Mirzənağılı, Qarakollu, Gecəgözlü** və s.

Bəzi məlumatlara görə (XIX əsr arxiv sənədlərində), **Cəmilli** ailələrinin bir qismi qazax tayfalarının tərkibinə daxildir. Qazax mahalından XVIII-XIX əsrlərdə Qarabağa köçən tayfalar arasında **Cəmilli** ailələri də olmuşlar: **Cəmilli kəndi** (Xocalı rayonu), **Cəmilli kəndi** (Kəlbəcər rayonu), **Cəmilli kəndi** (Tərtər rayonu) və s.

## CƏFƏR SADİQ BULAĞI

Qacar kəndi ərazisində qeydə alınan hidronimlərdən biri **Cəfər Sadiq bulağı** adlanır. **Cəfər Sadiq** (bəzən **Sadıq** da yazılır) bulağı təmir etdirib tikdirən şəxsin adıdır. **Bulaq** termini isə hidronimik apelyativdir. Antroponimik hidronim olan **Cəfər Sadıq bulağı** toponimi *"Cəfər Sadığa məxsus bulaq"* anlamındadır. Bu tip toponimlərə Azərbaycanın başqa rayonlarının da ərazilərində rast gəlirik...

## CİNQOBU

**Cinqobu** Füzuli şəhərində, rayon mərkəzinin 1 km şərqində, çökəklikdə yerləşir. Yerli əhali bu əraziyə, buradakı bir neçə küçəyə "**Cinqobu**" deyir. "**Qobu**" termini *"dərə, çökəklik, həmişə su basan yer, arx"* mənasındadır. Bəzi tədqiqatçılar oronimi orta əsrlərdə şimaldan Zaqafqaziyaya gəlmiş **cin** *(çen)* adlı türk tayfasının adı ilə, bəziləri isə mövhumi məxluqun adını bildirən **cin** sözü ilə, bəziləri əski türk dilində relyef bildirən ***cin*** formantı kimi (*"sıldırım dağ yarğanı")* sözü ilə bağlayırlar.

Məlumdur ki, xalq arasında əfsanələrdə, gözəgörünməz, amma həyatda yaşayan, xalq inamına görə guya, **cin** adlandırılan məxluq mövcuddur. **Cinqobu** da görünür, **cin** adı ilə bağlı toponimdir. "**Cin**" komponenti Azərbaycan mifologiyasının tərkib hissələrindən biridir. Guya o, gözəgörünməz, insanabənzər bir varlıqdır. Adam tək olanda, qorxanda, təhlükə gözləyən bir anda və s. zamanlarda guya cinlər,



şeytanlar qəflətən peyda olurlar. Hətta el arasında *"cin başıma vurdu"* ifadəsi də vardır. Cinqobu ərazi-məhəllələrində yaşayan əhali guya bu yerlərdə tez-tez *cin* - gözəgörünməz məxluqat görürlər. Təbii ki, bunlar qarabasmadan başqa bir şey deyil...

Xalq inamına görə **əcinnə** və ya **cin** gözəgörünməz məxluq hesab olunur. Guya onlara toxunduqda və yaxud ziyan verdikdə insanı ağır zərbə ilə vurur. Bəzi türkdilli xalqlarda, o cümlədən, azəri türklərində cinlərin dişisinə **hal** da deyirlər. Folklor nümunələrimizdə cinlərin və hal anasının ən çox qorxduğu əşya iynədir. Təsəvvürlərə görə əgər onların üstünə iynə sancılarsa, gözə görünər və insana tabe olarlar.

Ümumiyyətlə, **cin** komponenti ilə bağlı Azərbaycanda çoxlu oronimlər vardır: **Cindağ** (Ordubad rayonu), **Cindar kəndi** (Quba rayonu), **Cinli kəndi** (Ağdam rayonu), **Cinli Boluslu kəndi** (Goranboy rayonu) və s.

Bəzi tarixi mənbələrdən aydın olur ki, orta əsrlərdə indiki **Cinqobu** deyilən yerin adı **Xalac yurdu** kimi də çəkilmişdir...

**Cin** sözünün qədim türk dillərində *"qüvvətli"*, *"qüdrətli"*, *"sıldırım dağ yarğanı"*, *"hündür zirvə"* anlamları da var. Mənbələrdə **cin/çin** adlı qədim türkdilli tayfa adına da rast gəlirik. **Cin (cinlər)** qəbiləsi qədim türkdilli peçeneq tayfasının **kəngərli** tirəsinin bir qoludur. **Cinqobu** sözündəki **cin** komponentini qədim türkdilli tayfa olan **cen/cin** tayfası ilə də bağlayırlar. **Cen/cin** tayfaları peçeneqlərin kəngərli tirəsinə daxildirlər.

VII əsrə aid mənbələrdə **cin (çen)** tayfasının adı bolqarlarla birlikdə çəkilir. **Cinləri (çenləri) çinlilərlə** də əlaqələndirənlər var. K.Patkanov **çenləri** Volqa sahillərindən köçən türklər hesab edir. Çinli tayfasının başçısının adı məxəzlərdə **Çin Bakur** kimi çəkilir.

Erkən orta əsrlərdə **cinlilər** əsasən Kür çayı sahillərində yaşamışlar. Sonrakı əsrlərdə də onların indiki Borçalı ərazilərində kompakt yaşamaları göstərilir. XIII əsrə aid olan mənbə **cin/çen** tayfalarının III yüzillikdə Daryal qapılarından Gürcüstana gələrək Orbet qalasında məskunlaşmasını xəbər verir; həmin tarixi

mənbəyə görə Orbeliani soyadı da bu tayfa ilə bağlıdır. Qabaqlar **cinlilər** adlanan bu tayfa hazırda **Orbeliani** adlandırılır.

V əsrdə xristianlığı qəbul etmiş **cinli** tayfası həm də Ermənistanda (Qərbi Azərbaycanda) yaşamışlar. III əsrdən ta 745-ci ilə qədər bütün erməni qoşun başçıları əsasən **cinlilərdən** olmuşlar. Onların türkdilli olmaları inkarolunmazdır. Onlar Çin Türküstanından köçüb bura gəlmişlər. Zaqafqaziya ərazilərində **cinli** tayfası adı ilə bağlı çoxlu sayda toponimlər yayılmışdır...

## CUVARLI KƏNDİ

Rayon mərkəzindən 6 km cənub-qərbdə, dağətəyi ərazidə yerləşən kənd. Əhalisi 400 nəfərdir. Əhali taxılçılıq, üzümçülük, heyvandarlıqla məşğul olur. Kənddə səkkizillik məktəb, klub, kitabxana, uşaq bağçası, tibb məntəqəsi və s. var. Görkəmli alim, akademik Çingiz Cuvarlı bu kənddəndir. Bu kənddən tarixən çox görkəmli şəxsiyyətlər, alimlər, ictimai-siyasi xadimlər çıxmışlar. Kənd 1993-cü ildə erməni işğalçıları tərəfindən zəbt olunub...

Yaşayış məntəqəsi öz adında Azərbaycanın **cuvarlı** tayfasının qıpçaq dilləri qrupuna məxsus olan **çuv** yaxud **suv** (*su* sözünün qədim forması) komponenti Azərbaycan dillərində çoxdan arxaikləşmişdir. Əksər tədqiqatçıların fikrincə, ***çuvar*** sözü hərfən ***"suçu"*** deməkdir. Doğrudan da, keçmiş zamanlarda Azərbaycanda su bölgüsünə və növbəsinə nəzarət edən şəxslərə ***"çuvar"*** deyirdilər.

1727-ci ilə aid "Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri" tarixi sənədində – 466-cı səhifədə Dizaq nahiyəsinə tabe olan kəndlər sırasında **Cuvarlı** kəndinin də adı çəkilir.

Kəndin **maqsudlular, əlixanlar, məhəmmədsəfilər, şəriflər, məmmədlilər, bahadurlar, yusiflilər** və s. adlı tayfa və tirələri vardır...

**Cuvarlı kəndi** qədim tarixə malik olan yaşayış məntəqələrindədir. Tarixi sənədlərə görə, Qarabağ xanı İbrahimxəlil xanın quşçuları burada yaşayırdılar...



## ÇALA MƏHLƏ

**Çala məhlə** coğrafi adı Yuxarı Əbdürrəhmanlı kəndi ərazisində qeydə alınıb. Oronim həmin **məhlənin** (məhəllənin) yaxındakı digər **məhəllələrə** nisbətən aşağıda - **çalada** yerləşdiyi üçün belə ad almışdır. Toponim *"çökəklikdə yerləşən məhlə"* mənasındadır...

## ÇALDAĞ

Füzuli rayonunda, Dilağarda kəndi ərazisində qeydə alınan dağ **Çaldağ** adlanır. **Çaldağ** oronimi **çal** (burada "boz rəng" mənasında) və **dağ** komponentlərindən ibarət olub, "**boz dağ**" deməkdir. Dağ həqiqətən boz rəngli süxurlardan təşkil olunmuşdur. Oronimlərdə **çal** sözü bəzən əlamət bildirir. **Çaldağ** oronimində **çal** sözü dağın əhəng mənşəli olduğuna görə **çal** rəngə çalmasını bildirir.

Rəng bildirən **çal** sözündən və müsbət relyef formalarını bildirən terminlərdən yaranan oronimlərə **Çalqaya** (Laçın və Kəlbəcər rayonları), **Çaldağ** (Tovuz rayonu), **Çaltəpə** (Daşkəsən və Xocavənd rayonları), **Çalburun kəndi** (Gədəbəy rayonu), **Çalgüney** (Gədəbəy rayonu), **Çaldaş dağı** (Oğuz rayonu), **Çalbayır dağı** (Laçın rayonu) və başqalarını misal göstərmək olar.

## ÇƏMƏN (ÇİMƏN) KƏNDİ

**Çəmən (Çimən) kəndi** rayon mərkəzindən 4 km cənub-qərbdə, Cuvarlı inzibati ərazi vahidində, dağətəyi sahədə yerləşir. Əhalisi heyvandarlıq, taxılçılıq, üzümçülüklə məşğul olur. Kənddə məktəb, klub, kitabxana və s. var. Yaşayış məntəqəsi 1993-cü ildə ermənilər tərəfindən işğal olunub.

Kəndin əsl adı **Çəməndir.** Yaşayış məntəqəsi çəmənlikdə - yaşıl otlarla örtülmüş sahələrdə salındığı üçün belə adlandırılmışdır. Doğrudan da, kənd və onun ətrafı yaşıl ot sahələri

ilə əhatə olunmuşdur. Kənd hazırda işğal altındadır...

XVII əsrə aid olan bir mənbədə Şərqi Anadoluda **Çimən-Bel dağı**, XVIII əsrə aid olan başqa bir mənbədə İrəvan əyalətinin Dərəçiçək mahalında **Çimən-Qut kəndi,** İrəvan quberniyasının İrəvan qəzasında **Çimən kəndi** (başqa bir adı Aşağı Qarabağlar), Vedi rayonunda **Çiməndərə kəndi** və s. bu kimi adlar qeydə alınmışdır.

1727-ci ilə aid olan "Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri" adlı tarixi sənəddə Dizaq nahiyəsinə tabe olan kəndlər sırasında **Çimən** kəndinin adı **Çimənək** şəklində yazılmışdır.

## ÇƏRƏKƏN ARXI

Yuxarı Əbdürrəhmanlı kəndi ərazisində qeydə alınan hidronimlərdən biri **Çərəkən arxı** adlanır. **Arx -** suyu mənbədən müəyyən sahəyə axıtmaq üçün daimi və müvəqqəti qurğudur. Su sərfinin tənzimlənməsi üçün arxlarda hidroniki qurğular olur. Hidronim **Çərəkən** adlı çaydan axıdıldığına görə belə adlanmışdır.

Əlavə məlumat üçün bax: **Çərəkən çayı.**

## ÇƏRƏKƏN ÇAYI

Füzuli rayonu ərazisindən axan, uzunluğu 25 km olan çay. Hidronimin adını müxtəlif izahla yozanlar var. Tarixdən məlumdur ki, orta əsrlərdə Anadoluda - **çərəkli** adlı tayfa yaşamışdır. **Çərəkli** adı mənşə etibarı ilə Səlcuq oğuzlarının Əfşar (Avşar) tayfasının **Çeriklu** qolunun adının fonetik formasıdır. **Çərəkən çayının** adını bu tayfa adı ilə bağlamaq istəyənlər var. Hidronimin **Şərikan** şəklində də izahını vermək olar...

Məlumdur ki, **-an-ən** şəkilçiləri Azərbaycan dilində cəmlik ifadə edir. Güman etmək olar ki, çay **çərə** adlanan ərazidən axdığı üçün həmin sahənin adı ilə də adlandırılmışdır, **k** hərfi araya daxil olmuş bitişdirici samitdir. **Çərə (çörə)** sözü əski türk dilində



"örüş", "otlaq yeri" anlamına da uyğun gəlir.

**Çərək** sözü fars dilində "dörddə bir", "batmanın dörddə biri", "yara" mənalarındadır. **Çər** sözünün "azar, xəstəlik" anlamı da məlumdur. Qədim türk dillərində çerik sözünün hərbi düşərgə mənasında "qoşun" anlamı da var.

XVIII-XIX əsrlərə aid olan tarixi qaynaqlarda Sayaq adlanan ərazidə Cəbrayıl elinin oymaqlarından bir olan **Çərəkənli** oymağının adı çəkilir. Hazırda Cəbrayıl rayonunda **Çərəkən kəndi, Çərəkən qayası, Çərəkən çayı** adlı oykonim, oronim və hidronim vardır...

## ÇOBAN YERİ

Vaxtilə Arazbar qəzasında, Molla Fazilli oymağında, indiki Füzuli rayonu ərazisində qeydə alınmış oroqrafik obyektlərdən biri də **Çoban yeri** coğrafi adıdar. Oronim **çoban** və **yer** sözlərindən ibarət olub, *"çobana məxsus yer"* mənasındadır...

## DADAŞ BULAĞI

Yağlıvənd kəndi yaxınlığında qeydə alınan hidronimlərdən biri **Dadaş bulağı** adlanır. Bulağın çox soyuq və şəffaf suyu vardır. Hidronim **Dadaş** şəxs adından və **bulaq** hidronimik apelyativindən ibarətdir...

## DAĞ QORUQ

Qozluçay dərəsi vadisində, Saracıq kəndi yaxınlığında qeydə alınan oroqrafik adlardan biri **Dağ qoruq** adlanır. Toponim **dağ** və **qoruq** sözlərindən ibarətdir. **Dağ** coğrafi termini müsbət relyef

forması bildirir. **Qoruq** - təbii halda mühafizə olunan ərazidir, akvatoriyadır. **Qoruqlar** təbiətin mühafizəsi formalarından biridir, burada müxtəlif təbii zonaların xarakter landşaftları və s. təbii komplekslər, onların komponentləri mühafizə olunur. **Dağ qoruq** adlanan yer çox gözəl səciyyəvi landşafta malikdir...

## DAĞQORUQ

Qarakollu kəndindən bir qədər quzeydə, Arıq bulağı adlanan meşə ərazisində qeydə alınan oronimlərdən biri **Dağqoruq** adlanır. Bu yerlər təbiət etibarı ilə ecazkar gözəlliyə malik olan bir ərazidir. Kənddən bir qədər kənarda yerləşməyi, **dağ** döşündə olması, əl-ayaqdan uzaqlığı, toxunulmazlığı ona **Dağqoruq** adını verdirib. Ən isti yay günündə belə buraya gələn yolçu bir anın içindəcə sərinləyər. Yaxın kəndlərin camaatı buraya müqəddəs bir yer kimi baxır. Kənd adamları demək olar ki, burdakı hər bir ağacın qayğısını çəkir, ona qulluq edir. Çox güman ki, elə bu səbəbdən də **Dağqoruq** indiyədək gözəl, baxımlı və salamat qalıb. El arasında "Əkiz bulağı" adlanan Arıq bulağı Dağqoruqdan axıb gəlir. Qədim keçmişin yadigarı olan Şirəviş daşı **Dağqoruq** ərazisindədir.

## DAŞLITƏPƏ ABİDƏSİ

Şükürbəyli kəndi yaxınlığında **Daşlıtəpə** deyilən yerdə qeydə alınan oroqrafik abidələrdən biri də **Daşlıtəpə abidəsi**dir. Bu abidə Daşlıtəpənin tən ortasındadır. Yerüstü hörgüsü adi caylaq daşlarından tikilib. Abidənin yer səthindən 40 sm hündürlükdə olan hissəsi qalır. Güman etmək olar ki, onun dam örtüyü yuxarıya qalxdıqca yığılaraq kümbəz formasında olub. Abidənin yerüstü hissəsinin hündürlüyünün 3 metrdən çox olması ehtimal olunur.

Bu abidə-təpə el arasında müqəddəs hesab olunur. Yağış və qar suları zaman-zaman abidənin divarlarını uçurmuş, onun sər-





dabəsini dağıntıya məruz qoymuşdur. Sərdabənin yeri təsadüfən çobanlar tərəfindən tapılmışdır. Sonra türbənin sərdabəsini onun tavan hissəsindən vurub deşmişlər və beləliklə, türbənin yeraltı hissəsi məlum olmuşdur. Çox güman ki, vaxtı ilə sərdabədə insan skeletləri olub.

Abidənin yerustu hissəsi adi çaylaq daşlarından dairəvi formada, sərdabəsi isə ağ əhəng daşından duzbucaqlı formada tikilmişdir. Sərdabəyə yeganə giriş baş tərəfdədir. Giriş qapısı bayırdan bir sal daşla bağlıdır. Qapının hündürlüyü 1,26 metrdir. Sərdabənin eni 3,5 m, uzunluğu 3,1 m, mərkəzdən hündürlüyü isə 2,23 metrdir. **Daşlıtəpə** abidəsinin son orta əsrlərdə inşa olunduğu güman edilir...

## DƏDƏLİ KƏNDİ

**Dədəli kəndi** rayon mərkəzindən 2 km cənub-şərqdə, Qarabağ silsiləsinin ətəyində, Füzuli-Cəbrayıl şosse yolunun kənarında yerləşir. Əhalisi min nəfərə yaxındır. Əhali üzümçülük, heyvandarlıq və s. ilə məşğul olur. Kənddə məktəb, klub, kitab-

xana, kəhriz, məscid (XIX əsr) və s. var. Tarixi mənbələrdən aydın olur ki, **Cavanşir** elinin **dədəli** adlı tayfası olmuşdur. Kəndi həmin **dədəli** nəslindən olan ailələr burada saldığı üçün o, belə adlanmışdır. **Dədəli** yaşayış məntəqəsi **23 avqust 1993-cü il** tarixdə ermənilər tərəfindən işğal edilmişdir. Kənd hazırda işğal altındadır.

**Dədəli oymağı** Arazbar sancağında yaşayan **Cavanşir** elinə bağlı oymaqdır. Tarixdən süzülüb gələn qaynaqlara əsasən, XVII əsrdə **Cavanşir oymağı** getdikcə güclənərək, **otuz iki** elinin tərkibindən çıxıb müstəqil oldu. Əgər biz Cavanşir oymağını 1593-cü il Osmanlı qaynağında **Otuziki** elinin tərkibində görürüksə, 1727-ci ilə aid qaynaqlarda onu 25 oymaqdan ibarət böyük bir el kimi görürük. Həmin oymaqların içərisində Arazbar qəzasında, Xanarxında yaşayan **Dədəli** oymağının da adı vardır. Cavanşir elinin **Dədəli oymağı** Dizaq nahiyəsinin qurtaracağında, Köndələn çayının kənarında əsasən, əkinçiliklə məşğul olurdu. Bu oymağın əhalisi yayı İrəvan əyalətinin sərhəd ərazilərindəki Əyridərə və Sarıyar adlanan yerlərdə yaylayardılar. **Dədəli** oymağının başçısı Əli ağa Hüseyn ağa (XVII əsrin sonu - XVIII əsrin 50-ci illəri) oğlu idi...

Kəndin **hüseynlilər, əlilər, əlimərdanlılar, xanqulular, əlifxanlar, bəyvəlilər, hüseynxanlılar, poladlar, qulular, qılıcxanlar, mərdanxanlar, fərzəndlər, mirzəşərifilər, allahverdilər, gülməhəmmədlilər, cavanşirlər, imaməlilər, allahyarlılar, əzizəlilər, əlibəylilər** və s. tayfa-tirələri vardır...

Bir məlumata görə, 1501-ci ildə Şah İsmayıl Xətai Əbdal bəy **Dədəni** Əmir əl Ümarə ("əmirlərin əmiri") vəzifəsinə təyin etdikdən sonra ona torpaq sahələri titul vermişdi. Çox güman ki, **Dədəli** adlı kəndlər həmin əmirin adı ilə bağlıdır...

**Dədəli** adlı kənd Ağsu və Xaçmaz rayonlarında da vardır. Vaxtilə İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında (Talış rayonu) da **Dədəli** adlı kənd mövcud olub...



## DƏDƏLİ KƏHRİZİ

Dədəli kəndi ərazisində qeydə alınan hidronimlərdən biri **Dədəli kəhrizi** adlanır. Bu kəhrizin üzərində və ətrafında məqsədli tikinti işləri aparılmış və o, tarixi abidəyə çevrilmişdir. Kəhrizlər adətən, peşəkar kənkanlar tərəfindən qazılardı. Bu **kəhriz** yerləşdiyi kəndin adı ilə əlaqədar olaraq belə adlanmışdır. **Dədəli kəhrizi** də ermənilər tərəfindən zəbt olunub, murdarlanıb...

## DƏLİ ÇAY

Füzuli rayonunun Horadiz kəndi ərazisindən axan çaylardan biri də **Dəli çay** adlanır. **Dəli çay** öz mənbəyini Kiçik Qafqaz dağlarının ətəklərindəki təpəliklərdən götürür. **Dəli çay** gur yağış yağanda gəlir. **Çay** hərdən yağışın gurlaşan zamanında **"dəlilik"** etdiyi üçün el arasında belə adlandırılmışdır. Belə "dəliliyin" biri 27 oktyabr 1957-ci il tarixdə axşam saat 21 radələrində olmuşdur. Həmin vaxt qıjıltı ilə axıb sellənən **Dəli çay** Horadiz kəndini ağuşuna alıb onu su altında qoydu, güclü sel onlarla evi yerlə yeksan etdi. Gözləmədikləri bu fəlakətdən hündür təpələrə qaçıb canını qurtarmaq istəyən kənd sakinləri ölümdən sığortalana bilmədilər. Bu daşqın 11 adamın ölümünə səbəb oldu. Yerli əhali elə bu kimi *dəliliklərinə* görə bu çayı belə adlandırmışlar.

## DƏLİÇAY QOBUSU

Füzuli rayonunun Horadiz kəndi yaxınlığında qeydə alınan oronimlərdən biri də **Dəliçay qobusu** adlanır. Bu oronim hidronimlə (**Dəliçay**) ifadə olunmuşdur. **Qobu** komponenti *"çökəklik"*, *"su axan dərə"*, *"qurumuş çay yatağı"* və s. mənalar daşıyır. Oronimin tərkibindəki **-su** şəkilçisi mənsubluq bildirir...

## DƏYİRMAN BOYU

Dördçinar və Horadiz kəndləri arasında qeydə alınan oroqrafik obyektlərdən biri **Dəyirman boyu** adlanır. **Dəyirman** həm də Dördçinar kəhrizinin suyu ilə işləyirdi. Müəyyən mexanizmlə (əl ilə hərəkət etdirilən, çalışdırılan ağac və s.) dən, buğda, taxıl üyüdən müəssisəyə **dəyirman** deyirlər. Dəyirmanın yerləşdiyi uzun çökəklik el arasında **Dəyirman boyu** adlanmışdır...

## DƏYİRMANTƏPƏ DAĞI

Füzuli rayonu ərazisində, Araz çayının sahilində yerləşən dağ **Dəyirmantəpə** *dağı* adlanır. *Dağa* **Dəyirmantəpə** toponiminin adının verilməsi dağın ətəyində keçmişdə **dəyirman** olması ilə əlaqədardır. **Dəyirman** sözü ilə əlaqədar oronimlərin çoxu oykonimlərə çevrilib. Məsələn, Dəyirmandağ (Xanlar rayonu), Dəyirmantəpə (Ağcabədi rayonu), Dəyirmandərə (Şəki rayonu) və s.

## DİLAĞARDA KƏNDİ

Rayon mərkəzindən 13 km şimalda, Qarabağ silsiləsinin ətəyində, Füzuli-Xocavənd şosse yolunun 1 kilometrliyində yerləşir. Min nəfərə yaxın əhalisi var. Kənddə klub, kitabxana, orta məktəb, tibb məntəqəsi və s. vardır. Hazırda kənd ermənilərin işğalı altındadır...

Rayon ərazisində **Dilağarda** sözü ilə bağlı 3 kənd vardır: birinci **(Dilağarda kəndi)** ad sərbəst buraxılmış, ikincisinə fərqləndirici əlamət kimi yaxınlığından axan Araz çayının adı **(Araz Dilağarda kəndi)** verilmiş, üçüncüsünə isə həmin ərazidə mövcud olan su obyektinin növünü göstərən **qobu** termini **(Qobu Dilağarda kəndi)** əlavə edilməklə təkləndirilmiş və makroareal sistemində sabitləşdirilmişdir.



Kəndin adı Azərbaycanın qədim **qaraqoyunlu** tayfa ittifaqına daxil olan **dilağarda** tirəsinin adı ilə əlaqələndirilir. Əsasən qoyunçuluq və maldarlıqla məşğul olan **dilağardalılar** əvvəllər Cənubi Azərbaycan və Talış zonasında yaşayırdılar. Bəzi məlumatlara əsasən onların bir hissəsi XV əsrin sonlarında Ağqoyunlu zülmünə görə Araz çayını keçib indiki Füzuli rayonu ərazisində məskunlaşmışlar. Həmin tayfanın müəyyən bir hissəsi də 1820-ci ildə Azərbaycanın şimalında, Füzulidə məskunlaşdı. Onlar yayı Talış silsiləsində, qışı isə Cənubi Azərbaycan ərazisində (Muğanda) keçirirdilər. **Araz Dilağarda** və **Qobu Dilağarda** kəndlərini də **dilağardalılar** salmışlar.

Əlavə material üçün bax: (**Araz Dilağarda** və **Qobu Dilağarda** kəndləri).

## DİLAĞARDA QARADAMI

**Qaradam** tipli binalar bütün Qafqaz xalqları arasında, o cümlədən də, Qarabağda geniş yayılmışdır. **Dilağarda** kəndindəki 2 otaqlı **Qaradam** tipli tikinti bu ərazidə geniş yayılmış növlərdən hesab olunur. Belə **damların** geniş yayılmasının ən başlıca səbəbi ev sahibinə məxsus olan heyvanların başqa adamlar tərəfindən oğurlanması təhlükəsinin qismən aradan qaldırılması idi. Belə binalar həm qarqı-qamışla, həm çiy və bişmiş kərpiclə kasıb görünüşdə, həm də təbii daşla təmtəraqlı şəkildə tikilirdi. Binaların dam örtüyü saman, qamış, taxta, saxsı, dəmir, şifer və s. materiallarla örtülürdü.

Füzuli ərazisində belə tikililərdən XX əsrin 60-cı illərinə qədər istifadə olunmuşdur. Bu tip **dam** örtüklü yaşayış binalarına Füzuli ərazisinin Aran zonasında daha çox təsadüf olunurdu. Bu **qaradam** tikilisi **Dilağarda** kəndində olduğu üçün **Dilağarda qaradamı** adlanmışdır.

## DİLAĞARDATƏPƏ

Rayon mərkəzindən 2 km şimalda, Qarabağ silsiləsi ətəklərində dağ. **Dilağardatəpə** toponimi **Dilağarda** (tayfa və kənd adı) və **təpə** sözlərindən ibarətdir. Dilağarda kəndi yaxınlığında yerləşən Dilağardatəpənin hündürlüyü 162 metrdir. Bəzən oronimin adını **Dəliqarlıtəpə** kimi də yazırlar. Ancaq o, səhvdir. Əsl adı kəndin adı ilə əlaqədar **Dilağardatəpə**dir.

Tədqiqatçıların gəldikləri qənaətə görə, **Dilağardatəpə** oronimi **dilağarda** etnonimindən və müsbət relyef forması bildirən **təpə** coğrafi terminindən ibarətdir. Mənşə etibarı ilə **dilağarda** tayfası **Qaraqoyunlu** tayfa ittifaqına daxildir. Tarixi məxəzlərin məlumatına görə **Dilağarda** tayfası orta əsrlərdə Cənubi Azərbaycanda bir neçə əsr yaşamışlar. 1820-ci illərdə onların bir hissəsi Şimali Azərbaycana gəlmişlər. Gələn tirələr əsasən indiki Füzuli rayonunun ərazisində, məskunlaşmışlar. Yaxınlıqdakı bu **təpə** də az sonra **dilağarda** tayfasının adı ilə adlandırılmışdır.

Bu tayfanın adını özündə əks etdirən mikrotoponimlərə nümunə olaraq Masallı rayonunun Dəmbəlov kəndi yaxınlığındakı **Dirağarda dağı, Dirağarda dərəsi, Dirağarda yoxuşu** (göründüyü kimi, oronimlərin adında **l-r** səs əvəzlənmələri vardır) və s. coğrafi adları göstərmək olar...

## DİV MAĞARASI

Qacar kəndi yaxınlığında qeydə alınan oroqrafik obyektlərdən biri də **Div mağarası** adlanır. **Mağara** - yer qabığının üst qatında yer səthindən bir və ya bir neçə girişi olan iri boşluqdur. Daş dövründən başlayaraq insanların yaşayış məskənləri olan mağaralara Azərbaycanda kaha və ya zağa da deyirlər. Qədim insanlar mağaraları ələ keçirmək üçün orada yaşayan yırtıcı heyvanlarla müxtəlif formada mübarizə aparmışlar...

Bir sıra Şərq xalqlarının, o cümlədən, azərbaycanlıların folklorunda qaranlıqla bağlı olan mənfi əsatirli surətə, xəbis ruha,



ilahi məxluqa **div (dev)** deyilir. Azərbaycan nağıllarında 3, 4, 7, 40 başlı nəhəng, eybəcər, qorxunc, sadəlövh bir varlıq surətində təsvir olunan **div** mənfi obraz kimi öz əksini tapıb. **Div mağarasının** yaxınlığında bir neçə tonluq ağır sal daş var. Yerli məlumata görə bu daşı buraya *div* atıb. Əlbəttə, bu, əsatirlə, miflə bağlıdır...

## DİVANALILAR KƏNDİ

**Divanalılar kəndi (Aşağı Divanalılar)** rayon mərkəzindən 16 km şimal-qərbdə, Qacar kəndi yaxınlığında, Qarabağ silsiləsinin ətəyində yerləşir. Əhalisi bostançılıq, heyvandarlıq, taxılçılıq, üzümçülüklə məşğul olur. Kənddə XIX əsrə aid olan türbə vardır. Kənd ermənilər tərəfindən işğal olunubdur...

**Divanalılar** toponimi **divanalılar** tirəsinin adı ilə əlaqədardır. 1717-ci ilə aid olan "Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri" adlı tarixi sənəddə, 474-cü səhifədə Körəz nahiyəsinə tabe olan **Divanalı** ("Dəftər"də adı **Divanə Əli** kimi göstərib) kəndinin də adı qeyd olunmuşdur. Həmin tarixi sənəddə kənd üzrə dənli bitkilərdən əldə olunan gəlir 60.000 ağça göstərilsə də, həmin dönəmdə nədənsə kənddə heç kimin yaşamadığı vurğulanır...

Oykonimin adı bir çox sənəd və materiallarda **Divanallar, Dvannallar, Duvanalılar** və s. kimi də öz əksini tapmışdır. Kənddən azacıq yuxarıda cəmi 10 evlik **Yuxarı Divanalılar** oykonimi də qeydə alınmışdır. **Divanalılar** kəndlərinin əhalisi əvvəllər **Sübhanverdilər obası** tərkibinə daxil idi. Yaşayış məntəqəsinin əvvəlki adı **Sübhanverdibəyli** olub...

## DOQQUZDƏRƏ, DOQQUZDƏRƏ KÖBƏRİ

Rayon mərkəzindən 9 kilometr cənubda yerləşir. Oronimlərin xarakterik xüsusiyyətlərindən biri də onlarda say bildirən sözlərin geniş işlənməsidir. Say bildirən sözlər bir qayda olaraq oronimlərin birinci hissəsi yerində işlənir.

**Doqquzdərə, Doqquzdərə köbəri** rayonun Saracıq kəndi yaxınlığında qeydə alınıb. **Köbər** sözü *"dik yer", "dikdir"* mənasındadır. **Dərə** mənfi relyef forması bildirən coğrafi termindir. Qəbələ rayonunda da **Doqquzdərə** adlı toponim mövcuddur.

## DÖRDÇİNAR BAĞI

**Dördçinar bağı** oroqrafik obyekti Fuzuli rayonunun Horadiz kəndi ilə Dördçinar kəndi ərazisində qeydə alınmışdır. Bağda çoxlu meyvə ağacları vardır. Bu **bağ** yaxınlıqdakı **Dördçinar** kəndinin adı ilə əlaqədardır.

## DÖRDÇİNAR GÜNEYİ

Rayon mərkəzindən 17 km cənub-şərqdə, Horadiz kəndində, dağətəyi ərazidə qeydə alınıb. Burada say bildirən **dörd** komponenti **"çinar güneyi"** oronimik termini ilə birləşib yeni bir spesifik oronim əmələ gətirib. Belə toponimlərdən Ağdam və Ağdaş rayonlarında da (Dördtəpə dağı) vardır.

## DÖRDÇİNAR KƏHRİZİ

**Kəhriz** - qrunt sularını toplayıb yer səthinə çıxarmaq üçün yeraltı qurğudur. Kəhrizlər adətən, peşəkar kankanlar tərəfindən qazılır. XX əsrin ortaları üçün Azərbaycanda 900-dən çox **kəhriz** olmuşdur.

**Dördçinar kəhrizi** Füzuli rayonun Dördçinar kəndi ilə Musabəyli kəndi arasında olduğu üçün bu hidronim el arasında belə adlandırılmışdır. Kəhrizin buz kimi soyuq, göz yaşı kimi dumduru,



şəffaf suyu vardı. Hər özündən deyən cavan əl barmaqlarını 1 dəqiqə müddətində onun suyunda saxlaya bilməzdi. Gur sulu **Dördçinar kəhrizi** Dördçinar və Hüngütlü kəndlərinin əhalisini içməli su ilə təmin edə bilirdi...

## DÖRDÇİNAR KƏNDİ

Füzuli rayonunda, rayon mərkəzindən 17 kilometr cənub-şərqdə, düzənlikdə, Qarabağ silsiləsi ətəyində yerləşən kənd **Dördçinar** adlanır. Əhalisi əsasən heyvandarlıq, taxılçılıq və üzümçülüklə məşğul olur. Kənd qədimdən **dörd** dənə uca **çinar** ağacı olan ərazidə salındığı üçün belə adlanıb.

Azərbaycanda oroqrafik obyektlərin bəzilərinə sayına və başqa cəhətlərinə görə ad verilmişdir. **Dördçinar** toponimi də belə qəbildəndir. Çinarların sayının **dörd** olmasına görə kənd belə adlanır. **Dördçinar kəndi** də işğal altındadır.

Dördçinar kəndinə XVIII əsrin sonlarında İraqdan da bir neçə tirə və nəsil gəlmişdir. Dördçinar kəndinin **xələfilər, hüngütlülər** və s.tayfaları vardır.

## DÖRDTƏPƏ DAĞI

Rayon ərazisində yüksəkliklərdən biri **Dördtəpə dağı** adlanır. Azərbaycanda oroqrafik obyektlərin bəzilərinə sayına görə ad verilmişdir. **Dördtəpə** komponenti də belə saya görə adlandırılan oronimlərdəndir. Yüksəkliyin adı **dörd** və **təpə** sözlərinin birləşməsindən əmələ gəlmişdir. Yüksəklik onu əhatə edən təpələrin 4 ədəd olmasına görə belə adlandırılmışdır. **Dağ** coğrafi termini müsbət relyef forması bildirir.

Ağdamın Cəvahirli kəndində də **Dördtəpə** adlı dağ vardır.

## DÖVLƏTYARLI KƏNDİ

Dövlətyarlı kəndi rayon mərkəzindən 3 kilometr şimalda, Köndələnçayın sol sahilində, Qarabağ silsiləsinin ətəyində, Füzuli-Xocavənd şosse yolu kənarında yerləşir. Əhalisinin sayı 1300 nəfərə yaxındır. Əhalisi heyvandarlıq, taxılçılıq, üzümçülük və baramaçılıqla məşğul olur. Kənddə məktəb, klub, kitabxana, tibb məntəqəsi, daş karxanası və s. var. Kənddə **yadigarlılar, bayramqulular, muradlılar, sisyanlılar, mamırlılar, bəyazlılar, camallar, mehdilər, xıdırlılar, qürbətlilər, əlililər, süleymanlar...** kimi tayfa və tirələr vardır.

Kəndi **dövlətyarlı** (***dövlət*** sözü ərəb dilində *"var-dövlət, zənginlik"* deməkdir) nəslindən olan ailələr saldığı üçün o, belə adlanmışdır. Kənd hazırda işğal altındadır.

XVIII əsrə (1727-ci il) aid"Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri"ndə 469-cu səhifədə kəndin adı **Dövlətyar** şəklində yazılmış və "Dəftər"də bəhs olunan həmin dönəmdə nədənsə kənddə heç kimin yaşamadığı, amma dənli bitkilərdən əldə edilən vergi rüsumunun 9.600 ağça olduğu qeyd edilmişdir.

1728-ci ilə aid olan tarixi məxəzdə İrəvan əyalətinin Şirakel nahiyəsində **Dövlətyar** adlı (başqa adı **Tərgül**) kəndin də adı çəkilir...

## DULLAR MƏHƏLLƏSİ

Füzuli rayonunun Horadiz kəndində qeydə alınan məhəllələrdən biri **Dullar məhəlləsi** adlanır. Adından da göründüyü kimi, bu **məhəllədə** əsasən **dul** qalmış adamlar yaşadığı üçün kənd əhalisi arasında məhəllə **Dullar məhəlləsi** adını almışdır. Böyük Vətən müharibəsi illərində həmin məhəllənin kişi sakinləri cəbhədən qayıtmadıqlarına, onların həyat yoldaşlarının **dul** qaldıqlarına görə yerli əhali məhəlləni belə adlandırmışlar.



## EDİLLİ SƏMTİ YALI

Qarabağ dağ silsiləsinin ətəyində, Füzuli rayon mərkəzindən 9 kilometr cənub-qərbdə qeydə alınan oroqrafik obyekt **Edilli səmti yalı** adlanır. **Edilli** Füzuli rayonu ilə həmsərhəd olan Xocavənd (keçmiş Hadrut rayonu) rayonunda kənd adıdır. Oykonum qədim türk tayfsı olan **edil** etnonimindən və mənsubluq ifadə edən **-li** şəkilçisindən ibarətdir. **Edil** tayfa adına tarixi mənbələrdə bəzən **adil, idil** formalarında da (qırğızlarda **edil,** qaraqalpaqlarda **adil,** başqırdlarda idil) rast gəlirik. Türkdilli tatar və başqırdlar Volqa çayına **İdel** deyirlər. Vaxtilə xəzərlərin şəhərlərindən biri də **edil (idil)** qədim türk tayfasının adı ilə əlaqədar **İdil** adlanırdı...

Toponimin tərkibindəki **Yal** coğrafi termini müsbət relyef forması bildirir. **Yal** termini ilə bağlı respublikamız ərazisində 600-dən çox oronim qeydə alınıb. **Yal** - *"dağın ən hündür zirvəsinin yamacı"* anlamındadır. Toponimin tərkibindəki **səmt** sözü *"istiqamət"* mənası bildirir...

## EDİLLİ YALI

Füzuli rayonu ərazisində, rayon mərkəzindən 10 kilometr cənub-qərbdə qeydə alınan oroqrafik obyekt **Edilli yalı** adlanır. **Yal** - müsbət relyef forması bildirən coğrafi termindir. Adətən, dağın ən hündür zirvəsinin yamacı oronimiyada **yal** adlanar. Azərbaycanda tərkibində **yal** termini iştirak edən 600-dən çox coğrafi ad qeydə alınmışdır.

**Edilli** sözü **yal**dan bir neçə kilometr məsafədə yerləşən keçmiş Hadrut rayonundakı eyniadlı kənd adı ilə əlaqədardır. Respublikamızın ərazisində öz yaxınlığındakı oykonimlə əlaqədar ad almış yüzlərlə oronimlər vardır. **Edilli yalı** da bu tip oronimlərdəndir.

Toponim ehtimal ki, **edil (idil)** adlanan qədim türk tayfasının (başqırdlarda **idil,** qırğızlarda **edil,** qaraqalpaqlarda **adil**) adından və **-li** mənsubluq ifadə edən şəkilçidən ibarətdir. Türkdilli tatar və başqırdlar Volqa çayına **İdel (İdil)** deyirlər. Vaxtilə xəzərlərin şəhərlərindən biri də bu tayfanın adı ilə **İdil** adlanırdı...

## EMİN DƏRƏSİ

Qozluçay dərəsində, Saracıq kəndi yaxınlığında qeydə alınan oroqrafik obyektlərdən biri **Emin dərəsi** adlanır. Azərbaycan oronimiyasında şəxs adlarından düzəlmiş müsbət və mənfi relyef formaları əsas yer tutur. Bunlara antroponimik oronimlər deyirik. Əksər bu tipli mikrooronimlərin adlarının sonluğu mənsubiyyət şəkilçisi ilə bitir. **Emin dərəsi** coğrafi adı da belə antroponimik mikrooronimlərdəndir. **Dərə** sözünün sonundakı **-si** şəkilçisi mənsubluq ifadə edir. Toponim *"Eminə məxsus olan dərə"* mənasındadır.

## ƏBDÜRRƏHMANLI BULAĞI

Yuxarı Əbdürrəhmanlı kəndi ilə İşıqlı kəndi arasında qeydə alınan hidronim **Əbdürrəhmanlı bulağı** adlanır. Hidronimin tərkibindəki **Əbdürrəhmanlı** sözü kəndin adı ilə bağlıdır. **Bulaq** sözü hidronimik apelyativdir. Bu bulağı qazıb təmir edən əslən Əbdürrəhmanlı kəndindən olduğu üçün yerli əhali arasında bulaq **Əbdürrəhmanlı bulağı** kimi adlandırılmışdır...

## ƏBDÜRRƏHMANLI KƏNDİ

(Bax:**Aşağı Əbdürrəhmanlı** və **Yuxarı Əbdürrəhmanlı** kəndi).



## ƏHMƏD SOLTAN TÜRBƏSİ

Aybasanlı kəndi yaxınlığında qeydə alınan oroqrafik obyektlərdən biri **Əhməd Soltan türbəsi** adlanır. Hasar tipli bu türbənin ümumi sahəsi 8,6 x 6,86 metrdir. Türbənin şərq tərəfində giriş qapısı var ki, o da bişmiş kərpic-





lə oxvari tağbənd şəklində düzəldilmişdir. Türbənin çöl divarları boyu bir cərgə - 30 sm hündürlükdə təbii formada çay daşları düzülmüşdür. **Əhməd** sözü ərəbcə *"tərifli"*, *"tərifə layiq"* mənasındadır.

Türbənin içində 3 nəfər dəfn olunub: **Əhməd Soltan,** həyat yoldaşı **Həvva xanım** və qızı **Pəri xanım**. Bu türbə el arasında şərti olaraq **Əhməd Soltan türbəsi** adlandırılmışdır...

## ƏHMƏDALILAR KƏNDİ

Kənd rayon mərkəzindən 34 km cənub-şərqdə, Muğan düzündə, Araz çayı sahilindən azacıq aralıda yerləşir. Əhalisinin sayı 1800 nəfərdir. Əhalisi əsasən taxılçılıq, üzümçülük və heyvandarlıqla məşğul olur. Kənddə orta məktəb, kitabxana, mədəniyyət evi, tibb məntəqəsi, rabitə şöbəsi, türbə (XIII-XIV əsrlərə aid) və s. vardır.

Yaşayış məntəqəsi işğaldan azad olunmuşdur. **Əhmədalılar** toponimi **"Əhmədalı"** şəxs adından və **"-lar"** cəm şəkilçisindən ibarətdir. Toponim *"Əhmədalı nəslindən olanlar, Əhmədalı övladları, əhmədalılar"* mənasını bildirir. **Əhməd** sözü ərəbcə *"tərifli"*, *"tərifə layiq"* mənasındadır.

Bəzi tarixi sənədlərdə kəndin adı **Novruzalı (Yüzbaşılı) Sərkarlı** kimi də göstərilmişdir. **Əhmədalılar** kəndinin **zeynallı, nazanlı, dəlləkli, nəsirli, möylüşlü, sərkarlı, kəlbəiskəndərli** və başqa tayfaları var...

## ƏHMƏDALILAR TÜRBƏSİ



**Əhmədalılar türbəsi** (bəzən **Arğalı türbəsi** də deyilir) Əhmədalılar kəndində yerləşir. Türbənin daşdan tikilmiş çatma tağlı günbəzi var. Abidənin səthləri dayaz batıqlar ilə işlənmiş, girişdəki baştağı oyma həndəsi ornamentlərlə haşiyələnmişdir. Baş tağın ornament bəzəklərində, səthlərinin işlənməsində Naxçıvan memarlıq məktəbinin təsiri duyulur. Memarlıq baxımından bu türbə Babı türbəsinə çox oxşayır. Türbənin XIII əsrin sonu, XIV əsrin əvvəllərində tikildiyi güman edilir.



**Əhmədalılar türbəsinin** kümbəzi ikiqatlı hörülüb və ara məsafəsi daş-əhəng qarışıqlı məhlulla doldurulub. Şimal tərəfdəki qapı ilə üzbəüz mehrab əvəzinə, ikinci qapı da vardır. Bu qapıların portal çərçivələri həndəsi naxışlarla bəzənmişdir. Türbənin üzərində kitabəsi yoxdur. El arasında bu türbəyə **Arğalı türbəsi** (bəlkə də ***arıq Alı***) də deyilir. Orada dəfn olun şəxsin kimliyi hələlik bilinmir.

1960-cı illərdə türbə bərpa edilmişdir. **Əhmədalılar türbəsi** Azərbaycanın ölkə əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələrindən hesab edilir.

## ƏHMƏDBƏYLİ KƏNDİ

**Əhmədbəyli kəndi** rayon mərkəzindən 39 km şərqdə, Köndələnçayın sahilində, düzənlikdədir. Əhalisi min üç yüz nəfərdən artıqdır. Əhali üzümçülük, taxılçılıq, baramaçılıq və heyvandarlıqla məşğul olur. Kənddə orta məktəb, mədəniyyət evi, xəstəxana, rabitə şöbəsi fəaliyyət göstərir...

**Əhmədbəyli** yaşayış məskəni XIX əsrdə Yelizavetpol (Gəncə) qəzasında kiçik bir icma üzvlərinin burada məskunlaşması nəticəsində yaranmışdır. Yerli məlumatlara görə, kənd XIX əsrin ikinci yarısında Bala Bəhmənli yaşayış məntəqəsindən müəyyən səbəblərlə əlaqədar öz qohum-qardaş və rəiyyətləri ilə köçüb burada məskunlaşmış **Əhməd bəy Alı bəy** oğlunun adı ilə əlaqədardır...

Bildiyimiz kimi, Azərbaycan dilində tituldan istifadənin çox qədim tarixi var. Titul bildirən **"bəy"** sözü də bu qəbildəndir. Kənd **Əhməd** adlı bəyin adı ilə adlandırılmışdır. **Əhməd** sözü ərəbcə *"tərifli"*, *"tərifə layiq"* mənasındadır.

Bəzi mülahizələrə görə, **əhmədbəylilərin** Şahsevən tayfaları ilə nəsil qohumluğu əlaqələri vardır. İndi Azərbaycanda şahsevənlər və onlara birləşən başqa səlcuqlar öz tayfa adlarını bir sıra kəndlərə vermişlər ki, onlardan da biri, çox güman ki, **Əhmədbəylidir**.

## ƏLƏKBƏR YALI

**Ələkbər yalı** Füzuli rayonunda, dağətəyi ərazidə yerləşir. Toponimiyada oronimlərin həm müsbət relyef formaları və həm də mənfi relyef formaları adlarının bir hissəsi şəxs adlarına oronimik terminlərin əlavə olunması yolu ilə düzəlir. **Ələkbər yalı** termini də antroponimik oronimdir, yəni **Ələkbər** şəxs adı ilə bağlıdır. **Yal** coğrafi termini müsbət relyef forması bildirir...

## ƏLƏSGƏRLİ KƏNDİ

**Ələsgərli kəndi** Füzuli rayon mərkəzindən 6 km şərqdə, dağətəyi ərazidə yerləşir. Əhalisi əsasən üzümçülük, taxılçılıq, heyvandarlıqla məşğul olur. Kənddə məktəb, klub, kitabxana və s. var. Kənd 1993-cü ilin avqust ayında erməni işğalçıları tərəfindən işğal olunmuşdur.

**Ələsgərli** oykoniminin əsasını şəxs adı **Ələsgər** komponenti təşkil edir; **-li** şəkilçisi isə mənsubluq ifadə edir. Toponim *"Ələsgərin nəslindən olanlar, ələsgərlilər"* mənasını bildirir.

**Ələsgərli** toponimi patronimik toponimdir. **Ələsgərlilər** hacılıların, mahmudluların bir qolunu təşkil edirlər.

**Ələsgərli** toponimi ilə bağlı Zaqatalada *(Ələsgər kəndi)*, Şəmkirdə *(Ələsgərli kəndi)* də yaşayış məntəqələri vardır.

## ƏLİHÜSEYNUŞAĞI KƏNDİ

(Bax: **Mandılı kəndi**)

## ƏMİRASLANIN BAĞI

Dövlətyarlı kəndi ərazisində, Köndələn çayı sahilində qeydə alınan oroqrafik obyektlərdən biri **Əmiraslanın bağı** adını



almışdır. Bağda çoxlu tut, alma, armud, gilas, gilənar, heyva, ərik, qoz və nar ağacları vardır. Buradakı tut ağaclarından baramaçılıqda (ipəkqurdu) geniş istifadə olunmuşdur. **Bağ** onun yaradıcısı olmuş **Əmiraslan** adlı bir şəxsin adı ilə əlaqədar olaraq belə adlandırılmışdır. Toponim *"Əmiraslana məxsus olan bağ"* anlamındadır...

## ƏNCİLDƏRƏ

Bildiyimiz kimi, respublikamızda meyvə ağacı növləri adı ilə düzələn oronimlər, fitooronimlər çoxdur. Bizim ata-babalarımız dağdağan, zoğal, çinar, ceviz ağacları ilə birlikdə **əncir** ağacını da müqəddəs hesab etmişlər. "Onları kəsən, yandıran sağ can görməz" - deyərlər. Həm də deyirlər ki, *əncir* və ceviz ağaclarının dibində yatan ya xəstələnər, ya da onu vurğun vurar...

Oronimiyamızda **əncir** bitkisinin adını özündə əks etdirən oroqrafik obyektlər sırasında Füzuli rayon mərkəzindən 18 km şərqdə, Alxanlı kəndində yerləşən **Əncildərə** toponiminin də adı var. Həmin **dərədə** çoxlu **əncir** yetişdirilir. Elə bu səbəbdən də oronim belə ad almışdır.

**Əncir** bitkisinin adı ilə bağlı Zəngilanda **Əncir qayası,** Cəbrayılın Qovşutlu kəndində **Əncirli döş,** Qaradağ, Cəbrayıl, Zəngilan, Qubadlı rayonlarında **Əncirli dərə** və başqa oronimlər də mövcuddur...

## ƏNCİRLİ DƏRƏ

**Əncirli dərə** oronimi **əncir** sözündən, **-li** şəkilçisindən və **dərə** terminindən ibarətdir. **Əncirli dərə** fitooronimi Füzuli rayonunun Qacar kəndi yaxınlığında qeydə alınıb. **Dərə** mənfi relyef forması bildirən coğrafi termininin iştirakı ilə Azərbaycanda çöl materialları içərisində 30.000-dən çox oroqrafik obyekt qeydə alın-

mışdır. **Əncirli dərə** toponimi həmin çökəklikdəki ərazidə, dərədə **əncir** ağaclarının çoxluğu ilə əlaqədar belə adlandırılmışdır.

Belə qisim oronimlərə Azərbaycanın Abşeron, Bərdə, Zəngilan, Xocavənd və Cəbrayıl rayonlarının ərazilərində də rast gəlirik.

## ƏPPƏKLİ

**Əppəkli** oroqrafik obyekti Füzuli rayonunun Yuxarı Əbdürrəhmanlı kəndinin 4-5 kilometrliyində qeydə alınıb. **Əppəkli** sözünün əski türk dillərində "çörəkli" anlamı var. Bu yerlərdə əkilən taxıl bol, yaxşı məhsul verdiyinə görə oronim belə adlandırılmışdır. **Əppəkli** yerinin torpağı həqiqətən də çox məhsuldardır...

## ƏRGÜNƏŞ DAĞI

**Ərgünəş dağı** Füzuli rayonunun Xocavəndlə sərhəd ərazisində (Arış, Qoçəhmədli, Xırmancıq kəndləri yaxınlığında), rayon mərkəzindən 9 km cənubda, Qarabağ silsiləsinin ətəyində yerləşir. **Ərgünəş** toponimindəki **"ər"** sözü türk dilində *"yüksək"*, *"igid"*, *"hündür"* və s. mənasındadır. Bəzilərinə görə, **"ər"** komponenti türk dillərində *"gədik"* mənasında işlədilən **"ar"** sözü ilə əlaqədardır. Yerli əhali dağın adını **Argünəş** formasında da tələffüz edir. **Ərgünəş dağı** yaxınlıqda olan dağlardan daha hündür olmasına və günəş şüasının daha tez onun zirvəsinə düşməsinə görə belə adlanmışdır...

## ƏSƏDULLAH BƏY KƏHRİZİ

Azərbaycan toponimiyasında şəxs adlarından yaranmış hidronimlər çoxdur. Onlardan biri də Füzuli rayonunun Sərdarlı kəndi ərazisində qeydə alınan **Əsədullah bəy kəhrizi** hidronimidir. Kəhrizin üstü dağdağan ağacları ilə əhatələnmişdir. Kəndin mollası Molla Qədirqulunun evi kəhrizin yanında idi. Kəhrizin üzərindəki daşda ərəb əlifbası ilə yazı da var. **Kəhrizi** kəndin kovxalılar tayfasından olan **Kərbəlayi Əsədullah bəy** Əli bəy oğlu tikdirdiyinə görə hidronim belə ad almışdır.

Kəhrizin suyu qarşısındakı hovuza yığılaraq kiçik arxla növbə ilə həyətlərə axıdılırdı. Məşədi Hacı bəyin (1783-cü ildə doğulub) ikinci oğlu Əli bəyin Bədircahan xanımla qurduğu ailədən Əliqulu bəy, Ələsgər bəy, Cəfərqulu bəy, **Əsədullah bəy** (1860-cı ildə Sərdarlı kəndində anadan olub) adlı oğlanları olub. Əsədullah bəy molla yanında təhsil almış, müqəddəs Xorasanı ziyarət etmiş, özəl təsərrüfat mülklərini idarə etməklə güzəran keçirmişdir. Onun Ağa Həsən bəy, Məhəmməd bəy, Museyib bəy, Hüseyn bəy adlı 4 oğlu olub...

## ƏSGƏRXAN BULAĞI

Yağlıvənd kəndi ərazisində qeydə alınan hidronimlərdən biri **Əsgərxan bulağı** adlanır. Hidronim **Əsgərxan** şəxs adından və **bulaq** hidronimik apelyativindən ibarətdir.

Bulağın yerləşdiyi ərazi Azərbaycanın cənnət guşələrindən biridir. Dumduru, şəffaf və soyuq sulu **Əsgərxan bulağı** və onun ətraf sahəsi Qarabağ ərazisində yaşayan əksər əhalinin yayda çox sevdiyi istirahət guşələrindən biri idi...

## ƏZGİLLİ MEŞƏSİ

Füzuli rayonunda qeydə alınan oronimlərdən biri də **Əzgilli meşəsi** adlanır. Konkret mikro arealda çoxişlənən ***Əzgilli meşəsi*** mikrotoponimi ellipsiyaya uğrayaraq **Əzgilli** şəklinə düşmüşdür. Bu tipli coğrafi adlara Azərbaycanın bir çox rayonlarında da rast gəlmək mümkündür...

## FİOLETOVKA

Rayon mərkəzindən 1 km qərbdə, şəhərin yuxarı qərb hissəsində yerləşən yaşayış məntəqəsi **Fioletovka** adlanır. Yaşayış məntəqəsinin adı bəzi tarixi mənbələrdə **Qızılqışlaq** kimi də çəkilir. Fioletovka ərazisindəki küçə Rusiyada inqilabi hərəkat xadimi, 1918-ci ilin sentyabrında Bakı komissarları sırasında güllələnmiş İvan Timofeyeviç **Fioletovun** (19.12.1883-20.09.1918) adı ilə adlandırılmışdır. Həmin yaşayış məntəqəsində XIX əsr Rusiyanın mərkəzi quberniyalarından köçürülmüş rus ailələri də məskən salmışlar.

## FÜZULİ RAYONU




Azərbaycanda inzibati rayon, 1930-cu ildə təşkil edilib. Sahəsi 1386 kv. km (əslində 1392 kv. km-dir). Rayonda 1 şəhər (Füzuli), 1 şəhər tipli qəsəbə (Horadiz), 76 kənd vardır. Mərkəzi Füzuli şəhəridir. Rayon Qarabağ dağ silsiləsinin cənub-şərq ətəklərində, Araz çayına qədər maili düzənlik və alçaq dağlıq sahələri əhatə edir. Cəbrayıl, Xocavənd, Ağcabədi, Beyləqan və Araz çayı boyunca İranla həmsərhəddir.

Rayonun (şəhərin) ilkin adı **Qarabulaq** (1827), **Molokan**, daha sonralar çar polkovniki



Karyaginin şərəfinə **Karyagin** (Sovet hakimiyyətinin ilk illərində inqilabçı B.Sərdarovun soyadı ilə bir müddət **Sərdar (Sərdarabad)** da adlanmışdır), 1959-cu ilin aprelindən isə dahi Azərbaycan şairi **Məhəmməd Füzulinin** şərəfinə **Füzuli** (bu söz ərəbcə "bilikli", "fəzilətli" anlamındadır) olmuşdur.

Oykonimlərin müəyyən bir qismini xatirə-memorial xarakterli adlar təşkil edir. Memorial oykonimlər ellipsiyaya az meyllidirlər. **Füzuli rayonu *(Füzuli şəhəri)*** adı da memorial oykonimlərdən (dahi Azərbaycan şairi **Məhəmməd Füzulinin** adı ilə əlaqədar) hesab olunur.

Rayonun əhalisi 140 min nəfərdir. Əhalinin orta sıxlığı 1 kv. km-ə 110 nəfərdir. Ən iri yaşayış məntəqələri Füzuli şəhəri, Horadiz qəsəbəsi, Böyük Bəhmənli, Horadiz (işğal altındadır), Qacar (işğal altındadır), Yuxarı Yağlıvənd (işğal altındadır), Aşağı Seyidəhmədli kəndləridir. Bakıdan Füzuli şəhərinə olan məsafə 311 km-dir.

**Çayları:** Köndələnçay, Quruçay, Qozluçay, İncəçay, Çərəkən çayı;

**İqlimi:** mülayim-isti, yarımsəhra və quruçöl;

**Heyvanları:** oxlu kirpi, dovşan, qumsiçanı, tarlasiçanı və s.;

**Quşları:** Turac, qırqovul, kəklik, sığırçın, göyərçin və s.;

**İllik yağıntı:** 400-600 mm;

**Üzümlüklər:** 20 min hektar;

**Suvarılan torpaqlar:** 25 min hektar;

**Torpaq sahələri:** boz, çəmən-boz, dağ-şabalıdı, dağ bozqəhvəyi və s.;

**Bitkisi:** Əsasən yarımsəhra tiplidir;

**Orta temperatur:** Yanvarda 1 °C, iyulda 27 °C-dir.

**Əsas kənd təsərrüfatı sahələri:** üzümçülük, heyvandarlıq, baramaçılıq, quşçuluq, taxılçılıq.

**Hündürlüyü:** dəniz səviyyəsindən 400-1200 m.

Rayon mərkəzinin 14 kilometrliyində Azıx mağarasından tapılan, arxeologiya elminin nailiyyəti sayılan Azıxantrop **Füzuli rayonu** ərazisində vaxtilə qədim paleolit dövrünün mövcudluğunu

aşkarladı. Qaraköpəktəpədə, Qarabulaq kurqanlarında, Günəştəpədə, Quruçay və Köndələnçay sahillərində aparılan qazıntı-tədqiqat işləri bu ərazilərdə min illər bundan əvvəl qədim



tayfaların yaşadığından xəbər verir. Rayon ərazisində Tağlar mağara düşərgəsi (Paleolit dövrü), ilk tunc dövrünə aid Kültəpə, Günəştəpə, Meynətəpə, Qaraköpəktəpə, Uzuntəpə, Şomulutəpə, Xantəpə, Balalar təpə, tunc dövrü abidələrindən Qarabulaq kurqanları, Zərgərtəpə, Şəkərcik yaşayış yeri və başqalarını nümunə göstərmək olar...

Rayonda tikinti tresti, 6 nəqliyyat təşkilatı, dəmir-beton məmulatı və yağ-pendir zavodları, bir neçə üzüm emalı müəssisəsi, toxuculuq fabriki, daş karxanası, taxıl məhsulları kombinatı, Bakı təcrübə zavodunun filialı, Dövlət Kənd Təsərrüfatı İstehsal-Texniki Təminat Komitəsinin rayon şöbəsi, böyük enerji gücünə malik elektrik şəbəkəsi, su anbarı, avtobaza, müxtəlif tikinti idarələri, hamamlar, bazarlar, univermaq, universam, çörək zavodu, mehmanxana, bir neçə maşın təmiri sexləri, çoxlu sayda



bulaqlar, çoxsaylı avtomobil yolları şəbəkəsi, 76 ümumtəhsil məktəbi, 30 məktəbəqədər müəssisə, 2 texniki peşə məktəbi, 700 çarpayılıq 14 xəstəxana, vərəm və dəri-zöhrəvi xəstəlikləri dispanseri, 31 feldşer-mama məntəqəsi, sanitariya-epidemioloji stansiyası, 21 mədəniyyət evi, 70 kitabxana, 46 klub, 17 kinoqurğu, 2 muzey, Dövlət Dram Teatrı, Xalq Teatrı, şahmat məktəbi, bir neçə musiqi məktəbləri, Kənd Könüllü İdman Cəmiyyəti, 2 min yerlik stadion, mədəniyyət-istirahət parkı və s. vardır.

Rayonun ilkin adı **Qarabulaq** olub. **Qarabulaq** yaşayış məntəqəsi öz adını vaxtilə burada çıxan çoxlu sayda təbii bulaqların adından almışdır. İstanbulun Başbakanlıq arxivində saxlanan 930 saylı "Gəncə Qarabağ əyalətinin müfəssəl" dəftəri adlanan tarixi sənəddə indiki Füzuli şəhərinin adı "Dizaq nahiyəsinə tabe olan **Qarabulaq qışlağı"** kimi qeyd olunmuşdur. 1886-cı ildə Tiflisdə tərtib edilmiş arxiv sənədlərində **Qarabulaq** və ətraf kəndlər haqqında qiymətli tarixi məlumatlar var. Həmin cədvəldə Qarabulaqda 45 ailənin (104 kişi, 109 qadın) yaşadığı göstərilir.

Azərbaycanın memarlıq abidələri siyahısını bəzəyən Əhmədalılar (Arğalı) türbəsi (XIII əsrin sonu), Babı türbəsi (1272-ci il), Mirəli türbəsi (XIII əsr), Hacı Qiyasəddin məscidi (1682-ci il), Karvansaray (1684-cü il), Qoçəhmədli məscidi (XVIII əsr), Hacı Ələkbər məscidi (XIX əsr), Məşədi Həbib hamamı (XIX əsrin sonu), Merdinlidə daşdan yonulan at və qoç fiqurları (XVIII-XIX əsrlər) və s. **Füzuli rayonu** ərazisindədir.

Bu gün 350 nəfərdən çox Füzulinin alim ziyalısı respublikamızda və onun hüdudlarından kənarda elmi-pedaqoji fəaliyyətlərini davam etdirirlər. Füzuli torpağı AMEA-nın 10 həqiqi və müxbir üzvünü, 95 professor, 250 nəfərdən çox dosent və elmlər namizədi yetişdirmişdir. Füzuli rayonu eyni zamanda dünya şöhrətli siyasi xadimlərin, mədəniyyət xadimlərinin, idmançıların, hərbçilərin də yurdudur.

Məlum hadisələrlə əlaqədar 1988-ci ildən 1994-cü il atəşkəs dövrünə qədər Füzuli rayonunun əhalisi respublikada Ağdamdan sonra ən çox şəhid verən rayondur. Rayonun ümumiyyətlə, 1100

şəhid və itkini (8 Milli Qəhrəmanı), 113 girovu, 1450 nəfər müxtəlif dərəcəli əlili var.

**23 avqust 1993**-cü ildə Füzuli torpaqlarının böyük bir hissəsi ermənilər tərəfindən işğal olundu. Sonralar atəşkəsə qədər 15 kənd və Horadiz qəsəbəsi işğaldan azad olunub.

Hazırda Füzulinin **51 kəndi** və rayon mərkəzi erməni tapdağı altında zillət çəkir. **60 min** nəfərə yaxın füzulili məmləkətimizin 60 rayonunda əzablı köçkün ömrü yaşayır...

Tarixdən məlumdur ki, Azərbaycanın ən qədim sakinləri **Füzuli rayonu** ərazisində Quruçay vadisində yaşamışlar...

**Füzuli rayonu** Azərbaycanın cənub-qərbində, Köndələn, Quruçay və Qozluçay vadilərində, dağətəyi ərazidə yerləşir. Tarix sübut edir ki, Füzuli rayonunun ərazisi ən qədim insan məskənlərindən biridir. **Quruçay mədəniyyəti, Azıx mağarası (Azıxantrop), Qaraköpəktəpə, Kültəpə, Meynətəpə, Yumurtatəpə, Qarabağ kurqanları...** fikrimizin bariz nümunələridir. Tarixin sonrakı qatlarında mis və tunc dövrlərində də bu ərazilərdə insanların yaşamaları ilə bağlı kifayət qədər məlumatlar vardır. Qədim və orta əsrlərdə bu ərazilərdə məskən salmış adamların məşğuliyyəti əsasən heyvandarlıq, əkinçilik və bağçılıq idi...

Son orta əsrlər və daha sonrakı onilliklərdə rayon ərazisində yaşayan əhali haqqında müxtəlif məzmunlu sənədlərdə məlumatlar verilmişdir. 1593-cü ildə Qarabağ əyalətinin "icmal dəftəri"ndə, daha sonra 1727-ci il tarixdə "Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri"ndə də bu ərazilərlə bağlı xeyli məlumat vardır. Ərazidəki obalar 1823, 1842, 1848, 1849, 1853, 1863, 1873, 1886-cı illərdə dövlət tərəfindən siyahıya alınmışdır.

1892-ci ildə Qafqaz canişinliyi əhalinin dəqiq siyahısını aparmış, indiki rayonu ərazisində 16 kənd dairəsi və onların tabeliyindəki 55 yaşayış məntəqəsinin adlarını və əhalisinin tərkibini, sayını (19.009) göstərmişdir:

**1. Horadiz kənd dairəsi.**
Horadiz kəndi - 417 kişi, 344 qadın;
Dördçinar kəndi - 47 kişi, 40 qadın;



**2. Qarakollu kənd dairəsi.**
Qarakollu kədi - 321 kişi, 208 qadın;
Güzlək kəndi - 110 kişi, 73 qadın;
Qaradağlı kəndi - 108 kişi, 95 qadın;
Gorazıllı kəndi - 156 kişi, 118 qadın;
Molla Vəli kəndi - 34 kişi, 20 qadın;
Musabəyli kəndi - 38 kişi, 35 qadın;
Pirəhmədli kəndi 198 kişi, 134 qadın;
Rəfədinli kəndi - 168 kişi, 100 qadın;
Saracıq kəndi - 124 kişi, 101 qadın;
Xatınbulaq kəndi - 110 kişi, 83 qadın;

**3. Şıxılı kənd dairəsi.**
Şıxılı (Şıxlı) kəndi - 82 kişi, 61 qadın;
Aybasanlı kəndi - 201 kişi, 107 qadın;
Dilağarda kəndi - 452 kişi, 330 qadın;
Qorqan kəndi - 32 kişi, 24 qadın;
Gecəgözlü kəndi - 147 kişi, 97 qadın;
Mahmudlu-2 kəndi - 240 kişi, 190 qadın;
Mirzəcamallı kəndi - 248 kişi, 174 qadın;

**4. Yağlıvənd kənd dairəsi.**
Yağlıvənd kəndi - 578 kişi, 465 qadın;

**5. Arğalı kənd dairəsi.**
Arayatlı kəndi - 157 kişi, 90 qadın;
Əhmədalılar kəndi - 64 kişi, 57 qadın;
Qazaxlar kəndi - 85 kişi, 62 qadın;
Mirzənağılı kəndi - 63 kişi, 52 qadın;
Mollaməhərrəmli kəndi - 103 kişi, 86 qadın;

**6. Əbdürrəhmanlı kənd dairəsi.**
Əbdürrəhmanlı kəndi - 341 kişi, 237 qadın;
Seyidəhmədli kəndi - 172 kişi, 119 qadın;

**7. Alxanlı kənd dairəsi.**
Alxanlı kəndi - 294 kişi, 234 qadın;
Kürdmahmudlu kəndi - 327 kişi, 237 qadın;

**8. Bəhmənli kənd dairəsi.**
Babı kəndi - 95 kişi, 85 qadın;
Böyük Bəhmənli kəndi - 394 kişi, 334 qadın;
Bala Bəhmənli kəndi - 123 kişi, 110 qadın;
**9. Dövlətyarlı kənd dairəsi.**
Dövlətyarlı kəndi - 234 kişi, 147 qadın;
**10. Zərgar kənd dairəsi.**
Zərgar kəndi - 353 kişi, 255 qadın;
**11. Qarabulaq kənd dairəsi.**
Qarabulaq şəhəri - 904 kişi, 909 qadın;
**12.Qaraxanbəyli kənd dairəsi.**
Qaraxanbəyli kəndi - 250 kişi, 226 qadın;
Qərbənd kəndi - 149 kişi, 125 qadın;
Merdinli kəndi - 75 kişi, 54 qadın
Seyidmahmudlu kəndi - 145 kişi, 92 qadın;
Yəhyabəyli kəndi - 19 kişi, 18 qadın;
**13. Qarğabazar kənd dairəsi.**
Qarğabazar kəndi - 230 kişi, 131 qadın;
Dədəli kəndi - 76 kişi, 72 qadın;
Cuvarlı kəndi - 84 kişi, 66 qadın;
İşıqlı kəndi - 94 kişi, 75 qadın;
Xələfşə kəndi - 62 kişi, 47 qadın;
Qoçəhmədli kəndi - 282 kişi, 210 qadın;
Mandılı kəndi - 30 kişi, 21 qadın;
Yal Pirəhmədli kəndi - 107 kişi, 85 qadın;
**14. Kərimbəyli kənd dairəsi.**
Kərimbəyli kəndi - 358 kişi, 308 qadın;
**15. Qacar kənd dairəsi.**
Qacar kəndi - 231 kişi, 176 qadın;
Divanallar kəndi - 69 kişi, 57 qadın;
Govşad kəndi - 156 kişi, 139 qadın;
Hoğa kəndi - 190 kişi, 176 qadın;
**16. Şahsevən kənd dairəsi.**
Şahsevən kəndi - 465 kişi, 271 qadın;
Əmirseyidli kəndi - 93 kişi, 81 qadın;



**1918-ci ildə** - K.Kipiani Qaryagin qəzasına komissar təyin edildikdən sonra ticarət, mədəni-maarif və kənd təsərrüfatı sahəsində canlanma yarandı. Mayın 28-də Azərbaycan Xalq Cümhuriyyəti öz istiqlaliyyətini bəyan etdi. Osmanlı ordusu Bakını ingilislərdən və ermənilərdən təmizlədi. Ancaq Azərbaycan Demokratik Respublikası tarix səhnəsində cəmi 23 ay yaşadı. 1920-ci ilin aprelində Rusiyanın XI Qızıl ordusunun köməkliyi ilə ADR süqut etdi. Qaryagin əhalisi də XI Qızıl Orduya qarşı çıxdı. Müsavatçılar türk zabiti Həmid bəyin iştirakı ilə Qaryagində gizli müşavirə keçirdilər. Bu ərəfədə vəziyyət çox gərgin idi, ara qarışmışdı. İyulun 29-da Məmmədxan Məmmədxanov inqilab komitəsinin qərargahını Qaryagindən Qoçəhmədli kəndinə köçürdü, çünki Qoçəhmədli, Arış, Mollavəli və Xatınbulaq kəndlərindən başqa bütün ətrafdakı yaşayış məntəqələri XI Qızıl Ordu əsgərlərinin əlinə keçmişdi.

İnqilab Komitəsinin ixtiyarında cəmi 16 nəfər silahlı atlı vardı. Tez iclas keçirib hərbi qərargah yaratdılar. Qərargah üzvlüyünə M.Məmmədxanov, Ə.Mərdanov, Ə.Qarayev, Ş.Davıdov, S.Kiroyev, V.Levkopulo, Q.Kafitiyev seçildilər. 8 avqustda XI Qızıl Ordunun komandanlığı Qoçəhmədli camaatına 2 günlük müddəti olan hədələyici ultimatum göndərdi. Kənd camaatı təslim olmadı. Düşmən kəndi yandırdı. Ə.Məmmədov, D.Xankişiyev, İ.Ağakişiyev, İbrahim və İsgəndər Xəlil oğlanları həbs edildi. Məmmədxan isə 8 atlısı ilə Ərgünəş dağı istiqamətinə, meşələrə çəkildi... Bütün bu kimi ikiillik qarşıdurmalara, gərginliyə baxmayaraq Qaryagin ərazisi tamamilə XI Qızıl Ordunun ixtiyarına keçdi və beləliklə, bolşeviklər tam qələbə çaldılar.

**1926-cı il** siyahıyaalınmasına görə Qaryagin ərazisində 13681, Qaryagin şəhərində isə 4803 (cəmi 18564) nəfər yaşamışdır. 1927-ci ilin noyabrında "Qırmızı Oktyabr" kolxozu (ilk sədr Vasili Sutrimi) yaradıldı. 1929-cu ildə Qaryagində 4 kolxoz - "Qırmızı Oktyabr", "Sabir" (Böyük Bəhmənli kəndi), "Engels" (Seyidəhmədli kəndi), "Şəfəq" (Veysəlli kəndi) və 6 artel var idi. Onların sayı getdikcə artmağa başladı...

**1 mart 1929-cu il tarixdə** Azərbaycan Xalq Komissarları Soveti qarğabazarlı mətin inqilabçı Bünyad Sərdarovun faciəli vəfatının 10 illiyi ilə əlaqədar olaraq Qaryagin şəhərinə **Sərdar** adı verdi. Amma SSRİ Xalq Komissarları Sovetinin təzyiqi ilə Azərbaycan SSR XKS 1931-ci ildə öz əvvəlki qərarını ləğv edib **Sərdar** adı əvəzinə **Qaryagin** adını bərpa etdi...

**1933-cü ildə** rayonda artıq 39 kolxoz var idi. İki il sonra 1935-ci ildə onların sayı 56-ya çatdı. 1934-cü ildə respublikada birinci olaraq pambıq planını əməksevər Qaryagin rayon kolxozçuları yerinə yetirdi. 1936-cı ildə gündə 250 kiloqram əl ilə pambıq yığdığına görə Şamama Rzayeva Azərbaycan SSR Baş Sovetinə deputat seçildi.

Sonrakı repressiya illəri Füzuli rayonundan da yan keçmədi. Rayonun yüzlərlə ziyalı sakini, əməkçisi məşhur "troyka"nın qurbanına çevrildi. Yüzlərlə ailələr Qazaxıstan və digər ərazilərə sürgün olundu.

**25 yanvar 1939-cu ildə** Azərbaycan K(b)P-nın və Respublika Xalq Komissarları Sovetinin birgə qərarı ilə yeni yaranan Jdanov rayonunun tabeçiliyinə Şahsevən və Əmirseyidli kəndləri ilə bərabər, 5 №li kolxoz da verildi.

**1940-cı ildə rayonda** 1 şəhər, 14 kənd soveti və 73 kolxoz vardı. Həmin ildə də bütün dövlət planları artıqlaması ilə yerinə yetirildi. Sənaye sahəsində də yeniliklər özünü göstərirdi. 1939-cu il əhalinin Ümumittifaq siyahıya alınmasına görə, Qaryagin rayonunda **41763** nəfər, Qaryagin şəhərində isə **6234** nəfər əhali yaşamışdır...

**1941-45-ci il** Böyük Vətən müharibəsi cəbhələrində Füzuli rayonundan **3.492** nəfər vuruşdu. Bu müharibəyə Füzuli şəhərindən **361** nəfər, Kərimbəyli kənd sovetindən **310** nəfər, Seyidəhmədli kənd sovetindən **309** nəfər, Alxanlı kənd sovetindən **296** nəfər, Qacar kənd sovetindən **289** nəfər, Pirəhmədli kənd sovetindən **272** nəfər, Böyük Bəhmənli kənd sovetindən **264** nəfər, Veysəlli kənd sovetindən **252** nəfər, Qaraxanbəyli kənd sovetindən **235** nəfər, Əbdürrəhmanlı kənd sovetindən **213** nəfər,



Qarakollu kənd sovetindən **211** nəfər, Qoçəhmədli kənd sovetindən **193** nəfər, Dilağarda kənd sovetindən 144 nəfər cəlb olunmuşdur. Onların **70%**-i - **2714 nəfər** (bəzən **2611** nəfər də yazırlar) geri dönmədi. Müharibədə şərəfli döyüş yolu keçib gənc nəslə nümunə olan neçə-neçə füzulili adını tarix səhifələrinə həkk etdirdi...

Müharibədən sonrakı bərpa illərində mədəni-maarif, sənaye, səhiyyə, nəqliyyat, ticarət, tikinti sahələrindəki quruculuq yüksələn xətt üzrə inkişaf etdi. 1946-cı ildə rayon mədəniyyət evi bazasında Qaryagin rayon Dövlət Dram Teatrı təşkil olundu. Artıq hər bir kənddə mədəniyyət evi, klub, kitabxana əhaliyə mədəni xidmət göstərirdi. Bakı-Naxçıvan dəmir yolu üzərində olan və qatarla gələn yükləri boşaltmaq işini asanlaşdırmaq üçün 1948-ci ildə Horadiz qəsəbəsi təşkil edildi. Elə həmin ildə qəsəbədə rayonlararası taxıl tədarükü kombinatı tikilib istifadəyə verildi. Az sonra qəsəbədə pambıq zavodu da tikildi.

**1947-50-ci illərdə** pambıq və taxıl istehsalına görə Qaryagin rayonunun 27 nəfərinə SSRİ Ali Sovetinin Rəyasət Heyətinin fərmanları ilə yüksək fəxri ad - Sosialist Əməyi Qəhrəmanı fəxri adı verildi. Bundan başqa 461 nəfər qaryaginli Lenin ordeni, 607 nəfər isə Qırmızı Əmək Bayrağı ordeninə layiq görüldü. Bütün bu göstəricilərə görə rayon Azərbaycanda birincilik qazandı.

**1951-ci ilin yanvarında** ÜİK(b)P MK-nin və SSRİ Nazirlər Sovetinin "Kollektiv təsərrüfatların iriləşdirilməsi" haqqındakı birgə qərarına əsasən rayonda fəaliyyət göstərən 73 kolxoz 31 kolxoz ətrafında birləşdilər.

**1951-52-ci illərdə** rayonda 400 müəllim, 9000-dən çox şagird var idi. Məktəblərdən 31-i ibtidai, 19-u yeddiillik, 16-sı tam orta, 2-si fəhlə-gənclər orta, 1-i qiyabi orta, 14-ü kəndli-gənclər orta məktəbi olmuşdur. Bu illər rayonda 1 mərkəzi kitabxana, 9 klub, 2 kinoteatr, 23 daimi kino qurğusu, 2 səyyar kino qurğusu, 1 mədəniyyət evi, 1 müəllimlər evi, 13000 oxucusu və 151000 kitab fondu olan 19 kənd kitabxanası əhaliyə xidmət göstərirdi. Rayon ərazisində xəstəxanaların sayı artıb 20-yə çatdı. Qaryagin

şəhərində dəri-zöhrəvi xəstəxana, uşaq xəstəxanası, göz xəstəxanası, vərəm dispanseri təşkil olundu.

**1953-cü ildə** çörək zavodu, bir il sonra dəmir-beton zavodu, daha bir il sonra isə asfalt zavodu yaradıldı ki, bu da yeni-yeni tikinti idarələrinin, təşkilatlarının artmasına gətirib çıxardı.

**1958-ci ilin aprel ayında** Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti dahi şairimiz Məhəmməd Füzulinin vəfatının 400 illiyi ilə əlaqədar olaraq Qaryagin rayonuna və şəhərinə onun adının verilməsi ilə bağlı fərman verdi.

**31 iyul 1969-cu il tarixdə** Azərbaycan SSR Nazirlər Soveti "Füzuli şəhərinin yenidən qurulması haqqında" qərar qəbul etdi. Şəhərdə İnşaatçılar qəsəbəsi salındı, yeni inzibati və yaşayış binaları tikildi, yeni üslubda aeroport, rayonlararası orta internat məktəbi, 600 yerlik mədəniyyət sarayı, 2 asfalt zavodu, yeni quruculuq fabriki, hamam binası və s. əhalinin istifadəsinə verildi.

**1970-ci ilin yanvar ayında** keçirilən əhalinin Ümumittifaq siyahıya alınması tədbirində aydın oldu ki, Füzuli rayonunda 97931, Füzuli şəhərində isə 14316 nəfər əhali yaşayır (işğal ərəfəsində rayon əhalisinin sayı 110 mindən çox idi).

**1979-cu ildə** Köndələn çayı üzərində su hövzəsi tikildi. Bu, rayonun Köndələn çayı boyu kəndlərini, onların əkin sahələrini su ilə təmin edirdi.

Sonrakı illərdə Füzuli rayonu Azərbaycanın ən böyük üzümçülük rayonlarından birinə çevrildi. Getdikcə iqtisadiyyatı güclənən rayon 1993-cü ildə xain erməni qonşularımız tərəfindən işğal edildi...



## FÜZULİ ŞƏHƏRİ

Qarabağ silsiləsinin ətəyində, Köndələnçayın sağ sahilində, maili düzənlikdə eyniadlı inzibati rayonun mərkəzi. Qədim adı **Qarabulaqdır** (1827-ci il). XIX əsrin 30-cu illərinin əvvəllində çar hökumətinin köçürmə siyasəti nəticəsində mərkəzi quberniyalardan köçürülən molokanlar Zəngəzur qəzasının Bazarçay kəndində yerləşsələr də, çəyirtkə onların məhsullarını tələf etdiyi üçün sonralar onlar kütləvi şəkildə Qarabulaq kəndi ərazisində məskunlaşmışdılar. Bundan sonra yaşayış məntəqəsi bir müddət **Molokan** adlandırıldı.



1905-ci ildə yaşayış məntəqəsinə XIX əsrin əvvəllərində Rusiya-İran müharibəsinin iştirakçısı, çar ordusu polkovniki Karyaginin **(Qaryagin)** adı verilmişdir. Sovet hakimiyyəti illərində rayon (eləcə də şəhər) bir müddət inqilabçı Bünyad Sərdarovun şərəfinə **Sərdar** da adlandırılmışdır. Az sonra rayona (eləcə də şəhərə) yenə **Qaryagin** adı verilmişdir. 1959-cu ildə (aprel ayında) rayonun **Karyagin** adı dəyişdirilərək, ona dahi şair Məhəmməd Füzulinin (1494-1556) şərəfinə **Füzuli** adı verilmişdir.

Şəhərin əhalisinin sayı 28 min nəfərdir. Şəhərdə texniki peşə və bir neçə ümumtəhsil məktəbləri, mərkəzi rayon xəstəxanası, vərəm və dəri-zöhrəvi xəstəlikləri dispanseri, uşaq xəstəxanası, sanitariya-epidemioloji stansiyası, müəllimlər evi, iki mədəniyyət evi, Dövlət Dram Teatrı, Xalq teatrı, tarix muzeyi, Şahmat məktəbi,



musiqi məktəbləri, üç nəqliyyat müəssisəsi, tikinti tresti, dəmir-beton məmulatı zavodu, daş karxanası, 5 hamam, 2 su anbarı, tikinti idarələri, çörək zavodu, bulaqlar, kəhrizlər, artezianlar, univermaq, universam, bazar, mehmanxana, maşın təmiri sexləri, ticarət və məişət obyektləri, M.Füzuli və S.Vurğun parkları, toxuculuq fabriki, kütləvi kitabxana, yay və qış kinoteatrları, iki min tamaşaçı yeri tutan stadion, mədəniyyət və istirahət parkı, məscid (XIX əsr), on min illər yaşı olan Qaraköpəktəpə, bir çox memarlıq abidələri və s. vardır.

**23 avqust 1993-cü il** tarixdə günorta vaxtı erməni hərbi birləşmələri **Füzuli** şəhərinin işğalını başa çatdırdılar...

## GECƏGÖZLÜ KƏNDİ

**Gecəgözlü kəndi** rayon mərkəzindən 6 km cənub-şərqdə, dağətəyi düzənlikdə yerləşir. Kəndin 800 nəfərə yaxın əhalisi var. Əhali əsasən üzümçülük və heyvandarlıqla məşğul olur. Kənddə məktəb, klub, kitabxana, məscid (XIX əsr) və s. vardır. Kənd 1993-cü il avqustun 23-də ermənilər tərəfindən işğal olunub...

**Gecəgözlü obası** Cavanşir elinin **Yağləvənd** oymağına bağlı olub. XVIII əsrin II yarısında o, **Yağlıvənd** oymağından ayrılıb. Seyidəhmədli və Mahmudlu obaları ilə birləşərək **hacılı** camatını yaradıb. XVIII əsrə aid olan Osmanlı qaynağında **Gecəgözlü** oymağının İrəvan ərazisində, Keşəgündə yaylamaları, Arasbara



tabe olan Xan arxında qışlamaları haqqında məlumat verilmişdir. Həmin mənbə bildirir ki, **gecəgözlülər** Dizaq nahiyəsində, Köndələn çayından ayrılan Çərəkən arxının kənarında əkinçiliklə məşğul olur, məhsullarını torpaq sahibinə verir, vaxtlı-vaxtında vergi ödəyir və s. **Gecəgözlü** obasının əhalisi 1842-ci, 1849-cu, 1863-cü, 1873-cü, 1886-cı illərdə dövlət tərəfindən siyahıya alınmışdır.

Bu obadan çıxmış nəsillərin nümayəndələri Qarabağın, ümumilikdə, Azərbaycanın siyasi, ictimai, iqtisadi və mədəni həyatında böyük rol oynamışlar. **Gecəgözlü** obasının tayfalarına nümunə olaraq **Səlifli (Salif uşağı)** tayfasını (bu tayfanın **Məhəmmədxanbəyli** adlı tirəsi var. Bu tirəyə **mirzəcamalbəyli, qasımbəyli, sadıqbəyli, səlifbəyli, kazımbəyli** törəkləri daxildir), **Şərifbəyli** tayfasını (bu tayfaya **əlibəyli, əlaslanbəyli, ələsgərbəyli, ələkbərbəyli, babaxanbəyli, mahmudbəyli** tirələri daxildir), **Hacıbəyli** tayfasını (bu tayfanın **əmiraslanbəyli, yeganbəyli, rəsulbəyli** adlı tirələri var), **Qulubəyli** tayfasını (bu tayfaya **rəhimbəyli, hüseynbəyli, babaxanbəyli, bağırbəyli** törəkləri aiddir), **Ağamirzəbəyli** tayfasını (bu tayfaya **şahverənli** tirəsi, **ağabəyli** və **aslanbəyli** törəkləri daxildir), **Mirzəqasımlı** tayfasını (bu tayfaya **cəfərbəyli, sadıqbəyli, ismayılbəyli** törəkləri daxildir); **Carçıalılar** (bu tayfa **Carçı Alının** törəmələridir) tayfasını (bu tayfaya **alılı, mollanəbili, imamverdilər, məlikbəylər, allahverdilər, nəzərəlilər** və s. tirələr daxildir), **Gecəgözlü** tayfasını (bu tayfa **hacıqasımlı, əsədli, məlikbəylilər, qəhrəmanlılar, alıhümbətli, nurməmmədli, pərvanalılar** və s. tirələrə bölünür), **Mehdixanlı** tayfasını (bu tayfa **alılı, həsənli, allahverdili, abdullauşağı, hüseynli** tirələrinə bölünür) nümunə göstərmək olar. Bunlardan başqa kənddə digər nəsillər də - **salehlilər, arslanəlilər, tanrıqulular** və s. yaşamışdır...

XVIII-XIX əsrlərdə obanın əhalisi əsasən əkinçilik və qoyunçuluqla məşğul olmuşdur. Obada atçılıq təsərrüfatı da geniş inkişaf etmişdir. **Gecəgözlü camaatı** taxılın biçilməsini əsasən Tuğ əkinçilərinə həvalə edərdilər. XVIII əsrdə Köndələn çayından

ayrılan Çərəkən çayının yaxasında əsasən əkinçiliklə məşğul olan **gecəgözlülər** obanın bəyləri tərəfindən alınmış "Xədicəxanım mülkü"nü də becərməyə başladılar...

**Gecəgözlü** sözünün etimologiyasına müxtəlif prizmadan yanaşan tədqiqatçılar vardır. Onların bir qrupu **gecəgözlü** toponimini "qaranlıqda yaxşı görən" **(qara gözlü)** kimi mənalandırır. O da məlumdur ki, **göz** komponenti ilə bağlı neçə-neçə türk tayfası vardır: **qaragözlü, alagözlü, gözüböyüklü** və s.

Oykonimin adını **Keçəküzlü** formasında yozanlar da var. Əski türklər "quzu saxlanan yerə" **küz** deyərdilər. Onlar qoyun-quzunu saxlamaq üçün **küzlər** tikərdilər. Tərəkəmə elatları arasında bu küzlərə **kora** da deyilərdi. Küzləri adətən torpaqda qazıb içərisini qarğı ilə hörərək kətanla döşəyərdilər. Çox güman ki, bu oymağın əhalisi **küzü** adətən **keçə** ilə döşədiklərindən **keçəküzlü** sözü yaranmışdır. **K-g, ç-c, ö-ü** səs əvəzlənmələri Qarabağ dialekti üçün səciyyəvi xarakter daşıyır.

**Gecəgözlü** toponimi Qarabağda yaşamış Qarabağ xanlarının mənsub olduqları **cavanşir** tayfasının **gecəgözlü** tirəsinin adı ilə əlaqədardır...

## GİLAN GÖLÜ

Füzuli rayonunun Babı və Arayatlı kəndləri yaxınlığında qeydə alınan hidronimlərdən biri **Gilan gölü** adlanır. **Göl** - quru çökəkliyində yerləşən su hövzəsidir. **Göl** hidronimik termini ilə əlaqədar Azərbaycanda çoxlu sayda coğrafi adlar qeydə alınıb.

Bəzi tədqiqatçılar hidronimin tərkibindəki **Gilan** sözünü İranda, Xəzər dənizinin cənub sahillərində yaşayan **gilanlılar (giləklər)** ilə əlaqələndirir. **Gilan** - İranda paytaxtı Rəşt olan bir ostanlıqdır.

Bizim Azərbaycanımızda, Ordubad şəhərindən 16 km qərbdə xarabalığı indi də duran orta əsr şəhərlərindən biri **Gilan** adlanırdı. Ordubad rayonunda uzunluğu 53 km olan və Arazın sol qolu hesab olunan **Gilançay** adlı çay da var...



## GİLLİK

**Gillik** adlanan ərazi Qacar kəndi yaxınlığında qeydə alınıb. Yerli məlumata görə, hətta əvvəllər sabun qıt olanda kənd qadınları pal-paltarı burada yuyub suya çəkərdilər. **Gillik** adlanan ərazidə çay və ondan ayrılan arx da keçir. Sahənin **gilli** olması ilə bağlı toponim belə ad almışdır. **Gil** - tərkibi əsasən **gil** minerallarından ibarət olan plastiklik xassəsinə malik çökmə süxurdur. Gillərin və s. narın fraksiyalı çökmə süxurların əsas kütləsini təşkil edən sulu silikatlar qrupu **gil mineralları** adlanır...

## GORAZILLI KƏNDİ

Rayon mərkəzindən 12 km cənubda, Qarabağ silsiləsinin ətəyində, dağətəyi düzənlikdə yerləşən kənd. Əhalisi əsasən heyvandarlıq, üzümçülük və taxılçılıqla məşğul olur. Kənddə məktəb, klub, kitabxana, körpü (XIX əsr) və s. var. Kənd ermənilər tərəfindən işğal olunub.

**Gorazıllı kəndi**nin adı bəzi ehtimallara görə **korazıllı** nəslinin adı ilə bağlıdır.

**Gorazıllı** oykoniminin açımını **gor** (qəbir) komponenti ilə bağlayanlar var...

1593-cü ilə aid Osmanlı qaynağında yaşayış məntəqəsinin adı **Güzlək-Gorrazı** kimi çəkilir. 1727-ci ilə aid "Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri" adlı tarixi sənəddə də kəndin adı **Güzlək-Gorrazı** şəklində qeyd edilmişdir. XIX əsrdəki kameral sorğu siyahılarında isə bu kəndlərin adı hər biri ayrılıqda göstərilmişdir...

## GOVŞADLI KƏNDİ

Rayon mərkəzindən 6 km qərbdə, Qarabağ silsiləsi ətəyində, dağətəyi ərazidə yerləşən kənd. Kənddə məktəb, klub, kitabxana və s. var. Əhalisi əsasən üzümçülük, taxılçılıq və heyvandarlıqla məşğul olur. Kənd ermənilər tərəfindən işğal olunub.

**Govşatlı** (əsli **Gomuşatlı**) **qovşutlu** nəslinin burada məskunlaşması nəticəsində yaranıb. 1727-ci ildə Sultan III Əhmədin fərmanı ilə hazırlanan və "Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri" adlanan vergi reyestr dəftərində Arasbar sancağına daxil olan kənd və oymaqların sırasında **Govşatlı (Göyşatlı)** yaşayış məntəqəsinin adına da rast gəlirik.

**Gövşadlı** (bəzi tarixi sənədlərdə adı **Gomuşatlı, Gövşatlı, Govşad** kimi də göstərilir) yaşayış məntəqəsi **kovşatlı** (əsli **qovşutlu**) nəslinin burada məskunlaşması nəticəsində yaranıb.

**Qovşut** əvvəllər bir çox türk xalqlarında şəxs adı kimi geniş işlənmişdir. **Qovşut** toponiminə Qubadlı rayonunda, Türkmənistanda və Ermənistanda (Qərbi Azərbaycan) da rast gəlmək mümkündür...

## GÖL DƏRƏSİ

Gecəgözlü kəndi ərazisində qeydə alınan oronimlərdən biri **Göl dərəsi** adlanır. Oronim **göl** hidronimik apelyativindən, **dərə** mənfi relyef forması bildirən coğrafi terminindən və **-si** mənsubluq ifadə edən şəkilçidən ibarətdir. Toponim "dərədə olan göl" anlamındadır. **Göl dərəsi** coğrafi adı tərkibində **göl** sözü olan hidronimlərdən yaranmış hidronimik oronimlərdəndir.

Adının tərkibində **göl** sözü iştirak edən oronimlər Azərbaycanda yüzlərlədir. Onlara bəzi nümunə olaraq aşağıdakılarını göstərmək olar:

**Ağgöl düzü** (Ağcabədi rayonu), **Qazangöl dağı** (Ordubad rayonu), **Qazangöl düzü** (Tovuz rayonu), **Göl düzü** (Daşkəsən



rayonu, Çıraqlı kəndi; Kəlbəcər rayonu, Comərd kəndi), **Göllü tağ** (Xocalı rayonu, Şuşikənd kəndi), **Göllü tala** (Gədəbəy rayonu, Fərzalı kəndi), **Göllü yal** (Tərtər rayonu), **Göllü dərə** (Kəlbəcər rayonu, Yellicə kəndi; Xocavənd rayonu, Daşbaşı kəndi), **Göldərə** (Zəngilan rayonu, Günqışlaq kəndi; Gədəbəy rayonu, Dəyəqarabulaq kəndi; Tovuz rayonu Cəlili kəndi; Cəbrayıl rayonu, Hacılı kəndi), **Göllü dərə** (Masallı rayonu, Ərkivan kəndi), **Qanlıgöl dağı** (Şahbuz rayonu), **Köndələngöl düzü** (Füzuli rayonu) və s.

## GÖLBAĞI BULAĞI

Rayonun Horadiz kəndindəki bulaqlardan biri **Gölbağı bulağı** adlanır. Yeraltı suların yerüstü təbii çıxışına **bulaq** deyirlər. Bu **bulaq** yaxınlıqdakı bağın adı ilə əlaqədar olaraq belə adlanmışdır. **Gölbağı bulağı**nın soyuq və duru suyu vardır...

## GÖY TƏPƏ

**Göy təpə** oroqrafik obyekti Füzuli şəhərinin 5 kilometrliyində qeydə alınıb. Burada aparılan arxeoloji tədqiqatlar nəticəsində müxtəlif tarixi dövrlərə (mis, tunc, dəmir) aid çoxlu maddi-mədəniyyət abidələri tapılmışdır.

**Təpə** müsbət relyef forması bildirən coğrafi termindir. Adətən 200 metrə qədər olan yüksəkliyə **təpə** deyirlər. Bu terminin iştirakı ilə Azərbaycanda çöl materialları içərisində 3000-dən çox coğrafi ad qeydə alınmışdır. **Göy təpə** oronimi həmin təpənin daim **yaşıllıq, göylük** olduğuna görə belə ad almışdır. Bu tipli oronimlərə Azərbaycanın başqa ərazilərində də rast gəlirik.

## GÖYRÜŞLÜ YER

Azərbaycanın zəngin, rəngarəng bitki örtüyü var. Müxtəlif növlü bitki adları oronimiyamızda öz əksini tapıb. Respublikamızın ərazisində minlərlə fitooronimlər qeydə alınıb. Onlardan biri də Füzuli rayonunun Horadiz kəndi ərazisində qeydə alınmış **Göyrüşlü yer** fitooronimidir. Toponim həmin ərazidə **göyrüş** ağacının çoxluğu ilə əlaqədardır. **Göyrüş** - zeytun kimilər fəsiləsindən, fraxsinus cinsindən qışda yarpaqlarını tökən bitkidir. Onun adına **dişbudaq** da deyirlər...

**Göyrüş** ağacının adı ilə bağlı oronimlərə nümunə olaraq Qazax rayonundakı **Göyrüşlü güneyi,** Xanlar rayonun Topalhəsənli kəndi yaxınlığındakı **Göyrüş təpəsi,** Şəmkir rayonundakı **Göyrüş talasını** və başqalarını göstərə bilərik...

## GÜLLÜ DƏRƏ

Qacar kəndi ərazisində qeydə alınan oroqrafik obyekt-lərdən biri də **Güllü dərə** coğrafi adıdır. **Dərə** - mənfi relyef forması bildirən coğrafi termindir. Oronimiyada relyefin dar və çökək forması **dərə** sözü ilə ifadə edilir. Çöl materialları içərisində adının tərkibində **dərə** termini olan 30.000 -dən çox oronim qeydə alınıb.

Adında **gül** sözü olan fitonimik oronimlərə respublikanın demək olar ki, bütün ərazilərində rast gəlirik. Oronimin tərkibindəki **güllü** sözü həmin dərədə **güllərin** çoxluğu ilə əlaqədardır. Bu ərazidə çoxlu qızılgül kolları da vardır. Toponim *"gül çox olan dərə"* mənasındadır. Coğrafi adın tərkibindəki **-lü** şəkilçisi mənsubluq ifadə edir.

**Güllü dərə** adlanan ərazidən bir qədər kənarda **Güllüdərə** adlı başqa bir oroqrafik obyekt də qeydə alınıb...



## GÜLLÜDƏRƏ

**Güllüdərə** rayon mərkəzindən 12 km şimal-qərbdə, Qacar kəndi yaxınlığında, Qarabağ silsiləsinin ətəyində, Köndələnçayın sahilində yerləşir. **Güllüdərə** toponimi dərədə çoxlu **gül** bitkisinin olması ilə əlaqədar yaranan oronimdir. Yerli əhali **dərədə** bitən gül-çiçəyə görə oranı **Güllüdərə** adlandırmışdır. **Gül** bitkisi adı ilə əlaqədar Azərbaycanda çoxlu oronimlər var: **Güllüdağ** (Şəki və Oğuz rayonları), **Güllütəpə** (Ağcabədi, Masallı, Füzuli), **Güllücə aşırımı** (Qarabağ dağ silsiləsi) və s.

## GÜLLÜTƏPƏ

Rayon mərkəzindən 3 km cənubda, Murğuzlu yalı deyilən əraziyə yaxın olan tut bağlarının yanında qeydə alınan oronim **Güllütəpə** adlanır. Arxeoloji qazıntılar zamanı burada qədim və orta əsrlər dövrlərinə aid müxtəlif gil qablar, məişət avadanlıqları və s. tapılmışdır. Təpədə çoxlu **gül, çiçək** bitir. **Güllütəpə** toponimi **"güllü, çiçəkli təpə"** ifadəsilə mənalandırılır.

Masallı rayonunda **Güllütəpə** adlı kənd, Quba rayonunda **Gül-təpə** adlı kəndlər də var.

## GÜNEY KƏHRİZİ

**Güney kəhrizi** hidronimi Füzuli rayonunun Horadiz kəndi ərazisində qeydə alınıb. Toponim **güney** və **kəhriz** sözlərindən ibarətdir. **Güney** sözü "hər hansı bir yüksəkliyin - dağın, təpənin günəş işığı olması üçün yaxşı işıq düşən tərəfi, yamacı", "günəşli yer", "günəş işığı olan tərəf", "cənub" mənalarındadır. Hidronim günəşli, günəvər yerdə olduğu üçün belə adlandırılmışdır.

**Kəhriz** - yeraltı su yolu, su kəməridir. Qrunt sularını toplayıb yer səthinə çıxarmaq üçün yeraltı qurğular **kəhriz** adlanır.

Kəhrizlərin lağımları bir-biri ilə şaquli quyular vasitəsilə birləşdirilir. **Kəhrizlər** adətən, peşəkar kankanlar tərəfindən qazılır. XX əsrin ortalarında Azərbaycanda 900-dən çox **kəhriz** olub...

## GÜNƏŞTƏPƏ

**Günəştəpə** Füzuli şəhərinin şimalında, Köndələnçayın sağ sahilində Eneolit və Erkən Tunc dövrü insan məskənidir. 1964-cü ildə arxeoloji qazıntılar zamanı Günəştəpədə Eneolit və Tunc dövrlərinə aid gil qablar, daş alətlər, qab nümunələri, heykəlciklər, əkinçilik alətləri və s. aşkar edilmişdir. E.ə. II minillikdə **Günəştəpə** qəbiristana çevrilmişdir.

Oronim iki - **"günəş"** və **"təpə"** terminlərindən ibarətdir. Həmin ərazini Günəş şüası çox tutduğu üçün ona **Günəştəpə** deyilir. Tədqiqatlar Günəştəpənin e.ə. V-III minilliklərdə oturaq əkinçi-maldar əhaliyə məxsus olduğunu göstərir...

## GÜZLƏK (GÜZDƏK) KƏNDİ

(Bax: **Aşağı Güzlək** və **Yuxarı Güzlək kəndi**)

## HACI BAYRAM KƏHRİZİ

Qoçəhmədli kəndi ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri **Hacı Bayram kəhrizi** adlanır. **Kəhriz** XIX əsrdə **Hacı Bayram** adlı şəxs tərəfindən inşa edilmişdir. Toponim **"Hacı Bayrama məxsus olan kəhriz"** mənasındadır. Kəhrizin suyundan məişətdə və təsərrüfatda geniş istifadə olunurdu. **Hacı Bayram kəhrizi** Füzuli rayonunun ölkə əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələri siyahısındadır..



## HACI ƏLƏKBƏR MƏSCİDİ

**Hacı Ələkbər məscidi** Füzuli şəhərinin mərkəzində yerləşir. Deyilənlərə görə bu məscidi dövrünün varlı və nüfuzlu şəxsiyyəti sayılan **Hacı Ələkbər bəy** inşa etdirmişdir. **Məscid** 1889-cu ildə məşhur memar Kərbəlayi Səfixan Qarabaği tərəfindən tikilmişdir. Məscidin plan quruluşu kvadrat şəkillidir. Portalı qeyri-simmetrikdir ki, bu da qadınlar üçün nəzərdə tutulmuş 2-ci mərtəbədəki şüşəbəndin və onun alt tərəfindəki 1-ci mərtəbədəki köməkçi otağın böyük götürülməsi ilə əlaqədardır. Baş fasaddakı plyastırlar üzərində dördbucaqlı həndəsi fiqurlar var.


*Füzuli şəhəri. Hacı Ələkbər məsçidi.*

Məscidin əsas girişi baş fasadı ağ fonda yerləşdirilmiş oxvarı çatma tağlı portal tərəfdədir. Məscidin interyeri elə işlənmişdir ki, yayın cırhacır istisində belə buraya daxil olan hər bir kəs sərinliyin şahidi olur. İbadət zalının 9 ədəd tağ-tavanını mərkəzdə qoyulmuş 4 ədəd səkkizbucaqlı sütun saxlayır. Onlar öz düzülüşü ilə ibadət zalını 3 nefə ayırır. Zaldakı oxvarı tağbəndlər künbəzlərlə eyni konstruktiv mövqe daşıyır. Ümumiyyətlə, **Hacı Ələkbər məscidi** yüksək intellekt, məharət və istedadın məhsuludur...

## HACI SƏFƏR BULAĞI

Qacar kəndi ərazisində qeydə alınan hidronimlərdən biri **Hacı Səfər bulağı** adlanır. Hidronim **Hacı Səfər** şəxs adından və **bulaq** hidronimik apelyativindən ibarətdir. Toponim *"Hacı Səfərə məxsus olan bulaq"* anlamındadır. Bu bulağın göz yaşı kimi duru, şəffaf və bumbuz soyuq suyu vardı...

## HACILI STANSİYASI

**Hacılı stansiyası kəndi** rayon mərkəzindən 44 km. cənub-şərqdə, düzənlikdə yerləşir. Əhalisi üzümçülük, heyvandarlıq və taxılçılıqla məşğul olur. Yaşayış məntəqəsində məktəb, klub, kitabxana, dəmiryol stansiyası və s. var. Kənd erməni işğalından azad edilmişdir.

Yaşayış məntəqəsi **zülqədər** qızılbaş tayfasının **hacılı** tirəsinin burada məskunlaşması nəticəsində yaranmışdır. Türkdilli tayfa olan **hacılılar** Qaraqoyunlu dövlətinin siyasi həyatında yaxından iştirak etmişlər. Qaraqoyunluların subetnonimi olan hacılılar qızılbaş tayfaları ilə da qaynayıb qarışmışlar...

XVIII əsrin ikinci yarısında şahsevən Məmməd xanın başçılığı ilə Ərdəbil əyalətindən Quba xanlığına köçən səkkiz Azərbaycan tayfası arasında **hacılılar** da var idi.

**Hacılı** oykonimi **Hacılı (hacıəlili)** camaatının adı ilə bağlıdır. **Hacılı camaatı** Cavanşir-Dizaq mahalında qərar tutmuş mühüm obalardan ibarət olub. **Hacılı camaatı** *Aybasanlı, Qorqan, Yağlıvənd, Gecəgözlü, Mahmudlu, Hüseynbəyli, Ələsgərli, Mirzə-camallı, Sarılar, Seyidəhmədli, Comərdli, Şıxılı* obalarının əhalisindən ibarətdir. **Hacılıların** yaşadığı Cavanşir-Dizaq mahalında əsasən divan (xəzinə) və icma torpaq mülkiyyət forması mövcud idi. Burada yaşayan obaların əksəriyyəti Cavanşir soylu olduğu üçün xanlıq dönəmində heç bir vergi ödəmirdilər. Rus üsul-idarəsi dönəmində **Hacılı** camaatı vergi ödəyənlər cərgəsinə qoşuldu. Bu icmadan olan bəylər isə bütün vergi və mükəlləfiy-yətlərdən azad idilər. Təkcə Şərif bəydən vergi alınırdı.

Hacılı camaatının qışlaq torpaq sahələri əsasən, Alaqarğuda və Arasbarlı ərazilərində idi. 1823-cü ildə Rus hərbi komandanlığı və Qafqaz canişinliyi ilə birgə hazırlanmış "statistik təsvir"də Cavanşir-Dizaq mahalında yaşayan **hacılılar** haqqında məlumat vardır.

1832-ci ildə bütün Qafqazda siyahıyaalınma keçirilsə də Qarabağda bu, **hacılı** elinin nümayəndəsi Mirzə Camal bəy tərəfindən qəsdən bir qədər ləngidildi. Mirzə Camal bəyin



komendanta təsir etmək gücü var idi. O əyalətin bəylərinə məsləhət (tapşırıq) etmişdi ki, lazımi aydınlaşma almayınca siyahıları məmurlara verməsinlər. **Hacılı** camaatının ümumi sayı haqqında xanlıq dönəmində keçirilən siyahıyaalınmalar əlimizdə olmadığı üçün XVIII əsrin II yarısında aparılan kameral siyahılar əsas tutulur.

**Hacılı kəndi** Şamaxı və Cəbrayıl rayonlarında da mövcuddur.

## HACIMİRZƏHÜSEYNLİ TÜRBƏSİ

Alxanlı kəndi ərazisində qeydə alınan coğrafi adlardan biri **Hacımirzəhüseynli türbəsi** adlanır. **Hacı Mirzə Hüseyn** XIX əsrdə yaşamış dövrünün təhsil görmüş ziyalısı olmuşdur. O, Həkəridən Qaradonluya qədər olan ərazinin qazısı vəzifəsində çalışmışdır. **Hacı Mirzə Hüseyn** əsasən heyvandarlıqla məşğul olmuş, müqəddəs Məkkəyi-mükərrəmi ziyarət etmişdir. Dövrünün adlı-sanlı, sayılıb-seçilən adamlarından olan **Hacı Mirzə Hüseyn** vəfat edəndə kənddəki qəbiristanlıqda dəfn olunmuş, məzarı üzərində **türbə** inşa edilmişdir...

## HAÇA GƏDİK

Füzuli rayonunda yüksəklik. **Haçagədik** oronimi "**haça**" və "**gədik**" komponentlərindən ibarətdir. **Gədik** - *"dağ belində aşırım, hündür dağarası yol"* mənasındadır. Türk dillərində **gədik** sözü "**dağ keçidi**" mənasını ifadə edir. Gədiyin **haça** formalı olmasından bu oronim yaranmışdır.

Gədəbəydə *Haçaqaya dağı,* Qazaxda *Haçadağ yüksəkliyi, Haçaqala dağı,* Qusarda *Haçadağ yüksəkliyi, Haçaqala kəndi* bu qəbildən olan toponimlərdəndir...

## HARAMI DÜZÜ

Füzuli rayonunda böyük bir sahəni əhatə edən ərazi **Haramı düzü** adlanır. Göründüyü kimi, toponim 2 sözdən ibarətdir. **Düz** coğrafi termini mənfi relyef forması ifadə edir. Oronimiyada enişi, yoxuşu, təpəsi, çuxuru olmayan, ümumi fondan çox da kənara çıxmayan hamar relyef səthinə **düz** deyilir. **Haramı düzü** haqqında müxtəlif rəvayətlər danışılır...

Oronimin tərkibindəki **haram** sözü ərəbcə *"qadağan edilmiş"*, *"yasaq olunmuş"*, *"toxunulmaz"*, *"haram mala əl uzadan"*, *"yolkəsən"*, *"quldur"*, *"qaçaq"*, *"soyğunçu"* mənalarındadır. Ərazi vaxtilə bu düzlərdə məskən salmış qaçaq-quldurlara (Azərbaycanın bəzi zonalarında onlar **haramı** adlanır) görə belə adlandırılmışdır. Bəzi araşdırıcılar isə oronimin tərkibində olan **haramı** sözünü İran dillərindəki **hor/har** *("isti")* komponenti ilə əlaqələndirir. Amma bir həqiqət də var ki, bu yerlər xüsusilə yay aylarında çox isti olur.

Şamaxı rayonu ərazisində, Udulu kəndinin cənub-qərbində **Haramı dağı,** Quba rayonu ərazisində Qudyal çayının sahilində yerləşən **Haramtala dağı** toponimləri də bu qəbildən olan coğrafi adlardandır...

## HAV DƏRƏSİ

Gecəgözlü kəndi ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri **Hav dərəsi** adlanır. **Dərə** coğrafi termini mənfi relyef forması ifadə edir; **-si** şəkilçisi mənsubiyyət bildirir. **Hav** termini ərəb və fars dillərində işlədilən **həvadar** sözünün təhrif olunmuş formasıdır. **Həvadar** sözü ***"tərəfdar"***, ***"tərəf saxlayan"***, ***"kömək edən"***, ***"həvadar"*** anlamındadır. Yerli məlumata görə, XIX əsrdə Gecəgözlü kəndindən olan Cavanşir əsilli Hacı Qasım adlı varlı, xeyirxah bir insan tez-tez bu dərədə yığışan adamlara **havadar** durar, əl tutar, kömək edərmiş. Sonralar elə həmin **dərə** də kənd



camaatı arasında bununla əlaqədar olaraq qısaca **Hav dərəsi** adlandırılmışdır...

Oronimin mənasına başqa prizmadan da yanaşanlar var. **Hav** - *"qızışmış"*, *"hirsli"* və s. anlamlara da uyğun gəlir...

## HEYDƏR QUZEYİ

Füzuli rayonunda yerləşən **Heydər quzeyi** coğrafi adı **Heydər** antrotoponimi və **quzey** müsbət relyef formalarını bildirən termindən düzəlmiş oronimdir. Azərbaycanda çoxlu sayda belə oronim mövcuddur: Nayıb quzeyi (Quba rayonu), Əhməd güneyi (Qəbələ rayonu), Səməd qayası (Ağsu rayonu), Soltanmurad yoxuşu (Zəngilan rayonu), Mehdi köbəri (Ağdaş rayonu) və s.

## HƏZİ ÇÖKƏYİ

**Həzi çökəyi** rayon mərkəzindən 13 km şimal-qərbdə, Köndələnçayın sahilində, Qacar kəndində yerləşir. Bu oronim **Həzi** antroponimi ilə **çökək** mənfi relyef formaları bildirən termindən düzəlib. Belə toponimlərə misal olaraq aşağıdakıları nümunə göstərmək olar: İbad çökəyi (Tərtər rayonu), İskəndər çalası (Yevlax rayonu), İzzət çuxuru (Masallı rayonu), Soltan çalası (Salyan rayonu) və s.

## HƏZİ OCAĞI DAĞI (OCAQLI DAĞI)

Qacar kəndi yaxınlığında, rayon mərkəzindən 14 kilometr şimal-qərbdə, Köndələnçayın sahilindən azacıq aralıda qeydə alınan oroqrafik obyektlərdən biri **Həzi ocağı dağı** (bəzən adına **Ocaqlı dağı** da deyilir) adlanır. **Dağ-** müsbət relyef forması bildirən coğrafi termindir. Azərbaycanda 1400-dən çox dağ adı qeydiyyata alınıb.

**Ocaq** - Azərbaycanda həmişə müqəddəs tapınaq yeri kimi əhali tərəfindən əziz tutulur. **Həzi ocağı dağı** da müqəddəs yer hesab olunur. **Həzi** - şəxs adıdır. **Həzi ocağı dağı** toponimi antroponimik oronimdir. **Həzi ocağı** dağının yaxınlığında **Həzi çökəyi** oronimi də qeydə alınıb...

## HƏŞTAFƏR BULAĞI

**Həştafər bulağı** Qacar kəndi yaxınlığında, kənddən 13 kilometr məsafədə yerləşir. Hidronimi müxtəlif prizmadan izah edirlər. **Həşt** - fars dilində "səkkiz" deməkdir. **Fər** sözünün *"burma saç"* *"qaçaqaç"*, *"qol-budaq"*, *"şöbə"*, *"əhəmiyyəti olmayan"* *"xülasə"*, *"faiz, sələm"*, *"gəlir, artım"* və s. anlamları var. Hidronimin izahı ilə bağlı çoxlu fikir və mülahizələr vardır...

## HƏŞTƏFƏR DÜZÜ

**Həştəfər düzü** oroqrafik obyekti Füzuli rayonunun Qacar kəndi ərazisində qeydə alınıb. Əslində bu oronimin adı **Hacı Səfər düzü** kimi yazılmalıdır. Yerli əhalinin şivəsində bu coğrafi ad belə "tarixiləşmişdir". Oronim patronimik toponimdir.

Tarixi məlumata görə, XVIII əsrdə Ağa Məhəmməd Şah Qacar Qarabağa (Şuşaya) hücum edərkən burada çadır qurdurmuş, təlim-məşq keçmişdir. Deyilənlərə görə, Qacarın nəşi (tabutu) İrana bu yerlərdə keçilərək aparılmışdır...

## HOĞA KƏNDİ

(Bax: **Üçbulaq kəndi**)



## HORADİZ KƏNDİ

**Horadiz kəndi** rayon mərkəzindən 18 km cənub-şərqdə, düzənlik ərazidə yerləşir. Əhalisi 3 min nəfərə yaxındır. Əhali əsasən üzümçülük, heyvandarlıq, taxılçılıq və baramaçılıqla məşğul olur. Kənddə məktəb, kitabxana, xəstəxana, 2 məscid, 2 məişət evi, 2 dəyirman, 2 kitabxana, 900 şagirdlik orta məktəb, 25 çarpayılıq xəstəxana, 500 nəfərlik mədəniyyət evi, aptek, klub, kinoqurğu, uşaq bağçası, doğum evi, ambulatoriya, hamam, Böyük Vətən müharibəsində həlak olanların xatirəsinə ucaldılmış abidə, park, stadion, çoxlu kəhriz, XIX əsrdə inşa olunmuş məscid, körpü, bir neçə bulaq, 4 bufet-çayxana, 4 mağaza və s. vardı. Məhsuldar və münbit torpağı olan kəndin ərazisindən iki çay axır: **Qozluçay, Dəli çay.**

**Horadiz kəndi** 1993-cü ildə ermənilər tərəfindən işğal olunub...

Yaşayış məntəqəsinin ərazisində **İmam bulağı, Qurdlu bulaq, Gölbağ bulağı, Mərcan bulağı, Burğa bulağı, İbə bulağı, Teşnək bulağı, Xan kəhrizi, Namazalı kəhrizi, Dördçinar kəhrizi, Təpə kəhrizi, Rzalılar kəhrizi, Muxtar kəhrizi, Güney kəhrizi, Qozdibi kəhrizi** vardır. Kənd ərazisində **Ağıldərə, Qönçə, Şorca, Quşoturan, Lələ yeri, Teşnək, Taxta körpü, Aslan dərəsi, Kardaş, Dördçinar bağı, Babınovu** və s. kimi yer adları qeydə alınmışdır.

**Horadiz kəndi** şimaldan Musabəyli kəndi, cənubdan Əhmədalılar kəndi, qərbdən Cəbrayıl rayonunun Nüzgər kəndi və şərqdən Aşağı Əbdürrəhmanlı kəndi ilə həmsərhəddir. Kənddə **yadigarlılar, namazalılar, ağallar, abışlılar, fərzalıuşağılar, imamqulular, ibişlilər, toppuzlular, dəlləklilər, şahverənlər, əmirqulular, mehdililər, imanlılar, rzalılar, təmiraslılar, nəcəflilər, nacaxlılar, məmmədcəfərlilər, məşədihüseynlilər, məşədihümbətlilər, mirzəmuradlılar, qurbanlılar, mehdiliuşağı, hacıağauşağı, kərbəlayilər, ismayıllılar, hüngütlülər, kazımlılar, saqqızlılar, dördçinarlılar** və başqa tayfalar yaşamışdır. Kəndin **Hüngütlü, Dördçinar, Namazalılar, Rzalılar, Kəlbə**

**İsmayıllılar, Əmirqulular, Şahverənlər, Yadigarlılar, Saqqızlı, Qarağan təpə, Aralıq yol, Orta Zaqun dərəsi, Kazımlılar, Mehdililər, Nəcəflilər** adlı məhəllələri olmuşdur. **Horadiz kəndi** uzun müddət Arazqırağı zonalarda iri ticarət mərkəzi kimi də tanınmışdır.

Sosialist Əməyi Qəhrəmanları Həmayıl Əhmədova və Mösü Məhərrəmov, Azərbaycan SSR Ali Sovetinin sabiq deputatları Suruş Fərhadova, Zeynəb Əliyeva, Qurban Namazəliyev bu kənddəndirlər. Tarixən Horadiz mühitində tərbiyə, təhsil alaraq formalaşmış, tanınmış ziyalılar, ictimai-siyasi, hərbi xadimlər, sonradan müxtəlif ölkələrdə elmə, təhsilə yiyələnmiş, Azərbaycanın ictimai-siyasi, mədəni həyatında və dövlətçiliyimizin inkişafında mühüm rol oynamışlar.

Ümumiyyətlə, Azərbaycan ensiklopediyasında, tariximizə, mədəniyyətimizə həsr olunmuş fundamental monoqrafiyalarda, ayrı-ayrı tədqiqatçıların araşdırmalarında Horadizdən dönə-dönə bəhs olunmuş, onun və onun yetişdirdiyi dəyərli insanların haqqında müəyyən yaddaqalan dəyərli fikirlər söylənmişdir. **Horadiz kəndi** 32 nəfər professor, elmlər doktoru və elmlər namizədi yetirmişdir.

Azərbaycanın xalq artisti, görkəmli xanəndə Seyid Şuşinski, əməkdar incəsənət xadimi,"Bənövşə" uşaq xorunun bədii rəhbəri, bəstəkar Əfsər Cavanşirov, keçmiş mədəniyyət naziri Zakir Bağırov, tanınmış rəssamlar Bayrəməli Xələfov, Kərim Quliyev, Azərbaycan Respublikasının sabiq Müdafiə naziri, general-mayor Tacəddin Mehdiyev, tanınmış hərbi həkimlər – polkovniklər Cəlal Əmirov, Həsən Namazəliyev və neçə-neçə görkəmli şəxsiyyətlər Horadiz kəndinin oğullarıdır. Qarabağ müharibəsində Horadiz kəndindən 33 nəfər şəhid olmuş, 7 nəfər girov düşmüş, 18 nəfər müxtəlif bədən xəsarəti alaraq II və III qrup əlilə çevrilmişdir...

1727-ci ilə aid olan "Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri" adlı tarixi sənəddə Dizaq nahiyəsinə tabe olan kəndlər sırasında Horadiz ("Dəftər"də kəndin adı **Horədis** şəklində yazılıb) kəndinin də adı qeyd olunmuşdur...



**Horadiz** sözü irandilli söz olub **hor** (*"od, günəş, işıq"*) və **diz** ("qala") sözlərindən ibarətdir. Orta əsr dövrü müəlliflərinin (İbn əl-Əsir, Qütbəddin Şirazi, Şihabəddin Sührəverdi) əsərlərində **hor** sözü *"od", "Günəş","işıq" mənasında,* ***diz (dizə)*** *komponenti isə "qala" anlamında işlədilmişdir.* Bu mənada **Horadiz** toponimi *"Günəş qalası"* anlamına uyğun gəlir.

Araz çayının hər iki sahilində tərkibində **hor, xor** komponenti olan yer adları çoxdur: **Horadiz, Horand, Horovlu, Əhər, Xurama** və s.

**Horadiz** toponimi **hor (oura)** komponentindən və vaxtilə Azərbaycan dilində *"istehkam","qala","kənd", "möhkəmləndirilmiş şəhər"* mənalarında işlədilmiş İran mənşəli **dizə** sözlərindən ibarətdir. **Horadiz** sözünü **Oradiz, Oradüz, Qaradüz, Hordüz** və s. yozumlarla da əlaqələndirənlər var. Bəziləri oykonimi **qara** ("böyük") və **düz** komponentlərinə ayırır (*S.Xələfov: Horadiz toponimi haqqında mülahizə... Azərbaycan onomastikası problemlərinə həsr olunmuş III elmi-nəzəri konfransın materialları, Bakı, 1990, s.131.*)

Vaxtilə İrəvan quberniyasının Şərur-Dərələyəz qəzasında da **Horadiz** adlı kənd olub. 1727-ci ilə aid mənbədə həmin kəndin adı **Horadüz** kimi çəkilir. 1968-ci ildə kənd ermənilər tərəfindən **Oradiz** adlandırılmışdır...

**Horadiz** sözünün müxtəlif variantlarını izah edən mütəxəssislər vardır. **Horadiz** toponiminin düzgün izahı fars dilindəki **oura** (*"qala"*) və **dizə** (*"məskən", "yurd", "qala"* mənasında) sözlərindən ibarət olub, *"qala kənd"* mənasındadır.

Bəzi tədqiqatçılar toponimi **hor** komponenti ilə əlaqələndirirlər; **hor** talış dilində *"mal saxlamaq üçün təknə"* mənasındadır.

Horadizli şair Vüqar Zakiroğlu öz kəndlərini şer dili ilə belə vəsf edir:

***Yovşan ətri vururmu?***
***Quşlar yuva qururmu?***
***Kəndin kənarındakı***
***O"Tək ağac" durexcursions?***

*Hər obanın var daşı,*
*Elçi daşı, yar daşı.*
*Elimi xəbər alıb,*
*Dindirəydim "Kar daş"ı.*

*Salam, salam "Göl bağ"ım,*
*Çiçək bağım, gül bağım.*
*Qürbətdə dən gəzirəm,*
*Ətrafı sünbül bağım.*

*Sinəsi dərd çinarım,*
*Mərd elim, mərd çinarım,*
*Kölgəndə kimlər yatır,*
*A mənim "Dörd çinar"ım?*

*Dumanım var, çənim var,*
*Taleyimə qənim var,*
*Kimlərə sübüt edim,*
*Mənim də vətənim var?*

*Seyidin eli yandı,*
*Bağların gülü yandı.*
*"Xan Kəhriz" deyə-deyə,*
*Neçə sevgili yandı.*

*Mindiyim at yorğadı,*
*Ciblərim qovurğadır,*
*Sür gedək kəndə tərəf,*
*Qarşımızda "Burğa"dır...*

*Gün əridi, gün axdı,*
*Gün nalədi, gün ahdı.*
*Onu danmaq günahdı,*
*Bura çovğun, bura buz,*



*Ora çəmən, ora düz,*
*Göy üzündə Allahdı,*
*Yer üzündə Horadiz!*
*Yer üzündə Horadiz!..*

İranda azərbaycanlılar yaşayan ərazilərdə **Hor** adlı **düz** də mövcuddur. **Hor** komponenti ilə bağlı Yardımlı rayonunda **Horavar, Horonu** kəndləri, Şamaxıda **Horadil dağ silsiləsi**, Cəbrayılda **Horovlu kəndi** və s. vardır. Füzuli rayonunda **Horadiz** adlı qəsəbə də vardır...

## HORADİZ QƏSƏBƏSİ

Rayon mərkəzindən 29 km cənub-şərqdə, düzənlikdə yerləşən şəhər tipli qəsəbə, Əhalisi 6 min nəfərdən çoxdur. **Qəsəbə** ermənilər tərəfindən 1993-cü ildə zəbt olunsa da, bir neçə aydan sonra geri qatarıldı. Qəsəbədə orta və səkkizillik məktəblər, klub, kitabxana, xəstəxana, uşaq bağçası, doğum evi, dəmir yol stansiyası, limonad sexi, taxıl məhsulları kombinatı, üzüm qəbulu bazası, kənd təsərrüfatı texnikası təmiri müəssisəsi, mədəniyyət və istirahət parkı, Bakı təcrübə-sınaq zavodunun yerli filialı və başqa müəssisələr vardır...

Bu yaşayış məntəqəsinin adı irandilli toponimlərdəndir: (**"Oradiz"**). **Horadiz** toponiminin mənası ilə bağlı (bax: **Horadiz kəndi**).

## HÜNGÜTLÜ KƏNDİ

Füzuli rayonunda, Qozluçayın sol sahilində, dağətəyi maili düzənlikdə yerləşən kənd. Əhalisi üzümçülük, taxılçılıq və heyvandarlıqla məşğul olur.

**Hüngütlü** toponiminin türk-monqol mənşəli **hun**, ya da **onqut** tayfasının adı ilə əlaqədar olduğu ehtimal edilir. Çox güman ki,

yaşayış məntəqəsi monqol işğalı dövründə yaranıb. XIII əsr mənbələrində (F.Rəşidəddin) monqollar arasında **onqut** tayfasının adı da çəkilib. Həmin dövrdə Azərbaycanda xeyli türk-monqol mənşəli tayfalar məskunlaşıblar.

Bu etonim özbəklər və qırğızlar arasında da geniş yayılmışdır. Etnotoponim **"Hunların kəndi"** və ya **"onqutların kəndi"** mənasındadır.

Bu toponim bəzən **"Küncüt"** sözü ilə izah edilir. **"Küngüt"** monqol mənşəli sözdür, monqol işğallarından iştirak edən türkdilli tayfalarının birinin adı ilə **kinkit (küngüt)** olmuşdur. **"Küngüt"** qədim türk dillərində işlənən **güng** sözündən olub, *"saxsı qab, boru düzəldən"* mənasındadır. Oroqrafik obyekt adlarının *"küngüt"* yazılış variantı **kinqit** etnoniminin fonetik şəklidir.

Azərbaycanda bu toponimlə bağlı Ismayıllı və Şəki rayonları ərazisində *Küngüt dağı, Küngüt çayı, Aşağı Küngüt kəndi, Küngüt dərəsi, Küngüt yarğanı,* Göyçay rayonunda *Üngütlü kəndi* və s. mövcuddur.

Cənubi Azərbaycanda, Muğanda *Hüngüt* mahalı deyilən əyalət də var.

## HÜSEYNBƏYLİ KƏNDİ

**Hüseynbəyli kəndi** Füzuli rayonunda, rayon mərkəzindən 7 kilometr məsafədə, Qarabağ silsiləsi ətəklərində, düzənik ərazidə yerləşir. Əhalisi əsasən, üzümçülük, taxılçılıq və heyvandarlıqla məşğul olur. **Hüseynbəyli** yaşayış məntəqəsi də məlum hadisələrlə əlaqədar, 1993-cü ilin avqustunda ermənilər tərəfindən zəbt edilmişdir...

Bəzi məlumatlara görə, bu yaşayış məntəqəsi XIX əsrdə **Hüseyn** adlı bir bəyə məxsus qışlaq yerində əsasən maldarlıqla məşğul olan ailələrin məskunlaşması nəticəsində yaranan kəndlərdəndir. Başqa bir məlumata görə yaşayış məntəqəsini vaxtilə **Hüseyn bəy** adlı şəxs və onun övladları, qohumları saldığına görə



o, belə adlandırılmışdır. **Hüseynbəylilər** Hacılı camaatının **Mahmudlu** obasındandır.

Tarixi mənbələrdən aydın olur ki, **Hüseynbəyli** tayfaları **Cavanşir** elinin **Hacılı** icmasına daxildir. Hüseynbəylilər **mahmudluların** bir qoludur. Zənnimcə, hüseynbəylilərin **Hüseyn bəy** törəmələri kimi XVIII əsrdə İrandan gəlmələri fikri yanlışdır...

Bərdə rayonunda da **Hüseynbəyli** adlı kənd vardır. Vaxtilə İrəvan quberniyasının Novobayazid qəzasında **Hüseynbəyli** adlı kənd mövcud olmuşdur.

## XALDAŞ

**Xaldaş** oroqrafik obyekti Yağlıvənd kəndi ilə Dövlətyarlı kəndinin arasındakı ərazidə qeydə alınıb. Oronim **xal** və **daş** komponentlərindən ibarətdir. Ərazidəki bu daşın **xallı** olması ilə əlaqədar olaraq toponim belə ad almışdır.

## XAN KƏHRİZİ

Horadiz kəndi ərazisində qeydə alınan hidronimlərdən biri **Xan kəhrizi** adlanır. **Kəhriz** - qrunt sularını toplayıb yer səthinə çıxarmaq üçün yeraltı qurğudur.Kəhrizlər peşəkar kankanlar tərəfindən qazılır. XX əsrin ortalarında Azərbaycanda 900-dən çox adlı **kəhriz** olmuşdur. **Xan kəhrizi** toponimi **xan** və **kəhriz** sözlərindən ibarət olub, "xana məxsus olan kəhriz" mənasındadır.

## XANTƏPƏ

Füzuli şəhərinin cənub-şərqində e.ə. V-II minilliklərə aid çoxtəbəqəli yaşayış yeri. **Təpə** dairəvi formalıdır. Hündürlüyü 8-10 metrdir. Qazıntı və tədqiqat işləri zamanı buradan eneolit ilk və tunc dövrlərinə aid gil məmulatı və daş alətlər tapılmışdır. Eneolit

dövrünə aid mədəni təbəqədən (5 metr qalınlığında) gil qab qırıqları, daş alətlər (bıçaqvari lövhələr, müxtəlif qəlpələr, dən daşları, həvəngdəstə, sürtgəc və s.) aşkar edilmişdir. Xantəpənin gil məmulatı içərisində üzərində od və his izi qalmış yuvarlaq formalı boz rəngli qab (butə) diqqəti cəlb edir. Məhz, bu qab Zaqafqaziyada ən qədim metal tapıntıdır.

Tədqiqatlar göstərir ki, **Xantəpə**də Günəştəpədə olduğu kimi, e.ə. V-II minilliklərdə oturaq əkinçi-maldar tayfaları yaşamışlar. Toponim **xan** və **təpə** sözlərindən ibarət olub, *"Xanın təpəsi"* mənasındadır. Titul bildirən **xan** komponentinə **təpə** termini birləşərək *Xantəpə* oronimini yaratmışdır.

## XATINBULAQ KƏNDİ

**Xatınbulaq kəndi** rayon mərkəzindən 15 km cənubda, Qarabağ silsiləsinin ətəyində yerləşir. Əhalisi əsasən üzümçülük, taxılçılıq, heyvandarlıq, baramaçılıqla məşğul olur. Kənddə məktəb, klub, kitabxana və s. var. Kənd hazırda işğal altındadır...

**Xatınbulaq** oykonimi **Xatın** və **bulaq** sözlərinin birləşməsindən əmələ gəlib, *"Xatın bulağı"* mənasını əks etdirir. Yaşayış məntəqəsi öz adını **bulaq** apelyativindən almışdır. Bu toponim tərkibində *bulaq* sözü olan hidronimlərdən adını alan oronimdir...

1727-ci ilə aid "Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri" tarixi sənədində **Xatınbulaq** kəndinin də adı çəkilir.

**Bulaq** sözü ilə bağlı Azərbaycan ərazisində digər oronimlər də vardır: **Qızılbulaq dərəsi** (Qax rayonu, Zərnə kəndi), **Qocabulaq dağı** (Şəmkir rayonu), **Korbulaq dərəsi** (Masallı rayonu, Ərkivan kəndi), **Qarabulaq dərəsi** (Şəki rayonu) və s.



## XƏLƏFŞƏ KƏNDİ

Rayon mərkəzindən 6 km cənub-qərbdə, düzənlikdə yerləşən kənd. Əhalisi taxılçılıq, heyvandarlıq və üzümçülüklə məşğul olur. Kənddə məktəb, klub, kitabxana, bulaq (XIX əsr) və s. var. Yaşayış məntəqəsi ermənilər tərəfindən işğal olunub.

Kəndi **Xələf şah** adlı şəxs saldığına görə kəndə də onun adı verilmişdir. Azərbaycan dilində **"şah"** titul bildirən söz ilə şəxs adı olan **Xələf** sözü birləşərək, **Xələfşə** oykonimini əmələ gətirir. **"H"** səsi burada düşmüşdür. Bəzi ehtimallara görə toponim XVIII əsrdə Qarabağ xanının vəkili olmuş **Mirzə Xələfin** adı ilə əlaqədardır. Kəndin adına **Xələfşə** də deyirlər.

XVIII əsrə (1727-ci il) aid "Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri"ndə kəndin adı **Xəlifəşahlı** kimi yazılmış və "Dəftər"də nədənsə həmin bəhs olunan dönəmdə kənddə heç kimin yaşamadığı qeyd olunmuşdur. **Xələfşə (Xələfşah)** oykonimi dərviş Səfəvi ordeni ilə bağlıdır...

## XƏZƏR DAĞI

Rayon mərkəzindən 15 km şimalda, Qacar kəndi yaxınlığında yerləşən dağ. Hündürlüyü 816 metrdir. Dağın adı türkdilli **Xəzər** tayfalarının adı ilə bağlıdır. Xəzərlərin Cənubi Qafqazda görünmələri barədə müxtəlif fikirlər var. Onların Azərbaycana axını I-III əsrlərdə daha da güclənib. II Şapurun (Sasani hökmdarı, 309-379) və Xosrov Ənuşirəvanın (531-579) dövründə on minlərlə xəzər ailəsi Azərbaycanda yerləşdirildi. Bəzi məlumatlara görə köçəri türk tayfası olan **xəzərlər** Azərbaycana e.ə. 193-cü ildə gəliblər (Xorenski).

Albaniya ərazisi tez-tez Şimali Qafqazda yaşayan xəzərlərin hücumlarına məruz qalmışdır. 965-ci ildə Kiyev knyazı Svyatoslav Xəzər xanlığına son qoyduqdan sonra **xəzərlər** siyasi fəaliyyət meydanından çıxdılar və müxtəlif türk xalqları, o cümlədən, azərbaycanlılara qaynayıb qarışdılar. Azərbaycanda məskunlaşan

**Xəzər tayfaları** əsasən, maldarlıqla məşğul olmuşlar. Hətta, bir çox dağlarda, o cümlədən, Füzulidəki Xəzər dağında da xəzərlərin yaylaqları yerləşmişdir.

Bəzi sənədlərdə oronimin adı **Xəzəz dağı (Xazəz dağı)** kimi də qeyd olunmuşdur. Yerli məlumata görə, **dağ** orada bitən **xəzəz** bitkisinin adı ilə adlandırılıb. Qacar kəndinin 4 kilometrliyində olan bu ərazidə deyilənlərə görə, vaxtilə **Xəzəz (Xəzəz)** adlı yaşayış məntəqəsi də mövcud idi. Görünür, bu qədim kəndin əhalisi təxminən son orta əsrlər dönəmində (bəlkə də bir müddət sonra) müəyyən bir tarixi şəraitlə əlaqədar olaraq kəndi tərk etmişdir.

**Xəzər** etnonimi ilə bağlı çoxlu oykonim və oronimlər var:

***Xəzəryurd*** (Ordubad rayonu), ***Xəzərdərə dağı, Xəzərzirvə, Xəzərqluk*** (Babək rayonu), ***Xəzər kəndi*** (Neftçala rayonu) ***Xəzərtəpə dağı*** (Laçın rayonu, Qırmızı Güney kəndi), ***Xəzərli kənd*** (Xaçmaz rayonu), ***Xəzər dənizi*** və s.

## XƏZƏZ DAĞI

(Bax: **Xəzər dağı**)

## XIRDA-PARA DİZAQ MAHALI

**Xırda-para Dizaq mahalı** Füzuli, Cəbrayıl və Xocavənd rayonlarının ərazisini əhatə edirdi. **Xırda-para** sözü bəzi sənədlərdə **Xırdapara** formasında da yazılır. Mahalın inzibati mərkəzi əvvəllər bir müddət Pirəhmədli (Füzuli rayonunda) kəndi olub. Sonralar mərkəz Sarıcalı kəndi olmuşdur. Toponimin tərkibindəki **xırda** sözü "kiçik" mənasındadır.

**Xırda-para Dizaq mahalı** aşağıdakı kəndləri əhatə edirdi:

Maralyan, Süleymanlı, Quycaq, Daşkəsən, Qaracallı, Qışlaq, Sirik, Çapand, Cəfərabad, Şəybəy, Karxulu, Mehdili, Mollalı (Qaradərə), Horovlu, Nüzgər, Çaxırlı, Zülfüqarlı, Balyand, Carıcalı, Səfərşa.



## XOCALI DAĞI

Füzuli rayonu ərazisində dağ. Dağın adı **Xocalı** nəslinin adı ilə bağlıdır. Həmin nəslə mənsub olan ailələr görünür, vaxtilə bu ərazilərdə **dağın** ətəyində yaşamışlar. **Dağ** coğrafi termini müsbət relyef forması bildirir. **Xocalı** toponimi ilə bağlı çoxlu coğrafi adlar mövcuddur: **Xocalı çayı** (Xocavənd rayonu), ***Xocalı şəhəri, Xocalı kəndi*** (Salyan rayonu)...

## İBƏ BULAĞI, İBƏ İBRAHİM ZİYARƏTGAHI, İBƏ OCAĞI

**İbə bulağı** hidronimi Füzuli rayonunun Horadiz kəndinin Cəbrayıl rayonu ilə həmsərhəd ərazisində qeydə alınmışdır. Məlumdur ki, yeraltı suların yerüstü təbii çıxışına **bulaq** deyilir. Temperaturuna görə bulaqlar soyuq, ılıq, termal (isti) və hipotermal (çox isti) olur. **Bulaq** hidronimik apelyativinin iştirakı ilə Azərbaycanda çoxlu coğrafi adlar yaranmışdır. Azərbaycan toponimiyasında şəxs adlarından düzəlmiş hidronimlər yüzlərlədir. **İbə bulağı** adı da bu tip antroponimik hidronimdir.

Aşağı Aybasanlı kəndində bu qəbildən olan **İbə İbrahim** adlanan və xalq tərəfindən əziz tutulan müqəddəs **ziyarətgah** da qeydə alınmışdır.

Füzuli rayonunun Yuxarı Seyidəhmədli kəndi ərazisində **İbə ocağı** oroqrafik obyekti də qeydə alınıb. Həmin **ocaq** müqəddəs tapınaq, **ziyarət yeri** hesab edilir...

## İBRAHİM BAĞI

Dövlətyarlı kəndinin kənarında, Köndələn çayı sahilində qeydə alınan oroqrafik obyektlərdən biri **İbrahim bağı** adlanır. Bu bağda çoxlu sayda tut, alma, albalı, armud, heyva, nar, ərik, gilənar,

gavalı, əncir, qoz ağacları vardır. Bağda tut ağaclarının çoxluğu bu ərazilərdə baramaçılığın inkişafı ilə əlaqədardır.

**Bağ** onun qurucusu, yaradıcısı olan, ona baxan **İbrahim** adlı şəxsin adı ilə bağlı olaraq belə adlandırılmışdır...

## İKİNCİ MAHMUDLU KƏNDİ

**İkinci Mahmudlu kəndi** Füzuli rayonunda, rayon mərkəzindən təxminən 40 km şərqdə, düzənlikdə yerləşir. Əhalisi əsasən üzümçülük, heyvandarlıq, baramaçılıq, taxılçılıqla məşğul olur.

Yaşayış məntəqəsini **Mahmudlu** kəndindən ayrılmış ailələr salmışlar. Toponimin əvvəlinə **ikinci** sözü onu *Birinci Mahmudlu* və *Üçüncü Mahmudlu* kəndlərindən fərqləndirmək üçün əlavə olunmuşdur.

**Mahmudlular** XVI-XVII əsrlərdə Türkiyədə Van gölündən şərqdə yaşamış, sonralar onların bir hissəsi Azərbaycana, o cümlədən, Füzuli rayonu ərazisinə gələrək, burada bir neçə yaşayış məntəqələri yaratmışlar. Bəzi məlumatlara görə, türkləşmiş **Mahmudlu tayfaları** çox güman ki, əvvəllər kürddili olmuşlar...

Qaynaqlardan məlum olur ki, **Mahmudlu** obası **Hacılı** icmasına daxildir. Bu oba **Cavanşir** elinin **Köçərli** oymağından çıxıb. Bir mənbəyə görə, bu obanın camaatının ulu babalarından birinin adı **Hacı Yusif ağa** olub. O, **Birinci Mahmudun** atasıdır. Mahmudluların qoçaqlıqlarına görə **hacılı** icması arasında xüsusi yeri olub. Qeyrətli, qoçaq mahmudlular haqqında el arasında: "rus yox, mahmudlu yox, daha nədən qorxacaqsan?" məsəli dillərdə dolaşmaqdadır.

Bəzi mənbənin verdiyi məlumatda qeyd olunur ki, 1727-ci ildə **Köçərli** obasından ayrılan **Mahmudlu** soyu Dizaq nahiyəsinin Ziyad qışlağında binələyirdi. Osmanlı qaynağında da **Mahmudlu** soyu haqqında bilgilər vardır. Orada göstərilir ki, **Cavanşir** tayfasının **köçərli oymağı** Dizaq nahiyəsinin tərkibində olan Kəlli, Zəvicik (Zavıcıq) və Quru çaylarının kənarında, Çərəkən,



Köndələn, Tülyan, Qaradağlı və Ərşə adlı qışlaqlarda əkinçiliklə məşğul olur, İrəvan əyalətinin Bork adlı yerində yaylayırlar.

**Ərşə** adlı ərazidə tikişləri olan Köçərli oylağı Dizaq nahiyəsində, Soyudaş adlı arxın kənarında əkinçiliklə məşğul olurdular. Ümumilikdə Qarabağa tabe olan Köçərli oymağının Tayasoyuq adlı qışlaqları və Qaragüney adlı yaylaqları da olmuşdur. Tarixi şəraitlə əlaqədar olaraq bu obanın bəzi nəsilləri sürgün olunmuş və sürgündən qayıtdıqdan sonra **hacılı** icmasının tərkibinə daxil olmuşdur. **Mahmudlular** Qarabağ xanlığının siyasi həyatında da mühüm rol oynamışlar.

1842, 1849, 1863, 1873 və 1886-cı illərdə **mahmudlu** obasının əhalisi dövlət tərəfindən siyahıya alınıb. Həmin dövrün siyahıyaalınmalarında Mahmudlu obasında yaşayan bəylərin (Praporşik Həsən bəy Cəfər bəy oğlu, Fətəli bəy Cəfər bəy oğlu, Hacı Hüseynqulu bəy Səhliyalı bəy oğlu, Həsənqulu bəy Səhliyalı bəy oğlu, Mahmud bəy Səhliyalı bəy oğlu, Ağa bəy Hüseyn bəy oğlu, Teymur bəy Hüseyn bəy oğlu, Heydər bəy Hüseyn bəy oğlu, Şükür (Şirin) bəy İbrahim bəy oğlu, Firudin bəy Həsən bəy oğlu və onların övladları) də adı göstərilmişdir.

**Mahmudlu obasının tayfaları** bunlardır:

**Cəfərbəyli (Cəfərbəyuşağı)** - Cəfər bəy Kərbəlayi Mahmud ağa oğlu XVIII əsrin II yarısı, XIX yüzilliyin əvvəllərində yaşayıb. Çox varlı və hörmətli ağalardan olan **Cəfər bəyin** Qasım, Fətəli, Həsən, Hüseyn, Paşa, İsgəndər adlı oğulları olmuşdur. Bu tayfanın **Qasımbəyli, Fətəlibəyli, Həsənbəyli, Hüseynbəyli, Paşabəyli** adlanan tirələri var...

**Səhliyalılar (Səhliyalı bəy uşağı)** - **Səhliyalı bəy** Kərbəlayi Mahmud ağanın ikinci oğludur. O, XVIII əsrin sonları və XIX əsrin əvvəllərində yaşayıb. İbrahimxəlil xan və Mehdiqulu xana xidmət göstərən Səhliyalı bəyin Hüseynqulu, Həsənqulu, İbrahim, Mahmud bəy adlı oğulları olub. Bu tayfanın *Hacıhüseynqulular, Hacıhəsənqulular, İbrahimli, Mahmudbəyli* adlı tirələri var...

**Hacıatalılar** - Kərbəlayi Mahmud ağanın oğullarından biri də **Atalı**dır. 1783-cü ildə Mahmudlu obasında doğulan **Atalı** hey-

vandarlıqla məşğul olmuş, müqəddəs Məkkəni ziyarət edib **"Hacı"** tituluna yiyələnmişdir. Onun **Qulaməli, Qəhrəman** adlı oğulları, **Hürü** adlı qızı vardı. Bu tayfanın **qulaməlilər, salahlılar, şamılar, şükürlülər, musalılar, əmirmuradlılar, hacıməmmədlilər, xasməmmədlilər, zülfüqarlılar** adlı tirələri var...

**İmamverdilər** - *İmamverdi* Mahmudlu obasının ulu babalarından biri olub. Heyvandarlıqla məşğul olan **İmamverdi bəyin** İsmayıl, Həşim, Kazım, İmamqulu və Tarxan adlı oğulları vardı. Bu tayfaya **ismayıllı, mikayıllı, həşimli, allahverənlilər, həsənqulular** adlı tirələr daxildir...

**Ələsgərlilər - Ələsgər (1816-1886)** Mahmudlu obasının ulu babası Kərbəlayi Mahmud ağanın heyvandarlıqla məşğul olan oğlu Namazın böyük oğlu idi. Namazın Ələsgərdən başqa Əli, Abdulla və Həzrətqulu adlı oğulları da olub. Kərbəlayi Ələsgərin **Rəhim, Səlim, Kərim, Nadir, Əmir, Əbil, Əbdül, Qoca, Məti, Baloğlan** adlı oğlanları vardı...

Cəbrayıl, Qubadlı, Şəmkir və İmişli rayonlarında da **Mahmudlu** etnonimi ilə bağlı kəndlər vardır.

## İLANLI DAĞ

Füzuli rayonu ərazisində, Qarğabazar və Kürdlər kəndləri arasında, Yuxarı Əbdürrəhmanlı kəndindən 3 kilometr aralıda qeydə alınan dağ. Yerli əhali dağın ətəyindən yamacına doğru **ilan** sürüləri çıxmasına görə **dağa** belə ad vermişlər.

Ümumiyyətlə, **dağ** - düzənlikdən ətəkləri, yamacları və zirvəsi ilə seçilən, 500 metrdən artıq olan, dik vəziyyətdə ucalmış yüksəkliyə deyilir. Azərbaycanda toplanmış oronimlərdən 1500-dən çoxu dağ adıdır.

Azərbaycanda **ilan** heyvan adı ilə bağlı çoxlu toponimlər var: İlan qayası (Laçın rayonu), İlanlı təpə (Ağdam rayonu), İlanlı Qobu (İmişli rayonu), İlandağ (Naxçıvan), İlandağ (Culfa rayonu), İlanlı dərə (Babək, Qazax, Gədəbəy, Masallı rayonları), İlanlı güney (Kəlbəcər rayonu) və s.



Bu toponimlərdə **"ilan"** sözünün konkret mənalarını ayırd etmək çətindir. Azərbaycandakı **ilanlı** adı ilə olan oykonim və oronimləri qədim türk mənşəli **alan** tayfaları ilə də əlaqələndirirlər. Hazırda Şimali Qafqazda yaşayan qaraçaylar, balkanlar özlərini **alan** adlandırır. Çox güman ki, **alanlar** Azərbaycana miladdan öncə hunların və ya balqarların tərkibində gəliblər. Türkmənistanda Ersarı tayfasının bir qolu **ilanlar** adlanır.

XVIII-XIX əsrlərdə İrəvan əyaləti ərazisində **İlanlı** adlı **6** yaşayış məskəni mövcud olmuşdur...

## İMAM BULAĞI

Füzuli rayonunun Horadiz kəndi ərazisində qeydə alınan hidronimlərdən biri **İmam bulağı** adlanır. **Bulaq** - yeraltı suların yerüstünə təbii çıxışıdır. **Bulaq** hidronimik apelyativinin iştirakı ilə çoxlu toponimlər yaranıb. **İmam bulağı** hidroniminin tərkibindəki **imam** (məzhəb və təriqət şeyxi) sözü şiə məzhəbinin başçısı qəbul edilən Həzrət Əli və onun övladlarına verilən ad mənasındadır. **İmam** sözünün "camaata namaz qıldıran" anlamı da var. Bəzi ərəb dövlətlərində dövlət başçısına **imam** deyilir...

## İMAM PİRİ

**İmam piri** oroqrafik obyekti Füzuli rayonunun Horadiz kəndindən 2 kilometr aşağıda qeydə alınıb. Yerli məlumata görə, çox əvvəllər Horadiz kəndinin camaatı **İmam piri** ərazisində məskunlaşmışlar. Həmin ərazidə indi də qədim ev yerlərinin xarabalıqları qalmaqdadır. Kəndin **Yadigarlılar** nəslinin törəmələrindən olan el ağsaqqalı Fərman Yadigarov deyir ki, onların tirəsi vaxtilə **İmam Pirinin** yanında yaşamışdır. Bu tirədən olan bir qadın axşam vaxtı ay işığında həyətdə cəhrə ilə ip əyirən zaman bir nurani atlı kişi həyətə girərək ona deyib: "adamlara xəbər ver buradan köçüb başqa

yerə getsinlər; çünki **İmam pirinin** ətrafını sizin heyvanlarınız - it-pişikləriniz çirkləndirib. İki gündən sonra gələcəyəm. Əgər burdan köçüb getməsəniz sizi bəlalar gözləyir".

Qadın bu hadisəni ərinə danışır; o da öz növbəsində qohumlara, qonşulara xəbər verir; amma heç kəs onlara inanmır, dediklərinə məhəl qoymur. İki gün tamam olanda həmin atlı gəlir. Kəndlilər köçüb getməyə razı olmurlar. Ancaq Yadigar kişi öz qohum-əqrəbası ilə oradan köçüb indiki Horadiz kəndi ərazisində, Qarağan təpədə özlərinə məskən salırlar. İnanmayanlar öz yerlərində qalırlar. Heç 3 gün keçməmiş elə tufan qopur ki, evlər darmadağın olur. Bunu görən sakinlər yığışıb müxtəlif yerlərə (deyilənlərə görə, hətta, Beyləqan və Dəvəçi rayonları ərazilərinə) köçürlər. Yerli məlumata görə, görə sonralar kənd camaatından həmin o atlı kişini görənlər də olub...

**İmam piri** daşdan ucaldılmış 2 otaqdan ibarətdir. Ərazidə sonralar daşdan tikilmiş çarhovuz da vardı. 18 kvadrat metrlik üstüörtülü birinci otaq ziyarətə gəlib gecə qalan adamlar üçündür. 36 kvadrat metr sahəsi olan ikinci üstüaçıq otaqda isə daş mərmərdən məzar var. Deyilənə görə o, İmam Rzanın qız nəvəsinin qəbridir. Qəbrin yanında müqəddəslik rəmzi olan dağdağan ağacı vardır. Rəvayətə görə, əvvəllər məzardan işıq gələrmiş və adamlar ora yaxınlaşanda işıq sönərmiş. Elə bu səbəbdən də insanlar bu məzarı **Pir** kimi qəbul edirlər. Pirin ətrafına qabaqca çəpərdən, sonralar isə daşdan hasar çəkilir.

XIX əsrin sonlarında Kəlbəismayıllı tayfasından olan Hacı Qasım **İmam** pirinin divarlarını öz hesabına daşla tikdirir. Sonra tikilinin damını da örtürlər. Səhəri gəlib baxıb-görürlər ki, tikilinin damı yerə düşüb. Elə o zamandan da Pirin üstü açıq qalmışdır. Bəzən yerli əhalidən olan yaşlı adamlar and içəndə: "Hacı Qasımın tikdirdiyi **İmam haqqı**"- deyirlər...

XX əsrin 80-ci illərində Teyyub Əyyuboğlunun təşəbbüsü və usta Tapdıq Həsənoğlunun səyi ilə xeyriyyəçilik məqsədilə əhalidən yığılmış vəsait hesabına **İmam piri** qarşısında üstüörtülü giriş otağı tikilir. Səhəri gün gələndə görürlər ki, məzar olan otağın üstü



açılıb. Sonradan məsləhət olundu ki, bir halda ki, ta qədimdən onun üstünü örtən olmayıb, elə yaxşısı budur qoyun açıq qalsın. O zamandan da həmin pirin otağının üstü açıq qalır...

1993-cü ilin sentyabr ayına (işğala) qədər **İmam piri** insanların inam və etiqad yeri olub. Bu müqəddəs ocağa ətraf rayonlardan da axın-axın adamlar gəlirdilər. Bu ocağa inam gətirənlər burdan ümidlə qayıdır və arzularına çatırdılar. İmam pirinə **İmamzadə** də deyirlər...

## İMAM RƏDDİ

Xəzəz dağı ərazisində Qacar kəndi yaxınlığında qeydə alınan coğrafi adlardan biri **İmam rəddi** adlanır. Azərbaycanda xalq tərəfindən əziz tutulan, müqəddəs tanınan, ocaq, ziyarət yerləri çoxdur. Xalqın etiqadına görə **İmam rəddi** adlanan sahədə müqəddəs imamlarımızın ayaq izləri var. Respublikamız ərazisində belə qisim oronimlərə bir çox rayonların ərazisində rast gəlirik. Məsələn: Əli ayağı yeri (Əzizbəyov rayonu) və s.

## İMAMBAĞI

Füzuli şəhərində xüsusi məhəllə, yaşayış məntəqəsi **İmambağı** adlanır. Adına bəzən **İmanbağı** da deyirlər. Bəzi yerli məlumatlara görə, ərazi çox-çox əvvəllər **İman** adlı bir kişinin bağ və bostan yeri olub. **İmambağı** toponimini bəzi tədqiqatçılar "İmam övladları nəslindən olan bir çox ailələrin bağ yeri" kimi də mənalandırırlar...

## İNCƏ DƏRƏSİ, İNCƏ ÇAYI

**İncə dərəsi** oroqrafik obyekti Füzuli rayonunun Qacar kəndi ərazisində qeydə alınıb. Bu coğrafi ad **incə, dərə** sözlərindən və **-si** mənsubluq ifadə edən şəkilçidən ibarətdir. **Dərə** - mənfi relyef

formasi bildirən coğrafi termindir. **İncə** sözü isə çox güman ki, qıpçaq tayfalarından olan **incə\əncə** tayfasının adını bildirir. Tarixdən məlumdur ki, qədim qıpçaqların **incə (əncə)** tayfası əvvəllər indiki Cənubi Rusiya çöllərində və Şimali Qafqazda yaşamışlar. Tarixi şəraitlə bağlı onların müəyyən bir hissəsi ayrı-ayrı zamanlarda Azərbaycana, eləcə də, Qarabağa gəlmişlər...

**İncə dərəsi** ərazisində **İncə çayı** hidronimi də qeydə alınıb. Qış, payız və bahar aylarında axan bu **çay** adətən yayda quruyur. Yerli əhalinin dediyinə görə məhz bu "incəliyi" üçün çay belə adlandırılıb. Mənim fikrimcə, çay çox ehtimal ki, bir zamanlar onun sahilində yaşamış qədim qıpçaqların **incə** tayfasının adını daşıyır.

Göyçay və Şəki rayonlarında **İncə kəndi,** Şəki rayonu ərazisindəki **İncə dağı,** Qazax rayonunda **İncəsu çayı,** Tərtər, Yevlax rayonları ərazilərindən axan **İncəçay** və digər coğrafi adların da tərkibindəki **incə** sözü qədim qıpçaqların **incə (əncə)** tayfasının adı ilə əlaqədar yaranmışdır...

## İNCİLDƏRƏ, İNCİLLİ KÖBƏR

Alxanlı kəndi ərazisində qeydə alınmış oroqrafik obyektlərdən biri **İncildərə** adlanır. Toponim **incil** sözündən və mənfi relyef forması bildirən **dərə** coğrafi terminindən ibarətdir. Yerli dialekt və şivədə əhali **əncir** meyvəsinə çox zaman **incil (incir)** deyir. Oronimin tərkibindəki **incil** komponenti **əncir** sözünün təhrif olunmuş formasıdır. Alxanlı kəndi ərazisində bu qisimdən olan **İncilli köbər** coğrafi adı da qeydə alınıb.

Azərbaycanda **əncir** meyvə ağacını bildirən sözlərdən düzələn oronimlərə **Əncir qayası** (Zəngilan rayonu), **Əncirli döş** (Cəbrayıl rayonu, Qovşutlu kəndi), **Əncirli dərə** (Qaradağ Qubadlı, Zəngilan, Cəbrayıl rayonları), **Əncirli təpə** (Abşeron, Ağdam, Bərdə Zəngilan, Xocavənd, Xocalı, Cəbrayıl Şuşa rayonları) və başqalarını nümunə göstərmək olar...



## İŞIQLI KƏNDİ

**İşıqlı kəndi** rayon mərkəzindən 4 kilometr cənubda, Füzuli-Horadiz, Füzuli-Cəbrayıl avtomobil yolları kənarında, Arazboyu düzənlikdə yerləşir. Kəndin 1700 nəfər əhalisi var. Əhalisi əsasən taxılçılıq, üzümçülük və heyvandarlıqla məşğul olur. Kənddə məktəb, klub, kitabxana, kəhriz, bulaq (XIX əsr), yaşı 500 ildən çox olan 2 çinar ağacı və s. var. Yaşayış məntəqəsi 1993-cü il avqustun 23-də ermənilər tərəfindən işğal olunub...

Bəzi tədqiqatçılara görə kəndi **işıxlı** nəslinə mənsub ailələr saldığı üçün belə adlandırılmışdır. Çox güman ki, nəslin adının ilkin forması **şıxlı** olmuş, **"i"** səsi isə adın əvvəlinə sonradan əlavə olunmuşdur.

1797-ci il hadisələrində Ağa Məhəmməd Şah Qacarın yandırdığı kəndlər siyahısında **İşıqlı** kəndinin də adı var.

İşıqlı kəndi tarixən onlarla tanınmış mərd, igid dəliqanlılar yetirmişdir. Kəndin əksər tayfaları ətraf yaşayış məntəqələrinin adamlarına bəzən danışıq zamanı özlərinə məxsus spesifik şirin müraciət forması olan *"başom"* (çox güman ki, "başına dönüm"ün qısaldılmış forması) ifadəsindən də istifadə edirlər (mən özüm dəfələrlə bunun şahidi olmuşam).

İşıqlı kəndinin **seyidlər, seyidşükürlülər, sadıxlılar, babaylar, novruzlular, qəmbərlilər, bəylər, mehdilər** və s. adlı tayfa və tirələri məlumdur.

**İşıqlı** adlı Laçın rayonunda dağ, Qubadlı rayonunda kənd də vardır.

## KARDAŞ

Füzuli rayonunun Horadiz kəndi ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri də **Kardaş** adlanır. Oronim **kar** və **daş** sözlərindən ibarətdir. Yerli məlumata görə, həmin **daşa** toxunanda səs-səda vermir, nəticədə cingiltisiz alçaq, **kar** səs alınır. Elə bu səbəbdən də yerli sakinlər bu daşı **kardaş** adlandırmışdır.

**Kar daş** haqqında çoxlu rəvayətlər danışılır. Horadiz kəndindən eyniadlı qəsəbəyə gedən el yolundan azacıq aralıda üzüquylu yatmış adamı xatırladan bu **Kar daş** haqqında füzulili şair Oruc Səda belə bir gözəl şer də qoşmuşdur:

***Bu daş üzüquyludur,***
***Yarı torpağa batıb.***
***Bu daş sirri özündə,***
***Bu daş daş kimi yatıb.***

***Bu daş üzüquyludur,***
***Yerdən bərk-bərk yapışıb.***
***Elə bil milyon illik***
***Həsrətlilər tapışıb.***

***Daşın lal harayından***
***Qulaq batar dinləsən.***
***Bu daşın daş kimliyi***
***Sənə çatar dinləsən.***

***Bu daş deyir: siz mənə,***
***Kar deməyin, ayıbdır.***
***Mənə Kar daş deyənlər,***
***Qulağından mayıfdır.***

***Bu daş deyir, sanmayın,***
***Nabələdəm, naşıyam.***
***Mən Qaraca çobanın,***
***Sapandının daşıyam.***

***Bu daş deyir eşidin,***
***Sirli aham, amanam.***
***Məni heyrət dondurub,***
***Daşa dönmüş zamanam.***



***Bu daş üzüquyludur,***
***Dərdini xuda bilər.***
***Daşı daş yuxusundan,***
***Tanrı oyada bilər...***

## KƏLBƏ NƏSİR DƏYİRMANI

**Kəlbə Nəsir dəyirmanı** Füzuli rayonunun Şükürbəyli kəndi yaxınlığındadır. **Dəyirman** - kənd təsərrüfat sahəsi ilə bağlı olan bir tikilidir. Dəni üyüdüb una və ya yarmaya çevirmək üçün müxtəlif qurğuları olan müəssisəyə **dəyirman** deyilir. **Dəyirmanlar,** ümumiyyətlə, su yaxınlığında tikilir. Azərbaycanda oronimlərin bəziləri vaxtilə həmin ərazidə mövcud olmuş təsərrüfat tikintilərinin adları ilə adlandırılmışdır. **Dəyirman** onu işlədən **Kərbəlayi Nəsirə** məxsus olduğu üçün onun adı ilə də adlandırılmışdır.

**Dəyirman** sözü ilə bağlı Azərbaycanda yüzə qədər oronimlər qeydə alınmışdır...

## KƏRƏM KÖRPÜSÜ

Füzuli rayonunun Saracıq kəndi ətrafında qeydə alınan oroqrafik obyektlərdən biri də **Kərəm körpüsü** adlanan coğrafi addır. **Körpü** XIX əsrdə inşa edilmişdir. Yerli əhalinin dediyinə görə, körpünün belə adlanması **Kərəm** şəxs adı ilə əlaqədardır. Toponim "Kərəmə məxsus olan körpü" mənasındadır. Coğrafi adın tərkibindəki **-sü** şəkilçisi mənsubluq bildirir.

## KƏRİMBƏYLİ KƏNDİ

**Kərimbəyli kəndi** rayon mərkəzindən 42 km cənub-şərqdə, düzənlikdə, Araz çayının sol sahilində yerləşir. Əhalisi 1600 nəfərdir. Əhali üzümçülük, heyvandarlıq və taxılçılıqla məşğul olur. Kənddə orta məktəb, kitabxana, klub, tibb məntəqəsi və s. var. Kərimbəyli yaşayış məntəqəsi **kərimbəyli** tayfasına mənsub ailələrin burada məskunlaşması nəticəsində yaranmışdır.



Bəzi mənbələrin verdiyi məlumata görə **Hacılı (Hacıəlili)** elinin bir qolu olan **kərimbəylilər** 1820-ci illərdə Cənubi Azərbaycanın **Qaradağlı** mahalından (oymağından) gəlmişlər.

Kənddə **qaraçorlu, qaralı, əhmədalı, bağırlı, talıblı, arıxlı, rəhət, hacallı, ərikli, yağbəsli, dərvişli, məmili, həsənalı, əmidayılı, eynallar, fərzamanlı** adlı tayfalara məxsus nəsillər yaşayır.

Bəzi məlumatlara görə, kəndin əsasını XVII əsrin 22-ci ilində Cənubi Azərbaycandan gəlmiş **Hacallı** tayfasına məxsus **Kərim** adlı cavan bir oğlan qoymuşdur. Əvvəllər kənd **Hacallı** adlanmış, Kərimə **bəylik** titulu verildikdən sonra isə yaşayış məntəqəsi **Kərimbəyli** adlanmışdır.

**Kərimbəyli** adlı kənd Bərdə, Salyan, Sədərək (Naxçıvan MR) rayonlarında da vardır...



## KİRİŞDİ DƏRƏ

**Kirişdi dərə** oroqrafik obyekti Yağlıvənd kəndi ərazisində qeydə alınıb. **Dərə** - mənfi relyef forması bildirən coğrafi termindir. Azərbaycan oronimiyasında **dərə** termini ilə bağlı 30 mindən çox coğrafi ad qeydə alınıb. Oronimin tərkibindəki **kiriş** sözü bitki adı ifadə edir; **-di** hissəciyindəki **-d** hərfi təhrifə uğramışdır: əslində **-l** olmalıdır. Toponim həmin dərədə çoxlu **kiriş** bitdiyi üçün belə ad almışdır...

## KİŞMİŞLİ

Yuxarı Əbdürrəhmanlı kəndi ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri **Kişmişli** adlanır. Oronim **kişmiş** sözündən və **-li** mənsubluq ifadə edən şəkilçidən ibarətdir. Bu yerlərdə çoxlu meyvə bağları (kələsər) var. Ərazidəki **kişmiş** üzümlüklərə görə toponim belə ad almışdır...

## KOR BULAQ

Qacar kəndinin ərazisində qeydə alınan hidronimlərdən biri **Kor bulaq** adlanır. Hidronim **kor** sözündən və **bulaq** hidronimik apelyativindən ibarətdir. Azərbaycanın bəzi ərazilərində olduğu kimi bu **bulaq** da yay aylarında, quraqlıq zamanlarda quruyur. Adətən gözü tez-tez tutulan, yəni susuz qalan belə bulaqlara el arasında **Kor bulaq** deyirlər.

Ağdam, Kəlbəcər, Gədəbəy, Laçın, Xocalı, Şuşa rayonlarının ərazilərində də **Kor bulaq** coğrafi adına rast gəlirik...

## KORBULAQ QAYASI

Rayon mərkəzindən 17 km şərqdə, Yuxarı Veysəlli kəndi yaxınlığındakı yüksəklik **Korbulaq qayası** adlanır. Qayanın adı oradakı eyni adlı bulağın adı ilə bağlıdır. Yağmurlu vaxtlarda **"gözü açılan"** qayadakı bulağın suyu quraqlıq olanda quruyur. Elə bu səbəbdən də susuz qalan, gözü tez-tez tutulan bu bulağa el arasında **Korbulaq** deyirlər. **Kor**- tutulmuş, fəaliyyətdən qalmış, batmış mənasındadır. **Qaya** coğrafi termini müsbət relyef forması bildirir.

**Korbulaq**lar toponiminə Xanlar rayonunun Yuxarı Ağasıbəyli kəndində və digər ərazilərdə də rast gəmək olar...

## KÖMÜR DƏRƏSİ

Füzuli rayonunda əvvəllər kömür basdırılmış yer belə adlanırdı. **Kömür** təxminən bir neçə hektar ərazidə, **dərədə** basdırılmışdır. Məhz bu səbəbdən də dərəyə **kömür dərəsi** adı verilmişdir.

Başqa rayonlarda da bu tipli toponimlər qeydə alınıb: **Kömüryer** (Yevlax rayonu), **Kömürtəpə** (Zərdab və İmişli rayonları), **Kömürdağ** (Zəngəzur silsiləsində və Kəlbəcər rayonunda dağ), **Kömürdəhnə kəndi** (Quba rayonu), **Kömürlü dağ** (Şərur rayonu) və s.

## KÖNDƏLƏNÇAY

Füzuli və Xocavənd rayonlarında çay. Xocalı rayonu ərazisindən, Qarabağ silsiləsindən, 1780 m yüksəklikdən başlayır. Arazın sol qoludur. Uzunluğu 100 km, hövzəsinin sahəsi 594 kv. km-dir. İllik axın həcmi 50 milyon kubmetrdir. Əsasən yağış və yeraltı sularla qidalanır. Suvarmada çayın suyundan geniş istifadə olunur. Daşqın dövründə suyu mənsəbə çatır. Üzərində su anbarı



yaradılmışdır. Köndələnçayın hövzəsində son Tunc dövrünə və antik dövrlərə aid arxeoloji abidələr aşkar olunmuşdur...

**Köndələnçay** hidronimi **köndələn** və **çay** komponentlərindən ibarət olub "əyri, eninə axan çay" mənasındadır.

Azərbaycan ərazisində **Köndələnarx** (Göyçay), **Köndələn əkin yeri** (Qəbələ), **Köndələnyol** (Qax), **Köndələnyer** (Füzuli, Oğuz), **Köndələnçöl** (Zaqatala), **Köndələn kənd** (Şəki) və s. qeydə alınmışdır.

## KÖNDƏLƏNÇAY SU ANBARI

**Köndələnçay su anbarı** Füzuli rayonu ərazisində, əsasən **Köndələnçayın** üstündədir. O, üç su anbarından ibarətdir. Bu **su anbarları** 1950, 1962, 1980-ci illərdə istifadəyə verilmişdir. Ümumi həcmi təxminən 15 milyon kubmetrdir. Bundan təqribən 10 min hektar sahənin suvarılmasında istifadə edilir.

**Köndələnçay su anbarı**na Quruçaydan da su axıdılır.

## KÜKÜRDLÜ BULAQ

Sərdarlı kəndi ərazisində qeydə alınan hidronimlərdən biri **Kükürdlü bulaq** adlanır. Hidronim **kükürd** sözündən, **bulaq** hidronimik apelyativindən və mənsubluq bildirən **-lü** şəkilçisindən ibarətdir. Bulağın suyu **kükürdlü** olduğu üçün hidronim belə ad almışdır. Bu tipli coğrafi adlara Azərbaycanın başqa bölgələrində də rast gəlmək olar...

## KÜLTƏPƏ

Rayon mərkəzindən 40 km şərqdə, Bala Bəhmənli kəndi yaxınlığında, düzənlikdə yerləşir. Onun çoxtəbəqəli qədim yaşayış yeri olduğu aşkar edilib. 1965-ci ildə arxeoloji axtarışlar zamanı

Kültəpədən eneolit və orta əsr dövrlərinə aid maddi mədəniyyət nümunələri - sadə və şirli qab nümunələri, ox ucluqları, oraq dişləri, dən daşları və s. toplanmışdır. Tapıntı və tədqiqatlar Kültəpənin Eneolit və Tunc dövrlərində oturaq əkinçi icmaların böyük yaşayış yeri, orta əsrlərdə isə qala olduğunu göstərir.

**Kültəpə** oronimi **kül** və **təpə** komponentlərindən ibarətdir. Təpədə müxtəlif mineral qatışıqlardan əmələ gələn yanıcı olmayan kül qalıqları olduğu üçün toponim güman ki, belə ad almışdır. Beyləqanda **Kültəpə** adlı yaşayış yeri, Ermənistanda eyni adlı təpə, Naxçıvan şəhəri yaxınlığında, indiki **Kültəpə kəndi** ("Kültəpə" toponimini bununla da əlaqələndirənlər var) ərazisində qədim dövrlərə aid yaşayış yeri vardır.

## KÜRDLƏR KƏNDİ

**Kürdlər kəndi** rayon mərkəzindən 7 km cənub-şərqdə, düzənlik ərazidə, Füzuli-Horadiz avtomobil yolu kənarında yerləşir. Əhalisi üzümçülük, heyvandarlıq və taxılçılıqla məşğul olur. Kənddə məktəb, klub, kitabxana və s. var. Ermənilər tərəfindən 1993-cü ilin avqustunda işğal edilib. Kənd **Mehdibəy Kürdü** də adlanmışdır.

Bəzi deyilənlərə görə, kənd vaxtilə kürddilli ailələrin burada məskunlaşması nəticəsində yaranmışdır. Amma bu, yanlış fikirdir. **Kürdlər** tirəsinə **musanlı** tayfasında da (Ağcabədi rayonu) rast gəlinir.

**Kürdlər** elliptik toponimi "kürd tayfasından olan dəstə, zümrə" ümumi adından (etnonimdən) obyektin tipini göstərən sözlərdən lazım olanını (burada **kənd** coğrafi nomenini) qəbul etməklə **(Kürdlər kəndi)** toponimləşmiş, xüsusi ad kimi formalaşmışdır. Deməli burada şəkilçi (**-lər**) toponimi deyil, toponim yaradıcılığında istifadə olunan etnonimi yaratmışdır.

**Kürdlər** kəndinin **abbaslı, heydərli, hacıməmmədli** və s. adlı tayfaları vardır. Bəzi yerli sakinlərin dediklərinə görə onların



əcdadları vaxtilə tarixi şəraitlə əlaqədar olaraq Ərzurumdan Cənubi Azərbaycanın Qaradağ mahalına, sonralar isə oradan indiki Füzuli rayonunun Kürdlər kəndi ərazisinə gəlmişlər. Bir sıra qaynaqların verdikləri məlumatdan aydın olur ki, Cənubi Azərbaycanın Qaradağ mahalının çələbianlı elindən bir neçə ailə (tirə) indiki Cəbrayıl rayonu ərazisində, Diridağda yaşayan Xudayarlı obasında məskunlaşıb. 1877-ci ildə həmin **xudayarlı** camaatının bir hissəsi köçüb buradakı **Mehdi bəy Məlikaslanovun** torpağında məskunlaşıblar. Buraya sonralar qonşu Pirəhmədli kəndindən, eləcə də, Cəbrayıl və Şuşa rayonlarından bəzi ailələr də köçmüşlər. Çələbiyanlı elinə ətrafda yaşayan əhali adətən **kürd** dedikləri üçün yaşayış məntəqəsinin də adı **Kürdlər** kimi "tarixiləşmişdir"...

Qədim fars dilində **kürd (kərd)** sözü "mərd", "qoçaq", "bahadır", "pəhləvan" deməkdir. Oykonimi bu sözlə də bağlayanlar var...

Bəzi ehtimallara görə, bü ərazidə də Zəngəzur qəzasındakı şotlanlı kürd tayfasına məxsus qışlaq yeri (Cəbrayıl rayonu, Kürdlər kəndi) olub. Bu ehtimala və XIX əsrin ortalarında **panavand** tayfasının kürdlər tirəsinin oturaqlaşması (Cəlilabad rayonu) gümanına baxmayaraq, Füzuli rayonundakı **Kürdlər** kənd sakinlərinin kürdlərlə heç bir etnik əlaqəsi yoxdur. Yeri gəlmişkən, qonşu rayon kürdləri özlərini 1589-cu ildə İbrahim adlı bir nəfərin başçılığı altında türk sultanının əmri ilə Romadan gəlmə hesab edirlər...

*Kürdlər* irandilli tayfalardandır. Onların müəyyən zaman kəsiyində Azərbaycanın bir sıra zonalarına miqrasiyaları nəticəsində yaranan və etnik adlarını daşıyan etnotoponimlərə respublikamız ərazisində Qəbələ, Göyçay rayonlarında **Kürd kəndi,** Ağdam, Ağcabədi, Füzuli, Cəbrayıl, Cəlilabad rayonlarındakı **Kürdlər kəndi** adlanan yaşayış məntəqələrini nümunə göstərmək olar.

Vaxtilə Gəncə quberniyasının Zəngəzur qəzasında (indi Gorus rayonu) da **Kürdlər kəndi** mövcud idi. 1918-ci ildə əhalisi oradan qovulmuşdur...

## KÜRDMAHMUDLU KƏNDİ

**Kürdmahmudlu kəndi** Füzuli rayonunda, rayon mərkəzindən 27 kilometr şərqdə, Kürdmahmudlu inzibati ərazi vahidində, düzənlik ərazidə yerləşir. Əhalisi əsasən üzümçülük, heyvandarlıq, taxılçılıq, bağçılıqla məşğul olur. Kənddə orta məktəb, kitabxana, klub, feldşer-mama məntəqəsi, rabitə şöbəsi və s. var. Bu kənddən çoxlu tanınmış ziyalı şəxsiyyətlər çıxmışdır.

**Kürdmahmudlu** toponimi ilə bağlı indiyədək müxtəlif fikir və mülahizələr mövcuddur. Kürdmahmudluları **kəngərlilərlə** də bağlayanlar var. Kürdmahmudluların əcdadları XVI əsrdə Türkiyə ərazisində yaşamış, sonralar onların bir hissəsi Cənubi Qafqaza gəlmişlər. Muğan düzü istiqamətinə köç edən Kürdmahmudluların **ortaqışlaq, kürdlər** və **heydərlilər** adlı 3 böyük qolu olub.

**Kürdmahmudlu** toponimi patronimik toponimdir. **Mahmud** sözünün ərəbcə "tərifli", "təriflənmiş" mənaları məlumdur. Əskidən olduğu kimi türklərdə və azərilərdə indi də oğlanlarda **Mahmud** adı qoyulur...

Ünlü türkçülərdən olan F.Sümər oğuz boylarının adını yazarkən bu boyların sırasında **kürdmahmudlu** adını da çəkmişdir. **Kürdmahmudlu** yaşayış məntəqəsinin adı **kəngərli** bağlılığı olan **kürdmahmudlu** tayfası və onların tirələrinin burada məskunlaşması ilə əlaqədardır (Bax: **Yuxarı Kürdmahmudlu**, **Aşağı Kürdmahmudlu kəndi**).

İmişli rayonunda da **Kürdmahmudlu kəndi** vardır. Hazırda Azərbaycanda (İran) və Türkiyədə **kürdmahmudlu** tirələrinin yaşadığı çoxlu sayda məntəqələr var...

## KÜRDMAHMUDLU TÜRBƏSİ

Bu maraqlı abidə **Yuxarı Kürdmahmudlu kəndi** ərazisindədir. Türbənin yalnız yararlı sərdabəsi salamat qalıb. Türbənin planı kvadrat (4,4m x 4,4m) formadadır: yer üstü hissəsi düz olsa da,





*Kürdmahmudlu türbəsinin yerüstü görünüşü*

daxildən damı tağ-tavan şəklindədir. Tavanda 4 istiqamətli bir daş ulduz var. Sərdabəyə yeganə giriş şimaldadır. Qalan üç tərəfdəki divarlarda 1 m dərinliyində nişalar var. Nişaların yan divarları yuxarı qalxdıqca oxvari tağbənd şəklində tamamlanır.

**Kürdmahmudlu türbəsinin** nə vaxt tikildiyi dəqiq bilinmir. Onu Qarğabazar kəndi qəbiristanlığındakı Cəlil türbəsi (XIX əsr) ilə də eyniləşdirənlər var. Güman etmək olar ki, burada da çox nüfuzlu bir şəxs dəfn olunmuşdur. Şərti olaraq **Kürdmahmudlu türbəsi** XVIII-XIX əsr abidəsi hesab olunur...

## QACAR KƏNDİ

Rayon mərkəzindən 12 km şimal-qərbdə, Qarabağ silsiləsinin ətəyində, Köndələnçayın sol sahilində yerləşir. Kəndin ərazisi 640 kv. km-dən çox idi. Əkin sahəsi 1000 hektar təşkil edirdi. Kənddə 700 ev vardı. Əhalisi 3500 nəfərdən çoxdur. Əhali əsasən, üzümçülük, baramaçılıq, heyvandarlıq və əkinçiliklə məşğul olur. Kənddə orta məktəb, xəstəxana, rabitə şöbəsi, mədəniyyət evi, klub, kitabxana, körpü, məscid (XIX əsr), pir (Qayıb ocağı), dəyirman, stadion, müxtəlif ticarət, iaşə müəssisələri, Osmanlı qəbiristanlığı və s. vardır. Kənd hazırda işğal altındadır.

Kəndin adı Azərbaycanın ağqoyunlu **qacar** tayfasının adı ilə bağlıdır. XIII-XIV əsrlərdə Ön Asiyada sulduz, cəlair və tangıt tayfaları əsasında yaranmış qacarların bir qismi əvvəlcə Suriyada

yaşamışlar. Sonralar Əmir Teymur (1370-1405) və oğlu Miranşah qacarları İrana köçürmüşdür.

Bir sıra tədqiqatçıların fikrincə, **Qacar** etnonimi qədim türk xalqlarının dillərində **"adam, ər, kişi"** anlamında işlədilən **ar** sözünün yardımı, iştirakı ilə yaranmışdır.

**Qaçar** (İran mənbələrində **Qacar** kimi yazılır) xanədanı uzun müddət İranda siyasi birliyə də nail oldu. 1925-ci ilə qədər davam edən **Qacar xanədanı** İrandakı son türk sülaləsidir. **Qacarlar** həmişə özlərini türk hesab etmiş, türkcə danışmış və öz əcdadlarının İrana Hülakü xanla birlikdə gəldiklərinə inanmışlar.

Bəzi tarixi qaynaqların verdikləri məlumatlara görə, Qacarlar XV əsrin axırlarına doğru Ağqoyunlular dövründə Anadoludan İrana gəlmiş və Azərbaycanda yurd salmışdılar. Qacarların Anadoludakı yurdları olan **Boz-ox (Yozqat)** bölgəsi üç əsas oymaqdan **(Şam Bayatı, Yıva, Ağcaqoyunlu)** ibarət idi. Belə olan təqdirdə xanədan bu 3 oymaqdan birinə (çox güman ki, **Yıva**) mənsub olmuşdur. **Qacar** sözü öz adını bu 3 oymağın başçısı olan bir bəyin adından almışdır. Çox ehtimal ki, **qacarları** da Anadoludan İrana gətirən elə bu bəy olmuşdur. İrandakı **qacarlar** sülaləsi də *qacarlar* tayfasından idi.

Qacarların bir hissəsi XVII əsrdə Qarabağa və Gəncəyə gələrək həmin ərazilərdə məskunlaşmışlar. XV əsrdə qızılbaşların tərkibinə daxil olan **qacarlar** Səfəvilərin hakimiyyətə keçmələrinə yaxından köməklik etmişlər.

XVI əsrdə və bu vaxta qədər **qacarlar** əsasən Azərbaycanın Bərdə və Gəncə bölgələrində yaşamışlar. Bu tayfanın bir qismi **Şamdan** gəlmişdr. "Gəncə Təhrir dəftəri"ndə XVIII əsrin birinci yarısında Gəncəyə bağlı kəndlərdən birinin adı **Şambayatı** kimi göstərilmişdir. Əbülhəsən Məhəmməd Gülüstani qeyd edir ki, Nadirin ölümündən sonra onun yerinə keçən Adil şahın böyük əmirlərindən biri olan Məhəmməd Əli xan əslən Şam Bayatından (**Qacar** boyu bayatı) olmuşdur.

XIX əsrin sonu və XX əsrin əvvəllərində Qafqazda 10-dan çox **Qacar** adlı kənd olub. **Qacarlar** Qarabağın köklü əhalilərindən biridir.



**Qacar** sözü türk ulusunun adı ilə bağlıdır. A.Bakıxanova görə **qacarlar** İran və Azərbaycanda orta əsrlərdə ağalıq edən cəlairlərin bir qoludur.

**Qacarın** şəxs adı kimi işlədildiyi məlum olan **Qaracarın** qısaldılmış şəkli olması da ehtimal olunur...

Hülakü sülaləsinə mənsub olan Arqun xanın müəllimi Xorasan və Astrabad hakimi Sırtaq Noyan xanın oğlunun adı **Qacar** imiş. Onun adı ilə öz qəbiləsi **qacar** adlandırılmışdır. Qacar türklərinin Şirvana, Qarabağa, İrəvana, Gəncəyə Əmir Teymur tərəfindən köçürülməsi artıq elmi dəlillərlə sübut olunmuşdur. Sonralar **qacarlar** Azərbaycanın müxtəlif yerlərinə yayılmışlar. Gəncə xanı **Cavad xan qacar** nəslindən idi.

İ.Petruşevskiyə görə, **qacarlar** monqolların yürüşləri zamanı Orta Asiyadan gəlmiş, bir müddət İranda, sonralar isə Azərbaycanda yaşamışlar.

Hazırda Quba rayonunda *Qacar Zeyid kəndi*, Qəbələ rayonunda *Qacar meşəsi* və s. vardır. Xızı rayonunda *«Qacar meşəsi»* *"Qacar dərəsi"* mikrotoponimləri də **Qacar** etnonimləri ilə bağlıdır.

Tarixi sənədlərə görə, İran şahı Ağa Məhəmməd şah Qacar XVIII əsrin 90-cı illərində Qarabağa, Şuşaya (Pənahabada) hücum edən ərəfədə onun atları **Qacar kəndi** ərazisində saxlanılırdı...

Kəndin **nağlar** (yerli məlumata görə, bu tayfa Bayandırlar nəslindəndir) **abdal, məmmədlilər, həsənalılar, muradlılar, talışlılar, qaraçılar, quşdudərəlilər, abbaslılar, divanalılar** və s. tayfaları var.

Səfəvilərin hakimiyyəti zamanı hərbi işlər əsasən Qacarlara həvalə edilərdi. 1926-cı ilə qədər **qacarlar** İranda hakimiyyətdə olublar.

XVI əsrin sonlarına aid olan bir mənbədə kəndin adı **Şıxqayıb** kimi göstərilmişdir. Tarixi qaynaqlarda indiki Aşağı Əbdürrəhmanlı kəndi yaxınlığında **İva Qacar** yaşayış məntəqəsi yeri də göstərilir...

Əsas **kai** tayfaları **qacarlar**, əfşarlar, zülqədərlər, çobanlar, padarlar, baharlılar, işamlılar, ustacılar (ustacallılar), ləaklar, xəlillilər,

sorsorlar, şaqaqlar, ossalular, zəngənələr, armalular və s. hesab olurdu. Onlardan Azərbaycanın dövlətçilik tarixində bayatlarla birlikdə İranda bəzi siyasi çevrilişlərdə iştirak edən **qacarlar,** əfşarlar, baharlılar, işamlılar, ustaclılar, padarlar, çobanlar daha çox və mühüm rol oynamışlar. Səfəvi sülaləsi İran taxtında yalnız onların razılığı ilə bərqərar olardı. İranda **qacarlar,** əfşarlar sülalələri onların arasından çıxıblar və həm çobanların, həm də cəlairlərin hülakülərlə olduğu kimi, birini devirə, başqasını bərpa edə biliblər.

Bu tayfaların müxtəlif yerlərdə sakin olması vaxtı cəlair türklərindən törəyən **qacarlar** əvvəlcə Kiçik Asiyada və Suriyada məskunlaşmışdılar. Sonralar Topal Teymur onları Mərv və Mazandarana (İran), Qarabağ, Gəncə, İrəvan ərazilərinə köçürmüşdür. Burada - Azərbaycanda onlar yavaş-yavaş artmış və bütün ölkədə məskən salmışdılar. Amma bəzi qacarları, xüsusi ilə də Gəncə qacarlarının böyük hissəsini Nadir şah sonralar Xorasana köçürmüşdür (məlumdur ki, onlar Nadir şahın taxta çıxması arzusuna qarşı çıxmışdılar).

Qacar tayfasının böyük əmirlərindən biri ***Tozqoparan*** ləqəbli Piri bəy Qacar I Şah İsmayılın yaxın silahdaşlarından olub. O, 1501-ci ildə Əlvənd Ağalı oğlunun əmiri Osman bəy Mosullunu, 1503-cü ildə isə Sultan Murad Ağqoyunlu ilə döyüşdə onun tərəfində vuruşan qum hakimi Əsilməz bəy Türkmanı məğlub etmişdi; 1513-cü ildə Nəcmi Sani ilə birlikdə Qicduvanda öldürülüb. Tayfanın başqa bir əmiri **Qudurmuş xan** adı ilə məşhur olan ***Dəracə Sultandır*** ki, o da Urfada Sultan Murad ibn Yaqubu məğlub edib, onu qətlə yetirib; Mardin yaxınlığındakı Qoruqtəpədə Qara xan Ustaclı ilə birlikdə Mustafa paşa "Bığlı Çavuş"la döyüşdə həlak olub...

Tayfanın əmirlərindən biri **Şahverdi Sultan Ziyadoğludur** ki, o da Qarabağ bəylərbəyi idi. O, çoxlu şanlı-şərəfli döyüş yolları keçmişdi. Şah Təhmasib ona **"Müsahib"** deyirdi. Şahverdi Sultan Ziyadoğlu Gürcüstan padşahı Ləvasanı (Kartli hakimi Luarsab (1534-1558)) öldürmüş, Tiflis hakimi Georgi (Qorgin) Dadianini (1548-1582) və Ləvasanın oğlu Simaonu (Simon 1558-1560))



məğlub etmişdi. O, Türkiyənin şərqində, Vandan 77 kilometr məsafədə yerləşən **Bargiri** şəhərində Süleyman bəy kürdü ilə döyüşdə öldürülmüşdü...

Bu tayfanın böyük əmirlərindən biri **Budağ** xan idi. O, şah Təhmasibin təvaçisi olub. Təhmasib Budağı Qəndahara hakim təyin etmişdi. Amma az sonra Baburun oğlu Kamran Mirzə Qəndaharı tutmuşdu. Bundan sonra Qəndahar əldən-ələ keçmişdi. İgid əmir olan Budağ Nişapurda özbək Saru Quzğanla döyüş zamanı həlak olmuşdur. Van qalasının hakimi **Gökcə Sultan** da **qacar** tayfasının sayılıb-seçilən əmirlərindən olmuşdur. İsmayıl Mirzənin lələsi və Nişapur valisi olan Gökcə Sultan Astrabadda vəfat etmişdir.

**Şahverdi** Sultan Ziyadoğlunun oğlu **Xəlil Sultan** da **qacar** tayfasının hörmətli əmirlərindən olmuşdur. Pəhləvan Xəlil Sultan bir neçə il Astrabadın hakimi olub və dəfələrlə Yaxa-Türkman tayfasını məğlub edib, deyilənlərə görə, o, vəzifədən çıxarılaraq öldürülüb. Onun qardaşı İbrahim bəy Arran əmir əl ümərası idi və həyata Gəncədə əlvida dedi.

Şah Təhmasibin zamanında Gəncə hakimi **Yusif Xəlifə,** Xorasan hakimi **Qubad bəy,** Şirvan hakimi **Hüseyn bəy,** paytaxt Qəzvinin hakimi **Süleyman bəy,** ordu sərkərdəsi Mirzə Əli Sultan da qacar tayfasına mənsub olan adlı-sanlı əmirlər olmuşlar...

XIX əsrdə Göyçay, Quba, Şuşa qəzalarında **Qacar kəndi** mövcud idi. Otuziki (Cavad qəzası), **Ziyadlı** (Gəncə qəzası), **Cəlairli** (Lənkəran qəzası) kəndlərinin əhalisi nəsil etibarı ilə **qacar tayfası** tirələrinə məxsusdurlar. **Qacarlar** öz adlarını Arqun xan Hülakünün müəllimi, Sirtak Noyan xanın oğlu **Qacarın** adından (Xorasan və Astrabad hakimi) götürmüşlər.

**Qacar kəndi** Vərəndə mahalına bağlı olub. 1727-ci ilə aid olan "Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri"ndə Qacar kəndinin adı nədənsə **Əszor** formasında qeyd olunmuşdur. 1823-cü ildə kəndin vergi ödəyicilərinin sayı 38 tüstü təşkil edirdisə, 1842-ci il siyahıyaalınmasında bu rəqəm 54 tüstüdən ibarət olmuşdur.

**Qacar** elinin **Ağcalı, Ağcaqoyunlu, Qovanlı, Qoyunlu, Qolsuzlu, Dəvəli, Ziyadlı** (Ziyadoğlu), **Yıvalı (Yıva** 24 oğuz

boyundan, üç oxlara daxil olan Dəniz xan oğullarından biridir), **Şambayatı** (Qulu xan), **İzzəddinli** adlı oymaqları olmuşdur...

## QACAR MEŞƏSİ

**Qacar** kəndi ərazisində, kənddən 1 kilometr aralıda qeydə alınan coğrafi adlardan biri **Qacar meşəsi** adlanır. **Meşə** kəndin yaxınlığında yerləşdiyi üçün belə ad alıb. Bu füsunkar cənnətməkan diyarın əsrarəngiz gözəllikləri vardır. Sanki Tanrının əli ilə yaratdığı bu meşədə bütün ağaclar - fıstıq, palıd, qoz, alma, armud, alça, gavalı, şaftalı, nar, ərik və s. var. Yaz və yay aylarında başdan-başa yaşıllığa bürünən **Qacar meşəsi** uzun illər (işğala qədər) sakinlərin, qonaqların, turistlərin istirahət yeri olmuşdur...

## QARA HÜSEYN DƏRƏSİ

Yağlıvənd kəndi ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri **Qara Hüseyn dərəsi** adlanır. **Dərə** mənfi relyef forması bildirən coğrafi termindir. Çöl materialları içərisində **dərə** termini ilə bağlı 30 min oronim qeydə alınmışdır. Oronimin adının tərkibindəki **-si** komponenti mənsubluq ifadə edən şəkilçidir. **Qara Hüseyn** şəxs adıdır. Toponim *"Qara Hüseynə məxsus dərə"* anlamındadır. **Qara Hüseyn dərəsi** toponimi antroponimik oronimdir...

## QARAARXAC DƏRƏSİ

**Qaraarxac dərəsi** rayon mərkəzindən 9 km şərqdə, Qorqan kəndinin ərazisində, Qaraağac adlı dağın ətəyindəki dərənin adıdır. Bu oronimdəki **"qara"** sözü Qaradağ adından "dağ" komponentinin düşməsinin nəticəsidir. **Arxac** sözü "qoyun", "mal-qara



yatağı" mənasındadır. **Qaraarxac** oronimi əslində "Qaradağdakı arxac" mənasındadır.

**Arxac** - *"otlaq şəraitində qoyunların və qaramalın dincəlməsi üçün"* yer mənasındadır. Qarabağın köçmə maldarları qoyunları ilin 8 ayını təsərrüfat binasından istifadə etmədən arxacda saxlayırdılar. **Arxac** elə yerdə salınırdı ki, topoqrafik vəziyyəti qoyunların binaya olan tələbatını ödəsin.

**Arxac** komponenti ilə bağlı bir çox oronimlər mövcuddur: **Arxaclar düzü** (Qax rayonu, Almalı kəndi), **Qaraarxac zirvəsi** (Gədəbəydə, Şahdağın zirvəsi, 3062 m), **Qaynararxac** (Oğuz rayonu) və s.

İrəvan quberniyasının Novobayazid qəzasının ərazisində də **Qaraarxac** adlı dağ var...

## QARABAĞ ATLARI

Azərbaycanın ən qədim dağ minik cinslərindən olan **Qarabağ atlarının** şöhrəti bütün dünyaya yayılmışdır. Qarabağda yetişdirilən bu atların süysüyünün hündürlüyü 148,5 sm, döş qucumu 165,8 sm, əldarağının çevrəsi 18, 3 sm-dir. *Qarabağ atları* əsasən, qızılı-kürən və kəhər atlardır. Onlar ortaboylu, mütənasib bədən quruluşlu, ilxı şəraitinə davamlı və ümumiyyətlə, çox dözümlü olurlar.



**Qarabağ atları** vaxtilə baxış (yarış) üçün Rusiyaya, Polşaya, İngiltərəyə, Almaniyaya və s. ölkələrə aparılmış və hamını heyran etmişdir. Zaqafqaziyada və Şimali Qafqazda müxtəlif at cinslərinin, o cümlədən, Don atının yaxşılaşdırılmasında Qarabağ atlarının böyük təsiri olmuşdur.

1946-cı ildən başlayaraq Azərbaycanın Ağdam Atçılıq zavodunda (Eyvazxanbəyli kəndində) cinslə damazlıq işi aparılır.



XX əsrin Sovet dönəmində Ağdam ərazisində 2 yerdə Qarabağ atları yetişdirilmişdir. Eyvazxa..bəyli kəndi ərazisində yaradılan atçılıq təsərrüfatında Qarabağ atları cinsinin qorunması, yaxşılaşdırılması üçün çox işlər görülmüşdür. Vaxtilə SSRİ rəhbəri N.S.Xruşşov burada bəslənmiş **Zaman** adlı atı 1957-ci ildə İngiltərə kraliçasına bağışlamışdır (həmin at vətən həsrətindən qəribsəyərək vaxtsız dünyasını dəyişmişdir). XX əsrin 70-ci illərindən başlayaraq, İtaliya, Almaniya, Hollandiya, Avstraliya kimi ölkələrə onlarla Qarabağ atı satılıb və zavoda 100 min dollarla xeyir gəlib.

1992-ci ildə zavodda 85 cins at var idi. Ağdam işğal edilındə **Qarabağ atları** da didərgin düşdü. Hazırda bu atlar Bərdə rayonunun Ləmbəran kəndi yaxınlığındakı qışlaqda çöl şəraitində saxlanılır. İndi onlar da vətəndən kənarda köçkün həyatı yaşayır...

Bu atlar Qarabağda bəslənib-yetişdirildiyi üçün onlara **Qarabağ atları** deyilir.

## QARABAĞ DÜZÜ

Ağdam rayonunun da əhatə etdiyi Kür-Araz ovalığının bir hissəsi **Qarabağ düzü** adlanır. Hündürlüyü dağətəyi ərazidə 500 metrdir. Şimal-qərbdən Gəncə-Qazax düzənliyi, qərbdən Kiçik Qafqazın Murovdağ və Qarabağ silsilələri, cənubdan və cənub-şərqdən Mil düzü ilə əhatələnmişdir **Qarabağ düzü** Kür çayı vasitəsilə Şirvan düzündən ayrılır. Cənub-şərq kanalında okean səviyyəsindən aşağıdır.



**Qarabağ düzü**nün səthi zəif dalğavari və terraslıdır. Dağətəyi üzrə relyef hissədə dərə və yarğanlıqdır. Düz faydalı qazıntılarla zəngindir. İqlimi mülayim isti və quru subtropikdir. Orta temperatur yanvarda -1°S, iyulda +28°S-dir. İllik yağıntısı 300 mm-dir. Çayları (İncəçay, Tərtər, Xaçın, Qarqar və s.) Kür hövzəsinə aiddir. Yuxarı Qarabağ kanalı Qarabağ düzündən keçir. Mil-Qarabağ kollektoru Qarabağ düzündən başlanır.

Yarımsəhra, quru-çöl və kolluq-çöl landşaftı **Qarabağ düzü** üçün xarakterikdir. Ərazidə düzən meşələri, Kür çayı sahilində isə seyrək tuqay meşələri, eləcə də, kolluqlar var. Qış otlaqları ilə zəngin olan Qarabağ düzündə heyvandarlıq geniş inkişaf etmişdir. Burada üzüm, pambıq, taxıl, bostan bitkiləri və quru subtropik meyvələr yetişdirilir.

**Qarabağ** Azərbaycanda tarixi ərazinin adıdır. Kiçik Qafqaz dağlarından başlayaraq Kür və Araz çayları arasındakı geniş ərazini əhatə edən **Qarabağ** ən qədim insan məskənlərindəndir. Xocalı-Gədəbəy mədəniyyətinin abidələri də ilk dəfə burada aşkarlanmışdır. Ta qədimlərdən Qafqaz Albaniyasının tərkib hissəsi olan Qarabağda alban, arraz, qoroz, uti, qarqar, peçeneq və başqa tayfalar yaşamışdır. Qarabağ bir neçə tarixi vilayət və əyalətlərə bölünürdü...

IV əsrdə Qarabağda xristianlıq (dünya dinlərindən biri) yayılmağa başladı. V əsrdə hunlar, VII əsrdə isə xəzərlər Qarabağda məskunlaşmışlar. Ərəblər Qarabağı işğal etdikdən sonra - VIII əsrdən başlayaraq burada islam dini geniş yayılmağa başladı, Qarabağın dağlıq ərazisində, xüsusilə, Artsaxda yaşayan əhali tədricən qriqorianlaşdı. Şəhərlərdə yaşayan əhali isə islam dinini qəbul etdi.

IX əsrdə Babək hərəkatı Qarabağı da bürümüşdü. Orta əsrlərdə xəzərlərin kəbər, tərnə, bizal, qaraçur və s. tayfalarının adları ilə bağlı olaraq Qarabağda Kəbirli, Tərnəvüt, Bizallar, Qaraçorlu yaşayış məntəqələri vardı...

X əsrdə ***Qarabağ*** Şəddadilərin, XI əsrdə isə Səlcuqların hakimiyyətinə keçdi, XII əsrin 2-ci yarısından ***Qarabağ*** Eldəgəzlər

dövlətinin mühüm əyalətlərindən biri idi. XIII əsrin 30-cu illərində Qarabağı monqollar işğal etdi. XV əsrdə əvvəl Qaraqoyunlu, sonralar isə Ağqoyunlu dövlətinin tərkibində olan *Qarabağ* 1501-ci ildə Səfəvilər dövlətinin hakimiyyətinə keçdi. Bu dövrdə mərkəzi Gəncə olan Qarabağ bəylərbəyliyini qacar tayfasından olan Ziyadoğulları nəsli idarə edirdi. 1736-cı ildə Ziyadoğulları Nadirin şahlığı əleyhinə çıxdılar. Nadir şah onların iqtisadi və hərbi qüdrətini sarsıtmaq məqsədilə bəzi əyalətləri, eləcə də, Qarabağın Xəmsə məliklərini onlardan alıb öz tabeliyinə keçirdi.

XI əsrin 40-cı illərində Azərbaycanda yaranan ən güclü feodal dövlətlərdən biri ***Qarabağ xanlığı*** idi. Qarabağ xanlığı Şəki, Gəncə, İrəvan, Naxçıvan, Qaradağ, Cavad və Şamaxı xanlıqları ilə həmsərhəd idi. Mərkəzi Şuşa şəhəri olan ***Qarabağ xanlığı*** Pənahəli xanın və onun oğlu İbrahimxəlil xanın (1759-1806) dövründə xeyli möhkəmləndi. Şəki xanı Hacı Çələbi ilk dəfə Qarabağ xanlığına hücum etsə də, qələbə çala bilməmişdi. 1795-ci ilin yayında Ağa Məhəmməd şah Qacar Qarabağ xanlığına hücum etdi. 33 gün Şuşanı mühasirədə saxlasa da, şəhəri ala bilməyib Gürcüstana hücum etdi. 1797-ci ildə Ağa Məhəmməd şah yenidən Qarabağ xanlığına hücum edib Şuşanı tutdu. Amma tezliklə sui-qəsd nəticəsində orada öldürüldü, İran qoşunları Qarabağdan çəkildi.

1805-ci ilin 14 mayında (**Kürəkçay** müqaviləsi) İbrahimxəlil xan mövcud şəraitlə əlaqədar olaraq Rusiyanın hakimiyyətini qəbul etdi. 1813-cü ildə bağlanmış "Gülüstan" sülh müqaviləsinə əsasən **Qarabağ** Rusiyaya birləşdirildi. 1822-ci ildə çar fərmanı ilə **Qarabağ xanlığı** ləğv olundu. 1828-ci ildə "Türkmənçay" müqaviləsi imzalandı. Bu illərdən etibarən Qarabağ əhalisinin etnik tərkibi ermənilərin xeyrinə kəskin dəyişməyə başladı. İran və Türkiyədən on minlərlə erməni ailəsi bu ərazilərdə məskunlaşdırıldı...

XIX əsrin əvvəllərinə aid olan bir mənbədə Qarabağda Dilağarda, İmirli, Kəbirli, Kolanı, Gəgili, Kəngərli, Muğanlı, Sarcalı, Sofulu, Təklə, Xocamusaqlı, Cəbrayıllı, Cinli, Qaradolaq, Otuzikilər və başqa ellərin yaşadığı göstərilir...



Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra Azərbaycan MİK-nin 7 iyul 1923-cü il tarixli dekreti ilə Qarabağın dağlıq hissəsində DQMV yaradıldı. Qarabağın digər əraziləri 1930-cu ildə ayrı-ayrı inzibati rayonlara bölündü...

**Qarabağ** adı VII əsrdən, bir əyalət kimi isə mənbələrdə XII-XVII əsrlərdən başlayaraq çəkilir (Anili Samuel: "Sev ayqi", Tovma Ardsruni **Qarabağ**, İbn əl-Əsir ***"Qarabağ"***). 1284-cü il mənbəsində də ***Qarabağ*** adı çəkilir.

Erkən orta əsrlərdə **Qarabağ düzü** alban tayfalarından olan qarqarların adı ilə **Qarqar düzü** adlanmışdır. Adından da göründüyü kimi, **Qarabağ** toponimi türk mənşəlidir. Bu toponim haqqında müxtəlif mülahizələr mövcuddur. Əcəmlər lap qədimdən Qarabağa **Sisaqan** deyərdilər. Sonralar səlcuqlar ona **Qarabağ** adı verdi.

**Qara** sözünün toponimiyada 20-dən çox anlamı var (*"böyük", "geniş", "uca", "ağır", "qalın", "qərb", "qoçaq", "əzəmətli", "qüdrətli", "hündür", "pis", "nəhəng", "qaranlıq", "qəm", "xalq", "yaraşıq", "sevinc", "sıxlıq", "keyfiyyətsiz", "şimal", "çox", "rəng"* və s.). **Qarabağ** toponimini bir qrup araşdırıcılar *"böyük, bağlı-bağatlı yer"* kimi mənalandırır.

X əsr müəllifi Konstantin Baqryanarodnı **Qarabağ** terminini peçeneq tayfalarından biri kimi səciyyələndirir. Azərbaycan alimi Qiyasəddin Qeybullayev də bu fikrə tərəfdar çıxır.

İ.Şopen Qarabağ terminini **Xaraba** sözü ilə əlaqələndirir. Bu sözü **xaraba** sözü kimi yozanlar da var. S.Aşurbəyli **Qarabağ** toponiminin **baq** komponentini **baq *(bak, bağı)*** qəbiləsinin adı ilə bağlayır. Ş.Sədiyev **Qarabağ** sözünü **qara** *(rəng)* və **bağ** *(bağça, bağat)* hissələrinə ayırır. Ə.Fərzəli **qara** sözünü *"böyük, sevinc, xalq, qəhrəman"*, **bağ** sözünü isə *"tanrı"* kimi mənalandırır. M.Seyidov **qara** sözünü *"rəng, pis, bədbəxt, güclü, başçı"*, **bağ** komponentini isə *"düyün, ip, meyvə ağacı, əkilmiş sahə"* anlamı ilə səciyyələndirir...

Bəzi tədqiqatçılar **Qarabağ düzü**nün adını vaxtilə mövcud olmuş **Qarabağ şəhəri**nin adı ilə əlaqələndirir. Onlar bu fikirdə Həmdullah Qəzviniyə (XIV əsr) və A.Olearinin "İran səltənəti"

xəritəsinə əsaslanırlar. Tarixdən məlumdur ki, A.Olearinin (XVII əsr) xəritəsində 39° şimal en dairəsi, 82° 21' şərq uzunluq dairəsinin kəsişdiyi nöqtədə ***Qarabağ şəhəri*** (Füzuli rayonunun Horadiz dəmir yol stansiyasından azacıq aralıda - Molla-məhərrəmli, Babı, Arayatlı kəndləri yaxın-lığında) göstərilir. İran Azərbaycanında Kiçik Qafqaza gedən Böyük ticarət yolu da Qarabağ şəhərindən keçirmiş. Böyük bir mahalın bu şəhərin adı ilə adlanması **Qarabağ** şəhərinin böyük bir şəhər olduğundan xəbər verir...

Əksər araşdırıcılar toponimin **qara** *("böyük")* və **bağ** (qədim türk dillərində *"soy"*, *"tayfa"*, *"el"*) sözlərindən ibarət olduğunu ehtimal edirlər. Məlum olduğu kimi, qədim gəngər-peçeneqlərin tərkibində **Qarabağ** adlı tayfa da olmuşdur...

Ərəb salnaməçisi İbn əl-Əsir (XII əsr) 1064-cü ildə oğuzların Ruma hərbi səfəri ilə əlaqədar olaraq Şərqi Anadoluda **Qarabağ** toponiminin də adını qeyd etmişdir. Bir çox mənbələrdə Qars əyalətinin Ərdahan nahiyəsində **Qarabağ şəhər xarabalığı** adı da çəkilmişdir. Vaxtilə Qərbi Azərbaycanın Eçmiadzin, Ağcaqala, Maku, Dərəkənd - Parçenis, Vedi, Sürməli, Kərai ərazilərində də ***Qarabağ, Qarabağlar, Qarabağlı, Qarabağlı Kəbir, Qarabağlı Sıqır*** və s. yaşayış məntəqələri mövcud olmuşdur...

***Qarabağ*** toponiminin yayılma arealı, göründüyü kimi, çox genişdir. Əfqanıstan, Özbəkistan, Türkmənistan, İran, Şimali Qafqaz və digər ərazilərdə də ***Qarabağ*** toponimləri qeydə alınmışdır. Elə bütün bunlar da **Qarabağ** toponimini etnonimlə əlaqələndirməyə bizə haqq qazandırır. XIX əsrdə Qafqazda noqaylarda, Moldovada qaqauzlarda **qarabağ** adlı tayfa olmuşdur. Həmin zamanlarda Qazax mahalında yaşayan ***qarabağlı*** adlanan bir el də vardı...



## QARABAĞ XALÇASI



Azərbaycan xalçaçılıq məktəblərindən biri də **Qarabağ xalçaçılıq məktəbi** hesab olunur.

Şuşa, Bərdə, Ağcabədi, Cəbrayıl, Füzuli və s. xalça məntəqələrində xovlu və xovsuz xalçalar, eləcə də, xurcun, məfrəş, heybə, çuval, çul və s. toxunmuşdur. Bu xalçalarda rəmzi xarakterli rəsmlər, həndəsiləşdirilmiş nəbati naxışlar dekorativ və təsviri sənətin müxtəlif sahələrini əhatə edən kompozisiyalar və s. öz







əksini tapmışdır. *"Açma-yumma"*, *"Aran"*, *"Bağçada güllər"*, *" Balıq"*, *"Bərdə"*, *"Bəhmənli"*, *"Buynuz"*, *"Qarabağ"*, *"Qasımuşağı"*, *"Qoca"*, *"Ləmbərani"*, *"Ləmpə"*, *"Malıbəyli"*, *"Muğan"*, *"Xanqərvənd"*, *"Xanlıq"*, *"Xantirmə"*, *"Çələbi"*, *"Şabalıd-buta"* və s. çeşnili xalça kompozisiyaları **Qarabağ xalçaçılıq məktəbi**nin klassik nümunələrindəndir.

Hələ XVI-XVII əsrlərdə Bərdə xalçaçılarının ipək zilləri (Berlin İncəsənət Muzeyi) və XVIII əsrdə Ləmbəran kəndində toxunan xovsuz vərni (Nyu-York, Metropoliten-muzey) dünya şöhrəti qazanmışdır. XIX əsrdə, Ağdamda, Füzulidə, Şuşada yaradılmış həndəsi ornamentli cecimlər, şəddələr xovsuz xalçaların gözəl nümunələri hesab olunur.

Qarabağ xalçalarının forması uzunsov, rəngləri isə şux və əlvandır. Bu rənglər içərisində al-qırmızı, dəli-qırmızı, qızılı, çəhrayı, palıdı və sarı rənglər üstünlük təşkil edir. Qarabağ evlərinin interyerlərinə uyğunlaşdırılmış 4 xalçadan ibarət məşhur dəst xalı-gəbə də geniş yayılmışdır. Qarabağ xalçalarında təbiət mənzərələri, ov səhnələri, insan və heyvan təsvirləri, müxtəlif tarixi qəhrəmanların obrazları məharətlə əks olunmuşdur.

XVIII əsrdə Şuşada klassik çeşnili xalçalarla yanaşı, Təbriz xalçaçılıq məktəbinin təsiri ilə "Ləçəklürünc"çeşnili xalçalar və eləcə də, "Bulud", "Bağçadagüllər", "Saxsıdagüllər" xalçaları və s. süjetli xalçalar toxunurdu. Berlin, Vyana, Moskva, Paris və Peterburqda açılmış incəsənət sərgilərində Qarabağ xalçaları dəfələrlə qızıl, gümüş və bürünc medallara layiq görülmüşdür...

## QARABAĞ XANLIĞI

XVIII əsrin 40-cı illərində Azərbaycanda yaranan ən güclü feodal dövlətlərdən biri ***Qarabağ xanlığı*** idi. ***Qarabağ xanlığı*** Şəki, Gəncə, İrəvan, Naxçıvan, Qaradağ, Cavad və Şamaxı xanlıqları ilə həmsərhəd idi. Mərkəzi Şuşa şəhəri olan ***Qarabağ xanlığı*** Pənahəli xanın və onun oğlu İbrahimxəlil xanın (1759-1806) dövründə xeyli möhkəmləndi. Şəki xanı Hacı Çələbi ilk dəfə Qarabağ xanlığına hücum etsə də, qələbə çala bilməmişdi...

1795-ci ilin yayında Ağa Məhəmməd şah Qacar Qarabağ xanlığına hücum etdi. O, 33 gün Şuşanı mühasirədə saxlasa da, şəhəri ala bilməyib Gürcüstana hücum etdi. 1797-ci ildə Ağa Məhəmməd şah yenidən Qarabağ xanlığına hücum edib Şuşanı tutdu. Amma tezliklə sui-qəsd nəticəsində orada öldürüldü. Başsız qalan İran qoşunları Qarabağdan çəkildi...

1805-ci ilin 14 mayında ("Kürəkçay" müqaviləsi) İbrahimxəlil xan mövcud şəraitlə əlaqədar olaraq Rusiyanın hakimiyyətini qəbul etdi. 1813-cü ildə bağlanmış "Gülüstan" sülh müqaviləsinə






əsasən **Qarabağ** Rusiyaya birləşdirildi. 1822-ci ildə çar fərmanı ilə **Qarabağ xanlığı** ləğv olundu...

XIX əsrin əvvəllərinə aid olan bir mənbədə Qarabağda Dilağarda, İmirli, Kəbirli, Kolanı, Gəgili, Kəngərli, Muğanlı, Sarcalı, Sofulu, Təklə, Xocamusaqlı, Cəbrayıllı, Cinli, Qaradolaq, Otuzikilər və başqa ellərin yaşadığı göstərilir...

## QARABAĞ ŞİKƏSTƏSİ

Azərbaycan zərbi muğamlarından biri; ağır tempdə oxunan **Qarabağ şikəstəsi** muğamının ölçüsü 2/4, məqam əsası isə segahdır. Xanəndə və müğənnilər tərəfindən oxunan hər bənddən sonra müxtəlif melodiyalı araçalğı (instrumental epizod) ifa olunur. Ü.Hacıbəyov "Əsli və Kərəm ", M.Maqomayev "Şah İsmayıl", Z.Hacıbəyov "Aşıq Qərib", R.Qlier "Şahsənəm" operalarında Qarabağ şikəstəsindən istifadə etmişlər. Xalqımız tərəfindən çox sevilən şikəstələr - vokal-instrumental zərbi muğam deməkdir. Şikəstələrin **"Qarabağ şikəstəsi"** ilə yanaşı, *"Kəsmə şikəstə"*, *"Şirvan şikəstəsi"* və başqa növləri də var.

## QARABULAQ

Füzuli rayon mərkəzindən 13 kilometr şimal-qərbdə, Qacar kəndi yaxınlığında qeydə alınan coğrafi adlardan biri də **Qarabulaq** adlanır. **Qarabulaq** buradakı yerin və bulağın adıdır. ***Qarabulaq*** oroqrafik obyekti **qara** və **bulaq** sözlərindən ibarətdir. **Bulaq** - hidronimik apelyativdir. **Qara** sözü isə burada *"rəng"* və *"böyüklük"* anlamı ifadə edir.

Bu tipli coğrafi adlara Azərbaycanın çox ərazilərində rast gəlirik. Onlara nümunə olaraq, Gədəbəy, Oğuz, Xanlar, Xocalı rayonlarındakı **Qarabulaq kəndi,** İsmayıllı rayonu ərazisindəki **Qarabulaq dağı,** Qazax rayonu ilə Gürcüstan sərhəddində yerləşən **Qarabulaqbaşı dağı,** Kəlbəcər rayonunun ərazisindəki **Qarabulaq yeri** və başqa coğrafi adları göstərmək olar. Füzuli şəhərinin əvvəlki adı da yaxınlığındakı soyuq və təmiz sulu bulağın adı ilə əlaqədar olaraq **Qarabulaq** olmuşdur...



## QARABULAQ KURQANLARI

**Qarabulaq kurqanları** dedikdə rayon mərkəzindən 2 km şimal-şərqdə, Köndələnçayın sağ sahilində, orta və Son Tunc dövrünə və Dəmir dövrünün əvvəlinə aid olan qəbir abidələri nəzərdə tutulur. İndi həmin ərazidə 20-yə qədər **kurqan** qalmışdır. Rus arxeoloq alimi A.A.İvanovski 1896-cı ildə həmin kurqanlardan beşini tədqiq etmişdir. Kurqanların ikisində ölüyandırma mərasiminin izlərinə təsadüf edilmişdir. Qəbir yerlərindən tunc bəzək əşyaları, bir çox silah nümunələri və gil qablar tapılmışdır.

Beşinci kurqanda - qəbilə başçısına aid edilən bu zəngin kurqanda daha çox əşyalar tapılmışdır. Uzunluğu 10 metr, eni və dərinliyi 2 metr olan bu kurqanda qəbilə başçısının skeletindən əlavə 2 skelet, tunc, qızıl və sümükdən hazırlanmış bəzək şeyləri, daş və tunc silahlar, gil qablar və 2 dəvə skeleti aşkar edilmişdir.

1965-ci ildə **Qarabağ** kurqanının yerləşdiyi ərazidə e.ə. II minilliyin ortalarına (Orta Tunc dövrünə) aid qəbirlər aşkar edilmişdir. 1972-ci ildə Qarabulaq nekropolunda Son Tunc və İlk Dəmir dövrünə aid qismən dağıdılmış torpaq qəbir də tapıldı. Qəbirdəki skelet dağıdılmış olsa da, buradan müxtəlif muncuqlar, qırıq qab nümunələri aşkarlandı. **Qarabulaq kurqanları Qaraköpəktəpə** qədim yaşayış yerinə aid olmuşdur.

**Kurqan "Qarabulaq"** (*"gur sulu bulaq"* mənasında) adlı yerdə yerləşdiyinə görə belə adlanmışdır.Türk mənşəli **"kurqan"** sözünün mənası *"torpaq, ağac və ya daşdan düzəldilmiş, adətən yarımkürə formalı qədim qəbirüstü abidə"*, *"süni təpə"* deməkdir.

## QARADAĞLI KƏNDİ

**Qaradağlı kəndi** Füzuli rayon mərkəzindən 15 kilometr cənubda, Qarabağ silsiləsinin şərq ətəyində yerləşir. Əhalisi əsasən heyvandarlıq, taxılçılıq, üzümçülüklə məşğul olur. Kənddə məktəb, kitabxana, mədəniyyət evi, XVIII əsrdə tikilmiş məscid və s. var. Hazırda kənd işğal altındadır.

Kəndin əsası Cənubi Azərbaycanın **Qaradağ** mahalından gələnlər tərəfindən qoyulmuşdur. **Qaradağlı** toponimi qızılbaşların **qaradağlı** tayfasının adı ilə əlaqədardır.

**Qaradağlı kəndi** mənşəcə Səfəvilərin hakimiyyət uğrunda mübarizəsində böyük rol oynayan qızılbaşların **qaradağlı** tayfasının burada məskunlaşması nəticəsində yaranmışdır. **Qaradağlı** tayfası öz adını Cənubi Azərbaycanın **Qaradağ** mahalının adından almışdır. Səfəvi hakimiyyəti zamanı **qaradağlılar** müxtəlif ərazilərə, o cümlədən, Füzuli rayonuna gəlmişlər. Azərbaycandakı *Qaradağlı* kəndləri həmin tayfaya məxsus ailələrin etnik adını özündə əks etdirir. Respublikamızın Ağdam, Ağdaş, Balakən, Beyləqan, Bərdə, Goranboy, Xocavənd, Tərtər, Ucar, Xaçmaz, Şəki rayonlarında da **Qaradağlı** adlı kəndlər vardır.

**Qaradağ** sözü **qara** və **dağ** sözlərinin birləşməsindən əmələ gəlib. Bu söz «böyük, uca, dağ», «süxurlarının rəngi qara olan dağ» anlamındadır. **Dağ (tağ)** sözünə VI-VII əsr "Kitabi-Dədə Qorqud" dastanlarında da rast gəlirik...

**Qaradağlılar** türkdilli tayfa birliyi olan oğuzların *kəngərli* tayfasının **qaraxanbəyli** tirəsindəndir. Bəzi tarixi mənbələrin verdiyi məlumata görə, onlar XIII əsrdə Orta Asiyadan Cənubi Azərbaycanın **Qaradağ** mahalına gələrək burada məskunlaşmışlar. **Qaradağlılar** tarixən ağqoyunluların, səfəvilərin, şahsevənlərin, qızılbaşların tərkibində olmuşlar. XVII əsrdə Səfəvi hökmdarı I Şah Abbas (1587-1629) **qaradağlıları** şahsevənlərlə birlikdə Şimali Azərbaycanın müxtəlif ərazilərinə köçürmüş, Şirvanın hakimlərini də əsasən onlardan təyin etmişdir. Məhz elə bundan sonra da Azərbaycanda **Qaradağlı** adlı kəndlər meydana gəlmişdir...

1727-ci ilə aid "Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri" adlı tarixi sənəddə bu yaşayış məntəqəsinin adı nədənsə kənd kimi çəkilmir. Yalnız bu ərazidəki **Arx** və **Məzrə** (*"əkinəcək"*) sahələrinin adları çəkilir. Tarixi məxəzlərdən aydın olur ki, Ağa Məhəmməd Şah Qacarın 1797-ci ildə dağıntıya məruz qoyduğu kəndlər sırasında Qaradağlının da adı var. 1727-ci ilə aid "Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri" adlı tarixi sənəddə Dizaq



nahiyəsinə tabe olan yaşayış məntəqələri sırasında **Qaradağlı** məzrəsinin də adı çəkilir. Həmin mənbədə dənli bitkilərdən əldə olunan gəlirin 2000 ağça olduğu göstərilir.

**Qaradağlı** kəndinin **bayramuşağı, hacılı, yanacəlli, şirinuşağı** və s. adlı tayfaları var. **Qaradağlı -** şahsevən qəbiləsinə mənsub olan nəsil adıdır. Bu ada toponimiyada çox yerlərdə rast gəlirik... Azərbaycanda şahsevənlərə birləşən tayfalar öz tayfa adlarını bir çox kənd adlarına vermişlər. Bəzi mülahizələrə görə, **Qaradağlı** kənd adı da bu qəbildəndir.

Qızılbaşların **qaradağlı** tayfasının adı ilə bağlı kəndlərdən biri də Qərbi Azərbaycanda (Ermənistan), Artaşat rayonunda mövcud olmuşdur...

## QARAGÜLÜ QIŞLAĞI

**Qaragülü qışlağı** coğrafi adı Qacar və Divanalılar kəndləri yaxınlığında qeydə alınmışdır. **Qışlaq** - mal-qaranın qışladığı əraziyə, otlağa deyirlər. O, maldarlıq təsərrüfatının meydana çıxması ilə əlaqədar yaranmışdır. Qarabağ ərazisi qoyunçuluğun qədim qışlaqları sayılır. Soyuqlarla bağlı olaraq mal-qara 7-8 ay qışlaqda saxlanıb-otarılır. Qışlaqların 6 min illik yaşı var. Onlardan indi də heyvandarlıq təsərrüfatında geniş istifadə edilir.

Yerli məlumata görə, **Qaragülü** sözü adam adı ilə bağlıdır. Toponim **Gülü** adlı qarayanız bir qadının adı ilə bağlıdır. **Gülü** yaxşı at da çapırmış. **Qışlaq** ona məxsus olduğu üçün onun adı ilə də adlandırılmışdır.

## QARAĞAN TƏPƏSİ

Respublikamız ərazisində özündə **qarağanlı** etnoniminin adını əks etdirən onlarla toponim qeydə alınmışdır. Bunlara nümunə olaraq aşağıdakı coğrafi adları göstərmək olar:

**Qarağanlı dağı, Qarağanlı dərə** (Cəbrayıl rayonu, Aşağı Sirik kəndi), **Qarağanlı taxta** (Cəbrayıl rayonu, Şükürbəyli kəndi), **Qarağanlı dağı** (Masallı rayonu), **Qarağanlı dərə** (Zəngilan rayonu, Məmmədbəyli kəndi), **Qarağanlı təpə** (Lerik rayonu, Ağqışlaq kəndi), **Qaraqan Saatlı kəndi, Qaraqan Sədi kəndi, Qaraqan Şıxlar kəndi** (Ağdaş rayonu), **Qarağan təpəsi** (Füzuli rayonu, Horadiz kəndi) və s. Bu coğrafi adlar orta əsrlərdə Qarabağda yaşamış **qarağanlı** tayfasının adını özündə əks etdirir. **Qaraqan** sözünün *"otlaq üçün az yararlı yer", «yovşanlı sahə»* mənaları da var...

Horadiz kəndində ilk yaşayış məskəni **Qarağan təpəsində** mövcud olmuşdur. Buranın sakinləri vaxtilə 2-3 kilometr məsafədə yerləşən İmam Piri deyilən ərazidən gəlmişlər...

## QARAXANBƏYLİ KƏNDİ

Füzuli rayon mərkəzindən 13 kilometr şərqdə, Füzuli-Əhmədbəyli şose yolu kənarında, Köndələnçayın sol sahilində, düzənlikdə yerləşir. Kəndin iki min nəfər əhalisi var. Əhali əsasən taxılçılıq, üzümçülük, və heyvandarlıqla məşğul olur. Kənddə orta və ibtidai məktəblər, xəstəxana, mədəniyyət evi, doğum evi, rabitə şöbəsi, avtomat stansiyası, məscid (XIX əsr), şərab zavodu və s. var. İlk tunc dövrünə aid olan ölkə əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidəsi sayılan **Balalar təpə yaşayış yeri** Qaraxanbəyli kəndinin cənub-qərbindədir.

Oykonimlərdə əks olunmuş patronimik tayfa adlarının bir qrupu da **xan, bəy** və s. adlardan düzələn və bir növ etnonim səciyyəsi daşıyan sözlər təşkil edir. Bu qrupa daxil olan oykonimlər **xan, bəy** adlarından yaranmış və sonralar etnonim səciyyə kəsb etmişdir. Azərbaycan toponimiyasında öz əksini tapan belə adlardan biri də **Qaraxanbəyli** oykonimidir.

**Qaraxanbəyli** yaşayış məntəqəsi XVIII əsrin ortalarında Qarabağ xanı Pənahəli xanın Naxçıvandan Qarabağa köçürdüyü kəngərlilərin ***Qaraxanbəyli*** tayfasının burada məskunlaşması



nəticəsində yaranmışdır. Tirənin başçısı XVIII əsrin əvvəllərində **Qaraxan bəy** adlı bir nəfər olub...

Təəssüflər olsun ki, çox münbit torpağı olan Qaraxanbəyli kəndi də erməni işğalçıları tərəfindən işğala məruz qaldı.

**"Qara"** sözü əsasında çoxlu etnonimlər meydana gəlib. *"Xan-bəyli"* isə etnotoponim yaradan leksik vahiddir.

Naxçıvan Muxtar Respublikasının Babək rayonunda da **Qara-xanbəyli kəndi** vardır...

## QARAKOLLU KƏNDİ

**Qarakollu kəndi** rayon mərkəzindən 13 kilometr cənubda, Qarabağ silsiləsinin ətəyində, Qozluçayın sol sahilində yerləşir. 1600 nəfərə yaxın əhalisi var. Əhali taxılçılıq, baramaçılıq, heyvandarlıq və üzümçülüklə məşğul olur. Kənddə orta məktəb, kitabxana, xəstəxana, rabitə şöbəsi, avtomat telefon stansiyası, mədəniyyət evi və s. var. Kənd hazırda işğal altındadır...

**Qarakollu** yaşayış məntəqəsinin adı mənbələrdə **Qarakəlli, Qaragüllü** şəklində də yazılmışdır. Kəndin əhalisinin əsasən Cəbrayıl və Kəbirli mahallarından gəlmələri ehtimal olunur. Bəzi tirə və nəsillər Cəbrayıl rayonu ərazilərindən gələnlərdir.

**Qarakollu** toponimi iki komponentdən ibarətdir: **"Qara"** sözü burada türkcə *"böyük"*, *"çoxlu"* mənasında, **"kol"** sözü isə *«kol-luq»* mənasındadır; toponim "kolluq, *kol-koslu yerdə salınmış kənd"* deməkdir. Bəzi tədqiqatlara görə, kənd son orta əsrlərdə yaşayış yeri olmuşdur.

## QARAKÖPƏKTƏPƏ

Füzuli şəhərinin şimalında, Köndələnçayın sağ sahilində 50 metrə yaxın hündürlüyü olan təpə **Qaraköpəktəpə** adlanır. Bəzi mənbələrdə adı **Taxtavus** kimi də göstərilir. Burada vaxtilə

çoxtəbəqəli qədim yaşayış yeri olmuşdur. **Qaraköpəktəpədə** müxtəlif dövrlərə aid maddi-mədəniyyət nümunələri aşkar edilmişdir. Qaraköpəktəpədə ilk Tunc dövrünə aid olan təbəqədə az yonulmuş qaya daşı və çay daşından tikilmiş 3-7 metr diametrli dairəvi evlər, gildən bişirilmiş, bəzilərində kəsmə həndəsi naxış olan ocaq qalıqları, gildən heyvan fiqurları, daşdan oraq dişləri, ox ucları, toppuz, həvəngdəstələr, sümükdən nizə ucluğu və s. aşkara çıxarılmışdır.

Buradan meteorit dəmirdən döyülən yarpaqvarı *nizə ucluğu* da tapılıb. Bu tapıntı bütün Qafqaz üçün nadir tapıntı hesab olunur. Bu materiallar e.ə. IV-III minilliklərə - ilk Tunc dövrünün başlanğıcına aiddir...

Azərbaycanda antik dövrə aid olan ilk yaşayış yerinin Qaraköpəktəpədə olması elmi dəlillərlə artıq sübut edilmişdir. Məşhur arxeoloq alimlər Ə.Ələkbərovun, professor Qüdrət İsmayılovun axtarışları nəticəsində **Qaraköpəktəpə** abidəsində 10 min il əvvəl yaşayış məskəni olduğu sübuta yetirilmişdir.

Rus arxeoloqu A.İvanovski abidənin dəqiq ölçüsünü müəyyənləşdirmişdir. Arxeoloji tədqiqatlar Qaraköpəktəpənin e.ə. V minillikdən XVIII əsrə qədər yaşayış yeri olduğunu müəyyən etmişdir. Ən qədim nümunələri Eneolit dövrünə (e.ə. V-IV minilliklər) aid olunur (əsasən saman qatışıqlı gildən hazırlanmış qablar). Tapıntıların bir qismi Kür-Araz mədəniyyətinə aid edilir. Bu dövrə aid mədəni təbəqədə çoxlu dairəvi tikintilər, Orta Tunc dövrünə aid divar qalıqları aşkar edilmişdir. Qaraköpəktəpənin mədəni təbəqəsinin üst qatlarında Tunc dövrünün sonlarına, Dəmir və antik dövrlərə, orta əsrlərə aid maddi-mədəniyyət nümunələri aşkar edilmişdir.

**Qaraköpəktəpə** haqqında çoxlu rəvayət və əfsanələr qoşulmuşdur. **Qaraköpəktəpə** toponiminin bir rəvayəti də belədir:

Vaxtilə bir padşah böyük qoşunu ilə buradan keçirmiş; çox sevdiyi iti də onun yanında imiş. Bu it öz sahibini bir döyüşdə ölümdən xilas etdiyi üçün padşah da onu çox istəyirdi. İndi bu yerdən keçəndə it çayda xəstələnir və qəflətən ölür. Padşah



oradaca onu basdırır və qoşununa əmr edir ki, hər kəs itin cəmdəyinə bir ovuc torpaq töksün. Beləliklə, böyük bir **təpə** yaranır. Padşah sevimli itinin xatrəsini yad etmək üçün buranı **Qaraköpəktəpə** adlandırır. Bəzi tədqiqatçılar bu toponimi **Qarıköpək** kimi də izah edirlər...

## QARAQUZEY

Yağlıvənd kəndi ərazisində qeydə alınmış coğrafi adlardan biri **Qaraquzey** oroqrafik obyektidir. **Qaraquzey** oronimi **qara** və **quzey** sözlərindən ibarətdir. **Qara** sözü burada rəng anlamındadır. Vulkan mənşəli olan bu oroqrafik obyektin rəngi böyük zirvələrin rəngi kimi qaramtıldır. Oronimin tərkibindəki **quzey** termini isə *"gün düşməyən tərəf"*, *"şimal"* mənasındadır. Adətən dağın, təpənin gün düşməyən kölgəli tərəfinə **quzey** deyirlər. **Quzey** termini müsbət relyef forması bildirir. **Qaraquzey** *«yüksəklik»* deməkdir.

Qara komponentinin *"rəng"*, *"sıxlıq"*, *"ağır"*, *"qalın"*, *"böyük"*, *"hündür*, *"geniş"*, *"uca"*, *"qaranlıq"* *"qəm"*, *"çoxluq"*, *"yaraşıq"*, *"nəhəng"*, *"sevinc"*, *"qərb"* və s. mənaları vardır. **Qaraquzey** toponiminin tərkibindəki **qara** sözünü türkmənşəli **kora** sözü ilə də əlaqələndirənlər var. Kora sözünün türk dillərində *"yüksək dağ örüşü"* mənası məlumdur.

Quruluşca mürəkkəb soz olan **qaraquzey** toponimi relyeflə əlaqədar yaranan coğrafi addır. Bu oronim ərazinin **quzey** sahəsinin qaratorpaq olmasına süxurların tünd **qara** rəngə çalmasına görə (**Qaraqaya** oronimi) belə adlanmışdır.

Azərbaycanın Ağdam, Qubadlı, Zəngilan, Kəlbəcər, Gədəbəy, Laçın, Tovuz, Xanlar, Xocavənd, Xocalı, Şəki, Şəmkir və başqa rayonlarının ərazisində də **Qaraquzey** adlı oronimə rast gəlirik...

## QARAMƏMMƏDLİ BULAĞI

Qaraməmmədli kəndi ərazisində qeydə alınan hidronim elə kəndin adı ilə də adlandırılmışdır. **Qaraməmmədli bulağı** Köndələn çayı sahilində, səfalı və əsrarəngiz gözəlliyə malik bir sahədə yerləşirdi. Rayon əhalisi isti yay günlərində bu bulağın ətrafında istirahət edər, məclislər qurardı. İndi bu **bulaq** düşmən caynağında, «göz yaşı axıdır»...

## QARAMƏMMƏDLİ KƏNDİ

**Qaraməmmədli kəndi** Füzuli rayonunun mərkəzindən 6 kilometr şimal-qərbdə, dağlıq ərazidə, Köndələnçayın sahilində yerləşir. Kəndin əhalisi əsasən heyvandarlıq, taxılçılıq, baramaçılıq, üzümçülük və bostançılıqla məşğul olur. Kənddə klub, məktəb, kitabxana və s. var.

**Qaraməmmədli** kəndini ***Qaraməmmədli*** nəslindən olan ailələr saldığı üçün o, belə adlandırılmışdır. Kəndin Köndələnçayın sahilində gözəl istirahət zonası, sərin bulaqları və s. var. Hazırda kənd erməni işğalı altındadır.

Kənd iri mülkədar Həsənalı bəy Əsgərxanovun malikanəsində yaranmışdır. Yaşayış məntəqəsinin əhalisinin bir hissəsi ətraf kəndlərdən, digər bir hissəsi isə Laçın rayonundan gəlmişlər...

**Qaraməmmədli** adlı kənd Ağsu, Yevlax, Gədəbəy rayonlarında da vardır. Həmin kəndlərdə də toponim XIX əsrdə burada məskən salmış ***Qaraməmmədli*** nəslinin adını özündə əks etdirir.

## QARANLIQ DƏRƏ

Qacar kəndi ərazisində, kənddən bir qədər şərqdə qeydə alınmış oroqrafik obyektlərdən biri də **Qaranlıq dərə** adlanır. **Dərə** - mənfi relyef forması bildirən coğrafi termindir. Oronimiyada **dərə** termini relyefin əsasən dar və çökək formasını ifadə edir. Azərbaycanda adının tərkibində **dərə** termini olan 30.000-dən çox oronim qeydə alınmışdır. Dərənin ***qaranlıq*** adlanması ərazinin bəzən günəşli günlərdə **qaranlıq** olması, oranı ***gün tutmaması*** ilə bağlıdır...

## QARĞABAZAR KARVANSARASI

Bu **karvansara** Füzuli rayonundakı **Qarğabazar** kəndinin mərkəzində, çox da hündür olmayan bir təpənin döşündə inşa olunub. Karvansara tikilisinin eni **23,7** m, uzunluğu isə **34,7** m-dir. Karvansara **1681**-ci ildə tikilmişdir.



Qarğabazar kəndində tikildiyi üçün o, **Qarğabazar karvansarası** adı ilə tanınır. Bu tarixi abidəyə bəzən **Şah Abbas karvansarası** da deyirlər.



Onun memarı məlum deyil. Karvansaranın portalının birinci yarımdairə tağbəndi ilə ondan nisbətən böyük olan ikinci oxvari tağbənd arasında xüsusi yerləşdirilmiş 3 ədəd kvadrat formalı daşlar üzərində zomorf və həndəsi ornamentlər işlənmişdir.

Karvansaranın plan və memarlıq həlli mərkəzdən keçən oxa simmetrik həll olunaraq ümumi konstruksiyaya tabe edilmişdir.

Planda düzbucaqlı şəkildə həll olunmuş karvansara iki böyük ölçülü dəvəlikdən (zal), girişin sağ və sol tərəflərində gözətçilər üçün iki kiçik otaqdan, baş tərəfdə isə karvansara sahibi və tacirlər üçün 6 ədəd kvadrat şəkilli otaqlardan ibarətdir. Otaqların qapıları çox da böyük olmayan eyvana açılır. Eyvanı yarımdairə şəkilli 3 ədəd daş tağbənd bəzəyir.

Memarlıq üslubuna görə **Qarğabazar karvansarası** alban dövrü memarlığı ənənələrinin oxşarıdır. Girişin sağ və sol tərəflərində gözətçi otaqları qarşısında iki böyük sal daş vardır. Görünür, gözətçilər həmin daşların üstündə dayanıb karvansaraya daxil olan karvanların yüklərinə baxarmışlar. Təəssüflər olsun ki, *yağış və sel suları* **karvansara** qarşısından salınan avtomobil yolunun çəkilişi zamanı səviyyəsi xeyli qaldırıldığından, bütün karvansara həyətini lil çöküntüləri altında qoymuşdur.

**Qarğabazar karvansarası** Azərbaycanın ölkə əhəmiyyətli daşınmaz tarixi mədəniyyət abidələrindən hesab olunur...

## QARĞABAZAR KƏNDİ

**Qarğabazar kəndi** rayon mərkəzindən 7 km cənubda, dağətəyi ərazidə, Qarabağ silsiləsinin ətəyində yerləşir. Əhalisi min nəfərdir. Əhali əsasən üzümçülük, taxılçılıq və heyvandarlıqla məşğuldur. Kənddə rabitə şöbəsi, xəstəxana, kitabxana, orta və sürücülükməktəbləri, avtomat stansiyası, heyvandarlıq kompleksi, klub, muzey, məscid (XVII əsr), türbə (XVIII əsr), karvansara, hamam, bulaq, kəhriz və s. var. **Qarğabazar kəndi** də hazırda düşmən tapdağı altındadır.

Kənddə **namazlılar, eminlilər, koxalılar, həsənlilər, süleymanlılar,məmmədlilər, həşimlilər** və s. adlı tayfalar yaşamışdır.

İstanbulun Başbakanlıq arxivində saxlanan 930 saylı "Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri" adlı tarixi sənəddə **Qarğabazar** kədinin də adı var.





*Гаргабазар кəндиндəки гədим hамам*

1886-cı ildə Tiflisdə tərtib edilmiş arxiv sənədlərində Qarğabazar kəndində **56** ailədə (tüstüçıxan) **230** kişi və **131** qadın (hamısı müsəlman ailəsi) göstərilmişdir.

**Qarğabazar** adı ilə bağlı müxtəlif rəvayətlər var.

Deyilənə görə, vaxtilə burada səsli-küylü, böyük bir **bazar** varmış və bu səbəbdən də kəndin adına **Qarğalıbazar** deyərmişlər. Sonralar sözün tərkibindəki **-lı** şəkilçisi düşmüş, sadəcə ad **Qarğabazar** kimi qalmışdır...

**Qarğabazar** toponiminin izahında müxtəlif fikirlər mövcuddur. Şərqi Türkiyədə orta əsrlərdə **Qarğabazar** adlı yaşayış məntəqəsi mövcud olduğuna görə, bu kəndin əsasını hələlik naməlum səbəblərə görə oradan köçüb gəlmiş ailələrin qoyması ehtimal edilir. Çox güman ki, **qarğabazar** adı Türkiyədən gəlmədir. Kəncin adı türk dillərindəki **karqa** (vulkan daşı) və **bazar** (bir şeyin bol olduğu) sözlərindən ibarətdir.

Kənd ərazisində aşkar olunan küp qəbirlər (e. ə. II əsr) Qarğabazarın çox qədim yaşayış yeri olduğunu göstərir. Səfəvi dövrünə aid Hacı Qiyasəddin məscidi (1682), yenə də həmin dövrə aid olan karvansaray (1681-1684), XVIII əsr hamam xarabalığı və türbə də Qarğabazar kəndindəndir.

**"Bazar"** komponenti "çoxluq" mənasında olub, artıqlığı ifadə edir. Ümumiyyətlə, **"qarğa"** və **"bazar"** terminləri Azərbaycana gəlişləri dəqiq müəyyənləşdirilməmiş müxtəlif türk tayfalarının adı ilə bağlıdır. **"Qarğa"** sözü quş adını əks etdirən oronimlə əlaqədardır. **"Karqa"** adlı həm də qədim türk tayfası olmuş və onlar sonralar Azərbaycan ərazisinə gəlmişlər.

**Karqa (qarğa), karlıq (qarlıq)** Çin Türküstanında olan türk mənşəli coğrafi adların yaranmasında iştirak edən topofor-mantlardandır. *Qarğabazar* kəndindəki künbəzlər, eləcə də, qazıntı zamanı aşkarlanan bir çox maddi-mədəniyyət nümunələri kəndin ən azı iki min il bundan əvvəl də yaşayış məskəni olmasından xəbər verir.

**Qarğabazar** coğrafi adının paralelinə Türkiyə ərazisindəki toponimlərdə də rast gəlmək olur (məsələn, *Qarğabazarı*). Azərbaycanda **qarqa** komponenti ilə bağlı *Qarğalıq kəndləri* (Babək, Masallı, Xaçmaz rayonları) da vardır. *Qarğa qayası* (Daşkəsən, Kəlbəcər, Tovuz rayonları), *Qarğabazar yüksəkliyi* (Naxçıvan), *Qarğalı çöl* (Zərdab rayonu) bu qəbildəndir. *Qarğaqovmaz* kəndi Ermənistanın Talin rayonunda olub. *Qarğabazar kəndi* Ermənistanın Eçmiədzin rayonunda da mövcud olub və 1965-ci ildə onun adı dəyişdirilib *Haykaşen* qoyulub. Vaxtilə İrəvan quberniyasının İrəvan qəzasında da *Qarğabazar* adlı kənd olmuşdur. XVII əsr mənbəsində Culfa yaxınlığında da *Qarğabazar* kəndinin adı çəkilir...

Kənddə **qiyabəddinlilər, mollaibrahimlilər, salehlilər, ibişlilər, yaqublular, mahmudlular, hüseynzamanlar, hacıməmmədlilər, eyvazlılar, ibrahimlilər, sərdarlılar** və s. tayfa və tirələr yaşamışdır.



1727-ci ilə aid tarixi sənəd olan "Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri"ndə 465-ci səhifədə Dizaq nahiyəsinə tabe olan kəndlər sırasında **Qarğabazar (Qarğabazarı)** kəndinin də adı çəkilmişdir. Məlumdur ki, İran və digər Şərq ölkələrinin tacirləri Qarabağ və Şirvanda ticarət qurmaq üçün Xudafərin körpüsündən keçib Qarğabazarda gecələyib dincələrdilər. Hətta, bu məqsədlə **Şah Abbas karvansarası** da tikilmişdir...

Orta çağlara bağlı qaynaqlarda yaşayış məntəqəsinin adı **Qarğabazarı** şəklində yazılmışdır...

Yaşlı adamlardan eşitdiyimə görə, qədimdə rayonun həftəlik bazarı bu kənddə olub. Yaxınlıqdakı Molakan kəndi yaranandan sonra əhalinin tələbi ilə bazarı oraya köçürüblər...

## QARISƏRNİCİ

**Qarısərnici** Füzuli şəhərindən 9 km şimalda, Dilağarda kəndinin yaxınlığında yerləşir. Onunla bağlı belə bir rəvayət vardır:

Şah kəndə gələndə hamı qaçır, təkcə bir qarı qalır. Şah qarıdan soruşur:

- Qarı, məndən nə istəyirsən?

Qarı deyir:

- Bir sərnic torpaq, yəni öz yerimi.

Şah onun sözünün mənasını başa düşür. Şahın əmri ilə qoşunda olanların hər biri qarının başına bir at torbası qədər torpaq tökür. Beləliklə, böyük bir *təpə* yaranır. O vaxtdan da bu təpəyə **Qarısərnici** deyirlər...

# QARYAGİN QƏZASI




**Qaryagin (Cəbrayıl) qəzası** 1873-cü ildə Yelizavetpol quberniyasının tərkibində yaradılmışdır. Qəzanın əvvəlki adı **Cəbrayıl** olmuşdur. 1905-ci ildə "Kürəkçay" müqaviləsinin 100 illiyi ilə əlaqədar olaraq çar fərmanı ilə qəzanın adı dəyişdirilərək Rus-İran müharibəsinin fəal iştirakçısı, **polkovnik Qaryaginin** şərəfinə **Qaryagin** adlandırıldı. Qəzanın mərkəzi də **Qaryagin** şəhərinə köçürüldü.

**Pavel Mixayloviç Karyagin** 1761-ci ildə Poltavada zadəgan ailəsində anadan olub. 1778-ci ildə hərbi məktəbi bitirib. 1781-ci ildə praporşik rütbəsi alıb. 1783-cü ildən Qafqazdakı "Yeqor polku"nda xidmət edir. 1784-91-ci illərdə Türkiyəyə qarşı Rus ordusunda döyüşür. P.P.Rumyantsevin təqdimatı ilə ona mayor rütbəsi verilir və o, "Georgi" Xaç ordeni ilə təltif edilir. 1796-cı ildə V.Zubovun Azərbaycana yürüşü zamanı P.M.Karyagin Gəncə, Şəmkir, Şirvan, Qarabağ, Dərbənd, Bakı və s. ərazilərdə gedən döyüşlərdə



fərqlənir. V.Zubov Azərbaycandan geri çağırılarkən Qarabağdakı hərbi hissəni P.M.Karyaginə etibar edir. 1800-cü ildə ona Qafqaz Ali Baş Komandanlığı tərəfindən polkovnik rütbəsi verilir.

XIX əsrin ilk illərində Karyaginin Qarabağda törətdiyi zülmlərdən qəzəblənən İbrahim xanın İranda yaşayan oğlu Əbdül Fəttah ağa (bəzi mənbədə Abbas Mirzə göstərilib) 21 iyun 1805-ci il tarixdə Karyaginin qoşunu ilə Əsgəran yaxınlığında döyüşür, döyüşdə Karyaginin qoşunu məğlub olur, özü isə yaralanır. P.D.Sisiyanovun göstərişi ilə Gəncədə müalicə olunan **Karyagin** sağaldıqdan sonra bir müddət Gəncədə mülki işlərdə çalışır. 17 mart 1807-ci il tarixdə yenidən Şuşaya qayıdan Karyagin orada hərbi işlərini davam etdirir. 14 oktyabr 1807-ci il tarixdə Şuşada bərk xəstələnən **Karyagin** 2 ay sonra vəfat edir.

Qəza idarəsinə qəza rəisi, onun müavini, xəzinədar, məntəqə iclasçıları, şəhər polisi daxil idi. Hakimiyyət qəza rəisinin əlində cəmlənmişdir. Qəza rəisini Yelizavetpol (Gəncə) qubernatoru təyin edirdi. Adətən, qəza rəisləri rus zabitindən olurdu. Qəzada Cəbrayıl, Horadiz, Bəhmənli, Bartaz polis məntəqələri fəaliyyət göstərirdi. Yaşayış məntəqələrini qəza rəisinin təyin etdiyi kəndxudalar, yüzbaşılar, bəylər, polis məntəqələrini isə yenə də qəza rəisinin təyin etdiyi pristavlar idarə edirdilər. Qəzada yaradılmış məhkəmə qəzanın idarə olunmasında da iştirak edirdi.

3332 kvadrat kilometr sahəsi olan Qaryagin qəzasının (buraya Füzuli, Beyləqan, Cəbrayıl, Xocavənd, Qubadlı, Zəngilan rayonlarının əraziləri daxil idi) əhalisinin sayı 66 min nəfərdən (1897-ci ilə aid olan statistikaya görə 66.360 nəfər) çox olmuşdur. Təsərrüfatında maldarlıq, əkinçilik, baramaçılıq, bağçılıq, ipəkçilik və s. əsas yer tuturdu. Qəza ərazisində xalçaçılıq, pambıqçılıq və üzümçülük də inkişaf etmişdir. Ticarət, boyaqçılıq, dəmirçilik, çəkməçilik, nalbəndlik, dərzilik və s. sahələr də inkişafda idi...

Qəzada çarizmin müstəmləkəçilik siyasətinə, bəy və xanların zülmünə qarşı dəfələrlə kəndli çıxışları baş vermişdir. 1918-ci ilin dekabrında Azərbaycan Demokratik Respublikası hökumətinin qərarı ilə **Qaryagin qəzasının** adı dəyişdirilərək əvvəlki **Cəbrayıl**

**qəzası** adı ilə adlandırıldı. **Qaryagin** yaşayış məntəqəsinin (kəndinin) adı da əvvəlki adı olan **Qarabulaq** adı ilə əvəz edildi. **Qəza** ərazisində 12 azərbaycanlı, 3 erməni icması (inzibati ərazi vahidi kimi) var idi...

**7 iyul 1923-cü il** tarixində **DQMV** yarananda Bünyadlı, Zamzur, Əmirallar, Kuropatkin, Muğanlı, Xocavənd, Qaradağlı, Tuğ, Axullu, Salakətin, Vəng, Dolanlar, Edilli, Hadrut, Hərəkül, Bulutan, Məlikcanlı, Düdükçü və s. kəndlər Cəbrayıl qəzasından alınıb DQMV tabeliyinə keçirildi. **1929**-cu ildə **Cəbrayıl (Qaryagin) qəzası** ləğv olundu...

**Cəbrayıl qəzası** orta əsrlərdə burada yaşamış **Cəbrayıl Ata** (o, Alıpaşa dağının görümlü bir yerində dəfn olunub) adlı nüfuzlu bir şəxsin adı ilə əlaqədar olaraq belə adlanmışdır. **Cəbrayıl** adını **cəbrayıllı** türk mənşəli tayfanın adı ilə də əlaqələndirənlər var. Tarixi məlumatlara görə, cəbrayıllı tayfası son orta əsrlərdə müvafiq olaraq Qaraqoyunlu və Ağqoyunlu, Qızılbaş, Şahcevən, XVIII əsrdə isə Əfşar və Cavanşir tayfa ittifaqlarının tərkibinə daxil olmuşdur. Əlbəttə, bütün bunlar mövcud siyasi vəziyyətlə əlaqədar baş vermişdir...

## QARYAGİN RAYONU
## (Qaryagin)

Füzuli rayonunun əvvəlki adlarından biri **Qaryagin** adlanırdı. **Pavel Mixayloviç Karyagin (Qaryagin)** 1761-ci ildə Poltavada zadəgan ailəsində anadan olub. 1778-ci ildə hərbi məktəbi bitirib. 1781-ci ildə praporşik rütbəsi alıb. 1783-cü ildən Qafqazdakı "Yeqor polku"nda xidmət edir. 1784-91-ci illərdə Türkiyəyə qarşı Rus ordusunda döyüşür. P.P.Rumyantsevin təqdimatı ilə ona mayor rütbəsi verilir və o, "Georgi" Xaç ordeni ilə təltif edilir. 1796-cı ildə V.Zubovun Azərbaycana yürüşü zamanı P.M.Karyagin Gəncə, Şəmkir, Şirvan, Qarabağ, Dərbənd, Bakı və s. ərazilərdə gedən döyüşlərdə fərqlənir. V.Zubov Azərbaycandan geri çağırılarkən



Qarabağdakı hərbi hissəni P.M.Karyaginə etibar edir. 1800-cü ildə ona Qafqaz Ali Baş Komandanlığı tərəfindən polkovnik rütbəsi verilir.

XIX əsrin ilk illərində Karyaginin Qarabağda törətdiyi zülmlərdən qəzəblənən İbrahim xanın İranda yaşayan oğlu Əbdül Fəttah ağa (bəzi mənbədə Abbas Mirzə göstərilib) 21 iyun 1805-ci il tarixdə Karyaginin qoşunu ilə Əsgəran yaxınlığında döyüşür, döyüşdə Karyaginin qoşunu məğlub olur, özü isə yaralanır. P.D.Sisiyanovun göstərişi ilə Gəncədə müalicə olunan **Karyagin** sağaldıqdan sonra bir müddət Gəncədə mülki işlərdə çalışır. 17 mart 1807-ci il tarixdə yenidən Şuşaya qayıdan Karyagin orada hərbi işlərini davam etdirir. 14 oktyabr 1807-ci il tarixdə Şuşada bərk xəstələnən **Karyagin** 2 ay sonra vəfat edir...

(Əlavə məlumat üçün bax: **Füzuli rayonu**)

## QAYIB OCAĞI (QAYIB TÜRBƏSİ)

Qacar kəndi ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri də **Qayıb ocağı (Qayıb türbəsi)** adlanır. Bu ocaq yerli əhali tərəfindən 1993-cü ilə - işğala qədər müqəddəs hesab edilərdi. Camaat vaxtilə buraya gəlib nəzir-niyaz verərdilər.

**Ocaq** sözü Azərbaycanda ümumiyyətlə, müqəddəslik rəmzidir. Oronimin tərkibindəki **Qayıb** sözünün mənasını araşdırıcılar müxtəlif prizmadan izah edirlər. **Şeyx Qayıb** orada dəfn edilən övliyanın adıdır. 1593-cü ilə aid olan tarixi qaynaqda bu **ocağın (türbənin)** adı **Şeyx Qaybi tatar** kimi çəkilir...

## QAYIDIŞ QƏSƏBƏSİ

Füzuli rayonunun 20 illik Beyləqan rayonuna icarəyə verilmiş Haramı deyilən torpaqları özünə qaytarıldıqdan sonra, burada hər biri 200 ailəlik 11 qəsəbə salınaraq, köçkün və qaçqınların ixtiya-

rına verilmişdir. Torpaq islahatına uyğun olaraq həmin sakinlər pay torpaqları ilə təchiz olunmuşlar.

Qəsəbədə orta məktəb, kitabxana, uşaq bağçası, müxtəlif çeşidli mağazalar, hamam, tibb məntəqəsi, məişət-iaşə obyektləri və s. var. Qəsəbənin adı köçkünlərin doğma yurda, geriyə **qayıdışı** ilə əlaqədar olaraq rəmzi mənada **Qayıdış** adlandırılmışdır...

## QAZAXLAR KƏNDİ

Füzuli rayonunun qədim insan yaşayışı məskənlərindən biri olan **Qazaxlar kəndi** rayon mərkəzindən 35 kilometr cənubda, Araz çayının sol sahilində, İran İslam Respublikası ilə sərhəddə, düzənlikdə yerləşir. Kənddə klub, kitabxana, mədəniyyət evi, məktəb və s. var. Əhalisinin sayı 800 nəfərdir. Kənddə 130 ev var. Əhali üzümçülük, taxılçılıq, heyvandarlıqla məşğul olur.

Kənd öz adında **qazax** etnonimini əks etdirir. **Qazax** sözünü ilk dəfə IX əsrdə ərəb tarixçisi əl-Kufi VII əsr hadisələri ilə əlaqədar **Kasak** kimi işlətmişdir. Toponim özündə qıpçaq mənşəli **qazax** etnik birliyinin adını əks etdirir. Qazax tayfası ilk orta əsrlərdə Şimali Qafqazda, Kuban çöllərində, Dəşti-Qıpçaq deyilən yerdə yaşamışdır.

XI-XII əsrlərdə gürcü çarlarının hərbi qüvvə kimi istifadə etmək məqsədilə Şimali Qafqazdan Şərqi Gürcüstana kütləvi surətdə qıpçaq ailələri köçürdükləri məlumdur. **Qazaxlar** Qazax rayonu ərazisində 1072-1089-cu illərdə Gürcü çarı II Georq dövründə məskunlaşmışlar. Gürcü çarı IV David də qıpçaqların bir hissəsini 1118-1120-ci illərdə Şimali Qafqazdan Gürcüstana köçürmüşdür. Gürcü çarı III Georgi (1151-1184) zamanında da Dəşti-Qıpçaqdan Azərbaycanın qərbinə minlərlə qıpçaq ailələri köçürülmüşdür.

Orta əsrlərdə **Qazaxlar** kəndinin ərazisi Arqalı adlanırdı. Tarixi dəyərini indi də itirməyən **Arqalı (Əhmədallılar)** türbəsi həmin ərazidə ucaldılmışdır.



1736-cı ildə hakimiyyətə gələn Nadir şah Əfşar onun hakimiyyətə gəlməsinə etiraz edən tayfaları Xorasana sürgün etdirdi. Qazax və Borçalını isə gürcü Kartli hakiminin tabeliyinə verdi. Kartli hakimlərinin əsarətinə dözməyən Qazax camaatının bir hissəsi XVIII əsrdə siyasi hadisələrlə əlaqədar Qarabağa (Bərdəyə, Goranboya, Füzuliyə və s.) köçüb orada məskunlaşdılar. O zaman gələn Qazax camaatının bir hissəsi də Araz çayı sahilinə, indiki **Qazaxlar kəndi** ərazisinə köçürlər. Elə o vaxtdan da kənd **Qazaxlar** adlanmışdır.

Mənbələrdə **qazax (qazaq)** coğrafi adının qədim türk sözü olan **qaz (qas)** «ucalıq», "yüksəklik" və **ax (ağ)** «yer», «sahə», «yer bildirən şəkilçi» komponentlərindən əmələ gəldiyi ehtimal da əks olunubdur. Bəzi araşdırıcılar **qazax** sözünü «atlılar diyarı», «azad köçərilər», «qaçaq» və s. kimi mənalandırırlar.

Mənbələrdən aydın olur ki, 26 qazaxlı tirəsi var. XIX əsrin ortalarında qazaxlar qarapapaq, çobanqara, saraclı, dəmirçili, qafarlı, cəfərli, əlişərurlu, qarabağlı, kərimbəyli, gödəkli, ayrumlu, şahidli, muğanlı, qaraqoyunlu, cəmilli, şıxlar, çaxırlı, kərkibaşlı, kəngərli, salahlı, kəsəmən və başqa tayfalardan ibarət idilər. **Qazax** adlı toponimlər **qazax** etnonimi ilə əlaqədardır. Bərdə və Goranboy rayonlarında da **Qazaxlar** adlı kəndlər vardır.

Ümumiyyətlə, **Qazax** komponenti qıpçaq etnosu arealı ilə bağlıdır ki, bu qıpçaqlar da Azərbaycana həm şimaldan, həm də cənubdan gəlmişlər.

**Qazaxlar kəndi** erməni işğalçılarından azad olunmuşdur.

Bəzi tarixi məlumatlara görə, **qazaxlar obası** XVIII əsrin ikinci yarısında tarixi şəraitlə əlaqədar olaraq Musa kəndxudanın başçılığı altında Şəmsəddin mahalından gəlmişlər. Qazaxların Azərbaycana köçmələrini XI əsrdə göstərən tədqiqatçılar da var. Gürcüstana etdikləri hərbi yardıma və xidmətə görə onlar **Qazax** mahalında (qəzasında) yerləşdirilmişdir (M.Baharlı: "Azərbaycan" Bakı, 1921, səh.52).

## QƏRVƏND KƏNDİ

**Qərvənd kəndi** rayon mərkəzindən 10 km şimal-şərqdə, Qarabağ silsiləsinin ətəyində yerləşir. Kəndin əhalisi əsasən üzümçülük, taxılçılıq və heyvandarlıqla məşğul olur. Kənddə klub, məktəb, kitabxana və s. var. Kənd hazırda işğal altındadır.

Oykonim **cavanşir** elindən olan **qəribənd** tayfasının adı ilə əlaqədardır. 1727-ci ilə aid olan "Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri" adlı tarixi sənəddə **Qərbənd** yaşayış məntəqəsinin də adı çəkilir...

**Qərvənd** toponimi **kəbirli** tayfasının bir qolunu təşkil edən qərvəndlərlə bağlıdır. Qərvəndliləri bulqar əsilli hesab edənlər də var. XIX əsrin sonları - XX əsrin əvvəllərinə aid rus məxəzlərində kəndin adı **Qerravend** (Qeravend) şəklində yazılmışdır. Yaşlı sakinlər bu sözü **Gerravənd** kimi tələffüz edirlər...

Bəziləri **Qərvənd** sözündəki **qəri** *qor - ər* kimi izah etməyə (*"Allah, Tanrı ərləri"*) çalışırlar.

Bəzi tədqiqatçılar **Qərvənd** oykonimini **gərayvənd** tayfasının adı ilə əlaqələndirirlər. Onlar Qərvəndin **Gəray** şəxs adından və İran dillərindəki **vənd** ("uşağı, nəsli, törəməsi") sözündən ibarət olub, *"gəraylılar, gəray nəsli, gərayın törəməsi"* mənasında olduğunu iddia edirlər...

## QIRXBUĞUMLU YAL

Sərdarlı kəndinin ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri **Qırxbuğumlu yal** adlanır. Fitooronim **qırxbuğum** və **yal** sözlərindən, **-lu** mənsubluq ifadə edən şəkilçidən ibarətdir.

**Qırxbuğum (yolotu)** - kövdəsi düz qalxan, yaxud sarmaşan, yarpaqları lanset, paz və ya yumurta formalı olan toxumu üçtilli bir, iki, bəzən də çoxillik ot və ya yarımkol bitki cinsidir. Martda çiçəkləyib, dekabrda solan *qırxbuğum* əhali arasında müqəddəs



sayılar, onun üzərinə heç bir tullantı atılmazdı; bu günah sayılardı. **Qırxbuğum** da dağdağan ağacı kimi hər yerdə bitmir...

Fitooronimin tərkibindəki **yal** coğrafi termini müsbət relyef forması ifadə edir. Dağın ən hündür zirvəsinin yamacı oronimiyada **yal** termini ilə ifadə olunur. **Yal** termini ilə bağlı Respublikamızın ərazisində 600-dən çox coğrafi ad qeydə alınmışdır...

## QIZILQAYA YÜKSƏKLİYİ

**Qızılqaya yüksəkliyi** rayon mərkəzindən 18 kilometr şimalda, Xocavənd rayonu ilə sərhəd ərazidə yerləşir. Oronim rəng mənalı **"qızıl"** sözündən və müsbət relyef formasını bildirən **"qaya"** komponentindən ibarətdir. **Qızıl** sözü dağ, qaya, təpə və s. oronimlərdə *"parlaq"*, *"qızılı rəngə çalan"*, *"al-qırmızı"* mənasında işlənir. **Qızılqaya** coğrafi adındakı **qızıl** termini *"qızılı rəngə çalan"* mənasındadır.

**Qızılqaya** adlı toponimlərə Qubada, Qubadlıda, Qusarda, Qazaxda, Abşeronda, İsmayıllıda, Culfada, Şərurda, Babəkdə, Ağdamda, Şəmkirdə, Əsgəranda, Gədəbəydə, Yardımlıda, Xanlarda, Zəngilanda, Laçında, Tovuzda, Cəbrayılda, Xocavənddə, Şuşada da rast gəlmək olar. Kəlbəcərdə *Qızılqaya kəndi*, Xanlarda *Qızılqaya qəsəbəsi* də vardır...

## QIZLAR BULAĞI

Əhmədalılar kəndi ərazisində qeydə alınan coğrafi adlardan biri **Qızlar bulağı** adlanır. Hidronim **qız** sözündən, **-lar** cəm şəkilçisindən və **bulaq** hidronimik apelyativindən ibarətdir. Toponim **qızların** bu bulaqdan tez-tez su daşıyıb-gətirmələri ilə əlaqədar olaraq belə ad almışdır...

## QIZOVLU BAĞI

Yuxarı Yağlıvənd kəndi ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri **Qızovlu bağı** adlanır. Bu bağın ərazisində çoxlu ağac və kollar, gül-çiçək əkilmişdir. Bağın **Qızovlu** adlanması ilə bağlı yerli əhalinin əsaslandırılmamış müxtəlif fikir və yozumları vardır...

## QOBU DİLAĞARDA KƏNDİ

**Qobu Dilağarda** kəndi rayon mərkəzindən 12 kilometr şimalda, Qarabağ silsiləsinin ətəyində, Füzuli-Ağdam şosse yolundan 2 km aralıda yerləşir. Əhalisi min nəfərdir. Əhali taxılçılıq, üzümçülük və heyvandarlıqla məşğul olur. Kənddə orta məktəb, elektrik dəyirmanı, klub, kitabxana, tibb məntəqəsi, rabitə şöbəsi və s. vardır.

**Qaraqoyunlu** qəbiləsinə mənsub olan nəsillərdən biri də **dilağarda** adlanır. **Dilağardalılar** tayfasının adını özündə əks etdirən çoxlu sayda mikrotoponimlər də qeydə alınmışdır. Füzuli rayonunun **Dilağarda kəndi** ərazisindəki **Dilağardatəpə dağı,** Masallı rayonunun Dəmbəlov kəndi yaxınlığındakı **Dilağarda dağı, Dilağarda dərəsi, Dilağarda yoxuşu** oronimləri də öz adlarında **dilağarda** etnonimini əks etdirir.

Bəzi sənəd və materiallarda göstərilir ki, **dilağardalılar** XIII əsrdə Azərbaycana gəlmiş monqol-tatarların qonşularının tərkibində olan çoxsaylı tayfalardan biri olmuşdur. Onlar Azərbaycanda qalaraq köçəri-maldar həyatı sürmüşlər. Dilağardalıların danışıq dilində cingiltili samitlər gözəl səslənir. Ümumiyyətlə, onların çox maraqlı və maraqlı olduğu qədər də qəribə dil-tələffüz formaları vardır. Qonşu kəndlərin əhalisi ilə müqayisədə dilağardalıların özlərinə məxsus səciyyəvi xüsusiyyətləri olan adət-ənənələri var...



**Qaraqoyunlu** oymağı olan **Dilağarda obası** haqqında belə bir rəvayət də danışırlar.

Qara Yusifin qəfil ölümü oğullarını çaşdırmışdı. Hərki-hərkilik baş alıb gedirdi. Ayrı düşən elləri birləşdirmək lazım idi. Belə bir vaxtda Qara Yusifin altıncı oğlu Cahanşah Mirzə irəli durub: "kimdir mənimlə" - dedi. Şair ürəkli, şir biləkli şahzadəni taxta çıxardılar. Cahanşah dar günündə ona arxa, dəstək olanları yanına yığıb xüsusi bir qvardiya yaratdı və həmin qvardiyanı **Dile qarde** ("qvardiyanın qəlbi") adlandırdı...

**Dilağarda** obasının Azərbaycanın bəzi ərazilərində oymaqları var. Təkcə Muğanda onların **Alar, Hüseynxanlı, Təpəbaşı, Fətullahlı, Vəlimənmədli, Cahanşahlı, Gözbulaq** və s. oymaqları var. Arazbarda dilağardalıların **Araz Dilağarda** və **Qobu Dilağarda** adlı iki obası vardır. Bəzi məxəzlərdən aydın olur ki, **dilağardalılar** Qarabağ, Talış, Cavad xanlıqlarına xarici təhlükənin aradan qaldırılmasında yaxından köməklik etmişlər...

Görkəmli Azərbaycan şairi Qasım bəy Zakir Arazbar obalarının mülkədarı olmuş Cəfərqulu xan Cavanşirə (şairin onunla arası yox idi) yazırdı:

***Zərgər, Dilağarda aləm-aşikar,***
***Bir ucdan oğurlar, bir ucdan satar,***
***Vay odur sahibi at başı tutar,***
***Yüz yerdən tökülər üstünə çomaq...***

**Dilağarda** tayfası mənşə etibarı ilə **qaraqoyunlu** tayfa ittifaqına daxil olan tayfanın adındandır. Onlar təxminən 600 ailə olub, Cənubi Azərbaycanda yaşamışlar. Bir çox ehtimallara görə, XV əsrin sonlarında Ağqoyunluların hakimiyyəti zamanı bəzi **Dilağarda tayfası** Araz çayını keçib indiki Füzuli rayonunun ərazisində məskən salmışlar. Bəzi ailələr isə sonralar - XIX əsrin əvvəllərində gəlmişlər. Onlar yayı Talış silsiləsində, qışı isə Cənubi Azərbaycanın Muğan ərazisində keçirərdilər.

Füzuli rayonu ərazisində dilağardalıların yaşadığı digər kənd **(Qobu Dilağarda kəndi)** də vardır. Oykonim **qobu** və **dilağarda**

sözlərindən ibarətdir. **"Qobu"** komponenti toponimlərdə *"çökəklik", "su axan dərə", "çuxur yer", "qurumuş çay yatağı", "böyük arx"* və s. mənalarda öz əksini tapıb. **Dilağarda** etnonimi təxminən 600 ailədən ibarət olan və Cənubi Azərbaycanda yaşayan tayfanın adındandır. **Dilağardalılar** mənşəcə qaraqoyunlu tayfa ittifaqına daxil olan tayfanın adındandır.

Yerli məlumata əsasən, **Qobu Dilağarda** yaşayış məntəqəsi XV əsrin 70-ci illərində Ağqoyunluların zülmlərinə dözməyən **dilağarda** tayfasının Cənubi Azərbaycandan gəlib burada məskunlaşması nəticəsində yaranmışdır. Dilağardalıların bir qismi isə XIX əsrin 20-ci illərində buraya gəlib. Kəndin adı *"qobuda məskunlaşmış dilağardalılar"* mənasındadır. Yaxınlıqdakı dağ da öz adında **dilağarda** tayfasının adını daşıyır. Kənd erməni işğalçıları tərəfindən zəbt olunub.

## QOBU YAMACI

Qobu Dilağarda kəndi ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri **Qobu yamacı** adlanır. Oronim **qobu** və **yamac** sözlərindən ibarətdir. **Qobu** termini mənfi relyef forması ifadə edir. Bu terminin dialektlərimizdə **qobı, kobı, qovu, qobi, kovu** tələffüz formaları var. **Qobu** komponenti dilimizdə "dərə", "çökəklik", "su basan yer", "quru dərə", "susuz çay dərəsi", "dərin arx" və s. mənalarda işlədilir.

Bəzi araşdırıcılara görə, **Qobu yamacı** oronimi XIII əsrdə Orta Asiyanın monqolların tərkibində Azərbaycana gəlmiş türk tayfasının adı ilə bağlıdır. Ümumiyyətlə, tədqiqatçılar **qobu** terminini monqol əsilli söz hesab edirlər. Bu terminin iştirakı ilə Azərbaycan oronimiyasında **900** coğrafi ad qeydə alınmışdır...

Dağın və ya təpənin ətəyindən zirvəsinədək olan hissəsinə **yamac** deyilir. Adının tərkibində **yamac** termini iştirak edən oronimlərin sayı Azərbaycanda **1000**-dən çoxdur...



## QOÇ DƏRƏSİ

Arayatlı kəndi ərazisində qeydə alınan oronimlərdən biri **Qoç dərəsi** adlanır. Toponimin tərkibindəki **dərə** sözü mənfi relyef forması bildirən coğrafi termindir. **Dərələr** əsasən axar suların eroziya fəaliyyəti nəticəsində yaranan, xətti istiqamətdə uzanan və talbeq üzrə yeknəsək, əksərən qeyri-bərabər enən mənfi relyef formalarıdır. **Dərələr** yamac və dib hissələrə ayrılır. Oronimin tərkibindəki - **si** şəkilçisi mənsubluq ifadə edir.

**Qoç** - qoyunların törədicilərinə deyilir. Adətən, damazlıq keyfiyyətlərinə görə ən yaxşı qoçlardan istifadə edilir. Damazlıq **qoçlar** ayrıca saxlanılır və hər gün demək olar ki, 5-6 saat gəzintiyə buraxılır. Azərbaycanda **qoç** heyvan adı ilə bağlı çoxlu sayda coğrafi ad qeydə alınmışdır. **Qoç dərəsi** toponimi həmin dərədə tez-tez **qoçların** olması, gəzintisi ilə əlaqədar yaranmışdır.

## QOÇƏHMƏDLİ KƏNDİ

**Qoçəhmədli kəndi** rayon mərkəzindən 8 kilometr cənubda, Qarabağ silsiləsinin ətəyində, Füzuli-Cəbrayıl şosse yolunun 3 kilometrliyində yerləşir. Min nəfərə yaxın əhalisi var. Əhalinin əsas məşğuliyyəti taxılçılıq, heyvandarlıq və üzümçülükdür. Kənddə orta məktəb, kitabxana, klub, tibb məntəqəsi, XVII-XIX əsrlərə aid körpülər, kəhriz (XIX əsr), XVIII və XIX əsrlərə aid memarlıq abidəsi olan məscidlər və s. var. Qoçəhmədli zəhmətkeşləri bəy və xan zülmünə, çar müstəmləkəçilərinə, xarici müdaxiləçilərin hökmranlığına qarşı həmişə fəal mübarizə aparmışlar...

Kəndin adı iki komponentdən ibarətdir: **qoç** burada *"igid", "cüssəli", "qəhrəman"* mənasındadır, **əhmədli** sözü isə etnonimdir. *Qoçəhmədli* bu kənddə ilkin məskunlaşmış nəslin adıdır. Kənd hazırda işğal altındadır...

1593-cü ilə aid Osmanlı qaynağına görə, Gəncə-Qarabağ əyalətinin Dizaq nahiyəsində **Qoçəhmədli** adlı kənd mövcud

olmuşdur. Sonrakı dönəmlərdə də **Qoçəhmədli** kəndinin adı çəkilir. 1727-ci ilə aid olan "Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri" tarixi sənədində Qoçəhmədli kəndinin də adı var. Bəzi tarixi qaynaqlarda kəndin adına **Köçəhmədli** (yaşayış məntəqəsinin adının qədim forması) şəklində də rast gəlirik. Vaxtilə (Xanlıq dönəmində) Xırdapara-Dizaq nahiyəsinə tabe olan kəndlər siyahısında bu yaşayış məntəqəsinin də adı vardı. XVIII əsrdə kəndin kovxası Əli ağa Şahverdi ağa oğlu olub. O, Usta Vəliməmməd ağa Dizağinin nəvəsi idi...

1797-ci ildə Ağaməhəmməd şah Qovanlı-Qacarın Qarabağda yandırdığı kəndlərin siyahısında **Qoçəhmədli** və Sərdarlı kəndlərinin də adı var. 1823-cü il bilgisinə (kameral sorğu) görə kənddə **37**, 1842-ci ildə **42**, 1849-cu ildə **47**, 1863-cü ildə **62**, 1873-cü ildə **80**, 1886-cı ildə **85** tüstü olmuşdur.

**Qoçəhmədli kəndi** tarixən mərd insanları ilə zəngin olmuşdur. XX əsrin əvvəllərində bu kənddən Xanlar Səfərəliyev, Gəncəli Səfərəliyev, Mirzalı Səfərəliyev, Məmmədxan Məmmədxanov, Zülfüqar Hüseynov, Əbil Məmmədov, Məmmədqulu Məmmədov, Heydər Heydərov kimi fəhlə hərəkatının öncülləri, məşhur inqilabçılar çıxmışdır.

Qoçəhmədli kəndinin **kovxalı, dəlləkli, kərbəlayi-məmmədqulular, allahverənlər, qaraməmmədlilər, məmmədxanlılar, səfərəlilər, budaqlılar, ocaqqulular, mustafalar, allahverdilər, bayramlılar, allahyarlılar, namazlılar, musalar, qaradağlılar, əlişahverdilər, muradəlilər** və başqa tayfaları vardır...

XIX əsrdə rus üsul-idarəsi dönəmindəki 1823-cü il kameral siyahıya alınmaya görə Qoçəhmədli kəndində yaşayan əhali haqqında ümumi siyahı (23 tüstü vergi ödəyirdi) verilmişdir. O zaman kəndin kovxası Məşədi Hacı bəy Vəliməhəmməd ağa oğlu idi. Əvvəllər kəndin kovxası onun atası olmuşdur. 1840-cı illərdə kəndin kovxası Kərim bəy Vəliməhəmməd oğlu, ondan sonra Məşədi Məmmədəli yüzbaşı Əsgər oğlu olub. 1842-ci il tarixli sənədlərinə görə kənddə bəy rəiyyətləri və dövlət kəndliləri də



yaşamışlar: Quşçu Yusif bəy Kərbəlayi İmamverdi bəy oğlu Cuvarlının, polkovnik Cəfərqulu xan Məhəmmədhəsən ağa oğlu Sarıcalı - Cavanşirin, Əbdüləzim bəy Əbdürrəhman bəy oğlu Cəbrayıllının kəndxuda Əbdürrəhim bəy İbrahim ağa oğlu Qarğabazarlının rəncbərləri və rəiyyətləri...

## QORQAN KƏNDİ

**Qorqan kəndi** rayon mərkəzindən 9 kilometr şərqdə yerləşir. Əhalisi üzümçülük, heyvandarlıq, taxılçılıqla məşğul olur. Kənddə klub, məktəb, kitabxana, məscid (XIX əsr) və s. vardır. Hazırda kənd işğal altındadır.

**Qorqan** sözü "oddan qorunmaq" mənasını daşıyır. Tarixdən məlumdur ki, **Qorqan** adlı İranın şimal-şərqində həm vilayət, həm də şəhər mövcud olub. Xəzərin qədim adlarından olan *Corcan (Cürcan)* **"korkan"** sözünün ərəbcə ifadəsidir. **"Korkan"** farsca *"qurd"*, *"canavar"*, *"canavar yurdu"* deməkdir.

**Qorqan obası** mənbələrin verdiyi məlumatlara görə, **Hacılı** icmasına qatılan şenliklərdən biridir. Bu oba **Aybasanlı** obasının bir qoludur. Son orta əsrlər dövründə (bəylərbəylik dönəmində) **Qorqan** qışlaq yeri olub. Tarixi qaynaqlar bildirir ki, bəylərbəylik dönəmində Cavanşir elinin Köçərli oymağının Hacı Əli uruğu bu qışlaqda əkinçiliklə məşğul olurmuş. Bu məlumat 1727-ci ilə aid Osmanlı qaynağında da öz əksini tapmışdır. **Qorqan qışlağı** Dizaq nahiyəsinə tabe idi.

Xanlıq dönəmində (XVIII əsrin II yarısı - XIX əsrin əvvəlləri) **Qorqan qışlağı** Hacılı icmasının qoyun yatağı yeri olub. Bir məlumatda deyilir ki, 1860-cı ildə Aybasanlı obasından olan milis praporşiki Almurad bəy Məmmədhüseyn oğlu öz qohum-əqrabası ilə bu yurda köçmüşdür. XIX əsrin sonlarında Qorqan qışlağının sahibi Cümşüd bəy Almurad bəy oğlu olub. 1873-cü ildə dövlət tərəfindən siyahıya alınma zamanı **Qorqan** obasının əhalisi Aybasanlı (Ayıbasanlı) ilə birlikdə yazılıb. 1886-cı ildə də **Qorqan**

**obasının** əhalisi dövlət tərəfindən siyahıya alınmışdır. **Qorqanlılar** cavanşir elinin **hacılı** icmasının bir qoludur. Qorqanlıları monqol əsilli tayfa kimi də əlaqələndirənlər var...

Qorqan obasının əhalisi əsasən heyvandarlıq və əkinçiliklə məşğul olurdular. Bu obada bir neçə tayfa yaşayırdı. Bunlardan biri **Məmmədhüseynuşağı tayfası** idi. Bu tayfa XVIII əsrin sonu və XIX əsrin əvvəllərində Aybasanlı obasında yaşamışdır. Məmmədhüseynin **Almurad, Atakişi** və **Sadıq** adlı oğlanları olmuşdur. Almurad 1818-ci ildə Aybasanlı obasında doğulmuşdur. Əvvəl o, molla yanında oxumuş, sonra çar üsul-idarəsində milis heyətinə başçılıq edərək praporşik, daha sonra bəy rütbələri almışdır. Almurad bəyin **Cümşüd bəy** adlı oğlu, **Nənəş xanım** adlı qızı olub. Cümşüd bəyin (1862-1922) **Cəmil bəy** adlı oğlu, Zivər xanım adlı qızı vardı. Hüseynin ikinci oğlu Kərbəlayi Atakişi (1820-1890) bəyin **Babakişi, Alim, Əmiraslan, Mustafa** və **Xanlar** adlı oğlanları olubdur. Məmmədhüseynin üçüncü oğlu **Sadığın** (1822-1892) Əsəd, Mehdi, Məmmədhüseyn adlı oğulları var idi. Məmmədhüseyn (1855-ci ildə doğulub) ailədə "Baba" çağırıldığı üçün el arasında onu **Baba kimi** də tanıyırdılar...

"Tarixin atası" Herodot (e.ə. V əsr) və coğrafiyaçı alim Strabon (e. ə. I əsr) Xəzər dənizindən və onun sahilində yaşayan tayfa və qəbilələrdən bəhs edərkən **"qirkan", "qurqan"** tayfasının adını çəkirlər. Oykonimi XIII əsrdə monqolların tərkibində Azərbaycana gəlmiş türk mənşəli **qurqan** tayfasının adı ilə də bağlayanlar var...

**Qorqan** sözündəki **"qor"** - **"od"** mənasındadır. **"Qan"** forması isə etimoloji baxımdan mənaca Azərbaycan dilindəki **"-cı", "-cü"** şəkilçilərinə uyğun gəlir. **"Qan"** forması etimoloji baxımdan fars dilində bazirqan, dehqan və s. sözlərdə işlənən Azərbaycan dilindəki **"-cı"** şəkilçisinin birləşərək əmələ gətirdiyi sözlərin məzmununa uyğun gəlir. Bəzi alimlərin fikrincə, toponim monqolların tərkibindəki **kurkan** türk tayfasının adını özündə əks etdirir. Toponimi **"qəbir-təpə", kurqan** sözü ilə də əlaqələndirirlər. Bəzi araşdırıcılar belə hesab edir ki, **Qorqan (Gürgan)**



sözündəki **qor (gür)** - *"Qor allahı"*, **qan (gan)** termini isə qədim türk dilində **"xan", "şah", "ata"** anlamındadır...

**Qorqan** toponiminə Gültəkin abidələrində şimal-şərq qrupu türk qəbilələrindən birinin adı kimi **Kurıkan (Quriqan)** formasında rast gəlmək mümkündür. **"Kurkan"** süni surətdə yaradılan *"qapı"* və *"təpə"* mənasını daşıyır.

Hazırda **qorqan** termini ilə bağlı Abşeronda **Gürgançay,** Talış zonasında **Hirgan meşəliyi,** Cənubi Azərbaycanda **Qurqan** (indiki Astrabad) şəhəri, Dəvəçi rayonunda **Qorqan kəndi,** Qax rayonunda **Qorağan kəndi,** Bakıda, Pirallahıda **Gürgən** adlı şəhər tipli qəsəbə və s. var.

## QONAQGÖRMƏZ

Horadiz kəndində qeydə alınan oroqrafik obyektlərdən biri də **Qonaqgörməz** adlanır. Buradakı hündür təpəliyin arxası, **görünməz** yeri el arasında **qonaqgörməz** adlandırılmışdır. Bu coğrafi ad ilə bağlı bir çox rəvayətlər də vardır...

## QOŞA BULAQ

**Qoşa bulaq** hidronimi Füzuli rayonu ərazisində qeydə alınmış coğrafi adlardandır. Bu bulağın çox soyuq və şəffaf suyu var. Hidronim **qoşa** və **bulaq** sözlərindən ibarətdir. **Bulaq** apelyativi ilə bağlı Azərbaycanda yüzlərlə hidronim qeydə alınıb. Toponimin tərkibindəki **qoşa** sözü həmin bulaqla yanaşı, ərazidə digər bulağın da olmasını ifadə edir.

## QOŞAÇİNAR

İşıqlı kəndi ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri **Qoşaçinar** adlanır. **Qoşaçinar** coğrafi adı **qoşa** və **çinar** sözlərindən ibarətdir. Toponim buradakı 2 yanaşı olan çinar ağaclarının adı ilə əlaqədar olaraq belə ad almışdır. Bu çinarların yaşı 500 ildən çoxdur. Çinarın birinin koğuşunun uzunluğu 5 metrdir. O biri çinar ağacının da gövdəsi 3 metrdən çoxdur. Mütəxəssislər bu çinarların 500 illik tarixi olduğunu ehtimal edirlər...

## QOŞAKƏHRİZ

Horadiz kəndi ərazisində qeydə alınan coğrafi adlardan biri **Qoşakəhriz** adlanır. **Qoşakəhriz** Təpə kəhrizi ilə Muxtar kəhrizinin birləşdiyi yerdədir. Burada Qarağan təpə yaxınlığında, Dəli çayın kənarında vaxtilə pilləkənli quyu olmuş və adamlar da pilləkənlərlə düşüb oradan su götürərmişlər. Buranın suyu çox şirin və duru idi...

## QOTUR BULAQ

Rayon ərazisində qeydə alınan hidronimlərdən biri **Qotur bulaq** adlanır. Bu bulağın suyunun müalicəvi əhəmiyyəti var. Bulağın suyu bəzi xəstəliklər, o cümlədən, **qoturluq** xəstəliyi üçün yararlı olduğu üçün el arasında bu **bulaq** belə adlandırılmışdır...

Türk dillərində **qotur** sözünün "dalğavari yüksəklik" mənası da var. **Qotur** sözü ilə bağlı Azərbaycanda onlarla toponim meydana gəlib...



## QOZDİBİ KƏHRİZİ

Füzuli rayonunun Horadiz kəndi ərazisindəki böyük bağ sahəsində kəhrizlərdən biri **Qozdibi kəhrizi** adlanır. **Kəhriz** - qrunt sularını toplayıb yer səthinə çıxarmaq üçün yeraltı qurğudur. Kəhrizlərin lağımları bir-biri ilə şaquli quyular vasitəsi ilə birləşdirilir. Adətən, kəhrizləri peşəkar kankanlar qazır. XX əsrin ortalarında Azərbaycanda **900**-dən çox **kəhriz** olmuşdur. **Qozdibi kəhrizi** hidronimi **qoz** ağacının **dibində** olduğu üçün belə adlandırılmışdır.

## QOZLU DƏRƏ

Qacar kəndi yaxınlığında qeydə alınan oroqrafik obyektlərdən biri **Qozlu dərə** adlanır. **Dərə** mənfi relyef forması bildirən coğrafi termininin iştirakı ilə Azərbaycan oronimiyasında **30.000** coğrafi ad qeydə alınıb. **Qoz** meyvə ağacının adını bildirən sözdən düzələn yüzlərlə oronim vardır. **Qozluqaya** (Zəngilan rayonu), **Qozludağ** (Tərtər, Cəbrayıl rayonları), **Qozlu qobu** (Qəbələ rayonu, Mıxlıqovaq kəndi), **Qozlu təpə** (Tərtər rayonu), **Qozludərə** (Ağsu, Babək, Qax, Zəngilan, Füzuli, Şəmkir rayonları), **Qozlu çuxur** (Kəlbəcər rayonu) və s.

## QOZLUÇAY, QOZLUÇAY GÖLÜ

Füzuli rayonunda uzunluğu 28 km, hövzəsinin sahəsi 100 kv. km olan çay. Arazın sol qolu. 1520 metr hündürlükdən, Qarabağ silsiləsinin yamacından başlanır. Yağış suları ilə qidalanır. Əksər vaxt quruyur. Axarlığı müvəqqəti olan Qozluçaydan suvarmada geniş istifadə olunur. Ərazidə **Qozluçay gölü** adlanan hidronim də qeydə alınıb. **Qozluçay** toponimi **qoz** bitkisinin adı ilə bağlıdır. Sahillərində çoxlu **qoz** ağacları, **qoz** bağları olduğu üçün hidronim

**Qozluçay** adlanır.

Tarixdən məlumdur ki, **Qozluçay** sahilində Səfəvi-Osmanlı müharibələri zamanı çoxlu qanlı döyüşlər olmuşdur. 1604-cü ildə Gəncə bəylərbəyi Davud Paşa yeddi min nəfərlik qoşunu ilə I Şah Abbas tərəfindən Qarabağa göndərilən Hüseyn xan Qacarı **Qozluçay** ətrafında məğlub edərək onu geri çəkilməyə məcbur etmişdir. **Qozluçay** vadisində çoxlu maddi-mədəniyyət abidələri aşkar olunmuşdur.

XIX əsrə aid sənədlərdə Qarabulaq nahiyəsinə daxil olan **Qozluçay obası** tərkibində Mandı, Rəfədinli, Güzlək, Gorazıllı, Saracıq, Əhmədbəyli kəndlərinin adı göstərilir...

Şamaxıda da **Qozluçay** adlı çay var...

## QOZLUDƏRƏ

Azərbaycanda **qoz** bitkisinin adı ilə çoxlu oroqrafik obyekt adları vardır. Füzuli rayonunun Qarakollu kəndi ərazisində qeydə alınan **Qozludərə** oronimi də məhz belə adlardandır. Rayonun cənubunda yerləşən bəzi kəndlər **Qozludərədə** yerləşir. Bu ərazilərdə **qoz** ağacının bol olduğu üçün toponim belə adlanmışdır.

**Qoz** bitkisinin adı ilə respublikamızda çoxlu kənd, qəsəbə, dərə, dağ, körpü, çay, bulaq və s. vardır. Məsələn, **Qozludağ** (Ağrə, dağ, körpü, çay, bulaq və s. vardır. Məsələn, **Qozludağ** (Ağsu, Babək, Qax, Zəngilan, Cəbrayıl, Şəki), **Qozludərə** (Ağsu, Babək, Qax, Zəngilan, Tovuz, Şəmkir), **Qozlukörpü** (Kəlbəcərdə kənd), **Qozluçay** (Şamaxıda və Füzulidə çay), **Qozlubulaq** (Şəkidə qəsəbə), **Qozlu çuxur** (Kəlbəcər), **Qozlu kəndi** (Kəlbəcər, Laçın), **Qozağacı kəndi** (Siyəzən), **Qozbabalı kəndi** (Dəvəçi), **Qozqaralı** (Gədəbəy) və s.



## QUMQAZILAN

İşıqlı kəndinin Qarğabazar tərəfə olan istiqamətində yerləşən təpəcik yerli əhali tərəfindən **Qumqazılan** adlandırılmışdır. Həmin ərazinin torpaq suxurları qazılanda **qum** kimi ovulduğundan belə adlandırılmışdır...

## QURDLU BULAQ

Adının tərkibində **bulaq** hidronimik apelyativi olan coğrafi adlardan diri də Füzuli rayonunun Horadiz kəndi ərazisində qeydə alınmış **Qurdlu bulaq** toponimidir. Hidronim **qurd** və **bulaq** sözlərindən, eləcə də, **-lu** şəkilçisindən ibarətdir. **Qurdlar** - bədən divarı dəri və əzələdən ibarət olan onurğasız heyvanlar qrupudur. Yeraltı suların yerüstü təbii çıxışına **bulaq** deyilir. **Bulaqlar** temperaturuna görə soyuq, ilıq, termal (isti) və hipotermal (çox isti) olur. Bulaq **qurdlu** olduğu üçün belə adlandırılmışdır.

## QURUÇAY
## (Quruçay mədəniyyəti)

Füzuli və Xocavənd rayonlarında çay. Araz çayının sol qolu, uzunluğu 82 km, hövzəsinin sahəsi 512 kv. km-dir. Quruçay öz mənbəyini 2725 metr hündürlükdən Böyük Kirs dağından götürür. **Quruçay** əsasən yağış suyu ilə qidalanır. Allı və İşxan çaylarının birləşməsindən əmələ gələn Quruçayın suyundan suvarmada geniş istifadə olunur. Yay aylarında çayın suyu azalır, bəzən də tamamilə **quruyur.** Bəlkə də, bu səbəbdən çay belə adlanır.

İki milyon il bundan əvvəl **Quruçay** bəşər tarixində ilk ikiayaqlının yeriməsinin, bu canlının ayaq üstdə irəliləməsinin "şahidi olub". Quruçayın sol sahilində yarımtüklü bədənləri tam

çılpaq, qolları müasir insan qolundan uzun, çənəsi irəli çıxan, meymundan daha çox insana oxşayan ikiayaqlılar məskən salmışlar. Ölkəmizin ən qədim sakinləri (Azıx mağarası sakinləri - *N.Tapdıqoğlu*) yüz min illər bundan əvvəl Quruçay vadisində yaşamışlar.

Azıxantropun məskəni Azıx mağarası Quruçayın sol sahilində yerləşdiyinə görə mağaradan aşkar edilən qədim daş dövrü nümunələrinin təhlilini tədqiqatçılar **"Quruçay mədəniyyəti"** adlandırırlar. Quruçay mədəniyyətinin 1,2 milyon il bundan əvvəl başlandığı, 700 min il əvvəl sona çatması müəyyən olunub...

XX əsrin 20-ci illərinin ortalarında görkəmli arxeoloq, etnoqraf alimimiz Ə.Ələkbərov yerli əhalinin həyat tərzini öyrənmək məqsədilə Quruçay vadisində tədqiqat işləri apararkən, ölkəmizin ərazisində ilk dəfə küp qəbirlərinə rast gəlmiş və bununla da əvvəllər mövcud olan ehtimalları xeyli dəqiqləşdirmişdir. **Quruçay dərəsi** bir tərəfdən Qarabağın dağətəyi ərazisi ilə, digər tərəfdən isə Mil düzü ilə əhatələnmişdir.

**Quruçay vadisi,** Azıx və Tağlar mağaraları yerləşən ərazidən ibtidai insanlar əmək alətləri hazırlamaq üçün xammal mənbəyi kimi istifadə etmişlər. Ölkəmiz ərazisində **Quruçay mədəniyyəti** ən qədim arxeoloji mədəniyyət hesab olunur. Tədqiqatlar nəticəsində **Quruçay mədəniyyəti** dövründə qədim insanların ovçuluq və yığıcılıqla məşğul olmaları müəyyən edilmişdir. Azərbaycan ərazisində bəşər tarixi Quruçay mədəniyyəti dövründən başlanır.

**Quruçay** oronimi suyunun rejim xüsusiyyətlərinə görə adlandırılan oronimlərdəndir. Quruçay oroqrafik obyektinin adındakı **"quru"** sözü yayda çayın qurumasına işarə olaraq *"susuz çay"* mənasındadır.

Quba və Xaçmaz rayonları ərazisində də **Quruçay** adlı çay vardır.



## QUŞOTURAN

Azərbaycanda quş heyvan adı ilə bağlı onlarla oronim qeydə alınmışdır. Onlardan biri də Füzuli rayonunun Əbdürrəhmanlı kəndi ərazisində qeydə alınmış **Quşoturan** coğrafi adıdır. Toponim həmin sahədə **quşların** enib **oturması** ilə əlaqədar yaranmışdır.

**Quşlar** - dərisi nazik və ikitəbəqəli, sümük törəmələri və vəziləri olmayan, örtülü çalma, sükan və örtücü lələklərdən və pərqudan ibarət olan onurğalı heyvan sinfidir. **Quş** adı ilə bağlı toponimlərə Azərbaycanın demək olar ki, bütün bölgələrində rast gəlmək mümkündür.

Füzuli rayonunun Horadiz kəndi ərazisində də **Quşotaran** oroniminə rast gəlirik...

## QUŞTƏPƏ DAĞI

Azərbaycanda quşların (ornotofauna) adı ilə bağlı bir çox coğrafi adlar yaranmışdır. Belə adlardan biri də Füzuli rayonu ərazisindəki **Quştəpə** dağıdır. **Quştəpə dağı** Köndələnçay ilə Quruçayın arasında yerləşir. Orada çoxlu **quşun** olması ilə əlaqədar olaraq **dağ** belə adlandırılmışdır. Ümumiyyətlə, **"quş"** adı ilə əlaqədar Abşeronda **Quşqaya,** Qusarda və Bakıda **Quşqala,** Ordubadda **Quşdaş,** Qaradağda **Quşqaya,** Şahbuzda **Quşqayası** dağ adları mövcuddur. Lakin bu toponimlərin heç də hamısı **"quş"** zoonimi ilə əlaqədar deyildir. Bu toponimlərin bəzisi qədim türk mənşəli **(quşçu, quşan, quşi)** tayfasının adını özündə əks etdirir...

## LEYLİ HASARI

Böyük Bəhmənli kəndi ərazisində, Araz çayı sahilində qeydə alınan oroqrafik obyektlərdən biri **Leyli hasarı** adlanır. Bu hasarın qalıqları XX əsrin 70-ci illərinə qədər dururdu. **Hasar** bişmiş kərpicdən tikilmişdir. Dövrünün peşəkar usta-memarı tərəfindən inşa olunan bu **hasar** tikilisi, yerli məlumata görə, Bəhram Gavur (?) adlı nüfuzlu adamın qızı **Leylinin** şərəfinə ucaldılmışdır. Təəssüflər olsun ki, bu tarixi memarlıq abidəsi baxımsızlıq ucbatından uçulub-dağılmış, sıradan çıxmışdır...

## LƏLƏ DÜZÜ, LƏLƏ YERİ

**Aşıq Lələ** məşhur bayatı ustası olmuşdur. Haqq aşığı olan Lələnin doğum və ölüm tarixi dəqiq bilinmir. Azərbaycanı qarış-qarış gəzən **Lələ** harada olubsa, orada özündən bir iz qoyub, Cəbrayıldan, Füzulidən tutmuş Qaradağlı, Ərdəbil, Qax, Zərdab, Lerik, Astaraya qədərdir bu izlər. **Lələ yeri, Lələ yurdu, Lələli, Lələkəpeştə, Lələdulan, Lələkəran...** oymaqları.

Füzuli rayonunun Böyük Bəhmənli kəndində **Lələli məhəlləsi,** Yuxarı Yağlıvənd obasında **Lələli oymağı,** Cəbrayıl rayonunun Maralyan kəndi yaxınlığındakı **Lələ təpəsi,** Nüzgər kəndi yaxınlığında **Lələ yaylağı** və neçə-neçə bu qəbildən olan digər coğrafi adlar **Aşıq Lələ** adı ilə bağlıdır. Deyilənlərə görə aşığın son mənzili Qazaxlar kəndi yaxınlığındakı Arğalı qəbristanlığındadır...

**Lələ düzü, Lələ yeri** ta qədimdən Horadiz kəndinin əkin sahəsi olub. Bu **yer** üstündə vaxtilə 1952-ci ildə Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin adamları ilə Horadiz kəndinin sakinləri arasında böyük mübahisə düşmüş və bu mübahisə sonra 4 saata qədər davam edən əlbəyaxa döyüşə çevrilmişdir. Nəticədə hər iki tərəfdən çoxlu yaralananlar olmuşdur. Horadiz kəndinin qadınlarının ortalığa baş örtüyü atmaları ilə davanı yatırmaq



mümkün olmuş, bununla da, **Lələ düzü, Lələ yeri** torpaq sahəsi məsələsinə son qoyulmuşdur. Beləliklə, həmin **düz** və **yer** Horadiz kəndinin ərazisi olaraq qalmışdır...

## LƏLƏLİ BULAQ

Yağlıvənd kəndi ərazisində qeydə alınan hidronimlərdən biri **Lələli bulaq** adlanır. Hidronim **Lələ** sözündən, **-li** mənsubluq ifadə edən şəkilçidən və **bulaq** hidronimik apelyativindən ibarətdir. Bu bulağın çox soyuq və şəffaf suyu vardır. Hidronim çox güman ki, məşhur bayatı ustası olan **Aşıq Lələ** adı ilə əlaqədar yaranmışdır...

## MAĞARA TƏPƏSİ

Babı kəndi ərazisində qeydə alınmış oroqrafik obyektlərdən biri **Mağara təpəsi** coğrafi adıdır. Bu oronimlə bağlı belə bir əfsanə - rəvayət danışılır:

-1405-ci ildə Əmir Teymurun ölüm xəbərini eşidən Şirvanşah I İbrahim Teymurilər dövlətinin asılılığından çıxdığını elan edərək, ona xərac verməkdən imtina edir. Teymurun oğlu Ömər Mirzə bu xəbəri eşidəndə İbrahimi cəzalandırmaq üçün Şirvana tərəf irəliləyir. Şirvan torpaqlarında müharibənin olmasını istəməyən I İbrahim Ömər Mirzənin ordusunu yolda qarşılamaq fikrinə düşür.

Ömər Mirzə öz ordusu ilə Araz çayının cənub sahilində, I İbrahim isə şimal sahilində, Babı kəndi ərazisində qarşı-qarşıya dayanırlar. Hər iki sərkərdənin o dövr üçün çox əzəmətli orduları vardı. Onlar arasında şiddətli döyüşlər olur. Deyilənə görə, Babı kəndinin yaxınlığında baş verən bu döyüşdə yüzlərlə ölmüş əsgərin cəsədi qalaqlanaraq yerli əhali tərəfindən indi **Mağara təpəsi** adlandırılan bu təpəni əmələ gətirmişdir...

## MAHMUDLU KƏNDİ

Qaynaqlardan məlum olur ki, **Mahmudlu** obası **Hacılı** icmasına daxildir. Bu oba **Cavanşir** elinin **Köçərli** oymağından çıxıb. Bir mənbəyə görə, bu obanın camaatının ulu babalarından birinin adı **Hacı Yusif ağa** olub. O, **Birinci Mahmudun** atasıdır. Mahmudluların qoçaqlıqlarına görə **hacılı** icması arasında xüsusi yeri olub. Qeyrətli, qoçaq **mahmudlular** haqqında el arasında: "rus yox, mahmudlu yox, daha nədən qorxacaqsan? - məsəli dillərdə dolaşmaqdadır...

Füzuli-İmişli-Cəbrayıl zonasında 6 yerdə təkrarlanan **Mahmudlu** oykonimlərini bir-birindən fərqləndirmək üçün kəndlərin yaranma ardıcıllığını bildirən sözlərdən **(Birinci Mahmudlu, İkinci Mahmudlu, Üçüncü Mahmudlu)** istifadə olunmuş, qalan **Mahmudlu** toponiminin biri adını daşıdığı məntəqənin vaxtilə mənsub olduğu zümrəni göstərən **seyid** adını **(Seyidmahmudlu kəndi),** digəri isə vaxtilə əhalisinin müəyyən hissəsinin əvvəllər mənsub olduğu etnik qrup adını **(Kürdmahmudlu kəndi)** artırmaqla diferensiallaşdırılmışdır.

Bəzi mənbənin verdiyi məlumatda qeyd olunur ki, 1727-ci ildə **Köçərli** obasından ayrılan **Mahmudlu** soyu Dizaq nahiyəsinin Ziyad qışlağında binələyirdi. Osmanlı qaynağında da **Mahmudlu** soyu haqqında bilgilər vardır. Orada göstərilir ki, **Cavanşir** tayfasının **köçərli** oymağı Dizaq nahiyəsinin tərkibində olan Kəlli, Zəvicik (Zavıcıq) və Quru çaylarının kənarında, çərəkən, Köndələn, Tülyan, Qaradağlı və Ərşə adlı qışlaqlarda əkinçiliklə məşğul olur, İrəvan əyalətinin Bork adlı yerində yaylayırlar.

Ərşə adlı ərazidə tikililəri olan Köçərli oylağı Dizaq nahiyəsində, Soyudaş adlı arxın kənarında əkinçiliklə məşğul olurdular. Ümumilikdə Qarabağa tabe olan Köçərli oymağının Tayasoyuq adlı qışlaqları və Qaragüney adlı yaylaqları da olmuşdur. Tarixi şəraitlə əlaqədar olaraq bu obanın bəzi nəsilləri sürgün olunmuş və sürgündən qayıtdıqdan sonra **hacılı** icmasının tərkibinə daxil olmuşlar. **Mahmudlular** Qarabağ xanlığının siyasi həyatında da mühüm rol oynamışlar.

1842, 1849, 1863, 1873 və 1886-cı illərdə **mahmudlu** obasının



əhalisi dövlət tərəfindən siyahıya alınıb. Həmin dövrün siyahıyaalınmalarında Mahmudlu obasında yaşayan bəylərin ***(Praporşik Həsən bəy Cəfər bəy oğlu, Fətəli bəy Cəfər bəy oğlu, Hacı Hüseynqulu bəy Səhliyalı bəy oğlu, Həsənqulu bəy Səhliyalı bəy oğlu, Mahmud bəy Səhliyalı bəy oğlu, Ağa bəy Hüseyn bəy oğlu, Teymur bəy Hüseyn bəy oğlu, Heydər bəy Hüseyn bəy oğlu, Şükür (Şirin) bəy İbrahim bəy oğlu, Firudin bəy Həsən bəy oğlu və onların övladları)*** də adı göstərilmişdir (Əlavə məlumat üçün bax: **Birinci, İkinci, Üçüncü Mahmudlu kəndləri**).

**Mahmudlu obasının tayfaları** bunlardır:

**Cəfərbəyli (Cəfərbəyuşağı)** - Cəfər bəy Kərbəlayi Mahmud ağa oğlu XVIII əsrin II yarısı, XIX yüzilliyin əvvəllərində yaşayıb. Çox varlı və hörmətli ağalardan olan **Cəfər bəyin** Qasım, Fətəli, Həsən, Hüseyn, Paşa, İsgəndər adlı oğulları olmuşdur. Bu tayfanın **Qasımbəyli, Fətəlibəyli, Həsənbəyli, Hüseynbəyli, Paşabəyli** adlanan tirələri var...

**Səhliyalılar (Səhliyalı bəy uşağı)** - **Səhliyalı bəy** Kərbəlayi **Mahmud ağanın** ikinci oğludur. O, XVIII əsrin sonları və XIX əsrin əvvəllərində yaşayıb. İbrahimxəlil xan və Mehdiqulu xana xidmət göstərən Səhliyalı bəyin Hüseynqulu, Həsənqulu, İbrahim, Mahmud bəy adlı oğulları olub. Bu tayfanın Hacıhüseynqulular, Hacıhəsənqulular, İbrahimli, Mahmudbəyli adlı tirələri var...

**Hacıatalılar** - Kərbəlayi Mahmud ağanın oğullarından biri də **Atalıdır.** 1783-cü ildə Mahmudlu obasında doğulan **Atalı** heyvandarlıqla məşğul olmuş, müqəddəs Məkkəni ziyarət edib **"Hacı"** tituluna yiyələnmişdir. Onun **Qulaməli, Qəhrəman** adlı oğulları, **Hürü** adlı qızı vardı. Bu tayfanın **qulaməlilər, salahlılar, şamılar, şükürlülər, musalılar, əmirmuradlılar, hacıməmmədlilər, xasməmmədlilər, zülfüqarlılar** adlı tirələri var...

**İmamverdilər** - **İmamverdi** Mahmudlu obasının ulu babalarından biri olub. Heyvandarlıqla məşğul olan **İmamverdi bəyin** İsmayıl, Həşim, Kazım, İmamqulu və Tarxan adlı oğulları vardı. Bu tayfaya **ismayıllı, mikayıllı, həşimli, allahverənlilər, həsənqulular** adlı tirələr daxildir...

**Ələsgərlilər - Ələsgər (1816-1886)** Mahmudlu obasının ulu babası Kərbəlayi Mahmud ağanın heyvandarlıqla məşğul olan oğlu Namazın böyük oğlu idi. Namazın Ələsgərdən başqa Əli, Abdulla və Həzrətqulu adlı oğulları da olub. Kərbəlayi Ələsgərin **Rəhim, Səlim, Kərim, Nadir, Əmir, Əbil, Əbdul, Qoca, Məti, Baloğlan** adlı oğlanları vardı...

Qubadlı, İmişli, Cəbrayıl, Şəmkir rayonlarında da **Mahmudlu** etnonimi ilə bağlı kəndlər var...

## MANDI KƏNDİ

**Mandı kəndi** (bəzən adını **Mandılı** kimi də yazırlar) rayon mərkəzindən 17 km cənubda, Qozluçayın sahilində, dağətəyi düzənlikdədir. Əhalisi üzümçülük, heyvandarlıq və taxılçılıqla məşğul olur. Kənd erməni işğalçıları tərəfindən işğal olunmuşdur.

Kənddə alməmmədlilər, alhüseynlilər, dünyamalılar adlı tayfalar yaşamışdır. **Mandı** toponimi ilə bağlı bir çox fikir və təkliflər, güman və ehtimallar olsa da, toponimin mənası hələ dəqiq müəyyənləşdirilməmişdir. Vaxtilə kəndin başqa bir adı **Əlihüseynuşağı** olmuşdur.

Yerli məlumata görə, **Mandı** - torpağın adıdır. Vaxtilə Qarakollu kəndindən çıxmış **Alıhüseynli (Əlihüseynli)** adlı bir tayfa çox-çox əvvəllər burada məskunlaşmışdır...

## MARALLI DÜZ, MARALLI DƏRƏ

Füzuli rayonunda bir **düz** və **dərə** adı **Marallı düz** və **Marallı dərə** adlanır. Həmin düzənlikdə və dərədə vaxtilə rast gəlinən **marala** görə oronim belə adlanır. Bildiyimiz kimi, respublikamızın bir sıra ərazilərində nəcib marala rast gəlmək mümkündür. **Maral** çöl heyvanı adı və oroqrafik terminlərdən düzəlmiş oronimlərdən başqa ərazilərimizdə də var: **Maral dərəsi** (Qubadlı rayonu), **Maraluçan qaya** (Kəlbəcər rayonu), **Maralgöl** (Xanlar rayonu) və s.



## MEHDİ BƏY KƏHRİZİ

**Mehdi Bəy kəhrizi** Kürdlər kəndi ərazisindədir. Kəhrizin çox uzun tuneli var. Bu tunel kəndi iki hissəyə bölən təpəni aşıb o biri üzdəki dərədən üzə çıxır. Tunel üzərində təxminən 30 quyu qazılmışdır. **Kəhrizin** yer üstünə çıxan hissəsinin təpəyə söykənən tərəfi daşla hörülmüşdür. Hörgünün dibində daş nov da inşa edilib...

Yerli əhalinin dediyinə görə **Mehdi bəy** əslən Tuğ kəndindən olan varlı-mülklü bir nüfuzlu şəxs olub. Kürdlər kəndinin yeri də ona məxsus idi. XIX əsrin ortalarında İranda mövcud üsül-idarənin zülmlərinə dözməyən çoxları kimi Novruzlu adlı kəndin bir neçə tirəsi gəlib Əbdürrəhmanlı kəndi yaxınlığında, sonra Qarğabazar kəndinin aşağısındakı **Kollubulaq** deyilən yerdə, daha sonra indiki Kürdlər kəndində məskən salmışlar. Onların suya olan tələbatını nəzərə alan **Mehdi bəy** bu **kəhrizi** çəkdirir. Elə o zamanandan da **kəhriz** onun adı ilə adlandırılmışdır.

## MERDİNLİ KƏNDİ

Rayon mərkəzindən 9 km şərqdə, Qarabağ silsiləsinin ətəyində, Köndələnçayın sahilində, düzənlikdə yerləşən kənd. Əkin üçün çox yararlı olan münbit torpağı var. Kəndin əhalisi üzümçülüklə, taxılçılıqla və heyvandarlıqla məşğul olur. Kənddə məktəb, klub, kitabxana, məscid (XIX əsr), çoxlu daşdan yonulmuş qoç və at fiqurları heykəlləri və s. var. Erməni işğalçıları tərəfindən kənd 1993-cü il avqustun 23-də işğal olunmuşdur.

XIX əsr salnaməçisi Mirzə Yusif Qarabağinin "Tarixi-safi" əsərində bu toponimə rast gəlirik. Bəzi tədqiqatçıların fikrincə, **Merdinli** nəslinə mənsub ailələr bü ərazilərdə çox-çox əvvəllər, hətta, orta əsrlərdə yaşamışlar. Şuşa şəhərində Qutluqçuxur, Hacı Yusifli, Cuhudlar məhəllələrinin yaxınlığında **Merdinlilər** də məhəllə salmışlar. XVIII əsrin sonlarında quraqlıq, köçürmə, və başqa səbəblərdən həmin məhəllənin sakinləri **Merdinli** nəslinə

mənsub olan ailələrin yaşadığı indiki **Merdinli** kəndinə gələrək orada məskunlaşmışlar. Kənd qəbiristanlığında XVIII-XIX əsrlərə aid daşdan yonulmuş, ustalıqla düzəldilmiş çoxlu qoç və at fiqurları və heykəlləri vardır.

Tarixi məxəzlərin məlumatlarına görə **merdinlilər** Cavanşirlərin bir qoludur.

Bəzi məxəzlərdə kəndin adını **Mərdinli** kimi qeyd edirlər ki, bu da həmin nəslə mənsub olan insanların **mərd,** igid, qoçaq olduğundan xəbər verir. Herodota görə **Mərdi** tayfaları eramızdan əvvəl İran ərazisində, Xəzər sahillərində yaşamışlar. Hətta, Qavqamel döyüşündə (e.ə. 331-ci il) **mərdilər** də fars ordusu tərkibində albanlar, kadusilər və kirkanlarla bir sırada vuruşmuşlar.

**Merdinli** yaşayış məntəqəsini Cavanşir elinin bir qolu olan **merdinli** nəslinə mənsub olan ailələr saldığı üçün kənd də həmin nəslin adı ilə adlandırılmışdır...

## MEYNƏTƏPƏ

**Meynətəpə** rayon mərkəzindən 5 km şimal-şərqdə, Köndələn çayının sağ sahilində yerləşir. Tarixi bilgilərdən aydın olur ki, orada ilk tunc dövründə yaşayış yerləri olmuşdur. **Meynətəpə** üç ayrı-ayrı təpədən ibarətdir. Birinci təpə planda dairəvi olub, 1,5 metr hündürlükdədir. İkinci təpə birincidən 18 metr şərqdə yerləşir. Bu təpənin oturacağı düzbucaqlı şəklindədir.

Üçüncü təpə planda üçbucaq formalı olmaqla, ikinci təpədən 28 metr şərqdə yerləşir. Tədqiqatlar nəticəsində sübut edilmişdir ki, **Meynətəpə** tunc dövrü qədim yaşayış yerində bütün 3 minillik boyu yaşayış davam etmişdir. **Meynətəpə** ölkə əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidəsi hesab olunur.

Arxeoloji tədqiqatlar zamanı **Meynətəpə**dən çoxlu gil qablar, ocaq qurğuları, dən daşları, daş bıçaq, daş çəkic və s aşkara çıxarılmış, tədqiq edilmişdir. Ətrafında üzümlük sahələri olduğu üçün toponim el arasında **"Meynətəpə"** adı almışdır.



## MƏMMƏD BULAĞI

Füzuli rayonu ərazisində qeydə alınmış hidronimlərdən biri **Məmməd bulağı** adlanır. Bu bulağın dumduru, şəffaf və soyuq suyu var. Hidronimin tərkibindəki **Məmməd** sözü şəxs adını ifadə edir. Azərbaycanda **bulaq** hidronimik apelyativi ilə bağlı yüzlərlə, minlərlə bu tipli toponimlər var...

## MƏNGƏLƏNATA DAĞI

Rayon mərkəzindən 3 km qərbdə, hündürlüyü 720 metr olan dağ. **Dağ** özünün ən hündür yerində indi də xarabalığı qalan orta əsr abidəsi **Mingələn (Məngələn) ata** adlı qəbir-pirin adını daşıyır. **"Min", "Minq"** türkdilli tayfaları vaxtilə burada məskən salmışlar. Onların Azərbaycanda məskunlaşması Teymurləngin hücumları ilə əlaqələndirilir. **Məngələnata** dağı oronimi **"minq"** tayfasının adını bir tarixi abidə kimi yüz illərdir ki, qoruyub saxlayır.

Qədim bir əfsanəyə görə **Məngələn ata** tilsimli bir kişi imiş. Bir neçə yüz yaşı olan bu kişinin gözünün ağı-qarası bircə qızı varmış. Bir gün bərk susuzlayan **Məngələn ata** qızına deyir:

- Qızım, get bulaqdan mənə su gətir, yanıram, çalış tez gəl.

Qızın başı rəfiqələri ilə bulaq başında bərk söhbətə qarışdığından gecikir. Susuzluğa dözə bilməyən kişi bulağa gəlir, qızını rəfiqələri ilə söhbət edən görüb hirslənərək ucadan ona deyir:

- Səni görüm daş olasan, qızım, niyə gəlmirsən? Bilmirsən ki, susuzam?

Atanın bu qarğışından sonra qız elə o dəqiqə çiynində cürdək böyük daşa dönür...

## MƏRCAN BULAĞI

Horadiz kəndində qeydə alınan bu hidronim **mərcan** sözündən və **bulaq** hidronimik apelyativindən ibarətdir. **Bulaq** - yeraltı suların yer üstünə qaynayaraq təbii çıxışıdır. Temperaturuna görə bulaqlar soyuq, ılıq, termal (isti) və hipotermal (çox isti) olur. Bulağın **Mərcan** adlanması yerli məlumata görə, suyunun qaynayıb çıxardığı sahədə mərcangilə fəsiləsindən kolcuqların çox olması ilə əlaqədardır...

## MİRALILAR YALI

**Miralılar yalı** patronimik oronimlərdəndir. Patronimik oronim deyəndə nəsil və tirə adlarını daşıyan müsbət və mənfi relyef formalarının adları nəzərdə tutulur. Adətən hər bir nəsil və ya tirə müəyyən ərazidə qışlayır və ya yayı keçirirlər. Ona görə də bu nəsil və tirələrin yaşadığı yerlər onların adları ilə adlanmışdır. Belə toponimlərə aşağıdakı misalları nümunə gətirmək olar: Qafarlı qobusu (Göyçay rayonu), Ağalarbəyli dərəsi (Xanlar rayonu), Şərifxanlı təpəsi (Biləsuvar rayonu) və s.

## MİRƏLİ TÜRBƏSİ

Orta əsr memarlıq abidəsi sayılan, Aşağı Veysəlli kəndində yerləşən bu qülləvari türbə 3 pilləli kürsülük üzərində tikilib. Giriş qapısı türbənin səthindən xeyli irəli çıxmış, baştağ şəklində düzəldilmişdir. Türbənin silindr şəkilli gövdəsi konusvari künbəzlə tamamlanır. Hündürlüyü 17,7 metrdir. Bu türbə də Şeyx Babı və Əhmədalılar türbələri kimi yeraltı sərdabə və yerüstü gövdədən ibarətdir. Türbənin təxminən 9 metrlik yerüstü hissəsini 8,17 m hündürlüyə malik olan konusvari kümbəz, tamamlayır. Gövdə ilə kümbəzi bir-birindən karniz ayırır.





Portalın kənarları düzbücaqlı şəkildə məhdudlaşsa da, giriş aşırımı oxvarı tağbənd şəklindədir. Giriş qapısı ilə üzbəüz daxili divarda döşəmə səviyyəsindən 4,33 metr hündürlükdə kiçik pəncərə vardır.

**Mirəli türbəsi** yeraltı (sərdaba) və yerüstü hissələrdən ibarətdir. Yuxarı hissədən sərdabaya yol salınıb. Bu yol pilləvaridir. Məhz elə bu xüsusiyyət də **Mirəli** türbəsini eyni tipli başqa abidələrdən fərqləndirir. Kitabəsi qalmadığından türbənin dəqiq tikilmə tarixi və kim tərəfindən tikilməsi məlum deyildir. Bəzi sənəd və materiallarda türbənin XIV əsrdə tikildyi göstərilir. Bir çox mütəxəssislər türbənin XIII əsrin sonlarında tikildiyini qeyd edirlər...

**Mirəli türbəsi** Azərbaycanın ölkə əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələrindən hesab edilir. Türbə ilə bağlı çoxlu rəvayətlər var...

## MİRZƏCAMALLI KƏNDİ

Rayon mərkəzindən 5 km şərqdə, Qarabağ silsiləsinin ətəyində, Köndələnçayın sahilində yerləşən kənd. Əhalisi üzümçülük, taxılçılıq və heyvandarlıqla məşğul olur. Yaşayış məntəqəsi ərazisində əkinə yararlı sahələr çoxdur. Kənddə klub, kitabxana, məktəb və s. var. Kənd 1993-cü il avqustun 23-də ermənilər tərəfindən işğal olunmuşdur.

Kəndin adının **Mirzəcamallı** olmasını “Qarabağ tarixinin (“Qarabağnamə) müəlliflərindən biri **Mirzə Camal** Cavanşir Qarabağinin adı ilə bağlayanlar var. Qarabağ xanları nəslindən olan

vəzir və tarixçi **Mirzə Camal Cavanşirə** (1773-1853) məxsus ailələrin burada məskunlaşması nəticəsində indiki Mirzəcamallı kəndi yaranmış və onun adı ilə adlandırılmışdır.

**Camal bəy** 1773-cü ildə Hacılılara bağlanan **Gecəgözlü** obasında doğulub. Atası Məhəmmədxan bəy Şuşaya qalabəyi təyin edildikdən sonra Şuşa şəhərinə köçüblər. Buradakı mədrəsədə təhsil alan **Camal bəy** çox keçmir ki, fars, ərəb, türk, avar və ləzgi dillərini mükəmməl öyrənir. Bir müddət divanda katib kimi çalışdığına görə xalq arasında ona **"Mirzə"** - deyə müraciət edirlər. Molla Pənah Vaqifin ölümündən az sonra İbrahimxəlil xan baş vəzir vəzifəsinə divanxana katibi Mirzə Camal bəy Gecəgözlü - Cavanşiri təyin edir. 1822-ci ildə xanlığın ləğvi ilə əlaqədar Mirzə Camal rus hərbi idarəsi tərəfindən məhkəməyə işə keçirildi. On səkkiz il məhkəmə sistemində işlədikdən sonra Camal bəy 1840-cı ildə istefaya çıxdı. O, tibb elmini, həkimliyi gözəl bildiyi üçün ömrünün sonuna qədər adamları həkim kimi pulsuz müalicə etdi. Qarabağın əksər mahallarında çoxlu mülkü olduğu üçün onu böyük mülkədar kimi də tanıyırdılar. Zəngin kitabxanası olan **Mirzə Camal bəy Cavanşir** həm də gözəl tarixçi idi...

**Mirzəcamallıbəy obası** Cavanşir elinin **hacılı** icmasına daxil olan obalardan biridir. Xanlıq dönəmində Cavanşir əsilli obalar imtiyazlı olduqlarından heç bir bəyə, ağaya bağlı ola bilməzdi. Xanlıq dağıldıqdan sonra Mehdiqulu xan bu obanı **Mirzə Camal bəyə** və qardaşları Qasım bəyə, Sadıq bəyə vermişdir. 1842-ci ilə aid olan bir mənbədə göstərilir ki, obaya Əliməmməd Əli oğlu, 1848-ci ilin bilgisinə görə isə, Qəhrəman Abdin oğlu başçılıq edib. Sonrakı dövrdə obanın yüzbaşısının Tapdıq Mehralı oğlu olduğu göstərilir. Hələ 1842-ci ildə obanın əhalisi dövlət tərəfindən siyahıya alınıb. Həmin siyahının önündəki qeyddə göstərilib ki, **Mirzəcamallı** obası Mirzə Camal bəy, Qasım bəy və Sadıq bəy Məhəmmədxan bəy oğullarının idarəsindədir.

1849-cu il siyahıyaalınmasında da belə qeyd vardır. 1853-cü il siyahıyaalınmasında göstərilir ki, obanın əhalisi Məmməd yüzbaşı Məmmədyar oğlunun və Mirzə Camal bəyin idarəsində olmuşdur.



Ümumiyyətlə, qaynaqlar xəbər verir ki, **Mirzəcamallı obası** ötən XIX əsrdə 1842, 1849, 1863, 1873, 1886-cı illərdə dövlət tərəfindən siyahıya alınmışdır.

Mirzəcamallı obasına **Oruclu, Nurməmmədli, Qasımxanlı, Mehdixanlı** və başqa tayfalar daxildir. **Oruc** - XVIII əsrin sonu - XIX əsrin əvvəllərində yaşayıb. Onun **Həsənalı, Alı, Yusifalı** adlı oğlanları olub. Həsənalının **Məhərrəm,** Alının **Kərim, Rəhim, Məmmədqulu, Həzrətqulu, İmamqulu,** Yusifalının isə **Gülmalı, Allahverən, İsmayıl, Hacıməmməd, Cəbrayıl** adlı oğlanları olmuşdur. Gülmalının **Murad** (1883) və **Firudin** (1889) adlı oğulları olub. Onların Gecəgözlü kəndi ilə bağlılıqları vardı. Firudinin **Ərşad** (1924-1972) və **Xosrov** adlı oğlanları var idi...

Erməni işğalçılarına qarşı döyüşmüş rayonun əsasən könüllülərdən ibarət olan ilk özünümüdafiə batalyonunun (814 saylı hərbi hissə) qərargahı **Mirzəcamallı** kəndində yerləşirdi...

## MİRZƏMURAD BAĞI

Babı kəndi ərazisində qeydə alınan oronimlərdən biri **Mirzəmurad bağı** adlanır. Bu bağın ərazisində başqa meyvə ağacları ilə bərabər çoxlu tut ağacları da vardır. Sovet dönəmində bir müddət bu bağlardan baramaçılıqla əlaqədar da istifadə (kəndin ərazisində ipəkqurdunun bəslənilməsi üçün bir neçə tut bağları var: Əhmədli bağı, Seyfəli bağı və s.) olunmuşdur. **Mirzəmurad bağı** toponimi bu bağın sahibinin adı ilə əlaqədar olaraq belə adlandırılmışdır...

## MİRZƏNAĞILI KƏNDİ

**Mirzənağılı kəndi** rayon mərkəzindən 35 km cənub-şərqdə, Araz çayının sol sahilində, düzənlikdə yerləşir. Əhalisi üzümçülük, taxılçılıq və heyvandarlıqla məşğul olur. Kənddə məktəb, klub,

kitabxana və s. var. Kənd 1993-cü ildə işğal olunsa da, 1994-cü ilin yanvarında qanlı döyüşlərdən sonra geri qaytarılmışdır...

Bu yaşayış məntəqəsini **Mirzənağılı** nəslinə mənsub olan ailələr saldığı üçün o, belə adlandırılmışdır...

## MOLLA BAĞI

Qacar kəndi ərazisində qeydə alınmış oronimlərdən biri **Molla bağı** adlanır. Oronim **Molla** və **bağ** sözlərindən ibarətdir. **Molla** - dini tituldur. Dini titul bildirən **molla** sözü ilə bağlı Azərbaycanda bir neçə coğrafi ad qeydə alınmışdır. **Molla bağı** toponimi ***"mollaya məxsus bağ", "mollanın saldığı bağ"*** anlamındadır. Bu bağın yerləşdiyi ərazidə çoxlu sayda meyvə ağacları əkilmişdir...

## MOLLAMƏHƏRRƏMLİ KƏNDİ

**Mollaməhərrəmli kəndi** rayon mərkəzindən 33 km cənub-şərqdə, düzənlik ərazidə yerləşir. Əhali əsasən üzümçülük və heyvandarlıqla məşğul olur. Kənddə məktəb, klub, kitabxana və s. var. Kənd işğalçılardan azad olunmuşdur...

Kəndin ərazisində tunc və dəmir dövrlərinə aid olan cilalı qara və boz fiqurlu keramika qab nümunələri tapılmışdır. Tapılan nümunələrin birində quşun gözləri üst tərəfdən qabarıq xətlə haşiyələnmiş muncuqdan ibarətdir Quşun qanadları da maili qabarıq xətlərlə göstərilmişdir.

Yerli sakinlərin dediklərindən əldə etdiyim ortaq fikir bundan ibarət oldu ki, yaşayış məntəqəsi XVIII əsrin sonu XIX əsrin birinci yarısında yaşamış böyük nüfuz sahibi olan **Molla Məhərrəm Vəliməmməd oğlunun** adı ilə əlaqədardır.



Gəncə quberniyasının Qarabulaq nahiyəsinə daxil olan **Mollaməhərrəmli** kəndinin adı XIX əsrdə **Qaratəpə** kimi də göstərilmişdir...

**Mollaməhərrəmli** toponimi **"Mollaməhərrəmin nəslindən olanlar", "mollaməhərrəmgillər"** mənasındadır. Müsəlman dinini qəbul etmiş xalqlar arasında şəxs adlarında **molla** titulu geniş yer tutur. Onların adı ilə çoxlu antrotoponimlər var: Qubadlıda **Mollabürhan kəndi,** Kürdəmirdə **Mollakənd,** Qazaxda **Molladağ** və s.

## MOLLAVƏLİ KƏNDİ

Mollavəli kəndi rayon mərkəzindən 9 km cənubda, Qarabağ silsiləsinin ətəyində yerləşir. Əhalisi üzümçülük, heyvandarlıq və taxılçılıqla məşğul olur. Kənddə klub, kitabxana, məktəb və s. var. Kənd işğal altındadır.

Kəndin əsl adı **Mollavəlilər** olmuşdur. Yaşayış məntəqəsi **boyəhmədli** tayfasının **mollavəlilər** tirəsinin burada məskunlaşması nəticəsində yaranmışdır. Toponim **"Molla Vəlinin nəslindən olanlar, mollavəligillər"** mənasındadır.

**Mollavəli kəndi** yaşayış məntəqəsi kimi XIX əsrin ikinci yarısında salınsa da, oba yeri (torpaq) kimi adı çox qədimdir. 1953-cü ilə aid olan tarixi qaynağa görə burada, yəni kəndin yerləşdiyi ərazidə yaşayış məntəqəsi mövcud olmuşdur. Bəzi tarixi mənbələrin verdikləri məlumatlara görə **Mollavəli kəndi** yaxınlığında vaxtilə **Şıxımlı** adlı bir kənd olmuş və o kəndin bəzi nəsilləri sonralar **Mollavəli** kəndinə gəlib burada məskunlaşmışlar.

1593-cü ilə aid olan Osmanlı qaynağında **Mollavəli** adı kənd kimi yox, torpaq, yer kimi çəkilmişdir. Yerli məlumata görə əhali burada XIX əsrdə məskunlaşmışdır. Kənddə ***ağaməmmədlilər, gülbudaqlılar, mirzəlilər, pişiklilər, kazımlılar, alışlılar*** və s. adlı tayfa və nəsillər yaşamışlar...

## MOLOKAN

Füzuli rayonunun əvvəlki adlarından biri **Molokan** olub. Bu coğrafi ad XVIII əsrin sonlarında Rusiyanın Tambov vilayətində (quberniyasında) təşəkkül tapmış, sonralar ölkənin bir sıra ərazilərinə yayılmış dini təriqət üzvlərinin adı ilə əlaqədardır. Təriqətin banisi Semyon Uklein hesab edilir. **Molokanlar** öz dinlərini "süd kimi pak sözlər" ("çistoe **moloko** slovesnoe") adlandırırlar. Təriqətin adı da elə buradan götürülmüşdür.

**Molokanlar** pravoslav kilsəsini, kilsə ayinlərini və mərasimlərini tanımır, hər yerdə mövcud olan və bütün canlılara düşüncə verən vahid "ruh-allaha" etiqad edirlər. Onlar Bibliyanı "ruhun tədricən yüksəlməsi və allahı dərk etməsi haqqında ilahi hekayət" kimi başa düşürlər. İbadət edən zaman onlar Bibliyadan psalomlar oxuyurlar.

**Molokançılıq** feodal təhkimçilik sisteminin böhranı şəraitində kilsə əleyhinə kəndli hərəkatının formalarından biri kimi yaranmışdı. Onlar rəsmən kilsəyə qarşı çıxdıqları üçün çar hökuməti molokanları təqib etmiş, onları müxtəlif ərazilərə sürgünə göndərmişdir. Don kazaklarından fərqli olaraq Krasnodar vilayətinin I və II Armavir üsyançı molokanları Beloreçensk çayı boyunca çar üsul-idarəsinə qarşı daha amansız idilər. Hətta, onlar Nikolayın 300 baş cins atlarını ələ keçirib onlardan istifadə edirdilər. Bu cür hərəkətlərinə görə çar Nikolay Krasnodar molokanlarının ölkədən qovulmaları haqqında 1821-ci ildə fərman verdi. Bu məqsədlə çar öz yaxın məmuru Stepan Qavrilovu Krasnodara göndərdi, ona molokanların cənuba, isti regionlara, o cümlədən, Azərbaycana köçürülmələri, sürgün edilmələri haqqında tapşırıq verdi.

XIX əsrin I yarısında Azərbaycanda (Qarabağda Qazaxda, Göyçayda, Şamaxıda) sürgün edilmiş molokanlarla bağlı bir neçə **Molokan kəndi** yarandı. Çarizm hər vasitə ilə molokanları yerli müsəlman əhali ilə toqquşdurmağa çalışırdı. 1822-ci ildə Qarabulaq (Füzuli rayonu) bölgəsinə 46 **molokan** ailəsi köçürüldü.



Onlar az bir zaman içərisində Soltanbud meşələrindən ağacları doğrayıb araba və atlarla daşıyaraq Qarabağda taxta evlər tikdilər. Yerli əhali də molokanların yaratdıqları şəraitə baxaraq özləri üçün abad evlər tikib oturaq həyata keçməyə başladılar. Bir neçə ilin içərisində yerli qarabulaqlılarla **molokanlar** gözəl bir bazar da tikdilər. Mallarını Horadiz, Pirəhmədli, Qarğabazar və Xanlıq kəndlərinin bazarlarında satan tacirlər və digər kənd adamları **Molokan** bazarına üz tutmağa başladılar. Şuşaya (Qalaya) gedən bəzi İran tacirləri də mallarını burada xırıd etməyə başladılar.

**Molokan (Qarabulaq)** zaman ötdükcə böyüyüb-gözəlləşir, öz görkəmini dəyişirdi. Məhz elə bu baxımdan 1827-ci ildə **Qarabulaq** (Molokan) şəhər adlandırıldı. El arasında bu şəhər **Molokan** adlandırılsa da, rəsmi sənədlərdə adı **Qarabulaq** kimi göstərildi. XIX əsrin 80-ci illərində - Cavanşir və Cəbrayıl qəzalarının təşkili ilə əlaqədar **Qarabulaq** nahiyə statusu aldı. Yelizavetpol (Gəncə) quberniyasının Cəbrayıl qazasına tabe olan Qarabulaq nahiyəsində aşağıdakı oba və kəndlər vardı:

1. Saday bəy obası (Böyük və Bala Bəhmənli kəndləri);
2. Aybasanlı (Əyyubhəsənli) kəndi;
3. Qaradağ (Dövlətyarlı) kəndi;
4. Seyidəhməd obası (Seyidəhmədli kəndi);
5. Axundlu obası (Alxanlı);
6. Pirəhmədli kəndi;
7. Qarakollu kəndi;
8. Qozluçay obası (Mandı, Rəfədinli, Güzlək, Əhmədbəyli, Gorazıllı, Qaradağlı, Saracıq kəndi);
9. Horadiz kəndi;
10. Əbdürrəhmanlı kəndi;
11. Hacılı obası (Mahmudlu, Gecəgözlü, Ələsgərli, Mirzəcamlı, Hüseynbəyli kəndi);
12. Qoçəhmədli kəndi;
13. Dilağarda kəndi;
14. Zərgar kəndi;
15. Veysəlli kəndi;

16. Dağ obası (Hoğa (Üçbulaq), Govşad kəndi);
17. Qacar kəndi;
18. Kərimbəyli kəndi;
19. Yağlıvənd kəndi ;
20. Babı kəndi;
21. Arayatlı kəndi;
22. Əhmədbəyli kəndi;
23. Qaraxanbəyli kəndi;
24. Şəkərcik kəndi;
25. Qərvənd (Qərbənd) kəndi;
26. Dədəli kəndi;
27. Şıxlı kəndi;
28. Qarğabazar kəndi;
29. Mahmud obası;
30. Molla Vəli kəndi;
31. Əhmədalılar kəndi;
32. Molla Məhərrəmli (Qaratəpə) kəndi;
33. Əmirseyidli kəndi;
34. Şahsevən kəndi;

1906-cı ildə **Qarabulağa (Molokana)** 100 il əvvəl I Rus-İran müharibəsində qəhrəmanlıqla həlak olmuş polkovnik **Qaryaginin** adı verilmişdir...

Əlavə məlumat üçün bax: **Füzuli rayonu** və **Füzuli şəhəri.**

## MURADLI BAĞI

Sərdarlı kəndi ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri **Muradlı bağı** coğrafi adıdır. Bu bağda çoxlu meyvə ağacları əkilmişdir. Muradlı bağının aşağısından keçən dağ çayının suyu yayda buz kimi soyuq olur. **Bağın** belə adlandırılması **Murad** şəxs adı və onun nəsli ilə bağlıdır. **Muradlı bağı** antroponimik toponimi **"Murada məxsus olan bağ"** mənasını ifadə edir. Bu tipdən olan oronimlərə Azərbaycanın başqa bölgələrində də rast gəlmək olar...



## MURĞUZLU YALI

**Murğuzlu yalı** rayon mərkəzindən 3 kilometr cənubda, Qarabağ silsiləsi ətəklərində yerləşir. Bəzi ehtimallara görə yüksəkliyin adı ona görə belə adlanmışdır ki, həmin ərazidə bitən taxıllar fəsiləsindən olan sucaq yerdə bitən qarğıya bənzər **murğuz** bitkisi yayılıb...

**Yal** təbii-coğrafi mövqeyə görə belə adlanmışdır. Qazax rayonunda **Murğuzdağ,** Zaqatala rayonu ərazisində **Murğuztala** kəndi coğrafi adları da bu qəbildəndir.

Bəzi mülahizələrə görə isə **"murğuz"** sözü "dərisi sarı və ya burnunun üstü ağ rəngli dağ keçisi" deməkdir. Güman ki, yal orada vaxtilə təsadüf edilən dağ keçisinin **(murğuzun)** adını daşıyır.

Vaxtilə Gəncə quberniyasının Zəngəzur qəzasında (indiki Sisyan rayonunda) **Murquz** adlı kənd vardır...

## MURĞUZLU YURDU

**Murğuzlu yurdu** rayon mərkəzindən 3 kilometr cənubda, Qarabağ silsiləsinin ətəklərində, Məngələn ata dağının yaxınlığında, Düdükçü və Çimən kəndləri dövrəsində yerləşirdi. XVIII-XIX əsrlərdə bu yerlərdə çoxlu obalar binəliyirdi. Burada binələyən obalardan biri də Hacılı icmasına qatılan şenliklərdən olan Sarılar (Zeynalabdinbəyli) obası idi. **Sarılar obası** 1823-cü ildə Zeynalabdin bəy İmamqulu bəy oğlu Hacılı - Cavanşirin adı ilə bağlı olaraq **Zeynalabdinbəyli** adlanırdı. 1842-ci ildə **Murğuzlu** torpağında yaşayan digər obalar kimi Sarılar obasının da əhalisi dövlət tərəfindən siyahıya alınmışdır.

Tarixi mənbələrdə **Murğuzlu yurdu** adına tez-tez rast gəlirik. **Murğuz** - sarı dərili dağ keçisidir. Belə ehtimal etmək olar ki, həmin ərazilərdə **murğuz** dağ keçisinə tez-tez təsadüf edildiyindən toponim belə adlanmışdır. Bəzi araşdırıcılar toponimi taxıllar fəsi-

ləsindən olan və qarğıya oxşayan **murğuz** bitkisinin adı ilə əlaqələndirirlər...

Murğuzluda **ibrahimlilər, mustafalılar, haqverdilər, pirverdilər** və s. nəsillər yaşamışdır. 1727-ci ilə aid olan "Gəncə-Qarabağ əyalətinin tarixi dəftəri" adlı tarixi sənəddə **Murğuzlu** kəndinin də adı çəkilir...

## MUXTAR KƏHRİZİ

Antroponimik hidronimlərə Azərbaycanın əksər bölgələrində rast gəlmək olar. Horadiz kəndindəki **Muxtar kəhrizi** hidronimi də belələrindəndir. Hidronim **Muxtar** şəxs adından və **kəhriz** hidronimik apelyativindən ibarətdir. **Kəhriz** - qrunt sularını toplayaraq yer səthinə çıxarmaq üçün yeraltı qurğudur. Kəhrizləri peşəkar kankanlar qazırlar. XX əsrin ortalarında respublikamızın ərazisində 900-dən çox **kəhriz** olmuşdur.

## MURTUZA TÜRBƏSİ



**Муртуза түрбәси**

Kürdlər kəndinin qəbiristanlığında qeydə alınan türbə **Murtuza türbəsi** adlanır. Bu qəbirüstü abidə Kürdlər kənd sakini **Murtuza Dadaş oğluna** məxsusdur. O, XIX əsrin II yarısı - XX əsrin 30-cu illərində ömür sürmüşdür. Türbənin divarları yer səviyyəsindən yuxarı qalxdıqca yığıldığından, onun ümumi görünüşü kümbəzvari səciyyə daşıyır. İri daşlar türbənin



hörgüsünə təbii qoyulsa da, mərkəzə tərəf meyllənən səliqəli küncləri onu xüsusilə yaraşıqlı göstərir.



**Муртуза түрбәсинин китабәси**

**Murtuza Dadaşoğlu türbəsi** 1931-ci ildə inşa edilib. Yerli təbii əhəng daşından tikilmiş bu abidə dördkünc plana malikdi. Ümumi görünüşü kümbəzvari olan bu türbənin girişi üzərindəki sal daşda əski əlifba ilə burada dəfn olunmuş **Murtuza** Dadaş oğlunun adı və inşa edildiyi tarix (hicri tari-1350-ci il) göstərilmişdir.

## MUSABƏYLİ KƏNDİ

**Musabəyli kəndi** rayon mərkəzindən 16 km cənubda, Qozluçay sahilində, dağətəyi düzənlikdə yerləşir. Əhalisi heyvandarlıq, üzümçülük və taxılçılıqla məşğul olur. Kənddə məktəb, klub, kitabxana var. 1993-cü ildə kənd ermənilər tərəfindən işğal olunmuşdur.

Yaşayış məntəqəsinin əsasını **Musabəy** adlı şəxs qoyduğu üçün kənd belə adlanmışdır. Toponim *"Musabəyin nəslindən olanlar, musabəylilər"* mənasını özündə əks etdirir.

**Musa bəy** nüfuzlu bir şeyx idi. **Şeyx Musa bəy** İsmayıl oğlu XVIII əsrin sonu - XIX əsrin birinci yarısında yaşamışdır. Bu kəndin əsas əhalisi, yerli sakinlərin dediklərinə görə, Mirzənağılı, Balyand, Cəbrayıl, Qaracallı və s. kəndlərindən gələn ailələr olmuşlar...

Ağsu rayonunda da **Musabəyli** adlı kənd vardır.

## NAĞARA TƏPƏSİ

Füzuli rayonunun Babı kəndi ərazisində qeydə alınan oronimlərdən biri **Nağara təpəsi** adlanır. Toponim **nağara** və **təpə** sözlərindən ibarətdir. **Təpə** müsbət relyef forması bildirən coğrafi termindir. **Təpələr** nisbi hündürlüyü 200 metrə qədər, yamacları az meylli, zirvəsi girdə, ətəkləri bəzən ətraf sahələrdən az seçilən yüksəkliklərdir.

Toponimin tərkibindəki **nağara** sözü həmin təpənin **nağara** musiqi alətinə bənzədiyini ifadə edir; **-si** şəkilçisi isə mənsubluq bildirir...

## NAMAZALI KƏHRİZİ

Azərbaycan toponimiyasında şəxs adlarından düzəlmiş çoxlu sayda hidronimlər mövcuddur. Onlardan biri də Horadiz kəndində qeydə alınmış **Namazalı kəhrizidir.** Qrunt sularının toplanaraq yer səthinə çıxarılması üçün olan yeraltı qurğuya **kəhriz** deyilir. Kəhrizlər adətən, peşəkar kankanlar tərəfindən qazılır. XX əsrin ortalarında Azərbaycanda 1000-dən çox kəhriz olmuşdur...

Kəhrizin **Namazalı** adlanması Horadiz kəndinin qədim tayfalarından olan **namazalılarla** əlaqədardır. **Kəhriz** həmin tirənin ulu babası olan **Namazalının** adını daşıyır. Bu tipli antroponimik hidronimlərə respublikamızın əksər bölgələrində rast gəlmək mümkündür.

## NARLI KEÇİD

Qacar kəndi ərazisində qeydə alınmış oroqrafik obyektlərdən biri **Narlı keçid** adlanır. Toponim **nar** bitkisinin adından, **-lı** mənsubluq ifadə edən şəkilçidən və **keçid** sözündən ibarətdir. Həmin keçiddə, ərazidə **nar** meyvə ağaclarının çoxluğu ilə əlaqədar olaraq oronim belə adlandırılmışdır.



**Nar** meyvə ağacı növünü bildirən sözlərdən əmələ gəlmiş oronimlərə **Narlı qaya, Narlı yal** (Zəngilan rayonu), **Narlı dərə** (Ağdam, Ağcabədi, Qubadlı, Yevlax, Goranboy, Tovuz, Xocavənd, Cəbrayıl rayonları), **Narlı qobu** (Ağdam rayonu, Gülablı kəndi), **Narlı zirvə** (Qax rayonu), **Narlı çökək** (Göranboy rayonu, Qazaxlar kəndi), **Narlıq düzü** (Qobustan rayonu) və başqalarını göstərmək olar...

## NARQUCAQ MÜLKÜ

Qoçəhmədli və Sərdarlı kəndləri yaxınlığında qeydə alınan coğrafi adlardan biri **Narqucaq mülkü** adlanır. 1797-ci ildə Ağaməhəmməd şah Qovanlı - Qacarın Qarabağda yandırdığı kəndlərin sırasında müxtəlif tarixi sənəd və materiallarda Sərdarlı və Qoçəhmədlinin də adı var. Teymurazbəyuşağına bağlı olan **Narqucaq mülk yeri** də bu ərazidə şah tərəfindən ona verilmişdir.

Toponimlə bağlı müxtəlif fikir və mülahizələr vardır...

## NƏRGİZLİ BAĞ

Füzuli rayonunun Sərdarlı kəndində qeydə alınan oroqrafik obyektlərdən biri də **Nərgizli bağ** adlanır. **Nərgizli bağ** coğrafi adı adından da göründüyü kimi, **nərgiz** və **bağ** sözlərindən ibarətdir; **-li** şəkilçisi mənsubiyyət bildirir. **Nərgiz** - nərgizçiçəklilər fəsiləsindən yarpağı xətvari, çiçəyi adətən açıq-sarı və ya ağ olan soğanaqlı bitki cinsidir. Bəzi növünün çiçəklərində çox ətirli efir yağı var. Həmin **bağ** sahəsində çoxlu **nərgiz** bitkisi olduğu üçün toponim belə ad almışdır.

## OCAQ TƏPƏSİ

Qarabağın Araz ağzı olan Arazbarda, Yağlıvənd oymağında ulularımız tərəfindən adına **Ocaq təpəsi** deyilən bir oroqrafik obyekt qeydə alınıb. Bu coğrafi ad **ocaq** və **təpə** sözlərindən, eləcə də, mənsubluq ifadə edən **-si** şəkilçisindən ibarətdir. **Təpə** sözü oronimiyada müsbət relyef forması bildirir. **Ocaq** sözü *"su isitmək, yemək bişirmək və s. üçün qalanan atəş, ocaq", "soba və ya buxar qazanının atəş, ocaq yaxılan yeri", "ev", "pir", "qutsal yer", "yurd", "qaynaq", "mərkəz", "bir şeyin olduğu, törədiyi, yayıldığı yer"* və s. anlamlara uyğun gəlir. Yerli məlumata görə, **Ocaq təpəsi** oronimi həmin təpənin müqəddəsliyi, pirliyi ilə əlaqədar olaraq belə ad almışdır. Oronimi həmin təpədə vaxtı ilə tez-tez çatılan tonqal, qalanan **ocaq** ilə də bağlayanlar var...

## OCAQ TİRƏSİ

Horadiz kəndi ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri də **Ocaq tirəsi** adlanır. **Ocaq** - *"pir," "din", "qutsal yer", "ev"* anlamlarında da işlənir. **Tirə** sözü *"nəsil, qəbilə, soy", "bir-biri ilə düşmənlik edən qruplar", "arx, xəndək kənarlarına tökülən torpaq", "bir qədər yüksək yer", "yüksəklik"* və s. mənalarda işlədilir. **Ocaq tirəsi** yeri müqəddəs tapınaq, ziyarət yeri hesab edilir. **Ocaq tirəsi** ziyarəti olan yer yüksək təpəlikdə yerləşir...

## OCAQ YERİ

Kərimbəyli kəndi ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri **Ocaq yeri** adlanır. Yerli və ətrafda yaşayan əhali bu yeri ziyarətgah hesab edir. Əhali tərəfindən bu yer müqəddəs sayılır. Yerli əhali Ocaq yerinə **Çinaraltı** da deyir.



**Ocaq yeri** Azərbaycanda *"pir"* mənasında həmişə müqəddəs hesab olunub. Bu gün də belə ocaq-pirlər ziyarət kimi insanların inanc yeridir...

## OCAQLI DAĞI

Qacar kəndi yaxınlığında qeydə alınan coğrafi adlardan biri də **Ocaqlı dağı** adlanır. **Dağ** - müsbət relyef forması bildirən coğrafi termindir. **Ocaq** sözünün müxtəlif mənaları var: *"atəş, ocaq", "pir", "ev", "qaynaq mərkəz" "yurd", "qutsal yer", "bir şeyin törədiyi, yayıldığı yer"* və s. Oronimin tərkibindəki **-lı** şəkilçisi mənsubluq ifadə edir. Bu oroqrafik obyektin adına bəzən **Həzi ocağı dağı** da deyilir.

## OĞUZ QƏBRİ

İşıqlı kəndi ərazisində qeydə alınan coğrafi adlardan biri **Oğuz qəbri** adlanır. Bu yer müqəddəs tapınaq yeri hesab olunur. Yerli və yaxın ətrafın camaatı **Oğuz qəbri** yerinə gəlib oranı ziyarət edər, niyyət tutub nəzir verərdilər. Deyilənlərə görə bu **qəbir** yeri qəhrəman bir **oğuz** igidinindir. Azərbaycanda bu tipli tapınaq yerləri çoxdur...

## ORTA BULAQ

Dövlətyarlı kəndinin 1 kilometrliyində, Köndələn çayı kənarında qeydə alınan hidronimlərdən biri **Orta bulaq** adlanır. **Bulaq** gözəl bir yerdə, füsunkar təbiətə malik olan ərazidə yerləşir. Suyu çox soyuq və şəffafdır.

Hidronim **orta** sözündən və **bulaq** hidronimik apelyativindən ibarətdir. Ondan **aşağıda** və **yuxarıda** başqa bulaqlar da olduğu

üçün hidronim belə ad almışdır. Toponim **"ortada yerləşən bulaq", "ortadakı bulaq"** mənasındadır...

Bu tipli coğrafi adlara respublikamızın digər bölgələrində də rast gəlirik.

## ORTA KƏHRİZ

**Orta kəhriz** hidronimi Yuxarı Əbdürrəhmanlı ərazisində qeydə alınıb. Bu kəhrizin təmiz və soyuq suyu vardır. **Kəhriz** - qrunt sularının toplanıb yer səthinə çıxarılması ilə bağlı yeraltı qurğudur. Adətən kəhrizlər peşəkar kankanlar tərəfindən qazılır. XX əsrin ortalarında Azərbaycanda 1000-dən çox **kəhriz** olub...

Hidronimin adından da göründüyü kimi, ərazidə başqa kəhrizlər də olub. **Aşağı** və **Yuxarı kəhriz... Orta kəhriz** bu iki kəhrizin arasında, **ortada** yerləşdiyi üçün belə ad almışdır...

## OTAYLI BAĞ

Sərdarlı kəndi ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri **Otaylı bağ** adlanırdı. Bu sahədəki torpaqlar yalnız bəylərə məxsus olmuşdur. Buradakı ağacların hamısı dəmyə yerdə olan ağaclar sayılırdı. Otaylı bağın baş hissəsində bənövşələr bitərdi. Ətraf ərazilərdən fərqli olaraq, burada xarı bülbül gülü də bitirdi. **Otaylı bağ** toponimi çay yatağının o tayında yerləşdiyi üçün belə adlandırılmışdır...

## PALID MEŞƏSİ

Qacar kəndi ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri **Palıd meşəsi** adlanır. Oronim **palıd, meşə** sözlərindən və **-si** mənsubiyyət şəkilçisindən ibarətdir. **Palıd meşəsi** coğrafi adı həmin ərazidə **palıd** ağacının çoxluğu ilə bağlı olaraq belə adlandırılıb. Toponim **"palıd ağacı çox olan meşə sahəsi"** anlamındadır.



Bu tipdən olan oronimlərə Respublikamızın digər rayonlarının ərazilərində də rast gəlirik: **Palıdlı düz** (Qax rayonu, Şotavar kəndi), **Palıdlı dərə** (Zəngilan, Kəlbəcər, Gədəbəy, Masallı, Xocavənd, Xocalı rayonları), **Palıd qobusu** (Tovuz rayonu), **Palıdlı yal** (Ağdam rayonu, Maniklu kəndi), **Palıdlı təpə** (Masallı rayonu, Xəlfələr kəndi) və s.

## PƏNALI DƏYİRMANI

Füzuli rayonu ərazisində, rayon mərkəzindən 15 kilometr şimal-qərbdə, Qacar kəndinin 3 kilometrliyində qeydə alınan oronimlərdən biri **Pənalı dəyirmanı** adlanır. Yerli məlumata görə toponimin adı **Pənahalı** adının təhrif olunmuş formasıdır. Adının tərkibində dəyirman sözü olan toponimlər Azərbaycanda yüzlərlədir. **Dəyirman** - dən üyütmək üçün olan müəssisədir. Qədimdə Azərbaycan ərazisində də dəni dən daşlarında və həvəngdə üyüdürdülər. Miladdan əvvəl II minillikdə əl dəyirmanları meydana gəldi. Əkinçiliyin inkişafı ilə əlaqədar olaraq quldarlıq və feodalizm quruluşları zamanında **su** ilə işləyən dəyirmanlar yarandı. Orta əsrlərdə **yel** dəyirmanından da istifadə edilmişdir. Dəyirmanın **Pənalı** adlanması onu vaxtı ilə işlədən şəxsin adı ilə bağlıdır...

## PİRƏHMƏDLİ KƏNDİ

Pirəhmədli kəndi rayon mərkəzindən 15 km cənubda, Qarabağ silsiləsinin ətəyində, düzənlikdə yerləşir. Əhalisi 1300 nəfərdir. Əhali taxılçılıq, üzümçülük, baramaçılıq və heyvandarlıqla məşğul olur. Kənddə məktəb, klub, kitabxana tibb məntəqəsi, XIX əsrdə tikilmiş məscid və s. var. Yalpirəhmədlidən böyük olduğu üçün yerli əhali kəndi **Böyük Pirəhmədli** də adlandırır.

XVIII əsrə aid olan bir çox tarixi qaynaqlarda, o cümlədən, 1727-ci il "Gəncə Qarabağ əyalətinin müfəssəl dəftəri"ndə Dizaq nahiyəsinə tabe olan kəndlərin sırasında **Pirəhmədli** kəndinin də adı var. XIX əsrdə Dövlət tərəfindən həyata keçirilmiş siyahıyaalınmalarda **Pirəhmədli** kəndinin adı da qeydə alınmışdır.

Kəndin **Yarəhmədlər, İbrahimlər, Nəcəfəlilər, Seyfəlilər, Mirzəlilər, Məhəmmədəlilər, Gülüməlilər, Allahqulular, Mustafalar, Qırzəlilər, İmamqulular, Hatəməlilər, Pirqasımlar** və s. nəsilləri, tirələri vardır.

Dağ yalında yerləşdiyi üçün kəndin keçmiş adı **Yal Pirəhmədli** olub. Yaşayış məntəqəsi XIX əsrdə burada məskunlaşmış **Pirəhmədli** nəslinin adı ilə adlanmışdır...

## PÖRNƏK YERİ

İndi də ara-sıra Azərbaycanın ayrı-ayrı bölgələrində tez-tez işlədilən **pörnək** sözünə rast gəlirik. **Pörnək** sözü tərəkəmə yaşamı ilə əlaqədardır. Özündən güclü olan müstəqil boyların himayəsində yaylaq-qışlağa köçüb onların istifadəsində olan örüş yerlərində mal-qaranı otaran kiçik soylar **pörnək** adlanır.

Tarixi qaynaqlardan o da məlum olur ki, **pörnək** adlı Azərbaycanlıların etnik qrupu, tayfası mövcud olmuşdur. Ağqoyunlu tayfalarına bağlanan **pörnəklər** Azərbaycanın ictimai-siyasi və mədəni tarixində önəmli rol oynamışlar. Son orta əsrlər tarixi dönəmində onlar qızılbaşların tərkibinə qatılmışlar. Qızılbaş birliyi içində onlar mosullularla bərabər türkmanlar adlanırdılar...

## RƏBƏD

Yuxarı Əbdürrəhmanlı kəndi ərazişində qeydə alınan oroqrafik obyektlərdən biri də **Rəbəd** adlanır. Tarixi mənbələrdən aydın olur ki, son orta əsrlərdə bu ərazidə yaşayış məskəni olmuşdur. Bu



yerin qaynaqlarda Xırdapara Dizaq mahalının tərkibində olduğu göstərilir. Osmanlı qaynağında və XIX əsrə aid olan kameral sorğu siyahılarında **Rəbəd (Rəbət)** adına rast gəlirik. Bəzən bu ad sənədlərdə **Rəbət** kimi də öz əksini tapmışdır. Toponimin izahı ilə bağlı müxtəlif fikirlər vardır...

## RƏFƏDİNLİ KƏNDİ

(Bax: **Aşağı Rəfədinli** və **Yuxarı Rəfədinli** kəndləri)

## RUS BULAĞI

Qacar kəndi ərazisində qeydə alınan hidronimlərdən biri **Rus bulağı** adlanır. Bu bulağın soyuq və şəffaf suyu var. Mənzərəli yerdə məkan tutmuş bu bulağın suyu heç vaxt qurumur. **Bulaq** vaxtilə onun suyundan bir müddət istifadə etmiş **rus** millətindən olan adamlara görə belə adlandırılmışdır...

## RUS QƏBRİ YERİ

Horadiz kəndi ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri də **Rus qəbri yeri** adlanır. Bu toponim vaxtilə orada dəfn olunmuş xristian dininə mənsub **rus** millətindən olan şəxs ilə bağlıdır. Həmin adamın dəfn olunduğu **yer** kənd sakinləri arasında elə o zamandan **Rus qəbri yeri** adlandırılmışdır.

## RZALILAR KƏHRİZİ

Azərbaycanda müxtəlif tayfalara mənsub olan nəsil və tirə adlarını özündə əks etdirən oroqrafik obyektlərə tez-tez rast gəlinir. Respublikamız ərazisində belə patronimik toponimlər demək olar

ki, bütün rayonların ərazisində kifayət qədərdir. Patronim deyəndə şəxs adlarına qoşulan cəm və ya mənsubiyyət bildirən şəkilçilərdən yaranmış tirə və nəsil adları nəzərdə tutulur. Patronimik toponimlər etnonimik toponimlərə nisbətən daha çoxdur.

Füzuli rayonunun Horadiz kəndi ərazisində qeydə alınan **Rzalılar kəhrizi** hidronimi də patronimik hidronimdir. Hidronim kəndin **rzalılar** adlı nəslinin adı ilə bağlıdır. **Kəhriz** - qrunt sularını toplayıb yer səthinə çıxarmaq üçün yeraltı qurğudur. Adətən kəhrizləri peşəkar kankanlar qazırlar. Statistik məlumata görə, XX əsrin ortalarında Azərbaycanda 900-dən çox **kəhriz** olmuşdur.

## SAQQIZLI MƏHƏLLƏSİ

Horadiz kəndi ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri belə adlanır. Bu **məhəllədə** kəndin ilk sakinlərindən biri olan **yadigarlı** tayfasının nəsilləri məskən salmışdılar. Məhəllənin **Saqqızlı** adlanması ilə bağlı müxtəlif fikirlər vardır. Bəzi yerli əhalinin dediklərinə görə **saqqızlı** yozumunun biri onunla bağlıdır ki, bu məhəllənin adamları dadlı, şirin dil ilə başqalarını aldatmaqda, onları inandırıb öz tərəflərinə çəkməkdə, müəyyən bir işi görməyə razı etməkdə - ümumiyyətlə, onların "**saqqızlarını** oğurlamaqda" mahir imişlər. Məhz elə bu səbəbdən də **məhəllə** belə adlanırdı. Əlbəttə, toponimin izahına başqa prizmadan yanaşanlar da var...

## SALMAN BULAĞI

Füzuli şəhərindən 13 kilometr qərbdə, Tuğ kəndi istiqamətində qeydə alınan hidronimlərdən biri **Salman bulağı** adlanır. Hidronim **Salman** şəxs adından və **bulaq** hidronimik apelyativindən ibarətdir. **Salman** bu bulağı təmir edib (etdirib) üzə çıxaran adamın adıdır. **Salman bulağının** göz yaşı kimi dumduru və buz kimi soyuq suyu vardır...



## SARACIQ KƏNDİ

**Saracıq kəndi** rayon mərkəzindən 14 km cənubda, Qarabağ silsiləsinin ətəyində, dağlıq ərazidə yerləşir. Əhalisi üzümçülük, taxılçılıq, heyvandarlıq və baramaçılıqla məşğul olur. Kənddə məktəb, klub, kitabxana, XIX əsrdə inşa edilmiş körpü və s. var. Saracıq kəndi də ermənilər tərəfindən işğal olunub...

Kəndi **hapıtlı, hacısüleymanlı, cacaqlı** və **şükürbəyli** nəsillərinə mənsub ailələr salmışdır. Yaşayış məntəqəsi təxminən 200 il bundan əvvəl indiki yerindən 4 km. aralıda, Şuşa şəhərinə gedən karvan yolunun kənarında yerləşirmiş...

Yerli məlumata görə, toponim **saray** (yəni karvansara) və **-cıq** komponentlərindən ibarət olub, *"kiçik karvansara"* mənasındadır. Çox güman ki, kənd ticarət və karvan yolunun kənarında kiçik karvansaranın ətrafında salındığına görə belə adlandırılmışdır. Başqa bir fikrə görə, toponim türk dillərində *"düzən"*, *"çöl"*, *"tarla"*, *"sahə"* mənalarında işlənmiş **sara** və **-cıq** komponentlərindən ibarət olub *"kiçik düzən sahə"* mənasını əks etdirir.

Tarixi məxəzlər xəbər verir ki, XIII-XIV əsrlərdə monqollar burada torpağı, suyu və təbiəti yaxşı olduğu üçün qış **sarayları** tikmişlər...

1593-cü ilə aid Osmanlı qaynağında yaşayış məntəqəsinin adı **(Saraycıq kimi)** çəkilir.

1727-ci il "Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri" adlı tarixi sənəddə də kəndin adı göstərilib. Yerli məlumata görə kəndin əksər tayfaları Cəbrayıldan gəlmədirlər...

## SARI BULAQ

Dövlətyarlı kəndindən azacıq yuxarıda, Köndələn çayı sahilində qeydə alınan hidronimlərdən biri **Sarı bulaq** adlanır. Hidronim rəng bildirən **sarı** sözündən və hidronimik formant ifadə edən **bulaq** apelyativindən ibarətdir. Bulağın dumduru, soyuq və göz

yaşı kimi şəffaf suyu vardır. **Sarı bulaq** hidroniminə Füzuli rayonunun bir sıra ərazilərində rast gəlmək mümkündür...

## SARI YAL

Yuxarı Seyidəhmədli kəndi yaxınlığında qeydə alınan oroqrafik obyektlərdən biri **Sarı yal** adlanır. Oronim **sarı** sözündən və **yal** terminindən ibarətdir. **Sarı** rəng ifadə edir. **Yal** - coğrafi termini isə müsbət relyef forması bildirir. Dağın ən hündür zirvəsinin yamacı oronimiyada **yal** adlanır. **Yal** termininin iştirakı ilə Azərbaycan oronimiyasında 600-dən çox coğrafi ad qeydə alınıb. **Sarı yal** oroqrafik obyekti yalda torpaq süxurunun rənginin **sarı** rəngdə olması ilə bağlı belə ad almışdır.

## SARILAR DƏRƏSİ

Füzuli rayonu ərazisində, Aşağı Əbdürrəhmanlı kəndi yaxınlığında qeydə alınan coğrafi adlardan biri **Sarılar dərəsi** adlanır. Oronimin tərkibindəki **dərə** sözü mənfi relyef forması bildirən coğrafi termindir; **-si** şəkilçisi mənsubluq ifadə edir. **Sarılar** sözü **Hacılı** icmasına qatılan **Sarılar obası** şenliyinin adını özündə əks etdirir.

**Sarılar** obasının başqa bir adı **Zeynalabdinbəyli** (Zeynalabdin bəy İmamqulubəy oğlu Hacılı-Cavanşir) olub. Bu oba XVIII-XIX əsrlərdə Məngələn ata dağından Çimən və Düdükçü kəndlərinə qədər olan ərazidə - Murğuzlu yurdunda binələyirdi. XIX əsrin II yarısında **Sarılar** obasının əhalisi Rəbət, Bayrambəy və Qacar yurdları ilə dövrələnən bir sahəyə köçdü. Bu köçkünlükdən əvvəl onlar Yuxarı Əbdürrəhmanlı kəndinin tərkibində olmuşdur. 1842-ci ildə Murğuzlu torpağında yaşayan və Zeynalabdin bəyə bağlı olan Sarılar obasının əhalisi dövlət tərəfindən siyahıya alınıb. Sonralar 1849, 1863, 1873, və 1886-cı illərdə də belə siyahıyaalmalar olub. Sarılar obasının **Məşədibabalar, Zülfüqarlılar,**



**Mehdililər, Nağdalılar, Cabbarlılar, Namazlar, Ələsgərlilər, Eyvazlılar, Əhmədlilər, İsmayıllılar, Mustafalılar** adlı tayfa və tirələri məlumdur. Sarılar obasından XIX əsrin məşhur bəyləri olan **Məmmədbağır bəy, Məhərrəm bəy, Allahverdi bəy, İmamqulu bəy** və başqaları çıxmışlar...

## SEYFƏLİ BAĞI

Babı kəndi ərazisində qeydə alınan oronimlərdən biri **Seyfəli bağı** adlanır. Bu sahədə çoxlu tut ağacları əkilmişdir. Yerli əhali tarixən digər kənd təsərrüfatı sahələri ilə yanaşı, bağçılıq və baramaçılıqla da məşğul olmuşlar. Burada bəslənən ipəkqurdu üçün tut bağları salmaq lazım gəlirdi. Salınan **bağlar** onun sahibi olan sakinlərinin adı ilə adlandırılırdı. **Seyfəli bağı** adlanan toponim də insan adı ilə əlaqədar yaranmış oronimlərdəndir....

## SEYİD ƏŞRƏF ZİYARƏTGAHI (TÜRBƏSİ, MƏSCİDİ)



**Seyid Əşrəf abidə kompleksi** Abşeron rayonunun mərkəzi Xırdalan şəhərinin qəbiristanlığında, hündür təpənin üstündə ucaldılmışdır. Bu memarlıq abidə-kompleksi inşa olunduğu ərazinin - Abşeron memarlıq məktəbinin ənənələrini davam etdirir. Abidə kompleksinin türbə və məscidinin kümbəz səthində və tavan hissəsində ziyarətgahın konstruksiyasına memarlıq nöqteyi-nəzərindən müəyyən yeniliklər əlavə olunmuşdur. Mehrab olan divarın bayır tərəfində oxvari



Сејид Әшрәф абидә комплексинин интерјери

tağbəndlə tamamlanan bir cüt nişa layihələndirilib.

Türbənin hündürlüyü 10 metrdir. Türbə və məscidin sərbəst görünməsi üçün hər iki abidənin örtük konstruksiyası kümbəzşəkilli, dəhlizin damı isə yastı formadadır. Türbənin və məscidin dam örtükləri bayır tərəfdən gümbəz, daxili və tavan hissədən isə düz şəkilli işlənmişdir. Türbə daxilindəki havanın müntəzəm dəyişməsi üçün tavana söykənən divarda 80 sm x 20 sm ölçülü boşluqların üzəri oraya heç bir həşərat daxil olmasın deyə, dəmir şəbəkələrlə bağlanmışdır. Abidə kompleksinə giriş baş tərəfdəndir. Tağbənd qapıdan dəhlizə girəndən sonra sol qapıdan türbəyə, sağ qapıdan isə məscidə giriş var. Məscidin interyerini yan tərəfdəki üç ədəd tağbənd şəkilli pəncərələr işıqlandırır. Abşeron memarlıq məktəbi üslubunda inşa edilmiş **abidə kompleksi** bütövlükdə təbii əhəng daşı ilə tikilmişdir.

Abidənin kümbəzi qeyri-hamar səthli, saxsı örtüyə bənzər dalğavari şəkildədir. Türbə kümbəzinin mərkəzini tamamlayan aypara və məscid kümbəzinin mərkəzindəki qıfil daşa bərkidilmiş "əl" də səciyyəvi xüsusiyyətlərinə görə özündə memarlığa daxil olan islami ideyaları əks etdirir. Abidənin ümumi səthi hamar və şaquli şəkilli plyastrlarla bəzədilmişdir. İnteryerində yeniliklər duyulur. Kümbəzin altı işıqlı görünsün deyə, abidənin dam örtüyündə dairəvi şəkildə boşluqlar qoyulub. Səkkizbucaqlı və milli ornamentlərlə uyğunlaşdırılaraq tikilmiş bu türbə-ziyarətgahın daxili - xüsusi güzgü kəsimlərindən şərq üslubuna uyğun həndəsi ornamentlərlə intererin konstruksiyasına uyğun bəzədilmişdir.

**Seyid Əşrəf ziyarətgahına** gələnlərin rahatlığı üçün kompleksin yaxınlığına və yola asfalt döşənmiş, burada köməkçi otaqlar inşa olunmuşdur.



Abidənin kitabəsində bu sözlər yazılıb: "Bu abidə kompleksi Füzuli rayon camaatının maddi köməkliyi ilə inşa edilib. 06.09.1999 - 06.09.2001. Memarı Rizvan Qarabağlıdır".

## SEYİDƏHMƏDLİ KƏNDİ

(Bax:**Aşağı Seyidəhmədli** və **Yuxarı Seyidəhmədli** kəndləri)

## SEYİDLƏR YURDU, SEYİDLƏR BULAĞI

Füzuli rayonu ərazisində qeydə alınan maraqlı mikrooykonimlərdən biri də **Seyidlər yurdu** adlanır. ***Seyidlər yurdu*** toponimi adını daşıdığı yaşayış məntəqəsinin **(yurdun)** vaxtilə mənsub olduğu zümrəni (titulu) göstərən **seyid terminindən** və **yurd** komponentindən ibarətdir. Funksional struktur baxımından **Seyidlər yurdu** mikrooykonimini etnonim və bu səciyyəli adlarla ifadə olunan (zümrə, titul və s.) tipə aid etmək olar.

Ərazidə **Seyidlər bulağı** adlı mikrohidronim də qeydə alınmışdır...

## SEYİDMAHMUDLU KƏNDİ

**Seyidmahmudlu kəndi** rayon mərkəzindən 8 km şərqdə, Qarabağ silsiləsi ətəyində, ərazisi dağətəyi olan bir sahədə yerləşir. Əhalisi üzümçülük, heyvandarlıq və taxılçılıqla məşğul olur. Kənddə məktəb, klub, kitabxana və s. var. Kənd 1993-cü ilin avqustun 23-də ermənilər tərəfindən işğal olunmuşdur.

Yaşayış məntəqəsi **Seyidmahmudlu** adlı nəslin burada məskunlaşması nəticəsində yaranmış və həmin nəslin adı ilə də adlanmışdır.

Tarixdən məlumdur ki, **Seyid Mahmudlu** oymağı **Cavanşir** tayfasının bir qoludur. 1727-ci ilə aid olan "Gəncə-Qarabağ

əyalətinin müfəssəl dəftəri" adlı tarixi qaynaqda bu oymağın Arasbar sancağında qışlaması, Naxçıvan sancağında, Sisyan adlı yerdə yaylaması göstərilir. Həmin mənbəyə görə **Seyid Mahmudlu oymağı** Dizaq nahiyəsində, Gülbar adlı çayın kənarında əkinçiliklə məşğul olur, üşr və behrələrini torpaq sahibinə verir (yekuna görə 39.000 ağca).

Bu oymağın **heydərxanlar, əlvarislər, ismayıloğulları, şahməhəmmədlilər, xəlifəqulular, nəqdəlilər, lütfəlilər, məhəmmədyarlılar, əhmədlilər, mirzəlilər, şəriflilər, əlilər, yarhacılar, pirmahmudlar, bayramlılar, musalılar, səlimxanlar, qaracarlar, kazımlar, şahalmışlar, mürşüdqulular, şükürlülər, niyazqulular** və s. adlı tirələri vardır.

Aydındır ki, Azərbaycanda oykonim, oronimlərin bir qismi tarixən müqəddəs hesab edilmiş, sitayiş obyekti olmuşdur. Bu mənada müxtəlif vaxtlarda yaşamış **seyidlərə**, şeyxlərə, ruhanilərə, xalq təbiblərinə bir növ sitayiş əlaməti olaraq yaranmış coğrafi adlar mövcuddur ki, **Seyidmahmudlu** toponimini də bu qəbildən hesab etmək olar.

**Seyid** komponenti ilə dini titul və şəxs adı ilə bağlı Azərbaycanda onlarla coğrafi adlar mövcuddur: Seyidlər kəndi (Kəlbəcər, Salyan, Samux, Xaçmaz, Ağdam), Seyidyurd kəndi (Şəki), Seyidbazar kəndi (Cəlilabad), Seyidbəyli kəndi (Xocalı), Seyidan kəndi (Salyan), Seyidqışlaq kəndi (Qəbələ), Seyidoba kəndi (Saatlı), Seyidsadıqlı kəndi (Salyan), Seyidəliqulu təpəsi (Beyləqan) və s.

Azərbaycanda **seyid**, imam nəslindən olanlar müqəddəslər kimi tanınırlar. Xalq arasında hörmət və izzət qazanmış **"seyid"** sözü şəxs adı kimi bir çox toponimlərdə də öz əksini tapmışdır.

## SƏFİXAN SƏNGƏRİ

**Səfixan səngəri** oronimi Araz Dilağarda kəndi yaxınlığında qeydə alınmışdır. **Səfi xan** XVIII əsrin ortalarında yaşamış, dövrünün savadlı adamlarından biri olmuşdur. O, Cavanşir elinin



Yağlıvənd oymağının kələntəri olmuşdur. Nadir şahın sərkərdəsi olan **Səfi xan** Qarabağda öz atlıları ilə döyüşlərdə vuruşmuş, Osmanlılara qarşı döyüşlərdə şücaəti ilə fərqlənmişdir. Həmin döyüşlərin birində səngərdə igidlik göstərmişdir. Vuruşduğu **səngər** sonralar onun adı ilə də adlanmışdır...

## SƏNGƏR YALI

**Səngər yalı** oronimi İşıqlı kəndi ərazisində qeydə alınıb. Bu toponimlə bağlı yerli əhali müxtəlif rəvayətlər söyləyir. Birinci rəvayət bundan ibarətdir ki, 1905-06-cı illər erməni-müsəlman davası zamanı bu yerlərdə döyüşlər gedən zaman Cavad bəy və onun adamları bu **yalı** özlərinə **səngər** etdikləri üçün sonralar o yer belə adlanmışdır. İkinci rəvayət isə belədir ki, Cavad bəyin dəstəsi ilə qaçaq Dəsguralı xanın döyüşçü dəstəsi bu ərazilərdə qarşı-qarşıya gələndə Cavad bəygil bu yeri özlərinə **səngər** seçmişlər...

**Yal** - müsbət relyef forması bildirən coğrafi termindir. Dağın ən hündür zirvəsinin yamacı oronimiyada **yal** komponenti ilə ifadə olunur. Çöl materialları içərisində respublikamız ərazisində adının tərkibində **yal** termini olan 600 oroqrafik obyekt qeydə alınıb...

## SƏNGİR YERİ

Qərvənd kəndi ərazisində qeydə alınan coğrafi adlardan biri **Səngir yeri** adlanır. Qədim türk dillərində işlənən **Səngir (sənqir)** sözü indiki Azərbaycan dilinin dialektlərində işlədilən **səngər** sözü ilə eynilik təşkil edir. Bu söz *"dağ çıxıntısı"*, *"dağ burnu"* anlamlarında işlədilir. Oronim döyüşlərdə **səngər yeri** olduğu üçün el arasında da adı belə tarixləşmişdir.

Abşeron, Astara, Qazax, Qax, Quba, Qubadlı, Qusar, Dəvəçi, Zəngilan, İsmayıllı, Yardımlı, Goranboy, Lerik, Xanlar, Xocalı, Cəbrayıl, Şahbuz, Şəmkir, Şuşa rayonlarının ərazilərində də **səngir (səngər)** termini ilə bağlı oroqrafik obyektlər qeydə alınmışdır...

## SƏRDAR RAYONU

Füzuli rayonunun (şəhərinin) 1929-31-ci illərdə adı **Sərdar** olmuşdur. **1 mart 1929**-cu il tarixdə Azərbaycan Xalq Komissarları Sovetinin qərarı ilə Qaryagin şəhərinə mətin inqilabçı, qarğabazarlı Bünyad Sərdarovun vəfatının 10 illiyi ilə əlaqədar olaraq **Sərdar (**Sərdar sözü fars dilində "başçı, komandan, vali, canişin" deməkdir**)** adı verilmişdir. Az müddətdə bütün rəsmi sənədlərdə şəhərin (rayonun) adı **Sərdar** (bəzən **Sərdarabad** şəklində də yazılırdı) kimi göstərilmişdir. Amma SSRİ Xalq Komissarları Sovetinin təzyiqi ilə Azərbaycan SSR Xalq Komissarları Soveti 1931-ci ildə özünün 1 mart 1929-cu il tarixli qərarını ləğv edərək **Qaryagin** adını bərpa etdi...

Tarixi sənədlərdə göstərilir ki, Məmməd Əsədov **Sərdar** RPK-nın birinci katibi, Əziz Nuriyev **Sərdar** RİK-nin sədri, Əbdül Məmmədov isə **Sərdar** RPŞ-nin rəisi vəzifəsində çalışmışlar...

Bünyad Mədət oğlu İbrahimov **(Sərdarov)** 1889-cu ildə Gəncə quberniyasının Cəbrayıl qəzası tabeliyindəki Qarğabazar kəndində anadan olub. **Sərdar** - onun ulu babasının adıdır. Sərdarın İbrahim, İbrahimin isə Mədət adlı oğlu (Bünyadın atası) olmuşdur. Mədətin 5 övladı vardı ki, onların da böyüyü Bünyad idi. XX əsrin Bakıdakı məşhur tətillərində Bünyad təcrübə məktəbi keçib sınaqdan çıxmışdı. Onu 1907-ci ildə neft mədənlərinin müdiri, mühəndis N.Kotovskinin yaralanmasında təqsirili bilib həbs etdilər. Bir müddət Bayıl həbsxanasında qaldıqdan sonra təqsiri sübut olunmadığı üçün 1908-ci ilin yazında o, azad olunur. Sonralar uzun müddət təqib olunan B.İbrahimov izi itirmək üçün **Sərdarov** soyadı ilə Balaxanıda işə düzəlir.

1915-ci ildə B.Sərdarov Bakı bolşeviklərinin gizli yığıncağında RSDFP Bakı Komitəsinin üzvü seçildi. 1917-ci ildə "Hümmət" komitəsinin, bolşeviklər partiyasının Balaxanı rayon komitəsinin üzvü seçilən B.Sərdarov Bakı Sovetinə də deputat seçilir. 1918-ci ilin sonlarında V.İ.Leninin göstərişi ilə Hərbi İşlər Komissarlığı yanında yaradılmış mərkəzi Müsəlman Hərbi Kollegiyası



Bürosuna üzv seçilən Bünyad RK(b)P Müsəlman Təşkilatları Mərkəzi Bürosunun qərarı ilə Petroqrada gedib Moskvaya qayıtdıqdan sonra Bünyad MMHK-nın 1 fevral 1989-cu il tarixli qərarı ilə müsəlman hərbi hissələrini təşkil etmək məqsədilə cənub cəbhəsinə ezam olunur. Siyasi ədəbiyyat, sənəd, silah və başqa məxfi məlumatları Qafqaz Ölkə Komitəsinə çatdırmaq kimi son dərəcə təhlükəli tapşırıq alan B.Sərdarov 1919-cu ildə İbrahim Ata oğlu adına olan pasport və iş paltarı alıb gecə ikən balıqçı qayığında Həştərxandan Bakıya yola düşür. Çeçen adası yaxınlığında ağqvardiyaçı keşikçi gəmisi tərəfindən yaxalanan Bünyad çoxlu işgəncələrdən sonra güllələnərək dənizdə batırılır...

## SƏRDARLI KƏNDİ

**Sərdarlı kəndi** rayon mərkəzindən 10 km cənubda, Qarabağ silsiləsində, dağətəyi ərazidə yerləşir. Sərdarlı kəndi Ərgünəş dağının ətəyində yerləşən Qoçəhmədli, Pirəhmədli, Mollavəli kəndlərinin əhatəsindədir. Əhalisi əsasən üzümçülük, heyvandarlıq və taxılçılıqla məşğul olur. Kənddə məktəb, klub, kitabxana məscid, dəyirman, kükürdlü bulaq, kəhriz qədim qəbiristanlıq, Nərgizli, Muradlı, Zoğallı, Otaylı, Butaylı adlanan bağlar və s. var... Kənd ermənilərin işğalı altındadır...

Kəndin **kovxalı, qaraməmmədli, dəlləkli, allahverənlər, kərbalayiməmmədqulular, xələflər, namazlılar, qaradağlılar, bayramlılar, məmmədlilər, allahyarlar, musalar** və s. tayfaları vardır. 1593-cü ilə aid Osmanlı qaynağında kəndin adı çəkilir...

XVIII əsrdə - İbrahimxəlil xanın hökmdarlığı zamanı kəndin kovxaları, kəndxudaları Vəliməmməd ağa Teymuraz bəy oğlu və İmamverdi bəy Dostməhəmməd ağa oğlu olmuşdur. Bu zaman mahalın naibi Məlik Namazəli bəy Şamil bəy oğlu idi ki, kovxa Vəliməhəmməd ağa Teymuraz bəy oğlu naiblə isti ilişgilər qurmuşdu. Mehdiqulu xanın dönəmində isə kəndə Məşədi Hacı bəy Vəliməhəmməd ağa oğlu başçılıq etmişdir.

1797-ci ilə aid olan sənəddə göstərilir ki, Ağaməhəmməd şah Qacarın Qarabağda yandırdığı kəndlərin siyahısında **Sərdarlı** kəndinin də adı var. 1823-cü il bilgisinə görə, kənddə **37** tüstü vardı. Aparılan kameral siyahıya görə kənddə 1842-ci ildə **42,** 1863-cü ildə **62,** 1886-cı ildə **85** tüstü olmuşdur...

Kəndin adı bəzən **Sərdərli** kimi də qeyd edilir. Yaşayış məntəqəsi öz adını el arasında **"sərin dərəli"** komponentinin assimilyasiyaya uğramış **"Sərdərli"** ifadəsindən almışdır. Doğrudan da, yayın ən isti günlərində belə kəndin bulaq yerləşən dərəsində hər zaman çox qəribə sərin meh əsir...

Bəzi ehtimallara görə kənd XVIII əsrdə Qarabağ xanının vəkili olmuş Mirzə Xələfin oğlu Həsənqulunun mülk yeri olmuşdur. Kəndin bünövrəsini qoyan Həsənqulunun qardaşı İmamqulu isə atasının mülkü olan qonşu Xələfşə (bəzən də Xələfşə kimi də qeyd edirlər) kəndində yaşayırmış.

Həsənqulunun oğlanları Mirzə Məhəmməd və Mirzə Əhməd öz bacıları ilə birlikdə Sərdərlidə yaşamışlar. **Sərdərli** kəndinin qonşu Qoçəhmədli, Xələfşə kəndləri ilə qohumluq əlaqələri var.

**Sərdərli** toponimi yerin landşaft komponentini özündə əks etdirir. Bir çox tədqiqatçılar **Sərdarlı** sözünü antrotoponim kimi - şəxs adı ilə izah etməyə çalışırlar.

## SƏRDƏRLİ MƏSCİDİ

Qoçəhmədli inzibati ərazi vahidi sahəsində qeydə alınan oroqrafik obyektlərdən biri **Sərdərli məscidi** adlanır. Bu **məscid** XIX əsrdə inşa edilmişdir. Məscidin **Sərdərli** adlanması ərazidə yerləşən **Sərdərli** kəndinin adı ilə bağlıdır. **Sərdərli məscidi** Füzuli rayonunun yerli əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələrindən biri hesab olunur.



## SÖYÜDLÜ BULAQ

Füzuli rayonu ərazisində qeydə alınan **Söyüdlü bulaq** oroqrafik obyekti **söyüd** sözündən, **bulaq** hidronimik apelyativindən və mənsubluq ifadə edən **-lü** şəkilçisindən ibarətdir. Hidronim bulağın qaynadığı ərazidə bitən **söyüd** ağacının adı ilə əlaqədar olaraq belə adlandırılmışdır. Bu tipli coğrafi adlara Azərbaycanın başqa ərazilərində də rast gəlmək olar...

## SUSUZ DƏRƏ

Rayon mərkəzindən 10 kilometr şimal-şərqdə, çökəklikdə yerləşən dərə **Susuz dərə** adlanır. Dərənin adı orada suyun olmaması ilə bağlıdır. Toponim **"suyu olmayan yer"** mənasındadır. Yerli əhalinin bəziləri toponimi "susuzluq dərəsi" kimi də işlədirlər. Laçın rayonunda **Susuzdağ,** Kəlbəcər rayonunda **Susuzluq kəndi** və **Susuzluq dağı** toponimləri də mövcuddur.

## SUTÖKÜLƏN BULAQ

Qacar kəndi ərazisində, kənddən 3 kilometr aralıda qeydə alınan hidronimlərdən biri **Sutökülən bulaq** adlanır. Hidronim həmin sahədə **bulaq suyunun** bir qədər hündürdən, şəlalə kimi qaynayıb **tökülməsi** ilə əlaqədar olaraq belə ad almışdır. Bu tipli coğrafi adlara Ağdam rayonunun Abdal kəndi yaxınlığında **(Sutökülən dərəsi),** Ağcabədi rayonunun Qaradolaq kəndi yaxınlığında **(Sutökülən çökək)** və s. yerlərdə də rast gəlirik.

## SÜLEYMANIN ÇALAXLIĞI

Oronimiyamızda şəxs adı ilə düzəlmiş çoxlu sayda antroponimik oronimlər vardır ki, onlardan da biri Horadiz kəndi ərazisində, Qozlu çayın kənarında qeydə alınan **Süleymanın çalaxlığı** mik-

rooronimidir. Toponimin tərkibindəki **Süleyman** sözü göründüyü kimi, adam adıdır; **çalaxlığı** (çalalağı, dərinliyi, çökəkliyi) sözü isə azacıq təhrifə uğramışdır.

Burada yaşı yüz illəri haqlayan çoxlu tut ağacları vardı. **Süleyman** kişi vaxtilə ağacları şirin, iri qara tuta calatdırmışdır. Həmin bağ çəpərə alınmamışdı. Əgər kim istəyirdisə həmin şirin qara tutdan yeyə bilərdi. Sonralar həmin bağ ipəkqurdu saxlayanların ixtiyarına verilmişdi...

## ŞABANDAĞ

**Şabandağ** - Füzuli rayonu ərazisində, Füzuli şəhərindən 3 kilometr cənubda yerləşən dağdır. Ehtimallara görə, bu oronim **Şaban** şəxs adı ilə bağlıdır...

## ŞAH ABBAS MƏSCİDİ

Sərdarlı kəndindəki bu **məscid** başqa ərazilərdə olan **Şah Abbas** məscidləri üslubunda tikilmişdir. Deyilənlərə görə, **məscid** XVI yüzilliyin sonlarında Səfəvi hökmdarı **Şah Abbas** tərəfindən inşa etdirilib. **Şah Abbas** tərəfindən və ya onun zamanında tikildiyi üçün **məscidə** belə ad verilmişdir...

## ŞAHBUDAQ KƏHRİZİ

Saracıq kəndi ərazisində qeydə alınan hidronimlərdən biri **Şahbudaq kəhrizi** adlanır. Yaşı yüzilləri haqlayan bu kəhrizin şəfalı, dumduru və soyuq suyu var. **Kəhriz** - qrunt sularını toplamaq və yer səthinə çıxarmaq üçün yeraltı qurğudur. Kəhriz lağımları bir-biri ilə əsasən şaquli quyular vasitəsilə birləşdirilir. Kəhrizlər peşəkar kankanlar tərəfindən qazılır. Kəhrizlərin suyu təmiz, duru



və saf olur, ondan su təchizatında və suvarmada geniş istifadə edilir.

Azərbaycanda kəhriz sistemi e.ə. I əsrdən mövcuddur. XX əsrin ortalarında Azərbaycanda 900-ə qədər **kəhriz** olub. Toponimin **şahbudaq** adlanması ilə bağlı müxtəlif fikir və mülahizələr söylənməkdədir...

## ŞEYX İBRAHİM TÜRBƏSİ



Aşağı Aybasanlı kəndi ərazisində qeydə alınan maraqlı abidələrdən biri də ümumi hündürlüyü 6 metr olan **Şeyx İbrahim** türbəsidir. **Şeyx İbrahim türbəsi** təbii əhəng daşı ilə səkkizbucaqlı şəklində inşa edilib. Türbənin kümbəzi bişmiş kərpiclərdən hörülübdür. Gümbəzin üst hissəsi ağ rəngli əlvan metal təbəqə ilə səliqəli şəkildə üzlənmişdir.

**Şeyx İbrahim türbəsi** el arasında **İbə İbrahim türbəsi** kimi tanınır. Türbənin giriş qapısında küncləri cilalanmış daşlardan istifadə edilmişdir. Giriş qapısının hündürlüyü 150 sm, eni isə 73 sm-dir. Qapının sol yuxarı küncündəki sal daş üzərinə ağac altında ayaq üstə durmuş qadın və onun yanında isə at şəkli həkk olunmuşdur. XIX əsrin ikinci yarısında türbəyə ziyarət məqsədilə gələnlər üçün giriş qapısı tərəfdən kiçik dəhliz də tikilmişdir...

**Türbə** 1632-1633-cü illərdə (hicri 1042-ci il) tikilmişdir. Kitabəsində yarıpozulmuş şəkildə *"Allahın Rəsulu Məhəmmədə salam. 1042... Əvəzəli bin Əlimərdan..."* sözləri yazılıb. Ehtimal etmək olar ki, Əvəzəli bu türbəni tikən ustanın adıdır. Zahiri

görünüşcə səkkizbucaqlı formada olmasına baxmayaraq, türbənin daxili divarı dairəvi formada, hamar şəkildə, əhəng məhlulu ilə suvanmışdır. İşıqlandırma üçün beş tərəfdə eyni sayda kiçik ölçülü (20 x 40sm) pəncərə qoyulmuşdur.

**Şeyxin** məzarı türbənin mərkəzində, döşəmədən 80 sm hündürlükdədir. Məzarın aşağı hissəsindəki daş parçası üzərində ərəb qrafikası ilə *"Bismillah İrrəhman İrrəhim... 1302... Hüseyni Kərkəzi, Məhəmməd, Fatimə, Əli, Həsən, Hüseyn... əl-Müzəffər... Bəy ibn Şərif bəy"*. Həmin bu daşın qəbrin aşağı tərəfinə başıaşağı vəziyyətdə qoyulması çaşqınlıq yaradır. Həm də yazıda, göründüyü kimi, **İbrahim** adı yoxdur. Güman etmək olar ki, bu daş buraya səhvən qoyulmuşdur...

## ŞƏHİDLƏRİN XATİRƏ KOMPLEKSİ



Qarabağ müharibəsində Füzuli rayonu şəhidlərinin xatirəsinə ucaldılmış abidə belə adlanır. **Şəhidlərin xatirə kompleksi** rayonda yaradılmış ianə fondu hesabına tikilmişdir. Abidənin layihəsinin müəllifi tanınmış alim-memar, həmyerlimiz Rizvan Qarabağlıdır. Abidə kompleksinin mərkəzində 8 guşəli türbə layihələndirilib. Onun mərkəzində isə eyni sayda tərəfləri olan iki pilləli, əbədi məşəl üçün kürsü yerləşir. Türbənin öndəki 5 tərəfi açıq, arxadakı 3 tərəfi isə yarıörtülü vəziyyətdədir. Türbənin damı sivri ucluqlu kümbəzlə örtülür. Sıra ilə düzülmüş 7 ədəd bağlı şəkilli daş kitabələr türbənin daxilindən keçir.



Abidənin hər bir elementi rəmzi məna daşıyır. Kompleksin mərkəzində duran türbə ümumi Qarabağ, 7 kitabə isə Yuxarı Qarabağın ətrafında işğal olunmuş rayonların sayını bildirir. Ümumi abidə dəmir betondan olsa da, üzlənməsində ağ və qara mərmərdən istifadə olunmuşdur. Qara və ağ rənglər hər qaranlıq gecənin bir işıqlı səhərinə işarədir.

8 metr hündürlüyə malik olan **Şəhidlərin xatirə kompleksi** Bakı-Füzuli avtomobil yolunun Beyləqan rayonundan Füzuli ərazisinə daxil olan hissəsində, yüksəklikdə ucaldılmışdır. Qarabağ uğrunda, Vətən uğrunda əbədiyyətə qovuşmuş Füzuli şəhidlərinin xatirəsinə ucaldılmış bu abidə hər tərəfdən bir neçə kilometr uzaqlıqdan görünür. Abidə ilə magistral yolun kənarını plitə düzülmüş səki birləşdirir...

## ŞƏKƏRCİK KƏNDİ

Rayon mərkəzinin 2 kilometrliyində, şəhərin şimal-şərqində, düzənlikdə yerləşən kənd. Əhalisi 800 nəfərdir. Kənddə məktəb, klub, kitabxana, uşaq bağçası və s. var. **Şəkərcik kəndi** 1993-cü il avqustun 23-də ermənilər tərəfindən işğal olunub...

Deyilənlərə görə bu kənd vaxtilə **Şəkər** adlı varlı bir qadının mülkü, bostan yeri olub. XIX əsrin əvvəllərində qarabulaqlı, dövlətli bir kişi bu yeri pul ilə ondan alıbdır. O vaxtdan həmin ərazi **Şəkər xanımın bostanı, Şəkərin yeri** kimi adlandırılmışdır. **"Şəkər"** sözünə **"cik"** hissəciyinin artırılması görünür ki, ərazinin kiçik olması ilə əlaqələndirilir.

**Şəkərcik** ərazisində tədqiqatlar zamanı sübut olunmuşdur ki, burada e.ə. I minilliyin əvvəllərində son tunc dövrünə aid yaşayış yerləri olub. Arxeoloji axtarış və kəşfiyyat qazıntısı zamanı bu ərazidən küpə, cam, çölmək, qazan, xeyrə və s. gil qab qırıqlarının nümunələri aşkar olunmuşdur ki, bunlar da əldə və dulus çarxında hazırlanmışdır. Buradan dəvəgözü (obsidian) qəlpələri, dəndaşı, daş toxalar da aşkar edilmişdir. Qabların bəzisinin səthi səliqə ilə

cilalanmış, hamarlanmış, kəsmə naxışla bəzədilmişdir. Tədqiqatlar bunu deməyə əsas verir ki, qədim dövrlərdə bu ərazilər oturaq əkinçi-maldar tayfalarına məxsus olmuşdur.

1593-cü ilə aid olan Osmanlı qaynağında **Şəkər** mülk, yurd, torpağının adı kimi çəkilir. Yaşayış məntəqəsinin əhalisi əsasən, **hacılılardan** ibarət olmuşdur. Bəzi mənbələrdə **Şəkərcik kəndi** yerləşən ərazinin adına **Qaraköpək** formasında da rast gəlirik.

Kənd **Şəkərciklər** adı ilə məşhurdur. Kəndin adını orta əsrlərdə Qarabağda yaşamış **cavanşir** tayfasına mənsub olan **şəkərciklər** tirəsinin adı ilə bağlayan tədqiqatçılar da vardır.

**Şəkər** komponenti ilə bağlı Salyan rayonunda **Şəkərli kəndi,** Ağstafa rayonunda **Şəkərli qəsəbəsi,** Lənkəran rayonunda **Şəkərbağı kəndi,** Gədəbəy rayonunda **Şəkərbəy dağı** və **kəndi,** Babək rayonunda **Şəkərabad kəndi,** Göyçay və Xocavənd rayonlarında **Şəkər** kəndləri mövcuddur...

## ŞƏKƏRCİK YAŞAYIŞ YERİ

Rayon ərazisində qeydə alınan qədim yaşayış yerlərindən biri **Şəkərcik** yaşayış yeridir. Bu **yaşayış yeri** rayon mərkəzindən 2 kilometr şimalda, **Şəkərcik kəndi** ərazisindədir. Elə bu səbəbdən də belə adlanır. **Şəkərcik yaşayış yeri** tunc dövrü abidələrindən hesab olunur. Bu tarixi abidə ölkə əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələri siyahısındadır...

## ŞƏMSİ BURNU VƏ ŞƏMSİ DƏRƏSİ

Azərbaycan oronimiyasında şəxs adlarından düzəlmiş çoxlu sayda coğrafi adlar qeydə alınmışdır. Belə oronimlərin çoxusu mikrooronimlərdir. Adətən bu qrupa daxil olan mikrooronimlər əsasən mənsubiyyət bildirən sonluqlarla bitir. Bu tip oronimlərə Füzuli rayonu ərazisində qeydə alınan **Şəmsi burnu** və **Şəmsi dərəsi** antroponimik oronimlərini də nümunə göstərmək olar.



**Şəmsi burnu** oroqrafik obyekti Füzuli bölgəsinin Yuxarı Yağlıvənd kəndi yaxınlığında, Kirs dağının ətəyində qeydə alınıb. **Burun** - qurunun, dağın, qayanın sivri bucaq şəklində düzünə tərəf uzanmış hissəsi, çıxıntısıdır. Toponimiyada **burun** termini ilə bağlı 400-ə qədər oronim qeydə alınıb. Toponimin tərkibindəki **Şəmsi** sözü XVIII əsrdə Cavanşir elinin Yağlıvənd oymağında yaşamış **Şəmsi bəy** adlı ünlü bir ağanın adı ilə bağlıdır.

Yuxarı Yağlıvənd kəndi ərazisində qeydə alınmış **Şəmsi dərəsi** oroqrafik obyekti də XVIII yüzildə yaşamış həmin **Şəmsi bəyin** adı ilə əlaqədardır. Oronimin tərkibindəki **-si** şəkilçisi mənsubluq ifadə edir, **dərə** sözü mənfi relyef forması ifadə edib, relyefin **dar, çökək** formasını bildirir...

## ŞIXBABA TÜRBƏSİ

**Şıxbaba türbəsi** rayon mərkəzindən 35 km cənub-şərqdə, Babı kəndinin qəbristanlığında yerləşir. Şıx Veys (**Şıxbaba**) adlı pir-türbə XIII əsr memarlıq abidəsi hesab olunur. Bəzi tədqiqatçılar **Şıxbaba** türbəsinin görkəmli Azərbaycan ilahiyyatçı alimi, şair, sərkərdə **Şeyx Babi Yaqubun** şərəfinə tikildiyini qeyd edirlər (Əlavə məlumat üçün bax: *Babı türbəsi, Babı kəndi*).

## ŞIXLI KƏNDİ

Rayon mərkəzindən 2,5 km şərqdə, dağətəyi ərazidə yerləşən kənd. Əhalisi 500 nəfərdir.Əhalisi əsasən taxılçılıq, heyvandarlıq və üzümçülüklə məşğul olur. Kənddə məktəb, klub, kitabxana, körpü (XIX əsr) və s. var. Yaşayış məntəqəsi 1993-cü il avqustun 23-də ermənilər tərəfindən işğal olunub.

**Şıxlı** yaşayış məntəqəsinin adı **qazax** tayfasının **şıxlı** tirəsinin adı ilə əlaqədardır. XVIII əsrdə Qazaxların bir hissəsi siyasi

hadisələrlə əlaqədar Qarabağa köçüb orada məskunlaşdılar. Mənbələrdə **qazaxların** mənşəcə xəzərlərlə bağlılığı da əks olunmuşdur. XIX əsrdə **qazaxlar** qarapapaq, saraclı, qafarlı, cəfərli, qarabağlı, kərimbəyli, gödəkli, muğanlı, qaraqoyunlu, şahidli, ayrumlu, kərkibaşlı, cəmilli, **şıxlı (şıxlar),** çaxırlı, kəngərli, salahlı, kəsəmən və başqa tayfalardan ibarət idi.

Göründüyü kimi, geniş yayılmış **qazax** (*qazax* sözü "azad, müstəqil insan", "öz tayfalarından aralı düşmüş insanlar" anlamındadır) etnik birliyinə aid olan etnotoponimlər içərisində şıxlı tayfaları da var və onlar da XVIII əsrin siyasi hadisələri ilə bağlı Qarabağa gələnlərin sırasında olub. Bu tayfanın adını XIX əsr mənbələrində bəzən **şıxılu** kimi də qeyd etmişlər. Çox güman ki, **şıxlı** tayfası 1537-ci ildə Şəmkirdən Qazax mahalına köçmüş Ağdolaqlı Məhəmməd ağanın oğlu **Şıxı** övladlarının adı ilə bağlıdır...

**Şıx** oykonimini **şeyx** (titul, *"elmli, savadlı"* mənasında) kimi yozanlar da var. Əski türklərdə, türkmənlərdə, azəri türklərində ata, maxtum, **şıx** və s. müqəddəslər nəslinin nümayəndələri indiyə kimi öz müqəddəsliklərindən istifadə edib xalqı müxtəlif xəstəliklərdən qurtarmaq üçün köməklik edirlər...

Bəzi qaynaqlardan məlum olur ki, **Şıxlı (Şıxılı) obası** Cavanşir elinə məxsus **Hacılı** icmasına daxil olan şenliklərdən biridir. Şıxılı obasının əhalisi haqqında XIX əsrin 1842, 1849, 1863, 1873 və 1886-cı illərində qeydə alınan əhalinin siyahıyaalınma sənədlərində müəyyən qədər məlumatlar vardır.

Kənddə **qasımlılar, həsənlilər, abdullalar, seyidlilər, oruclular, mürsəllilər, səfililər, ağalarlılar** və s. adlı tayfa və nəsillər vardır.

Şıxılı obasının **Oruclu, Həsənli, Vəlili, Ocaqverdili, Cəfərli, Muradlı, Alılı, Sevdimalılı, Ocaqqulular, Məmişlər, Rəhimlilər, Hüseynlilər, Məmmədqulular, Kərbəlayi Seyid Şükürlülər** adlı tayfa və tirələri var...

*Şıxlı* adlı kəndlər Ağdaşda, Dəvəçidə və Qazaxda da var. Ağdam, Qaradağ, Qax, Yardımlı, Goranboy, Masallı, Sabirabad, Xaçmaz, Cəbrayıl, Cəlilabad və Şamaxı rayonlarındakı **Şıxlar kəndi** XVI əsrdən **qazax** və **qazaxlı** qızılbaş tayfalarından biri kimi tanınan **şıxlı, şıxlar (şeyxlər)** tirəsinin adı ilə əlaqədardır.

## ŞIR-ŞIR

Füzuli rayon mərkəzinin 1 km şimal hissəsində süni yaradılan, Köndələn gölünə təxminən 35 metr hündürlükdən tökülən çay, şəlalə. Səs-küylü, *şırıltılı* olduğu üçün yerli əhali bu şəlaləyə "**şır-şır**" deyir.

Şəlalə tökülən yer beton plitələrlə əhatə olunmuşdur. *Şır-şır şəlaləsi* Qarabağda ən hündürdən tökülən şəlalədir. Hətta, ən küləksiz havada belə hündürlükdən tökülən çaydan su damlaları yüz metrə qədər məsafəyə sıçrayır. Şəlalənin töküldüyü yerdə eyni adlı soyuq bulaq da var. **"Şır-şır" şəlaləsi** və eyni adlı bulaq yerləşən həmin ərazi Qarabağın ən dilbər guşələrindən biri hesab olunur.

## ŞİKAYIM

Rayon mərkəzi olan Füzuli şəhərində, şəhərin şimal hissəsində təxminən XX əsrin 40-60-cı illərində "gənc kolxozçuların məktəbi" belə adlanırdı. "**Şikayım**" adlandırılan bu məktəb yəqin ki, "şkola kolxoznoy molodyoji" **(ŞKM)** sözlərinin abreviaturasıdır.

## ŞİRƏVİŞ DAŞI

Qarakollu kəndindən şimalda, Dağqoruq deyilən bir ərazidə qeydə alınmış oroqrafik obyektlərdən biri **Şirəviş daşı** adlanır. Keçmişimizin yadigarı olan **Şirəviş daşı** ilə bağlı ətraf kəndlərin əhalisi arasında çoxlu əfsanələr dolaşmaqdıdır. Uzunluğu 2 metr

olan bu daşın yuxarı hissəsi enli, aşağı hissəsi getdikcə ensizləşən və axacaqlıdır. Daşın orta hissəsi 10 santimetr dərinliyində olub, üzüm şirəsinin daşıb tökülməməsinə xidmət edir.

Torpaq səthinə maili qoyulmuş bu daşın hər küncünə dörd qaraağac əkilib.Hər bir ağac 4-5 ton ağırlığında yükü asanlıqla saxlaya biləcək gücdədir.Üzüm yığımı zamanı dördbucaq vəziyyətində olan bu ağacların üst qatında böyük çardaq qurarmışlar. Kəndin hörmətli ağsaqqalları həmin çardağın üzərinə qara ot deyilən yabanı ot döşəyər, dərilmiş üzümü bu otun üzərinə töyüb əzərmişlər. Ağsaqqal üzümü əzdikcə onun şirəsi qara otdan keçib damcı daşın üzərinə süzülər, oradan isə daşın axacağına qoyulmuş böyük qaba tökülərmiş...

**Şirəviş daşının** üzərində əkilmiş qarağacın meyvələrindən vaxtilə istifadə edilmişdir. Noxud boyda olan qara meyvələr payızda yetişərmiş. Onu dərib daşın üstünə tökər, çubuqla döyüb halva halına salar, sonra dərman maddəsi kimi istifadə edərmişlər. Meyvənin çəyirdəyi ilə *Şirəviş* daşını təmizləyir, onu gələn ilə hazırlayarmışlar. **Şirəviş** daşından istifadə etmək üzümün ibtidai formada emalından başqa bir şey deyilmiş. Daşın formasından ilk baxışdan yəqin etmək olar ki, bu yerlərdə ta qədimdən üzümçülüklə məşğul olublar. Eyni formalı **Şirəviş** daşlarına Abşeron rayonu kəndlərinin ərazilərində də rast gəlmək mümkündür...

## ŞOMULUTƏPƏ

Rayon mərkəzindən 8 km şimal-şərqdə, Köndələnçayın sağ sahilində yerləşən, ilk və orta tunc dövrlərinə aid yaşayış məskəni **Şomulutəpə** adlanır. **Təpə** konus şəkilli, dairəvi formalı süni təpəciklərdən ibarətdir. Şomulutəpənin diametri 80 metr, hündürlüyü 6 metrdir. Maili yamacları süni kurqanlarla əhatələnir. Kəşfiyyat qazıntıları zamanı qara və boz rəngli cilalı, boyalı gil qablar, dən daşları, oraq dişi və s. aşkar edilmişdir. Oradan tapılan



nümunələr Şomulutəpənin e.ə. III-II minilliklərdə əkinçi-maldar icmalarına məxsus olduğunu göstərir.

**Təpə** ərazisində **şomu** bitkisi olduğu üçün o, belə adlandırılıb. **Təpə** - müsbət relyef forması bildirən coğrafi termindir. Ağstafa rayonu ərazisində də **Şomulutəpə** adlı e.ə.VI-IV minilliklərə aid yaşayış yeri vardır...

Rayon mərkəzindən 8 km şimal-şərqdə qeydə alınan **Şomulutəpə** Tunc dövrü yaşayış yeri, ölkə əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidəsi hesab olunur...

## ŞOR BULAQ

**Şor bulaq** hidronimi Füzuli şəhərindən 10 kilometr məsafədə qeydə alınıb. Hidronim **şor** və **bulaq** sözlərindən ibarətdir. **Bulaq** hidronimik apelyativinin iştirakı ilə Azərbaycanda yüzlərlə coğrafi ad qeydə alınıb. Bulağın **Şor** adlanması onun suyunun duzlu, **şor** olması ilə əlaqədardır...

## ŞORCA

Füzuli rayonunun Horadiz kəndi yaxınlığında qeydə alınan oroqrafik obyektlərdən biri **Şorca** adlanır. Oronim **şor** və **ca** komponentlərindən ibarətdir. **Şor** sözü *"şoran"*, *"şoranlıq"*, *"duzlu"* anlamındadır. Toponimin tərkibindəki **-ca** şəkilçisi kiçiklik bildirir. Həmin kiçik ərazinin suyunun və torpağının dadının duzlu, **şor** olması ilə əlaqədar olaraq bu oronim belə adlandırılmışdır. Bu tipli coğrafi adlara Azərbaycanın əksər rayonlarının ərazilərində də rast gəlmək olar.

Vaxtilə İrəvan quberniyasının Novabayazid və Şərur-Dərələyəz qəzalarında, Gəncə (Yelizavetpol) quberniyasının Qazax qəzasında (hazırda Ermənistanın Krasnoselo rayonunda) **Şorca, Şorcalı** adlı oykonimlər də mövcud olmuşdur...

## ŞÜKÜRBƏYLİ KƏNDİ



**Şükürbəyli kəndi** rayon mərkəzindən 20 km cənub-şərqdə, Köndələnçayla Quruçay arasında, düzənlikdə yerləşir. Əhalisi əsasən üzümçülük, taxılçılıq və heyvandarlıq ilə məşğul olur. Kənddə məktəb, klub, kitabxana və s. var. Kənddə *qaraçorlu, məmişli, babaşlı, qurbanlı* və s. tayfaların nəsil və tirələri yaşayır.

Yaşayış məntəqəsini **Şükürbəy** adlı şəxs salmışdır. **Şükürbəyli** oykonimi **"Şükürbəyin nəsli yaşayan kənd, şükürbəylilər"** mənasını bildirir. Çox ehtimal ki, yaşayış məntəqəsi kəndin ilk sakinlərindən olan **Şükürün** *(Şükürbəyin)* adı ilə əlaqədardır.

Mənbələrin verdiyi məlumatlardan aydın olur ki, **cəbrayıllı elinin** qollarından biri də **şükürbəyli** adlanır. **Şükürbəyli** oykonimi XVIII əsrdə yaşamış dövrünün böyük nüfuz sahibi olan **Şükür bəy Hümbətəli bəy** oğlunun adı ilə əlaqədardır...

Yerli məlumata görə, kəndin ərazisi Xədicəxanım adlı bir qadının varlı atası tərəfindən ona mülk kimi hədiyyə verilmişdir. Tarixi mənbələrdə Vəzirovların mülkü hesab olunan **Xədicəxanım yurdu** oykoniminin də adı çəkilir.

Cəbrayıl və Cəlilabad rayonlarında da **Şükürbəyli** adlı kənd vardır.

## TAĞLI KÖRPÜ

Gorazıllı kəndi yaxınlığındakı çayın üzərində tikilmiş körpü **Tağlı körpüsü** adlanır. Yerli məlumata görə körpünün **300** ildən çox yaşı var. Qara daşdan **tağ** formasında inşa olunmuş **körpü** Şərq memarlığının tipik nümunəsi hesab olunur. Körpünün 2 dayağı var;



bu dayaqlar çayın sağ və sol sahillərinə bənd edilmişdir. Körpünün üst hissəsi dayaqlara bənd olunmuşdur. Uzunsov daşlarla bir-birinə bağlanan **tağ** dözümlülüyü ilə fərqlənir.

Təbii fəlakətlər, yüzillərin qar-yağışı nəticəsində körpünün qıraq hissələrindən daşlar qopmuş və onu bir qədər ensizləşdirmişdir. **Tağlı körpüdən** azacıq sol tərəfdə 2 qocaman çinar ağacı var. Araşdırıcıların fikirlərinə görə, bu çinarların yaşı **300** ildən çoxdur...

## TAXTA KÖRPÜ

Füzuli rayonunun Horadiz kəndi ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri **Taxta körpü** adlanır. Adından da göründüyü kimi, toponim **taxta** və **körpü** sözlərindən ibarət olub, *"taxtadan olan körpü"* anlamı ifadə edir.

## TAPDIQ BAĞI

Qacar kəndi ərazisində qeydə alınan coğrafi adlardan biri **Tapdıq bağı** adlanır. Bu **bağ** vaxtilə kəndin yüzbaşısı olmuş **Tapdıq** adlı bir şəxsin adı ilə əlaqədar olaraq belə adlanmışdır. Bağı **Tapdıq yüzbaşı** saldırıb. **Bağda** çoxlu meyvə ağacları, kolları var...

## TEŞNƏK, TEŞNƏK BULAĞI

Horadiz kəndi ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri **Teşnək** adlanır. Həmin yerdə elə o yerin, sahənin adı ilə bağlı eyniadlı **bulaq** da var. Deyilənlərə görə, **Teşnək** sözü qismən təhrifə uğramışdır; əslində söz **teşnə** şəklində yazılmalıdır. **Teşnə** sözü *"susamış, susuz"*, *"bir şeyi çox istəyən"*, *"arzusunda olan"*, *"bir şeyin həsrətini çəkən kəs"* və s. anlamlarda işlədilir. **Bulaq** - yerin altından qaynayıb çıxan su mənbəyidir. Kənd və onun adamları üçün bu bulağın böyük əhəmiyyəti vardır.

## TƏPƏ KƏHRİZİ

**Kəhriz** - qrunt sularını toplayıb yer səthinə çıxarmaq üçün yeraltı qurğudur. Kəhrizlər adətən, peşəkar kankanlar tərəfindən qazılardı. Kəhrizlərin lağımları bir-biri ilə şaquli quyular vasitəsi ilə birləşdirilir. Tarixi sənəd və materiallarda göstərilir ki, Azərbaycanda XX əsrin ortalarında 900-dən çox **kəhriz** olmuşdur.

Horadiz kəndi ərazisində qeydə alınmış **Təpə kəhrizi** hidronimi adından göründüyü kimi, **təpə** və **kəhriz** sözlərindən ibarətdir. **Kəhriz** bir qədər yüksəklikdə - **təpədə** yerləşdiyi üçün hidronim belə ad almışdır. Yerli məlumata görə, kəhrizin suyu **Qarağan təpədən** keçib onun yaxınlığında üzə çıxdığı üçün belə adlanmışdır.

## TUĞ YALI

Rayon mərkəzindən 12 km qərbdə, Xocavənd rayonu ilə sərhəd ərazilərdə, Qarabağ silsiləsinin ətəyində, Quruçayın sağ sahilində yerləşən yüksəklik **Tuğ yalı** adlanır. Yüksəkliyin arxasında eyniadlı kənd də yerləşir. **Tuğ yalı** boyunca kəndə qədər çoxlu sayda buz kimi soyuq, bal kimi şirin olan Baş bulaq, Orta bulaq, Qoşa bulaq, Salman bulaq, Şor bulaq, Məmməd bulağı, Qotur bulaq, Qara bulaq adlı biri birindən gözəl bulaqlar vardır. Təbiət bu yerlər üçün mövcud olan gözəl sərvətlərindən heç nə əsirgəməyib. Bu yerlərin adamları meyvəçilik, tərəvəzçilik, heyvandarlıq, taxılçılıq, üzümçülük və baramaçılıqla məşğul olur.

Ölkəmizin ən məşhur paleolit düşərgələri olan Azıx və Tağlar mağaraları Tuğ yalının ətəklərində yerləşir. Orada aparılan arxeoloji tədqiqatlar zamanı aydın olmuşdur ki, 1,5 milyon il bundan əvvəl bu ərazilərdə insanlar yaşamışdır. **Tuğ yalı** ətəklərində qədim və orta əsrlər dövrlərinə aid çoxlu maddi-mədəniyyət abidələri, mininci ilə aid Qırmızı məbəd, daş alətlər, gil qab nümunələri və s. aşkar edilmişdir.

**Tuğ** haqqında bədii əsərlərdə, o cümlədən, M.F.Axundovun "Hacı Qara", N.Nərimanovun "Bahadır və Sona", C.Cabbarlının



"1905-ci ildə" əsərlərində məlumatlar verilmişdir. Tuğ yalının ətəklərində yerləşən Tuğ kəndini (bu kənd dəfələrlə ermənimüsəlman münaqişəsinin şahidi olub) rus ordu hissələri ilə erməni hərbi birləşmələri 30 oktyabr 1991-ci il tarixdə işğal edərək yandırmışlar. "Qarabağnamə" müəlliflərindən biri Mir Mehdi Xəzaninin məqbərəsi Tuğdadır. Azərbaycanda tanınmış Məlikaslanovlar, Cahangirovlar, Məlikyeganovlar, Yeganlılar, Soraqlılar, Budaqlar, Cəfərovlar tuğludurlar. Tuğlular bu ərazilərə XVI əsrdə Loridən (Lorudan) gəliblər.

**"Tuğ"** sözü türkcə hakimiyyət rəmzi olaraq ucuna at tükü və at quyruğu saçağı bəndləndirilmiş **mizraq**, yaxud metaldan düzəldilmiş iti, deşici **silah, nizə** mənasında işlədilir. Orta əsrlərdə **bir tuğ** sancaqbəyini, **iki tuğ** bəylərbəyini, **üç tuğ** paşanı mənalandırarmış.

Ümumiyyətlə, **tuğ** *"at boynuna bağlanan"* bəzək mənasını verir. XV-XVIII əsrlərdə türk paşalarının da Ukrayna və Polşa getmanları, Rus kazak qoşunu atamanları kimi saçaqları at tükündən və iki gümüş qotazı olan iki metrdən uzun sivri uclu dəstəkləri olardı ki, buna da **"tuğ"**, **"bunçzak"** və ya **"buncuk"** deyilərdi. Bunlar hakimiyyət rəmzini ifadə edirdi. **Tuğ, buncuq** sözləri Ukrayna dilində *"muncuq"*, *"bəzək əşyası"* deməkdir. **Bunçzak** sözü isə polyak dilində *"bəzək"* anlamındadır. **Tuğ** sözünü **tikər, düyər** komponentləri ilə də bağlayanlar var. Boynuna dolanan Quruçaya işarə ilə kəndi *"Boyunbağı"*, yüksəklikdə yerləşdiyinə görə isə bəzən *"Bayraq"* da adlandıranlar olub...

**Tuğ** sözünün mənası haqqında müxtəlif fikirlər mövcuddur. L.Budaqov belə hesab edir ki, **tuğ (tuk)** fars dilində "dağın başı" deməkdir. T.A.Jdankoya görə **tuk** "kök", "rişə" anlamındadır. N.A.Baskakova görə isə **tuğ** sözü "hakimiyyət rəmzi" mənasındadır. Böyük ədibimiz M.F.Axundov **Tuğun** tatarca "bayraq" anlamlı söz olduğu fikrində olmuşdur. M.Seyidov **"tuğ"**un "bayraq" mənası ifadə etdiyini qəbul edir. **Tuğ** - bayraq və sancaqdan fərqli nişan idi. Tuğların sayı vəzifədən asılı olaraq artırdı. İrəli çəkilənlərə bayraqdan savayı **tuğ** da təqdim olunurdu. Tarixi bilgilərə görə **tuğ** - başında at və ya çöl öküzü quyruğu bağlanan bir nizədir...

Ensiklopedik lüğətdə **tuğ** sözünün mənası "bayraq" anlamı ilə izah olunur. Qədim türk tayfalarında hakimiyyət kateqoriyasından asılı olaraq bir qotazlı **tuğ** sancaqbəyi, iki qotazlı bəylərbəyi, üç qotazlı paşa rəmzi hesab olunmuşdur. Azərbaycanın coğrafi adlar üzrə terminologiyası ilə məşğul olan mütəxəssislərin əksəriyyəti Yuxarı Qarabağın (Xocavənd rayonu) **Tuğ kəndinin** adını məhz əslən türk sözü olan **tuğ** - "bayraq" mənası ilə izahlandırırlar.

**Tuğ** sözü dilimizin Oğuz bölgə danışığında həm də "qamış saçaqlarından hazırlanmış yumşaq süpürgə" anlamındadır. Böyük hərbi orkestrlərdə küylü musiqi aləti bəzəyinə də **tuğ** deyilirdi. **Tuğ** - *"at boynuna bağlanan bəzək"* kimi də mənalandırılır. **Tuğ** və **buncuk** sözlərinin hər ikisi türklərdən ali hakimiyyət nişanı olaraq ruslara keçmiş, rus ədəbi dilində də *"hakimiyyət nişanı, rəmzi"* mənası ifadə etmişdir.

**Tuk (tok)** adlı qıpçaq tayfası da olmuşdur. XII-XIII əsrlərə aid rus mənbələrində də buna rast gəlirik. Çox güman ki, həmin tayfadan bu ərazilərdə yaşayanlar da olub. Bəlkə də, **Tuğ** toponiminin adının mənasını bu qıpçaq tayfasının adı ilə əlaqələndirmək daha düzgün olardı. Qafqazda bu tayfanın adı ilə çoxlu etnotoponimlər vardır. Böyük türk hökmdarı, sərkərdə Mete (Mətə) tarixi bilgilərə görə **tuk (tuku)** qəbiləsindəndir. Tarixi sənədlərdən aydın olur ki, 1321-ci ildən 1913-cü ilə qədər Hindistandakı türk dövlətini **tuğlar (tuğluq)** sülaləsi idarə etmişdir. Orta əsr mənbələrində XII əsrdə Arsakda yaşamış bir sıra tayfalar içərisində **tuq (toq)** tayfasının da adı çəkilir. Çox güman ki, **Tuğ** etnotoponimi **tuq (duk)** sözünün çoxluq, *"minə qədər say"* məzmunu kəsb edən təhrif olunmuş elementidir...

"Qarabağnamə" müəllifi M.C.Cavanşir Qarabaği **Tuğ** toponimini **Tuq** şəklində vermişdir.

**Tuğ** (Tuk) etnonimi ilə bağlı aşağıdakı toponimlər mövcuddur: **Tuğ yalı, Tuğ kəndi, Tuğ dağı, Tuğ güneyi, Tuğ çayı** (Füzuli, Xocavənd, Tovuz, Ağdam, Abşeron rayonları və s.).



## TUT BAĞI (ÇƏKİLLİ BAĞ)

Rayon mərkəzindən 2 km cənubda, yüzlərlə tut ağacları olan bağ **Tuğ bağı** adlanır. Bəzən adına çoxillik ağac cinsi - **çəkil** də deyilir. Meyvəsi yalançı şirəli çəyirdəkdir ki, uzunluğu 3-4 sm, rəngi əsasən ağ, çəhrayı və qaradır. Yeyilir, qurudulur, spirt alınır; bəhməz (doşab), mürəbbə, cem, kompot, şirə və s. hazırlanır. Tut yarpaqları ipəkqurdunun yemidir.

**Tut bağı** toponimi oradakı **tut** ağaclarının adı ilə adlandırılmışdır. Rayon ərazisində belə **tut bağları,** meşəlikləri çoxdur.

## UZUNTƏPƏ

**Uzuntəpə** rayon mərkəzindən 9 km şimal-şərqdə, Köndələnçayın sağ sahilində yerləşir. O, e.ə. III minilliyə - ilk Tunc dövrünə aid yaşayış yeri hesab olunur. Uzuntəpənin uzunluğu 200, eni 60 metrdir. Hündürlüyü 1,2 metrdir. Təpənin yamacları mailidir. 1967-1968-ci illərdə aparılan arxeoloji tədqiqatlar zamanı oradan daş toxalar, çaxmaqdaşıdan oraq dişləri, dən daşları, küp, çölmək, cam, süzgəc, boyalı qab qırıqları (ilk və orta Tunc dövrlərinə aid) və s. tapılmışdır. Uzuntəpədən açıq, boz, qırmızı rəngli gil qab nümunələri, xarici səthi cilalanmış, daxili səthi isə azacıq hamarlanmış qab qırıqları, kiçik ölçülü zoomorf heykəlciklər və s. aşkar edilmişdir. Uzuntəpə materialları göstərir ki, burada o zamanlar əhali oturaq əkinçi-maldar təsərrüfatı ilə məşğul olubdur.

**Uzuntəpə** oronimindəki **uzun** termini obyektin relyef formasını və quruluşunu mənalandırır. **Təpə** - müsbət relyef forması bildirən coğrafi termindir. **Uzuntəpə** adına uyğun olaraq **uzunsov** şəkildədir. 1968-ci ildə təpədə mədəni təbəqənin xüsusiyyətlərini öyrənmək məqsədilə kiçik ölçüdə kəşfiyat-qazıntı işləri aparılmışdır. **Uzuntəpə** ölkə əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidəsi hesab olunur.

Oroqrafik obyektlərin relyef formasının **uzunsov** olması ilə əlaqədar yaranan oronimlərimiz çoxdur: ***Uzuntəpə*** (Tovuz rayonu),

*Uzuntəpə kəndi* (Cəlilabad rayonu), *Uzuntala kəndi* (Qax rayonu), *Uzunmeşə kəndi* (Quba rayonu), *Uzunoba kəndi* (Xaçmaz rayonu), *Uzundərə* (Ağdam rayonu), *Uzunqobu* (Xanlar rayonu) və s.

## ÜÇ BULAQ

Füzuli rayonunun **Üçbulaq kəndi** (əvvəlki adı Hoğa) ərazisində qeydə alınan hidronimlərdən biri **Üç bulaq** adlanır. Hidronimin tərkibindəki **bulaq** sözü hidronimik apelyativdir. **Üç** sözü isə say bildirir. Toponim öz adında oradakı bulaqların sayını əks etdirir.

## ÜÇ OCAQ TƏPƏSİ

**Üç ocaq təpəsi** oroqrafik obyekti Füzuli rayonunun Üçbulaq kəndi ərazisində qeydə alınıb. Orqnim tərkibindəki üç sözü say bildirir; **təpə** - müsbət relyef forması bildirən coğrafi termindir; **-si** şəkilçisi mənsubluq ifadə edir. Toponimin tərkibindəki **ocaq** sözü vaxtilə orada yandırılan ocaq tonqallar ilə əlaqədardır...

## ÜÇARMUD TƏPƏSİ

**Üçarmud təpəsi** Füzuli rayon mərkəzindən cənubda, Sərdarlı kəndi ərazisində yerləşir. Təpənin adı orada **üç armud** ağacının olması ilə əlaqədardır. Toponim **üç** - say bildirən sözdən və **armud** meyvə ağacı adından ibarətdir.

Say bildirən sözlər, ümumiyyətlə, oronimlərin birinci hissəsi yerində işlənir. **Üç** sayı ilə bağlı Azərbaycanda çoxlu toponimlər mövcuddur: **Üçbulaq dağı** (Qazax rayonu), **Üçqardaş dağı** (Şahbuz rayonu), **Üçtəpə** (Abşeron, Xanlar, Şərur, Göyçay, Ağdam, Tərtər rayonları), **Üçocaq yalı** (Füzuli rayonu), **Üçhaça dağı** (Oğuz rayonu) və s.



## ÜÇBULAQ KƏNDİ

Rayon mərkəzindən 7 km qərbdə, Qarabağ silsiləsi ətəyində, dağətəyi ərazidə yerləşən kənd. Əvvəlki adı **Hoğa** olub. Əhalisi əsasən heyvandarlıq, taxılçılıq və üzümçülüklə məşğuldur. Kənddə məktəb, klub, kitabxana və s. var. Yaşayış məntəqəsi 1992-ci il martın 31-də ermənilər tərəfindən işğal olunub...

Toponim say bildirən **"üç"** sözündən və **"bulaq"** hidronimik komponentindən ibarətdir. Həmin komponentlərin birləşməsindən yeni spesifik oykonim yaranıb. Qazax rayonu ərazisində **Üçbulaq** adlı dağ və s. toponimlər də bu qəbildəndir...

**Üçbulaq kəndi** Füzuli rayonunun qədim tarixə malik kəndlərindən biridir. 1727-ci aid olan "Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri" adlı tarixi qaynaqda **Hoğa** kəndinin də adı çəkilir. Kənd çox gözəl, mənzərəli bir coğrafi mövqeyə malikdir...

## ÜÇOCAQ YALI

Füzuli rayon mərkəzindən 12 km şərqdə, Qaraxanbəyli kəndində qeydə alınıb. Oronimlərin, ümumiyyətlə, xarakterik xüsusiyyətlərindən biri də onlarda say bildirən sözlərin geniş işlənməsidir. **Üçocaq yalı** toponiminin tərkibindəki say bildirən **"üç"** komponenti **"ocaq yalı"** oronimik terminindən əvvəl gələrək xüsusi bir obyekt adı ifadə edir.

## ÜÇÜNCÜ MAHMUDLU KƏNDİ

**Üçüncü Mahmudlu kəndi** rayon mərkəzindən 6 km şərqdə, Quruçayın sahilində, Qarabağ silsiləsinin ətəyində yerləşir. Əhalisi üzümçülük, heyvandarlıq və taxılçılıqla məşğul olur. Kənddə məktəb, klub, kitabxana və s. var. Yaşayış məntəqəsi 1993-cü il avqustun 23-də ermənilər tərəfindən işğal olunub.

Oykonimin əsasını **Mahmudlu** komponenti təşkil edir. Toponimin əvvəlindəki **üçüncü** sözü onu eyniadlı digər yaşayış məntəqələrindən fərqləndirmək üçündür (bax: **Birinci** və **İkinci Mahmudlu** kəndləri).

Qaynaqlardan məlum olur ki, **Mahmudlu** obası **Hacılı** icmasına daxildir. Bu oba **Cavanşir** elinin **Köçərli** oymağından çıxıb. Bir mənbəyə görə, bu obanın camaatının ulu babalarından birinin adı **Hacı Yusif ağa** olub. O, **Birinci Mahmudun** atasıdır. Mahmudluların qoçaqlıqlarına görə **hacılı** icması arasında xüsusi yeri olub. Qeyrətli, qoçaq **mahmudlular** haqqında el arasında: "rus yox, mahmudlu yox, daha nədən qorxacaqsan?" məsəli dillərdə dolaşmaqdadır.

Bəzi mənbənin verdiyi məlumatda qeyd olunur ki, 1727-ci ildə **Köçərli** obasından ayrılan **Mahmudlu** soyu Dizaq nahiyəsinin Ziyad qışlağında binələyirdi Osmanlı qaynağında da **Mahmudlu** soyu haqqında bilgilər vardır. Orada göstərilir ki, **Cavanşir** tayfasının **köçərli** oymağı Dizaq nahiyəsinin tərkibində olan Kəlli, Zəvicik (Zavıcıq) və Quru çaylarının kənarında, Çərəkən, Köndələn, Tülyan, Qaradağlı və Ərşə adlı qışlaqlarda əkinçiliklə məşğul olur, İrəvan əyalətinin Bork adlı yerində yaylayırlar.

Ərşə adlı ərazidə tikililəri olan Köçərli oylağı Dizaq nahiyəsində, Soyudaş adlı arxın kənarında əkinçiliklə məşğul olurdular. Ümumilikdə Qarabağa tabe olan Köçərli oymağının Tayasoyuq adlı qışlaqları və Qaragüney adlı yaylaqları da olmuşdur. Tarixi şəraitlə əlaqədar olaraq bu obanın bəzi nəsilləri sürgün olunmuş və sürgündən qayıtdıqdan sonra **hacılı** icmasının tərkibinə daxil olmuşdur. **Mahmudlular** Qarabağ xanlığının siyasi həyatında da mühüm rol oynamışlar.

1842, 1849, 1863, 1873 və 1886-cı illərdə **mahmudlu** obasının əhalisi dövlət tərəfindən siyahıya alınıb. Həmin dövrün siyahıyaalınmalarında Mahmudlu obasında yaşayan bəylərin (Praporşik Həsən bəy Cəfər bəy oğlu, Fətəli bəy Cəfər bəy oğlu, Hacı Hüseynqulu bəy Səhliyalı bəy oğlu, Həsənqulu bəy Səhliyalı bəy oğlu, Mahmud bəy Səhliyalı bəy oğlu, Ağa bəy Hüseyn bəy



oğlu, Teymur bəy Hüseyn bəy oğlu, Heydər bəy Hüseyn bəy oğlu, Şükür (Şirin) bəy İbrahim bəy oğlu, Firudin bəy Həsən bəy oğlu və onların övladları) də adı göstərilmişdir.

**Mahmudlu obasının tayfaları** bunlardır:

**Cəfərbəyli (Cəfərbəyuşağı)** - Cəfər bəy Kərbəlayi Mahmud ağa oğlu XVIII əsrin II yarısı, XIX yüzilliyin əvvəllərində yaşayıb. Çox varlı və hörmətli ağalardan olan **Cəfər bəyin** Qasım, Fətəli, Həsən, Hüseyn, Paşa, İsgəndər adlı oğulları olmuşdur. Bu tayfanın **Qasımbəyli, Fətəlibəyli, Həsənbəyli, Hüseynbəyli, Paşabəyli** adlanan tirələri var...

**Səhliyalılar (Səhliyalı bəy uşağı)** - **Səhliyalı bəy** Kərbəlayi Mahmud ağanın ikinci oğludur. O, XVIII əsrin sonları və XIX əsrin əvvəllərində yaşayıb. İbrahimxəlil xan və Mehdiqulu xana xidmət göstərən Səhliyalı bəyin Hüseynqulu, Həsənqulu, İbrahim, Mahmud bəy adlı oğulları olub. Bu tayfanın Hacıhüseynqululular, Hacıhəsənqululular, İbrahimli, Mahmudbəyli adlı tirələri var...

**Hacıatalılar** - Kərbəlayi Mahmud ağanın oğullarından biri də Atalıdır. 1783-cü ildə Mahmudlu obasında doğulan **Atalı** heyvandarlıqla məşğul olmuş, müqəddəs Məkkəni ziyarət edib **"Hacı"** tituluna yiyələnmişdir. Onun **Qulaməli, Qəhrəman** adlı oğulları, **Hürü** adlı qızı vardı. Bu tayfanın **qulaməlilər, salahlılar, şamılar, şükürlülər, musalılar, əmirmuradlılar, hacıməmmədlilər, xasməmmədlilər, zülfüqarlılar** adlı tirələri var...

**İmamverdilər** - **İmamverdi Mahmudlu** obasının ulu babalarından biri olub. Heyvandarlıqla məşğul olan **İmamverdi bəyin** İsmayıl, Həşim, Kazım, İmamqulu və Tarxan adlı oğulları vardı. Bu tayfaya **ismayıllı, mikayıllı, həşimli, allahverənlilər, həsənqulular** adlı tirələr daxildir...

**Ələsgərlilər - Ələsgər (1816-1886)** Mahmudlu obasının ulu babası Kərbəlayi Mahmud ağanın heyvandarlıqla məşğul olan oğlu Namazın böyük oğlu idi. Namazın Ələsgərdən başqa Əli, Abdulla və Həzrətqulu adlı oğulları da olub. Kərbəlayi Ələsgərin **Rəhim, Səlim, Kərim, Nadir, Əmir, Əbil, Əbdul, Qoca, Məti, Baloğlan** adlı oğlanları vardı...

## VEYSƏLLİ KƏNDİ

(Bax: **Aşağı Veysəlli** və **Yuxarı Veysəlli** kəndləri)

## VƏLİ BAĞI

Dövlətyarlı kəndinin kənarında, Köndələn çayının sol sahilində qeydə alınan oroqrafik obyektlərdən biri **Vəli bağı** coğrafi adıdır. Bu bağda başqa meyvə ağacları ilə yanaşı, çoxlu sayda ağ tut, qara tut, şax tut, muş tut, cır tut, bedana tut ağacları da vardır. Tut ağacları calaq yolu ilə çoxaldılmışdır. Tutların çoxu ildə bir dəfə qırılaraq barama saxlayanların istifadəsinə verilirdi. Tut ağaclarının bu bağda çoxluğu, görünür, baramaçılığın (ipəkçiliyin) inkişafı ilə bağlı olmuşdur.

**Vəli İbad oğlu** Dövlətyarlı kəndində yaşamış dövrünün varlı-hallı, xeyirxah, zəhmətkeş kişilərindən olub. Bu bağı da o saldığı üçün **bağ** sonralar elə onun adı ilə də adlanmışdır. Bağda tut ağaclarından başqa gavalı, əncir, alça, alma, armud, gilas, ərik, heyva, nar, qoz, gilənar ağacları da vardır. Toponim *"Vəliyə məxsus bağ"* mənasındadır.

## YAĞLIVƏND KƏNDİ

(Bax: **Aşağı Yağlıvənd kəndi, Yuxarı Yağlıvənd kəndi**)

## YALPİRƏHMƏDLİ KƏNDİ

**Yalpirəhmədli kəndi** Füzuli rayonunda, Qarabağ silsiləsinin ətəyində yerləşir. Kənd rayon mərkəzindən 9 km məsafədədir. Əhalisi əsasən üzümçülük və heyvandarlıqla məşğul olur. Kənddə məktəb, klub və s. var. Bu yaşayış məntəqəsi 1993-cü ilin avqustunda ermənilər tərəfindən işğal olunub.

**Yalpirəhmədli** toponimi **yal** coğrafi terminindən və **pirəhmədli** etnonimindən ibarətdir. **Pirəhmədli** həmin kənddə məskunlaşmış nəslin adıdır. Kənd dağın yalında yerləşdiyi üçün **Yal Pirəhmədli** adlanır. Kəndin adı *"yalda yerləşən Pirəhmədli kəndi"* mənasını daşıyır.

Deyilənlərə görə, əvvəllər bu ərazilərdə **Pirəhmədli** adlı kəndlər olduğu üçün onları bir-birindən fərqləndirmək məqsədilə dağın yalında yerləşən **yal** müsbət relyef forması bildirən coğrafi termini özündə fərqləndirici əlamət ifadə edir.

Yerli məlumata görə, kəndin 300 ilə yaxın yaşı var. Yaşayış məntəqəsi Xırdapara - Dizaq mahalının tabeliyində olub, onun baş kəndi (mərkəzi) hesab olunurdu. Mahalın naibi bu kənddə oturdu. Yalpirəhmədli kəndinin adı bəzi sənədlərdə **Yal Pirəhmədli** şəklində də yazılır. Kəndin **mollahəsənli, hacıməmmədli, seyidli, seyidməmmədli** və s. adlı tayfaları vardır...

## YEDDİQARDAŞ DAĞI

Rayon mərkəzindən cənubda, Qarakollu kəndi yaxınlığında dağ. **Yeddiqardaş** spesifik oronimi say bildirən sözdən **(yeddi)** və oronimik termindən **(qardaş)** ibarətdir. Belə toponimlər başqa rayonlarda da var: Şamaxıda **Yeddikünbəz dağı,** Ağdamda **Yeddixırman dağı,** Siyəzəndə **Beşbarmaq dağı** və s.

**Yeddiqardaş dağı** ilə bağlı maraqlı bir rəvayət də vardır: Bir el ağsaqqalının boya-başa çatmamış **yeddi** oğlu varmış. Özü də qocalmışdı. Yağılar tez-tez basqın edib eli talayırmışlar. Günlərin bir günü yağılar hücum edəndə, bu **yeddiqardaş** qoşun düzəldib onların qabağına çıxır. Azyaşlı olan bu qardaşlar görürlər basılacaqlar, yağılar kəndi, eli çapıb-talayacaqlar, üzlərini göyə tutub Tanrıya yalvarırlar ki, Ulu Tanrı bizi keçilməz dağa döndər, qabağı kəsək, yağılar elimizə toxunmasınlar. Tanrı onları eşidib **yeddi dağa** döndərir. Yağılar keçməyə yol tapmayaraq, yan-yana **yeddi dağa** döndərir. Yağılar keçməyə yol tapmayaraq, qayıdıb birdəfəlik gedirlər...

## YEDDİTƏPƏ

**Yedditəpə** rayon mərkəzindən 6 km şimal-şərqdə, Mirzəcamallı kəndi yaxınlığında yerləşir. O, tunc dövrünə aid arxeoloji abidə hesab edilir. **Yedditəpə** 20-yə yaxın kurqandan ibarətdir. 1972-ci ildə arxeoloji qazıntılar zamanı Yedditəpədən erkən orta əsrlərə və daha əvvəlki dövrlərə (III-VI əsrlərə aid) daş qutu qəbirlər aşkar edilmişdir. Ölən adamlar burada bükülü vəziyyətdə basdırılmışdır. Qəbirlərdən gil, şüşə, tunc qablar, mis və gümüş bəzək əşyaları, heykəlciklər, musiqi alətləri (sinclər), nizə, balta, qılınc, xəncər, metal toqqa, zınqrov və s. tapılmışdır. **Yedditəpə abidələri** yerli tayfalara məxsus olub, onların İran, Roma və Bizansla iqtisadi və mədəni əlaqə saxladıqlarını göstərir.

**Yedditəpə** oronimi **yeddi** say bildirən sözdən və **təpə** oronimik terminindən əmələ gəlib. Belə metafor adlarda relyef formalarının sayını və növünü bilmək asan olur. Bu arxeoloji abidə **yeddi təpədən** ibarət olduğu üçün **Yedditəpə** adını alıb.

Masallı rayonunun Ərkivan kəndində də **Yedditəpə** adlı oronim qeydə alınıb...

## YEL OCAĞI

Füzuli rayonunun Horadiz kəndində qeydə alınan maraqlı coğrafi adlardan biri **Yel ocağı** oroqrafik obyektidir. **Ocaq** kultu Azərbaycanda müqəddəs tapınaq hesab olunur. Yerli əhali tərəfindən ziyarət yeri hesab edilən müqəddəs tapınaqlardan biri də Horadiz kəndində, təpəlik sahədə yerləşən **Yel ocağı** idi.

## YELLİGƏDİK

**Yelligədik** rayon mərkəzindən 7 km şimalda, Füzuli-Xocavənd avtomobil yolunun kənarında, Dövlətyarlı və Dilağarda kəndləri arasında yerləşir.



Bir çox tədqiqatçılar onun bir hissəsinin xarakterik əlamətinə görə yüksəkliyə belə ad verilməsini sübut etməyə çalışırlar. **Yelligədik** toponimi **yel** və **gədik** (*"dağ beli", "aşırım"*) sözlərindən əmələ gəlib. **"Gədik"** komponenti **"dağ belində batıq", "dağarası yol"** mənasındadır. Həmin komponent türk dillərində "dağ keçidi", "aşırım" mənasında işlənir.

Baş Qafqazın silsilələrindən biri **"Gədik zirvəsi"** adlanır. Füzuli rayonundakı **Yelligədik** toponimi bütün fəsillərdə orada külək əsməsi ilə əlaqədardır.

**"Gədik"** sözü ilə bağlı çoxlu toponimlər var: **Yelligədik kəndi** (İsmayıllı rayonu), **Xaçgədiyi** (Qax rayonu), **Yəhər gədik dağı** (Şərur rayonu), **Yelgədik dağı** (Yardımlı rayonu), **Gədik kəndi, Gədikqışlaq kəndi** (Quba) və s.

## YUMURTA TƏPƏ

Füzuli şəhərindən 5 kilometr məsafədə qeydə alınan oroqrafik obyektlərdən biri də **Yumurta təpə** adlanır. **Təpə** - müsbət relyef forması bildirən coğrafi termindir. Adətən ətəyi ilə zirvəsi arasındakı nisbi hündürlüyü 200 metrədək olan yüksəkliyə **təpə** deyirlər. Azərbaycan toponimiyasında **təpə** termininin iştirakı ilə 3.000-dən çox coğrafi ad qeydə alınıb. **Yumurta təpə** oronimi həmin təpənin zahirən **yumurtaya** bənzəməsi ilə əlaqədar olaraq belə ad almışdır...

## YUXARI AYIBASANLI KƏNDİ

**Yuxarı Ayıbasanlı kəndi** rayon mərkəzindən 2 km cənub-şərqdə, düzənlikdə yerləşir. Əhalisi 1200 nəfərə yaxındır. Əhali əsasən taxılçılıq, üzümçülük və heyvandarlıqla məşğul olur. Kənddə məktəb, klub, kitabxana, tibb məntəqəsi və s. var. Kənd 1993-cü ilin avqust ayının 23-də ermənilər tərəfindən işğal olunub...

**Yuxarı Ayıbasanlı** (adı bəzən **Aybasanlı** kimi də yazılır) kəndi Cavanşir tayfasının **ayıbasanlı** tirəsinin burada məskunlaşması nəticəsində yaranan yaşayış məntəqələrindəndir.

**Ayıbasanlı** toponimi **ayı** çöl heyvan adı və **basar** oroqrafik terminindən düzəlmiş oronimdir. **Yuxarı** komponenti fərqləndirici əlamət ifadə edir.

Oykonimi **Əyyub Həsənli** formasında izah etməyə cəhd göstərən araşdırıcılar da var.

Mənbələrin məlumatına görə **aybasanlılar (ayıbasanlılar)** sərhəd boyunda çapar kimi də xidmət etmişlər...

**Hacılı** icmasına daxil olan **Ayıbasanlı (Aybasanlı)** obasının əhalisi dövlət tərəfindən 1842, 1849, 1863, 1873, 1886-cı illərdə siyahıya alınmışdır. Bu obanın əhalisi əsasən heyvandarlıq və əkinçiliklə məşğul olmuşlar.

Aybasanlı obasının **Səfərəli, Gülmməmədli, Allahverdili, Qululu, Məmmədhəsənli, Ağalarlı, Əliqulular, Tanrıverdilər, Həsənseyidxanlar, Abdullalar, Bayramalılar, Zeynallılar, Novruzlular, Qaralar, Xudaqulular, İsmixanlar, Baxşalılar, Camallar, Atakişilər, Mirzalılar, Nəcəfqulular, Əlişahməmmədlilər, Şükürlülər, İbrahimlilər, Zeynalabdinlilər, Gülmalılar, Rüstəmlilər, Mirzə Əliaslanlılar, Qurbanlılar, Molla Əli Əkbərlilər, Məmmədcəfərlilər, Ərəbəli Qulular, Nəzərlər, Şahverənlər, Ərəbxanlı, Oruclu, Nəsrullahlı, Hüseynqulular, Cəfərqulular, Mahmudlular, Kərim Kərbəlayi Məmmədəlilər, Adına Həzrətqulular, Mehdi Səfərəlilər, Kərbəlayi Məmmədtağılar, Xankişilər, İmamqulular...** adlı tayfa və tirələri məlumdur.

**Aybasanlı** obasının ən ünlü tayfalarına nümunə olaraq aşağıdakıları göstərə bilərik:

**Oruclu tayfası** - bu tayfanın ulu babası olan **Oruc** XVIII əsrdə yaşamış və heyvandarlıqla məşğul olmuşdur. Onun **Allahqulu** (1772-1882) adlı oğlu olub. Allahqulunun (o, həm də molla idi) Qulu, İman, Səməd, Həzrətqulu adlı oğulları vardı. Qulunun **Mehralı, Gülmalı, Qurbanlı, Kəlbalı, Səfi Ağaverdi,** İmanın



**Qəhrəman** və **Qurban,** Kərbəlayi Səmədin **Şahverdi, Haqverdi, Xudaverdi** və **Mövlamverdi,** Həzrətqulunun **Adına, Əmrah, Təhməz, Məmmədrza** adlı oğlanları var idi...

**Camallı tayfası** - bu tayfanın ulu babası **Novruz** XVIII əsrdə yaşayıb və əsasən heyvandarlıqla məşğul olub. Onun **Camal** adlı oğlu 1788-ci ildə Aybasanlı obasında doğulub. Camalın Hüseynqulu, Nəcəfqulu, Cəfərqulu, Əhməd, Novruz adlı oğlanları olub. Hüseynqulunun **Bayramalı, Orucalı** və **Qasımxan** adlı, Məşədi Nəcəfqulunun **Baba, Səməd, İbrahim, Rəhim, Abbas** və **Dünyamalı** adlı, Cəfərqulunun isə **Həmzə** adında oğulları olmuşdur...

**Ərəbxanlı tayfası** - bu tayfanın ulu babası **Ərəbxan** (1752-1812) XVIII əsrin II yarısı, XIX əsrin əvvəllərində yaşayıb. Onun **Əliqulu, Xudaqulu** və **İmamqulu** adlı oğlanları olub. Əliqulunun **Səfəralı, Cəfər, Ərəb, Məmmədtağı, Nağı** və **Məmməd,** Xudaqulunun isə **Məmmədqulu, Rzaqulu, Mürsəlqulu, Hüseynqulu, Həsənqulu** adlı oğulları olmuşdur...

**Nəsrullah tayfası** - bu tayfanın ulu babası **Nəsrulluh** XVIII əsrin sonları, XIX əsrin əvvəllərində yaşamış və əsasən heyvandarlıqla məşğul olmuşdur. Nəsrullahın **Gülməmməd, Allahverdi, Səfərəli** və **Məmmədəli** adlı oğlanları vardı. Məşədi Gülməmmədin **Hüseyn, Hüseynxan, Məmməd,** Kərbəlayi Allahverdinin isə **Həsənxan, İbrahim, Rüstəm** və **Mirzalı** adlı oğulları olub...

Obanın **Mahmuduşağı, Zeynallı, Qululu** adlı tayfaları da var. Kənd hazırda erməni işğalı altındadır...

SSDNZK kitabında Gəncə quberniyasının Cəbrayıl qəzasında 53 evdən, 308 nəfər əhalidən ibarət **Aybasanlı** adlı bir kəndin, AUPKKK əsərində isə Qaryagin qəzasında **Aybasanlu** adı iki kəndin olduğu göstərilir. Görünür, bu kəndlər **aşağı** və **yuxarı** adları ilə fərqləndirilmişdir. **Aybasanlı** kəndinin səma cismi olan **Ay** ilə heç bir əlaqəsi yoxdur. Bəzi sənədlərdə kəndin adı **Ayıbasanlı** kimi də yazılır. İƏB və ATD kitablarında kəndin adı **Aybasanlı** şəklində yazılmışdır...

"**Basan**" feli-sifəti *"məğlub edən"*, *"qələbə çalan"* mənasındadır. "**Ayıbasan**" türk mənşəli antroponiminin hər iki komponenti arxaikləşmişdir. Ölkəmizdə *ayı* heyvan adı ilə adlandırılan oroqrafik terminlərdən düzəlmiş çoxlu oronimlər vardır: **Ayı vurulan qaya, Ayıçınqıllı dağı** (Kəlbəcər), **Ayı öldürülən yer** (Zaqatala), **Ayı dağı** (Cəbrayıl), **Ayı mağarası dağı** (Qubadlı), **Ayı dərəsi** (Ağsu, Qax, Qubadlı, Şahbuz rayonları) və s.

## YUXARI DƏYİRMAN

Yuxarı Əbdürrəhmanlı kəndi ərazisində qeydə alınan oroqrafik obyektlərdən biri **Yuxarı dəyirman** adlanır. **Dəyirman** - dənüyütmə texnikası ilə un istehsal edilən müəssisədir. Qədimdə Azərbaycanda da dəni dən daşlarında həvəngdə üyüdürdülər. Miladdan öncə II minillikdə **əl** dəyirmanı yarandı. Əkinçiliyin inkişafı ilə əlaqədar olaraq quldarlıq və feodalizm quruluşları dövründə **su** ilə işləyən **dəyirmanlar** da meydana gəldi. Orta əsrlərdə **yel dəyirmanı** da işlədilmişdir...

**Yuxarı dəyirman** coğrafi obyekti adından göründüyü kimi, yerləşdiyi mövqe ilə əlaqədar belə ad alıb. Kəndin ərazisində **Aşağı dəyirman** adlı yer də qeydə alınmışdır...

## YUXARI DİVANALILAR KƏNDİ

(Bax: **Divanalılar kəndi**)

## YUXARI ƏBDÜRRƏHMANLI KƏNDİ

**Yuxarı Əbdürrəhmanlı kəndi** rayon mərkəzindən 7 km cənub-şərqdə, Füzuli-Horadiz avtomobil yolu kənarında, düzənlik ərazidə yerləşir. Əhalisi 2000 nəfərdir. Əhali əsasən üzümçülük, taxılçılıq və heyvandarlıqla məşğuldur. Kənddə orta məktəb, klub, kitabxana, tibb məntəqəsi, həkim-ambulatoriya, mədəniyyət evi, 1



saylı üzüm emalı zavodu, qədim qəbiristanlıq, dəyirman, müxtəlif ticarət-iaşə obyektləri, kəhrizlər və s. vardır. Kənd 1993-cü ilin avqustunda işğal olunub...

Yaşayış məntəqəsinin keçmiş adı **Əbdürrəhmanlı,** ondan yaranmış yeni məntəqə **Aşağı Əbdürrəhmanlı,** əvvəlki kənd isə **Yuxarı Əbdürrəhmanlı** adlandırılmışdır. **Əbdürrəhmanlı** kəndin əsasını qoyan nəslin adıdır. **Yuxarı** sözü kəndi eyniadlı digər yaşayış məntəqəsindən fərqləndirmək üçün işlədilir.

**Əbdürrəhmanlı obası** Cəbrayıllı elinin bir qoludur. **Yuxarı Əbdürrəhmanlı** kəndinin adı XVIII əsrdə yaşamış **Əbdürrəhman bəy Ağası bəy oğlu**nun adı ilə əlaqədardır.

(Əlavə məlumat üçün bax: **Aşağı Əbdürrəhmanlı kəndi...**)

## YUXARI GÜZLƏK KƏNDİ

**Yuxarı Güzlək kəndi** rayon mərkəzindən 16 km cənubda, Qozluçayın sahilində, Qarabağ silsiləsinin ətəyində yerləşir. Əhalisi əsasən üzümçülük və heyvandarlıqla məşğul olur. Kəndin ərazisində əkin üçün çox yararlı münbit torpaq sahələri var. Kənddə məktəb, klub, kitabxana və s. var. Kənd işğal altındadır.

Kəndin keçmiş adı **Güzlək**dir. XIX əsrdə ondan əmələ gəlmiş eyniadlı məntəqə **Aşağı Güzlək,** əvvəlki kənd isə **Yuxarı Güzlək** adlandırılmışdır.

**Güzlək** toponimi qədim türk dillərindəki **küz** ("payız otlağı") sözündən və məkan bildirən - **"lək"** şəkilçisindən ibarətdir.

**"Güzlək"** və **"Güzdək"** toponimlərində türk və Azərbaycan dillərində məkan bildirən **"lak"**, **"lək"** şəkilçiləri iştirak edir. Oronimin tərkibindəki **"dək"** formantı türk dillərində **"d"** səsinin **"l"** səsi ilə əvəz olunması nəticəsində dəyişilən **"lək"** sözünün fonetik variantıdır.

Çobanlar adətən payızda doğulan quzuya **güz** deyirlər. Elə bəlkə də dilimizdəki **quzu** sözü **güzü** sözünün özündən törəyib. Quzunun payız, qış olacağına **güz** deyilir...

**"Güzdək"** coğrafi adı iki komponentdən ibarətdir: **"güz"** və **"dək"**. **"Güzdək"** və ya **"Güzlək"** oronimi ilə bağlı müxtəlif mülahizələr var. **"Güz"** - **"quz"** etnoniminin fars dilində "Deh" - "kənd" sözü ilə birləşib, "Oğuz kəndi" mənasını verdiyini söyləyənlər var. **"Güz"** sözü qədim türk dilində "payız" və ya "payız otu" mənasındadır. Bu mənada **"Güzdək"** toponiminin açması "payız yurdu" deməkdir.

**"Güz"** toponimini "dağın gün düşməyən tərəfi" kimi, **"dək"** hissəsini isə "dağ" kimi mənalandıran tədqiqatçılar da vardır. Yaşayış məntəqəsi XIX əsrdə **Güzdək** (indiki Yuxarı Güzlək) kəndindən çıxmış ailələrin burada məskunlaşması nəticəsində meydana gəlmişdir. **"Güzdək"** kəndinin adı türk dillərindəki **"güz"** və ya **"küz"** (payız), "yer, məkan" bildirən - **"dək"**, **"lək"** şəkilçisindən ibarət olub "payız otlağı", "payız binəsi", "payızlıq" (müqayisə üçün: yaylaq, qışlaq) mənalarındadır.

Əlavə məlumat üçün bax: həmçinin **Aşağı Güzlək kəndi**.

## YUXARI KƏHRİZ

**Yuxarı kəhriz** hidronimi Füzuli rayonunun Yuxarı Əbdürrəhmanlı kəndi ərazisində qeydə alınıb. Qrunt sularını toplayıb yer səthinə çıxarmaq üçün yeraltı qurğuya **kəhriz** deyirlər. Kəhrizlərin lağımları bir-biri ilə şaquli quyular vasitəsi ilə birləşdirilir. Kəhrizləri peşəkar kankanlar qazır. XX əsrdə Azərbaycanda 900 **kəhriz** olub...

Adından göründüyü kimi, kənddə başqa **kəhriz** də var: **Aşağı kəhriz, Orta kəhriz.** Haqqında bəhs etdiyimiz **Yuxarı kəhriz** hidronimi o biri kəhrizlərdən **yuxarıda** yerləşdiyi üçün belə ad almışdır...



## YUXARI KÜRDMAHMUDLU KƏNDİ

**Kürdmahmudlu kəndi** Füzuli rayonunda, rayon mərkəzindən 27 kilometr şərqdə, **Kürdmahmudlu** inzibati ərazi vahidində, düzənlik ərazidə yerləşir. Əhalisi əsasən üzümçülük, heyvandarlıq, taxılçılıq, bağçılıqla məşğul olur. Kənddə orta məktəb, kitabxana, klub, feldşer-mama məntəqəsi, rabitə şöbəsi və s. var. Bu kənddən çoxlu tanınmış ziyalı şəxsiyyətlər çıxmışdır.

Keçmiş adı **Kürdmahmudlu**dur. Ondan digər məntəqə yarandıqdan sonra yeni kənd **Aşağı Kürdmahmudlu,** keçmiş kənd isə **Yuxarı Kürdmahmudlu** adlandırılmışdır. Toponim XVI-XVII əsrlərdə Türkiyənin Van gölündən şərqdə yaşamış, sonralar bir hissəsi Cənubi Qafqaza gəlmiş kənd əhalisinin bir tayfasının – **Kürdmahmudlu** tayfasının adını özündə əks etdirir. Muğana köç edən bu əhali **kürdlər, heydərli** və **ortaqışlaq** adlı üç böyük qoldan ibarət olub. Kəndin adı **Kürdmahmudlu** tayfasının burada məskunlaşması nəticəsində yaranmışdır.

**Kürdmahmudlu** toponimi ilə bağlı indiyədək müxtəlif fikir və mülahizələr mövcuddur. Kürdmahmudluları **kəngərlilərlə** də bağlayanlar var. Kürdmahmudluların əcdadları XVI əsrdə Türkiyə ərazisində yaşamış, sonralar onların bir hissəsi Cənubi Qafqaza gəlmişlər. Muğan düzü istiqamətinə köç edən Kürdmahmudluların **ortaqışlaq, kürdlər** və **heydərlilər** adlı 3 böyük qolu olub.

**Kürdmahmudlu** toponimi patronimik toponimdir. **Mahmud** sözünün ərəbcə "tərifli", "təriflənmiş" mənaları məlumdur. Əskidən olduğu kimi türklərdə və azərilərdə indi də oğlanlara **Mahmud** adı qoyulur...

Ünlü türkçülərdən olan F.Sümər oğuz boylarının adını yazarkən bu boyların sırasında **kürdmahmudlu** adını da çəkmişdir. **Kürdmahmudlu** yaşayış məntəqəsinin adı kəngərli bağlılığı olan **kürdmahmudlu** tayfası və onların tirələrinin burada məskunlaşması ilə əlaqədardır.

**"Yuxarı"** sözü eyniadlı yaşayış məntəqəsindən fərqləndirmək üçün işlədilir (bax: həmçinin **Aşağı Kürdmahmudlu kəndi**).

İmişli rayonunda da **Kürdmahmudlu kəndi** vardır. Hazırda Azərbaycanda (İran) və Türkiyədə **kürdmahmudlu** tirələrinin yaşadığı çoxlu sayda məntəqələr var...

## YUXARI RƏFƏDİNLİ KƏNDİ

**Yuxarı Rəfədənli kəndi** rayon mərkəzindən 18 km cənubda, Füzuli-Cəbrayıl şosse yolunun kənarında, Qarabağ silsiləsi ətəyində yerləşir. Əhalisi əsasən üzümçülük və heyvandarlıqla məşğul olur. Kənddə məktəb, klub, kitabxana və s. var. Kənd ermənilər tərəfindən işğal olunmuşdur.

Keçmiş adı **Rəfədinlidir**. Ondan yaranmış məntəqə **Aşağı Rəfədinli,** əvvəlki kənd isə **Yuxarı Rəfədinli** adlandırılmışdır. **Rəfədinli** kəndin əsasını qoymuş nəslin adıdır.

1727-ci aid olan "Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri" adlı tarixi sənəddə Dizaq nahiyəsinə tabe olan kəndlər sırasında **Rəfədinli (Rəfdinli)** kəndinin də adı çəkilir. Bəzi tarixi sənədlərdə kəndin adı **Ruhudinli** formasında da göstərilmişdir. **Rəfədinli obası** qədim **qaradağlı** elinin bir qoludur...

## YUXARI SEYİDƏHMƏDLİ KƏNDİ

Rayon mərkəzindən 14 km şərqdə, düzənlikdə yerləşən kənd. Əhalisi 1700 nəfərdir. Əhali üzümçülük, taxılçılıq və heyvandarlıqla məşğul olur. Kənddə orta məktəb, kitabxana, tibb məntəqəsi, ilkin şərab emalı zavodu, XIX əsrdə inşa edilmiş türbə var. Kənd hazırda işğal altındadır.

Yaşayış məntəqəsini **Seyidəhmədli** nəsli saldığı üçün belə adlandırılmışdır. Xalq arasında hörmət qazanan "seyid" sözü şəxs adı kimi bir çox toponimlərdə öz əksini tapmışdır. Toponimin adı kəndi salan **Seyidəhmədli** nəslinin adı ilə bağlıdır.



**Seyidəhmədli obası** qaynaqların verdiyi məlumata görə, **hacılı** icmasına daxildir. **Seyidəhmədli obası** Cavanşir elinin aparıcı tayfalarından olan **Yağlıvənd oymağının** bir qoludur. Bu obanın bəzi tirələri XIX əsrin əvvəllərində Abbas Mirzənin göstərişi ilə Arazdan keçərək Sərab vilayətinə gətirilərək orada məskunlaşmışdır. Bu nəsillərin bir çox nümayəndələri vaxtilə İranda sürgün həyatı da yaşamışdır. Ancaq çox çətinliklə də olsa, Mirzə Camal bəy Məhəmmədxan bəy oğlu bu obanı əvvəlki əski yurduna qaytarmağa nail olmuşdur. Həmin dövrdən sonra obanın bir neçə ailəsi Mirzə Camala rəiyyət kimi verilmişdir.

1727-ci ilə aid Osmanlı qaynağında göstərilir ki, Cavanşir tayfasının Yağləvəng oymağına bağlı **Seyidəhmədli** nəsilləri Dizaq nahiyəsində, Köndələn çayının yaxasında əkinçiliklə məşğul olur, məhsullarını torpaq sahiblərinə verir, vergilərini də ödəyirlər. **Seyidəhmədli oymağı** Arazbarda - Xan arxında qışlayır, İrəvan əyalətinin sərhədində - Kilsəgədik adlanan ərazidə yaylayırlar. Hacılı icmasına qatılan **Seyidəhmədli obası** 1842, 1848, 1849, 1863, 1873, 1886-cı illərdə dövlət tərəfindən siyahıya alınmışdır.

**Seyidəhmədli** obası 2 şenliyə - **Aşağı Seyidəhmədli** və **Yuxarı Seyidəhmədli** kəndlərinə ayrılır. Bu kəndlərdə **Qazılı** (**Qazı** XVIII əsrdə yaşayıb) tayfasının (bu tayfaya **məşədimirzəlilr, məşədihəsənlilər, məmmədqulular, kərbəlayiəbdülxanlılar, həsənqulular, hüseynqulular** adlı tirələr daxildir), **Kərbəlayi Əlipənahbəy uşağı** tayfasının (bu tayfa **əliməmmədbəyli, ələkbərli, əsgərli, kərbəlayi imaməlibəyli, məmmədəlibəyli, cəfərli, hacımanqulular** tirələrindən ibarətdir), **Kazımlı** (**Kazım** XVIII əsrin sonu və XIX əsrin əvvəllərində yaşamış, əsasən heyvandarlıqla məşğul olmuşdur) tayfasının (bu tayfanın **ismayıllı, alılı, ələsgərli, kərbəlayi, paşalı, şükürlü** adlı tirələri vardır), eləcə də, **hacılı, əbülxanlı, bünyadlı, əlizamanlı, hacıməhəmmədli, hacımamqulular, xəlillilər, kürdmahmudlular, qaragüvəndikli, səfəralılar** və s. tayfaların nəsilləri yaşamışdır...

## YUXARI VEYSƏLLİ KƏNDİ

**Yuxarı Veysəlli kəndi** Füzuli rayonu mərkəzindən 20 km şimalda, Füzuli-Xocavənd şosse yolu kənarında yerləşən kənd. Kənd əhalisi əsasən heyvandarlıq, taxılçılıq və üzümçülüklə məşğul olur. Kənddə məktəb, klub, kitabxana və s. var. Kənd 1992-ci il fevralın 22-də ermənilər tərəfindən işğal olunub...

Əvvəllər kəndin adı **Veysəlli** olub. Bəzi tarixi mənbələrdə oykonimin adı **Ağbaşlı** kimi də göstərilir. Ondan 10 kilometr kənarda yerləşən kənd **Aşağı Veysəlli,** bu yaşayış məntəqəsi isə **Yuxarı Veysəlli** adlandırılmışdır. **Veysəlli** kəndin əsasını qoymuş nəslin adıdır. **Veysəl** sözü ərəbcə "güc, qüvvə", "qərar, hökm, fərman" deməkdir.

Tarixi qaynaqlardan məlum olur ki, **Otuz iki** tayfasının **Veysəlli** adlı oymağı da olub. Bu oymaq qışı Vərəndə nahiyəsinin Hacıözü adlı ərazisində qışlayır, Toxtadaş, Alpağüd, Xoneşin, Qozlu, Qatardaş, Çaqmaq və Üçtəpə adlı yerlərdə yaylayır. Bu oymağın əhalisi Oxbulaq və Qoşacıqlar adlanan ərazilərdə əkinçiliklə (qismən isə heyvandarlıqla) məşğul olur, üşr və behrəni torpaq sahibinə verir. **Veysəllilər** Otuzikilərin bir qoludur.

Veysəllilərin **məhəmmədxanlar (məhəmmədxanuşağı), nurməhəmmədlilər, məşədibehbudlar, əhmədlilər, məmmədlilər, əlirzalar, şahgəldilər, qoşunəlilər, doluxanlar, şamxallılar, ramazanlılar, kazımlılar, şahverdilər, seyidəhmədlilər, əlişirlilər, azadəlilər, ağamirlilər, allahqulular, mirilər, muxtarlılar** adlı tayfa və tirələri var.

1 iyul 1873-cü il tarixdə Cəbrayıl qəzası yarananda Qarabulaq nahiyə statusu alaraq Cəbrayıl qəzasının tabeçiliyinə verildi. Bu zaman pərakəndə halda olan bir çox kənd və obalar Qarabulaq nahiyəsinin tərkibinə qatıldı. Onların içərisində **Veysəlli** kəndinin də adı vardı...

Göyçayda və Cəbrayılda da **Veysəlli** kəndi mövcuddur.



## YUXARI YAĞLIVƏND KƏNDİ

**Yuxarı Yağlıvənd kəndi** rayon mərkəzindən 11 km şimalda, Qarabağ silsiləsinin şimal-şərq ətəklərində yerləşir. Əhalisi 1800 nəfərdir. Əhali taxılçılıq, üzümçülük və maldarlıqla məşğul olur. Kənddə orta məktəb, klub, kitabxana, tibb məntəqəsi, məscid (XIX əsr), körpü (XIX əsr) və s. var. Kənd ermənilər tərəfindən işğal olunmuşdur...

**Yağlıvənd (Yağləvənd)** toponiminin əsasını **yağləvənd** komponenti təşkil edir. **Yağlavənd** keçmişdə bu ərazilərdə maldarlıqla məşğul olan elatın adındandır. **Yuxarı** sözü onu eyniadlı yaşayış məntəqəsindən fərqləndirmək üçün əlavə edilib. XIX əsr sənədlərində Cəbrayıl qəzasında maldarlıqla məşğul olan elatlardan biri **yağləvənd** adlanırdı. Çox güman ki, bu toponim də həmin elatın adını özündə əks etdirir.

Tarixi qaynaqlardan məlum olur ki. **Yağlıvənd (Yağləvənd) oymağı** Cavanşir tayfasına daxildir. Bu oymaq Arasbar sancağında, Xan arxında qışlayır, əkinçilik və heyvandarlıqla məşğul olurdu. 1727-ci ilə aid olan "Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri" adlı tarixi sənəddə Cavanşir elinin **Yağləvənd** oymağı ilə bağlı məlumatlar verilmişdir. Orada göstərilir ki, bu oymaq Kür çayı kənarında, Xan arxı tərəfdə, eləcə də, Köndələn və Kamalkənd çayları kənarında, Aral və Həsirkörpü adlanan ərazilərdə qışlayır, İrəvan sərhədində Güney, Zilxaç, Pərixan və Yaxınlı adlı sahələrdə yaylayırlar. Bu oymağın əhalisi Dizaq nahiyəsində Köndələn çayı kənarında əkinçiliklə məşğul olur, üşr və bəhrələrini torpaq sahibinə verirlər...

Yağlıvənd oymağının **Bərxudarlı, Əhmədli, Mirməhəmmədli, Şahverdili, Haqverdilər, Dərvişlər, Hafsalı, Kovxalı, Külədərli, İrənşəlli, Lələli, Qədirli, Aşırlı, Xələfli, Xosrovlar, Qurbanlar, Nəbilər, Novruzlar, Tanrıqulular, Mahmudlar, Qazıxanlar, Dostuxanlı, Seyidxanlar, Qasımlar, Niyarlı, Məhərrəmuşağı, İsalılar, Bağdadlılar, Dəmiroğlular, Lətiflilər,**

**Tağılılar, Ocaqqulular, Şəkərlər, Dünyamalılar, Diyarxanlar, Məhəmmədlilər, Zeynalxanlar, Allahqulular, Şəriflilər, Qırzəlilər, İmamqulular, Təhmaslılar, Seyid Salehlər, Pəricahanlı, Qıvlıyalı** və başqa nəsil-tirələri mövcuddur...

Yağlıvənd kəndinin sayı (**Aşağı Yağlıvənd** və **Yuxarı Yağlıvənd** kəndləri) onu göstərir ki, Yağlıvənd əhalisi qışlaq və yaylaq həyatı keçirmişlər. Çox güman ki, kəndin yerləşdiyi indiki yerdə əvvəllər də yaşayış məntəqəsi mövcud olmuşdur.

Qaynaqlar xəbər verir ki, son orta əsrlərdə daimi yaşayış yeri axtaran əhali Araz çayı kənarında xaraba bir yaşayış məskəni olduğunu görüb burada məskunlaşmışdır. Bu da bir məntiqdir ki, özgə tayfalar burada gəlib məskunlaşa bilməzdilər; deməli, bu ərazidə - **Araz Yağlıvənd** kəndində elə bu yaşayış məntəqəsi əhalisinin ulu babaları yaşamışlar...

**Yağlıvənd** toponimini *"yağmalanmış"* anlamı ilə də əlaqələndirənlər var. **Vənd** termininin fars dilində *"ev"*, *"oba"*, *"kənd"*, *"zirvə"* mənaları da var. İran dillərində **vənd** sözünün *"nəsil"*, *"törəmə"*, *"uşağı"* və s. anlamları da məlumdur.

**Kənddə Kovxalı tayfası** (muradxanlı, səfiqulubəyli, ağakişibəyli, şərəfxanlı, azmanlı), **Havsalı tayfası** (xələfli, pəricahanlı, məhərrəmuşağı, kəlbiyəlilər, niyarlılar), **Külədərli tayfası** (abbasqulular, əmirmuradlılar, mirzəli, rüstəmli, ibalı, həsənli, kazımlı, ismayıllı, qırdılı, axıhüseynli, qaralılar, qasımlılar), **Bədirli tayfası** (adıgözəlli, əsədli, eminalılar), **İrənşəlli, Lələli** (məşədiqulu, möhnətli, rəsullu, seyidli), **Hümbətalılar, Aşırlı, Alısəfərli** (bayramlı, nəbili), **Ciyəli** (fərhadlı, baxışlı), **Aslanalılar, Teymurlu, Məmmədli** və s. tayfalar vardır...

Deyilənə görə, Əmir Teymur qışlamağa həmişə Qarabağa gələrmiş. Bir dəfə də o, düşərgəsini Külədərli obası ilə qonşu salır. Oba ağsaqqalları Əmirlə görüşmək üçün onun düşərgəsinə gedirlər. Əmir Teymur onları qəbul edib keflərini soruşur, hal-əhval tutur. Ağsaqqallardan biri qayıdıb deyir ki, lap xan kefində dolanırıq. Bu söz Teymura təsir edir və o deyir:



- Əgər sabah mənim bütün qoşun əhlimi yedirib-doyurmasanız, obanızı viran edəcəyəm. Torpağınızı at torbası ilə daşıtdırıb yerinə sarımsaq əkdirəcəyəm. Di, gedib hazırlıq görün!

Teymurla görüşə gələnlər kor-peşman, yersiz danışan həmin adamı da danlaya-danlaya geri qayıdırlar. Onların nəyi vardı ki, Əmir Teymura da nə versinlər. Qoşunun da bir ucu burda, bir ucu da Xudafərin körpüsündə. Nə isə, ağsaqqallar, başbilənlər toplanıb belə məsləhətə gəlirlər ki, qoşun əhli üçün yağlı plov bişirsinlər. Beləliklə, qazanlar asılır. Sabah günorta naharında qoşun əhlindən kim əlini uzadıb plovdan bir pəncə alırsa, elə o an da «doydum» deyib kənara çəkilir. Söz gedib Əmirə çatır. Teymur əmr edir ki, plovdan bir bulud onun özünə də gətirsinlər. Plovu gətirirlər. Teymur plovdan bir tikə ağzına qoyan kimi işi başa düşür. Plov büsbütün yağ idi. O, gülümsəyərək deyir:

- **Yağlı fənd** işlətməklə yaxşı canınızı qurtardınız.

Elə həmin gündən də Külədərli obasının adı **Yağlıvənd (Yağlıfənd)** qalır...

**Yağlıvənd** sözünün tərkibindəki **ləvənd** adının bir anlamı da "soyğunçu", "yağmaçı" mənasına uyğun gəlir. Türkoloq V.R.Rodlova görə, **ləvənd** sözünün "azad", "sərbəst", "əsgər", "avara", "igid", "cəsur", "məğrur" anlamları da var. **Ləvənd** sözünün dilimizdə "tənbəl", "çox yeyən", "qarınqulu" mənaları da vardır. Bu söz toxuculuq termini kimi də işlədilir.

Son orta əsrlər dövründə Azərbaycan dövlət qurumlarında müxtəlif tayfalardan toplanmış qeyri-nizami hərbi dəstələrə, çəriklərə **ləvənd** deyilirdi. Bu çəriklər yürüşlərdə könüllü iştirak edir, yağma hesabına dolanırdılar. **Ləvənd** sözü osmanlılarda *"dəniz piyadası"* anlamında da işlənirdi.

**Yağlıvənd** sözünün mənası **yağıləvənd** deyimindən törəndiyi üçün *"qiyamçı əsgər"* deməkdir. Əlbəttə, bu sözün mənasını çox yerə yozanlar da var...

Deyilənlərə görə, bir gün Əmir Teymur yenə qışlamaq məqsədilə Arazbarın Haramı düzü deyilən yerinə gəlir. Niyyəti bu

olur ki, yaxınlıqdakı obalardan ərzaq, ot-ələf alıb bütün qışı burada keçirsin. Başının dəstəsi ilə yaxın obalara baş çəkməyə çıxır. Öncə Yağlıvənd obasına tərəf gəlir; ora yetişcək bələdçidən soruşur:

- De görüm bu düzün adı nədir?

Bələdçi deyir:

- Haramıdır, qibleyi-aləm.

- Bəs o obanın?

- Yağlıvənddir, - qibleyi-aləm.

Əmir Teymur üz-gözünü turşudur:

- Baho, bu yerlərdə çox qalmaq olmaz. Bunlar özləri elə haramı, yağıdır. Bizə heç nə verməzlər, atlanın, gedək üzü o yana...

**"Yağı"** türk dilində "düşmən", "qiyamçı", **"Ləvənd"** isə "dəniz piyadası" və ya "tayfalardan toplanmış qeyri-nizami ordu", yaxud da "hərif", "vecsiz" mənasında işlənir. **"Vənd"** hissəciyi "yer", "məkan" mənasında işlənir. "Vənd" hissəciyinin "yer", "məkan" mənasında olduğunu nəzərə alsaq, kəndin adının etimoloji çalarını "Yağlı yer" kimi xarakterizə etmək olar. **Yağlıvənd** toponimi ilə bağlı çoxlu əfsanə və rəvayətlər mövcuddur. Onlardan bir neçəsini yada salaq:

1. Bu yerin başçısı ərizə, şikayət və xahiş üçün yanına gələnlərə həmişə yağlı vədlər verdiyindən yaxın məskənlərin əhalisi bu ərazini **Yağlıvəd** adlandırmışlar.

2. **Yağlıvənd** sözündəki **"vənd"** komponentini **"fənd"** forması ilə əlaqələndirənlər də vardır. Bu da onunla bağlıdır ki, buranın sakinləri guya çox fəndkir insanlar olub, başqalarını asanlıqla aldada bilmişlər.

Yağlıvənd sözünün əmələ gəlməsini *"ləvəngi"* leksik vahidi ilə də əlaqələndirənlər var. *Ləvəngi* Talış zonasında yaxşı xörək hesab olunur. Deyilənə görə, bu ərazidə yaşayanlar ləvəngiyə bir qədər artıq yağ töküb yeməyi xoşlayırlarmış. **"Yağlıvənd"** sözündə *ə-ı, k-d* səs əvəzlənmələrini göstərsək, bu bağlılığı güman edənlərə də bir növ haqq qazandırmaq olar.

3. Ağa Məhəmməd şah Qacar Şuşaya hücum ərəfəsində kənd əhlinə onun qoşununu doyurmağı əmr edir. Fəndkir yağlıvəndlilər



**fənd** işlədib, yağlı plov bişirir və beləliklə, qoşunu doyuraraq Qacarın zülmündən qurtulurlar...

**"Yağı"** türk dilində **"düşmən"** deməkdir, **"ləvənd"** isə **"dəniz piyadası"** və ya "tayfalardan toplanmış qeyri-nizami ordu" mənasında işlənir. Kəndin əkin üçün çox yararlı münbit torpağı var: **"vənd"** hissəciyinin **"yer"** mənasında olduğunu nəzərə alsaq, toponimi "Yağlı yer" kimi izah etmək olar (Əlavə məlumat üçün bax: **Aşağı Yağlıvənd kəndi**).

## ZƏRGƏR KƏNDİ

**Zərgər kəndi** rayon mərkəzindən 5 km şimal-qərbdə, dağətəyi düzənlikdə yerləşir. Kəndin 1200 nəfər əhalisi var. Əhali əsasən üzümçülük, heyvandarlıq və əkinçiliklə məşğul olur. Kənddə məktəb, klub, tibb məntəqəsi, Zərgərtəpə arxeoloji abidəsi vardır. Kənd hazırda işğal altındadır.

**Zərgər** tayfaları Qarabağın qədim sakinlərindən biri hesab olunur. Müəyyən tarixi şəraitlə bağlı olaraq onların bir qolu şahsevənlərə qoşularaq İrana getmiş və xeyli zaman müddətindən sonra gedənlərin bir hissəsi geri qayıtmışdır.

M.V.Baharlı (1890-1937) Azərbaycanda tayfa, nəsil, qəbilə adlarını qeyd edərkən **Zərgərli** tayfasının da adını çəkir. **Zərgərlilər** vaxtilə əsasən Cənubi Azərbaycanda, Savalan dağının cənub-şərq ətəklərində yaşamış Azərbaycan tayfalarından biridir. Onların tarixən məşğul olduqları sahələr toxuculuq, maldarlıq və qismən də əkinçilik olmuşdur. Bəzi məlumatlara görə əhali indiki **Zərgər** kəndinə Səfəvilər dövründən əvvəl gəlmişlər.

XIX əsrin 70-ci illərinə aid məlumata görə, **kənd** şahsevənlərin **Zərgərli** tayfasına məxsus ailələrin burada məskunlaşması nəticəsində yaranmışdır. Bədii və tarixi ədəbiyyatlarda **Zərgər** və **zərgərlilər** haqqında kifayət qədər məlumat verilmişdir. Şahsevən tayfasının ən nüfuzlu başçılarından olan - Kürdbəyin tayfasından ayrılan nəsillərdən *(xəlifəli, udyuqlu, muradlı, milli, bəydilli, inallı)* birinin də adı **zərgər**dir...

## ZƏRGƏRQIYIQÇI KƏNDİ

Füzuli rayonunda, Qarabağ silsiləsinin ətəyində yerləşən kənd **Zərgərqıyıqçı** adlanır. Əhalisi heyvandarlıq, bostançılıq, əkinçilik və üzümçülüklə məşğul olur.

Yaşayış məntəqəsini şahsevənlərin **zərgər** tayfasının **qıyıqçı** tirəsinə mənsub olan ailələr salmışlar. **Qıyıqçı** tayfasının adı Səlcuq oğuzlarının məşhur **kıyık** tayfasının adından və mənsubiyyət bildirən **-çı** şəkilçisindən ibarətdir. Oykonim "zərgər tayfasına mənsub qıyıqlar" mənasındadır. Kənd hazırda işğal altındadır.

## ZƏRGƏRTƏPƏ

Füzuli şəhərinin mərkəzindən 3 km şimal-qərbdə, dağətəyi ərazidə, Köndələnçayın sağ sahilində yerləşir. O, son Tunc dövrünə aid 1 hektar sahəsi olan yaşayış yeridir. **Zərgərtəpə** abidəsi 1965-ci ildə qeydə alınıb. Son tunc və ilk dəmir dövrlərinə aid bu yaşayış yeri Yastı təpədən ibarətdir. 1965 və 1972-77-ci illərdə arxeoloji qazıntılar zamanı Zərgərtəpədən qədim *əkinçi* tayfalarına məxsus çoxlu maddi mədəniyyət nümunəsi (saxsı qablar, əmək alətləri və s.) aşkar edilib. Əmək alətlərinə yastı çaydaşından hazırlanmış toxalar (60-a qədər), oraq dişləri, dən daşları və s. daxildir. Sap keçirmək üçün göz açılmış toxaların ağız hissəsi itiləşdirilmişdir. Toxanın ən böyüyünün uzunluğu 18 sm-dir

**Zərgərtəpə** tapıntılarının Azərbaycanın qədim əkinçilik təsərrüfatlarının xüsusiyyətlərini öyrənmək üçün çox böyük əhəmiyyəti vardır. **Zərgərtəpə tapıntıları** bunu deməyə əsas verir ki, bu ərazilər orta əsrlərdə və ondan da qabaqlar insanların yaşayış məskənləri olmuşdur...



## ZİYARƏT DAĞI

Füzuli rayonu ərazisində yerləşən yüksəkliklərdən biri **Ziyarət dağı** adlanır. Toponim dağın ərazisində vaxtilə müqəddəs pir kimi sayılan **ziyarət yeri** olduğu üçün belə ad almışdır. Ziyarət dağında IV əsrə aid alban qəbir abidəsi də olub. **Dağ** da bu sitayiş yeri olan məbədə görə **Ziyarət dağı** adlanmışdır.

Daşkəsəndə, Xanlarda, Xocavənddə də **Ziyarət** adlı dağ vardır...

## ZOĞALLI BAĞ

Azərbaycan oronimiyasında fitooronimlərlə bağlı çoxlu sayda oroqrafik obyektlər qeydə alınmışdır. Onlardan biri də Füzuli rayonunun Sərdarlı kəndi ərazisindəki **Zoğallı bağ** fitooronimidir. Toponim adından göründüyü kimi, **zoğal** və **bağ** sözlərindən və **-lı** mənsubiyyət bildirən şəkilçisindən ibarətdir. **Zoğal** bitkisi **zoğal** fəsiləsindən hündürlüyü 3-6 metr olan, erkən yazda yarpaqlamadan əvvəl çiçək açan kol və xırda ağac cinsidir.

**Zoğallı bağ** coğrafi adı həmin **bağ** sahəsində **zoğal** ağaclarının çoxluğu ilə bağlı olaraq belə ad almışdır. Kəndin **zoğallı bağı** göz işlədikcə uzanıb gedir. Bu bağın məhsulundan bütün kənd camaatı istifadə edərdi...

# FÜZULİ RAYONUNUN OYKONİMLƏRİ

*Ayıbasanlı kəndi, Alaqarğı, Alxanlı kəndi, Amadili, Araz Dilağarda kəndi, Aaz Zərgər kəndi, Araz Yağlıvənd kəndi, Arazbar (Arasbar), Arayatlı kəndi, Arğalı, Arıqlı, Arış kəndi, Arslandüz, Aşağı Bala Nürkü, Aşağı Balağay, Aşağı Veysəlli kəndi, Aşağı Divanalılar kəndi, Aşağı Əbdürrəhmanlı kəndi, Aşağı (Araz) Yağlıvənd, Aşağı Yalıncaq, Aşağı Kürdmahmudlu kəndi, Aşağı Gəlincə kəndi, Aşağı Güzlək kəndi, Aşağı Rəfədinli kəndi, Aşağı Seyidəhmədli kəndi, Babı kəndi, Bala Bəhmənli kəndi, Bala Nürkü, Balağay, Balçaq Əmir Seyid, Barani, Bəhmənli kəndi, Birinci Mahmudlu kəndi, Veysəlli kəndi, Qadılı, Qazaxlar kəndi, Qayıdış qəsəbəsi, Qarabulaq, Qaraqovaq, Qarağan, Qaradağlı kəndi, Qarakollu kəndi, Qaraməmmədli kəndi, Qaraxanbəyli kəndi, Qaraxanlı, Qarğabazar kəndi, Qarıbənd, Qaryagin, Qasımabad, Qacar kəndi, Qaşqa, Qərvənd kəndi, Qızqələm, Qobu Dilağarda kəndi, Qorqan kəndi, Qoçəhmədli kəndi, Qutuşan, Davudan, Danıyal, Dədəli kəndi, Dəlmə, Dərvişbulaq kəndi, Dəmirli, Dəstəcu, Divanalılar kəndi, Dilağarda kəndi, Diri, Dövlətyarlı kəndi, Dördçinar kəndi, Dullar məhəlləsi, Dürrəxanlı, Edilli yurdu, Eymirli, Əbdürrəhmanlı kəndi, Əbülfətan, Ələsgərli kəndi, Əlihüseynuşağı kəndi, Əmirməhəmməd, Ərişə, Əhmədalılar kəndi, Əhmədbəyli kəndi, Zərgər kəndi, Zərgərqıyıqçı kəndi, İkinci Mahmudlu kəndi, İncili, İşıqlı kəndi, Yağlıvənd kəndi, Yazılmərə, Yalpirəhmədli kəndi, Yenili, Yenicə, Yuxarı Ayıbasanlı kəndi, Yuxarı Veysəlli Kəndi, Yuxarı Divanalılar kəndi, Yuxarı Əbdürrəhmanlı kəndi, Yuxarı Yağlıvənd kəndi, Yuxarı Yalıncaq, Yuxarı Kürdmahmudlu kəndi, Yuxarı Güzlək kəndi, Yuxarı Rəfədinli kəndi, Yuxarı Seyidəhmədli kəndi, Yuxarı Cəcirli, Kələdən, Kələçi Keşli, Kəli Kamalabad, Kərimbəyli kəndi, Kərmədən, Köyük, Köhərli, Köçərli oymağı, Kürdlər kəndi, Kürdmahmudlu kəndi, Gecəgözlü kəndi, Gəlincə, Gənlinci, Govşadlı kəndi, Gorazıllı kəndi, Güzlək kəndi, Güllü, Larican, Lələ yurdu, Mandılı, Mahmudabad, Mahmudlu kəndi, Merdinli kəndi, Mədətli, Məhəmmədcəlal, Mirzənağılı kəndi, Mirzəcamallı kəndi, Mollavəli kəndi, Mollaməhərrəmli kəndi, Mollafazilli oymağı, Molokan, Murğuzlu, Musabəyli kəndi, Mustafa Sərkarlı kəndi, Nehrəbaz, Nəsriyyə, Nurpaşa, Nürkü, Ohaltı, Pirəhmədli, Pörnək, Rəbəd, Rəfədinli kəndi, Riyan, Saracıq kəndi, Saqqızlı məhəlləsi, Sarısu yurdu, Sarıxan Seyidabad, Seyidəhmədli kəndi, Seyidmahmudlu kəndi, Sərdarlı kəndi, Soyqaş, Sultanlı, Taməli, Taşqa, Tərkibalı, Tuğ kəndi, Üçbulaq (Hoğa) kəndi, Üçüncü Mahmudlu kəndi, Fəthabad, Firdovsabad, Fioletovka, Füzuli şəhəri, Xanarxı, Xatınbulaq kəndi, Xatunabad, Xələfşə kəndi, Xərələn Kəbirli, Xırda-para Dizaq mahalı, Hacılı, Hoğa (Üçbulaq) kəndi, Horadiz qəsəbəsi, Horadiz kəndi, Hüngütlü kəndi, Hüseynbəyli kəndi, Çatı, Çaxırlı, Çimən (Çəmən) kəndi, Çobanbəyli, Cəyirli, Cəmilli kəndi, Cərgəlan, Curğın, Cuvarlı kəndi, Cünan, Şəkərabad, Şəkərcik yaşayış yeri, Şəkərcik kəndi, Şıxlı kəndi, Şükürbəyli kəndi...*

## FÜZULİ RAYONUNUN ORONİMLƏRİ

*Ağ qaya, Ağ dərə, Ağ təpə, Ağ cığır, Ağa Murad təpəsi, Ağaöylə ocağı, Ağasənəm dərəsi, Ağqaya, Ağdaş dağı, Ağıl dərəsi, Ağıldərə, Ağoğlan çayı, Azıx mağarası, Alı körpüsü yeri , Alının körpüsü, Allahqulunun bağı, Almalıq, Arazbar yeri, Arış körpüsü yeri, Armud ağacı yanı, Armudluq, Arpa gədik, Arxac dərəsi, Aslan dərəsi, At daşı, Axullu yalı, Aşağı dəyirman, Babı türbəsi, Babınovu, Badar oymağı, Bazarbaşı, Bazar diki, Bayrambəy bağı, Bayrambəy yurd yeri, Bayramqulunun bağ yeri, Ballı qaya, Ballıqaya, Bəytəpə dağı, Bayrambəy yurd yeri, Bayramqulunun bağ yeri, Ballı qaya, Ballıqaya, Bəytəpə dağı, Boz qaya, Butaylı bağ, Vəli bağı, Qayıb ocağı, Qanlı dərə, Qanlı gədik, Qara Hüseyn dərəsi, Qaraarxac dərəsi, Qarabağ düzü, Qarabulaq yeri, Qarabulaq kurqanları, Qaraqaya, Qaraquzey, Qarağan təpəsi, Qaraköpəktəpə, Qaragüllü qışlağı yeri, Qaranlıq dərə, Qaratikanlı dərə, Qarğabazar karvansarası, Qarısərnici, Qacar meşəsi, Qədim qaya, Qız qayası, Qız qala, Qızıl qaya, Qızılqaya yüksəkliyi, Qızıltəpə, Qızovlu bağı, Qırxbuğumlu yal, Qobu, Qobu yamacı, Qozdibi yeri, Qozlu dərə, Qozluca, Qonaqgörməz, Qoç dərəsi, Qoşabulaq talası, Qoşaçinar, Qönçə yeri, Qumqazılan, Qurbanlı yer, Quşoturan, Quştəpə dağı, Dağ qoruq, Dağqoruq, Daşdı dərə, Daşlı qaya, Daşlı yoxuş, Daşlıtəpə, Detmir, Dəyirman boyu, Dəyirmantəpə dağı, Dəliçay qobusu, Dəlləkli məhəlləsi, Div mağarası, Dilağarda qaradamı, Dilağardatəpə, Doqquzdərə, Doqquzdərə kobəri, Dördtəpə dağı, Dördçinar bağı, Dördçinar təpəsi, Dördçinar güneyi, Dullar məhəlləsi, Edilli yalı, Edilli səmti yalı, Emin dərəsi, Əzgilli meşəsi, Ələkbər yalı, Əmiraslanın bağı, Əncildərə, Ər yurdu, Ərik bağı, Əcirli dərəsi, Əppəkli, Ərgünəş dağı, Əhəng yeri, Əhməd Soltan türbəsi, Əhmədalılar türbəsi, Əhmədin bağı, Zərgərtəpə, Ziyarət dağı, Zoğallı bağ, İbə ocağı, İlanlı dağ, İbrahim bağı, İydəlik, İmam bağı, İmam piri, İmam rəddi, İmamzadə, İncə dərəsi, İncildərə, İncilli köbər, İşıqlı dağı, İşıqlı güneyi, Yadigar yeri, Yalqız təpə, Yalquzaq təpəsi, Yarpızlıq, Yeddiqardaş dağı, Yedditəpə, Yel ocağı, Yelligədik, Yovşanlıq, Yumurta təpə, Yuxarı dəyirman, Yuxarı pəyə, Kardaş, Keçəl qaya, Keçəl dağ, Kəblə Nəsir dəyirmanı, Kəklikotulu zəmi, Kələmlik, Kərbəlayi tayfası yeri, Kərəm körpüsü, Kirişdi dərə, Kişmişli yer, Korbulaq yeri, Korbulaq qayası, Kömür dərəsi, Kükürdlü yer, Kültəpə, Kürdmahmudlu türbəsi, Gecəgözlü dərəsi, Gilas bağı, Gilli dərə, Gillik, Göy təpə, Göydərə, Göyrüşlü yer, Göl dərəsi, Güllü dərə, Güllü tap, Güllüdərə, Güllütəpə, Güneyqaya, Günəştəpə, Leyli dərəsi, Lələ düzü, Lələ yeri, Mağara təpəsi, Marallı düz, Marallı dərə, Meynətəpə, Mehdiuşağı yurd yeri, Məngələnata dağı, Məşədi Hümbət güneyi, Miralılar yalı, Mirəli türbəsi, Mirzəmurad bağı, Mirzəmuradlı məhəli, Miri ocağı, Molla bağı, Molokan quzeyi, Muradlı bağı, Murquzlu yalı, Murğuzlu yurd yeri, Murtuza təpəsi, Nağara təpəsi, Nağılı yurd yeri, Narqucaq mülkü, Narınbulaq, Narlı keçid, Nərgizli bağ, Nəcəfli məhləsi, Oğuz qəbri, Otaylı bağ, Ocaq düzü, Ocaq yeri, Ocaq təpəsi, Ocaq tirəsi, Ocaqlı dağı, Ocaqlı dərə, Ocaqlı təpə, Palıd peşəsi, Pənalı dəyirmanı, Pirəhmədli yoxuşu, Plovtəpə, Pörnək yeri, Rəbəd yurdu güneyi, Rus qəbri yeri, Saqqızlı məhəlləsi, Saracıq güneyi, Sarı yal, Sarılar dərəsi, Sarıtəpə, Seyid yalı, Seyidlər yurdu,*

*Seyfəli bağı, Səngər yalı, Səngər yeri, Sərdərli məscidi, Sərçəli təpə, Səfixan səngəri, Susuz dərə, Süleymanın çalaxlığı, Tağlı körpü, Tapdıq bağı, Taxıllı zəmi, Taxta körpü, Teşnək, Toppuzlu, Təmiraslı, Tuğ yalı, Tut bağı, Tutluq, Türk dərəsi, Uzuntəpə, Üzərliktəpə, Üçarmud təpəsi, Üçocaq yalı, Üçocaq təpəsi, Fioletovka dərəsi, Xaldaş, Xan dərəsi, Xan yurdu, Xandöyüşən, Xantəpə, Xədicəxanımın yurd yeri, Xəzəz dağı, Xəzər dağı, Xırdapara Dizaq mahalı, Xırman qaya, Xırman yeri, Xocalı dağı, Hav dərəsi, Haramı düzü, Harınbulaq keçidi, Haça gədik, Haçagədik güneyi, Hacı Ələkbər məscidi, Hacılı stansiyası, Hacı Mirzə Hüseynli türbəsi, Heyvalı bağ, Heydər quzeyi, Həzi ocağı, Həzi ocağı dağı, Həzi çökəyi, Həştəfər düzü, Horadiz yalı, Hüngütlü güneyi, Çala məhlə, Çaldağ, Çəkilli bağ, Çəmən yalı, Çərkəzin meşəsi, Çıraqlı qaya, Çoban yeri, Çullu təpə, Canqulu dağı, Cəlil türbəsi, Cəmilli talası, Cinqobu, Cındırlı dərə, Cuvarlı yalı, Şabandağ, Şah Abbas məscidi, Şah yeri, Şah güneyi, Şeyx İbrahim türbəsi, Şenlik, Şəkər xanımın bağ yeri, Şəkərcik örüşü, Şəmsi burnu, Şəmsi dərəsi, Şikayının yanı, Şişqaya, Şiştəpə, Şır-şır, Şıxbaba türbəsi, Şıxlı quzeyi, Şomu dərəsi, Şomulu təpə, Şorakət, Şoranlıq, Şorca, Şükürbəyli quzeyi, Şükürbəyli yalı...*



## FÜZULİ RAYONUNUN HİDRONİMLƏRİ

*Ağbulaq, Ağız bulaq, Araz çayı, Arıq bulağı, Aşağı kəhriz, Aşıq arxı, Baş bulaq, Bəhmən bulağı, Burğa bulağı, Qaynama, Qara bulaq, Qarabulaq, Qaraməmmədli bulağı, Qarğabazar bulağı, Qarğabazar artezianı, Qaçaq bulağı, Qacar bulağı, Qızaran arx, Qızıl arx, Qızıl bulaq, Qızlar bulağı, Qırmızı bulaq, Qozdibi kəhrizi, Qozlubulaq, Qozluçay, Qozluçay gölü, Qotur bulaq, Qoç bulaq, Qoşa bulaq, Qoşabulaq, Qoşakəhriz, Quzeybulaq, Quldurbulaq, Qurdlu bulaq, Quruçay, Dadaş bulağı, Damcı bulaq, Dədəli kəhrizi, Dəyirman bulaq, Dəli çay, Dilağarda bulağı, Dilağarda kəhrizi, Dördgözlü bulaq, Dördçinar kəhrizi, Əbdürrəhmanlı bulağı, Əbdürrəhmanlı kəhrizi, Əsədullah bəy kəhrizi, Əsgərxan bulağı, Əhmədalılar kəhrizi, Zoğallı bulaq, İbə bulağı, İmam bulağı, İncə artezianı, İncə çayı, İşıqlı arxı, İşıqlı kəhrizi, Yedditəpə bulağı, Yəhər bulaq, Yuxarı kəhriz, Kəklikotulu bulaq, Kor bulaq, Köndələnçay, Köndələngöl, Kükürdlü bulaq, Kürdlər arxı, Kürdlər kəhrizi, Kürdmahmudlu kəhrizi, Gamışyatan göl, Gecəgözlü arxı, Gecəgözlü kəhrizi, Gecəgözlü gölü, Gilan gölü, Göy arx, Gölbağı bulağı, Güllübulaq, Güney arxı, Güney kəhrizi, Lalaxan arxı, Lələli bulaq, Mehdi bəy kəhrizi, Məmməd bulağı, Mərcan bulağı, Muxtar bulağı, Muxtar kəhrizi, Namazalı kəhrizi, Narlı bulaq, Nica kəhrizi, Orta bulaq, Orta kəhriz, Pörnək bulağı, Rzalılar kəhrizi, Rus bulağı, Salman bulağı, Saracıq arxı, Saracıq kəhrizi, Sarı bulaq, Sarısu arxı, Seyidəhmədli kəhrizi, Seyidlər bulağı, Sərdərli bulağı, Sərin bulaq, Sısqa bulaq, Soyuqbulaq, Söyüdlü arx, Söyüdlü bulaq, Suyutökülən arx, Sutökülən bulaq, Teşnək bulağı, Təpə bulaq, Təpə kəhriz, Ulubulaq, Üç bulaq, Üçbulaq, Fioletovka bulağı, Xan arxı, Xan kəhrizi, Harın bulaq, Haça bulaq, Hacı Bayram kəhrizi, Hacı bulağı, Hacı Səfər bulağı, Hacılar arxı, Həştafər bulağı, Horadiz arxı, Horadiz kəhrizi, Çala kəhriz, Çərəkən arxı, Çərəkən çayı, Çılpaq kəhriz, Cəmilli bulağı, Cəfər Sadıq bulağı, Coşan bulaq, Şah bulağı, Şahbudaq kəhrizi, Şır-Şır, Şır-Şır şəlaləsi, Şıxlı arxı, Şıxlı kəhrizi, Şomulu bulaq, Şor bulaq, Şorca bulaq, Şükürbəyli arxı...*

# QARABAĞ MÜHARİBƏSİ İLƏ BAĞLI BƏZİ TƏQVİM-XRONOLOGİYA

## 1988-ci il

**10-12 fevral** - Xankəndində (Stepanakert) izdihamlı mitinq keçirilir...
**13 fevral** - Rayon ərazisinə DQMV-nin Xocavənd (Hadrut) rayonunun kəndlərindən onlarla azərbaycanlı köçkün ailələr gəlir...
**19 fevral** - Bakıda Dağlıq Qarabağ məsələsi ilə bağlı ilk etiraz mitinqi keçirilir...
**20 fevral** - DQ Vilayət Sovetinin növbədənkənar sessiyasında "DQMV-nin Azərbaycan SSR tərkibindən çıxarılıb Ermənistan SSR tərkibinə verilməsi haqqında" məsələ müzakirə edilir və səs çoxluğu ilə qərar qəbul olunur. SSRİ Ali Sovetindən bu məsələyə baxmaq xahiş olunur...
**22 fevral** - Qarabağ müharibəsində ilk qan tökülür. Əli Hacıyev və Bəxtiyar Quliyev Əsgəranda ermənilər tərəfindən qətlə yetirilir...
**23 fevral** - B.S.Kevorkov işdə yol verdiyi nöqsanlara görə vəzifəsindən uzaqlaşdırılır. Z.A.Poqosyan DQMV PK-nin birinci katibi seçilir...
**27 fevral** - Sov.İKP MK-nin Baş katibi M.S.Qorbaçov Azərbaycan və Ermənistan zəhmətkeşlərinə, xalqlarına müraciət edir...
**27-28 fevral** - Sumqayıt təxribatı törədilir, 32 nəfər həlak olur...
**23 mart** - SSRİ Ali Soveti Dağlıq Qarabağın Ermənistana verilməsinin qeyri-mümkünlüyü barədə qərar çıxarır...
**24 mart** - Respublika Ali Sovetinin Rəyasət Heyətinin iclasında DQMV hadisələri məsələləri müzakirə olunur. Küçə yürüşlərinin təşkili və keçirilməsi haqqında əsasnamə təsdiq olunur...
**18 may** - Rayonda ilk mitinq keçirilir. Bu mitinq Azərbaycan KP MK-nin xətti ilə təşkil edilir. Mobil Yusifov öz çıxışında valideynlərə övladlarını Sovet Ordusuna verməməyi tövsiyə edir...



**May** - Azərbaycan və Ermənistan KP MK-nin birinci katibləri dəyişdirilir...
**29 may** - Ə.X.Vəzirovla Ermənistan KP MK-nin birinci katibi S.Q.Arutyunyan görüşürlər...
**13-17 iyun** - Azərbaycan SSR AS RH-də DQMV-nin Ermənistan SSR-ə verilməsi haqqında vilayət deputatlarının xahişi nəzərdən keçirilir...
**15 iyun** - Ermənistan SSR Ali Soveti DQMV Xalq Deputatları Sovetinin xahişi ilə əlaqədar Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistan SSR tərkibinə verilməsi haqqında qərar qəbul edir və bu xahişlə yenidən SSRİ Ali Sovetinə müraciət edir...
**17 iyun** - Azərbaycan SSR Ali Soveti "Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistan SSR tərkibinə verilməsinin qəbuledilməzliyi haqqında" qərar çıxarır...
**18 iyun** - SSRİ Ali Soveti Rəyasət Heyəti "Dağlıq Qarabağ barəsində məsələyə dair Ermənistan SSR və Azərbaycan SSR Ali Sovetlərinin qərarları haqqında" qərar qəbul edir...
**18 iyul** - SSRİ Ali Sovetinin sessiyasında Dağlıq Qarabağın Azərbaycanın tərkib hissəsi olması təsdiq edilir...
**2 avqust** - Ə.X.Vəzirovla S.Q.Arutyunyan Xankəndində görüşürlər. Görüşdə Sov.İKP MK-nın nümayəndəsi A.M.Volski iştirak edir...
**28 avqust** - C.Məmmədov Füzuli rayon PK-nin birinci katibi təyin edilir...
**Sentyabr** - DQMV ilə həmsərhəd rayonların, o cümlədən, Füzuli rayonunun əhalisindən soyuq silahlar müsadirə olunur...
**18 sentyabr** - Azərbaycanlıların silah gücünə Xankəndindən (Stepanakertdən) çıxarılmasına başlanılır...
**20 sentyabr** - SSRİ Ali Soveti Rəyasət Heyətinin fərmanı ilə Stepanakertdə xüsusi vəziyyət elan olunur və qadağan saatı qoyulur...
**17 noyabr** - Erməni-rus hərbi birləşmiş dəstələri Qacar kəndinə hücum edir. Əsasən ov tüfəngləri ilə silahlanmış Fərzalı Həsənovun dəstəsi onları geri oturdur...

**17 noyabr-4 dekabr** - Bakıda, Azadlıq meydanında kütləvi etiraz mitinqləri keçirilir. Azərbaycanda Milli-azadlıq hərəkatı başlayır...
**22 noyabr** - Füzuli şəhərinin mərkəzi meydanında çoxminli etiraz mitinqi keçirilir. Mitinqçilərin bir qrupu rayon DİŞ-nə yürüş edir; bir neçə milis maşını yandırılır...
**24 noyabr** - Bakı, Naxçıvan, Gəncə şəhərlərində xüsusi vəziyyət elan olunur, qadağan saatı qoyulur...
**25 noyabr** - Tuğ kəndində yerli ermənilərlə füzulilər arasında münaqişə baş verir, azərbaycanlıların evlərinə çoxlu ziyan dəyir; bəzi azərbaycanlılar milis işçiləri tərəfindən tutularaq Hadrut şəhərinə aparılır...
**25 noyabr** - rayon mədəniyyət evində Füzuli rayon xalq cəbhəsi elan olunur. M.Yusifov müvəqqəti sədr seçilir...
**26 noyabr** - Füzuli şəhərinin mərkəzi meydanında 20 min nəfərlik izdihamlı mitinq keçirilir...
**1 dekabr** - Ermənistan SSR-dən qovulmuş əhalidən 95 ailə Füzuli şəhərində və rayonun digər yaşayış məntəqələrində yerləşdirilir...
**Dekabr** - Füzuli rayonunda fövqəladə vəziyyət elan olunur. Polkovnik Kovalyov (sonralar general-mayor, 20 noyabr 1991-ci il tarixdə Qarakənd səmasında vurulan vertolyotda həlak olub) komendant olur...
**Dekabr** - SSRİ prokurorluğunun istintaq şöbəsinin (əsasən azərbaycanlılar) əməkdaşları rayonda keçirilmiş mitinqin iştirakçılarını şantaj edir...
**4-5 dekabr** - Bakı şəhəri xüsusi rayonu hərbi komendantının əmri ilə Azadlıq meydanında 19 gün fasiləsiz davam edən etiraz mitinqi ordu tərəfindən zorakılıqla dağıdılır...
**8 dekabr** - Azərbaycan KP MK Bürosu daimi yaşayış yerini tərk etməyə məcbur olmuş vətəndaşların problemlərini müzakirə edir. Qeyd edilir ki, 7 dekabra qədər Ermənistan SSR-dən gələn azərbaycanlıların sayı 119.094 nəfərdir. Azərbaycan SSR-dən gedən ermənilərin sayı isə 89.641 nəfər olmuşdur...



**30 dekabr** - 1988-ci il ərzində hadisələr başlayandan (22 fevralda ilk qurbanlar - ağdamlı Əli Hacıyev və Bəxtiyar Quliyev adlı 2 gənc şəhid olmuşdur) 186 nəfər azərbaycanlı ermənilər tərəfindən qətlə yetirilmiş, 200 mindən çox adam isə doğma ocaqlarından qovulmuşdur...

**1989-cu il**

**12 yanvar** - Azərbaycan SSR-in DQMV-da xüsusi idarəçilik formasının tətbiqi haqqında SSRİ Ali Soveti Rəyasət Heyəti qərar qəbul edir. A.Volskinin rəhbərliyi ilə Xüsusi İdarə Komitəsi yaranır...
**19 may** - N.İ.Rıjkovun sədrliyi ilə Sov.İKP MK Siyasi Bürosunun millətlərarası münasibətlər məsələləri üzrə komissiyasının iclasında Dağlıq Qarabağda və onun ətrafında yaranmış vəziyyət müzakirə edilir. Ə.X.Vəzirovun və S.Q.Arutyunyanın məlumatları dinlənilir...
**İyun** - Əhalidən bütün növ silahlar - o cümlədən, ov tüfəngləri də yığılır...
**16 iyul** - Bakıda yarımgizli şəraitdə Azərbaycan Xalq Cəbhəsinin təsis konfransı keçirilir. AXC-nin yaradıldığı elan edilir. Əbülfəz Əliyev (Elçibəy) AXC sədri seçilir...
**18 iyul** - AXC Füzuli rayon şöbəsi təsis olunur...
**29 iyul** - Bakıda V.İ.Lenin adına meydanda bütün şəhər və rayon mərkəzlərində, o cümlədən, Füzulidə AXC-nin irəli sürdüyü tələblərlə əlaqədar kütləvi mitinqlər keçirilir...
**16 avqust** - Azərbaycan ziyalılarının həmrəylik toplantısında bir qrup ziyalının təklifi ilə Qarabağa Yardım Komitəsinin təsis edilməsi qərara alınır...
**26 avqust** - Azərbaycan SSR Ali Soveti Rəyasət Heyəti DQMV-də Konstitusiyaya zidd tədbir haqqında Dağlıq Qarabağın SSR-dən qoparılmasına qarşı qərar çıxarır...
**28 avqust** - QXYK təsis olunur. Az sonra Hüseyn Hüseynov QXYK Füzuli RŞ-nin sədri seçilir...

**4-11 sentyabr** - AXC-nin təklifi ilə ümumrespublika tətil aksiyasının keçirilməsinə cəhd göstərilir...
**15 sentyabr** - Azərbaycan SSR Ali Sovetinin sessiyasında DQMV Xüsusi İdarə Komitəsinin ləğv olunması üzrə müvafiq qərar qəbul edilməsi üçün SSRİ Ali Sovetinin Rəyasət Heyəti qarşısında vəsatət qaldırılması barədə qərar qəbul olunur...
**16 sentyabr** - Tbilisi-Bakı marşrutu ilə hərəkət edən sərnişin avtobusu ermənilər tərəfindən partladılır. 5 nəfər həlak olur, 25 nəfər yaralanır...
**22 sentyabr** - Azərbaycan SSR Ali Soveti Azərbaycan SSR-in dövlət suverenliyi haqqında Konstitusiya qanununu qəbul edir...
**23 sentyabr** - Respublika Ali Sovetinin Sessiyasında "Azərbaycan SSR-in suverenliyi haqqında" Konstitusiya qanunu qəbul edilir...
**Noyabr** - AXC Füzuli RŞ təsis konfransını keçirir...
**28 noyabr** - SSRİ Ali Soveti Rəyasət Heyətinin qərarı ilə Xüsusi İdarə Komitəsi ləğv edilir...
**28 noyabr** - DQMV-da XİK ləğv edilir. Azərbaycan SSR-in Təşkilat Komitəsi yaradılır...
**28 noyabr** - SSRİ Ali Soveti "DQMV-da vəziyyətin normallaşdırılması sahəsində tədbirlər haqqında" qərar qəbul edir. DQMV ilə paritet əsaslarda Respublika Təşkilat Komitəsi yaratmaq, 20-ci çağırış DQMV XDS-nin fəaliyyətini bərpa etmək qərara alınır. "Hakimiyyət və idarəetmə orqanlarının bərpa edilməsi şəraitində" DQMV Xüsusi İdarə Komitəsinin saxlanması məqsədəuyğun hesab olunmur...
**1 dekabr** - Ermənistan SSR Ali Soveti "Ermənistan SSR-in və Dağlıq Qarabağın birləşdirilməsi haqqında" və "DQMV-da vəziyyətin normallaşdırılması sahəsində tədbirlər haqqında" SSRİ Ali Soveti qərarının qəbuledilməzliyi barədə" qərarlar qəbul edir...
**Dekabr** - Rayonda mövcud vəziyyətlə əlaqədar olaraq özünümüdafiə komitəsi yaranır. Füzuli rayon Enerji satışı idarəsinin rəisi Zəfər Qarayev bu komitəyə müvəqqəti sədr seçilir...



**Dekabr** - Axullu, Tuğ, Salakətin kəndlərinə DİN-nin milis qüvvələri cəlb olunur...
**30 dekabr** - Gəncə (Kirovabad) şəhərinin tarixi adı bərpa olunur...
**30 dekabr** - hadisələr başlanandan ermənilər tərəfindən 1989-cu ilin sonunadək 216 azərbaycanlı qətlə yetirilmişdir. Öldürülənlərin 30%-i (57 nəfəri) qadın və azyaşlı uşaqlardır...
**31 dekabr** - Araz çayı boyunca 137 kilometrlik Sovet-İran sərhədində (Naxçıvan MR ilə İran arasında) sərhəd qurğuları dağıdılır.

## 1990-cı il

**9 yanvar** - Ermənistan SSR Ali Sovetinin sessiyası "1990-cı il üçün DQMV-nin sosial-iqtisadi inkişaf planının 1990-cı il üçün Ermənistan SSR-in iqtisadi sosial inkişafına dair dövlət planına daxil edilməsi haqqında" qərar qəbul edir...
**10 yanvar** - SSRİ Ali Soveti Rəyasət Heyəti Ermənistan Ali Sovetinin Dağlıq Qarabağa dair 1989-cu ilin dekabrın 1-də və 1990-cı il yanvarın 9-da qəbul etdiyi qərarların SSRİ Konstitusiyasına müvafiq olmaması barədə qərar qəbul edir...
**10 yanvar** - DQMV Xüsusi İdarəsinin silahlı dəstə üzvləri Axullu kəndindəki mövqelərdə keşik çəkən azərbaycanlı milis nəfərlərinə hücum edir. Toqquşma nəticəsində hücum edən tərəfdən vzvod komandiri leytenant Tsibolyuk həlak olur...
**11 yanvar** - DQMV Xüsusi təyinatlı silahlı dəstələri Füzuli rayon mərkəzinə daxil olur. Bu zaman rayon mərkəzində güclü mitinq keçirilirdi. DTK və DİN rayon şöbələrinin əməkdaşları mitinqi dağıtmağa çalışsalar da, bu, mümkün olmur. Füzuli Fövqəladə Vəziyyət Rayonunun komendantı podpolkovnik Fetisovun da mitinqi pozmaq cəhdi bir nəticə vermir...
**13 yanvar** - Füzuli rayon PK-nin birinci katibi C.Məmmədov istefa verir. Rayon mərkəzində təxminən 20 min nəfərlik izdihamlı mitinq davam edir. Rayon Partiya Komitəsinin binasında plenum

keçirilir. Azərbaycan KP MK Təşkilat şöbəsinin müdiri Abdinov plenumun işində iştirak edir. Aslan Mehdiyev RPK-nin birinci katibi seçilir...

**13 yanvar** - Azadlıq meydanında keçirilən çoxminlik mitinqdə AXC tərəfindən Milli Müdafiə Şurasının yaradıldığı elan edilir...

**15 yanvar** - Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti "Azərbaycan SSR-in DQMV-də vəziyyətin normallaşdırılması sahəsində təxirəsalınmaz vəzifələr haqqında" qərar qəbul edir. DQMV-də, zərurət olduqda isə ona bitişik rayonlarda fövqəladə vəziyyətin tətbiq olunması qərara alınır və bu məsələlərlə bağlı SSRİ Ali Soveti Rəyasət Heyətinə müraciət edilir...

**15 yanvar** - M.S.Qorbaçovun fərmanı ilə Dağlıq Qarabağda "Xüsusi vəziyyət" elan edilir...

**15 yanvar** - SSRİ Ali Soveti Rəyasət Heyəti "DQMV-də və bəzi ona bitişik rayonlarda fövqəladə vəziyyət elan olunması haqqında" fərman verir. Fərmana əsasən 15 yanvarda yerli vaxtla saat 23-dən DQMV ərazisində, Azərbaycan SSR-in ona bitişik rayonlarında, Ermənistan SSR-in Gorus rayonunda fövqəladə vəziyyət elan edilir. Əhalinin müəssisələrin, idarə və təşkilatların təhlükəsizliyini təmin etmək üçün Bakı, Gəncə şəhərlərində və başqa yaşayış məntəqələrində qadağan saatının tətbiqi də daxil olmaqla lazım olan hər cür tədbirləri görmək Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyətinə təklif olunur...

**16 yanvar** - Aslan Mehdiyev Füzuli rayon Partiya Komitəsinin 1-ci katibi seçilir...

**19 yanvar** - M.S.Qorbaçov Bakı şəhərində fövqəladə vəziyyətin tətbiq edilməsi barədə SSRİ Ali Soveti Rəyasət Heyətinin fərmanını imzalayır. Bu fərman yalnız yanvarın 20-də səhər saat 6-7 radələrində radio ilə elan edilir...

**20 yanvar** - Bakıda dinc əhaliyə qarşı Sovet Ordusu tərəfindən silah işlədilir, amansız divan tutulur, dəhşətli qırğın törədilir...

**20 yanvar** - Bakıda fövqəladə vəziyyət elan edilir. Sovet qoşunları şəhərə hücum edərək dinc əhaliyə qarşı misli-bərabəri görünməmiş qanlı divan tutur...



**21 yanvar** - 20 yanvar Bakı qırğını ilə əlaqədar rayon mərkəzində etiraz mitinqi keçirilir. Rayonun bəzi tanınmış adamları Kommunist Partiyası üzvlüyü biletlərini atırlar...

**26 yanvar** - Azərbaycan KP MK-nin birinci katibi Ə.X.Vəzirov DQMV Xüsusi İdarə Komitəsinin sədri, Sov.İKP MK-nin şöbə müdiri A.İ.Volski ilə görüşür...

**30 yanvar** - 20 yanvar qırğınından sonra Bakı zəhmətkeşlərinin tətillərinə kömək məqsədilə rayon sakinlərinin könüllü şəkildə topladığı 26.000 rubl pul Tətil Komitəsi üzvlərinə çatdırılır...

**19 may** - Azərbaycan SSR Ali Sovetinin sessiyasında Azərbaycan Respublikasının Prezidenti vəzifəsi təsis edilir...

**21 may** - 28 mayı Azərbaycan dövlətçiliyinin bərpası günü elan etmək haqqında Respublika Prezidenti fərman verir...

**28 may** - Azərbaycan Demokratik Respublikasının yaradılmasının 72-ci ildönümü ilə əlaqədar Qələbə parkındakı "Ana heykəli"nin qarşısında rayon rəhbərliyi ilə AXC Füzuli RŞ üzvlərinin birgə təşkil etdikləri tədbir keçirilir...

**28 iyul** - Respublika demokratik qüvvələrinin forumu keçirilir. 20-dən çox ictimai təşkilatın iştirak etdiyi demokratik blok yaradılır...

**10 avqust** - Tbilisi-Ağdam marşrutu ilə hərəkət edən sərnişin avtobusu ermənilər tərəfindən partladılır. 20 nəfər həlak olur, 30 nəfər yaralanır...

**22 avqust** - Ağdam-Füzuli şose yolunda, Qarqar çayının üzərində olan körpü ermənilər tərəfindən partladılır...

## 1991-ci il

**9 yanvar** - Laçın-Şuşa avtomobil yolunun Qaladərəsi kəndi yaxınlığında "Molodyoj Azerbaydjana" qəzetinin müxbiri Salatın Əsgərova, Laçın rayonu hərbi komendantlığının qərargah rəisi, mayor İqor İvanov, podpolkovnik Anatoli İllarionov, Serjant İvan Toyekin erməni silahlı qruplaşmaları tərəfindən vəhşicəsinə qətlə yetirilir...

**5 fevral** - Respublika Ali Sovetinin sessiyasında dövlətimizin adının Azərbaycan Respublikası adlandırılması haqqında qərar qəbul edilir. 1918-20-ci illərdə fəaliyyət göstərmiş ADR-nın üçrəngli, ay-ulduzlu bayrağı dövlət bayrağı kimi təsdiq edilir...
**8 aprel** - Yuxarı Divanalılar kəndi ərazisində ermənilərlə atışma olur. "Qırmızı ulduz" ordenli polis zabiti Namiq Həsən oğlu Hümbətov döyüşdə qəhrəmancasına həlak olur...
**16 aprel** - Erməni quldurları Ağdam-Füzuli şose yolunda 93-69 AQZ nömrəli taksi maşınını gülləbaran edirlər. Sürücü A.İbrahimov və sərnişin M.İsmayılov həlak olur. Digər sərnişin S.Axundov yaralanır...
**18 aprel** - Erməni yaraqlıları Füzuli rayonunun Aşağı Divanallar kəndi yaxınlığında yerli milis əməkdaşlarının və Daxili Qoşunlarının hərbi qulluqçularını aparan maşını atəşə tutur. Füzuli rayon DİŞ-nin əməkdaşı N.Hümbətov, hərbi quluqçu A.İnayev, sürücü Ə.Ağayev həlak olur; iki sərnişin yaralanır...
**20 aprel** - SSRİ Daxili İşlər Nazirliyi Daxili Qoşunlar komandanı general-polkovnik Y.Şatalin Ermənistan Ali Sovetinin sədri L.Ter-Petrosyana məktub göndərərək bildirir ki, erməni yaraqlılarının əli ilə milli münaqişə zamanı Daxili Qoşunların 19 hərbi qulluqçusu öldürülmüşdür. Ümumiyyətlə isə, hadisələr başlayandan erməni quldurları 200 azərbaycanlını qətlə yetirmişlər...
**1 may** - Erməni yaraqlıları bu günədək 300 nəfəri, o cümlədən 19 hərbi qulluqçunu, 29 milis işçisini öldürmüş, 800-dən çox adamı yaralamışlar...
**Babayev Davud Əli oğlu** - təsərrüfat rəhbəri, rayon PK-də məsul vəzifədə çalışmış ziyalı, tanınmış iş adamı;

**Babayev Dostalı Alı oğlu (1926-1984)** - 19 saylı fərdi evtikmə kombinatının direktoru, tanınmış ziyalı, inşaatçı-mühəndis;

**Babayev Elman Behbud oğlu (1953)** - Respublika Avtomobil Yollarının Tikintisi və İstismarı Nazirliyində Maliyyə İdarəsinin rəisi;

**Babayev Əhliman Misir oğlu (1949)** - Füzuli rayon Kərimbəyli kənd orta məktəbinin direktoru, qabaqcıl maarif xadimi;

**Babayev Misir Qurbanalı oğlu (1916)** - "Lenin" ordenli təsərrüfatçı, pambıqçılıq briqadiri, Azərbaycan SSR Ali Sovetinin sabiq deputatı;

**Babayev Rasim Cahangir oğlu (1971)** - Türkiyənin Mərmərə Universitetinin doktorantı, istedadlı neyrocərrah;

**Babayev Səlim** - Balıq Sənayesi nazirinin müavini və Dondurma zavodunda direktor vəzifəsində işləmiş mərhum ziyalı, Respublikanın Xalq artisti və MM-in deputatı Zeynəb Xanlarovanın həyat yoldaşı;

**Babayev Səxavət Həsən oğlu** - Biləcəri dəmir yol vağzalının rəisi, vətənpərvər ziyalı;

**Babayev Telman Misir oğlu (1952)** - özəl şirkətdə baş menecer işləyən vətənpərvər ziyalı;

**Babayev Hamlet Məmməd oğlu** - bir sıra tikinti idarələrinin rəisi vəzifəsində çalışmış ziyalı, təcrübəli inşaatçı-mühəndis;

**Babayev Cahangir Bayandur oğlu (1938)** - Bədən Tərbiyəsi və İdman Akademiyasının dosenti, iqtisad elmləri namizədi;

**Babayeva Zibeydə Əhməd qızı (1906)** - Sosialist Əməyi Qəhrəmanı;



**Babayeva Nənəqız Rza qızı (1922)** - Sosialist Əməyi Qəhrəmanı;

**Babayeva Şamama Əhliman qızı (1918)** - Füzuli rayonu Ə.Səlimov adına Kərimbəyli kənd orta məktəbinin tanınmış, təcrübəli müəllimi;

**Babaşov Rizvan (Rizvan Qarabağlı) Sarı oğlu (1956)** - AMEA Memarlıq və İncəsənət İnstitutunun aparıcı elmi işçisi, memarlıq namizədi;

**Babaşov Uğur** - Böyük Bəhmənli kəndinin tanınmış ziyalısı, təcrübəli müəllim, qabaqcıl maarif işçisi;

**Bağırov Adil Əvəz oğlu** - keçmiş DTK (MTN) orqanının əməkdar zabiti, ziyalı;

**Bağırov Zakir Nəriman oğlu (1930-1989)** - Azərbaycan SSR-nin keçmiş mədəniyyət naziri, fəlsəfə elmləri doktoru, professor;

**Bağırov Məhəmməd Seyfəli oğlu (1926)** - "Lenin" ordenli taxılçılıq briqadiri, təqaüddə olan ziyalı, şair;

**Bağırov Rəcəb Seyfəli oğlu (1950)** - Babı kənd orta məktəbinin təcrübəli müəllimi, qabaqcıl maarif işçisi;

**Bayramov Adil Cəbi oğlu** - 2 saylı Bakı təmir-tikinti idarəsinin rəisi, tanınmış inşaatçı-mühəndis;

**Bayramov Qurban** - tanınmış alim, professor;

**Bayramov Ələsgər** - tanınmış hüquqşünas, Respublika Prokurorluğununun məsul işçisi;

**Bayramov İbad** - rayonun tanınmış ağsaqqal ziyalısı, xeyirxah insan;

**Bayramov Oruc (Oruc Səda) Təhməz oğlu** - tanınmış şair, müəllim;

**Bayramova Almaz Hüseyn qızı (1958)** - 50 saylı Füzuli rayon orta məktəbinin təcrübəli tarix müəllimi, tanınmış ziyalı;

**Balabəyli Nəsibə** - Azərbaycan radiosunda "Xalq yaradıcılığı" şöbəsinin müdiri;

**Balay bəy Həsən bəy oğlu (...-1973)** - Moskva elmi institutlarının birində çalışan mühəndis-polkovnik;

**Balaşov Nurməmməd Kamil oğlu (1954)** - təcrübəli riyaziyyat müəllimi, vətənpərvər ziyalı, qabaqcıl Maarif işçisi;

**Baxış bəy Əsəd bəy oğlu Səbur (1863-1931)** - görkəmli şair, "Məclisi-üns"ün üzvü, ərəb, fars, rus, türk dillərini mükəmməl bilən dövlət qulluqçusu, Q.B.Zakirin qız nəvəsi;
**Baxışov Füzuli Qəmbər oğlu (1970)** - hüquq elmləri namizədi, Sumqayıt şəhər 4-cü bölməsinin polis mayoru;
**Behbudov Vaqif** - Əməkdar incəsənət xadimi, Azərbaycan Respublikası Dövlət mükafatı laureatı;
**Behbudov İlkin Mətləb oğlu (1977)** - xarici şirkətdə mühəndis kimi çalışan vətənpərvər ziyalı, tarixçi, hərbçi-zabit;
**Behbudov İsmixan Mətləb oğlu (1980)** - 2 saylı Bakı Baza Tibb Texnikumunun müəllimi;
**Behbudov Mətləb Şirin oğlu (1947)** - uzun illər Əzizbəyov adına kolxozun sədri olmuş təsərrüfatçı, mühəndis, MDB ölkələrində kommersiya ilə məşğul olan ziyalı;
**Behbudov Tapdıq Behbud oğlu (1928)** - Füzuli rayon Səhiyyə şöbəsinin müdiri, tanınmış həkim-ziyalı;
**Bədəlov Telman Qürbət oğlu (1962)** - tanınmış hərbçi, mayor, vətənpərvər ziyalı;
**Bədirxanova Səfayət (1936)** - Tuğ kənd orta məktəbinin tanınmış dil-ədəbiyyat müəllimi, vətənpərvər ziyalı, qabaqcıl maarif işçisi;
**Bəylərov Hüseyn Abbas oğlu (1937)** - Qabaqcıl maarif xadimi, Kərimbəyli kənd orta məktəbinin dərs hissə müdiri;
**Bəylərov Surxay Mahmud oğlu (1913)** - Sosialist Əməyi Qəhrəmanı;
**Bəylərov Şərif Abbasqulu oğlu (1955)** - Amerikada yaşayan bacarıqlı iş adamı;
**Bəhmənli Vaqif** - istedadlı şair, publisist;

## - C -

**Cavad bəy Əsəd bəy oğlu Cavanşir (1876-1926)** - rayonun hörmətli, nüfuzlu ağsaqqalı olmuş vətənpərvər bəy, erməni-müsəlman davasının (1905-1906-cı il) qəhrəmanlarından biri;



**Cavad Zeynal Behbud oğlu (1944)** - tanınmış yazıçı-publisist, AYB-nin üzvü;
**Cavadov Məmməd** - tanınmış bəstəkar, istedadlı musiqiçi;
**Cavanşirov Əfsər Bayram oğlu (1930)** - əməkdar incəsənət xadimi, bəstəkar, "Bənövşə" uşaq xorunun bədii rəhbəri və baş dirijoru olmuş görkəmli sənətçi;
**Camal bəy Rzaqulu bəy oğlu (1854-?)** - Düdükçü kəndində yaşamış böyük mülkədar, xeyriyyəçi;
**Camalzadə Vüqar** - istedadlı bəstəkar, vətənpərvər ziyalı;
**Camalov Əli Zahid oğlu (1930)** - təqaüddə olan tanınmış ordenli təsərrüfatçı, baş aqronom;
**Camalov Mehman Əli oğlu (1960)** - "Rövşən-Oğuz İstehsalat" MMC-nin direktoru, vətənpərvər ziyalı;
**Camalov Nurəddin Ziyad oğlu (1940)** - 8 saylı Füzuli şəhər orta məktəbinin dərs hissə müdiri, tanınmış fizika müəllimi, istedadlı pedaqoq, vətənpərvər ziyalı;
**Camalov Şahid Rəşid oğlu (1935-1990)** - uzun müddət Şin zavodunda direktor müavini, iqtisadiyyat şöbəsinin müdiri vəzifələrində çalışmış ziyalı, görkəmli mühəndis-mütəxəssis;
**Cahangir bəy Şamil bəy oğlu (1923-2000)** - keçmiş SSRİ məkanında tanınmış alim, texnika elmləri doktoru;
**Cahangirbəyov Rəhim bəy Şükür bəy oğlu (1875-1950)** - Azərbaycan Milli burjuaziyasının ilk nümayəndələrindən biri, görkəmli neftçi, əməkdar mühəndis, neft sənayesi mütəxəssisi, xeyriyyəçi;
**Cahangirov Adil Əmrah oğlu (1912-2006)** - iqtisad elmləri namizədi, 50 il ADİU-də çalışmış ziyalı;
**Cahangirov Allahverən** - təcrübəli kimya-biologiya müəllimi;
**Cahangirov Asif Baxış bəy oğlu (1947)** - Bakı şəhər Baş Təhsil idarəsinin rəisi, Təhsil Nazirliyi kollegiyasının üzvü, əməkdar müəllim;
**Cahangirov Baxış İsmayıl oğlu (1912-1995)** - Respublikanın əməkdar maarif işçisi, uzun illər DQMV təhsil idarəsinin Azərbaycan şöbəsinə rəhbərlik etmiş ziyalı;
**Cahangirov Baxşalı** - tarix elmləri doktoru, professor;

**Cahangirov Bəylər İbrahim oğlu (1910-1941)** - Qızıl Ordunun ilk yüksək rütbəli zabitlərindən biri, Böyük Vətən müharibəsinin ilk günlərində həlak olmuş batalyon komandiri;
**Cahangirov Vaqif Həsən oğlu (1954)** - Norveç Qaçqınlar Şurası İnsan Hüquqlarının Tədrisi proqramında təlim rəhbəri, birinci dərəcəli həkim-terapevt, tanınmış ziyalı;
**Cahangirov Qüdrət İsmayıl oğlu (1907-1987)** - peşəkar hərbçi, aviasiya polkovniki, Böyük Vətən müharibəsi illərində Ali Baş Komandanın xüsusi tapşırıqlarını yerinə yetirən zabit, ziyalı;
**Cahangirov Zülqədər Həsən oğlu (1907-1974)** - iqtisad elmləri doktoru, professor, Respublikanın əməkdar iqtisadçısı, Əməkdar elm xadimi, Azərbaycan Elmlər Akademiyası İqtisadiyyat bölməsinin rəhbəri, APİ-nin keçmiş kafedra müdiri, görkəmli ziyalı;
**Cahangirov İlyas Məhəmməd oğlu** - müxtəlif vəzifələrdə çalışmış vətənpərvər ziyalı;
**Cahangirov Məhəmməd Məhərrəm oğlu (1887-1956)** - DQMV-nin tanınmış ictimai-siyasi xadimlərindən biri olmuş görkəmli ziyalı, Tuğda yaranmış kolxozun ilk sədri, 20 il bu vəzifədə çalışmış təsərrüfatçı;
**Cahangirov Mustafa Məhərrəm oğlu (1880-1950)** - Qori Müəllimlər Seminariyasının məzunu, Füzuli və Tuğ məktəblərində çalışmış maarifçi-pedaqoq;
**Cahangirov Niyaz Məhəmməd oğlu (1934)** - Xocavənd rayon İcra Hakimiyyəti başçısının müavini, uzun illər Tuğ kənd orta məktəbinin direktoru işləmiş ziyalı;
**Cahangirov Ramiz Bəşir oğlu (1956)** - vətənpərvər ziyalı, istedadlı müəllim, qabaqcıl maarif işçisi;
**Cahangirov Həzrətqulu Şükür bəy oğlu (1867-1968)** - tanınmış xeyriyyəçi, bəy nəslindən olan varlı mülkədar, böyük mülk sahibi, təsərrüfat rəhbəri, 1920-30-cu illərdə, aclıq dövrlərində Füzuli və Tuğ sakinlərini taxıl və digər məhsullarla təmin etmiş ziyalı;
**Cahangirova Bağçagül** - təcrübəli ziyalı, Tuğ kənd məktəbinin tanınmış ibtidai sinif müəllimi;
**Cahangirova Kübra** - müəllim, ziyalı;



**Cəbiyev Etibar Abış oğlu (1938-2002)** - müxtəlif məsul vəzifələrdə çalışmış görkəmli energetik, tanınmış ziyalı;
**Cəbiyeva Təranə Etibar qızı (1967)** - vətənpərvər ziyalı, 145 saylı Nərimanov rayon orta ümumtəhsil məktəbinin təcrübəli riyaziyyat müəlimi;
**Cəbrayılov Allahverən Cəbrayıl oğlu** - fizika-riyaziyyat elmləri doktoru, professor, İnşaat-Memarlıq Universitetinin kafedra müdiri;
**Cəlilov Yaşar Rəftar oğlu (1954)** - tanınmış alim, tibb elmləri doktoru, həkim-travmatoloq;
**Cəmil bəy Mustafa oğlu** - Böyük Vətən müharibəsində Sovet İttifaqı Qəhrəmanı fəxri adına layiq görülmüş igid hərbçi-podpolkovnik;
**Cəmil bəy Cümşüd bəy oğlu** - Sankt-Peterburqda, Dağ-mədəni Akademiyasında təhsil almış neft mühəndisi;
**Cəfər bəy Kərbəlayi Mahmud ağa oğlu Mahmudlu (1775-1835)** - varlı mülk sahibi, dövrünün sayılıb-seçilən ağalarından biri;
**Cəfər bəy Səlif bəy oğlu (1792-1860)** - mədrəsə təhsili görmüş ziyalı, təsərrüfatçı;
**Cəfərqulu xan Məhəmmədhəsən ağa oğlu Sarıcalı - Cavanşir (1783-1864)** - Qarabağ xanı, İbrahim xanın nəvəsi, general-mayor;
**Cəfərzadə Amaliya Əvəz qızı** - kimya elmləri namizədi, elmi işçi, vətənpərvər ziyalı;
**Cəfərzadə Əvəz Ağahüseyn oğlu (1906-1976)** - "Lenin" və 2 "Qırmızı Əmək Bayrağı" ordeni ilə təltif edilmiş Respublikanın əməkdar irriqatoru, uzun illər Arazboyu Suvarma Sistemləri idarəsinə rəhbərlik etmiş ziyalı;
**Cəfərov Aydın (1935)** - Azərbaycan Respublikası Ali Sovetinin sabiq deputatı, uzun müddət Qarabağ bölgəsində bir neçə rayonu birləşdirən nəhəng tikinti trestinin rəhbəri olmuş ziyalı;
**Cəfərov Arif Səttar oğlu (1937-2002)** - fizika-riyaziyyat elmləri doktoru, professor, BDU-nun müəllimi olmuş ziyalı;
**Cəfərov Bəhlul Surxay oğlu** - elmlər doktoru;
**Cəfərov Bəhram Surxay oğlu** - Azərnəşrin baş redaktoru;

**Cəfərov Qarakişi İslam oğlu (1946)** - təcrübəli Azərbaycan dili və ədəbiyyatı müəllimi, tanınmış pedaqoq, vətənpərvər ziyalı;
**Cəfərov Dayandur** - uzun müddət Füzuli rayonundakı Rus orta məktəbinin direktoru vəzifəsində çalışmış ziyalı, qabaqcıl maarif xadimi;
**Cəfərov Eldar** - rayonda ticarət sistemində rəhbər vəzifədə çalışmış ziyalı;
**Cəfərov Elman Cəfər oğlu** - elmlər doktoru;
**Cəfərov Əli Səttar oğlu (1927-2006)** - fizika-riyaziyyat elmləri doktoru, professor, Azərbaycan Pedaqoji Universitetinin dekanı, kafedra müdiri, AMEA-nın Riyaziyyat-Mexanika İnstitutunun əməkdaşı olmuş dəyərli ziyalı;
**Cəfərov Zahid Cənnətalı oğlu (1956)** - Avtomobil istismarı üzrə təcrübəli mühəndis, vətənpərvər ziyalı;
**Cəfərov Yusif Həsən oğlu** - Buryatiyada (RF) yaşayan iş adamı;
**Cəfərov Məmiş Haqverdi oğlu (1935)** - uzun illər "Azərittifaq"ın təşkilat şöbəsinin rəhbəri və idarə heyətinin üzvü olmuş ziyalı;
**Cəfərov Nuğay Vətən oğlu (1938-1998)** - "Sumqayıtticarət" idarəsinin və "Vətən" firmasının direktoru olmuş iqtisadçı, dəfələrlə Sumqayıt Şəhər Sovetinin deputatı, seçilmiş ziyalı;
**Cəfərov Ramil Arif oğlu (1965)** - vətənpərvər ziyalı, Yasamal rayon Vergilər idarəsinin şöbə müdiri;
**Cəfərov Rasim İldırım oğlu** - C.Abdullayev adına ET Kardiologiya İnstitutunun həkim-ordinatoru, vətənpərvər ziyalı, kiçik elmi işçi;
**Cəfərov Taryel Həsən oğlu** - Bakı şəhər Nizami rayon Bələdiyyə sədrinin müavini, vətənpərvər ziyalı;
**Cəfərov Fərhad Dadaş oğlu** - Kooperativ Ticarət Texnikumunun direktoru;
**Cəfərov Haqverdi Məmiş oğlu (1962)** - tanınmış alim, Kooperasiya Universitetinin dosenti, fizika-riyaziyyat elmləri namizədi;
**Cəfərov Cəlal Hüsü oğlu** - Naxçıvan MR-da Maliyyə şöbəsinin müdiri;
**Cəfərov Cəmil Cəfər oğlu (1901-1975)** - Respublikanın əməkdar artisti (1943), istedadlı aktyor;



**Cəfərova Bənövşə Məmiş qızı (1964)** - "Azərbaycan" nəşriyyatının işlər idarəsinin müdiri;
**Cəfərova Səadət Arif qızı (1976)** - Azərbaycan Dövlət İqtisad Universitetinin dosenti, fizika-riyaziyyat elmləri namizədi;
**Cəfərova Sədaqət Arif qızı (1972)** - "Azərbaycan" Nəşriyyatının referenti, istedadlı ziyalı, Prezident İdarəçiliyi Akademiyasının əməkdaşı;
**Cəfərova Füruzə Səttar qızı (1928)** - tanınmış alim, APU-nun dosenti, biologiya elmləri namizədi;
**Cəmərd bəy Şıxlı (XVIII əsr)** - İbrahimxəlil xana xidmət etmiş məmur;
**Cuvarlı Əliş** - uzun müddət Bakı Yüngül Sənaye Texnikumunun direktoru vəzifəsində işləmiş ziyalı;
**Cuvarlı Gülmalı Mehdi oğlu** - Sovet Hakimiyyətinin ilk illərində Gəncə Pedaqoji Texnikumunun müdiri vəzifəsində işləmiş görkəmli ziyalı, pedaqoq, Gəncə şəhər PK-nin 1-ci katibi (1933-1937-ci illər);
**Cuvarlı Mehdi Nəcəf oğlu (1875-1922)** - görkəmli ziyalı, Azərbaycanın ilk baytar həkimi;
**Cuvarlı Məmməd İsmayıl oğlu (1900-1938)** - görkəmli ziyalı, APİ-nin kafedra müdiri, 1931-37-ci illərdə Azərbaycan K(b)P MK-nın şöbə müdiri, Respublika Maarif komissarı, Respublika Dövlət Plan Komitəsində idarə rəisi;
**Cuvarlı Məmməd Mehdi oğlu** - 1930-cu illərdə Azərbaycan SSR Maarif naziri;
**Cuvarlı Novruz** - 1930-cu illərdə Şuşa Pedaqoji texnikumunun direktoru işləmiş dəyərli ziyalı;
**Cuvarlı Telman** - kinorejissor;
**Cuvarlı Timruz** - vaxtilə Gəncə şəhər Komsomol komitəsinin birinci katibi işləmiş ziyalı;
**Cuvarlı Hüsü** - 1950-60-cı illərdə Azərbaycan Politexnik İnstitutunun kafedra müdiri olmuş professor;
**Cuvarlı Çingiz Mehdi oğlu** - görkəmli alim, texnika elmləri doktoru (1951), professor (1953), Azərbaycan SSR EA-nın müxbir

üzvü (1959), akademik (1962), SSRİ-nin fəxri energetiki (1979), Oktyabr İnqilabı ordenli Azərbaycan SSR əməkdar elm xadimi (1982), SSRİ Dövlət Mükafatı laureatı (1985);
**Cuvarlı Cavad** - görkəmli alim, professor, 1950-60-cı illərdə Politexnik İnstitutunun (hazırda Texniki Universitet) müəllimi olmuş ziyalı;
**Cümşüd bəy Almurad bəy oğlu (1862-?)** - mükəmməl təhsil almış unter-zabit rütbəli hərbçi;

**- Ç -**

**Çingiz Əlioğlu** - görkəmli şair, publisist, vətənpərvər ziyalı;
**Çobanzadə Nizami** - müxtəlif vəzifələrdə çalışmış bacarıqlı təsərrüfat rəhbəri, ziyalı;

**- D -**

**Dadaşov Qoca Səfər oğlu** - təcrübəli fizika-riyaziyyat müəllimi, tanınmış ziyalı;
**Dostməhəmməd ağa Teymuraz ağa oğlu Sərdarlı** - molla yanında təhsil alan və özəl mülkünü idarə edən dövrünün savadlı ziyalısı;

**- E -**

**Eyvazov Bahadur Əsgər oğlu (1907)** - tibb elmləri doktoru, professor, əməkdar elm xadimi, Azərbaycan SSR-in əməkdar həkimi, dermatoloq, 1938-46-cı illərdə Dəri-Zöhrəvi xəstəlikləri institutunun, 1946-64-cü illərdə ATİ-nun rektoru olmuş görkəmli ziyalı;
**Eyvazov Ədil Əsgər oğlu** - tibb elmləri doktoru, tanınmış ziyalı;
**Eyvazov Əsgər (1880-...)** - zəngin təcrübəyə malik pedaqoq, ziyalı;
**Eyvazov Mahmud İsi oğlu** - Horadiz kəndinin alim oğlu, vətənpərvər ziyalı;



**Eyvazov Natiq Sulduz oğlu (1970)** - tanınmış güləşçi, Yunan-Roma güləşi üzrə dəfələrlə Azərbaycan və Avropa çempionu, 2 dəfə Olimpiya yarışlarının iştirakçısı, beynəlxalq dərəcəli usta;
**Eyvazov Firəddin Əli oğlu (1957)** - Müsavat Partiyası Füzuli rayon təşkilatının keçmiş sədri, tarixçi, ziyalı;
**Eyvazova Zabitə** - Böyük Vətən müharibəsində şərəfli döyüş yolu keçib ad-san qazanmış ziyalı;
**Eyvazova Mədinə** - təcrübəli həkim-ginekoloq;
**Eminova Xədicə Şükür qızı (1965)** - 170 saylı Sabunçu rayon orta məktəbinin direktoru, vətənpərvər ziyalı, qabaqcıl maarif işçisi, Bakıxanov qəsəbəsi bələdiyyəsinin üzvü;

**- Ə -**

**Əbdürrəzzaq bəy Hacı Mirzə İbrahim bəy oğlu (1873-?)** - Peterburq Dövlət Universitetinin məzunu, dövlət məmuru, Qaryagin qəza Polis idarəsində yüksək rütbəli zabit işləmiş dövrünün savadlı ziyalısı;
**Əbdürrəhim bəy Zeynalabdin bəy oğlu Hacılı (1840 - ?)** - çar ordusunun mayoru, 1877-78-ci illərdə Rus-Osmanlı savaşının "Vladimir" xaçlı qəhrəmanı;
**Əbdürrəhim bəy İbrahim ağa oğlu Qarğabazarlı** - XIX əsrdə yaşamış xeyirxah kəndxuda;
**Əbdürrəhmanova Könül Telman qızı (1971)** - Bakı Slavyan Universitetinin "Dünya ədəbiyyatı " kafedrasının dissertantı;
**Əbilov Arif Nəsir oğlu (1922)** - tanınmış cərrah, həkim;
**Əbilov Elman (1939-2001)** - uzun müddət Mənzil İstismar Sahəsinin rəisi və digər vəzifələrdə işləmiş ziyalı;
**Əbilov Karrar** - M.F.Axundov adına Rus dili və Ədəbiyyatı İnstitutunun dosenti olmuş ziyalı;
**Əbilov Natiq Hacı oğlu (1963)** - Nərimanov rayon Polis idarəsinin baş əməliyyat müvəkkili;
**Əbilov Ruslan Hacı oğlu** - uzun illər Füzuli rayon İctimai-İaşə idarəsinin müdiri vəzifəsində çalışmış ziyalı;

**Əbülfət Mədətoğlu** - tanınmış şair, istedadlı publisist, "Ədalət" qəzetinin şöbə müdiri;
**Əbülhəsən Kərbəlayı Kazım oğlu Şəhid (1816-1884)** - Azərbaycan və fars dillərində yazıb-yaradan şair, Qarabağ mahalının qazisi, "Məclisi Fəramuşan"ın üzvü;
**Ədalət Oruc oğlu (1963)** - polis mayoru, Quba rayon polis şöbəsində baş əməliyyat müvəkkili;
**Əzizov Seyid Əbdürrəhim Əli oğlu (1953)** - tanınmış iş adamı, vətənpərvər xeyriyyəçi, Qarabağ müharibəsi iştirakçısı;
**Əzimov Xanoğlan (1962)** - kənd təsərrüfatı mütəxəssisi, Füzuli rayon İH başçısının müavini;
**Əzimov Şəmsəddin "Şəmməd" (1949-2001)** - istedadlı şair, baytar həkim;
**Ələddin Qəmbər - Quliyev Ələddin Marks oğlu - (1960)** - vətənpərvər şair, müəllim, "Qarabağım dardadır", "Gördüyün viranə bizim obadır" kitablarının müəllifi, ziyalı;
**Ələkbər bəy Şərif bəy oğlu (1788-1858)** - Mehdiqulu xana xidmət etmiş mədrəsə təhsilli ziyalı;
**Ələkbərov İmran Mütü oğlu** - Füzuli rayon PK-də Xalq Nəzarət Komitəsinin sədri və digər məsul vəzifələrdə çalışmış nüfuzlu ziyalı;
**Ələkbərov Çingiz Ədil oğlu** - Vətən qarşısında böyük xidmətləri olmuş hərbçi, mayor;
**Ələkbərova (Qazıyeva) Nəzakət Qurban qızı (1975)** - AMEA Nəsimi' adına Dilçilik İnstitutunun Dialektologiya şöbəsinin elmi işçisi, filologiya elmləri namizədi;
**Ələsgər bəy Əli bəy oğlu Kovxalı Sərdarlı (1842-1910)** - Kazan Dövlət Universitetinin Hüquq fakültəsində təhsil alıb Mülki Məhkəmə sistemində çalışan ziyalı;
**Ələsgər bəy Məşədi Hüseyn bəy oğlu Gecəgözlü (1845- ?)** - Fərrux bəy Vəzirovun Hindarx kəndindəki malikanəsində çalışmış təhsilli ziyalı;
**Ələsgər Molla Hüseynəli oğlu Sarıcalı - Cavanşir (1851-1911)** - mədrəsə təhsili görmüş dövrünün savadlı ziyalısı;



**Ələsgərov Adil Novruz oğlu (1953)** - Füzuli rayon Gənclər İdman İdarəsinin rəisi, fəxri "Bədən tərbiyəsi və İdman xadimi", voleybol üzrə idman ustası, futbol üzrə idman komissarı;
**Ələsgərov Novruz Mədət oğlu (1922-2001)** - uzun illər Hadrut (Xocavənd) rayon meşə təsərrüfatı idarəsinin direktoru vəzifəsində çalışmış ağsaqqal ziyalı;
**Əli ağa Şahverdi ağa oğlu** - XVIII əsrdə Sərdarlı kəndinin kovxası olmuş məmur, usta Vəliməmməd ağa Dizağinin nəvəsi;
**Əli bəy Rzaqulu bəy oğlu (1832 - ?)** - dövrünün görkəmli nüfuz sahibi, təhsilli ziyalı;
**Əli bəy Şərif bəy oğlu (1760 - ?)** - İbrahimxəlil xanın atlı dəstəsinin bölük başçısı, mədrəsə təhsilli ziyalı;
**Əlibəyov Ayaz Ədil oğlu (1923-1993)** - məktəb direktoru, tanınmış müəllim, qabaqcıl maarif xadimi, təbiət vurğunu;
**Əlibəyov Əvəz** - 3 müharibə (I Dünya, Vətəndaş, Böyük Vətən müharibələri) iştirakçısı, müharibələrdə şərəfli döyüş yolu keçmiş nümunəvi şəxsiyyət, vaxtilə Rostov şəhər milis şöbəsinin rəisi işləmiş ziyalı;
**Əlibəyov Savalan Ayaz oğlu (1949)** - coğrafiya elmləri namizədi;
**Əlibəyov Cəmil** - tanınmış yazıçı-publisist, keçmiş "Kommunist" qəzetinin baş redaktoru olmuş ziyalı, Əməkdar mədəniyyət işçisi, "Qızıl qələm" mükafatı laureatı;
**Əliqulu Mirzə Xələf oğlu Xələfov (1844- ?)** - əsasən əkinçiliklə məşğul olmuş dövrünün savadlı ziyalısı;
**Əlizadə Səyyad (1958)** - tanınmış müğənni;
**Əliyev Abış Kərbəlayi Hacı oğlu** - repressiyaya məruz qalmış vətənpərvər ziyalı;
**Əliyev Avtandil Adıgözəl oğlu** - Azərbaycan Respublikası Auditorlar Palatasının şöbə müdiri, ziyalı;
**Əliyev Allahyar** - Füzuli rayon Dövlət Dram Teatrının aktyoru, istedadlı xanəndə;
**Əliyev Alik Əlağa oğlu (1951)** - Əhaliyə Məişət xidməti nazirliyinin Füzuli rayonlararası təmir tikinti idarəsinin rəisi;

**Əliyev Afiq Xanoğlan oğlu (1958)** - pedaqoji elmlər namizədi, dosent, Lənkəran Dövlət Universiteti, Pedaqogika və psixologiya kafedrasının müdiri;
**Əliyev Bayram Arif oğlu** - kənd təsərrüfatı elmləri namizədi;
**Əliyev Bayram Vəli oğlu** - kənd təsərrüfatı elmləri namizədi;
**Əliyev Barat İbad oğlu (1930)** - AzMİU-nun riyaziyyat kafedrasının dosenti;
**Əliyev Baxış Museyib oğlu (1934)** - Sərdarlı kəndindən olan savadlı ziyalı;
**Əliyev Bəndalı** - Sosialist Əməyi Qəhrəmanı;
**Əliyev Vahid Əliş oğlu** - tanınmış kimyaçı alim, kimya elmləri namizədi;
**Əliyev Vahid Mehman oğlu** - tibb elmləri doktoru, professor, 5 saylı Bakı şəhər xəstəxanasının cərrahı, "Qırmızı Əmək Bayrağı", "Xalqlar dostluğu" "Şərəf nişanı" ordenləri ilə təltif edilmiş həkim, Qazaxıstan Tibb Akademiyasının həqiqi üzvü, Qazaxıstanın Əməkdar həkimi;
**Əliyev Vəfa Xanoğlan oğlu (1953)** - filologiya elmləri namizədi, dosent, Azərbaycan Mədəniyyət və İncəsənət Universitetinin sənətşünaslıq fakültəsinin dekanı;
**Əliyev Vidadi Əziz oğlu** - vaxtilə Füzuli rayon Komsomol Komitəsinin 1-ci katibi vəzifəsində çalışmış ziyalı, Horadiz Pambıqtəmizləmə zavodunun direktoru;
**Əliyev Qabil Əli oğlu** - BDU-nun tarix fakültəsinin dosenti, tarix elmləri namizədi;
**Əliyev Qəhrəman Vəli oğlu** - təyyarəçi, mayor;
**Əliyev Qəşəm Əsəd oğlu (1932)** - Kimya Birliyinin direktoru;
**Əliyev Etibar Şiraslan oğlu (1963)** - vətənpərvər ziyalı, Gömrük Komitəsinin mühafizə şöbəsinin və Fövqəladə Hallar Nazirliyinin əməkdaşı, mayor;
**Əliyev Əziz** - rayon maliyyə şöbəsinin müdiri olmuş ziyalı;
**Əliyev Əziz** - müxtəlif vəzifələrdə çalışmış ağsaqqal-ziyalı;
**Əliyev Əziz Əliş oğlu (1947)** - tanınmış veteran futbolçu, Respublika dərəcəli hakim, 1968-ci ildə "Neftçi" futbol komandasının qapıçısı, "MOİK" və "Qarabağ" futbol klublarının şərəfini qorumuş futbolçu, AFFA-nın komissarı;
**Əliyev Əyyub (1922)** - tanınmış musiqiçi, tarzən, Füzuli rayon yeddiillik musiqi məktəbinin direktoru vəzifəsində çalışmış ziyalı;
**Əliyev Ələkbər (Saşa) İslam oğlu** - təqaüddə olan DTK (MTN) polkovnik-leytenantı;
**Əliyev Əli Abdulla oğlu (1917-2002)** - tanınmış ziyalı, 50 ildən çox pedaqoji fəaliyyətlə məşğul olmuş müəllim, "Qırmızı Ulduz", "II dərəcəli Vətən müharibəsi" ordenləri və s. medallarla təltif edilmiş müharibə və əmək veteranı, Böyük Vətən müharibəsi illərində "Belarussa" ləqəbi ilə ad çıxarmış igid partizan;
**Əliyev Əliş Vəli oğlu** - görkəmli təyyarəçi, polkovnik;
**Əliyev Əlövsət Abbas oğlu (1957)** - Füzuli rayon İH başçısının Əhmədbəyli kəndi üzrə nümayəndəsi, vətənpərvər xeyriyyəçi;
**Əliyev Əsəd Əli oğlu (1933)** - iqtisad elmləri doktoru, professor Texniki Universitetin müəllimi, bir sıra məsul vəzifələrdə çalışmış dəyərli ziyalı;
**Əliyev Əsəd Museyib oğlu Sərdarlı (1924-1954)** - gənc ikən dövlət əmlakını yanğından xilas edərkən həlak olmuş vətənpərvər ziyalı;
**Əliyev İbad Barat oğlu (1955)** - bir sıra rayonlarda hərbi komissar, eləcə də Azərbaycan Respublikası Hərbi Komissarlığında məsul vəzifələrdə çalışmış ziyalı, ehtiyatda olan polkovnik;
**Əliyev İbrahim Əvəz oğlu** - Beyləqan rayon Səhiyyə şöbəsinin təcrübəli həkimi, ziyalı;
**Əliyev İslam** - Böyük Vətən müharibəsində şərəfli döyüş yolu keçmiş "Lenin" ordenli müəllim, ziyalı;
**Əliyev Kamran Sədətqulu oğlu** - Dillər Universitetinin müəllimi, tanınmış ziyalı;
**Əliyev Kərim Heydər oğlu** - tanınmış hərbçi, həkim, polkovnik;
**Əliyev Mədət Abbas oğlu** - Vətən qarşısında xidmətləri olan təcrübəli gəmi kapitanı;
**Əliyev Millət Məmmədcəfər oğlu (1927-2004)** - uzun müddət təsərrüfat rəhbəri olmuş ağsaqqal ziyalı;

**Əliyev Mübariz Yaqub oğlu (1946)** - tibb elmləri doktoru, Musa Nağıyev adına TTYX-nın həkimi;
**Əliyev Nazim Kərəm oğlu (1963)** - Azərbaycan Respublika Milli Yığma Futbol komandasının hücumçusu olmuş idmançı, müstəqillik dövründə Milli Çempionatda 100-dən çox qol vurmuş ilk futbolçu, dəfələrlə Azərbaycan çempionu, dəfələrlə Milli Çempionatımızın ən məhsuldar oyunçusu adına layiq görülmüş veteran futbolçu, təcrübəli məşqçi;
**Əliyev Oqtay Bəndalı oğlu (1946)** - "Qayıdış" qəzetinin redaktoru, AJB-nin üzvü;
**Əliyev Polad Nəriman oğlu (1938-1993)** - Füzuli rayon İdman Komitəsinin sabiq sədri, keçmiş SSRİ idman ustalığına namizəd, Respublika dərəcəli idmançı;
**Əliyev Razi Təhməz oğlu** - Azərbaycan Respublikası Auditorlar Palatasının şöbə müdiri;
**Əliyev Ramiz Bəhram oğlu** - tanınmış musiqiçi, istedadlı tarzən, gitaraçı;
**Əliyev Ramiz Dadaş oğlu** - AzMİU-nun dəmir-beton kafedrasının dosenti, texnika elmləri namizədi;
**Əliyev Ramil Bəylər oğlu** - Azərbaycan Dövlət İqtisad Universitetinin "İqtisadi təhlil və audit" kafedrasının professoru, iqtisad elmləri doktoru, Beynəlxalq İnformatika akademiki;
**Əliyev Rövşən Telman oğlu (1973)** - BDU-nun "Ehtimal nəzəriyyəsi və riyazi statistika, tətbiqi riyaziyyat və kibernetika" kafedrasının dosenti, fizika-riyaziyyat elmləri namizədi;
**Əliyev Rövşən Hənifə oğlu (1962)** - "Birlikbank"ın prezidenti;
**Əliyev Sahib** - tanınmış cərrah;
**Əliyev Sehran Qaçay oğlu** - BDU-nun xarici dillər kafedrasının baş müəllimi, tanınmış ziyalı;
**Əliyev Sərdar Hicran oğlu** - ATU-nun Patofiziologiya kafedrasının assistenti, tibb elmləri namizədi;
**Əliyev Süleyman** - Füzuli rayon əhalinin Sosial Müdafiə Mərkəzinin direktoru;
**Əliyev Taleh** - istedadlı şair, ziyalı;



**Əliyev Tarverdi Fərouz oğlu (1944)** - Qabaqcıl maarif işçisi, Azərbaycan Respublikası Bakı şəhər 1 saylı internat (qüsurlu uşaqlar) məktəbinin direktoru, vətənpərvər ziyalı;
**Əliyev Telman Xurşud oğlu (1940)** - Azərbaycan Memarlıq və İnşaat Universitetinin professoru, Ukrayna İnşaat Akademiyasının akademiki, Beynəlxalq EkoEnergetika Akademiyasının həqiqi üzvü, akademik Y.Məmmədəliyev adına mükafatın laureatı, "Dünyanın intellektual lideri" qızıl medalının laureatı (ABŞ Bioqrafiya institutu, 2003), BEA-nın qızıl medal laureatı (1999), çoxlu sayda ixtira və modellərin müəllifi;
**Əliyev Tərlan Tehran oğlu (1965)** - 50 saylı Füzuli rayon orta məktəbinin direktoru;
**Əliyev Tumas Mazan oğlu (1950)** - rayonun idman ictimaiyyəti arasında xüsusi hörməti olan ziyalı, voleybol üzrə Ümumittifaq dərəcəli hakim, Azərbaycan SSR yığma komandasının üzvü olmuş görkəmli idmançı;
**Əliyev Fazil Museyib oğlu (1941)** - "Şirvan" Neft və Qazçıxarma idarəsinin tanınmış neftçisi, bir sıra əmək nailiyyətləri əldə etmiş ziyalı;
**Əliyev Famil Alış oğlu (1926-1977)** - tanınmış ziyalı, iqtisadçı-mühasib;
**Əliyev Xanlar Mehralı oğlu** - Qaryagin Pedaqoji Texnikumunun ilk direktoru olmuş ziyalı;
**Əliyev Hacı Yaşar İsfəndiyar oğlu (1956)** - özəl şirkət direktoru, vətənpərvər ziyalı;
**Əliyev Həsən Ərşad oğlu (1955)** - uzun müddət Bakı Şin zavodunun direktoru vəzifəsində çalışmış ziyalı, iş adamı;
**Əliyev Hüseyn Muxtar oğlu (1961)** - Bala Bəhmənli bələdiyyəsinin sədri, "Şamil" firmasının direktoru;
**Əliyev Şamxal Sərxan oğlu (1924)** - tanınmış polis polkovniki, DİN Veteranlar Şurasının üzvü, ziyalı;
**Əliyev Şəfa Xanoğlan oğlu (1942)** - ATU-nun III Cərrahi xəstəliklər kafedrasının dosenti, tibb elmləri namizədi, ATU-nun "İstehsalat təcrübəsi" dekanlığının dekanı;

**Əliyev Şəfahət Fərhad oğlu** - "Azərneftyanacaq" İB-nin təmir-tikinti idarəsinin raisi olmuş vətənpərvər ziyalı;
**Əliyeva Elmira Vəliş qızı (1959)** - bir sıra fəxri fərman və mükafatlara layiq görülmüş Füzuli rayon Aybasanlı kənd yeddiillik orta uşaq musiqi məktəbinin direktoru;
**Əliyeva Zeynəb Aqil qızı** - Azərbaycan SSR Ali Sovetinin sabiq deputatı;
**Əliyeva Zoya** - hüquqşünas, Binəqədi rayonunun hakimi;
**Əliyeva Hamayıl** - DQMV-da Vilayət Komsomol Komitəsinin birinci katibi işləmiş vətənpərvər ziyalı;
**Əlifoğlu Vahid** - tanınmış istedadlı şair, vətənpərvər ziyalı;
**Əliş Mirzə Saleh oğlu (1874-1964)** - Tehran şəhərində Darül-fünunda oxumuş ziyalı, uzun illər Qaryagin şəhər məscidinin axundu olmuş ruhani;
**Əminov Mirzə Qara** - maarifçi-pedaqoq, XX əsrin əvvəllərində rayonun ayrı-ayrı bölgələrində müəllim işləyən məktəbdar ziyalı;
**Əmiraslanov İmran (1910 -?)** - peşəkar hərbçi, Qızıl Ordunun ilk azərbaycanlı zabitlərindən biri;
**Əmirov Mürşüd Səttar oğlu** - Horadiz kəndinin tanınmış alimi, vətənpərvər ziyalı;
**Əmirov Sabir Səttar oğlu** - Horadiz kəndinin alim oğlu, vətənpərvər ziyalı;
**Əmirov Cəlal Museyib oğlu** - Azərbaycan Respublikası Hərbi Komissarlığının həkimi, polkovnik;
**Əsəd bəy Qasım bəy oğlu Mirzəcamallı (1724-1873)** - mükəmməl təhsil almış bir neçə dil bilən şair, dövrünün istedadlı, hazırcavab ziyalısı;
**Əsəd bəy Nəcəfqulu bəy oğlu (1830-1917)** - çar ordusunda xidmət etmiş poruçik, ştabs-kapitan, mükəmməl savad almış ziyalı, rus və şərq dillərinin bilicisi;
**Əsədov İbadulla Museyib oğlu (1922-1993)** - 50 il pedaqoji fəaliyyətlə məşğul olmuş Bala Bəhmənli kənd orta məktəbinin ədəbiyyat müəllimi;



**Əsədov Məmməd** - Sərdar (Füzuli) rayon Partiya Komitəsinin birinci katibi vəzifəsində çalışmış ziyalı;
**Əsədov Tofiq Şamil oğlu (1940)** - Bakı şəhər İcra Hakimiyyəti məşğulluq idarəsində aparıcı mütəxəssis işləyən vətənpərvər ziyalı;
**Əsədov Şamil Museyib oğlu** - fizika-riyaziyyat elmləri namizədi, Azərbaycan Dövlət İqtisad Universitetinin dosenti, vətənpərvər ziyalı;
**Əsgərov Qoçaq** - gənc müğənni, istedadlı xanəndə, bir sıra müsabiqələr laureatı, muğam ustası;
**Əsgərov Əhməd Əziz oğlu** - tanınmış həkim, vətənpərvər ziyalı;
**Əsgərov Hacı Cümşüd oğlu (1925)** - ağsaqqal ziyalı, uzun müddət təsərrüfat rəhbəri olmuş görkəmli təsərrüfatçı;
**Əsgərov Cahangir Vəli oğlu (1958)** - AzİMU "Metal, ağac və plastik kütlə" kafedrasının müdiri, dosent, texnika elmləri namizədi, metalşünas;
**Əsgərova Məlahət Bəhram qızı** - Bakı şəhər 250 saylı orta məktəbin təcrübəli kimya müəllimi, vətənpərvər ziyalı;
**Əsgərova Səyyarə** - Tuğ məktəbinin təcrübəli tarix müəllimi, dəyərli ziyalı;
**Əsgərxanov Eldar (1934-2006)** - DQMV-nin tanınmış ziyalısı;
**Əsgərxanov Əsgərxan bəy Həsənalı bəy oğlu** - Qaryagin qəza idarəsinin tərcüməçisi, ziyalı;
**Əsgərxanov Samir (1962-1998)** - tanınmış jurnalist, Azərbaycan Televiziyasında "Xəzər" redaksiyasının baş redaktoru;
**Əsgərxanov Həsən** - tanınmış ziyalı, dəyərli vətənpərvər;
**Əsgərxanov Şamil bəy Həsənalı bəy oğlu (1890-?)** - çar ordusunun zabiti, poruçik;
**Əfəndiyev Arif** - tanınmış ziyalı, hüquqşünas, Bakı şəhəri Nizami rayonunda notariat kontorunun müdiri;
**Əfəndiyev Elçin İlyas oğlu (1943)** - yazıçı-dramaturq, tənqidçi, filologiya elmləri doktoru, professor, Azərbaycan Respublikası Baş nazirinin müavini, Əməkdar incəsənət xadimi (1984), Komsomol mükafatı laureatı (1982), xalq yazıçısı;

**Əfəndiyev İlyas Mir Məhəmməd oğlu (1914-1996)** - Azərbaycan xalq yazıçısı (1979), Əməkdar incəsənət xadimi (1960), Azərbaycan Dövlət mükafatı laureatı, "Lenin", "Qırmızı Əmək Bayrağı", "Şərəf nişanı" ordenlərinə layiq görülmüş ziyalı;
**Əfəndiyev İsmayıl** - tanınmış hüquqşünas, hakim, ziyalı;
**Əfəndiyev Namiq Arif oğlu (1964)** - DTK (MTN) polkovniki, istedadlı ziyalı;
**Əfəndiyev Teymurçin İlyas oğlu** - Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin rektoru, professor;
**Əfəndiyev Tələt Məhəmməd oğlu (1924-1964)** - pedaqoji elmlər namizədi, APU-nun müəllimi;
**Əfəndiyev Tofiq Mir Məhəmməd oğlu (1922)** - tanınmış yazıçı, publisist, pedaqoq;
**Əfəndiyeva Aytən Arif qızı (1968)** - Bakı Slavyan Universitetində "Rus ədəbiyyatı" kafedrasının dosenti, filologiya elmləri namizədi;
**Əfəndiyeva Lətifə Tələt qızı** - Respublikanın tanınmış ginekoloqu, tibb elmləri namizədi;
**Əhmədov Qarakişi Əhliman oğlu (1926)** - Sosialist Əməyi Qəhrəmanı;
**Əhmədov Dadaş İldırım oğlu (1963)** - rayonun "Tufan" futbol komandasının keçmiş üzvü, vətənpərvər ziyalı;
**Əhmədov Ərşad** - BDU-nun jurnalistika fakültəsinin məzunu, Azərbaycan Radiosunun şöbə müdiri, tanınmış jurnalist;
**Əhmədov Kamal Rza oğlu** - Azərneft nazirinin 1-ci müavini vəzifəsində işləmiş ziyalı;
**Əhmədov Kamran Möhsün oğlu (1964)** - tanınmış hüquqşünas, Respublika Prokurorluğunun əməkdaşı;
**Əhmədov Möylə Haqverdi oğlu (1933-2003)** - **istedadlı** şair, müəllim;
**Əhmədov Muxtar** - İtaliya və Fransada göstərdiyi şücaətlərə görə Mussolini tərəfindən mükafatlandırılmış igid partizan-döyüşçü;
**Əhmədov Oqtay Mirzəli oğlu** - "Azəriqaz" ASC-nin məsul işçisi;
**Əhmədov Saleh Rza oğlu** - Azərbaycan Memarlıq və İnşaat Universitetinin dosenti;



**Əhmədov Fazil Rza oğlu** - tanınmış cərrah, Topçubaşov adına Elmi-Tədqiqat Kliniki Xəstəxananın həkimi, ziyalı;
**Əhmədov Cəmil Bayramalı oğlu** - Azərbaycan radiosunun "Məktublar, müxbirlər, yerli radio verilişləri" baş redaksiyasının şöbə müdiri;
**Əhmədova Gülbəniz (Gülbəniz Arifqızı) Arif qızı (1961)** - Amerikanın Kaliforniya Ştatında yaşayan vətənpərvər ziyalı, Amerika-Azərbaycan Dostluq Cəmiyyətinin vitse-prezidenti, tanınmış jurnalist, "Qızıl Qələm" mükafatı laureatı;
**Kərimov Hüsü** - tibb elmləri doktoru, görkəmli həkim-cərrah, tanınmış ziyalı;
**Əhmədova Şəhrəbanu Barat qızı (1948)** - 50 saylı Füzuli rayon orta məktəbinin təcrübəli ingilis dili müəllimi, qabaqcıl maarif işçisi;

**- G -**

**Gülüşov Əhməd Süleyman oğlu (1923)** - müxtəlif vəzifələrdə çalışmış vətənpərvər ziyalı;

**- H -**

**Hadi Həsən bəy Rzaqulu bəy oğlu (Həsən Qara) Qarabaği (1826-1900)** - görkəmli şair, qəzəlxan, ticarətçi (tacir), "Məclisi-Fəramuşan"ın üzvü;
**Hafiz Ülvi** - istedadlı şair, müəllim, vətənpərvər ziyalı;
**Hacı Mir Mustafa Əfəndi (1800-1870)** - dövrünün ağıllı ziyalısı;
**Hacı Mirzə İbrahim bəy Teymurazbəyov (1851 - ?)** - Şuşada təhsil almış dövrünün savadlı ziyalısı;
**Hacı Mirzə Məmmədqulu Hacı Molla Abdulla oğlu Məmmədov (1868 - ?)** - dövrünün təhsilli, savadlı, nüfuzlu adamı;
**Hacı Molla Abdulla Məhəmmədqulu oğlu (1828-1891)** - Şuşada mədrəsə təhsili almış ziyalı;

**Hacı Səyavuş Əşrəf oğlu Məmmədov (1958)** - Sərnişindaşıma Avtomobil Nəqliyyat İdarəsinin əməkdaşı;
**Hacıyev Abdulla** - uzun illər Natəvan adına Füzuli şəhər orta məktəbinin fizika müəllimi işləmiş ziyalı;
**Hacıyev Abdulla Əli oğlu (1909-1969)** - tanınmış ziyalı, Respublikanın əməkdar müəllimi, qabaqcıl maarif xadimi;
**Hacıyev Adil Camal oğlu** - Füzuli rayonunda müxtəlif vəzifələrdə çalışmış vətənpərvər ziyalı;
**Hacıyev Aslan İsa oğlu (1962)** - kənd təsərrüfatı elmləri namizədi, AzMİU-nun dosenti;
**Hacıyev Bayram Mehdixan oğlu** - müxtəlif məsul vəzifələrdə çalışmış ziyalı;
**Hacıyev Bəylər İslamxan oğlu** - ABU-nun prorektoru, professor, dekan, ingilis dili kafedrasının müdiri;
**Hacıyev Bəhrəm (1964)** - tanınmış idmançı, 1-ci dərəcəli voleybolçu, idman ustası, vətənpərvər ziyalı, Sankt-Peterburqda yaşayan dəyərli iş adamı;
**Hacıyev Vaqif Camal oğlu (1942)** - AMEA Mexanika-Riyaziyyat İnstitutunun professoru, fizika-riyaziyyat elmləri doktoru;
Hacıyev Vahid (Vahid Əlifoğlu) Əlif oğlu - istedadlı şair;
**Hacıyev Voroşil İsa oğlu (1957)** - şair, ziyalı, iqtisadçı, "Az.Dövsutəslayihə" institutunun aparıcı mühəndisi;
**Hacıyev Qara Abış oğlu (1912-1943)** - Şuşada təhsil almış ziyalı, Böyük Vətən müharibəsində həlak olmuş vətənpərvər füzulili;
**Hacıyev Qəşəm** - Füzuli rayon aqrar-sənaye idarəsinin sədri vəzifəsində çalışan təsərrüfatçı, uzun müddət "Qafqaz" üzümçülük sovxozunun direktoru işləmiş ziyalı;
**Hacıyev Qorki Bayram oğlu (1938)** - "Qırmızı Oktyabr" sovxozunun şərabçı mütəxəssisi;
**Hacıyev Eldar Məhərrəm oğlu (1935-2006)** - tanınmış inşaatçı-mühəndis, Beyləqan rayonlararası tikinti idarəsinin rəisi vəzifəsində çalışmış ziyalı;
**Hacıyev Əhməd Abdulla oğlu (1943-2005)** - tanınmış layihəçi-mühəndis, vətənpərvər ziyalı;



**Hacıyev Kamal Müdafiə oğlu** - tibb elmləri doktoru, ATU-nun professoru;
**Hacıyev Müşfiq Əvəz oğlu (1978)** - Pauerliftinq üzrə 6 dəfə Dünya çempionu, 6 dəfə Avropa çempionu;
**Hacıyev Niyaz** - Nazirlər Kabinetinin şöbə müdiri və başqa vəzifələrdə çalışmış ziyalı;
**Hacıyev Oqtay** - Beyləqan rayon Daşburun pambıqtəmizləmə zavodunun direktoru, vətənpərvər ziyalı;
**Hacıyev Ruslan Bilal oğlu (1948)** - tanınmış ziyalı, təcrübəli pedaqoq, toy şənliklərinin mahir aparıcısı;
**Hacıyev Sabir Səfər oğlu (1932)** - tanınmış ziyalı, 4 saylı Füzuli rayon orta məktəbinin təcrübəli tarix müəllimi;
**Hacıyev Səfər Cəbrayıl oğlu (1899-1971)** - görkəmli pedaqoq, partiya və sovet orqanlarında çalışmış ziyalı;
**Hacıyev Tofiq İslamxan oğlu** - uzun müddət "Azneftkimyazavodtəmir" trestinin müdiri vəzifəsində çalışmış ziyalı;
**Hacıyev Tofiq Camal oğlu** - tanınmış inşaatçı-mühəndis, vətənpərvər ziyalı;
**Hacıyev Fazil Şöhlət oğlu (1956)** - Azərbaycan Dövlət İqtisad Universiteti "Uçot-iqtisad" fakültəsinin dosenti, iqtisad elmləri namizədi;
**Hacıyeva Fərman Nəriman oğlu (1911-1989)** - Respublikanın əməkdar müəllimi, uzun müddət Beyləqan rayonunda məktəb direktoru vəzifəsində işləmiş ziyalı, el ağsaqqalı, Böyük Vətən müharibəsi iştirakçısı;
**Hacıyev Hacı Gəncəli oğlu (1913-1979)** - Sosialist Əməyi Qəhrəmanı, Füzuli rayon İcraiyyə Komitəsinin sədri vəzifəsində çalışmış ziyalı;
**Hacıyeva Badam Əziz qızı (1927-1959)** - Sosialist Əməyi Qəhrəmanı;
**Hacıyeva Zoya Abdulla qızı (1952)** - 47 saylı Füzuli şəhər orta məktəbinin tanınmış təcrübəli riyaziyyat müəllimi, vətənpərvər ziyalı;

**Hacıyeva Gülnarə Həsənqulu qızı (1962)** - Bakı şəhəri Nəsimi rayon 29 saylı uşaq bağçasının bir sıra mükafatlar almış tərbiyəçisi, ziyalı;
**Hacıyeva Nabat Mehdixan qızı (1916-1997)** - 60 il müəllim işləmiş ziyalı;
**Hacıyeva Sənarə Həşim qızı (1957)** - Füzuli rayon təhsil şöbəsinin inspektoru, tanınmış ziyalı;
**Haşımlı Mürşüd** - Respublikanın əməkdar artisti, Füzuli teatrının məşhur aktyoru, ziyalı;
**Heydərov Məzahir Möhübbət oğlu (1964)** - iqtisadçı- təşkilatçı, "Müsavat" Partiyası Füzuli rayon təşkilatının sədri;
**Heydərov Möhübbət Rəşid oğlu (1938)** - iqtisadçı və təsərrüfat rəhbəri kimi çalışmış ziyalı, Arayatlı kəndinin ilk bələdiyyə sədri;
**Heydərov Naməd Yusif oğlu (1964)** - Prezidentin şəxsi mühafizə xidmətinin zabit əməkdaşı, mayor;
**Heydərov Oruc Heydər oğlu (1958)** - BUSbankın idarə heyətinin sədri, "Standart Holdinq"in prezidenti;
**Heydərov Tofiq Heydər oğlu (1926)** - Füzuli rayonunda müxtəlif vəzifələrdə çalışmış dəyərli ziyalı;
**Heydərov Hafiz Cəbrayıl oğlu (1962)** - Moskvada yaşayan tanınmış dizayner;
**Heydərov Heydər** - görkəmli inqilabçı, vətənpərvər ziyalı;
**Heydərov Cəbrayıl Cəfər oğlu (1930-1998)** - tanınmış mühəndis, inşaatçı, zonalararası tikinti idarəsinin iş icraçısı;
**Həziyev Bahəddin** - tanınmış publisist, qəzet redaktoru;
**Həziyev Mürşüd (Mürşüd Qarabağlı) Həzi oğlu (1939)** - təcrübəli həkim, şair, ziyalı;
**Həyat Rəhman qızı Şəmil (1970)** - tarixçi-şərqşünas, tarix elmləri namizədi, şair, AYB-nin üzvü, Dünya Gənc Yazarlar Birliyinin məclis üzvü;
**Həsən bəy Məşədi Mehdixan bəy oğlu (1925-1863)** - kornet, poruçik, ştabs-rotmistr, "Müqəddəs Anna" və "Müqəddəs Stanislav" ordeni ilə təltif olunmuş ziyalı;
**Həsən bəy Cəfər bəy oğlu Mahmudlu (1809-1870)** - Mədrəsə təhsilli ziyalı, rus ordusunda qulluq etmiş praporşik;



**Həsən Mahmud oğlu Gecəgözlü (1919-1961)** - Böyük Vətən müharibəsində Berlinədək yol keçmiş vətənpərvər ziyalı, kapitan, təsərrüfatçı;
**Həsən Namaz oğlu (1936)** - tanınmış həkim, polkovnik;
**Həsənalı bəy Şıxəli bəy oğlu Kovxa (1855 -1918)** - şair, "Georgi" ordeninə layiq görülmüş polis pristavı, ermənilərin qatı düşməni, dövrünün savadlı ziyalısı;
**Həsənəliyev İsa** - uzun müddət təsərrüfat rəhbəri olmuş ziyalı;
**Həsənzadə Mobil İsmiyəli oğlu (1972)** - tanınmış vəkil, hüquqşünas, vətənpərvər ziyalı;
**Həsənov Aşur Bahadur oğlu (1963)** - Rusiyada tikinti sahəsi üzrə çalışan iş adamı;
**Həsənov Qulu Qara oğlu (1925-2000)** - Füzuli rayon PŞ-də zabit, polis mayoru;
**Həsənov Eldar Qulu oğlu (1954)** - Milli İstiqlal Partiyasının sədr müavini;
**Həsənov Elmir Cəmil oğlu (1962)** - Bakı Tikiş Sənaye Səhmdar Cəmiyyətinin sədr müavini, xeyirxah ziyalı;
**Həsənov Elmar Heydər oğlu (1947)** - tanınmış inşaatçı-mühəndis, vətənpərvər ziyalı, Əli Bayramlı şəhər kərpic zavodunun direktoru;
**Həsənov Əli Cəlal oğlu (1958)** - müxtəlif məsul vəzifələrdə çalışmış iş adamı, Füzuli rayon istehlak cəmiyyətinin sədri olmuş vətənpərvər ziyalı;
**Həsənov Zöhrab İsmiyəli oğlu (1957)** - Qaradağ rayon özəl Təmir Tikinti İdarəsinin rəisi;
**Həsənov İlyas Piri oğlu (1930)** - təcrübəli tarix müəllimi, ziyalı, ağsaqqal;
**Həsənov Yusif Həsən oğlu (1942)** - ADNA-nın "İqtisadi nəzəriyyə" kafedrasının dosenti, iqtisad elmləri namizədi;
**Həsənov Gəncalı** - tanınmış klarnet ifaçısı, ziyalı;
**Həsənov Lətif Dadaş oğlu (1908-1979)** - uzun müddət təsərrüfat rəhbəri olmuş görkəmli ziyalı;
**Həsənov Məhəmməd** - istedadlı hüquqşünas, şair;

**Həsənov Murtuzəli Qulu oğlu (1962)** - xeyirxah iş adamı;
**Həsənov Müşfiq Cəlal oğlu (1968)** - tibb elmləri namizədi, M.Nağıyev adına TTYX-nın cərrahı, ATU-nun Ümumi cərrahlıq kafedrasının assistenti;
**Həsənov Telman Lətif oğlu (1936-2005)** - hüquqşünas, Bakı şəhər prokurorunun müavini vəzifəsində işləmiş ziyalı;
**Həsənov Fərzalı** - tanınmış xanəndə, musiqiçi, təsərrüfatçı, Qarabağ döyüşlərinin iştirakçısı, Qacar kənd özünümüdafiə dəstəsinin komandiri;
**Həsənov Fəxrəddin** - Azərbaycan Respublikası Auditor palatasının sədr müavini;
**Həsənov Habil İsmiyəli oğlu (1967)** - Azərbaycan Pedaqoji Universitetində "Azərbaycan tarixi" kafedrasının dekan müavini və baş müəllimi;
**Həsənov Həsən Dadaş oğlu (1911-1974)** - Qaryagin rayon Maarif şöbəsinin keçmiş müdiri, təcrübəli kimya müəllimi;
**Həsənov Hidayət Mərdan oğlu (1938)** - Azərbaycan Texniki Universitetinin Riyaziyyat kafedrasının dosenti, fizika-riyaziyyat elmləri namizədi;
**Həsənov Cəlal Dadaş oğlu (1915-1993)** - BDU-nun qiyabi şöbəsinin prorektoru olmuş ziyalı, kimya elmləri namizədi, dosent;
**Həsənov Cəlal Həsən oğlu (1934)** - Alıxanlı kənd xəstəxanasının baş həkimi;
**Həsənov Cəmil Topuş oğlu (1929-2001)** - uzun müddət Füzuli rayon Baytarlıq və İstehsalat İdarəsinin rəisi vəzifəsində çalışmış ziyalı;
**Həsənov Şahin İlyas oğlu (1962)** - xalq hərəkatı fəallarından biri, Qarabağ müharibəsi iştirakçısı;
**Həsənov Şəfahət Mahmudəli oğlu** - Füzuli rayon Arayatlı kənd inzibati ərazi icra nümayəndəsi, fəlsəfə elmləri namizədi;
**Həsənova Elmira Cəlal qızı (1939)** - BDU-nun filologiya fakültəsinin dosenti, filologiya elmləri namizədi;
**Həsənova Mələksima** - uzun illər Füzuli rayon teatrının aktrisası olmuş ziyalı;



**Həsənova Sayad Ədil qızı (1928)** - Sosialist Əməyi Qəhrəmanı;
**Həsənova Şamama Mahmudəli qızı (1923)** - iki dəfə Sosialist Əməyi Qəhrəmanı;
**Həsənova Şəlalə Şirin qızı (1985)** - gənc və istedadlı terapevt-həkim, ziyalı;
**Hətəmov Kərəm Allahverdi oğlu (1947-1993)** - jurnalist, publisist, rayon PK-da məsul vəzifədə çalışmış ziyalı;
**Hətəmov Hətəm Allahverdi oğlu** - tanınmış təsərrüfatçı, uzun müddət təsərrüfat rəhbəri işləmiş ziyalı;
**Həşimov Ağa** - tanınmış alim, fizika-riyaziyyat elmləri namizədi;
**Həşimov Azər Vaqif oğlu (1963)** - vətənpərvər ziyalı, inşaatçı mühəndis;
**Həşimov Elçin Ləzgi oğlu** - istedadlı gənc tarzən, muğam bilicisi, görkəmli musiqiçi, tanınmış pedaqoq, Musiqi Kolleci və Milli Konservatoriyanın müəllimi, M.F.Axundov adına Opera və Balet teatrının solisti;
**Həşimov Ələkbər Yəhya oğlu (1913-1983)** - uzun müddət müxtəlif rayonlarda hakim vəzifəsində çalışmış görkəmli ədliyyə işçisi, ziyalı;
**Həşimov Kamran Ələkbər oğlu (1943)** - vətənpərvər ziyalı, Bakı Hesablama Maşınları Təmiri zavodunun direktoru;
**Həşimov Fəxrəddin Ənvər oğlu (1957)** - hərbçi-kapitan, vətənpərvər ziyalı, Füzuli rayon UGİM-inin direktoru, Qarabağ müharibəsində 814-saylı batalyonun səhra hospitalında komandir müavini, idman ustası;
**Həşimov Cabbar** - uzun illər müəllim işləmiş təcrübəli ziyalı;
**Həşimova Almaz Ələkbər qızı (1952)** - tanınmış müəllim, vətənpərvər ziyalı, Füzuli rayon İnternat məktəbinin direktoru, qabaqcıl maarif xadimi;
**Hidayətoğlu Hətəm** - tanınmış alim, görkəmli vətənpərvər ziyalı;
**Hümbətov Vaqif (1956)** - Moskvada yaşayan iş adamı, ziyalı;
**Hümbətov İslam Möhsüm oğlu (1964)** - Səbail rayon Polis İdarəsinin rəis müavini, polis polkovniki;
**Hümbətova Məleykə İsa qızı (1929)** - Sosialist Əməyi Qəhrəmanı;

**Hüseyn bəy Məmiş bəy oğlu (1916-1974)** - İstanbulda dünyasını dəyişmiş ADU-nun riyaziyyat müəllimi;
**Hüseyn bəy Mirzə Kərim oğlu Çakər (1863-?)** - şərq dillərini gözəl bilən şair, tacir;
**Hüseynqulu bəy Səhliyalı bəy oğlu Mahmudlu (1798-1860)** - molla yanında təhsil görmüş ziyalı, hacı, Mehdiqulu xanın xidmətində durmuş məmur;
**Hüseynzadə Hüseyn Əlif oğlu (1954)** - tanınmış həkim, pediatr, ziyalı;
**Hüseynov Abdulla İsmiyəli oğlu (1951)** - istedadlı Azərbaycan dili və ədəbiyyat müəllimi, Füzuli rayonu Kərimbəyli kənd orta məktəbinin direktor müavini, Respublikanın maarif əlaçısı;
**Hüseynov Azər** - Füzuli rayon İstehlak Cəmiyyətinin sədri vəzifəsində çalışmış ziyalı, Səbail rayon Badamdar bələdiyyəsinin sədri;
**Hüseynov Azər Əfsər oğlu (1968)** - Horadiz qəsəbəsinin Perm şəhərində yaşayan xeyriyyəçi oğlu;
**Hüseynov Aydın (1956)** - Lenin komsomolu mükafatı laureatı, sərabçı-mütəxəssis, vətənpərvər ziyalı;
**Hüseynov Akif** - uzun müddət təsərrüfat rəhbəri və digər vəzifələrdə işləmiş ağsaqqal ziyalı;
**Hüseynov Asəf Hüseyn oğlu (1949)** - tanınmış həkim, Füzuli rayon Mərkəzi xəstəxanasının cərrahı, rayonlararası hərbi qospitalın baş həkimi, polkovnik-leytenant;
**Hüseynov Bəylər Zülfüqar oğlu (1929)** - Qarabağ müharibəsinin ağır günlərində Bakıdan Füzuliyə gələrək Rayon İH başçısının müdafiə məsələləri işi üzrə müavini vəzifəsində çalışmış dəyərli, vətənpərvər ziyalı, DİN-də Veteranlar Şurasının sədri, polis polkovniki;
**Hüseynov Bəhlul Yusif oğlu (1926-1986)** - vaxtilə Qanköçürmə İnstitutunun direktoru vəzifəsində işləmiş ziyalı, tibb elmləri doktoru;
**Hüseynov Vaqif Həmid oğlu (1940)** - təqaüddə olan ziyalı, 162 saylı TPM-nin keçmiş direktoru;
**Hüseynov Qabil Çərkəz oğlu** - dənizçilik sahəsində tanınmış kapitan, vətənpərvər ziyalı;



**Hüseynov Eldar** - müəllim, idmançı, güləş üzrə məşqçi, Füzuli rayonu Şahmat məktəbinin direktoru;
**Hüseynov Ərşad** - montyor, Xəzəz dağı ətəyində bərk süxurlu torpaqda 100 metr uzunluğunda möcüzəli mağara - tunel qazmış vətənpərvər;
**Hüseynov Ərşad Hüseyn oğlu (1948)** - tanınmış ziyalı, Füzuli rayon Təhsil şöbəsinin məsləhətçisi;
**Hüseynov Zülfüqar** - mətin inqilabçı, müxtəlif məsul vəzifələrdə çalışmış ağsaqqal ziyalı;
**Hüseynov İbrahim Yusif oğlu** - tanınmış burun, boğaz, qulaq həkimi;
**Hüseynov İsgəndər Əli oğlu (1941)** - 35 saylı Füzuli rayon orta məktəbinin direktoru, qabaqcıl, nüfuzlu maarif işçisi, tanınmış ziyalı;
**Hüseynov Kamil Zülfüqar oğlu (1931)** - tanınmış təsərrüfat rəhbəri;
**Hüseynov (Mahmudov) Gəncalı** - tanınmış ziyalı, kimya müəllimi;
**Hüseynov Məhərrəm İliş oğlu** - Yasamal rayonu İstehlak-Ticarət İdarəsinin və Binəqədi rayonu Özəlləşdirmə İdarəsinin rəisi vəzifələrində işləmiş ziyalı "Çudo-peçka" firmasının prezidenti;
**Hüseynov Məhəmməd Seyid Səyyad oğlu** - uzun müddət Horadiz rayonlararası neft bazasının müdiri işləyən ziyalı;
**Hüseynov Mir Sabir** - Füzuli rayon uşaq xəstəxanasının baş həkimi;
**Hüseynov Nadir İsmayıl oğlu** - Neftçilər xəstəxanasında revmotologiya şöbəsinin müdiri, tibb elmləri doktoru, professor;
**Hüseynov Rəhman İsmayıl oğlu** - Respublikanın Əməkdar mədəniyyət işçisi, Bakı şəhər N.Nərimanov adına kinoteatrın direktoru;
**Hüseynov Rzaqulu** - görkəmli el sənətkarı, tanınmış təcrübəli musiqiçi, mahir balaban ifaçısı;
**Hüseynov Tanrıverdi Heydər oğlu** - tanınmış kardioloq, Naftalan sanatoriyasının və Kirov adına Tədqiqat İnstitutunun həkimi, tibb elmləri doktoru;

**Hüseynov Tahir Seyid Səyyad oğlu** - Füzuli rayon XDS-nin sədri vəzifəsində çalışmış ziyalı;
**Hüseynov Fehruz Əbil oğlu (1938-1999)** - tanınmış təsərrüfatçı, rdenli sahə aqronomu, briqadir;
**Hüseynov Həsən Nizam ağa oğlu (1923)** - uzun illər Arayatlı kənd Sovetinin sədri işləmiş, ziyalı;
**Hüseynov Hüseyn Qara oğlu (1921-1998)** - Respublikanın əməkdar müəllimi, qabaqcıl maarif xadimi, uzun müddət Füzuli rayon maarif şöbəsinə rəhbərlik etmiş ziyalı;
**Hüseynov Hüseyn Əbil oğlu (1925-1976)** - hüquqşünas, Gəncə şəhər hakimi, vəkil, ziyalı;
**Hüseynov Hüseyn Həsən oğlu** - tanınmış alim, görkəmli ziyalı;
**Hüseynov Hüseyn Hidayət oğlu (1952)** - tanınmış vətənpərvər ziyalı;
**Hüseynov Hüseyn Calal oğlu (1977)** - Belçikadakı (Brüssel şəhəri) Azərbaycan səfirinin ikinci katibi, Ermənistan-Azərbaycan münaqişələri üzrə elmi-tarixi işin müəllifi, dəyərli ziyalı;
**Hüseynov Calal Museyib oğlu (1938)** - istefada olan hərbi polkovnik, Qarabağ müharibəsi veteranı, Almaniya, Monqolustan və Rusiyada (Sankt-Peterburq) çalışmış ziyalı, Bakıda Hospitalın dəri-zöhrəvi xəstəlikləri üzrə həkimi;
**Hüseynov Şahbaz Fətiş oğlu (1934-1996)** - Füzuli rayon maarif şöbəsində metod-kabinetinin müdiri vəzifəsində çalışmış dəyərli ziyalı;
**Hüseynova Rəfiqə Əziz qızı (1958)** - Füzuli rayon Aybasanlı kənd yeddiillik orta uşaq musiqi məktəbinin təcrübəli direktor müavini, vətənpərvər ziyalı;

## - X -

**Xanlarov Xanlar Əsgər oğlu (1944-2003)** - uzun müddət Füzuli rayon istehlak cəmiyyətinin sədri vəzifəsində çalışmış ziyalı;
**Xasay Həsən bəy oğlu** - "Kommunist" qəzetinin redaktoru, "Azərtac"ın baş redaktoru, Azərbaycan KP MK katibi, Partiya Tarixi İnstitutunun direktoru vəzifələrində çalışmış ziyalı;



**Xələf ağa Şirin ağa oğlu (1790-1840)** - Mehdiqulu xan Cavanşirin keşikçibaşı;
**Xələf İmamqulu oğlu Xələfov (1800-1870)** - təbib, loğman, həkim, mirzə, dövrünün böyük nüfuz sahibi;
**Xələfov Ağamalı Əhməd oğlu** - Qazaxıstan Respublikası Maliyyə Nazirinin müavini;
**Xələfov Arif Kərim bəy oğlu (1944-1996)** - Bakı Zərgərlik zavodunun direktoru vəzifəsində çalışmış ziyalı;
**Xələfov Asif Kərim bəy oğlu (1950)** - polis polkovniki, Nəqliyyatda Baş Polis İdarəsi rəisinin müavini;
**Xələfov Vahid Fərrux oğlu** - tanınmış alim;
Xələfov Qubad İbadulla oğlu (1922) - Böyük Vətən müharibəsi veteranı, polkovnik, müəllim;
**Xələfov Dadaş Mirzə Əhməd oğlu (1923-?)** - Respublikanın əməkdar həkimi, Böyük Vətən müharibəsi iştirakçısı, Azərbaycan Dövlət Tibb İnstitutunu bitirmiş və Beyləqan rayon səhiyyə şöbəsində rəhbər vəzifədə çalışmış dəyərli ziyalı;
**Xələfov Əziz Mirzə Əhməd oğlu (1924-1993)** - Respublikanın əməkdar həkimi, stomatoloq, tibb elmləri namizədi, Milli Qəhrəman Salatın Əsgərovanın atası;
**Xələfov Əşrəf Teymur oğlu (1928)** - tanınmış alim, BDU-nun kitabxanaçılıq fakültəsinin "Biblioqrafiya" kafedrasının dosenti, pedaqoji elmləri, namizədi;
**Xələfov İlqar Rəhim oğlu** - Azərbaycan Respublikası Appelyasiya Məhkəməsinin hakimi;
**Xələfov Kərim Asif oğlu (1978)** - Binəqədi RPİ-nin təcrübəli müstəntiqi;
**Xələfov Kərim Hacı Süleyman bəy oğlu (1908-1977)** - Gəncə Pedaqoji İnstitutunda riyaziyyat kafedrasının müdiri, dekan və s. vəzifələrdə çalışmış ziyalı;
**Xələfov Məmməd Kərbəlayi Həsənqulu oğlu (1874-?)** - Şuşada və Tehranda oxuyub gələrək Ağdaş bölgəsində həkimlik etmiş ziyalı;

**Xəlәfov Məhəmməd Süleyman oğlu (1922-1992)** - görkəmli ziyalı, pedaqoq, hüquq elmləri doktoru, professor, BDU-nun hüquq fakültəsinin dekanı, Azərbaycan SSR Ali Sovetinin sabiq deputatı;

**Xələfov Mirzə Əhməd Kərbəlayi Həsənqulu oğlu (1871-1933)** - Qaryagində, Bakıda həkim kimi çalışmış dövrünün görkəmli ziyalısı, BDU-nun tibb fakültəsinin müəllimi, Müsavat Partiyasının üzvü, 1929-cu ildə siyasi baxışlarına görə həbs edilmiş və 4 il sonra orada vəfat etmiş istedadlı həkim;

**Xələfov Mirzə Məmməd Kərbəlayi Həsənqulu oğlu (1870-1933)** - Şuşa şəhərindəki qəza məktəbində və Təbrizdə, Tehranda Tibb məktəbində mükəmməl təhsil almış dövrünün tanınmış ziyalısı, Ağdaş, Qaryagin və Bakıda həkim kimi çalışmış böyük vətənpərvər, nüfuz sahibi, pedaqoq;

**Xələfov Rafiq Rəsul oğlu (1939-1998)** - tanınmış ictimai xadim, görkəmli inşaatçı-mühəndis, Azərbaycan Dəniz-Neft Qurğuları Tikintisi Trestinin müdiri, Xalq üçün mallar Dövlət Konserninin sabiq sədri, Avtomobil Yollarının Tikintisi və İstismarı naziri, Respublikanın Əməkdar mühəndisi;

**Xələfov Rəhim Süleyman oğlu** - Gəncə Regional Baş Apteklər İdarəsinin müdiri;

**Xələfov Süleyman Əmir oğlu** - tanınmış alim, görkəmli ziyalı;

**Xələfov Həsənqulu bəy Kərbəlayı Mehdiqulu bəy oğlu (1879-?)** - dövrünün tanınmış ziyalısı;

**Xələfov Fehruz Hümbət oğlu** - fəlsəfə elmləri namizədi;

**Xələfov Cəbrayıl** - elmlər doktoru;

**Xələfova Rəxşəndə Mirzə Əhməd qızı (1917)** - görkəmli alim, geologiya-minerologiya elmləri doktoru, professor, ADNA-nın müəllimi;

**Xələfova Sona Mirzə Əhməd qızı (1915)** - dövrünün tanınmış nüfuz sahibi, vətənpərvər ziyalı;

**Xələfova Tamam Mirzə Əhməd qızı (1920)** - tanınmış ziyalı;

**Xəlilov Vaqif Təhməz oğlu (1941)** - bir sıra məsul vəzifələrdə çalışmış ziyalı, "Vaqma" tikinti firmasının icraçı direktoru;

**Xəlilov İlqar** - Azərbaycan Dövlət İqtisad Universitetinin dosenti, coğrafiya elmləri namizədi;



**Xəlilov Təhməz Nuru oğlu (1902-1965)** - Füzuli şəhər sovetinin sədri vəzifəsində çalışmış dəyərli ziyalı;

**Xudaverdiyev Qəhrəman Köçəri oğlu (1949)** - Respublika xəstəxanasının həkim-anestezioloqu;

**Xudiyev Azər Murad oğlu (1958)** - gömrük xidməti kapitanı, Xudafərin gömrükxanasında yük şöbəsinin rəisi və Bakı Baş Gömrük İdarəsində baş gömrük inspektoru vəzifələrində çalışmış vətənpərvər ziyalı, bacarıqlı inşaatçı-mühəndis;

**Xudiyev İmran Gülüş oğlu (1922-1990)** - Füzuli rayon Pambıq zavodunun və Lenin adına sovxozun direktoru olmuş xeyirxah ziyalı, el ağsaqqalı;

**Xudiyev Murad Cavad oğlu (1934)** - Respublikanın əməkdar müəllimi, tanınmış pedaqoq, keçmiş SSRİ və Azərbaycan SSR-nin qabaqcıl maarif xadimi, 50 ildən çox məktəb direktoru vəzifəsində çalışmış görkəmli ziyalı;

**Xudiyev Nizami** - Azərbaycan Dövlət İqtisad Universitetinin Maliyyə kafedrasının dosenti, iqtisad elmləri namizədi;

**Xudiyev Şakir Nəriman oğlu (1956)** - Füzuli rayon Göz xəstəxanasının müdiri, oftalmoloq həkim, ziyalı;

**Xudiyeva Elza Teymur qızı** - pedaqoq, uzun illər X.B.Natəvan adına şəhər orta məktəbinin direktoru vəzifəsində çalışmış vətənpərvər ziyalı;

**Xudiyeva Tamara** - Qaryagin rayon Pedaqoji məktəbinin direktoru olmuş ziyalı;

## - İ -

**İbadlı Oruc Vəli oğlu** - tanınmış ziyalı, AMEA Mərkəzi Nəbatat bağının direktoru, biologiya elmləri doktoru;

**İbayev Qələndər Xanhüseyn oğlu (1924-1984)** - Böyük Vətən müharibəsi iştirakçısı, müxtəlif vəzifələrdə çalışmış ziyalı;

**İbayev Həbib** - fizika-riyaziyyat elmləri namizədi, vətənpərvər ziyalı;

**İbişov Mir Möhsün ağa Seyid İbrahim oğlu (Seyid Şuşinski (1889-1965))** - Azərbaycanın xalq artisti, görkəmli xanəndə, muğam ustadı;

**İbrahim bəy Kərim bəy oğlu Sərdarlı (1851 - ?)** - Məkkəni, Xorasanı ziyarət etmiş dövrünün savadlı mirzəsi, dövlət məmuru;

**İbrahim bəy Cəfər bəy oğlu (1827-1897)** - mükəmməl mədrəsə təhsili görmüş dövrünün görkəmli ziyalısı;

**İbrahimov Bayram Qənimət oğlu (1958)** - Rusiya Federasiyasının və Azərbaycanın texnika elmləri doktoru, Az.TU-nun "Elektrik rabitəsi" kafedrasının dosenti;

**İbrahimov Bəhram Məhəmməd oğlu (1929)** - "İnşaatçı" qəzetinin keçmiş şöbə müdiri, "İnkişaf" qəzetinin redaktoru, "Qızıl Qələm", "Ali jurnalist" mükafatları laureatı, ziyalı, publisist;

**İbrahimov Vəli Cabbar oğlu** - Füzuli rayon İstehlak Cəmiyyətinin keçmiş sədri, ziyalı;

**İbrahimov İbrahim İbiş oğlu (1912-1994)** - görkəmli alim, riyaziyyatçı, əməkdar elm xadimi, Azərbaycan Riyaziyyatçılar Cəmiyyətinin sədri, fizika-riyaziyyat elmləri doktoru, professor, AMEA-nın həqiqi üzvü;

**İbrahimov İbrahim Camal oğlu (1947)** - Mərkəzi Hərbi Kliniki Hospitalın lor şöbəsinin müdiri, tanınmış burun-boğaz-qulaq həkimi, Müdafiə Nazirliyinin Baş loru, polkovnik-leytenant, Qarabağ müharibəsinin iştirakçısı, dəyərli ziyalı;

**İbrahimov Səfər** - uzun müddət Füzuli rayon Dövlət və Xalq Teatrının aktyoru işləmiş ziyalı;

**İbrahimov Sərraf İbrahim oğlu (1948)** - AzMİU-da riyaziyyat kafedrasının dosenti, fizika-riyaziyyat elmləri namizədi;

**İbrahimova Aidə İbrahim qızı (1943)** - Azərbaycan Tibb Universitetində Terapiya kafedrasının dosenti, tibb elmləri namizədi;

**İbrahimova Roza Bəhram qızı** - Füzuli rayon Təhsil şöbəsində çalışmış ziyalı, rayon Qadınlar Şurasının sədri;

**İbrahimova Səidə İbrahim qızı (1942)** - AMEA Dilçilik İnstitutunda "Roman-german filologiyası" şöbəsinin elmi işçisi, filologiya elmləri doktoru;



**İbrahimova Şamaxı Gülmalı qızı (1941)** - Binəqədi rayon 248 saylı orta məktəbinin tanınmış ibtidai sinif müəllimi, ziyalı;

**İbrahimova Şəkər Bəhram qızı (1968)** - K.Əyyubov adına 12 saylı Nizami rayon orta ümumtəhsil məktəbinin ingilis dili müəllimi, vətənpərvər ziyalı, "İlin müəllimi" (2002-ci il);

**İbrahimxəlil xan Pənahəli xan oğlu Bəhmənli (1727-1806)** - məşhur Qarabağ xanı (1760-1806);

**İmamverdi bəy Dostməhəmməd oğlu** - molla yanında təhsil almış Sərdarlı kəndinin kəndxudası;

**İmamqulu bəy Əli bəy oğlu (1779-?)** - mədrəsə təhsilli ziyalı, İbrahimxəlil xana xidmət etmiş məmur;

**İmamqulu Mirzə Xələf oğlu Xələfov (1833- ?)** - əsasən əkinçiliklə məşğul olmuş dövrünün savadlı ziyalısı;

**İmanov Bəşir** - Azərbaycan Respublikası Dəmir Yolu Nazirinin keçmiş müavini, polkovnik;

**İmanov Vaqif Şirin oğlu** - vətənpərvər ziyalı, iş adamı;

**İmanov Vəli Adıgözəl oğlu** - məşhur el sənətkarı, görkəmli yastı balaban ifaçısı;

**İmanov Damət Bahadur oğlu** - Xəzər Dəniz Gəmiçiliyi İdarəsində rəis müavini;

**İmanov Eyvaz Şirin oğlu** - Kareliya vilayətinin Petrozavodsk şəhərində yaşayan iş adamı;

**İmanov İman İbiş oğlu (1950)** - riyaziyyat müəllimi, Azərbaycan Xalq hərəkatının fəallarından biri;

**İmanov Nazim Müzəffər oğlu (1955)** - iqtisad elmləri doktoru, professor, görkəmli ictimai-siyasi xadim, tanınmış ziyalı;

**İmanov Rasim Müzəffər oğlu (1956)** - tanınmış alim, ziyalı;

**İmanov Rəftar Cəlil oğlu (1926)** - tanınmış alim, tarix elmləri doktoru, Azərbaycan Dövlət Dəniz Akademiyasında Humanitar elmlər kafedrasının müdiri;

**İmanov Sahib Cəfərsadıq oğlu** - təsərrüfat rəhbəri olmuş ziyalı;

**İmanov Telman Qarakişi oğlu (1941)** - tanınmış filoloq, Azərbaycan Memarlıq və İnşaat Universitetinin baş müəllimi;

**İmanov Fazil** - məktəb direktoru, təcrübəli müəllim;

**İmanov Həmid** - tanınmış alim, görkəmli ziyalı;

**İsa bəy Hüseyn bəy oğlu** - "Lenin" ordenli riyaziyyat müəllimi;
**İsa Qənbər Yunis oğlu (1957)** - tanınmış siyasətçi, ziyalı, tarix elmləri namizədi, Azərbaycan Xalq hərəkatının liderlərindən biri, Müsavat Partiyasının başqanı;
**İsayev Allahverdi** - vaxtilə Qaryagin rayon Partiya Komitəsinin birinci katibi vəzifəsində çalışmış "Lenin" ordenli ziyalı;
**İsayev İsa Hüseynxan oğlu (1918-1993)** - Respublikanın əməkdar həkimi, tibb elmləri namizədi, Füzuli rayon mərkəzi xəstəxanasının baş həkiminin müalicə işləri üzrə müavini, dəfələrlə rayon Sovetinin deputatı, Rayon Müharibə Veteranları Şurasının sədri vəzifəsində çalışmış ziyalı;
**İsgəndərov Bəkir** - Xəzərneft Donanma İdarəsində inşaatçı-mühəndis;
**İsmayıl bəy Məşədi Məmməd bəy oğlu (1859-1920)** - Şuşa Realnı məktəbində və Zaqafqaziya müəllimlər seminariyasında təhsil almış ziyalı;
**İsmayılzadə Namiq (1962)** - müxtəlif sərgilərdə bir çox mükafatlara layiq görülmüş istedadlı rəssam;
**İsmayılov Azər Barat oğlu (1962)** - təcrübəli inşaatçı-mühəndis, ziyalı;
**İsmayılov Anar İsmayıl oğlu** - perspektivli idmançı, sərbəst güləş üzrə Avropa çempionu;
**İsmayılov Barat (1922-2006)** - uzun müddət təsərrüfat rəhbəri (kolxoz sədri) işləmiş ağsaqqal ziyalı;
**İsmayılov Barat** - Azərbaycan Texniki Universitetinin dosenti, fizika-riyaziyyat elmləri namizədi;
**İsmayılov Vəli** - xeyirxah əməllər sahibi, tanınmış ziyalı;
**İsmayılov Qaməddin** - tanınmış hüquqşünas, hakim, ziyalı;
**İsmayılov Qulam Əliş oğlu (1912-1988)** - xalq hakimi, maliyyə şöbəsinin müdiri, əmanət kassasının müdiri vəzifələrində çalışmış ziyalı;
**İsmayılov Əbdül Əsgər oğlu** - Vətən qarşısında xidmətləri olan görkəmli təyyarəçi, mayor;
**İsmayılov Əşrəf (1966)** - tanınmış ziyalı, şair, publisist, "Azadlıq" qəzetinin şöbə müdiri, M.Qorki adına Moskva Ədəbiyyat İnstitutunun məzunu;



## - K -

**Kazım bəy Qalabəyi Məhəmmədxan bəy oğlu Vəzirov (1793-1860)** - mədrəsə təhsilli tanınmış tacir;
**Kazımlı Mehman İsmixan oğlu (1943)** - tanınmış jurnalist, istedadlı publisist, "Həyat" qəzetinin şöbə müdiri;
**Kazımlı Rahib Sahib oğlu (1961)** - vətənpərvər ziyalı, publisist;
**Kazımlı Xalid** - tanınmış publisist, ziyalı;
**Kazımov Vüqar İnşallah oğlu (1957)** - Perm vilayət Prokurorluğunda şöbə müdiri, Berezniki şəhərinin prokuror müavini, SSRİ prokurorluğunda Zaqafqaziya respublikalarına nəzarət şöbəsinin prokuroru, Astara rayonunun prokuroru vəzifələrində çalışmış ziyalı, tanınmış hüquqşünas;
**Kazımov Qəhrəman İnşallah oğlu (1940-1981)** - tanınmış həkim, Beyləqan rayon səhiyyə şöbəsinin müdiri vəzifəsində çalışmış dəyərli ziyalı;
**Kazımov İlqar İnşallah oğlu** - mahlıc - əyirici fabrikinin direktoru;
**Kazımov Mayıs Nəsib oğlu (1947)** - publisist, istedadlı jurnalist;
**Kazımov Möhtərəm İnşallah oğlu (1932-2001)** - uzun illər Füzuli şəhər 1 saylı orta məktəbin riyaziyyat müəllimi və direktoru vəzifəsində işləmiş dəyərli ziyalı, qabaqcıl maarif xadimi;
**Kazımov Osman Əlişirin oğlu** - tanınmış vəkil;
**Kazımov Rauf Abbasəli oğlu (1952)** - Bakı şəhərindəki tikinti kombinatının direktoru vəzifəsində çalışmış ziyalı;
**Kazımov Rafiq** - tanınmış ziyalı, fabrik müdiri;
**Kazımov Rafiq İnşallah oğlu (1945-2003)** - 1-ci dərəcəli ədliyyə müşaviri, polkovnik-leytenant, Perm şəhərində polis orqanlarında işləmiş ziyalı, Sumqayıt şəhərində polis bölmə rəisi;
**Kamran Murad oğlu** - fizika-riyaziyyat elmləri namizədi, Azərbaycan İnşaat Memarlıq Universitetinin dosenti;
**Kəminə Fatma xanım (1841-1898)** - Azərbaycan və fars dillərində yazıb-yaratmış şair, "Məclisi-üns" və "Məclisi-Fəramuşan"ın üzvü, X.B.Natəvanın yaxın rəfiqəsi, Saracıqlı Mirzə Sadıq bəy Sultanovun həyat yoldaşı;

**Kərbəlayi İmaməli bəy Kərbəlayi Əlipənah bəy oğlu (1799-1870)** - obanın mədrəsə təhsili görmüş kəndxudası;
**Kərbəlayi Həsənqulu Mirzə Xələf oğlu (1818-1884)** - Şuşada və Rusiyanın Pyatiqorsk şəhərində mükəmməl təhsil almış həkim, dövrünün görkəmli ziyalısı;
**Kərim bəy Murtuza bəy oğlu (1860-?)** - Gəncə bazarının rəisi, təhsilli ziyalı;
**Kərim bəy Talıb bəy oğlu Vəzirzadə (1843-1882)** - mükəmməl təhsil görmüş ziyalı, şair, Salyan və Şamaxı şəhərində işləmiş dövlət məmuru;
**Kərimbəyov Bəhram bəy Nurullah bəy oğlu (1895-1974)** - Respublikada qəza milis şöbəsinin ilk üzvlərindən biri, fəxri sərhəd keşikçisi, müxtəlif vəzifələrdə çalışmış ziyalı, mərd və qorxmaz nüfuz sahibi;
**Kərimbəyov Vəli Fətullah bəy oğlu** - Böyük Vətən müharibəsində kapitan rütbəsində həlak olmuş ziyalı, mühəndis;
**Kərimbəyov Fətullah bəy Abbas bəy oğlu (1870-1995)** - Bakı şəhər Baş Notariat idarəsinin rəisi olmuş vətənpərvər ziyalı;
**Kərimov Alik** - Bakı şəhər Nizami rayon Sənaye İnvestisiya bankının müdir müavini;
**Kərimov Anar Qabil oğlu** - Azərbaycanın Belçikada (Brüssel şəhəri) Avropa nümayəndəliyinin təmsilçisi, diplomat;
**Kərimov Asif Məti oğlu** - Azərbaycan Dövlət İqtisad Universitetinin Maliyyə kafedrasının müdiri, iqtisad elmləri doktoru, professor;
**Kərimov Vüqar Rəhim oğlu** - Yekaterinburqda yaşayan iş adamı;
**Kərimov Vüqar Hafiz oğlu (1965)** - Moskva əyalətində yaşayan iş adamı;
**Kərimov Qabil Əhməd oğlu (1952)** - hüquq-mühafizə orqanlarında işləmiş vətənpərvər ziyalı;
**Kərimov İsa Tahirxan oğlu** - uzun müddət keçmiş SSRİ-nin Ərəb ölkələrindəki səfirliklərində protokol şöbəsinin müdiri, Texniki Universitetin dillər üzrə koordinator-doktoru;
**Kərimov Yolçu Mikayıl oğlu (1924-2000)** - alim-aqronom "Keçici bayraq"lı təsərrüfatçı;



**Kərimov Yusif Əvəz oğlu** - Suraxanı-Əzizbəyov Su Kəməri İstehsalat İstismar zonasının keçmiş rəisi;
**Kərimov Nadir Məti oğlu** - iqtisad elmlər namizədi;
**Kərimov Ramiz Əli oğlu (1955)** - Ədliyyə Nazirliyi Qeydiyyat və Notariat Baş İdarəsi Notariat idarəsinin baş məsləhətçisi, Ədliyyə Akademiyasının baş müəllimi;
**Kərimov Tapdıq Hafiz oğlu (1964)** - Rusiya Federasiyası EA-nın akademiki, fəlsəfə elmləri doktoru, professor, Yekaterinburq Dövlət Universitetinin Fəlsəfə kafedrasının müdiri;
**Kərimov Fehruz Topuş oğlu (1926-2004)** - hərbçi-podpolkovnik, müxtəlif rayonlarda hərbi komisar vəzifəsində işləmiş ziyalı;
**Kərimov Hafiz** - Füzuli rayon Dövlət Bankının mərhum baş mühasibi, vətənpərvər ziyalı;
**Kərimov Həbib** - tanınmış təsərrüfat rəhbəri, uzun illər kolxoz sədri vəzifəsində çalışmış ziyalı;
**Kərimov Hüsü** - tibb elmləri doktoru, görkəmli həkim-cərrah, tanınmış ziyalı;
**Kərimova Vəfa Lətif qızı (1975)** - Bakı şəhər Xətai rayonunun 95 saylı orta məktəbinin təcrübəli dil-ədəbiyyat müəllimi, ziyalı;
**Kərimova Təranə İsa qızı (1961)** - Azərbaycan Dövlət-İqtisad Universitetinin "İqtisadiyyatın Dövlət tənzimlənməsi" fakültəsinin dekan müavini, "Qiymət" kafedrasının dosenti, iqtisad elmləri namizədi, Universitet YAP Qadınlar Şurasının sədri, Gender və İqtisadiyyat İctimai Birliyinin sədri;
**Kərimova Cahan** - "Qırmızı Əmək Bayrağı" ordenli tanınmış pambıqçı;
**Kərimova Şamayıl** - Azərbaycan SSR Ali Sovetinin sabiq deputatı,"Lenin" ordenli təsərrüfatçı;

## - Q -

**Qazıyev Qurban Hacı oğlu (1933)** - Azərbaycan Dənizneftqaz Layihə İnstitutunun aparıcı elmi işçisi, geologiya elmləri namizədi;
**Qayıbov Mirzə Məmmədqulu Molla Həsən oğlu (1818-1879)** - təbib, həkim, "həkim" təxəllüslü məşhur şair;

**Qara Seyid (Səftarov Böyükağa Mirsəftar oğlu)** - mərd, vətənpərvər ziyalı;
**Qaradağlı Fərman** - Azərbaycan Radiosunda "İctimai-siyasi proqramlar" redaksiyasının böyük redaktoru,
**Qarayev Bəyaz** - "Lenin" ordenli ziyalı müəllim;
**Qarayev Qalib Şalon oğlu (1947)** - tibb elmləri doktoru (1988), professor (1990), Respublikanın Əməkdar elm xadimi (2000), ATU-nun Elmi-Tədqiqat Mərkəzinin direktoru, "Sağlamlıq" jurnalının baş redaktoru, Ürəyin İşemik xəstəliklərini öyrənən Beynəlxalq Cəmiyyətin üzvü, Beynəlxalq Ekoenergetika Akademiyasının akademiki, tanınmış həkim, cərrah;
**Qarayev Əmrah Xanış oğlu (1956)** - Füzuli regional torpaq qeydiyyatı mərkəzinin rəhbəri, Azərbaycan Respublikası Torpaq və Xəritəçəkmə Komitəsinin rayonlararası kompüter mərkəzinin baş direktoru;
**Qarayeva Könül Qalib qızı (1976)** - tibb elmləri namizədi, Elmi-Tədqiqat Ginekologiya İnstitutunun baş elmi işçisi;
**Qarayeva Sevda Qara qızı** - C.Abdullayev adına Elmi-Tədqiqat Kordiologiya İnstitutunun təcrübəli həkim-ordinatoru, elmi işçi;
**Qarayeva Sevinc Qalib qızı (1975)** - tibb elmləri namizədi, ATU-nun Elmi-Tədqiqat Mərkəzinin baş elmi işçisi, "Medlyuks" özəl klinikasının aparıcı onkoginekoloqu;
**Qarayeva Fitat** - respublikanın əməkdar həkimi, pediatr;
**Qaraşarov Aslan Məmməd oğlu (... - 1943)** - Seyidmahmudlu obasından çıxmış ziyalı, batareya komandiri, Böyük Vətən müharibəsi qəhrəmanı;
**Qaraşov Arif Mütəllim oğlu (1943)** - Bakı şəhər 10 saylı poliklinikasının şöbə müdiri, nüfuzlu həkim-cərrah;
**Qaraşov Bəylər (1912-1999)** - Tuğ kəndinin ilk sürücü ziyalısı, Böyük Vətən müharibəsinin ordenli qəhrəmanı;
**Qaraşov Qaraş (1912-1992)** - Füzuli rayon Səhiyyə şöbəsinin keçmiş müdiri, tanınmış terapevt-həkim, ziyalı;
**Qaraşov Mütəllim Hacıağa oğlu (1914-1993)** - Füzuli rayon səhiyyə şöbəsinin keçmiş müdiri, terapevt;



**Qaraşov Rafiq Mütəllim oğlu (1946)** - Füzuli rayon Magistral Kəmər İstismar İdarəsi və Su kanalı idarələrinin rəisi vəzifəsində çalışmış ziyalı, tanınmış inşaatçı-mühəndis;
**Qaraşova Zemfira Qaraş qızı** - təcrübəli ginekoloq-həkim, ziyalı;
**Qardaşxanov Nahid Şamxal oğlu (1964)** - istedadlı aktyor, vətənpərvər ziyalı, toy məclislərinin mahir aparıcısı;
**Qasım bəy Səlim bəy oğlu (1789-1855)** - mükəmməl təhsil alaraq "mirzə" ünvanı almış ziyalı;
**Qasımov Adil Abbas oğlu (1932)** - BDU-nun "Beynəlxalq hüquq və Beynəlxalq münasibətlər" fakültəsinin "Beynəlxalq iqtisadi münasibətlər" kafedrasının müdiri, iqtisad elmləri doktoru, professor, respublikanın əməkdar müəllimi;
**Qasımov Alış** - hüquq elmləri doktoru, BDU-nun hüquq fakültəsinin professoru;
**Qasımov Alışan Ədil oğlu** - təcrübəli dil-ədəbiyyat müəllimi, Böyük Vətən müharibəsi iştirakçısı, vətənpərvər ziyalı;
**Qasımov Almaz Əvəz oğlu (1941-1989)** - Respublika Dövlət Bankının məsul işçisi olmuş vətənpərvər ziyalı;
**Qasımov Barat** - Respublikanın əməkdar müəllimi, tanınmış riyaziyyatçı-müəllim, dəyərli ziyalı;
**Qasımov Barat** - Azərbaycan TU-nun dosenti, fizika-riyaziyyat elmləri namizədi, tanınmış ziyalı, riyaziyyat kafedrasının əməkdaşı;
**Qasımov Əşrəf** - tanınmış alim, vətənpərvər ziyalı;
**Qasımov İslam Əmir oğlu** - Ağdam rayonunun prokuroru vəzifəsində çalışan görkəmli hüquqşünas;
**Qasımov Yusif** - tanınmış alim, vətənpərvər ziyalı;
**Qasımov Yusif Həsən oğlu (1928-1974)** - müxtəlif məsul vəzifələrdə çalışmış partiya və dövlət xadimi, tarix elmləri doktoru, ziyalı;
**Qasımov Mətləb (Mətləb Misir) Misir oğlu (1939)** - tanınmış şair, AYB-nin üzvü;
**Qasımov Nazim Səfər oğlu (1956)** - İsveçdə Azərbaycan səfirliyinin işçisi;

**Qasımov Səyavuş Əvəz oğlu** - ADNA-nın "Metalların texnologiyası" kafedrasının dosenti, texniki elmlər namizədi;

**Qasımov Səfər Saleh oğlu (1919-1999)** - tanınmış ziyalı, təcrübəli fizika-riyaziyyat müəllimi;

**Qasımov Taryel Səfər oğlu (1949)** - tanınmış həkim, Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Bakı Travmatologiya və Ortopediya Kliniki Xəstəxanasının baş həkimi, tibb elmləri namizədi, ali dərəcəli cərrah-travmatoloq;

**Qasımov Taryel (1944)** - Azərbaycan Texniki Universitetinin dosenti, texnika elmləri namizədi, metallurgiya kafedrasının əməkdaşı;

**Qasımov Telman Nəriman oğlu (1950)** - polis polkovnik-leytenantı;

**Qaçaq Mehdiqulu** - məşhur qaçaq, qaçaq hərəkatının tanınmış nümayəndəsi;

**Qaçaq Nuruş** - məşhur qaçaq, xalqın təəssübünü çəkən igid vətənpərvər;

**Qaçaq Rəşid Qədirli (1885-1918)** - Qaçaq Süleymanın dəstəsinin igid və fəal üzvü;

**Qaçaq Səfər** - məşhur qaçaq, mərd və yenilməz vətənpərvər;

**Qaçaq Süleyman (Süleyman Sərkərov)** - adı dillər əzbəri olmuş məşhur vətənpərvər qaçaq, "Qaçaq hərəkatı"nın tanınmış simalarından biri;

**Qaçaq Heydər bəy Feyzulla bəy oğlu (1880-1917)** - çar qoşunları tərəfindən öldürülən igid qaçaq;

**Qaçaq Həsən (Həsənxan) Məmməd oğlu (1861-1906)** - məşhur qaçaq, ermənilərlə savaşda öldürülmüş vətənpərvər igid;

**Qaçaq Şəmil** - qaçaq hərəkatının görkəmli nümayəndələrindən biri;

**Qacarlı Əhməd** - məşhur xanəndə;

**Qəmbərov Yunis Heydər oğlu** - görkəmli kimyaçı-alim, professor (1971), AMEA-nın müxbir üzvü, "Qırmızı Əmək Bayrağı" və "Xalqlar Dostluğu" ordenli ziyalı;

**Qəmbərov Rövşən Yunis oğlu (1951)** - Almaniyada yaşayan tanınmış ziyalı;



**Qəmbərov Sabir Vilayət oğlu (1948)** - bir sıra vəzifələrdə çalışmış ziyalı, istedadlı musiqiçi;

**Qəhrəmanov Vaqif İmran oğlu (1940)** - uzun müddət Sumqayıt şəhər səhiyyə şöbəsinin müdiri vəzifəsində işləmiş həkim, cərrah, tanınmış ziyalı, Sumqayıt şəhər TTYX-nın baş həkimi;

**Qəhrəmanov (Cahangirov) Qəhrəman Nəriman oğlu (1954)** - Azərbaycan Dövlət Neft Şirkəti aparatının baş mütəxəssisi, geologiya-minerologiya elmləri namizədi, ADNA-nın müəllimi;

**Qəhrəmanov (Cahangirov) Qəhrəman Salman oğlu (1918-1943)** - Böyük Vətən müharibəsində həlak olmuş tank əleyhinə batalyonun "Qırmızı Ulduz" və "Şərəf Nişanı" ordenli komandiri;

**Qəhrəmanov Qəhrəman Süleyman oğlu (1922-1998)** - tanınmış alim, neftçi-geoloq;

**Qəhrəmanov Kamran Süleyman oğlu (1923-1983)** - tanınmış bank işçisi, iqtisadçı, maliyyəçi, Böyük Vətən müharibəsi veteranı;

**Qəhrəmanov Nəriman Salman oğlu (1921-2002)** - Böyük Vətən müharibəsinin zabiti, bir sıra partiya və dövlət vəzifələrində çalışmış ziyalı, Azərbaycan KP MK-nin məsul işçisi olmuş dəyərli vətənpərvər;

**Qəhrəmanova Yaqut Sabir qızı** - tanınmış jurnalist, "Haqqın səsi" qəzetinin redaktoru;

**Qismətoğlu Faiq** - "Ədalət" qəzetinin əməkdaşı, tanınmış publisist;

**Qoçu İsa Sərdarlı** - mərd, yenilməz, igidliyi ilə ad çıxarmış vətənpərvər qoçaq;

**Qubad İbadoğlu - Bayramov Qubad İbad oğlu (1971)** - iqtisad elmləri namizədi, Azərbaycan Dövlət İqtisad Universitetinin "İqtisadi təhlil" kafedrasının dosenti, "Ekspert" iqtisad jurnalının baş redaktoru, Müsavat Partiyasının "İqtisadi və Sosial Siyasət" komissiyasının sədri;

**Quluzadə Fərid Rövşən oğlu (1995)** - gənc perspektivli idmançı, akrobatik gimnastika üzrə Bakı çempionu;

**Quliyev Ağabala** - tanınmış hüquqşünas, Qarabağ döyüşlərinin iştirakçısı, Azərbaycan Respublikası Prokurorluğunun əməkdaşı;

**Quliyev Adil Fərman oğlu** - tanınmış vətənpərvər ziyalı;
**Quliyev Azər Nəcəf oğlu (1955)** - tibb elmləri namizədi, dosent, ATU-nun II Daxili xəstəliklər kafedrasının assistenti, vaxtilə Səudiyyə Ərəbistanında həkim kimi çalışmış ziyalı, kardioloq;
**Quliyev Alı Əmir oğlu** - hərbçi-polkovnik;
**Quliyev Arif Mehdi oğlu (1933)** - AMEA-nın müxbir üzvü, texnika elmləri doktoru, professor, İ.M.Qubkin adına mükafatın laureatı (1985), SSRİ ixtiraçısı (1981), Geologiya İnstitutunun şöbə müdiri, Amerika Neftçi Mühəndislər Cəmiyyətinin üzvü (1997), "Quruçay" Xeyriyyə Cəmiyyətinin sədri (1991);
**Quliyev Asif Musa oğlu** - Azərbaycan MK-nın məsul işçisi, "Sovet Kəndi" qəzetinin keçmiş baş redaktoru;
**Quliyev Vaqif Əmir oğlu (1952-2001)** - mühəndis-mexanik, xalq hərəkatı fəallarından biri;
**Quliyev Vidadi (1955)** - tanınmış həkim-cərrah, qastroentroloq, "Pantovita" klinikasının həkimi;
**Quliyev Vidadi Sübhan oğlu (1962)** - tanınmış həkim-stomatoloq;
**Quliyev Vidadi Hidayət oğlu (1955)** - tibb elmləri namizədi, tanınmış həkim, endoskofist;
**Quliyev Qaçay bəy Hüseynəli bəy oğlu** - tanınmış müəllim;
**Quliyev Qulu Həsən oğlu (1958)** - Bakı şəhər Su Anbarı və Nasosu idarəsinin baş mühəndisi, vətənpərvər ziyalı;
**Quliyev Dadaş Nəbi oğlu (1927)** - uzun illər rayon Maliyyə şöbəsində büdcə komitəsinin sədri olmuş ziyalı;
**Quliyev Elçin Arif oğlu (1963)** - fizika-riyaziyyat elmləri namizədi, ADU-nun məzunu;
**Quliyev Əlyar Mirzəli oğlu (1919)** - Sosialist Əməyi Qəhrəmanı;
**Quliyev Zakir Xasay oğlu** - Füzuli rayon Aqrpar-Sənaye Birliyinin keçmiş sədri, bir sıra təsərrüfata rəhbərlik etmiş ziyalı;
**Quliyev İbrahim Zülfüqar oğlu (1957)** - Azərbaycan Dövlət İqtisad Universitetinin müəllimi, tarix elmləri doktoru, Turizm İnstitutunun "Azərbaycan tarixi" kafedrasının müdiri;
**Quliyev İbrahim Firəddin oğlu (1967)** - istedadlı şair, publisist;



**Quliyev İslam (Cuvarlı)** - Kəlbəcər rayon PK-nin birinci katibi vəzifəsində çalışmış və Böyük Vətən müharibəsində qəhrəmanlıqla həlak olmuş vətənpərvər ziyalı;
**Quliyev Yusif** - Füzuli rayon Sosial təminat şöbəsinin müdiri və digər vəzifələrdə çalışmış ziyalı;
**Quliyev Kamal Yusif oğlu** - tanınmış həkim-nevropatoloq;
**Quliyev Kamil Bəşir oğlu (1936)** - təcrübəli inşaatçı-mühəndis;
**Quliyev Kamran** - AzMİU-nun dosenti, fizika-riyaziyyat elmləri namizədi, AMEA-nın əməkdaşı;
**Quliyev Kərim Cəlal oğlu** - əsərləri bir neçə sərginin qalibi olmuş istedadlı rəssam;
**Quliyev Malik Bayram oğlu (1952)** - Milli Konservatoriyanın kafedra müdiri, sənətşünaslıq elmləri doktoru;
**Quliyev Maşallah Şahmar oğlu (1967)** - Azərbaycan Texniki Universitetinin məzunu, "İcmal" qəzetinin məsul katibi, Qarabağ döyüşləri veteranı;
**Quliyev Mehdi Arif oğlu (1967)** - təcrübəli burun, boğaz, qulaq həkimi;
**Quliyev Mərkəz Mikayıl oğlu Qacar (1948)** - Bakı şəhər prokurorluğunun şöbə müdiri, istedadlı publisist;
**Quliyev Məhərrəm** - vaxtilə kolxoz sədri vəzifəsində çalışmış ziyalı, bacarıqlı təsərrüfatçı;
**Quliyev Məhi Allahverdi oğlu (1928)** - uzun illər polis orqanlarında çalışmış ziyalı, "Şöhrət" ordenli Əməkdar milis işçisi, polkovnik, təqaüdçü;
**Quliyev Nadir** - Kooperasiya Universitetinin müəllimi, elmlər namizədi;
**Quliyev Nazim Zahid oğlu (1964)** - istedadlı hüquqşünas, ehtiyatda olan polkovnik-leytenant, Nəsimi rayon İH-nin şöbə müdiri;
**Quliyev Nazim Nəcəf oğlu (1952)** - Keşlə yük stansiyasının sanitar-qarantin müfəttişi, həkim-terapevt, nüfuzlu ziyalı;
**Quliyev Namiq Məhi oğlu (1956)** - polis polkovniki, DİN-də İstintaq İdarəsinin, Bərdə PŞ-nin rəisi vəzifələrində çalışmış orqan işçisi, Vergilər Nazirliyi İstintaq İdarəsinin rəisi;

**Quliyev Natiq Tahir oğlu (1964)** - Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Komitəsində İnfrastruktur layihəsinin meneceri;
**Quliyev Nəriman Məşədi Fətulla oğlu (1913-1995)** - görkəmli hüquqşünas, uzun müddət prokuror vəzifəsində çalışmış ziyalı;
**Quliyev Nəcəf (Nəcəf Nazim) İslam oğlu (1922)** - filologiya elmləri doktoru, Bakı Dövlət Universitetinin professoru;
**Quliyev Nizami Əhəd oğlu (1971)** - Qarabağ döyüşləri iştirakçısı, Volqoqradda yaşayan vətənpərvər ziyalı, hüquqşünas, tanınmış iş adamı;
**Quliyev Nizami Rüstəm oğlu (1957)** - Nərimanov rayon prokuroru vəzifəsində çalışmış hüquqşünas, xeyirxah ziyalı, Respublika Prokurorluğunun məsul işçisi;
**Quliyev Nizami Sübhan oğlu (1953)** - Respublika Mərkəzi Klinik Hərbi Qospitalının baş ordinatoru, həkim-pulmonoloq, terapevt;
**Quliyev Novruz Əmiqulu oğlu (1918)** - fəlsəfə elmləri namizədi, Dillər Universitetinin dosenti;
**Quliyev Rəşad Şakir oğlu (1982)** - istedadlı hüquqşünas, Azərbaycan Respublikası Ali məhkəməsinin baş məsləhətçi;
**Quliyev Rövşən Hənifə oğlu (1961)** - "Birlikbank"ın idarə heyətinin sədri, tanınmış iş adamı;
**Quliyev Rövşən Nəcəf oğlu (1960)** - bir neçə dünya çempionu yetişdirmiş Azərbaycan Respublikası Pauerliftinq Federasiyasının baş məşqçisi, tanınmış idmançı, Qarabağ müharibəsinin iştirakçısı;
**Quliyev Rüstəm** - uzun müddət Füzuli rayon S.M.Kirov adına orta məktəbinin direktoru olmuş ziyalı, Böyük Vətən müharibəsi veteranı, Leninqradın (Sankt-Peterburq) fəxri vətəndaşı;
**Quliyev Rüfət Azay oğlu** - müxtəlif vəzifələrdə çalışmış ziyalı;
**Quliyev Sayuz Nəcəfqulu oğlu (1932-1998)** - uzun müddət məktəb direktoru vəzifəsində çalışmış ziyalı;
**Quliyev Sahib Abbas oğlu** - bir sıra məsul vəzifələrdə işləmiş vətənpərvər ziyalı;
**Quliyev Sərdar Musa oğlu** - tanınmış alim, professor, pedaqoji elmlər doktoru;
**Quliyev Səfa Hüseyn oğlu (1962)** - ABŞ səfirliyinin əməkdaşı, ziyalı;



**Quliyev Səfər** - Böyük Vətən müharibəsi iştirakçısı, Füzuli şəhər 1 saylı orta məktəbin tarix müəllimi, ziyalı;
**Quliyev Sulduz** - Füzuli rayon PŞ-nin rəisi vəzifəsində çalışmış polis polkovniki;
**Quliyev Surac Şakir oğlu (1981)** - istedadlı həkim-stomatoloq;
**Quliyev Süleyman Xanlar oğlu (1927-1977)** - Füzuli rayon maliyyə şöbəsinin müdiri vəzifəsində işləmiş ziyalı;
**Quliyev Tahir (1958)** - təcrübəli DTK (MTN) polkovnik-leytenantı;
**Quliyev Tahir Ələkbər oğlu (1936-1997)** - bir sıra məsul vəzifələrdə çalışmış, rayon PK-nin 2-ci katibi işləmiş ziyalı;
**Quliyev Teymur Sərxan (1925)** - tanınmış qabaqcıl maarif işçisi, uzun müddət rayon Maarif şöbəsinin müdir müavini vəzifəsində işləmiş pedaqoq;
**Quliyev Təşkilat İclas oğlu (1961)** - Rusiyanın Krasnodar vilayətində yaşayan ziyalı, iş adamı, hüquq elmləri namizədi, Kuban Dövlət Universitetinin müəllimi;
**Quliyev Fehruz Mehdi oğlu (1928-1994)** - MTS-də tanınmış briqadir, Gecəgözü kəndinə su çəkilişinin əsas təşəbbüskarı və təşkilatçısı;
**Quliyev Firəddin İbrahim oğlu (1938-2003)** - müxtəlif vəzifələrdə çalışmış dəyərli ziyalı, tanınmış təsərrüfat rəhbəri;
**Quliyev Firəddin Murtuza oğlu** - Azərbaycan Dövlət İqtisad Universitetinin "İqtisadi təhlil və audit" kafedrasının dosenti, iqtisad elmləri namizədi;
**Quliyev Xaqani Sübhan oğlu** - Azərbaycan Respublikası Səhiyyə Nazirliyi "Azərsutikinti" xəstəxanasında Nevrologiya şöbəsinin müdiri, tanınmış həkim, nevropatoloq;
**Quliyev Hacı Həsən Yusif oğlu (1934)** - Azərbaycan Dövlət Tibb Universitetinin hərbi kafedrasının müəllimi, Nəsimi rayon OADKYC-nin sədri, "Qızıl Qələm", "Vətən", "Araz", "Fəzilət", "İnam", "H.Z.Tağıyev" mükafatları laureatı, ehtiyatda olan polkovnik, xeyirxah insan;
**Quliyev Hənifə (1932)** - Respublikanın Əməkdar müəllimi, uzun müddət məktəb direktoru vəzifəsində çalışmış ziyalı;

**Quliyev Hətəm Hidayət oğlu (1947)** - AMEA-nın müxbir üzvü, fizika-riyaziyyat elmləri doktoru, professor, Geologiya İnstitutunun şöbə müdiri, AMEA Yer Elmləri bölməsinin akademik katibinin müavini;

**Quliyev Hikmət Azay oğlu (1936)** - tanınmış riyaziyyatçı, təcrübəli pedaqoq, uzun illər B.Sərdarov adına 1 saylı Füzuli şəhər orta məktəbinin riyaziyyat müəllimi işləmiş və hazırda 5 saylı Füzuli şəhər orta məktəbinin direktoru vəzifəsində çalışan ziyalı;

**Quliyev Hüseynqulu Bayram oğlu (1963)** - Sulqayıt Dövlət Universitetinin baş müəllimi;

**Quliyev Hüsən Yusif oğlu (1936-1992)** - tanınmış həkim, müəllim, Respublika dərəcəli hakim;

**Quliyev Şakir Nəcəf oğlu (1956)** - Azərbaycan Respublikası Maliyyə Nazirliyi Hakimiyyət Orqanlarının İdarə Edilməsi İdarəsinin rəisi;

**Quliyev Şamil Bəşir oğlu (1931)** - ATU-nun pediatriya fakültəsinin "Cərrahiyyə xəstəlikləri kafedrası"nın professoru, tibb elmləri doktoru, əməkdar elm xadimi, həkim, pedaqoq;

**Quliyev Şahin Şamil oğlu (1949)** - 5 saylı Bakı şəhər xəstəxanasının təcrübəli həkimi;

**Quliyev Şahlar** - Mərkəzi Hərbi Kliniki Qospitalının qastreologiya şöbəsinin rəisi, tanınmış, həkim, polkovnik-leytenant;

**Quliyeva Qəndab Həbi qızı (1949)** - Azərbaycan Respublikasının xalq artisti (1992), görkəmli xanəndə, vətənpərvər ziyalı, Mədəniyyət və İncəsənət Universitetinin müəllimi;

**Quliyeva Elmira Məhi qızı (1951)** - DİN-nin 1 saylı Poliklinikasının baş həkimi, polis polkovniki;

**Quliyeva Gülaya Həsən qızı (1955)** - tanınmış riyaziyyat müəllimi, fəal ictimaiyyətçi, vətənpərvər ziyalı;

**Quliyeva Güllü Xanlar qızı (1936)** - uzun müddət pedaqoji fəaliyyətlə məşğul olmuş təcrübəli müəllim, ziyalı;

**Quliyeva Gülnarə Rövşən qızı (1992)** - akrobatik gimnastika növü üzrə respublika çempionu, perspektivli gənc idmançı;



**Quliyeva Gültəkin Cəmil qızı** - tanınmış alim, vətənpərvər ziyalı;

**Quliyeva Məhparə Musa qızı (1932-2005)** - tanınmış coğrafiya müəllimi, qabaqcıl maarif işçisi;

**Qurbanov Abbas** - tanınmış alim, vətənpərvər ziyalı;

**Qurbanov Azər Hümbət oğlu (1942)** - Xətai rayon Təcili Tibbi Yardım Xəstəxanasının tanınmış təcrübəli həkimi;

**Qurbanov Allahverən Dadaş oğlu (1936)** - Ali kateqoriyalı tanınmış metodist müəllim, xanəndə;

**Qurbanov Bayram Səfər oğlu (1926-2006)** - AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun "Azərbaycan Sovet dövrü" şöbəsinin aparıcı elmi işçisi, tarix elmləri doktoru, professor;

**Qurbanov Elçin Oruc oğlu (1971)** - Bakı şəhəri Təhsil-İdman İdarəsinin rəis müavini, vətənpərvər ziyalı, boks üzrə keçmiş SSRİ idman ustası (1988);

**Qurbanov Zöhrab Xasay oğlu (1955)** - "Azərneftyağ" İB əsaslı tikinti şöbəsinin mühəndisi, vətənpərvər ziyalı;

**Qurbanov İsgəndər Cəmil oğlu (1931-2005)** - qabaqcıl maarif xadimi, təcrübəli kimya müəllimi, nüfuzlu ziyalı;

**Qurbanov Kərəm Xasay oğlu (1952)** - tanınmış iqtisadçı, Füzuli rayon təmir-tikinti idarəsinin rəisi;

**Qurbanov Mirzə (1959)** - Bakı Baş Gömrük İdarəsində çalışmış ziyalı, Xudafərin gömrükxanasının maliyyə şöbə rəisi, gömrük xidməti kapitanı;

**Qurbanov Faiq (Faiq Şükürbəyli) Xasay oğlu (1957)** - tədqiqatçı, publisist, filologiya elmləri namizədi, ADNA-nın əməkdaşı, jurnalist;

**Qurbanov Famil Şamil oğlu (1938)** - Qaradağ Sement zavodunun növbə rəisi, "Lenin", "Qırmızı Əmək", "Oktyabr İnqilabı" ordenli istehsalat qabaqcılı;

**Qurbanov Fərrux Şəmməd oğlu (1959)** - keçmiş SSRİ İdman Ustası, sərbəst güləş üzrə respublika çempionu, Füzuli rayon UGİM-nin direktoru, Bədən Tərbiyəsi və İdman Akademiyasının baş müəllimi, Milli güləş üzrə baş məşqçi;

**Qurbanova Füruzə Bəşir qızı** - Respublikanın qabaqcıl maarif xadimi, vətənpərvər ziyalı;

**Quşçu Yusif bəy Kərbəlayi İmamverdi bəy oğlu Cuvarlı** - XIX əsrdə yaşamış dövrünün böyük mülkədarı;

**- M -**

**Mansurova Esmiralda Qulam qızı (1942)** - 250 saylı Nizami rayon orta məktəbinin təcrübəli tarix müəllimi, tanınmış vətənpərvər ziyalı;

**Mahmud bəy Kazım bəy oğlu Vəzirov-Hacılı (1836-1902)** - məşhur şair, qəzəlxan, "Məclisi-üns"ün üzvü;

**Mahmud bəy Səhliyalı bəy oğlu (1811-1870)** - Aybasanlı obasının yüzbaşısı olmuş təhsilli ziyalı;

**Mahmud Qacar, Quliyev Mahmud Maqsud oğlu (1948)** - tanınmış publisist, istedadlı şair, vətənpərvər ziyalı;

**Mahmudov Aydın Eyvaz oğlu** - Xətai rayonunun keçmiş prokuroru, tanınmış hüquqşünas;

**Mahmudov Tofiq** - istedadlı publisist;

**Mahmudov Cəbi Cümşüd oğlu** - tanınmış ziyalı, ağırlıqqaldırma üzrə idman ustası, şahmatçı;

**Mahmudov Cümşüd** - vətənpərvər inqilabçı;

**Mehdi bəy Mirzə Camal bəy oğlu (1833-1903)** - rus dilini və bir neçə şərq dillərini mükəmməl bilən mədrəsə təhsili görmüş dövrünün ziyalısı, quberniya katibi;

**Mehdiyev Azər Mehdi oğlu (1958)** - tanınmış həkim, Füzuli rayon XDS sədrinin müavini vəzifəsində işləmiş ziyalı;

**Mehdiyev Aslan Osman oğlu (1947)** - Azərbaycan Respublikası Kənd Təsərrüfatı nazirliyində şöbə müdiri, Füzuli RİH-nin keçmiş başçısı, Azərbaycan Respublikası Ali Sovetinin sabiq deputatı, "Şərəf nişanı" ordenli ziyalı;

**Mehdiyev Babalar Heydər oğlu (1937)** - Sumqayıt şəhər 1 saylı Notariat kontorunun müdiri, birinci dərəcəli hüquqşünas;

**Mehdiyev Vəli Əliş oğlu (1944)** - Horadiz kəndinin sayılıb-seçilən ziyalılarından biri;



**Mehdiyev Qurban Həmid oğlu** - Vətən qarşısında xidməti olan tanınmış hərbçi, kapitan;

**Mehdiyev Qürbət İsmayıl oğlu (1948)** - Füzuli rayon mədəniyyət evinin direktoru, nüfuzlu ziyalı;

**Mehdiyev Əziz Bəyalı oğlu** - Azərbaycan Meşə təsərrüfatı nazirinin müavini, elmi işçi;

**Mehdiyev Əli Adıgözəl oğlu** - Xaçmaz rayonunun baş həkimi, repressiya qurbanı;

**Mehdiyev Əhməd Bəyalı oğlu** - sualtı hərbi gəmi kapitanı;

**Mehdiyev İsa Məmməd oğlu (1924)** - Sosialist Əməyi Qəhrəmanı;

**Mehdiyev İsmayıl Hüseyn oğlu** - tanınmış alim, fizika-riyaziyyat elmləri namizədi;

**Mehdiyev Mehdi Adıgözəl oğlu (1895-1938)** - Lənkəran qəza komitəsinin şöbə müdiri, Şamaxı qəza firqə komitəsinin katibi, Azərbaycan KP MK-də təlimatçı, Ağcabədi və Göyçay RPK-də katib, Naxçıvan Vilayət Partiya Komitəsinin birinci katibi vəzifələrində çalışmış ziyalı, repressiya qurbanı;

**Mehdiyev Məmməd Adıgözəl oğlu** - Azərbaycan Daş Yolları İdarəsinin baş mühəndisi, repressiya qurbanı;

**Mehdiyev Mərkəz Əjdər oğlu (1931-1997)** - uzun müddət rayonun müxtəlif məktəblərində direktor vəzifəsində çalışmış dəyərli ziyalı;

**Mehdiyev Nəbi Bəhram oğlu** - tanınmış alim, vətənpərvər ziyalı;

**Mehdiyev Nuruş İmanqulu oğlu** - Böyük Vətən müharibəsi illərində qəhrəmanlıqlar göstərmiş görkəmli partizan, general Şarl de-Qol tərəfindən "Döyüş Bayrağı" və "Həmrəylik" ordenləri ilə təltif edilmiş igid döyüşçü;

**Mehdiyev Tahir Mehdi oğlu (1956)** - tanınmış hüquqşünas, polis zabiti, Rostov Dövlət Universitetinin məzunu, Yevlax, Binəqədi, Nizami rayon PŞ istintaq idarəsinin rəisi olmuş ziyalı, Nərimanov rayon PŞ istintaq idarəsinin rəisi;

**Mehdiyev Tacəddin İbrahim oğlu** - Azərbaycan Respublikasının sabiq Müdafiə naziri, general-mayor;

**Mehdiyev Heydər Əliş oğlu (1918-1983)** - uzun müddət müxtəlif rayonlarda hakim işləmiş istedadlı hüquqşünas, 2-ci dərəcəli ədliyyə müşaviri, tanınmış ziyalı;
**Mehdiyev Şəmil Adıgözəl oğlu** - Ağdam və Astara rayon PK-nın birinci katibi vəzifəsində işləmiş ziyalı, repressiya qurbanı;
**Mehdiyeva Gülsurə Yusif qızı** - fizika-riyaziyyat elmləri namizədi;
**Mehrəliyev Elçin Eldar oğlu (1957)** - Bakı Slavyan Universitetinin "Slavyan filologiyası" kafedrasının müəllimi, filologiya elmləri doktoru;
**Mehrəliyev Tapdıq Narkom oğlu (1955)** - polkovnik-leytenant, Nəqliyyat Baş Polis İdarəsinin Bakı Dəmir yolu Polis idarəsi cinayət axtarış şöbəsinin rəisi;
**Mehrəliyev Hüseyn Eyvaz oğlu (1907)** - Sosialist Əməyi Qəhrəmanı;
**Məlikaslanov Abdulla Kərim oğlu (1958)** - Azərbaycan Respublikası Milli Bankının İdarə Heyəti sədrinin müavini;
**Məlikaslanov Muxtar** - keçmiş Yanacaq naziri;
**Məlikaslanov Xudadat Ağa bəy oğlu (1879-1935)** - ADR-in ilk yaradıcılarından biri, görkəmli ictimai-siyasi xadim, Azərbaycan Dəmir Yol və Rabitə naziri, Tikinti-Nəqliyyat və Rabitə Komitəsinin sədri və s. vəzifələrdə çalışmış dövlət məmuru, pedaqoq, texnika elmləri doktoru, professor;
**Məlikaslanova Leyla** - tanınmış neftçi-mühəndis;
**Məlikyeqanov Cavad bəy Rza bəy oğlu** - Azərbaycan Demokratik Respublikasının yaradılması haqqında "İstiqlal bəyannaməsi"nə imza atmış Azərbaycan Milli Şurasının üzvü, Zaqafqaziya seymi müsəlman fraksiyasının daimi nümayəndəsi, ADR dövründə parlament üzvü, Lənkəran-Muğan qəzasının qubernatoru, Bakı şəhər polis idarəsinin rəisi, Azərbaycanda ilk fəhlə həmkarlar təşkilatının yaradıcısı, "Musavat"ın Bakı Komitəsinin üzvü, müxtəlif vəzifələrdə çalışmış ziyalı, millətçi Nersesov və Ayvazyanın imzaladıqları orderdən sonra həbs olunub "xalq düşməni" kimi damğalanmış bacarıqlı siyasətçi;



**Məlikyeqanova Turan xanım** - Respublika Layihə-Tikinti İnstitutunun keçmiş direktoru;
**Məlikov Murad Hüseyn oğlu (1911-1992)** - Qabaqcıl maarif xadimi, Kərimbəyli, Böyük Bəhmənli və Əhmədalılar kəndlərində məktəb direktoru işləmiş ziyalı;
**Məlikov Mübariz Xanhüseyn oğlu (1968)** - tanınmış idmançı, qara kəmər ustası, Qarabağ döyüşlərinin iştirakçısı;
**Məmişov İsmayıl Mikayıl oğlu** - Moskvada yaşayan iş adamı;
**Məmməd bəy Hacı Məmmədşəfi bəy oğlu (1808-1880)** - mədrəsə təhsili almış ziyalı, ticarətçi, Xorasan ziyarətində olmuş məşədi;
**Məmmədbağır İmanxan oğlu (1814-1884)** - məşhur bənna, daşyonan, memar, Kərbəlayi Səfixan Qarabaği məktəbində fəaliyyət göstərmiş sənətkar;
**Məmmədqulu Kərbəlayi Namazəli Mehdixanov (1848 - ?)** - mükəmməl təhsil almış Qoçəhmədli kəndinin savadlı, nüfuzlu oğlu;
**Məmmədvəliyev Allahverdi Heydər oğlu (1918-1996)** - uzun müddət məktəb direktoru vəzifəsində işləmiş məktəbdar müəllim, tanınmış pedaqoq, ağsaqqal ziyalı;
**Məmmədli Aslan Məmmədəli oğlu (1952)** - Bakı Slavyan Universitetinin professoru, filologiya elmləri doktoru;
**Məmmədli Bəhram İdris oğlu** - Füzuli rayon tarix-diyarşünaslıq muzeyinin direktoru, tarix elmləri namizədi;
**Məmmədli Kəmaləddin Məhəmmədəli oğlu (1958)** - "Haqqın səsi" qəzetinin baş redaktoru;
**Məmmədov Ağa Bəbir oğlu (1928-1988)** - Füzuli rayonu Araz İstehlak Cəmiyyətində müxtəlif vəzifələrdə çalışmış ziyalı;
**Məmmədov Ağakişi Fərəc oğlu (1937)** - Az.MİU-nun "Nəzəri-Mexanika" kafedrasının dosenti, texnika elmləri namizədi;
**Məmmədov Azər Ağakişi oğlu (1972)** - inşaatçı-mühəndis, biznes fəaliyyəti ilə məşğul olan iş adamı;
**Məmmədov Aydın Balaca oğlu (1937)** - kimya elmləri doktoru, professor, AMEA Geologiya institutunun laboratoriya müdiri;

**Məmmədov Akif Kamran oğlu (1951-2006)** - hüquqşünas, Sumqayıt şəhər məhkəməsinin sədri və Bakı şəhər 43 saylı notariat kontorunun müdiri vəzifələrində çalışmış ziyalı;
**Məmmədov Akif Məmmədqulu oğlu (1939)** - Füzuli rayon qaz satışı idarəsinin müdiri və digər vəzifələrdə çalışmış ağsaqqal ziyalı;
**Məmmədov Almaz** - diplomat, Almaniyada səfirliyin 3-cü katibi işləyən ziyalı, Azərbaycan nümayəndəliyinin tanınmış əməkdaşı;
**Məmmədov Asif Məmmədqulu oğlu (1941)** - tanınmış ziyalı, Energetika zavodunun keçmiş direktor müavini, Qarabağ Azadlıq Təşkilatı Ağsaqqallar Şurasının sədri;
**Məmmədov Asif Həsən oğlu (1936)** - ali təhsilli təcrübəli mühəndis, Bakı Qazan Mexaniki zavodunun direktor müavini;
**Məmmədov Afiq Kamran oğlu (1957)** - hüquqşünas, Bakı şəhərində notariat kontorunun müdiri, ziyalı;
**Məmmədov Bəbir** - tanınmış uşaq həkimi, ziyalı;
**Məmmədov Bəhlul** - tanınmış riyaziyyat müəllimi, görkəmli ziyalı, toy məclislərinin mahir aparıcısı;
**Məmmədov Bəhram Məmməd oğlu (1975)** - Prezident Aparatı hüquq şöbəsinin məsul işçisi, istedadlı ziyalı;
**Məmmədov (Xələfov) Bəhram Mirzə Məmməd oğlu (1910-1947)** - Azərbaycan Tibb İnstitutunun məzunu, həkim, 1940-cı illərdə Qubadlı və Qaryagin rayonlarının səhiyyə şöbələrinə rəhbərlik etmiş ziyalı;
**Məmmədov Vaqif Ərşad oğlu (1959-2005)** - tanınmış orqan işçisi, banditizm-terrorizmə qarşı idarədə şöbə müdiri vəzifəsində işləyən polis polkovnik-leytenantı, "Azərbaycan Bayrağı" ordeni ilə təltif olunmuş ziyalı;
**Məmmədov Vaqif İzi oğlu (1935)** - Azərbaycan SSR əməkdar mühəndisi, "Qırmızı Əmək Bayrağı" ordenli neftçi, "Neft sənayesi əlaçısı", "Neft ustası", "Şirvanneft" NQÇİ-nin rəisi, Əli Bayramlı ŞİK-nin sədr müavini vəzifələrində işləmiş ziyalı, vətənpərvər xeyriyyəçi, Əli Bayramlı şəhər statistika idarəsinin rəisi;



**Məmmədov Vaqif Məhərrəm oğlu (1948)** - vaxtilə Çimkənd Vilayət xəstəxanasında çalışmış cərrah, 1 saylı Bakı Baza Tibb Texnikumunun müəllimi, Sumqayıt VTK-nın sədri olmuş ziyalı;
**Məmmədov Qaçay** - Bakı Sənaye Rabitə Quraşdırma idarəsinin baş mühəndisi;
**Məmmədov Eldar (1958)** - vətənpərvər iş adamı, ziyalı;
**Məmmədov Eldar Balaca oğlu (1961)** - Konstitusiya Məhkəməsinin hakimi, tanınmış hüquqşünas, ziyalı;
**Məmmədov Eldəniz Kamran oğlu (1970)** - istedadlı müğənni, Bakı Musiqi Akademiyasının məzunu;
**Məmmədov Elman** - "Azərqaztikinti" trestinin müdiri, tanınmış ziyalı;
**Məmmədov Elman İsmayıl oğlu (1930-1983)** - tarix elmləri doktoru, professor, Dillər Universitetində tarix kafedrasının müdiri vəzifəsində çalışmış dəyərli ziyalı;
**Məmmədov Əbdül Məmməd oğlu (1888-1934)** - Füzuli və Ağdamda milis idarəsinin rəisi olmuş inqilabçı, ziyalı;
**Məmmədov Əvəz Musa oğlu** - Lenin ordenli tanınmış təsərrüfatçı, Azərbaycan SSR Ali Sovetinin sabiq deputatı;
**Məmmədov Əyyub Şamil oğlu** - tibb elmləri doktoru, akademik Y.Məmmədəliyev adına mükafatın laureatı, tanınmış həkim-cərrah;
**Məmmədov Əli** - uzun illər müxtəlif vəzifələrdə çalışmış təsərrüfat rəhbəri, ziyalı;
**Məmmədov Əli Əyyub oğlu (1931)** - tanınmış ziyalı, Qarabağ müharibəsi iştirakçısı, ehtiyatda olan polkovnik-leytenant;
**Məmmədov Əli Həbib oğlu (1928-2003)** - tanınmış ziyalı, vaxtilə Məişət xidməti nazirinin 1-ci müavini vəzifəsində çalışmış dövlət məmuru, Respublikanın Əməkdar iqtisadçısı (1968);
**Məmmədov Əlirza İsrafil oğlu (1959)** - Azərbaycan Dövlət İqtisad Universitetinin "Əməyin iqtisadiyyatı və təşkili" kafedrasının dosenti, iqtisad elmləri namizədi;
**Məmmədov Əsgər Səməd oğlu** - BDU-nin dosenti, fizika-riyaziyyat elmləri namizədi;

**Məmmədov Əhəd Süleyman oğlu (1950)** - həkim, cərrah, tibb xidməti zabiti;
**Məmmədov Əşrəf Səməd oğlu (1937)** - uzun illər B.Sərdarov adına 1 saylı Füzuli şəhər orta məktəbinin fizika müəllimi kimi fəaliyyət göstərmiş dəyərli ziyalı, qabaqcıl maarif xadimi;
**Məmmədov Zahid Ərşad oğlu** - Quba və İmişli rayon DİŞ-nin rəisi vəzifəsində çalışmış ziyalı, Abşeron rayon Pİ-nin rəisi, polis polkovniki;
**Məmmədov Zahid İsmayıl oğlu (1931)** - Azərbaycan Dövlət İqtisad Universitetinin politologiya-sosiologiya kafedrasının müdiri, fəlsəfə elmləri doktoru, professor;
**Məmmədov Zöhrab Səmid oğlu (1955)** - polis polkovnik-leytenantı, uzun müddət polis orqanlarında çalışmış dəyərli vətənpərvər, Qarabağ müharibəsi veteranı;
**Məmmədov İmaş Babakişi oğlu (1908-1977)** - Sosialist Əməyi Qəhrəmanı, bir sıra məsul vəzifələrdə çalışmış iki "Lenin" və "Şərəf nişanı" ordenli ziyalı, Azərbaycan SSR Ali Sovetinin sabiq deputatı;
**Məmmədov İntiqam İbiş oğlu** - Qarabağ müharibəsində briqada komandiri olmuş vətənpərvər ziyalı, polkovnik;
**Məmmədov Kamran Mirzə Məmməd oğlu (1917-1990)** - tanınmış həkim-stomatoloq;
**Məmmədov Kərim Bəhrəm oğlu (1927)** - sərhəd zonasının baş həkimi;
**Məmmədov Gəray İbrahim oğlu (1928)** - "Azərittifaq"da müfəttiş işləmiş ziyalı;
**Məmmədov Mayıs Əliş oğlu (1937)** - Azərbaycan Texniki Universitetinin dosenti, tanınmış ziyalı;
**Məmmədov Mayıs** - tanınmış müğənni, xanəndə, ziyalı;
**Məmmədov Mahir Yusif oğlu (1958)** - tanınmış musiqiçi, təcrübəli qarmonçalan, bir sıra beynəlxalq və respublika müsabiqə və festivallarının laureatı;
**Məmmədov Məmməd** - texnika elmləri doktoru, professor, əməkdar elm xadimi;



**Məmmədov Məmməd Bəhram oğlu (1943)** - Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Mərkəzi Dəmir Yol Xəstəxanasının Ürək-damar xəstəlikləri şöbəsinin müdiri, ali dərəcəli kardioloq-həkim, tibb elmləri namizədi;
**Məmmədov Məmməd Mürsəl oğlu (1923)** - Qabaqcıl Marif xadimi, BV müharibəsi iştirakçısı, Qızıl Ulduz, Qırmızı Bayraq, Şöhrət ordenli ziyalı;
**Məmmədov Məmməd Cümşüd oğlu** - Azərbaycan Respublikası MM-nin sabiq deputatı, professor;
**Məmmədov Məmmədqulu** - uzun müddət H.Hacıyev adına kolxozun sədri işləmiş Lenin və "Şərəf nişanı" ordenli tanınmış təsərrüfatçı;
**Məmmədov Müzəffər Cümşüd oğlu (1924)** - tanınmış ziyalı, təcrübəli riyaziyyat müəllimi, qabaqcıl maarif xadimi;
**Məmmədov Nadir** - Qarabağ müharibəsi veteranı, ziyalı;
**Məmmədov Nadir (Seyid Nadir - (1939))** - uzun müddət müxtəlif rayonlarda yol polisi şöbəsinin rəisi və Füzuli sərnişindaşıma avtomobil nəqliyyatı müəssisəsi idarəsinin müdiri vəzifəsində çalışmış ziyalı;
**Məmmədov Nadir Məhərrəm oğlu (1959)** - Moskva İnşaat Mühəndisləri İnstitutunun məzunu, uzun müddət Bakı tikinti idarələrində mühəndis kimi çalışan, hazırda tikinti biznesi ilə məşğul olan vətənpərvər ziyalı;
**Məmmədov Namiq Kamran oğlu (1945)** - Yasamal rayon məhkəmə tibbi-ekspertiza idarəsinin rəisi;
**Məmmədov Nizami (Nizami Nicat) Süleyman oğlu (1958)** - tanınmış publisist, şair;
**Məmmədov Nüsrət Oruc oğlu (1923-1979)** - uzun müddət təsərrüfat rəhbəri olmuş ziyalı;
**Məmmədov Pənah Zeynal oğlu (1925-1982)** - uzun müddət Füzuli rayon İctimai-İaşə müəssisəsi sistemində çalışmış ticarətçi, Böyük Vətən müharibəsi iştirakçısı, 1ci qrup əlil;
**Məmmədov Rafiq Həsən oğlu (1932-2003)** - Azərbaycan SSR Yanacaq Komitəsinin sədri, Dövlət Neft Şirkətində şöbə müdiri

vəzifəsində çalışmış "Şərəf" nişanı ordenli əməkdar neft və qaz sənayesi işçisi;
**Məmmədov Rəfayıl Fikrət oğlu (1959)** - istedadlı müğənni;
**Məmmədov Rəhman Fikrət oğlu (1961)** - tanınmış gitaraçı, vətənpərvər ziyalı;
**Məmmədov Ruslan Ovşar oğlu (1964)** tanınmış iş adamı, vətənpərvər ziyalı;
**Məmmədov Sabir Bəhram oğlu (1940)** - təcrübəli həkim, baytar, ziyalı;
**Məmmədov Sarvan Tərlan oğlu (1957)** - tanınmış həkim, nevropatoloq, ziyalı;
**Məmmədov Səməd Müzəffər oğlu (1956)** - təcrübəli həkim, nevropatoloq, terapevt, "Siti-Hospital" klinikasının həkimi, tanınmış ziyalı;
**Məmmədov Sərraf Əbülfət oğlu (1965)** - Rusiyanın İvanovo şəhər Dövlət Dumasının deputatı, Ümumrusiya Azərbaycanlılar Konqresinin İvanovo bölgəsinin sədri, Azərbaycan Diasporunun rəhbəri, tanınmış iş adamı, gənc vətənpərvər ziyalı;
**Məmmədov Taryel Məmməd oğlu (1949)** - pedaqoji elmlər namizədi, dosent, Sumqayıt Dövlət Universitetinin Pedaqogika-psixologiya kafedrasının müdiri;
**Məmmədov Telman İmaş oğlu** - Füzuli rayon XDS İK-nin keçmiş sədri;
**Məmmədov Faiq Kamran oğlu (1943)** - tanınmış həkim-stomatoloq, vətənpərvər ziyalı;
**Məmmədov Faiq Nəzər oğlu (1935)** - Rusiyanın Əməkdar geoloqu, "Uxtaneftqazgeologiya" İGV Baş direktoru (1985-2000-ci illər) vəzifəsində işləmiş ziyalı və xeyriyyəçi;
**Məmmədov Fərrux Məmməd oğlu (1961)** - Bakı Slavyan Universitetinin "Jurnalistika və Azərbaycan ədəbiyyatı" kafedrasının müəllimi;
**Məmmədov Fikrət Kamandar oğlu (1965)** - Azərbaycan Dövlət Tibb Universitetinin əməkdaşı, tarixçi, vətənpərvər ziyalı;
**Məmmədov Xaqani Salman oğlu (1957)** tanınmış hüquqşünas, vətənpərvər ziyalı;



**Məmmədov Xanoğlan Ağa oğlu (1958)** - İngilis-Azərbaycan "Elma" təmir və satış şirkətinin icraçı direktoru;
**Məmmədov Xurşud** - SSRİ Ali Sovetinin sabiq deputatı, Naxçıvan MR-nın, Lənkəran və Astara rayonlarının birinci katibi, Ali Partiya məktəbinin direktoru, Xalq Təsərrüfatı İnstitutunun rektoru vəzifələrində çalışmış ziyalı;
**Məmmədov Hacı Əbülfət oğlu (1956)** - "Qızıl Şərq" mətbəəsinin poliqrafiya-istehsalat sahəsinin müdiri, tanınmış publisist, vətənpərvər ziyalı;
**Məmmədov Həbib Əli oğlu (1959)** - Keşlə Maşınqayırma zavodu Törəmə Açıq tipli Səhmdar Cəmiyyətinin sədri, vətənpərvər ziyalı;
**Məmmədov Həmid Oruc oğlu (1930)** - uzun illər Füzuli rayon XDS-nin sədri vəzifəsində işləmiş ağsaqqal ziyalı;
**Məmmədov Həsən Əsədullah oğlu (1908-1978)** - ticarət sahəsində müxtəlif vəzifələrdə işləmiş ziyalı;
**Məmmədov Həsənqulu Mirzə Məmməd oğlu (1928)** - tanınmış həkim;
**Məmmədov Hüseyn** - uzun müddət Telman adına sovxozun direktoru olmuş ziyalı;
**Məmmədov Cavanşir Ağalar oğlu (1930)** - uzun müddət Beyləqan, Tərtər, Füzuli RPK-nin birinci katibi vəzifəsində işləmiş və dəfələrlə Azərbaycan Ali Sovetinin deputatı olmuş ziyalı;
**Məmmədov Camal Səməd oğlu (1941)** - uzun müddət müxtəlif rayonlarda tibbi ekspertiza üzrə baş həkim vəzifəsində çalışmış, hazırda Gəncə şəhər tibbi ekspertiza idarəsinin həkimi işləyən vətənpərvər ziyalı;
**Məmmədov Ceyhun Bahadur oğlu (1963)** - Füzuli rayon Rabitə şöbəsinin müdiri, tanınmış ziyalı;
**Məmmədov Ceyhun Kamran oğlu (1961)** - təcrübəli həkim-stomatoloq;
**Məmmədov Şaiq Bəhram oğlu (1945)** - tanınmış jurnalist, publisist, ziyalı;
**Məmmədov Şamxal** - kimya elmləri doktoru, professor, AMEA-nın müxbir üzvü;

**Məmmədova Asya Əli qızı (1928)** - Sosialist Əməyi Qəhrəmanı;
**Məmmədova Zülfiyyə** - gənc və istedadlı müğənni, "Muğam müsabiqəsi"nin zil səsə malik olan laureatı;
**Məmmədova Gülüstan** - Füzuli rayonunun təcrübəli dil-ədəbiyyat müəllimi, tanınmış ziyalı;
**Məmmədova Lalə Bəhram qızı (1974)** - istedadlı ziyalı, həkim;
**Məmmədova Sədaqət Nadir qızı (1967)** - bacarıqlı inşaat mühəndisi, vətənpərvər ziyalı;
**Məmmədova Sürəyya Məmməd qızı (1909-?)** - Naxçıvan MR-nın Şərur rayonunda dövlət məmuru işləmiş ziyalı;
**Məmmədova Umleyla Kamran qızı (1947)** - 2 saylı Baza-Tibb texnikumunun müəllimi, vətənpərvər ziyalı;
**Məmmədova Fatma Nadir qızı (1965)** - istedadlı hüquqşünas, vətənpərvər ziyalı;
**Məmmədova Fatma Həsən qızı (1933)** - tanınmış uşaq həkimi, pediatr, Ali dərəcəli həkim;
**Məmmədova Həmayıl Həbib qızı (1926)** - fəxri səhiyyə işçisi, tanınmış həkim, ziyalı;
**Məmmədova Çiçək Həsən qızı (1960)** - tibb elmləri namizədi, tanınmış həkim-pediatr;
**Məmmədxanov Anar Camal oğlu (1970)** - Milli Məclisin üzvü, "Şən və hazırcavab bakılı oğlanlar" klubunun kapitanı, ziyalı;
**Məmmədxanov İslam Kərim oğlu (1905-1977)** - tanınmış həkim, cərrah;
**Məmmədxanov Məmmədxan Kərbəlayi Məmmədqulu oğlu (1848-1883)** - molla yanında oxuyub təhsil almış dövrünün görkəmli şəxsiyyəti;
**Məmmədxanov Məmmədxan Məmmədxan oğlu (1883-1938)** - Qaryagin qəza PK-nın sədri, alovlu inqilabçı, AK(b)P-nin I qurultayının nümayəndəsi, Azərbaycan KP MK və Azərbaycan MİK-nin üzvü, "Qırmızı Bayraq" ordenli ziyalı, repressiya qurbanı;
**Məmmədxanov Camal İslam oğlu (1938)** - BDU-nun Mexanika-riyaziyyat fakültəsində "Funksiyalar nəzəriyyəsi" kafedrasının professoru, fizika-riyaziyyat elmləri doktoru;



**Məmmədxanova Nahidə Camal qızı (1965)** - Bakı Slavyan Universitetində "Dünya ədəbiyyatı" kafedrasının müdiri, filologiya elmləri doktoru, professor;
**Məmmədhüseyn bəy Səlif bəy oğlu (1806-?)** - mədrəsə təhsilli ziyalı;
**Mətləb bəy Məşədi Paşa bəy oğlu (1918-2003)** - dövrünün savadlı ziyalısı;
**Məhəmməd bəy Qəhrəman bəy oğlu (1911-2003)** - müxtəlif vəzifələrdə çalışmış və təhsil görmüş ziyalı;
**Məhəmməd bəy Məhəmmədqulu ağa oğlu** - Pənahəli xanın atlı dəstəsində xidmət etmiş Veysəlli obasının mədrəsə təhsili almış qorxmaz oğlu;
**Məmmədqulu bəy Murtuzaqulu bəy oğlu Veysəlli (1878-?)** - İbrahimxəlil xana və Mehdiqulu xana xidmət etmiş və mədrəsə təhsili almış ziyalı;
**Məhəmmədqulu Məhəmmədxan ağa oğlu** - bir müddət osmanlı ordusunda və Nadirqulu xanın dəstəsində döyüşüb, sonralar Qarabağa qayıtmış Veysəlli obasının mərd igidi;
**Məhəmmədxan ağa Yüzbaşı (1660-1725)** - Səfəvilər dönəmində xeyli tiyul və soyurqal torpaqlara yiyələnmiş Veysəlli obasının yüzbaşısı;
**Məhərrəmov Ədhəm Mirzə Qara oğlu (1926-1978)** - Lomonosov adına MDU-nun məzunu, Azərbaycanın Ali tədris ocaqlarında və Bakı Ali Partiya məktəbində müəllim kimi çalışmış ziyalı;
**Məhərrəmov Əkbər Bəhram oğlu (1943)** - AMEA Fizika İnstitutunun dosenti;
**Məhərrəmov Məhəmməd Əhməd oğlu** - hərbi poliklinikanın rəisi, polkovnik-leytenant;
**Məhərrəmov Mirzə Qara Ağalar oğlu (1890-1942)** - Qaryaginin Qori müəllimlər seminariyasını bitirmiş ilk məzunlarından biri, Qaryagin (Füzuli) Pedaqoji texnikumunun sabiq direktoru;
**Məhərrəmov Mösü Rüstəm oğlu (1912)** - Sosialist Əməyi Qəhrəmanı;

**Məhərrəmova (Cahangirova) Qəmər İbrahim qızı (1907-1971)** - H.Z.Tağıyevin təsis etdiyi Qızlar gimnaziyasının ilk məzunlarından biri, uzun illər Füzuli rayon Sosial Təminat idarəsinin müdiri işləmiş ziyalı;
**Məhərrəmova Günel** - "Azərstar" mahnı müsabiqəsinin qalibi;
**Məhzun Mirzə İsmayıl Kərbəlayi Qasım oğlu Merdinli** - şair, xəttat, pedaqoq, "Məclisi-üns"ün üzvü;
**Məşədi Zeynəb (Yunis bəyin həyat yoldaşı)** - xeyirxah ağbirçək, savadlı xanım;
**Məşədi Yunus bəy Məşədi Təhməz bəy oğlu** - dövrünün tanınmış ziyalısı, repressiyaya məruz qalmış mərd vətənpərvər, ermənilərə qarşı barışmaz mübariz;
**Məşədi Mahmud Kazım bəy oğlu (1839-1902)** - türk və fars dillərində yazıb yaratmış şair, tacir;
**Məşədi Mirzə Məmmədqulu bəy Kərbəlayi Həsənqulu bəy oğlu (1844-?)** - mükəmməl mədrəsə təhsili almış ziyalı;
**Məşədi Paşa bəy Məşədi Səfəralı bəy oğlu (1877-1937)** - repressiya qurbanı olan mərd, igid, vətənpərvər ziyalı;
**Məşədi Səfəralı bəy Kərbəlayı Abbasqulu bəy oğlu (1840-1911)** - dövrünün müdrik, hazırcavab, varlı ziyalısı;
**Məşədi Təhməz bəy** - XIX əsrdə yaşamış iri mülk sahibi, Əhmədalılar kəndinin sayılıb-seçilən ağsaqqalı, ermənilərə qarşı fəal mübariz;
**Məşədi Hacı bəy Vəliməhəmməd oğlu Kovxalı (1783-1850)** - Sərdarlı, Qoçəhmədli kəndlərinin kovxası;
**Məşədi Hürzad** - XIX əsrin sonu, XX əsrin əvvəllərində Horadiz kəndində yaşamış həzin, kövrək, məlahətli və zil səsə malik qadın xanəndə, xalq artisti Seyid Şuşinskinin xalası;
**Məşədi Şamaxı (Məşədi Təhməzin həyat yoldaşı)** - xeyirxah ağbirçək, ziyalı qadın;
**Məşədi Şirin Hacı bəy oğlu (1802-1870)** - molla yanında təhsil almış dövrünün savadlı adamı;
**Mir Yusif Əfəndi Mir Abdulla oğlu Saracıqlı** - mədrəsə təhsilli ruhani, molla;



**Mir Mehdi Xəzani Mir Haşım oğlu (1819-1894)** - görkəmli şair, tarixçi, "Qarabağ tarixi" nin müəllifi;
**Mir Mustafa Əfəndi Molla Mir Yusif oğlu (1794-1864)** - mahalın dini işləri ilə məşğul olan mollası;
**Mirzə Əhməd Mirzə Xudaverdi oğlu Zərgar (1793-1883)** - məşhur tarixçi, sərhədbəyi;
**Mirzə Sadıq İmanxan oğlu Qarabaği Piran-Rəfədinli - (1811-1892)** - görkəmli şair, rəssam, xanəndə, "Məclisi-üns"ün üzvü, əslən Rəfədinli kəndindən olan ziyalı;
**Mirzə Surxay Rzaqulu ağa oğlu (1890-1945)** - şair, dövrünün nüfuzlu ziyalısı;
**Mirzə Xələf (1790-1860)** - Xələfovlar soyunun ulu babası, dövrünün böyük nüfuz sahibi, Şuşada mədrəsə təhsili almış ziyalı, Təbrizdə tibb təhsili almış həkim, mükəmməl təhsilinə görə "mirzə" ləqəbi ilə adlandırılmış vətənpərvər qarabağlı;
**Mirzə Həmid bəy Zeynalabdin bəy oğlu (1827 - ?)** - Dərbənd və Qars şəhərlərinin mülki hakimi, kollec asessoru, III dərəcəli "Müqəddəs Anna" və "Müqəddəs Stanislavski" ordenli ziyalı;
**Mirzə Camal Qalabəyli Məhəmmədxan bəy oğlu Cavanşir-Dizaği (1773-1853)** - Azərbaycan tarixçisi, şair, Qarabağ xanlığının baş mirzə və vəziri olmuş ziyalı;
**Mirzəbəyli Afiq (Afiq Mirzə) Yelmar oğlu (1967)** - tanınmış publisist, "Reytinq" qəzetinin təsisçisi və baş redaktoru, Qarabağ müharibəsinin iştirakçısı;
**Mirzəyev Anar Nadir oğlu (1976)** - tanınmış sahibkar, Qarabağ müharibəsi iştirakçısı, vətənpərvər ziyalı;
**Mirzəyev İlham Şahin oğlu (1952)** - Prezident Aparatının hüquqşünası, Ədliyyə Nazirliyinin Bakı şəhər bölgəsinin əməkdaşı, tanınmış hüquqşünas, vətənpərvər ziyalı;
**Mirzəyev Kamil (1938)** - tanınmış kardioloq həkim;
**Mirzəyev Miriş** - "Azərittifaq"ın Füzuli rayon şöbəsinin müdiri;
**Mirzəyev Mübariz İsgəndər oğlu (1956)** - "İgidliyə görə" medalı ilə təltif edilmiş orqan işçisi, Suraxanı rayonunun sahə müvəkkili, polis mayoru;

**Mirzəyev Nadir Abbas oğlu (1947)** - "Azərsun" şirkətinin mütəxəssisi, Qarabağ müharibəsi iştirakçısı, vətənpərvər ziyalı;
**Mirzəyev Tofiq** - tanınmış hüquqşünas, prokuror, ziyalı;
**Mirzəyev Umud Rəhim oğlu (1959)** - Beynəlxalq Avrasiya Mətbuat Fondunun sədri, tanınmış şair, publisist;
**Mirzəyev Şahin Fərman oğlu** - BDU-nun Hüquq fakültəsinin müəllimi işləmiş ziyalı;
**Mirzəyeva Arəstə Məmmədəli qızı (1917)** - Sosialist Əməyi Qəhrəmanı;
**Mirzəliyev Kamil Hacı oğlu (1964)** - tanınmış musiqiçi, gitaraçı, ziyalı;
**Molla Abbas** - dövrünün savadlı ruhani ziyalısı;
**Molla Abbas Molla Əhməd oğlu (1841 - ?)** - Şuşa şəhərində təhsil almış molla;
**Molla Bəymənmməd Kərbəlayi Murad oğlu Bülbül Cavanşir (1837-1900)** - mükəmməl mədrəsə təhsili görmüş şair, "Məclisiüns"ün üzvü, Şərq dillərinin bilicisi;
**Molla Məhəmməd Qazi Molla Səid oğlu** - qazı, tanınmış şair;
**Molla Məhi** - tanınmış ruhani, ziyalı;
**Molla Səfi Molla Nəbi oğlu (1797-1880)** - axund, Zəngəzur qəzasının qazısı;
**Molla Hacı Molla Hüseyn oğlu (1809-?)** - Şuşa və Təbriz şəhərlərində mükəmməl təhsil almış və vergidən azad edilən prixod mollası, axund;
**Molla Hüseynəli Məhərrəm bəy oğlu (1808 - ?)** - Təbrizdə mədrəsə təhsili almış ruhani;
**Molla Cəfər Molla Əhməd oğlu (1828-?)** - Şuşada mədrəsə təhsili almış və dövlət vergisindən azad edilmiş prixod mollası;
**Mövsümov Gəncalı Muxtar oğlu (1913-1995)** - rayonun tanınmış dil-ədəbiyyat müəllimi, təcrübəli pedaqoq;
**Mövsümov Mahir Gəncalı oğlu (1961)** - Polis Akademiyasının xidmət rəisi, Qarabağ döyüşlərinin fəal iştirakçısı, polis mayoru;
**Mövsümova Ərkinaz Gəncalı qızı (1947)** - Azəriqaz Layihə və Təchizat İnstututunun şöbə rəisi, İnstitutun Həmkarlar Komitəsi və Qadınlar şurasının sədri;



**Muradov Allahverdi Bahadur oğlu (1948)** - tanınmış musiqiçi, qarmon müəllimi, görkəmli faemi ifaçısı;
**Muradov İdris Cavad oğlu (1928)** - Respublikanın əməkdar müəllimi, "Qabaqcıl maarif xadimi", "Sosializm yarışının qalibi", 50 ildən çox pedaqoji fəaliyyətlə məşğul olmuş fizika-riyaziyyat müəllimi, tanınmış ziyalı, Baş müəllim;
**Muradov Təhmasib Yusif oğlu (1958)** - Az. SNAB Sənaye Tikinti Şirkətinin Baş direktorunun müavini;
**Muradov Fərman Musa oğlu (1906)** - Sosialist Əməyi Qəhrəmanı;
**Muradov Hacı Natiq Əli oğlu oğlu (1959)** - tanınmış ziyalı, iş adamı;
**Muradov Çərkəz Musa oğlu (1918)** - Sosialist Əməyi Qəhrəmanı;
**Muradov Cəlil** - Sosialist Əməyi Qəhrəmanı;
**Muradova Almaz (1941)** - AMEA Tarix İnstitutunun aparıcı elmi işçisi, tarix elmləri namizədi;
**Muradova Bahar Əvəz qızı (1962)** - Azərbaycan Respublikası MM-nin vitse-spikeri;
**Muradova Validə Cəlil qızı (1936)** - tanınmış müəllim, ziyalı;
**Muradova Qəmzə Cabbar qızı (1915-2003)** - müxtəlif vəzifələrdə çalışmış ziyalı;
**Muradova Gülnaz Cəlil qızı (1945)** - maşınqayırma texnologiyası üzrə mütəxəssis;
**Murtuza bəy Kazım bəy oğlu (1824-1900)** - Dövlət məmuru, Şuşa şəhər bəy komissiyasının üzvü, Quberniya katibi;
**Murtuzaqulu bəy Məhəmməd bəy oğlu Veysəlli (1836-?)** - İbrahimxəlil xana xidmət etmiş mədrəsə təhsilli mülkədar;
**Musa bəy Azad bəy oğlu (1908-1982)** - Azərbaycanın əməkdar mühəndisi, Ağdam, Şəki, Füzuli rayonlarında və Bakı şəhərində yol sahəsi rəisi, Nazirlər Soveti yanında Baş Yol İdarəsinin rəisi, Baş Şose Yollar İdarəsinin rəisi vəzifələrində çalışmış ziyalı;
**Musa bəy Cəfər bəy oğlu (1838-1900)** - özəl mülkünü idarə edən mədrəsə təhsilli ziyalı;

**Musayev Akif Fərhad oğlu (1947)** - AMEA-nın müxbir üzvü, iqtisad elmləri doktoru, professor, Azərbaycan Dövlət İqtisad Universitetinin "Vergi və vergiqoyma" kafedrasının müdiri, Vergilər Nazirliyi "Vergi siyasəti və strateji araşdırmalar" Baş İdarəsinin rəisi;
**Musayev Bağman (Kərimbəyli) Cəfərqulu oğlu (1956)** - həzin və zil səsə malik təcrübəli xanəndə;
**Museyib bəy Kərbəlayi Əsədulla bəy oğlu Sərdarlı (1893-1976)** - müqəddəs Kərbəlanı ziyarət etmiş dövrünün savadlı adamı;
**Muxtarov Muxtar Nəcəfqulu oğlu (1923-1997)** - tanınmış müəllim, Dövlətyarlı kənd orta məktəbinin direktoru;
**Muxtarov Nəbi Muxtar oğlu** - Füzuli rayon İcra Hakimiyyətinin başçısı;

## - N -

**Nağıyev Bulud Turab oğlu** - tanınmış ziyalı, aqronom, kənd təsərrüfatı sahəsində bir sıra rəhbər vəzifələrdə işləmiş mütəxəssis;
**Nağıyev Vəkil Yavər oğlu (1952)** - "Tufan" futbol komandasının keçmiş məşqçisi, ziyalı;
**Nağıyev Qaryağdı Əbdülqara oğlu** - Xətai telefon qovşağının xətt istismar rəisi, tanınmış rabitəçi, ziyalı;
**Nağıyev Əsgər Misirxan oğlu** - tanınmış təsərrüfatçı, ziyalı;
**Nağıyev Hüseyn Nağı oğlu (1914-1941)** - Böyük Vətən müharibəsində həlak olmuş "Qızıl Araz" və "Kommunist" qəzetinin müxbiri;
**Namazalı Ərşad Mösü oğlu (1940)** - "Əmək Şöhrəti" ordenli nəqliyyatçı, SSRİ Dövlət Mükafatı laureatı;
**Namazəliyev Qurban Hüseyn oğlu (1947-1991)** - Meliorasiya və Su təsərrüfatı nazirinin müavini, Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuş vətənpərvər ziyalı;
**Namazəliyev Əkbər Hüseyn oğlu (1955)** - tanınmış alim, iqtisad elmləri namizədi, İqtisad Universitetinin baş müəllimi;
**Namazəliyev Əfsər Hüseyn oğlu (1957)** - tanınmış güləşçi, məşqçi, Azərbaycan və Dünya çempionu;
**Namazəliyev Mətləb Əvəz oğlu** - hərbçi, polkovnik;



**Naməzəliyev Məcnun Surxay oğlu (1942)** - tanınmış jurnalist, publisist, uzun illər rayonda çıxan "Araz" qəzetinin baş redaktoru olmuş ziyalı;
**Namazəliyev Nizami Nəriman oğlu (1958)** - Qaradağ rayon bələdiyyəsinin sədri, tanınmış vətənpərvər ziyalı;
**Namazəliyev Tofiq Vəli oğlu (1956)** - Dövlət dəmiryolu idarəsinin məsul əməkdaşı, tanınmış ziyalı;
**Namazəliyev Fərzalı** - Beyləqan rayon DTK-nin sədri;
**Namazəliyev Həsən Namaz oğlu** - hərbi həkim, polkovnik;
**Namazəliyev Hüseyn İbad oğlu** - iqtisad elmləri doktoru, professor;
**Namazov Bayramalı Murad oğlu (1937)** - gəmiçilik üzrə mütəxəssis, SSRİ Dövlət mükafatı laureatı (1985), Dənizçilik Akademiyasının dekanı;
**Namazov Vəli** - xeyirxah əməllər sahibi olan vətənpərvər ziyalı;
**Namazov Ramiz Zülfüqar oğlu (1963)** - tanınmış iş adamı, vətənpərvər ziyalı;
**Namazova Cəmilə Bayraməli qızı (1961)** - Azərbaycan Dövlət İqtisad Universitetində "İqtisadi Təhlil və Audit" kafedrasının müdiri, iqtisad elmləri namizədi;
**Nəbiyev Sərdar Əfsər oğlu (1935)** - 7 saylı Füzuli şəhər orta məktəbinin dərs hissə müdiri, təcrübəli pedaqoq, tanınmış vətənpərvər ziyalı;
**Nəzərov Məhərrəm Hüseyn oğlu** - müxtəlif vəzifələrdə çalışmış ziyalı;
**Nəsib Şüküroğlu (1908-1984)** - Füzuli rayon TŞ-nin keçmiş müdiri;
**Nəsibov Bəhram** - tanınmış bəstəkar, tarzən, gitaraçı;
**Nəsirov Adil Təbriz oğlu** - Yekaterinburq şəhərində yaşayan məşhur iş adamı, ziyalı;
**Nəsirov Amil** - Bakı Metropoliteninin hərəkət xidməti idarəsinin sabiq sədri;
**Nəsirov İnzibat (1962)** - təcrübəli həkim-infeksionist;
**Nəsirov Novruz Baba oğlu (1956)** - Azərbaycan Pedaqoji Universitetinin dosenti, fizika-riyaziyyat elmləri namizədi;

**Nəsirov Təşkilat** - həzin və zil səsə malik tanınmış müğənni, C.Qaryağdıoğlu adına mükafatın laureatı;

**Nəsirova Solmaz (1957)** - Füzuli rayon VVAQ şöbəsinin müdiri, tanınmış ziyalı;

**Nəcəfov Akif** - tanınmış ziyalı, təcrübəli fizika müəllimi;

**Nəcəfov Yelmar Baba oğlu (1944)** - Dillər Universitetinin dosenti;

**Nəcəfov Təhməz** - uzun müddət kommunal xidməti idarəsinin rəisi vəzifəsində çalışmış vətənpərvər ziyalı, "Quruçay" Xeyriyyə Cəmiyyəti İdarə Heyətinin üzvü;

**Nəciyev Hüseyn Sərxan oğlu** - Füzuli rayon Kərimbəyli kənd bələdiyyəsinin sədri, "Qabaqcıl marrif xadimi";

**Niyazi Mustafa bəy oğlu (1913-1973)** - Moskva Atom Fizikası İnstitutunun elmi işçisi, kimya elmləri namizədi;

**Niftalıyev Rasim Niftalı oğlu** - tibb elmləri namizədi, ATU-nun Patoloji anatomiya kafedrasının assistenti;

**Novruz bəy Məşədi Şirin oğlu Kovxalı (1846-1917)** - özəl təsərrüfatını idarə etmiş dövrünün təhsilli ziyalısı;

**Novruzov Allahyar Məmməd oğlu (1959)** - tanınmış həkim, terapevt, Xətai rayon Təcili Tibbi Yardım Xəstəxanasının həkimi, ziyalı;

**Novruzov Eldar Mədəd oğlu (1948)**- tanınmış müğənni, bir sıra müsabiqələr laureatı;

**Novruzov Ədalət Mürşüd oğlu (1958)** - tanınmış energetik, vətənpərvər ziyalı, təcrübəli elektrik;

**Novruzov İsa** - təcrübəli dil-ədəbiyyat müəllimi, ağsaqqal ziyalı;

**Novruzov İsa Ələkbər oğlu (1922)** - təcrübəli pedaqoq;

**Novruzov Yavər** - Bakı Baş Tikinti İdarəsi 2 saylı Tikinti idarəsinin rəisi;

**Novruzov Mətləb** - müxtəlif rayonlarda prokuror işləmiş hüquqşünas, ziyalı;

**Novruzov Novruz Əhməd oğlu (1937)** - tanınmış alim, geologiya-minerologiya elmləri namizədi;



**Novruzov Novruzxan Əmir oğlu** - müdrik ağsaqqal, əmək və müharibə veteranı, kəşfiyyatçı kapitan, adlı-sanlı ziyalı, energetika və elektrikləşdirmə əlaçısı;

**Novruzov Fəxrəddin Məhərrəm oğlu** - biznes fəaliyyəti ilə məşğul olan kommersant, ziyalı;

**Novruzov Hətəm** - tanınmış vətənpərvər ziyalı;

**Növrəs Mirzə Ələsgər Abdin bəy oğlu Əhmədbəyov (1836-1911)** - əslən Zərgər kəndindən olan tanınmış ziyalı, şair, musiqiçi, "Məclisi-üns" və "Məclisi-Fəramuşan"ın üzvü;

**Nuriyev Əziz (1890-1930)** - Sərdar (Füzuli) rayon İcraiyyə Komitəsinin sədri vəzifəsində çalışmış mərhum ziyalı, təsərrüfatçı;

**Nuriyev Əli Babalar oğlu (1961)** - təcrübəli müəllim, ziyalı, ruhani;

**Nuriyev Əli Xudu oğlu** - Azərbaycan MEA-nın müxbir üzvü, professor;

**Nuriyev Xanlar** - uzun müddət Füzuli rayon Uşaq xəstəxanasının baş həkimi işləmiş ziyalı;

## - O -

**Orucov Allahverdi Oruc oğlu (1944)** - Azərbaycan Texniki Universitetinin dosenti, Elektrik təchizatı və elektrik izolyasiyası kafedrasının əməkdaşı;

**Orucov Valeh Behbud oğlu (1928)** - şair, qəzəlxan, Məmməd Oruclunun qardaşı;

**Orucov Etibar** - hüquqşünas, hakim Füzuli, Qubadlı qarnizonlarının hərbi məhkəməsinin sədri;

**Orucov İsgəndər** - uzun müddət müxtəlif vəzifələrdə çalışmış ağsaqqal ziyalı, Taxıl məhsulları kombinatının keçmiş direktoru;

**Orucov Məmməd (Məmməd Oruclu) Behbud oğlu (1907-1961)** - Sosialist Əməyi Qəhrəmanı, Azərbaycan KP MK-nın üzvü, 2-5-ci çağırış Azərbaycan SSR Ali Sovetinin deputatı, Qırmızı Əmək Bayrağı, "Şərəf Nişanı" ordenli ziyalı, vaxtilə Ağdam və Beyləqan RPK-nin birinci katibi vəzifələrində çalışmış dövlət məmuru, tanınmış dövlət və ictimai xadim;

**Orucov Sahib** - Sovet hakimiyyətinin ilk illərində Gəncə Kənd Təsərrüfatı texnikumunun kimya müəllimi olmuş ziyalı;
**Orucov Fazil Məmməd oğlu** - müxtəlif məsul vəzifələrdə çalışmış ziyalı;
**Orucov Hidayət** - Müdafiə Nazirliyində Texniki Təchizat şöbəsinin rəisi, polkovnik;

- P -

**Paşayev Əbdüləzim** - tanınmış pedaqoq, fars, ərəb dillərini mükəmməl bilən dil-ədəbiyyat müəllimi, qabaqcıl maarif xadimi;
**Paşayev Yusif Camal oğlu (1907-1983)**- Qarabağda tanınmış ziyalılardan biri, qabaqcıl maarif xadimi;
**Paşayev Məstəli** - Zaqatala RPK-nin birinci katibi vəzifəsində işləmiş ziyalı;
**Paşayev Murtuz** - texnika elmləri doktoru, professor, keçmiş SSRİ Baş Aviasiya konstruktoru, general-mayor;
**Paşayev Razim Ənvər oğlu (1951)** - tanınmış bəstəkar, musiqiçi, tarzən, dəyərli ziyalı;
**Pənahəli xan İbrahim ağa oğlu Cavanşir Bəhmənli (1700-1763)** - Cavanşir elinin Bəhmənli qolunun Sarıcalı boyundan olan Qarabağ xanı (1747-1761), Qarabağ xanlığının banisi;
**Piriyev Baratəli Zülfüqar oğlu (1964)** - Zaminbankın İdarə Heyətinin sədri, ziyalı;
**Piriyev Elman Zülfüqar oğlu (1935-2006)** - tanınmış təsərrüfat rəhbəri, uzun müddət şərabçılıq zavodunun müdiri vəzifəsində işləmiş ziyalı;
**Piriyev Mübariz** - istedadlı şair, ziyalı, Beynəlxalq Avrasiya Fondonun əməkdaşı;
**Piriyev Teymur Bünyad oğlu (1960)** - vətənpərvər ziyalı, rayonlararası Kino Birliyinin direktoru;



- R -

**Rəfiyev Qabil** - Füzuli rayon VVAQ-ın keçmiş müdiri, tanınmış şair, ziyalı;
**Rəfiyev Məmməd Abbas oğlu (1927)** - uzun müddət Füzuli rayon məişət xidməti idarəsinin, sosial müdafiə şöbəsinin rəisi və başqa vəzifələrdə işləmiş ziyalı;
**Rəfiyev Xəlil Abbas oğlu (1933-2001)** - tarix elmləri doktoru, professor, uzun illər Xalq Təsərrüfatı İnstitutunda çalışmış ziyalı;
**Rəfiyeva Gülnarə Qəzənfər qızı** - Füzuli rayon İH başçısının Sumqayıt şəhərində məskunlaşan köçkünlər üzrə ictimai əsaslarla səlahiyyətli nümayəndəsi;
**Rəfili Nizaməddin Rəşid oğlu** - Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Qapalı Səhmdar Cəmiyyətinin böyük redaktoru;
**Rəhimov Rasim Lətif oğlu (1956)** - dəyərli iş adamı, iqtisadçı, vətənpərvər ziyalı;
**Rəhimov Sahib (1938)** - Tikinti Materialları Dövlət Şirkətinin vitse-prezidenti və s. məsul vəzifələrdə çalışmış ziyalı, Azərbaycan Respublikası Qaçqınlar Komitəsinin sədr müavini;
**Rzaqulu bəy Məşədi Hacı bəy oğlu (1840 - ?)** - əsli Sərdarlı kəndindən olan molla yanında oxumuş Qarğabazar kəndinin yüzbaşısı;
**Rzaqulu bəy Mirzə Camal oğlu Vəzirov (XIX əsr)** - görkəmli ziyalı, tarixçi;
**Rzayev Vəli Əli oğlu** - rayonda müxtəlif məsul vəzifələrdə çalışmış el ağsaqqalı, tanınmış ziyalı;
**Rzayev İslam Tapdıq oğlu (1934)** - Respublikanın xalq artisti, görkəmli xanəndə, "Muğam teatrı"nın yaradıcısı, Prezident təqaüdçüsü, "Şöhrət" ordenli pedaqoq;
**Rzayev Rəşid** - Tuğ kənd məktəbinin təcrübəli riyaziyyat müəllimi, vətənpərvər ziyalı;
**Rzayev Halus Abbas oğlu** - tikinti sahəsində çalışan iş adamı;
**Rzayeva Havvaxanım Abbas qızı (1910)** - Sosialist Əməyi Qəhrəmanı;

**Rzayeva Şamama** - Azərbaycan SSR Baş Sovetinin keçmiş deputatı, əl ilə gündə 250 kq pambıq yığan kolxozçu;
**Rüstəmzadə Sabir (1947-1990)** - mərhum jurnalist, istedadlı publisist;
**Rüstəmov Allahverdi Ağamməd oğlu (1966)** - Avropa Kiokuşun Karate təşkilatının üzvü, IV dan qara kəmər ustası, Respublikanın əməkdar məşqçisi, Beynəlxalq dərəcəli idman ustası;
**Rüstəmov Elman Zeynal oğlu** - Az.TU-nun dosenti;
**Rüstəmov Rüstəm** - Xatunbulaq kəndinin dəyərli, vətənpərvər, xeyirxah ziyalısı;
**Rüstəmov Rüstəm Sabir oğlu (1957)** - istedadlı ziyalı, təcrübəli müəllim, məktəb direktoru, Qarabağ müharibəsinin veteranı;
**Rüstəmov Seyid İdris oğlu** - kollektivləşmə illərində Qaryagin MTS-nin təmir şöbəsinin müdiri olmuş inşaatçı, vətənpərvər ziyalı;
**Rüstəmov Həmid Molla Abbas oğlu (1884-1937)** - Azərbaycan Respublikası Torpaq komissarının müavini, repressiya qurbanı;
**Rüstəmova Gülzar Mahmud qızı (1917-1982)** - Sosialist Əməyi Qəhrəmanı;
**Rüstəmova Lalə Hamlet qızı (1974)** - Bakı Slavyan Universiteti "İbtidai təhsil" kafedrasının əməkdaşı;

## - S -

**Sadıq bəy Qalabəyi Məhəmmədxan bəy Gecəgözlü-Cavanşir** - IV dərəcəli "Müqəddəs Anna" ordeni ilə təltif olunmuş çar ordusunun praporşiki;
**Sadıqov Ağa Səhliyalı oğlu (1937)** - ADNA-nın dosenti, texnika elmləri namizədi, Əlcəzair Neftqaz İnstitutunda çalışmış ziyalı;
**Sadıqov Qismət Mübariz oğlu (1978)** - hüquqşünas, polis baş leytenantı, DİN-in Hava NPİ-də İctimai təhlükəsizlik şöbəsinin inspektoru;



**Sadıqov Kamal Cavad oğlu (1927)** - tanınmış həkim-rentgenoloq;
**Sadıqov Musa** - Beyləqan rayon tikinti idarəsinin müdiri vəzifəsində çalışmış ağsaqqal ziyalı;
**Sadıqov Mübariz Allahverən oğlu (1951)** - Bakı şəhərində yaşayan iş adamı;
**Sadıqova Zərif Qafar qızı (1924)** - müxtəlif vəzifələrdə çalışmış dəyərli ziyalı;
**Sadıqcan, Mirzə Sadıq Əsəd oğlu (1846-1902)** - müasir Azərbaycan tarının yaradıcısı, məşhur tarzən, tar simlərinin sayını 11-ə endirmiş görkəmli musiqiçi;
**Salamzadə Oqtay** - görkəmli publisist, yazıçı, ilahiyyatçı, AKİVHİ-nin sədri;
**Salmanov Vaqif Museyib oğlu (1942)** - BDU-nun professoru, fizika-riyaziyyat elmləri doktoru, lazer spektroskopiya sahəsində elmi məktəb yaratmış görkəmli alim, Beynəlxalq Elmlər Akademiyasının üzvü;
**Seyid Abdulla Seyid Rüstəm oğlu** - Qarabağın ağır seyidlərindən biri;
**Seyid Abış Seyid Həmzə ağa oğlu** - Qarabağın ağır seyidlərindən biri olan ziyalı;
**Seyid Ağa Xələfşəli** - sınanmış seyid, ocaq;
**Seyid Əşrəf ağa Seyid Əhməd ağa oğlu Mirhaşımov (1936-1999)** - füzulilərin and yerinə çevrilmiş müqəddəs insan, Qarabağın ağır seyidlərindən biri;
**Seyid İdris ağa Seyid Fətulla oğlu** - sınanmış ocaq;
**Seyid Yəhya ağa Seyid Abdulla ağa oğlu** - rayonda və ondan kənarda tanınmış müqəddəs insan;
**Seyid Miryaqub ağa Seyid Yəhya oğlu** - tanınmış həkim, cərrah, vətənpərvər ziyalı;
**Seyid Səyyad Hüseynqulu oğlu Hüseynov** - təvazökar, nurlu, müqəddəs insan, təcrübəli ziyalı, istedadlı şair;
**Seyid Fatma Seyid qızı** - Dövlətyarlı kəndində yaşamış, nüfuzlu, hörmətli, əməlisaleh, müqəddəs insan;

**Seyid Həmid ağa** - Qarabağın ağır seyidlərindən olan nurlu, müqəddəs insan;
**Seyid Cəlal Seyid Həmid ağa oğlu** - rayonun tanınmış ağır seyidlərindən olan ziyalı;
**Seymur Baycan** - vətənpərvər publisist;
**Seymur Məşədi Ələsgər oğlu** - Köhnə Stalin RİK-nin sədri, Dövlət Nəzarət Komitəsinin sədri, DQMV PK-nin katibi, Nazirlər Sovetinin referenti, Dövlət Texniki Nəzarət Komitəsinin sədr müavini;
**Seyran Səxavət Əsgər oğlu Xanlarov (1946)** - tanınmış yazıçı, publisist, dramaturq, şair;
**Səlimov İzi Famil oğlu (1959)** - gömrük xidməti kapitanı, "Xudafərin" gömrükxanasında qaçaqmalçılıqla mübarizə şöbəsinin rəisi vəzifəsində işləmiş vətənpərvər ziyalı, Qarabağ müharibəsi veteranı;
**Səlimov İsrafil Səlim oğlu (1901-1981)** - tanınmış hüquqşünas, prokuror, Böyük Vətən Müharibəsi veteranı, Naxçıvan Muxtar Respublikasının Baş prokuroru və s. vəzifələrdə çalışmış ziyalı;
**Səlimov Famil İsmayıl Oğlu (1933-1985)** - tanınmış iqtisadçı, baş mühasib vəzifəsində işləmiş xeyirxah ziyalı;
**Səltənət xanım Mirzə Əbdülrəzzaq bəy qızı - (?-1986)** - Qaryagin (Füzuli) rayonunda ilk qız məktəbində dərs deyən yeganə qadın, sonralar ADNA-da müəllim, ziyalı;
**Səməd bəy Əsəd bəy oğlu (1853 - ?)** - əslən "Hacılı" icmasından olan məşhur şair, "Məclisi-üns"ün üzvü, Q.B.Zakirin nəvəsi, Abdulla bəy Asinin bacısı oğlu;
**Səməd bəy Gilabi bəy oğlu (1914-1942)** - Böyük Vətən müharibəsində itkin düşmün Qaryagin Xalq Teatrının aktyoru;
**Səmədov Arif (1937)** - vaxtilə Füzuli rayon UGİM-nin direktoru vəzifəsində çalışmış ziyalı, tanınmış idmançı;
**Səmədov Behbud Səlim oğlu (1935)** - tanınmış ağsaqqal, 47 saylı Füzuli şəhər orta məktəbinin təcrübəli tarix müəllimi;
**Səmədov Rəhman Bəykişi oğlu (1955)** - coğrafiya elmləri namizədi;



**Sərdarov (İbrahimov) Bünyad Mədət oğlu (1889-1919)** - görkəmli inqilabçı;
**Sərdarov Bünyad Sərdar oğlu (1944)** - texnika elmləri namizədi, professor, Azərbaycan Dövlət Memarlıq İnşaat Universitetinin "Yapışdırıcı materiallar və betonların texnologiyası kafedrası"nın müdiri, Əməkdar Ali məktəb işçisi, Meksika Universitetinin gümüş medalına layiq görülmüş görkəmli ziyalı;
**Sərdarov Rafiq Sərdar oğlu** - uzun müddət müxtəlif məsul vəzifələrdə (Əli Bayramlı şəhər İcra Hakimiyyəti başçısı və s.) işləmiş görkəmli ziyalı;
**Sərdarov Sərdar Bünyad oğlu (1912-1993)** - Azərbaycan Dövlət Sənaye Layihə İnstitutunun keçmiş direktoru;
**Sərkərov Nüsrət Nəriman oğlu (1924)** - Sosialist Əməyi Qəhrəmanı;
**Sərkərova Gülüş Cəbrayıl qızı (1926)** - Sosialist Əməyi Qəhrəmanı;
**Səfərəliyev Gəncalı Həzrətqulu oğlu (1892-1974)** - mətin inqilabçı, Oktyabr İnqilabı və Qırmızı Ulduz ordenli ziyalı;
**Səfərəliyev Mirzəli Mobil oğlu (1960)** - Füzuli rayonlararası kənd təsərrüfatı avtomobillərinin satışı idarəsinin müdiri, tanınmış ziyalı;
**Səfərəliyev Rüstəm Qasım oğlu (1909-...)** - tanınmış partiya və dövlət xadimi, 4 Lenin ordenli, Qırmızı Əmək və "Şərəf nişanı" ordenlərinə layiq görülmüş təcrübəli dövlət məmuru, Şəki, Balakən, Zaqatala, Mirbəşir (Tərtər), Göyçay, Bərdə RPK-nin birinci katibi vəzifələrində çalışmış ziyalı;
**Səfərəliyev Xanlar Həsən oğlu (1885-1907)** - görkəmli inqilabçı, fəhlə-bolşevik;
**Səfərəliyeva Afət Rüstəm qızı** - Mamalıq-Ginekologiya İnstitutunun həkimi, ziyalı;
**Səfərli Adışirin** - tanınmış ziyalı, şair;
**Səfərli Söhbət** - tanınmış jurnalist, publisist, ziyalı;
**Səfərov Adışirin** - uzun illər Qaryagin (Füzuli) rayon Dövlət Dram Teatrının (sonralar xalq teatrı) aktyor və rejissoru olmuş ziyalı;
**Səfərov Alıkişi** - istedadlı şair;

**Səfərov Ehtiram** - tanınmış ziyalı, alim, filologiya elmləri doktoru;

**Səfərov İlya** - ADNA-nın fizika kafedrasının dosenti, texniki elmlər namizədi;

**Səfərov Məmməd Ağa oğlu (1929)** - qabaqcıl sürücü, "Sosializm yarışının qalibi", "Kommunist əməyi zərbəçisi";

**Səfərov Məşədi Paşa Səfəralı oğlu (1877-1937)** - mülkədar, dövrünün qəhrəman oğlu, ziyalı, repressiya qurbanı;

**Səfərov Rafiq** - tanınmış ziyalı;

**Səfərov Sabit Haqverdi oğlu (1954)** - Alman şirkətlərində çalışan ziyalı, təsərrüfatçı, aqronom;

**Səfərov Cabir** - Böyük Bəhmənli kəndinin tanınmış ziyalısı, hərbçi-zabit;

**Səfərov Cavad** - AMEA Tarix İnstitutunda Arxeologiya və Etnoqrafiya bölməsinin elmi işçisi;

**Səfi xan Zeynal xan oğlu Cavanşir** - XVIII əsrdə yaşamış Yağlıvənd obasının kələntəri;

**Səfiyev Arif** - AMEA Nizami adına ədəbiyyat institutunun elmi katibi;

**Səfiyev Nizaməddin İzzət oğlu (1960)** - Füzuli rayon Aybasanlı kənd orta uşaq musiqi məktəbinin təcrübəli tar müəllimi, vətənpərvər ziyalı;

**Səfiyeva Ceyran Muxtar qızı (1923)** - Sosialist Əməyi Qəhrəmanı;

**Səfixanlı Aydın Məhəmməd oğlu (1975)** - hüquqşünas, ambudsman, bir neçə dəyərli kitab və elmi məqalələrin müəllifi;

**Səfixanov Vəzir Çərkəz oğlu (1962)** - Şuşa RİH başçısının müavini, Şuşa rayon İH-nin aparat müdiri;

**Səfixanov Mərkəz Məhəmməd oğlu (1930)** - Ali dərəcəli məhkəmə tibb həkim-eksperti;

**Səfixanov Məhəmməd Sarı oğlu (1942-2006)** - fizika-riyaziyyat elmləri namizədi, ATU-nun Tibb və bioloji fizika kafedrasının dosenti, Nabrandakı "Tibb" düşərgəsinin rəisi;

**Səfixanov Namiq Mərkəz oğlu (1967)** - "Çempion Servo" şirkətinin meneceri, vətənpərvər ziyalı;



**Səfixanov Sarı Məhəmməd oğlu (1907-1963)** - tanınmış təsərrüfatçı, nüfuzlu xeyriyyəçi, vətənpərvər ziyalı;

**Səfixanov Hafiz Mərkəz oğlu (1965)** - Piyadalar əleyhinə minaların qadağan olunması uğrunda Beynəlxalq təşkilatın Azərbaycan Komitəsinin rəhbəri;

**Səfixanov Çərkəz Məhəmməd oğlu (1928)** - bir sıra məsul vəzifələrdə çalışmış vətənpərvər ziyalı;

**Səfixanov Şahmirzə Şahmalı oğlu (1959)** - Füzuli rayon İH başçısının Yasamal rayonu üzrə səlahiyyətli nümayəndəsi, Yasamal rayon İH-də aparıcı məsləhətçi, III dərəcəli Dövlət qulluqçusu;

**Səfixanova Aynur Məhəmməd qızı (1979)** - oftolmoloq-həkim, 2 saylı Tibb-Baza Texnikumunun müəllimi;

**Səfixanova Əbirə Çərkəz qızı (1968)** - Şuşa Musiqi Texnikumunun tarix müəllimi;

**Səfixanova Tamaşa Qamboy qızı (1948)** - Ali kateqoriyalı həkim-pediatr, Qaradağ rayon mərkəzi xəstəxanasının şöbə müdiri;

**Səhliyalı bəy Kərbəlayi Mahmud ağa oğlu (1745-1820)** - İbrahimxəlil xan və Mehdiqulu xana xidmət etmiş dövrünün sayılıb-seçilən ziyalısı;

**Soltan Hüseynalı oğlu Yağlıvəndi (1823-1890)** - görkəmli şair, tanınmış qəzəlxan;

**Sultanov Abbas Həsən oğlu** - mərhum tikinti mühəndisi, tikinti sahəsində rəhbər vəzifələrdə çalışmış ziyalı;

**Sultanov Əbdül Muxtar oğlu** - Füzuli rayon XDS IK-nin keçmiş sədri;

**Sultanov Yusif Mehralı oğlu (1954)** - xarici humanitar təşkilatın əməkdaşı, ziyalı;

**Sultanov Mehralı Həsən oğlu** - rayonda texniki peşə məktəbinin direktoru vəzifəsində işləmiş dəyərli ziyalı;

**Sultanov Hacıbəy** - görkəmli hərbçi, çar generalı;

**Süleyman bəy Cəfər bəy oğlu Səlifbəyli-Gecəgözlü** - Cavanşir (1836-1900) - mədrəsə təhsili görmüş dövrünün ziyalısı;

**Süleymanzadə Kənan Eyvaz oğlu (1980)** - pauerliftinq üzrə Avropa və dünya çempionu;
**Süleymanov Salman Məhəmməd oğlu (1934)** - SSRİ Dövlət mükafatı laureatı, görkəmli neftçi-geoloq, Kuba Respublikasının "Dövlət" medalı ilə mükafatlandırılmış ziyalı;

- T -

**Tağıyev Əhməd Qafar oğlu** - tanınmış pedaqoq, ziyalı;
**Tağıyev Nazim Hüsü oğlu (1953)** - tanınmış hüquqşünas, müxtəlif vəzifələrdə (Lənkəran rayon prokuroru, Bakı şəhər Prokurorluğunun şöbə müdiri, Respublika Prokurorluğu İstintaq İdarəsinin rəisi, Azərbaycan Respublikası Ali Məhkəməsi aparatının rəhbəri) çalışmış ziyalı, hakim;
**Tağıyev Raqub İmran oğlu (1955)** - tanınmış müğənni;
**Tağıyev Tapdıq İsfəndiyar oğlu (1934)** - uzun illər ticarət sahəsində çalışan və müxtəlif dövlət təltifləri ilə ("Əməkdə fərqlənməyə görə" medalı və s.) mükafatlandırılan nümunəvi ticarətçi, təqaüddə olan Əmək veteranı, "Kommunist əməyi zərbəçisi", "Sosializm yarışının qalibi";
**Tağıyev Hüsü Rzaqulu oğlu (1926)** - uzun illər Füzuli və digər rayonlarda məsul vəzifələrdə çalışan tanınmış ziyalı, iqtisad elmləri namizədi;
**Tağıyev Şəmil Mikayıl oğlu (1911-1981)** - Sosialist Əməyi Qəhrəmanı;
**Tağıyeva Qumru Məhəmmədəli qızı (1930)** - uzun müddət Füzuli rayon Partiya Komitəsinin siyasi maarif kabinetinin əməkdaşı kimi çalışmış ziyalı;
**Tağıyeva Əbirə İsfəndiyar qızı (1936)** - təcrübəli məktəbdar müəllim, tərbiyəçi, vətənpərvər ziyalı;
**Tağıyeva Mükafat Əhməd qızı (1944)** - 8 saylı Füzuli şəhər orta məktəbinin təcrübəli Azərbaycan dili və ədəbiyyat müəllimi, vətənpərvər ziyalı;



**Tağıyeva Natella Əhməd qızı (1939)** - bacarıqlı rəhbər, təcrübəli ziyalı, 4 saylı Füzuli rayon uşaq bağçasının müdiri;
**Tağıyeva Xatirə Qabil qızı (1966)** - 24 saylı Sumqayıt şəhər orta məktəbinin müəllimi, vətənpərvər ziyalı;
**Talıb bəy Zeynalabdin bəy oğlu Vəzirov (1814-?)** - Dizaq mahalının murovu, kollegiya qeydiyyatçısı, tanınmış ziyalı, şair, mükəmməl təhsil görmüş elm və mərifət sahibi;
**Talıblı Rasim (1956)** - istedadlı ziyalı, şair;
**Talıbov Yusif (1930-2005)** - tanınmış alim, pedaqoji elmlər doktoru, professor, Azərbaycan Dövlət Bədən Tərbiyəsi Akademiyasının keçmiş kafedra müdiri;
**Talıbov Surxay Ağa bəy oğlu** - görkəmli neftçi, mühəndis, ziyalı;
**Talıbov Tapdıq Ağa bəy oğlu** - Azərbaycan Memarlıq və İnşaat Universitetinin dosenti, texnika elmləri namizədi;
**Talıbova Tamella** - uzun illər Füzuli rayon PK-nin katibi vəzifəsində işləmiş ziyalı;
**Talıbxanlı Ağa** - dövrünün tanınmış, mərd, nüfuzlu şəxsiyyəti;
**Tapdıq Yüzbaşı** - 130 il ömür sürmüş dövrünün nüfuzlu şəxsiyyəti, Qacar kəndindən olan varlı, vətənpərvər ziyalı;
**Tahir bəy Əlibala bəy oğlu Veysəlli (1773-1843)** - Veysəlli obasının yüzbaşısı, mədrəsə təhsili alan ziyalı, İbrahimxəlil xanın və Mehdiqulu xanın apardığı savaşlarda şücaəti ilə fərqlənən igid;
**Tahirov Mirzəli Məhəmmədəli oğlu** - Respublika Hərbi Hospitalının (Sərhəd Qoşunları) rəis müavini, polkovnik;
**Tahirov Mirzəli Tapdıq oğlu (1910-1973)** - uzun müddət müxtəlif rayonlarda hüquq-mühafizə orqanları sahəsində və Füzuli rayon Arxiv şöbəsinin müdiri vəzifəsində çalışmış ziyalı;
**Tahirov Nazim Mirzalı oğlu (1957)** - uzun müddət rayonlararası təsərrüfat malları bazasının müdiri işləmiş dəyərli ziyalı, iş adamı, vətənpərvər xeyriyyəçi;
**Tahirov Fərhad Namiq oğlu (1987)** - şahmat üzrə 4 dəfə Azərbaycan çempionu, Bakı kubokunun sahibi, Beynəlxalq qrossmeystr (2002), İspaniya, Almaniya, Gürcüstanda keçirilmiş Beynəlxalq turnirlərin qalibi;

**Tahirov Hafiz Məhəmmədəli oğlu (1953)** - Füzuli rayon Təhsil şöbəsinin müdiri, qabaqcıl maarif işçisi;
**Teymur bəy Teymurazbəyov (Teymurov)** - dövrünün mükəmməl təhsil görmüş savadlı ziyalısı;
**Teymurazbəyov Hüseyn bəy (Əliyev) Əsədullah oğlu (1902-1979)** - Böyük Vətən müharibəsi iştirakçısı, tanınmış təsərrüfatçı, müxtəlif orden və medallarla təltif olunmuş ziyalı;
**Teymurov Balaxan** - Füzuli rayon statistika idarəsinin sədri;
**Teymurov İdris Əbdürrəzzaq oğlu (1908-1947)** - Böyük Vətən müharibəsi iştirakçısı, vaxtilə rayonda çıxan "Qızıl Araz" qəzetinin əməkdaşı, yerli radionun direktoru;
**Teymurov Teymur** - istedadlı aktyor, bacarıqlı təqlidçi;
**Teymurov Teymur** - Füzuli rayon Baş Baramaqurutmaxanasının "Şərəf nişanı" ordenli baş aqronomu;
**Teymurov Teymur Ənvər oğlu (1950)** - bir çox məsul vəzifələrdə işləmiş ziyalı;
**Teymurova (Məmmədova) Nazilə Ağamehdi qızı (1971)** - Füzuli rayon Aybasanlı kənd yeddiillik orta uşaq musiqi məktəbinin təcrübəli fortepiano müəllimi, vətənpərvər ziyalı;
**Təbriz Gecəgözlü - Təbriz Misir oğlu Qasımov (1966-1986)** - həyatdan vaxtsız köçmüş istedadlı ziyalı, şair;
**Tərxan bəy Cavad bəy oğlu (1910-1985)** - İşıqlı obasının təhsilli ziyalısı, təsərrüfatçı;
**Təhməzov Vüsal Şahlar oğlu (1990)** - gənc perspektivli boksçu, yeniyetmələr arasında Avro-Asiya kubokunun mükafatçısı, Respublika və Bakı çempionu;
**Təhməzov Yunis Məhərrəm oğlu (1966-2006)** - əlbəyaxa döyüş idman növləri üzrə Ukraynada keçirilən açıq Dünya çempionatının qalibi olmuş və həyatdan vaxtsız köçmüş vətənpərvər ziyalı;
**Təhməzov Məhərrəm Yunis bəy oğlu (1923-1996)** - Azərbaycan Respublikası Dövlət Dəmir Yolu İdarəsi - Horadiz dəmir yol stansiyasının rəisi vəzifəsində çalışmış vətənpərvər ziyalı, Əhmədalılar kəndinin ağsaqqalı;



**Təhməzov Tural Şahlar oğlu (1989)** - yunan-roma güləşi üzrə Bakı və Azərbaycan çempionu, İİR-nın Mazandaran şəhərində keçirilmiş Beynəlxalq çempionatın gümüş mükafatçısı;
**Təhməzov Şahlar Məhərrəm oğlu (1965)** - Azərbaycan Respublikası Nəqliyyat Nazirliyi "M-Trans" MMC-nin hərəkətin tənzimlənməsi şöbəsinin rəis müavini;
**Təhməzova Pərixanım Həsənqulu qızı (1920-1995)** - Əhmədalılar kəndinin tanınmış nüfuzlu, əməksevər qəhrəmanı;

## - F -

**Fədai Bəhram bəy Əsəd bəy oğlu (1856- ?)** - Azərbaycan, rus və fars dillərində klassik üslubda yazıb-yaratmış şair, "Məclisi-Fəramuşan"ın üzvü, Q.B.Zakirin nəvəsi, Abdulla bəy Asinin bacısı oğlu;
**Fərəcov Ənvər (Ənvər Çingizoğlu) Çingiz oğlu (1962)** - görkəmli etnoqraf, tanınmış publisist, Azərbaycan Dövlət Televiziyası Uşaq, Gənclər və İdman redaksiyasının şöbə müdiri, dəyərli ziyalı;
**Fərəcov Çingiz Əliş oğlu (1942)** - Astara, Dəvəçi, Xaçmaz rayonları Partiya Komitələrinin birinci katibi vəzifələrində işləmiş ziyalı, Azərbaycan SSR Ali Sovetinin sabiq deputatı;
**Fərəcov Cəmil Allahverdi oğlu** - Azərbaycan SSR Ali Sovetinin sabiq deputatı;
**Fərzalı Namaz (1914-1994)** - "Qırmızı Ulduz" ordenli DTK-nın əməkdaşı;
**Fəridə xanım Şamil bəy qızı (1921-1986)** - BDU-nun professoru olmuş dəyərli ziyalı, filologiya elmləri doktoru;
Fərrux bəy Mirzə Həmid bəy oğlu (1857-1920) - görkəmli ziyalı, xeyriyyəçi, təsərrüfatçı, mülki müşavir;
**Fərhadov Səlim Adışirin oğlu (1952)** - tanınmış müğənni;
**Fərhadova Suruş Cabbar qızı** - tanınmış təsərrüfatçı, Azərbaycan SSR Ali Sovetinin sabiq deputatı;
**Fikrət Xasay bəy oğlu** - ADNA-nın müəllimi, tanınmış ziyalı;

- Ş -

**Şamil Əhməd oğlu (1936)** - istefada olan ədliyyə polkovniki, tanınmış hüquqşünas, prokuror;

**Şamil bəy İsfəndiyar bəy oğlu (1890-1967)** - Azərbaycan Sənaye İnstitutunda rus dili fənnini tədris edən tanınmış pedaqoq;

**Şamıyev Aydın Musa oğlu (1946)** - DTK orqanlarında çalışıb təqaüdə çıxmış ziyalı, ehtiyatda olan polkovnik-leytenant;

**Şamıyev Elşən Aydın oğlu (1979)** - əczaçı, "Filkofarm" şirkətinin prezidenti;

**Şamıyev Təbriz Musa oğlu (1952)** - Azərbaycan Texniki Universitetinin "Ali riyaziyyat" kafedrasının dosenti, fizika-riyaziyyat elmləri namizədi;

**Şahbazov Taryel Tapdıq oğlu (1963)** - Vergilər Nazirliyi ərazi vergilər idarəsinin kiçik vergi xidməti müşaviri, tanınmış vətənpərvər ziyalı;

**Şahverdiyev Adil Əziz oğlu (1946)** - Nizami rayon Rabitə qovşağının mühəndisi;

**Şahverdiyev Vaqif Heydər oğlu (1958)** - mühəndis-inşaatçı, Aqrar Sənaye Birliyi əsaslı tikinti şöbəsinin müdiri, Betonzavodun baş mühəndisi, Dilağarda Daş Karxanasının direktoru vəzifələrində çalışmış ziyalı;

**Şahverdiyev Əziz Rəhim oğlu (1914-1947)** - Beyləqan rayon PK-nin birinci katibi işləmiş ziyalı;

**Şahverdiyev Məhərrəm (1903-?)** - Böyük Vətən müharibəsində şərəfli döyüş yolu keçmiş komissar, bir sıra orden və medallara layiq görülmüş ziyalı;

**Şahgəldiyev Eldar** - fəlsəfə elmləri namizədi, bir sıra maraqlı kitabların müəllifi;

**Şahnaz Mətləb qızı** - tanınmış jurnalist, istedadlı publisist, vətənpərvər ziyalı;

**Şəmsizadə Azad Əhməd oğlu (1915-1967)** - ADNA-nın professoru, texnika elmləri doktoru;



**Şəmsizadə Əhəd İbad oğlu (1920)** - polkovnik-leytenant, MTN Füzuli rayon şöbəsinin sədri vəzifəsində çalışmış ziyalı;

**Şəmsizadə Murad İbad oğlu (1928)** - BDU-nun kitabxanaçılıq fakültəsinin müəllimi, tarix elmləri namizədi;

**Şəmsizadə Rauf Əhəd oğlu (1951)** - BDU-nun müəllimi, hüquq elmləri namizədi;

**Şəmsizadə Heydər Məşədi Aslan oğlu (1905-1978)** - Azərbaycanın əməkdar artisti;

**Şəmiyev Frunze Həsənqulu oğlu (1935)** - fizika-riyaziyyat elmləri doktoru, professor, AMEA-nın Riyaziyyat və Mexanika İnstitutunun baş elmi işçisi;

**Şəmsiyev Rəhim** - Füzuli RTS-nin müdiri və bir sıra digər vəzifələrdə işləmiş vətənpərvər ziyalı;

**Şərif bəy Səlif bəy oğlu Gecəgözlü** - İbrahimxəlil xana xidmət etmiş təhsilli ziyalı;

**Şəfəq Sahibli** - istedadlı şair, ziyalı;

**Şəfiyev Arif Məhərrəm oğlu (1934)** - filologiya elmləri namizədi, Nizami adına Ədəbiyyat İnstitutunun elmi katibi;

**Şəfiyev Bədrəddin Ramazan oğlu** - Füzuli rayon Su idarəsinin rəisi;

**Şəfiyev Əşrəf Cavad oğlu (1938)** - şair-publisist, RMİHİ Sumqayıt Şəhər Komitəsinin və Respublika Mədəniyyət Fondu Sumqayıt şöbəsinin İdarə Heyətinin sədri;

**Şirinov Qara Çoban oğlu (1953)** - tanınmış dəri-zöhrəvi həkimi;

**Şirinov Rafayıl Gəncalı oğlu** - vətən qarşısında xidmətlər göstərmiş təyyarəçi, mayor;

**Şirinov Həmid Şirin oğlu (1962)** - Vladivostok Dövlət Universitetinin məzunu, hüquqşünas, xeyriyyəçi, vətənpərvər ziyalı;

**Şirinov Şahmar** - uzun müddət təsərrüfatı üzrə rəhbər vəzifələrdə işləmiş tanınmış ziyalı;

**Şirinov Şirin Behbud oğlu (1900-1993)** - "Qırmızı Əmək Bayrağı" ordenli ferma müdiri;

**Şıxəli bəy Məşədi Ağakişi bəy oğlu (1822-1890)** - tanınmış mülkədar;

**Şıxəliyev Namiq Qürbət oğlu (1970)** - BDU-nun rektorunun köməkçisi, kimya elmləri namizədi, dosent;
**Şuşinski Seyid** - Mir Möhsün Ağa Seyid İbrahim oğlu (1889-1965) - görkəmli xanəndə, pedaqoq, ziyalı, klassik Şərq və Azərbaycan muğamlarına dərindən bələd olan sənətkar;
**Şükür Şənol** - tanınmış publisist, ziyalı;
**Şükürov Kamil İmran oğlu (1932-2006)** - təhsil sahəsində xüsusi xidmətləri olmuş qabaqcıl maarif xadimi, Tuğ kənd orta məktəbinin sabiq direktoru;
**Şükürov Teyyub Aqil oğlu** - tanınmış alim, dəyərli vətənpərvər ziyalı;
**Şükürova Mahnur İsmayıl qızı** - tanınmış terapevt-həkim;

- V -

**Vahid Xanlar oğlu (1966-1998)** - Əfqanıstan müharibəsində döyüş yolu keçmiş "Şöhrət" ordenli vətənpərvər döyüşçü;
**Veysəlli Əşrəf** - istedadlı publisist;
**Veysəlli Nemət** - yazıçı, publisist, "Mədəniyyət" qəzetinin baş redaktoru;
**Vəzirzadə Abbas bəy Talıb bəy oğlu (1846-1917)** - çar ordusunun kapitanı, 1905-1906-cı illərdə ermənilərə qarşı qəhrəmanlıqla vuruşmuş vətənpərvər ziyalı, Cavanşir qalasının mülkü hakimi;
**Vəzirov Allahyar bəy Zeynalabdin bəy oğlu (1897-1980)** - Zaqafqaziya və Azərbaycan Maliyyə komissarlığında və Bakı şəhər İK-də müfəttiş işləmiş ziyalı;
**Vəzirov Aslan bəy Zeynalabdin bəy oğlu (1898-?)** - Politexnik İnstitutunun professoru; kristalloqraf;
**Vəzirov Eldar Əbdürrəhman oğlu** - Moskvada yaşayan dəyərli ziyalı;
**Vəzirov Əbdürrəhman Xəlil oğlu (1930)** - Azərbaycan KP MK-nın sabiq birinci (1988-1990) katibi;



**Vəzirov İsfəndiyar bəy Əsəd bəy oğlu (1859- ?)** - ermənilərə qarşı döyüşmüş mədrəsə təhsilli ziyalı, tanınmış şair;
**Vəzirov Rəşid Rzaqulu oğlu** - əməkdar mühəndis, keçmiş SSRİ-nin fəxri neftçisi, texnika elmləri namizədi;
**Vəzirov Rzaqulu Cəmil oğlu** - xarici ticarət sahəsində çalışan inşaatçı-mühəndis, tanınmış ziyalı;
**Vəzirov Süleyman Azad bəy oğlu (1909-1973)** - tanınmış dövlət xadimi, Azərneft və Türkmənneftin rəisi, Azərbaycan Neft Sənayesi Naziri, Azərbaycan Nazirlər Soveti sədrinin müavini, Azərbaycan SSR Ali Sovetinin sədr müavini vəzifələrində çalışmış görkəmli ziyalı;
**Vəzirov Fərid bəy Aslan bəy oğlu (1930-?)** görkəmli geoloq, Səbail RİK sədri, Bakı şəhər İK-nin Kommunal Təsərrüfat şöbəsinin rəisi vəzifələrində çalışmış ziyalı;
**Vəzirov Cəmil Rzaqulu bəy oğlu** - əməkdar inşaatçı-texnik, müxtəlif orden və medallara layiq görülmüş keçmiş zavod rəhbəri;
**Vəzirov Şamil Süleyman oğlu (1942)** - ADNA-nın professoru, kimyaçı alim;
**Vəzirov Şəmil bəy** - yüksək mədəniyyətə malik qayğıkeş ziyalı, Azərbaycan dili və ədəbiyyatı müəllimi, sonralar indiki ADNA-da rus dili müəllimi işləmiş vətənpərvər pedaqoq;
**Vəlizadə Lətif Niftəli oğlu (1941)** - Azərbaycan televiziyası Qapalı SC-də radionun "Xəbərlər" redaksiyasının "Gün keçdi" proqramının redaktoru;
**Vəliyev Baxış Aslan oğlu (1951)** - vaxtilə polis orqanlarında çalışmış vətənpərvər ziyalı, müəllim;
**Vəliyev Vaqif** - tanınmış təcrübəli diş texniki, vətənpərvər ziyalı;
**Vəliyev Vaqif Zülfü oğlu (1958)** - Füzuli rayon Dövlət Dram Teatrının direktoru;
**Vəliyev Vəli (1910-2002)** - Böyük Vətən müharibəsində Fransa Müqavimət Hərəkatı tərkibində faşizmə qarşı qəhrəmanlıqla döyüşmüş ziyalı;

**Vəliyev Vəli Qara oğlu (1923-2002)** - vaxtilə Almaniyada Azərbaycan legionunda batalyon komandiri olmuş tarix müəllimi, tanınmış ziyalı;

**Vəliyev Əhməd** - tanınmış vətənpərvər, istedadlı musiqiçi, xanəndə;

**Vəliyev Məhi Cümü oğlu (1927)** - "Lenin" ordenli tanınmış təsərrüfatçı;

**Vəliyev Məcnun İmran oğlu (1937)** - Füzuli rayon İH başçısının şəhər üzrə nümayəndəsi;

**Vəliyev Saday Surxay oğlu (1938)** - təqaüddə olan təsərrüfat rəhbəri, ziyalı;

**Vəliyev Surxay - vaxtilə** Tuğda kənd təsərrüfatının yeni istiqamətdə inkişafında xüsusi xidmətləri olmuş görkəmli təsərrüfatçı;

**Vəliyev Fehruz** - vaxtilə Qaryagin (Füzuli) rayon İcraiyyə Komitəsinin sədri vəzifəsində çalışmış "Lenin" ordenli ziyalı;

**Vəliyev Xanlar Həmid oğlu (1957)** - Beyləqan rayon R.Quliyev adına Yeni Mil kənd orta məktəbinin istedadlı coğrafiya müəllimi, qabaqcıl maarif işçisi;

**Vəliyeva Sədəf Oğuzxan qızı (1963)** - Dillər Universitetinin məzunu, 51 saylı orta məktəbin təcrübəli müəllimi;

**Vəliyeva Ülkər Oğuzxan qızı** - Babı kənd orta məktəbinin direktoru, təcrübəli müəllim, qabaqcıl maarif xadimi;

**Vəliməmməd ağa Teymurazbəyov Dizaği** - vaxtilə II Şah Abbas Səfəvinin şəxsi dəlləyi olmuş böyük mülk sahibi, nüfuzlu mülkədar, Sərdarlı kəndinin ünlü kişisi;

**Vəlişova Sahimə Tapdıq qızı (1961)** - 47 saylı Füzuli şəhər orta məktəbinin dərs hissə müdiri, təlim-tərbiyə işləri üzrə direktor müavini, müxtəlif fəxri fərmanlara və təşəkkürə layiq görülmüş vətənpərvər ziyalı;



- Y -

**Yadigarov Əsəd Qurban oğlu** - tanınmış alim;

**Yeqanov Mayıs Teymur oğlu (1939)** - uzun müddət ədliyyə sahəsində çalışmış ziyalı;

**Yeqanov Sehran Teymur oğlu (1944)** - gömrük orqanlarında çalışmış ziyalı;

**Yeqanov Səyavuş Teymur oğlu (1941)** - tanınmış ziyalı, "İnturist" mehmanxanasının direktoru;

**Yeqanov Fikrət Teymur oğlu (1931-2001)** - Respublika Nazirlər Sovetində şöbə müdiri işləmiş, ziyalı;

**Yusifli Rafiq Ərşad oğlu (1946)** - Azərbaycan Respublikası Səhiyyə Nazirliyi C.Abdullayev adına ET Kardiologiya İnstitutunun baş elmi işçisi, tibb elmləri namizədi, "Şöhrət" ordenli ziyalı, Ali dərəcəli kardioloq-həkim, Respublika Kardioloqlar Assosiasiyası İdarə Heyətinin üzvü;

**Yusifov Elxan Bayandur oğlu (1959-1992)** - Qarabağ müharibəsi zamanı rayonda yaranan ilk özünümüdafiə batalyonunun bölük komandiri kimi döyüşlərdə qəhrəmanlıq nümayiş etdirərək şəhid olmuş Füzulinin "Azərbaycan bayrağı" ordenli vətənpərvər, ziyalı oğlu;

**Yusifov Ədalət Ərşad oğlu (1953-1994)** - rayonun tanınmış futbolçusu, "Ərgünəş" futbol klubunun yaradıcısı və məşqçisi, müharibədə tağım komandiri olmuş vətənpərvər idmançı;

**Yusifov Mobil Ərşad oğlu (1955)** - keçmiş SSRİ idman ustası, xalq hərəkatının fəal iştirakçısı, hərbçi, Qarabağ müharibəsində şərəfli döyüş yolu keçmiş Elxan Yusifov adına 814 saylı hərbi hissənin komandiri, vətənpərvər ziyalı;

**Yusifov Nəsir Sərdar oğlu (1928)** - bir sıra məsul vəzifələrdə çalışmış dəyərli ziyalı, şair;

**Yusifov Soltan Sərdar oğlu (1935)** - tanınmış şair, Respublika Yazıçılar Birliyinin üzvü;

**Yusifova Şüşən Eldar qızı (1937)** - təcrübəli tibb işçisi, səhiyyə əlaçısı;

- Z -

**Zamin Hacı** - tanınmış jurnalist, istedadlı publisist;
**Zahid İsmixanoğlu (1948)** - görkəmli jurnalist, ədəbi işçi;
**Zeynalabdin bəy Mirzə Həmid bəy oğlu (1854)** - kargüzar, dilmanc, Şuşa şəhər rəisinin köməkçisi, kollec və quberniya katibi, titulyar müşavir, Nuxa, Şuşa, Cəbrayıl qəzalarının mülki posredniki;
**Zeynalov Akif (Akif Həsənoğlu) Həsən oğlu (1942)** - yazıçı-dramaturq, publisist, Sumqayıt "Azmənzilsənayetəmirtikinti" birliyinin baş direktoru;
**Zeynalov Babək** - tibb elmləri namizədi, ATU-nun I cərrahi xəstəliklər kafedrasının assistenti;
**Zeynalov Bahadur Qasım oğlu (1917- )** - AMEA-nın müxbir üzvü, kimya elmləri doktoru, professor, əməkdar elm xadimi, müxtəlif ordenlər almış ziyalı;
**Zeynalov Elman Zeynal oğlu (1946)** - Texniki Universitetin Fizika kafedrasının müəllimi, fizika-riyaziyyat elmləri doktoru, vətənpərvər ziyalı;
**Zeynalov Əvəz** - "Azərittifaq"da müfəttiş vəzifəsində işləmiş vətənpərvər ziyalı;
**Zeynalov Əli** - tanınmış baytar həkim, Böyük Vətən müharibəsi iştirakçısı;
**Zeynalov Zeynal Məzən oğlu (1916-1985)** - tanınmış ziyalı, təcrübəli məktəbdar müəllim, qabaqcıl maarif işçisi;
**Zeynalov Rəhman** - Bibiheybət NQÇİ-də çalışan mühəndis, vətənpərvər ziyalı;
**Zeynalov Rüstəm Qurban oğlu (1940-2004)** - tanınmış ziyalı, məktəbdar müəllim, məktəb direktoru, qabaqcıl maarif xadimi;
**Zeynalov Sənan Kəncalı oğlu (1964)** - mühəndis-mexanik, texnika elmləri namizədi, Azərbaycan Kənd Təsərrüfatı Nazirliyi Aqrar Elm Mərkəzinin baş mütəxəssisi;



**Zeynalova Qaragöz Rəhim qızı (1934)** - bir neçə fəxri fərman və mükafatlar almış tərbiyəçi-müəllim;
**Zeynalova Kamilə Məzən qızı (1928-1989)** - Füzuli rayon XDS-nin ümumi şöbə müdiri vəzifəsində və digər vəzifələrdə işləmiş vətənpərvər ziyalı;
**Ziməddin Siran** - istedadlı şair, vətənpərvər ziyalı;
**Zülfüqarlı Cümşüd** - vaxtilə Füzuli (Qaryagin) rayon maarif şöbəsinin müdiri işləmiş ziyalı, kimya elmləri doktoru, professor, Azərbaycan EA-nın müxbir üzvü, ADU-nun kafedra müdiri vəzifəsində çalışmış görkəmli alim;
**Zülfüqarov Elxan Qaçay oğlu (1954-1994)** - Azərbaycanın Milli Qəhrəmanı...

**Qeyd:** ***Bu siyahı əlbəttə ki, bütün Füzuli ziyalılarını tam əhatə edə bilməz, sadəcə olaraq bu, mənim toplaya bildiyim, siyahılaşdırdığım bəzi tanınmış füzulilərin adlarıdır...***

**Müəllif**

## RAYON ƏHALİSİNİN SAYI

**Rayonun ümumi əhalisinin sayı - 142.481**

**Şəhər əhalisinin sayı - 28.000**

**Kənd əhalisinin sayı - 114.481**

**o cümlədən:**

| | |
|---|---|
| Köçkün (şəhər) - | 21.000 |
| Köçkün (kənd) - | 62.500 |
| Horadiz (ştq) - | 2.300 |
| Arayatlı ə/v - | 2.670 |
| Əhmədalılar ə/v - | 2.210 |
| Əhmədbəyli ə/v - | 23.800 |
| Böyük Bəhmənli ə/v - | 7.430 |
| Kərimbəyli ə/v - | 6.380 |
| Kürdmahmudlu ə/v - | 2.570 |
| Alxanlı ə/v - | 1.621 |
| Qayıdış ə/v - | 10.000 |



## RAYON ƏHALİSİNİN MİLLİ TƏRKİBİ

фактларын дәгиглији... Сәни һејрәтләндирә биләр Фүзули рајонунда олан мадди-мәдәнијјәт абидәләринин, јашајыш мәнтәгәләринин гәдимлији, тарихи... Сәни гәһәрләндирә биләр рајон мәркәзи дә дахил олмагла 51 кәндин ермәниләрин тапдағы алтында олмасы...

Рајонумузун тарихи, етнографијасы, чоғрафијасы илә бағлы олан топонимләр һаггында топлајыб јаздығым бу мә'лумат китабыны Фүзули рајонунун ојконимијасына, оронимијасына аид тәдгигат иши дә адландырмаг олар. Бунлар мәним узун илләр ахтарышларымын мәһсулудур. Ејни заманда бу ишләри кәләчәкдә дә давам етдирмәк нијјәтиндәјәм. Рајонумуза аид олан, лакин сөз кими нәсилдән-нәсилә кечиб јашајан тарихи топонимләри дүзкүн вә елми фактларла ачыглајыб, иншаллаһ, кәләчәкдә охучулара бөјүк монографија шәклиндә чатдырмаг фикриндәјәм...

"Ағырдыр дүнјанын сијасәт јүкү" - дејәнләр көрүнүр, һаглыдырлар. Фүзулинин гејрәтли өвладлары **дүнән** дә олуб, **бу күн** дә вар, **сабаһ да** олачаглар. Бу оғуз јурдуну азад етмәјә һазыр олан гәһрәман фүзулиләр дә сијасәт тәрәзисинин о бири көзүндәки "ағырлығы" **көзләјирләр.** Амма чох тәәссүф ки, сијасәтин әксәр һалларда мәкрли ојунлары да олур. Каш улу Танры бүтүн гачгын вә мәчбури көчкүнләримизи, о чүмләдән дә, фүзулиләри тезликлә доғма јурд јерләринә говушдурсун!.. **Амин!..**

**Һөрмәтлә: Назим Тапдыгоғлу (Вәлишов)**



# МҮГӘДДӘС ГАРАБАҒЫМ

**Гарабағым!**

**Сән мәним доған Күнәшимсән! Улуларымызын улу мәскәни! Дөјүнән үрәјим, көрән көзүмсән. Мүгәддәс јанғымсан, ичимсән, өзүмсән. Сәни мәндән ајырмаг, гопармаг, алмаг истәјирләр...**

**Гарабағ** Азәрбајчанын Кичик Гафгаз дағларынын чәнуб-шәрг әтәкләриндән башлајараг Күр вә Араз чајлары арасындакы әразисини әһатә едән тарихи вилајәтдир. "Гарабағ" сөзү мәнбәләрдә VII әсрдән башлајараг өз әксини тапмышдыр. **"Гара"** гәдим түркдилли халгларда "бөјүк" мә'насында, **"бағ"** сөзү исә фарс дилиндә "бағчылыг" мә'насында ишләнир.

Тарихи керчәклији нәјәсә вә кимәсә көрә тәһриф етмәк, бир милләтин дирчәлишини, сәадәтини башга халгын, милләтин тарихини мәһдудлашдырмаг үчүн фәргләндирмәк чәһди вәтәндашлыгдан вә алимликдән кәнар һәрәкәтдир...

**Гарабағ** гәдим дөврләрдә вә еркән орта әсрләрдә Гафгаз Албанијасынын тәркибиндә олуб. Гарабағда һәмишә албан тајфалары јашамышлар. XX әсрә гәдәр Дағлыг Гарабағ анлајышы мөвчуд олмајыб. Артсах адланан јер Албанијанын әјаләти олмуш, Атабәјләр, Гарагојунлу, Ағгојунлу дөвләтләринин тәркибиндә **Гарабағ** адланмышдыр. Сәфәвиләр дөврүндә **Гарабағ** Азәрбајчанын 3 бәјләрбәјлијиндән бири иди. XVIII әсрин 40-чы илләриндә о, Азәрбајчанын сон феодал дөвләтләриндән бири олан **Гарабағ ханлығы** адланмышдыр. 14 мај 1805-чи ил Күрәкчај мүгавиләсинә көрә, Гарабағ ханлығы Русијанын табелијинә кечмиш, 1822-чи илдә исә рәсми олараг ләғв едилиб **Гарабағ әјаләтинә** чеврилмишдир. 1840-чи ил ислаһаты илә **Гарабағ әјаләти** ләғв олунараг, әвәзиндә **Шуша гәзасы** јарадылмыш, гәза әввәл Каспи вилајәтинин, 1968-чи илдән исә Јелизаветпол (Кәнчә) губернијасынын тәркибиндә олмушдур, 1920-чи илдән исә Азәрбајчан ССР-ин тәркибинә гатылмышдыр.

XIX әсрин 20-чи илләриндә Јермоловун тәләби вә тәкиди илә кечирилән сијаһыјаалмада Гарабағ рекионунда јашајан 18.563 аиләдән јалныз 1559-у **(8%-и )** ермәни аиләси олмушдур. Бундан чәми бир нечә ил сонра 1832-чи илдәки камерал сајыма көрә, Иран вә Түркијәдән көчүрүлән ермәни аиләләринин һесабына Гарабағда ермәниләрин сајы артды...

Феврал ајынын икинчи һәфтәсиндән (1988-чи ил) етибарән Дағлыг Гарабағ ермәниләри мүхтәлиф әсассыз аргументләрлә Азәрбајчана гаршы ачыг сурәтдә әрази иддиаларына башладылар. Февралын 20-дә ДГМВ Халг Депутатлары Советинин јалныз ермәни депутатларынын иштиракы илә кечән нөвбәдәнкәнар сессијасы вилајәти "Азәрбајчанын тәркибиндән чыхарыб, Ермәнистанын инзибати әрази бөлкүсүнә дахил етмәк һаггында" гәрар гәбул етди. Әлбәттә, Азәрбајчан ССР Али Совети ДГМВ ХДС-нин бу гәрарыны Конститусијаја зидд гәбул етди.

1988-чи илин февралындан Ханкәндини (Гарабағ ханлығы Русијаја бирләшдикдән сонра Ханкәнди Меһдигулу ханын арвады Пәричаһан бәјимә бағышланмышдыр), еләчә дә, ДГМВ-нин дикәр јашајыш мәнтәгәләрини ермәниләрин һај-күјлү митингләри бүрүмәјә башлады. Москванын бу мәсәләләрдә икиүзлү мөвгеји Ермәнистанын мәкрли планларынын һәјата кечмәсинә рәвач верди. 21 ијун 1988-чи ил тарихдә ДГМВ ХДС-нин сессијасы јаранмыш вәзијјәтлә бағлы ССРИ Али Советинә мүрачиәт етди. Вилајәтә рәһбәрлик Москванын сәлаһијјәтли нүмајәндәси, ермәнипәрәст Аркади Волскијә тапшырылды. Онун рәһбәрлијинин тәкчә икинчи һәфтәсиндә (18-21 сентјабр 1988-чи ил) Ханкәндиндән 12 миндән чох азәрбајчанлы говулду, онларын евләри јандырылды. 1988-чи илин сонунадәк бүтүн азәрбајчанлылар Ермәнистандан да чыхарылды. Чох кечмәди ки, мүхтәлиф дөвләтләрдән дәстәк алан бәднам гоншуларымыз Туғ (30.10.1991), Ҹәмилли (16.12.1991), Мешәли (23.12.1991), Кәркичаһан (28.12.1991), Малыбәјли (11.02.1992), Гарадағлы (17.02.1992), Хочалы (26.02.1992), Шуша (8.05.1992), Косалар (9.05.1992) фачиәләрини төрәтдиләр; онлар ДГМВ-ни азәрбајчансызлашдырдылар. Бүтүн булардан һәвәсләнән ермәни дашнаклары Азәрбајчанын Лачын, Кәлбәҹәр, Зәнкилан, Губадлы, Ағдам, Ҹәбрајыл, Фүзули рајонларыны да ишғал етдиләр. Гарабағ әразисиндә бүтөвлүкдә Азәрбајчанын 870 кәнди зәбт олунду. Бир милјона јахын азәрбајчанлы өз торпағында гачгына, көчкүнә чеврилди. Булардан бири дә **мәнәм...** Будур бизим ачы талејимиз!.. Советләр бирлији заманы биз бејнәлмиләлчилијә алудә оланда ермәниләр өз көрпәләринин дә көзүндә түрк дүшмәни јаратдылар...

Тарихдә **Гарабағ маһалы, Гарабағ әјаләти, Гарабағ вилајәти, Гарабағ ханлығы** мөвчуд олмушдур. Көркәмли сәјјаһ А.Олеаринин



(XVII әср) хәритәсинә көрә 39 дәрәчә шимал нөгтәдә (бу шәһәрин галыглары индики Фүзули рајонунун Һорадиз дәмир јолу стансијасындан азачыг шәргдә олмалыдыр) вахтилә **Гарабағ шәһәри** мөвчуд олмушдур. Мүлаһизәләрә көрә, **Гарабағ шәһәри** VII әсрдән XVII әсрә гәдәр-тәхминән мин ил мөвчуд олмушдур. Ирандан Кичик Гафгаза кедән бөјүк тичарәт јолу да бурадан кечирмиш. Бир чох алимләримиз дә инди бу фикирдәдирләр...

Ш.Ҹәмшидов **Гарабағ** сөзүнү "шимал-гәрб бағы" кими изаһландырыр. Онун фикринчә, Гарабағ дүзүнә ад Бејләгандан верилдији үчүн (Гарабағ дүзү Бејләган шәһәринин шимал-шәргиндә олмушдур) о, белә адландырылмышдыр. Бир чох мүтәхәссисләр әразидә гара үзүм јетишдирилдијиндән, **гара** јарпаглы бағлар олдуғундан онун **Гарабағ** адланмасы фикри үзәриндә дајанырлар. **Гара** сөзүнүн "бөјүк, рәнк, гәрб, ағыр, чохлуг, түнд, сых, галын" мә'налары да вар.

Талејин диктәси илә Гарабағын **"гара"** кечән күнләри, илләри бизим пајымыза дүшдү, тез-тез јухуларымызда көрдүјүмүз һәмин **"бағ"**да исә ермәниләр нечә илләрдир јејиб-ичир, шәнләнирләр. "Бабәк, Короғлу, Гачаг Нәби нәслијик" дүшүнәндә утаныб хәчаләт чәкирикми? Бәлкә, ајылмағын, ојанмағын, бирләшмәјин, мүбаризә апармағын вахты чохдан чатыб? Јохса...

Мүхтәлиф дөврләрә аид гәдим Гарабағ әразиләриндә, Гуручај саһилләриндә, Гаракөпәктәпә, Күнәштәпә, Хантәпә, Узунтәпә, Мејнәтәпә, Зәркәртәпә, Шомутәпә, Күлтәпә, Гарабулаг курганларында вә башга јерләрдә јашамыш гәдим тајфаларын тарихи өјрәнилиб сүбут олунмушдур. Гарабағ зонасында Енеолит дөврү б.е.ә. VI-V минилликләрдән башланмышдыр. Тарихи гајнаглардан ајдын олур ки, бу дөврдә рекионда гәдим әкинчилик, малдарлыг тәсәррүфаты вә отураг әкинчилик мәдәнијјәти тәшәккүл тапмышдыр.

**Әзиз охучу,** нә кизләдим, сон вахтлар мән белә бир гәнаәтә кәлмишәм ки, **Гарабағ** артыг бизим дејил: нә гәдәр ки, Ханкәндинә, Шушаја, Хочалыја, Малыбәјлијә, Гушчулара, Косалара, Ҹәмиллијә, Гарадағлыја, Хочавәндә, Гачара, Фүзулијә, Туға, Весәллијә вә с. јерләрә әлимиз чатмыр, аддымымыз дәјмир, демәк, **Гарабағ** һәлә бизим дејил. Бакыда отуруб "Гарабағ бизимдир"- демәк асандыр. Бизим Гарабағын ***бизимки*** олмасы үчүн биз дә кәрәк БИЗ олаг... Гәлбимә доғма олан Гарабағдан данышыб Азых мағарасындан, Гуручај дәрәсиндән сөһбәт ачмасам, күнаһа батмыш оларам...

XX әсрин 60-чы илләринин орталарында Азәрбајчанын гәдим даш дөврү тарихинин тәдгиги саһәсиндә мүһүм елми аддым атылды. Көркәмли археолог-алим Мәммәдәли Һүсејнов 1968-чи илин јајында Фүзули рајон мәркәзиндән 15 км аралыда јерләшән Азых мағарасында апардығы газынты ишләри заманы Пренеандертал - **Азыхантроп** адамынын (19-20 јашлы гадынын - Н.Т.) алт чәнә сүмүјүнү ашкар етмишдир.

Мә'лумдур ки, ән гәдим инсан галыглары планетин дөрд күшәсиндә Чәнуб-Шәрги Асијада (Јава адасы, **Питекантроп,** 1891, Јевкени Дјуба), Алманијада Һејделберг шәһәри јахынлығында **Һејделберг адамы,** 1907, Шеатензак), Чиндә, Пекин јахынлығында **Синантроп -** "Чин адамы", 1927, Девитсов Блејк), Африкада, Танзанијада **Аллантроп - Презинчантроп,** Олдувај) ашкар едилиб. Азыхантропун (јашы тәхминән 400 мин илдир) тапынтысы илә јени бир кәшф дә гәдим инсан мәскәнләринә аид едилди. Бу, Азәрбајчан археолокија елминин наилијјәти олан бөјүк елми бир кәшф иди. Бу абидә Азәрбајчанда, Гарабағда гәдим палеолит дөврүнүн мөвчуд олдуғуну сүбут етди...

Мағара Туғ кәнди әразисиндә јерләшир. Узунлуғу 250 м, һүндүрлүјү 20-25 м, үмуми саһәси 1200 квадрат метрдир. Мағарадан тапылан материалларын тәдгиги көстәрди ки, ***Азых мағара палеолит дүшәркәси*** өз гәдимлијинә, чох тәбәгәлилијинә, стратиграфит ардычыллығына, археолоки зәнкинлијинә көрә дүнјада јеканә абидәдир. Мағара дүшәркәси М.Һүсејновла, јанашы, Ә.Чәфәровун, Д.Һачыјевин, В.Һачыјевин, М.Сүлејмановун, Н.Шириновун, В.Величконун вә башга тәдгигатчыларын да диггәтини чәлб етмишдир. Гәдим даш дөврүнә аид тапынтыларын тәдгиги буну demәјә әсас верир ки, Мустје мәдәнијјәти Азәрбајчанда, Гарабағда ән азы 150 мин иллик бир дөврү әһатә едир (орта палеолит Н.Т.).

Азыхантропун мәскәни Азых мағарасы Гуручајын сол саһилиндә јерләшдијинә көрә мағарадан ашкар едилән Гәдим даш дөврү нүмунәләринин тәһлилини тәдгигатчылар **"Гуручај мәдәнијјәти"** адландырырлар. Азых мағарасында **Гуручај мәдәнијјәти дөврү** өзүнүн узунмүддәтли инкишафындан сонра гәдим Ашел мәдәнијјәти илә әвәз олунмушдур. ***Азых мағарасы*** Франсада Гәдим Инсан Институтунун кечмиш ССРИ әразисиндә хәритәјә алдығы башлыча даш чағы мәскәнидир.



20-чи илләрин орталарында көркәмли археолог, етнограф Ә.Әләкбәров Гуручај вә Көндәләнчај вадисиндә јерли әһалинин һәјат тәрзини өјрәнмәк мәгсәди илә тәдгигат ишләри апаран заман чохлу сајда күп гәбирләринә раст кәлмишдир. Ә.Әләкбәров бунунла да тарихи әдәбијјатда илк дәфә олараг күп гәбирләрин јајылмасынын тарихи чоғрафијасы һаггында әввәлләр мөвчуд олан еһтималлары хејли дәгигләшдирмишдир.

Ш.Мкртычјан "Дағлыг Гарабағын тарихи вә ме'марлыг абидәләри" әсәриндә (Јереван, 1986-чы ил) јазыр ки, куја Азых мағарасында Ашел дөврүнә аид ермәни гадынынын һејкәли вар. Һәтта куја онун палтары да мүасир ермәни гадынынын палтарына бәнзәјир. С.Ханзадјан һәмин китаба јаздығы рәјдә көстәрир: Азых мағарасында Азәрбајчан алимләринин апардыглары тәдгигатлардан ајдын олмушдур ки, бу һәгигәтән Ашел дөврүндә јашамыш ермәни гадынынын һејкәлидир. Әлбәттә, бу, һеч бир елми әсасы олмајан чәфәнкијјатдан, тарихи биләрәкдән, сахталашдырмагдан башга бир шеј дејилдир.

Ермәни милләтчи сијасәтбазлары шантаж долу әсәрләриндә Гарабағы һәјасызчасына өзүнүнкүләшдирирләр. Амма бу елми шантажлара гаршы бизим дә сөјкәнәчәк олан кифајәт гәдәр елми мәнбәләримиз, дәлилләримиз вардыр. Лакин нәдәнсә көзләмә мөвгеји тутмушуг вә бунун ачы нәтичәсидир ки, Гарабағы һиссә-һиссә "paj веририк", М.МНәввабын, Х.Б.Натәванын, Г.Б.Закирин, Н.Вәзировун, Ә.Б.Һагвердијевин, Ф.Б.Кочәрлинин, Ј.В.Чәмәнзәминлинин, С.С.Ахундовун, М.Ч.Гарабағинин, М.М.Хәзанинин, Мирзә Адыкөзәл бәјин, Әһмәд бәј Чаваншир, Мәшәди Исинин, Бүлбүлчанын (Ә.Зүлалов), Гачаг Сүлејманын, Үзејир бәјин, Нијазинин, Ханын, Бүлбүлүн, Чаббарын, Садығчанын, Һачы Һүсүнүн, Кечәчи оғлу Мәһәммәдин вә даһа кимләрин руһлары бизи нәјәсә, һараса сәсләмирми?.. Аслан вә Һатәм Мәлик мәсчидләри, Ағоғлан вә Ганзасар мә'бәдләри, Бабы, Мирәли, Бәрдә, Ахсаданбаба түрбәләри, Гарабағ ханларынын сарајлары, дүнјада аналогу олмајан Ағдам Чөрәк музеји, Гаракөпәктәпә, Мәнкәләната, Гарабағ курганлары, Тәртәрчај, Гаргарчај, Көндәләнчај, Инчәчај, Гозлучај, Гуручај... бизи чағырмырмы?..

Суверенлији о халг газаныр ки, суверенлијә лајиг олсун. Тарихи тәчрүбәдән мә'лумдур ки, ***милли ловғалыг*** милли һејсијјәтсизлијә

кәтириб чырарыр. Бә'зән дејирик ки, мүасир тәфәккүр сәвијјәмизин дүнја халглары сәвијјәсиндән кери галмамасы үчүн ону галдырмалы, инкишаф етдирмәлијик. Өзүмүз дә гардашбачыларымызы али мәктәбләрә пулун күчү илә дахил едирик, диплому онлара рүшвәтлә алырыг; тарихи кечмишимизи мүхтәлиф милләтләрин мүәллифләринин јазылы мәнбәләриндән өјрәнирик...

**Гарабағ** топониминә јазылы мәнбәләрдә јухарыда гејд етдијим кими илк дәфә VII әсрдә (Самуел Анили) раст кәлинир. **XIII** әсрдә Ф.Рәшидәддин (1284-чү илдә) "Чами әт Тәварих" әсәриндә **Гарабағ** сөзүнү **Аран Гарабағы** шәклиндә ишләдир. Әслиндә **Гарабағ** адынын нечәнчи әсрдән формалашмасы һәлә там јәгинләшмәјиб...

М.Ч.Чаваншир Аран мәмләкәтинин бир һиссәси олан **Гарабағ** вилајәтинин әразисини (сәрһәддини) Худафәрин көрпүсүндән Сыныг көрпүјә, шималдан Кәнчә илә сәрһәди Күр чајына гәдәр олан Коран чајы, шәргдән Күр вә Араз чајларынын говушағына, гәрб тәрәфдән исә Салварты, Казбек, Әрикли дағларына гәдәр көстәрмишдир. **Гарабағ ханлығы** заманы орада **250-**дән чох кәнд олмушдур.

**Гарабағ** ады һәм дүзән, һәм дә дағлыг һиссәјә аиддир. Константин Багрјанароднија көрә, печенег тајфаларындан биринин ады **Карабағ/карабог** олмушдур. И.Шопен **Гарабағ** адыны **Хараба** сөзү илә бағлајыр. Ш.Сәдијев көстәрир ки, **Гарабағ** ады **гара** вә **бағ** сөзләриндән ибарәтдир. Ә.Фәрзәли гејд едир ки, **гара** - "бөјүк, нәһәнк, гаранлыг, халг, гәм, севинч, јарашыг..." мә'насындадыр; **бағ, баг, бог** - "Танры" анламындадыр. М.Сејидовун фикринчә, **гара** - "рәнк, пис, бәдбәхт, шимал, бөјүк, башчы, күчлү...", **бағ** - "мејвә ағачы әкилмиш саһә, ип, дүјүн..." демәкдир. С.Ашурбәјлијә көрә, топоним **бағы** гәбиләсинин адындан јаранмышдыр... Мәнбәләрдә **бак, бағ, баг** тајфа адына да раст кәлинир. Белә фикир дә ишләтмәк олар ки, **Гарабағ** сөзү ("**бөјүк бағ**") тајфа адындан төрәнмиш етнотопонимдир...

Праазәрбајчан топонимләриндән олан **бағ** топоними славјан дилләриндә **бог, боғ, боһ, биг** формаларында ишләнир. Бу сөзүн илкин мә'насыны бә'зи тәдгигатчылар "вар-дөвләт" анламындакы **"богат" (богатство)** сөзү илә әлагәләндирирләр. **Баг** сөзүнүн гәдим һинд дилиндә "пајлајан" анламы да мә'лумдур. Узун илләрдир ки,



**баг\бог** сөзүнүн Иран дилли вә ја славјан мәншәли олмасы илә бағлы мүбаһисәләр кетмәкдәдир. **Орхон-Јенисеј** абидәләриндә **баға** сөзү теоним детерминативи ("баға") кими ишләдилмишдир. Мәнбәләрә истинад етсәк, көрәрик ки, Мидијада Танрыја **Баға** дејилирмиш. Бир чох халгларын гәдим мифолокијасында **баға** (тысбаға) мүгәддәс јерин, торпағын рәмзидир. **Баға** Азәрбајчанда инди дә мүгәддәс һејван һесаб олунур.

**Баг** теоними даһа чох түрк халглары вә онларла контактда олан тајфаларын дилләриндә ишләдилир. **Баг** теониминин сонракы семантик дәјишмәләри онун **маг, мағ, бағ, баһ, баға, бег, бај** вә с. фонетик фариантыны ортаја чыхармышдыр. Јери кәлмишкән, С.Ашурбәјли **Бакы** топонимини һаглы олараг гәдим **баг, бак** гәбиләләринин ады илә бағламышдыр...

Түркијәдә, Түркмәнистанда, Өзбәкистанда вә с. әразиләрдә дә **Гарабағ** сөзү илә бағлы чохлу топонимләр гејдә алынмышдыр.

**Гарабағ...** Гәдим вахтлардан бу әрази Гафгаз Албанијасынын тәркиб һиссәси иди. IV әсрин 30-40-чы илләриндә баш верән һадисәләрдән данышан ермәни тарихчиси Фавстос Бузантси Һабаид торпағынын адыны (Јухары Гарабығын бөјүк бир һиссәсини) Албанијада јерләшән бир әрази кими чәкир (*Ф.Бузандтси:* "Ермәнистан тарихи", Јереван, 1953-чү ил). Албан һөкмдары Чаваншир һаггында мә'лумат верән *М.Каланкатлы вә К.Тревер* Чаванширин "Иберијадан Һунна" (Дәрбәндә) вә Араза гәдәр "Әла вә мүстәгил һөкмдарлығыны" көстәрирләр (*М.Каланкатлы:* "Албанија тарихи, Бакы, "Елм", 1993-чү ил, "*К.В.Тревер:* "Гафгаз Албанијасынын тарихи вә мәдәнијјәти очеркләри", Москва-Ленинград, 1959-чу ил)...

Мүасир ермәни тарихчиләри Гарабағы вә Нахчываны гопармагла олмајан *"Бөјүк Ермәнистан"* јаратмаг хәјалына дүшүбләр. Ермәни милләтчиләри өзләри дә буну кизләтмирләр. Һәтта бә'зи ермәни милләтчиләри белә дејирләр ки, Күр-Араз чајларарасы торпаглары Ермәнистанын шимал-шәрг һиссәсинин өзүнүн әразисидир вә "ермәни Албанијасынын бу һиссәсинин әһалиси дә та гәдимләрдән ермәниләрдән ибарәт олмушдур." Онлар дүнјанын мүхтәлиф мәтбуат органларында бөһтанлы вә сахта јазылар чап етдирәрәк, әдаләтсиз әрази иддиаларыны әсасландырмагдан өтрү дәридән-габыгдан чыхырлар.

Тарихә мүрачиәт етсәк, көрәрик ки, **"Гарабағ мәсәләси"** Совет дөнәминдә һәмишә Ермәнистан ССР тәрәфиндән галдырылмышдыр. Бу гајда илә Ермәнистан башга бир суверен республиканын дахили ишләринә гарышмагдан чәкинмәмишдир. Ермәни мүәллифләринин һагсыз олдуғуну елми дәлилләрлә ајдынлашдырмаг үчүн Азәрбајчан тарихчиләри дәфәләрлә елми дискуссијалар апарылмасыны тәклиф етсәләр дә, ермәни тарихчиләри буна разылыг вермәмишләр. Үмумијјәтлә, онлар бу мәсәләләрдә һәр һансы Дәјирми Масаја јахын дүшмәк белә истәмирләр.

Ермәни тәртибчиләри "Тарихи арајыш"да (Јереван, 1988-чи ил) һәјасызчасына көстәрирләр ки, Утиләрин (Удинләрин - Н.Т.) дә јашадыглары Артсах "Јеревандидт Ермәнистанын тәркибиндә" олмушдур. Бу күнә гәдәр дә бу фактын һәлә һеч бир елми әсасы јохдур вә тәбии ки, ола да билмәз.

Тарихдән мә'лумдур ки, албан тајфалары Күрүн һәм сол, һәм дә сағ саһилиндә јашамышлар. Чәнуб-Шәрги Загафгазијадакы албанлар (албан тајфа иттифаглары - Н.Т.) јерли идиләр. Ермәниләр исә Чәнуби Гафгаз вилајәтләринә ән јахшы һалда миладын V әсриндә кәлә биләрдиләр. Башга сөзлә десәк, **ермәниләр** Чәнуби Гафгаза **кәлмәдирләр.**

Ермәни милләтчиләри чохлу тәкид вә сә'јләр нәтичәсиндә рус дин гардашлары илә биркә Советләр Иттифагынын "мәнәм-мәнәмчи" заманында Москвада тәртиб етдикләри хәритәләрдә гоншу өлкәләрә олан әрази иддиаларыны кизли сијаси хәтләрлә һәјата кечирирдиләр (Народы и передвиженија Јеврone V, IV-VII вв. М.- 1960), "Рус кнјазлығы XII әсрдә вә XIII әсрин әввәлләриндә" (Батынын һүчумуна гәдәр) - М., 1968, "Рус кнјазлығы вә Гызыл Орда XII әсрдә"- М., 1960, "XVI әср Рус дөвләти" - М., 1981, "Рус дөвләти XVII әсрдә" - М., 1980-чи ил вә с.

Гарабағын һәм дағлыг, һәм аран һиссәси бирликдә тарихән Азәрбајчан феодал дөвләтләринин - **Албанија, Кирдиман, Шәддади, Атабәјләр, Һулакүләр, Гарагојунлу** дөвләтләринин, сонралар **Гарабағ ханлығынын** әразиси олуб...

Бир сыра кечмиш совет вә ермәни тарихчиләри (Тревер, Новоселсев, Јеремјан, Акопјан, Улубабјан, Тер-Ќевондјан, Сумбатјан вә б.) Күрдән чәнубдакы Азәрбајчан әразисинин ерадан әввәл II әсрдән 387-чи илә гәдәр Бөјүк Ермәнистанын тәркиб һиссәси олдуғуну гејд етсәләр дә, көркәмли алимләримиз З.Бүнјадов, И.Әлијев, Ф.Мәммәдова вә башгалары бу чүрүк консепсијалары һаглы олараг тәнгид етмишләр.



"Албан тарихи"ни ермәни дилиндән рус дилинә тәрчүмә етмиш Ш.И.Сумбатјан бир нечә јердә "шәрг" сөзүндән сонра мөтәризәдә "әјаләт", "өлкә" сөзләрини әлавә етмишдир. Бу да "Шәрг әјаләти" ифадәсинин алынмасына, Гарабағын "Ермәнистанын шәрг әјаләти" кими мә'наландырылмасына кәтириб чыхарыр.

Албаншүнас алимләримиз өз әсәрләриндә "шәрг" ифадәсинин "Ермәнистанын шәрги" кими баша дүшүлмәсинин сәһвлијини тутарлы фактларла әсасландырырлар. Албан тарихчиси Муса Каланкатлы христиан олдуғу үчүн әсәрләриндә әсасән, албанларын христиан һиссәсинин тарихини верир. "Шәрг" вә "бизим Шәрг" исә "албан христианларынын шәрги" мә'насында баша дүшүлмәлидир. Әсәрдәки **Гәрб** сөзү дә "Ермәнистанын гәрби" кими јох, "христиан дүнјасынын гәрбиндәки Бизанс" кими баша дүшүлмәлидир.

"Албан тарихи" әсәриндә һеч јердә "ермәни" ады чәкилмәдији һалда, ермәни тарихчиләри чоғрафи адлары тәһриф едәрәк, Аралыг, Гара вә Хәзәр дәнизләри арасында јерләшән әразини **Ермәнистан,** орада јашајан әһалини исә **"ермәниләр"** адландырырлар. Әкәр доғрудан да, Албанија Ермәнистанын тәркиб һиссәси олсајды, бүтүн гәдим ермәни мәнбәләриндә дә бу өлкәнин ады **"Агван"** јох, **"Һајастан"** оларды...

**Ермәнистан** ермәни етносунун вәтәни дејилдир. Һәмин етнос Ермәнистана кәлмәдир. Һеродотун вахтында **ермәниләр** Ермәни јајласы дејилән әразинин јалныз Гәрб һиссәсиндә мәскунлашмышлар. Ксенефонт да Һеродотун бу мә'луматларыны тәсдиг едир.

Тарихдән мә'лумдур ки, Албанија дөвләти тәхминән б.е.ә. III әсрдә мејдана кәлиб. Бизим еранын биринчи әсриндән Албанијаны мәншәчә парфијалы Аршакидләр сүлаләси идарә едиб. Бу дөвр һаггында мә'лумат верилән мәнбәләрдә көстәрилир ки, Араз чајы Албанијанын чәнуб сәрһәддидир. Башга сөзлә, Күр вә Араз чајарасы әразиси **Албанија** дөвләтинин тәркибиндә иди.

Моисеј Хоренски тәсдиг едир ки, утиләр (индики удинләрин әчдадлары), һардманлар, савдејләр, гаргарлар вә с. Аранын нәсилләриндән мәншә көтүрмүшләр. Бунлар албан тајфаларыдыр

вә тарихән Гарабағ зонасында јашамышлар. Демәли, Гарабағ әразисиндә јашајан тајфаларын албан мәншәли олмасы фактыны тәсдиг едән кифајәт гәдәр мәнбәләр вардыр...

Бизим ерадан әввәл 56-чы илдә ромалылар II Тиграны дармадағын етдикдән сонра "Ермәнистан дөвләти" һеч чүр тәчавүзкарлыг сијасәти апара билмәзди, чүнки о, нөвбә илә Ромадан вә Парфијадан асылы олмушдур.

Албанија исә I-V әсрләрдә бә'зән Рома вә Парфија ориједнтасијасына табе олмушса да, о, Ермәнистандан фәргли олараг өз мүстәгиллијини итирмәмишдир. I әср нумизматика материаллары Ермәнистанын сијаси талеји һаггында мүһүм мә'луматлар верир. О дөвр пулларында Ермәнистан Рома императорунун ајаглары алтында отурмуш гадын образында, аман истәјән ермәни дөјүшчүсү вә с. шәкилдә тәсвир едилмишдир. Елә һәмин әсрдә Ермәнистан император Августин тәрәфиндән Атропатенанын һакимләринә верилиб. Дион Кассинин вә Татситин мә'луматларына көрә, 30-50-чи илләрдә Ермәнистанда Иберија шаһзадәләри һөкмранлыг едирдиләр.

Сурен Ајвазјан "Ермәни талеји" романында сүбут етмәјә чалышыр ки, куја нә гәдим заманларда, нә дә онун тәсвир етдији XVII-XVIII әсрләрдә Азәрбајчан адлы халг олмајыб. О, көстәрир ки, Нахчыванын, Гарабағын һәгиги саһибләри гәдим ермәниләрдир. Азәрбајчанлылар исә бура кәлмәдирләр...

Вардһес Петросјанын "Ермәни ескизләри" китабында башкәсән, залым, Чичеринин "Антантанын часусу" адландырдығы гәддар Андроник ***милли гәһрәман*** сәвијјәсинә галдырылыр. Зори Балајан "Очаг" китабында һәјасызчасына өзкә әразиләри һаггында әсассыз, фитнәкар руһлу иддиаларыны ирәли сүрүр. Б.А.Улубабјан лап ағ едәрәк б.е.ә. II әсрдә Күр-Араз әразисиндә јашајан әһалинин ермәни дилиндә данышмасы фикрини дә ирәли атыр.

Ермәни тарихчиләринин бә'зи әсәрләриндә тарихи һадисәләр, фактлар "Бөјүк Ермәнистан" идејасы наминә тәһриф олунур. Куја "Бөјүк Ермәнистан" јүз илләр боју Хәзәр дәнизиндән Гара дәнизәдәк саһәни әһатә едирмиш. Ермәниләрә көрә, "Ермәнистан дөвләти" б.е.ә. II-I әсрләрдә јарадылыб. Бизә көрә исә, бу дөвләт нә Ермәнистандыр, нә ермәни торпағыдыр, нә дә ермәниләрин мәскун олдуглары торпаглардыр. О, ермәни чарларынын гоншулардан силаһ күчүнә, зоракылыгла, ишғал нәтичәсиндә алдыглары торпаглардыр...

Күрдән ашағы Азәрбајчан торпағыны "Ичәри Ермәнистан" адландыран А.Ш.Мнатсаканјан јазыр ки, бура да "Ермәнистан дөвләти"нә дахил иди. Мнатсаканјана көрә, ("Гафгаз Албанијасынын әдәбијјаты һаггында" Јереван, 1969-чу ил) *Гарабағын* Ермәнистан торпағы олдуғуну сүбут едән "бүтөв букет" топонимләр вар. Әлбәттә, мүәллиф һәмин адларын мә'наларыны ачмыр. Адларын әксәријјәти Артсахдандыр. Јери кәлмишкән, **Артсах (Арсак, Арсаг)** һаггында фикирләрими һөрмәтли охучуларла бөлүшмәк истәјирәм:

Албанијанын **Артсах вилајәти** Күр чајынын саһилиндә 12 кичик инзибати әрази ваһидиндән ибарәт олуб. Илк вахтларда әһалини әсасән гаргарлар, һунлар, бассилләр, хәзәрләр вә утиләр тәшкил едирди. Бу әјаләтин әһалисинин дили халгымызын инди данышдығы дилин фөвгүндә дуран мүхтәлиф сој ләһчәләри иди.

Е.ә. I әсрдә јашамыш јунан тарихчи вә сәркәрдәси Арриан **Арсаг** адлы тарихи шәхсијјәт һаггында мараглы мә'лумат верир. О, көстәрир ки, **Арсаг** Мәркәзи Асијада јашајыб. Онун мәнсуб олдуғу сүлалә македонијалылара гаршы чыхараг јаделли ишғалчылары өлкәдән говмушдур. Өлкә азад оландан сонра бу көркәмли сәркәрдә өз һакимијјәтини гурур...

Јунан чоғрафијачы Страбон да гүдрәтли һөкмдар олан **Арсаг** һаггында тәхмини дә олса, бир сыра гијмәтли мә'луматлар вермишдир. Страбона көрә, мәншә етибары илә скиф олан, даиләрин бир һиссәсинә јијәләнән вә өзүнү *парна* адландыран **Арсаг** Парфијаја дахил олараг, ону өзүнә табе едир. Сонракы мүбаризәләрдә о, јени уғурлар газанараг Дәчлә чајы саһили боју бүтүн торпаглара саһиб олур. Антик дөвр тарихчиси Плини (I әср) дә Страбон кими **Арсаг** сүләләсинин көкүнү даиләрлә бағламышдыр.

VIII әсрдә јашамыш Бизанс мүәллифи Кеорки Синкел **Арсағын** Тридат адлы гардашы олдуғуну билдирир. О, көстәрир ки, бу гардашлар Бактријанын сатраплары олмуш вә Македонијанын Ирандакы чанишини Агафокла гаршы чыхмышлар.

Түрк халгларынын фәхри сајылан Арсағын тарихи шәхсијјәт, сәркәрдә вә дөвләт башчысы олмасы һаггында дөврүмүзә әлбәттә, чох аз мә'лумат кәлиб чатмышдыр. Арсаг һаггында Рома тарихчиси

Помпеј Трог да 44 китабдан ибарәт олан "Филиппин тарихи" әсәрләриндә мә'лумат верәрәк онун Македонијалы Искәндәр дөврүндә јашадығыны вә бөјүк шәһрәтә малик олдуғуну көстәрир. Онун мүлаһизәләринә көрә, **Арсаг** Селевкиләрин вә бактријалыларын һөкмдары олан Феодот тәрәфиндән тәһлукәни, көзләнилән јүрүшү дәф етмәк үчүн гошун топлајыр. Феодот өләндән сонра, **Арсаг** онун оғлу илә мүгавилә бағлајыр вә чох кечмир ки, Селевкә галиб кәлир...

Рома тарихчисинин дә вердији мә'луматдан ајдын олур ки, **Арсаг** гүдрәтли бир империјанын һөкмдары олуб. Амма онун һөкмдарлыг илләри барәдә мә'луматлар аздыр. Үмумиликдә бу да мә'лум олур ки, *Арсаг* түркдилли **Саг (сак)** тајфасына мәхсус олмушдур. Бу ада мәнбәләрдә **Арсаг, Әрсаг, Аршаг** вә с. формаларда раст кәлирик. **Арсаг** сөзү "сак икиди", "саг кишиси" кими мә'наландырылыр...

Тәдгигатчылар **Арсак** топонимләрини **Әр** вә **Сак** сөзләринә ајырырлар. Саклар бу әразидә илк дәфә Азәрбајҹан әразисиндә мәскунлашдығы дөврдән-бизим ерадан әввәл VII јүзилликдә мәскән салмышлар. Артсах хачпәрәстликдән сонра Албанијанын сијаси вә идеоложи һәјатында мүһүм рол ојнамышдыр. Бурада бир нечә јепископлуг олмушдур.

Һунларын, хәзәрләрин арасында хачпәрәстлији јајмаг үчүн албан чарлары нүмајәндәләри мәһз Артсахдан көндәрилирди. Һунларын, хәзәрләрин нүмајәндәләри кетдикләри јерин әһалиси илә ганбир, дилбир гардаш идиләр. Бу исә хачпәрәстлији јајмаг үчүн кичик амил дејилдир. Јереванын "Советакан Грок" нәшријјаты 1984-ҹү илдә Зори Балајанын "Очаг" китабыны рус дилиндә чапдан бурахмагла бу мәгсәди һәјата кечирмишдир. Мүәллиф Гарабағын бүтүнлүкдә Одлар јурдунун әзәли сакинләринин - азәрбајҹанлыларын милли һејсијјатыны алчалдан сөзләрдән чәкинмәјәрәк, онлары өз охучусуна *көчәри, барбар* вә *кәлмә* елементи кими танытдырыр.

"Ермәнистан дөвләти" анлајышы ики мә'нада - сијаси вә ҹоғрафи мә'нада ишләдилир. Бу анлајыш ("Бөјүк Ермәнистан") XVIII әсрдә Шәрг мәсәләсинин тәркиб һиссәси кими мејдана кәлмишдир. Бу анлајышын тәрәфдарлары Хәзәрлә Гара дәниз арасындакы торпаглары "Бөјүк Ермәни дөвләти" ады алтында бирләшдирәрәк, "Бөјүк Ермәни империјасы" јаратмаг иддиасындадырлар. Гафгазшүнас вә Албаншүнас олан С.Т.Јеремјанын әсәрләриндә, хүсусилә, "ССРИ тарихинин очеркләри" (Москва, 1958-ҹи ил) әсәриндә "Бөјүк Ермәнистан" анлајышына фактларын, тарихи керчәклијин сахталашдырылмасы зәмини әсасында "һагг" газандырмаг мәгсәди күдүлүр.



Мәлум олдуғу кими, "Ермәнистан дөвләти" сијаси анлајыш кими **е.ә. 66**-чы илдә II Тигранын ордусунун Рома сәркәрдәси Помпеј тәрәфиндән дармадағын едилмәсиндән сонра сүгут етмишдир...

Тарихи арашдырмалар көстәрир ки, Ермәнистанын бөлүшдүрүлмәси просесини Гафгаз Албанијасына, онун әрази сәрһәддинә һеч бир тәсири олмамышдыр. Онун әрази бүтөвлүјү е.ә.IV әсрдән ерамызын VIII әсринә гәдәр сабит олмуш, һеч бир әсаслы сәрһәд дәјишиклији олмамышдыр.

Азәрбајҹан әһалисинин Гарабағда јашајан ермәниләрин албан хәтти илә гоһум олдугларыны гејд едән гафгазшүнас А.П.Новоселсев јазыр ки, "Гарабағ вә Азәрбајҹанын башга вилајәтләринин ермәниләри онун (албан әһалисинин) нәсилләридир. Демәли, гәдим Албанија әһалиси һәм дә мүасир азәрбајҹанлы вә ермәниләрин бир һиссәсинин үмуми әҹдадыдыр".

Сон одонтоложи тәдгигатлар бир даһа сүбут едир ки, Јухары Гарабағын әразисиндә ермәниләр кәлмә елементдир. Ермәни тарихшүнаслығында артыг чохдан белә нисби идеја вар ки, ДГМВ әразиси Ермәнистанын "ајрылмаз" һиссәсидир. Бу идејанын нәзәри әсасы кечән әсрдә М.Чамчјан, К.Шаһназарјан, И.Емин, К.Патканов вә башгалары тәрәфиндән гојулмуш, сонралар Ј.А.Манандјан, М.А.Кеворгјан, Л.С.Хачикјан, С.Капутикјан, С.Т.Јеремјан тәрәфиндән консептуал ҹәһәтдән ишләниб сабитләшмишдир. Һәлә инди дә ермәни шәргшүнас тарихчиләри һәмин мөвгеләрдән чыхыш едирләр. Тәһриф олунан фактлар вә инандырычы олмајан ермәни мүһакимәләри әсасән ики тезисин сүбутуна хидмәт едир:

1. Күрүн сағ саһили аз гала 600 ил (б.е.ә. II әсрдән- б.е. IV әсринәдәк) Ермәнистанын тәркибиндә олуб. Һәмин дөврдә оранын әһалиси нә етник, нә дә дил ҹәһәтдән ермәниләрдән фәргләнмирди;

2. Күрүн сағ саһили әразисиндә лап гәдимләрдән ермәни әһалиси јашамышдыр. Бу әһали индијәдәк ермәни халгы илә етниклиси мәдәни бирлијини сахламышдыр;

Күр вә Араз чајлары әтрафындакы етник бирликләрин јерләшдирилмәси Мнатсаканјанын, Акопјанын, Сумбатјанын вә башга-

ларынын шәрһләри илә ујғун кәлмир. Бурада етник күтлә утиләр ады илә һәлә Һеродота мә'лум оларды. Утиләр Ути вә Артсах әјаләти әһалисинин мүәјјән һиссәсини тәшкил етмишләр. Шүбһә јери галмыр ки, ДГМВ-нин ермәни дилли әһалиси ермәниләшдирилмиш јерли әһалинин мүхтәлиф Албан тајфаларынын - утиләрин, тсодларын нәсилләридир...

387-чи ил мүгавиләсинә көрә император Ромасы илә Сасани Ираны *Аршакид Ермәнистаныны* бөлүшдүрмүшләр. Ермәнистанын тәхминән дөрддә үч һиссәси Ирана, дөрддә бир һиссәси Романын пајына дүшмүшдүр. IV-VI әсрләрдә Гарабағда христианлыг јајылмаға башлады. VII әсрдә дә Гарабағын улу әҹдадларымыза мәхсус олмасы барәдә кифајәт гәдәр фактларымыз вар. Әрәб ишғалындан сонра Гарабағын дүзәнлик һиссәсиндә вә шәһәрләриндә јашајан әһали ислам динини гәбул етди. Гарабағын дағлыг һиссәси олан Артсахда јашајан әһалинин чоху **христианлығы** горујуб сахлады...

VII-VIII әсрләрдә Артсах Албанијасы Меһрани сүлаләси чарларына табе иди. Меһраниләрин ахырынчы чары Вараз Тридат 821-чи илдә Артсахда өлдүрүлүб. Бундан сонра Артсахда Сјунинин һакими, Зармихрә мәнсуб албан чар сүлаләсиндән олан Сәһл оғлу Сумбат һакимијјәтә кечир. Лакин о, Артсаха бүтүнлүклә саһиб дејилди. Әразинин мүәјјән һиссәси Албан кнјазы Степан Абласадын, ондан сонра Исаји Әбу Мусанын һакимијјәти алтында олмушдур. 866-чы илдә Меһраниләр сүлаләсиндән Һаммам да Албанијанын христиан әһалиси јашајан һиссәләринин кнјазы олмушдур.

VIII јүзилликдә Артсах әрәбләр тәрәфиндән азад едилдикдән сонра да Артсах ҹамаатынын бир һиссәси өз хачпәрәст динләрини горудулар. Мәнбәләрин мә'луматына көрә, IX јүзиллијин мәшһур **Бабәк һәрәкаты** Гарабағы да бүрүмүшдү. Албан килсәсинин зәифләмәси, ермәни килсәсинин хилафәтлә иттифагы нәтиҹәсиндә Артсах әһалисинин григоријанлашдырылмасы хачпәрәстлијин ермәниләрә мәхсус мәзһәбинә кечмәсинә, онларын дилинин итирилмәсинә сәбәб олду. Артсах әһалисинин бир һиссәсинин ермәниләшдирилмәси X-XIII јүзилликләрдә баша чатдырылды. Әрәб хәлифәләриндән сонра (VII-IX әсрләр) бүтүн орта әсрләр боју әввәлләрдә олдуғу кими **Гарабағ** Азәрбајҹан һөкмдарлыгларынын әразиси олмушдур...



X әсрдән **Гарабағ** Шәддадиләрин, XI әсрин орталарындан Сәлҹугларын һакимијјәтинә кечди. XII әсрин II јарысындан исә Гарабағ Елдәкәзләр дөвләтинин тәркибиндә иди. XII-XIII әсрләрдә Дағлыг Гарабағын әразиси Хачын феодал ханлығынын тәркибиндә олмушдур. Бу ханлығын (кнјазлығын) һөкмдары Һәсән Ҹәлал бә'зи мәнбәләрдә көстәрилдији кими, ермәни јох, "Албан һөкмдары" адыны дашыјырды. Бу кнјазлыг өзүндә 5 мәликлији (Хәмсә) бирләшдирирди. XII әсрдә Артсахда Хачын кнјазлығы јүксәлди. Бу кнјазлығын көркәмли нүмајәндәси Һәсән Ҹәлал (**1215-1261**) Меһрани чар сүлаләсинин нәслиндән иди.

Беләликлә, X-XIII әсрләрдә **"ермәниләшдирилмиш"** Артсах әһалиси Албан кнјазлығына, Гафгаз дилләри групуна дахил олан әһали дејил, инди бизим данышдығымыз Азәрбајҹан дилинин көкүнә ујғун ләһҹә илә данышан әһали олмушдур. Тарихи мә'луматлар көстәрир ки, Артсахын әрәб ишғалларындан сонра Ермәнистанла әрази бирлији олмајыб, амма христиан албанларын ермәниләшмәси просеси кедирди.

1136-1225-чи илләр Азәрбајҹан Атабәјләр дөвләтинин (Елдәкизләр сүлаләсинин) һакимијјәти илләридир. Бу дөврдә дә Гарабағын әразиси Ермәни дөвләтинин тәркиб һиссәси ола билмәзди, чүнки, Ермәнистан (Гәрби Азәрбајҹан) торпағынын өзү Елдәкизләрин ихтијарында иди. XIII әсрдә Азәрбајҹан әразиси индики Гарабағ да дахил олмагла Харәзмшаһ Мәһәммәдин оғлу Султан Ҹәлаләддин тәрәфиндән тутулмушдур. О дөврүн тарихчиси Шәһабәддин Мәһәммәд ән-Нәсәви мәһз индики *Дағлыг Гарабағ* әразисини **"Аран"** кими көстәрмишдир.

XIII әсрин 30-чу илләриндә Гарабағы монголлар ишғал етдиләр. 1239-чу илдә монголлар тәрәфиндән Азәрбајҹанын ишғалы демәк олар ки, баша чатыр. 1258-чи илдә Азәрбајҹан Һулакүләр дөвләтинин тәркибинә гатылыр. Бу дөврдә **Гарабағ** ады артыг сырф ҹоғрафи әрази кими чәкилир. Јухарыда гејд етдијим кими, Ф.Рәшидәддинин "Ҹаме әт-тәварих" әсәриндә **"Арран Гарабағ"** ады 1284-чү ил һадисәләринин шәрһи илә әлагәдар хатырланыр. XIII-XIV әсрләрдә **Гарабағ** Һулакүләр дөвләтинин сијаси тарихиндә мүһүм рол ојнамышдыр. Монголлардан сонра **Гарабағ** пајтахты Тәбриз олан Азәрбајҹан дөвләтинин әразиси олмушдур.

XIV әсрин сонларындан Гарабағда Тејмурун варисләри ағалыг

едирдиләр. Тејмур христиан албанларын бөјүк бир һиссәсини Гарабағдан Гәндәһара көчүрүр... XIV әсрин сонларында Гарабағ Тејмуриләрин һакимијјәтинә кечди. Онун өлүмүндән (1405-чи ил) сонра халг күтләләринин Тејмуриләрә гаршы чыхышларындан истифадә едән Ширваншаһ I Ибраһим (1382-1417) Гарабағын дүзәнлик һиссәсини Ширвана бирләшдирди. Амма 1412-чи илдә Гарагојунлуларла Күр саһилиндә баш верән вурушмадан сонра Гарабағ тамамилә Гарагојунлу дөвләтинә гатылды. Сәфәвиләрин һакимијјәти дөврүнә гәдәр **Гарабағ** монголларын, Гарагојунлу вә Ағгојунлу һакимләринин идарәси алтында иди. XV әсрдә ***Гарабағ*** Азәрбајчан Гарагојунлу (1410-1467) вә Ағгојунлу (1468-1501) дөвләтләринин тәркибиндә олмушдур. ***Гарабағ*** бу дөврдә дә Азәрбајчанда мөвчуд олан үч бәјләрбәјлијиндән бири олмушдур, мәркәзи дә Кәнчә шәһәри иди (1501-1736).

XVI әсрдә **Гарабағ** Сәфәвиләр дөвләтинин һакимијјәтинә кечди. Сәфәвиләр Азәрбајчанда 4 бәјләрбәјлик јаратмышдыр ки, онлардан да бири **Гарабағ** вә ја ***Кәнчә бәјләрбәјлији*** иди. 1593-чү ил мә'луматына көрә, Кәнчә-Гарабағ әјаләти 7 санчаг, 36 наһијәјә бөлүнүрдү. Бурада гејдә алынан 1,3 миндән чох топонимик ваһидләрин демәк олар ки, һамысы (тәхминән 96%-и) Азәри түркчәсиндә иди.

Сәфәвиләр дөврүндә Азәрбајчан бәјләрбәјликләрә бөлүнмүшдү ки, бу инзибати бөлкү XVIII әсрин орталарына гәдәр давам етмишдир. Бәјләрбәјликләрдән бири дә **"Гарабағ бәјләрбәјлији"** адланырды. Бүтүн Гарабағ әразиси дә бу бәрләрбәјлијә дахил едилмишдир. О вахт Јухары Гарабағда өзләрини ермәни һесаб едәнләр әслиндә ермәниләшмиш христиан албанлары идиләр. Онлар өзләри дә билә билмәздиләр ки, ермәни јох, албандырлар. Чүнки онлары бу күнә салан **ермәни христиан килсәси** иди...

XVII әсрин әввәлләриндә Гарабағда кәндли һәрәкаты кенишләнди. 1671-чи илдә бурада антифеодал үсјан баш верди. Сәфәвиләр дөврүндә Гарабағы гачар тајфасындан олан Зијадоғуллары нәсли идарә едирди. Бу дөврдә Гарабағда әкинчилик, багчылыг, ипәкчилик кениш јајылмышды. XVIII әсрин 40-чы илләриндә бурада **Гарабағ ханлығы** јаранды. Ханлыг дөврүндә игтисадијјатда мүһүм дирчәлиш олду. Шуша шәһәри Азәрбајчанын мәдәни вә тичарәт һәјатында әһәмијјәтли рол ојнајан шәһәрә чеврилди.



1747-чи илдән 1828-чи илә гәдәр Күр вә Араз чајлары арасындакы бүтүн торпаглар, һәмчинин **Гарабағ** Азәрбајчан феодал дөвләтини тәшкил едирди. 1805-чи илдә Гарабағ ханы Ибраһим Хәлил хан илә П.Д.Сисианов арасында бағланмыш **"Күрәкчај"** мүгавиләсинә әсасән **Гарабағ** Русијанын тәркибинә дахил едилди. 1805-чи илдә мајын 14-дә Ибраһимхәлил хан Кәнчә јахынлығында тарихә "Күрәкчај" ады илә дүшмүш бу андлы өһдәлији имзалады. Аз сонра бағланмыш "**Күлүстан**" сүлһ мүгавиләсинә (1813-чү ил) көрә, **Гарабағ** да Шимали Азәрбајчанын тәркибиндә Русијаја бирләшдирилди...

1810-чу илә аид рәсми мә'лумата көрә Гарабағ вилајәтиндә 12.000 әһали олуб ки, бунун да чәми 2500-ү ермәни иди (Присоединение Восточној Армении к России, I т. Ереван, 1973, с.562).

1823-чү илдә "Гарабағ әјаләтинин 1823-чү илдә һәгиги статски мүшавир Мокилјовски вә полковник Јермолов тәрәфиндән тәртиб едилмиш тәсвири" (Тифлис, 1866) верки рејестринә көрә ханлыг ләғв едилән заман (1822-чи ил) орада 90.000 әһали (20.095 аилә; 15.729- азәрбајчанлы аилә, 4.366 - ермәни аилә) јашајырды. Ханлыг дөнәминдә 1 шәһәр, 610 кәнд (чәмиси 140 кәнддә ермәни јашајырды) варды. Шуша шәһәриндә 1048 аилә варды ки, бунун да чәми 474-ү ермәни аиләси иди. Кәндләрдә 12.902 (43.311 нәфәр) азәрбајчанлы аилә јашајырды.

XIX әсрин 20-30-чу илләриндә Загафгазијаја, о чүмләдән, Гарабаға 200.000 ермәни көчүрүлүр (Н.И.Шавров: Новаја угроза русскому делу в Загафказе: предстојашаја распродажа Мугани и народтсам. СП б.1911, с.59). 10 апрел 1840-чы ил чар һөкумәтинин Гафгазда инзибати-ислаһатына әсасән аз сонра (1.01.1841-чи ил) Каспи вилајәти тәркибиндә мәркәзи Шуша шәһәри олан **Шуша гәзасы** јаранды.

1840-чы илдән сонра **Дағлыг Гарабағ** әразиси Каспи вилајәтинин Шуша гәзасына; 1846-чы илдән исә Шамахы (1859-чу илдән Бакы) губернијасына дахил олуб. 1868-чи илдә Јелизаветпол (Кәнчә) губернијасы јарананда һәмин әрази Шуша вә Зәнкәзур гәзаларынын тәркибинә дахил олду.

Гарабағда ермәниләрин чохалмасы, јухарыда гејд етдијим кими, әсасән, XIX әсрин 20-чи илләриндә баш верди. Рус-Иран вә Рус-Түрк мүһарибәләринин гәләбәсиндән сонра Чәнуби Гафгаза

Ирандан вә Түркијәдән он минләрлә ермәни ахышыб кәлди. "**Түркмәнчај**" сүлһ мүгавиләсиндә (1828-чи ил, 10 феврал) дә бу, нәзәрдә тутулмушдур. **Јухары Гарабағ** әһалисинин милли тәркибинә кәлинчә исә, бу, **1832**-чи илдә ермәниләр Иран вә Түркијәдән көчүрүлдүкдән сонра илк дәфә верилән мә'луматлара кәрә, **65** фаиз азәрбајчанлылардан, **35** фаиз ермәниләрдән ибарәт олмушдур ("Русијанын Загафгазија һиссәсинә аид тәдгигатлар," III һиссә, Петербург, 1836, V чәдвәл).

Рус мүстәмләкәчилијинин Иран вә Түркијәдән ермәни аиләләринин көчүрүлмәси сајәсиндә 1880-чи илдә Јухары Гарабағда ермәниләр әһалинин 53 фаизини, азәрбајчанлылар 42 фаизини тәшкил етмишдир ("1896-чы ил үчүн Гафгаз тәгвими, V бөлмә"). 1897-чи илдә бу рәгәмләр мувафиг олараг 53-45 фаиз иди ("Әһалинин өјрәнилмәси сајәсиндә илк тәдгигат", Петербург, 1904). 1897-чи ил үчүн Шуша гәзасынын 4911 квадрат километр саһәси, 140.740 нәфәр әһалиси олмушдур.

XX әсрин илк илиндә ермәниләр Чәнуби Гафгаз әһалисинин 19 фаизини тәшкил едирдиләрсә, 1921-чи илдә бу рәгәм 22 фаизә чатды. "Бу артымын сәбәбләриндән бири Түркијәдән ермәниләрин Гафгаза көчүрүлмәсидир" (Б.Ишханјан, "Гафгаз милләтләри", Петербург, 1916, сәһ.33)...

XX әсрин әввәлләриндә Азәрбајчанда, еләчә дә, Гарабағда ингилаби мүбаризә күчләнди. 1907-чи илин ијунунда Шуша ипәк фабрикинин фәһләләринин тәтили олду. 1917-чи илин ијунунда болшевикләр РСДФ(б)П-нин Шуша тәшкилатыны јаратдылар.

**25 октјабр (7 нојабр)** - 1917-чи ил тарихдә Русијада дөвләт чеврилиши олду - Бөјүк Октјабр Сосиалист Ингилабы баш верди. Степан Шаумјан Ичраијјә Комитәсинин сәдри сечилди. Аз сонра Бакыда күчлү ермәни силаһлы гүввәләри чәмләшдирилди. 1918-чи илин март ајынын сон күнләриндә Бакыда ермәниләр гырғын төрәтдиләр.

**29 мартда** - Бакы лиманында Ләнкәран әксингилабчыларына көмәјә кедән **"Дикаја дивизија"** һиссәләри ора көндәрилән Гырмызы гвардијачылара атәш ачды. Бакы Советинин тәләби илә "Дикаја дивизија" әскәрләри тәрксилаһ едилди...

**30 март** - Мүсаватчыларла Бакы совети арасында "Дикаја дивизија"нын силаһларыны гајтармаг һаггында данышыглара башланды. Данышыглар заманы мүсаватчыларла совет гошун һиссәләри (ермәниләр) арасында Шамахы (Ч.Чаббарлы) вә Татарски (Н.Крупскаја) күчәсиндә атышма олду. Азәрбајчанда вәтәндаш мүһарибәси башланды. Март гијамынын (?) јатырылмасына рәһбәрлик үчүн **мартын 30-дан 31-нә** кечән кечә Н.Нәриманов, С.Шаумјан, П.Чапаридзе вә башгаларындан ибарәт **Ингилаби Мүдафиә Комитәси** (ИМК) јаранды.

**31 март** - Совет гошунлары гәти һүчума кечди. Мүсаватчылар данышыг тәклиф етдиләр. **ИМК** мүсаватчылардан Бакы Советинин һакимијјәтини данышыгсыз танымағы, һәрби һиссәләрини Бакыдан вә онун рајонларындан чыхармағы вә с. тәләбләр ирәли сүрдү. Мүсаватчылар бу шәртләрлә разылашдылар. **Март гијамы**(?)нын јатырылмасы Бакыда вәтәндаш мүһарибәсинә сон гојду, совет һакимијјәтини мөһкәмләндирди, Бакыны тутмаг истәјән харичи мүдахиләчиләрин планлары позулду. Бакы вә онун рајонларында һакимијјәт Советләрин әлиндә чәмләнди...

**26 мај** 1918-чи ил тарихдә Загафгазија Сејми сүгут етди. **28 Мај**да Азәрбајчан Мүвәггәти Милли Шурасы Азәрбајчан Халг Чүмһуријјәтинин "Истиглал бәјаннамәси"ни елан етди. Азәрбајчан бүтүн түрк вә мүсәлман дүнјасында илк **Республика** олду. Бу һөкумәт тез бир заманда Түркијә илә иттифага кирди. Вәзијјәтин кәркин анында Османлы гошунлары Азәрбајчана кәлди. Милли Шура вә һөкумәт Кәнчәјә көчдү. Јени һөкумәт јаранды. Азәрбајчан һөкумәти Шуша, Чаваншир, Чәбрајыл вә Зәнкәзур гәзаларыны Кәнчә губернијасынын тәркибиндән ајырыб мәркәзи Шуша шәһәри олан **Гарабағ кенерал-губернаторлуғу** јаратды...

С.Шаумјан АДР-ны јыхмаг үчүн Кәнчәјә һүчум планы һазырлады. 10 ијунда башлајан бу һүчум 27 ијунда Көјчај јахынлығында Османлы һәрби гүввәләринин көмәји илә мәғлубијјәтә уғрады. Халг Чүмһуријјәтинин гошунлары әкс-һүчумла 20 ијулда Шамахыны тутду. Августда башда кенерал Денстервил олмагла инкилис гошунлары Бакыја кәлди. АХЧ гошунлары Түрк һәрби гүввәләри илә бәрабәр Бакыја һүчум етди. Сентјабрын орталарында Бакы азад едилди. АХЧ Кәнчәдән Бакыја көчдү. 7 декабрда 120 депутатдан ибарәт Парламент јарадылды. Белә чәтин тарихи шәраитдә һәрби сәфәрбәрлик башлады. Бу заман Азәрбајчан Республикасынын әразиси 97,3 мин квадрат километр (бундан

башга 15,6 кв.км мүбаһисәли әрази) иди. Аз заман ичәрисиндә 10 мин сувари, 30 мин пијададан ибарәт гошун топланды.

1918-чи ил сентјабрын 25-дә Түркијә гошунлары Азәрбајчана кәлиб Шушаны тутдулар. 1919-чу илин јајында болшевикләрин Гарабағ Маһал Партија Комитәси јаранды.

11 јанвар 1920-чи ил тарихдә Парис сулһ конфрансынын Али Шурасы тәрәфиндән АДР-ын де-факто танынмасы елан олунду. Бакыда бә'зи өлкәләрин сәфирликләри, консуллуглары ачылды. 11 феврал 1920-чи илдә Азәрбајчан коммунистләри I гурултајда Азәрбајчан Коммунист Партијасыны јаратдылар. Микојан вә башгаларынын көмәји, тәһрики илә Гарабағда ермәни гијамы баш верди. 27 апрелдә XI орду Азәрбајчан сәрһәдини кечди, аз сонра - 28 апрелдә Бакыја дахил олду. Беләликлә, Азәрбајчан јенидән ишғал олунду.

1920-чи ил **апрелин 29-да** Гарјакиндә, апрелин 30-да Шушада коммунистләр һакимијјәтә кәлдиләр. 30 апрелдә Шушада Гәза Ингилаб Комитәси тәшкил едилди. Мајын 20-дә Гарабағ Вилајәт Ингилаб Комитәси јаранды. 1920-чи илин мајын 25-дә һакимијјәт артыг бүтүнлүклә Гарабағ Вилајәт Ингилаб Комитәсинин әлиндә иди. Ијунун 5-дә мусаватчылар түрк кенералы Нуру Пашанын рәһбәрлији илә гијам галдырыб Ағдамы, Тәртәри, Шушаны, Бәрдәни әлә кечирсәләр дә, бир һәфтә сонра XI Гырмызы Орду һиссәләри онлары Гарабағдан чыхмаға вадар етди. Нуру Паша вә башгалары Азәрбајчаны тәрк етмәјә мәчбур олдулар... Совет һакимијјәтинин гәләбәсиндән сонра Гарабағда да бир сыра сосиалист тәдбирләри һәјата кечирилди...

XX әсрин Мүсават һөкумәти (АДР) дөврүндә дә **Гарабағ** Азәрбајчанын тәркибиндә олмушдур. 1918-чи илдән **Гарабағ** Азәрбајчан Демократик Республикасынын, 1920-чи илдән исә Азәрбајчан ССР-ин ајрылмаз тәркиб һиссәси олмушдур. Бүтүн бу гејд етдикләрим, һеч вахт ермәниләрә мәнсуб олмајан **Гарабағын гыса тарихидир...**

1920-чи илин 19 ијунунда Г.К.Орчоникидзенин Владигафгаздан В.И.Ленинә вә Чичеринә вурдуғу телеграмда дејилир ки, Гарабағда вә Зәнкәзурда Совет һакимијјәти елан едилдикдән сонра ады чәкилән һәр ики әрази өзүнү Азәрбајчанын тәркиб һиссәси һесаб едир. Дағлыг Гарабағ һаггында мәсәлә 1921-чи илин 27 ијун тарихи АК(б)П МК-нын Сијаси вә Тәшкилат бүросунун јығынчағында музакирә едилди.



**4 ијул** 1921-чи ил тарихдә РК(б)П МК Гафгаз Бүросунда"Дағлыг Гарабағ" һаггында мәсәлә музакирә едилди (протокол №11). Һәмин күн Сталин, Киров, Орчаникидзе, Назаретјан, Нәриманов, Фигатнер, Махарадзе вә Мјасниковун иштиракы илә бир пленум да кечирилди. "Дағлыг Гарабағ Азәрбајчанын һүдудларында сахланылсын" фикринин леһинә Нәриманов, Махарадзе, Назаретјан, әлејһинә исә Орчоникидзе, Мјасников, Киров, Фигатнер сәс верирләр. Нәтичәдә беләә бир гәрар гәбул олунур ки, Дағлыг Гарабағ Ермәнистан ССР-ин тәркибинә гатылсын. Н.Нәриманов бу әдаләтсиз гәрара е'тираз етдикдән сонра Гафгаз Бүросу гәти гәрар үчүн мәсәләни РК(б)П МК-нин мүзакирәсинә верди.

**5 ијул** 1921-чи ил тарихдә РК(б)П МК-нын Гафгаз Бүросунун Пленумунда (Сталин, Орчаникидзе, Махарадзе, Киров, Нәриманов, Мјасников, Назаретјан, Орахелашвили, Фигатнер-протокол №12) беләә гәрар гәбул едилир: "Мүсәлман вә ермәниләр арасында милли сүлһүн, Јухары вә Ашағы Гарабағын игтисади әлагәсинин зәрурилијинә, онун Азәрбајчанла даими әлагәсинә әсасланараг Дағлыг Гарабағ Азәрбајчан ССР-ин һүдудлары дахилиндә сахланылсын. Мухтар Вилајәтин тәркибинә дахил олан инзибати мәркәзи Шуша шәһәри олмагла она кениш вилајәт мухтаријјәти верилсин.

**20 ијул 1921-чи ил** тарихдә АК (б)П МК-нын Сијаси Тәшкилат бүросу **"Гарабағ мәсәләси"** үчүн Комиссија јаратды.

**26 сентјабр 1921-чи ил** тарихдә АК(б)П МК-нин Сијаси вә Тәшкилат Бүросу өз ичласында Гарабағ мәсәләни јенидән мүзакирә етди.

**14 декабр 1922-чи ил** тарихли РК(б)П-нин Загафгазија дијар комитәсинин имзасы илә Дағлыг Гарабағын мухтаријјәт мәсәләси нәзәрдән кечирилди.

**15 декабрда** АК(б)П МК Рәјасәт Һејәтинин гәрарына ујғун олараг Азәрбајчан ССРИ ХКШ јанында Дағлыг Гарабағ ишләри үзрә Мәркәзи Комиссија јарадылыр вә А.Гаракөзов башда олмагла **"Дағлыг Гарабағ ишләри үзрә Комитә"** тәсдиг олунур.

**1923-чү** ијунун ахырында ЈИК(б)П Загафгазија Дијар Комитәсинин ичласында Дағлыг Гарабағын мухтаријјәт мәсәләси јенидән нәзәрдән кечирилди. Пленум Ә.Һ.Гарајевин сәдрлији илә олан комиссијанын гәрары әсасында Дағлыг Гарабағын Мухтар Вилајәтә чеврилмәси һаггында Загафгазија Дијар Комитәсинин гәтнамәсини гәбул етди.

**1 ијул 1923-чү ил** тарихдә Азәрбајҹан Коммунист (болшевикләр) Партијасынын Мәркәзи Комитәсинин Рәјасәт Һејәти белә гәрар чыхарыр: "Азәрбајҹан МИК-нә тәклиф олунсун ки, Дағлыг Гарабаға мухтаријјәт верилмәси барәдә декрет версин, Иҹраијјә Комитәси башда олмаг етибары илә ондан Ханкәнди мәркәз олмагла Гарабағ Мухтар Вилајәтини јаратсын.

Гарабағ МВ ИК јарадылана гәдәр бу вилајәти идарә етмәк үчүн 5 нәфәрдән ибарәт Ингилаб Комитәси вә Вилајәт Партија Комитәси јарадылсын. АК(б)П МК Рәјасәт Һејәтинин 1 ијул 1923-чү ил гәрары да буну тәсдиг етди.

**7 ијул 1923-чү ил** тарихдә Азәрбајҹан МИК **"Дағлыг Гарабағ Мухтар Вилајәтинин јарадылмасы һаггында"** декрет верди. Бу декретлә 1923-чү илдә ДГМВ јаранды. ДГМВ јарадылмасы илә әслиндә Азәрбајҹанын ваһид әразиси бөлүндү. Азәрбајҹан болшевикләри әрази бүтөвлүјү үчүн јарадылан тәһлүкәни арадан галдыра билмәдиләр. Беләликлә, сүн'и сурәтдә јарадылан **"Гарабағ мәсәләси"** Гарабағын ермәни әһалисинин хејринә мүсбәт һәлл олунду. Тәәссүфләр олсун ки, һәмин заманларда Ермәнистанда јашајан он минләрлә азәрбајҹанлылара мухтаријјәт верилмәси мәсәләси јада дүшмәди...

**1945-чи** илин пајызында да **"Гарабағ мәсәләси"** јенидән күндәмә кәлди. Ермәнистан КП МК-нин биринчи катиби Арутинов ДГМВ-нин Ермәнистан ССР-нын тәркибинә дахил едилмәси һаггында тәклифи ҮИК(б)П МК-нин сәрәнчамына верди. М.Ҹ.Бағыров о заман Арутиновун дәлилләринә гаршы сәрт тәклифләр ирәли сүрдү...

**Һөрмәтли охуҹу,** мүхтәлиф мәнбәләрә әсасланараг ишләдијим елә бу гыса јазыдан да көрмәк олар ки, ермәниләрин Күрдән ҹәнубда әразиләримизи гәдим ермәни торпаглары һесаб едәрәк ону әлимиздән алмаг идејалары көјдәндүшмә дејил. Бу, чоҳдан дүшүнүлмүш, "елми" сөјкәји олан бир идејадыр...

Әҹдадларымызын ХХ әср нәсилләри нәдәнсә торпагларымызын бүтөвлүјүнү сахлаја билмәјиб. Көјчә маһалыны, Зәнкәзур гәзасыны Ермәнистана "бағышладылар". Бундан бир нечә онилик кечдикдән сонра **"Гарабағ мәсәләси"** јенидән галхды вә бу күн дә Гарабағымыз чәтин сынаг гаршысындадыр. Букүнки нәсилләр кәләҹәк нәсилләр гаршысында мәсулијјәт һиссини унутмамалыдырлар.



Бизә улуларымыздан мирас галан торпағы **севмәк, горумаг вә кәләҹәк нәсилләрә чатдырмаг** һамымызын мүгәддәс амалымыз олмалыдыр...

Ермәни тарихшүнаслығынын һаким консепсијасында "сүбут" етмәјә ҹәһд көстәрилир ки, куја ермәниләр Ермәнистан әразисинин көклү әһалиси, орадакы азәрбајҹанлылар (ермәни милләтчиләринин зоракылыг сијасәти, бизим милләтин бејнәлмиләлчилији, сусмасы нәтиҹәсиндә инди онлар доғма јурд-јуваларындан говулмушлар) исә XIII әсрдә Мәркәзи Асијадан кәлмә көчәри түрк вә монгол-татарларын нәсилләридир.

Ермәни тәдгигатчылары тарихи фактлары сахталашдыраraг, тарих боју Азәрбајҹанын тәркиб һиссәси олмуш Зәнкәзуру (кечән әсрин 20-чи илләриндә Ермәнистана верилиб), Гарабағы (Артсахы), Газах-Ағстафа зонасыны (гәдим Кирдманы) бинаји-гәдимдән ермәни торпағы сајыр, Күр-Араз овалығынын б.е.ә. II әсрдән ерамызын IV әсринәдәк "Ермәни дөвләти" әразиси, сонралар исә "Шәрги Ермәнистан" адландығыны гејд едирләр. Онлар мүхтәлиф харичи өлкәләрдә чап етдирдији китабларда бүтүн Гарабағын, һәтта, Нахчыванын да тарихән ермәни торпағы олмасыны елми ҹәһәтдән әсасландырмаг үчүн дәридән-габыгдан чыхырлар...

**Әзиз охуҹу,** биз дә әҹәб милләтик. 30-ҹу илләрдә (ХХ әср) Ермәнистанда азәрбајҹанлылар јашајан кәндләрин адлары дәјишдирилди; 40-чы илләрдә азәрбајҹанлыларын бир һиссәси орадан говулду; 50-чи илләрдән башлајараг, Азәрбајҹан торпаглары һесабына әразиси кенишләндирилмиш **"Ермәни дөвләти"** јаратмаг идејасы илә хәритәләр чызылды, китаблар јазылды вә бу идејалар дәрсликләрдә өзүнә јер тапыб али вә орта мәктәбләрдә тәдрис олунду... Биз исә нәдәнсә сусдуг. Сусдурулдуг да демәздим. Әвәзиндә ермәниләри назирликләрдә, рајкомларда, идарәләрдә, нә билим даһа һараларда рәһбәр вәзифәләрә ирәли чәкдик. **"Гардаш олуб Һајастан-Азәрбајҹан"** нәғмәсини гошдуг. Шаумјана гранитдән һејкәл дүзәлтдик. Авакјана, Осипјана, Әмирјана, нә билим нә **"јанлара"** адларыны әбәдиләшдирмәк үчүн күчәләр, даһа нә билим нәләр вердик. Ермәниләрин башбиләнләри һәмишә милләтчилик һиссилә јашајырдылар, бизимкиләр исә...

Гоншу торпагларыны зәбт етмәк, **"Бөјүк Ермәнистан"** арзусунун синәсиндә јува салдығы Ечмиәдзин килсәси үчүн Гарабағы әлә

кечирмәк башлыдча мәгсәддир. Вазкен башда олмагла Ечмиәдзин **Гарабағ** үчүн бүтүн милјардларыны горумаға һазыр, ихтијарында күчлү имканы олан горхулу бир гүввәдир.

Иш елә кәтириб ки, јалныз сон вахтлар билирик ки, Шәргдә илк парламентли республика јарадан бизим халг олуб. Сонралар билирик ки, бәс мүсаватчылар милләт јолунда, Вәтән уғрунда чанларындан кечибләр. Бизим милли јаддашымыз коршалыбмы? Өзүмүзү пис күнә өзүмүз салмамышыгмы?..

Шаир Оруч Сәда нечә көзәл дејиб:

***Гарабағ гаралдыб ағ күнләрими,***
***Едибдир синәмә дағ күнләрими.***
***Хәстәһал елјиб сағ күнләрими,***
***Гәмдән һаваланыб ојнамалыјам.***

***Гафил, паја көтүр, дүр дөј дәрдими,***
***Јохдур јетишдирән бу көј дәрдими.***
***Биширә билмирәм бу чиј дәрдими,***
***Дејәсән һәлә чох гајнамалыјам...***

Шимали Азәрбајчанда нәһајәт, **18 октјабр 1991-чи ил** тарихдә мүстәгиллик елан олунду. Шүкүр! Һејф ки, бу бөјүк һадисә намәрд ермәни гоншумузун торпагларымыза әрази иддиасы илә ејни вахта тәсадүф етди. Он илләр **"бөјүк гардаш"** сајдығымыз руслар да мүхтәлиф үсулларла бир нөв бу тәчавүз иддиасынын тәрәфдары олдулар. Кечмиш гурулуш бизә аз гала 1905-1918-чи илләрдәки халгымыза гаршы ермәниләрин төрәтдикләри вәһшиликләри, сојғырымларыны унутдурду. *Гарабағ торпаглары* һәррач малына чеврилди...

**1992-чи ил мајын 8-дә** Гарабағын тачы олан **Шуша** шәһәри дә ермәни ишғалчылары тәрәфиндән зәбт олунду... Елан едилмәмиш бу мүһарибәдә јүзләрлә, минләрлә чаванларымыз, гочаларымыз чанларыны гурбан вердиләр. Онларын адлары халгын тарихи јаддашында әбәди галачагдыр...

ДГМВ Гарабағын дағлыг һиссәсиндә Кичик Гафгазын чәнуб-шәргиндә јерләшир. Әразиси 4392 квадрат километрдир. Саһәси шималдан чәнуба 120 км, шәргдән гәрбә 40-60 км-дир. Әһалиси 180 мин (130 мин ермәни, 48 мин азәрбајчанлы, 40-дан чох



милләтин 2 мин нүмајәндәси) нәфәрдир. ДГМВ тәркибинә 5 рајон - Шуша, Әскәран (Хочалы), Мардакерт (Ағдәрә), Мартуни вә Һадрут (Хочавәнд) дахилдир. 26 нојабр 1991-чи ил 279-XII нөмрәли ганунла ДГМВ статусу ләғв едилиб...

**Гарабағ** ады ики компонентдән - **Гара вә бағ** сөзләриндән әмәлә кәлмишдир. **Гара** сөзүнүн чохлу мә'на чалары вардыр. Онлардан бири дә "чохлуг", "чох сыхлыг" мә'насы олдуғу үчүн **Гарабағ** топонимини "чохлу бағлы-бағатлы јер" (**гора** "үзүм") кими мә'наландырмаг олар. Доғрудан да, XVII әсрин биринчи јарысына гәдәр Араз чајынын кәнарында **Гарабағ** адында бағлы-бағатлы мүһүм бир јашајыш мәнтәгәси олмушдур. Чох күман ки, тарихимиздә адлары чәкилән **Гарабағ әјаләти, Гарабағ вилајәти, Гарабағ маһалы, Гарабағ бәјләрбәјлији, Гарабағ ханлығы, Гарабағ дағ силсиләси, Гарабағ каналы, Гарабағ дүзү** вә с.дә өз адларыны Араз чајы гырағындакы һәмин јашајыш мәнтәгәсинин адындан алмышдыр.

А.Олеаринин "Иран сәлтәнәти" хәритәсиндә **Гарабағ шәһәри 39$^{0}$** шимал ен даирәси илә **82$^{0}$ 21** шәрг узунлуг даирәсинин кәсишдији нөгтәдә көстәрилир. Һәмин шәһәр тәхминән индики Һорадиз (Фүзули рајону) дәмирјол стансијасындан шәргдә- Иран әразисиндәки Асландүз јашајыш мәнтәгәсиндән азачыг шималда, мөвчуд олмушдур...

*Искәндәр бәј Мунши* Гарабағын аб-һавасынын, мешә вә бағларынын, бәрәкәтли чөлләринин, көзәл отлагларынын дүнјада мисли-бәрабәри олмадығыны көстәрир...

Јухарыда гејд етдијим **Гарабағ** ады тарихдә VII әсрдән, бир әјаләт кими XIII әсрдән, бир ханлыг кими XVIII әсрдән мә'лумдур. Мәним фикримчә, Гарабағ топонимләрини өјрәнмәк үчүн бу әразинин топонимикасыны да, билмәк башлыча шәртдир. Тәдгигатлар нәтичәсиндә ДГМВ-дәки **230**-а гәдәр јашајыш мәнтәгәсинин **190**-нынын адынын мә'насы ајдынлашмышдыр. Онлар Азәрбајчан дилиндә олан адлардыр. Әразидәки ојконимләрин **10** фаизи һибрид, чох аз һиссәси исә ермәни адыдыр. Вилајәтдәки ермәниләр јашајан бир сыра кәнд адлары да Азәрбајчан дилиндәдир...

**Гарабағ** топоними **түрк** мәншәлидир. Әчәмләр лап гәдимдән Гарабаға **"Сисаган"** демишләр. Гарабағ сонралар јалныз Сәлчуглар тәрәфиндән белә адланмышдыр. Түркијәдә, Түркмәнистанда,

Өзбәкистанда вә башга әразиләрдә дә **Гарабағ** сөзү илә бағлы чохлу сајда ојконим вә оронимләр гејдә алынмышдыр...

Мән **Гарабағ** топонимијасыны тәдгиг едән **гарабағлы** топонимчи кими гәтијјәтлә дејә биләрәм ки, ДГМВ әразисиндәки **230** јашајыш мәнтәгәсинин **80** фаиздән чохунун ады азәри түркчәсиндәдир. Вилајәт әразисиндәки **23** чајдан **18**-и азәрбајчанча олан адлардыр (онлардан бири һибрид, дөрдү исә мә'насы гисмән ајдын олан адлардандыр). Әразидәки **7** көлүн һамысы *(Зәликөл, Гаракөл, Гамышкөл, Ганлыкөл, Чаллыкөл, Сарышынкөл, Көндәләнкөл)* Азәрбајчан дилиндә мә'насы ајдын олан адлардыр. Үмумијјәтлә, ДГМВ әразисиндә тәдгиг етдијим **3000** (**216** кәнд ады, **7** шәһәр вә гәсәбә ады, **23** чај ады, **7** көл ады, **200**-дән чох зоотопоним, **40** етнотопоним, **80** антропоним, **15** палеотопоним вә **2300** -дән чох оронимләрин (дәрә, дағ, тәпә, гузеј, күнеј, кәдик, дүз, гаја вә с.) үмумиликдә **95** фаизи (**2850**-јә јахын) Азәрбајчан дилиндә олан чоғрафи адлардыр. Мәнә елә кәлир ки, бу тутарлы аргументләрдән сонра даһа һеч бир әлавә шәрһә еһтијач галмыр.

Јухарыдакы бүтүн гејдләрими јекунлашдырыб бир даһа билдирмәк истәјирәм ки, Фүзули рајонунун да дахил олдуғу **Гарабағ** јарандығы күндән индијәдәк Азәрбајчанын тәркиб һиссәси олмушдур. Гарабағын Азәрбајчан торпағы олмасы сүбута еһтијачы олмајан аксиомадыр. Дүнјада елә бир гүввә јохдур ки, әзәли вә **мүгәддәс Гарабағ** торпагларымызы доғма республикамыздан гопармаға наил олсун. Торпагларымызы јағы дүшмәндән горумаг үчүн исә халгын һәгиги бирлијинә наил олмаг кәрәкдир.

**Н.ТАПДЫГОҒЛУ**



# ФҮЗУЛИ РАЈОНУНУН ТОПОНИМЛӘРИ

## АҒ ЧЫҒЫР

Гачар кәнди јахынлығында, Хәзәз дағында гејдә алынан орографик објектләрдән бири **Ағ чығыр** адланыр. Бу **чығыр** ағач вә колларын арасындакы саһәдә от битмәјән кичик, енсиз бир јолдур. **Ағ чығыр** Хәзәз дағынын зирвәси илә Гачар кәндини бирләшдирир. Бу енсиз јола кичиклијинә вә от битмәдијинә көрә әһали тәрәфиндән **Ағ чығыр** дејилир.

## АҒА МУРАД ТӘПӘСИ

Јухары Јағлывәнд илә Гачар кәндләри арасында јерләшән орографик објектин ады **Аға Мурад тәпәси** адланыр. Бу әрази 160 метр һүндүрлүјү олан гаја вә јүксәкликләрдән ибарәтдир. Мүсбәт релјеф формаларындан олуб, әтәји илә зирвәси арасындакы нисби һүндүрлүјү 200 метрәдәк олан јүксәклијә **тәпә** дејилир. **Тәпә** чоғрафи термини илә әлагәдар Азәрбајчан оронимијасында 4.000-дән чох чоғрафи ад гејдә алыныб. Топонимин тәркибиндәки **Аға Мурад** сөзү шәхс адыны билдирир. Демәли, **Аға Мурад** (бәзән бу сөзү **Ағамурад** шәклиндә дә јазырлар) **тәпәси** чоғрафи ады антропонимик топонимдир...

## АҒАӨЈЛӘ ОЧАҒЫ

Јухары Диваналылар кәнди јахынлығында гејдә алынан орографик објектләрдән бири **Ағаөјлә очағы** адланыр. Ајдындыр ки, *очаг* култу Азәрбајчанда *"мүгәддәс тапынаг јери"* кими мә'наландырылыр. **Ағаөјлә** *очағы* ишгала гәдәр зијарәт јери олмушдур. Чох күман ки, **Ағаөјлә** ады **Аға вә өвлија** сөзләринин бирләшмәсинин тәһриф олунмуш формасыдыр...

мүгәддәсликлә, тапынагла бағлыдыр. О, белә бир фикир ирәли сүрүр ки, *Аг оглан* мифи битки (Ағач) вә Күнәш мифи илә илишкилидир. Онун ешитдији тарихи әфсанәдә билдирилир ки, икид вә јенилмәз Ағ оғлан халгыны јағылардан горујурду. Бир дәфә дә јенә јағы дәстәси һүчума кечир. **Ағ оғлан** онларла вурушур. Јағы чох иди. **Ағ оғлан** јараланыр вә өлүр. Ону дөјүшүб өлдүјү јердә басдырырлар...

**Ағ оғлан** миф образы көј танрысы, дүнја ағачы илә бағлыдыр. Ағ оғлан тапынағы астриал мифлә әлагәлидир. Түрк халглары арасында кениш јајылмыш әфсанәдә **Ағоғлан** илк инсандыр. Азәрбајчан миф дејиминдә дә дејилир ки, о, күндә 3 дәфә көзә көрүнәр күнүн галан вахтыны исә мешәјә чәкилиб тәк јашајармыш. Үмумијјәтлә, "Ағ оғлан" дастанлары мүхтәлиф әфсанә вә рәвајәтләрдән ибарәтдир. Мәсәлән, Азәрбајчан вә Јагут (Јакут) *Аг огланы* тәкдир, јалгыздыр, көјдә доғулуб. Ағач хаганын дөшүнү әмән Ағ оғлан онун мәсләһәти илә јол кедир вә Гарахан өлкәсиндә чәһәннәмин јијәси Буура Доһсуну өлдүрүр вә орада евләнир. "Ағ оғлан"дакы Күнәшлә илишкили Дүнја Ағачы да Ағ оғлана јардым едир...

## АЗЫХ МАҒАРАСЫ

Азәрбајчанда ән гәдим карст мағарасы олан **Азых мағарасы** Фүзули шәһәриндән 15 км гәрбдә, Гуручајын сол саһилиндә, дәниз сәвијјәсиндән 900 м һүндүрлүкдә јерләшир. Мағаранын јерини илк дәфә Бәшир вә Ләтиф Чаһанкиров гардашлары тапмышлар. Бөјүк Тағ кәндиндә дил-әдәбијјат мүәллими ишләјән Бәшир мүәллим (онун 40 илдән артыг педагожи стажы вардыр, Туғдан Бөјүк Тағ кәндинә һәр күн 8 км-лик јолу мешәләрин ичи илә пијада кедиб-кәләрди. Бурада мағара олдуғуну о, БДУ-нун тарих факүлтәсиндә декан мүавини ишләјән гоһуму Бахшалы Зүлфүгар оғлу Јеканова билдирмиш, о да өз новбәсиндә тарих институтунун Археолокија шө'бәсинә бу барәдә мә'лумат вермишдир. Мәһз бундан сонра 1960-чы илдә тарихчи-археолог М.Һүсејновун рәһбәрлији илә мағарада тәдгигат ишләринә башланылмышдыр.

Мағарада дар кечидләрлә бирләшмиш 6 салон вар. Ән бөјүјү 3-чү салондур. Мағаранын 2 кириши вар. Мағара Ашағы Палеолит





дөврүнә аид надир абидәдир. Азых мағара дүшәркәсиндә апарылан археложи газынтылар заманы 10 тәбәгә гејдә алынмышдыр. **1968**-чи илдә мағарадан Ашөл дөврүнә аид ибтидаи инсанын - **Азыхантропун** (19 јашлы гадынын - Н.Т.) чәнә сүмүјүнүн (профессор Д.Һачыјев мүәјјән едиб ки, тапылмыш бу чәнә кечмиш ССРИ әразисиндә ән гәдим инсан чәнәси олуб) бир һиссәси тапылыб. Азыхантропун јашы 350-400 мин илә бәрабәрдир. Азәрбајчан археолокија елминин наилијјәти олан бу тапынты јашынын чохлуғуна көрә дүнјада **үчүнчү** тапынтыдыр.



**Азых Палеолит дүшәркәси**ндә ашкарланмыш мадди мәдәнијјәт нүмунәләри өзүнүн хүсусијјәтләринә көрә јени бир мәдәнијјәт олдуғуну сөјләмәјә имкан вермиш вә **Гуручај мәдәнијјәти** адландырылмышдыр. Гуручај мәдәнијјәтинин бир нечә инкишаф мәрһәләси олмасы да елми шәкилдә ашкарланмышдыр.

Археложи чәһәтдән мағара 1960-чы илдән өјрәнилир. Мағарадан Пренеандертал - Азыхантропун алт чәнә сүмүјүнү мәрһум археолог-алим **Мәммәдәли Һүсејнов** 1968-чи илин јајында (23 ијун) ашкара чыхарды. Бу абидә Гарабағын Фүзули бөлкәсиндә палеолит дөврүнүн мөвчудлуғуну сүбут едир. Ашағы Антропокен дөврүнә аид јеканә чохтәбәгәли абидә олан **Азых мағарасы** мағара типли инсан дүшәркәләриндән ән гәдимидир. Фүзули рајонунун әразисиндә тәхминән милјон ил бундан әввәл јашајыш олдуғуну сүбут едән **Азых мағарасы** архантропларын вә даһа гәдим адамларын мәскәни олмушдур.

Азых мағарасынын вә онун әтраф зонасынын палеочоғрафи шәраитинин тәдгиги нәтичәсиндә елми шәкилдә сүбут олунмушдур ки, Азых мағарасында илк ибтидаи инсан **1,2 милјон ил** бундан әввәл мәскунлашмыш, **120 мин ил** әввәл исә мағараны тәрк етмишдир. Лакин инсанлар **20 мин ил** кечдикдән сонра јенидән мағараја гајытмыш вә бурада даһа **50 мин ил** јашамышлар. Палеолит дөврү археоложи абидәләриндән сајылан **Азых мағара дүшәркәси** дүнја әһәмијјәтли дашынмаз тарих вә мәдәнијјәт абидәсидир.

Дүнјада елә бир мағара дүшәркәси јохдур ки, орада мәдәни тәбәгәләр Азыхдакы кими зәнкин олсун вә јашајыш узун мүддәт давам етсин. Әфсуслар олсун ки, дүнја әһәмијјәтли **Азых мағара дүшәркәси** нечә илләрдир ки, ермәни тапдағы алтында инләјир...

## АЈЫБАСАНЛЫ КӘНДИ

**Ајыбасанлы (Ајбасанлы) кәнди** рајон мәркәзиндән 2 км мәсафәдә, дүзәнликдә јерләшир. Әсл ады **Јухары Ајыбасанлы**дыр. "Јухары" сөзү фәргләндиричи әламәт кими баша дүшүлмәлидир. **Ајы** вә **басар** сөзләри бу топоними әмәлә кәтирир. Јерли мә'лумата көрә, лап әввәлләр бурада тез-тез ајы көрәрмишләр. Талыш, Бөјүк вә Кичик Гафгаз дағларынын мешәләриндә гонур ајы вардыр. Азәрбајчанда тәркибиндә **ајы** адыны әкс етдирән чохлу сајда оронимләр вардыр.

**Ајыбасанлы тирәси** Чаваншир тајфасына мәхсусдур. Кәнд Чаваншир тајфасынын **ајыбасанлы** (ајбасанлы) тирәсинин бурада мәскунлашмасы нәтичәсиндә јаранмышдыр. Ојконими **Әјјуб Һәсәнли** формасында изаһ етмәјә чәһд көстәрән арашдырычылар да вар.

Мәнбәләрин мә'луматына көрә **ајбасанлылар (ајыбасанлылар)** сәрһәд бојунда чапар кими дә хидмәт етмишләр. **Һачылы** ичмасына дахил олан **Ајыбасанлы (Ајбасанлы)** обасынын әһалиси дөвләт тәрәфиндән 1842, 1849, 1863, 1873, 1886-чы илләрдә сијаһыја алынмышдыр. Бу обанын әһалиси әсасән һејвандарлыг вә әкинчиликлә мәшғул олмушлар.

**Ајбасанлы** обасынын **Сәфәрәли, Күлммәмәдли, Аллаһвердили, Гулулу, Мәммәдһәсәнли, Ағаларлы, Әлигулулар, Танрывердиләр,**



**Һәсәнсејидханлар, Абдуллалар, Бајрамалылар, Зејналлылар, Новрузлулар, Гаралар, Худагулулар, Исмиханлар, Бахшалылар, Чамаллар, Атакишиләр, Мирзалылар, Нәчәфгулулар, Әлибәјлиләр, Әлишаһмәммәдлиләр, Шүкүрлүләр, Ибраһимлиләр, Зејналабдинлиләр, Күлмалылар, Рүстәмлиләр, Мирзә Әлиасланлылар, Гурбанлылар, Молла Әли Әкбәрлиләр, Мәммәдчәфәрлиләр, Әрәбәли Гулулар, Нәзәрләр, Шаһверәнләр, Әрәбханлы, Оручлу, Нәсруллаһлы, Һүсејнгулулар, Чәфәргулулар, Маһмудлулар, Кәрим Кәрбәлаји Мәммәдәлиләр, Адына Һәзрәтгулулар, Меһди Сәфәрәлиләр, Кәрбәлаји Мәммәдтағылар, Ханкишиләр, Имамгулулар...** адлы тајфа вә тирәләри мә'лумдур.

**Ајбасанлы** обасынын өн үнлү тајфаларына нүмунә олараг ашағыдакылары көстәрә биләрик:

**Оручлу тајфасы -** бу тајфанын улу бабасы олан **Оруч** XVIII әсрдә јашамыш вә һејвандарлыгла мәшғул олмушдур. Онун **Аллаһгулу** (1772-1882) адлы оғлу олуб. Аллаһгулунун (о, һәм дә молла иди) Гулу, Иман, Сәмәд, Һәзрәтгулу адлы оғулларыварды. Гулунун **Меһралы, Күлмалы, Гурбанлы, Кәлбалы, Сәфи Ағаверди,** Иманын **Гәһрәман** вә **Гурбан,** Кәрбәлаји Сәмәдин **Шаһверди, Һагверди, Худаверди** вә **Мөвламверди,** Һәзрәтгулунун **Адына, Әмраһ, Тәһмәз, Мәммәдрза** адлы оғланлары вар иди...

**Чамаллы тајфасы -** бу тајфанын улу бабасы **Новруз** XVIII әсрдә јашајыб вә әсасән һејвандарлыгла мәшғул олуб. Онун **Чамал** адлы оғлу 1788-чи илдә Ајбасанлы обасында доғулуб. Чамалын **Һүсејнгулу, Нәчәфгулу, Чәфәргулу, Әһмәд, Новруз** адлы оғланлары олуб. Һүсејнгулунун **Бајрамалы, Оручалы** вә **Гасымхан** адлы, Мәшәди Нәчәфгулунун **Баба, Сәмәд, Ибраһим, Рәһим, Аббас** вә **Дүнјамалы** адлы, Чәфәргулунун исә **Һәмзә** адында оғуллары олмушдур...

**Әрәбханлы тајфасы -** бу тајфанын улу бабасы **Әрәбхан** (1752-1812) XVIII әсрин II јарысы, XIX әсрин әввәлләриндә јашајыб. Онун **Әлигулу, Худагулу** вә **Имамгулу** адлы оғланлары олуб. Әлигулунун **Сәфәралы, Чәфәр, Әрәб, Мәммәдтағы, Нағы** вә **Мәммәд,** Худагулунун исә **Мәммәдгулу, Рзагулу, Мүрсәлгулу, Һүсејнгулу, Һәсәнгулу** адлы оғуллары олмушдур...

**Нәсруллаһ тајфасы -** бу тајфанын улу бабасы **Нәсруллуһ** XVIII әсрин сонлары, XIX әсрин әввәлләриндә јашамыш вә әсасән

һејвандарлыгла мәшғул олмушдур. Нәсруллаһын **Кулмәммәд, Аллаһверди, Сәфәрәли** вә **Мәммәдәли** адлы оғланлары варды. Мәшәди Күлмәммәдин **Һүсејн, Һүсејнхан, Мәммәд,** Кәрбәлаји Аллаһвердинин исә **Һәсәнхан, Ибраһим, Рүстәм** вә **Мирзалы** адлы оғуллары олуб...

Обанын **Маһмудушағы, Зејналлы, Гулулу** адлы тајфалары да вар. Кәнд һазырда ермәни ишғалы алтындадыр.

ССДНЗК китабында Ҝәнҹә губернијасынын Ҹәбрајыл гәзасында 53 евдән, 308 нәфәр әһалидән ибарәт **Ајбасанлы** адлы бир кәндин, АУПККК әсәриндә исә Гарјакин гәзасында **Ајбасанлу** ады ики кәндин олдуғу көстәрилир. Көрүнүр, бу кәндләр **ашағы** вә **јухары** адлары илә фәргләндирилмишдир. **Ајбасанлы** кәндинин сәма чисми олан **Ај** илә һеч бир әлагәси јохдур. Бә'зи сәнәдләрдә кәндин ады **Ајыбасанлы** кими дә јазылыр. ИӘБ вә АТД китабларында кәндин ады **Ајбасанлы** шәклиндә јазылмышдыр...

**"Басан"** фели-сифәти "мәғлуб едән", "гәләбә чалан" мә'насындадыр. **"Ајыбасан"** түрк мәншәли антропониминин һәр ики компоненти архаикләшмишдир. Өлкәмиздә ајы һејван ады илә адландырылан орографик терминләрдән дүзәлмиш чохлу оронимләр вардыр: **Ајы вурулан гаја, Ајычынгыллы дағы** (Кәлбәҹәр), **Ајы өлдүрүлән јер** (Загатала), **Ајы дағы** (Ҹәбрајыл), **Ајы мағарасы дағы** (Губадлы), **Ајы дәрәси** (Гах, Губадлы, Ағсу, Шаһбуз рајонлары) вә с.

## АЛЫ КӨРПҮСҮ

Сарачыг кәнди әразисиндә гејдә алынан орографик објектләрдән бири дә **Алы көрпүсү** адланыр. Бу көрпү XIX әсрдә инша едилмишдир. **Алы** шәхс адыдыр. Топоним **«Алыја мәхсус олан көрпү»** анламындадыр. **Алы көрпүсү** Фүзули рајонунун јерли әһәмијјәтли дашынмаз тарих вә мәдәнијјәт абидәләриндән һесаб олунур...



## АЛЫНЫН КӨРПҮСҮ

Фүзули рајону әразисиндә гејдә алынан мараглы орографик објектләрдән бири **Алы көрпүсү** адланыр. Бу **көрпү** рајонун јерли әһәмијјәтли дашынмаз тарихи-ме'марлыг абидәләриндән һесаб олунур. Топонимин тәркибиндәки - **сү** шәкилчиси мәнсублуг ифадә едир. **Көрпү** ону инша едән **Алы** адлы шәхсин ады илә әлагәдар олараг белә адландырылмышдыр. Һазырда **Алы көрпүсү** ишғал алтындадыр.

## АЛЛАҺГУЛУНУН БАҒЫ

Дөвләтјарлы кәндинин јахынлығында, Көндәлән чајынын саһилиндә, мәнзәрәли бир әразидә тәхминән 15 һектарлыг саһә **Аллаһгулунун бағы** адланыр. Бу бағда чохлу тут, алма, армуд, килас, киләнар, һејва, нар вә гоз ағачлары вардыр. **Бағ** онун јарадычысы олан **Аллаһгулу Јадикар оғлунун** ады илә әлагәдар олараг белә ад алмышдыр. Топоним **"Аллаһгулуја мәхсус олан бағ"** мә'насындадыр...

## АЛХАНЛЫ КӘНДИ

**Алханлы кәнди** рајон мәркәзиндән 18 км шәргдә, Көндәләнчајын сол саһилиндә, Фүзули-Бејләган шоссе јолу кәнарында, Мил дүзүндә јерләшир. Кәндин узунлуғу тәхминән 11 км-дир. Јашајыш мәнтәгәси Азәрбајҹанын ән узун кәндләриндәндир. Әһалиси ики мин нәфәрдән артыгдыр. Әһали әсасән, үзүмчүлүк, тахылчылыг вә һејвандарлыгла мәшғул олур. Кәнддә орта, сәккизиллик вә ики ибтидаи мәктәб, клуб, китабхана, мәдәнијјәт еви, киногурғу идарәси, хәстәхана, ушаг бағчасы, бөјүк шәраб е'малы заводу вә с. вардыр.

Бә'зи тарихи сәнәдләрә көрә, Гарагојунлу һакими Гара Јусифин сәркәрдәләриндән биринин ады **Алы хан** олмушдур. Јерли мә'лумата көрә, ојконим һәмин **Алы ханын** ады илә әлагәдардыр. Сәнәдләрдә кәндин адыны **Алыханлы** кими дә јазырлар. Кәнддә **һачымирзәһүсејнләр, сәјбәјлиләр, пиралылар, ахундлулар,**

**ахутдулар, јарылылар, мәмәлиләр, көјчәлиләр** вә с. адлы тајфалар вар.

Кәнди XVIII әсрин орталарында Гарабағ ханы Пәнаһәли ханын Нахчыван әразиләриндән Гарабаға көчүрдүјү кәнкәрлиләрин **алыханлы (алханлы)** тирәси салдығы үчүн о, һәмин ад илә дә адландырылмышдыр...

## АРАЗ ДИЛАҒАРДА КӘНДИ

**Араз Дилағарда кәнди** рајон мәркәзиндән 39 км шәргдә, Араз чајы саһилиндә, Фүзули-Бејләган шоссе јолунун кәнарында јерләшир. Кәндин әразиси дүзәнликдир. Әһалиси әсасән үзүмчүлүк, тахылчылыг вә һејвандарлыгла мәшғул олур. Кәнддә мәктәб, китабхана, клуб, тибб мәнтәгәси вә с. вардыр.

Кәндин ады **Араз** һидроними вә **Дилағарда** етнониминдән ибарәтдир. Мәнасы "дилағардалыларын Араз чајы саһилиндә кәнди" демәкдир. Јашајыш мәнтәгәсини **Гобу Дилағарда** кәндиндән фәргләндирмәк үчүн топонимин әввәлинә **Араз** компоненти әлавә олунуб.

Тарихдән мә'лумдур ки, **Гарагојунлу** гәбиләсинә мәнсуб олан нәсилләрдән бири дә **дилағарда** адланыр. **Дилағардалылар** тајфасынын адыны өзүндә әкс етдирән чохлу сајда микротопонимләр дә гејдә алынмышдыр. Фүзули рајонунун **Дилағарда кәнди** әразисиндәки **Дилағардатәпә дағы,** Масаллы рајонунун Дәмбәлов кәнди јахынлығындакы **Дилағарда дағы, Дилағарда дәрәси, Дилағарда јохушу** оронимләри дә өз адларында **дилағарда** етнонимини әкс етдирир.

Бә'зи сәнәд вә материалларда көстәрилир ки, **дилағардалылар** XIII әсрдә Азәрбајчана кәлмиш монгол-татарларын гошунларынын тәркибиндә олан чохсајлы тајфалардан бири олмушдур. Онлар Азәрбајчанда галараг көчәри-малдар һәјаты сүрмүшләр. Дилағардалыларын данышыг дилиндә чинкилтили самитләр көзәл сәсләнир. Үмумијјәтлә, онларын чох марагłы вә марагłы олдуғу гәдәр дә гәрибә дил-тәләффүз формалары вардыр. Гоншу кәндләрин әһалиси илә мүгајисәдә дилағардалыларын өзләринә мәхсус сәчијјәви хүсусијјәтләри олан адәт-ән'әнәләри вар...



**Гарагојунлу** ојмағы олан **Дилағарда обасы** һагтында белә бир рәвајәт дә данышырлар:

Гара Јусифин гәфил өлүмү оғулларыны чашдырмышды. Һәркиһәркилик баш алыб кедирди. Ајры дүшән елләри бирләшдирмәк лазым иди. Белә бир вахтда Гара Јусифин алтынчы оғлу Чаһаншаһ Мирзә ирәли дуруб: **"кимдир мәнимлә"** - деди. Шаир үрәкли, шир биләкли шаһзадәни тахта чыхардылар. Чаһаншаһ дар күнүндә она арха, дәстәк оланлары јанына јығыб хүсуси бир гвардија јаратды вә һәмин гвардијаны **Диле гарде ("гвардијанын гәлби")** адландырды...

**Дилағарда** обасынын Азәрбајчанын бә'зи әразиләриндә ојмаглары вар. Тәкчә Муғанда онларын **Алар, Һүсејнханлы, Тәпәбашы, Фәтуллаһлы, Вәлимәммәдли, Чаһаншаһлы, Көзбулаг** вә с. ојмаглары вар. Аразбарда дилағардалыларын **Араз Дилағарда** вә **Гобу Дилағарда** адлы ики обасы вардыр. Бә'зи мә'хәзләрдән ајдын олур ки, **дилағардалылар** Гарабағ, Талыш, Чавад ханлыгларына харичи тәһлүкәнин арадан галдырылмасында јахындан көмәклик етмишләр...

Көркәмли Азәрбајчан шаири Гасым бәј Закир Аразбар обаларынын мүлкәдары олмуш Чәфәргулу хан Чаванширә (шаирин онунла арасы јох иди) јазырды:

*Зәркәр, Дилағарда аләм-ашикар,*
*Бир учдан огурлар, бир учдан сатар,*
*Вај одур саһиби ат башы тутар,*
*Јүз јердән төкүләр үстүнә чомаг...*

**Дилағарда** ојконими мәншә етибары илә **гарагојунлу** тајфа иттифагына дахил олан тајфанын адындандыр. Онлар тәхминән 600 аилә олуб, Чәнуби Азәрбајчанда јашамышлар. Бир чох еһтималлара көрә, XV әсрин сонларында Ағгојунлуларын һакимијјәти заманы бә'зи **Дилағарда тајфасы** Араз чајыны кечиб индики Фүзули рајонунун әразисиндә мәскән салмышлар. Бә'зи аиләләр исә сонралар - XIX әсрин әввәлләриндә бураја кәлмишләр. Онлар јајы Талыш силсиләсиндә, гышы исә Чәнуби Азәрбајчанын Муған әразисиндә кечирәрдиләр. Фүзули рајону әразисиндә дилағардалыларын јашадығы дикәр кәнд дә вардыр.

(Бах: **Гобу Дилағарда** кәнди).

## АРАЗ ЗӘРКӘР КӘНДИ

Фүзули рајону әразисиндә, Араз чајынын саһилиндә, Бејләган-Фүзули шосе јолу кәнарында, рајон мәркәзиндән 40 км шәргдә, Мил дүзүндә јерләшән кәнд **Араз Зәркәр кәнди** адланыр. Әһалиси әсасән үзүмчүлүк вә һејвандарлыгла мәшғул олур. Кәнддә мәктәб, китабхана, клуб вә с. вар.

Топоним **Араз** һидрономиндән вә **Зәркәр** ојкониминдән ибарәт олуб, *"Араз чајы саһилиндә јерләшән Зәркәр кәнди"* мә'насындадыр. **Зәркәрләр** Чәнуби Азәрбајчанда Савалан дағынын чәнуб-шәрг әтәкләриндә јашамыш Азәрбајчан тајфаларындандыр. Бәдии вә тарихи әдәбијјатда зәркәрләр һаггында кифајәт гәдәр мә'лумат верилиб. Бә'зи мә'луматлара көрә Зәркәр кәндинин әһалиси Сәфәвиләр дөврүндән әввәл Фүзули рајону әразисиндә мәскунлашмышлар. Бә'зи мә'луматлара көрә исә, кәндин әһалиси 1820-чи илләрдә Чәнуби Азәрбајчандан көчүрүлмүш аиләләрдән ибарәт олмушдур.

**Зәркәр** тајфалары Гарабағын гәдим сакинләриндән һесаб олунурлар. Мүәјјән тарихи шәраитлә әлагәдар onlar олараг онларын бир голу шаһсевәнләрә гошулараг Ирана кетмиш вә хејли мүддәтдән сонра кедәнләрин бир һиссәси кери гајытмышдыр. М.В.Баһарлы (1890-1937) Азәрбајчанда тајфа, нәсил, гәбилә адларыны гејд едәркән **зәркәрли** тајфасынын да адыны чәкир...

(Әлавә мә'лумат үчүн бах: **Зәркәр кәнди** вә **Зәркәртәпә**).

## АРАЗ ЈАҒЛЫВӘНД КӘНДИ

*(Бах: Ашағы Јағлывәнд кәнди)*

## АРАЗ ЧАЈЫ

Түркијә, Азәрбајчан вә Ермәнистанда чај; Күрүн ән бөјүк сағ голу, узунлуғу 1072 км-дир, бә'зи мәнбәләрдә 994 км-дир. Араз чајы Түркијәдә Бинкөл силсиләсинин јамачларындан башланыр. Сабирабад рајону әразисиндә, Суговушан адлы јердә Күрлә бирләшир.



Азәрбајчанын Иранла дөвләт сәрһәддиндә, о чүмләдән, тәхминән 40 км мәсафәдә Фүзули рајонунун чәнуб-шәрги илә ахыр.

Араз чајы е.ә. Урарту мәнбәләриндә, сонралар исә јунан вә Рома чоғрафијашүнаслары, сәјјаһлары, тарихчиләри, әдибләриндән Милетли Һекатејин, Һеродотун, Страбонун, Диодорун, Плининин, Плутархын вә башгаларынын әсәрләриндә мүхтәлиф формаларда (**Аракс, Аррас, Јерас** вә с.) јазылан **Араз** чајынын адындандыр. Һәмин чајын саһилләриндә јашамыш халглардан биринин дилиндә араз сөзүнүн "чај", "су" мә'насында ишләндијини күман едилир...

Араз чајынын ады мүхтәлиф мәнбәләрдә **Аракс** (гәдим јунан), **Ерасх** (ермәни), **Әррас** (әрәб), **Әрәс** (фарс), **Расс, Аррас, Руде-Арас, Еракс** вә с. кими ишләнмишдир. Чох күман ки, һидронимин еркән формасы **Аракс** олуб. Бир чох антик вә орта әср мүәллифләри өз әсәрләриндә **Араз** һаггында мә'лумат вериләр. Гәдим јунан вә латын мәнбәләриндә Загафгазија әразиләриндә, Парса (Фарс) вә Орта Асијада **Араз** адлы чајын адлары чәкилир. Һеродот Орта Асија чајлары олан Амудәрја вә Сырдәрјаны **Аракс** адландырмышдыр...

"Араз" сөзүнүн етимолокијасы илә бағлы мүхтәлиф фикирләр вар. Н.Нәбијев ону "мөһтәшәм", "бөјүк"мә'насында јунан мәншәли ваһид кими изаһ едир.

А.Никонов гејд едир ки, Араз түрк мәншәли сөз олуб «су» мә'насыны ифадә едир. **Су** түрк халгларында јахшылыг билдирән илкин башланғычлардандыр. Н.Әскәров **Араз** һидрониминин етноним әсасында **(ас, аз)** јарандығы гәнаәтинә кәлир. Сон тәдгигатлара көрә, чајын ады гәдим түрк дилләриндәки **ораз** (ураз), **әрәз** (сакит, динч, хејир верән) сөзүндәндир.

Һидроним әсасында јаранан "Араз" антропоними дә түрк мәншәли лексик ваһид кими изаһ олунур. Севимли шаиримиз А.Шаиг бу ады өз гәһрәманына да вермишдир. Аразла бағлы бир чох рәвајәтләр вардыр ки, бир тәдгигатчы кими онларын бәзиләри илә охучулары таныш етмәк истәјирәм:

Чар Аракс пруссијалылар илә дөјүшдә билдирир ки, әкәр бу вурушмада галиб кәләрсә, Аллаһын јолунда ики әзиз гызыны гурбан верәчәк. Лакин о, сөзүнүн үстүндә дурмур. Дөјүшдә галиб кәлирсә дә, өз гызларына јазығы кәлир. Әвәзиндә табелијиндә олан бир шәхсин ики көзәл гызынын башыны кәсир. Гызларын атасы Мнескал фүрсәт дүшән кими чарын ики гызыны өлдүрүб һәмин

јердән гачыр. Буну ешидән **Аракс** өзүнү һалым чајына атыр. Бу чајын да адыны о вахтдан **Араз (Аракс)** гојурлар...

Башга бир рәвајәт беләдир:

Гәдим Гозлучај дәрәсинин сөјкәндији Әркүнәш дағынын башы һәмишә гарла өртүлү одармыш. Һәр баһарда гар әримәјә башлајармыш. Әријән гарын сују селә дөнәр, дәрәләр боју баш алыб кедәрмиш. Аран торпағынын көзәрән синәсинә чатмамыш гурујармыш.

Бу јерләрдә сусузлугдан вәһши һејванларын, иланларын мәләшмәси ешидиләрмиш. Бураларда јашыллыг дејилән шеј олмазмыш. Аран торпагларынын синәсини сәринләдән букүнкү **Араз чајы** о заман һәлә јох имиш. Тәкчә Әркүнәшдән сүзүлүб кәлән гар сујундан јаранан Гозлучај вар имиш. Әркүнәш дағы сујуну Аран торпағына вермәзмиш. Индики Маралјан кәнди јериндә бир-ики дахма вармыш. Орада касыб бир гоча киши јашајармыш. Онун Марал адлы көзәл бир гызы вармыш. Көзәллији чохларыны дәрдә салармыш.

Бир күн бир варлы оғлу Маралын сорағына кәндә кәлир. Гыз ону бәјәнмир. Варлы оғлу гәзәбләниб һијләјә әл атыр. Гаранлыг бир кечәдә Маралы оғурлајыр. Нәһәнк бир дашын јанына кәтирир. Марал оғлана јахынлыг вермир. Гыз сәһранын ортасында ири гара даша үз тутуб јалварыр, дашын алтындан нәһәнк бир илан чыхыб Маралын абыр-исмәтини төкмәк истәјән дашүрәкли оғлана тәрәф сүрүнүр. Оғлан да, гыз да горхурлар. Гыз һәтта, чығырыб өзүндән кедир. Гара күрзә чәкилиб кедәндән сонра залым оғлан Марала әзаб вермәкдә давам едир.

Исти јај күнү олдуғундан Маралын додағы јерин бағры кими од тутуб јанырмыш. Оғлан долчасындакы Әркүнәш дағынын сујундан бир дамчы да Марала вермир. Гызын көзләри гаршысында судан дојунча ичир, галан бир-ики дамчыны да онун үстүнә атыр. Гызын үстүнә дүшән су дамчыларынын јериндән түстү чыхырмыш. Гыза јаныг верән оғлан: "Һә, нечәсән, Марал, јан, түстүлән" - дејирмиш. Гызын һалына ачыјан гара күрзә сүрүнүб Маралы инчидән оғланы еләә чалыр ки, әввәлчә онун әти-әзасы, сонра да сүмүкләри чүрүјүр.

Маралын анасы јохмуш. Атасы чох јерләр кәзир, дәрәләр кечиб, дағлар ашыр. "Бала" демәкдән дили ағзында көсөв бағлајыр. Амма гызыны тапа билмир, ону көрдүм дејән олмур. Киши көз јашларыны үрәјинә ахыда-ахыда јаныглы бајатылар чәкир, еләә һеј:



***Кулшәним јох, кулум јох,***
***Бундан бөјук зулум јох,***
***Балам иткин дүшүбдүр***
***Нијә мәнә өлум јох? -*** дејирмиш.

Јазыг ата гәмли бајатылар сөјләјиб үрәјинин одуну сөндүрмәк истәдији вахт онун әзиз чијәрпарасы һамынын көзүндән узаг кимсәсиз бир дәрәдә үзүнү көјләрә тутуб: "су, су"... - дејә јалварыр, имдад диләјирмиш. Чох кечмир ки, көј үзүнү гара булудлар бүрүјүр, күчлү шимшәк чахыр, көј курулдајыр, јағыш јағыр. Тагәти түкәнән Марал гыжылты илә ахан чаја тәрәф сүрүнүр. Бәдбәхтликдән чаја чатмаға **аз** галмыш сусузлугдан гызын бағры чатлајыр, өлүр. Ел, оба бу хәбәри ешидиб кәлир. Маралын чаја чатмағына **"ара-аз"** галмыш өлдүјүнү көрүрләр. О замандан бу торпағын синәсиндә гыжылты илә ахыб кедән бу чајын ады **Араз** галыр.

**Араз (Аррас)** сөзүнү гәдим түркләрин улу бабасы вә хаганы сајылан Әфрасијабын гардашы **Агрерасын** ады илә бағлајанлар да вар: **Агрерас-Арерас, Аррас-Араз,** "Авеста"да **Агрерас** ады **Агрерат** шәклиндә верилиб. Дилимиздә **т-с** әвәзләнмәси тәбии фонетик һадисәдир.

**Араз (Арас)** адынын әмәләкәлмә тарихи милладдан өнчә III-I әсрләрә аиддир. **Араз** адыны гәдим парс (зенд) дилиндәки "гачмаг" фели илә бағлајанлар да вар. Јозумларда Аразын әрәб сөзү олан **руз** ("гачмаг") термининдән әмәлә кәлдији фикрә дә раст кәлирик. Евстатын фикринчә, јунан дилиндә **Арас** сөзүнүн мә'насы "газырам" демәкдир. **Араз чајы** чох сүрәтлә ахыб саһилләрини дағытдығы үчүн белә адландырылмышдыр. Азәрбајҹан әдәбијјатында тарихән **Араз** ады **Арас** шәклиндә јазылыб. Чајын адынын **Араз** формасы мүасир тәләффүз әсасында гәбул едилиб...

Узаг кечмишләрдә инсанлар чаја чох заман садәчә олараг "су" демишләр. Мәсәлән: Кур, Дон, Дунај вә бә'зи башга чајлар мүхтәлиф дилләрдә "су" анламы верир. Белә бир еһтимал етмәк олар ки, **Арас, Аррас, Расс, Еракс** сөзү дә Иран мәншәли дилләрин бириндә "су" мә'насы ифадә едир. Гәдим Мидијада **Аракс** адлы икинчи бир чајын олмасы да бу еһтималымызын доғрулуғуну бир аз да күчләндирир. Тарихән **Араз** чајы саһилләриндә ән чох азәрбајчанлылар јашадыглары үчүн күман етмәк олар ки, **Араз** сөзү

дә елә Азәрбајчан дилинә мәнсубдур...

Плутарх көстәрир ки, бу чајын саһилиндә **Араз** (тәрчүмәси - "гызсевмәз") адлы битки јетишир...

**Араз чајы** тарихин амансыз һөкмү илә Азәри түркләрини ики јерә бөлүб гардашы гардашдан ајырды. Аразын һәр ики саһилиндә Азәри түркләри һәсрәт вә интизар ичиндәдир. Көрүнүр, бу нискил Ваһид Азәрбајчан дөвләти јаранана гәдәр давам едәчәкдир. Азәрбајчан түркү өз өвладына "Араз" антропониминин адыны бәлкә дә елә она көрә верир ки, бу рәмз ону узун онилләрин, јүзилләрин һәсрәтиндән хилас едиб доғма гардашы гардаша говушдурачагдыр...

## АРАЗБАР

Аразбар (Арасбар) топоними ики компонентдән - **Араз** (чај ады) вә **бар** (фарс дилиндә *"саһил"*, *"кәнар"*) сөзләриндән ибарәт олуб, "Араз чајы кәнары, саһили" мә'насындадыр. **Арасбар** сөзүнү илк дәфә XIII әсрдә Фәзлуллаһ Рәшидәддин "Мәктублар" әсәриндә ишләтмишдир. Түрк сәјјаһы Өвлија Чәләбинин (XVI әср) јаздығына көрә, Араз чајынын нисбәтән јухарыдан төкүлдүјү әрази јерли әһали арасында **Аразбар** адланырмыш...

XVIII әсрин сонларында **Аразбар** Гарабағ ханы Пәнаһәли ханын атасы Ибраһим ағанын отлаг јери олмушдур. XIX әсрә аид мәнбәдә Араз чајынын Ордубадла Зәнкилан арасындакы дар дәрәдән ахдығы јер **Арасбар** адланырмыш. Араз чајынын Фүзули рајону әразисиндәки саһилиндә әввәлләр (һәтта еркән орта әсрләрдә дә) јашајыш мәнтәгәләри олмушдур.

**Аразбар бөлкәси** Араз чајынын һәр ики саһили бојунча гузејдә Худафәриндән Бејләгана гәдәр олан бир әразини әһатә едир. Күнејдә исә бу бөлкә тарихи Гәрби Дизмар маһалындан башлајыб, Олтан әразисинә гәдәр узаныр. Гузеј Аразбара **Гарабағ Аразбары,** Күнеј Аразбара исә **Гарадағ Аразбары** дејирләр.

Гәдим јунан мүәллифләри Страбон вә башгалары Аразбар адыны **Араксена** кими ишләтмишләр. **Араксена** ады **Аразан** сөзүнүн јунанча тәләффүз формасыдыр. Әски фарслар Аразбара **Әрәсан** дејибләр. Көрүнүр, јунанлар бу дејими фарслардан әхз етмишләр. Ону да гејд етмәк јеринә дүшәр ки, чағдаш фарсдилли әдәбијјатларда Аразбар **Әрәсбаран** адланыр.



Орта әср мүәллифләри Фәзлуллаһ Рәшидәддин, Зејнәддин бин Һәмдуллаһ Гәзвини, Шәрәф хан Битлиси, Өвлија Чәләби, Искәндәр бәј Мүнши, Түркман, Гарагојунлу һөкмдары Чаһаншаһ Һәгиги, онун оғлу Султан Һәсәнәли, Шаһ Исмајыл Хәтаи вә башгалары тарихи, чоғрафи әсәрләриндә, фәрманларында тез-тез **Аразбар** инзибати әрази адыны һалландырмышлар. 1589-чу илдә Османлы ордусу Гарабағы әлә кечирмишди. Мә'лумдур ки, 1590-чы ил Истанбул сүлһү сәбәби илә Азәрбајчан бүтөвлүкдә әлә кечирән Султан Мурад тәрәфиндән әјаләтләрдә бүрократик идарәетмә апараты јарадылмышды. 1593-чү илдә "Кәнчә-Гарабағ әјаләтинин ичмал дәфтәри" һазырланмыш вә һәмин дәфтәрдә Дизаг санчағына бағлы Аразбар наһијәсиндән кениш бәһс олунмуш вә бурада Аразбарын 115 јашајыш мәнтәгәсинин ады верилмишдир. 1727-чи ил тарихли "Кәнчә-Гарабағ әјаләтинин мүфәссәл дәфтри"ндә көстәрилир ки, Кәнчә әјаләтинә табе олан Арасбар ливасы вә Арасбар гәзасына ***Ларичан, Ријан, Нурпаша, Султанлы, Гызгәләм, Ашагы Балагај, Балагај, Давудан, Чахырлы, Бабы, Көјшатлы, Јухары Јалынчаг, Ашагы Јалынчаг, Ханархы, Ташга, Сејидабад, Кәләчи Кешли, Көһәрли, Көјук, Амадили (Оһалты), Арсландуз, Гасымабад, Гутушан, Гараговаг, Алагаргы (Куллу), Хатунабад, Хәрәлән Кәбирли, Шәкәрабад, Әришә, Ејмирли, Гадылы, Јенили, Јеничә, Дәрвишбулаг, Дәлмә, Чыргын, Чәркәлан, Маһмудабад, Фирдовсабад, Дуррәханлы, Неһрәбаз, Чаты, Дәстәчу, Тәркибалы, Нәсријјә, Кәләдән, Кәрмәдән, Дири, Јухары Чәчирли, Арыглы, Даныјал, Балчаг Әмир Сејид, Кәли Камалабад (Чәјирли, Чылгај), Ашагы Кәлинчә, Јухары Кәлинчә, Фәтһабад, Ашагы Бала Нурку, Мәһәммәдчәлил, Әбулфәтан, Гараханлы, Мәдәтли, Чүнан, Сојгаш, Сарыхан, Чәјирли, Сејид Маһмудлу, Гашга, Инчили, Кәнлинчи, Чобанбәјли, Сарысу, Јазылмәрә, Әмирмәһәммәд*** адлы кәндләр дахил иди...

**Аразбар** топониминин тәркибиндәки **бар** сөзүнүн XIX әср гајнагларына көрә, Азәрбајчан дилиндә *"көч јери"*, *"һәр һансы бир ичма јурду"* анламлары да вар. Номинатив анламда **бар\вар** сөзү *"алачыг јери"*, кениш анламда исә, *"јајлаг ичмаларына мәхсус јурд јери, мәскән, отлаг"* мә'насындадыр. Үмумијјәтлә, **Аразбар** сөзү *"Араз јахасы"*, *"Араз чајы кәнары"* демәкдир.

Чаваншир елинә бағлы Јағләвәнд, Дәдәли, Тамәтли, Кечәкөзлү, Сејидәһмәдли, Гарыбәнд, Дәмирли, Сејидмаһмудлу, Моллафазилли, Көчәрли, Гарабурунлу ојмаглары, Отузики елинә бағлы Барани,

Гарагојунлу, Моллалар, Ејмирли, Озан ојмаглары, Шаһсевән елинин Һачыәлили ојмағы, Кәнкәрли елинин 1 ојмағы Аразбар санчағында јашајан ел вә ојмаглардыр...

## АРАЈАТЛЫ КӘНДИ

Фүзули рајонунда, Араз чајынын сол саһилиндә, Мил дүзүндә, рајон мәркәзиндән 34 км чәнуби-шәргдә, дүзәнликдә јерләшән кәнд. Әһалиси тәхминән мин нәфәрә јахындыр. Әһали әсасән үзүмчүлүк (әввәлләр памбыгчылыг), тахылчылыг вә һејвандарлыгла мәшғул олур. Кәнддә орта мәктәб, стадион, парк, ушаг бағчасы, рабитә шө'бәси, доғум еви, китабхана, тибб вә бајтарлыг мәнтәгәләри, клуб, мәдәнијјәт еви вә с. вардыр. Кәнд XIX әсрә аид сәнәдләрдә **Мустафа Сәркарлы** кими дә гејдә алынмышдыр.

Јашајыш мәнтәгәсинин **Арајатлы** адланмасыны кәндин јеринин вахтилә ики оба арасында јерләшән **јатаг** олмасы илә дә бағлајырлар. Кәндин **фәрәчлиләр, исмиханлылар, данабашлылар, талыбханлылар, балабәјлиләр, гараһүсејнлиләр, бешдәлләр, ејвазлылар, һачылылар, митиллиләр, күјчүбалабәјимләр** вә башга тајфалары вардыр...

**Арајатлы** топоними чох күман ки, XIII әсрдә Азәрбајчана кәлмиш монголларын тәркибиндәки **Урјат** тајфасынын адыны өзүндә әкс етдирир. Күман едилир ки, бурада орта әсрләрдә јашајыш мәскәни олуб. Кәнд ишғалдан азад едилиб. Танынмыш памбычы, ики дәфә Сосиалист Әмәји Гәһрәманы Шамама Һәсәнова бу кәнддәндир...

## АРҒАЛЫ ТҮРБӘСИ

*(Бах: Әһмәдалылар түрбәси)*

## АРЫГ БУЛАҒЫ

Гараколлу кәндинин гузејиндә, рајон мәркәзиндән 10 км мәсафәдә гејдә алынмыш һидронимләрдән бири **Арыг булағы** адланыр. Һидроним **Арыг сөзүндән** вә **булаг** һидронимик апелјативиндән ибарәтдир. Јерли әһалинин сөјләдикләринә көрә, **Арыг** шәхс адыдыр. Гараколлу чамаатынын дилиндә бу **булаг** илә бағлы белә бир әфсанә јашајыр:

Гараколлу кәндиндә вахтилә 2 гардаш јашајырмыш. Дүнјаварындан бир чүт өкүзү олан гардашлар һәр јаз кәләндә Гузеј әлдәки даг јамачында јер әкирмишләр. Күнәшли јаз сәһәринин бириндә гардашлар өкүзләрини гошуб даг дөшүндәки чынгыллы әразини шумлајырмышлар. Кичик гардаш јорулдуғундан башыны бир дашын үстүнә гојуб јатыр. **Арыг** адлы һәмин гардаш бир гәдәр јатыбмыш ки, су шырылтысына јухудан ојаныр. Көзләрини ачанда көрүр ки, әтрафда бош дашлыгдан башга һеч нә јохдур. Башыны јенә һәмин дашын үстүнә гојуб јатмаг истәјир. Бахыр ки, бајаг ешитдији шырылты һәмин дашын алтындан кәлир. Дуруб һәмин јери газмаға башлајыр. Торпағы бир гәдәр газмышды ки, дағын дибиндән көз јашы кими су шырнаг еләјиб үзү бәри ахыр. Арығын сәсинә әввәл гардашы, сонра Гараколлу кәнд чамааты төкүлүб кәлир. Әли күлүнк тутан сујун көзүнү ачыр. Әсрләрдән бәри гајанын алтында јатыб галан су башлајыр көпүкләнә-көпүкләнә ахмаға.

Сәһәри күн кәнд чамааты дағын дөшүндә бир һовуз тикир. Аз сонра һовузун јанында көзәл бир бағ салырлар. Бағда алма, армуд, киләнар, килас, зоғал, әзкил, гоз, фындыг, тут вә башга ағачлар әкирләр. Дејиләнә көрә, Гозлучајда илк гоз ағачы да бу булағын сујундан гидаланыб. О замандан да һидронимин ады **Арыг булағы** галыр...

## АРЫШ КӘНДИ

**Арыш кәнди** Фүзули рајонунун мәркәзиндән 10 км чәнубда, Гарабағ силсиләсинин әтәјиндә јерләшән кәнддир. Кәндин 400 нәфәр әһалиси вар. Әһали әсасән һејвандарлыг, гисмән дә үзүмчүлүк вә тахылчылыгла мәшғул олур. Кәнддә клуб, мәктәб, мәдәнијјәт еви вә с. вар.

Бә'зи тәдгигатчылара көрә, **Арыш** топоними түрк дилләриндә "тајфанын бир һиссәси, голу" мә'насыны дашыјыр. Орта әсрләрдә Арыш јахынлығында, Әркүнәш дағы әтәкләриндә јашајыш мәскәнләри олмушдур...

1727-чи илә аид "Кәнчә-Гарабағ әјаләтинин мүфәссәл дәфтәри" адлы тарихи гајнагда Дизаг наһијәсинә табе олан **Арыш**

("Дәфтәр"дә кәндин ады **Әриш** (10 аилә) кими көстәрилмишдир) кәндинин дә ады вардыр. Кәндин тајфа вә тирәләринә нүмунә олараг **Аллаһвердиләр, Мәһәммәдлиләр, Меһдиханлар, Јусифлиләр, Әбүлһачылылар, Исмајыллылар, Чогмаглар, Моллаһәсәнлиләр, Нәбиләр, Сејидләр, Вәлиләр, Пирсејидләр, Абдуллалар** вә башгаларыны көстәрә биләрик.

Јерли мә'лумата көрә, кәндин гәдим ады **Арынч** олуб. Чох күман ки, кәнд ики дағ арасында јерләшдији үчүн белә адланмышдыр...

## АРЫШ КӨРПҮСҮ

Гочәһмәди кәнди әразисиндә гејдә алынан орографик абидәләрдән бири **Арыш көрпүсү** адланыр. XIX әсрдә инша едилмиш бу көрпү Фүзули рајонунун јерли әһәмијјәтли дашынмаз тарих вә мәдәнијјәт абидәләри сијаһысында әсас јер тутур. Көрпүнүн адынын **Арыш көрпүсү** олмасы Гочәһмәдли јашајыш мәнтәгәсинин јахынлығында јерләшән Арыш кәндинин ады илә бағлыдыр. Бу көрпү Арыш кәндини Гочәһмәдли кәнди илә бирләшдирир. Чоғрафи адын тәркибиндәки **-сү** шәкилчиси мәнсублуг ифадә едир...

## АРМУД АҒАЧЫ

Дөвләтјарлы кәндиндән 3 километр аралыда, "ел јолу" гырағында, Фүзули-Ағдам автомобил јолунун кәнарында **Армуд ағачы** адлы бир чоғрафи ад гејдә алынмышдыр. Бу чыр **армуд ағачы** нечә он илләрдир ки, бурадан өтән минләрлә јорғун адамларын истираһәт, көлкәлик јери олмушдур. Онун мејвәси адама күч-гүввәт верәрди. Јерли әһалинин дедикләринә көрә, кәндин ишғалы әрәфәсиндә **армуд** ағачынын јарым әсрә гәдәр јашы варды...

## АРХАЧ ДӘРӘСИ

Фүзули рајону әразисиндә гејдә алынан оронимләрдән бири **Архач дәрәси** адланыр. **Архач дәрәси** чоғрафи ады **архач, дәрә** сөзләриндән вә мәнсублуг ифадә едән **-си** шәкилчисиндән ибарәтдир.



**Архач** сөзү түрк дилләриндә *"дағын архасы", "дағын, тәпәнин күн дүшмәјән һиссәси, гузеји"* мә'насында ишләдилир. Отлаг шәраитиндә һәм кечәләр, һәм дә һава исти оланда күндүзләр гојун вә гарамалын динчәлмәси үчүн дүзәлдилмиш јерә **архач** дејирләр. Архачлары баһарын әввәлләриндә вә пајызда күләк тутмајан, јајда исә адәтән бир гәдәр һүндүр јердә дүзәлдирләр. Мүәјјән заман кечәндән сонра онларын јери дәјишдирилир.

**Дәрә** чоғрафи термини мәнфи релјеф формасы ифадә едир. Оронимијада релјефин дар вә чөкәк формасы **дәрә** сөзү илә ифадә олунур. Азәрбајчанда чөл материаллары ичәрисиндә 30.000-дән чох **дәрә** ады вардыр.

Губадлы рајонунда **Архач дәрәси,** Кәдәбәј рајону әразисиндә **Гара Архач,** Оғуз рајонунда **Гајнарархач** вә с. бу кими оронимләр дә гејдә алынмышдыр. XIX әсрдә Ирәван әјаләтинин Шәрур-Дәрәләјәз гәзасында **Архачтәпә** топонимләри дә өз адларында **архач** терманинин адыны әкс етдирир.

## АСЛАН ДӘРӘСИ

Азәрбајчан оронимијасында шәхс адларындан дүзәлмиш мүсбәт вә мәнфи релјеф формалары олан антропонимик оронимләр мүһүм јер тутур. Бә'зән антропооронимләр ајры-ајры шәхсләрин адыны әкс етдирир. Фүзули рајонунун Һорадиз кәнди әразисиндә гејдә алынан **Аслан дәрәси** чоғрафи ады да бу гәбилдәндир. Оронимин тәркибиндәки **Аслан** шәхс адыдыр.

Топонимин тәркибиндәки **дәрә** чоғрафи термини мәнфи релјеф формасы билдирир. **Дәрәләр** - ахар суларын ерозија фәалијјәти нәтичәсиндә јаранан, хәтти истигамәтдә узанан вә талвег үзрә әксәрән гејри-бәрабәр енән мәнфи релјеф формасыдыр. Дәрәләр диб вә јамач һиссәләринә ајрылыр. Оронимин тәркибиндәки - **си** шәкилчиси мәнсублуг ифадә едир.

## АТ ДАШЫ

**Ат дашы** орографик објекти Мердинли кәндинин гәбиристанлығында гејдә алынмышдыр. Јерли мә'лумата көрә, **дашдан**

јонулмуш бу **ат** фигурунун ән азы 350 ил јашы вардыр. Әһали бу **Ат дашы**ны мүгәддәс һесаб едир. Сон вахтлара гәдәр (ишғала гәдәр) **Ат дашы** зијарәткаһ иди. Адамлар бураја кәләрәк үрәкләриндә нијјәт тутуб нәзир дә верәрдиләр...

## АХУЛЛУ ЈАЛЫ

Фүзули шәһәринин мәркәзиндән 10 км гәрбдә, Хочавәнд (кечмиш Мартуни вә Һадрут рајонлары) рајону илә сәрһәддә јерләшән јүксәклик **Ахуллу јалы** адланыр. **Ахуллу јалы** Гарабағ силсиләсинин әтәјиндә јерләшир. Топоним вахтилә Фүзули рајону әразисиндә јашајан ***Һахыллы*** нәслинин адындандыр. Һахыллы нәсли һәмин әразидә **Ахуллу** адлы кәнд дә салмышдыр. Бә'зи тәдгигатчылар **Ахуллу** топониминин тәрифә уғрадығыны гејд едирләр...

## АШАҒЫ ВЕЈСӘЛЛИ КӘНДИ

Рајон мәркәзиндән 17 км шимал-шәргдә, Фүзули-Ағдам шоссе јолунун 5 километрлијиндә, Гарасу чајынын сол саһилиндә, Мил дүзүндә јерләшир. Кәнд әһалиси әсасән үзүмчүлүк, тахылчылыг вә һејвандарлыгла мәшғул олур. Кәнддә сәккизиллик мәктәб, клуб, китабхана, тибб мәнтәгәси, стадион вә с. вар. Ме'марлыг үслуб хүсусијјәтләринә көрә XIII әср абидәси сајылан гүлләвари, үчпилләли күрсү үзәриндә һамар дашдан тикилмиш Мирәли Түрбәси дә Ашағы Вејсәлли кәндиндәдир.

**Вејсәлли** топоними өзүндә **вејсәлли** елинин адыны әкс етдирир. Топонимин әсасыны **вејсәлли** (**вејсәл** сөзү әрәбҹә "күч, гүввә", "гәрар, һөкм, фәрман" демәкдир) елинин ады тәшкил едир. **Ашағы** сөзү ону ејниадлы дикәр јашајыш мәнтәгәсиндән фәргләндирмәк үчүн ишләдилир. Ојконими XIX әсрин орталарында Көјчај гәзасында јашамыш **вејсәлли** елатынын ады илә бағлајанлар да вардыр...

Тарихи гајнаглардан мә'лум олур ки, **Отуз ики** тајфасынын **Вејсәлли** адлы ојмағы да олуб. Бу ојмаг гышы Вәрәндә наһијәсинин Һачыөзү адлы әразисиндә гышлајыр, Тохтадаш, Алпағуд, Хонашен, Гозлу, Гатардаш, Чагмаг вә Үчтәпә адлы јерләрдә јајлајыр. Бу



ојмағын әһалиси Охбулаг вә Гошачыглар адланан әразиләрдә әкинчиликлә (гисмән исә һејвандарлыгла) мәшғул олур, үшр вә бәһрәни торпаг саһибинә верир. **Вејсәллиләр** Отузикиләрин бир голудур.

Вејсәллиләрин **мәһәммәдханлар (мәһәммәдханушағы), нурмәһәммәдлиләр, мәшәдибеһбудлар, әһмәдлиләр, мәммәдлиләр, әлирзалар, шаһкәлдиләр, гошунәлиләр, долуханлар, шамхаллылар, рамазанлылар, казымлылар, шаһвердиләр, сејидәһмәдлиләр, әлиширлиләр, азадәлиләр, ағамирлиләр, аллаһгулулар, мириләр** адлы тајфа вә тирәләри вар.

1 ијул 1873-чү ил тарихдә Ҹәбрајыл гәзасы јарананда Гарабулаг наһијә статусу алараг Ҹәбрајыл гәзасынын табечилијинә верилди. Бу заман пәракәндә һалда олан бир чох кәнд вә обалар Гарабулаг наһијәсинин тәркибинә гатылды. Онларын ичәрисиндә **Вејсәлли** кәндинин дә ады варды...

Көјчајда вә Ҹәбрајылда да **Вејсәлли кәнди** мөвчуддур.

## АШАҒЫ ДӘЈИРМАН

**Ашағы дәјирман** орографик објект ады Јухары Әбдүррәһманлы кәнди әразисиндә гејдә алыныб. Адындан көрүндүјү кими, бу ороним әразидәки дикәр орографик објектдән **ашағыда** јерләшдији үчүн белә ад алмышдыр. **Дәјирман** - дәнүјүтмә техникасы илә ун истеһсал едилән мүәссисәдир. Дәни гәдимдә дән дашында, һәвәнкдә үјүдәрдиләр. Ерамыздан әввәл II минилликдә әл дәјирманлары мејдана кәлди. Әкинчилијин инкишафы илә әлагәдар олараг гулдарлыг вә феодализм дөнәмләриндә су илә ишләјән **дәјирманлар** јаранды. Орта әсрләрдә јел дәјирманлары да ишләдилмишдир...

## АШАҒЫ ДИВАНАЛЫЛАР КӘНДИ

*(Бах: **Диваналылар кәнди**)*

## АШАҒЫ ӘБДҮРРӘҺМАНЛЫ КӘНДИ

Фүзули рајонунда, рајон мәркәзиндән 12 километр ҹәнубда, дүзәнликдә, Ҹәрәкән чајы саһилиндә кәнд. Әһалиси әсасән үзүмчүлүк вә тахылчылыгла мәшғул олур. Кәнддә клуб, мәдәнијјәт еви, мәктәб, киногурғу вә с. вар. **Ашағы Әбдүррәһманлы** (бәзән кәндин адыны **Әбдүлрәһманлы** кими дә јазырлар) јашајыш мәнтәгәси ермәни ишғалы алтындадыр.

Кәнди **Әбдүррәһманлы** нәслинә мәнсуб олан аиләләр салдығына көрә бу ҹүр адландырылмышдыр. **Ашағы Әбдүррәһманлы** кәнди кечмиш Әбдүррәһманлы кәндинин сонрадан јаранмыш јени мәнтәгәсиндәндир.**"Ашағы"** сөзү кәнди ејниадлы дикәр јашајыш мәнтәгәсиндән фәргләндирмәк үчүн ишләдилир.

Тарихи гајнаглара көрә, **Әбдүррәһманлы обасы** Ҹәбрајыллы елинин бир голудур. Бу јашајыш мәнтәгәси XVIII јүзилдә јашамыш бөјүк нүфуз саһиби **Әбдүррәһман бәј Агаси бәј оғлу**нун ады илә әлагәдардыр...

Кәндин **гаракишиләр, вәлибәјлиләр, көдәкләр, мәшәдиејвазлылар, күлүшлүләр, һүсејнбәјлиләр** вә с. адлы тајфалары вар...

## АШАҒЫ (АРАЗ) ЈАҒЛЫВӘНД КӘНДИ

Рајон мәркәзиндән 45 км ҹәнуб-шәргдә, Араз чајынын сол саһилиндә, дүзәнликдә јерләшән кәнд. Әһалиси тәхминән 1300 нәфәрдир. Әһали әсасән тахылчылыг, үзүмчүлүк вә һејвандарлыгла мәшғулдур. Кәнддә орта мәктәб, китабхана, тибб мәнтәгәси, доғум еви, мәдәнијјәт еви, мусиги мәктәби, дәмирјол стансијасы, стадион, парк, дәјирман вә с. вардыр.

XIX әсрә аид сәнәдләрдә Ҹәбрајыл гәзасында малдарлыгла мәшғул олан елатлардан бири **јағлавәнд** адланырды. Топоним һәмин елатын адыны өзүндә әкс етдирир.

Тарихи гајнаглардан мә'лум олур ки, **Јағлывәнд (Јағләвәнд) ојмағы** Ҹаваншир тајфасына дахилдир. Бу ојмаг **Арасбар**



санҹағында, Хан архында гышлајыр, әкинчилик вә һејвандарлыгла мәшғул олурду. 1727-ҹи илә аид олан "Кәнҹә-Гарабағ əјалəтинин мүфәссәл дәфтәри" адлы тарихи сәнәддә Ҹаваншир елинин **Јағләвәнд** ојмағы илә бағлы мә'луматлар верилмишдир. Орада көстәрилир ки, бу ојмаг Күр чајы кәнарында, Хан архы тәрәфдә, еләҹә дә, Көндәлән вә Камалкәнд чајлары кәнарында, Арал вә Һәсиркөрпү адланан әразиләрдә гышлајыр, Ирәван сәрһәдиндә - Күнеј, Зилхач, Пәрихан вә Јахынлы адлы саһәләрдә јајлајырлар. Бу ојмағын әһалиси Дизаг наһијәсиндә Көндәлән чајы кәнарында әкинчиликлә мәшғул олур, ушр вә бәһрәләрини торпаг саһибинә верирләр...

Јағлывәнд ојмағынын **Бәрхударлы, Әһмәдли, Мирмәһәммәдли, Шаһвердили, Һагвердиләр, Дәрвишләр, Һафсалы, Ковхалы, Күләдәрли, Ирәншәлли, Ләләли, Гәдирли, Ашырлы, Хәләфли, Хосровлар, Гурбанлар, Нәбиләр, Новрузлар, Танрыгулулар, Маһмудлар, Газыханлар, Достуханлы, Сејидханлар, Гасымлар, Нијарлы, Мәһәррәмушағы, Исалылар, Бағдадлылар, Дәмироғлулар, Ләтифлиләр, Тағылылар, Очаггулулар, Шәкәрләр, Дүнјамалылар, Дијарханлар, Мәһәммәдлиләр, Зејналханлар, Аллаһгулулар, Шәрифлиләр, Гырзәлиләр, Имамгулулар, Тәһмаслылар, Сејид Салеһләр, Пәричаһанлы, Гывлыјалы** вә башга нәсил-тирәләри мөвҹуддур...

Јағлывәнд кәндинин сајы (**Ашағы Јағлывәнд** вә **Јухары Јағлывәнд** кәндләри) ону көстәрир ки, *Јаглывәнд* әһалиси гышлаг вә јајлаг һәјаты кечирмишләр. Чох күман ки, кәндин јерләшдији индики јердә әввәлләр дә јашајыш мәнтәгәси мөвҹуд олмушдур...

Гајнаглар хәбәр верир ки, сон орта әсрләрдә даими јашајыш јери ахтаран әһали Араз чајы кәнарында хараба бир јашајыш мәскәни олдуғуну көрүб бурада мәскунлашмышдыр. Бу да бир мәнтигдир ки, өзкә тајфалар бурада кәлиб мәскунлаша билмәздиләр; демәли, бу әразидә - **Араз Јағлывәнд** кәндиндә елә бу јашајыш мәнтәгәси әһалисинин улу бабалары јашамышлар...

**Јағлывәнд** топонимини *"јагмаланмыш"* анламы илә дә әлагәләндирәнләр вар. **Вәнд** терманинин фарс дилиндә *"ев"*, *"оба"* *"кәнд"*, *"зирвә"* мә'налары да вар. Иран дилләриндә **вәнд** сөзүнүн *"нәсил"*, *"төрәмә"*, *"ушағы"* вә с. анламлары да мә'лумдур...

Кәнддә **Ковхалы тајфасы** (мурадханлы, сәфигулубәјли, ағакишибәјли, шәрәфханлы, азманлы), **Һавсалы тајфасы** (хәләфли, пәричаһанлы, мәһәррәмушағы, кәлбијәлиләр, нијарлылар), **Күләдәрли тајфасы** (аббасгулулар, әмирмурадлылар, мирзәли, рүстәмли, ибалы, һәсәнли, казымлы, исмајыллы, гырдылы, ахыһүсејнли, гаралылар, гасымлылар), **Бәдирли тајфасы** (адыкөзәлли, әсәдли, еминалылар), **Ирәншәлли**, **Ләләли** (Мәшәдигулу, мөһнәтли, рәсуллу, сејидли), **Һүмбәталылар**, **Ашырлы, Алысәфәрли** (бајрамлы, нәбили), **Чијәли** (фәрһадлы, бахышлы), **Асланалылар, Тејмурлу, Мәммәдли** вә с. тајфалар вардыр...

Дејиләнә көрә, Әмир Тејмур гышламаға һәмишә Гарабаға кәләрмиш. Бир дәфә дә о, дүшәркәсини Күләдәрли обасы илә гоншу салыр. Оба ағсаггаллары Әмирлә көрүшмәк үчүн онун дүшәркәсинә кедирләр. Әмир Тејмур онлары гәбул едиб кефләрини сорушур, һал-әһвал тутур. Ағсаггаллардан бири гајыдыб дејир ки, лап хан кефиндә доланырыг. Бу сөз Тејмура тәсир едир вә о дејир:

Әкәр сабаһ мәним бүтүн гошун әһлими јејдириб-дојурмасаныз, обанызы виран едәчәјәм. Торпағынызы ат торбасы илә дашытдырыб јеринә сарымсаг әкдирәчәјәм. Ди, кедиб һазырлыг көрүн!

Тејмурла көрүшә кәләнләр кор-пешман, јерсиз данышан һәмин адамы да данлаја-данлаја кери гајыдырлар. Онларын нәји варды ки, Әмир Тејмура да нә версинләр. Гошунун да бир учу бурда, бир учу да Худафәрин көрпүсүндә. Нә исә, ағсаггаллар, башбиләнләр топланыб белә мәсләһәтә кәлирләр ки, гошун әһли үчүн јағлы плов биширсинләр. Беләликлә, газанлар асылыр. Сабаһ күнорта наһарында гошун әһлиндән ким әлини узадыб пловдан бир пәнчә алырса, елә о ан да «дојдум» дејиб кәнара чәкилир. Сөз кедиб Әмирә чатыр. Тејмур әмр едир ки, пловдан бир булуд онун өзүнә дә кәтирсинләр. Плову кәтирирләр. Тејмур пловдан бир тикә ағзына гојан кими иши баша дүшүр. Плов бүсбүтүн јағ иди. О, күлүмсәјәрәк дејир:

**- Јағлы фәнд** ишләтмәклә јахшы чанынызы гуртардыныз.

Елә һәмин күндән дә Күләдәрли обасынын ады **Јағлывәнд (Јағлыфәнд)** галыр...

**Јағлывәнд** сөзүнүн тәркибиндәки **ләвәнд** адынын бир анламы да "сојғунчу","јағмачы" мә'насына ујғун кәлир. Түркoлог В.Р.Радлова көрә, **ләвәнд** сөзүнүн "азад","сәрбәст","әскәр", "авара", "икид"



"чәсур", "мәғрур" анламлары да вар. **Ләвәнд** сөзүнүн дилимиздә "тәнбәл", "чох јејән", "гарынгулу" мә'налары да вардыр. Бу сөз тохучулуг термини кими дә ишләдилир.

Сон орта әсрләр дөврүндә Азәрбајчан дөвләт гурумларында мүхтәлиф тајфалардан топланмыш гејри-низами һәрби дәстәләрә, чәрикләрә **ләвәнд** дејилирди. Бу чәрикләр јүрүшләрдә könүллү иштирак едир, јағма һесабына доланырдылар. **Ләвәнд** сөзү османлыларда *"дәниз пијадасы"* анламында да ишләнирди.

**Јағлывәнд** сөзүнүн мә'насы **јағыләвәнд** дејиминдән төрәндији үчүн *"гијамчы әскәр"* демәкдир. Әлбәттә, бу сөзүн мә'насыны башга јерә јозанлар да вар...

Дејиләнләрә көрә, бир күн Әмир Тејмур јенә гышламаг мәгсәдилә Аразбарын Һарамы дүзү дејилән јеринә кәлир. Нијјәти бу олур ки, јахынлыгдакы обалардан әрзаг, от-әләф алыб бүтүн гышы бурада кечирсин. Башынын дәстәси илә јахын обалара баш чәкмәјә чыхыр. Әнчә Јағлывәнд обасына тәрәф кәлир; ора јетишчәк бәләдчидән сорушур:

- Де көрүм бу дүзүн ады нәдир?

Бәләдчи дејир:

- Һарамыдыр, гиблеји-аләм.

- Бәс о обанын?

- Јағлывәнддир, - гиблеји-аләм.

Әмир Тејмур үз-көзүнү туршудур:

- Баһо, бу јерләрдә чох галмаг олмаз. Бунлар өзләри елә һарамы, јағыдыр. Бизә һеч нә вермәзләр, атланын, кедәк үзү о јана...

**"Јағы"** түрк дилиндә *"дүшмән"*, *"гијамчы"*, **"Ләвәнд"** исә *"дәниз пијадасы"* вә ја *"тајфалардан топланмыш гејри-низами орду"*, јахуд да *"һәриф"*, *"вечсиз"* мә'насында ишләнир. **"Вәнд"** һиссәчији *"јер"*, *"мәкан"* мә'насында ишләнир. *"Вәнд"* һиссәчијинин *"јер"*, *"мәкан"* мә'насында олдуғуну нәзәрә алсаг, кәндин адынын етимоложи чаларыны *"Јағлы јер"* кими характеризә етмәк олар. **Јағлывәнд** топоними илә бағлы чохлу әфсанә вә рәвајәтләр мөвчуддур. Онлардан бир нечәсини јада салаг:

1. Бу јерин башчысы әризә, шикајәт вә хаһиш үчүн јанына кәләнләрә һәмишә јағлы вә'дләр вердијиндән јахын мәскәнләрин әһалиси бу әразини **Јағлывәд** адландырмышлар.

2. **Јағлывәнд** сөзүндәки **"вәнд"** компонентини **"фәнд"** формасы

илә әлагәләндирәнләр дә вардыр. Бу да онунла бағлыдыр ки, буранын сакинләри куја чох фәндкир инсанлар олуб, башгаларыны асанлыгла алдада билмишләр.

3. Аға Мәһәммәд шаһ Гаҹар Шушаја һүҹум әрәфәсиндә кәнд әһлинә онун гошунуну дојурмағы әмр едир. Фәндкир јағлывәндлиләр **фәнд** ишләдиб, јағлы плов биширир вә беләликлә, гошуну дојураraг Гаҹарын зүлмүндән гуртулурлар...

**Ашағы** сөзү **Јағлывәнд** компонентинин әввәлинә ону ејниадлы башга јашајыш мәнтәгәсиндән фәргләндирмәк үчүн әлавә едилиб. Араз чајы саһилиндә јерләшдији үчүн кәндин адына **Араз Јағлывәнд** дә дејирләр.

(Әлавә мә'лумат үчүн бах: һәмчинин **Јухары Јағлывәнд кәнди**).

## АШАҒЫ КӘҺРИЗ

Јухары Әбдүррәһманлы кәнди әразисиндә гејдә алынан һидронимләрдән бири **Ашағы Кәһриз** адланыр. **Кәһриз** - грунт суларыны топлајыб јер сәтһинә чыхармаг үчүн олан јералты гурғудур. Кәһризләр пешәкар канканлар тәрәфиндән газылыр. Кәһризләрин лағымлары бир-бири илә шагули гујулар васитәси илә бирләшдирилир. XIX әсрин орталарында Азәрбајҹанда 900-дән чох кәһриз олуб...

Һидронимин тәркибиндәки **ашағы** сөзү ону кәндә, бир гәдәр аралыда, јухарыда јерләшән дикәр кәһриздән (**Јухары кәһриз**) ајырмаг үчүн ишләдилмишдир. Кәндин әразисиндә **Орта кәһриз** адланан һидроним дә гејдә алыныб...

## АШАҒЫ КҮРДМАҺМУДЛУ КӘНДИ

**Ашағы Күрдмаһмудлу кәнди** рајон мәркәзиндән тәхминән 32 км шәргдә, дүзәнлик әразидә јерләшир. Кәндин әһалисинин сајы 850 нәфәрдир. Әһалиси әсасән үзүмчүлүк, барамачылыг, һејвандарлыг вә тахылчылыгла мәшғул олур. Кәндә мәктәб, клуб, мәдәнијјәт еви, китабхана вә с. вар. Бу кәнддән чохлу танынмыш зијалы шәхсијјәтләр чыхмышдыр.



Кәндин ады кечмишдә малдарлыгла мәшғул олан **Күрдмаһмудлу** тајфасынын адындандыр. **Ашағы** сөзү кәнди ејниадлы јашајыш мәнтәгәсиндән фәргләндирмәк үчүн ишләдилир. **Ашағы Күрдмаһмудлу кәнди** Јухары Күрдмаһмудлу јашајыш мәнтәгәсиндән сонра салынмышдыр. Үмумијјәтлә, **Күрдмаһмудлу** ојкноними XVI-XVII әсрләрдә Түркијәнин Ван көлүндән шәргдә јашамыш, сонралар исә бир һиссәси Ҹәнуби Гафгаза көчән әһалинин бир тајфасынын адыны өзүндә әкс етдирир.

Тарихи билкиләрә көрә, **Күрдмаһмудлу** обасы **кәнкәрли** елинин бир голудур. Онларын бөјүк бир һиссәси Фүзули рајону әразисинә XVIII јүзиллијин 50-ҹи илләриндә Нахчывандан көчмишдир...

**Күрдмаһмудлу** топоними патронимик топонимдир. **Маһмуд** сөзүнүн әрәбҹә *"тә'рифли"*, *"тә'рифләнмиш"* мә'налары мә'лумдур. Әскидән олдуғу кими түркләрдә вә азәриләрдә инди дә оғланлара **Маһмуд** ады гојулур...

Үнлү түркчүләрдән олан Ф.Сүмәр оғуз бојларынын адыны јазаркән бу бојларын сырасында **күрдмаһмудлу** адыны да чәкмишдир. Күрдмаһмудлу јашајыш мәнтәгәсинин ады кәнкәрли бағлылығы олан **күрдмаһмудлу** тајфасы вә онларын тирәләринин бурада мәскунлашмасы илә әлагәдардыр.

Имишли рајонунда да **Күрдмаһмудлу кәнди** вардыр. Һазырда Азәрбајҹанда (Иран) вә Түркијәдә **күрдмаһмудлу** тирәләринин јашадығы чохлу сајда јашајыш мәнтәгәләри вар...

## АШАҒЫ КҮЗЛӘК КӘНДИ

**Ашағы Күзләк кәнди** (бәзән адыны **Күздәк** кими дә јазырлар) рајон мәркәзиндән 15 километр ҹәнубда, Гарабағ силсиләсинин әтәјиндә, дүзәнликдә јерләшир. Әһалиси әсасән тахылчылыг, һејвандарлыг вә үзүмчүлүклә мәшғул олур. Кәндә мәктәб, клуб, мәдәнијјәт еви, китабхана вә с. вардыр. Кәнд һазырда ишғал алтындадыр.

**"Күзләк"** вә ја **"Күздәк"** топонимләриндә түрк вә Азәрбајҹан дилләриндә мәкан билдирән **"ләк"** шәкилчиси иштирак едир. Оронимин тәркибиндәки **"дәк"** форманты түрк дилләриндә **"д"** сәси-

нин "л" сәси илә әвәз олунмасы нәтичәсиндә дәјишилән "**ләк**" сөзүнүн фонетик вариантыдыр. Гәдим мәнбәләрдә ады чәкилән **ләк/лег** тајфаларыны гәдим **кел** тајфасы илә әлагәләндирән арашдырычылар вар. Бә'зиләри **ләк** сөзүнү "һөкмран" анламы илә мә'наландырыр...

Чобанлар адәтән пајызда доғулан гузуја **күз** дејирләр. Елә бәлкә дә дилимиздәки **гузу** ады **күзү** сөзүнүн өзүндән төрәјиб. Гузунун пајыз, гыш *олачагына* **күз** дејилир...

**"Күздәк"** чоғрафи ады ики компонентдән ибарәтдир: **"күз"** вә **"дәк"**. "Күздәк" вә ја "Күзләк" ороними илә бағлы мүхтәлиф мүлаһизәләр вар. **"Күз"** - **"гуз"** етнониминин фарс дилиндә **"Деһ"** - *"кәнд"* сөзү илә бирләшиб, "Оғуз кәнди" мә'насыны вердијини сөјләјәнләр вар. **"Күз"** сөзү гәдим түрк дилиндә *"пајыз"* вә ја -*"пајыз оту"* мә'насындадыр. Бу мә'нада **"Күздәк"** топониминин ачмасы *"пајыз јурду"* демәкдир.

**"Күз"** топонимини *"дагын күн дүшмәјән тәрәфи"* кими, **"дәк"** һиссәсини исә *"даг"* кими мә'наландыран тәдгигатчылар да вардыр. Јашајыш мәнтәгәси XIX әсрдә Күздәк (индики Јухары Күзләк) кәндиндән чыхмыш аиләләрин бурада мәскунлашмасы нәтичәсиндә мејдана кәлмишдир. *"Күздәк"* кәндинин ады түрк дилләриндәки *"күз"* вә ја *"күз"* (пајыз), *"јер, мәкан"* билдирән *"дәк"*, *"ләк"* шәкилчисиндән ибарәт олуб *"пајыз отлагы"*, *"пајыз бинәси"*, *"пајызлыг"* (мүгајисә үчүн: јајлаг, гышлаг) мә'наларындадыр.

Абшеронда *Күздәк кәнди, Күздәк дагы, Күздәк дәрәси, Кәлбәчәрдә Күздәк јалы* вә с. вардыр.

## АШАҒЫ РӘФӘДИНЛИ КӘНДИ

**Ашағы Рәфәдинли** кәнди Фүзули рајонунун мәркәзиндән тәхминән 20 км чәнубда, дүзәнликдә јерләшир. Кәнддә клуб, китабхана, мәдәнијјәт еви вә с. вардыр.

Кәндин әһалиси әсасән тахылчылыг, үзүмчүлүк вә һејвандарлыгла мәшғул олур. Кәнди XIX әсрдә кечмиш **Рәфәдинли** кәндиндән чыхмыш аиләләр салмышлар. **Рәфәдинли** етноними кәндин әсасыны гојмуш нәслин адыдыр. Кәнд һазырда ишғал алтындадыр...



1727-чи аид олан "Кәнчә-Гарабағ әјаләтинин мүфәссәл дәфтәри" адлы тарихи сәнәддә Дизаг наһијәсинә табе олан кәндләр сырасында **Рәфәдинли (Рәфдинли)** кәндинин дә ады чәкилир. Бә'зи тарихи сәнәдләрдә кәндин ады **Руһудинли** формасында да көстәрилмишдир. **Рәфәдинли обасы** гәдим **гарадағлы** елинин бир голудур...

## АШАҒЫ СЕЈИДӘҺМӘДЛИ КӘНДИ

**Ашағы Сејидәһмәдли кәнди** рајон мәркәзиндән 16 км чәнуб-шәргдә, Фүзули-Арајатлы шоссе јолу кәнарында, Гуручајын саһилиндә јеләшир. Әһалиси ики мин нәфәрдән бир аз чохдур. Онлар әсасән барамачылыг, үзүмчүлүк, тахылчылыг вә һејвандарлыгла мәшғул олурлар. Кәнддә мәктәб, клуб, киногурғу, хәстәхана, китабхана, автомат телефон стансијасы вә с. вардыр.

Топонимин ады кәнди салан **Сејидәһмәдли** нәслинин ады илә бағлыдыр. **Сејидәһмәдли обасы** гајнагларын вердији мә'лумата көрә, **һачылы** ичмасына дахилдир. **Сејидәһмәдли обасы** Чаваншир елинин апарычы тајфаларындан олан **Јағлавәнд ојмағынын** бир голудур. Бу обанын бә'зи тирәләри XIX әсрин әввәлләриндә Аббас Мирзәнин көстәриши илә Араздан кечәрәк Сәраб вилајәтинә көтириләрәк орада мәскунлашмышдыр. Бу нәсилләрин бир чох нүмајәндәләри вахтилә Иранда сүркүн һәјаты да јашамышдыр. Анчаг чох чәтинликлә дә олса, Мирзә Чамал бәј Мәһәммәдхан бәј оғлу бу обаны әввәлки әски јурдуна гајтармаға наил олмушдур. Һәмин дөврдән сонра обанын бир нечә аиләси Мирзә Чамала рәијјәт кими верилмишдир.

1727-чи илә аид Османлы гајнағында көстәрилир ки, **Чаваншир** тајфасынын Јағләвәнд ојмағына бағлы **Сејидәһмәдли** нәсилләри Дизаг наһијәсиндә, Көндәлән чајынын јахасында әкинчиликлә мәшғул олур, мәһсулларыны торпаг саһибләринә верир, веркиләрини дә өдәјирләр. **Сејидәһмәдли ојмағы** Аразбарда - Хан архында гышлајыр, Ирәван әјаләтинин сәрһәдиндә - Килсәкәдик адланан әразидә јајлајырлар. Һачылы ичмасына гатылан **Сејидәһмәдли обасы** 1842, 1848, 1849, 1863, 1873, 1886-чы илләрдә дөвләт тәрәфиндән сијаһыја алынмышдыр.

**Сеjидәһмәдли** обасы 2 шенлиjә - **Ашағы Сеjидәһмәдли** вә **Јухары Сеjидәһмәдли** кәндләринә аjрылыр. Бу кәндләрдә **Газылы (Газы** XVIII әсрдә јашаjыб) тајфасынын (бу тајфаја **мәшәдимирзәлиләр, мәшәдиһәсәнлиләр, мәммәдгулулар, кәрбәлаjиәбдүлханлылар, һәсәнгулулар, һүсеjнгулулар** адлы тирәләр дахилдир), **Кәрбәлаjи Әлипәнаһбәj ушағы** тајфасынын (бу тајфа **әлимәммәдбәjли, әләкбәрли, әскәрли, кәрбәлаjи имамәлибәjли, мәммәдәлибәjли, чәфәрли, һачымангулулар** тирәләриндән ибарәтдир), **Казымлы (Казым** XVIII әсрин сону вә XIX әсрин әввәлләриндә јашамыш, әсасән, һеjвандарлыгла мәшғул олмушдур) тајфасынын (бу тајфанын **исмаjыллы, алылы, әләскәрли, кәрбәлаjи, пашалы, шүкүрлү** адлы тирәләри вардыр), еләчә дә, **һачылы, әбүлханлы, бүнjадлы, әлизаманлы, һачымәһәммәдли, һачымамгулулар, хәлиллиләр, күрдмаһмудлулар, гаракүвәндикли, сәфәралылар** вә с. тајфаларын нәсилләри јашамышдыр...

## БАБЫ КӘНДИ

**Бабы кәнди** раjон мәркәзиндән 35 километр чәнуб-шәргдә, Араз чаjынын сол саһилиндә, дүзәнликдә јерләшир. Кәндин мин нәфәрә гәдәр әһалиси вар. Онлар тахылчылыг, үзүмчүлүк, барамачылыг вә һеjвандарлыгла мәшғул олурлар. Кәнддә орта мәктәб, хәстәхана, поликлиника, електрик дәjирманы, клуб, тибб мәнтәгәси, ушаг бағчасы, китабхана, рабитә шө'бәси вә с. вардыр. Кәнд ишғалдан азад олунуб.

Бөјүк Вәтән мүһарибәсинә кетмиш 28 нәфәр кәнд сакининдән 14-ү кери гаjытмамышдыр. Гарабағ дөjүшләриндә кәндин 5 нәфәр сакини (Маркс, Сеjфулла, Мирзә, Елшад, Сирач) шәһидлик зирвәсинә учалмышдыр. Кәнддән 3 нәфәр Сосиалист Әмәjи Гәһрәманы, 3 нәфәр алим, 6 нәфәр һәким, 4 нәфәр ханәндә, мүғәнни, 40-дан чох мүәллим вә башга танынмыш адамлар чыхмышлар...

Бә'зи тәдгигатчылара көрә, **Бабы** ојконими кечмишдә көчәри һәjат тәрзи кечирән **Бави** адлы әрәб тајфасынын адыны өзүндә әкс етдирир. Бир чох арашдырычылар исә ону кәндин јахынлығындакы гәбиристанлыгда мөвчуд олан XIII әср абидәси Шых Веjс **(Шыхбаба)** адлы пир-түрбә илә әлагәләндирир. Түрбәнин китабәсиндә



онун 1272-чи илдә **Шеjх Бабы Әбу Јәгуб ибн Сәд** тәрәфиндән тикилдиjи көстәрилиб.

Бабы кәнди Фүзули раjонунун ән әски јашаjыш мәнтәгәләриндән биридир. Бу јашаjыш мәнтәгәси бәjләрбәjлик дөнәминдә Аразбар гәзасына, ханлыг заманында исә Хырдапара Дизаг маһалына табе олмушдур. Сон орта әсрләрә аид олан бир чох тарихи сәнәдләрдә Бабы кәндинин ады чәкилир.

Бабы кәндиндә **сеjфәлиләр, һүмбәтлиләр, гүрбәтлиләр, дағшәкилиләр, усублулар, моллаллар вә** башга тајфа вә тирәләр вардыр...

1727-чи илдә Османлы султаны Султан III Әһмәдин фәрманы илә һазырланан вә "Кәнчә-Гарабағ әjаләтинин мүфәссәл дәфтәри" адланан верки-реjестри дәфтәриндә Аразбар санчағына дахил олан кәнд вә ојмагларын сырасында **Бабы** јашаjыш мәнтәгәсинин адына да раст кәлирик.

Кәндин **Бабы** адланмасыны бә'зи арашдырычылар XIII әсрдә јашамыш бөјүк нүфуз саһиби олан суфи шеjхи **Баби Јәгубун** ады илә әлагәләндирирләр. **Баби** сөзү әрәб дилиндә **"**гапы" "дарваза" "әлавә гапы" анламы ифадә едир. Кәндин јерләшдиjи әрази Худафәрин көрпүләри јахынлығында олдуғу, шималдан чәнуба вә әксинә кедән карванлар бурада гаршылашдығы вә нәһаjәтдә **гапы** функсиjасыны ојнадығы үчүн кәнд белә адландырылмышдыр. Демәли, Бабы кәнди "шималла чәнуб арасындакы гапы" мә'насындадыр. Чох күман ки, **Шеjх Баби Јәгуб** өзүнү башламыш олдуғу идеолокиjанын "гапысы" һесаб етдиjи үчүн өзүнә **Баби (Бабы)** ләгәбини көтүрмүшдүр...

## БАБЫ ТҮРБӘСИ

**Түрбәләр** дөврүн көркәмли шәхсләринин хатирәсини әбәдиләшдирмәк үчүн онларын гәбирләринин үзәриндә инша едилән ме'марлыг абидәсидир. Онлар **хатирә** мәгсәдилә тикилир.

**Бабы түрбәси** Бабы кәндинин јахынлығындакы гәбиристанлыгда јерләшир. Түрбәнин китабәси үзәриндә онун һичри 670 -чи илдә (милади 1272-чи ил) шеjх Әбу Јагуб ибн Сәд тәрәфиндән тикилдиjи гејд олунуб. Бу ансамбл-абидәдән инди анчаг түрбә вә зәдәләнмиш

минарә галмышдыр. Түрбә планда сәккиз күшәлидир. О, ағ дашдан һөрүлүб, үст һиссәси исә сәккизбуҹаглы чатма күнбәзлә өртүлүдүр. Түрбәнин күнбәзи бир гат сыра дашдан һөрүлүб. Орнамент бәзәкләринә көрә Әҹәми ме'марлыг мәктәбинин тәсири дујулур. Бә'зи мә'луматлара көрә, абидә көркәмли Азәрбајҹан илаһијјатчысы, шаир, философ, сәркәрдә Шејх Баби Јагубун шәрәфинә учалдылыб. Бәлкә дә, елә бу сәбәбдән ел арасында бә'зән она **Шыхбаба түрбәси** дә дејирләр.



Көрүндүјү кими, **түрбә** минарәдән ајры дүшмүшдүр. Бә'зи мүлаһизәләрә көрә минарәнин түрбәдән ајрылмасына сәбәб ја илдырым вурма, ја да топ мәрмисинин дәјмәси олмушдур...

Орта әсрләр дөврүнүн танынмыш тәдгигатчысы А.Брозгула вә академик Т.Росковски **"Шејх Бабы Јәгуб"** түрбәсинин XII әсрә аид олдуғуну иддиа едирдиләр. Сонралар профессор В.Крачковскаја да **"Шејх Бабы** түрбәсинин өјрәнилмәси тарихинә даир" мәрузәсиндә Брозгула вә Росковскинин фикирләрини тәсдигләмишдир. 1940-ҹы илләрдә Петербург Академијасынын шәргшүнас алими М.Хоников да **Бабы түрбәси** һаггында мараглы ачыгламар вермишдир.

XX әсрин орталарында рус алимләри илә јанашы Азәрбајҹан алимләри (Ә.Саламзадә, Ш.Фәтуллајев, М.Нemәтова, К.Мәммәдзадә вә с.) дә **Шејх Бабы Јәгуб** түрбәсинин өјрәнилмәси истигамәтиндә мараглы арашдырмалар апармышлар. Онлар бу фикрә кәлмишләр ки, Фүзули рајону әразисиндәки **Бабы** вә Әһмәдалылар түрбәләри Нахчыван (Әҹәми) ме'марлыг мәктәбинин тәсири илә инша едилмишдир. Бабы күмбәзинин јерләшдији әрази арашдырычылар тәрәфиндән **Ханәкаһ** адландырылмышдыр.

Күмбәзин китабәсинин үзәриндәки јазыларын тәрҹүмәси беләдир: "Бу мүгәддәс мәгбәрә Заһид, Камил, Шејх Бабы Јәгуб ибн Исмајыл Гур Хәр үчүн тикилмәсинә 672-ҹи илдә әмр олунмушдур.



Јер үзәриндә нә варса, һамысы мәһв олаҹагдыр". Даш китабәдә гејд олунан бу сөзләр бурда дәфн едиләнин суфи шејхи олдуғуну, мәгбәрәнин мүгәддәс зијарәткаһ, Шејхин камил вә заһидлијини ифадә едир. М.Нemәтова китабәдәки **Заһид, Исмајыл, Гур Хәр** ләгәбләрини тарихи гајнагларла әлагәдар арашдырмышдыр...

Тарихи мәнбәләрдән ајдын олур ки, Шејх Баби Јәгуб өләндән сонра да онун ишини мүридләри давам етдирмишдир. Ејни заманда гајнагларда көстәрилир ки, бу һәрәкат Азәрбајҹанын дикәр әразиләрини дә әһатә етмишдир. Китабәдә Шејх Баби Јәгубун **Исмајыл, Гур Хәр** оғлу кими гејд олунмасы онун Исмаилләр һәрәкаты илә әлагәли олмасындан хәбәр верир. Гарабағда, Арранда, Азәрбајҹанын дикәр әразиләриндә ашкар олунмуш бу типли даш китабәләр Исмаилләр һәрәкатынын бурада да јајылмыш олдуғуну сүбут едир.



Әкәр мөвҹуд тарихи гајнаглара истинад етсәк, дејә биләрик ки, **Шејх Баби Јәгуб** Гарабағда вә Арранда бөјүк нүфузу, һөрмәти олан суфи шејхи олмушдур.

**Шејх Бабы түрбәси** өлкә әһәмијјәтли дашынмаз тарих вә мәдәнијјәт, ме'марлыг абидәси һесаб олунур. *Шејх Бабы Јәгуб* түрбәси јанында гәдим һамам харабалығы да ашкар едилмишдир.

Јерли әһалидән ешитмишдим ки, түрбәдән Әһмәдалылар кәндинә вә Ирана јералты јол вар. Мараг үчүн ораја кетдим. Көрдүм ки, бу јоллар вар, амма бурада әсаслы археоложи газынтылар апарылмадығындан јолларын истигамәтини мүәјјән етмәк чәтиндир. Күмбәздән азаҹыг аралыда һамам харабалығы вар. Јералты һиссәси саламат галан бу һамамын дивар орнаментләри көј фирузә рәнкли мозаика илә бәзәдилмишдир...

## БАБЫНОВУ

Рајонун Һорадиз кәнди јахынлығында гејдә алынан оронимләрдән бири **Бабынову** адланыр. Топонимин тәркибиндәки **бабы** сөзү чох күман ки, кечмишдә көчәри һәјат тәрзи кечирән **бабы (бави)** адлы әрәб тајфасынын адыны өзүндә әкс етдирир. Оронимин XIX әсрин орталарында Иранда **"Баб"** такма адлы Мирзә Әли Мәһәммәд тәрәфиндән ортаја атылан **баби** дини тәригәти илә дә әлагәндирирләр. Фүзули рајонунда, **Бабынову** әразисиндән 8 км чәнуб-шәргдә **Бабы** кәнди дә вардыр. **Бабынову** сөзүнүн тәркибиндәки **нов** компоненти фарс дилиндә "су олуғу" анламына ујғун кәлир...

## БАДАР ОЈМАҒЫ

Вахтилә Аразбар гәзасында, индики Фүзули рајону әразисиндә Гарабағын сајылыб-сечилән елләриндән олан Отузики елинин **Бадар** адланан **ојмағы** олмушдур. Бу чоғрафи ад Бәһмәнли вә Һорадиз кәндләри јахынлығында гејдә алынмышдыр. **Бадар ојмағы** топоними өз адында **отузики елинә** аид олан ојмағын адыны әкс етдирир.

1593-чү илә аид олан Османлы гајнағында Отузики елинин ојмагларынын сырасында **Бадар** (Аразбар гәзасы) адына да раст кәлирик. **Бадар** сөзү түрк дилләриндә "кичик тарла" "дағыныг саһә", "кичичик әрази" мә'наларында ишләдилир...

## БАЈРАМБӘЈ БАҒЫ

Јухары Әбдүррәһманлы кәнди әразисиндә, бөјүк саһәдә јерләшән бағ **Бајрамбәј бағы** адланыр. Бу бөјүк бағын әразисиндә демәк олар ки, бүтүн мејвә ағачлары вардыр. **Бағ** онун саһиби, әкиб-бечәрәни **Бајрам бәјин** ады илә әлагәдар олараг белә адландырылмышдыр...



## БАЈРАМБӘЈ ЈУРДУ

**Бајрамбәј јурду** чоғрафи ады Јухары Әбдүррәһманлы кәнди јахынлығында гејдә алыныб. Бурада XIX әсрәдәк мүхтәлиф обаларын тајфалары јашамышлар. XX әсрә гәдәр јазылмыш бә'зи тарихи сәнәдләрдә, гајнагларда гоншу јурд јерләри олан Рәбәт, Гачарла биркә **Бајрамбәј јурду** јеринин дә ады чәкилир. Бу чоғрафи ад антропонимик топоним маһијјәти дашыјыр...

## БАЈРАМГУЛУНУН БАҒЫ

Дөвләтјарлы кәнди әразисиндә, Көндәләнчајын саһилиндә, мәнзәрәли бир тәбиәт күшәсиндә, Гаракөпәктәпәнин јахынлығында 5 һектарлыг саһәси олан јер **Бајрамгулунун бағы** адланыр. Бағда чохлу алма, армуд, тут, әрик, кавалы, килас, киләнар, нар, гоз ағачлары вардыр. **Бағ** онун јарадычысы олан Јадикар оғлу **Бајрамгулунун** ады илә әлагәдар олараг белә адландырылмышдыр...

## БАЛА БӘҺМӘНЛИ КӘНДИ

**Бала Бәһмәнли кәнди** Фүзули рајону мәркәзиндән 38 км шәргдә, Мил дүзүндә, Араз чајынын сол саһилиндә јерләшир. Кәндин мин алты јүз нәфәрә јахын әһалиси вар. Әһали әсасән үзүмчүлүк, барамачылыг, тахылчылыг вә һејвандарлыгла мәшғул олур. Кәндә дәмир јол стансијасы, орта мәктәб, китабхана, тибб мәнтәгәси, клуб, стадион, мүхтәлиф тичарәт-иашә објектләри вә с. вар.

**Бәһмәнли** топоними Гарабағда јашамыш ***сарычалы*** вә *чаваншир* голларындан ибарәт олан **Бәһмәнли** тајфасынын адындандыр. Кәндин ады **Бала** вә **Бәһмәнли** компонентләриндән ибарәт олуб *"кичик Бәһмәнли кәнди"* мә'насыны дашыјыр. **Бәһмәнли ели** гәдим заманларда Түркүстандан кәлибләр.

XIII әсрдә Һулакү ханлары һакимијјәтләрини мөһкәмләндирмәк үчүн Азәрбајчана 200 мин аилә көчүрмүшләр. **Ағ һунларын** төрәмәләри олан **Бәһмәнлиләр** дә һәмин аиләләрин ичәрисиндә кә-

либләр. Чаваншир елиндән олан Гарабағ ханы Пәнаһәли хан Бәһмәнли елинин Сарычалы ојмағындандыр ки, онлар да әфшар вә түркмән елиндәндирләр. **Бала** сөзү кәндин адына ону ејниадлы топонимдән фәргләндирмәк үчүн әлавә едилиб (бах: **Бөјүк Бәһмәнли кәнди**).

**Бәһмәнли ојмағы** Чаваншир елинин бөјүк бир голу, онун бир ојмағыдыр. *Чаваншир* тајфасынын **Бәһмәнли ојмағы** XVIII әсрә аид тарихи гајнаглара көрә, гышы Ләмбәран торпағында гышлајар, јајы Ирәван әјаләтинин сәрһәддиндәки Јыхылмыш адлы јердә јајлајармыш. 1727-чи илә аид олан "Кәнчә-Гарабағ әјаләтинин мүфәссәл дәфтәри" адлы тарихи сәнәддә Бәһмәнли ојмағынын әһалисинин әкинчиликлә мәшғул олмасы, үшр вә бәһрәләрини торпаг саһибинә вермәләри һаггында мә'луматлар өз әксини тапмышдыр. XIX әсрдә Кәнчә (Јелизаветпол) губернијасынын Гарабулаг наһијәсинә табе олан кәндләр сијаһысында Бала вә Бөјүк Бәһмәнли кәндләринин ады **Садај бәј обасы** кими чәкилир.

Кәндин **әлигулулар, арсланханлар, мәшугоғлулар, ширванлылар, хасмәһәммәдлиләр, гырзәлиләр, маһмудлулар, дондарлар, мирзәханлар, шаһкәлдиләр, мурадлылар** адлы тирә вә нәсилләри дә вардыр.

Мәнбәләрдә көстәрилир ки, **бәһмән** тајфалары монгол бәласындан ағыллы истифадә едәрәк сојгырымдан хилас олмушлар. Онларын бир һиссәси олан **чаванширләр** сонралар Гарабағын дағлыг һиссәсинә, **гарачыгатај** нәсли Ширвана көчмүшләр. Тарихи мә'хәзләрин вердији мә'луматлардан о да ајдын олур ки, әһалинин сонрадан бурада мәскунлашмасы XIII-XIV әсрләрә тәсадүф едир. Мә'лумдур ки, монгол-татар һүчумлары заманы бөјүк Арazгырағы кәндләр кими **Бәһмәнли кәнди** дә дағынтыја мә'руз галмышдыр. Бә'зи сәнәд вә материаллара көрә, әһали монгол ишғалындан аз сонра өз көһнә јурд јерләринә гајытмышлар. Јерли мә'лумата әсасән, бу дөврдә **бәһмәнли** елиндән бир нечә тирә Бөјүк Бәһмәнли кәндиндән индики **Бала Бәһмәнли** кәнди јерләшән әразијә кәләрәк бурада мәскунлашмышлар...

Бир тарихи гајнагда көстәрилир ки, **Бәһмәнли кәнди** јахынлығындакы Алағарда ојмағындан Мәһәммәд адлы бир шәхс Һулакү ханын нәслиндән олан Аргун шаһын оғлу Әһмәдә бир ат торбасы гызыл верәрәк, бир тәрәфи Нахчыван, Кәјчә, дикәр тәрәфи Ағ көл



олан (тәхминән 30 мин кв. км. әрази) бөјүк бир әразини ондан сатын алмышдыр. О дөврдә Бәһмәнли кәндинин јахынлығында отураг ојмаг башга јашајыш мәскәнләри олмадығындан бөјүк еһтимал илә демәк олар ки, елә һәмин шәхс Бала Бәһмәнли кәндиндән - *Бәһмәнли* тајфасындан олмушдур...

Тарихи мәнбәләрдән мә'лум олур ки, Сәфәви шаһы Тәһмасиб Ширваны ишғал етдикдән сонра **гарачыгатајлар** да өз дәдә-баба јурдлары олан Араз кәнарына-Бәһмәнлијә гајытмышлар. Кәләнләр арасында Шејх Јусиф Ширвани дә олмушдур.

"Ширванлыларын атасы' чағырылан Шејх Јусиф өләндә Бәһмәнлидә дәфн олунуб. Онун мәзары "*Ширван ата*" пири кими сонралар зијарәтә чеврилмишдир. Бу нәсилдән олан тирәләр һазырда Бәһмәнлидә јашајырлар. Иран һөкмдарларындан олан Әрдәширин тәхәллүсү **Бәһмән** олмушдур. **Бәһмән** сөзү фарс дилиндә "*агыллы, зәкалы, билики, тәдбирли*" демәкдир.

**Бәһмәнли** елинин чаваншир, сарычалы вә дикәр нәсилләринин нүмајәндәләри XVIII әсрин 30-40-чы илләриндә Надир шаһын ордусунда јүксәк мөвгеләр тутмуш, гәһрәманлыглары илә фәргләнмишләр.

Фүзули рајонунда **Бала Бәһмәнли** кәнди илә јанашы, **Бөјүк Бәһмәнли** кәнди дә вар. Бу тип чоғрафи адлара антропонимик топонимләр дејилир.

Бала Бәһмәнлидә **чәфәрлиләр, кавдыавдаллар, бабәјлиләр, һачыталыблылар, күлмалылар, исмајыллар, машадбабалылар** вә башга тајфаларын нәсилләри јашајыр.

Загатала рајонунда да **Бәһмәнли** (кечмиш ады Верхијан) адлы кәнд вардыр.

## БАЛЛЫ ГАЈА

Гачар кәндинин гәрб сәрһәди әразисиндә гејдә алынан орографик-објектләрдән бири **Баллы гаја** адланыр. Ороним **бал** вә **гаја** сөзләриндән, еләчә дә, **-лы** мәнсубијјәт шәкилчисиндән ибарәтдир. **Гаја** - мүсбәт релјеф формасы билдирән чоғрафи терминдир. Оронимијада дағларын мүәјјән һиссәсиндә чәтин кечилән јер, сыра дағлардан ајрылмыш гол **гаја** термини илә ифадә олунур. Чөл мате-

риаллары ичәрисиндә **гаја** термини илә бағлы 3000-дән чох ороним гејдә алыныб.

**Баллы гаја** топоними *"бал арысынын јувасы олан гаја"* мә'насындадыр. **Гајадакы** кичик тәбии ојугларда вәһши **бал** арыларынын (ары пәтәкләри јува салдыгларына көрә) пәтәк салмасы илә әлагәдар олараг ороним белә ад алмышдыр. **Баллыгаја** оронгиминә Ағдам, Ағсу, Губадлы, Коранбој, Лачын, Масаллы, Оғуз, Хызы, Хочавәнд, Хоҹалы, Шамахы, Шуша рајонларынын әразисиндә дә раст кәлирик...

## БАШ БУЛАГ

Фүзули шәһәрининдән 10 километр гәрбдә, е'чазкар тәбиәтин гојнунда, чохлу булаглар әһатәсиндә гејдә алынан һидронимләрдән бири **Баш булаг** адланыр.

Һидроним јахынлыгдакы булаглардан азачыг јүксәкликдә, бир гәдәр **башда** јерләшдији үчүн белә ад алмышдыр. Булағын көз јашы кими чох дуру, шәффаф вә буз кими сојуг суjу вардыр...

Азәрбајчан топонимијасында **булаг** һидронимик апелјативинин иштиракы илә јүзләрлә һидроним гејдә алынмышдыр...

## БӘЈТӘПӘ ДАҒЫ

Фүзули рајонунун әразисиндә дағ. Әсл ады **Бәјтәпәсидир. Тәпә** бурада бир **бәјә** мәхсус олмасына көрә белә адландырылмышдыр. **Бәј (бај)** апелјативинин түрк дилләриндә *"варлы", "феодал"* анламлары вар. **Бәј** сөзүнүн түрк дилләриндә *"бөјүк", "уча"* мә'налары да мә'лумдур. Азәрбајчан оронимијасында бир груп објектләрин адлары титул вә пешә билдирән сөзләрин терминләрлә бирләшмәсиндән мејдана кәлмишдир. **Бәјтәпә** дағы да бу група дахил олан оронимләрдәндир. Астарада **Бәјдәрә**, Күрдәмирдә **Бәји кәнди**, Лачынын Чағазур кәндиндә **Дәрвиш тәпә** вә с. дә белә ҹоғрафи адлардандыр...

Бу типли оронимләрдә биринчи тәрәф пешә, титул вә вәзифә билдирән бир сыра сөзләрлә ифадә олунур. Онлар објектин вә ја вахтилә табелијиндә олдуғу, ја да һәмин објектдә јашајан вә ја башына мүәјјән бир һадисә кәлән пешә... саһибини көстәрмәјә хидмәт едир.

**Бәј** апелјативи гәдим түрк дилиндә *"һөкмдар", "рәһбәр"* мә'наларында да ишләниб...

Астарада **Бәјдәрә**, Күрдәмирдә **Бәји кәнди**, Газахда **Молладағ**, Шәкидә **Налбәнддағ**, Дәвәчидә **Бәјимдағ**, Лачында **Кешиштәпә**, Лачынын Чағазур кәндиндә **Дәрвиш тәпә** вә с. дә белә ҹоғрафи адлардандыр...

## БӘҺМӘН БУЛАҒЫ

Фүзули рајону әразисиндә гејдә алынан һидронимләрдән бири **Бәһмән булағы** адланыр. Бу булағын көзјашы кими думдуру вә буз кими сојуг суjу варды. **Булаг** онун гуручусу олан **Бәһмән** адлы бир шәхсин ады илә әлагәдар олараг белә ад алмышдыр. Һазырда **Бәһмән булағы** ермәни ишғалы алтында инләјәрәк "көз јашы төкүр"...

## БӘҺМӘНЛИ КӘНДИ

(Бах: **Бала Бәһмәнли** вә **Бөјүк Бәһмәнли** кәндләри)

## БИРИНЧИ МАҺМУДЛУ КӘНДИ

**Биринчи Маһмудлу кәнди** рајон мәркәзиндән 35 км шәргдә, дүзәнликдә јерләшир. Әһали әсасән һејвандарлыг, үзүмчүлүк вә тахылчылыгла мәшғул олур. **Биринчи Маһмудлу** ојконими топонимик чәркә әмәлә кәтирән **Икинчи Маһмудлу** вә **Үчүнчү Маһмудлу** кәндләриндән фәргләндирилмәк үчүн белә адландырылмышдыр.

**Маһмудлу** кәндләри **Чаваншир** елинин **Көчәрли** ојмағындан олан **маһмудлу** тајфасынын бурада мәскунлашмасы нәтиҹәсиндә јаранмыш јашајыш мәнтәгәләриндәндир. **Икинчи** вә **Үчүнчү Маһмудлу** кәндләри дә *Маһмудлу* тајфасынын бурада мәскун-

лашмасы нәтиҹәсиндә јараныб.

**Маһмудлу** обасынын **ҹәфәрбәјли, сәһлијалылар, һачыфаталылар, имамвердиләр, әләскәрли** вә с. тајфалары вардыр.

**Ҹаваншир** елинин *Көчәрли* ојмағындан чыхан **Маһмудлу обасы** Һачылы ичмасына гатылан облардан биридир. **Биринҹи Маһмуд** бу обанын дәјәрли, үнлү кишиләриндән олуб. Онун атасы **Маһмудлу** обасынын улу бабаларындан бири олан Һачы Јусиф аға олуб. Маһмудлуларын **Һачылы** ичмасы арасында хүсуси чәкиси олуб. Онлар икидлик, мәрдлик вә гејрәтләри илә сечилибләр. Тәсадүфи дејил ки, индијәдәк ел арасында белә бир мәсәл долашмагдадыр: *"рус јох, маһмудлу јох, даһа нәдән горхачагсан?"*

Маһмудлуларын бир гисми, тарихи мә'хәзләрин вердикләри мә'луматлара көрә, орта әсрләрдә Түркијә әразиләриндә дә јашамышдыр. Бә'зи мәнбәләрдә онларын XV-XVII әсрләрдә Ван көлүндән шәргдә јашамалары, сонралар бир сыра тирә вә нәсилләринин Азәрбајҹана кәлмәләри һаггында да мә'луматлар верилир. Һазырда Түркијә әразисиндә, хүсусилә, Ван көлүндән азачыг шәргдә **маһмудлу** тајфасына мәхсус нәсилләр јашајыр...

1727-ҹи илә аид тарихи Османлы гајнағында **Маһмудлу** соју һаггында да билкиләр верилмишдир. Һәмин мәнбәдә бу сојун Дизаг наһијәсинин Зијад гышлағында бинәләмәләри көстәрилир, әкинәҹәк јерләринин дә бурда олмасы гејд олунур. Сүркүндән гајыдан **Маһмудлу обасы** *Һачылы* ичмасынын тәркибинә дахил олуб. **Маһмудлулар** *һачылы* ичмасынын тәркибиндә Гарабағ ханлығынын сијаси һәјатында да өнәмли рол ојнамышлар...

*Маһмудлу* адында Ҹәбрајыл, Губадлы вә Шәмкир рајонларында да кәнд вардыр. Етноним бә'зи кәнд адларында *Күрдмаһмудлу* кими ишләдилир (Фүзули вә Имишли рајонлары).

Тарихи гајнаглардан там ајдын олур ки, *ҹаваншир* елинин **һачылы** ҹамаатынын бир голу **маһмудлу** адланыр.

Гајнаглардан о да мә'лум олур ки, **Маһмудлу обасы Һачылы** ичмасына дахилдир. Бу оба **Ҹаваншир** елинин **Көчәрли** ојмағындан чыхыб. Бир мәнбәјә көрә, бу обанын ҹамаатынын улу бабаларындан бири олан **Һачы Јусиф аға Биринҹи Маһмудун** атасыдыр. Маһмудлуларын гоҹаглыгларына көрә **һачылы** ичмасы арасында хүсуси јери олмушдур...

Бә'зи мәнбәнин вердији мә'луматда гејд олунур ки, 1727-ҹи илдә



**Көчәрли** обасындан ајрылан **Маһмудлу** сoју Дизаг наһијәсинин Зијад гышлағында бинәләјирди Османлы гајнағында да **Маһмудлу** сoју һаггында хејли билкиләр вардыр. Орада көстәрилир ки, **Ҹаваншир** тајфасынын *көчәрли ојмағы* Дизаг наһијәсинин тәркибиндә олан Кәлли, Зәвичик (Завычыг) вә Гуру чајларынын кәнарында, Ҹәрәкән, Көндәлән, Түлјан, Гарадағлы вә Әршә адлы гышлагларда әкинчиликлә мәшғул олур, Ирәван әјаләтинин Борк адлы јериндә јајлајырлар.

*Әршә* адлы әразидә тикилиләри олан *Көчәрли ојлагы* Дизаг наһијәсиндә, Сојудаш адлы архын кәнарында әкинчиликлә мәшғул олурдулар. Үмумиликдә Гарабаға табе олан Көчәрли ојмағынын Тајасојуг адлы гышлаглары вә Гаракүнеј адлы јајлаглары да олмушдур. Тарихи шәраитлә әлагәдар олараг бу обанын бә'зи нәсилләри сүркүн олунмуш вә сүркүндән гајытдыгдан сонра **һачылы** ичмасынын тәркибинә дахил олмушдур. **Маһмудлулар** Гарабағ ханлығынын сијаси һәјатында да мүһүм рол ојнамышлар...

1842, 1849, 1863, 1873 вә 1886-чы илләрдә **маһмудлу обасынын** әһалиси дөвләт тәрәфиндән сијаһыја алыныб. Һәмин дөврүн сијаһыјаалынмаларында Маһмудлу обасында јашајан бәјләрин (Прапоршик Һәсән бәј Ҹәфәр бәј оғлу, Фәтәли бәј Ҹәфәр бәј оғлу, Һачы Һүсејнгулу бәј Сәһлијалы бәј оғлу, Һәсәнгулу бәј Сәһлијалы бәј оғлу, Маһмуд бәј Сәһлијалы бәј оғлу, Аға бәј Һүсејн бәј оғлу, Тејмур бәј Һүсејн бәј оғлу, Һејдәр бәј Һүсејн бәј оғлу, Шүкүр (Ширин) бәј Ибраһим бәј оғлу, Фирудин бәј Һәсән бәј оғлу вә онларын өвладлары) дә ады көстәрилмишдир.

**Маһмудлу обасынын** тајфалары бунлардыр:

**Ҹәфәрбәјли (Ҹәфәрбәјушағы)** - Ҹәфәр бәј Кәрбәлаји Маһмуд аға оғлу XVIII әсрин II јарысы, XIX јүзиллијин әввәлләриндә јашајыб. Чох варлы вә һөрмәтли ағалардан олан **Ҹәфәр бәјин** Гасым, Фәтәли, Һәсән, Һүсејн, Паша, Искәндәр адлы оғуллары олмушдур. Бу тајфанын **Гасымбәјли, Фәтәлибәјли, Һәсәнбәјли, Һүсејнбәјли, Пашабәјли** адланан тирәләри вар...

**Сәһлијалылар (Сәһлијалы бәј ушағы)** - **Сәһлијалы бәј** Кәрбәлаји Маһмуд ағанын икинчи оғлудур. О, XVIII әсрин сонлары вә XIX әсрин әввәлләриндә јашајыб. Ибраһимхәлил хан вә Меһдигулу хана хидмәт көстәрән Сәһлијалы бәјин Һүсејнгулу, Һәсәнгулу, Ибраһим, Маһмуд бәј адлы оғуллары олуб. Бу тајфанын

*Һачыһүсејнгулулар, Һачыһәсәнгулулар, Ибраһимли, Маһмудбәјли* адлы тирәләри вар...

**Һачыаталылар** - Кәрбәлаји Маһмуд ағанын оғулларындан бири дә **Аталы**дыр. 1783-чү илдә Маһмудлу обасында доғулан **Аталы** һејвандарлыгла мәшғул олмуш, мүгәддәс Мәккәни зијарәт едиб **"Һачы"** титулуна јијәләнмишдир. Онун **Гуламәли, Гәһрәман** адлы оғуллары, **Һүрү** адлы гызы варды. Бу тајфанын **гуламәлиләр, гәһрәманлар, салаһлылар, шамылар, шүкүрлүләр, мусалылар, әмирмурадлылар, һачымәммәдлиләр, хасмәммәдлиләр, зүлфүгарлылар** адлы тирәләри вар...

**Имамвердиләр** - *Имамверди* Маһмудлу обасынын улу бабаларындан бири олуб. Һејвандарлыгла мәшғул олан **Имамверди бәјин** Исмајыл, Һәшим, Казым, Имамгулу вә Тархан адлы оғуллары варды. Бу тајфаја **исмајыллы, микајыллы, һәшимли, аллаһверәнлиләр, һәсәнгулулар** адлы тирәләр дахилдир...

**Әләскәрлиләр - Әләскәр (1816-1886)** Маһмудлу обасынын улу бабасы Кәрбәлаји Маһмуд ағанын һејвандарлыгла мәшғул олан оғлу Намазын бөјүк оғлу иди. Намазын Әләскәрдән башга Әли, Абдулла вә Һәзрәтгулу адлы оғуллары да олуб. Кәрбәлаји Әләскәрин **Рәһим, Сәлим, Кәрим, Надир, Әмир, Әбил, Әбдүл, Гоча, Мәти, Балоғлан** адлы оғланлары варды...

Губадлы, Имишли, Чәбрајыл вә Шәмкир рајонларында да **Маһмудлу** етноними илә бағлы кәндләр вардыр.

## БӨЈҮК БӘҺМӘНЛИ КӘНДИ

**Бөјүк Бәһмәнли кәнди** рајон мәркәзиндән 45 километр чәнубшәргдә, Гуручај саһилиндә, дүзәнликдә јерләшән кәндир. О, Гарабағда јашамыш гәдим оғуз мәншәли **Бәһмәнли** тајфасынын мәскунлашмасы нәтичәсиндә јаранмыш мәнтәгәләрдән биридир. *Бәһмәнлиләр* 16 тирәдән ибарәт олуб. Бөјүк Бәһмәнли кәндинин әһалиси 5 мин нәфәрә јахындыр. Әһали әсасән үзүмчүлүк, тахылчылыг, барамачылыг вә һејвандарлыгла мәшғулдур. Кәнддә 2 орта мәктәб, 26 чарпајылыг хәстәхана, ушаг бағчасы, китабхана, клуб, рабитә шө'бәси, автомат телефон стансијасы, дәмир јол стансијасы вә с. вар. Кәнд ишғалдан азад олунуб. 450 нәфәр али тәһсилли мүтәхәссиси олан бу кәндин елмин мүхтәлиф саһәләриндә 8 танынмыш алим өвлады вардыр.



Бә'зи тарихи сәнәдләрә көрә, **Бәһмәнлиләр** Һулакү ханларынын һакимијјәтләри заманы Түркүстандан кәлибләр. Ағ һунларын төрәмәләри олан **бәһмәнлиләрдән** Чаваншир вә Сарычалы ојмаглары төрәмишдир. Чаваншир елиндән олан Пәнаһ хан *Бәһмәнли* елинин *Сарычалы* ојмағындандыр ки, онлар да әфшар вә түркмән елиндәндирләр. Гарабағ ханлығынын сијаси һәјатында **бәһмәнлиләр** бөјүк рол ојнамышлар. **Бөјүк** компоненти кәндин адына ону ејниадлы дикәр топонимдән фәргләндирмәк үчүн әлавә едилмишдир.



**Бәһмәнлиләр** Чаваншир елинин бөјүк бир голу, онун бир ојмағыдыр. Чаваншир тајфасынын **Бәһмәнли ојмағы** XVIII әсрә аид тарихи гајнаглара көрә, гышы Ләмбәран торпағында гышлајар, јајы Ирәван әјаләтинин сәрһәддиндәки Јыхылмыш адлы јердә јајлајарды...

1727-чи илә аид олан **"Кәнчә-Гарабағ әјаләтинин мүфәссәл дәфтәри"** адлы тарихи сәнәддә Бәһмәнли ојмағынын әһалисинин әкинчиликлә мәшғул олмасы, үшр вә беһрәләрини торпаг саһибинә вермәләри һаггында мә'луматлар өз әксини тапмышдыр. XIX әсрдә Кәнчә (Јелизаветпол) губернијасынын Гарабулаг наһијәсинә табе олан кәндләр сијаһысында Бала вә Бөјүк Бәһмәнли кәндләринин ады **Садај бәј обасы** кими чәкилир.

Кәндин **әлигулулар, арсланханлар, мәшугоғлулар, ширванлылар, хасмәһәммәдлиләр, гырзәлиләр, сејидләр, гарадәлләр, маһмудлулар, дондарлар, мирзәханлар, шаһкәлдиләр, мурадлылар** адлы тирә вә нәсилләри вардыр.

Мәнбәләрдә көстәрилир ки, **бәһмән** тајфалары монгол бәласындан ағыллы истифадә едәрәк сојгырымдан хилас олмушлар. Онларын бир һиссәси олан **чаванширләр** сонралар Гарабағын дағлыг һиссәсинә, **гарачығатај** нәсли Ширвана көчмүшләр. Тарихи мә'хәзләрин вердији мә'луматлардан о да ајдын олур ки, әһалинин

сонрадан бурада мәскунлашмасы XIII-XIV әсрләрә тәсадүф едир. Мә'лумдур ки, монгол-татар һүҹумлары заманы бөјүк Аразгырағы кәндләр кими **Бәһмәнли кәнди** дә дағынтыја мә'руз галмышдыр. Бә'зи сәнәд вә материаллара көрә, әһали монгол ишғалындан аз сонра өз көһнә јурд јерләринә гајытмышлар. Јерли мә'лумата әсасән, бу дөврдә **бәһмәнли** елиндән бир нечә тирә Бөјүк Бәһмәнли кәндиндән индики **Бала Бәһмәнли** кәнди јерләшән әразијә кәләрәк бурада мәскунлашмышлар.

Бир тарихи гајнагда көстәрилир ки, **Бәһмәнли кәнди** јахынлығындакы Алағарда ојмағындан Мәһәммәд адлы бир шәхс Һүлакү ханын нәслиндән олан Аргун шаһын оғлу Әһмәдә бир ат торбасы гызыл верәрәк, бир тәрәфи Нахчыван, Көјчә, дикәр тәрәфи Ағ көл олан (тәхминән 30 мин кв. км. әрази) бөјүк бир әразини ондан сатын алмышдыр. О дөврдә Бәһмәнли кәндинин јахынлығында отураг-ојмаг, башга јашајыш мәскәнләри олмадығындан бөјүк еһтимал илә демәк олар ки, елә һәмин шәхс Бала Бәһмәнли кәндиндән - Бәһмәнли тајфасындан олмушдур...

Тарихи мәнбәләрдән мә'лум олур ки, Сәфәви шаһы Тәһмасиб Ширваны ишғал етдикдән сонра **гарачыгатајлар да** өз дәдә-баба јурдлары олан Араз кәнарына-Бәһмәнлијә гајытмышлар. Кәләнләр арасында Шејх Јусиф Ширвани дә олмушдур.

*"Ширванлыларын атасы"* чағырылан Шејх Јусиф өләндә Бәһмәнлидә дәфн олунуб. Онун мәзары *"Ширван ата"* пири кими сонралар зијарәтә чеврилмишдир. Бу нәсилдән олан тирәләр һазырда Бәһмәнлидә јашајырлар. Иран һөкмдарларындан олан Әрдәширин бир тәхәллүсү дә **Бәһмән** олмушдур. **Бәһмән** сөзү фарс дилиндә "ағыллы, тәдбирли, зәкалы" анламы ифадә едир. **"Бәһмәнли"** адлы ашыг һавасы да вардыр...

*Бәһмәнли* елинин **чаваншир, сарычалы** вә дикәр нәсилләринин нүмајәндәләри XVIII әсрин 30-40-чы илләриндә Надир шаһын ордусунда јүксәк мөвгеләр тутмуш, гәһрәманлыглары илә фәргләнмишләр...

Фүзули рајонунда **Бөјүк Бәһмәнли** кәнди илә јанашы **Бала Бәһмәнли** кәнди дә вар. Бу тип чоғрафи адлара антропонимик топонимләр дејилир. Бала Бәһмәнлидә **чәфәрлиләр, кавдыавдаллар, бабәјлиләр, һачыталыблылар, күлмалылар, исмајыллар, машадбабалылар** вә башга тајфаларын нәсилләри јашајыр...



## БУРҒА БУЛАҒЫ

Фүзули рајонунун Һорадиз кәнди јахынлығында гејдә алынан һидронимләрдән бири дә **Бурға булағы** адланыр. **Булаг** јерин алтындан гајнајыб чыхан су мәнбәјидир. Јерли мә'лумата көрә, һәмин булағын сују буруларaг чыхдығы үчүн һидроним белә ад алмышдыр. Һидроними мәншә етибары илә гәдим түркдилли **коман** тајфасынын **булаг** тирәси илә дә әлагәләндирәнләр вар...

## БУТАЈЛЫ БАҒ

Сәрдарлы кәнди әразисиндә гејдә алынан орографик објектләрдән бири дә **Бутајлы бағ** адланыр. **Бутајлы бағ** чоғрафи ады чај јатағынын **бу тајында** јерләшдији үчүн белә ад алыб. Бу бағда чохлу сајда мејвә ағачлары, кол вә от биткиләри, еләчә дә, надир дәрман биткиси чичәкләри битирди...

## ВЕЈСӘЛЛИ КӘНДИ

(Бах: **Ашағы Вејсәлли** вә **Јухары Вејсәлли** кәндләри)

## ВӘЛИ БАҒЫ

Дөвләтјарлы кәндинин кәнарында, Көндәлән чајынын сол саһилиндә гејдә алынан орографик објектләрдән бири **Вәли бағы** чоғрафи адыдыр. Бу бағда башга мејвә ағачлары илә јанашы, чохлу сајда ағ тут, гара тут, шах тут, муш тут, чыр тут, бедана тут ағачлары да вардыр. Тут ағачлары чалаг јолу илә чохалдылмышдыр. Тутларын чоху илдә бир дәфә гырылараг барама сахлајанларын истифадәсинә верилирди. Тут ағачларынын бу бағда чохлуғу, көрүнүр, барамачылығын (ипәкчилијин) инкишафы илә бағлы олмушдур.

**Вәли Ибад оғлу** Дөвләтјарлы кәндиндә јашамыш дөврүнүн варлы-һаллы, хејирхаһ, зәһмәткеш кишиләриндән олуб. Бу бағы да о

салдығы үчүн **баг** сонралар елә онун ады илә дә адланмышдыр. Бағда тут ағачларындан башга кавалы, әнчир, алча, алма, армуд, килас, әрик, һејва, нар, гоз, киләнар ағачлары да вардыр. Топоним *"Вәлијә мәхсус баг"* мә'насындадыр.

## ГАЗАХЛАР КӘНДИ

Фүзули рајонунун гәдим инсан јашајышы мәскәнләриндән бири олан **Газахлар кәнди** рајон мәркәзиндән 35 километр чәнубда, Араз чајынын сол саһилиндә, Иран Ислам Республикасы илә сәрһәддә, дүзәнликдә јерләшир. Кәнддә клуб, китабхана, мәдәнијјәт еви, мәктәб вә с. вар. Әһалисинин сајы 800 нәфәрдир. Кәнддә 130 ев вар. Әһали үзүмчүлүк, тахылчылыг, һејвандарлыгла мәшғул олур.

Кәнд өз адында **газах** етнонимини әкс етдирир. **Газах** сөзүнү илк дәфә IX әсрдә әрәб тарихчиси әл-Куфи VII әср һадисәләри илә әлагәдар **Касак** кими ишләтмишдир. Топоним өзүндә гыпчаг мәншәли **газах** етник бирлијинин адыны әкс етдирир. Газах тајфасы илк орта әсрләрдә Шимали Гафгазда, Кубан чөлләриндә, Дәшти-Гыпчаг дејилән јердә јашамышдыр.

XI-XII әсрләрдә Күрчү чарларынын һәрби гүввә кими истифадә етмәк мәгсәдилә Шимали Гафгаздан Шәрги Күрчүстана күтләви сурәтдә гыпчаг аиләләри көчүрдүкләри мә'лумдур. **Газахлар** Газах рајону әразисиндә 1072-1089-чу илләрдә Күрчү чары II Җеорг дөврүндә мәскунлашмышлар. Күрчү чары IV Давид дә гыпчагларын бир һиссәсини 1118-1120-чи илләрдә Шимали Гафгаздан Күрчүстана көчүрмүшдүр. Күрчү чары III Җеорки (1151-1184) заманында да Дәшти-Гыпчагдан Азәрбајчанын гәрбинә минләрлә гыпчаг аиләләри көчүрүлмүшдүр.

Орта әсрләрдә **Газахлар** кәндинин әразиси Аргалы адланырды. Тарихи дәјәрини инди дә итирмәјән **Аргалы (Әһмәдалылар)** түрбәси һәмин әразидә учалдылмышдыр.

1736-чы илдә һакимијјәтә кәлән Надир шаһ Әфшар онун һакимијјәтә кәлмәсинә е'тираз едән тајфалары Хорасана сүркүн етдирди. Газах вә Борчалыны исә күрчү Картли һакиминин табелијинә верди. Картли һакимләринин әсарәтинә дөзмәјән Газах чамаатынын бир һиссәси XVIII әсрдә сијаси һадисәләрлә әлагәдар Гарабаға (Бәрдәјә, Җоранбоја, Фүзулијә вә с.) көчүб орада мәскунлашдылар. О заман кәлән Газах чамаатынын бир һиссәси дә Араз чајы саһилинә, индики **Газахлар кәнди** әразисинә көчүрләр. Елә о вахтдан да кәнд **Газахлар** адланмышдыр.



**Мәнбәләрдә газах (газаг)** чоғрафи адынын гәдим түрк сөзү олан **газ (гас)** «учалыг», "јүксәклик" вә **ах (аг)** «јер», «саһә», «јер билдирән шәкилчи» компонентләриндән әмәлә кәлдији еһтимал да әкс олунубдур. Бә'зи арашдырычылар **газах** сөзүнү «атлылар дијары», «азад көчәриләр», «гачаг» вә с. кими мә'наландырырлар.

Мәнбәләрдән ајдын олур ки, 26 газахлы тирәси вар. XIX әсрин орталарында газахлар гарапапаг, чобангара, сарачлы, дәмирчили, гафарлы, чәфәрли, әлишәрурлу, гарабағлы, кәримбәјли, кәдәкли, ајрумлу, шаһидли, муғанлы, гарагојунлу, чәмилли, шыхлар, чахырлы, кәркибашлы, кәнкәрли, салаһлы, кәсәмән вә башга тајфалардан ибарәт идиләр. **Газах** адлы топонимләр **газах** етноними илә әлагәдардыр. Бәрдә вә Җоранбој рајонларында да **Газахлар** адлы кәндләр вардыр.

Үмумијјәтлә, **Газах** компоненти гыпчаг етносу ареалы илә бағлыдыр ки, бу гыпчаглар да Азәрбајчана һәм шималдан, һәм дә чәнубдан кәлмишләр.

**Газахлар кәнди** ермәни ишғалчыларындан азад олунмушдур.

Бә'зи тарихи мә'луматлара көрә, **газахлар обасы** XVIII әсрин икинчи јарысында тарихи шәраитлә әлагәдар олараг Муса кәндхуданын башчылығы алтында Шәмсәддин маһалындан кәлмишләр. Газахларын Азәрбајчана көчмәләрини XI әсрдә көстәрән тәдгигатчылар да вар. Күрчүстана етдикләри һәрби јардыма вә хидмәтә көрә онлар **Газах** маһалында (гәзасында) јерләшдирилмишдир (М.Баһарлы: "Азәрбајчан" Бакы, 1921, сәһ.52).

## ГАЈЫБ ОЧАҒЫ (ГАЈЫБ ТҮРБӘСИ)

Гачар кәнди әразисиндә гејдә алынан орографик објектләрдән бири дә **Гајыб очағы (Гајыб түрбәси)** адланыр. Бу очаг јерли әһали тәрәфиндән 1993-чү илә - ишғала гәдәр мүгәддәс һесаб едиләрди. Чамаат вахтилә бураја кәлиб нәзир-нијаз верәрдиләр.

**Очаг** сөзү Азәрбајчанда үмумијјәтлә, мүгәддәслик рәмзидир. Оронимин тәркибиндәки **Гајыб** сөзүнүн мә'насыны араш-

дырычылар мүхтәлиф призмадан изаһ едирләр. **Шејх Гајыб** орада дәфн едилән өвлијанын адыдыр. 1593-чү илә аид олан тарихи гајнагда бу **очағын (түрбәнин)** ады **Шејх Гајби татар** кими чәкилир...

## ГАЈЫДЫШ ГӘСӘБӘСИ

Фүзули рајонунун 20 иллик Бејләган рајонуна ичарәјә верилмиш һарамы дејилән торпаглары өзүнә гајтарылдыгдан сонра, бурада һәр бири 200 аиләлик 11 гәсәбә салынараг, көчкүн вә гачгынларын ихтијарына верилмишдир. Торпаг ислаһатына ујғун олараг һәмин сакинләр пај торпаглары илә тәчһиз олунмушлар.

Гәсәбәдә орта мәктәб, китабхана, ушаг бағчасы, мүхтәлиф чешидли мағазалар, һамам, тибб мәнтәгәси, мәишәт-иашә објектләри вә с. вар. Гәсәбәнин ады көчкүнләрин доғма јурда, керијә **гајыдышы** илә әлагәдар олараг рәмзи мә'нада **Гајыдыш** адландырылмышдыр...

## ГАРА ҺҮСЕЈН ДӘРӘСИ

Јағлывәнд кәнди әразисиндә гејдә алынан орографик објектләрдән бири **Гара Һүсејн дәрәси** адланыр. **Дәрә** - мәнфи релјеф формасы билдирән чоғрафи терминдир. Чөл материаллары ичәрисиндә **дәрә** термини илә бағлы 30 мин ороним гејдә алынмышдыр. Оронимин адынын тәркибиндәки **-си** компоненти мәнсублуг ифадә едән шәкилчидир. **Гара Һүсејн** шәхс адыдыр. Топоним *"Гара Һүсејнә мәхсус дәрә"* анламындадыр. **Гара Һүсејн дәрәси** топоними антропонимик оронимдир...

## ГАРААРХАЧ ДӘРӘСИ

**Гараархач дәрәси** рајон мәркәзиндән 9 км шәргдә, Горган кәндинин әразисиндә, Гараағач адлы дағын әтәјиндәки дәрәнин адыдыр. Бу оронимдәки **"гара"** сөзү Гарадағ адындан "дағ" компонентинин дүшмәсинин нәтичәсидир. **Архач** сөзү "гојун", "мал-гара јатағы" мә'насындадыр. **Гараархач** оронимi әслиндә "Гарадағдакы архач" мә'насындадыр.

**Архач** - *"отлаг шәраитиндә гојунларын вә гарамалын динчәлмәси үчүн"* јер мә'насындадыр. Гарабағын көчмә малдарлары гојунлары илин 8 ајыны тәсәррүфат бинасындан истифадә етмәдән архачда сахлајырдылар. **Архач** елә јердә салынырды ки, топографик вәзијјәти гојунларын бинаја олан тәләбатыны өдәсин.

**Архач** компоненти илә бағлы бир чох оронимләр мөвчуддур: **Архачлар дүзү** (Гах рајону, Алмалы кәнди), **Гараархач зирвәси** (Кәдәбәјдә, Шаһдағын зирвәси, 3062 м), **Гајнарархач** (Оғуз рајону) вә с.

Ирәван губернијасынын Новобајазид гәзасынын әразисиндә дә **Гараархач** адлы дағ вар...



## ГАРАБАҒ АТЛАРЫ



Азәрбајчанын ән гәдим дағ миник чинсләриндән олан **Гарабағ атларынын** шөһрәти бүтүн дүнјаја јајылмышдыр. Гарабағда јетишдирилән бу атларын сүјсүјүнүн һүндүрлүјү 148,5 см, дөш гучуму 165,8 см, әлдарағынын чеврәси 18, 3 см-дир. *Гарабағ атлары* әсасән, гызылы-күрән вә кәһәр атлардыр. Онлар ортабојлу, мүтәнасиб бәдән гурулушлу, илхы шәраитинә давамлы вә умумијјәтлә, чох дөзүмлү олурлар.

**Гарабағ атлары** вахтилә бахыш (јарыш) үчүн Русијаја, Полшаја, Инкилтәрәјә, Алманијаја вә с. өлкәләрә апарылмыш вә һамыны һејран етмишдир. Загафгазијада вә Шимали Гафгазда мүхтәлиф ат чинсләринин, о чүмләдән, Дон атынын јахшылашдырылмасында Гарабағ атларынын бөјүк тәсири олмушдур.

1946-чы илдән башлајараг Азәрбајчанын Ағдам Атчылыг заводунда (Ејвазханбәјли кәндиндә) чинслә дамазлыг иши апарылыр.

XX әсрин Совет дөнәминдә Ағдам әразисиндә 2 јердә Гарабағ атлары јетишдирилмишдир. Ејвазханбәјли кәнди әразисиндә



јарадылан атчылыг тәсәррүфатында Гарабағ атлары ҹинсинин горунмасы, јахшылашдырылмасы үчүн чох ишләр ҝөрүлмүшдүр. Вахтилә ССРИ рәһбәри Н.С.Хрушшов бурада бәсләнмиш **Заман** адлы аты 1957-ҹи илдә Инҝилтәрә краличасына бағышламышдыр (һәмин ат вәтән һәсрәтиндән гәрибсәјәрәк вахтсыз дүнјасыны дәјишмишдир). XX әсрин 70-ҹи илләриндән башлајараг, Италија, Алманија, Һолландија, Австралија кими өлкәләрә онларла Гарабағ аты сатылыб вә завода 100 мин долларла хејир ҝәлиб.

1992-ҹи илдә заводда 85 ҹинс ат вар иди. Ағдам ишғал едиләндә **Гарабағ атлары** да дидәрҝин дүшдү. Һазырда бу атлар Бәрдә рајонунун Ләмбәран кәнди јахынлығындакы гышлагда чөл шәраитиндә сахланылыр. Инди онлар да вәтәндән кәнарда ҝөчкүн һәјаты јашајыр...

Бу атлар Гарабағда бәсләниб-јетишдирилдији үчүн онлара **Гарабағ атлары** дејилир.

## ГАРАБАҒ ДҮЗҮ

Ағдам рајонунун да әһатә етдији Күр-Араз овалығынын бир һиссәси **Гарабағ дүзү** адланыр. Һүндүрлүјү дағәтәји әразидә 500 метрдир. Шимал-гәрбдән Ҝәнҹә-Газах дүзәнлији, гәрбдән Кичик Гафгазын Мровдағ вә Гарабағ силсиләләри, ҹәнубдан вә ҹәнуб-шәргдән Мил дүзү илә әһатәләнмишдир **Гарабағ дүзү** Күр чајы васитәсилә Ширван дүзүндән ајрылыр. Ҹәнуб-шәрг каналында океан сәвијјәсиндән ашағыдыр.

**Гарабағ** дүзүнүн сәтһи зәиф далғавари вә террасльдыр. Дағәтәји үзрә релјеф һиссәдә дәрә вә јарғанлыгдыр. Дүз фајдалы газынтыларла зәнҝиндир. Иглими мүлајим исти вә гуру субтропикдир. Орта температур јанварда -1°С, ијулда +28°С-дир. Иллик јағынтысы



300 мм-дир. Чајлары (Инҹәчај, Тәртәр, Хачын, Гаргар вә с.) Күр һөвзәсинә аиддир. Јухары Гарабағ каналы Гарабағ дүзүндән кечир. Мил-Гарабағ коллектору Гарабағ дүзүндән башланыр.

Јарымсәһра, гуру-чөл вә коллуг-чөл ландшафты **Гарабағ дүзү** үчүн характерикдир. Әразидә дүзән мешәләри, Күр чајы саһилиндә исә сејрәк тугај мешәләри, еләҹә дә, коллуглар вар. Гыш отлаглары илә зәнҝин олан Гарабағ дүзүндә һејвандарлыг ҝениш инкишаф етмишдир. Бурада үзүм, памбыг, тахыл, бостан биткиләри вә гуру субтропик мејвәләр јетишдирилир.

**Гарабағ** Азәрбајҹанда тарихи әразинин адыдыр. Кичик Гафгаз дағларындан башлајараг Күр вә Араз чајлары арасындакы ҝениш әразини әһатә едән **Гарабағ** ән гәдим инсан мәскәнләриндәндир. Хоҹалы-Ҝәдәбәј мәдәнијјәтинин абидәләри дә илк дәфә бурада ашкарланмышдыр. Та гәдимләрдән Гафгаз Албанијасынын тәркиб һиссәси олан Гарабағда албан, арраз, гороз, ути, гаргар, печенег вә башга тајфалар јашамышдыр. Гарабағ бир нечә тарихи вилајәт вә әјаләтләрә бөлүнүрдү...

IV әсрдә Гарабағда христианлыг (дүнја динләриндән бири) јајылмаға башлады. V әсрдә һунлар, VII әсрдә исә хәзәрләр Гарабағда мәскунлашмышлар. Әрәбләр Гарабағы ишғал етдикдән сонра - VIII әсрдән башлајараг бурада ислам дини ҝениш јајылмаға башлады, Гарабағын дағлыг әразисиндә, хүсусилә, Арсахда јашајан әһали тәдриҹән григорианлашды. Шәһәрләрдә јашајан әһали исә ислам динини гәбул етди.

IX әсрдә Бабәк һәрәкаты Гарабағы да бүрүмүшдү. Орта әсрләрдә хәзәрләрин кәбәр, тәрнә, бизал, гарачур вә с. тајфаларынын адлары илә бағлы олараг Гарабағда Кәбирли, Тәрнәвут, Бизаллар, Гарачорлу јашајыш мәнтәгәләриварды...

X әсрдә ***Гарабағ*** Шәддадиләрин, XI әсрдә исә Сәлчугларын һакимијјәтинә кечди, XII әсрин 2-ҹи јарысындан ***Гарабағ*** Елдәнизләр дөвләтинин мүһүм әјаләтләриндән бири иди. XIII әсрин 30-ҹу илләриндә Гарабағы монголлар ишғал етди. XV әсрдә әввәл Гарагојунлу, сонралар исә Ағгојунлу дөвләтинин тәркибиндә олан ***Гарабағ*** 1501-ҹи илдә Сәфәвиләр дөвләтинин һакимијјәтинә кечди. Бу дөврдә мәркәзи Ҝәнҹә олан Гарабағ бәјләрбәјлијини гаҹар тајфасындан олан Зијадоғуллары нәсли идарә едирди. 1736-ҹы илдә Зијадоғуллары Надирин шаһлығы әлејһинә чыхдылар. Надир шаһ онларын игтисади вә һәрби гүдрәтини сарсытмаг мәгсәдилә бә’зи

әјаләтләри, еләчә дә, Гарабағын Хәмсә мәликләрини онлардан алыб өз табелијинә кечирди.

XI әсрин 40-чы илләриндә Азәрбајчанда јаранан ән күчлү феодал дөвләтләрдән бири ***Гарабаг ханлыгы*** иди. Гарабағ ханлығы Шәки, Қәнчә, Ирәван, Нахчыван, Гарадағ, Ҹавад вә Шамахы ханлыглары илә һәмсәрһәд иди. Мәркәзи Шуша шәһәри олан ***Гарабаг ханлыгы*** Пәнаһәли ханын вә онун оғлу Ибраһимхәлил ханын (1759-1806) дөврүндә хејли мөһкәмләнди. Шәки ханы Һачы Чәләби илк дәфә Гарабағ ханлығына һүчум етсә дә, гәләбә чала билмәмишди. 1795-чи илин јајында Аға Мәһәммәд шаһ Гачар Гарабағ ханлығына һүчум етди. 33 күн Шушаны мүһасирәдә сахласа да, шәһәри ала билмәјиб Күрчүстана һүчум етди. 1797-чи илдә Аға Мәһәммәд шаһ јенидән Гарабағ ханлығына һүчум едиб Шушаны тутду. Амма тезликлә суи-гәсд нәтичәсиндә орада өлдүрүлдү, Иран гошунлары Гарабағдан чәкилди...

1805-чи илин 14 мајында (**"Күрәкчај"** мүгавиләси) Ибраһимхәлил хан мөвчуд шәраитлә әлагәдар оларағ Русијанын һакимијјәтини гәбул етди. 1813-чү илдә бағланмыш **"Күлүстан"** сүлһ мүгавиләсинә әсасән **Гарабағ** Русијаја бирләшдирилди. 1822-чи илдә чар фәрманы илә **Гарабағ ханлығы** ләғв олунду. 1828-чи илдә "Түркмәнчај" мүгавиләси имзаланды. Бу илләрдән етибарән Гарабағ әһалисинин етник тәркиби ермәниләрин хејринә кәскин дәјишмәјә башлады. Иран вә Түркијәдән он минләрлә ермәни аиләси бу әразиләрдә мәскунлашдырылды...

XIX әсрин әввәлләринә аид олан бир мәнбәдә Гарабағда Дилағарда, Имирли, Кәбирли, Коланы, Кәкили, Кәнкәрли, Муғанлы, Сарчалы, Софулу, Тәклә, Хочамусаглы, Чәбрајыллы, Чинли, Гарадолаг, Отузикиләр вә башга елләрин јашадығы көстәрилир...

Азәрбајчанда Совет һакимијјәти гурулдугдан сонра Азәрбајчан МИК-нин 7 ијул 1923-чү ил тарихли декрети илә Гарабағын дағлыг һиссәсиндә ДГМВ јарадылды. Гарабағын дикәр әразиләри 1930-чу илдә ајры-ајры инзибати рајонлара бөлүндү...

**Гарабағ** ады VII әсрдән, бир әјаләт кими исә мәнбәләрдә XII-XVII әсрләрдән башлајараг чәкилир (Анили Самуел: "Сев ајги", Товма Ардсруни **Гарабағ**, Ибн әл-Әсир ***"Гарабаг"***). 1284-чү ил мәнбәсиндә дә ***Гарабаг*** ады чәкилир.

Еркән орта әсрләрдә **Гарабағ дүзү** албан тајфаларындан олан



гаргарларын ады илә **Гаргар дүзү** адланмышдыр. Адындан да көрүндүјү кими, **Гарабағ** топоними түрк мәншәлидир. Бу топоним һаггында мүхтәлиф мүлаһизәләр мөвчуддур. Әчәмләр лап гәдимдән Гарабаға **Сисаган** дејәрдиләр. Сонралар сәлчуглар она **Гарабағ** ады верди.

**Гара** сөзүнүн топонимијада 20-дән чох анламы вар (*"бөјүк", "кениш", "уча", "агыр", "галын", "гәрб", "гочаг", "әзәмәтли", "гүдрәтли", "һүндүр", "пис", "нәһәнк", "каранлыг", "гәм", "халг", "јарашыг", "севинч", "сыхлыг", "кејфијјәтсиз", "шимал", "чох", "рәнк"* вә с.). **Гарабағ** топонимини бир груп арашдырычылар *"бөјүк, баглы-багатлы јер"* кими мә'наландырыр.

X әср мүәллифи Константин Багрјанародны **Гарабағ** терминини печенег тајфаларындан бири кими сәчијјәләндирир. Азәрбајчан алими Гијасәддин Гејбуллајев дә бу фикрә тәрәфдар чыхыр.

И.Шопен Гарабағ терминини **Хараба** сөзү илә әлагәләндирир. Бу сөзү **хараба** сөзү кими јозанлар да вар. С.Ашурбәјли **Гарабағ** топониминин **баг** компонентини **баг** ***(бак, багы)*** гәбиләсинин ады илә бағлајыр. Ш.Сәдијев **Гарабағ** сөзүнү **гара** *(рәнк)* вә **бағ** *(багча, багат)* һиссәләринә ајырыр. Ә.Фәрзәли **гара** сөзүнү *"бөјүк, севинч, халг, гәһрәман"*, **бағ** сөзүнү исә *"танры"* кими мә'наландырыр. М.Сејидов **гара** сөзүнү *"рәнк, пис, бәдбәхт, күчлү, башчы"*, **бағ** компонентини исә *"дүјүн, ип, мејвә агачы, әкилмиш саһә"* анламы илә сәчијјәләндирир...

Бә'зи тәдгигатчылар **Гарабағ дүзүнүн** адыны вахтилә мөвчуд олмуш **Гарабағ шәһәринин** ады илә әлагәләндирир. Онлар бу фикирдә Һәмдуллаһ Гәзвинијә (XIV әср) вә А.Олеаринин "Иран сәлтәнәти" хәритәсинә әсасланырлар. Тарихдән мә'лумдур ки, А.Олеаринин (XVII әср) хәритәсиндә 39° шимал ен даирәси, 82° 21' шәрг узунлуг даирәсинин кәсишдији нөгтәдә ***Гарабаг шәһәри*** (Фүзули рајонунун Һорадиз дәмир јол стансијасындан азачыг аралыда - Молламәһәррәмли, Бабы, Арајатлы кәндләри јахынлығында) көстәрилир. Иран Азәрбајчанында Кичик Гафгаза кедән Бөјүк тичарәт јолу да Гарабағ шәһәриндән кечирмиш. Бөјүк бир маһалын бу шәһәрин ады илә адланмасы **Гарабағ** шәһәринин бөјүк бир шәһәр олдуғундан хәбәр верир...

Әксәр арашдырычылар топонимин **гара** *("бөјүк")* вә **бағ** (гәдим түрк дилләриндә *"сој", "тајфа", "ел"*) сөзләриндән ибарәт олдуғуну

еһтимал едирләр. Мәлум олдуғу кими, гәдим кәнкәр-печенегләрин тәркибиндә **Гарабағ** адлы тајфа да олмушдур...

Әрәб салнамәчиси Ибн әл-Әсир (XII әср) 1064-чү илдә оғузларын Рума һәрби сәфәри илә әлагәдар олараг Шәрги Анадолуда **Гарабағ** топониминин дә адыны гејд етмишдир. Бир чох мәнбәләрдә Гарс әјаләтинин Әрдаһан наһијәсиндә **Гарабағ шәһәр харабалығы** ады да чәкилмишдир. Вахтилә Гәрби Азәрбајчанын Ечмиадзин, Ағчагала, Маку, Дәрәкәнд - Парченис, Веди, Сүрмәли, Кәраи әразиләриндә дә ***Гарабағ, Гарабағлар, Гарабағлы, Гарабағлы Кәбир, Гарабағлы Сығыр*** вә с. јашајыш мәнтәгәләри мөвчуд олмушдур...

***Гарабағ*** топониминин јајылма ареалы, көрүндүјү кими, чох кенишдир. Әфганыстан, Өзбәкистан, Түркмәнистан, Иран, Шимали Гафгаз вә дикәр әразиләрдә дә ***Гарабағ*** топонимләри гејдә алынмышдыр. Елә бүтүн бунлар да **Гарабағ** топонимини етнонимлә әлагәләндирмәјә бизә һагг газандырыр. XIX әсрдә Гафгазда ногајларда, Молдовада гагаузларда **гарабағ** адлы тајфа олмушдур. Һәмин заманларда Газах маһалында јашајан ***гарабағлы*** адланан бир ел дә варды...

## ГАРАБАҒ ХАЛЧАСЫ



Азәрбајчан халчачылыг мәктәбләриндән бири дә **Гарабағ халчачылыг мәктәби** һесаб олунур.

Шуша, Бәрдә, Ағчабәди, Чәбрајыл, Фүзули вә с. халча мәнтәгәләриндә ховлу вә ховсуз халчалар, еләчә дә, хурчун, мәфрәш, һејбә, чувал, чул вә с. тохунмушдур. Бу халчаларда рәмзи характерли рәсмләр, һәндәсиләшдирилмиш нәбати нахышлар декоратив вә тәсвири сәнәтин мүхтәлиф саһәләрини әһатә едән композисијалар вә с. өз әксини тапмышдыр. *"Ачма-јумма"*, *"Аран"*, *"Бағчада күлләр"*, *"Балығ"*,









*"Бәрдә"*, *"Бәһмәнли"*, *"Бујнуз"*, *"Гарабағ"*, *"Гасымушағы"*, *"Гоча"*, *"Ләмбәрани"*, *"Ләмпә"*, *"Малыбәјли"*, *"Муған"*, *"Хангәрвәнд"*, *"Ханлыг"*, *"Хан-тирмә"*, *"Чәләби"*, *"Шабалыдбута"* вә с. чешнили халча композисијалары **Гарабағ халчачылыг мәктәби**нин классик нүмунәләриндәндир.

Һәлә XVI-XVII әсрләрдә Бәрдә халчачыларынын ипәк зилләри (Берлин Инчәсәнәт Музеји) вә XVIII әсрдә Ләмбәран кәндиндә тохунан ховсуз вәрни (Нју-Јорк, Метрополитен-музеј) дүнја шөһрәти газанмышдыр. XIX әсрдә, Ағдамда, Фүзулидә, Шушада јарадылмыш һәндәси орнаментли чечимләр, шәддәләр ховсуз халчаларын көзәл нүмунәләри һесаб олунур.

Гарабағ халчаларынын формасы узунсов, рәнкләри исә шух вә әлвандыр. Бу рәнкләр ичәрисиндә ал-гырмызы, дәли-гырмызы, гызылы, чәһрајы, палыды вә сары рәнкләр үстүнлүк тәшкил едир. Гарабағ евләринин интерјерләринә ујғунлашдырылмыш 4 халчадан ибарәт мәшһур дәст халы-кәбә дә кениш јајылмышдыр. Гарабағ халчаларында тәбиәт мәнзәрәләри, ов сәһнәләри, инсан вә һејван тәсвирләри, мүхтәлиф тарихи гәһрәманларын образлары мәһарәтлә әкс олунмушдур.

XVIII әсрдә Шушада классик чешнили халчаларла јанашы, Тәбриз халчачылыг мәктәбинин тәсири илә "Ләчәклүрүнч"чешнили халчалар вә еләчә дә, "Булуд", "Бағчадакүлләр", "Сахсыдакүлләр" халчалары вә с. сүжетли халчалар тохунурду. Берлин, Вјана, Москва, Парис вә Петербургда ачылмыш инчәсәнәт сәркиләриндә Гарабағ халчалары дәфәләрлә гызыл, күмүш вә бүрүнч медаллара лајиг көрүлмүшдүр...

## ГАРАБАҒ ХАНЛЫҒЫ




XVIII әсрин 40-чы илләриндә Азәрбајҹанда јаранан ән күчлү феодал дөвләтләрдән бири ***Гарабағ ханлығы*** иди. ***Гарабағ ханлығы*** Шәки, Кәнҹә, Ирәван, Нахчыван, Гарадағ, Ҹавад вә Шамахы ханлыглары илә һәмсәрһәд иди. Мәркәзи Шуша шәһәри олан ***Гарабағ ханлығы*** Пәнаһәли ханын вә онун оғлу Ибраһимхәлил ханын (1759-1806) дөврүндә хејли мөһкәмләнди. Шәки ханы Һаҹы Чәләби илк дәфә Гарабағ ханлығына һүҹум етсә дә, гәләбә чала билмәмишди...

1795-чи илин јајында Аға Мәһәммәд шаһ Гаҹар Гарабағ ханлығына һүҹум етди. О, 33 күн Шушаны мүһасирәдә сахласа да,



шәһәри ала билмәјиб Күрҹүстана һүҹум етди. 1797-чи илдә Аға Мәһәммәд шаһ јенидән Гарабағ ханлығына һүҹум едиб Шушаны тутду. Амма тезликлә суи-гәсд нәтиҹәсиндә орада өлдүрүлдү. Башсыз галан Иран гошунлары Гарабағдан чәкилди...

1805-чи илин 14 мајында ("Күрәкчај" мүгавиләси) Ибраһимхәлил хан мөвчуд шәраитлә әлагәдар олараг Русијанын һакимијјәтини гәбул етди. 1813-чү илдә бағланмыш "Күлүстан" сүлһ мүгавиләсинә әсасән **Гарабағ** Русијаја бирләшдирилди. 1822-чи илдә чар фәрманы илә **Гарабағ ханлығы** ләғв олунду...

XIX әсрин әввәлләринә аид олан бир мәнбәдә Гарабағда Дилағарда, Имирли, Кәбирли, Коланы, Кәкили, Кәнкәрли, Муғанлы, Сарчалы, Софулу, Тәклә, Хочамусаглы, Ҹәбрајыллы, Ҹинли, Гарадолаг, Отузикиләр вә башга елләрин јашадығы көстәрилир...

## ГАРАБАҒ ШИКӘСТӘСИ

Азәрбајҹан зәрби муғамларындан бири; ағыр темпдә охунан **Гарабағ шикәстәси** муғамынын өлчүсү 2/4, мәгам әсасы исә секаһдыр. Ханәндә вә мүғәнниләр тәрәфиндән охунан һәр бәнддән сонра мүхтәлиф мелодијалы арачалғы (инструментал епизод) ифа олунур. Ү.Һаҹыбәјов "Әсли вә Кәрәм ", М.Магомајев "Шаһ Исмајыл", З.Һаҹыбәјов "Ашыг Гәриб", Р.Глиер "Шаһсәнәм" опералрында Гарабағ шикәстәсиндән истифадә етмишләр. Халгымыз тәрәфиндән чох севилән шикәстәләр - вокал-инструментал зәрби муғам демәкдир. Шикәстәләрин **"Гарабағ шикәстәси"** илә јанашы, ***"Кәсмә шикәстә"***, ***"Ширван шикәстәси"*** вә башга нөвләри дә вар.

## ГАРАБУЛАГ

Фүзули рајон мәркәзиндән 13 километр шимал-гәрбдә, Гачар кәнди јахынлығында гејдә алынан чоғрафи адлардан бири дә **Гарабулаг** адланыр. **Гарабулаг** бурадакы јерин вә булағын адыдыр. ***Гарабулаг*** орографик објекти **гара** вә **булаг** сөзләриндән ибарәтдир. **Булаг** - һидронимик апелјативдир. **Гара** сөзү исә бурада ***"рәнк"*** вә ***"бөјүклүк"*** анламы ифадә едир.

Бу типли чоғрафи адлара Азәрбајҹанын чох әразиләриндә раст кәлирик. Онлара нүмунә олараг, Кәдәбәј, Оғуз, Ханлар, Хочалы рајонларындакы **Гарабулаг кәнди,** Исмајыллы рајону әразисиндәки **Гарабулаг дағы,** Газах рајону илә Күрҹүстан сәрһәддиндә јерләшән **Гарабулагбашы дағы,** Кәлбәҹәр рајонунун әразисиндәки **Гарабулаг јери** вә башга чоғрафи адлары көстәрмәк олар. Фүзули шәһәринин әввәлки ады да јахынлығындакы сојуг вә тәмиз сулу булағын ады илә әлагәдар олараг **Гарабулаг** олмушдур...

## ГАРАБУЛАГ КУРГАНЛАРЫ

**Гарабулаг курганлары** дедикдә рајон мәркәзиндән 2 км шималшәргдә, Көндәләнчајын сағ саһилиндә, орта вә Сон Тунч дөврүнә вә Дәмир дөврүнүн әввәлинә аид олан гәбир абидәләри нәзәрдә тутулур. Инди һәмин әразидә 20-јә гәдәр **курган** галмышдыр. Рус археолог алими А.А.Ивановски 1896-чы илдә һәмин курганлардан бешини тәдгиг етмишдир. Курганларын икисиндә өлүјандырма мәрасиминин изләринә тәсадүф едилмишдир. Гәбир јерләриндән тунч бәзәк әшјалары, бир чох силаһ нүмунәләри вә кил габлар тапылмышдыр.

Бешинчи курганда - гәбилә башчысына аид едилән бу зәнкин курганда даһа чох әшјалар тапылмышдыр. Узунлуғу 10 метр, ени вә дәринлији 2 метр олан бу курганда гәбилә башчысынын скелетиндән әлавә 2 скелет, тунч, гызыл вә сүмүкдән һазырланмыш бәзәк шејләри, даш вә тунч силаһлар, кил габлар вә 2 дәвә скелети ашкар едилмишдир.

1965-чи илдә **Гарабағ** курганынын јерләшдији әразидә е.ә. II минилијин орталарына (Орта Тунч дөврүнә) аид гәбирләр ашкар едилмишдир. 1972-чи илдә Гарабулаг некрополунда Сон Тунч вә Илк Дәмир дөврүнә аид гисмән дағыдылмыш торпаг гәбир дә тапылды. Гәбирдәки скелет дағыдылмыш олса да, бурадан мүхтәлиф мунҹуглар, гырыг габ нүмунәләри ашкарланды. **Гарабулаг курганлары Гаракөпәктәпә** гәдим јашајыш јеринә аид олмушдур.

**Курган "Гарабулаг"** (*"кур сулу булаг"* мә'насында) адлы јердә јерләшдијинә көрә белә адланмышдыр.Түрк мәншәли **"курган"** сөзүнүн мә'насы *"торпаг, агач вә ја дашдан дүзәлдилмиш, адәтән јарымкүрә формалы гәдим гәбирүстү абидә", "сүн'и тәпә"* демәкдир.



## ГАРАГУЗЕЈ

Јағлывәнд кәнди әразисиндә гејдә алынмыш чоғрафи адлардан бири **Гарагузеј** орографик објектидир. **Гарагузеј** оронимн **гара** вә **гузеј** сөзләриндән ибарәтдир. **Гара** сөзү бурада рәнк анламындадыр. Вулкан мәншәли олан бу орографик објектин рәнки бөјүк зирвәләрин рәнки кими гарамтылдыр. Оронимин тәркибиндәки **гузеј** термини исә *"күн дүшмәјән тәрәф"*, *"шимал"* мә'насындадыр. Адәтән дағын, тәпәнин күн дүшмәјән көлкәли тәрәфинә **гузеј** дејирләр. **Гузеј** термини мүсбәт релјеф формасы билдирир. **Гарагузеј** *«јүксәклик»* демәкдир.

Гара компонентинин *"рәнк"*, *"сыхлыг"*, *"агыр"*, *"галын"*, *"бөјүк"*, *"һүндүр*, *"кениш"*, *"уча"*, *"гаранлыг"* *"гәм"*, *"чохлуг"*, *"јарашыг"*, *"нәһәнк"*, *"севинч"*, *"гәрб"* вә с. мә'налары вардыр. **Гарагузеј** топониминин тәркибиндәки **гара** сөзүнү түркмәншәли **кора** сөзү илә дә әлагәләндирәнләр вар. Кора сөзүнүн түрк дилләриндә *"јүксәк даг өрүшү"* мә'насы мә'лумдур.

Гурулушча мүрәккәб соз олан **гарагузеј** топоними релјефлә әлагәдар јаранан чоғрафи аддыр. Бу ороним әразинин **гузеј** саһәсинин гараторпаг олмасына сүхурларын түнд **гара** рәнкә чалмасына көрә (**Гарагаја** ороними) белә адланмышдыр.

Азәрбајҹанын Ағдам, Губадлы, Зәнкилан, Кәлбәҹәр, Кәдәбәј, Лачын, Товуз, Ханлар, Хочавәнд, Хочалы, Шәки, Шәмкир вә башга рајонларынын әразисиндә дә **Гарагузеј** адлы оронимә раст кәлирик...

## ГАРАҒАН ТӘПӘСИ

Республикамыз әразисиндә өзүндә **гарағанлы** етнониминин адыны әкс етдирән онларла топоним гејдә алынмышдыр. Бунлара нүмунә олараг ашағыдакы чоғрафи адлары көстәрмәк олар:

**Гарағанлы дағы, Гарағанлы дәрә** (Чәбрајыл рајону, Ашағы Сирик кәнди), **Гарағанлы тахта** (Чәбрајыл рајону, Шүкүрбәјли кәнди), **Гарағанлы дағы** (Масаллы рајону), **Гарағанлы дәрә**

(Зәнкилан рајону, Мәммәдбәјли кәнди), **Гараганлы тәпә** (Лерик рајону, Ағгышлаг кәнди), **Гараган Саатлы кәнди, Гараган Сәди кәнди, Гараган Шыхлар кәнди** (Ағдаш рајону), **Гараган тәпәси** (Фүзули рајону, Һорадиз кәнди) вә с. Бу ҹоғрафи адлар орта әсрләрдә Гарабағда јашамыш **гараганлы** тајфасынын адыны өзүндә әкс етдирир. **Гараган** сөзүнүн *"отлаг үчүн аз јарарлы јер", «јовшанлы саһә»* мә'налары да вар...

Һорадиз кәндиндә илк јашајыш мәскәни **Гараган тәпәсиндә** мөвҹуд олмушдур. Буранын сакинләри вахтилә 2-3 километр мәсафәдә јерләшән Имам Пири дејилән әразидән кәлмишләр...

## ГАРАДАҒЛЫ КӘНДИ

**Гарадағлы кәнди** Фүзули рајон мәркәзиндән 15 километр ҹәнубда, Гарабағ силсиләсинин шәрг әтәјиндә јерләшир. Әһалиси әсасән һејвандарлыг, тахылчылыг, үзүмчүлүклә мәшғул олур. Кәnддә мәктәб, китабхана, мәдәнијјәт еви, XVIII әсрдә тикилмиш мәсҹид вә с. вар. Һазырда кәнд ишғал алтындадыр.

Кәндин әсасы Ҹәнуби Азәрбајҹанын **Гарадағ** маһалындан кәләнләр тәрәфиндән гојулмушдур. **Гарадағлы** топоними гызылбашларын **гарадағлы** тајфасынын ады илә әлагәдардыр.

**Гарадағлы кәнди** мәншәҹә Сәфәвиләрин һакимијјәт уғрунда мүбаризәсиндә бөјүк рол ојнајан гызылбашларын **гарадағлы** тајфасынын бурада мәскунлашмасы нәтиҹәсиндә јаранмышдыр. **Гарадағлы** тајфасы өз адыны Ҹәнуби Азәрбајҹанын **Гарадағ** маһалынын адындан алмышдыр. Сәфәви һакимијјәти заманы **гарадағлылар** мүхтәлиф әразиләрә, о ҹүмләдән, Фүзули рајонуна кәлмишләр. Азәрбајҹандакы *Гарадағлы* кәндләри һәмин тајфаја мәхсус аиләләрин етник адыны өзүндә әкс етдирир. Республикамызын Ағдам, Ағдаш, Балакән, Бејләган, Бәрдә, Коранбој, Хоҹавәнд, Тәртәр, Уҹар, Хачмаз, Шәки рајонларында да **Гарадағлы** адлы кәндләр вардыр.

**Гарадағ** сөзү **гара** вә **дағ** сөзләринин бирләшмәсиндән әмәлә кәлиб. Бу сөз «бөјүк, уҹа, дағ», «сүхурларынын рәнки гара олан



дағ» анламындадыр. **Дағ (тағ)** сөзүнә VI-VII әср "Китаби-Дәдә Горгуд" дастанларында да раст кәлирик...

**Гарадағлылар** түркдилли тајфа бирлији олан оғузларын *кәнкәрли* тајфасынын **гараханбәјли** тирәсиндәндир. Бә'зи тарихи мәнбәләрин вердији мә'лумата көрә, онлар XIII әсрдә Орта Асијадан Ҹәнуби Азәрбајҹанын **Гарадағ** маһалына кәләрәк бурада мәскунлашмышлар. **Гарадағлылар** тарихән ағгојунлуларын, сәфәвиләрин, шаһсевәнләрин, гызылбашларын тәркибиндә олмушлар. XVII әсрдә Сәфәви һөкмдары I Шаһ Аббас (1587-1629) **гарадағлылары** шаһсевәнләрлә бирликдә Шимали Азәрбајҹанын мүхтәлиф әразиләринә көчүрмүш, Ширванын һакимләрини дә әсасән онлардан тә'јин етмишдир. Мәһз елә бундан сонра да Азәрбајҹанда **Гарадағлы** адлы кәндләр мејдана кәлмишдир...

1727-ҹи илә аид "Кәнҹә-Гарабағ әјаләтинин мүфәссәл дәфтәри" адлы тарихи сәнәддә бу јашајыш мәнтәгәсинин ады нәдәнсә кәнд кими чәкилмир. Јалныз бу әразидәки **Арх** вә **Мәзрә** (*"әкинәчәк"*) саһәләринин адлары чәкилир. Тарихи мә'хәзләрдән ајдын олур ки, Аға Мәһәммәд Шаһ Гаҹарын 1797-ҹи илдә дағынтыја мә'руз гојдуғу кәндләр сырасында Гарадағлынын да ады вар. 1727-ҹи илә аид "Кәнҹә-Гарабағ әјаләтинин мүфәссәл дәфтәри" адлы тарихи сәнәддә Дизаг наһијәсинә табе олан јашајыш мәнтәгәләри сырасында **Гарадағлы** мәзрәсинин дә ады чәкилир. Һәмин мәнбәдә дәнли биткиләрдән әлдә олунан кәлирин 2000 ағча олдуғу кәстәрилир.

**Гарадағлы** кәндинин **бајрамушағы, һачылы, јанаҹәлли, ширинушағы** вә с. адлы тајфалары вар. **Гарадағлы** - шаһсевән гәбиләсинә мәнсуб олан нәсил адыдыр. Бу ада топонимијада чох јерләрдә раст кәлирик...

Азәрбајҹанда шаһсевәнләрә бирләшән тајфалар өз тајфа адларыны бир чох кәнд адларына вермишләр. Бә'зи мүлаһизәләрә көрә, **Гарадағлы** кәнд ады да бу гәбилдәндир.

Гызылбашларын **гарадағлы** тајфасынын ады илә бағлы кәндләрдән бири дә Гәрби Азәрбајҹанда (Ермәнистан), Арташат рајонунда мөвҹуд олмушдур...

## ГАРАКОЛЛУ КӘНДИ

**Гараколлу кәнди** рајон мәркәзиндән 13 километр чәнубда, Гарабағ силсиләсинин әтәјиндә, Гозлучајын сол саһилиндә јерләшир. 1600 нәфәрә јахын әһалиси вар. Әһали тахылчылыг, барамачылыг, һејвандарлыг вә үзүмчүлүклә мәшғул олур. Кәнддә орта мәктәб, китабхана, хәстәхана, рабитә шө'бәси, автомат телефон стансијасы, мәдәнијјәт еви вә с. вар. Кәнд һазырда ишғал алтындадыр...

**Гараколлу** јашајыш мәнтәгәсинин ады мәнбәләрдә **Гаракәлли, Гаракүллү** шәклиндә дә јазылмышдыр. Кәндин әһалисинин әсасән Чәбрајыл вә Кәбирли маһалларындан кәлмәләри еһтимал олунур. Бә'зи тирә вә нәсилләр Чәбрајыл рајону әразиләриндән кәләнләрдир.

**Гараколлу** топоними ики компонентдән ибарәтдир: **"Гара"** сөзү бурада түркчә *"бөјүк"*, *"чохлу"* мә'насында, **"кол"** сөзү исә *«коллуг»* мә'насындадыр; топоним "коллуг, *кол-кослу јердә салынмыш кәнд"* демәкдир. Бә'зи тәдгигатлара көрә, кәнд сон орта әсрләрдә јашајыш јери олмушдур.

## ГАРАКӨПӘКТӘПӘ

Фүзули шәһәринин шималында, Көндәләнчајын сағ саһилиндә 50 метрә јахын һүндүрлүјү олан тәпә **Гаракөпәктәпә** адланыр. Бә'зи мәнбәләрдә ады **Тахтавус** кими дә көстәрилир. Бурада вахтилә чохтәбәгәли гәдим јашајыш јери олмушдур. **Гаракөпәктәпәдә** мүхтәлиф дөврләрә аид мадди-мәдәнијјәт нүмунәләри ашкар едилмишдир. Гаракөпәктәпәдә илк Тунч дөврүнә аид олан тәбәгәдә аз јонулмуш гаја дашы вә чај дашындан тикилмиш 3-7 метр диаметрли даирәви евләр, килдән биширилмиш, бәзиләриндә кәсмә һәндәси нахыш олан очаг галыглары, килдән һејван фигурлары, дашдан ораг дишләри, ох учлары, топпуз, һәвәнкдәстәләр, сүмүкдән низә учлуғу вә с. ашкара чыхарылмышдыр.

Бурадан метеорит дәмирдән дөјүлән јарпагвары *низә учлугу* да тапылыб. Бу тапынты бүтүн Гафгаз үчүн надир тапынты һесаб олунур. Бу материаллар е.ә. IV-III минилликләрә - илк Тунч дөврүнүн башланғычына аиддир...



Азәрбајчанда антик дөврә аид олан илк јашајыш јеринин Гаракөпәктәпәдә олмасы елми дәлилләрлә артыг сүбут едилмишдир. Мәшһур археолог алимләр Ә.Әләкбәровун, профессор Гүдрәт Исмајыловун ахтарышлары нәтичәсиндә **Гаракөпәктәпә** абидәсиндә 10 мин ил әввәл јашајыш мәскәни олдуғу сүбута јетирилмишдир.

Рус археологу А.Ивановски абидәнин дәгиг өлчүсүнү мүәјјәнләшдирмишдир. Археоложи тәдгигатлар Гаракөпәктәпәнин е.ә. V миниллидән XVIII әсрә гәдәр јашајыш јери олдуғуну мүәјјән етмишдир. Ән гәдим нүмунәләри Енеолит дөврүнә (е.ә. V-IV минилликләр) аид олунур (әсасән саман гатышыглы килдән һазырланмыш габлар). Тапынтыларын бир гисми Күр-Араз мәдәнијјәтинә аид едилир. Бу дөврә аид мәдәни тәбәгәдә чохлу даирәви тикинтиләр, Орта Тунч дөврүнә аид дивар галыглары ашкар едилмишдир. Гаракөпәктәпәнин мәдәни тәбәгәсинин үст гатларында Тунч дөврүнүн сонларына, Дәмир вә антик дөврләрә, орта әсрләрә аид мадди-мәдәнијјәт нүмунәләри ашкар едилмишдир.

**Гаракөпәктәпә** һаггында чохлу рәвајәт вә әфсанәләр гошулмушдур. **Гаракөпәктәпә** топониминин бир рәвајәти дә беләдир:

Вахтилә бир падшаһ бөјүк гошуну илә бурадан кечирмиш; чох севдији ити дә онун јанында имиш. Бу ит өз саһибини бир дөјүшдә өлүмдән хилас етдији үчүн падшаһ да ону чох истәјирди. Инди бу јердән кечәндә ит чајда хәстәләнир вә гәфләтән өлүр. Падшаһ орадача ону басдырыр вә гошунуна әмр едир ки, һәр кәс итин чәмдәјинә бир овуч торпаг төксүн. Беләликлә, бөјүк бир тәпә јараныр. Падшаһ севимли итинин хатрәсини јад етмәк үчүн бураны **Гаракөпәктәпә** адландырыр. Бә'зи тәдгигатчылар бу топоними **Гарыкөпәк** кими дә изаһ едирләр...

## ГАРАКҮЛҮ ГЫШЛАҒЫ

**Гаракүлү гышлағы** чоғрафи ады Гачар вә Диваналылар кәндләри јахынлығында гејдә алынмышдыр. **Гышлаг** - мал-гаранын гышладығы әразијә, отлаға дејирләр. О, малдарлыг тәсәррүфатынын мејдана чыхмасы илә әлагәдар јаранмышдыр. Гарабағ әразиси гојунчулуғун гәдим гышлаглары сајылыр. Сојугларла бағлы оларааг

мал-гара 7-8 ај гышлагда сахланыб-отарылыр. Гышлагларын 6 мин иллик јашы вар. Онлардан инди дә һејвандарлыг тәсәррүфатында кениш истифадә едилир.

Јерли мә'лумата көрә, **Гаракүлү** сөзү адам ады илә бағлыдыр. Топоним **Күлү** адлы гарајаныз бир гадынын ады илә бағлыдыр. **Күлү** јахшы ат да чапырмыш. **Гышлаг** она мәхсус олдуғу үчүн онун ады илә дә адландырылмышдыр.

## ГАРАМӘММӘДЛИ БУЛАҒЫ

Гарамәммәдли кәнди әразисиндә гејдә алынан һидроним елә кәндин ады илә дә адландырылмышдыр. **Гарамәммәдли булағы** Көндәләнчајы саһилиндә, сәфалы вә әсрарәнкиз көзәллијә малик бир саһәдә јерләширди. Рајон әһалиси исти јај күнләриндә бу булағын әтрафында истираһәт едәр, мәчлисләр гурарды. Инди бу **булаг** дүшмән чајнағында, «көз јашы ахыдыр»...

## ГАРАМӘММӘДЛИ КӘНДИ

**Гарамәммәдли кәнди** Фүзули рајонунун мәркәзиндән 6 километр шимал-гәрбдә, дағлыг әразидә, Көндәләнчајын саһилиндә јерләшир. Кәндин әһалиси әсасән һејвандарлыг, тахылчылыг, барамачылыг, үзүмчүлүк вә бостанчылыгла мәшғул олур. Кәнддә клуб, мәктәб, китабхана вә с. вар.

**Гарамәммәдли** кәндини *Гарамәммәдли* нәслиндән олан аиләләр салдығы үчүн о, белә адландырылмышдыр. Кәндин Көндәләнчајын саһилиндә көзәл истираһәт зонасы, сәрин булаглары вә с. вар. Һазырда кәнд ермәни ишғалы алтындадыр.

Кәнд ири мүлкәдар Һәсәналы бәј Әскәрхановун маликанәсиндә јаранмышдыр. Јашајыш мәнтәгәсинин әһалисинин бир һиссәси әтраф кәндләрдән, дикәр бир һиссәси исә Лачын рајонундан кәлмишләр...

**Гарамәммәдли** адлы кәнд Ағсу, Јевлах, Кәдәбәј рајонларында да вардыр. Һәмин кәндләрдә дә топоним XIX әсрдә бурада мәскән салмыш *Гарамәммәдли* нәслинин адыны өзүндә әкс етдирир.



## ГАРАНЛЫГ ДӘРӘ

Гачар кәнди әразисиндә, кәнддән бир гәдәр шәргдә гејдә алынмыш орографик објектләрдән бири дә **Гаранлыг дәрә** адланыр. **Дәрә** - мәнфи релјеф формасы билдирән чоғрафи терминдир. Оронимијада **дәрә** термини релјефин әсасән дар вә чөкәк формасыны ифадә едир. Азәрбајчанда адынын тәркибиндә **дәрә** термини олан 30.000-дән чох ороним гејдә алынмышдыр. Дәрәнин ***гаранлыг*** адланмасы әразинин бә'зән күнәшли күнләрдә **гаранлыг** олмасы, ораны *күн тутмамасы* илә бағлыдыр...

## ГАРАХАНБӘЈЛИ КӘНДИ

Фүзули рајон мәркәзиндән 13 километр шәргдә, Фүзули-Әһмәдбәјли шосе јолу кәнарында, Көндәләнчајын сол саһилиндә, дүзәнликдә јерләшир. Кәндин ики мин нәфәр әһалиси вар. Әһали әсасән тахылчылыг, үзүмчүлүк, вә һејвандарлыгла мәшғул олур. Кәнддә орта вә ибтидаи мәктәбләр, хәстәхана, мәдәнијјәт еви, доғум еви, рабитә шө'бәси, автомат стансијасы, мәсчид (XIX әср), шәраб заводу вә с. вар. Илк тунч дөврүнә аид олан өлкә әһәмијјәтли дашынмаз тарих вә мәдәнијјәт абидәси сајылан **Балалар тәпә јашајыш јери** Гараханбәјли кәндинин чәнуб-гәрбиндәдир.

Ојконимләрдә әкс олунмуш патронимик тајфа адларынын бир групу да **хан, бәј** вә с. адлардан дүзәлән вә бир нөв етноним сәчијјәси дашыјан сөзләр тәшкил едир. Бу група дахил олан ојконимләр **хан, бәј** адларындан јаранмыш вә сонралар етноним сәчијјә кәсб етмишдир. Азәрбајчан топонимијасында өз әксини тапан белә адлардан бири дә **Гараханбәјли** ојконимидир.

**Гараханбәјли** јашајыш мәнтәгәси XVIII әсрин орталарында Гарабағ ханы Пәнаһәли ханын Нахчывандан Гарабаға көчүрдүјү кәнкәрлиләрин ***Гараханбәјли*** тајфасынын бурада мәскунлашмасы нәтичәсиндә јаранмышдыр. Тирәнин башчысы XVIII әсрин әввәлләриндә **Гарахан бәј** адлы бир нәфәр олуб...

Тәәссүфләр олсун ки, чох мүнбит торпағы олан Гараханбәјли

кәнди дә ермәни ишғалчылары тәрәфиндән ишғала мә'руз галды.

**"Гара"** сөзү әсасында чохлу етнонимләр мејдана кәлиб. *"Ханбәјли"* исә етнотопоним јарадан лексик ваһиддир.

Нахчыван Мухтар Республикасынын Бабәк рајонунда да **Гараханбәјли кәнди** вардыр...

## ГАРҒАБАЗАР КАРВАНСАРАСЫ

Бу **карвансара** Фүзули рајонундакы **Гарғабазар** кәндинин мәркәзиндә, чох да һүндүр олмајан бир тәпәнин дөшүндә инша олунуб. Карвансара тикилисинин ени **23,7** м, узунлуғу исә **34,7** м-дир. Карвансара **1681**-чи илдә тикилмишдир.



Гарғабазар кәндиндә тикилдији үчүн о, **Гарғабазар карвансарасы** ады илә танынып. Бу тарихи абидәјә бә'зән **Шаһ Аббас карвансарасы** да дејирләр. Онун ме'мары мә'лум дејил. Карвансаранын порталынын биринчи јарымдаирә тағбәнди илә ондан нисбәтән бөјүк олан икинчи охвари тағбәнд арасында хүсуси јерләшдирилмиш 3 әдәд квадрат формалы дашлар үзәриндә зооморф вә һәндәси орнаментләр ишләнмишдир.



Карвансаранын план вә ме'марлыг һәлли мәркәздән кечән оха симметрик һәлл олунараг үмуми конструксијаја табе едилмишдир. Планда дүзбучаглы шәкилдә һәлл олунмуш карвансара ики бөјүк өлчүлү дәвәликдән (зал), киришин сағ вә сол тәрәфләриндә көзәтчиләр үчүн ики кичик отагдан, баш тәрәфдә исә карвансара саһиби вә тачирләр үчүн 6 әдәд квадрат шәкилли отаглардан ибарәтдир. Отагларын гапылары чох да бөјүк олмајан ејвана ачылыр. Ејваны јарымдаирә шәкилли 3 әдәд даш тағбәнд бәзәјир.



Ме'марлыг үслубуна көрә **Гарғабазар карвансарасы** албан дөврү ме'марлығы ән'әнәләринин охшарыдыр. Киришин сағ вә сол тәрәфләриндә көзәтчи отаглары гаршысында ики бөјүк сал даш вардыр. Көрүнүр, көзәтчиләр һәмин дашларын үстүндә дајаныб карвансараја дахил олан карванларын јүкләринә бахармышлар. Тәәссүфләр олсун ки, *јағыш вә сел сулары* **карвансара** гаршысындан салынан автомобил јолунун чәкилиши заманы сәвијјәси хејли галдырылдығындан, бүтүн карвансара һәјәтини лил чөкүнтүләри алтында гојмушдур.

**Гарғабазар карвансарасы** Азәрбајчанын өлкә әһәмијјәтли дашынмаз тарихи мәдәнијјәт абидәләриндән һесаб олунур...

## ГАРҒАБАЗАР КӘНДИ

**Гарғабазар кәнди** рајон мәркәзиндән 7 км чәнубда, дағәтәји әразидә, Гарабағ силсиләсинин әтәјиндә јерләшир. Әһалиси мин нәфәрдир. Әһали әсасән үзүмчүлүк, тахылчылыг вә һејвандарлыгла мәшғулдур. Кәнддә рабитә шө'бәси, хәстәхана, китабхана, орта вә сүрүчүлүк мәктәбләри, автомат стансијасы, һејвандарлыг комплекси, клуб, музеј, мәсчид (XVII әср), түрбә (XVIII әср), карвансара, һамам, булаг, кәһриз вә с. вар. **Гарғабазар кәнди** дә һазырда дүшмән тапдағы алтындадыр.

Кәнддә **намазлылар, еминлиләр, кохалылар, һәсәнлиләр, сүлејманлылар, мәммәдлиләр, һәшимлиләр** вә с. адлы тајфалар јашамышдыр.

Истанбулун Башбаканлыг архивиндә сахланан 930 сајлы "Кәнчә-Гарабағ әјаләтинин мүфәссәл дәфтәри" адлы тарихи сәнәддә **Гарғабазар** кәндинин дә ады вар.

1886-чы илдә Тифлисдә тәртиб едилмиш архив сәнәдләриндә Гарғабазар кәндиндә **56** аиләдә (түстүчыхан) **230** киши вә **131** гадын (һамысы мүсәлман аиләси) көстәрилмишдир.

**Гарғабазар** ады илә бағлы мүхтәлиф рәвајәтләр вар.



*Гарғабазар кәндиндәки гәдим һамам*

Дејиләнә көрә, вахтилә бурада сәсли-күјлү, бөјүк бир **базар** вармыш вә бу сәбәбдән дә кәндин адына **Гарғалыбазар** дејәрмишләр. Сонралар сөзүн тәркибиндәки **-лы** шәкилчиси дүшмүш, садәчә ад **Гарғабазар** кими галмышдыр...

**Гарғабазар** топониминин изаһында мүхтәлиф фикирләр мөвчуддур. Шәрги Түркијәдә орта әсрләрдә **Гарғабазар** адлы јашајыш мәнтәгәси мөвчуд олдуғуна көрә, бу кәндин әсасыны һәләлик намә'лум сәбәбләрә көрә орадан көчүб кәлмиш аиләләрин гојмасы еһтимал едилир. Чох күман ки, **гарғабазар** ады Түркијәдән кәлмәдир. Кәндин ады түрк дилләриндәки **карга** (вулкан дашы) вә **базар** (бир шејин бол олдуғу) сөзләриндән ибарәтдир.

Кәнд әразисиндә ашкар олунан күп гәбирләр (е. ә. II әср) Гарғабазарын чох гәдим јашајыш јери олдуғуну көстәрир. Сәфәви дөврүнә аид Һачы Гијасәддин мәсчиди (1682), јенә дә һәмин дөврә аид олан карвансарај (1681-1684), XVIII әср һамам харабалығы вә түрбә дә Гарғабазар кәндиндәдир.

**"Базар"** компоненти "чохлуг" мә'насында олуб, артыглығы ифадә едир. Үмумијјәтлә, **"гарға"** вә **"базар"** терминләри Азәрбајчана кәлишләри дәгиг мүәјјәнләшдирилмәмиш мүхтәлиф түрк тајфаларынын ады илә бағлыдыр. **"Гарға"** сөзү гуш адыны әкс етдирән **"Карга"** адлы һәм дә гәдим түрк тајфасы оронимлә әлагәдардыр. олмуш вә онлар сонралар Азәрбајчан әразисинә кәлмишләр.

**Карга (гарға), карлыг (гарлыг)** Чин Түркүстанында олан түрк мәншәли чоғрафи адларын јаранмасында иштирак едән топоформантлардандыр. *Гарғабазар* кәндиндәки күнбәзләр, еләчә дә, газынты заманы ашкарланан бир чох мадди-мәдәнијјәт нүмунәләри кәндин ән азы ики мин ил бундан әввәл дә јашајыш мәскәни олмасындан хәбәр верир.

**Гарғабазар** чоғрафи адынын паралелинә Түркијә әразисиндәки топонимләрдә дә раст кәлмәк олур (мәсәлән, *Гарғабазары*). Азәрбајчанда **гарга** компоненти илә бағлы *Гаргалыг кәндләри* (Бабәк, Масаллы, Хачмаз рајонлары) да вардыр. *Гарға гајасы* (Дашкәсән, Кәлбәчәр, Товуз рајонлары), *Гарғабазар јүксәклији* (Нахчыван), *Гаргалы чөл* (Зәрдаб рајону) бу гәбилдәндир. *Гаргаговмаз* кәнди Ермәнистанын Талин рајонунда олуб. *Гарғабазар кәнди* Ермәнистанын Ечмиәдзин рајонунда да мөвчуд олуб вә 1965-чи илдә онун ады дәјишдирилиб *Һајкашен* гојулуб. Вахтилә Ирәван губернијасынын Ирәван гәзасында да *Гарғабазар* адлы кәнд олмушдур. XVII әср мәнбәсиндә Чулфа јахынлығында да *Гарғабазар* кәндинин ады чәкилир...

Кәндә **гијабәддинлиләр, моллаибраһимлиләр, салеһлиләр, ибишлиләр, јагублулар, маһмудлулар, һүсејнзаманлар, һачымәһәммәдлиләр, ејвазлылар, ибраһимлиләр, сәрдарлылар** вә с. тајфа вә тирәләр јашамышдыр.

1727-чи илә аид тарихи сәнәд олан "Кәнчә-Гарабағ әјаләтинин мүфәссәл дәфтәри"ндә 465-чи сәһифәдә Дизаг наһијәсинә табе олан кәндләр сырасында **Гарғабазар (Гарғабазары)** кәндинин дә ады чәкилмишдир. Мә'лумдур ки, Иран вә дикәр Шәрг өлкәләринин тачирләри Гарабағ вә Ширванда тичарәт гурмаг үчүн Худафәрин көрпүсүндән кечиб Гарғабазарда кечәләјиб динчәләрдиләр. Һәтта, бу мәгсәдлә **Шаһ Аббас карвансарасы** да тикилмишдир...

Орта чағлара бағлы гајнагларда јашајыш мәнтәгәсинин ады **Гарғабазары** шәклиндә јазылмышдыр...

Јашлы адамлардан ешитдијимә көрә, гәдимдә рајонун һәфтәлик базары бу кәндә олуб. Јахынлыгдакы Молакан кәнди јаранандан сонра әһалинин тәләби илә базары ораја көчүрүбләр...

## ГАРЫСӘРНИЧИ

**Гарысәрничи** Фүзули шәһәриндән 9 км шималда, Дилағарда кәндинин јахынлығында јерләшир. Онунла бағлы белә бир рәвајәт вардыр:

Шаһ кәндә кәләндә һамы гачыр, тәкчә бир гары галыр. Шаһ гарыдан сорушур:

- Гары, мәндән нә истәјирсән?

Гары дејир:

- Бир сәрнич торпаг, јә'ни өз јерими.

Шаһ онун сөзүнүн мә'насыны баша дүшүр. Шаһын әмри илә гошунда оланларын һәр бири гарынын башына бир ат торбасы гәдәр торпаг төкүр. Беләликлә, бөјүк бир *тәпә* јараныр. О вахтдан да бу тәпәјә **Гарысәрничи** дејирләр...

## ГАРЈАКИН ГӘЗАСЫ

**Гарјакин (Чәбрајыл) гәзасы** 1873-чү илдә Јелизаветпол губернијасынын тәркибиндә јарадылмышдыр. Гәзанын әввәлки ады **Чәбрајыл** олмушдур. 1905-чи илдә "Күрәкчај" мүгавиләсинин 100 иллији илә әлагәдар олараг чар фәрманы илә гәзанын ады дәјишдириләрәк Рус-Иран мүһарибәсинин фәал иштиракчысы, **полковник Гарјакинин** шәрәфинә **Гарјакин** адландырылды. Гәзанын мәркәзи дә **Гарјакин** шәһәринә көчүрүлдү.

**Павел Михајлович Карјакин** 1761-чи илдә Полтавада задәкан аиләсиндә анадан олуб. 1778-чи илдә һәрби мәктәби битириб. 1781-чи илдә прапоршик рүтбәси алыб. 1783-чү илдән Гафгаздакы "Јегор полку"нда хидмәт едир. 1784-91-чи илләрдә Түркијәјә гаршы Рус ордусунда дөјүшүр. П.П.Румјантсевин тәгдиматы илә она мајор рүтбәси верилир вә о, "Кеорки" Хач ордени илә тәлтиф едилир. 1796-чы илдә В.Зубовун Азәрбајчана јүрүшү заманы П.М.Карјакин Кәнчә, Шәмкир, Ширван, Гарабағ, Дәрбәнд, Бакы вә с. әразиләрдә кедән дөјүшләрдә фәргләнир. В.Зубов Азәрбајчандан кери чағырыларкән Гарабағдакы һәрби һиссәни П.М.Карјакинә етибар



едир. 1800-чү илдә она Гафгаз Али Баш Командалығы тәрәфиндән полковник рүтбәси верилир.

XIX әсрин илк илләриндә Карјакинин Гарабағда төрәтдији зүлмләрдән гәзәбләнән Ибраһим ханын Иранда јашајан оғлу Әбдүл Фәттаһ аға (бәзи мәнбәдә Аббас Мирзә көстәрилиб) 21 ијун 1805-чи ил тарихдә Карјакинин гошуну илә Әскәран јахынлығында дөјүшүр, дөјүшдә Карјакинин гошуну мәғлуб олур, өзү исә јараланыр. П.Д.Сисијановун көстәриши илә Кәнчәдә мүаличә олунан **Карјакин** сағалдыгдан сонра бир мүддәт Кәнчәдә мүлки ишләрдә чалышыр. 17 март 1807-чи ил тарихдә јенидән Шушаја




гајыдан Карјакин орада һәрби ишләрини давам етдирир. 14 октјабр 1807-чи ил тарихдә Шушада бәрк хәстәләнән **Карјакин** 2 ај сонра вәфат едир.

Гәза идарәсинә гәза рәиси, онун муавини, хәзинәдар, мәнтәгә ичласчылары, шәһәр полиси дахил иди. Һакимијјәт гәза рәисинин әлиндә чәмләнмишдир. Гәза рәисини Јелизаветпол (Кәнчә) губернатору тә'јин едирди. Адәтән, гәза рәисләри рус забитиндән олурду. Гәзада Чәбрајыл, Һорадиз, Бәһмәнли, Бартаз полис

мәнтәгәләри фәалијјәт көстәрирди. Јашајыш мәнтәгәләрини гәза рәисинин тә'јин етдији кәндхудалар, јүзбашылар, бәјләр, полис мәнтәгәләрини исә јенә дә гәза рәисинин тә'јин етдији приставлар идарә едирдиләр. Гәзада јарадылмыш мәһкәмә гәзанын идарә олунмасында да иштирак едирди.

3332 квадрат километр саһәси олан Гарјакин гәзасынын (бураја Фүзули, Бејләган, Ҹәбрајыл, Хоҹавәнд, Губадлы, Зәнкилан рајонларынын әразиләри дахил иди) әһалисинин сајы 66 мин нәфәрдән (1897-ҹи илә аид олан статистикаја көрә 66.360 нәфәр) чох олмушдур. Тәсәррүфатында малдарлыг, әкинчилик, барамачылыг, бағчылыг, ипәкчилик вә с. әсас јер тутурду. Гәза әразисиндә халчачылыг, памбыгчылыг вә үзүмчүлүк дә инкишаф етмишдир. Тиҹарәт, бојагчылыг, дәмирчилик, чәкмәчилик, налбәндлик, дәрзилик вә с. саһәләр дә инкишафда иди...

Гәзада чаризмин мүстәмләкәчилик сијасәтинә, бәј вә ханларын зүлмүнә гаршы дәфәләрлә кәндли чыхышлары баш вермишдир. 1918-ҹи илин декабрында Азәрбајҹан Демократик Республикасы һөкумәтинин гәрары илә **Гарјакин гәзасынын** ады дәјишдириләрәк әввәлки **Ҹәбрајыл гәзасы** ады илә адландырылды. **Гарјакин** јашајыш мәнтәгәсинин (кәндинин) ады да әввәлки ады олан **Гарабулаг** ады илә әвәз едилди. **Гәза** әразисиндә 12 азәрбајҹанлы, 3 ермәни иҹмасы (инзибати әрази ваһиди кими) вар иди...

**7 ијул 1923-ҹү ил** тарихиндә **ДГМВ** јарананда Бүнјадлы, Замзур, Әмираллар, Куропаткин, Муғанлы, Хоҹавәнд, Гарадағлы, Туғ, Ахуллу, Салакәтин, Вәнк, Доланлар, Едилли, Һадрут, Һәрәкул, Булутан, Мәликҹанлы, Дүдүкчү вә с. кәндләр Ҹәбрајыл гәзасындан алыныб ДГМВ табелијинә кечирилди. **1929**-ҹу илдә **Ҹәбрајыл (Гарјакин) гәзасы** ләғв олунду...

**Ҹәбрајыл гәзасы** орта әсрләрдә бурада јашамыш **Ҹәбрајыл Ата** (о, Алыпаша дағынын көрүмлү бир јериндә дәфн олунуб) адлы нүфузлу бир шәхсин ады илә әлагәдар олараг белә адланмышдыр. **Ҹәбрајыл** адыны **ҹәбрајыллы** түрк мәншәли тајфанын ады илә дә әлагәләндирәнләр вар. Тарихи мә'луматлара көрә, ҹәбрајыллы тајфасы сон орта әсрләрдә мүвафиг олараг Гарагојунлу вә Ағгојунлу, Гызылбаш, Шаһсевән, XVIII әсрдә исә Әфшар вә Ҹаваншир тајфа иттифагларынын тәркибинә дахил олмушдур. Әлбәттә, бүтүн бунлар мөвҹуд сијаси вәзијјәтлә әлагәдар баш вермишдир...



## ГАРЈАКИН РАЈОНУ
## (Гарјакин)

Фүзули рајонунун әввәлки адларындан бири **Гарјакин** адланырды. **Павел Михајлович Карјакин (Гарјакин)** 1761-ҹи илдә Полтавада задәкан аиләсиндә анадан олуб. 1778-ҹи илдә һәрби мәктәби битириб. 1781-ҹи илдә прапоршик рүтбәси алыб. 1783-ҹү илдән Гафгаздакы "Јегор полку"нда хидмәт едир. 1784-91-ҹи илләрдә Түркијәјә гаршы Рус ордусунда дөјүшүр. П.П.Румјантсевин тәгдиматы илә она мајор рүтбәси верилир вә о, "Кеорки" Хач ордени илә тәлтиф едилир. 1796-чы илдә В.Зубовун Азәрбајҹана јүрүшү заманы П.М.Карјакин Кәнҹә, Шәмкир, Ширван, Гарабағ, Дәрбәнд, Бакы вә с. әразиләрдә кедән дөјүшләрдә фәргләнир. В.Зубов Азәрбајҹандан кери чағырыларкән Гарабағдакы һәрби һиссәни П.М.Карјакинә етибар едир. 1800-ҹү илдә она Гафгаз Али Баш Командანлығы тәрәфиндән полковник рүтбәси верилир.

XIX әсрин илк илләриндә Карјакинин Гарабағда төрәтдији зүлмләрдән гәзәбләнән Ибраһим ханын Иранда јашајан оғлу Әбдүл Фәттаһ аға (бәзи мәнбәдә Аббас Мирзә көстәрилиб) 21 ијун 1805-ҹи ил тарихдә Карјакинин гошуну илә Әскәран јахынлығында дөјүшүр, дөјүшдә Карјакинин гошуну мәғлуб олур, өзү исә јараланыр. П.Д.Сисијановун көстәриши илә Кәнҹәдә мүалиҹә олунан **Карјакин** сағалдыгдан сонра бир мүддәт Кәнҹәдә мүлки ишләрдә чалышыр. 17 март 1807-ҹи ил тарихдә јенидән Шушаја гајыдан Карјакин орада һәрби ишләрини давам етдирир. 14 октјабр 1807-ҹи ил тарихдә Шушада бәрк хәстәләнән **Карјакин** 2 ај сонра вәфат едир...

(Әлавә мә'лумат үчүн бах: **Фүзули рајону**)

## ГАЧАР КӘНДИ

Рајон мәркәзиндән 12 км шимал-гәрбдә, Гарабағ силсиләсинин әтәјиндә, Көндәләнчајын сол саһилиндә јерләшир. Кәндин әразиси 640 кв. км-дән чох иди. Әкин саһәси 1000 һектар тәшкил едирди. Кәнддә 700 ев варды. Әһалиси 3500 нәфәрдән чохдур. Әһали әсасән, үзүмчүлүк, барамачылыг, һејвандарлыг вә әкинчиликлә мәшғул олур. Кәнддә орта мәктәб, хәстәхана, рабитә шө'бәси,

мәдәнијјәт еви, клуб, китабхана, көрпү, мәсчид (XIX әср), пир (Гајыб очағы), дәјирман, стадион, мүхтәлиф тичарәт, иашә мүәссисәләри, Османлы гәбиристанлығы вә с. вардыр. Кәнд һазырда ишғал алтындадыр.

Кәндин ады Азәрбајчанын ағгојунлу **гачар** тајфасынын ады илә бағлыдыр. XIII-XIV әсрләрдә Өн Асијада сулдуз, чәлаир вә танғыт тајфалары әсасында јаранмыш гачарларын бир гисми әввәлчә Суријада јашамышлар. Сонралар Әмир Тејмур (1370-1405) вә оғлу Мираншаһ гачарлары Ирана көчүрмүшдүр.

Бир сыра тәдгигатчыларын фикринчә, **Гачар** етноними гәдим түрк халгларынын дилләриндә **"адам, әр, киши"** анламында ишләдилән **ар** сөзүнүн јардымы, иштиракы илә јаранмышдыр.

**Гачар** (Иран мәнбәләриндә **Гачар** кими јазылыр) ханәданы узун мүддәт Иранда сијаси бирлијә дә наил олду. 1925-чи илә гәдәр давам едән **Гачар ханәданы** Ирандакы сон түрк сүлаләсидир. **Гачарлар** һәмишә өзләрини түрк һесаб етмиш, түркчә данышмыш вә өз әчдадларынын Ирана Һүлакү ханла бирликдә кәлдикләринә инанмышлар.

Бә'зи тарихи гајнагларын вердикләри мә'луматлара көрә, Гачарлар XV әсрин ахырларына доғру Ағгојунлулар дөврүндә Анадолудан Ирана кәлмиш вә Азәрбајчанда јурд салмышдылар. Гачарларын Анадолудакы јурдлары олан **Боз-ох (Јозгат)** бөлкәси үч әсас ојмагдан **(Шам Бајаты, Јыва, Ағчагојунлу)** ибарәт иди. Белә олан тәгдирдә ханәдан бу **3** ојмагдан биринә (чох күман ки, **Јыва)** мәнсуб олмушдур. **Гачар** сөзү өз адыны бу 3 ојмағын башчысы олан бир бәјин адындан алмышдыр. Чох еһтимал ки, **гачарлары** да Анадолудан Ирана кәтирән елә бу бәј олмушдур. Ирандакы **гачарлар** сүлаләси дә *гачарлар* тајфасындан иди.

Гачарларын бир һиссәси XVII әсрдә Гарабаға вә Кәнчәјә кәләрәк һәмин әразиләрдә мәскунлашмышлар. XV әсрдә гызылбашларын тәркибинә дахил олан **гачарлар** Сәфәвиләрин һакимијјәтә кечмәләринә јахындан көмәклик етмишләр.

XVI әсрдә вә бу вахта гәдәр **гачарлар** әсасән Азәрбајчанын Бәрдә вә Кәнчә бөлкәләриндә јашамышлар. Бу тајфанын бир гисми **Шамдан** кәлмишдр. "Кәнчә Тәһрир дәфтәри"ндә XVIII әсрин биринчи јарысында Кәнчәјә бағлы кәндләрдән биринин ады **Шамбајаты** кими көстәрилмишдир. Әбүлһәсән Мәһәммәд



Күлүстани гејд едир ки, Надирин өлүмүндән сонра онун јеринә кечән Адил шаһын бөјүк әмирләриндән бири олан Мәһәммәд Әли хан әслән Шам Бајатындан (**Гачар** боју бајаты) олмушдур.

XIX әсрин сону вә XX әсрин әввәлләриндә Гафгазда 10-дан чох **Гачар** адлы кәнд олуб. **Гачарлар** Гарабағын көклү әһалиләриндән биридир.

**Гачар** сөзү түрк улусунун ады илә бағлыдыр. А.Бакыханова көрә **гачарлар** Иран вә Азәрбајчанда орта әсрләрдә ағалыг едән чәлаирләрин бир голудур.

**Гачарын** шәхс ады кими ишләдилдији мә'лум олан **Гарачарын** гысалдылмыш шәкли олмасы да еһтимал олунур...

Һүлакү сүләләсинә мәнсуб олан Аргун ханын мүәллими Хорасан вә Астрабад һакими Сыртаг Нојан ханын оғлунун ады **Гачар** имиш. Онун ады илә өз гәбиләси **гачар** адландырылмышдыр. Гачар түркләринин Ширвана, Гарабаға, Ирәвана, Кәнчәјә Әмир Тејмур тәрәфиндән көчүрүлмәси артыг елми дәлилләрлә сүбут олунмушдур. Сонралар **гачарлар** Азәрбајчанын мүхтәлиф јерләринә јајылмышлар. **Кәнчә ханы Чавад хан гачар** нәслиндән иди.

И.Петрушевскијә көрә, **гачарлар** монголларын јүрүшләри заманы Орта Асијадан кәлмиш, бир мүддәт Иранда, сонралар исә Азәрбајчанда јашамышлар.

Һазырда Губа рајонунда *Гачар Зејид кәнди,* Гәбәлә рајонунда *Гачар мешәси* вә с. вардыр. Хызы рајонунда *«Гачар мешәси» "Гачар дәрәси"* микротопонимләри дә **Гачар** етнонимләри илә бағлыдыр.

Тарихи сәнәдләрә көрә, Иран шаһы Аға Мәһәммәд шаһ Гачар XVIII әсрин 90-чы илләриндә Гарабаға, Шушаја (Пәнаһабада) һүчум едән әрәфәдә онун атлары **Гачар кәнди** әразисиндә сахланылырды...

Кәндин **нағлар** (јерли мә'лумата көрә, бу тајфа Бајандырлар нәслиндәндир) **абдал, мәммәдлиләр, һәсәналылар, мурадлылар, талышлылар, гарачылар, гушдудәрәлиләр, аббаслылар, диваналылар** вә с. тајфалары вар.

Сәфәвиләрин һакимијјәти заманы һәрби ишләр әсасән Гачарлара һәвалә едиләрди. 1926-чы илә гәдәр **гачарлар** Иранда һакимијјәтдә олублар.

XVI әсрин сонларына аид олан бир мәнбәдә кәндин ады **Шых-**

**гајыб** кими көстәрилмишдир. Тарихи гајнагларда индики Ашағы Әбдүррәһманлы кәнди јахынлығында **Ива Гачар** јашајыш мәнтәгәси јери дә көстәрилир...

Әсас **каи** тајфалары **гачарлар** , әфшарлар, зүлгәдәрләр, чобанлар, падарлар, баһарлылар, ишамлылар, устачлылар (устачаллылар), ләаклар, хәлилилләр, сорсорлар, шагаглар, оссалулар, зәнкәнәләр, армалулар вә с. һесаб олунурду. Онлардан Азәрбајчанын дөвләтчилик тарихиндә бајатларла бирликдә Иранда бә'зи сијаси чеврилишләрдә иштирак едән **гачарлар,** әфшарлар, баһарлылар, ишамлылар, устачлылар, падарлар, чобанлар даһа чох вә мүһүм рол ојнамышлар. Сәфәви сүлаләси Иран тахтында јалныз онларын разылығы илә бәргәрар оларды. Иранда **гачарлар,** әфшарлар сүлаләләри онларын арасындан чыхыблар вә һәм чобанларын, һәм дә чәлаирләрин һулакүләрлә олдуғу кими, бирини девирә, башгасыны бәрпа едә билибләр.

Бу тајфаларын мүхтәлиф јерләрдә сакин олмасы вахты чәлаир түркләриндән төрәјән **гачарлар** әввәлчә Кичик Асијада вә Сурријада мәскунлашмышдылар. Сонралар Топал Тејмур онлары Мәрв вә Мазандарана (Иран), Гарабағ, Кәнчә, Ирәван әразиләринә көчүрмүшдүр. Бурада - Азәрбајчанда онлар јаваш-јаваш артмыш вә бүтүн өлкәдә мәскән салмышдылар. Амма бә'зи гачарлары, хүсуси илә дә Кәнчә гачарларынын бөјүк һиссәсини Надир шаһ сонралар Хорасана көчүрмүшдүр (мә'лумдур ки, онлар Надир шаһын тахта чыхмасы арзусуна гаршы чыхмышдылар).

Гачар тајфасынын бөјүк әмирләриндән бири ***Тозгопаран*** ләгәбли Пири бәј Гачар I Шаһ Исмајылын јахын силаһдашларындан олуб. О, 1501-чи илдә Әлвәнд Ағалы оғлунун әмири Осман бәј Мосуллуну, 1503-чү илдә исә Султан Мурад Ағгојунлу илә дөјүшдә онун тәрәфиндә вурушан гум һакими Әсилмәз бәј Түркманы мәғлуб етмишди; 1513-чү илдә Нәчми Сани илә бирликдә Гичдуванда өлдүрүлүб. Тајфанын башга бир әмири **Гудурмуш хан** ады илә мәшһур олан ***Дәрачә Султандыр*** ки, о да Урфада Султан Мурад ибн Јагубу мәғлуб едиб, ону гәтлә јетириб; Мардин јахынлығындакы Горугтәпәдә Гара хан Устачлы илә бирликдә Мустафа паша "Бығлы Чавуш"ла дөјүшдә һәлак олуб...

Тајфанын әмирләриндән бири **Шаһверди Султан Зијадоғлудур** ки, о да Гарабағ бәјләрбәји иди. О, чохлу шанлы-шәрәфли дөјүш јоллары кечмишди. Шаһ Тәһмасиб она **"Мүсаһиб"** дејирди.



Шаһверди Султан Зијадоғлу Күрчүстан падшаһы Ләвасаны (Картли һакими Луарсаб (1534-1558)) өлдүрмүш, Тифлис һакими Кеорки (Горкин) Дадианини (1548-1582) вә Ләвасанын оғлу Симаону (Симон 1558-1560)) мәғлуб етмишди. О, Түркијәнин шәргиндә, Вандан 77 километр мәсафәдә јерләшән **Баркири** шәһәриндә Сүлејман бәј күрдү илә дөјүшдә өлдүрүлмүшдү...

Бу тајфанын бөјүк әмирләриндән бири **Будаг** хан иди. О, шаһ Тәһмасибин тәвачиси олуб. Тәһмасиб Будағы Гәндаһара һаким тә'јин етмишди. Амма аз сонра Бабурун оғлу Камран Мирзә Гәндаһары тутмушду. Бундан сонра Гәндаһар әлдән-әлә кечмишди. Икид әмир олан Будаг Нишапурда өзбәк Сару Гузғанла дөјүш заманы һәлак олмушдур. Ван галасынын һакими **Көкчә Султан** да **гачар** тајфасынын сајылыб-сечилән әмирләриндән олмушдур. Исмајыл Мирзәнин ләләси вә Нишапур валиси олан Көкчә Султан Астрабадда вәфат етмишдир.

**Шаһверди** Султан Зијадоғлунун оғлу **Хәлил Султан** да **гачар** тајфасынын һөрмәтли әмирләриндән олмушдур. Пәһләван Хәлил Султан бир нечә ил Астрабадын һакими олуб вә дәфәләрлә Јаха-Түркман тајфасыны мәғлуб едиб, дејиләнләрә көрә, о, вәзифәдән чыхарылараг өлдүрүлүб. Онун гардашы Ибраһим бәј Арран әмир әл үмәрасы иди вә һәјата Кәнчәдә әлвида деди.

Шаһ Тәһмасибин заманында Кәнчә һакими **Јусиф Хәлифә,** Хорасан һакими **Губад бәј,** Ширван һакими **Һүсејн бәј,** пајтахт Гәзвинин һакими **Сүлејман бәј,** орду сәркәрдәси Мирзә Әли Султан да гачар тајфасына мәнсуб олан адлы-санлы әмирләр олмушлар...

XIX әсрдә Көјчај, Губа, Шуша гәзаларында **Гачар кәнди** мөвчуд иди. Отузики (Чавад гәзасы), **Зијадлы** (Кәнчә гәзасы), **Чәлаирли** (Ләнкәран гәзасы) кәндләринин әһалиси нәсил етибары илә **гачар тајфасы** тирәләринә мәхсусдурлар. **Гачарлар** өз адларыны Аргун хан Һулакүнүн мүәллими, Сиртак Нојан ханын оғлу **Гачарын** адындан (Хорасан вә Астрабад һакими) көтүрмүшләр.

**Гачар кәнди** Вәрәндә маһалына бағлы олуб. 1727-чи илә аид олан "Кәнчә-Гарабағ әјаләтинин мүфәссәл дәфтәри"ндә Гачар кәндинин ады нәдәнсә **Әсзор** формасында гејд олунмушдур. 1823-чү илдә кәндин верки өдәјичиләринин сајы 38 түстү тәшкил едирдисә, 1842-чи ил сијаһыјаалынмасында бу рәгәм 54 түстүдән ибарәт олмушдур.

**Гачар** елинин **Ағчалы, Ағчагојунлу, Гованлы, Гојунлу, Голсузлу, Дәвәли, Зијадлы** (Зијадоғлу), **Јывалы (Јыва** 24 оғуз бојундан, үч охлара дахил олан Дәниз хан оғулларындан биридир), **Шамбајаты** (Гулу хан), **Иззәддинли** адлы ојмаглары олмушдур...

## ГАЧАР МЕШӘСИ

**Гачар** кәнди әразисиндә, кәнддән 1 километр аралыда гејдә алынан чоғрафи адлардан бири **Гачар мешәси** адланыр. **Мешә** кәндин јахынлығында јерләшдији үчүн беләә ад алыб. Бу фүсункар чәннәтмәкан дијарын әсрарәнкиз көзәлликләри вардыр. Санки Танрынын әли илә јаратдығы бу мешәдә бүтүн ағачлар - фыстыг, палыд, гоз, алма, армуд, алча, кавалы, шафталы, нар, әрик вә с. вар. Јаз вә јај ајларында баштан-баша јашыллыға бүрүнән **Гачар мешәси** узун илләр (ишғала гәдәр) сакинләрин, гонагларын, туристләрин истираһәт јери олмушдур...

## ГӘРВӘНД КӘНДИ

**Гәрвәнд кәнди** рајон мәркәзиндән 10 км шимал-шәргдә, Гарабағ силсиләсинин әтәјиндә јерләшир. Кәндин әһалиси әсасән үзүмчүлүк, тахылчылыг вә һејвандарлыгла мәшғул олур. Кәндә клуб, мәктәб, китабхана вә с. вар. Кәнд һазырда ишғал алтындадыр.

Ојконим **чаваншир** елиндән олан **гәрибәнд** тајфасынын ады илә әлагәдардыр. 1727-чи илә аид олан "Кәнчә-Гарабағ әјаләтинин мүфәссәл дәфтәри" адлы тарихи сәнәддә **Гәрбәнд** јашајыш мәнтәгәсинин дә ады чәкилир...

**Гәрвәнд** топоними **кәбирли** тајфасынын бир голуну тәшкил едән гәрвәндләрлә бағлыдыр. Гәрвәндлиләри булгар әсилли һесаб едәнләр дә вар. XIX әсрин сонлары - XX әсрин әввәлләринә аид рус мә'хәзләриндә кәндин ады **Герравенд** (Геравенд) шәклиндә јазылмышдыр. Јашлы сакинләр бу сөзү **Керравәнд** кими тәләффүз едирләр...

Бә'зиләри **Гәрвәнд** сөзүндәки **гәри** *гор - әр* кими изаһ етмәјә (*"Аллаһ, Танры әрләри"*) чалышырлар.

Бә'зи тәдгигатчылар **Гәрвәнд** ојконимини **кәрәјвәнд** тајфасынын ады илә әлагәләндирирләр. Онлар Гәрвәндин **Кәрәј** шәхс адындан вә Иран дилләриндәки **вәнд** ("ушағы, нәсли, төрәмәси") сөзүндән ибарәт олуб, *"кәрәјлылар, кәрәј нәсли, кәрәјин төрәмәси"* мә'насында олдуғуну иддиа едирләр...

## ГЫЗЫЛГАЈА ЈҮКСӘКЛИЛИ

**Гызылгаја јүксәклији** рајон мәркәзиндән 18 километр шималда, Хочавәнд рајону илә сәрһәд әразидә јерләшир. Ороним рәнк мә'налы **"гызыл"** сөзүндән вә мүсбәт релјеф формасыны билдирән **"гаја"** компонентиндән ибарәтдир. **Гызыл** сөзү даг, гаја, тәпә вә с. оронимләрдә *"парлаг", "гызылы рәнкә чалан", "ал-гырмызы"* мә'насында ишләнир. **Гызылгаја** чоғрафи адындакы **гызыл** термини *"гызылы рәнкә чалан"* мә'насындадыр.

**Гызылгаја** адлы топонимләрә Губада, Губадлыда, Гусарда, Газахда, Абшеронда, Исмајыллыда, Чулфада, Шәрурда, Бабәкдә, Ағдамда, Шәмкирдә, Әскәранда, Кәдәбәјдә, Јардымлыда, Ханларда, Зәнкиланда, Лачында, Товузда, Чәбрајылда, Хочавәнддә, Шушада да раст кәлмәк олар. Кәлбәчәрдә *Гызылгаја кәнди,* Ханларда *Гызылгаја гәсәбәси* дә вардыр...

## ГЫЗЛАР БУЛАҒЫ

Әһмәдалылар кәнди әразисиндә гејдә алынан чоғрафи адлардан бири **Гызлар булағы** адланыр. Һидроним **гыз** сөзүндән, **-лар** чәм шәкилчисиндән вә **булаг** һидронимик апелјативиндән ибарәтдир. Топоним **гызларын** бу булагдан тез-тез су дашыјыб-кәтирмәләри илә әлагәдар олараг беләә ад алмышдыр...

## ГЫЗОВЛУ БАҒЫ

Јухары Јағлывәнд кәнди әразисиндә гејдә алынан орографик објектләрдән бири **Гызовлу бағы** адланыр. Бу бағын әразисиндә чохлу ағач вә коллар, күл-чичәк әкилмишдир. Бағын **Гызовлу** адланмасы илә бағлы јерли әһалинин әсасландырылмамыш мүхтәлиф фикир вә јозумлары вардыр...

## ГЫРХБУҒУМЛУ ЈАЛ

Сәрдарлы кәндинин әразисиндә гејдә алынан орографик објектләрдән бири **Гырхбуғумлу јал** адланыр. Фитооронимгырхбуғум** вә **јал** сөзләриндән, **-лу** мәнсублуг ифадә едән шәкилчидән ибарәтдир.

**Гырхбуғум (јолоту)** - көвдәси дүз галхан, јахуд сармашан, јарпаглары лансет, паз вә ја јумурта формалы олан тохуму үчтилли бир, ики, бә'зән дә чохиллик от вә ја јарымкол битки чинсидир. Мартда чичәкләјиб, декабрда солан *гырхбуғум* әһали арасында мүгәддәс сајылар, онун үзәринә һеч бир тулланты атылмазды; бу күнаһ сајыларды. **Гырхбуғум** да дағдаған ағачы кими һәр јердә битмир...

Фитооронимин тәркибиндәки **јал** чоғрафи термини мүсбәт релјеф формасы ифадә едир. Дағын ән һүндүр зирвәсинин јамачы оронимиҗдә **јал** термини илә ифадә олунур. **Јал** термини илә бағлы Республикамызын әразисиндә 600-дән чох чоғрафи ад гејдә алынмышдыр...

## ГОБУ ДИЛАҒАРДА КӘНДИ

**Гобу Дилағарда** кәнди рајон мәркәзиндән 12 километр шималда, Гарабағ силсиләсинин әтәјиндә, Фүзули-Ағдам шоссе јолундан 2 км аралыда јерләшир. Әһалиси мин нәфәрдир. Әһалиси тахылчылыг, үзүмчүлүк вә һејвандарлыгла мәшғул олур. Кәнддә орта мәктәб, електрик дәјирманы, клуб, китабхана, тибб мәнтәгәси, рабитә шө'бәси вә с. вардыр.

**Гарагојунлу** гәбиләсинә мәнсуб олан нәсилләрдән бири дә **дилағарда** адланыр. **Дилағардалылар** тајфасынын адыны өзүндә әкс етдирән чохлу сајда микротопонимләр дә гејдә алынмышдыр. Фүзули рајонунун **Дилағарда кәнди** әразисиндәки **Дилағардатәпә дағы,** Масаллы рајонунун Дәмбәлов кәнди јахынлығындакы **Дилағарда дағы, Дилағарда дәрәси, Дилағарда јохушу** оронимләри дә өз адларында **дилағарда** етнонимини әкс етдирир.



Бә'зи сәнәд вә материалларда көстәрилир ки, **дилағардалылар** XIII әсрдә Азәрбајчана кәлмиш монгол-татарларын гоншуларынын тәркибиндә олан чохсајлы тајфалардан бири олмушдур. Онлар Азәрбајчанда галараг көчәри-малдар һәјаты сүрмүшләр. Дилағардалыларын данышыг дилиндә чинкилтили самитләр көзәл сәсләнир. Үмумијјәтлә, онларын чох мараглы вә мараглы олдуғу гәдәр дә гәрибә дил-тәләффүз формалары вардыр. Гоншу кәндләрин әһалиси илә мүгајисәдә дилағардалыларын өзләринә мәхсус сәчијјәви хүсусијјәтләри олан адәт-ән'әнәләри вар...

**Гарагојунлу** ојмағы олан **Дилағарда обасы** һаггында белә бир рәвајәт дә данышырлар.

Гара Јусифин гәфил өлүмү оғулларыны чашдырмышды. Һәркиһәркилик баш алыб кедирди. Ајры дүшән елләри бирләшдирмәк лазым иди. Белә бир вахтда Гара Јусифин алтынчы оғлу Чаһаншаһ Мирзә ирәли дуруб: "кимдир мәнимлә" - деди. Шаир үрәкли, шир биләкли шаһзадәни тахта чыхардылар. Чаһаншаһ дар күнүндә она арха, дәстәк оланлары јанына јығыб хүсуси бир гвардија јаратды вә һәмин гвардијаны **Диле гарде** ("гвардијанын гәлби") адландырды...

**Дилағарда** обасынын Азәрбајчанын бә'зи әразиләриндә ојмаглары вар. Тәкчә Муғанда онларын **Алар, Һүсејнханлы, Тәпәбашы, Фәтуллаһлы, Вәлимәммәдли, Чаһаншаһлы, Көзбулаг** вә с. ојмаглары вар. Аразбарда дилағардалыларын **Араз Дилағарда** вә **Гобу Дилағарда** адлы ики обасы вардыр. Бә'зи мә'хәзләрдән ајдын олур ки, **дилағардалылар** Гарабағ, Талыш, Чавад ханлыгларына харичи тәһлүкәнин арадан галдырылмасында јахындан көмәклик етмишләр...

Көркәмли Азәрбајчан шаири Гасым бәј Закир Аразбар обаларынын мүлкәдары олмуш Чәфәргулу хан Чаванширә (шаирин онунла арасы јох иди) јазырды:

***Зәркәр, Дилағарда аләм-ашикар,***
***Бир удан огурлар, бир удан сатар,***
***Вај одур саһиби ат башы тутар,***
***Јүз јердән төкүләр үстүнә чомаг...***

**Дилағарда** тајфасы мәншә етибары илә **гарагојунлу** тајфа иттифагына дахил олан тајфанын адындандыр. Онлар тәхминән 600

аилә олуб, Чәнуби Азәрбајҹанда јашамышлар. Бир чох еһтималлара көрә, XV әсрин сонларында Ағгојунлуларын һакимијјәти заманы бә'зи **Дилағарда тајфасы** Араз чајыны кечиб индики Фүзули рајонунун әразисиндә мәскән салмышлар. Бә'зи аиләләр исә сонралар - XIX әсрин әввәлләриндә кәлмишләр. Онлар јајы Талыш силсиләсиндә, гышы исә Чәнуби Азәрбајҹанын Муған әразисиндә кечирәрдиләр.

Фүзули рајону әразисиндә дилағардалыларын јашадығы дикәр кәнд **(Гобу Дилағарда кәнди)** дә вардыр. Ојконим **гобу** вә **дилағарда** сөзләриндән ибарәтдир. **"Гобу"** компоненти топонимләрдә *"чөкәклик", "су ахан дәрә", "чухур јер", "гурумуш чај јатағы", "бөјүк арх"* вә с. мә'наларда өз әксини тапыб. **Дилағарда** етноними тәхминән 600 аиләдән ибарәт олан вә Чәнуби Азәрбајҹанда јашајан тајфанын адындандыр. **Дилағардалылар** мәншәчә гарагојунлу тајфа иттифагына дахил олан тајфанын адындандыр.

Јерли мә'лумата әсасән, **Гобу Дилағарда** јашајыш мәнтәгәси XV әсрин 70-чи илләриндә Ағгојунлуларын зүлмләринә дөзмәјән **дилағарда** тајфасынын Чәнуби Азәрбајҹандан кәлиб бурада мәскунлашмасы нәтиҹәсиндә јаранмышдыр. Дилағардалыларын бир гисми исә XIX әсрин 20-чи илләриндә бураја кәлиб. Кәндин ады *"гобуда мәскунлашмыш дилағардалылар"* мә'насындадыр. Јахынлыгдакы дағ да өз адында **дилағарда** тајфасынын адыны дашыјыр. Кәнд ермәни ишғалчылары тәрәфиндән зәбт олунуб.

## ГОБУ ЈАМАЧЫ

Гобу Дилағарда кәнди әразисиндә гејдә алынан орографик објектләрдән бири **Гобу јамачы** адланыр. Ороним **гобу** вә **јамач** сөзләриндән ибарәтдир. **Гобу** термини мәнфи релјеф формасы ифадә едир. Бу терминин диалектләримиздә **гобы, кобы, гову, гоби, кову** тәләффүз формалары вар. **Гобу** компоненти дилимиздә "дәрә", "чөкәклик", "су басан јер", "гуру дәрә", "сусуз чај дәреси", "дәрин арх" вә с. мә'наларда ишләдилир.

Бә'зи араштырычылара көрә, **Гобу јамачы** ороними XIII әсрдә Орта Асијанын монголларын тәркибиндә Азәрбајҹана кәлмиш түрк тајфасынын ады илә бағлыдыр. Үмумијјәтлә, тәдгигатчылар **гобу**



термини монгол әсилли сөз һесаб едирләр. Бу терминин иштиракы илә Азәрбајҹан оронимијасында **900** ҹоғрафи ад гејдә алынмышдыр...

Дағын вә ја тәпәнин әтәјиндән зирвәсинәдәк олан һиссәсинә **јамач** дејилир. Адынын тәркибиндә **јамач** термини иштирак едән оронимләрин сајы Азәрбајҹанда **1000**-дән чохдур...

## ГОЗДИБИ КӘҺРИЗИ

Фүзули рајонунун Һорадиз кәнди әразисиндәки бөјүк бағ саһәсиндә кәһризләрдән бири **Гоздиби кәһризи** адланыр. **Кәһриз** - грунт суларыны топлајыб јер сәтһинә чыхармаг үчүн јералты гурғудур. Кәһризләрин лағымлары бир-бири илә шагули гујулар васитәси илә бирләшдирилир. Адәтән, кәһризләри пешәкар канканлар газыр. XX әсрин орталарында Азәрбајҹанда **900**-дән чох **кәһриз** олмушдур. **Гоздиби кәһризи** һидроними **гоз** ағачынын **дибиндә** олдуғу үчүн белә адландырылмышдыр.

## ГОЗЛУ ДӘРӘ

Гачар кәнди јахынлығында гејдә алынан орографик објектләрдән бири **Гозлу дәрә** адланыр. **Дәрә** мәнфи релјеф формасы билдирән ҹоғрафи терминин иштиракы илә Азәрбајҹан оронимијасында **30.000** ҹоғрафи ад гејдә алыныб. **Гоз** мејвә ағачынын адыны билдирән сөздән дүзәлән јүзләрлә ороним вардыр. **Гозлугаја** (Зәнкилан рајону), **Гозлудағ** (Тәртәр, Ҹәбрајыл рајонлары), **Гозлу гобу** (Гәбәлә рајону, Мыхлыговаг кәнди), **Гозлу тәпә** (Тәртәр рајону), **Гозлудәрә** (Ағсу, Бабәк, Гах, Зәнкилан, Фүзули, Шәмкир рајонлары), **Гозлу чухур** (Кәлбәҹәр рајону) вә с.

## ГОЗЛУДӘРӘ

Азәрбајҹанда **гоз** биткисинин ады илә чохлу орографик објект адлары вардыр. Фүзули рајонунун Гараколлу кәнди әразисиндә гејдә

алынан **Гозлудәрә** ороними дә мәһз белә адлардандыр. Рајонун ҹәнубунда јерләшән бә'зи кәндләр **Гозлудәрәдә** јерләшир. Бу әразиләрдә **гоз** ағаҹынын бол олдуғу үчүн топоним белә адланмышдыр.

**Гоз** биткисинин ады илә республикамызда чохлу кәнд, гәсәбә, дәрә, дағ, көрпү, чај, булаг вә с. вардыр. Мәсәлән, **Гозлудаг** (Ағдәрә, Зәнкилан, Ҹәбрајыл, Шәки), **Гозлудәрә** (Ағсу, Бабәк, Гах, Зәнкилан, Товуз, Шәмкир), **Гозлукөрпү** (Кәлбәҹәрдә кәнд), **Гозлучај** (Шамахыда вә Фүзулидә чај), **Гозлубулаг** (Шәкидә гәсәбә), **Гозлу чухур** (Кәлбәҹәр), **Гозлу кәнди** (Кәлбәҹәр, Лачын), **Гозағачы кәнди** (Сијәзән), **Гозбабалы кәнди** (Дәвәчи), **Гозгаралы** (Кәдәбәј) вә с.

## ГОЗЛУЧАЈ, ГОЗЛУЧАЈ КӨЛҮ

Фүзули рајонунда узунлуғу 28 км, һөвзәсинин саһәси 100 кв. км олан чај. Аразын сол голу. 1520 метр һүндүрлүкдән, Гарабағ силсиләсинин јамаҹындан башланыр. Јағыш сулары илә гидаланыр. Әксәр вахт гурујур. Ахарлығы мүвәггәти олан Гозлучајдан сувармада кениш истифадә олунур. Әразидә **Гозлучај көлү** адланан һидроним дә гејдә алыныб. **Гозлучај** топоними **гоз** биткисинин ады илә бағлыдыр. Саһилләриндә чохлу **гоз** ағачлары, **гоз** бағлары олдуғу үчүн һидроним **Гозлучај** адланыр.

Тарихдән мә'лумдур ки, **Гозлучај** саһилиндә Сәфәви-Османлы мүһарибәләри заманы чохлу ганлы дөјүшләр олмушдур. 1604-ҹү илдә Кәнҹә бәјләрбәји Давуд Паша једди мин нәфәрлик гошуну илә I Шаһ Аббас тәрәфиндән Гарабаға көндәрилән Һүсејн хан Гаҹары **Гозлучај** әтрафында мәғлуб едәрәк ону кери чәкилмәјә мәҹбур етмишдир. **Гозлучај** вадисиндә чохлу мадди-мәдәнијјәт абидәләри ашкар олунмушдур.

XIX әсрә аид сәнәдләрдә Гарабулаг наһијәсинә дахил олан **Гозлучај обасы** тәркибиндә Манды, Рәфәдинли, Күзләк, Јоразыллы, Сарачыг, Әһмәдбәјли кәндләринин ады көстәрилир...

Шамахыда да **Гозлучај** адлы чај вар...



## ГОНАГКӨРМӘЗ

Һорадиз кәндиндә гејдә алынан орографик објектләрдән бири дә **Гонагкөрмәз** адланыр. Бурадакы һүндүр тәпәлијин архасы, **көрүнмәз** јери ел арасында **гонагкөрмәз** адландырылмышдыр. Бу ҹоғрафи ад илә бағлы бир чох рәвајәтләр дә вардыр...

## ГОРГАН КӘНДИ

**Горган кәнди** рајон мәркәзиндән 9 километр шәргдә јерләшир. Әһалиси үзүмчүлүк, һејвандарлыг, тахылчылыгла мәшғул олур. Кәнддә клуб, мәктәб, китабхана, мәсҹид (XIX әср) вә с. вардыр. Һазырда кәнд ишғал алтындадыр.

**Горган** сөзү "оддан горунмаг" мә'насыны дашыјыр. Тарихдән мә'лумдур ки, **Горган** адлы Иранын шимал-шәргиндә һәм вилајәт, һәм дә шәһәр мөвҹуд олуб. Хәзәрин гәдим адларындан олан *Ҹорҹан (Ҹурҹан)* **"коркан"** сөзүнүн әрәбҹә ифадәсидир. **"Коркан"** фарсҹа *"гурд"*, *"ҹанавар"*, *"ҹанавар јурду"* демәкдир.

**Горган обасы** мәнбәләрин вердији мә'луматлара көрә, **Һачылы** ичмасына гатылан шенликләрдән бәридир. Бу оба **Ајбасанлы** обасынын бир голудур. Сон орта әсрләр дөврүндә (бәјләрбәјлик дөнәминдә) **Горган** гышлаг јери олуб. Тарихи гајнаглар билдирир ки, бәјләрбәјлик дөнәминдә Ҹаваншир елинин Көчәрли ојмағынын Һачы Әли уруғу бу гышлагда әкинчиликлә мәшғул олурмуш. Бу мә'лумат 1727-чи илә аид Османлы гајнағында да өз әксини тапмышдыр. **Горган гышлағы** Дизаг наһијәсинә табе иди.

Ханлыг дөнәминдә (XVIII әсрин II јарысы - XIX әсрин әввәлләри) **Горган гышлағы** Һачылы ичмасынын гојун јатағы јери олуб. Бир мә'луматда дејилир ки, 1860-чы илдә Ајбасанлы обасындан олан милис прапоршики Алмурад бәј Мәммәдһүсејн оғлу өз гоһум-әграбасы илә бу јурда көчмүшдүр. XIX әсрин сонларында Горган гышлағынын саһиби Ҹүмшүд бәј Алмурад бәј оғлу олуб. 1873-ҹү илдә дөвләт тәрәфиндән сијаһыја алынма заманы **Горган** обасынын әһалиси Ајбасанлы (Ајыбасанлы) илә бирликдә јазылыб. 1886-чы илдә дә **Горган обасынын** әһалиси дөвләт тәрәфиндән сијаһыја алынмышдыр. **Горганлылар** Ҹаваншир елинин

**һачылы** ичмасынын бир голудур. Горганлылары монгол әсилли тајфа кими дә әлагәләндирәнләр вар...

Горган обасынын әһалиси әсасән һејвандарлыг вә әкинчиликлә мәшғул олурдулар. Бу обада бир нечә тајфа јашајырды. Бунлардан бири **Мәммәдһүсејнушағы тајфасы** иди. Бу тајфа XVIII әсрин сону вә XIX әсрин әввәлләриндә Ајбасанлы обасында јашамышдыр. Мәммәдһүсејнин **Алмурад, Атакиши** вә **Садыг** адлы оғланлары олмушдур. Алмурад 1818-чи илдә Ајбасанлы обасында доғулмушдур. Әввәл о, молла јанында охумуш, сонра чар үсул-идарәсиндә милис һеј'әтинә башчылыг едәрәк прапоршик, даһа сонра бәј рүтбәләри алмышдыр. Алмурад бәјин **Чүмшүд бәј** адлы оғлу, **Нәнәш ханым** адлы гызы олуб. Чүмшүд бәјин (1862-1922) **Чәмил бәј** адлы оғлу, Зивәр ханым адлы гызы варды. Һүсејнин икинчи оғлу Кәрбәлаји Атакиши (1820-1890) бәјин **Бабакиши, Алим, Әмираслан, Мустафа** вә **Ханлар** адлы оғланлары олубдур. Мәммәдһүсејнин үчүнчү оғлу **Садығын** (1822-1892) Әсәд, Меһди, Мәммәдһүсејн адлы оғуллары вар иди. Мәммәдһүсејн (1855-чи илдә доғулуб) аиләдә "Баба" чағырылдығы үчүн ел арасында ону **Баба кими** дә танызырдылар...

"Тарихин атасы" Һеродот (е.ә. V әср) вә чоғрафијачы алим Страбон (е. ә. I әср) Хәзәр дәнизиндән вә онун саһилиндә јашајан тајфа вә гәбиләләрдән бәһс едәркән **"гиркан", "гурган"** тајфасынын адыны чәкирләр. Ојконими XIII әсрдә монголларын тәркибиндә Азәрбајчана кәлмиш түрк мәншәли **гурган** тајфасынын ады илә дә бағлајанлар вар...

**Горган** сөзүндәки **"гор" - "од"** мә'насындадыр. **"Ган"** формасы исә етимоложи бахымдан мә'нача Азәрбајчан дилиндәки **"-чы", "-чу"** шәкилчиләринә ујғун кәлир. **"Ган"** формасы етимоложи бахымдан фарс дилиндә базирган, деһган вә с. сөзләрдә ишләнән Азәрбајчан дилиндәки **"-чы"** шәкилчисинин бирләшәрәк әмәлә кәтирдији сөзләрин мәзмунуна ујғун кәлир. Бә'зи алимләрин фикринчә, топоним монголларын тәркибиндәки **куркан** түрк тајфасынын адыны өзүндә әкс етдирир. Топоними **"гәбир-тәпә", курган** сөзү илә дә әлагәләндирирләр. Бә'зи арашдырычылар белә һесаб едир ки, **Горган (Күркан)** сөзүндәки **гор (күр)** - *"Гор аллаһы"*, **ган (кан)** термини исә гәдим түрк дилиндә **"хан", "шаһ", "ата"** анламындадыр...

**Горган** топониминә Күлтәкин абидәләриндә шимал-шәрг групу түрк гәбиләләриндән биринин ады кими **Курыкан (Гуриган)** формасында раст кәлмәк мүмкүндүр. **"Куркан"** сүн'и сурәтдә јарадылан *"гапы"* вә *"тәпә"* мә'насыны дашыјыр.

Һазырда **горган** термини илә бағлы Абшеронда **Күрканчај,** Талыш зонасында **Һиркан мешәлији,** Чәнуби Азәрбајчанда **Гурган** (индики Астрабад) шәһәри, Дәвәчи рајонунда **Горган кәнди,** Гах рајонунда **Горағaн кәнди,** Бакыда, Пираллаһыда **Күркән** адлы шәһәр типли гәсәбә вә с. вар.

## ГОТУР БУЛАГ

Рајон әразисиндә гејдә алынан һидронимләрдән бири **Готур булаг** адланыр. Бу булағын сујунун мүаличәви әһәмијјәти вар. Булағын сују бә'зи хәстәликләр, о чүмләдән, **готурлуг** хәстәлији үчүн јарарлы олдуғу үчүн ел арасында бу **булаг** белә адландырылмышдыр...

Түрк дилләриндә **готур** сөзүнүн "далғавары јүксәклик" мә'насы да вар. **Готур** сөзү илә бағлы Азәрбајчанда онларла топоним мејдана кәлиб...

## ГОЧ ДӘРӘСИ

Арајатлы кәнди әразисиндә гејдә алынан оронимләрдән бири **Гоч дәрәси** адланыр. Топонимин тәркибиндәки **дәрә** сөзү мәнфи релјеф формасы билдирән чоғрафи терминдир. **Дәрәләр** әсасән ахар суларын ерозија фәалијјәти нәтичәсиндә јаранан, хәтти истигамәтдә узанан вә талбег үзрә јекнәсәк, әксәрән гејри-бәрабәр енән мәнфи релјеф формаларыдыр. **Дәрәләр** јамач вә диб һиссәләрә ајрылыр. Оронимин тәркибиндәки **- си** шәкилчиси мәнсублуг ифадә едир.

**Гоч -** гојунларын төрәдичиләринә дејилир. Адәтән, дамазлыг кејфијјәтләринә көрә ән јахшы гочлардан истифадә едилир. Дамазлыг **гочлар** ајрыча сахланылыр вә һәр күн демәк олар ки, 5-6 саат кәзинтијә бурахылыр. Азәрбајчанда **гоч** һејван ады илә бағлы чохлу сајда чоғрафи ад гејдә алынмышдыр. **Гоч дәрәси** топоними һәмин дәрәдә тез-тез **гочларын** олмасы, кәзинтиси илә әлагәдар јаранмышдыр.

## ГОЧӘҺМӘДЛИ КӘНДИ

**Гочәһмәдли кәнди** рајон мәркәзиндән 8 километр чәнубда, Гарабағ силсиләсинин әтәјиндә, Фүзули-Чәбрајыл шоссе јолунун 3 километрлијиндә јерләшир. Мин нәфәрә јахын әһалиси вар. Әһалинин әсас мәшғулијјәти тахылчылыг, һејвандарлыг вә үзүмчүлүкдүр. Кәнддә орта мәктәб, китабхана, клуб, тибб мәнтәгәси, XVII-XIX әсрләрә аид көрпүләр, кәһриз (XIX әср), XVIII вә XIX әсрләрә аид ме'марлыг абидәси олан мәсчидләр вә с. вар. Гочәһмәдли зәһмәткешләри бәј вә хан зүлмүнә, чар мүстәмләкәчиләринә, харичи мүдахиләчиләрин һөкмранлығына гаршы һәмишә фәал мүбаризә апармышлар...

Кәндин ады ики компонентдән ибарәтдир: **гоч** бурада *"икид"*, *"чүссәли"*, *"гәһрәман"* мә'насындадыр, **әһмәдли** сөзү исә етнонимдир. *Гочәһмәдли* бу кәнддә илкин мәскунлашмыш нәслин адыдыр. Кәнд һазырда ишғал алтындадыр...

1593-чү илә аид Османлы гајнағына көрә, Ҝәнчә-Гарабағ әјаләтинин Дизаг наһијәсиндә **Гочәһмәдли** адлы кәнд мөвчуд олмушдур. Сонракы дөнәмләрдә дә **Гочәһмәдли** кәндинин ады чәкилир. 1727-чи илә аид олан "Ҝәнчә-Гарабағ әјаләтинин мүфәссәл дәфтәри" тарихи сәнәдиндә Гочәһмәдли кәндинин дә ады вар. Бә'зи тарихи гајнагларда кәндин адына **Көчәһмәдли** (јашајыш мәнтәгәсинин адынын гәдим формасы) шәклиндә дә раст кәлирик. Вахтилә (Ханлыг дөнәминдә) Хырдапара-Дизаг наһијәсинә табе олан кәндләр сијаһысында бу јашајыш мәнтәгәсинин дә ады варды. XVIII әсрдә кәндин ковхасы Әли аға Шаһверди аға оғлу олуб. О, Уста Вәлимәммәд аға Дизағинин нәвәси иди...

1797-чи илдә Ағамәһәммәд шаһ Гованлы-Гачарын Гарабағда јандырдығы кәндләрин сијаһысында **Гочәһмәдли** вә Сәрдарлы кәндләринин дә ады вар. 1823-чү ил билкисинә (камерал сорғу) көрә кәнддә **37**, 1842-чи илдә **42**, 1849-чу илдә **47**, 1863-чү илдә **62**, 1873-чү илдә **80**, 1886-чы илдә **85** түстү олмушдур.

**Гочәһмәдли кәнди** тарихән мәрд инсанлары илә зәнкин олмушдур. XX әсрин әввәлләриндә бу кәнддән Ханлар Сәфәрәлијев, Ҝәнчәли Сәфәрәлијев, Мирзалы Сәфәрәлијев, Мәммәдхан



Мәммәдханов, Зүлфүгар Һүсејнов, Әбил Мәммәдов, Мәммәдгулу Мәммәдов, Һејдәр Һејдәров кими фәһлә һәрәкатынын өнчүлләри, мәшһур ингилабчылар чыхмышдыр.

Гочәһмәдли кәндинин **ковхалы, дәлләкли, кәрбәлаји-мәммәдгулулар, аллаһверәнләр, гарамәммәдлиләр, мәммәдханлылар, сәфәрәлиләр, будаглылар, очаггулулар, мустафалар, аллаһвердиләр, бајрамлылар, аллаһјарлылар, намазлылар, мусалар, гарадағлылар, әлишаһвердиләр, мурадәлиләр** вә башга тајфалары вардыр...

XIX әсрдә рус үсул-идарәси дөнәминдәки 1823-чү ил камерал сијаһыја алынмаја көрә Гочәһмәдли кәндиндә јашајан әһали һаггында үмуми сијаһы (23 түстү верки өдәјирди) верилмишдир. О заман кәндин ковхасы Мәшәди Һачы бәј Вәлимәһәммәд аға оғлу иди. Әввәлләр кәндин ковхасы онун атасы олмушдур. 1840-чы илләрдә кәндин ковхасы Кәрим бәј Вәлимәһәммәд оғлу, ондан сонра Мәшәди Мәммәдәли јүзбашы Әскәр оғлу олуб. 1842-чи ил тарихли сәнәдләринә көрә кәнддә бәј рәијјәтләри вә дөвләт кәндлиләри дә јашамышлар: Гушчу Јусиф бәј Кәрбәлаји Имамверди бәј оғлу Чуварлынын, полковник Чәфәргулу хан Мәһәммәдһәсән аға оғлу Сарычалы - Чаванширин, Әбдүләзим бәј Әбдүррәһман бәј оғлу Чәбрајыллынын кәндхуда Әбдүррәһим бәј Ибраһим аға оғлу Гарғабазарлынын рәнчбәрләри вә рәијјәтләри...

## ГОША БУЛАГ

**Гоша булаг** һидроними Фүзули рајону әразисиндә гејдә алынмыш чоғрафи адлардандыр. Бу булағын чох сојуг вә шәффаф сују вар. Һидроним **гоша** вә **булаг** сөзләриндән ибарәтдир. **Булаг** апелјативи илә бағлы Азәрбајчанда јүзләрлә һидроним гејдә алыныб. Топонимин тәркибиндәки **гоша** сөзү һәмин булагла јанашы, әразидә дикәр булағын да олмасыны ифадә едир.

## ГОШАКӘҺРИЗ

Һорадиз кәнди әразисиндә гејдә алынан ҹоғрафи адлардан бири **Гошакәһриз** адланыр. **Гошакәһриз** Тәпә кәһризи илә Мухтар кәһризинин бирләшдији јердәдир. Бурада Гараған тәпә јахынлығында, Дәли чајын кәнарында вахтилә пилләкәнли гују олмуш вә адамлар да пилләкәнләрлә дүшүб орадан су көтүрәрмишләр. Буранын сују чох ширин вә дуру иди...

## ГОШАЧИНАР

Ишыглы кәнди әразисиндә гејдә алынан орографик објектләрдән бири **Гошачинар** адланыр. **Гошачинар** ҹоғрафи ады **гоша** вә **чинар** сөзләриндән ибарәтдир. Топоним бурадакы 2 ҹанашы олан чинар ағачларынын ады илә әлагәдар оларат белә ад алмышдыр. Бу чинарларын јашы 500 илдән чохдур. Чинарын биринин коғушунун узунлуғу 5 метрдир. О бири чинар ағачынын да көвдәси 3 метрдән чохдур. Мүтәхәссисләр бу чинарларын 500 иллик тарихи олдуғуну еһтимал едирләр...

## ГУМГАЗЫЛАН

Ишыглы кәндинин Гарғабазар тәрәфә олан истигамәтиндә јерләшән тәпәчик јерли әһали тәрәфиндән **Гумгазылан** адландырылмышдыр. Һәмин әразинин торпаг сухурлары газыланда **гум** кими овулдуғундан белә адландырылмышдыр...

## ГУРДЛУ БУЛАГ

Адынын тәркибиндә **булаг** һидронимик апелјативи олан ҹоғрафи адлардан дири дә Фүзули рајонунун Һорадиз кәнди әразисиндә гејдә алынмыш **Гурдлу булаг** топонимидир. Һидроним **гурд** вә **булаг** сөзләриндән, еләчә дә, **-лу** шәкилчисиндән ибарәтдир. **Гурдлар** - бәдән дивары дәри вә әзәләдән ибарәт олан онурғасыз һејванлар групудур. Јералты суларын јерүстү тәбии чыхышына **булаг** дејилир. **Булаглар** температуруна көрә сојуг, илыг, термал (исти) вә һипотермал (чох исти) олур. Булаг **гурдлу** олдуғу үчүн белә адландырылмышдыр.

## ГУРУЧАЈ
## (Гуручај мәдәнијјәти)

Фүзули вә Хоҹавәнд рајонларында чај. Араз чајынын сол голу, узунлуғу 82 км, һөвзәсинин саһәси 512 кв. км-дир. Гуручај өз мәнбәјини 2725 метр һүндүрлүкдән Бөјүк Кирс дағындан көтүрүр. **Гуручај** әсасән јағыш сују илә гидаланыр. Аллы вә Ишхан чајларынын бирләшмәсиндән әмәлә кәлән Гуручајын сујундан сувармада кениш истифадә олунур. Јај ајларында чајын сују азалыр, бә'зән дә тамамилә **гурујур**. Бәлкә дә, бу сәбәбдән чај белә адланыр.

Ики милјон ил бундан әввәл **Гуручај** бәшәр тарихиндә илк икиајаглынын јеримәсинин, бу ҹанлынын ајаг үстдә ирәлиләмәсинин "шаһиди олуб". Гуручајын сол саһилиндә јарымтүклү бәдәнләри там чылпаг, голлары мүасир инсан голундан узун, чәнәси ирәли чыхан, мејмундан даһа чох инсана охшајан икиајаглылар мәскән салмышлар. Өлкәмизин ән гәдим сакинләри (Азых мағарасы сакинләри - *Н.Тапдыгоглу*) јүз мин илләр бундан әввәл Гуручај вадисиндә јашамышлар.

Азыхантропун мәскәни Азых мағарасы Гуручајын сол саһилиндә јерләшдијинә көрә мағарадан ашкар едилән гәдим даш дөвру нүмунәләринин тәһлилини тәдгигатчылар **"Гуручај мәдәнијјәти"** адландырырлар. Гуручај мәдәнијјәтинин 1,2 милјон ил бундан әввәл башландығы, 700 мин ил әввәл сона чатмасы мүәјјән олунуб...

XX әсрин 20-чи илләринин орталарында көркәмли археолог, етнограф алимимиз Ә.Әләкбәров јерли әһалинин һәјат тәрзини өјрәнмәк мәгсәдилә Гуручај вадисиндә тәдгигат ишләри апараркән, өлкәмизин әразисиндә илк дәфә күп гәбирләринә раст кәлмиш вә бунунла да әввәлләр мөвчуд олан еһтималлары хејли дәгигләшдирмишдир. **Гуручај дәрәси** бир тәрәфдән Гарабағын дағәтәји әразиси илә, дикәр тәрәфдән исә Мил дүзү илә әһатәләнмишдир.

**Гуручај вадиси,** Азых вә Тағлар мағаралары јерләшән әразидән ибтидаи инсанлар әмәк аләтләри һазырламаг үчүн хаммал мәнбәји

кими истифадә етмишләр. Өлкәмиз әразисиндә **Гуручај мәдәнијјәти** ән гәдим археоложи мәдәнијјәт һесаб олунур. Тәдгигатлар нәтиҹәсиндә **Гуручај мәдәнијјәти** дөврүндә гәдим инсанларын овчулуг вә јығычылыгла мәшғул олмалары мүәјјән едилмишдир. Азәрбајҹан әразисиндә бәшәр тарихи Гуручај мәдәнијјәти дөврүндән башланыр.

**Гуручај** оронимисујунун режим хүсусијјәтләринә көрә адландырылан оронимләрдәндир. Гуручај орографик објектинин адындакы **"гуру"** сөзү јајда чајын гурумасына ишарә олараг *"сусуз чај"* мә'насындадыр.

Губа вә Хачмаз рајонлары әразисиндә дә **Гуручај** адлы чај вардыр.

## ГУШОТУРАН

Азәрбајҹанда гуш һејван ады илә бағлы онларла ороним гејдә алынмышдыр. Онлардан бири дә Фүзули рајонунун Әбдүррәһманлы кәнди әразисиндә гејдә алынмыш **Гушотуран** ҹоғрафи адыдыр. Топоним һәмин саһәдә **гушларын** еніб **отурмасы** илә әлагәдар јаранмышдыр.

**Гушлар -** дәриси назик вә икитәбәгәли, сүмүк төрәмәләри вә вәзиләри олмајан, өртүҹү чалма, сукан вә өртүҹү ләләкләрдән вә пәргудан ибарәт олан онурғалы һејван синфидир. **Гуш** ады илә бағлы топонимләрә Азәрбајҹанын демәк олар ки, бүтүн бөлкәләриндә раст кәлмәк мүмкүндүр.

Фүзули рајонунун Һорадиз кәнди әразисиндә дә **Гушотаран** оронимине раст кәлирик...

## ГУШТӘПӘ ДАҒЫ

Азәрбајҹанда гушларын (орнотофауна) ады илә бағлы бир чох ҹоғрафи адлар јаранмышдыр. Белә адлардан бири дә Фүзули рајону әразисиндәки **Гуштәпә** дағыдыр. **Гуштәпә дағы** Көндәләнчај илә Гуручајын арасында јерләшир. Орада чохлу **гушун** олмасы илә әлагәдар олараг **дағ** белә адландырылмышдыр. Үмумијјәтлә, **"гуш"**



ады илә әлагәдар Абшеронда **Гушгаја,** Гусарда вә Бакыда **Гушгала,** Ордубадда **Гушдаш,** Гарадағда **Гушгаја,** Шаһбузда **Гушгајасы** дағ адлары мөвҹуддур. Лакин бу топонимләрин һеч дә һамысы **"гуш"** зоонимииилә әлагәдар дејилдир. Бу топонимләрин бәзиси гәдим түрк мәншәли **(гушчу, гушан, гуши)** тајфасынын адыны өзүндә әкс етдирир...

## ДАҒ ГОРУГ

Гозлучај дәрәси вадисиндә, Сарачыг кәнди јахынлығында гејдә алынан орографик адлардан бири **Дағ горуг** адланыр. Топоним **дағ** вә **горуг** сөзләриндән ибарәтдир. **Дағ** ҹоғрафи термини мүсбәт релјеф формасы билдирир. **Горуг -** тәбии һалда мүһафизә олунан әразидир, акваторијадыр. **Горуглар** тәбиәтин мүһафизәси формаларындан биридир, бурада мүхтәлиф тәбии зоналарын характер ландшафтлары вә с. тәбии комплексләр, онларын компонентләри мүһафизә олунур. **Дағ горуг** адланан јер чох көзәл сәчијјәви ландшафта маликдир...

## ДАҒГОРУГ

Гараколлу кәндиндән бир гәдәр гузејдә, Арыг булағы адланан мешә әразисиндә гејдә алынан оронимләрдән бири **Дағгоруг** адланыр. Бу јерләр тәбиәт етибары илә е'ҹазкар көзәллијә малик олан бир әразидир. Кәнддән бир гәдәр кәнарда јерләшмәји, **дағ** дөшүндә олмасы, әл-ајагдан узаглығы, тохунулмазлығы она **Дағгоруг** адыны вердириб. Ән исти јај күнүндә белә бураја кәләнн јолчу бир анын ичиндәҹә сәринләјәр. Јахын кәндләрин ҹамааты бураја мүгәддәс бир јер кими бахыр. Кәнд адамлары демәк олар ки, бурдакы һәр бир ағаҹын гајғысыны чәкир, она гуллуг едир. Чох күман ки, елә бу сәбәбдән дә **Дағгоруг** индијәдәк көзәл, бахымлы вә саламат галыб. Ел арасында "Әкиз булағы" адланан Арыг булағы Дағгоругдан ахыб кәлир. Гәдим кечмишин јадикары олан Ширәвиш дашы **Дағгоруг** әразисиндәдир.

## ДАДАШ БУЛАҒЫ

Јағлывәнд кәнди јахынлығында гејдә алынан һидронимләрдән бири **Дадаш булағы** адланыр. Булағын чох сојуг вә шәффаф сују вардыр. Һидроним **Дадаш** шәхс адындан вә **булаг** һидронимик апелјативиндән ибарәтдир...

## ДАШЛЫТӘПӘ АБИДӘСИ

Шүкүрбәјли кәнди јахынлығында **Дашлытәпә** дејилән јердә гејдә алынан орографик абидәләрдән бири дә **Дашлытәпә абидәси**дир. Бу абидә Дашлытәпәнин тән ортасындадыр. Јерүстү



һөркүсү ади чајлаг дашларындан тикилиб. Абидәнин јер сәтһиндән 40 см һүндүрлүкдә олан һиссәси галыр. Күман етмәк олар ки, онун дам өртүјү јухарыја галхдыгча јығылараг күмбәз формасында олуб. Абидәнин јерүстү һиссәсинин һүндүрлүјүнүн 3 метрдән чох олмасы еһтимал олунур.

Бу абидә-тәпә ел арасында мүгәддәс һесаб олунур. Јағыш вә гар сулары заман-заман абидәнин диварларыны учурмуш, онун



сәрдабәсини дағынтıја мә'руз гојмушдур. Сәрдабәнин јери тәсадүфән чобанлар тәрәфиндән тапылмышдыр. Сонра түрбәнин сәрдабәсини онун таван һиссәсиндән вуруб дешмишләр вә беләликлә, түрбәнин јералты һиссәси мә'лум олмушдур. Чох күман ки, вахты илә сәрдабәдә инсан скелетләри олуб.

Абидәнин јерүсту һиссәси ади чајлаг дашларындан даирәви формада, сәрдабәси исә аг әһәнк дашындан дузбучаглы формада тикилмишдир. Сәрдабәјә јеканә кириш баш тәрәфдәдир. Кириш гапысы бајырдан бир сал дашла бағлыдыр. Гапынын һүндүрлүјү 1,26 метрдир. Сәрдабәнин ени 3,5 м, узунлуғу 3,1 м, мәркәздән һүндүрлүјү исә 2,23 метрдир. **Дашлытәпә** абидәсинин сон орта әсрләрдә инша олундуғу күман едилир...

## ДӘДӘЛИ КӘНДИ

**Дәдәли кәнди** рајон мәркәзиндән 2 км ҹәнуб-шәргдә, Гарабағ силсиләсинин әтәјиндә, Фүзули-Ҹәбрајыл шоссе јолунун кәнарында јерләшир. Әһалиси мин нәфәрә јахындыр. Әһали үзүмчүлүк, һејвандарлыг вә с. илә мәшғул олур. Кәнддә мәктәб, клуб, китабхана, кәһриз, мәсҹид (XIX әср) вә с. вар. Тарихи мәнбәләрдән ајдын олур ки, **Ҹаваншир** елинин **дәдәли** адлы тајфасы олмушдур. Кәнди һәмин **дәдәли** нәслиндән олан аиләләр бурада салдығы үчүн о, белә адланмышдыр. **Дәдәли** јашајыш мәнтәгәси **23 август 1993-ҹү ил** тарихдә ерменләр тәрәфиндән ишғал едилмишдир. Кәнд һазырда ишғал алтындадыр.

**Дәдәли ојмағы** Аразбар санҹағында јашајан **Ҹаваншир** елинә бағлы ојмагдыр. Тарихдән сүзүлүб кәлән гајнаглара әсасән, XVII әсрдә **Ҹаваншир ојмағы** кетдикҹә күҹләнәрәк, **отуз ики** елинин тәркибиндән чыхыб мүстәгил олду. Әкәр биз Ҹаваншир ојмағыны 1593-ҹү ил Османлы гајнағында **Отузики** елинин тәркибиндә көрүрүксә, 1727-ҹи илә аид гајнагларда ону 25 ојмагдан ибарәт бөјүк бир ел кими көрүрүк. Һәмин ојмагларын ичәрисиндә Аразбар кәзасында, Ханархында јашајан **Дәдәли** ојмағынын да ады вардыр. Ҹаваншир елинин **Дәдәли ојмағы** Дизаг наһијәсинин гуртарачағында, Көндәлән чајынын кәнарында әсасән, әкинчиликлә мәшғул олурду. Бу ојмағын әһалиси јајы Ирәван әјаләтинин сәрһәд

әразиләриндәки Әјридәрә вә Сарыјар адланан јерләрдә јајлардылар. **Дәдәли** ојмағынын башчысы Әли аға Һүсејн аға (XVII әсрин сону - XVIII әсрин 50-чи илләри) оғлу иди...

Кәндин **һүсејнлиләр, әлиләр, әлимәрданлылар, хангулулар, әлифханлар, бәјвәлиләр, һүсејнханлылар, поладлар, гулулар, гылычханлар, мәрданханлар, фәрзәндләр, мирзәшәрифлиләр, аллаһвердиләр, күлмәһәммәдлиләр, чаванширләр, имамәлиләр, аллаһјарлылар, әзизәлиләр, әлибәјлиләр** вә с. тајфа-тирәләри вардыр...

Бир мә'лумата көрә, 1501-чи илдә Шаһ Исмајыл Хәтаи Әбдал бәј **Дәдәни** Әмир әл Үмарә ("әмирләрин әмири") вәзифәсинә тә'јин етдикдән сонра она торпаг саһәләри титул вермишди. Чох күман ки, **Дәдәли** адлы кәндләр һәмин әмирин ады илә бағлыдыр... **Дәдәли** адлы кәнд Ағсу вә Хачмаз рајонларында да вардыр. Вахтилә Ирәван губернијасынын Шәрур-Дәрәләјәз гәзасында (Талыш рајону) да **Дәдәли** адлы кәнд мөвчуд олуб...

## ДӘДӘЛИ КӘҺРИЗИ

Дәдәли кәнди әразисиндә гејдә алынан һидронимләрдән бири **Дәдәли кәһризи** адланыр. Бу кәһризин үзәриндә вә әтрафында мәгсәдли тикинти ишләри апарылмыш вә о, тарихи абидәјә чеврилмишдир. Кәһризләр адәтән, пешәкар кәнканлар тәрәфиндән газылларды. Бу **кәһриз** јерләшдији кәндин ады илә әлагәдар олараг белә адланмышдыр. **Дәдәли кәһризи** дә ермәниләр тәрәфиндән зәбт олунуб, мурдарланыб...

## ДӘЈИРМАН БОЈУ

Дөрдчинар вә Һорадиз кәндләри арасында гејдә алынан орографик објектләрдән бири **Дәјирман боју** адланыр. **Дәјирман** һәм дә Дөрдчинар кәһризинин сују илә ишләјирди. Мүәјјән механизмлә (әл илә һәрәкәт етдирилән, чалышдырылан ағач вә с.) дән, буғда, тахыл үјүдән мүәссисәјә **дәјирман** дејирләр. Дәјирманын јерләшдији узун чөкәклик ел арасында **Дәјирман боју** адланмышдыр...



## ДӘЈИРМАНТӘПӘ ДАҒЫ

Фүзули рајону әразисиндә, Араз чајынын саһилиндә јерләшән даг **Дәјирмантәпә** *дағы* адланыр. *Дага* **Дәјирмантәпә** топониминин адынын верилмәси дағын әтәјиндә кечмишдә **дәјирман** олмасы илә әлагәдардыр. **Дәјирман** сөзү илә әлагәдар оронимләрин чоху ојконимләрә чеврилиб. Мәсәлән, Дәјирмандағ (Ханлар рајону), Дәјирмантәпә (Ағчабәди рајону), Дәјирмандәрә (Шәки рајону) вә с.

## ДӘЛИ ЧАЈ

Фүзули рајонунун Һорадиз кәнди әразисиндән ахан чајлардан бири дә **Дәли чај** адланыр. **Дәли чај** өз мәнбәјини Кичик Гафгаз дағларынын әтәкләриндәки тәпәликләрдән көтүрүр. **Дәли чај** кур јағыш јағанда кәлир. **Чај** һәрдән јағышын курлашан заманында **"дәлилик"** етдији үчүн ел арасында белә адландырылмышдыр. Белә "дәлилијин" бири 27 октјабр 1957-чи ил тарихдә ахшам саат 21 радәләриндә олмушдур. Һәмин вахт гыжылты илә ахыб селләнән **Дәли чај** Һорадиз кәндини ағушуна алыб ону су алтында гојду, күчлү сел онларла еви јерлә јексан етди. Көзләмәдикләри бу фәлакәтдән һүндүр тәпәләрә гачыб чаныны гуртармаг истәјән кәнд сакинләри өлүмдән сығорталана билмәдиләр. Бу дашгын 11 адамын өлүмүнә сәбәб олду. Јерли әһали елә бу кими *дәлиликләринә* көрә бу чајы белә адландырмышлар.

## ДӘЛИЧАЈ ГОБУСУ

Фүзули рајонунун Һорадиз кәнди јахынлығында гејдә алынан оронимләрдән бири дә **Дәличај гобусу** адланыр. Бу ороним һидронимлә (**Дәличај**) ифадә олунмушдур. **Гобу** компоненти *"чөкәклик"*, *"су ахан дәрә"*, *"гурумуш чај јатағы"* вә с. мә'налар дашыјыр. Оронимин тәркибиндәки **-су** шәкилчиси мәнсублуг билдирир...

## ДИВ МАҒАРАСЫ

Гачар кәнди јахынлығында гејдә алынан орографик објектләрдән бири дә **Див мағарасы** адланыр. **Мағара** - јер габығынын үст гатында јер сәтһиндән бир вә ја бир нечә кириши олан ири бошлугдур. Даш дөврүндән башлајараг инсанларын јашајыш мәскәнләри олан мағаралара Азәрбајҹанда каһа вә ја заға да дејирләр. Гәдим инсанлар мағаралары әлә кечирмәк үчүн орада јашајан јыртычы һејванларла мүхтәлиф формада мүбаризә апармышлар...

Бир сыра Шәрг халгларынын, о ҹүмләдән, азәрбајҹанлыларын фолклорунда гаранлыгла бағлы олан мәнфи әсатирли сурәтә, хәбис руһа, илаһи мәхлуга **див (дев)** дејилир. Азәрбајҹан нағылларында 3, 4, 7, 40 башлы нәһәнк, ејбәҹәр, горхунҹ, садәлөвһ бир варлыг сурәтиндә тәсвир олунан **див** мәнфи образ кими өз әксини тапыб. **Див мағарасынын** јахынлығында бир нечә тонлуг ағыр сал даш вар. Јерли мә'лумата көрә бу дашы бураја *див* атыб. Әлбәттә, бу, әсатирлә, мифлә бағлыдыр...

## ДИВАНАЛЫЛАР КӘНДИ

**Диваналылар кәнди (Ашағы Диваналылар)** рајон мәркәзиндән 16 км шимал-гәрбдә, Гачар кәнди јахынлығында, Гарабағ силсиләсинин әтәјиндә јерләшир. Әһалиси бостанчылыг, һејвандарлыг, тахылчылыг, үзүмчүлүклә мәшғул олур. Кәнддә XIX әсрә аид олан түрбә вардыр. Кәнд ермәниләр тәрәфиндән ишғал олунубдур...

**Диваналылар** топоними **диваналылар** тирәсинин ады илә әлагәдардыр. 1717-ҹи илә аид олан "Кәнҹә-Гарабағ әјаләтинин мүфәссәл дәфтәри" адлы тарихи сәнәддә, 474-ҹү сәһифәдә Көрәз наһијәсинә табе олан **Диваналы** ("Дәфтәр"дә ады **Диванә Әли** кими көстәриб) кәндинин дә ады гејд олунмушдур. Һәмин тарихи сәнәддә кәнд үзрә дөнли биткиләрдән әлдә олунан кәлир 60.000 ағча көстәрилсә дә, һәмин дөнәмдә нәдәнсә кәнддә һеч кимин јашамадығы вурғуланыр...



Ојконимин ады бир чох сәнәд вә материалларда **Диваналлар, Дваналлар, Дуваналылар** вә с. кими дә өз әксини тапмышдыр. Кәнддән азаҹыг јухарыда ҹәми 10 евлик **Јухары Диваналылар** ојконими дә гејдә алынмышдыр. **Диваналылар** кәндләринин әһалиси әvвәлләр **Субһанвердиләр обасы** тәркибинә дахил иди. Јашајыш мәнтәгәсинин әvвәлки ады **Субһанвердибәјли** олуб...

## ДИЛАҒАРДА ГАРАДАМЫ

**Гарадам** типли биналар бүтүн Гафгаз халглары арасында, о ҹүмләдән дә, Гарабағда кениш јајылмышдыр. **Дилағарда** кәндиндәки 2 отаглы **Гарадам** типли тикинти бу әразидә кениш јајылмыш нөвләрдән һесаб олунур. Белә **дамларын** кениш јајылмасынын ән башлыҹа сәбәби ев саһибинә мәхсус олан һејванларын башга адамлар тәрәфиндән оғурланмасы тәһлүкәсинин гисмән арадан галдырылмасы иди. Белә биналар һәм гаргы-гамышла, һәм чиј вә бишмиш кәрпичлә касыб көрүнүшдә, һәм дә тәбии дашла тәмтәраглы шәкилдә тикилирди. Биналарын дам өртүјү саман, гамыш, тахта, сахсы, дәмир, шифер вә с. материалларла өртүлүрдү.

Фүзули әразисиндә белә тикилиләрдән XX әсрин 60-ҹы илләринә гәдәр истифадә олунмушдур. Бу тип **дам** өртүклү јашајыш биналарына Фүзули әразисинин Аран зонасында даһа чох тәсадүф олунурду. Бу **гарадам** тикилиси **Дилағарда** кәндиндә олдуғу үчүн **Дилағарда гарадамы** адланмышдыр.

## ДИЛАҒАРДА КӘНДИ

Рајон мәркәзиндән 13 км шималда, Гарабағ силсиләсинин әтәјиндә, Фүзули-Хоҹавәнд шоссе јолунун 1 километрлијиндә јерләшир. Мин нәфәрә јахын әһалиси вар. Кәнддә клуб, китабхана, орта мәктәб, тибб мәнтәгәси вә с. вардыр. Һазырда кәнд ермәниләрин ишғалы алтындадыр...

Рајон әразисиндә **Дилағарда** сөзү илә бағлы 3 кәнд вардыр: биринчи **(Дилағарда кәнди)** ад сәрбәст бурахылмыш, икинчисинә фәргләндиричи әламәт кими јахынлығындан ахан Араз чајынын

ады **(Араз Дилағарда кәнди)** верилмиш, үчүнчүсүнә исә һәмин әразидә мөвчуд олан су објектинин нөвүнү көстәрән **гобу** **термини** **(Гобу Дилағарда кәнди)** әлавә едилмәклә тәкләндирилмиш вә макроареал системиндә сабитләшдирилмишдир.

Кәндин ады Азәрбајчанын гәдим **гарагојунлу** тајфа иттифагына дахил олан **дилағарда** тирәсинин ады илә әлагәләндирилир. Әсасән гојунчулуг вә малдарлыгла мәшғул олан **дилағардалылар** әввәлләр Ҹәнуби Азәрбајчан вә Талыш зонасында јашајырдылар. Бә'зи мә'луматлара әсасән онларын бир һиссәси XV әсрин сонларында Ағгојунлу зүлмүнә көрә Араз чајыны кечиб индики Фүзули рајону әразисиндә мәскунлашмышлар. Һәмин тајфанын мүәјјән бир һиссәси дә 1820-чи илдә Азәрбајчанын шималында, Фүзулидә мәскунлашды. Онлар јајы Талыш силсиләсиндә, гышы исә Ҹәнуби Азәрбајчан әразисиндә (Муғанда) кечирирдиләр. **Араз Дилағарда** вә **Гобу Дилағарда** кәндләрини дә **дилағардалылар** салмышлар.

Әлавә материал үчүн бах: (**Араз Дилағарда** вә **Гобу Дилағарда** кәндләри).

## ДИЛАҒАРДАТӘПӘ

Рајон мәркәзиндән 12 км шималда, Гарабағ силсиләси әтәкләриндә дағ. **Дилағардатәпә** топоними **Дилағарда** (тајфа вә кәнд ады) вә **тәпә** сөзләриндән ибарәтдир. Дилағарда кәнди јахынлығында јерләшән Дилағардатәпәнин һүндүрлүјү 162 метрдир. Бә'зән оронимин адыны **Дәлигарлытәпә** кими дә јазырлар. Анчаг о, сәһвдир. Әсл ады кәндин ады илә әлагәдар **Дилағардатәпә**дир.

Тәдгигатчыларын кәлдикләри гәнаәтә көрә, **Дилағардатәпә** ороними **дилағарда** етнониминдән вә мүсбәт релјеф формасы билдирән **тәпә** чоғрафи термининдән ибарәтдир. Мәншә етибары илә **дилағарда** тајфасы **Гарагојунлу** тајфа иттифагына дахилдир. Тарихи мә'хәзләрин мә'луматына көрә **Дилағарда** тајфасы орта әсрләрдә Ҹәнуби Азәрбајчанда бир нечә әср јашамышлар. 1820-чи илләрдә онларын бир һиссәси Шимали Азәрбајчана кәлмишләр. Кәлән тирәләр әсасән индики Фүзули рајонунун әразисиндә мәскунлашмышлар. Јахынлыгдакы бу **тәпә** дә аз сонра **дилағарда** тајфасынын ады илә адландырылмышдыр.



Бу тајфанын адыны өзүндә әкс етдирән микротопонимләрә нүмунә олараг Масаллы рајонунун Дәмбәлов кәнди јахынлығындакы **Дирағарда дағы, Дирағарда дәрәси, Дирағарда јохушу** (көрүндүјү кими, оронимләрин адында **л-р** сәс әвәзләнмәләри вардыр) вә с. чоғрафи адлары көстәрмәк олар...

## ДОГГУЗДӘРӘ, ДОГГУЗДӘРӘ КӨБӘРИ

Рајон мәркәзиндән 9 километр ҹәнубда јерләшир. Оронимләрин характерик хүсусијјәтләриндән бири дә онларда сај билдирән сөзләрин кениш ишләнмәсидир. Сај билдирән сөзләр бир гајда олараг оронимләрин биринчи һиссәси јериндә ишләнир.

**Доггуздәрә, Доггуздәрә көбәри** рајонун Сарачыг кәнди јахынлығында гејдә алыныб. **Көбәр** сөзү *"дик јер", "дикдир"* мә'насындадыр. **Дәрә** - мәнфи релјеф формасы билдирән чоғрафи терминдир.

Гәбәлә рајонунда да **Доггуздәрә** адлы топоним мөвчуддур.

## ДӨВЛӘТЈАРЛЫ КӘНДИ

Дөвләтјарлы кәнди рајон мәркәзиндән 3 километр шималда, Көндәләнчајын сол саһилиндә, Гарабағ силсиләсинин әтәјиндә, Фүзули-Хочавәнд шоссе јолу кәнарында јерләшир. Әһалисинин сајы 1300 нәфәрә јахындыр. Әһалиси һејвандарлыг, тахылчылыг, үзүмчүлүк вә барамачылыгла мәшғул олур. Кәнддә мәктәб, клуб, китабхана, тибб мәнтәгәси, даш кархханасы вә с. вар. Кәнддә **јадикарлылар, бајрамгулулар, мурадлылар, сисјанлылар, мамырлылар, бәјазлылар, чамаллар, меһдиләр, хыдырлылар, гүрбәтлиләр, әлилиләр, сүлејманлар...** кими тајфа вә тирәләр вардыр.

Кәнди **дөвләтјарлы** (*дөвләт* сөзү әрәб дилиндә *"вар-дөвләт, зәнкинлик"* демәкдир) нәслиндән олан аиләләр салдығы үчүн о, белә адланмышдыр. Кәнд һазырда ишғал алтындадыр.

XVIII әсрә (1727-чи ил) аид "Кәнчә-Гарабағ әјаләтинин мүфәссәл дәфтәри"ндә 469-чу сәһифәдә кәндин ады **Дөвләтјар** шәклиндә јазылмыш вә "Дәфтәр"дә бәһс олунан һәмин дөнәмдә нәдәнсә кәнддә һеч кимин јашамадығы, амма дәнли биткиләрдән әлдә едилән верки рүсумунун 9.600 ағча олдуғу гејд едилмишдир.

1728-чи илә аид олан тарихи мә'хәздә Ирәван әјаләтинин Ширакел наһијәсиндә **Дөвләтјар** адлы (башга ады **Тәркүл)** кәндин дә productive ады чәкилир...

## ДӨРДТӘПӘ ДАҒЫ

Рајон әразисиндә јүксәкликләрдән бири **Дөрдтәпә дағы** адланыр. Азәрбајчанда орографик објектләрин бәзиләринә сајына көрә ад верилмишдир. **Дөрдтәпә** компоненти дә белә саја көрә адландырылан оронимләрдәндир. Јүксәклијин ады **дөрд** вә **тәпә** сөзләринин бирләшмәсиндән әмәлә кәлмишдир. Јүксәклик ону әһатә едән тәпәләрин **4** әдәд олмасына көрә белә адландырылмышдыр. **Дағ** чоғрафи термини мүсбәт релјеф формасы билдирир.

Ағдамын Чәваһирли кәндиндә дә **Дөрдтәпә** адлы дағ вардыр.

## ДӨРДЧИНАР БАҒЫ

**Дөрдчинар бағы** орографик објекти Фүзули рајонунун Һорадиз кәнди илә Дөрдчинар кәнди әразисиндә гејдә алынмышдыр. Бағда чохлу мејвә ағачлары вардыр. Бу **бағ** јахынлыгдакы **Дөрдчинар** кәндинин ады илә әлагәдардыр.

## ДӨРДЧИНАР КӘНДИ

Фүзули рајонунда, рајон мәркәзиндән 17 километр чәнуб-шәргдә, дүзәнликдә, Гарабағ силсиләси әтәјиндә јерләшән кәнд **Дөрдчинар** адланыр. Әһалиси әсасән һејвандарлыг, тахылчылыг вә үзүмчүлүклә мәшғул олур. Кәнд гәдимдән **дөрд** дәнә уча **чинар** ағачы олан әразидә салындығы үчүн белә адланыб.

Азәрбајчанда орографик објектләрин бәзиләринә сајына вә башга чәһәтләринә көрә ад верилмишдир. **Дөрдчинар** топоними дә белә гәбилдәндир. Чинарларын сајынын **дөрд** олмасына көрә кәнд белә адланыр. **Дөрдчинар кәнди** дә ишғал алтындадыр.

Дөрдчинар кәндинә XVIII әсрин сонларында Ирагдан да бир



нечә тирә вә нәсил кәлмишдир. Дөрдчинар кәндинин **хәләфлиләр, һүнкүтлүләр** вә с.тајфалары вардыр.

## ДӨРДЧИНАР КӘҺРИЗИ

**Кәһриз** - грунт суларыны топлајыб јер сәтһинә чыхармаг үчүн јералты гурғудур. Кәһризләр адәтән, пешәкар канканлар тәрәфиндән газылыр. XX әсрин орталары үчүн Азәрбајчанда 900-дән чох **кәһриз** олмушдур.

**Дөрдчинар кәһризи** Фүзули рајонун Дөрдчинар кәнди илә Мусабәјли кәнди арасында олдуғу үчүн бу һидроним ел арасында белә адландырылмышдыр. Кәһризин буз кими сојуг, көз јашы кими думдуру, шәффаф сују варды. Һәр өзүндән дејән чаван әл бармагларыны 1 дәгигә мүддәтиндә онун сујунда сахлаја билмәзди. Кур сулу **Дөрдчинар кәһризи** Дөрдчинар вә Һүнкүтлү кәндләринин әһалисини ичмәли су илә тә'мин едә билирди...

## ДӨРДЧИНАР КҮНЕЈИ

Рајон мәркәзиндән 17 км чәнуб-шәргдә, Һорадиз кәндиндә, дағәтәји әразидә гејдә алыныб. Бурада сај билдирән **дөрд** компоненти **"чинар күнеји"** оронимик термини илә бирләшиб јени бир спесифик ороним әмәлә кәтириб. Белә топонимләрдән Ағдам вә Ағдаш рајонларында да (Дөрдтәпә дағы) вардыр.

## ДУЛЛАР МӘҺӘЛЛӘСИ

Фүзули рајонунун Һорадиз кәндиндә гејдә алынан мәһәлләләрдән бири **Дуллар мәһәлләси** адланыр. Адындан да көрүндүјү кими, бу **мәһәлләдә** әсасән **дул** галмыш адамлар јашадығы үчүн кәнд әһалиси арасында мәһәллә **Дуллар мәһәлләси** адыны алмышдыр. Бөјүк Вәтән мүһарибәси илләриндә һәмин мәһәлләнин киши сакинләри чәбһәдән гајытмадыгларына, онларын һәјат јолдашларынын **дул** галдыгларына көрә јерли әһали мәһәлләни белә адландырмышлар.

## ЕДИЛЛИ ЈАЛЫ

Фүзули рајону әразисиндә, рајон мәркәзиндән 10 километр чәнуб-гәрбдә гејдә алынан орографик објект **Едилли јалы** адланыр. **Јал** - мүсбәт релјеф формасы билдирән чоғрафи терминдир. Адәтән, дағын ән һүндүр зирвәсинин јамачы оронимијада **јал** адланар. Азәрбајчанда тәркибиндә **јал** термини иштирак едән 600-дән чох чоғрафи ад гејдә алынмышдыр.

**Едилли** сөзү **јал**дан бир нечә километр мәсафәдә јерләшән кечмиш Һадрут рајонундакы ејниадлы кәнд ады илә әлагәдардыр. Республикамызын әразисиндә өз јахынлығындакы ојконимлә әлагәдар ад алмыш јүзләрлә ороним вардыр. **Едилли јалы** да бу тип оронимләрдәндир.

Топоним еһтимал ки, **едил (идил)** адланан гәдим түрк тајфасынын (башгырдларда **идил,** гырғызларда **едил,** гарагалпагларда **адил**) адындан вә **-ли** мәнсублуг ифадә едән шәкилчидән ибарәтдир. Түркдилли татар вә башгырдлар Волга чајына **Идел (Идил)** дејирләр. Вахтилә хәзәрләрин шәһәрләриндән бири дә бу тајфанын ады илә **Идил** адланырды...

## ЕДИЛЛИ СӘМТИ ЈАЛЫ

Гарабағ дағ силсиләсинин әтәјиндә, Фүзули рајон мәркәзиндән 9 километр чәнуб-гәрбдә гејдә алынан орографик објект **Едилли сәмти јалы** адланыр. **Едилли** Фүзули рајону илә һәмсәрһәд олан Хочавәнд (кечмиш Һадрут рајону) рајонунда кәнд адыдыр. Ојконум гәдим түрк тајфсы олан **едил** етнониминдән вә мәнсублуг ифадә едән **-ли** шәкилчисиндән ибарәтдир. **Едил** тајфа адына тарихи мәнбәләрдә бә'зән **адил, идил** формаларында да (гырғызларда **едил,** гарагалпагларда **адил,** башгырдларда идил) раст кәлирик. Түркдилли татар вә башгырдлар Волга чајына **Идел** дејирләр. Вахтилә хәзәрләрин шәһәрләриндән бири дә **едил (идил)** гәдим түрк тајфасынын ады илә әлагәдар **Идил** адланырды...

Топонимин тәркибиндәки **Јал** чоғрафи термини мүсбәт релјеф формасы билдирир. **Јал** термини илә бағлы республикамыз әразисиндә 600-дән чох ороним гејдә алыныб. **Јал** - *"дағын ән һүндүр зирвәсинин јамачы"* анламындадыр. Топонимин тәркибиндәки **сәмт** сөзү *"истигамәт"* мә'насы билдирир...



## ЕМИН ДӘРӘСИ

Гозлучај дәрәсиндә, Сарачыг кәнди јахынлығында гејдә алынан орографик објектләрдән бири **Емин дәрәси** адланыр. Азәрбајчан оронимијасында шәхс адларындан дүзәлмиш мүсбәт вә мәнфи релјеф формалары әсас јер тутур. Бунлара антропонимик оронимләр дејирик. Әксәр бу типли микрооронимләрин адларынын сонлуғу мәнсубијјәт шәкилчиси илә битир. **Емин дәрәси** чоғрафи ады да белә антропонимик микрооронимләрдәндир. **Дәрә** сөзүнүн сонундакы **-си** шәкилчиси мәнсублуг ифадә едир. Топоним *"Еминә мәхсус олан дәрә"* мә'насындадыр.

## ӘБДҮРРӘҺМАНЛЫ БУЛАҒЫ

Јухары Әбдүррәһманлы кәнди илә Ишыглы кәнди арасында гејдә алынан һидроним **Әбдүррәһманлы булағы** адланыр. Һидронимин тәркибиндәки **Әбдүррәһманлы** сөзү кәндин ады илә бағлыдыр. **Булаг** сөзү һидронимик апелјативдир. Бу булағы газыб тә'мир едән әслән Әбдүррәһманлы кәндиндән олдуғу үчүн јерли әһали арасында булаг **Әбдүррәһманлы булағы** кими адландырылмышдыр...

## ӘБДҮРРӘҺМАНЛЫ КӘНДИ

(Бах:**Ашағы Әбдүррәһманлы** вә **Јухары Әбдүррәһманлы** кәнди).

## ӘЗКИЛЛИ МЕШӘСИ

Фүзули рајонунда гејдә алынан оронимләрдән бири дә **Әзкилли мешәси** адланыр. Конкрет микро ареалда чохишләнән *Әзкилли мешәси* микротопоними еллипсијаја уғрајараг **Әзкилли** шәклинә дүшмүшдүр. Бу типли ҹоғрафи адлара Азәрбајҹанын бир чох рајонларында да раст кәлмәк мүмкүндүр...

## ӘЛӘКБӘР ЈАЛЫ

**Әләкбәр јалы** Фүзули рајонунда, дағәтәји әразидә јерләшир. Топонимијада оронимләрин һәм мүсбәт релјеф формалары вә һәм дә мәнфи релјеф формалары адларынын бир һиссәси шәхс адларына оронимик терминләрин әлавә олунмасы јолу илә дүзәлир. **Әләкбәр јалы** термини дә антропонимик оронимдир, јә'ни **Әләкбәр** шәхс ады илә бағлыдыр. **Јал** ҹоғрафи термини мүсбәт релјеф формасы билдирир...

## ӘЛӘСКӘРЛИ КӘНДИ

**Әләскәрли кәнди** Фүзули рајон мәркәзиндән 6 км шәргдә, дағәтәји әразидә јерләшир. Әһалиси әсасән үзүмчүлүк, тахылчылыг, һејвандарлыгла мәшғул олур. Кәнддә мәктәб, клуб, китабхана вә с. вар. Кәнд 1993-ҹү илин август ајында ермәни ишғалчылары тәрәфиндән ишғал олунмушдур.

**Әләскәрли** ојконимининин әсасыны шәхс ады **Әләскәр** компоненти тәшкил едир; **-ли** шәкилчиси исә мәнсублуг ифадә едир. Топоним *"Әләскәрин нәслиндән оланлар, әләскәрлиләр"* мә'насыны билдирир.

**Әләскәрли** топоними патронимик топонимдир. **Әләскәрлиләр** һачылыларын, маһмудлуларын бир голуну тәшкил едирләр.

**Әләскәрли** топоними илә бағлы Загаталада *(Әләскәр кәнди)*, Шәмкирдә *(Әләскәрли кәнди)* дә јашајыш мәнтәгәләри вардыр.



## ӘЛИҺУСЕЈНУШАҒЫ КӘНДИ

(Бах: **Мандылы кәнди**)

## ӘМИРАСЛАНЫН БАҒЫ

Дөвләтјарлы кәнди әразисиндә, Көндәлән чајы саһилиндә гејдә алынан орографик објектләрдән бири **Әмирасланын бағы** адыны алмышдыр. Бағда чохлу тут, алма, армуд, килас, киләнар, һејва, әрик, гоз вә нар ағаҹлары вардыр. Бурадакы тут ағаҹларындан барамачылыгда (ипәкгурду) кениш истифадә олунмушдур. **Бағ** онун јарадыҹысы олмуш **Әмираслан** адлы бир шәхсин ады илә әлагәдар олараг белә адландырылмышдыр. Топоним *"Әмираслана мәхсус олан бағ"* анламындадыр...

## ӘНЧИЛДӘРӘ

Билдијимиз кими, республикамызда мејвә ағаҹы нөвләри ады илә дүзәлән оронимләр, фитооронимләр чохдур. Бизим атабабаларымыз дағдаған, зоғал, чинар, ҹевиз ағаҹлары илә бирликдә **әнҹир** ағаҹыны да мүгәддәс һесаб етмишләр. "Онлары кәсән, јандыран сағ чан көрмәз" - дејәрләр. Һәм дә дејирләр ки, *әнҹир* вә ҹевиз ағаҹларынын дибиндә јатан ја хәстәләнәр, ја да ону вурғун вурар...

Оронимијамызда **әнҹир** биткисинин адыны өзүндә әкс етдирән орографик објектләр сырасында Фүзули рајон мәркәзиндән 18 км шәргдә, Алханлы кәндиндә јерләшән **Әнчилдәрә** топониминин дә ады вар. Һәмин **дәрәдә** чохлу **әнҹир** јетишдирилир. Елә бу сәбәбдән дә ороним белә ад алмышдыр.

**Әнҹир** биткисинин ады илә бағлы Зәнкиланда **Әнҹир гајасы,** Ҹәбрајылын Говшутлу кәндиндә **Әнҹирли дөш,** Гарадағ, Ҹәбрајыл, Зәнкилан, Губадлы рајонларында **Әнҹирли дәрә** вә башга оронимләр дә мөвчуддур...

## ӘНЧИРЛИ ДӘРӘ

**Әнчирли дәрә** ороними **әнчир** сөзүндән, **-ли** шәкилчисиндән вә **дәрә** термининдән ибарәтдир. **Әнчирли дәрә** фитоороними Фүзули рајонунун Гачар кәнди јахынлығында гејдә алыныб. **Дәрә** мәнфи релјеф формасы билдирән ҹоғрафи терминин иштиракы илә Азәрбајҹанда чөл материаллары ичәрисиндә 30.000-дән чох орографик објект гејдә алынмышдыр. **Әнчирли дәрә** топоними һәмин чөкәкликдәки әразидә, дәрәдә **әнчир** ағачларынын чохлуғу илә әлагәдар белә адландырылмышдыр.

Белә гисим оронимләрә Азәрбајҹанын Абшерон, Бәрдә, Зәнкилан, Хочавәнд вә Ҹәбрајыл рајонларынын әразиләриндә дә раст кәлирик...

## ӘППӘКЛИ

**Әппәкли** орографик објекти Фүзули рајонунун Јухары Әбдүррәһманлы кәндинин 4-5 километрлијиндә гејдә алыныб. **Әппәкли** сөзүнүн әски түрк дилләриндә "чөрәкли" анламы вар. Бу јерләрдә әкилән тахыл бол, јахшы мәһсул вердијинә көрә ороним белә адландырылмышдыр. **Әппәкли** јеринин торпағы һәгигәтән дә чох мәһсулдардыр...

## ӘРКҮНӘШ ДАҒЫ

**Әркүнәш дағы** Фүзули рајонунун Хочавәндлә сәрһәд әразисиндә (Арыш, Гочәһмәдли, Хырманҹыг кәндләри јахынлығында), рајон мәркәзиндән 9 км ҹәнубда, Гарабағ силсиләсинин әтәјиндә јерләшир. **Әркүнәш** топониминдәки **"әр"** сөзү түрк дилиндә *"јүксәк"*, *"икид"*, *"һүндүр"* вә с. мә'насындадыр. Бә'зиләринә көрә, **"әр"** компоненти түрк дилләриндә *"кәдик"* мә'насында ишләдилән **"ар"** сөзү илә әлагәдардыр. Јерли әһали дағын адыны **Аркүнәш** формасында да тәләффүз едир. **Әркүнәш дағы** јахынлыгда олан дағлардан даһа һүндүр олмасына вә күнәш шуасынын даһа тез онун зирвәсинә дүшмәсинә көрә белә адланмышдыр...



## ӘСӘДУЛЛАҺ БӘЈ КӘҺРИЗИ

Азәрбајҹан топонимијасында шәхс адларындан јаранмыш һидронимләр чохдур. Онлардан бири дә Фүзули рајонунун Сәрдарлы кәнди әразисиндә гејдә алынан **Әсәдуллаһ бәј кәһризи** һидронимидир. Кәһризин үстү дағдаған ағаҹлары илә әһатәләнмишдир. Кәндин молласы Молла Гәдиргулунун еви кәһризин јанында иди. Кәһризин үзәриндәки дашда әрәб әлифбасы илә јазы да вар. **Кәһризи** кәндин ковхалылар тајфасындан олан **Кәрбәлаји Әсәдуллаһ бәј** Әли бәј оғлу тикдирдијинә көрә һидроним белә ад алмышдыр.

Кәһризин сују гаршысындакы һовуза јығылараг кичик архла нөвбә илә һәјәтләрә ахыдылырды. Мәшәди Һаҹы бәјин (1783-ҹү илдә доғулуб) икинҹи оғлу Әли бәјин Бәдирҹаһан ханымла гурдуғу аиләдән Әлигулу бәј, Әләскәр бәј, Ҹәфәргулу бәј, **Әсәдуллаһ бәј** (1860-ҹы илдә Сәрдарлы кәндиндә анадан олуб) адлы оғланлары олуб. Әсәдуллаһ бәј молла јанында тәһсил алмыш, мүгәддәс Хорасаны зијарәт етмиш, өзәл тәсәррүфат мүлкләрини идарә етмәклә күзәран кечирмишдир. Онун Аға Һәсән бәј, Мәһәммәд бәј, Мусејиб бәј, Һүсејн бәј адлы 4 оғлу олуб...

## ӘСКӘРХАН БУЛАҒЫ

Јағлывәнд кәнди әразисиндә гејдә алынан һидронимләрдән бири **Әскәрхан булағы** адланыр. Һидроним **Әскәрхан** шәхс адындан вә **булаг** һидронимик апелјативиндән ибарәтдир.

Булағын јерләшдији әрази Азәрбајҹанын ҹәннәт кушәләриндән биридир. Думдуру, шәффаф вә сојуг сулу **Әскәрхан булағы** вә онун әтраф саһәси Гарабағ әразисиндә јашајан әксәр әһалинин јајда чох севдији истираһәт кушәләриндән бири иди...

## ӘҺМӘД СОЛТАН ТҮРБӘСИ



Ајбасанлы кәнди јахынлығында гејдә алынан орографик објектләрдән бири **Әһмәд Солтан түрбәси** адланыр. Һасар типли бу түрбәнин умуми саһәси 8,6 х 6,86 метрдир. Түрбәнин шәрг тәрәфиндә кириш гапысы вар ки, о да бишмиш кәр-



пичлә охвари тағбәнд шәклиндә дүзәлдилмишдир. Түрбәнин чөл диварлары боју бир чәркә - 30 см һүндүрлүкдә тәбии формада чај дашлары дүзүлмүшдүр. **Әһмәд** сөзү әрәбчә “*тә’рифли*”, “*тә’рифә лајиг*” мә’насындадыр.

Түрбәнин ичиндә 3 нәфәр дәфн олунуб: **Әһмәд Солтан,** һәјат јолдашы **Һәвва ханым** вә гызы **Пәри ханым.** Бу түрбә ел арасында шәрти олараг **Әһмәд Солтан түрбәси** адландырылмышдыр...



## ӘҺМӘДАЛЫЛАР КӘНДИ

Кәнд рајон мәркәзиндән 34 км ҹәнуб-шәргдә, Муған дүзүндә, Араз чајы саһилиндән азачыг аралыда јерләшир. Әһалисинин сајы 1800 нәфәрдир. Әһалиси әсасән тахылчылыг, үзүмчүлүк вә һејвандарлыгла мәшғул олур. Кәнддә орта мәктәб, китабхана, мәдәнијјәт еви, тибб мәнтәгәси, рабитә шө’бәси, түрбә (XIII-XIV әсрләрә аид) вә с. вардыр.

Јашајыш мәнтәгәси ишғалдан азад олунмушдур. **Әһмәдалылар** топоними **“Әһмәдалы”** шәхс адындан вә **“-лар”** ҹәм шәкилчисиндән ибарәтдир. Топоним “*Әһмәдалы нәслиндән оланлар, Әһмәдалы өвладлары, әһмәдалылар*” мә’насыны билдирир. **Әһмәд** сөзү әрәбчә “*тә’рифли*”, “*тә’рифә лајиг*” мә’насындадыр.

Бә’зи тарихи сәнәдләрдә кәндин ады **Новрузалы (Јүзбашылы) Сәркарлы** кими дә көстәрилмишдир. **Әһмәдалылар** кәндинин **зејналлы, назанлы, дәлләкли, нәсирли, мөјлүшлү, сәркарлы, кәлбәискәндәрли** вә башга тајфалары вар...

## ӘҺМӘДАЛЫЛАР ТҮРБӘСИ



**Әһмәдалылар түрбәси** (бәзән **Арғалы түрбәси** дә дејилир) Әһмәдалылар кәндиндә јерләшир. Түрбәнин дашдан тикилмиш чатма тағлы күнбәзи вар. Абидәнин сәтһләри дајаз батыглар илә ишләнмиш, киришдәки баштағы ојма һәндәси орнаментләрлә һашијәләнмишдир. Баш тағын орнамент бәзәкләриндә, сәтһләринин ишләнмәсиндә Нахчыван ме’марлыг мәктәбинин тәсири дујулур. Ме’марлыг бахымындан бу түрбә Бабы түрбәсинә чох охшајыр. Түрбәнин XIII әс-

рин сону, XIV әсрин әvвәлләриндә тикилдији күман едилир.

**Әһмәдалылар түрбәси**нин күмбәзи икигатлы һөрүлүб вә ара мәсафәси даш-әһәнк гарышыглы мәһлулла долдурулуб. Шимал тәрәфдәки гапы илә үзбәүз меһраб әвәзинә, икинчи гапы да вардыр. Бу гапыларын портал чәрчивәләри һәндәси нахышларла бәзәнмишдир. Түрбәнин үзәриндә китабәси јохдур. Ел арасында бу түрбәјә **Аргалы түрбәси** (бәлкә дә *арыг Алы*) дә дејилир. Орада дәфн олун шәхсин кимлији һәләлик билинмир.

1960-чы илләрдә түрбә бәрпа едилмишдир. **Әһмәдалылар түрбәси** Азәрбајчанын өлкә әһәмијјәтли дашынмаз тарих вә мәдәнијјәт абидәләриндән һесаб едилир.

## ӘҺМӘДБӘЈЛИ КӘНДИ

**Әһмәдбәјли кәнди** рајон мәркәзиндән 39 км шәргдә, Көндәләнчајын саһилиндә, дүзәнликдәдир. Әһалиси мин үч јүз нәфәрдән артыгдыр. Әһали үзүмчүлүк, тахылчылыг, барамачылыг вә һејвандарлыгла мәшғул олур. Кәнддә орта мәктәб, мәдәнијјәт еви, хәстәхана, рабитә шө'бәси фәалијјәт көстәрир...

**Әһмәдбәјли** јашајыш мәскәни XIX әсрдә Јелизаветпол (Кәнчә) гәзасында кичик бир ичма үзвләринин бурада мәскунлашмасы нәтичәсиндә јаранмышдыр. Јерли мә'луматлара көрә, кәнд XIX әсрин икинчи јарысында Бала Бәһмәнли јашајыш мәнтәгәсиндән мүәјјән сәбәбләрлә әлагәдар өз гоһум-гардаш вә рәијјәтләри илә көчүб бурада мәскунлашмыш **Әһмәд бәј Алы бәј** оғлунун ады илә әлагәдардыр...

Билдијимиз кими, Азәрбајчан дилиндә титулдан истифадәнин чох гәдим тарихи вар. Титул билдирән **"бәј"** сөзү дә бу гәбилдәндир. Кәнд **Әһмәд** адлы бәјин ады илә адландырылмышдыр. **Әһмәд** сөзү әрәбчә *"тә'рифли"*, *"тә'рифә лајиг"* мә'насындадыр.

Бә'зи мүлаһизәләрә көрә, **әһмәдбәјлиләрин** Шаһсевән тајфалары илә нәсил гоһумлуғу әлагәләри вардыр. Инди Азәрбајчанда шаһсевәнләр вә онлара бирләшән башга сәлчуглар өз тајфа адларыны бир сыра кәндләрә вермишләр ки, онлардан да бири, чох күман ки, **Әһмәдбәјли**дир.



## ЗӘРКӘР КӘНДИ

**Зәркәр кәнди** рајон мәркәзиндән 5 км шимал-гәрбдә, дағәтәји дүзәнликдә јерләшир. Кәндин 1200 нәфәр әһалиси вар. Әһали әсасән үзүмчүлүк, һејвандарлыг вә әкинчиликлә мәшғул олур. Кәнддә мәктәб, клуб, тибб мәнтәгәси, Зәркәртәпә археоложи абидәси вардыр. Кәнд һазырда ишғал алтындадыр.

**Зәркәр** тајфалары Гарабағын гәдим сакинләриндән бири һесаб олунур. Мүәјјән тарихи шәраитлә бағлы олараг онларын бир голу шаһсевәнләрә гошулараг Ирана кетмиш вә хејли заман мүддәтиндән сонра кеданләрин бир һиссәси кери гајытмышдыр.

М.В.Баһарлы (1890-1937) Азәрбајчанда тајфа, нәсил, гәбилә адларыны гејд едәркән **Зәркәрли** тајфасынын да адыны чәкир. **Зәркәрлиләр** вахтилә әсасән Чәнуби Азәрбајчанда, Савалан дағынын чәнуб-шәрг әтәкләриндә јашамыш Азәрбајчан тајфаларындан биридир. Онларын тарихән мәшғул олдуглары саһәләр тохучулуг, малдарлыг вә гисмән дә әкинчилик олмушдур. Бә'зи мә'луматлара көрә әһали индики **Зәркәр** кәндинә Сәфәвиләр дөврүндән әввәл кәлмишләр.

XIX әсрин 70-чи илләринә аид мә'лумата көрә, **кәнд** шаһсевәнләрин **Зәркәрли** тајфасына мәхсус аиләләрин бурада мәскунлашмасы нәтичәсиндә јаранмышдыр. Бәдии вә тарихи әдәбијјатларда **Зәркәр** вә **зәркәрлиләр** һагтында кифајәт гәдәр мә'лумат верилмишдир. Шаһсевән тајфасынын ән нүфузлу башчыларындан олан - Күрдбәјин тајфасындан ајрылан нәсилләрдән *(хәлифәли, удјуглу, мурадлы, милли, бәјдилли, иналлы)* биринин дә ады **зәркәр**дир...

## ЗӘРКӘРГЫЈЫГЧЫ КӘНДИ

Фүзули рајонунда, Гарабағ силсиләсинин әтәјиндә јерләшән кәнд **Зәркәргыјыгчы** адланыр. Әһалиси һејвандарлыг, бостанчылыг, әкинчилик вә үзүмчүлүклә мәшғул олур.

Јашајыш мәнтәгәсини шаһсевәнләрин **зәркәр** тајфасынын **гыјыгчы** тирәсинә мәнсуб олан аиләләр салмышлар. **Гыјыгчы**

тајфасынын ады Сәлчуг оғузларынын мәшһур **кыјык** тајфасынын адындан вә мәнсубијјәт билдирән **-чы** шәкилчисиндән ибарәтдир. Ојконим "зәркәр тајфасына мәнсуб гыјыглар" мә'насындадыр. Кәнд һазырда ишғал алтындадыр.

### ЗӘРКӘРТӘПӘ

Фүзули шәһәринин мәркәзиндән 3 км шимал-гәрбдә, дағәтәји әразидә, Көндәләнчајын сағ саһилиндә јерләшир. О, сон Тунч дөврүнә аид 1 һектар саһәси олан јашајыш јеридир. **Зәркәртәпә** абидәси 1965-чи илдә гејдә алыныб. Сон тунч вә илк дәмир дөврләринә аид бу јашајыш јери Јасты тәпәдән ибарәтдир. 1965 вә 1972-77-чи илләрдә археоложи газынтылар заманы Зәркәртәпәдән гәдим *әкинчи* тајфаларына мәхсус чохлу мадди мәдәнијјәт нүмунәси (сахсы габлар, әмәк аләтләри вә с.) ашкар едилиб. Әмәк аләтләринә јасты чајдашындан һазырланмыш тохалар (60-а гәдәр), ораг дишләри, дән дашлары вә с. дахилдир. Сап кечирмәк үчүн көз ачылмыш тохаларын ағыз һиссәси итиләшдирилмишдир. Тоханын ән бөјүјүнүн узунлуғу 18 см-дир

**Зәркәртәпә** тапынтыларынын Азәрбајчанын гәдим әкинчилик тәсәррүфатларынын хүсусијјәтләрини өјрәнмәк үчүн чох бөјүк әһәмијјәти вардыр. **Зәркәртәпә тапынтылары** буну демәјә әсас верир ки, бу әразиләр орта әсрләрдә вә ондан да габаглар инсанларын јашајыш мәскәнләри олмушдур...

### ЗИЈАРӘТ ДАҒЫ

Фүзули рајону әразисиндә јерләшән јүксәкликләрдән бири **Зијарәт дағы** адланыр. Топоним дағын әразисиндә вахтилә мүгәддәс пир кими сајылан **зијарәт јери** олдуғу үчүн белә ад алмышдыр. Зијарәт дағында IV әсрә аид албан гәбир абидәси дә олуб. **Дағ** да бу ситајиш јери олан мә'бәдә көрә **Зијарәт дағы** адланмышдыр.

Дашкәсәндә, Ханларда, Хочавәнддә дә **Зијарәт** адлы дағ вардыр...



### ЗОҒАЛЛЫ БАҒ

Азәрбајчан оронимијасында фитооронимләрлә бағлы чохлу сајда орографик објектләр гејдә алынмышдыр. Онлардан бири дә Фүзули рајонунун Сәрдарлы кәнди әразисиндәки **Зоғаллы бағ** фитооронимидир. Топоним адындан көрүндүјү кими, **зоғал** вә **бағ** сөзләриндән вә **-лы** мәнсубијјәт билдирән шәкилчисиндән ибарәтдир. **Зоғал** биткиси **зоғал** фәсиләсиндән һүндүрлүјү 3-6 метр олан, еркән јазда јарпагламадан әввәл чичәк ачан кол вә хырда ағач чинсидир.

**Зоғаллы бағ** чоғрафи ады һәмин **бағ** саһәсиндә **зоғал** ағачларынын чохлуғу илә бағлы олараг белә ад алмышдыр. Кәндин **зоғаллы бағы** көз ишләдикчә узаныб кедир. Бу бағын мәһсулундан бүтүн кәнд чамааты истифадә едәрди...

### ИБӘ БУЛАҒЫ, ИБӘ ИБРАҺИМ ЗИЈАРӘТКАҺЫ, ИБӘ ОЧАҒЫ

**Ибә булағы** һидрониминин Фүзули рајонунун Һорадиз кәндинин Чәбрајыл рајону илә һәмсәрһәд әразисиндә гејдә алынмышдыр. Мә'лумдур ки, јералты суларын јерүстү тәбии чыхышына **булаг** дејилир. Температуруна көрә булаглар сојуг, илыг, термал (исти) вә һипотермал (чох исти) олур. **Булаг** һидронимик апелјативинин иштиракы илә Азәрбајчанда чохлу чоғрафи адлар јаранмышдыр. Азәрбајчан топонимијасында шәхс адларындан дүзәлмиш һидронимләр јүзләрләдир. **Ибә булағы** ады да бу тип антропонимик һидронимдир.

Ашағы Ајбасанлы кәндиндә бу гәбилдән олан **Ибә Ибраһим** адланан вә халг тәрәфиндән әзиз тутулан мүгәддәс **зијарәткаһ** да гејдә алынмышдыр.

Фүзули рајонунун Јухары Сејидәһмәдли кәнди әразисиндә **Ибә очағы** орографик објекти дә гејдә алыныб. Һәмин **очаг** мүгәддәс тапынаг, **зијарәт јери** һесаб едилир...

## ИБРАҺИМ БАҒЫ

Дөвләтјарлы кәндинин кәнарында, Көндәлән чајы саһилиндә гејдә алынан орографик објектләрдән бири **Ибраһим бағы** адланыр. Бу бағда чохлу сајда тут, алма, албалы, армуд, һејва, нар, әрик, киләнар, кавалы, әнчир, гоз ағачлары вардыр. Бағда тут ағачларынын чохлуғу бу әразиләрдә барамачылығын инкишафы илә әлагәдардыр.

**Бағ** онун куручусу, јарадычысы олан, она бахан **Ибраһим** адлы шәхсин ады илә бағлы олараг беләдә адландырылмышдыр...

## ИКИНЧИ МАҺМУДЛУ КӘНДИ

**Икинчи Маһмудлу кәнди** Фүзули рајонунда, рајон мәркәзиндән тәхминән 40 км шәргдә, дүзәнликдә јерләшир. Әһалиси әсасән үзүмчүлүк, һејвандарлыг, барамачылыг, тахылчылыгла мәшғул олур.

Јашајыш мәнтәгәсини **Маһмудлу** кәндиндән ајрылмыш аиләләр салмышлар. Топонимин әввәлинә **икинчи** сөзү ону *Биринчи Маһмудлу* вә *Үчүнчү Маһмудлу* кәндләриндән фәргләндирмәк үчүн әлавә олунмушдур.

**Маһмудлулар** XVI-XVII әсрләрдә Түркијәдә Ван көлүндән шәргдә јашамыш, сонралар онларын бир һиссәси Азәрбајчана, о чүмләдән, Фүзули рајону әразисинә кәләрәк, бурада бир нечә јашајыш мәнтәгәләри јаратмышлар. Бә'зи мә'луматлара көрә, түркләшмиш **Маһмудлу тајфалары** чох күман ки, әввәлләр күрддилли олмушлар...

Гајнаглардан мә'лум олур ки, **Маһмудлу** обасы **Һачылы** ичмасына дахилдир. Бу оба **Чаваншир** елинин **Көчәрли** ојмағындан чыхыб. Бир мәнбәјә көрә, бу обанын чамаатынын улу бабаларындан биринин ады **Һачы Јусиф аға** олуб. О, **Биринчи Маһмудун** атасыдыр. Маһмудлуларын гочаглыгларына көрә **һачылы** ичмасы арасында хүсуси јери олуб. Гејрәтли, гочаг маһмудлулар һагтында ел арасында: "рус јох, маһмудлу јох, даһа нәдән горхачагсан?" мәсәли дилләрдә долашмагдадыр.

Бә'зи мәнбәнин вердији мә'луматда гејд олунур ки, 1727-чи илдә **Көчәрли** обасындан ајрылан **Маһмудлу** соју Дизаг наһијәсинин



Зијад гышлағында бинәләјирди. Османлы гајнағында да **Маһмудлу** соју һагтында билкиләр вардыр. Орада көстәрилир ки, **Чаваншир** тајфасынын **көчәрли ојмағы** Дизаг наһијәсинин тәркибиндә олан Кәлли, Зәвичик (Завычыг) вә Гуру чајларынын кәнарында, Чәрәкән, Көндәлән, Түлјан, Гарадағлы вә Әршә адлы гышлагларда әкинчиликлә мәшғул олур, Ирәван әјаләтинин Борк адлы јериндә јајлајырлар.

**Әршә** адлы әразидә тикишләри олан Көчәрли ојлағы Дизаг наһијәсиндә, Сојудаш адлы архын кәнарында әкинчиликлә мәшғул олурдулар. Үмумиликдә Гарабаға табе олан Көчәрли ојмағынын Тајасојуг адлы гышлаглары вә Гаракүнеј адлы јајлаглары да олмушдур. Тарихи шәраитлә әлагәдар олараг бу обанын бә'зи нәсилләри сүркүн олунмуш вә сүркүндән гајытдыгдан сонра **һачылы** ичмасынын тәркибинә дахил олмушдур. **Маһмудлулар** Гарабағ ханлығынын сијаси һәјатында да мүһүм рол ојнамышлар.

1842, 1849, 1863, 1873 вә 1886-чы илләрдә **маһмудлу** обасынын әһалиси дөвләт тәрәфиндән сијаһыја алыныб. Һәмин дөврүн сијаһыјаалынмаларында Маһмудлу обасында јашајан бәјләрин (Прапоршик Һәсән бәј Чәфәр бәј оғлу, Фәтәли бәј Чәфәр бәј оғлу, Һачы Һүсејнгулу бәј Сәһлијалы бәј оғлу, Һәсәнгулу бәј Сәһлијалы бәј оғлу, Маһмуд бәј Сәһлијалы бәј оғлу, Аға бәј Һүсејн бәј оғлу, Тејмур бәј Һүсејн бәј оғлу, Һејдәр бәј Һүсејн бәј оғлу, Шүкүр (Ширин) бәј Ибраһим бәј оғлу, Фирудин бәј Һәсән бәј оғлу вә онларын өвладлары) дә ады көстәрилмишдир.

**Маһмудлу обасынын тајфалары** бунлардыр:

**Чәфәрбәјли (Чәфәрбәјушағы)** - Чәфәр бәј Кәрбәлаји Маһмуд аға оғлу XVIII әсрин II јарысы, XIX јүзиллијин әввәлләриндә јашајыб. Чох варлы вә һөрмәтли ағалардан олан **Чәфәр бәјин** Гасым, Фәтәли, Һәсән, Һүсејн, Паша, Искәндәр адлы оғуллары олмушдур. Бу тајфанын **Гасымбәјли, Фәтәлибәјли, Һәсәнбәјли, Һүсејнбәјли, Пашабәјли** адланан тирәләри вар...

**Сәһлијалылар (Сәһлијалы бәј ушағы)** - **Сәһлијалы бәј** Кәрбәлаји Маһмуд ағанын икинчи оғлудур. О, XVIII әсрин сонлары вә XIX әсрин әввәлләриндә јашајыб. Ибраһимхәлил хан вә Меһдигулу хана хидмәт көстәрән Сәһлијалы бәјин Һүсејнгулу, Һәсәнгулу, Ибраһим, Маһмуд бәј адлы оғуллары олуб. Бу тајфанын *Һачыһүсејнгулулар, Һачыһәсәнгулулар, Ибраһимли, Маһмудбәјли*

адлы тирәләри вар...

**Һачыаталылар** - Кәрбәлаји Маһмуд ағанын оғулларындан бири дә **Аталыдыр**. 1783-ҹү илдә Маһмудлу обасында доғулан **Аталы** һејвандарлыгла мәшғул олмуш, мүгәддәс Мәккәни зијарәт едиб **"Һачы"** титулуна јијәләнмишдир. Онун **Гуламәли, Гәһрәман** адлы оғуллары, **Һүрү** адлы гызы варды. Бу тајфанын **гуламәлиләр, салаһлылар, шамылар, шүкүрлүләр, мусалылар, әмирмурадлылар, һачымәммәдлиләр, хасмәммәдлиләр, зүлфүгарлылар** адлы тирәләри вар...

**Имамвердиләр** - *Имамверди* Маһмудлу обасынын улу бабаларындан бири олуб. Һејвандарлыгла мәшғул олан **Имамверди бәјин** Исмајыл, Һәшим, Казым, Имамгулу вә Тархан адлы оғуллары варды. Бу тајфаја **исмајыллы, микајыллы, һәшимли, аллаһверәнлиләр, һәсәнгулулар** адлы тирәләр дахилдир...

**Әләскәрлиләр - Әләскәр (1816-1886)** Маһмудлу обасынын улу бабасы Кәрбәлаји Маһмуд ағанын һејвандарлыгла мәшғул олан оғлу Намазын бөјүк оғлу иди. Намазын Әләскәрдән башга Әли, Абдулла вә Һәзрәтгулу адлы оғуллары да олуб. Кәрбәлаји Әләскәрин **Рәһим, Сәлим, Кәрим, Надир, Әмир, Әбил, Әбдүл, Гоча, Мәти, Балоғлан** адлы оғланлары варды...

Ҹәбрајыл, Губадлы, Шәмкир вә Имишли рајонларында да **Маһмудлу** етноними илә бағлы кәндләр вардыр.

## ИЛАНЛЫ ДАҒ

Фүзули рајону әразисиндә, Гарғабазар вә Күрдләр кәндләри арасында, Јухары Әбдүррәһманлы кәндиндән 3 километр аралыда гејдә алынан дағ. Јерли әһали дағын әтәјиндән јамаҹына доғру **илан** сүрүләри чыхмасына көрә **дағa** белә ад вермишләр.

Үмумијјәтлә, **дағ** - дүзәнликдән әтәкләри, јамаҹлары вә зирвәси илә сечилән, 500 метрдән артыг олан, дик вәзијјәтдә учалмыш јүксәклијә дејилир. Азәрбајҹанда топланмыш оронимләрдән 1500-дән чоху дағ адыдыр.

Азәрбајҹанда **илан** һејван ады илә бағлы чохлу топонимләр вар: Илан гајасы (Лачын рајону), Иланлы тәпә (Ағдам рајону), Иланлы Гобу (Имишли рајону), Иландағ (Нахчыван), Иландағ (Ҹулфа рајону), Иланлы дәрә (Бабәк, Газах, Кәдәбәј, Масаллы рајонлары), Иланлы күнеј (Кәлбәҹәр рајону) вә с.

Бу топонимләрдә **"илан"** сөзүнүн конкрет мә'наларыны ајырд етмәк чәтиндир. Азәрбајҹандакы **иланлы** ады илә олан ојконим вә оронимләри гәдим түрк мәншәли **алан** тајфалары илә дә әлагәләндирирләр. Һазырда Шимали Гафгазда јашајан гарачајлар, балканлар өзләрини **алан** адландырыр. Чох күман ки, **аланлар** Азәрбајҹана миладдан өнҹә һунларын вә ја булгарларын тәркибиндә кәлибләр. Түркмәнистанда Ерсары тајфасынын бир голу **иланлар** адланыр.

XVIII-XIX әсрләрдә Ирәван әјаләти әразисиндә **Иланлы** адлы **6** јашајыш мәскәни мөвҹуд олмушдур...

## ИМАМ БУЛАҒЫ

Фүзули рајонунун Һорадиз кәнди әразисиндә гејдә алынан һидронимләрдән бири **Имам булағы** адланыр. **Булаг** - јералты суларын јерүстүнә тәбии чыхышыдыр. **Булаг** һидронимик апелјативинин иштиракы илә чохлу топонимләр јараныб. **Имам булағы** һидрониминин тәркибиндәки **имам** (мәзһәб вә тәригәт шејхи) сөзү шиә мәзһәбинин башчысы гәбул едилән Һәзрәт Әли вә онун өвладларына верилән ад мә'насындадыр. **Имам** сөзүнүн "ҹамаата намаз гылдыран" анламы да вар. Бә'зи әрәб дөвләтләриндә дөвләт башчысына **имам** дејилир...

## ИМАМ ПИРИ

**Имам пири** орографик објекти Фүзули рајонунун Һорадиз кәндиндән 2 километр ашағыда гејдә алыныб. Јерли мә'лумата көрә, чох әввәлләр Һорадиз кәндинин ҹамааты **Имам пири** әразисиндә мәскунлашмышлар. Һәмин әразидә инди дә гәдим ев јерләринин харабалыглары галмагдадыр. Кәндин **Јадикарлылар** нәслинин төрәмәләриндән олан ел ағсаггалы Фәрман Јадикаров дејир ки, онларын тирәси вахтилә **Имам Піринин** јанында јашамышдыр. Бу тирәдән олан бир гадын ахшам вахты ај ишығында

һәјәтдә чәһрә илә ип әјирән заман бир нурани атлы киши һәјәтә кирәрәк она дејиб: “адамлара хәбәр вер бурадан көчүб башга јерә кетсинләр; чүнки **Имам пиринин** әтрафыны сизин һејванларыныз - ит-пишикләриниз чиркләндириб. Ики күндән сонра кәләчәјәм. Әкәр бурдан көчүб кетмәсәниз сизи бәлалар көзләјир”.

Гадын бу һадисәни әринә данышыр; о да өз нөвбәсиндә гоһумлара, гоншулара хәбәр верир; амма һеч кәс онлара инанмыр, дедикләринә мәһәл гојмур. Ики күн тамам оланда һәмин атлы кәлир. Кәндлиләр көчүб кетмәјә разы олмурлар. Анчаг Јадикар киши өз гоһум-әгрәбасы илә орадан көчүб индики Һорадиз кәнди әразисиндә, Гараған тәпәдә өзләринә мәскән салырлар. Инанмајанлар өз јерләриндә галырлар. Һеч 3 күн кечмәмиш елә туфан гопур ки, евләр дармадағын олур. Буну көрән сакинләр јығышыб мүхтәлиф јерләрә (дејиләнләрә көрә, һәтта, Бејләган вә Дәвәчи рајонлары әразиләринә) көчүрләр. Јерли мә'лумата көрә, көрә сонралар кәнд чамаатындан һәмин о атлы кишини көрәнләр дә олуб...

**Имам пири** дашдан учалдылмыш 2 отагдан ибарәтдир. Әразидә сонралар дашдан тикилмиш чарһовуз да варды. 18 квадрат метрлик үстүөртүлү биринчи отаг зијарәтә кәлиб кечә галан адамлар үчүндүр. 36 квадрат метр саһәси олан икинчи үстүачыг отагда исә даш мәрмәрдән мәзар вар. Дејиләнә көрә о, Имам Рзанын гыз нәвәсинин гәбридир. Гәбрин јанында мүгәддәслик рәмзи олан дағдаған ағачы вардыр. Рәвајәтә көрә, әввәлләр мәзардан ишыг кәләрмиш вә адамлар ора јахынлашанда ишыг сөнәрмиш. Елә бу сәбәбдән дә инсанлар бу мәзары **Пир** кими гәбул едирләр. Пирин әтрафына габагча чәпәрдән, сонралар исә дашдан һасар чәкилир.

XIX әсрин сонларында Кәлбәисмајыллы тајфасындан олан Һачы Гасым **Имам** пиринин диварларыны өз һесабына дашла тикдирир. Сонра тикилинин дамыны да өртүрләр. Сәһәри кәлиб бахыб көрүрләр ки, тикилинин дамы јерә дүшүб. Елә о замандан да Пирин үстү ачыг галмышдыр. Бә'зән јерли әһалидән олан јашлы адамлар анд ичәндә: “Һачы Гасымын тикдирдији **Имам һаггы**”- дејирләр...

XX әсрин 80-чи илләриндә Тејјуб Әјјубоғлунун тәшәббүсү вә уста Тапдыг Һәсәноғлунун сә'ји илә хејријјәчилик мәгсәдилә әһалидән јығылмыш вәсаит һесабына **Имам пири** гаршысында үстүөртүлү кириш отағы тикилир. Сәһәри күн кәләндә көрүрләр ки, мәзар олан отағын үсту ачылыб. Сонрадан мәсләһәт олунду ки, бир



һалда ки, та гәдимдән онун үстүнү өртән олмајыб, елә јахшысы будур гојун ачыг галсын. О замандан да һәмин пирин отағынын үсту ачыг галыр...

1993-чү илин сентјабр ајына (ишғала) гәдәр **Имам пири** инсанларын имам вә е'тигад јери олуб. Бу мүгәддәс очаға әтраф рајонлардан да ахын-ахын адамлар кәлирдиләр. Бу очаға инам кәтирәнләр бурдан үмидлә гајыдыр вә арзуларына чатырдылар. Имам пиринә **Имамзадә** дә дејирләр...

## ИМАМ РӘДДИ

Хәзәз дағы әразисиндә Гачар кәнди јахынлығында гејдә алынан чоғрафи адлардан бири **Имам рәдди** адланыр. Азәрбајчанда халг тәрәфиндән әзиз тутулан, мүгәддәс танынан, очаг, зијарәт јерләри чохдур. Халгын е'тигадына көрә **Имам рәдди** адланан саһәдә мүгәддәс имамларымызын ајаг изләри вар. Республикамыз әразисиндә белә гисим оронимләрә бир чох рајонларын әразисиндә раст кәлирик. Мәсәлән: Әли ајағы јери (Әзизбәјов рајону) вә с.

## ИМАМБАҒЫ

Фүзули шәһәриндә хүсуси мәһәллә, јашајыш мәнтәгәси **Имамбағы** адланыр. Адына бә'зән **Иманбағы** да дејирләр. Бә'зи јерли мә'луматлара көрә, әрази чох-чох әввәлләр **Иман** адлы бир кишинин бағ вә бостан јери олуб. **Имамбағы** топонимини бә'зи тәдгигатчылар “Имам өвладлары нәслиндән олан бир чох аиләләрин бағ јери” кими дә мә'наландырырлар...

## ИНЧӘ ДӘРӘСИ, ИНЧӘ ЧАЛЫ

**Инчә дәрәси** орографик објекти Фүзули рајонунун Гачар кәнди әразисиндә гејдә алыныб. Бу чоғрафи ад **инчә, дәрә** сөзләриндән вә **-си** мәнсублуг ифадә едән шәкилчидән ибарәтдир. **Дәрә** - мәнфи релјеф формасы билдирән чоғрафи терминдир. **Инчә** сөзү исә чох

күман ки, гыпчаг тајфаларындан олан **инчә\әнчә** тајфасынын адыны билдирир. Тарихдән мә'лумдур ки, гәдим гыпчагларын **инчә (әнчә)** тајфасы әввәлләр индики Ҹәнуби Русија чөлләриндә вә Шимали Гафгазда јашамышлар. Тарихи шәраитлә бағлы онларын мүәјјән бир һиссәси ајры-ајры заманларда Азәрбајҹана, еләҹә дә, Гарабаға кәлмишләр...

**Инчә дәрәси** әразисиндә **Инчә чаjы** һидроними дә гејдә алыныб. Гыш, пајыз вә баһар ајларында ахан бу **чај** адәтән јајда гурујур. Јерли әһалинин дедијинә көрә мәһз бу "инчәлији" үчүн чај белә адландырылыб. Мәним фикримҹә, чај чох еһтимал ки, бир заманлар онун саһилиндә јашамыш гәдим гыпчагларын **инчә** тајфасынын адыны дашыјыр.

Көјчај вә Шәки рајонларында **Инчә кәнди,** Шәки рајону әразисиндәки **Инчә дағы,** Газах рајонунда **Инчәсу чаjы,** Тәртәр, Јевлах рајонлары әразиләриндән ахан **Инчәчај** вә дикәр ҹоғрафи адларын да тәркибиндәки **инчә** сөзү гәдим гыпчагларын **инчә (әнчә)** тајфасынын ады илә әлагәдар јаранмышдыр...

## ИНЧИЛДӘРӘ, ИНЧИЛЛИ КӨБӘР

Алханлы кәнди әразисиндә гејдә алынмыш орографик објектләрдән бири **Инчилдәрә** адланыр. Топоним **инчил** сөзүндән вә мәнфи релјеф формасы билдирән **дәрә** ҹоғрафи термининдән ибарәтдир. Јерли диалект вә шивәдә әһали **әнчир** мејвәсинә чох заман **инчил (инчир)** дејир. Оронимин тәркибиндәки **инчил** компоненти **әнчир** сөзүнүн тәһриф олунмуш формасыдыр. Алханлы кәнди әразисиндә бу гисимдән олан **Инчилли көбәр** ҹоғрафи ады да гејдә алыныб.

Азәрбајҹанда **әнчир** мејвә ағачыны билдирән сөзләрдән дүзәлән оронимләрә **Әнчир гајасы** (Зәнкилан рајону), **Әнчирли дөш** (Ҹәбрајыл рајону, Говшутлу кәнди), **Әнчирли дәрә** (Гарадағ Губадлы, Зәнкилан, Ҹәбрајыл рајонлары), **Әнчирли тәпә** (Абшерон, Ағдам, Бәрдә Зәнкилан, Хочавәнд, Хочалы, Ҹәбрајыл Шуша рајонлары) вә башгаларыны нүмунә көстәрмәк олар...



## ИШЫГЛЫ КӘНДИ

**Ишыглы кәнди** рајон мәркәзиндән 4 километр ҹәнубда, Фүзули-Һорадиз, Фүзули-Ҹәбрајыл автомобил јоллары кәнарында, Аразбоју дүзәнликдә јерләшир. Кәндин 1700 нәфәр әһалиси вар. Әһалиси әсасән тахылчылыг, үзүмчүлүк вә һејвандарлыгла мәшғул олур. Кәнддә мәктәб, клуб, китабхана, кәһриз, булаг (XIX әср), јашы 500 илдән чох олан 2 чинар ағачы вә с. вар. Јашајыш мәнтәгәси 1993-ҹү ил августун 23-дә ермәниләр тәрәфиндән ишғал олунуб...

Бә'зи тәдгигатчылара көрә кәнди **ишыхлы** нәслинә мәнсуб аиләләр салдығы үчүн белә адландырылмышдыр. Чох күман ки, нәслин адынын илкин формасы **шыхлы** олмуш, **"и"** сәси исә адын әввәлинә сонрадан әлавә олунмушдур.

1797-ҹи ил һадисәләриндә Аға Мәһәммәд Шаһ Гаҹарын јандырдығы кәндләр сијаһысында **Ишыглы** кәндинин дә ады вар.

Ишыглы кәнди тарихән онларла танынмыш мәрд, икид дәлиганлылар јетирмишдир. Кәндин әксәр тајфалары әтраф јашајыш мәнтәгәләринин адамларына бә'зән данышыг заманы өзләринә мәхсус спесифик ширин мүраҹиәт формасы олан *"башом"* (чох күман ки, "башына дөнүм"үн гысалдылмыш формасы) ифадәсиндән дә истифадә едирләр (мән өзүм дәфәләрлә бунун шаһиди олмушам).

Ишыглы кәндинин **сејидләр, сејидшүкүрлүләр, садыхлылар, бабаjлар, новрузлулар, гәмбәрлиләр, бәјләр, меһдиләр** вә с. адлы тајфа вә тирәләри мә'лумдур.

**Ишыглы** адлы Лачын рајонунда дағ, Губадлы рајонунда кәнд дә вардыр.

## ЈАҒЛЫВӘНД КӘНДИ

(Бах: **Ашағы Јағлывәнд кәнди, Јухары Јағлывәнд кәнди)**

## ЈАЛПИРӘҺМӘДЛИ КӘНДИ

**Јалпирәһмәдли кәнди** Фүзули рајонунда, Гарабағ силсиләсинин әтәјиндә јерләшир. Кәнд рајон мәркәзиндән 9 км мәсафәдәдир. Әһалиси әсасән үзүмчүлүк вә һејвандарлыгла мәшғул олур. Кәнддә мәктәб, клуб вә с. вар. Бу јашајыш мәнтәгәси 1993-ҹү илин августунда ермәниләр тәрәфиндән ишғал олунуб.

**Јалпирәһмәдли** топоними **јал** чоғрафи термининдән вә **пирәһмәдли** етнониминдән ибарәтдир. **Пирәһмәдли** һәмин кәнддә мәскунлашмыш нәслин адыдыр. Кәнд дағын јалында јерләшдији үчүн **Јал Пирәһмәдли** адланыр. Кәндин ады *"јалда јерләшән Пирәһмәдли кәнди"* мә'насыны дашыјыр.

Дејиләнләрә көрә, әввәлләр бу әразиләрдә **Пирәһмәдли** адлы кәндләр олдуғу үчүн онлары бир-бириндән фәргләндирмәк мәгсәдилә дағын јалында јерләшән **јал** мүсбәт релјеф формасы билдирән чоғрафи термини өзүндә фәргләндиричи әламәт ифадә едир.

Јерли мә'лумата көрә, кәндин 300 илә јахын јашы вар. Јашајыш мәнтәгәси Хырдапара - Дизаг маһалынын табелијиндә олуб, онун баш кәнди (мәркәзи) һесаб олунурду. Маһалын наиби бу кәнддә отурурду. Јалпирәһмәдли кәндинин ады бә'зи сәнәдләрдә **Јал Пирәһмәдли** шәклиндә дә јазылыр. Кәндин **моллаһәсәнли, һачыməммәдли, сејидли, сејидмәммәдли** вә с. адлы тајфалары вардыр...

## ЈЕДДИГАРДАШ ДАҒЫ

Рајон мәркәзиндән чәнубда, Гараколлу кәнди јахынлығында дағ. **Једдигардаш** спесифик ороними сај билдирән сөздән **(једди)** вә оронимик терминдән **(гардаш)** ибарәтдир. Белә топонимләр башга рајонларда да вар: Шамахыда **Једдикүнбәз дағы,** Ағдамда **Једди-хырман дағы,** Сијәзәндә **Бешбармаг дағы** вә с.

**Једдигардаш дағы** илә бағлы мараглы бир рәвајәт дә вардыр: Бир ел ағсаггалынын боја-баша чатмамыш **једди** оғлу вармыш. Өзү дә гочалмышды. Јағылар тез-тез басгын едиб ели талајырмышлар. Күнләрин бир күнү јағылар һүчум едәндә, бу **једдигардаш** гошун дүзәлдиб онларын габағына чыхыр. Азјашлы олан бу гардашлар көрүрләр басылачаглар, јағылар кәнди, ели чапыб-талајачаглар, үзләрини көјә тутуб Танрыја јалварырлар ки, Улу Танры бизи кечилмәз дağa дөндәр, габағы кәсәк, јағылар елимизә тохунмасынлар. Танры онлары ешидиб јан-јана **једди дағa** дөндәрир. Јағылар кечмәјә јол тапмајараг, гајыдыб бирдәфәлик кедирләр...



## ЈЕДДИТӘПӘ

**Једдитәпә** рајон мәркәзиндән 6 км шимал-шәргдә, Мирзәчамаллы кәнди јахынлығында јерләшир. О, тунч дөврүнә аид археоложи абидә һесаб едилир. **Једдитәпә** 20-јә јахын кургандан ибарәтдир. 1972-чи илдә археоложи газынтылар заманы Једдитәпәдән еркән орта әсрләрә вә даһа әввәлки дөврләрә (III-VI әсрләрә аид) даш гуту гәбирләр ашкар едилмишдир. Өлән адамлар бурада бүкүлү вәзијјәтдә басдырылмышдыр. Гәбирләрдән кил, шүшә, тунч габлар, мис вә күмүш бәзәк әшјалары, һејкәлчикләр, мусиги аләтләри (синчләр), низә, балта, гылынч, хәнчәр, метал тогга, зынгров вә с. тапылмышдыр. **Једдитәпә абидәләри** јерли тајфалара мәхсус олуб, онларын Иран, Рома вә Бизансла игтисади вә мәдәни әлагә сахладыгларыны көстәрир.

**Једдитәпә** ороними **једди** сај билдирән сөздән вә **тәпә** оронимик термининдән әмәлә кәлиб. Белә метафор адларда релјеф формаларынын сајыны вә нөвүнү билмәк асан олур. Бу археоложи абидә **једди тәпәдән** ибарәт олдуғу үчүн **Једдитәпә** адыны алыб.

Масаллы рајонунун Әркиван кәндиндә дә **Једдитәпә** адлы ороним гејдә алыныб...

## ЈЕЛ ОЧАҒЫ

Фүзули рајонунун Һорадиз кәндиндә гејдә алынан мараглы чоғрафи адлардан бири **Јел очағы** орографик објектидир. **Очаг** култу Азәрбајчанда мүгәддәс тапынаг һесаб олунур. Јерли әһали тәрәфиндән зијарәт јери һесаб едилән мүгәддәс тапынаглардан бири дә Һорадиз кәндиндә, тәпәлик саһәдә јерләшән **Јел очағы** иди.

## ЈЕЛЛИКӘДИК

**Јелликәдик** рајон мәркәзиндән 7 км шималда, Фүзули-Хочавәнд автомобил јолунун кәнарында, Дөвләтјарлы вә Дилағарда кәндләри арасында јерләшир.

Бир чох тәдгигатчылар онун бир һиссәсинин характерик әламәтинә көрә јүксәклијә белә ад верилмәсини сүбут етмәјә чалышырлар. **Јелликәдик** топоними **јел** вә **кәдик** (*"даг бели", "ашырым"*) сөзләриндән әмәлә кәлиб. **"Кәдик"** компоненти **"даг белиндә батыг", "дағарасы јол"** мә'насындадыр. Һәмин компонент түрк дилләриндә "дағ кечиди", "ашырым" мә'насында ишләнир.

Баш Гафгазын силсиләләриндән бири **"Кәдик зирвәси"** адланыр. Фүзули рајонундакы **Јелликәдик** топоними бүтүн фәсилләрдә орада күләк әсмәси илә әлагәдардыр.

**"Кәдик"** сөзү илә бағлы чохлу топонимләр вар: **Јелликәдик кәнди** (Исмајыллы рајону), **Хачкәдиҹи** (Гах рајону), **Јәһәр кәдик дағы** (Шәрур рајону), **Јелкәдик дағы** (Јардымлы рајону), **Кәдик кәнди, Кәдикгышлаг кәнди** (Губа) вә с.

## ЈУМУРТА ТӘПӘ

Фүзули шәһәриндән 5 километр мәсафәдә гејдә алынан орографик објектләрдән бири дә **Јумурта тәпә** адланыр. **Тәпә**- мүсбәт релјеф формасы билдирән ҹоғрафи терминдир. Адәтән әтәји илә зирвәси арасындакы нисби һүндүрлүјү 200 метрәдәк олан јүксәклијә **тәпә** дејирләр. Азәрбајҹан топонимијасында **тәпә** термининин иштиракы илә 3.000-дән чох ҹоғрафи ад гејдә алыныб. **Јумурта тәпә** ороними һәмин тәпәнин заһирән **јумуртаја** бәнзәмәси илә әлагәдар олараг белә ад алмышдыр...

## ЈУХАРЫ АЛЫБАСАНЛЫ КӘНДИ

**Јухары Ајыбасанлы кәнди** рајон мәркәзиндән 2 км ҹәнуб-шәргдә, дүзәнликдә јерләшир. Әһалиси 1200 нәфәрә јахындыр. Әһали әсасән тахылчылыг, үзүмчүлүк вә һејвандарлыгла мәшғул олур. Кәнддә мәктәб, клуб, китабхана, тибб мәнтәгәси вә с. вар. Кәнд 1993-ҹү илин август ајынын 23-дә ермәниләр тәрәфиндән ишғал олунуб...

**Јухары Ајыбасанлы** (ады бә'зән **Ајбасанлы** кими дә јазылыр) кәнди Ҹаваншир тајфасынын **ајыбасанлы** тирәсинин бурада мәскунлашмасы нәтиҹәсиндә јаранан јашајыш мәнтәгәләриндәндир.

**Ајыбасанлы** топоними **ајы** чөл һејван ады вә **басар** орографик термининдән дүзәлмиш оронимдир. **Јухары** компоненти фәргләндиричи әламәт ифадә едир.

Ојконими **Әјјуб Һәсәнли** формасында изаһ етмәјә ҹәһд көстәрән арашдырычылар да вар.

Мәнбәләрин мә'луматына көрә **ајбасанлылар (ајыбасанлылар)** сәрһәд бојунда чапар кими дә хидмәт етмишләр...

**Һачылы** ичмасына дахил олан **Ајыбасанлы (Ајбасанлы)** обасынын әһалиси дөвләт тәрәфиндән 1842, 1849, 1863, 1873, 1886-ҹы илләрдә сијаһыја алынмышдыр. Бу обанын әһалиси әсасән һејвандарлыг вә әкинчиликлә мәшғул олмушлар.

**Ајбасанлы** обасынын **Сәфәрәли, Күлмәмәдли, Аллаһвердили, Гулулу, Мәммәдһәсәнли, Ағаларлы, Әлигулулар, Танрывердиләр, Һәсәнсејидханлар, Абдуллалар, Бајрамалылар, Зејналлылар, Новрузлулар, Гаралар, Худагулулар, Исмиханлар, Бахшалылар, Ҹамаллар, Атакишиләр, Мирзалылар, Нәҹәфгулулар, Әлишаһмәммәдлиләр, Шүкүрлүләр, Ибраһимлиләр, Зејналабдинлиләр, Күлмалылар, Рүстәмлиләр, Мирзә Әлиасланлылар, Гурбанлылар, Молла Әли Әкбәрлиләр, Мәммәдҹәфәрлиләр, Әрәбәли Гулулар, Нәзәрләр, Шаһверәнләр, Әрәбханлы, Оручлу, Нәсруллаһлы, Һүсејнгулулар, Ҹәфәргулулар, Маһмудлулар, Кәрим Кәрбәлаји Мәммәдәлиләр, Адына Һәзрәтгулулар, Меһди Сәфәрәлиләр, Кәрбәлаји Мәммәдтағылар, Ханкишиләр, Имамгулулар...** адлы тајфа вә тирәләри мә'лумдур.

**Ајбасанлы** обасынын ән үнлү тајфаларына нүмунә олараг ашағыдакылары көстәрә биләрик:

**Оручлу тајфасы -** бу тајфанын улу бабасы олан **Оруч** XVIII әсрдә јашамыш вә һејвандарлыгла мәшғул олмушдур. Онун **Аллаһгулу** (1772-1882) адлы оғлу олуб. Аллаһгулунун (о, һәм дә молла иди) Гулу, Иман, Сәмәд, Һәзрәтгулу адлы оғуллары варды. Гулунун **Меһралы, Күлмалы, Гурбанлы, Кәлбалы, Сәфи Ағаверди,** Иманын **Гәһрәман** вә **Гурбан,** Кәрбәлаји Сәмәдин **Шаһверди, Һагверди, Худаверди** вә **Мөвламверди,** Һәзрәтгулунун **Адына, Әмраһ, Тәһмәз, Мәммәдрза** адлы оғланлары вар иди...

**Ҹамаллы тајфасы -** бу тајфанын улу бабасы **Новруз** XVIII әсрдә јашајыб вә әсасән һејвандарлыгла мәшғул олуб. Онун **Ҹамал** адлы

оғлу 1788-чи илдә Ајбасанлы обасында доғулуб. Чамалын Һүсејнгулу, Нәчәфгулу, Чәфәргулу, Әһмәд, Новруз адлы оғланлары олуб. Һүсејнгулунун **Бајрамалы, Оручалы** вә **Гасымхан** адлы, Мәшәди Нәчәфгулунун **Баба, Сәмәд, Ибраһим, Рәһим, Аббас** вә **Дүнјамалы** адлы, Чәфәргулунун исә **Һәмзә** адында оғуллары олмушдур...

**Әрәбханлы тајфасы** - бу тајфанын улу бабасы **Әрәбхан** (1752-1812) XVIII әсрин II јарысы, XIX әсрин әввәлләриндә јашајыб. Онун **Әлигулу, Худагулу** вә **Имамгулу** адлы оғланлары олуб. Әлигулунун **Сәфәралы, Чәфәр, Әрәб, Мәммәдтағы, Нағы** вә **Мәммәд,** Худагулунун исә **Мәммәдгулу, Рзагулу, Мүрсәлгулу, Һүсејнгулу, Һәсәнгулу** адлы оғуллары олмушдур...

**Нәсруллаһ тајфасы** - бу тајфанын улу бабасы **Нәсруллуһ** XVIII әсрин сонлары, XIX әсрин әввәлләриндә јашамыш вә әсасән һејвандарлыгла мәшғул олмушдур. Нәсруллаһын **Күлмәммәд, Аллаһверди, Сәфәрәли** вә **Мәммәдәли** адлы оғланлары варды. Мәшәди Күлмәммәдин **Һүсејн, Һүсејнхан, Мәммәд,** Кәрбәлаји Аллаһвердинин исә **Һәсәнхан, Ибраһим, Рүстәм** вә **Мирзалы** адлы оғуллары олуб...

Обанын **Маһмудушағы, Зејналлы, Гулулу** адлы тајфалары да вар. Кәнд һазырда ермәни ишғалы алтындадыр...

ССДНЗК китабында Кәнчә губернијасынын Чәбрајыл гәзасында 53 евдән, 308 нәфәр әһалидән ибарәт **Ајбасанлы** адлы бир кәндин, АУПККК әсәриндә исә Гарјакин гәзасында **Ајбасанлу** ады ики кәндин олдуғу көстәрилир. Көрүнүр, бу кәндләр **ашағы** вә **јухары** адлары илә фәргләндирилмишдир. **Ајбасанлы** кәндинин сәма чисми олан **Ај** илә һеч бир әлагәси јохдур. Бә'зи сәнәдләрдә кәндин ады **Ајыбасанлы** кими дә јазылыр. ИӘБ вә АТД китабларында кәндин ады **Ајбасанлы** шәклиндә јазылмышдыр...

**"Басан"** фели-сифәти *"мәғлуб едән"*, *"гәләбә чалан"* мә'насындадыр. **"Ајыбасан"** түрк мәншәли антропониминин һәр ики компоненти архаикләшмишдир. Өлкәмиздә *ајы* һејван ады илә адландырылан орографик терминләрдән дүзәлмиш чохлу оронимләр вардыр: **Ајы вурулан гаја, Ајычынгыллы дағы** (Кәлбәчәр), **Ајы өлдүрүлән јер** (Загатала), **Ајы дағы** (Чәбрајыл), **Ајы мағарасы дағы** (Губадлы), **Ајы дәрәси** (Ағсу, Гах, Губадлы, Шанбуз рајонлары) вә с.



## ЈУХАРЫ ВЕЈСӘЛЛИ КӘНДИ

**Јухары Вејсәлли кәнди** Фүзули рајону мәркәзиндән 20 км шималда, Фүзули-Хочавәнд шоссе јолу кәнарында јерләшән кәнд. Кәнд әһалиси әсасән һејвандарлыг, тахылчылыг вә үзүмчүлүклә мәшғул олур. Кәнддә мәктәб, клуб, китабхана вә с. вар. Кәнд 1992-чи ил февралын 22-дә ермәниләр тәрәфиндән ишғал олунуб...

Әввәлләр кәндин ады **Вејсәлли** олуб. Бә'зи тарихи мәнбәләрдә ојконимин ады **Ағбашлы** кими дә көстәрилир. Ондан 10 километр кәнарда јерләшән кәнд **Ашағы Вејсәлли,** бу јашајыш мәнтәгәси исә **Јухары Вејсәлли** адландырылмышдыр. **Вејсәлли** кәндин әсасыны гојмуш нәслин адыдыр. **Вејсәл** сөзү әрәбчә "күч, гүввә", "гәрар, һөкм, фәрман" демәкдир.

Тарихи гајнаглардан мә'лум олур ки, **Отуз ики** тајфасынын **Вејсәлли** адлы ојмағы да олуб. Бу ојмаг гышы Вәрәндә наһијәсинин Һачыөзү адлы әразисиндә гышлајыр, Тохтадаш, Алпағуд, Хонешин, Гозлу, Гатардаш, Чагмаг вә Үчтәпә адлы јерләрдә јајлајыр. Бу ојмағын әһалиси Охбулаг вә Гошачыглар адланан әразиләрдә әкинчиликлә (гисмән исә һејвандарлыгла) мәшғул олур, үшр вә беһрәни торпаг саһибинә верир. **Вејсәлліләр** Отузикиләрин бир голудур.

Вејсәллиләрин **мәһәммәдханлар (мәһәммәдханушағы), нурмәһәммәдлиләр, мәшәдибеһбудлар, әһмәдлиләр, мәммәдлиләр, әлирзалар, шаһкәлдиләр, гошунәлиләр, долуханлар, шамхаллылар, рамазанлылар, казымлылар, шаһвердиләр, сејидәһмәдлиләр, әлиширлиләр, азадәлиләр, ағамирлиләр, аллаһгулулар, мириләр, мухтарлылар** адлы тајфа вә тирәләри вар.

1 ијул 1873-чү ил тарихдә Чәбрајыл гәзасы јарананда Гарабулаг наһијә статусу алараг Чәбрајыл гәзасынын табечилијинә верилди. Бу заман пәракәндә һалда олан бир чох кәнд вә обалар Гарабулаг наһијәсинин тәркибинә гатылды. Онларын ичәрисиндә **Вејсәлли** кәндинин дә ады варды...

Көјчајда вә Чәбрајылда да **Вејсәлли** кәнди мөвчуддур.

## ЈУХАРЫ ДӘЈИРМАН

Јухары Әбдүррәһманлы кәнди әразисиндә гејдә алынан орографик објектләрдән бири **Јухары дәјирман** адланыр. **Дәјирман** - дәнүјүтмә техникасы илә ун истеһсал едилән мүәссисәдир. Гәдимдә Азәрбајчанда да дәни дән дашларында һәвәнкдә үјүдүрдүләр. Миладдан өнчә II минилликдә **әл** дәјирманы јаранды. Әкинчилијин инкишафы илә әлагәдар олараг гулдарлыг вә феодализм гурулушлары дөврүндә **су** илә ишләјән **дәјирманлар** да мејдана кәлди. Орта әсрләрдә **јел дәјирманы** да ишләдилмишдир...

**Јухары дәјирман** чоғрафи објекти адындан көрүндүјү кими, јерләшдији мөвге илә әлагәдар бәлә ад алыб. Кәндин әразисиндә **Ашағы дәјирман** адлы јер дә гејдә алынмышдыр...

## ЈУХАРЫ ДИВАНАЛЫЛАР КӘНДИ

(Бах: **Диваналылар кәнди**)

## ЈУХАРЫ ӘБДҮРРӘҺМАНЛЫ КӘНДИ

**Јухары Әбдүррәһманлы кәнди** рајон мәркәзиндән 7 км чәнуб-шәргдә, Фүзули-Һорадиз автомобил јолу кәнарында, дүзәнлик әразидә јерләшир. Әһалиси 2000 нәфәрдир. Әһали әсасән үзүмчүлүк, тахылчылыг вә һејвандарлыгла мәшғулдур. Кәнддә орта мәктәб, клуб, китабхана, тибб мәнтәгәси, һәким-амбулаторија, мәдәнијјәт еви, 1 сајлы үзүм е'малы заводу, гәдим гәбиристанлыг, дәјирман, мүхтәлиф тичарәт-иашә објектләри, кәһризләр вә с. вардыр. Кәнд 1993-чү илин августунда ишғал олунуб...

Јашајыш мәнтәгәсинин кечмиш ады **Әбдүррәһманлы,** ондан јаранмыш јени мәнтәгә **Ашағы Әбдүррәһманлы,** әввәлки кәнд исә **Јухары Әбдүррәһманлы** адландырылмышдыр. **Әбдүррәһманлы** кәндин әсасыны гојан нәслин адыдыр. **Јухары** сөзү кәнди ејниадлы дикәр јашајыш мәнтәгәсиндән фәргләндирмәк үчүн ишләдилир.

**Әбдүррәһманлы обасы** Чәбрајыллы елинин бир голудур. **Јухары Әбдүррәһманлы** кәндинин ады XVIII әсрдә јашамыш **Әбдүррәһман бәј Ағаси бәј оғлу**нун ады илә әлагәдардыр.

(Әлавә мә'лумат үчүн бах: **Ашағы Әбдүррәһманлы кәнди...)**



## ЈУХАРЫ ЈАҒЛЫВӘНД КӘНДИ

**Јухары Јағлывәнд кәнди** рајон мәркәзиндән 11 км шималда, Гарабағ силсиләсинин шимал-шәрг әтәкләриндә јерләшир. Әһалиси 1800 нәфәрдир. Әһали тахылчылыг, үзүмчүлүк вә малдарлыгла мәшғул олур. Кәнддә орта мәктәб, клуб, китабхана, тибб мәнтәгәси, мәсчид (XIX әср), көрпү (XIX әср) вә с. вар. Кәнд ермәниләр тәрәфиндән ишғал олунмушдур...

**Јағлывәнд (Јағләвәнд)** топониминин әсасыны **јағләвәнд** компоненти тәшкил едир. **Јағлавәнд** кечмишдә бу әразиләрдә малдарлыгла мәшғул олан елатын адындандыр. **Јухары** сөзү ону ејниадлы јашајыш мәнтәгәсиндән фәргләндирмәк үчүн әлавә едилиб. XIX әср сәнәдләриндә Чәбрајыл гәзасында малдарлыгла мәшғул олан елатлардан бири **јағләвәнд** адланырды. Чох күман ки, бу топоним дә һәмин елатын адыны өзүндә әкс етдирир.

Тарихи гајнаглардан мә'лум олур ки, **Јағлывәнд (Јағләвәнд) ојмағы** Чаваншир тајфасына дахилдир. Бу ојмаг Арасбар санчағында, Хан архында гышлајыр, әкинчилик вә һејвандарлыгла мәшғул олурду. 1727-чи илә аид олан "Кәнчә-Гарабағ әјаләтинин мүфәссәл дәфтәри" адлы тарихи сәнәддә Чаваншир елинин **Јағләвәнд** ојмағы илә бағлы мә'луматлар верилмишдир. Орада көстәрилир ки, бу ојмаг Күр чајы кәнарында, Хан архы тәрәфдә, еләчә дә, Көндәлән вә Камалкәнд чајлары кәнарында, Арал вә Һәсиркөрпү адланан әразиләрдә гышлајыр, Ирәван сәрһәдиндә - Күнеј, Зилхач, Пәрихан вә Јахынлы адлы саһәләрдә јајлајырлар. Бу ојмағын әһалиси Дизаг наһијәсиндә Көндәлән чајы кәнарында әкинчиликлә мәшғул олур, үшр вә бәһрәләрини торпаг саһибинә верирләр...

Јағлывәнд ојмағынын **Бәрхударлы, Әһмәдли, Мирмәһәммәдли, Шаһвердили, Һагвердиләр, Дәрвишләр, Һафсалы, Ковхалы, Күләдәрли, Ирәншәлли, Ләләли, Гәдирли, Ашырлы, Хәләфли, Хосровлар, Гурбанлар, Нәбиләр, Новрузлар, Танрыгулулар, Маһмудлар, Газыханлар, Достуханлы, Сејидханлар, Гасымлар, Нијарлы, Мәһәррәмушағы, Исалылар, Бағдадлылар, Дәмироғлулар, Ләтифлиләр, Тағылылар, Очаггулулар, Шәкәрләр,**

**Дүнјамалылар, Дијарханлар, Мәһәммәдлиләр, Зејналханлар, Аллаһгулулар, Шәрифлиләр, Гырзәлиләр, Имамгулулар, Тәһмаслылар, Сејид Салеһләр, Пәричаһанлы, Гывлыјалы** вә башга нәсил-тирәләри мөвчуддур...

Јағлывәнд кәндинин сајы (**Ашағы Јағлывәнд** вә **Јухары Јағлывәнд** кәндләри) ону көстәрир ки, Јағлывәнд әһалиси гышлаг вә јајлаг һәјаты кечирмишләр. Чох күман ки, кәндин јерләшдији индики јердә әввәлләр дә јашајыш мәнтәгәси мөвчуд олмушдур.

Гајнаглар хәбәр верир ки, сон орта әсрләрдә даими јашајыш јери ахтаран әһали Араз чајы кәнарында хараба бир јашајыш мәскәни олдуғуну көрүб бурада мәскунлашмышдыр. Бу да бир мәнтигдир ки, өзкә тајфалар бурада кәлиб мәскунлаша билмәздиләр; демәли, бу әразидә - **Араз Јағлывәнд** кәндиндә елә бу јашајыш мәнтәгәси әһалисинин улу бабалары јашамышлар...

**Јағлывәнд** топонимини *"јағмаланмыш"* анламы илә дә әлагәләндирәнләр вар. **Вәнд** термининин фарс дилиндә *"ев"*, *"оба"*, *"кәнд"*, *"зирвә"* мә'налары да вар. Иран дилләриндә **вәнд** сөзүнүн *"нәсил"*, *"төрәмә"*, *"ушағы"* вә с. анламлары да мә'лумдур...

**Кәндә Ковхалы тајфасы** (мурадханлы, сәфигулубәјли, ағакишибәјли, шәрәфханлы, азманлы), **Һавсалы тајфасы** (хәләфли, пәричаһанлы, мәһәррәмушағы, кәлбијәлиләр, нијарлылар), **Күләдәрли тајфасы** (аббасгулулар, әмирмурадлылар, мирзәли, рүстәмли, ибалы, һәсәнли, казымлы, исмајыллы, гырдылы, ахыһүсејнли, гаралылар, гасымлылар), **Бәдирли тајфасы** (адыкөзәлли, әсәдли, еминалылар), **Ирәншәлли**, **Ләләли** (мәшәдигулу, мөһнәтли, рәсуллу, сејидли), **Һүмбәталылар, Ашырлы, Алысәфәрли** (бајрамлы, нәбили), **Чијәли** (фәрһадлы, бахышлы), **Асланалылар, Тејмурлу, Мәммәдли** вә с. тајфалар вардыр...

Дејиләнә көрә, Әмир Тејмур гышламаға һәмишә Гарабаға кәләрмиш. Бир дәфә дә о, дүшәркәсини Күләдәрли обасы илә гоншу салыр. Оба ағсаггаллары Әмирлә көрүшмәк үчүн онун дүшәркәсинә кедирләр. Әмир Тејмур онлары гәбул едиб кефләрини сорушур, һал-әһвал тутур. Ағсаггаллардан бири гајыдыб дејир ки, лап хан кефиндә доланырыг. Бу сөз Тејмура тәсир едир вә о дејир:

- Әкәр сабаһ мәним бүтүн гошун әһлими једириб-дојурмасаныз, обанызы виран едәчәјәм. Торпағынызы ат торбасы илә дашытдырыб јеринә сарымсаг әкдирәчәјәм. Ди, кедиб һазырлыг көрүн!



Тејмурла көрүшә кәләнләр кор-пешман, јерсиз данышан һәмин адамы да данлаја-данлаја кери гајыдырлар. Онларын нәји варды ки, Әмир Тејмура да нә версинләр. Гошунун да бир учу бурда, бир учу да Худафәрин көрпүсүндә. Нә исә, ағсаггаллар, башбиләнләр топланыб белә мәсләһәтә кәлирләр ки, гошун әһли үчүн јағлы плов биширсинләр. Беләликлә, газанлар асылыр. Сабаһ күнорта наһарында гошун әһлиндән ким әлини узадыб пловдан бир пәнчә алырса, елә о ан да «дојдум» дејиб кәнара чәкилир. Сөз кедиб Әмирә чатыр. Тејмур әмр едир ки, пловдан бир булуд онун өзүнә дә кәтирсинләр. Плову кәтирирләр. Тејмур пловдан бир тикә ағзына гојан кими иши баша дүшүр. Плов бүсбүтүн, јағ иди. О, күлүмсәјәрәк дејир:

- **Јағлы фәнд** ишләтмәклә јахшы чанынызы гуртардыныз.

Елә һәмин күндән дә Күләдәрли обасынын ады **Јағлывәнд (Јағлыфәнд)** галыр...

**Јағлывәнд** сөзүнүн тәркибиндәки **ләвәнд** адынын бир анламы да "сојғунчу", "јағмачы" мә'насына ујғун кәлир. Түрколог В.Р.Родлова көрә, **ләвәнд** сөзүнүн "азад", "сәрбәст", "әскәр", "авара", "икид", "чәсур", "мәғрур" анламлары да вар. **Ләвәнд** сөзүнүн дилимиздә "тәнбәл", "чох јејән", "гарынгулу" мә'налары да вардыр. Бу сөз тохучулуг термини кими дә ишләдилир.

Сон орта әсрләр дөврүндә Азәрбајчан дөвләт гурумларында мүхтәлиф тајфалардан топланмыш гејри-низами һәрби дәстәләрә, чәрикләрә **ләвәнд** дејилирди. Бу чәрикләр јүрүшләрдә könүллү иштирак едир, јағма һесабына доланырдылар. **Ләвәнд** сөзү османлыларда *"дәниз пијадасы"* анламында да ишләнирди.

**Јағлывәнд** сөзүнүн мә'насы **јағыләвәнд** дејиминдән төрәндији үчүн *"гијамчы әскәр"* демәкдир. Әлбәттә, бу сөзүн мә'насыны чох јерә јозанлар да вар...

Дејиләнләрә көрә, бир күн Әмир Тејмур јенә гышламаг мәгсәдилә Аразбарын Һарамы дүзү дејилән јеринә кәлир. Нијјәти бу олур ки, јахынлыгдакы обалардан әрзаг, от-әләф алыб бүтүн гышы бурада кечирсин. Башынын дәстәси илә јахын обалара баш чәкмәјә чыхыр. Өнчә Јағлывәнд обасына тәрәф кәлир; ора јетишчәк бәләдчидән сорушур:

- Де көрүм бу дүзүн ады нәдир?

Бәләдчи дејир:

- Һарамыдыр, гиблеји-аләм.
- Бәс о обанын?
- Јағлывәнддир, - гиблеји-аләм.

Әмир Тејмур үз-көзүнү туршудур:

- Баһо, бу јерләрдә чох галмаг олмаз. Бунлар өзләри елә һарамы, јағыдыр. Бизә һеч нә вермәзләр, атланын, кедәк үзү о јана...

**"Јағы"** түрк дилиндә "дүшмән", "гијамчы", **"Ләвәнд"** исә "дәниз пијадасы" вә ја "тајфалардан топланмыш гејри-низами орду", јахуд да "һәриф", "вәчсиз" мә'насында ишләнир. **"Вәнд"** һиссәчији "јер", "мәкан" мә'насында ишләнир. "Вәнд" һиссәчијинин "јер", "мәкан" мә'насында олдуғуну нәзәрә алсаг, кәндин адынын етимоложи чаларыны "Јағлы јер" кими характеризә етмәк олар. **Јағлывәнд** топоними илә бағлы чохлу әфсанә вә рәвајәтләр мөвчуддур. Онлардан бир нечәсини јада салаг:

1. Бу јерин башчысы әризә, шикајәт вә хаһиш үчүн јанына кәләнләрә һәмишә јағлы вә'дләр вердијиндән јахын мәскәнләрин әһалиси бу әразини **Јағлывәд** адландырмышлар.

2. **Јағлывәнд** сөзүндәки **"вәнд"** компонентини **"фәнд"** формасы илә әлагәләндирәнләр дә вардыр. Бу да онунла бағлыдыр ки, буранын сакинләри куја чох фәндкир инсанлар олуб, башгаларыны асанлыгла алдада билмишләр.

Јағлывәнд сөзүнүн әмәлә кәлмәсини *"ләвәнки"* лексик ваһиди илә дә әлагәләндирәнләр вар. *Ләвәнки* Талыш зонасында јахшы хөрәк һесаб олунур. Дејиләнә көрә, бу әразидә јашајанлар ләвәнкијә бир гәдәр артыг јағ төкүб јемәји хошлајырлармыш. **"Јаглывәнд"** сөзүндә *ә-ы, к-д* сәс әвәзләнмәләрини нәзәрә алсаг, бу бағлылығы күман едәнләрә дә бир нөв һагг газандырмаг олар.

3. Аға Мәһәммәд шаһ Гачар Шушаја һүчум әрәфәсиндә кәнд әһлинә онун гошунуну дојурмағы әмр едир. Фәндкир јағлывәндлиләр **фәнд** ишләдиб, јағлы плов биширир вә беләликлә, гошуну дојурараг Гачарын зүлмүндән гуртулурлар...

**"Јағы"** түрк дилиндә **"дүшмән"** демәкдир, **"ләвәнд"** исә **"дәниз пијадасы"** вә ја "тајфалардан топланмыш гејри-низами орду" мә'насында ишләнир. Кәндин әкин үчүн чох јарарлы мүнбит торпағы вар: **"вәнд"** һиссәчијинин **"јер"** мә'насында олдуғуну нәзәрә алсаг, топоними "Јағлы јер" кими изаһ етмәк олар (Әлавә мә'лумат үчүн бах: **Ашағы Јағлывәнд кәнди**).



## ЈУХАРЫ КӘҺРИЗ

**Јухары кәһриз** һидроними Фүзули рајонунун Јухары Әбдүррәһманлы кәнди әразисиндә гејдә алыныб. Грунт суларыны топлајыб јер сәтһинә чыхармаг үчүн јералты гурғуја **кәһриз** дејирләр. Кәһризләрин лағымлары бир-бири илә шагули гујулар васитәси илә бирләшдирилир. Кәһризләри пешәкар канканлар газыр. XX әсрдә Азәрбајчанда 900 **кәһриз** олуб...

Адындан көрүндүјү кими, кәнддә башга **кәһриз** дә вар: **Ашағы кәһриз, Орта кәһриз.** Һаггында бәһс етдијимиз **Јухары кәһриз** һидроними о бири кәһризләрдән **јухарыда** јерләшдији үчүн беләд алмышдыр...

## ЈУХАРЫ КҮРДМАҺМУДЛУ КӘНДИ

**Күрдмаһмудлу кәнди** Фүзули рајонунда, рајон мәркәзиндән 27 километр шәргдә, **Күрдмаһмудлу** инзибати әрази ваһидиндә, дүзәнлик әразидә јерләшир. Әһалиси әсасән үзүмчүлүк, һејвандарлыг, тахылчылыг, бағчылыгла мәшғул олур. Кәнддә орта мәктәб, китабхана, клуб, фелдшер-мама мәнтәгәси, рабитә шө'бәси вә с. вар. Бу кәнддән чохлу танынмыш зијалы шәхсијјәтләр чыхмышдыр.

Кечмиш ады **Күрдмаһмудлу**дур. Ондан дикәр мәнтәгә јарандыгдан сонра јени кәнд **Ашағы Күрдмаһмудлу,** кечмиш кәнд исә **Јухары Күрдмаһмудлу** адландырылмышдыр. Топоним XVI-XVII әсрләрдә Түркијәнин Ван көлүндән шәргдә јашамыш, сонралар бир һиссәси Чәнуби Гафгаза кәлмиш кәнд әһалисинин бир тајфасынын – **Күрдмаһмудлу** тајфасынын адыны өзүндә әкс етдирир. Муғана көч едән бу әһали **күрдләр, һејдәрли** вә **ортагышлаг** адлы үч бөјүк голдан ибарәт олуб. Кәндин ады **Күрдмаһмудлу** тајфасынын бурада мәскунлашмасы нәтичәсиндә јаранмышдыр.

**Күрдмаһмудлу** топоними илә бағлы индијәдәк мүхтәлиф фикир вә мүлаһизәләр мөвчуддур. Күрдмаһмудлулары **кәнкәрлиләрлә** дә бағлајанлар вар. Күрдмаһмудлуларын әчдадлары XVI әсрдә Түркијә әразисиндә јашамыш, сонралар онларын бир һиссәси Чәнуби

Гафгаза кәлмишләр. Муған дүзү истигамәтинә көч едән Күрдмаһмудлуларын **ортагышлаг, күрдләр** вә **һејдәрлиләр** адлы 3 бөјүк голу олуб.

**Күрдмаһмудлу** топоними патронимик топонимдир. **Маһмуд** сөзүнүн әрәбчә "тә'рифли", "тә'рифләнмиш" мә'налары мә'лумдур. Әскидән олдуғу кими түркләрдә вә азәриләрдә инди дә оғланлара **Маһмуд** ады гојулур...

Үнлү түркчүләрдән олан Ф.Сүмәр оғуз бојларынын адыны јазаркән бу бојларын сырасында **күрдмаһмудлу** адыны да чәкмишдир. **Күрдмаһмудлу** јашајыш мәнтәгәсинин ады кәнкәрли бағлылығы олан **күрдмаһмудлу** тајфасы вә онларын тирәләринин бурада мәскунлашмасы илә әлағәдардыр.

**"Јухары"** сөзү ејниадлы јашајыш мәнтәгәсиндән фәргләндирмәк үчүн ишләдилир (бах: һәмчинин **Ашағы Күрдмаһмудлу кәнди**).

Имишли рајонунда да **Күрдмаһмудлу кәнди** вардыр. Һазырда Азәрбајчанда (Иран) вә Түркијәдә **күрдмаһмудлу** тирәләринин јашадығы чохлу сајда мәнтәгәләр вар...

## ЈУХАРЫ КҮЗЛӘК КӘНДИ

**Јухары Күзләк кәнди** рајон мәркәзиндән 16 км чәнубда, Гозлучајын саһилиндә, Гарабағ силсиләсинин әтәјиндә јерләшир. Әһалиси әсасән үзүмчүлүк вә һејвандарлыгла мәшғул олур. Кәндин әразисиндә әкин үчүн чох јарарлы мүнбит торпаг саһәләри вар. Кәнддә мәктәб, клуб, китабхана вә с. вар. Кәнд ишғал алтындадыр.

Кәндин кечмиш ады **Күзләк**дир. XIX әсрдә ондан әмәлә кәлмиш ејниадлы мәнтәгә **Ашағы Күзләк,** әввәлки кәнд исә **Јухары Күзләк** адландырылмышдыр.

**Күзләк** топоними гәдим түрк дилләриндәки **күз** ("пајыз отлағы") сөзүндән вә мәкан билдирән **-"ләк"** шәкилчисиндән ибарәтдир.

**"Күзләк"** вә **"Күздәк"** топонимләриндә түрк вә Азәрбајчан дилләриндә мәкан билдирән **"лак"**, **"ләк"** шәкилчиләри иштирак едир. Оронимин тәркибиндәки **"дәк"** форманты түрк дилләриндә **"д"** сәсинин **"л"** сәси илә әвәз олунмасы нәтичәсиндә дәјишилән **"ләк"** сөзүнүн фонетик вариантыдыр.

Чобанлар адәтән пајызда доғулан гузуја **күз** дејирләр. Елә бөлкә



дә дилимиздәки **гузу** сөзү **күзү** сөзүнүн өзүндән төрәјиб. Гузунун пајыз, гыш олачағына **күз** дејилир...

**"Күздәк"** чоғрафи ады ики компонентдән ибарәтдир: **"күз"** вә **"дәк"**. **"Күздәк"** вә ја **"Күзләк"** оронимилә бағлы мүхтәлиф мүлаһизәләр вар. **"Күз"** **"гуз"** етнониминин фарс дилиндә "Деһ" - "кәнд" сөзү илә бирләшиб, "Оғуз кәнди" мә'насыны вердијини сөјләјәнләр вар. **"Күз"** сөзү гәдим түрк дилиндә "пајыз" вә ја "пајыз оту" мә'насындадыр. Бу мә'нада **"Күздәк"** топониминин ачмасы "пајыз јурду" демәкдир.

**"Күз"** топонимини "дағын күн дүшмәјән тәрәфи" кими, **"дәк"** һиссәсини исә "даг" кими мә'наландыран тәдгигатчылар да вардыр.

Јашајыш мәнтәгәси XIX әсрдә **Күздәк** (индики Јухары Күзләк) кәндиндән чыхмыш аиләләрин бурада мәскунлашмасы нәтичәсиндә мејдана кәлмишдир. **"Күздәк"** кәндинин ады түрк дилләриндәки **"күз"** вә ја **"күз"** (пајыз), "јер, мәкан" билдирән - **"дәк"**, **"ләк"** шәкилчисиндән ибарәт олуб "пајыз отлағы", "пајыз бинәси", "пајызлыг" (мугајисә үчүн: јајлаг, гышлаг) мә'наларындадыр.

Әлавә мә'лумат үчүн бах: һәмчинин **Ашағы Күзләк кәнди.**

## ЈУХАРЫ РӘФӘДИНЛИ КӘНДИ

**Јухары Рәфәдәнли кәнди** рајон мәркәзиндән 18 км чәнубда, Фүзули-Чәбрајыл шоссе јолунун кәнарында, Гарабағ силсиләси әтәјиндә јерләшир. Әһалиси әсасән үзүмчүлүк вә һејвандарлыгла мәшғул олур. Кәнддә мәктәб, клуб, китабхана вә с. вар. Кәнд ермәниләр тәрәфиндән ишғал олунмушдур.

Кечмиш ады **Рәфәдинли**дир. Ондан јаранмыш мәнтәгә **Ашағы Рәфәдинли,** әввәлки кәнд исә **Јухары Рәфәдинли** адландырылмышдыр. **Рәфәдинли** кәндин әсасыны гојмуш нәслин адыдыр.

1727-чи аид олан "Кәнчә-Гарабағ әјаләтинин мүфәссәл дәфтәри" адлы тарихи сәнәддә Дизаг наһијәсинә табе олан кәндләр сырасында **Рәфәдинли (Рәфдинли)** кәндинин дә ады чәкилир. Бә'зи тарихи сәнәдләрдә кәндин ады **Руһудинли** формасында да көстәрилмишдир. **Рәфәдинли обасы** гәдим **гарадағлы** елинин бир голудур...

## ЈУХАРЫ СЕЈИДӘҺМӘДЛИ КӘНДИ

Рајон мәркәзиндән 14 км шәргдә, дүзәнликдә јерләшән кәнд. Әһалиси 1700 нәфәрдир. Әһали үзүмчүлүк, тахылчылыг вә һејвандарлыгла мәшғул олур. Кәнддә орта мәктәб, китабхана, тибб мәнтәгәси, илкин шәраб е'малы заводу, XIX әсрдә инша едилмиш түрбә вар. Кәнд һазырда ишғал алтындадыр.

Јашајыш мәнтәгәсини **Сејидәһмәдли** нәсли салдығы үчүн белә адландырылмышдыр. Халг арасында һөрмәт газанан "сејид" сөзү шәхс ады кими бир чох топонимләрдә өз әксини тапмышдыр. Топонимин ады кәнди салан **Сејидәһмәдли** нәслинин ады илә бағлыдыр.

**Сејидәһмәдли обасы** гајнагларын вердији мә'лумата көрә, **һачылы** ичмасына дахилдир. **Сејидәһмәдли обасы** Чаваншир елинин апарычы тајфаларындан олан **Јағлывәнд ојмағынын** бир голудур. Бу обанын бә'зи тирәләри XIX әсрин әввәлләриндә Аббас Мирзәнин көстәриши илә Араздан кечәрәк Сәраб вилајәтинә кәтириләрәк орада мәскунлашмышдыр. Бу нәсилләрин бир чох нүмајәндәләри вахтилә Иранда сүркүн һәјаты да јашамышдыр. Анчаг чох чәтинликлә дә олса, Мирзә Чамал бәј Мәһәммәдхан бәј оғлу бу обаны әввәлки әски јурдуна гајтармаға наил олмушдур. Һәмин дөврдән сонра обанын бир нечә аиләси Мирзә Чамала рәијјәт кими верилмишдир.

1727-чи илә аид Османлы гајнағында көстәрилир ки, Чаваншир тајфасынын Јағләвәнк ојмағына бағлы **Сејидәһмәдли** нәсилләри Дизаг наһијәсиндә, Көндәлән чајынын јахасында әкинчиликлә мәшғул олур, мәһсулларыны торпаг саһибләринә верир, веркиләрини дә өдәјирләр. **Сејидәһмәдли ојмағы** Аразбарда - Хан архында гышлајыр, Ирәван әјаләтинин сәрһәдиндә Килсәкәдик адланан әразидә јајлајырлар. Һачылы ичмасына гатылан **Сејидәһмәдли обасы** 1842, 1848, 1849, 1863, 1873, 1886-чы илләрдә дөвләт тәрәфиндән сијаһыја алынмышдыр.

**Сејидәһмәдли** обасы 2 шенлијә - **Ашағы Сејидәһмәдли** вә **Јухары Сејидәһмәдли** кәндләринә ајрылыр. Бу кәндләрдә **Газылы (Газы** XVIII әсрдә јашајыб) тајфасынын (бу тајфаја **мәшәдимирзәлилр, мәшәдиһәсәнлиләр, мәммәдгулулар, кәрбәлаҹиәбдүлханлылар, һәсәнгулулар, һүсејнгулулар** адлы тирәләр дахилдир), **Кәрбәлаји Әлипәнаһбәј ушағы** тајфасынын (бу тајфа **әлимәммәдбәјли, әләкбәрли, әскәрли, кәрбәлаји имамәлибәјли, мәммәдәлибәјли, чәфәрли, һачыимангулулар** тирәләриндән ибарәтдир), **Казымлы (Казым** XVIII әсрин сону вә XIX әсрин әввәлләриндә јашамыш, әсасән, һејвандарлыгла мәшғул олмушдур) тајфасынын (бу тајфанын **исмајыллы, алылы, әләскәрли, кәрбәлаји, пашалы, шүкүрлү** адлы тирәләри вардыр), еләчә дә, **һачылы, әбүлханлы, бүнјадлы, әлизаманлы, һачыməһәммәдли, һачыимамгулулар, хәлилилиләр, күрдмаһмудлулар, гаракүвәндикли, сәфәралылар** вә с. тајфаларын нәсилләри јашамышдыр...



## КАРДАШ

Фүзули рајонунун Һорадиз кәнди әразисиндә гејдә алынан орографик објектләрдән бири дә **Кардаш** адланыр. Ороним **кар** вә **даш** сөзләриндән ибарәтдир. Јерли мә'лумата көрә, һәмин **даша** тохунанда сәс-сәда вермир, нәтичәдә чинкилтисиз алчаг, **кар** сәс алыныр. Елә бу сәбәбдән дә јерли сакинләр бу дашы **кардаш** адландырмышдыр.

**Кар даш** һагында чохлу рәвајәтләр данышылыр. Һорадиз кәндиндән ејниадлы гәсәбәјә кедән ел јолундан азачыг аралыда үзүгүлү јатмыш адамы хатырладан бу **Кар даш** һагында фүзулили шаир Оруч Сәда белә бир көзәл ше'р дә гошмушдур:

*Бу даш үзүгүјлүдүр,*
*Јары торпаға батыб.*
*Бу даш сирри өзүндә,*
*Бу даш даш кими јатыб.*

*Бу даш үзүгүјлүдүр,*
*Јердән бәрк-бәрк јапышыб.*
*Елә бил милјон иллик*
*Һәсрәтлиләр тапышыб.*

*Дашын лал һарајындан*
*Тулаг батар динләсән.*
*Бу дашын даш кимлији*
*Сәнә чатар динләсән.*

*Бу даш дејир: сиз мәнә,*
*Кар демәјин, ајыбдыр.*
*Мәнә Кар даш дејәнләр,*
*Гулагындан мајыфдыр.*

*Бу даш дејир, санмајын,*
*Набәләдәм, нашыјам.*
*Мән Гарача чобанын,*
*Сапандынын дашыјам.*

*Бу даш дејир ешидин,*
*Сирли аһам, аманам.*
*Мәни һејрәт дондуруб,*
*Даша дөнмүш заманам.*

*Бу даш узугулудур,*
*Дәрдини худа биләр.*
*Дашы даш јухусундан,*
*Танры ојада биләр...*

## КӘЛБӘ НӘСИР ДӘЈИРМАНЫ

**Кәлбә Нәсир дәјирманы** Фүзули рајонунун Шүкүрбәјли кәнди јахынлығындадыр. **Дәјирман** - кәнд тәсәррүфат саһәси илә бағлы олан бир тикилидир. Дәни үјүдүб уна вә ја јармаја чевирмәк үчүн мүхтәлиф гурғулары олан мүәссисәјә **дәјирман** дејилир. **Дәјирманлар,** үмумијјәтлә, су јахынлығында тикилир. Азәрбајчанда оронимләрин бәзиләри вахтилә һәмин әразидә мөвчуд олмуш тәсәррүфат тикинтиләринин адлары илә адландырылмышдыр. **Дәјирман** ону ишләдән **Кәрбәлајы Нәсирә** мәхсус олдуғу үчүн онун ады илә дә адландырылмышдыр.

**Дәјирман** сөзү илә бағлы Азәрбајчанда јүзә гәдәр оронимләр гејдә алынмышдыр...



## КӘРӘМ КӨРПҮСҮ

Фүзули рајонунун Сарачыг кәнди әтрафында гејдә алынан орографик објектләрдән бири дә **Кәрәм көрпүсү** адланан чоғрафи адлыр. **Көрпү** XIX әсрдә инша едилмишдир. Јерли әһалинин дедијинә көрә, көрпүнүн белә адланмасы **Кәрәм** шәхс ады илә әлагәдардыр. Топоним "Кәрәмә мәхсус олан көрпү" мә'насындадыр. Чоғрафи адын тәркибиндәки **-су** шәкилчиси мәнсублуг билдирир.

## КӘРИМБӘЈЛИ КӘНДИ

**Кәримбәјли кәнди** рајон мәркәзиндән 42 км чәнуб-шәргдә, дүзәнликдә, Араз чајынын сол саһилиндә јерләшир. Әһалиси 1600 нәфәрдир. Әһали үзүмчүлүк, һејвандарлыг вә тахылчылыгла мәшғул олур. Кәндә орта мәктәб, китабхана, клуб, тибб мәнтәгәси вә с. вар. Кәримбәјли јашајыш мәнтәгәси **кәримбәјли** тајфасына мәнсуб аиләләрин бурада мәскунлашмасы нәтичәсиндә јаранмышдыр.



Бә'зи мәнбәләрин вердији мә'лумата көрә **Һачылы (Һачыәлили)** елинин бир голу олан **кәримбәјлиләр** 1820-чи илләрдә Чәнуби Азәрбајчанын **Гарадағлы** маһалындан (ојмағындан) көлмишләр.

Кәндә **гарачорлу, гаралы, әһмәдалы, бағырлы, талыблы, арыхлы, рәһәт, һачаллы, арикли, јағбәсли, дәрвишли, мәмили,**

**һәсәналы, әмидаіылы, еіналлар, фәрзаманлы** адлы тајфалара мәхсус нәсилләр јашајыр.

Бә'зи мә'луматлара көрә, кәндин әсасыны XVII әсрин 22-чи илиндә Ҹәнуби Азәрбајҹандан кәлмиш **Һачаллы** тајфасына мәхсус **Кәрим** адлы чаван бир оғлан гојмушдур. Әввәлләр кәнд **Һачаллы** адланмыш, Кәримә **бәјлик** титулу верилдикдән сонра исә јашајыш мәнтәгәси **Кәримбәјли** адланмышдыр.

**Кәримбәјли** адлы кәнд Бәрдә, Салјан, Сәдәрәк (Нахчыван МР) рајонларында да вардыр...

## КИРИШДИ ДӘРӘ

**Киришди дәрә** орографик објекти Јағлывәнд кәнди әразисиндә гејдә алыныб. **Дәрә** - мәнфи релјеф формасы билдирән ҹоғрафи терминдир. Азәрбајҹан оронимијасында **дәрә** термини илә бағлы 30 миндән чох ҹоғрафи ад гејдә алыныб. Оронимин тәркибиндәки **кириш** сөзү битки ады ифадә едир; **-ди** һиссәҹијиндәки **-д** һәрфи тәһрифә уғрамышдыр: әслиндә **-л** олмалыдыр. Топоним һәмин дәрәдә чохлу **кириш** битдији үчүн белә ад алмышдыр.

## КИШМИШЛИ

Јухары Әбдүррәһманлы кәнди әразисиндә гејдә алынан орографик објектләрдән бири **Кишмишли** адланыр. Ороним **кишмиш** сөзүндән вә **-ли** мәнсублуг ифадә едән шәкилчидән ибарәтдир. Бу јерләрдә чохлу мејвә бағлары (кәләсәр) вар. Әразидәки **кишмиш** үзүмлүкләрә көрә топоним белә ад алмышдыр...

## КОР БУЛАГ

Гачар кәндинин әразисиндә гејдә алынан һидронимләрдән бири **Кор булаг** адланыр. Һидроним **кор** сөзүндән вә **булаг** һидронимик апелјативиндән ибарәтдир. Азәрбајҹанын бә'зи әразиләриндә олдуғу кими бу **булаг** да јај ајларында, гураглыг заманларда гурујур.



Адәтән көзү тез-тез тутулан, јә'ни сусуз галан белә булаглара ел арасында **Кор булаг** дејирләр.

Ағдам, Кәлбәҹәр, Кәдәбәј, Лачын, Хоҹалы, Шуша рајонларынын әразиләриндә дә **Кор булаг** ҹоғрафи адына раст кәлирик...

## КОРБУЛАГ ГАЈАСЫ

Рајон мәркәзиндән 17 км шәргдә, Јухары Вејсәлли кәнди јахынлығындакы јүксәклик **Корбулаг гајасы** адланыр. Гајанын ады орадакы еіни адлы булағын ады илә бағлыдыр. Јағмурлу вахтларда **"көзү ачылан"** гајадакы булағын сују гураглыг оланда гурујур. Елә бу сәбәбдән дә сусуз галан, көзү тез-тез тутулан бу булаға ел арасында **Корбулаг** дејирләр. **Кор** - тутулмуш, фәалијјәтдән галмыш, батмыш мә'насындадыр. **Гаја** ҹоғрафи термини мүсбәт релјеф формасы билдирир.

**Корбулаг**лар топониминә Ханлар рајонунун Јухары Ағасыбәјли кәндиндә вә дикәр әразиләрдә дә раст кәмәк олар...

## КӨМҮР ДӘРӘСИ

Фүзули рајонунда әввәлләр көмүр басдырылмыш јер белә адланырды. **Көмүр** тәхминән бир нечә һектар әразидә, **дәрәдә** басдырылмышдыр. Мәһз бу сәбәбдән дә дәрәјә **көмүр дәрәси** ады верилмишдир.

Башга рајонларда да бу типли топонимләр гејдә алыныб: **Көмүрјер** (Јевлах рајону), **Көмүртәпә** (Зәрдаб вә Имишли рајонлары), **Көмүрдағ** (Зәнкәзур силсиләсиндә вә Кәлбәҹәр рајонунда дағ), **Көмүрдәһнә кәнди** (Губа рајону), **Көмүрлү дағ** (Шәрур рајону) вә с.

## КӨНДӘЛӘНЧАЈ

Фүзули вә Хочавәнд рајонларында чај. Хочалы рајону әразисиндән, Гарабағ силсиләсиндән, 1780 м јүксәкликдән башлајыр. Аразын сол голудур. Узунлуғу 100 км, һөвзәсинин саһәси 594 кв. км-дир. Иллик ахын һәчми 50 милјон кубметрдир. Әсасән јағыш вә јералты суларла гидаланыр. Сувармада чајын сујундан кениш истифадә олунур. Дашғын дөврүндә сују мәнсәбә чатыр. Үзәриндә су анбары јарадылмышдыр. Көндәләнчајын һөвзәсиндә сон Тунч дөврүнә вә антик дөврләрә аид археоложи абидәләр ашкар олунмушдур...

**Көндәләнчај** һидроними **көндәлән** вә **чај** компонентләриндән ибарәт олуб "әјри, енинә ахан чај" мә'насындадыр.

Азәрбајчан әразисиндә **Көндәләнарх** (Көјчај), **Көндәлән әкин јери** (Гәбәлә), **Көндәләнјол** (Гах), **Көндәләнјер** (Фүзули, Оғуз), **Көндәләнчөл** (Загатала), **Көндәлән кәнд** (Шәки) вә с. гејдә алынмышдыр.

## КӨНДӘЛӘНЧАЈ СУ АНБАРЫ

**Көндәләнчај су анбары** Фүзули рајону әразисиндә, әсасән **Көндәләнчајын** үстүндәдир. О, үч су анбарындан ибарәтдир. Бу **су анбарлары** 1950, 1962, 1980-чи илләрдә истифадәјә верилмишдир. Үмуми һәчми тәхминән 15 милјон кубметрдир. Бундан тәгрибән 10 мин һектар саһәнин суварылмасында истифадә едилир.

**Көндәләнчај су анбары**на Гуручајдан да су ахыдылыр.

## КҮКҮРДЛҮ БУЛАГ

Сәрдарлы кәнди әразисиндә гејдә алынан һидронимләрдән бири **Күкүрдлү булаг** адланыр. Һидроним **күкүрд** сөзүндән, **булаг** һидронимик апелјативиндән вә мәнсублуг билдирән **-лү** шәкилчисиндән ибарәтдир. Булағын сују **күкүрдлү** олдуғу үчүн һидроним белә ад алмышдыр. Бу типли чоғрафи адлара Азәрбајчанын башга бөлкәләриндә дә раст кәлмәк олар...



## КҮЛТӘПӘ

Рајон мәркәзиндән 40 км шәргдә, Бала Бәһмәнли кәнди јахынлығында, дүзәнликдә јерләшир. Онун чохтәбәгәли гәдим јашајыш јери олдуғу ашкар едилиб. 1965-чи илдә археоложи ахтарышлар заманы Күлтәпәдән енеолит вә орта әср дөврләринә аид мадди мәдәнијјәт нүмунәләри - садә вә ширли габ нүмунәләри, ох учлуглары, ораг дишләри, дән дашлары вә с. топланмышдыр. Тапынты вә тәдгигатлар Күлтәпәнин Енеолит вә Тунч дөврләриндә отураг әкинчи ичмаларын бөјүк јашајыш јери, орта әсрләрдә исә гала олдуғуну көстәрир.

**Күлтәпә** ороними **күл** вә **тәпә** компонентләриндән ибарәтдир. Тәпәдә мүхтәлиф минерал гатышыглардан әмәлә кәлән јанычы олмајан күл галыглары олдуғу үчүн топоним күман ки, белә ад алмышдыр. Бејләганда **Күлтәпә** адлы јашајыш јери, Ермәнистанда еjни адлы тәпә, Нахчыван шәһәри јахынлығында, индики **Күлтәпә кәнди** ("Күлтәпә" топонимини бунунла да әлагәләндирәнләр вар) әразисиндә гәдим дөврләрә аид јашајыш јери вардыр.

## КҮРДЛӘР КӘНДИ

**Күрдләр кәнди** рајон мәркәзиндән 7 км чәнуб-шәргдә, дүзәнлик әразидә, Фүзули-Һорадиз автомобил јолу кәнарында јерләшир. Әһалиси үзүмчүлүк, һејвандарлыг вә тахылчылыгла мәшғул олур. Кәндә мәктәб, клуб, китабхана вә с. вар. Ермәниләр тәрәфиндән 1993-чү илин августунда ишғал едилиб. Кәнд **Меһдибәј Күрдү** дә адланмышдыр.

Бә'зи дејиләнләрә көрә, кәнд вахтилә күрддилли аиләләрин бурада мәскунлашмасы нәтичәсиндә јаранмышдыр. Амма бу, јанлыш фикирдир. **Күрдләр** тирәсинә **мусанлы** тајфасында да (Ағчабәди рајону) раст кәлинир.

**Күрдләр** еллиптик топоними "күрд тајфасындан олан дәстә, зүмрә" үмуми адындан (етнонимдән) објектин типини көстәрән сөзләрдән лазым оланыны (бурада **кәнд** чоғрафи номенини) гәбул етмәклә **(Күрдләр кәнди)** топонимләшмиш, хүсуси ад кими формалашмышдыр. Демәли бурада шәкилчи **(-ләр)** топоними дејил, топоним јарадычылығында истифадә олунан етноними јаратмышдыр.

**Күрдләр** кәндинин **аббаслы, һеjдәрли, һачымәммәдли** вә с. адлы тајфалары вардыр. Бә'зи јерли сакинләрин дедикләринә көрә онларын әчдадлары вахтилә тарихи шәраитлә әлагәдар олараг Әрзурумдан Ҹәнуби Азәрбајҹанын Гарадағ маһалына, сонралар исә орадан индики Фүзули рајонунун Күрдләр кәнди әразисинә кәлмишләр. Бир сыра гајнагларын вердикләри мә'луматдан ајдын олур ки, Ҹәнуби Азәрбајҹанын Гарадағ маһалынын чәләбианлы елиндән бир нечә аилә (тирә) индики Ҹәбрајыл рајону әразисиндә, Диридағда јашајан Худајарлы обасында мәскунлашыб. 1877-чи илдә һәмин **худајарлы** ҹамаатынын бир һиссәси көчүб бурадакы **Меһди бәј Мәликаслановун** торпағында мәскунлашыблар. Бураја сонралар гоншу Пирәһмәдли кәндиндән, еләҹә дә, Ҹәбрајыл вә Шуша рајонларындан бә'зи аиләләр дә көчмүшләр. Ҹәләбијанлы елинә әтрафда јашајан әһали адәтән **күрд** дедикләри үчүн јашајыш мәнтәгәсинин дә ады **Күрдләр** кими "тарихиләшмишдир"...

Гәдим фарс дилиндә **күрд (кәрд)** сөзү "мәрд", "гочаг", "баһадыр", "пәһләван" демәкдир. Ојконими бу сөзлә дә бағлајанлар вар...

Бә'зи еһтималлара көрә, бу әразидә дә Зәнкәзур гәзасындакы шотланлы күрд тајфасына мәхсус гышлаг јери (Ҹәбрајыл рајону, Күрдләр кәнди) олуб. Бу еһтимала вә XIX әсрин орталарында **панаванд** тајфасынын күрдләр тирәсинин отураглашмасы (Ҹәлилабад рајону) күманына бахмајараг, Фүзули рајонундакы **Күрдләр** кәнд сакинләринин күрдләрлә һеч бир етник әлагәси јохдур. Јери кәлмишкән, гоншу рајон күрдләри өзләрини 1589-чу илдә Ибраһим адлы бир нәфәрин башчылығы алтында түрк султанынын әмри илә Ромадан кәлмә һесаб едирләр...

*Күрдләр* ирандилли тајфалардандыр. Онларын мүәјјән заман кәсијиндә Азәрбајҹанын бир сыра зоналарына миграсијалары нәтиҹәсиндә јаранан вә етник адларыны дашыјан етнотопонимләрә республикамыз әразисиндә Гәбәлә, Кәјчај рајонларында **Күрд кәнди,** Ағдам, Ағҹабәди, Фүзули, Ҹәбрајыл, Ҹәлилабад рајонларындакы **Күрдләр кәнди** адланан јашајыш мәнтәгәләрини нүмунә көстәрмәк олар.

Вахтилә Кәнҹә губернијасынын Зәнкәзур гәзасында (инди Ҝорус рајону) да **Күрдләр кәнди** мөвҹуд иди. 1918-чи илдә әһалиси орадан говулмушдур...



## КҮРДМАҺМУДЛУ КӘНДИ

**Күрдмаһмудлу кәнди** Фүзули рајонунда, рајон мәркәзиндән 27 километр шәргдә, Күрдмаһмудлу инзибати әрази ваһидиндә, дүзәнлик әразидә јерләшир. Әһалиси әсасән үзүмчүлүк, һејвандарлыг, тахылчылыг, бағчылыгла мәшғул олур. Кәнддә орта мәктәб, китабхана, клуб, фелдшер-мама мәнтәгәси, рабитә шө'бәси вә с. вар. Бу кәнддән чохлу танынмыш зијалы шәхсијјәтләр чыхмышдыр.

**Күрдмаһмудлу** топоними илә бағлы индијәдәк мүхтәлиф фикир вә мүлаһизәләр мөвҹуддур. Күрдмаһмудлулары **кәнкәрлиләрлә** дә бағлајанлар вар. Күрдмаһмудлуларын әҹдадлары XVI әсрдә Түркијә әразисиндә јашамыш, сонралар онларын бир һиссәси Ҹәнуби Гафгаза кәлмишләр. Муған дүзү истигамәтинә көч едән Күрдмаһмудлуларын **ортагышлаг, күрдләр** вә **һеjдәрлиләр** адлы 3 бөјүк голу олуб.

**Күрдмаһмудлу** топоними патронимик топонимдир. **Маһмуд** сөзүнүн әрәбҹә "тә'рифли", "тә'рифләнмиш" мә'налары мә'лумдур. Әскидән олдуғу кими түркләрдә вә азәриләрдә инди дә оғланларда **Маһмуд** ады гојулур...

Үнлү түркчүләрдән олан Ф.Сүмәр оғуз бојларынын адыны јазаркән бу бојларын сырасында **күрдмаһмудлу** адыны да чәкмишдир. **Күрдмаһмудлу** јашајыш мәнтәгәсинин ады **кәнкәрли** бағлылығы олан **күрдмаһмудлу** тајфасы вә онларын тирәләринин бурада мәскунлашмасы илә әлагәдардыр (Бах: **Јухары Күрдмаһмудлу, Ашағы Күрдмаһмудлу кәнди**).

Имишли рајонунда да **Күрдмаһмудлу кәнди** вардыр. Һазырда Азәрбајҹанда (Иран) вә Түркијәдә **күрдмаһмудлу** тирәләринин јашадығы чохлу сајда мәнтәгәләр вар...

## КҮРДМАҺМУДЛУ ТҮРБӘСИ

Бу мараглы абидә **Јухары Күрдмаһмудлу кәнди** әразисиндәдир. Түрбәнин јалныз јарарлы сәрдабәси саламат галыб. Түрбәнин планы квадрат (4,4м х  4,4м) формададыр: јер үстү һиссәси дүз олса да, дахилдән дамы тағ-таван шәклиндәдир. Таванда 4 истигамәтли бир даш улдуз вар. Сәрдабәјә јеканә кириш шималдадыр. Галан үч тә-



*Күрдмаһмудлу түрбәсинин јерусту көрүнүшү*

рәфдәки диварларда 1 м дәринлијиндә нишалар вар. Нишаларын јан диварлары јухары галхдыгча охвари тағбәнд шәклиндә тамамланыр.

**Күрдмаһмудлу түрбәсинин** нә вахт тикилдији дәгиг билинмир. Ону Гарғабазар кәнди гәбиристанлығындакы Чәлил түрбәси (XIX әср) илә дә ејниләшдирәнләр вар. Күман етмәк олар ки, бурада да чох нүфузлу бир шәхс дәфн олунмушдур. Шәрти олараг **Күрдмаһмудлу түрбәси** XVIII-XIX әср абидәси һесаб олунур...

## КЕЧӘКӨЗЛҮ КӘНДИ

**Кечәкөзлү кәнди** рајон мәркәзиндән 6 км чәнуб-шәргдә, дағәтәји дүзәнликдә јерләшир. Кәндин 800 нәфәрә јахын әһалиси вар. Әһали әсасән үзүмчүлүк вә һејвандарлыгла мәшғул олур. Кәнддә мәктәб, клуб, китабхана, мәсчид (XIX әср) вә с. вардыр. Кәнд 1993-чү ил августун 23-дә ермәниләр тәрәфиндән ишғал олунуб...

**Кечәкөзлү обасы** Чаваншир елинин **Јағләвәнд** ојмағына бағлы олуб. XVIII әсрин II јарысында о, **Јағлывәнд** ојмағындан ајрылыб. Сејидәһмәдли вә Маһмудлу обалары илә бирләшәрәк **һачылы** чаматыны јарадыб. XVIII әсрә аид олан Османлы гајнағында **Кечәкөзлү** ојмағынын Ирәван әразисиндә, Кешәкүндә јајламалары, Арасбара табе олан Хан архында гышламалары һаггында мә'лумат верилмишдир. Һәмин мәнбә билдирир ки, **кечәкөзлүләр** Дизаг наһијәсиндә, Көндәләп чајындан ајрылан Чәрәкән архынын кәнарында әкинчиликлә мәшғул олур, мәһсулларыны торпаг саһибинә верир, вахтлы-вахтында верки өдәјир вә с. **Кечәкөзлү** обасынын әһалиси 1842-чи, 1849-чу, 1863-чү, 1873-чү, 1886-чы илләрдә дөвләт тәрәфиндән сијаһыја алынмышдыр.



Бу обадан чыхмыш нәсилләрин нүмајәндәләри Гарабағын, үмумиликдә, Азәрбајчанын сијаси, ичтимаи, игтисади вә мәдәни һәјатында бөјүк рол ојнамышлар. **Кечәкөзлү** обасынын тајфаларына нүмунә олараг **Сәлифли (Салиф ушағы)** тајфасыны (бу тајфанын **Мәһәммәдханбәјли** адлы тирәси вар. Бу тирәјә **мирзәчамалбәјли, гасымбәјли, садыгбәјли, сәлифбәјли, казымбәјли** төрәкләри дахилдир), **Шәрифбәјли** тајфасыны (бу тајфаја **әлибәјли, әласланбәјли, әләскәрбәјли, әләкбәрбәјли, бабаханбәјли, маһмудбәјли** тирәләри дахилдир), **Һачыбәјли** тајфасыны (бу тајфанын **әмирасланбәјли, јеканбәјли, рәсулбәјли** адлы тирәләри вар), **Гулубәјли** тајфасыны (бу тајфаја **рәһимбәјли, һүсејнбәјли, бабаханбәјли, бағырбәјли** төрәкләри аиддир), **Ағамирзәбәјли** тајфасыны (бу тајфаја **шаһверәнли** тирәси, **ағабәјли** вә **асланбәјли** төрәкләри дахилдир), **Мирзәгасымлы** тајфасыны (бу тајфаја **чәфәрбәјли, садыгбәјли, исмајылбәјли** төрәкләри дахилдир); **Чарчыалылар** (бу тајфа **Чарчы Алынын** төрәмәләридир) тајфасыны (бу тајфаја **алылы, моллаһәбили, имамвердиләр, мәликбәјләр, аллаһвердиләр, нәзәрәлиләр** вә с. тирәләр дахилдир), **Кечәкөзлү** тајфасыны (бу тајфа **һачыгасымлы, әсәдли, мәликбәјлиләр, гаһрәманлылар, алыһүмбәтли, нурмәммәдли, пәрваналылар** вә с. тирәләрә бөлүнүр), **Меһдиханлы** тајфасыны (бу тајфа **алылы, һәсәнли, аллаһвердили, абдуллаушағы, һүсејнли** тирәләринә бөлүнүр) нүмунә көстәрмәк олар. Бунлардан башга кәнддә дикәр нәсилләр дә - **салеһлиләр, арсланәлиләр, танрыгулулар** вә с. јашамышдыр...

XVIII-XIX әсрләрдә обанын әһалиси әсасән әкинчилик вә гојунчулугла мәшғул олмушдур. Обада атчылыг тәсәррүфаты да кениш инкишаф етмишдир. **Кечәкөзлү чамааты** тахылын бичилмәсини әсасән Туғ әкинчиләринә һәвалә едәрдиләр. XVIII әсрдә Көндәләп чајындан ајрылан Чәрәкән чајынын јахасында әсасән әкинчиликлә мәшғул олан **кечәкөзлүләр** обанын бәјләри тәрәфиндән алынмыш "Хәдичәханым мүлкү"нү дә бечәрмәјә башладылар...

**Кечәкөзлү** сөзүнүн етимолокијасына мүхтәлиф призмадан јанашан тәдгигатчылар вардыр. Онларын бир групу **кечәкөзлү** топонимини "гаранлыгда јахшы көрән" **(гара көзлү)** кими мә'наландырыр. О да мә'лумдур ки, **көз** компоненти илә бағлы нечә-нечә түрк тајфасы вардыр: **гаракөзлү, алакөзлү, көзүбөјүклү** вә с.

Ојконимин адыны **Кечәкүзлү** формасында јозанлар да вар. Әски түркләр "гузу сахланан јерә" **күз** дејәрдиләр. Онлар гојун-гузуну сахламаг үчүн **күзләр** тикәрдиләр. Тәрәкәмә елатлары арасында бу күзләрә **кора** да дејиләрди. Күзләри адәтән торпагда газыб ичәрисини гарғы илә һөрәрәк кәтанла дөшәјәрдиләр. Чох күман ки, бу ојмағын әһалиси **күзү** адәтән **кечә** илә дөшәдикләриндән **кечәкүзлү** сөзү јаранмышдыр. **К-к, ч-ч, ө-ү** сәс әвәзләнмәләри Гарабағ диалекти үчүн сәчијјәви характер дашыјыр.

**Кечәкөзлү** топоними Гарабағда јашамыш Гарабағ ханларынын мәнсуб олдуглары **чаваншир** тајфасынын **кечәкөзлү** тирәсинин ады илә әлагәдардыр...

## КИЛАН КӨЛҮ

Фүзули рајонунун Бабы вә Арајатлы кәндләри јахынлығында гејдә алынан һидронимләрдән бири **Килан көлү** адланыр. **Көл** - гуру чөкәклијиндә јерләшән су һөвзәсидир. **Көл** һидронимик термини илә әлагәдар Азәрбајчанда чохлу сајда чоғрафи адлар гејдә алыныб.

Бә'зи тәдгигатчылар һидронимин тәркибиндәки **Килан** сөзүнү Иранда, Хәзәр дәнизинин чәнуб саһилләриндә јашајан **киланлылар (киләкләр)** илә әлагәләндирир. **Килан** - Иранда пајтахты Рәшт олан бир останлыгдыр.

Бизим Азәрбајчанымызда, Ордубад шәһәриндән 16 км гәрбдә харабалығы инди дә дуран орта әср шәһәрләриндән бири **Килан** адланырды. Ордубад рајонунда узунлуғу 53 км олан вә Аразын сол голу һесаб олунан **Киланчај** адлы чај да вар...

## КИЛЛИК

**Киллик** адланан әрази Гачар кәнди јахынлығында гејдә алыныб. Јерли мә'лумата көрә, һәтта әввәлләр сабун гыт оланда кәнд гадынлары пал-палтары бурада јујуб суја чәкәрдиләр. **Киллик** адланан әразидә чај вә ондан ајрылан арх да кечир. Саһәнин **килли** олмасы илә бағлы топоним белә ад алмышдыр. **Кил** - тәркиби



әсасән **кил** минералларындан ибарәт олан пластиклик хассәсинә малик чөкмә сүхурдур. Килләрин вә с. нарын фраксијалы чөкмә сүхурларын әсас күтләсини тәшкил едән сулу силикатлар групу **кил минераллары** адланыр...

## КОВШАДЛЫ КӘНДИ

Рајон мәркәзиндән 6 км гәрбдә, Гарабағ силсиләси әтәјиндә, дағәтәји әразидә јерләшән кәнд. Кәнддә мәктәб, клуб, китабхана вә с. вар. Әһалиси әсасән үзүмчүлүк, тахылчылыг вә һејвандарлыгла мәшғул олур. Кәнд ермәниләр тәрәфиндән ишғал олунуб.

**Ковшатлы** (әсли **Комушатлы) говшутлу** нәслинин бурада мәскунлашмасы нәтичәсиндә јараныб. 1727-чи илдә Султан III Әһмәдин фәрманы илә һазырланан вә "Кәнчә-Гарабағ әјаләтинин муфәссәл дәфтәри" адланан верки рејестр дәфтәриндә Арасбар санчағына дахил олан кәнд вә ојмагларын сырасында **Ковшатлы (Көјшатлы)** јашајыш мәнтәгәсинин адына да раст кәлирик.

**Көвшадлы** (бәзи тарихи сәнәдләрдә ады **Комушатлы, Ковшатлы, Ковшад** кими дә көстәрилир) јашајыш мәнтәгәси **ковшатлы** (әсли **говшутлу**) нәслинин бурада мәскунлашмасы нәтичәсиндә јараныб.

**Говшут** әввәлләр бир чох түрк халгларында шәхс ады кими кениш ишләнмишдир. **Говшут** топониминә Губадлы рајонунда, Түркмәнистанда вә Ермәнистанда (Гәрби Азәрбајчан) да раст кәлмәк мүмкүндүр...

## КОРАЗЫЛЛЫ КӘНДИ

Рајон мәркәзиндән 12 км чәнубда, Гарабағ силсиләсинин әтәјиндә, дағәтәји дүзәнликдә јерләшән кәнд. Әһалиси әсасән һејвандарлыг, үзүмчүлүк вә тахылчылыгла мәшғул олур. Кәнддә мәктәб, клуб, китабхана, көрпү (XIX әср) вә с. вар. Кәнд ермәниләр тәрәфиндән ишғал олунуб.

**Коразыллы кәнди**нин ады бә'зи еһтималлара көрә **коразыллы** нәслинин ады илә бағлыдыр.

**Коразыллы** ојконимининин ачымыны **кор** (гәбир) компоненти илә бағлајанлар вар...

1593-чү илә аид Османлы гајнағында јашајыш мәнтәгәсинин ады **Күзләк-Корразы** кими чәкилир. 1727-чи илә аид "Кәнчә-Гарабағ әјаләтинин мүфәссәл дәфтәри" адлы тарихи сәнәддә дә кәндин ады **Күзләк-Корразы** шәклиндә гејд едилмишдир. XIX әсрдәки камерал сорғу сијаһыларында исә бу кәндләрин ады һәр бири ајрылыгда көстәрилмишдир...

## КӨЈ ТӘПӘ

**Көј тәпә** орографик објекти Фүзули шәһәринин 5 километрлијиндә гејдә алыныб. Бурада апарылан археоложи тәдгигатлар нәтичәсиндә мүхтәлиф тарихи дөврләрә (мис, тунч, дәмир) аид чохлу мадди-мәдәнијјәт абидәләри тапылмышдыр.

**Тәпә** мүсбәт релјеф формасы билдирән чоғрафи терминдир. Адәтән 200 метрә гәдәр олан јүксәклијә **тәпә** дејирләр. Бу терминин иштиракы илә Азәрбајчанда чөл материаллары ичәрисиндә 3000-дән чох чоғрафи ад гејдә алынмышдыр. **Көј тәпә** оронимиi һәмин тәпәнин даим **јашыллыг, көјлүк** олдуғуна көрә белә ад алмышдыр. Бу типли оронимләрә Азәрбајчанын башга әразиләриндә дә раст кәлирик.

## КӨЈРҮШЛҮ ЈЕР

Азәрбајчанын зәнкин, рәнкарәнк битки өртүјү вар. Мүхтәлиф нөвлү битки адлары оронимијамызда өз әксини тапыб. Республикамызын әразисиндә минләрлә фитооронимләр гејдә алыныб. Онлардан бири дә Фүзули рајонунун Һорадиз кәнди әразисиндә гејдә алынмыш **Көјрүшлү јер** фитооронимидир. Топоним һәмин әразидә **көјрүш** ағачынын чохлуғу илә әлагәдардыр. **Көјрүш** - зејтун кимиләр фәсиләсиндән, фрахсинус чинсиндән гышда јарпагларыны төкән биткидир. Онун адына **дишбудаг** да дејирләр...

**Көјрүш** ағачынын ады илә бағлы оронимләрә нүмунә олараг Газах рајонундакы **Көјрүшлү күнеји,** Ханлар рајонун Топалһәсәнли кәнди јахынлығындакы **Көјрүш тәпәси,** Шәмкир рајонундакы **Көјрүш таласыны** вә башгаларыны көстәрә биләрик...

## КӨЛ ДӘРӘСИ

Кечәкөзлү кәнди әразисиндә гејдә алынан оронимләрдән бири **Көл дәрәси** адланыр. Ороним **көл** һидронимик апелјативиндән, **дәрә** мәнфи релјеф формасы билдирән чоғрафи термининдән вә - **си** мәнсублуг ифадә едән шәкилчидән ибарәтдир. Топоним "дәрәдә олан көл" анламындадыр. **Көл дәрәси** чоғрафи ады тәркибиндә **көл** сөзү олан һидронимләрдән јаранмыш һидронимик оронимләрдәндир.

Адынын тәркибиндә **көл** сөзү иштирак едән оронимләр Азәрбајчанда јүзләрләдир. Онлара бә'зи нүмунә олараг ашағыдакылары көстәрмәк олар:

**Агкөл дүзү** (Ағчабәди рајону), **Газанкөл дағы** (Ордубад рајону), **Газанкөл дүзү** (Товуз рајону), **Көл дүзү** (Дашкәсән рајону, Чыраглы кәнди; Кәлбәчәр рајону, Чомәрд кәнди), **Көллү таг** (Хочалы рајону, Шушикәнд кәнди), **Көллү тала** (Кәдәбәј рајону, Фәрзалы кәнди), **Көллү јал** (Тәртәр рајону), **Көллү дәрә** (Кәлбәчәр рајону, Јелличә кәнди; Хочавәнд рајону, Дашбашы кәнди), **Көлдәрә** (Зәнкилан рајону, Күнгышлаг кәнди; Кәдәбәј рајону, Дәјәгарабулаг кәнди; Товуз рајону Чәлилли кәнди; Чәбрајыл рајону, Һачылы кәнди), **Көллү дәрә** (Масаллы рајону, Әркиван кәнди), **Ганлыкөл дағы** (Шаһбуз рајону), **Көндәләнкөл дүзү** (Фүзули рајону) вә с.

## КӨЛБАҒЫ БУЛАҒЫ

Рајонун Һорадиз кәндиндәки булаглардан бири **Көлбағы булағы** адланыр. Јералты суларын јерүстү тәбии чыхышына **булаг** дејирләр. Бу **булаг** јахынлыгдакы бағын ады илә әлагәдар олараг белә адланмышдыр. **Көлбағы булағы**нын сојуг вә дуру сују вардыр...

## КҮЗЛӘК (КҮЗДӘК) КӘНДИ

(Бах: **Ашағы Күзләк** вә **Јухары Күзләк кәнди**)

## КҮЛЛҮ ДӘРӘ

Гачар кәнди әразисиндә гејдә алынан орографик објект-ләрдән бири дә **Күллү дәрә** чоғрафи адыдыр. **Дәрә** - мәнфи релјеф формасы билдирән чоғрафи терминдир. Оронимијада релјефин дар вә чөкәк формасы **дәрә** сөзү илә ифадә едилир. Чөл материаллары ичәрисиндә адынын тәркибиндә **дәрә** термини олан 30.000 -дән чох ороним гејдә алыныб.

Адында **күл** сөзү олан фитонимик оронимләрә республиканын демәк олар ки, бүтүн әразиләриндә раст **кәлирик**. Оронимин тәркибиндәки **күллү** сөзү һәмин дәрәдә **күлләрин** чохлуғу илә әлагәдардыр. Бу әразидә чохлу гызылкүл коллары да вардыр. Топоним*"күл чох олан дәрә"* мә'насындадыр. Чоғрафи адын тәркибиндәки **-лү** шәкилчиси мәнсублуг ифадә едир.

**Күллү дәрә** адланан әразидән бир гәдәр кәнарда **Күллүдәрә** адлы башга бир орографик објект дә гејдә алыныб...

## КҮЛЛҮДӘРӘ

**Күллүдәрә** рајон мәркәзиндән 12 км шимал-гәрбдә, Гачар кәнди јахынлығында, Гарабағ силсиләсинин әтәјиндә, Көндәләнчајын саһилиндә јерләшир. **Күллүдәрә** топоними дәрәдә чохлу **күл** биткисинин олмасы илә әлагәдар јаранан оронимдир. Јерли әһали **дәрәдә** битән күл-чичәјә көрә ораны **Күллүдәрә** адландырмышдыр. **Күл** биткиси ады илә әлагәдар Азәрбајчанда чохлу оронимләр вар: **Күллүдағ** (Шәки вә Оғуз рајонлары), **Күллүтәпә** (Ағчабәди, Масаллы, Фүзули), **Күллүчә ашырымы** (Гарабағ дағ силсиләси) вә с.



## КҮЛЛҮТӘПӘ

Рајон мәркәзиндән 3 км чәнубда, Мурғузлу јалы дејилән әразијә јахын олан тут бағларынын јанында гејдә алынан ороним **Күллүтәпә** адланыр. Археложи газынтылар заманы бурада гәдим вә орта әсрләр дөврләринә аид мүхтәлиф кил габлар, мәишәт аваданлыглары вә с. тапылмышдыр. Тәпәдә чохлу **күл, чичәк** битир. **Күллүтәпә** топоними **"күллү, чичәкли тәпә"** ифадәсилә мә'наландырылыр.

Масаллы рајонунда **Күллүтәпә** адлы кәнд, Губа рајонунда **Күлтәпә** адлы кәндләр дә вар.

## КҮНЕЈ КӘҺРИЗИ

**Күнеј кәһризи** һидроними Фүзули рајонунун Һорадиз кәнди әразисиндә гејдә алыныб. Топоним **күнеј** вә **кәһриз** сөзләриндән ибарәтдир. **Күнеј** сөзү "һәр һансы бир јүксәклијин - дағын, тәпәнин күнәш ишығы олмасы үчүн јахшы ишыг дүшән тәрәфи, јамачы", "күнәшли јер", "күнәш ишығы олан тәрәф", "чәнуб" мә'наларындадыр. Һидроним күнәшли, күнәвәр јердә олдуғу үчүн белә адландырылмышдыр.

**Кәһриз** - јералты су јолу, су кәмәридир. Грунт суларыны топлајыб јер сәтһинә чыхармаг үчүн јералты гурғулар **кәһриз** адланыр. Кәһризләрин лағымлары бир-бири илә шагули гујулар васитәсилә бирләшдирилир. **Кәһризләр** адәтән, пешәкар канканлар тәрәфиндән газылыр. XX әсрин орталарында Азәрбајчанда 900-дән чох **кәһриз** олуб...

## КҮНӘШТӘПӘ

**Күнәштәпә** Фүзули шәһәринин шималында, Көндәләнчајын сағ саһилиндә Енеолит вә Еркән Тунч дөврү инсан мәскәнидир. 1964-чү илдә археложи газынтылар заманы Күнәштәпәдә Енеолит вә Тунч дөврләринә аид кил габлар, даш аләтләр, габ нүмунәләри, һејкәлчикләр, әкинчилик аләтләри вә с. ашкар едилмишдир. Е.Ә. II минилликдә **Күнәштәпә** гәбиристана чеврилмишдир.

Ороним ики - **"күнәш"** вә **"тәпә"** терминләриндән ибарәтдир. Һәмин әразини Күнәш шүасы чох тутдуғу үчүн она **Күнәштәпә** дејилир. Тәдгигатлар Күнәштәпәнин е.ә. V-III минилликләрдә отураг әкинчи-малдар әһалијә мәхсус олдуғуну көстәрир...

## ЛЕЈЛИ ҺАСАРЫ

Бөјүк Бәһмәнли кәнди әразисиндә, Араз чајы саһилиндә гејдә алынан орографик објектләрдән бири **Лејли һасары** адланыр. Бу һасарын галыглары XX әсрин 70-чи илләринә гәдәр дururду. **Һасар** бишмиш кәрпичдән тикилмишдир. Дөврүнүн пешәкар уста-ме'мары тәрәфиндән инша олунан бу **һасар** тикилиси, јерли мә'лумата көрә, Бәһрам Кавур (?) адлы нүфузлу адамын гызы **Лејлинин** шәрәфинә учалдылмышдыр. Тәәссүфләр олсун ки, бу тарихи ме'марлыг абидәси бахымсызлыг уҹбатындан учулуб-дағылмыш, сырадан чыхмышдыр...

## ЛӘЛӘ ДҮЗҮ, ЛӘЛӘ ЈЕРИ

**Ашыг Ләлә** мәшһур бајаты устасы олмушдур. Һагг ашығы олан Ләләнин доғум вә өлүм тарихи дәгиг билинмир. Азәрбајҹаны гарыш-гарыш кәзән **Ләлә** һарада олубса, орада өзүндән бир из гојуб, Ҹәбрајылдан, Фүзулидән тутмуш Гарадағлы, Әрдәбил, Гах, Зәрдаб, Лерик, Астараја гәдәрдир бу изләр. **Ләлә јери, Ләлә јурду, Ләләли, Ләләкәпештә, Ләләдулан, Ләләкәран...** ојмаглары.

Фүзули рајонунун Бөјүк Бәһмәнли кәндиндә **Ләләли мәһәлләси,** Јухары Јағлывәнд обасында **Ләләли ојмағы,** Ҹәбрајыл рајонунун Маралјан кәнди јахынлығындакы **Ләлә тәпәси,** Нүзкәр кәнди јахынлығында **Ләлә јајлағы** вә нечә-нечә бу гәбилдән олан дикәр ҹоғрафи адлар **Ашыг Ләлә** ады илә бағлыдыр. Дејиләнләрә көрә ашығын сон мәнзили Газахлар кәнди јахынлығындакы Арғалы гәбристанлығындадыр...

**Ләлә дүзү, Ләлә јери** та гәдимдән Һорадиз кәндинин әкин саһәси олуб. Бу **јер** үстүндә вахтилә 1952-чи илдә Ҹәбрајыл рајонунун Ҹочуг Мәрҹанлы кәндинин адамлары илә Һорадиз кәндинин сакинләри арасында бөјүк мүбаһисә дүшмүш вә бу мүбаһисә сонра



4 саата гәдәр давам едән әлбәјаха дөјүшә чеврилмишдир. Нәтиҹәдә һәр ики тәрәфдән чохлу јараланалар олмушдур. Һорадиз кәндинин гадынларынын орталыға баш өртүјү атмалары илә даваны јатырмаг мүмкүн олмуш, бунунла да, **Ләлә дүзү, Ләлә јери** торпаг саһәси мәсәләсинә сон гојулмушдур. Беләликлә, һәмин **дүз** вә **јер** Һорадиз кәндинин әразиси олараг галмышдыр...

## ЛӘЛӘЛИ БУЛАГ

Јағлывәнд кәнди әразисиндә гејдә алынан һидронимләрдән бири **Ләләли булаг** адланыр. Һидроним **Ләлә** сөзүндән, **-ли** мәнсублуг ифадә едән шәкилчидән вә **булаг** һидронимик апелјативиндән ибарәтдир. Бу булағын чох сојуг вә шәффаф сују вардыр. Һидроним чох күман ки, мәшһур бајаты устасы олан **Ашыг Ләлә** ады илә әлагәдар јаранмышдыр...

## МАҒАРА ТӘПӘСИ

Бабы кәнди әразисиндә гејдә алынмыш орографик објектләрдән бири **Мағара тәпәси** ҹоғрафи адыдыр. Бу оронимлә бағлы белә бир әфсанә - рәвајәт данышылыр:

-1405-чи илдә Әмир Тејмурун өлүм хәбәрини ешидән Ширваншаһ I Ибраһим Тејмуриләр дөвләтинин асылылығындан чыхдығыны елан едәрәк, она хәраҹ вермәкдән имтина едир. Тејмурун оғлу Өмәр Мирзә бу хәбәри ешидәндә Ибраһими ҹәзаландырмаг үчүн Ширвана тәрәф ирәлиләјир. Ширван торпагларында мүһарибәнин олмасыны истәмәјән I Ибраһим Өмәр Мирзәнин ордусуну јолда гаршыламаг фикринә дүшүр.

Өмәр Мирзә өз ордусу илә Араз чајынын ҹәнуб саһилиндә, I Ибраһим исә шимал саһилиндә, Бабы кәнди әразисиндә гаршы-гаршыја дајаныrлар. Һәр ики сәркәрдәнин о дөвр үчүн чох әзәмәтли ордулары варды. Онлар арасында шиддәтли дөјүшләр олур. Дејиләнә көрә, Бабы кәндинин јахынлығында баш верән бу дөјүшдә јүзләрлә өлмүш әскәрин ҹәсәди галаганараг јерли әһали тәрәфиндән инди **Мағара тәпәси** адландырылан бу тәпәни әмәлә кәтирмишдир...

## МАНДЫ КӘНДИ

**Манды кәнди** (бәзән адыны **Мандылы** кими дә јазырлар) рајон мәркәзиндән 17 км чәнубда, Гозлучајын саһилиндә, дағәтәји дүзәнликдәдир. Әһалиси үзүмчүлүк, һејвандарлыг вә тахылчылыгла мәшғул олур. Кәнд ермәни ишғалчылары тәрәфиндән ишғал олунмушдур.

Кәндә **алмәммәдлиләр, алһүсејнлиләр, дүнјамалылар** адлы тајфалар јашамышдыр.

**Манды** топоними илә бағлы бир чох фикир вә тәклифләр, күман вә еһтималлар олса да, топонимин дәгиг мә'насы һәлә мүәјјәнләшдирилмәмишдир. Вахтилә кәндин башга бир ады **Әлиһүсејнушағы** олмушдур.

Јерли мә'лумата көрә, **Манды** - торпағын адыдыр. Вахтилә Гараколлу кәндиндән чыхмыш **Алыһүсејнли (Әлиһүсејнли)** адлы бир тајфа чох-чох әввәлләр бурада мәскунлашмышдыр...

## МАРАЛЛЫ ДҮЗ, МАРАЛЛЫ ДӘРӘ

Фүзули рајонунда бир **дүз** вә **дәрә** ады **Мараллы дүз** вә **Мараллы дәрә** адланыр. Һәмин дүзәнликдә вә дәрәдә вахтилә раст кәлинән **марала** көрә оронимбелә адланыр. Билдијимиз кими, республикамызын бир сыра әразиләриндә нәчиб марала раст кәлмәк мүмкүндүр. **Марал** чөл һејваны ады вә орографик терминләрдән дүзәлмиш оронимләрдән башга әразиләримиздә дә вар: **Марал дәрәси** (Губадлы рајону), **Маралучан гаја** (Кәлбәчәр рајону), **Маралкөл** (Ханлар рајону) вә с.

## МАҺМУДЛУ КӘНДИ

Гајнаглардан мә'лум олур ки, **Маһмудлу** обасы **Һачылы** ичмасына дахилдир. Бу оба **Чаваншир** елинин **Көчәрли** ојмағындан чыхыб. Бир мәнбәјә көрә, бу обанын чамаатынын улу бабаларындан биринин ады **Һачы Јусиф аға** олуб. О, **Биринчи Маһмудун** атасыдыр. Маһмудлуларын гочаглыгларына көрә **һачылы** ичмасы арасында хүсуси јери олуб. Гејрәтли, гочаг **маһмудлулар** һаггында ел арасында: "рус јох, маһмудлу јох, даһа нәдән горхачагсан?" мәсәли дилләрдә долашмагдадыр...

Фүзули-Имишли-Чәбрајыл зонасында 6 јердә тәкрарланан **Маһмудлу** ојконимләрини бир-бириндән фәргләндирмәк үчүн кәндләрин јаранма ардычыллығыны билдирән сөзләрдән (**Биринчи Маһмудлу, Икинчи Маһмудлу, Үчүнчү Маһмудлу**) истифадә олунмуш, галан **Маһмудлу** топониминин бири адыны дашыдығы мәнтәгәнин вахтилә мәнсуб олдуғу зүмрәни көстәрән **сејид** адыны (**Сејидмаһмудлу кәнди**), дикәри исә вахтилә әһалисинин мүәјјән һиссәсинин әввәлләр мәнсуб олдуғу етник груп адыны (**Күрдмаһмудлу кәнди**) артырмагла диференсиаллашдырылмышдыр.

Бә'зи мәнбәнин вердији мә'луматда гејд олунур ки, 1727-чи илдә **Көчәрли** обасындан ајрылан **Маһмудлу** соју Дизаг наһијәсинин Зијад гышлағында бинәләјирди. Османлы гајнағында да **Маһмудлу** соју һаггында билкиләр вардыр. Орада көстәрилир ки, **Чаваншир** тајфасынын **көчәрли** ојмағы Дизаг наһијәсинин тәркибиндә олан Кәлли, Зәвичик (Завычыг) вә Гуру чајларынын кәнарында, чәрәкән, Кәндәлән, Түлјан, Гарадағлы вә Әршә адлы гышлагларда әкинчиликлә мәшғул олур, Ирәван әјаләтинин Борк адлы јериндә јајлајырлар.

Әршә адлы әразидә тикилиләри олан Көчәрли ојлағы Дизаг наһијәсиндә, Сојудаш адлы архын кәнарында әкинчиликлә мәшғул олурдулар. Үмумиликдә Гарабаға табе олан Көчәрли ојмағынын Тајасојуг адлы гышлаглары вә Гаракүнеј адлы јајлаглары да олмушдур. Тарихи шәраитлә әлагәдар олараг бу обанын бә'зи **наһәсилләри** сүркүн олунмуш вә сүркүндән гајытдыгдан сонра **Гарачылы** ичмасынын тәркибинә дахил олмушлар. **Маһмудлулар** Гарабағ ханлығынын сијаси һәјатында да мүһүм рол ојнамышлар.

1842, 1849, 1863, 1873 вә 1886-чы илләрдә **маһмудлу** обасынын әһалиси дөвләт тәрәфиндән сијаһыја алыныб. Һәмин дөврүн сијаһыјаалынмаларында Маһмудлу обасында јашајан бәјләрин (***Прапоршик Һәсән бәј Чәфәр бәј оглу, Фәтәли бәј Чәфәр бәј оглу, Һәсәнгулу бәј оглу, Һачы Һүсејнгулу бәј Сәһлијалы бәј оглу, Маһмуд бәј Сәһлијалы бәј оглу, Аға бәј Сәһлијалы бәј оглу, Тејмур бәј Һүсејн бәј оглу, Һејдәр бәј Һүсејн Һүсејн бәј оглу, Фирудин бәј бәј оглу, Шукур (Ширин) бәј Ибраһим бәј оглу, Һәсән бәј оглу вә онларын өвладлары***) дә ады көстәрилмишдир.

(Әлавә мә'лумат үчүн бах: **Биринчи, Икинчи, Үчүнчү Маһмудлу кәндләри**).

**Маһмудлу обасынын тајфалары** бунлардыр:

**Чәфәрбәјли (Чәфәрбәјушағы)** - Чәфәр бәј Кәрбәлаји Маһмуд аға оғлу XVIII әсрин II јарысы, XIX јүзиллијин әввәлләриндә јашајыб. Чох варлы вә һөрмәтли ағалардан олан **Чәфәр бәјин** Гасым, Фәтәли, Һәсән, Һүсејн, Паша, Искәндәр адлы оғуллары олмушдур. Бу тајфанын **Гасымбәјли, Фәтәлибәјли, Һәсәнбәјли, Һүсејнбәјли, Пашабәјли** адланан тирәләри вар...

**Сәһлијалылар (Сәһлијалы бәј ушағы) - Сәһлијалы бәј** Кәрбәлаји **Маһмуд ағанын** икинчи оғлудур. О, XVIII әсрин сонлары вә XIX әсрин әввәлләриндә јашајыб. Ибраһимхәлил хан вә Меһдигулу хана хидмәт көстәрән Сәһлијалы бәјин Һүсејнгулу, Һәсәнгулу, Ибраһим, Маһмуд бәј адлы оғуллары олуб. Бу тајфанын Һачыһүсејнгулулар, Һачыһәсәнгулулар, Ибраһимли, Маһмудбәјли адлы тирәләри вар...

**Һачыаталылар -** Кәрбәлаји Маһмуд ағанын оғулларындан бири дә **Аталы**дыр. 1783-чү илдә Маһмудлу обасында доғулан **Аталы** һејвандарлыгла мәшғул олмуш, мүгәддәс Мәккәни зијарәт едиб **"Һачы"** титулуна лајиг ... Онун **Гуламәли, Гәһрәман** адлы оғуллары, **Һүрү** адлы гызы варды. Бу тајфанын **гуламәлиләр, салаһлылар, шамылар, шүкүрлүләр, мусалылар, әмирмурадлылар, һачымәммәдлиләр, хасмәммәдлиләр, зүлфүгарлылар** адлы тирәләри вар...

**Имамвердиләр - Имамверди** Маһмудлу обасынын улу бабаларындан бири олуб. Һејвандарлыгла мәшғул олан **Имамверди бәјин** Исмајыл, Һәшим, Казым, Имамгулу вә Тархан адлы оғуллары варды. Бу тајфаја **исмајыллы, микајыллы, һәшимли, аллаһверәнлиләр, һәсәнгулулар** адлы тирәләр дахилдир...

**Әләскәрлиләр - Әләскәр (1816-1886)** Маһмудлу обасынын улу бабасы Кәрбәлаји Маһмуд ағанын һејвандарлыгла мәшғул олан оғлу Намазын бөјүк оғлу иди. Намазын Әләскәрдән башга Әли, Абдулла вә Һәзрәтгулу адлы оғуллары да олуб. Кәрбәлаји Әләскәрин **Рәһим, Сәлим, Кәрим, Надир, Әмир, Әбил, Әбдул, Гоча, Мәти, Балоғлан** адлы оғланлары варды...

Губадлы, Имишли, Чәбрајыл, Шәмкир рајонларында да **Маһмудлу** етноними илә бағлы кәндләр вар...



## МЕЈНӘТӘПӘ

**Мејнәтәпә** рајон мәркәзиндән 5 км шимал-шәргдә, Көндәләнчајынын сағ саһилиндә јерләшир. Тарихи билкиләрдән ајдын олур ки, орада илк тунч дөврүндә јашајыш јерләри олмушдур. **Мејнәтәпә** үч ајры-ајры тәпәдән ибарәтдир. Биринчи тәпә планда даирәви олуб, 1,5 метр һүндүрлүкдәдир. Икинчи тәпә биринчидән 18 метр шәргдә јерләшир. Бу тәпәнин отурачағы дүзбучаглы шәклиндәдир.

Үчүнчү тәпә планда үчбучаг формалы олмагла, икинчи тәпәдән 28 метр шәргдә јерләшир. Тәдгигатлар нәтичәсиндә сүбут едилмишдир ки, **Мејнәтәпә** тунч дөврү гәдим јашајыш јериндә бүтүн 3 минииллик боју јашајыш давам етмишдир. **Мејнәтәпә** өлкә әһәмијјәтли дашынмаз тарих вә мәдәнијјәт абидәси һесаб олунур.

Археоложи тәдгигатлар заманы **Мејнәтәпә**дән чохлу кил габлар, очаг гурғулары, дән дашлары, даш бычаг, даш чәкич вә с ашкара чыхарылмыш, тәдгиг едилмишдир. Әтрафында үзүмлүк саһәләри олдуғу үчүн топоним ел арасында **"Мејнәтәпә"** ады алмышдыр.

## МЕРДИНЛИ КӘНДИ

Рајон мәркәзиндән 9 км шәргдә, Гарабағ силсиләсинин әтәјиндә, Көндәләнчајын саһилиндә, дүзәнликдә јерләшән кәнд. Әкин үчүн чох јарарлы олан мүнбит торпағы вар. Кәндин әһалиси үзүмчүлүклә, тахылчылыгла вә һејвандарлыгла мәшғул олур. Кәнддә мәктәб, клуб, китабхана, мәсчид (XIX әср), чохлу дашдан јонулмуш гоч вә ат фигурлары һејкәлләри вә с. вар. Ермәни ишғалчылары тәрәфиндән кәнд 1993-чү ил августун 23-дә ишғал олунмушдур.

XIX әср салнамәчиси Мирзә Јусиф Гарабағинин "Тарихи-сафи" әсәриндә бу топонимә раст кәлирик. Бә'зи тәдгигатчыларын фикринчә, **Мердинли** нәслинә мәнсуб аиләләр бу әразиләрдә чох-чох әввәлләр, һәтта, орта әсрләрдә јашамышлар. Шуша шәһәриндә Гутлугчухур, Һачы Јусифли, Чуһудлар мәһәлләләринин јахынлығында **Мердинлиләр** дә мәһәллә салмышлар. XVIII әсрин сонларында гураглыг, көчүрмә, вә башга сәбәбләрдән һәмин мәһәл-

ләнин сакинләри **Мердинли** нәслинә мәнсуб олан аиләләрин јашадығы индики **Мердинли** кәндинә кәләрәк орада мәскунлашмышлар. Кәнд гәбиристанлығында XVIII-XIX әсрләрә аид дашдан јонулмуш, усталыгла дүзәлдилмиш чохлу гоч вә ат фигурлары вә һејкәлләри вардыр.

Тарихи мә'хәзләрин мә'луматларына көрә **мердинлиләр** Чаваншираләрин бир голудур.

Бә'зи мә'хәзләрдә кәндин адыны **Мәрдинли** кими гејд едирләр ки, бу да һәмин нәслә мәнсуб олан инсанларын **мәрд**, икид, гочаг олдуғундан хәбәр верир. Һеродота көрә **Мәрди** тајфалары ерамыздан әввәл Иран әразисиндә, Хәзәр саһилләриндә јашамышлар. Һәтта, Гавгамел дөјүшүндә (е.ә. 331-чи ил) **мәрдиләр** дә фарс ордусу тәркибиндә албанлар, кадусиләр вә кирканларла бир сырада вурушмушлар.

**Мердинли** јашајыш мәнтәгәсини Чаваншир елинин бир голу олан **мердинли** нәслинә мәнсуб олан аиләләр салдығы үчүн кәнд дә һәмин нәслин ады илә адландырылмышдыр...

## МЕҺДИ БӘЈ КӘҺРИЗИ

**Меһди Бәј кәһризи** Күрдләр кәнди әразисиндәдир. Кәһризин чох узун тунели вар. Бу тунел кәнди ики һиссәјә бөлән тәпәни ашыб о бири үздәки дәрәдән үзә чыхыр. Тунел үзәриндә тәхминән 30 гују газылмышдыр. **Кәһризин** јер үстүнә чыхан һиссәсинин тәпәјә сөјкәнән тәрәфи дашла һөрүлмүшдүр. Һөркүнүн дибиндә даш нов да инша едилиб...

Јерли әһалинин дедијинә көрә **Меһди бәј** әслән Туғ кәндиндән олан варлы-мүлклү бир нүфузлу шәхс олуб. Күрдләр кәндинин јери дә она мәхсус иди. XIX әсрин орталарында Иранда мөвчуд үсулидарәнин зүлмләринә дөзмәјән чохлары кими Новрузлу адлы кәндин бир нечә тирәси кәлиб Әбдүррәһманлы кәнди јахынлығында, сонра Гарғабазар кәндинин ашағысындакы **Коллубулаг** дејилән јердә, даһа сонра индики Күрдләр кәндиндә мәскән салмышлар. Онларын суја олан тәләбатыны нәзәрә алан **Меһди бәј** бу **кәһризи** чәкдирир. Елә о заманандан да **кәһриз** онун ады илә адландырылмышдыр.



## МӘММӘД БУЛАҒЫ

Фүзули рајону әразисиндә гејдә алынмыш һидронимләрдән бири **Мәммәд булағы** адланыр. Бу булағын думдуру, шәффаф вә сојуг сују вар. Һидронимин тәркибиндәки **Мәммәд** сөзү шәхс адыны ифадә едир. Азәрбајчанда **булаг** һидронимик апелјативи илә бағлы јүзләрлә, минләрлә бу типли топонимләр вар...

## МӘНКӘЛӘНАТА ДАҒЫ

Рајон мәркәзиндән 3 км гәрбдә, һүндүрлүјү 720 метр олан дағ. **Дағ** өзүнүн ән һүндүр јериндә инди дә харабалығы галан орта әср абидәси **Минкәлән (Мәнкәлән) ата** адлы гәбир-пирин адыны дашыјыр. **"Мин"**, **"Минг"** түркдилли тајфалары вахтилә бурада мәскән салмышлар. Онларын Азәрбајчанда мәскунлашмасы Тејмурләнкин һүчумлары илә әлагәләндирилир. **Мәнкәләната** дағы оронимн **"минг"** тајфасынын адыны бир тарихи абидә кими јүз илләрдир ки, горујуб сахлајыр.

Гәдим бир әфсанәјә көрә **Мәнкәлән ата** тилсимли бир киши имиш. Бир нечә јүз јашы олан бу кишинин көзүнүн ағы-гарасы бирчә гызы вармыш. Бир күн бәрк сусузлајан **Мәнкәлән ата** гызына дејир:

- Гызым, кет булагдан мәнә су кәтир, јанырам, чалыш тез кәл. Гызын башы рәфигәләри илә булаг башында бәрк сөһбәтә гарышдығындан кечикир. Сусузлуға дөзә билмәјән киши булаға кәлир, гызыны рәфигәләри илә сөһбәт едән көрүб һирсләнәрәк учадан она дејир:

- Сәни көрүм даш оласан, гызым, нијә кәлмирсән? Билмирсән ки, сусузам?

Атанын бу гарғышындан сонра гыз елә о дәгигә чијниндә чүрдәк бөјүк даша дөнүр...

## МӘРЧАН БУЛАҒЫ

Һорадиз кәндиндә гејдә алынан бу һидроним **мәрчан** сөзүндән вә **булаг** һидронимик апелјативиндән ибарәтдир. **Булаг** јералты суларын јер үстүнә гајнајараг тәбии чыхышыдыр. Температуруна көрә булаглар сојуг, илыг, термал (исти) вә һипотермал (чох исти) олур. Булағын **Мәрчан** адланмасы јерли мә'лумата көрә, сујунун гајнајыб чыхардығы саһәдә мәрчанкилә фәсиләсиндән колчугларын чох олмасы илә әлагәдардыр...

## МИРАЛЫЛАР ЈАЛЫ

**Миралылар јалы** патронимик оронимләрдәндир. Патронимик ороним дејәндә нәсил вә тирә адларыны дашыјан мүсбәт вә мәнфи релјеф формаларынын адлары нәзәрдә тутулур. Адәтән һәр бир нәсил вә ја тирә мүәјјән әразидә гышлајыр вә ја јајы кечирирләр. Она көрә дә бу нәсил вә тирәләрин јашадығы јерләр онларын адлары илә адланмышдыр. Белә топонимләрә ашағыдакы мисаллары нүмунә кәтирмәк олар: Гафарлы гобусу (Көјчај рајону), Ағаларбәјли дәрәси (Ханлар рајону), Шәрифханлы тәпәси (Биләсувар рајону) вә с.

## МИРӘЛИ ТҮРБӘСИ

Орта әср ме'марлыг абидәси сајылан, Ашағы Вејсәлли кәндиндә јерләшән бу гүлләвари түрбә 3 пилләли күрсүлүк үзәриндә тикилиб. Кириш гапысы түрбәнин сәтһиндән хејли ирәли чыхмыш, баштағ шәклиндә дүзәлдилмишдир. Түрбәнин силиндр шәкилли көвдәси конусвари күнбәзлә тамамланыр. Һүндүрлүјү 17,7 метрдир. Бу түрбә дә Шејх Бабы вә Әһмәдалылар түрбәләри кими јералты сәрдабә вә јерүстү көвдәдән ибарәтдир. Түрбәнин тәхминән 9 метрлик јерүстү һиссәсини 8,17 м һүндүрлүјә малик олан конусвари күмбәз, тамамлајыр. Көвдә илә күмбәзи бир-бириндән карниз ајырыр.



Порталын кәнарлары дүзбучаглы шәкилдә мәһдудлашса да, кириш ашырымы охвары тағбәнд шәклиндәдир. Кириш гапысы илә үзбәүз дахили диварда дөшәмә сәвијјәсиндән 4,33 метр һүндүрлүкдә кичик пәнчәрә вардыр.



**Мирәли түрбәси** јералты (сәрдаба) вә јерүстү һиссәләрдән ибарәтдир. Јухары һиссәдән сәрдабаја јол салыныб. Бу јол пилләваридир. Мәһз елә бу хүсусијјәт дә **Мирәли** түрбәсини ејни типли башга абидәләрдән фәргләндирир. Китабәси галмадығындан түрбәнин дәгиг тикилмә тарихи вә ким тәрәфиндән тикилмәси мә'лум дејилдир. Бә'зи сәнәд вә материалларда түрбәнин XIV әсрдә тикилдији көстәрилир. Бир чох мүтәхәссисләр түрбәнин XIII әсрин сонларында тикилдијини гејд едирләр...

**Мирәли түрбәси** Азәрбајчанын өлкә әһәмијјәтли дашынмаз тарих вә мәдәнијјәт абидәләриндән һесаб едилир. Түрбә илә бағлы чохлу рәвајәтләр вар...

## МИРЗӘМУРАД БАҒЫ

Бабы кәнди әразисиндә гејдә алынан оронимләрдән бири **Мирзәмурад бағы** адланыр. Бу бағын әразисиндә башга мејвә ағачлары илә бәрабәр чохлу тут ағачлары да вардыр. Совет дөнәминдә бир мүддәт бу бағлардан барамачылыгла әлагәдар да истифадә (кәндин әразисиндә ипәкгурдунун бәсләнилмәси үчүн бир нечә тут бағлары вар: Әһмәдли бағы, Сејфәли бағы вә с.) олунмушдур. **Мирзәмурад бағы** топоними бу бағын саһибинин ады илә әлагәдар олараг белә адландырылмышдыр...

## МИРЗӘНАҒЫЛЫ КӘНДИ

**Мирзәнағылы кәнди** рајон мәркәзиндән 35 км чәнуб-шәргдә, Араз чајынын сол саһилиндә, дүзәнликдә јерләшир. Әһалиси үзүмчүлүк, тахылчылыг вә һејвандарлыгла мәшғул олур. Кәнддә мәктәб, клуб, китабхана вә с. вар. Кәнд 1993-чү илдә ишғал олунса да, 1994-чү илин јанварында ганлы дөјүшләрдән сонра кери гајтарылмышдыр...

Бу јашајыш мәнтәгәсини **Мирзәнағылы** нәслинә мәнсуб олан аиләләр салдығы үчүн о, беләадландырылмышдыр...

## МИРЗӘЧАМАЛЛЫ КӘНДИ

Рајон мәркәзиндән 5 км шәргдә, Гарабағ силсиләсинин әтәјиндә, Көндәләнчајын саһилиндә јерләшән кәнд. Әһалиси үзүмчүлүк, тахылчылыг вә һејвандарлыгла мәшғул олур. Јашајыш мәнтәгәси әразисиндә әкинә јарарлы саһәләр чохдур. Кәнддә клуб, китабхана, мәктәб вә с. вар. Кәнд 1993-чү ил августун 23-дә ермәниләр тәрәфиндән ишғал олунмушдур.

Кәндин адынын **Мирзәчамаллы** олмасыны "Гарабағ тарихи"нин ("Гарабағнамә") мүәллифләриндән бири **Мирзә Чамал** Чаваншир Гарабағинин ады илә бағлајанлар вар. Гарабағ ханлары нәслиндән олан вәзир вә тарихчи **Мирзә Чамал Чаванширә** (1773-1853) мәхсус аиләләрин бурада мәскунлашмасы нәтичәсиндә индики Мирзәчамаллы кәнди јаранмыш вә онун ады илә адландырылмышдыр.

**Чамал бәј** 1773-чү илдә Һачылылара бағланан **Кечәкөзлү** обасында доғулуб. Атасы Мәһәммәдхан бәј Шушаја галабәји тә'јин едилдикдән сонра Шуша шәһәринә көчүбләр. Бурадакы мәдрәсәдә тәһсил алан **Чамал бәј** чох кечмир ки, фарс, әрәб, түрк, авар вә ләзки дилләрини мүкәммәл өјрәнир. Бир мүддәт диванда катиб кими чалышдығына көрә халг арасында она **"Мирзә"** дејә мүрачиәт едирләр. Молла Пәнаһ Вагифин өлүмүндән аз сонра Ибраһимхәлил хан баш вәзир вәзифәсинә диванхана катиби Мирзә Чамал бәј Кечәкөзлү - Чаваншири тә'јин едир. 1822-чи илдә ханлығын ләғви илә әлагәдар Мирзә Чамал рус һәрби идарәси тәрәфиндән мәһкәмәјә ишә кечирилди. Он сәккиз ил мәһкәмә системиндә ишләдикдән сонра Чамал бәј 1840-чы илдә истефаја чыхды. О, тибб елмини, һәкимлији көзәл билдији үчүн өмрүнүн сонуна гәдәр адамлары һәким кими пулсуз мүаличә етди. Гарабағын әксәр маһалларында чохлу мүлкү олдуғу үчүн ону бөјүк мүлкәдар кими дә танырдылар. Зәнкин китабханасы олан **Мирзә Чамал бәј Чаваншир** һәм дә көзәл тарихчи иди...

**Мирзәчамаллыбәј обасы** Чаваншир елинин **һачылы** ичмасына дахил олан обалардан биридир. Ханлыг дөнәминдә Чаваншир әсилли обалар имтијазлы олдугларындан һеч бир бәјә, ағаја бағлы ола билмәзди. Ханлыг дағылдыгдан сонра Меһдигулу хан бу обаны **Мирзә Чамал бәјә** вә гардашлары Гасым бәјә, Садыг бәјә вермишдир. 1842-чи илә аид олан бир мәнбәдә көстәрилир ки, обаја Әлимәммәд Әли оғлу, 1848-чи илин билкисинә көрә исә, Гәһрәман Абдин оғлу башчылыг едиб. Сонракы дөврдә обанын јүзбашысынын Тапдыг Меһралы оғлу олдуғу көстәрилир. Һәлә 1842-чи илдә обанын әһалиси дөвләт тәрәфиндән сијаһыја алыныб. Һәмин сијаһынын өнүндәки гејддә көстәрилиб ки, **Мирзәчамаллы** обасы Мирзә Чамал бәј, Гасым бәј вә Садыг бәј Мәһәммәдхан бәј оғулларынын идарәсиндәдир.

1849-чу ил сијаһыјаалынмасында да белә гејд вардыр. 1853-чү ил сијаһыјаалынмасында көстәрилир ки, обанын әһалиси Мәммәд јүзбашы Мәммәдјар оғлунун вә Мирзә Чамал бәјин идарәсиндә олмушдур. Үмумијјәтлә, гајнаглар хәбәр верир ки, **Мирзәчамаллы обасы** өтән XIX әсрдә 1842, 1849, 1863, 1873, 1886-чы илләрдә дөвләт тәрәфиндән сијаһыја алынмышдыр.

Мирзәчамаллы обасына **Оручлу, Нурмәммәдли, Гасымханлы, Меһдиханлы** вә башга тајфалар дахилдир. **Оруч** - XVIII әсрин сону XIX әсрин әввәлләриндә јашајыб. Онун **Һәсәналы, Алы, Јусифалы** адлы оғланлары олуб. Һәсәналынын **Мәһәррәм,** Алынын **Кәрим, Рәһим, Мәммәдгулу, Һәзрәтгулу, Имамгулу,** Јусифалынын исә **Күлмалы, Аллаһверән, Исмајыл, Һачымәммәд, Чәбрајыл** адлы оғланлары олмушдур. Күлмалынын **Мурад** (1883) вә **Фирудин** (1889) адлы оғуллары олуб. Онларын Кечәкөзлү кәнди илә бағлылыглары варды. Фирудинин **Әршад** (1924-1972) вә **Хосров** адлы оғланлары вар иди...

Ермәни ишғалчыларына гаршы дөјүшмүш рајонун әсасән көнүллүләрдән ибарәт олан илк өзүнүмүдафиә баталјонунун (814 сајлы һәрби һиссә) гәраркаһы **Мирзәчамаллы** кәндиндә јерләширди...

## МОЛЛА БАҒЫ

Гачар кәнди әразисиндә гејдә алынмыш оронимләрдән бири **Молла бағы** адланыр. Ороним **Молла** вә **бағ** сөзләриндән ибарәтдир. **Молла** - дини тутулдур. Дини титул билдирән **молла** сөзү илә бағлы Азәрбајчанда бир нечә ҹоғрафи ад гејдә алынмышдыр. **Молла бағы** топоними *"моллаја мәхсус бағ", "молланын салдығы бағ"* анламындадыр. Бу бағын јерләшдији әразидә чохлу сајда мејвә ағачлары әкилмишдир...

## МОЛЛАВӘЛИ КӘНДИ

Моллавәли кәнди рајон мәркәзиндән 9 км ҹәнубда, Гарабағ силсиләсинин әтәјиндә јерләшир. Әһалиси үзүмчүлүк, һејвандарлыг вә тахылчылыгла мәшғул олур. Кәнддә клуб, китабхана, мәктәб вә с. вар. Кәнд ишғал алтындадыр.

Кәндин әсл ады **Моллавәлиләр** олмушдур. Јашајыш мәнтәгәси **бојәһмәдли** тајфасынын **моллавәлиләр** тирәсинин бурада мәскунлашмасы нәтиҹәсиндә јаранмышдыр. Топоним **"Молла Вәлинин нәслиндән оланлар, моллавәликилләр"** мә'насындадыр.

**Моллавәли кәнди** јашајыш мәнтәгәси кими XIX әсрин икинҹи јарысында салынса да, оба јери (торпаг) кими ады чох гәдимдир. 1953-ҹү илә аид олан тарихи гајнаға көрә бурада, јә'ни кәндин јерләшдији әразидә јашајыш мәнтәгәси мөвҹуд олмушдур. Бә'зи тарихи мәнбәләрин вердикләри мә'луматлара көрә **Моллавәли кәнди** јахынлығында вахтилә **Шыхымлы** адлы бир кәнд олмуш вә о кәндин бә'зи нәсилләри сонралар **Моллавәли** кәндинә кәлиб бурада мәскунлашмышлар.

1593-ҹү илә аид олан Османлы гајнағында **Моллавәли** ады кәнд кими јох, торпаг, јер кими чәкилмишдир. Јерли мә'лумата көрә әһали бурада XIX әсрдә мәскунлашмышдыр. Кәнддә ***агамәммәдлиләр, кулбудаглылар, мирзәлиләр, пишикләр, казымлылар, алышлылар*** вә с. адлы тајфа вә нәсилләр јашамышлар...



## МОЛЛАМӘҺӘРРӘМЛИ КӘНДИ

**Молламәһәррәмли кәнди** рајон мәркәзиндән 33 км ҹәнуб-шәргдә, дүзәнлик әразидә јерләшир. Әһали әсасән үзүмчүлүк вә һејвандарлыгла мәшғул олур. Кәнддә мәктәб, клуб, китабхана вә с. вар. Кәнд ишғалчылардан азад олунмушдур...

Кәндин әразисиндә тунҹ вә дәмир дөврләринә аид олан чилалы гара вә боз фигурлу керамика габ нүмунәләри тапылмышдыр. Тапылан нүмунәләрин бириндә гушун көзләри үст тәрәфдән габарыг хәтлә һашијәләнмиш мунҹугдан ибарәтдир Гушун ганадлары да маили габарыг хәтләрлә көстәрилмишдир.

Јерли сакинләрин дедикләриндән әлдә етдијим ортаг фикир бундан ибарәт олду ки, јашајыш мәнтәгәси XVIII әсрин сону XIX әсрин биринҹи јарысында јашамыш бөјүк нүфуз саһиби олан **Молла Мәһәррәм Вәлимәммәд оғлунун** ады илә әлагәдардыр.

Кәнҹә губернијасынын Гарабулаг наһијәсинә дахил олан **Молламәһәррәмли** кәндинин ады XIX әсрдә **Гаратәпә** кими дә көстәрилмишдир...

**Молламәһәррәмли** топоними **"Молламәһәррәмин нәслиндән оланлар", "молламәһәррәмкилләр"** мә'насындадыр. Мүсәлман динини гәбул етмиш халглар арасында шәхс адларында **молла** титулу кениш јер тутур. Онларын ады илә чохлу антротопонимләр вар: Губадлыда **Моллабүрһан кәнди,** Күрдәмирдә **Моллакәнд,** Газахда **Молладаг** вә с.

## МОЛОКАН

Фүзули рајонунун әввәлки адларындан бири **Молокан** олуб. Бу ҹоғрафи ад XVIII әсрин сонларында Русијанын Тамбов вилајәтиндә (губернијасында) тәшәккүл тапмыш, сонралар өлкәнин бир сыра әразиләринә јајылмыш дини тәригәт үзвләринин ады илә әлагәдардыр. Тәригәтин баниси Семјон Уклеин һесаб едилир. **Молоканлар** өз динләрини "сүд кими пак сөзләр" ("чистое **молоко** словесное") адландырырлар. Тәригәтин ады да елә бурадан көтүрүлмүшдүр.

**Молоканлар** православ килсәсини, килсә ајинләрини вә мәрасимләрини танымыр, һәр јердә мөвҹуд олан вә бүтүн ҹанлылара

дүшүнчә верән ваһид "руһ-аллаһа" е'тигад едирләр. Онлар Библијаны "руһун тәдричән јүксәлмәси вә аллаһы дәрк етмәси һаггында илаһи һекајәт" кими баша дүшүрләр. Ибадәт едән заман онлар Библијадан псаломлар охујурлар.

**Молоканчылыг** феодал тәһкимчилик системинин бөһраны шәраитиндә килсә әлејһинә кәндли һәрәкатынын формаларындан бири кими јаранмышды. Онлар рәсмән килсәјә гаршы чыхдыглары үчүн чар һөкумәти молоканлары тә'гиб етмиш, онлары мүхтәлиф әразиләрә сүркүнә көндәрмишдир. Дон казакларындан фәргли олараг Краснодар вилајәтинин I вә II Армавир үсјанчы молоканлары Белореченск чајы бојунча чар үсул-идарәсинә гаршы даһа амансыз идиләр. Һәтта, онлар Николајын 300 баш чинс атларыны әлә кечириб онлардан истифадә едирдиләр. Бу чүр һәрәкәтләринә көрә чар Николај Краснодар молоканларынын өлкәдән говулмалары һаггында 1821-чи илдә фәрман верди. Бу мәгсәдлә чар өз јахын мә'муру Степан Гаврилову Краснодара көндәрди, она молоканларын чәнуба, исти рекионлара, о чүмләдән, Азәрбајчана көчүрүлмәләри, сүркүн едилмәләри һаггында тапшырыг верди.

XIX әсрин I јарысында Азәрбајчанда (Гарабағда Газахда, Көјчајда, Шамахыда) сүркүн едилмиш молоканларла бағлы бир нечә **Молокан кәнди** јаранды. Чаризм һәр васитә илә молоканлары јерли мүсәлман әһали илә тоггушдурмаға чалышырды. 1822-чи илдә Гарабулаг (Фүзули рајону) бөлкәсинә 46 **молокан** аиләси көчүрүлдү. Онлар аз бир заман ичәрисиндә Солтанбуд мешәләриндән ағачлары доғрајыб араба вә атларла дашыјараг Гарабағда тахта евләр тикдиләр. Јерли әһали дә молоканларын јаратдыглары шәраитә бахараг өзләри үчүн абад евләр тикиб отураг һәјата кечмәјә башладылар. Бир нечә илин ичәрисиндә јерли гарабулаглыларла **молоканлар** көзәл бир базар да тикдиләр. Малларыны Һорадиз, Пирәһмәдли, Гарғабазар вә Ханлыг кәндләринин базарларында сатан тачирләр вә дикәр кәнд адамлары **Молокан** базарына үз тутмаға башладылар. Шушаја (Галаја) кедән бә'зи Иран тачирләри дә малларыны бурада хырыд етмәјә башладылар.

**Молокан (Гарабулаг)** заман өтдүкчә бөјүјүб-көзәлләшир, өз көркәмини дәјиширди. Мәһз елә бу бахымдан 1827-чи илдә



**Гарабулаг** (Молокан) шәһәр адландырылды. Ел арасында бу шәһәр **Молокан** адландырылса да, рәсми сәнәдләрдә ады **Гарабулаг** кими көстәрилди. XIX әсрин 80-чи илләриндә - Чаваншир вә Чәбрајыл гәзаларынын тәшкили илә әлагәдар **Гарабулаг** наһијә статусу алды. Јелизаветпол (Кәнчә) губернијасынын Чәбрајыл газасына табе олан Гарабулаг наһијәсиндә ашағыдакы оба вә кәндләр варды:

1. Садај бәј обасы (Бөјүк вә Бала Бәһмәнли кәндләри);
2. Ајбасанлы (Әјјубһәсәнли) кәнди;
3. Гарадағ (Дәвләтјарлы) кәнди;
4. Сејидәһмәд обасы (Сејидәһмәдли кәнди);
5. Ахундлу обасы (Алханлы);
6. Пирәһмәдли кәнди;
7. Гараколлу кәнди;
8. Гозлучај обасы (Манды, Рәфәдинли, Күзләк, Әһмәдбәјли, Коразыллы, Гарадағлы, Сарачыг кәнди);
9. Һорадиз кәнди;
10. Әбдүррәһманлы кәнди;
11. Һачылы обасы (Маһмудлу, Кечәкөзлү, Әләскәрли, Мирзәчамлы, Һүсејнбәјли кәнди);
12. Гочәһмәдли кәнди;
13. Дилағарда кәнди;
14. Зәркар кәнди;
15. Вејсәлли кәнди;
16. Дағ обасы (Һоға (Үчбулаг), Ковшад кәнди);
17. Гачар кәнди;
18. Кәримбәјли кәнди;
19. Јағлывәнд кәнди;
20. Бабы кәнди;
21. Арајатлы кәнди;
22. Әһмәдбәјли кәнди;
23. Гараханбәјли кәнди;
24. Шәкәрчик кәнди;
25. Гәрвәнд (Гәрбәнд) кәнди;
26. Дәдәли кәнди;
27. Шыхлы кәнди;
28. Гарғабазар кәнди;

29. Маһмуд обасы;
30. Молла Вәли кәнди;
31. Әһмәдалылар кәнди;
32. Молла Мәһәррәмли (Гаратәпә) кәнди;
33. Әмирсејидли кәнди;
34. Шаһсевән кәнди;

1906-чы илдә **Гарабулаға (Молокана)** 100 ил әввәл I Рус-Иран мүһарибәсиндә гәһрәманлыгла һәлак олмуш полковник **Гарјакинин** ады верилмишдир...

Әлавә мә'лумат үчүн бах: **Фүзули рајону** вә **Фүзули шәһәри.**

## МУРАДЛЫ БАҒЫ

Сәрдарлы кәнди әразисиндә гејдә алынан орографик објектләрдән бири **Мурадлы бағы** чоғрафи адыдыр. Бу бағда чохлу мејвә ағачлары әкилмишдир. Мурадлы бағынын ашағысындан кечән дағ чајынын сују јајда буз кими сојуг олур. **Бағын** белә адландырылмасы **Мурад** шәхс ады вә онун нәсли илә бағлыдыр. **Мурадлы бағы** антропонимик топоними **"Мурада мәхсус олан бағ"** мә'насыны ифадә едир. Бу типдән олан оронимләрә Азәрбајчанын башга бөлкәләриндә дә раст кәлмәк олар...

## МУРҒУЗЛУ ЈАЛЫ

**Мурғузлу јалы** рајон мәркәзиндән 3 километр чәнубда, Гарабағ силсиләси әтәкләриндә јерләшир. Бә'зи еһтималлара көрә јүксәклијин ады она көрә белә адланмышдыр ки, һәмин әразидә битән тахыллар фәсиләсиндән олан сучаг јердә битән гарғыја бәнзәр **мурғуз** биткиси јајылыб...

**Јал** тәбии-чоғрафи мөвгејә көрә белә адланмышдыр. Газах рајонунда **Мурғуздағ,** Загатала рајону әразисиндә **Мурғузтала** кәнди чоғрафи адлары да бу гәбилдәндир.



Бә'зи мүлаһизәләрә көрә исә **"мурғуз"** сөзү "дәриси сары вә ја бурнунун үстү ағ рәнкли дағ кечиси" демәкдир. Күман ки, јал орада вахтилә тәсадүф едилән дағ кечисинин **(мурғузун)** адыны дашыјыр.

Вахтилә Јелизаветпол (Кәнчә) губернијасынын Зәнкәзур гәзасында (индики Сисјан рајонунда) **Мургуз** адлы кәнд вардыр...

## МУРҒУЗЛУ ЈУРДУ

**Мурғузлу јурду** рајон мәркәзиндән 3 километр чәнубда, Гарабағ силсиләсинин әтәкләриндә, Мәнкәлән ата дағынын јахынлығында, Дудукчу вә Чимән кәндләри дөврәсиндә јерләширди. XVIII-XIX әсрләрдә бу јерләрдә чохлу обалар бинәлијирди. Бурада бинәләјән обалардан бири дә Һачылы ичмасына гатылан шенликләрдән олан Сарылар (Зејналабдинбәјли) обасы иди. **Сарылар обасы** 1823-чү илдә Зејналабдин бәј Имамгулу бәј оғлу Һачылы - Чаванширин ады илә бағлы олараг **Зејналабдинбәјли** адланырды. 1842-чи илдә **Мурғузлу** торпағында јашајан дикәр обалар кими Сарылар обасынын да әһалиси дөвләт тәрәфиндән сијаһыја алынмышдыр.

Тарихи мәнбәләрдә **Мурғузлу јурду** адына тез-тез раст кәлирик. **Мурғуз -** сары дәрили дағ кечисидир. Белә еһтимал етмәк олар ки, һәмин әразиләрдә **мурғуз** дағ кечисинә тез-тез тәсадүф едилдијиндән топоним белә адланмышдыр. Бә'зи арашдырычылар топоними тахыллар фәсиләсиндән олан вә гарғыја охшајан **мурғуз** биткисинин ады илә әлагәләндирирләр...

Мурғузлуда **ибраһимлиләр, мустафалылар, һагвердиләр, пирвердиләр** вә с. нәсилләр јашамышдыр. 1727-чи илә аид олан "Кәнчә-Гарабағ әјаләтинин тарихи дәфтәри" адлы тарихи сәнәддә **Мурғузлу** кәндинин дә ады чәкилир...

## МУРТУЗА ТҮРБӘСИ

Күрдләр кәндинин гәбиристанлығында гејдә алынан түрбә **Муртуза түрбәси** адланыр. Бу гәбирүстү абидә Күрдләр кәнд сакини **Муртуза Дадаш оғлуна** мәхсусдур. О, XIX әсрин II јарысы -XX әсрин 30-чу илләриндә өмүр сүрмүшдүр.



* * *

**Муртуза түрбәси**

**вә онун китабәси**

* * *



Түрбәнин диварлары јер сәвијјәсиндән јухары галхдыгча јығылдығындан, онун үмуми көрүнүшү күмбәзвари сәчијјә дашыјыр. Ири дашлар түрбәнин һәркүсүнә тәбии гојулса да, мәркәзә тәрәф мејлләнән сәлигәли күнчләри ону хүсусилә јарашыглы көстәрир.

**Муртуза Дадашоғлу түрбәси** 1931-чи илдә инша едилиб. Јерли тәбии әһәнк дашындан тикилмиш бу абидә дөрдкүнҹ плана маликди. Үмуми көрүнүшү күмбәзвари олан бу түрбәнин кириши үзәриндәки сал дашда әски әлифба илә бурада дәфн олунмуш **Муртуза** Дадаш оғлунун ады вә инша едилдији тарих (һиҹри тари-1350-чи ил) көстәрилмишдир.

## МУСАБӘЈЛИ КӘНДИ

**Мусабәјли кәнди** рајон мәркәзиндән 16 км ҹәнубда, Гозлучај саһилиндә, дағәтәји дүзәнликдә јерләшир. Әһалиси һејвандарлыг, үзүмчүлүк вә тахылчылыгла мәшғул олур. Кәндә мәктәб, клуб, китабхана вар. 1993-ҹү илдә кәнд ермәниләр тәрәфиндән ишғал олунмушдур.



Јашајыш мәнтәгәсинин әсасыны **Мусабәј** адлы шәхс гојдуғу үчүн кәнд белә адланмышдыр. Топоним *"Мусабәјин нәслиндән оланлар, мусабәјлиләр"* мә'насыны өзүндә әкс етдирир.

**Муса бәј** нүфузлу бир шејх иди. **Шејх Муса бәј** Исмајыл оғлу XVIII әсрин сону - XIX әсрин биринчи јарысында јашамышдыр. Бу кәндин әсас әһалиси, јерли сакинләрин дедикләринә көрә, Мирзәнағылы, Баләнд, Ҹәбрајыл, Гарачаллы вә с. кәндләриндән кәлән аиләләр олмушлар...

Ағсу рајонунда да **Мусабәјли** адлы кәнд вардыр.

## МУХТАР КӘҺРИЗИ

Антропонимик һидронимләрә Азәрбајҹанын әксәр бөлкәләриндә раст кәлмәк олар. Һорадиз кәндиндәки **Мухтар кәһризи** һидроними дә беләләриндәндир. Һидроним **Мухтар** шәхс адындан вә **кәһриз** һидронимик апелјативиндән ибарәтдир. **Кәһриз** - грунт суларыны топлајараг јер сәтһинә чыхармаг үчүн јералты гурғудур. Кәһризләри пешәкар канканлар газырлар. XX әсрин орталарында республикамызын әразисиндә 900-дән чох **кәһриз** олмушдур.

## НАҒАРА ТӘПӘСИ

Фүзули рајонунун Бабы кәнди әразисиндә гејдә алынан оронимләрдән бири **Нағара тәпәси** адланыр. Топоним **нағара** вә **тәпә** сөзләриндән ибарәтдир. **Тәпә** мүсбәт релјеф формасы билдирән ҹоғрафи терминдир. **Тәпәләр** нисби һүндүрлүјү 200 метрә гәдәр, јамаҹлары аз мејлли, зирвәси кирдә, әтәкләри бә'зән әтраф саһәләрдән аз сечилән јүксәкликләрдир.

- Топонимин тәркибиндәки **нағара** сөзү һәмин тәпәнин **нағара** мусиги аләтинә бәнзәдијини ифадә едир; **-си** шәкилчиси исә мәнсублуг билдирир...

## НАМАЗАЛЫ КӘҺРИЗИ

Азәрбајҹан топонимијасында шәхс адларындан дүзәлмиш чохлу сајда һидронимләр мөвҹуддур. Онлардан бири дә Һорадиз кәндиндә гејдә алынмыш **Намазалы кәһризидир.** Грунт суларынын топланараг јер сәтһинә чыхарылмасы үчүн олан јералты гурғуја **кәһриз** дејилир. Кәһризләр адәтән, пешәкар канканлар тәрәфиндән газылыр. XX әсрин орталарында Азәрбајҹанда 1000-дән чох кәһриз олмушдур...

Кәһризин **Намазалы** адланмасы Һорадиз кәндинин гәдим тајфаларындан олан **намазалыларла** әлагәдардыр. **Кәһриз** һәмин тирәнин улу бабасы олан **Намазалынын** адыны дашыјыр. Бу типли антропонимик һидронимләрә республикамызын әксәр бөлкәләриндә раст кәлмәк мүмкүндүр.

## НАРГУҸАГ МҮЛКҮ

Гоҹаһмәдли вә Сәрдарлы кәндләри јахынлығында гејдә алынан ҹоғрафи адлардан бири **Наргуҹаг мүлкү** адланыр. 1797-ҹи илдә Ағамәһәммәд шаһ Гованлы - Гаҹарын Гарабағда јандырдығы кәндләрин сырасында мүхтәлиф тарихи сәнәд вә материалларда Сәрдарлы вә Гоҹаһмәдлинин дә ады вар. Тејмуразбәјушағына бағлы олан **Наргуҹаг мүлк јери** дә бу әразидә шаһ тәрәфиндән она верилмишдир.

Топонимлә бағлы мүхтәлиф фикир вә мүлаһизәләр вардыр...

## НАРЛЫ КЕЧИД

Гаҹар кәнди әразисиндә гејдә алынмыш орографик објектләрдән бири **Нарлы кечид** адланыр. Топоним **нар** биткисинин адындан, **-лы** мәнсублуг ифадә едән шәкилчидән вә **кечид** сөзүндән ибарәтдир. Һәмин кечиддә, әразидә **нар** мејвә ағачларынын чохлуғу илә әлагәдар олараг ороним белә адландырылмышдыр.

**Нар** мејвә ағачы нөвүнү билдирән сөзләрдән әмәлә кәлмиш оронимләрә **Нарлы гаја, Нарлы јал** (Зәнкилан рајону), **Нарлы дәрә** (Ағдам, Ағҹабәди, Губадлы, Јевлах, Ҝоранбој, Товуз, Хоҹавәнд, Ҹәбрајыл рајонлары), **Нарлы гобу** (Ағдам рајону, Ҝүлаблы кәнди), **Нарлы зирвә** (Гах рајону), **Нарлы чөкәк** (Ҝөранбој рајону, Газахлар кәнди), **Нарлығ дүзү** (Гобустан рајону) вә башгаларыны көстәрмәк олар...

## НӘРКИЗЛИ БАҒ

Фүзули рајонунун Сәрдарлы кәндиндә гејдә алынан орографик објектләрдән бири дә **Нәркизли бағ** адланыр. **Нәркизли бағ** ҹоғрафи ады адындан да көрүндүјү кими, **нәркиз** вә **бағ** сөзләриндән ибарәтдир; **-ли** шәкилчиси мәнсубијјәт билдирир. **Нәркиз -** нәркизчичәкләр фәсиләсиндән јарпағы хәтвари, чичәји адәтән ачыг-сары вә ја ағ олан соғанаглы битки чинсидир. Бә'зи нөвүнүн чичәкләриндә чох әтирли ефир јағы вар. Һәмин **бағ** саһәсиндә чохлу **нәркиз** биткиси олдуғу үчүн топоним белә ад алмышдыр.

## ОҒУЗ ГӘБРИ

Ишыглы кәнди әразисиндә гејдә алынан ҹоғрафи адлардан бири **Оғуз гәбри** адланыр. Бу јер мүгәддәс тапынаг јери һесаб олунур. Јерли вә јахын әтрафын ҹамааты **Оғуз гәбри** јеринә кәлиб ораны зијарәт едәр, нијјәт тутуб нәзир верәрдиләр. Дејиләнләрә көрә бу **гәбир** јери гәһрәман бир **оғуз** икидинииндир. Азәрбајҹанда бу типли тапынаг јерләри чохдур...

## ОРТА БУЛАГ

Дөвләтјарлы кәндинин 1 километрлијиндә, Көндәлән чајы кәнарында гејдә алынан һидронимләрдән бири **Орта булаг** адланыр. **Булаг** көзәл бир јердә, фүсункар тәбиәтә малик олан әразидә јерләшир. Сују чох сојуг вә шәффафдыр.

Һидроним **орта** сөзүндән вә **булаг** һидронимик апелјативиндән ибарәтдир. Ондан **ашағыда** вә **јухарыда** башга булаглар да олдуғу

үчүн һидроним белә ад алмышдыр. Топоним **"ортада јерләшән булаг", "ортадакы булаг"** мә'насындадыр...

Бу типли чоғрафи адлара республикамызын дикәр бөлкәләриндә дә раст кәлирик.

## ОРТА КӘҺРИЗ

**Орта кәһриз** һидроними Јухары Әбдүррәһманлы әразисиндә гејдә алыныб. Бу кәһризин тәмиз вә сојуг сују вардыр. **Кәһриз** - грунт суларынын топланыб јер сәтһинә чыхарылмасы илә бағлы јералты гурғудур. Адәтән кәһризләр пешәкар канканлар тәрәфиндән газылыр. XX әсрин орталарында Азәрбајчанда 1000-дән чох **кәһриз** олуб...

Һидронимин адындан да көрүндүјү кими, әразидә башга кәһризләр дә олуб. **Ашағы** вә **Јухары кәһриз... Орта кәһриз** бу ики кәһризин арасында, **ортада** јерләшдији үчүн белә ад алмышдыр...

## ОТАЈЛЫ БАҒ

Сәрдарлы кәнди әразисиндә гејдә алынан орографик објектләрдән бири **Отајлы бағ** адланырды. Бу саһәдәки торпаглар јалныз бәјләрә мәхсус олмушдур. Бурадакы ағачларын һамысы дәмјә јердә олан ағачлар сајылырды. Отајлы бағын баш һиссәсиндә бәнөвшәләр битәрди. Әтраф әразиләрдән фәргли олараг, бурада хары бүлбүл күлү дә битирди. **Отајлы бағ** топоними чај јатағынын о тајында јерләшдији үчүн белә адландырылмышдыр...

## ОЧАГ ЈЕРИ

Кәримбәјли кәнди әразисиндә гејдә алынан орографик објектләрдән бири **Очаг јери** адланыр. Јерли вә әтрафда јашајан әһали бу јери зијарәткаһ һесаб едир. Әһали тәрәфиндән бу јер мүгәддәс сајылыр. Јерли әһали Очаг јеринә **Чинаралты** да дејир.

**Очаг јери** Азәрбајчанда *"пир"* мә'насында һәмишә мүгәддәс һесаб олунуб. Бу күн дә белә очаг-пирләр зијарәт кими инсанларын инанч јеридир...



## ОЧАГ ТӘПӘСИ

Гарабағын Араз ағзы олан Аразбарда, Јағлывәнд ојмағында улуларымыз тәрәфиндән адына **Очаг тәпәси** дејилән бир орографик објект гејдә алыныб. Бу чоғрафи ад **очаг** вә **тәпә** сөзләриндән, еләчә дә, мәнсублуг ифадә едән **-си** шәкилчисиндән ибарәтдир. **Тәпә** сөзү оронимијада мүсбәт релјеф формасы билдирир. **Очаг** сөзү *"су иситмәк, јемәк биширмәк вә с. үчүн галанан атәш, очаг", "соба вә ја бухар газанынын атәш, очаг јахылан јери", "ев", "пир", "гутсал јер", "јурд" "гајнаг", "мәркәз", "бир шејин олдугу, төрәдији, јајылдығы јер"* вә с. анламлара ујғун кәлир. Јерли мә'лумата көрә, **Очаг тәпәси** оронимi һәмин тәпәнин мүгәддәслији, пирлији илә әлагәдар олараг белә ад алмышдыр. Оронимә һәмин тәпәдә вахты илә тез-тез чатылан тонгал, галанан **очаг** илә дә бағлајанлар вар...

## ОЧАГ ТИРӘСИ

Һорадиз кәнди әразисиндә гејдә алынан орографик објектләрдән бири дә **Очаг тирәси** адланыр. **Очаг** - *"пир," "дин", "гутсал јер", "ев"* анламларында да ишләнир. **Тирә** сөзү *"нәсил, гәбилә, сој", "бир-бири илә дүшмәнлик едән групплар", "арх, хәндәк кәнарларына төкүлән торпаг", "бир гәдәр јүксәк јер", "јүксәклик"* вә с. мә'наларда ишләдилир. **Очаг тирәси** јери мүгәддәс тапынаг, зијарәт јери һесаб едилир. **Очаг тирәси** зијарәти олан јер јүксәк тәпәликдә јерләшир...

## ОЧАГЛЫ ДАҒЫ

Гачар кәнди јахынлығында гејдә алынан чоғрафи адлардан бири дә **Очаглы дағы** адланыр. **Дағ** - мүсбәт релјеф формасы билдирән чоғрафи терминдир. **Очаг** сөзүнүн мүхтәлиф мә'налары вар: *"атәш, очаг" "пир", "ев", "гајнаг мәркәз" "јурд", "гутсал јер", "бир шејин төрәдији, јајылдығы јер"* вә с. Оронимин тәркибиндәки **-лы** шәкилчиси мәнсублуг ифадә едир. Бу орографик објектин адына бә'зән **Һәзи очағы дағы** да дејилир.

## ПАЛЫД МЕШӘСИ

Гачар кәнди әразисиндә гејдә алынан орографик објектләрдән бири **Палыд мешәси** адланыр. Ороним **палыд, мешә** сөзләриндән вә **-си** мәнсубијјәт шәкилчисиндән ибарәтдир. **Палыд мешәси** ҹоғрафи ады һәмин әразидә **палыд** ағачынын чохлуғу илә бағлы олараг белә адландырылыб. Топоним **"палыд ағачы чох олан мешә саһәси"** анламындадыр.

Бу типдән олан оронимләрә Республикамызын дикәр рајонларынын әразиләриндә дә раст кәлирик: **Палыдлы дүз** (Гах рајону, Шотавар кәнди), **Палыдлы дәрә** (Зәнкилан, Кәлбәҹәр, Кәдәбәј, Масаллы, Хоҹавәнд, Хоҹалы рајонлары), **Палыд гобусу** (Товуз рајону), **Палыдлы јал** (Ағдам рајону, Маниклу кәнди), **Палыдлы тәпә** (Масаллы рајону, Хәлфәләр кәнди) вә с.

## ПӘНАЛЫ ДӘЛИРМАНЫ

Фүзули рајону әразисиндә, рајон мәркәзиндән 15 километр шимал-гәрбдә, Гачар кәндинин 3 километрлијиндә гејдә алынан оронимләрдән бири **Пәналы дәјирманы** адланыр. Јерли мә'лумата көрә топонимин ады **Пәнаһалы** адынын тәһриф олунмуш формасыдыр. Адынын тәркибиндә дәјирман сөзү олан топонимләр Азәрбајҹанда јүзләрләдир. **Дәјирман** - дән үјүтмәк үчүн олан мүәссисәдир. Гәдимдә Азәрбајҹан әразисиндә дә дәни дән дашларында вә һәвәнкдә үјүдүрдүләр. Миладдан әввәл II минилликдә әл дәјирманлары мејдана кәлди. Әкинчилијин инкишафы илә әлагәдар олараг гулдарлыг вә феодализм гурулушлары заманында **су** илә ишләјән дәјирманлар јаранды. Орта әсрләрдә **јел** дәјирманындан да истифадә едилмишдир. Дәјирманын **Пәналы** адланмасы ону вахты илә ишләдән шәхсин ады илә бағлыдыр...



## ПИРӘҺМӘДЛИ КӘНДИ

Пирәһмәдли кәнди рајон мәркәзиндән 15 км ҹәнубда, Гарабағ силсиләсинин әтәјиндә, дүзәнликдә јерләшир. Әһалиси 1300 нәфәрдир. Әһали тахылчылыг, үзүмчүлүк, барамачылыг вә һејвандарлыгла мәшғул олур. Кәндә мәктәб, клуб, китабхана тибб мәнтәгәси, XIX әсрдә тикилмиш мәсҹид вә с. вар. Јалпирәһмәдлидән бөјүк олдуғу үчүн јерли әһали кәнди **Бөјүк Пирәһмәдли** дә адландырыр.

XVIII әсрә аид олан бир чох тарихи гајнагларда, о ҹүмләдән, 1727-ҹи ил "Кәнҹә Гарабағ әјаләтинин мүфәссәл дәфтәри"ндә Дизаг наһијәсинә табе олан кәндләрин сырасында **Пирәһмәдли** кәндинин дә ады вар. XIX әсрдә Дөвләт тәрәфиндән һәјата кечирилмиш сијаһыјаалынмаларда **Пирәһмәдли** кәндинин ады да гејдә алынмышдыр.

Кәндин **Јарәһмәдләр, Ибраһимләр, Нәҹәфәлиләр, Сејфәлиләр, Мирзәлиләр, Мәһәммәдәлиләр, Күлүмәлиләр, Аллаһгулулар, Мустафалар, Гырзәлиләр, Имамгулулар, Һатәмәлиләр, Пиргасымлар** вә с. нәсилләри, тирәләри вардыр.

Дағ јалында јерләшдији үчүн кәндин кечмиш ады **Јал Пирәһмәдли** олуб. Јашајыш мәнтәгәси XIX әсрдә бурада мәскунлашмыш **Пирәһмәдли** нәслинин ады илә адланмышдыр...

## ПӨРНӘК ЈЕРИ

Инди дә ара-сыра Азәрбајҹанын ајры-ајры бөлкәләриндә тез-тез ишләдилән **пөрнәк** сөзүнә раст кәлирик. **Пөрнәк** сөзү тәрәкәмә јашамы илә әлагәдардыр. Өзүндән күҹлү олан мүстәгил бојларын һимајәсиндә јајлаг-гышлаға көчүб онларын истифадәсиндә олан өрүш јерләриндә мал-гараны отаран кичик сојлар **пөрнәк** адланыр.

Тарихи гајнаглардан о да мә'лум олур ки, **пөрнәк** адлы Азәрбајҹанлыларын етник групу, тајфасы мөвҹуд олмушдур. Ағгојунлу тајфаларына бағланан **пөрнәкләр** Азәрбајҹанын ичтимаи-сијаси вә мәдәни тарихиндә өнәмли рол ојнамышлар. Сон орта әсрләр тарихи дөнәминдә онлар гызылбашларын тәркибинә гатылмышлар. Гызылбаш бирлији ичиндә онлар мосуллуларла бәрабәр түркманлар адланырдылар...

## РӘБӘД

Јухары Әбдүррәһманлы кәнди әразисиндә гејдә алынан орографик објектләрдән бири дә **Рәбәд** адланыр. Тарихи мәнбәләрдән ајдын олур ки, сон орта әсрләрдә бу әразидә јашајыш мәскәни олмушдур. Бу јерин гајнагларда Хырдапара Дизаг маһалынын тәркибиндә олдуғу көстәрилир. Османлы гајнағында вә XIX әсрә аид олан камерал сорғу сијаһыларында **Рәбәд (Рәбәт)** адына раст кәлирик. Бә'зән бу ад сәнәдләрдә **Рәбәт** кими дә өз әксини тапмышдыр. Топонимин изаһы илә бағлы мүхтәлиф фикирләр вардыр...

## РӘФӘДИНЛИ КӘНДИ

(Бах: **Ашағы Рәфәдинли** вә **Јухары Рәфәдинли** кәндләри)

## РЗАЛЫЛАР КӘҺРИЗИ

Азәрбајчанда мүхтәлиф тајфалара мәнсуб олан нәсил вә тирә адларыны өзүндә әкс етдирән орографик објектләрә тез-тез раст кәлинир. Республикамыз әразисиндә belә патронимик топонимләр демәк олар ки, бүтүн рајонларын әразисиндә кифајәт гәдәрдир. Патроним дејәндә шәхс адларына гошулан чәм вә ја мәнсубијјәт билдирән шәкилчиләрдән јаранмыш тирә вә нәсил адлары нәзәрдә тутулур. Патронимик топонимләр етнонимик топонимләрә нисбәтән даһа чохдур.

Фүзули рајонунун Һорадиз кәнди әразисиндә гејдә алынан **Рзалылар кәһризи** һидроними дә патронимик һидронимдир. Һидроним кәндин **рзалылар** адлы нәслинин ады илә бағлыдыр. **Кәһриз** - грунт суларыны топлајыб јер сәтһинә чыхармаг үчүн јералты гурғудур. Адәтән кәһризләри пешәкар канканлар газырлар. Статистик мә'лумата көрә, XX әсрин орталарында Азәрбајчанда 900-дән чох **кәһриз** олмушдур.



## РУС БУЛАҒЫ

Гачар кәнди әразисиндә гејдә алынан һидронимләрдән бири **Рус булағы** адланыр. Бу булағын сојуг вә шәффаф сују вар. Мәнзәрәли јердә мәкан тутмуш бу булағын сују һеч вахт гурумур. **Булаг** вахтилә онун сујундан бир мүддәт истифадә етмиш **рус** милләтиндән олан адамлара көрә белә адландырылмышдыр...

## РУС ГӘБРИ ЈЕРИ

Һорадиз кәнди әразисиндә гејдә алынан орографик објектләрдән бири дә **Рус гәбри јери** адланыр. Бу топоним вахтилә орада дәфн олунмуш христиан404 динин mənsub **рус** милләтиндән олан шәхс илә бағлыдыр. Һәмин адамын дәфн олундуғу **јер** кәнд сакинләри арасында елә о замандан **Рус гәбри јери** адландырылмышдыр.

## САГГЫЗЛЫ МӘҺӘЛЛӘСИ

Һорадиз кәнди әразисиндә гејдә алынан орографик објектләрдән бири белә адланыр. Бу **мәһәлләдә** кәндин илк сакинләриндән бири олан **јадикарлы** тајфасынын нәсилләри мәскән салмышдылар. Мәһәлләнин **Саггызлы** адланмасы илә бағлы мүхтәлиф фикирләр вардыр. Бә'зи јерли әһалинин дедикләринә көрә **саггызлы** јозумунун бири онунла бағлыдыр ки, бу мәһәлләнин адамлары дадлы, ширин дил илә башгаларыны алдатмагда, онлары инандырыб өз тәрәфләринә чәкмәкдә, мүәјјән бир иши көрмәјә разы етмәкдә - үмумијјәтлә, онларын "**саггызларыны** оғурламагда" маһир имишләр. Мәһз елә бу сәбәбдән дә **мәһәллә** белә адланырды. Әлбәттә, топонимин изаһына башга призмадан јанашанлар да вар...

## САЛМАН БУЛАҒЫ

Фүзули шәһәриндән 13 километр гәрбдә, Туғ кәнди истигамәтиндә гејдә алынан һидронимләрдән бири **Салман булағы** адланыр. Һидроним **Салман** шәхс адындан вә **булаг** һидронимик апелјативиндән ибарәтдир. **Салман** бу булағы тә'мир едиб (етдириб) үзә чыхаран адамын адыдыр. **Салман булағынын** көз јашы кими думдуру вә буз кими сојуг сују вардыр...

## САРАЧЫГ КӘНДИ

**Сарачыг кәнди** рајон мәркәзиндән 14 км ҹәнубда, Гарабағ силсиләсинин әтәјиндә, дағлыг әразидә јерләшир. Әһалиси үзүмчүлүк, тахылчылыг, һејвандарлыг вә барамачылыгла мәшғул олур. Кәнддә мәктәб, клуб, китабхана, XIX әсрдә инша едилмиш көрпү вә с. вар. Сарачыг кәнди дә ермәниләр тәрәфиндән ишғал олунуб...

Кәнди **һапытлы, һачысүлејманлы, чачаглы** вә **шүкүрбәјли** нәсилләринә мәнсуб аиләләр салмышдыр. Јашајыш мәнтәгәси тәхминән 200 ил бундан әввәл индики јериндән 4 км. аралыда, Шуша шәһәринә кедән карван јолунун кәнарында јерләширмиш...

Јерли мә'лумата көрә, топоним **сарај** (јә'ни карвансара) вә **-чыг** компонентләриндән ибарәт олуб, *"кичик карвансара"* мә'насындадыр. Чох күман ки, кәнд тиҹарәт вә карван јолунун кәнарында кичик карвансаранын әтрафында салындығына көрә белә адландырылмышдыр. Башга бир фикрә көрә, топоним түрк дилләриндә *"дүзән"*, *"чөл"*, *"тарла"*, *"саһә"* мә'наларында ишләнмиш **сара** вә **-чыг** компонентләриндән ибарәт олуб *"кичик дүзән саһә"* мә'насыны әкс етдирир.

Тарихи мә'хәзләр хәбәр верир ки, XIII-XIV әсрләрдә монголлар бурада торпағы, сују вә тәбиәти јахшы олдуғу үчүн гыш **сарајлары** тикмишләр...

1593-ҹү илә аид Османлы гајнағында јашајыш мәнтәгәсинин ады **(Сарајчыг кими)** чәкилир.

1727-ҹи ил "Кәнҹә-Гарабағ әјаләтинин мүфәссәл дәфтәри" адлы тарихи сәнәддә дә кәндин ады көстәрилиб. Јерли мә'лумата көрә кәндин әксәр тајфалары Ҹәбрајылдан кәлмәдирләр...



## САРЫ БУЛАГ

Дөвләтјарлы кәндиндән азаҹыг јухарыда, Көндәлән чајы саһилиндә гејдә алынан һидронимләрдән бири **Сары булаг** адланыр. Һидроним рәнк билдирән **сары** сөзүндән вә һидронимик формант ифадә едән **булаг** апелјативиндән ибарәтдир. Булағын думдуру, сојуг вә көз јашы кими шәффаф сују вардыр. **Сары булаг** һидронимине Фүзули рајонунун бир сыра әразиләриндә раст кәлмәк мүмкүндүр...

## САРЫ ЈАЛ

Јухары Сејидәһмәдли кәнди јахынлығында гејдә алынан орографик објектләрдән бири **Сары јал** адланыр. Ороним **сары** сөзүндән вә **јал** термининдән ибарәтдир. **Сары** рәнк ифадә едир. **Јал** - ҹоғрафи термини исә мүсбәт релјеф формасы билдирир. Дағын ән һүндүр зирвәсинин јамаҹы оронимијада **јал** адланыр. **Јал** терминин иштиракы илә Азәрбајҹан оронимијасында 600-дән чох ҹоғрафи ад гејдә алыныб. **Сары јал** орографик објекти јалда торпаг сүхурунун рәнкинин **сары** рәнкдә олмасы илә бағлы белә ад алмышдыр.

## САРЫЛАР ДӘРӘСИ

Фүзули рајону әразисиндә, Ашағы Әбдүррәһманлы кәнди јахынлығында гејдә алынан ҹоғрафи адлардан бири **Сарылар дәрәси** адланыр. Оронимин тәркибиндәки **дәрә** сөзү мәнфи релјеф формасы билдирән ҹоғрафи терминдир; **-си** шәкилчиси мәнсублуг ифадә едир. **Сарылар** сөзү **Һачылы** ичмасына гатылан **Сарылар обасы** шенлијинин адыны өзүндә әкс етдирир.

**Сарылар** обасынын башга бир ады **Зејналабдинбәјли** (Зејналабдин бәј Имамгулубәј оғлу Һачылы-Ҹаваншир) олуб. Бу оба XVIII-XIX әсрләрдә Мәнкәлән ата дағындан Чимән вә Дүдүкчү кәндләринә гәдәр олан әразидә - Мурғузлу јурдунда бинәләјирди.

XIX әсрин II јарысында **Сарылар** обасынын әһалиси Рәбәт, Бајрамбәј вә Гачар јурдлары илә дөврәләнән бир саһәјә көчдү. Бу көчкүнлүкдән әввәл онлар Јухары Әбдүррәһманлы кәндинин тәркибиндә олмушдур. 1842-чи илдә Мурғузлу торпағында јашајан вә Зејналабдин бәјә бағлы олан Сарылар обасынын әһалиси дөвләт тәрәфиндән сијаһыја алыныб. Сонралар 1849, 1863, 1873, вә 1886-чы илләрдә дә белә сијаһыјаалмалар олуб. Сарылар обасынын **Мәшәдибабалар, Зүлфүгарлылар, Меһдилиләр, Нағдалылар, Чаббарлылар, Намазлар, Әләскәрлиләр, Ејвазлылар, Әһмәдлиләр, Исмајыллылар, Мустафалылар** адлы тајфа вә тирәләри мә'лумдур. Сарылар обасындан XIX әсрин мәшһур бәјләри олан **Мәммәдбағыр бәј, Мәһәррәм бәј, Аллаһверди бәј, Имамгулу бәј** вә башгалары чыхмышлар...

## СЕЈИД ӘШРӘФ ЗИЈАРӘТКАҺЫ (ТҮРБӘСИ, МӘСЧИДИ)



**Сејид Әшрәф абидә комплекси** Абшерон рајонунун мәркәзи Хырдалан шәһәринин гәбиристанлығында, һүндүр тәпәнин үстүндә учалдылмышдыр. Бу ме'марлыг абидә-комплекси инша олундуғу әразинин - Абшерон ме'марлыг мәктәбинин ән'әнәләрини давам етдирир. Абидә комплексинин түрбә вә мәсчидинин күмбәз сәтһиндә вә таван һиссәсиндә зијарәткаһын конструксијасына ме'марлыг нөгтеји-нәзәриндән мүәјјән јениликләр әлавә олунмушдур. Меһраб олан диварын бајыр тәрәфиндә охвари тағбәндлә тамамланан бир чүт ниша лајиһәләндирилиб.

Түрбәнин һүндүрлүјү 10 метрдир. Түрбә вә мәсчидин сәрбәст көрүнмәси үчүн һәр ики абидәнин өртүк конструксијасы күмбәзшәкилли, дәһлизин дамы исә јасты формададыр. Түрбәнин вә мәсчидин дам өртүкләри бајыр тәрәфдән күмбәз, дахили вә таван



һиссәдән исә дүз шәкилли ишләнмишдир. Түрбә дахилиндәки һаванын мүнтәзәм дәјишмәси үчүн тавана сөјкәнән диварда 80 см х 20 см өлчүлү бошлугларын үзәри ораја һеч бир һәшәрат дахил олмасын дејә, дәмир шәбәкәләрлә бағланмышдыр. Абидә комплексинә кириш баш тәрәфдәндир. Тағбәнд гапыдан дәһлизә кирәндән сонра сол гапыдан түрбәјә, сағ гапыдан исә мәсчидә кириш вар. Мәсчидин интерјерини јан тәрәфдәки үч әдәд тағбәнд шәкилли пәнчәрәләр ишыгландырыр. Абшерон ме'марлыг мәктәби үслубунда инша едилмиш **абидә комплекси** бүтөвлүкдә тәбии әһәнк дашы илә тикилмишдир.



**Сејид Әшрәф абидә комплексинин интерјери**

Абидәнин күмбәзи гејри-һамар сәтһли, сахсы өртүјә бәнзәр далғавари шәкилдәдир. Түрбә күмбәзинин мәркәзини тамамлајан ајпара вә мәсчид күмбәзинин мәркәзиндәки гыфыл даша бәркидилмиш "әл" дә сәчијјәви хүсусијјәтләринә көрә өзүндә ме'марлыға дахил олан ислами идејалары әкс етдирир. Абидәнин үмуми сәтһи һамар вә шагули шәкилли пљастрларла бәзәдилмишдир. Интерјериндә јениликләр дујулур. Күмбәзин алты ишыглы көрүнсүн дејә, абидәнин дам өртүјүндә даирәви шәкилдә бошлуглар гојулуб. Сәккизбучаглы вә милли орнаментләрлә ујғунлашдырылараг тикилмиш бу түрбә-зијарәткаһын дахили - хүсуси күзкү кәсимләриндән шәрг үслубуна ујғун һәндәси орнаментләрлә интерјерин конструксијасына ујғун бәзәдилмишдир.

**Сејид Әшрәф зијарәткаһына** кәләнләрин раһатлығы үчүн комплексин јахынлығына вә јола асфалт дөшәнмиш, бурада көмәкчи отаглар инша олунмушдур.

Абидәнин китабәсиндә бу сөзләр јазылыб: "Бу абидә комплекси Фүзули рајон чамаатынын мадди көмәклији илә инша едилиб. 06.09.1999 - 06.09.2001. Ме'мары Ризван Гарабағлыдыр".

## СЕЈИДӘҺМӘДЛИ КӘНДИ

(Бах: **Ашағы Сејидәһмәдли** вә **Јухары Сејидәһмәдли** кәндләри)

## СЕЈИДЛӘР ЈУРДУ, СЕЈИДЛӘР БУЛАҒЫ

Фүзули рајону әразисиндә гејдә алынан мараглы микроојконимләрдән бири дә **Сејидләр јурду** адланыр. ***Сејидләр јурду*** топоними адыны дашыдығы јашајыш мәнтәгәсинин (**јурдун**) вахтилә мәнсуб олдуғу зүмрәни (титулу) көстәрән **сејид термининдән** вә **јурд** компонентиндән ибарәтдир. Функсионал структур бахымындан **Сејидләр јурду** микроојконимини етноним вә бу сәчијјәли адларла ифадә олунан (зүмрә, титул вә с.) типә аид етмәк олар.

Әразидә **Сејидләр булағы** адлы микроһидроним дә гејдә алынмышдыр...

## СЕЈИДМАҺМУДЛУ КӘНДИ

**Сејидмаһмудлу кәнди** рајон мәркәзиндән 8 км шәргдә, Гарабағ силсиләси әтәјиндә, әразиси дағәтәји олан бир саһәдә јерләшир. Әһалиси үзүмчүлүк, һејвандарлыг вә тахылчылыгла мәшғул олур. Кәнддә мәктәб, клуб, китабхана вә с. вар. Кәнд 1993-чү илин августун 23-дә ермәниләр тәрәфиндән ишғал олунмушдур.

Јашајыш мәнтәгәси **Сејидмаһмудлу** адлы нәслин бурада мәскунлашмасы нәтичәсиндә јаранмыш вә һәмин нәслин ады илә дә адланмышдыр.

Тарихдән мә'лумдур ки, **Сејид Маһмудлу** ојмағы **Чаваншир** тајфасынын бир голудур. 1727-чи илә аид олан "Кәнчә-Гарабағ әјаләтинин мүфәссәл дәфтәри" адлы тарихи гајнагда бу ојмағын Арасбар санчағында гышламасы, Нахчыван санчағында, Сисјан адлы јердә јајламасы көстәрилир. Һәмин мәнбәјә көрә **Сејид Маһмудлу ојмағы** Дизаг наһијәсиндә, Күлбар адлы чајын кәнарында әкинчиликлә мәшғул олур, үшр вә беһрәләрини торпаг саһибинә верир (јекуна көрә 39.000 ағча).

Бу ојмағын **һејдәрханлар, әлварисләр, исмајылоғуллары, шаһмәһәммәдлиләр, хәлифәгулулар, нәгдәлиләр, лүтфәлиләр, мәһәммәдјарлылар, әһмәдлиләр, мирзәлиләр, шәрифлиләр, әлиләр, јарһачылар, пирмаһмудлар, бајрамлылар, мусалылар, сәлимханлар, гарачарлар, казымлар, шаһалмышлар, мүршүдгулулар, шүкүрлүләр, нијазгулулар** вә с. адлы тирәләри вардыр.

Ајдындыр ки, Азәрбајчанда ојконим, оронимләрин бир гисми тарихән мүгәддәс һесаб едилмиш, ситајиш објекти олмушдур. Бу мә'нада мүхтәлиф вахтларда јашамыш **сејидләрә**, шејхләрә, руһаниләрә, халг тәбибләринә бир нөв ситајиш әламәти олараг јаранмыш чоғрафи адлар мөвчуддур ки, **Сејидмаһмудлу** топонимини дә бу гәбилдән һесаб етмәк олар.

**Сејид** компоненти илә дини титул вә шәхс ады илә бағлы Азәрбајчанда онларла чоғрафи адлар мөвчуддур: Сејидләр кәнди (Кәлбәчәр, Салјан, Самух, Хачмаз, Ағдам), Сејидјурд кәнди (Шәки), Сејидбазар кәнди (Чәлилабад), Сејидбәјли кәнди (Хочалы), Сејидан кәнди (Салјан), Сејидгышлаг кәнди (Гәбәлә), Сејидоба кәнди (Саатлы), Сејидсадыглы кәнди (Салјан), Сејидәлигулу тәпәси (Бејләган) вә с.

Азәрбајчанда **сејид**, имам нәслиндән оланлар мүгәддәсләр кими танынырлар. Халг арасында һөрмәт вә иззәт газанмыш **"сејид"** сөзү шәхс ады кими бир чох топонимләрдә дә өз әксини тапмышдыр.

## СЕЈФӘЛИ БАҒЫ

Бабы кәнди әразисиндә гејдә алынан оронимләрдән бири **Сејфәли бағы** адланыр. Бу саһәдә чохлу тут ағачлары әкилмишдир. Јерли әһали тарихән дикәр кәнд тәсәррүфаты саһәләри илә јанашы, бағчылыг вә барамачылыгла да мәшғул олмушлар. Бурада бәсләнән ипәкгурду үчүн тут бағлары салмаг лазым кәлирди. Салынан **бағлар** онун саһиби олан сакинләринин ады илә адландырылырды. **Сејфәли бағы** адланан топоним дә инсан ады илә әлагәдар јаранмыш оронимләрдәндир....

## СӘНКӘР ЈАЛЫ

**Сәнкәр јалы** ороними Ишыглы кәнди әразисиндә гејдә алыныб. Бу топонимлә бағлы јерли әһали мүхтәлиф рәвајәтләр сөләјир. Биринчи рәвајәт бундан ибарәтдир ки, 1905-06-чы илләр ермәни-мүсәлман давасы заманы бу јерләрдә дөјүшләр кедән заман Чавад

бәј вә онун адамлары бу **јалы** өзләринә **сәнкәр** етдикләри үчүн сонралар о јер белә адланмышдыр. Икинчи рәвајәт исә беләдир ки, Чавад бәјин дәстәси илә гачаг Дәскуралы ханын дөјүшчү дәстәси бу әразиләрдә гаршы-гаршыја кәләндә Чавад бәјкил бу јери өзләринә **сәнкәр** сечмишләр...

**Јал** - мүсбәт релјеф формасы билдирән чоғрафи терминдир. Дағын ән һүндүр зирвәсинин јамачы оронимијада **јал** компоненти илә ифадә олунур. Чөл материаллары ичәрисиндә республикамыз әразисиндә адынын тәркибиндә **јал** термини олан 600 орографик објект гејдә алыныб...

## СӘНКИР ЈЕРИ

Гәрвәнд кәнди әразисиндә гејдә алынан чоғрафи адлардан бири **Сәнкир јери** адланыр. Гәдим түрк дилләриндә ишләнән **Сәнкир (сәнгир)** сөзү индики Азәрбајчан дилинин диалектләриндә ишләдилән **сәнкәр** сөзү илә ејнилик тәшкил едир. Бу сөз *"дағ чыхынтысы", "дағ бурну"* анламларында ишләдилир. Ороним дөјүшләрдә **сәнкәр јери** олдуғу үчүн ел арасында да ады белә тарихләшмишдир.

Абшерон, Астара, Газах, Гах, Губа, Губадлы, Гусар, Дәвәчи, Зәнкилан, Исмајыллы, Јардымлы, Коранбој, Лерик, Ханлар, Хочалы, Чәбрајыл, Шаһбуз, Шәмкир, Шуша рајонларынын әразиләриндә дә **сәнкир (сәнкәр)** термини илә бағлы орографик објектләр гејдә алынмышдыр...

## СӘРДАР РАЈОНУ

Фүзули рајонунун (шәһәринин) 1929-31-чи илләрдә ады **Сәрдар** олмушдур. **1 март 1929**-чу ил тарихдә Азәрбајчан Халг Комиссарлары Советинин гәрары илә Гарјакин шәһәринә мәтин ингилабчы, гарғабазарлы Бүнјад Сәрдаровун вәфатынын 10 иллији илә әлагәдар олараг **Сәрдар** (Сәрдар сөзү фарс дилиндә "башчы, командан, вали, чанишин" демәкдир) ады верилмишдир. Аз мүддәтдә бүтүн рәсми сәнәдләрдә шәһәрин (рајонун) ады **Сәрдар** (бәзән **Сәрдарабад** шәклиндә дә јазылырды) кими көстәрилмишдир. Амма ССРИ Халг Ко-



миссарлары Советинин тәзјиги илә Азәрбајчан ССР Халг Комиссарлары Совети 1931-чи илдә өзүнүн 1 март 1929-чу ил тарихли гәрарыны ләғв едәрәк **Гарјакин** адыны бәрпа етди...

Тарихи сәнәдләрдә көстәрилир ки, Мәммәд Әсәдов **Сәрдар** РПК-нын биринчи катиби, Әзиз Нуријев **Сәрдар** РИК-нин сәдри, Әбдүл Мәммәдов исә **Сәрдар** РПШ-нин рәиси вәзифәсиндә чалышмышлар...

Бүнјад Мәдәт оғлу Ибраһимов **(Сәрдаров)** 1889-чу илдә Кәнчә губернијасынын Чәбрајыл гәзасы табелијиндәки Гарғабазар кәндиндә анадан олуб. **Сәрдар** - онун улу бабасынын адыдыр. Сәрдарын Ибраһим, Ибраһимин исә Мәдәт адлы оғлу (Бүнјадын атасы) олмушдур. Мәдәтин 5 өвлады варды ки, онларын да бөјүјү Бүнјад иди. XX әсрин Бакыдакы мәшһур тәтилләриндә Бүнјад тәчрүбә мәктәби кечиб сынагдан чыхмышды. Ону 1907-чи илдә нефт мәдәнләринин мүдири, мүһәндис Н.Котовскинин јараланмасында тәгсирили билиб һәбс етдиләр. Бир мүддәт Бајыл һәбсханасында галдыгдан сонра тәгсири сүбут олунмадығы үчүн 1908-чи илин јазында о, азад олунур. Сонралар узун мүддәт тә'гиб олунан Б.Ибраһимов изи итирмәк үчүн **Сәрдаров** соjады илә Балаханыда ишә дүзәлир.

1915-чи илдә Б.Сәрдаров Бакы болшевикләринин кизли јығынчағында РСДФП Бакы Комитәсинин үзвү сечилди. 1917-чи илдә "Һүммәт" комитәсинин, болшевикләр партијасынын Балаханы рајон комитәсинин үзвү сечилән Б.Сәрдаров Бакы Советинә дә депутат сечилир. 1918-чи илин сонларында В.И.Ленинин көстәриши илә Һәрби Ишләр Комиссарлығы јанында јарадылмыш мәркәзи Мүсәлман Һәрби Коллекијасы Бүросуна үзв сечилән Бүнјад РК(б)П Мүсәлман Тәшкилатлары Мәркәзи Бүросунун гәрары илә Петрограда кедиб Москваја гајытдыгдан сонра Бүнјад ММҺК-нын 1 феврал 1989-чу ил тарихли гәрары илә мүсәлман һәрби һиссәләрини тәшкил етмәк мәгсәдилә чәнуб чәбһәсинә езам олунур. Сијаси әдәбијјат, сәнәд, силаһ вә башга мәхфи мә'луматлары Гафгаз Өлкә Комитәсинә чатдырмаг кими сон дәрәчә тәһлүкәли тапшырыг алан Б.Сәрдаров 1919-чу илдә Ибраһим Ата оғлу адына олан паспорт вә иш палтары алыб кечә икән балыгчы гајығында Һәштәрхандан Бакыја јола дүшүр. Чечен адасы јахынлығында ағвардијачы кешикчи кәмиси тәрәфиндән јахаланан Бүнјад чохлу ишкәнчәләрдән сонра күлләләнәрәк дәниздә батырылыр...

## СӘРДАРЛЫ КӘНДИ

**Сәрдарлы кәнди** рајон мәркәзиндән 10 км ҹәнубда, Гарабағ силсиләсиндә, дағәтәји әразидә јерләшир. Сәрдарлы кәнди Әркүнәш дағынын әтәјиндә јерләшән Гочәһмәдли, Пирәһмәдли, Моллавәли кәндләринин әһатәсиндәдир. Әһалиси әсасән үзүмчүлүк, һејвандарлыг вә тахылчылыгла мәшғул олур. Кәнддә мәктәб, клуб, китабхана мәсҹид, дәјирман, күкүрдлү булаг, кәһриз гәдим гәбиристанлыг, Нәркизли, Мурадлы, Зоғаллы, Отајлы, Бутајлы адланан бағлар вә с. вар... Кәнд ермәниләрин ишғалы алтындадыр...

Кәндин **ковхалы, гарамәммәдли, дәлләкли, аллаһверәнләр, кәрбалајимәммәдгулулар, хәләфләр, намазлылар, гарадағлылар, бајрамлылар, мәммәдлиләр, аллаһјарлар, мусалар** вә с. тајфалары вардыр. 1593-ҹү илә аид Османлы гајнағында кәндин ады чәкилир...

XVIII әсрдә - Ибраһимхәлил ханын һөкмдарлығы заманы кәндин ковхалары, кәндхудалары Вәлимәммәд аға Тејмураз бәј оғлу вә Имамверди бәј Достмәһәммәд аға оғлу олмушдур. Бу заман маһалын наиби Мәлик Намазәли бәј Шамил бәј оғлу иди ки, ковха Вәлимәһәммәд аға Тејмураз бәј оғлу наиблә исти илишкиләр гурмушду. Меһдигулу ханын дөнәминдә исә кәндә Мәшәди Һаҹы бәј Вәлимәһәммәд аға оғлу башчылыг етмишдир.

1797-ҹи илә аид олан сәнәддә көстәрилир ки, Ағамәһәммәд шаһ Гаҹарын Гарабағда јандырдығы кәндләрин сијаһысында **Сәрдарлы** кәндинин дә ады вар. 1823-ҹү ил билкисинә көрә, кәнддә **37** түстү варды. Апарылан камерал сијаһыја көрә кәнддә 1842-ҹи илдә **42**, 1863-ҹү илдә **62**, 1886-ҹы илдә **85** түстү олмушдур...

Кәндин ады бә'зән **Сәрдәрли** кими дә гејд едилир. Јашајыш мәнтәгәси өз адыны ел арасында **"сәрин дәрәли"** компонентинин ассимилјасијаја уғрамыш **"Сәрдәрли"** ифадәсиндән алмышдыр. Доғрудан да, јајын ән исти күнләриндә белә кәндин булаг јерләшән дәрәсиндә һәр заман чох гәрибә сәрин меһ әсир...

Бә'зи еһтималлара көрә кәнд XVIII әсрдә Гарабағ ханынын вәкили олмуш Мирзә Хәләфин оғлу Һәсәнгулунун мүлк јери олмушдур. Кәндин бүнөврәсини гојан Һәсәнгулунун гардашы Имамгулу исә атасынын мүлку олан гоншу Хәләфша (бәзән дә Хәләфшә кими дә гејд едирләр) кәндиндә јашајырмыш.

Һәсәнгулунун оғланлары Мирзә Мәһәммәд вә Мирзә Әһмәд өз бачылары илә бирликдә Сәрдәрлидә јашамышлар. **Сәрдәрли** кәндинин гоншу Гочәһмәдли, Хәләфшә кәндләри илә гоһумлуг әлагәләри вар.

**Сәрдәрли** топоними јерин ландшафт компонентини өзүндә әкс етдирир. Бир чох тәдгигатчылар **Сәрдарлы** сөзүнү антротопоним кими - шәхс ады илә изаһ етмәјә чалышырлар.



## СӘРДӘРЛИ МӘСҸИДИ

Гочәһмәдли инзибати әрази ваһиди саһәсиндә гејдә алынан орографик објектләрдән бири **Сәрдәрли мәсҹиди** адланыр. Бу **мәсҹид** XIX әсрдә инша едилмишдир. Мәсҹидин **Сәрдәрли** адланмасы әразидә јерләшән **Сәрдәрли** кәндинин ады илә бағлыдыр. **Сәрдәрли мәсҹиди** Фүзули рајонунун јерли әһәмијјәтли дашынмаз тарих вә мәдәнијјәт абидәләриндән бири һесаб олунур.

## СӘФИХАН СӘНКӘРИ

**Сәфихан сәнкәри** ороними Араз Дилагарда кәнди јахынлығында гејдә алынмышдыр. **Сәфи хан** XVIII әсрин орталарында јашамыш, дөврүнүн савадлы адамларындан бири олмушдур. О, Ҹаваншир елинин Јағлывәнд ојмағынын кәләнтәри олмушдур. Надир шаһын сәркәрдәси олан **Сәфи хан** Гарабағда өз атлылары илә дөјүшләрдә вурушмуш, Османлылара гаршы дөјүшләрдә шүҹаәти илә фәргләнмишдир. Һәмин дөјүшләрин бириндә сәнкәрдә икидлик көстәрмишдир. Вурушдуғу **сәнкәр** сонралар онун ады илә дә адланмышдыр...

## СӨЈҮДЛҮ БУЛАГ

Фүзули рајону әразисиндә гејдә алынан **Сөјүдлү булаг** орографик објекти **сөјүд** сөзүндән, **булаг** һидронимик апелјативиндән вә мәнсублуг ифадә едән **-лү** шәкилчисиндән ибарәтдир. Һидроним булағын гајнадығы әразидә битән **сөјүд** ағаҹынын ады илә әлагәдар олараг белә адландырылмышдыр. Бу типли ҹоғрафи адлара Азәрбајҹанын башга әразиләриндә дә раст кәлмәк олар...

## СУСУЗ ДӘРӘ

Рајон мәркәзиндән 10 километр шимал-шәргдә, чөкәкликдә јерләшән дәрә **Сусуз дәрә** адланыр. Дәрәнин ады орада сујун олмамасы илә бағлыдыр. Топоним **"сују олмајан јер"** мә'насындадыр. Јерли әһалинин бәзиләри топоними "сусузлуг дәрәси" кими дә ишләдирләр. Лачын рајонунда **Сусуздағ**, Кәлбәҹәр рајонунда **Сусузлуг кәнди** вә **Сусузлуг дағы** топонимләри дә мөвҹуддур.

## СУТӨКҮЛӘН БУЛАГ

Гачар кәнди әразисиндә, кәнддән 3 километр аралыда гејдә алынан һидронимләрдән бири **Сутөкүлән булаг** адланыр. Һидроним һәмин саһәдә **булаг сујунун** бир гәдәр һүндүрдән, шәлалә кими гајнајыб **төкүлмәси** илә әлагәдар олараг белә ад алмышдыр. Бу типли ҹоғрафи адлара Ағдам рајонунун Абдал кәнди јахынлығында **(Сутөкүлән дәрәси),** Ағҹабәди рајонунун Гарадолаг кәнди јахынлығында **(Сутөкүлән чөкәк)** вә с. јерләрдә дә раст кәлирик.

## СҮЛЕЈМАНЫН ЧАЛАХЛЫҒЫ

Оронимијамызда шәхс ады илә дүзәлмиш чохлу сајда антропонимик оронимләр вардыр ки, онлардан да бири Һорадиз кәнди әразисиндә, Гозлу чајын кәнарында гејдә алынан **Сүлејманын чалахлығы** микрооронимидир. Топонимин тәркибиндәки **Сүлејман** сөзү көрүндүјү кими, адам адыдыр; **чалахлығы** (чалалағы, дәринлији, чөкәклији) сөзү исә азачыг тәһрифә уғрамышдыр.

Бурада јашы јүз илләри һаглајан чохлу тут ағачлары варды. **Сүлејман** киши вахтилә ағачлары ширин, ири гара тута чалатдырмышдыр. Һәмин бағ чәпәрә алынмамышды. Әкәр ким истәјирдисә һәмин ширин гара тутдан јејә биләрди. Сонралар һәмин бағ ипәкгурду сахлајанларын ихтијарына верилмишди...



## ТАҒЛЫ КӨРПҮ

Коразыллы кәнди јахынлығындакы чајын үзәриндә тикилмиш көрпү **Тағлы көрпүсү** адланыр. Јерли мә'лумата көрә көрпүнүн **300** илдән чох јашы вар. Гара дашдан **тағ** формасында инша олунмуш **көрпү** Шәрг ме'марлығынын типик нүмунәси һесаб олунур. Көрпүнүн 2 дајағы вар; бу дајаглар чајын сағ вә сол саһилләринә бәнд едилмишдир. Көрпүнүн үст һиссәси дајаглара бәнд олунмушдур. Узунсов дашларла бир-биринә бағланан **тағ** дөзүмлүлүјү илә фәргләнир.

Тәбии фәлакәтләр, јүзилләрин гар-јағышы нәтиҹәсиндә көрпүнүн гыраг һиссәләриндән дашлар гопмуш вә ону бир гәдәр енсизләшдирмишдир. **Тағлы көрпүдән** азачыг сол тәрәфдә 2 гоҹаман чинар ағачы вар. Арашдырычыларын фикирләринә көрә, бу чинарларын јашы **300** илдән чохдур...

## ТАПДЫГ БАҒЫ

Гачар кәнди әразисиндә гејдә алынан ҹоғрафи адлардан бири **Тапдыг бағы** адланыр. Бу **бағ** вахтилә кәндин јүзбашысы олмуш **Тапдыг** адлы бир шәхсин ады илә әлагәдар олараг белә адланмышдыр. Бағы **Тапдыг јүзбашы** салдырыб. **Бағда** чохлу мејвә ағачлары, коллары вар...

## ТАХТА КӨРПҮ

Фүзули рајонунун Һорадиз кәнди әразисиндә гејдә алынан орографик објектләрдән бири **Тахта көрпү** адланыр. Адындан да көрүндүјү кими, топоним **тахта** вә **көрпү** сөзләриндән ибарәт олуб, *"тахтадан олан көрпү"* анламы ифадә едир.

## ТЕШНӘК, ТЕШНӘК БУЛАҒЫ

Һорадиз кәнди әразисиндә гејдә алынан орографик објектләрдән бири **Тешнәк** адланыр. Һәмин јердә елә о јерин, саһәнин ады илә бағлы ејниадлы **булаг** да вар. Дејиләнләрә көрә, **Тешнәк** сөзү гисмән тәһрифә уғрамышдыр; әслиндә сөз **тешнә** шәклиндә јазылмалыдыр. **Тешнә** сөзү *"сусамыш, сусуз"*, *"бир шеји чох истәјән"*, *"арзусунда олан"*, *"бир шејин һәсрәтини чәкән кәс"* вә с. анламларда ишләдилир. **Булаг** - јерин алтындан гајнајыб чыхан су мәнбәјидир. Кәнд вә онун адамлары үчүн бу булағын бөјүк әһәмијјәти вардыр.

## ТӘПӘ КӘҺРИЗИ

**Кәһриз** - грунт суларыны топлајыб јер сәтһинә чыхармаг үчүн јералты гурғудур. Кәһризләр адәтән, пешәкар канканлар тәрәфиндән газылырды. Кәһризләрин лағымлары бир-бири илә шагули гујулар васитәси илә бирләшдирилир. Тарихи сәнәд вә материалларда көстәрилир ки, Азәрбајчанда XX әсрин орталарында 900-дән чох **кәһриз** олмушдур.

Һорадиз кәнди әразисиндә гејдә алынмыш **Тәпә кәһризи** һидрոними адындан көрүндүјү кими, **тәпә** вә **кәһриз** сөзләриндән ибарәтдир. **Кәһриз** бир гәдәр јүксәкликдә - **тәпәдә** јерләшдији үчүн һидроним белә ад алмышдыр. Јерли мә'лумата көрә, кәһризин сују **Гараған тәпәдән** кечиб онун јахынлығында үзә чыхдығы үчүн белә адланмышдыр.

## ТУҒ ЈАЛЫ

Рајон мәркәзиндән 12 км гәрбдә, Хочавәнд рајону илә сәрһәд әразиләрдә, Гарабағ силсиләсинин әтәјиндә, Гуручајын сағ саһилиндә јерләшән јүксәклик **Туғ јалы** адланыр. Јүксәклијин архасында ејниадлы кәнд дә јерләшир. **Туғ јалы** бојунча кәндә гәдәр чохлу сајда буз кими сојуг, бал кими ширин олан Баш булаг, Орта булаг, Гоша булаг, Салман булаг, Шор булаг, Мәммәд булағы, Готур булаг, Гара булаг адлы бири бириндән көзәл булаглар вардыр. Тәбиәт бу јерләр үчүн мөвчуд олан көзәл сәрвәтләриндән һеч нә әсиркәмәјиб. Бу јерләрин адамлары мејвәчилик, тәрәвәзчилик, һејвандарлыг, тахылчылыг, үзүмчүлүк вә барамачылыгла мәшғул олур.

Өлкәмизин ән мәшһур палеолит дүшәркәләри олан Азых вә Тағлар мағаралары Туғ јалынын әтәкләриндә јерләшир. Орада апарылан археоложи тәдгигатлар заманы ајдын олмушдур ки, 1,5 милјон ил бундан әввәл бу әразиләрдә инсанлар јашамышдыр. **Туғ јалы** әтәкләриндә гәдим вә орта әсрләр дөврләринә аид чохлу мадди-мәдәнијјәт абидәләри, мининчи илә аид Гырмызы мә'бәд, даш аләтләр, кил габ нүмунәләри вә с. ашкар едилмишдир.

**Туғ** һаггында бәдии әсәрләрдә, о чүмләдән, М.Ф.Ахундовун "Һачы Гара", Н.Нәримановун "Баһадыр вә Сона", Ч.Чаббарлынын "1905-чи илдә" әсәрләриндә мә'луматлар верилмишдир. Туғ јалынын әтәкләриндә јерләшән Туғ кәндини (бу кәнд дәфәләрлә ермәни-мүсәлман мунагишәсинин шаһиди олуб) рус орду һиссәләри илә ермәни һәрби бирләшмәләри 30 октјабр 1991-чи ил тарихдә ишғал едәрәк јандырмышлар. "Гарабағнамә" мүәллифләриндән бири Мир Меһди Хәзанинин мәгбәрәси Туғдадыр. Азәрбајчанда танынмыш Мәликаслановлар, Чаһанкировлар, Мәликјекановлар, Јеканлылар, Сораглылар, Будаглар, Чәфәровлар туғлудурлар. Туғлулар бу әразиләрә XVI әсрдә Лоридән (Лорудан) кәлибләр.

**"Туғ"** сөзү түркчә һакимијјәт рәмзи олараг учуна ат түкү вә ат гујруғу сачағы бәндләндирилмиш **мизраг,** јахуд металдан дүзәлдилмиш ити, дешичи **силаһ, низә** мә'насында ишләдилир. Орта әсрләрдә **бир туғ** санчагбәјини, **ики туғ** бәјләрбәјини, **үч туғ** пашаны мә'наландырармыш.

Үмумијјәтлә, **туғ** *"ат бојнуна бағланан"* бәзәк мә'насыны верир. XV-XVIII әсрләрдә түрк пашаларынын да Украјна вә Полша кетманлары, Рус казак гошуну атаманлары кими сачаглары ат түкүндән вә ики күмүш готазы олан ики метрдән узун сиври уҹлу дәстәкләри оларды ки, буна да **"туғ"**, **"бунчзак"** вә ја **"бунчук"** дејиләрди. Бунлар һакимијјәт рәмзини ифадә едирди. **Туғ, бунчуг** сөзләри Украјна дилиндә *"мунчуг"*, *"бәзәк әшјасы"* демәкдир. **Бунчзак** сөзү исә полјак дилиндә *"бәзәк"* анламындадыр. **Туғ**

сөзүнү **тикәр, дүјәр** компонентләри илә дә бағлајанлар вар. Бојнуна доланан Гуручаја ишарә илә кәнди *"Бојунбағы"*, јүксәкликдә јерләшдијинә көрә исә бә'зән *"Бајраг"* да адландыранлар олуб...

**Туғ** сөзүнүн мә'насы һаггында мүхтәлиф фикирләр мөвчуддур. Л.Будагов белә һесаб едир ки, **туғ (тук)** фарс дилиндә "дағын башы" демәкдир. Т.А.Жданкоја көрә **тук** "көк", "ришә" анламындадыр. Н.А.Баскакова көрә исә **туғ** сөзү "һакимијјәт рәмзи" мә'насындадыр. Бөјүк әдибимиз М.Ф.Ахундов **Туғ**ун татарча "бајраг" анламлы сөз олдуғу фикриндә олмушдур. М.Сејидов "**туғ**"ун "бајраг" мә'насы ифадә етдијини гәбул едир. **Туғ** - бајраг вә санчагдан фәргли нишан иди. Туғларын сајы вәзифәдән асылы олараг артырды. Ирәли чәкиләнләрә бајрагдан савајы **туғ** да тәгдим олунурду. Тарихи билкиләрә көрә **туғ** - башында ат вә ја чөл өкүзү гујруғу бағланан бир низәдир...

Енсиклопедик лүғәтдә **туғ** сөзүнүн мә'насы "бајраг" анламы илә изаһ олунур. Гәдим түрк тајфаларында һакимијјәт катеғоријасындан асылы олараг бир готазлы **туғ** <u>санчагбәји</u>, ики готазлы <u>бәјләрбәји</u>, үч готазлы <u>паша</u> рәмзи һесаб олунмушдур. Азәрбајчанын чоғрафи адлар үзрә терминолокијасы илә мәшғул олан мүтәхәссисләрин әксәријјәти Јухары Гарабағын (Хочавәнд рајону) **Туғ кәндинин** адыны мәһз әслән түрк сөзү олан **туғ** "бајраг" мә'насы илә изаһландырырлар.

**Туғ** сөзү дилимизин Оғуз бөлкә данышығында һәм дә "гамыш сачагларындан һазырланмыш јумшаг сүпүркә" анламындадыр. Бөјүк һәрби оркестрләрдә күјлү мусиги аләти бәзәјинә дә **туғ** дејилирди. **Туғ** - *"ат бојнуна бағланан бәзәк"* кими дә мә'наландырылыр. **Туғ** вә **бунчук** сөзләринин һәр икиси түркләрдән али һакимијјәт нишаны олараг руслара кечмиш, рус әдәби дилиндә дә *"һакимијјәт нишаны, рәмзи"* мә'насы ифадә етмишдир.

**Тук (ток)** адлы гыпчаг тајфасы да олмушдур. XII-XIII әсрләрә аид рус мәнбәләриндә дә буна раст кәлирик. Чох күман ки, һәмин тајфадан бу әразиләрдә јашајанлар да олуб. Бәлкә дә, **Туғ** топониминин адынын мә'насыны бу гыпчаг тајфасынын ады илә әлагәләндирмәк даһа дүзкүн оларды. Гафгазда бу тајфанын ады илә чохлу етнотопонимләр вардыр. Бөјүк түрк һөкмдары, сәркәрдә Мете (Мәтә) тарихи билкиләрә көрә **тук (туку)** гәбиләсиндәндир. Тарихи сәнәдләрдән ајдын олур ки, 1321-чи илдән 1913-чү илә гәдәр Һиндистандакы түрк дөвләтини **туғлар (туғлуг)** сүлаләси идарә етмишдир. Орта әср мәнбәләриндә XII әсрдә Арсакда јашамыш бир сыра тајфалар ичәрисиндә **туг (тог)** тајфасынын да ады чәкилир. Чох күман ки, **Туғ** етнотопоними **туг (дук)** сөзүнүн чохлуг, *"минә гәдәр сај"* мәзмуну кәсб едән тәһриф олунмуш елементидир...

"Гарабағнамә" мүәллифи М.Ч.Чаваншир Гарабағи **Туғ** топонимини **Туғ** шәклиндә вермишдир.

**Туғ** (Тук) етноними илә бағлы ашағыдакы топонимләр мөвчуддур: **Туғ јалы, Туғ кәнди, Туғ дағы, Туғ күнеји, Туғ чајы** (Фүзули, Хочавәнд, Товуз, Ағдам, Абшерон рајонлары вә с.).

## ТУТ БАҒЫ (ЧӘКИЛЛИ БАҒ)

Рајон мәркәзиндән 2 км чәнубда, јүзләрлә тут ағачлары олан бағ **Тут бағы** адланыр. Бә'зән адына чохиллик ағач чинси - **чәкил** дә дејилир. Мејвәси јаланчы ширәли чәјирдәкдир ки, узунлуғу 3-4 см, рәнки әсасән ағ, чәһрајы вә гарадыр. Јејилир, гурудулур, спирт алыныр; бәһмәз (дошаб), мүрәббә, чем, компот, ширә вә с. һазырланыр. Тут јарпаглары ипәкгурдунун јемидир.

**Тут бағы** топоними орадакы **тут** ағачларынын ады илә адландырылмышдыр. Рајон әразисиндә белә **тут бағлары,** мешәликләри чохдур.

## УЗУНТӘПӘ

**Узунтәпә** рајон мәркәзиндән 9 км шимал-шәргдә, Көндәләнчајын сағ саһилиндә јерләшир. О, е.ә. III миниллијә - илк Тунч дөврүнә аид јашајыш јери һесаб олунур. Узунтәпәнин узунлуғу 200, ени 60 метрдир. Һүндүрлүјү 1,2 метрдир. Тәпәнин јамачлары маилидир. 1967-1968-чи илләрдә апарылан археоложи тәдгигатлар заманы орадан даш тохалар, чахмагдашыдан ораг дишләри, дән дашлары, күп, чөлмәк, чам, сүзкәч, бојалы габ гырыглары (илк вә орта Тунч дөврләринә аид) вә с. тапылмышдыр. Узунтәпәдән ачыг, боз, гырмызы рәнкли кил габ нүмунәләри, харичи сәтһи чилаланмыш, дахили сәтһи исә азачыг һамарланмыш габ гырыглары, кичик өлчүлү зооморф һејкәлчикләр вә с. ашкар

едилмишдир. Узунтәпә материаллары көстәрир ки, бурада о заманлар әһали отураг әкинчи-малдар тәсәррүфаты илә мәшғул олубдур.

**Узунтәпә** орониминдәки **узун** термини објектин релјеф формасыны вә гурулушуну мә'наландырыр. **Тәпә** - мүсбәт релјеф формасы билдирән ҹоғрафи терминдир. **Узунтәпә** адына ујғун олараг **узунсов** шәкилдәдир. 1968-ҹи илдә тәпәдә мәдәни тәбәгәнин хүсусијјәтләрини өјрәнмәк мәгсәдилә кичик өлчүдә кәшфијат-газынты ишләри апарылмышдыр. **Узунтәпә** өлкә әһәмијјәтли дашынмаз тарих вә мәдәнијјәт абидәси һесаб олунур.

Орографик објектләрин релјеф формасынын **узунсов** олмасы илә әлагәдар јаранан оронимләримиз чохдур: ***Узунтәпә*** (Товуз рајону), ***Узунтәпә кәнди*** (Ҹәлилабад рајону), ***Узунтала кәнди*** (Гах рајону), ***Узунмешә кәнди*** (Губа рајону), ***Узуноба кәнди*** (Хачмаз рајону), ***Узундәрә*** (Ағдам рајону), ***Узунгобу*** (Ханлар рајону) вә с.

## ҮЧ БУЛАГ

Фүзули рајонунун **Үчбулаг кәнди** (әввәлки ады Һоға) әразисиндә гејдә алынан һидронимләрдән бири **Үч булаг** адланыр. Һидронимин тәркибиндәки **булаг** сөзү һидронимик апелјативдир. **Үч** сөзү исә сај билдирир. Топоним өз адында орадакы булагларын сајыны әкс етдирир.

## ҮЧ ОЧАГ ТӘПӘСИ

**Үч очаг тәпәси** орографик објекти Фүзули рајонунун Үчбулаг кәнди әразисиндә гејдә алынб. Оргним тәркибиндәки үч сөзү сај билдирир; **тәпә** - мүсбәт релјеф формасы билдирән ҹоғрафи терминдир; **-си** шәкилчиси мәнсублуг ифадә едир. Топонимин тәркибиндәки **очаг** сөзү вахтилә орада јандырылан очаг тонгаллар илә әлагәдардыр...



## ҮЧАРМУД ТӘПӘСИ

**Үчармуд тәпәси** Фүзули рајон мәркәзиндән ҹәнубда, Сәрдарлы кәнди әразисиндә јерләшир. Тәпәнин ады орада **үч армуд** ағачынын олмасы илә әлагәдардыр. Топоним **<u>үч</u>** - сај билдирән сөздән вә **армуд** мејвә ағачы адындан ибарәтдир.

Сај билдирән сөзләр, үмумијјәтлә, оронимләрин биринҹи һиссәси јериндә ишләнир. **<u>Үч</u>** сајы илә бағлы Азәрбајҹанда чохлу топонимләр мөвҹуддур: **Үчбулаг дағы** (Газах рајону), **Үчгардаш дағы** (Шаһбуз рајону), **Үчтәпә** (Абшерон, Ханлар, Шәрур, Көјчај, Ағдам, Тәртәр рајонлары), **Үчочаг јалы** (Фүзули рајону), **Үчһача дағы** (Оғуз рајону) вә с.

## ҮЧБУЛАГ КӘНДИ

Рајон мәркәзиндән 7 км гәрбдә, Гарабағ силсиләси әтәјиндә, дағәтәји әразидә јерләшән кәнд. Әввәлки ады **Һоға** олуб. Әһалиси әсасән һејвандарлыг, тахылчылыг вә үзүмчүлүклә мәшғулдур. Кәнддә мәктәб, клуб, китабхана вә с. вар. Јашајыш мәнтәгәси 1992-ҹи ил мартын 31-дә ермәниләр тәрәфиндән ишғал олунуб...

Топоним сај билдирән **"үч"** сөзүндән вә **"булаг"** һидронимик компонентиндән ибарәтдир. Һәмин компонентләрин бирләшмәсиндән јени спесифик ојконим јараныб. Газах рајону әразисиндә **Үчбулаг** адлы дағ вә с. топонимләр дә бу гәбилдәндир...

**Үчбулаг кәнди** Фүзули рајонунун гәдим тарихә малик кәндләриндән биридир. 1727-ҹи аид олан "Кәнҹә-Гарабағ әјаләтинин мүфәссәл дәфтәри" адлы тарихи гајнагда **Һоға** кәндинин дә ады чәкилир. Кәнд чох көзәл, мәнзәрәли бир ҹоғрафи мөвгејә маликдир...

## УЧОЧАГ ЈАЛЫ

Фүзули рајон мәркәзиндән 12 км шәргдә, Гараханбәјли кәндиндә гејдә алыныб. Оронимләрин, үмумијјәтлә, характерик хүсусијјәтләриндән бири дә онларда сај билдирән сөзләрин кениш ишләнмәсидир. **Үчочаг јалы** топониминин тәркибиндәки сај билдирән **"үч"** компоненти **"очаг јалы"** оронимик термининдән әввәл кәләрәк хүсуси бир објект ады ифадә едир.

## ҮЧҮНЧҮ МАҺМУДЛУ КӘНДИ

**Үчүнчү Маһмудлу кәнди** рајон мәркәзиндән 6 км шәргдә, Гуручајын саһилиндә, Гарабағ силсиләсинин әтәјиндә јерләшир. Әһалиси үзүмчүлүк, һејвандарлыг вә тахылчылыгла мәшғул олур. Кәнддә мәктәб, клуб, китабхана вә с. вар. Јашајыш мәнтәгәси 1993-чү ил августун 23-дә ермәниләр тәрәфиндән ишғал олунуб.

Ојконимин әсасыны **Маһмудлу** компоненти тәшкил едир. Топонимин әввәлиндәки **үчүнчү** сөзү ону ејниадлы дикәр јашајыш мәнтәгәләриндән фәргләндирмәк үчүндүр (бах: **Биринчи** вә **Икинчи Маһмудлу** кәндләри).

Гајнаглардан мә'лум олур ки, **Маһмудлу** обасы **Һачылы** ичмасына дахилдир. Бу оба **Чаваншир** елинин **Көчәрли** ојмағындан чыхыб. Бир мәнбәјә көрә, бу обанын чамаатынын улу бабаларындан биринин ады **Һачы Јусиф ağа** олуб. О, **Биринчи Маһмудун** атасыдыр. Маһмудларын гочаглыгларына көрә **һачылы** ичмасы арасында хүсуси јери олуб. Гејрәтли, гочаг **маһмудлулар** һаггында ел арасында: "рус јох, маһмудлу јох, даһа нәдән горхачагсан?" мәсәли дилләрдә долашмагдадыр.

Бә'зи мәнбәнин вердији мә'луматда гејд олунур ки, 1727-чи илдә **Көчәрли** обасындан ајрылан **Маһмудлу** соју Дизаг наһијәсинин Зијад гышлағында бинәләјирди Османлы гајнағында да **Маһмудлу** соју һаггында билкиләр вардыр. Орада көстәрилир ки, **Чаваншир** тајфасынын **көчәрли** ојмағы Дизаг наһијәсинин тәркибиндә олан Кәлли, Зәвичик (Завычыг) вә Гуру чајларынын кәнарында, Чәрәкән, Көндәлән, Түлјан, Гарадағлы вә Әршә адлы гышлагларда



әкинчиликлә мәшғул олур, Ирәван әјаләтинин Борк адлы јериндә јајлајырлар.

Әршә адлы әразидә тикилиләри олан Көчәрли ојлағы Дизаг наһијәсиндә, Сојудаш адлы архын кәнарында әкинчиликлә мәшғул олурдулар. Үмумиликдә Гарабаға табе олан Көчәрли ојмағынын Тајасојуг адлы гышлаглары вә Гаракүнеј адлы јајлаглары да олмушдур. Тарихи шәраитлә әлагәдар олараг бу обанын бә'зи нәсилләри сүркүн олунмуш вә сүркүндән гајытдыгдан сонра **һачылы** ичмасынын тәркибинә дахил олмушдур. **Маһмудлулар** Гарабағ ханлығынын сијаси һәјатында да мүһүм рол ојнамышлар.

1842, 1849, 1863, 1873 вә 1886-чы илләрдә **маһмудлу** обасынын әһалиси дөвләт тәрәфиндән сијаһыја алыныб. Һәмин дөврүн сијаһыјаалынмаларында Маһмудлу обасында јашајан бәјләрин (Прапоршик Һәсән бәј Чәфәр бәј оғлу, Фәтәли бәј Чәфәр бәј оғлу, Һачы Һүсејнгулу бәј Сәһлијалы бәј оғлу, Һәсәнгулу бәј Сәһлијалы бәј оғлу, Маһмуд бәј Сәһлијалы бәј оғлу, Аға бәј Һүсејн бәј оғлу, Тејмур бәј Һүсејн бәј оғлу, Һејдәр бәј Һүсејн бәј оғлу, Шүкүр (Ширин) бәј Ибраһим бәј оғлу, Фирудин бәј Һәсән бәј оғлу вә онларын өвладлары) дә ады көстәрилмишдир.

**Маһмудлу обасынын тајфалары** бунлардыр:

**Чәфәрбәјли (Чәфәрбәјушағы)** - Чәфәр бәј Кәрбәлаји Маһмуд аға оғлу XVIII әсрин II јарысы, XIX јүзиллијин әввәлләриндә јашајыб. Чох варлы вә һөрмәтли ағалардан олан **Чәфәр бәјин** Гасым, Фәтәли, Һәсән, Һүсејн, Паша, Искәндәр адлы оғуллары олмушдур. Бу тајфанын **Гасымбәјли, Фәтәлибәјли, Һәсәнбәјли, Һүсејнбәјли, Пашабәјли** адланан тирәләри вар...

**Сәһлијалылар (Сәһлијалы бәј ушағы)** - **Сәһлијалы бәј** Кәрбәлаји Маһмуд ағанын икинчи оғлудур. О, XVIII әсрин сонлары вә XIX әсрин әввәлләриндә јашајыб. Ибраһимхәлил хан вә Меһдигулу хана хидмәт көстәрән Сәһлијалы бәјин Һүсејнгулу, Һәсәнгулу, Ибраһим, Маһмуд бәј адлы оғуллары олуб. Бу тајфанын Һачыһүсејнгулулар, Һачыһәсәнгулулар, Ибраһимли, Маһмудбәјли адлы тирәләри вар...

**Һачыаталылар** - Кәрбәлаји Маһмуд ағанын оғулларындан бири дә **Аталы**дыр. 1783-чү илдә Маһмудлу обасында доғулан **Аталы** һејвандарлыгла мәшғул олмуш, мүгәддәс Мәккәни зијарәт едиб **"Һачы"** титулуна јијәләнмишдир. Онун **Гуламәли, Гәһрәман** адлы

оғуллары, **Һүрү** адлы гызы варды. Бу тајфанын **гуламәлиләр, салаһлылар, шамылар, шүкүрлүләр, мусалылар, әмирмурадлылар, һачыməммәдлиләр, хасмәммәдлиләр, зүлфүгарлылар** адлы тирәләри вар...

**Имамвердиләр - Имамверди Маһмудлу** обасынын улу бабаларындан бири олуб. Һејвандарлыгла мәшғул олан **Имамверди бәјин** Исмајыл, Һәшим, Казым, Имамгулу вә Тархан адлы оғуллары варды. Бу тајфаја **исмајыллы, микајыллы, һәшимли, аллаһверәнлиләр, һәсәнгулулар** адлы тирәләр дахилдир...

**Әләскәрлиләр - Әләскәр (1816-1886)** Маһмудлу обасынын улу бабасы Кәрбәлаји Маһмуд ағанын һејвандарлыгла мәшғул олан оғлу Намазын бөјүк оғлу иди. Намазын Әләскәрдән башга Әли, Абдулла вә Һәзрәтгулу адлы оғуллары да олуб. Кәрбәлаји Әләскәрин **Рәһим, Сәлим, Кәрим, Надир, Әмир, Әбил, Әбдул, Гоча, Мәти, Балоғлан** адлы оғланлары варды...

## ФИОЛЕТОВКА

Рајон мәркәзиндән 1 км гәрбдә, шәһәрин јухары гәрб һиссәсиндә јерләшән јашајыш мәнтәгәси **Фиолетовка** адланыр. Јашајыш мәнтәгәсинин ады бә'зи тарихи мәнбәләрдә **Гызылгышлаг** кими дә чәкилир. Фиолетовка әразисиндәки күчә Русијада ингилаби һәрәкат хадими, 1918-чи илин сентјабрында Бакы комиссарлары сырасында күлләләнмиш Иван Тимофејевич **Фиолетовун** (19.12.1883-20.09.1918) ады илә адландырылмышдыр. Һәмин јашајыш мәнтәгәсиндә XIX әср Русијанын мәркәзи губернијаларындан көчүрүлмүш рус аиләләри дә мәскән салмышлар.



## ФҮЗУЛИ РАЈОНУ




Азәрбајчанда инзибати рајон, 1930-чу илдә тәшкил едилиб. Саһәси 1386 кв. км (әслиндә 1392 кв. км-дир). Рајонда 1 шәһәр (Фүзули), 1 шәһәр типли гәсәбә (Һорадиз), 76 кәнд вардыр. Мәркәзи Фүзули шәһәридир. Рајон Гарабағ дағ силсиләсинин чәнуб-шәрг әтәкләриндә, Араз чајына гәдәр маили дүзәнлик вә алчаг дағлыг саһәләри әһатә едир. Чәбрајыл, Хочавәнд, Ағчабәди, Бејләган вә Араз чајы бојунча Иранла һәмсәрһәддир.

Рајонун (шәһәрин) илкин ады **Гарабулаг** (1827), **Молокан**, даһа сонралар чар полковники Карјакинин шәрәфинә **Карјакин** (Совет һакимијјәтинин илк илләриндә ингилабчы Б.Сәрдаровун сојады илә бир мүддәт **Сәрдар (Сәрдарабад)** да адланмышдыр), 1959-чу илин апрелиндән исә даһи Азәрбајчан шаири **Мәһәммәд Фүзулинин** шәрәфинә **Фүзули** (бу сөз әрәбчә "билики", "фәзиләтли" анламындадыр) олмушдур.

Ојконимләрин мүәјјән бир гисмини хатирә-мемориал характерли адлар тәшкил едир. Мемориал ојконимләр еллипсијаја аз мејллидирләр. **Фүзули рајону *(Фүзули шәһәри)*** ады да мемориал ојконимләрдән (даһи Азәрбајчан шаири **Мәһәммәд Фүзулинин** ады илә әлагәдар) һесаб олунур.

Рајонун әһалиси 140 мин нәфәрдир. Әһалинин орта сыхлығы 1 кв. км-ә 110 нәфәрдир. Ән ири јашајыш мәнтәгәләри Фүзули шәһәри, Һорадиз гәсәбәси, Бөјүк Бәһмәнли, Һорадиз (ишғал алтындадыр), Гачар (ишғал алтындадыр), Јухары Јағлывәнд (ишғал

алтындадыр), Ашағы Сејидәһмәдли кәндләридир. Бакыдан Фүзули шәһәринә олан мәсафә 311 км-дир.

**Чајлары:** Көндәләнчај, Гуручај, Гозлучај, Инчәчај, Чәрәкән чајы;

**Иглими:** мүлајим-исти, јарымсәһра вә гуручөл;

**Һејванлары:** охлу кирпи, довшан, гумсичаны, тарласичаны вә с.;

**Гушлары:** Турач, гырговул, кәклик, сығырчын, көјәрчин вә с.;

**Иллик јағынты:** 400-600 мм;

**Үзүмлүкләр:** 20 мин һектар;

**Суварылан торпаглар:** 25 мин һектар;

**Торпаг саһәләри:** боз, чәмән-боз, дағ-шабалыды, дағ боз-гәһвәји вә с.;

**Биткиси:** Әсасән јарымсәһра типлидир;

**Орта температур:** Јанварда 1 $^0$С, ијулда 27 $^0$С-дир.

**Әсас кәнд тәсәррүфаты саһәләри:** үзүмчүлүк, һејвандарлыг, барамачылыг, гушчулуг, тахылчылыг.

**Һүндүрлүјү:** дәниз сәвијјәсиндән 400-1200 м.

Рајон мәркәзинин 14 километрлијиндә Азых мағарасындан тапылан, археолокија елминин наилијјәти сајылан Азыхантроп **Фүзули рајону** әразисиндә вахтилә гәдим палеолит дөврүнүн мөвчудлуғуну ашкарлады. Гаракөпәктәпәдә, Гарабулаг курганларында, Күнәштәпәдә, Гуручај вә Көндәләнчај саһилләриндә апарылан газынты-тәдгигат ишләри бу әразиләрдә мин илләр бундан әввәл гәдим тајфаларын јашадығындан хәбәр верир. Рајон әразисиндә Тағлар мағара дүшәркәси (Палеолит дөврү), илк тунч дөврүнә аид Күлтәпә, Күнәштәпә, Мејнәтәпә, Гаракөпәктәпә, Узунтәпә, Шомулутәпә, Хантәпә, Балалар тәпә, тунч дөврү абидәләриндән Гарабулаг курганлары, Зәркәртәпә, Шәкәрчик јашајыш јери вә башгаларыны нүмунә көстәрмәк олар...

Рајонда тикинти трести, 6 нәглијјат тәшкилаты, дәмир-бетон мәмулаты вә јағ-пендир заводлары, бир нечә үзүм е'малы мүәссисәси, тохучулуг фабрики, даш карханасы, тахыл мәһсуллары комбинаты, Бакы тәчрүбә заводунун филиалы, Дөвләт Кәнд Тәсәррүфаты Истеһсал-Техники Тәминат Комитәсинин рајон шө'бәси, бөјүк енержи күчүнә малик електрик шәбәкәси, су анбары, автобаза, мүхтәлиф тикинти идарәләри, һамамлар, базарлар, универмаг, универсам, чөрәк заводу, меһманхана, бир нечә машын тә'мири сех-





ләри, чохлу сајда булаглар, чохсајлы автомобил јоллары шәбәкәси, 76 үмумтәһсил мәктәби, 30 мәктәбәгәдәр мүәссисә, 2 техники пешә мәктәби, 700 чарпајылыг 14 хәстәхана, вәрәм вә дәри-зөһрәви хәстәликләри диспансери, 31 фелдшер-мама мәнтәгәси, санитарија-епидемиоложи стансијасы, 21 мәдәнијјәт еви, 70 китабхана, 46 клуб, 17 киногурғу, 2 музеј, Дөвләт Драм Театры, Халг Театры, шаһмат мәктәби, бир нечә мусиги мәктәбләри, Кәнд Көнүллү Идман Чәмијјәти, 2 мин јерлик стадион, мәдәнијјәт-истираһәт паркы вә с. вардыр.

Рајонун илкин ады **Гарабулаг** олуб. **Гарабулаг** јашајыш мәнтәгәси өз адыны вахтилә бурада чыхан чохлу сајда тәбии булагларын адындан алмышдыр. Истанбулун Башбаканлыг архивиндә сахланан 930 сајлы "Кәнчә Гарабағ әјаләтинин мүфәссәл" дәфтәри адланан тарихи сәнәддә индики Фүзули шәһәринин ады "Дизаг наһијәсинә табе олан **Гарабулаг гышлағы"** кими гејд олунмушдур. 1886-чы илдә Тифлисдә тәртиб едилмиш архив сәнәдләриндә **Гарабулаг** вә әтраф кәндләр һаггында гијмәтли тарихи мә'луматлар вар. Һәмин чәдвәлдә Гарабулагда 45 аиләнин (104 киши, 109 гадын) јашадығы көстәрилир.

Азәрбајчанын ме'марлыг абидәләри сијаһысыны бәзәјән

Әһмәдалылар (Арғалы) түрбәси (XIII әсрин сону), Бабы түрбәси (1272-чи ил), Мирәли түрбәси (XIII әср), Һачы Гијасәддин мәсчиди (1682-чи ил), Карвансарај (1684-чү ил), Гочәһмәдли мәсчиди (XVIII әср), Һачы Әләкбәр мәсчиди (XIX әср), Мәшәди Һәбиб һамамы (XIX әсрин сону), Мердинлидә дашдан јонулан ат вә гоч фигурлары (XVIII-XIX әсрләр) вә с. **Фүзули рајону** әразисиндәдир.

Бу күн 350 нәфәрдән чох Фүзулинин алим зијалысы республикамызда вә онун һүдудларындан кәнарда елми-педагожи фәалијјәтләрини давам етдирирләр. Фүзули торпағы АМЕА-нын 10 һәгиги вә мүхбир үзвүнү, 95 профессор, 250 нәфәрдән чох досент вә елмләр намизәди јетишдирмишдир. Фүзули рајону ејни заманда дүнја шөһрәтли сијаси хадимләрин, мәдәнијјәт хадимләринин, идманчыларын, һәрбчиләрин дә јурдудур.

Мәлум һадисәләрлә әлагәдар 1988-чи илдән 1994-чү ил атәшкәс дөврүнә гәдәр Фүзули рајонунун әһалиси республикада Ағдамдан сонра ән чох шәһид верән рајондур. Рајонун үмумијјәтлә, 1100 шәһид вә иткини (8 Милли Гәһрәманы), 113 кирову, 1450 нәфәр мүхтәлиф дәрәчәли әлили вар.

**23 август 1993**-чү илдә Фүзули торпагларынын бөјүк бир һиссәси ермәниләр тәрәфиндән ишғал олунду. Сонралар атәшкәсә гәдәр 15 кәнд вә Һорадиз гәсәбәси ишғалдан азад олунуб.

Һазырда Фүзулинин **51 кәнди** вә рајон мәркәзи ермәни тапдағы алтында зилләт чәкир. **60 мин** нәфәрә јахын фүзулили мәмләкәтимизин 60 рајонунда әзаблы көчкүн өмрү јашајыр...

Тарихдән мә'лумдур ки, Азәрбајчанын ән гәдим сакинләри **Фүзули рајону** әразисиндә Гуручај вадисиндә јашамышлар...

**Фүзули рајону** Азәрбајчанын чәнуб-гәрбиндә, Көндәлән, Гуручај вә Гозлучај вадиләриндә, дағәтәји әразидә јерләшир. Тарих сүбут едир ки, Фүзули рајонунун әразиси ән гәдим инсан мәскәнләриндән биридир. **Гуручај мәдәнијјәти, Азых мағарасы (Азыхантроп), Гаракөпәктәпә, Күлтәпә, Мејнәтәпә, Јумуртатәпә, Гарабағ курганлары...** фикримизин бариз нүмунәләридир. Тарихин сонракы гатларында мис вә тунч дөврләриндә дә бу әразиләрдә инсанларын јашамалары илә бағлы кифајәт гәдәр мә'луматлар вардыр. Гәдим вә орта әсрләрдә бу әразиләрдә мәскән салмыш адамларын мәшғулијјәти әсасән һејвандарлыг, әкинчилик вә бағчылыг иди...

Сон орта әсрләр вә даһа сонракы онилликләрдә рајон әразисиндә јашајан әһали һагтында мүхтәлиф мәзмунлу сәнәдләрдә мә'луматлар верилмишдир. 1593-чү илдә Гарабағ әјаләтинин "ичмал дәфтәри"ндә, даһа сонра 1727-чи ил тарихдә "Кәнчә-Гарабағ әјаләтинин мүфәссәл дәфтәри"ндә дә бу әразиләрлә бағлы хејли мә'лумат вардыр. Әразидәки обалар 1823, 1842, 1848, 1849, 1853, 1863, 1873, 1886-чы илләрдә дөвләт тәрәфиндән сијаһыја алынмышдыр.

1892-чи илдә Гафгаз чанишинлији әһалинин дәгиг сијаһысыны апармыш, индики рајону әразисиндә 16 кәнд даирәси вә онларын табелијиндәки 55 јашајыш мәнтәгәсинин адларыны вә әһалисинин тәркибини, сајыны (19.009) көстәрмишдир:

**1. Һорадиз кәнд даирәси.**

Һорадиз кәнди - 417 киши, 344 гадын;

Дөрдчинар кәнди - 47 киши, 40 гадын;

**2. Гараколлу кәнд даирәси.**

Гараколлу кәди - 321 киши, 208 гадын;

Күзләк кәнди - 110 киши, 73 гадын;

Гарадағлы кәнди - 108 киши, 95 гадын;

Коразыллы кәнди - 156 киши, 118 гадын;

Молла Вәли кәнди - 34 киши, 20 гадын;

Мусабәјли кәнди - 38 киши, 35 гадын;

Пирәһмәдли кәнди 198 киши, 134 гадын;

Рәфәдинли кәнди - 168 киши, 100 гадын;

Сарачыг кәнди - 124 киши, 101 гадын;

Хатынбулаг кәнди - 110 киши, 83 гадын;

**3. Шыхылы кәнд даирәси.**

Шыхылы (Шыхлы) кәнди - 82 киши, 61 гадын;

Ајбасанлы кәнди - 201 киши, 107 гадын;

Дилағарда кәнди - 452 киши, 330 гадын;

Горган кәнди - 32 киши, 24 гадын;

Кечәкөзлү кәнди - 147 киши, 97 гадын;

Маһмудлу-2 кәнди - 240 киши, 190 гадын;

Мирзәчамаллы кәнди - 248 киши, 174 гадын;

**4. Јағлывәнд кәнд даирәси.**

Јағлывәнд кәнди - 578 киши, 465 гадын;

**5. Арғалы кәнд даирәси.**

Арајатлы кәнди - 157 киши, 90 гадын;

Әһмәдалылар кәнди - 64 киши, 57 гадын;
Газахлар кәнди - 85 киши, 62 гадын;
Мирзәнағылы кәнди - 63 киши, 52 гадын;
Молламәһәррәмли кәнди - 103 киши, 86 гадын;

**6. Әбдүррәһманлы кәнд даирәси.**

Әбдүррәһманлы кәнди - 341 киши, 237 гадын;
Сејидәһмәдли кәнди - 172 киши, 119 гадын;

**7. Алханлы кәнд даирәси.**

Алханлы кәнди - 294 киши, 234 гадын;
Күрдмаһмудлу кәнди - 327 киши, 237 гадын;

**8. Бәһмәнли кәнд даирәси.**

Бабы кәнди - 95 киши, 85 гадын;
Бөјүк Бәһмәнли кәнди 394 киши, 334 гадын;
Бала Бәһмәнли кәнди - 123 киши, 110 гадын;

**9. Дөвләтјарлы кәнд даирәси.**

Дөвләтјарлы кәнди - 234 киши, 147 гадын;

**10. Зәркар кәнд даирәси.**

Зәркар кәнди - 353 киши, 255 гадын;

**11. Гарабулаг кәнд даирәси.**

Гарабулаг шәһәри - 904 киши, 909 гадын;

**12.Гараханбәјли кәнд даирәси.**

Гараханбәјли кәнди -250 киши, 226 гадын;
Гәрбәнд кәнди - 149 киши, 125 гадын;
Мердинли кәнди - 75 киши, 54 гадын
Сејидмаһмудлу кәнди 145 киши, 92 гадын;
Јәһјабәјли кәнди - 19 киши, 18 гадын;

**13. Гарғабазар кәнд даирәси.**

Гарғабазар кәнди - 230 киши, 131 гадын;
Дәдәли кәнди - 76 киши, 72 гадын;
Чуварлы кәнди - 84 киши, 66 гадын;
Ишыглы кәнди - 94 киши, 75 гадын;
Хәләфшә кәнди - 62 киши, 47 гадын;
Гочәһмәдли кәнди 282 киши, 210 гадын;
Мандылы кәнди - 30 киши, 21 гадын;
Јал Пирәһмәдли кәнди - 107 киши, 85 гадын;

**14. Кәримбәјли кәнд даирәси.**

Кәримбәјли кәнди - 358 киши, 308 гадын;



**15. Гачар кәнд даирәси.**

Гачар кәнди - 231 киши, 176 гадын;
Диваналлар кәнди 69 киши, 57 гадын;
Ковшад кәнди - 156 киши, 139 гадын;
Һоға кәнди - 190 киши, 176 гадын;

**16. Шаһсевән кәнд даирәси.**

Шаһсевән кәнди 465 киши, 271 гадын;
Әмирсејидли кәнди - 93 киши, 81 гадын;

**1918-чи илдә** - К.Кипиани Гарјакин гәзасына комиссар тәјин едилдикдән сонра тичарәт, мәдәни-маариф вә кәнд тәсәррүфаты саһәсиндә чанланма јаранды. Мајын 28-дә Азәрбајчан Халг Чүмһуријјәти өз истиглалијјәтини бәјан етди. Османлы ордусу Бакыны инкилисләрдән вә ермәниләрдән тәмизләди. Анчаг Азәрбајчан Демократик Республикасы тарих сәһнәсиндә чәми 23 ај јашады. 1920-чи илин апрелиндә Русијанын XI Гызыл ордусунун көмәклији илә АДР сүгут етди. Гарјакин әһалиси дә XI Гызыл Ордуја гаршы чыхды. Мүсаватчылар түрк забити Һәмид бәјин иштиракы илә Гарјакиндә кизли мүшавирә кечирдиләр. Бу әрәфдә вәзијјәт чох кәркин иди, ара гарышмышды. Ијулун 29-да Мәммәдхан Мәммәдханов ингилаб комитәсинин гәраркаһыны Гарјакиндән Гочәһмәдли кәндинә көчүрдү, чүнки Гочәһмәдли, Арыш, Моллавәли вә Хатынбулаг кәндләриндән башга бүтүн әтрафдакы јашајыш мәнтәгәләри XI Гызыл Орду әскәрләринин әлинә кечмишди.

Ингилаб Комитәсинин ихтијарында чәми 16 нәфәр силаһлы атлы варды. Тез ичлас кечириб һәрби гәраркаһ јаратдылар. Гәраркаһ үзвлүјүнә М.Мәммәдханов, Ә.Мәрданов, Ә.Гарајев, Ш.Давыдов, С.Киројев, В.Левкопуло, Г.Кафитијев сечилдиләр. 8 августда XI Гызыл Ордунун командanлығы Гочәһмәдли чамаатына 2 күнлүк мүддәти олан һәдәләјичи ултиматум көндәрди. Кәнд чамааты тәслим олмады. Дүшмән кәнди јандырды. Ә.Мәммәдов, Д.Ханкишијев, И.Ағакишијев, Ибраһим вә Искәндәр Хәлил оғланлары һәбс едилди. Мәммәдхан исә 8 атлысы илә Әркүнәш дағы истигамәтинә, мешәләрә чәкилди... Бүтүн бу кими икиилик гаршыдурмалара, кәркинлијә бахмајараг Гарјакин әразиси тамамилә XI Гызыл Ордунун ихтијарына кечди вә беләликлә, болшевикләр там гәләбә чалдылар.

**1926-чы ил** сијаһыјаалынмасына көрә Гарјакин әразисиндә 13681, Гарјакин шәһәриндә исә 4803 (чәми 18564) нәфәр јаша-

мышдыр. 1927-чи илин нојабрында "Гырмызы Октјабр" колхозу (илк сәдр Васили Сутрими) јарадылды. 1929-чу илдә Гарјакиндә 4 колхоз - "Гырмызы Октјабр", "Сабир" (Бөјүк Бәһмәнли кәнди), "Енкелс" (Сејидәһмәдли кәнди), "Шәфәг" (Вејсәлли кәнди) вә 6 артел вар иди. Онларын сајы кетдикчә артмаға башлады...

**1 март 1929-чу ил тарихдә** Азәрбајҹан Халг Комиссарлары Совети гарғабазарлы мәтин ингилабчы Бүнјад Сәрдаровун фаҹиәли вәфатынын 10 иллији илә әлагәдар олараг Гарјакин шәһәринә **Сәрдар** ады верди. Амма ССРИ Халг Комиссарлары Советинин тәзјиги илә Азәрбајҹан ССР ХКС 1931-чи илдә өз әввәлки гәрарыны ләғв едиб **Сәрдар** ады әвәзинә **Гарјакин** адыны бәрпа етди...

**1933-чү илдә** рајонда артыг 39 колхоз вар иди. Ики ил сонра 1935-чи илдә онларын сајы 56-ја чатды. 1934-чү илдә республикада биринчи олараг памбыг планыны әмәксевәр Гарјакин рајон колхозчулары јеринә јетирди. 1936-чы илдә күндә 250 килограм әл илә памбыг јығдығына көрә Шамама Рзајева Азәрбајҹан ССР Баш Советинә депутат сечилди.

Сонракы репрессија илләри Фүзули рајонундан да јан кечмәди. Рајонун јүзләрлә зијалы сакини, әмәкчиси мәшһур "тројка"нын гурбанына чеврилди. Јүзләрлә аиләләр Газахыстан вә дикәр әразиләрә сүркүн олунду.

**25 јанвар 1939-чу илдә** Азәрбајҹан К(б)П-нын вә Республика Халг Комиссарлары Советинин биркә гәрары илә јени јаранан Жданов рајонунун табечилијинә Шаһсевән вә Әмирсејидли кәндләри илә бәрабәр, 5 №-ли колхоз да верилди.

**1940-чы илдә рајонда** 1 шәһәр, 14 кәнд совети вә 73 колхоз варды. Һәмин илдә дә бүтүн дөвләт планлары артыгламасы илә јеринә јетирилди. Сәнаје саһәсиндә дә јениликләр өзүнү көстәрирди. 1939-чу ил әһалинин Үмумиттифаг сијаһыја алынмасына көрә, Гарјакин рајонунда **41763** нәфәр, Гарјакин шәһәриндә исә **6234** нәфәр әһали јашамышдыр...

**1941-45-чи ил** Бөјүк Вәтән мүһарибәси ҹәбһәләриндә Фүзули рајонундан **3.492** нәфәр вурушду. Бу мүһарибәјә Фүзули шәһәриндән **361** нәфәр, Кәримбәјли кәнд советиндән **310** нәфәр, Сејидәһмәдли кәнд советиндән **309** нәфәр, Алханлы кәнд советиндән **296** нәфәр, Гачар кәнд советиндән **289** нәфәр, Пирәһмәдли кәнд советиндән **272** нәфәр, Бөјүк Бәһмәнли кәнд советиндән **264**



нәфәр, Вејсәлли кәнд советиндән **252** нәфәр, Гараханбәјли кәнд советиндән **235** нәфәр, Әбдүррәһманлы кәнд советиндән **213** нәфәр, Гараколлу кәнд советиндән **211** нәфәр, Гочәһмәдли кәнд советиндән **193** нәфәр, Дилағарда кәнд советиндән 144 нәфәр ҹәлб олунмушдур. Онларын **70%-и - 2714 нәфәр** (бәзән **2611** нәфәр дә јазырлар) кери дөнмәди. Мүһарибәдә шәрәфли дөјүш јолу кечиб кәнҹ нәслә нүмунә олан нечә-нечә фүзулили адыны тарих сәһифәләринә һәкк етдирди...

Мүһарибәдән сонракы бәрпа илләриндә мәдәни-маариф, сәнаје, сәһијјә, нәглијјат, тиҹарәт, тикинти саһәләриндәки гуруҹулуг јүксәлән хәтт үзрә инкишаф етди. 1946-чы илдә рајон мәдәнијјәт еви базасында Гарјакин рајон Дөвләт Драм Театры тәшкил олунду. Артыг һәр бир кәнддә мәдәнијјәт еви, клуб, китабхана әһалијә мәдәни хидмәт көстәрирди. Бакы-Нахчыван дәмир јолу үзәриндә олан вә гатарла кәлән јүкләри бошалтмаг ишини асанлашдырмаг үчүн 1948-чи илдә Һорадиз гәсәбәси тәшкил едилди. Елә һәмин илдә гәсәбәдә рајонлараарасы тахыл тәдарүкү комбинаты тикилиб истифадәјә верилди. Аз сонра гәсәбәдә памбыг заводу да тикилди.

**1947-50-чи илләрдә** памбыг вә тахыл истеһсалына көрә Гарјакин рајонунун 27 нәфәринә ССРИ Али Советинин Рәјасәт Һејәтинин фәрманлары илә јүксәк фәхри ад - Сосиалист Әмәји Гәһрәманы фәхри ады верилди. Бундан башга 461 нәфәр гарјакинли Ленин ордени, 607 нәфәр исә Гырмызы Әмәк Бајрағы орденинә лајиг көрүлдү. Бүтүн бу көстәрициләрә көрә рајон Азәрбајҹанда биринчилик газанды.

**1951-чи илин јанварында** ҮИК(б)П МК-нин вә ССРИ Назирләр Советинин "Коллектив тәсәррүфатларын ириләшдирилмәси" һаггындакы биркә гәрарына әсасән рајонда фәалијјәт көстәрән 73 колхоз 31 колхоз әтрафында бирләшдиләр.

**1951-52-чи илләрдә** рајонда 400 мүәллим, 9000-дән чох шакирд вар иди. Мәктәбләрдән 31-и ибтидаи, 19-у једдииллик, 16-сы там орта, 2-си фәһлә-кәнҹләр орта, 1-и гијаби орта, 14-ү кәндли-кәнҹләр орта мәктәби олмушдур. Бу илләр рајонда 1 мәркәзи китабхана, 9 клуб, 2 кинотеатр, 23 даими кино гурғусу, 2 сәјјар кино гурғусу, 1 мәдәнијјәт еви, 1 мүәллимләр еви, 13000 охуҹусу вә 151000 китаб фонду олан 19 кәнд китабханасы әһалијә хидмәт көстәрирди. Рајон әразисиндә хәстәханаларын сајы артыб 20-јә

чатды. Гарјакин шәһәриндә дәри-зөһрәви хәстәхана, ушаг хәстәханасы, көз хәстәханасы, вәрәм диспансери тәшкил олунду.

**1953-чү илдә** чөрәк заводу, бир ил сонра дәмир-бетон заводу, даһа бир ил сонра исә асфалт заводу јарадылды ки, бу да јени-јени тикинти идарәләринин, тәшкилатларынын артмасына кәтириб чыхарды.

**1958-чи илин апрел ајында** Азәрбајҹан ССР Али Советинин Рәјасәт Һејәти даһи шаиримиз Мәһәммәд Фүзулинин вәфатынын 400 иллији илә әлагәдар олараг Гарјакин рајонуна вә шәһәринә онун адынын верилмәси илә бағлы фәрман верди.

**31 ијул 1969-чу ил тарихдә** Азәрбајҹан ССР Назирләр Совети "Фүзули шәһәринин јенидән гурулмасы һаггында" гәрар гәбул етди. Шәһәрдә Иншаатчылар гәсәбәси салынды, јени инзибати вә јашајыш бинаалары тикилди, јени үслубда аеропорт, рајонлорарасы орта интернат мәктәби, 600 јерлик мәдәнијјәт сарајы, 2 асфалт заводу, јени гуручулуг фабрики, һамам бинасы вә с. әһалинин истифадәсинә верилди.

**1970-чи илин јанвар ајында** кечирилән әһалинин Үмумиттифаг сијаһыја алынмасы тәдбириндә ајдын олду ки, Фүзули рајонунда 97931, Фүзули шәһәриндә исә 14316 нәфәр әһали јашајыр (ишғал әрәфәсиндә рајон әһалисинин сајы 110 миндән чох иди).

**1979-чу илдә** Көндәлән чајы үзәриндә су һөвзәси тикилди. Бу, рајонун Көндәлән чајы боју кәндләрини, онларын әкин саһәләрини су илә тә'мин едирди.

Сонракы илләрдә Фүзули рајону Азәрбајҹанын ән бөјүк үзүмчүлүк рајонларындан биринә чеврилди. Кетдикҹә игтисадијјаты күчләнән рајон 1993-чү илдә хаин ермәни гоншуларымыз тәрәфиндән ишғал едилди...



## ФҮЗУЛИ ШӘҺӘРИ

Гарабағ силсиләсинин әтәјиндә, Көндәләнчајын сағ саһилиндә, маили дүзәнликдә ејниадлы инзибати рајонун мәркәзи. Гәдим ады **Гарабулагдыр** (1827-чи ил). XIX әсрин 30-чу илләринин әввәлиндә чар һөкумәтинин көчүрмә сијасәти нәтиҹәсиндә мәркәзи губернијалардан көчүрүлән молоканлар Зәнкәзур гәзасынын Базарчај кәндиндә јерләшсәләр дә, чәјирткә онларын мәһсулларыны тәләф етдији үчүн сонралар онлар күтләви шәкилдә Гарабулаг кәнди әразисиндә мәскунлашмышдылар. Бундан сонра јашајыш мәнтәгәси бир мүддәт **Молокан** адландырылды.



1905-чи илдә јашајыш мәнтәгәсинә XIX әсрин әввәлләриндә Русија-Иран мүһарибәсинин иштиракчысы, чар ордусу полковники Карјакинин **(Гарјакин)** ады верилмишдир. Совет һакимијјәти илләриндә рајон (еләчә дә шәһәр) бир мүддәт ингилабчы Бүнјад Сәрдаровун шәрәфинә **Сәрдар** да адландырылмышдыр. Аз сонра рајона (еләчә дә шәһәрә) јенә **Гарјакин** ады верилмишдир. 1959-чу илдә (апрел ајында) рајонун **Карјакин** ады дәјишдириләрәк, она даһи шаир Мәһәммәд Фүзулинин (1494-1556) шәрәфинә **Фүзули** ады верилмишдир.

Шәһәрин әһалисинин сајы 28 мин нәфәрдир. Шәһәрдә техники пешә вә бир нечә үмумтәһсил мәктәбләри, мәркәзи рајон хәстәханасы, вәрәм вә дәри-зөһрәви хәстәликләри диспансери, ушаг хәстәханасы, санитарија-епидемиоложи стансијасы, мүәллимләр еви, ики мәдәнијјәт еви, Дөвләт Драм Театры, Халг театры, тарих музеји, Шаһмат мәктәби, мусиги мәктәбләри, үч нәглијјат



мүәссисәси, тикинти тресли, дәмир-бетон мәмулаты заводу, даш карханасы, 5 һамам, 2 су анбары, тикинти идарәләри, чөрәк заводу, булаглар, кәһризләр, артезианлар, универмаг, универсам, базар, меһманхана, машын тә'мири сехләри, тичарәт вә мәишәт објектләри, М.Фүзули вә С.Вурғун парклары, тохучулуг фабрики, күтләви китабхана, јај вә гыш кинотеатрлары, ики мин тамашачы јери тутан стадион, мәдәнијјәт вә истираһәт паркы, мәсчид (XIX әср), он мин илләр јашы олан Гаракөпәктәпә, бир чох ме'марлыг абидәләри вә с. вардыр.

**23 август 1993-чү ил** тарихдә күнорта вахты ермәни һәрби бирләшмәләри **Фүзули** шәһәринин ишғалыны баша чатдырдылар...

## ХАЛДАШ

**Халдаш** орографик објекти Јағлывәнд кәнди илә Дөвләтјарлы кәндинин арасындакы әразидә гејдә алыныб. Оронум **хал** вә **даш** компонентләриндән ибарәтдир. Әразидәки бу дашын **халлы** олмасы илә әлагәдар олараг топоним белә ад алмышдыр.

## ХАН КӘҺРИЗИ

Һорадиз кәнди әразисиндә гејдә алынан һидронимләрдән бири **Хан кәһризи** адланыр. **Кәһриз** - грунт суларыны топлајыб јер сәтһинә чыхармаг үчүн јералты гурғудур.Кәһризләр пешәкар канканлар тәрәфиндән газылыр. XX әсрин орталарында Азәрбајчанда



900-дән чох адлы **кәһриз** олмушдур. **Хан кәһризи** топоними **хан** вә **кәһриз** сөзләриндән ибарәт олуб, "хана мәхсус олан кәһриз" мә'насындадыр.

## ХАНТӘПӘ

Фүзули шәһәринин чәнуб-шәргиндә е.ә. V-II минилликләрә аид чохтәбәгәли јашајыш јери. **Тәпә** даирәви формалыдыр. Һүндүрлүјү 8-10 метрдир. Газынты вә тәдгигат ишләри заманы бурадан енеолит илк вә тунч дөврләринә аид кил мәмулаты вә даш аләтләр тапылмышдыр. Енеолит дөврүнә аид мәдәни тәбәгәдән (5 метр галынлығында) кил габ гырыглары, даш аләтләр (бычагвари лөвһәләр, мүхтәлиф гәлпәләр, дән дашлары, һәвәнкдәстә, сүрткәч вә с.) ашкар едилмишдир. Хантәпәнин кил мәмулаты ичәрисиндә үзәриндә од вә һис изи галмыш јуварлаг формалы боз рәнкли габ (бутә) дигтәти чәлб едир. Мәһз, бу габ Загафгазијада ән гәдим метал тапынтыдыр.

Тәдгигатлар көстәрир ки, **Хантәпәдә** Күнәштәпәдә олдуғу кими, е.ә. V-II минилликләрдә отураг әкинчи-малдар тајфалары јашамышлар. Топоним **хан** вә **тәпә** сөзләриндән ибарәт олуб, *"Ханын тәпәси"* мә'насындадыр. Титул билдирән **хан** компонентинә **тәпә** термини бирләшәрәк ***Хантәпә*** оронимини јаратмышдыр.

## ХАТЫНБУЛАГ КӘНДИ

**Хатынбулаг кәнди** рајон мәркәзиндән 15 км чәнубда, Гарабағ силсиләсинин әтәјиндә јерләшир. Әһалиси әсасән үзүмчүлүк, тахылчылыг, һејвандарлыг, барамачылыгла мәшғул олур. Кәнддә мәктәб, клуб, китабхана вә с. вар. Кәнд һазырда ишғал алтындадыр...

**Хатынбулаг** ојконими **Хатын** вә **булаг** сөзләринин бирләшмәсиндән әмәлә кәлиб, *"Хатын булағы"* мә'насыны әкс етдирир. Бу Јашајыш мәнтәгәси өз адыны **булаг** апелјативиндән алмышдыр. Бу топоним тәркибиндә *булаг* сөзү олан һидронимләрдән адыны алан оронимдир...

1727-чи илә аид "Кәнчә-Гарабағ әјаләтинин мүфәссәл дәфтәри" тарихи сәнәдиндә **Хатынбулаг** кәндинин дә ады чәкилир.

**Булаг** сөзү илә бағлы Азәрбајҹан әразисиндә дикәр оронимләр дә вардыр: **Гызылбулаг дәрәси** (Гах рајону, Зәрнә кәнди), **Гоча-булаг дағы** (Шәмкир рајону), **Корбулаг дәрәси** (Масаллы рајону, Әркиван кәнди), **Гарабулаг дәрәси** (Шәки рајону) вә с.

## ХӘЗӘЗ ДАҒЫ

(Бах: **Хәзәр дағы**)

## ХӘЗӘР ДАҒЫ

Рајон мәркәзиндән 15 км шималда, Гачар кәнди јахынлығында јерләшән дағ. Һүндүрлүјү 816 метрдир. Дағын ады түркдилли **Хәзәр** тајфаларынын ады илә бағлыдыр. Хәзәрләрин Ҹәнуби Гафгазда көрүнмәләри барәдә мүхтәлиф фикирләр вар. Онларын Азәрбајҹана ахыны I-III әсрләрдә даһа да күчләниб. II Шапурун (Сасани һөкмдары, 309-379) вә Хосров Әнуширәванын (531-579) дөврүндә он минләрлә хәзәр аиләси Азәрбајҹанда јерләшдирилди. Бә'зи мә'луматлара көрә көчәри түрк тајфасы олан **хәзәрләр** Азәрбајҹана е.ә. 193-ҹү илдә кәлибләр (Хоренски).

Албанија әразиси тез-тез Шимали Гафгазда јашајан хәзәрләрин һүҹумларына мә'руз галмышдыр. 965-ҹи илдә Кијев кнјазы Свјатослав Хәзәр ханлығына сон гојдугдан сонра **хәзәрләр** сијаси фәалијјәт мејданындан чыхдылар вә мүхтәлиф түрк халглары, о ҹүмләдән, азәрбајҹанлылара гајнајыб гарышдылар. Азәрбајҹанда мәскунлашан **Хәзәр тајфалары** әсасән малдарлыгла мәшғул олмушлар. Һәтта, бир чох дағларда, о ҹүмләдән, Фүзулидәки Хәзәр дағында да хәзәрләрин јајлаглары јерләшмишдир.

Бә'зи сәнәдләрдә оронимин ады **Хәзәз дағы (Хазәз дағы)** кими дә гејд олунмушдур. Јерли мә'лумата көрә, **дағ** орада битән **хәзәз** биткисинин ады илә адландырылыб. Гачар кәндинин 4 километрлијиндә олан бу әразидә дејиләнләрә көрә, вахтилә **Хәзәз (Хәзәз)** адлы јашајыш мәнтәгәси дә мөвҹуд иди. Көрүнүр, бу гәдим кәндин әһалиси тәхминән сон орта әсрләр дөнәминдә (бәлкә дә бир мүддәт сонра) мүәјјән бир тарихи шәраитлә әлагәдар олараг кәнди тәрк етмишдир.



**Хәзәр** етноними илә бағлы чохлу ојконим вә оронимләр вар: ***Хәзәрјурд*** (Ордубад рајону), ***Хәзәрдәрә дағы, Хәзәрзирвә, Хәзәрглук*** (Бабәк рајону), ***Хәзәр кәнди*** (Нефтчала рајону) ***Хәзәр-тәпә дағы*** (Лачын рајону, Гырмызы Күнеј кәнди), ***Хәзәрли кәнд*** (Хачмаз рајону), ***Хәзәр дәнизи*** вә с.

## ХӘЛӘФШӘ КӘНДИ

Рајон мәркәзиндән 6 км ҹәнуб-гәрбдә, дүзәнликдә јерләшән кәнд. Әһалиси тахылчылыг, һејвандарлыг вә үзүмчүлүклә мәшғул олур. Кәнддә мәктәб, клуб, китабхана, булаг (XIX әср) вә с. вар. Јашајыш мәнтәгәси ермәниләр тәрәфиндән ишғал олунуб.

Кәнди **Хәләф шаһ** адлы шәхс салдығына көрә кәндә дә онун ады верилмишдир. Азәрбајҹан дилиндә **"шаһ"** титул билдирән сөз илә шәхс ады олан **Хәләф** сөзү бирләшәрәк, **Хәләфшә** ојконимини әмәлә кәтирир. **"Һ"** сәси бурада дүшмүшдүр. Бә'зи еһтималлара көрә топоним XVIII әсрдә Гарабағ ханынын вәкили олмуш **Мирзә Хәләфин** ады илә әлагәдардыр. Кәндин адына **Хәләфшә** дә дејирләр.

XVIII әсрә (1727-ҹи ил) аид "Кәнҹә-Гарабағ әјаләтинин мүфәссәл дәфтәри"ндә кәндин ады **Хәлифәшаһлы** кими јазылмыш вә "Дәфтәр"дә һәдәнсә һәмин бәһс олунан дөнәмдә кәнддә һеч кимин јашамадығы гејд олунмушдур. **Хәләфшә (Хәләфшаһ)** ојконими дәрвиш Сәфәви ордени илә бағлыдыр...

## ХЫРДА-ПАРА ДИЗАГ МАҺАЛЫ

**Хырда-пара Дизаг маһалы** Фүзули, Ҹәбрајыл вә Хоҹавәнд рајонларынын әразисини әһатә едирди. **Хырда-пара** сөзү бә'зи сәнәдләрдә **Хырдапара** формасында да јазылыр. Маһалын инзибати мәркәзи әввәлләр бир мүддәт Пирәһмәдли (Фүзули рајонунда) кәнди олуб. Сонралар мәркәз Сарычалы кәнди олмушдур. Топонимин тәркибиндәки **хырда** сөзү "кичик" мә'насындадыр.

**Хырда-пара Дизаг маһалы** ашағыдакы кәндләри әһатә едирди: Маралјан, Сүлејманлы, Гујчаг, Дашкәсән, Гарачаллы, Гышлаг, Сирик, Чапанд, Ҹәфәрабад, Шәјбәј, Кархулу, Меһдили, Моллалы (Гарадәрә), Һоровлу, Нүзкәр, Чахырлы, Зүлфүгарлы, Балјанд, Сарыҹалы, Сәфәрша.

## ХОҸАЛЫ ДАҒЫ

Фүзули рајону әразисиндә дағ. Дағын ады **Хоҹалы** нәслинин ады илә бағлыдыр. Һәмин нәслә мәнсуб олан аиләләр көрүнүр, вахтилә бу әразиләрдә **дағын** әтәјиндә јашамышлар. **Дағ** ҹоғрафи термини мүсбәт релјеф формасы билдирир. **Хоҹалы** топоними илә бағлы чохлу ҹоғрафи адлар мөвҹуддур: **Хоҹалы чајы** (Хоҹавәнд рајону), ***Хоҹалы шәһәри, Хоҹалы кәнди*** (Салјан рајону)...

## ҺАВ ДӘРӘСИ

Кечәкөзлү кәнди әразисиндә гејдә алынан орографик објектләрдән бири **Һав дәрәси** адланыр. **Дәрә** ҹоғрафи термини мәнфи релјеф формасы ифадә едир; **-си** шәкилчиси мәнсубијјәт билдирир. **Һав** термини әрәб вә фарс дилләриндә ишләдилән **һәвадар** сөзүнүн тәһриф олунмуш формасыдыр. **Һәвадар** сөзү ***"тәрәфдар", "тәрәф сахлајан", "көмәк едән", "һәвадар"*** анламындадыр. Јерли мә'лумата көрә, XIX әсрдә Кечәкөзлү кәндиндән олан Ҹаваншир әсилли Һачы Гасым адлы варлы, хејирхаһ бир инсан тез-тез бу дәрәдә јығышан адамлара **һәвадар** дурар, әл тутар, көмәк едәрмиш. Сонралар елә һәмин **дәрә** дә кәнд ҹамааты арасында бунунла әлагәдар олараг тысача **Һав дәрәси** адландырылмышдыр...

Оронимин мә'насына башга призмадан да јанашанлар вар. **Һав** - *"гызышмыш", "һирсли"* вә с. анламлара да уjғун кәлир...



## ҺАРАМЫ ДҮЗҮ

Фүзули рајонунда бөјүк бир саһәни әһатә едән әрази **Һарамы дүзү** адланыр. Көрүндүјү кими, топоним 2 сөздән ибарәтдир. Дүз ҹоғрафи термини мәнфи релјеф формасы ифадә едир. Оронимијада ениши, јохушу, тәпәси, чухуру олмајан, үмуми фондан чох да кәнара чыхмајан һамар релјеф сәтһинә дүз дејилир. **Һарамы дүзү** һаггында мүхтәлиф рәвајәтләр данышылыр...

Оронимин тәркибиндәки **һарам** сөзү әрәбҹә *"гадаган едилмиш", "јасаг олунмуш", "тохунулмаз", "һарам мала әл узадан", "јолкәсән", "гулдур", "гачаг", "сојғунчу"* мә'наларындадыр. Әрази вахтилә бу дүзләрдә мәскән салмыш гачаг-гулдурлара (Азәрбајҹанын бә'зи зоналарында онлар **һарамы** адланыр) көрә белә адландырылмышдыр. Бә'зи арашдырычылар исә оронимин тәркибиндә олан **һарамы** сөзүнү Иран дилләриндәки **һор/һар** (*"исти"*) компоненти илә әлагәләндирир. Амма бир һәгигәт дә вар ки, бу јерләр хүсусилә јај ајларында чох исти олур.

Шамахы рајону әразисиндә, Удулу кәндинин ҹәнуб-гәрбиндә **Һарамы дағы,** Губа рајону әразисиндә Гудјал чајынын саһилиндә јерләшән **Һарамтала дағы** топонимләри дә бу гәбилдән олан ҹоғрафи адлардандыр...

## ҺАЧА КӘДИК

Фүзули рајонунда јүксәклик. **Һачакәдик** оронимн **"һача"** вә **"кәдик"** компонентләриндән ибарәтдир. **Кәдик** - *"дағ белиндә ашырым, һүндүр дағарасы јол"* мә'насындадыр. Түрк дилләриндә **кәдик** сөзү **"дағ кечиди"** мә'насыны ифадә едир. Кәдијин **һача** формалы олмасындан бу ороним јаранмышдыр.

Кәдәбәјдә *Һачагаја дағы,* Газахда *Һачадағ јүксәклији, Һачагала дағы,* Гусарда *Һачадағ јүксәклији, Һачагала кәнди* бу гәбилдән олан топонимләрдәндир...

## ҺАЧЫ БАЈРАМ КӘҺРИЗИ

Гочәһмәдли кәнди әразисиндә гејдә алынан орографик објектләрдән бири **Һачы Бајрам кәһризи** адланыр. **Кәһриз** XIX әсрдә **Һачы Бајрам** адлы шәхс тәрәфиндән инша едилмишдир. Топоним **"Һачы Бајрама мәхсус олан кәһриз"** мә’насындадыр. Кәһризин сујундан мәишәтдә вә тәсәррүфатда кениш истифадә олунурду. **Һачы Бајрам кәһризи** Фүзули рајонунун өлкә әһәмијјәтли дашынмаз тарих вә мәдәнијјәт абидәләри сијаһысындадыр...

## ҺАЧЫ ӘЛӘКБӘР МӘСЧИДИ

**Һачы Әләкбәр мәсчиди** Фүзули шәһәринин мәркәзиндә јерләшир. Дејиләнләрә көрә бу мәсчиди дөврүнүн варлы вә нүфузлу шәхсијјәти сајылан **Һачы Әләкбәр бәј** инша етдирмишдир. **Мәсчид** 1889-чу илдә мәшһур ме’мар Кәрбәлаји Сәфихан Гарабағи тәрәфиндән тикилмишдир. Мәсчидин план гурулушу квадрат шәкиллидир. Порталы гејри-симметрикдир ки, бу да гадынлар үчүн нәзәрдә тутулмуш 2-чи мәртәбәдәки шүшәбәндин вә онун алт тәрәфиндәки 1-чи мәртәбәдәки көмәкчи отағын бөјүк көтүрүлмәси илә әлагәдардыр. Баш фасаддакы пљастырлар үзәриндә дөрдбучаглы һәндәси фигурлар вар.



*Füzuli şəhəri. Hacı Ələkbər məscidi.*

Мәсчидин әсас кириши баш фасадı ағ фонда јерләшдирилмиш охвары чатма тағлы портал тәрәфдәдир. Мәсчидин интерјери елә ишләнмишдир ки, јајын чырһачыр истисиндә белә бураја дахил олан һәр бир кәс сәринлијин шаһиди олур. Ибадәт залынын 9 әдәд тағ-таванынын мәркәздә гојулмуш 4 әдәд сәккизбучаглы сүтун сахлајыр. Онлар өз дүзүлүшү илә ибадәт залыны 3 нефә ајырыр. Залдакы охвары тағбәндләр күнбәзләрлә ејни конструктив мөвге дашыјыр. Умумијјәтлә, **Һачы Әләкбәр мәсчиди** јүксәк интеллект, мәһарәт вә исте’дадын мәһсулудур...



## ҺАЧЫ СӘФӘР БУЛАҒЫ

Гачар кәнди әразисиндә гејдә алынан һидронимләрдән бири **Һачы Сәфәр булағы** адланыр. Һидроним **Һачы Сәфәр** шәхс адындан вә **булаг** һидронимик апелјативиндән ибарәтдир. Топоним *"Һачы Сәфәрә мәхсус олан булаг"* анламындадыр. Бу булағын көз јашы кими дуру, шәффаф вә бумбуз сојуг сују варды...

## ҺАЧЫЛЫ СТАНСИЈАСЫ

**Һачылы стансијасы кәнди** рајон мәркәзиндән 44 км. чәнуб-шәргдә, дүзәнликдә јерләшир. Әһалиси үзүмчүлүк, һејвандарлыг вә тахылчылыгла мәшғул олур. Јашајыш мәнтәгәсиндә мәктәб, клуб, китабхана, дәмирјол стансијасы вә с. вар. Кәнд ермәни ишғалындан азад едилмишдир.

Јашајыш мәнтәгәси **зүлгәдәр** гызылбаш тајфасынын **һачылы** тирәсинин бурада мәскунлашмасы нәтиҹәсиндә јаранмышдыр. Түркдилли тајфа олан **һачылылар** Гарагојунлу дөвләтинин сијаси һәјатында јахындан иштирак етмишләр. Гарагојунлуларын субетнонимi олан һачылылар гызылбаш тајфалары илә да гајнајыб гарышмышлар...

XVIII әсрин икинҹи јарысында шаһсевән Мәммәд ханын башчылығы илә Әрдәбил әјаләтиндән Губа ханлығына көчән сәккиз Азәрбајҹан тајфасы арасында **һачылылар** да вар иди.

**Һачылы** ојконими **Һачылы (һачыәлили)** чамаатынын ады илә бағлыдыр. **Һачылы чамааты** Чаваншир-Дизаг маһалында гәрар тутмуш мүһүм обалардан ибарәт олуб. **Һачылы чамааты** *Ајбасанлы, Горган, Јаглывәнд, Кечәкөзлү, Маһмудлу, Һүсејнбәјли, Әләскәрли, Мирзәчамаллы, Сарылар, Сејидәһмәдли, Чомәрдли, Шыхылы* обаларынын әһалисиндән ибарәтдир. **Һачылыларын** јашадығы Чаваншир-Дизаг маһалында әсасән диван (хәзинә) вә ичма торпаг мүлкијјәт формасы мөвчуд иди. Бурада јашајан обаларын әксәријјәти Чаваншир сојлу олдуғу үчүн ханлыг дөнәминдә һеч бир верки өдәмирдиләр. Рус үсул-идарәси дөнәминдә **Һачылы** чамааты верки өдәјәнләр чәркәсинә гошулду. Бу ичмадан олан бәјләр исә бүтүн верки вә мүкәлләфијјәтләрдән азад идиләр. Тәкчә Шәриф бәјдән верки алынырды.

Һачылы ҹамаатынын гышлаг торпаг саһәләри әсасән, Алагарғуда вә Арасбарлы әразиләриндә иди. 1823-ҹү илдә Рус һәрби командалығы вә Гафгаз ҹанишинлији илә биркә һазырланмыш "статистик тәсвир"дә Ҹаваншир-Дизаг маһалында јашајан **һачылылар** һаггында мә'лумат вардыр.

1832-ҹи илдә бүтүн Гафгазда сијаһыјаалынма кечирилсә дә Гарабағда бу, **һачылы** елинин нүмајәндәси Мирзә Ҹамал бәј тәрәфиндән гәсдән бир гәдәр ләнкидилди. Мирзә Ҹамал бәјин комендантa тәсир етмәк күҹү вар иди. О әјаләтин бәјләринә мәсләһәт (тапшырыг) етмишди ки, лазыми ајдынлашма алмајынҹа сијаһылары мә'мурлара вермәсинләр. **Һачылы** ҹамаатынын үмуми сајы һаггында ханлыг дөнәминдә кечирилән сијаһыјаалынмалар әлимиздә олмадығы үчүн XVIII әсрин II јарысында апарылан камерал сијаһылар әсас тутулур.

**Һачылы кәнди** Шамахы вә Ҹәбрајыл рајонларында да мөвҹуддур.

## ҺАЧЫМИРЗӘҺУСЕЈНЛИ ТҮРБӘСИ

Алханлы кәнди әразисиндә гејдә алынан ҹоғрафи адлардан бири **Һачымирзәһүсејнли түрбәси** адланыр. **Һачы Мирзә Һүсејн** XIX әсрдә јашамыш дөврүнүн тәһсил көрмүш зијалысы олмушдур. О, Нәкәридән Гарадонлуја гәдәр олан әразинин газысы вәзифәсиндә чалышмышдыр. **Һачы Мирзә Һүсејн** әсасән һејвандарлыгла мәшғул олмуш, мүгәддәс Мәккәји-мүкәррәмә зијарәт етмишдир. Дөврүнүн адлы-санлы, сајылыб-сечилән адамларындан олан **Һачы Мирзә Һүсејн** вәфат едәндә кәнддәки гәбиристанлыгда дәфн олунмуш, мәзары үзәриндә **түрбә** инша едилмишдир...

## ҺЕЈДӘР ГУЗЕЈИ

Фүзули рајонунда јерләшән **Һејдәр гузеји** ҹоғрафи ады **Һејдәр** антротопоними вә **гузеј** мүсбәт релјеф формаларыны билдирән терминдән дүзәлмиш оронимдир. Азәрбајҹанда чохлу сајда белә ороним мөвҹуддур: Најыб гузеји (Губа рајону), Әһмәд күнеји (Гәбәлә рајону), Сәмәд гајасы (Ағсу рајону), Солтанмурад јохушу (Зәнкилан рајону), Меһди көбәри (Ағдаш рајону) вә с.



## ҺӘЗИ ОҸАҒЫ ДАҒЫ (ОҸАГЛЫ ДАҒЫ)

Гачар кәнди јахынлығында, рајон мәркәзиндән 14 километр шимал-гәрбдә, Көндәләнчајын саһилиндән азаҹыг аралыда гејдә алынан орографик објектләрдән бири **Һәзи оҹағы дағы** (бәзән адына **Оҹаглы дағы** да дејилир) адланыр. **Дағ-** мүсбәт релјеф формасы билдирән ҹоғрафи терминдир. Азәрбајҹанда 1400-дән чох дағ ады гејдијјата алыныб.

**Оҹаг** - Азәрбајҹанда һәмишә мүгәддәс тапынаг јери кими әһали тәрәфиндән әзиз тутулур. **Һәзи оҹағы дағы** да мүгәддәс јер һесаб олунур. **Һәзи** - шәхс адыдыр. **Һәзи оҹағы дағы** топоними антропонимик оронимдир. **Һәзи оҹағы** дағынын јахынлығында **Һәзи чөкәји** ороними дә гејдә алыныб...

## ҺӘЗИ ЧӨКӘЈИ

**Һәзи чөкәји** рајон мәркәзиндән 13 км шимал-гәрбдә, Көндәләнчајын саһилиндә, Гачар кәндиндә јерләшир. Бу ороним **Һәзи** антропоними илә **чөкәк** мәнфи релјеф формалары билдирән терминдән дүзәлиб. Белә топонимләрә мисал оларaг ашағыдакылары нүмунә көстәрмәк олар: Ибад чөкәји (Тәртәр рајону), Искәндәр чаласы (Јевлах рајону), Иззәт чухуру (Масаллы рајону), Солтан чаласы (Салјан рајону) вә с.

## ҺӘШТАФӘР БУЛАҒЫ

**Һәштафәр булағы** Гачар кәнди јахынлығында, кәндән 13 километр мәсафәдә јерләшир. Һидрогими мүхтәлиф призмадан изаһ едирләр. **Һәшт** - фарс дилиндә "сәккиз" демәкдир. **Фәр** сөзүнүн *"бурма сач"*, *"гачагач"*, *"гол-будаг"*, *"шө'бә"*, *"әһәмијјәти олмајан" "хүласә"*, *"фаиз, сәләм"*, *"кәлир, артым"* вә с. анламлары вар. Һидронимин изаһы илә бағлы чохлу фикир вә мүлаһизәләр вардыр...

## ҺӘШТӘФӘР ДҮЗҮ

**Һәштәфәр дүзү** орографик објекти Фүзули рајонунун Гачар кәнди әразисиндә гејдә алыныб. Әслиндә бу оронимин ады **Һачы Сәфәр дүзү** кими јазылмалыдыр. Јерли әһалинин шивәсиндә бу чоғрафи ад беләә "тарихиләшмишдир". Ороним патронимик топонимдир.

Тарихи мә'лумата көрә, XVIII әсрдә Аға Мәһәммәд Шаһ Гачар Гарабаға (Шушаја) һүчум едәркән бурада чадыр гурдурмуш, тәлим-мәшг кечмишдир. Дејиләнләрә көрә, Гачарын нәши (табуту) Ирана бу јерләрдә кечиләрәк апарылмышдыр...

## ҺОҒА КӘНДИ

(Бах: **Үчбулаг кәнди**)

## ҺОРАДИЗ ГӘСӘБӘСИ

Рајон мәркәзиндән 29 км чәнуб-шәргдә, дүзәнликдә јерләшән шәһәр типли гәсәбә, Әһалиси 6 мин нәфәрдән чохдур. **Гәсәбә** ермәниләр тәрәфиндән 1993-чү илдә зәбт олунса да, бир нечә ајдан сонра кери гатарылды. Гәсәбәдә орта вә сәккизиллик мәктәбләр, клуб, китабхана, хәстәхана, ушаг бағчасы, доғум еви, дәмир јол стансијасы, лимонад сехи, тахыл мәһсуллары комбинаты, үзүм гәбулу базасы, кәнд тәсәррүфаты техникасы тә'мири мүәссисәси, мәдәнијјәт вә истираһәт паркы, Бакы тәчрүбә-сынаг заводунун јерли филиалы вә башга мүәссисәләр вардыр...

Бу јашајыш мәнтәгәсинин ады ирандилли топонимләрдәндир: (**"Орадиз"**). **Һорадиз** топониминин мә'насы илә бағлы (бах: **Һорадиз кәнди**).



## ҺОРАДИЗ КӘНДИ

**Һорадиз кәнди** рајон мәркәзиндән 18 км чәнуб-шәргдә, дүзәнлик әразидә јерләшир. Әһалиси 3 мин нәфәрә јахындыр. Әһали әсасән үзүмчүлүк, һејвандарлыг, тахылчылыг вә барамачылыгла мәшғул олур. Кәнддә мәктәб, китабхана, хәстәхана, 2 мәсчид, 2 мәишәт еви, 2 дәјирман, 2 китабхана, 900 шакирдлик орта мәктәб, 25 чарпајылыг хәстәхана, 500 нәфәрлик мәдәнијјәт еви, аптек, клуб, киногурғу, ушаг бағчасы, доғум еви, амбулаторија, һамам, Бөјүк Вәтән мүһарибәсиндә һәлак оланларын хатирәсинә учалдылмыш абидә, парк, стадион, чохлу кәһриз, XIX әсрдә инша олунмуш мәсчид, көрпү, бир нечә булаг, 4 буфет-чајхана, 4 мағаза вә с. варды. Мәһсулдар вә мүнбит торпағы олан кәндин әразисиндән ики чај ахыр: **Гозлучај, Дәли чај.**

**Һорадиз кәнди** 1993-чү илдә ермәниләр тәрәфиндән ишғал олунуб...

Јашајыш мәнтәгәсинин әразисиндә **Имам булағы, Гурдлу булаг, Көлбағ булағы, Мәрчан булағы, Бурға булағы, Ибә булағы, Тешнәк булағы, Хан кәһризи, Намазалы кәһризи, Дөрдчинар кәһризи, Тәпә кәһризи, Рзалылар кәһризи, Мухтар кәһризи, Күнеј кәһризи, Гоздиби кәһризи** вардыр. Кәнд әразисиндә **Ағылдәрә, Гөнчә, Шорча, Гушотуран, Ләлә јери, Тешнәк, Тахта көрпү, Аслан дәрәси, Кардаш, Дөрдчинар бағы, Бабынову** вә с. кими јер адлары гејдә алынмышдыр.

**Һорадиз кәнди** шималдан Мусабәјли кәнди, чәнубдан Әһмәдалылар кәнди, гәрбдән Чәбрајыл рајонунун Нүзкәр кәнди вә шәргдән Ашағы Әбдүррәһманлы кәнди илә һәмсәрһәддир. Кәнддә **јадикарлылар, намазалылар, ағаллар, абышлылар, фәрзалыушағылар, имамгулулар, ибишлиләр, топпузлулар, дәлләкликләр, шаһверәнләр, әмиргулулар, меһдилиләр, иманлылар, рзалылар, тәмирасльлар, нәчәфлиләр, начахлылар, мәммәдчәфәрлиләр, мәшәдиһүсејнлиләр, мәшәдиһүмбәтлиләр, мирзәмурадлылар, гурбанлылар, меһдилиушағы, һачыағаушағы, кәрбәлајиләр, исмајыллылар, һүнкүтлүләр, казымлылар, сағгызлылар, дөрдчинарлылар** вә башга тајфалар јашамышдыр. Кәндин **Һүнкүтлү, Дөрдчинар, Намазалылар, Рзалылар, Кәлбә Исмајыллылар, Әмиргулулар, Шаһверәнләр, Јадикарлылар, Сағгызлы, Гараған тәпә, Аралыг јол, Орта Загун дәрәси, Казымлылар, Меһдилиләр, Нәчәфлиләр** адлы

мәһәлләләри олмушдур. **Һорадиз кәнди** узун мүддәт Аразгырағы зоналарда ири тичарәт мәркәзи кими дә танынмышдыр.

Сосиалист Әмәји Гәһрәманлары Һәмајыл Әһмәдова вә Мөсү Мәһәррәмов, Азәрбајчан ССР Али Советинин сабиг депутатлары Суруш Фәрһадова, Зејнәб Әлијева, Гурбан Намазәлијев бу кәнддәндирләр. Тарихән Һорадиз мүһитиндә тәрбијә, тәһсил алараг формалашмыш, танынмыш зијалылар, ичтимаи-сијаси, һәрби хадимләр, сонрадан мүхтәлиф өлкәләрдә елмә, тәһсилә јијәләнмиш, Азәрбајчанын ичтимаи-сијаси, мәдәни һәјатында вә дөвләтчилијимизин инкишафында мүһүм рол ојнамышлар.

Үмумијјәтлә, Азәрбајчан енсиклопедијасында, тарихимизә, мәдәнијјәтимизә һәср олунмуш фундаментал монографијаларда, ајры-ајры тәдгигатчыларын арашдырмаларында Һорадиздән дөнә-дөнә бәһс олунмуш, онун вә онун јетишдирдији дәјәрли инсанларын һаггында мүәјјән јаддагалан дәјәрли фикирләр сөјләнмишдир. **Һорадиз кәнди** 32 нәфәр профессор, елмләр доктору вә елмләр намизәди јетирмишдир.

Азәрбајчанын халг артисти, көркәмли ханәндә Сејид Шушински, әмәкдар инчәсәнәт хадими, "Бәнөвшә" ушаг хорунун бәдии рәһбәри, бәстәкар Әфсәр Чаванширов, кечмиш мәдәнијјәт назири Закир Бағыров, танынмыш рәссамлар Бајрәмәли Хәләфов, Кәрим Гулијев, Азәрбајчан Республикасынын сабиг Мүдафиә назири, генерал-мајор Тачәддин Меһдијев, танынмыш һәрби һәкимләр – полковникләр Чәлал Әмиров, Һәсән Намазәлијев вә нечә-нечә көркәмли шәхсијјәтләр Һорадиз кәндинин оғулларыдыр. Гарабағ мүһарибәсиндә Һорадиз кәндиндән 33 нәфәр шәһид олмуш, 7 нәфәр киров дүшмүш, 18 нәфәр мүхтәлиф бәдән хәсарәти алараг II вә III груп әлилә чеврилмишдир...

1727-чи илә аид олан "Кәнчә-Гарабағ әјаләтинин мүфәссәл дәфтәри" адлы тарихи сәнәддә Дизаг наһијәсинә табе олан кәндләр сырасында Һорадиз ("Дәфтәр"дә кәндин ады **Һорәдис** шәклиндә јазылыб) кәндинин дә ады гејд олунмушдур...

**Һорадиз** сөзү ирандилли сөз олуб **һор** (*"од, күнәш, ишыг"*) вә **диз** ("гала") сөзләриндән ибарәтдир. Орта әср дөврү мүәллифләринин (Ибн әл-Әсир, Гүтбәддин Ширази, Шиһабәддин Сүһрәверди) әсәрләриндә **һор** сөзү *"од", "Күнәш", "ишыг" мә'насында, диз (дизә) компоненти исә "гала" анламында ишләдилмишдир.* Бу мә'нада **Һорадиз** топоними *"Күнәш галасы"* анламына ујғун кәлир.



Араз чајынын һәр ики саһилиндә тәркибиндә **һор, хор** компоненти олан јер адлары чохдур: **Һорадиз, Һоранд, Һоровлу, Әһәр, Хурама** вә с.

**Һорадиз** топоними **һор (оура)** компонентиндән вә вахтилә Азәрбајчан дилиндә *"истеһкам", "гала", "кәнд", "мөһкәмләндирилмиш шәһәр"* мә'наларында ишләдилмиш Иран мәншәли **дизә** сөзләриндән ибарәтдир. **Һорадиз** сөзүнү **Орадиз, Орадүз, Гарадүз, Һордүз** вә с. јозумларла да әлагәләндирәнләр вар. Бә'зиләри ојкононими **гара** ("бөјүк") вә **дүз** компонентләринә ајырыр (*С.Хәләфов: Һорадиз топоними һаггында мүлаһизә... Азәрбајчан ономастикасы проблемләринә һәср олунмуш III елми-нәзәри конфрансын материаллары, Бакы, 1990, с.131.*)

Вахтилә Ирәван губернијасынын Шәрур-Дәрәләјәз гәзасында да **Һорадиз** адлы кәнд олуб. 1727-чи илә аид мәнбәдә һәмин кәндин ады **Һорадүз** кими чәкилир. 1968-чи илдә кәнд ермәниләр тәрәфиндән **Орадиз** адландырылмышдыр...

**Һорадиз** сөзүнүн мүхтәлиф вариантларыны изаһ едән мүтәхәссисләр вардыр. **Һорадиз** топониминин дүзкүн изаһы фарс дилиндәки **оура** (*"гала"*) вә **дизә** (*"мәскән", "јурд", "гала"* мә'насында) сөзләриндән ибарәт олуб, *"гала кәнд"* мә'насындадыр.

Бә'зи тәдгигатчылар топоними **һор** компоненти илә әлагәләндирирләр; **һор** талыш дилиндә *"мал сахламаг үчүн тәкнә"* мә'насындадыр.

Һорадизли шаир Вүгар Закироғлу өз кәндләрини ше'р дили илә белә вәсф едир:

***Јовшан әтри вурурму?***
***Гушлар јува гурурму?***
***Кәндин кәнарындакы***
***О "Тәк агач" дурурму?***

***Һәр обанын вар дашы,***
***Елчи дашы, јар дашы.***
***Елими хәбәр алыб,***
***Диндирәјдим "Кар даш"ы.***

***Салам, салам "Көл баг"ым,***
***Чичәк багым, кул багым.***

*Гурбәтдә дән кәзирәм,*
*Әтрафы сунбул багым.*

*Синәси дәрд чинарым,*
*Мәрд елим, мәрд чинарым,*
*Көлкәндә кимләр јатыр, -*
*А мәним "Дөрд чинар"ым?*

*Думаным вар, чәним вар,*
*Талејимә гәним вар,*
*Кимләрә субут един, -*
*Мәним дә вәтәним вар?*

*Сејидин ели јанды,*
*Багларын кулу јанды.*
*"Хан Кәһриз" дејә-дејә,*
*Нечә севкили јанды.*

*Миндијим ат јоргады,*
*Чибләрим говургадыр,*
*Сур кедәк кәндә тәрәф,*
*Гаршымызда "Бурга"дыр...*

*Кун әриди, кун ахды,*
*Кун наләди, кун аһды.*
*Ону данмаг кунаһды,*
*Бура човгун, бура буз,*
*Ора чәмән, ора дуз,*
*Көј узундә Аллаһды,*
*Јер узундә Һорадиз!*
*Јер узундә Һорадиз!..*

Иранда азәрбајчанлылар јашајан әразиләрдә **Һор** адлы дүз дә мөвчуддур. **Һор** компоненти илә бағлы Јардымлы рајонунда **Һоравар, Һорону** кәндләри, Шамахыда **Һорадил дағ силсиләси,** Чәбрајылда **Һоровлу кәнди** вә с. вардыр. Фузули рајонунда **Һорадиз** адлы гәсәбә дә вардыр...



## ҺҮНКҮТЛҮ КӘНДИ

Фузули рајонунда, Гозлучајын сол саһилиндә, дағәтәји маили дүзәнликдә јерләшән кәнд. Әһалиси үзүмчүлүк, тахылчылыг вә һејвандарлыгла мәшғул олур.

**Һүнкүтлү** топониминин түрк-монгол мәншәли **һун,** ја да **онгут** тајфасынын ады илә әлагәдар олдуғу еһтимал едилир. Чох күман ки, јашајыш мәнтәгәси монгол ишғалы дөврүндә јараныб. XIII әср мәнбәләриндә (Ф.Рәшидәддин) монголлар арасында **онгут** тајфасынын ады да чәкилиб. Һәмин дөврдә Азәрбајчанда хејли түрк-монгол мәншәли тајфалар мәскунлашыблар.

Бу етоним өзбәкләр вә гырғызлар арасында да кениш јајылмышдыр. Етнотопоним **"Һунларын кәнди"** вә ја **"онгутларын кәнди"** мә'насындадыр.

Бу топоним бә'зән **"Күнчүт"** сөзү илә изаһ едилир. **"Күнкүт"** монгол мәншәли сөздүр, монгол ишғалларындан иштирак едән түркдилли тајфаларынын биринин ады илә **кинкит (күнкүт)** олмушдур. **"Күнкут"** гәдим түрк дилләриндә ишләнән **күнк** сөзүндән олуб, *"сахсы габ, бору дүзәлдән"* мә'насындадыр. Орографик објект адларынын *"күнкүт"* јазылыш варианты **кингит** етнониминин фонетик шәклидир.

Азәрбајчанда бу топонимлә бағлы Исмајыллы вә Шәки рајонлары әразисиндә *Күнкүт дағы, Күнкүт чајы, Ашағы Күнкүт кәнди, Күнкүт дәрәси, Күнкүт јарғаны,* Көјчај рајонунда *Үнкүтлү кәнди* вә с. мөвчуддур.

Чәнуби Азәрбајчанда, Муғанда *Һункүт* маһалы дејилән әјаләт дә вар.

## ҺҮСЕЈНБӘЈЛИ КӘНДИ

**Һүсејнбәјли кәнди** Фузули рајонунда, рајон мәркәзиндән 7 километр мәсафәдә, Гарабағ силсиләси әтәкләриндә, дүзәник әразидә јерләшир. Әһалиси әсасән, үзүмчүлүк, тахылчылыг вә һејвандарлыгла мәшғул олур. **Һүсејнбәјли** јашајыш мәнтәгәси дә мә'лум һадисәләрлә әлагәдар, 1993-чү илин августунда ерменилләр тәрәфиндән зәбт едилмишдир...

Бә'зи мә'луматлара көрә, бу јашајыш мәнтәгәси XIX әсрдә **Һүсејн** адлы бир бәјә мәхсус гышлаг јериндә әсасән малдарлыгла мәшғул олан аиләләрин мәскунлашмасы нәтичәсиндә јаранан кәндләрдәндир. Башга бир мә'лумата көрә јашајыш мәнтәгәсини вахтилә **Һүсејн бәј** адлы шәхс вә онун өвладлары, гоһумлары салдығына көрә о, белә адландырылмышдыр. **Һүсејнбәјлиләр** Һачылы чамаатынын **Маһмудлу** обасындандыр.

Тарихи мәнбәләрдән ајдын олур ки, **Һүсејнбәјли** тајфалары **Чаваншир** елинин **Һачылы** ичмасына дахилдир. Һүсејнбәјлиләр **маһмудлуларын** бир голудур. Зәннимчә, һүсејнбәјлиләрин **Һүсејн бәј** төрәмәләри кими XVIII әсрдә Ирандан кәлмәләри фикри јанлышдыр...

Бәрдә рајонунда да **Һүсејнбәјли** адлы кәнд вардыр. Вахтилә Ирәван губернијасынын Новобајазид гәзасында **Һүсејнбәјли** адлы кәнд мөвчуд олмушдур.

## ЧАЛА МӘҺЛӘ

**Чала мәһлә** чоғрафи ады Јухары Әбдүррәһманлы кәнди әразисиндә гејдә алыныб. Ороним һәмин **мәһләнин** (мәһәлләнин) јахындакы дикәр **мәһәлләләрә** нисбәтән ашағыда - **чалада** јерләшдији үчүн белә ад алмышдыр. Топоним "*чөкәкликдә јерләшән мәһлә*" мә'насындадыр...

## ЧАЛДАҒ

Фүзули рајонунда, Дилағарда кәнди әразисиндә гејдә алынан дағ **Чалдағ** адланыр. **Чалдағ** оронимп **чал** (бурада "боз рәнк" мә'насында) вә **дағ** компонентләриндән ибарәт олуб, "**боз дағ**" демәкдир. Дағ һәгигәтән боз рәнкли сүхурлардан тәшкил олунмушдур. Оронимләрдә **чал** сөзү бә'зән әламәт билдирир. **Чалдағ** оронпминдә **чал** сөзү дағын әһәнк мәншәли олдуғуна көрә **чал** рәнкә чалмасыны билдирир.

Рәнк билдирән **чал** сөзүндән вә мүсбәт релјеф формаларыны билдирән терминләрдән јаранан оронимләрә **Чалгаја** (Лачын вә



Кәлбәчәр рајонлары), **Чалдағ** (Товуз рајону), **Чалтәпә** (Дашкәсән вә Хочавәнд рајонлары), **Чалбурун кәнди** (Кәдәбәј рајону), **Чалкүнеј** (Кәдәбәј рајону), **Чалдаш дағы** (Оғуз рајону), **Чалбајыр дағы** (Лачын рајону) вә башгаларыны мисал көстәрмәк олар.

## ЧӘМӘН (ЧИМӘН) КӘНДИ

**Чәмән (Чимән) кәнди** рајон мәркәзиндән 4 км чәнуб-гәрбдә, Чуварлы инзибати әрази ваһидиндә, дағәтәји саһәдә јерләшир. Әһалиси һејвандарлыг, тахылчылыг, үзүмчүлүклә мәшғул олур. Кәндә мәктәб, клуб, китабхана вә с. вар. Јашајыш мәнтәгәси 1993-чү илдә ермәниләр тәрәфиндән ишғал олунуб.

Кәндин әсл ады **Чәмәндир.** Јашајыш мәнтәгәси чәмәнликдә - јашыл отларла өртүлмүш саһәләрдә салындығы үчүн белә адландырылмышдыр. Доғрудан да, кәнд вә онун әтрафы јашыл от саһәләри илә әһатә олунмушдур. Кәнд һазырда ишғал алтындадыр...

XVII әсрә аид олан бир мәнбәдә Шәрги Анадолуда **Чимән-Бел дағы**, XVIII әсрә аид олан башга бир мәнбәдә Ирәван әјаләтинин Дәрәчичәк маһалында **Чимән-Гут кәнди,** Ирәван губернијасынын Ирәван гәзасында **Чимән кәнди** (башга бир ады Ашағы Гарабағлар), Веди рајонунда **Чимәндәрә кәнди** вә с. бу кими адлар гејдә алынмышдыр.

1727-чи илә аид олан "Кәнчә-Гарабағ әјаләтинин мүфәссәл дәфтәри" адлы тарихи сәнәддә Дизаг наһијәсинә табе олан кәндләр сырасында **Чимән** кәндинин ады **Чимәнәк** шәклиндә јазылмышдыр.

## ЧӘРӘКӘН АРХЫ

Јухары Әбдүррәһманлы кәнди әразисиндә гејдә алынан һидронимләрдән бири **Чәрәкән архы** адланыр. **Арх** - сују мәнбәдән мүәјјән саһәјә ахытмаг үчүн даими вә мүвәггәти гурғудур. Су сәрфинин тәнзимләнмәси үчүн архларда һидроники гурғулар олур. Һидроним **Чәрәкән** адлы чајдан ахыдылдығына көрә белә адланмышдыр.

Әлавә мә'лумат үчүн бах: **Чәрәкән чајы.**

## ЧӘРӘКӘН ЧАЈЫ

Фүзули рајону әразисиндән ахан, узунлуғу 25 км олан чај. Һидронимин адыны мүхтәлиф изаһла јозанлар вар. Тарихдән мә'лумдур ки, орта әсрләрдә Анадолуда - **чәрәкли** адлы тајфа јашамышдыр. **Чәрәкли** ады мәншә етибары илә Сәлчуг оғузларынын Әфшар (Авшар) тајфасынын **Чериклу** голунун адынын фонетик формасыдыр. **Чәрәкән чајы**нын адыны бу тајфа ады илә бағламаг истәјәнләр вар. Һидронимин **Шәрикан** шәклиндә дә изаһыны вермәк олар...

Мә'лумдур ки, **-ан-ән** шәкилчиләри Азәрбајҹан дилиндә ҹәмлик ифадә едир. Күман етмәк олар ки, чај **чәрә** адланан әразидән ахдығы үчүн һәмин саһәнин ады илә дә адландырылмышдыр, **к** һәрфи араја дахил олмуш битишдиричи самитдир. **Чәрә (чөрә)** сөзү әски түрк дилиндә "өрүш", "отлаг јери" анламына да ујғун кәлир. **Чәрәк** сөзү фарс дилиндә "дөрддә бир", "батманын дөрддә бири", "јара" мә'наларындадыр. **Чәр** сөзүнүн "азар, хәстәлик" анламы да мә'лумдур. Гәдим түрк дилләриндә черик сөзүнүн һәрби дүшәркә мә'насында "гошун" анламы да вар.

XVIII-XIX әсрләрә аид олан тарихи гајнагларда Сајаг адланан әразидә Ҹәбрајыл елинин ојмагларындан бир олан **Чәрәкәнли** ојмағынын ады чәкилир. Һазырда Ҹәбрајыл рајонунда **Чәрәкән кәнди, Чәрәкән гајасы, Чәрәкән чајы** адлы ојконим, ороним вә һидроним вардыр...

## ЧОБАН ЈЕРИ

Вахтилә Аразбар гәзасында, Молла Фазилли ојмағында, индики Фүзули рајону әразисиндә гејдә алынмыш орографик објектләрдән бири дә **Чобан јери** ҹоғрафи адыдар. Ороним **чобан** вә **јер** сөзләриндән ибарәт олуб, *"чобана мәхсус јер"* мә'насындадыр...



## ЧАНГУЛУ ДАҒЫ

Фүзули рајону әразисиндә **даг.** Көндәләнчајын ашағы ахарындан сол тәрәфдәдир. Ел арасында бу јүксәклијә **Чангулутәпә** дә дејирләр. Ороним **Чангулу** шәхс ады илә әлагәдардыр. **Даг** мүсбәт релјеф формасы билдирән терминдир.

## ҸӘЛИЛ ТҮРБӘСИ

Гарғабазар вә Күрдләр кәндләри арасындакы гәдим гәбиристанлыгда гејдә алынан бир тарихи абидә **Ҹәлил түрбәси** адланыр. Тәпә үзәриндә тикилмиш бу абидәнин үмуми һүндүрлүјү 10 метрдир. План гурулушуна көрә **Ҹәлил түрбәси** сәккизкушәли түрбәләр сырасына дахилдир. Түрбәнин һәр тәрәфинин ени 2,3 м олмагла дивар галынлығы 1 метр олса да, бу өлчү кетдикҹә азалараг күнбәзин мәркәзиндә 21 см-ә чатыр.



**Ҹәлил түрбәсинин** көвдәси *"епоха"* адлы 22, х 22 х 4,5 см өлчүлү бишмиш кәрпичлә һөрүлүб. Көвдәни күмбәзиндән јүнкүл релјефли карниз ајырыр. **Ҹәлил түрбәси** үзәриндәки бәзәкләр Кәрбәлаји Сәфиханын тикдији минарә бәзәкләри илә охшарлыг тәшкил едир. **Ҹәлил түрбәси** дахилдән дә 8 бәрабәр тәрәфләрә бөлүнүр. Һәр тәрәф үзәриндә 21 см дәринликдә, 2,8 м һүндүрлүјүндә, ени 1 м олан нишалар ишләниб. **Түрбә** дахилдән 1 м галынлыглы әһәнк мәһлулу илә суваныб. Түрбәнин китабәсиндә милади 1889-90-ҹы (һиҹри 1307) илләрдә ме'мар Ибраһим Хәлил тәрәфиндән **Ҹәлил** адлы нүфузлу бир шәхс үчүн тикилдији гејд олунмушдур...

## ЧӘМИЛЛИ КӘНДИ

**Чәмилли кәнди** рајон мәркәзиндән 13 километр шимал-гәрбдә, Гарабағ силсиләсинин әтәјиндә, Көндәләнчајын саһилиндә јерләшир. Әһалиси һејвандарлыг, тахылчылыг вә үзүмчүлүклә мәшғул олур. Кәнддә мәктәб, клуб, китабхана вар. Кәнд ермәниләр тәрәфиндән ишғал олунуб...

**Чәмилли** сөзү антротопонимдир, јә'ни, шәхс адына көрә адландырылыб. Ојконимләрин чохунда **-ли** шәкилчили мәнсубијјәт әлагәси мүһүм чәһәт кими мөвчуддур. Топонимләрин тәһлили көстәрир ки, бу әлагә семантик әсас кими оронимләрә дә хасдыр. Белә ки, һәр һансы бир чоғрафи әразинин кечмишдә мүәјјән шәхсә мәнсуб олмасы тамамилә ганунауј̆ғун бир һалдыр. Мәнсублуг билдирән **-лы, -ли, -лу, -лү** шәкилчиләринин иштиракы илә рајон әразисиндә **47** ојконим вар: **Әләскәрли, Мирзәнағылы, Гараколлу, Кечәкөзлү** вә с.

Бә'зи мә'луматлара көрә (XIX әср архив сәнәдләриндә), **Чәмилли** аиләләринин бир гисми газах тајфаларынын тәркибинә дахилдир. Газах маһалындан XVIII-XIX әсрләрдә Гарабағa көчән тајфалар арасында **Чәмилли** аиләләри дә олмушлар: **Чәмилли кәнди** (Хочалы рајону), **Чәмилли кәнди** (Кәлбәчәр рајону), **Чәмилли кәнди** (Тәртәр рајону) вә с.

## ЧӘФӘР САДИГ БУЛАҒЫ

Гачар кәнди әразисиндә гејдә алынан һидронимләрдән бири **Чәфәр Садиг булағы** адланыр. **Чәфәр Садиг** (бәзән **Садыг** да јазылыр) булағы тә'мир етдириб тикдирән шәхсин адыдыр. **Булаг** термини исә һидронимик апелјативдир. Антропонимик һидроним олан **Чәфәр Садыг булағы** топоними *"Чәфәр Садыга мәхсус булаг"* анламындадыр. Бу тип топонимләрә Азәрбајчанын башга рајонларынын да әразиләриндә раст кәлирик...



## ЧИНГОБУ

**Чингобу** Фүзули шәһәриндә, рајон мәркәзинин 1 км шәргиндә, чөкәкликдә јерләшир. Јерли әһали бу әразијә, бурадакы бир нечә кучәјә "**Чингобу**" дејир. "**Гобу**" термини *"дәрә, чөкәклик, һәмишә су басан јер, арх"* мә'насындадыр. Бә'зи тәдгигатчылар оронимин орта әсрләрдә шималдан Загафгазијаја кәлмиш **чин** *(чен)* адлы түрк тајфасынын ады илә, бәзиләри исә мөвһуми мәхлугун адыны билдирән **чин** сөзү илә, бәзиләри әски түрк дилиндә релјеф билдирән ***чин*** форманты кими (*"сылдырым даг јарғаны"*) сөзү илә бағлајырлар.

Мә'лумдур ки, халг арасында әфсанәләрдә, көзәкөрүнмәз, амма һәјатда јашајан, халг инамына көрә куја, **чин** адландырылан мәхлуг мөвчуддур. **Чингобу** да көрүнүр, **чин** ады илә бағлы топонимдир. "**Чин**" компоненти Азәрбајчан мифолокијасынын тәркиб һиссәләриндән бири̇дир. Куја о, көзәкөрүнмәз, инсанабәнзәр бир варлыгдыр. Адам тәк оланда, горханда, тәһлүкә көзләјән бир анда вә с. заманларда куја чинләр, шејтанлар гәфләтән пејда олурлар. Һәтта ел арасында *"чин башыма вурду"* ифадәси дә вардыр. Чингобу әрази-мәһәлләләриндә јашајан әһали куја бу јерләрдә тез-тез *чин* - көзәкөрүнмәз мәхлугат көрүрләр. Тәбии ки, бунлар гарабасмадан башга бир шеј дејил...

Халг инамына көрә **әчиннә** вә ја **чин** көзәкөрүнмәз мәхлуг һесаб олунур. Куја онлара тохундугда вә јахуд зијан вердикдә инсаны ағыр зәрбә илә вурур. Бә'зи түркдилли халгларда, о чүмләдән, азәри түркләриндә чинләрин дишисинә **һал** да дејирләр. Фолклор нүмунәләримиздә чинләрин вә һал анасынын ән чох горхдуғу әшја ијнәдир. Тәсәввүрләрә көрә әкәр онларын үстүнә ијнә санчыларса, көзә көрүнәр вә инсана табе оларлар.

Үмумијјәтлә, **чин** компоненти илә бағлы Азәрбајчанда чохлу оронимләр вардыр: **Чиндағ** (Ордубад рајону), **Чиндар кәнди** (Губа рајону), **Чинли кәнди** (Ағдам рајону), **Чинли Болуслу кәнди** (Коранбој рајону) вә с.

Бә'зи тарихи мәнбәләрдән ајдын олур ки, орта әсрләрдә индики **Чингобу** дејилән јерин ады **Халач јурду** кими дә чәкилмишдир...

**Чин** сөзүнүн гәдим түрк дилләриндә *"гүввәтли"*, *"гүдрәтли"*, *"сылдырым даг јарғаны"*, *"һүндүр зирвә"* анламлары да вар.

Мәнбәләрдә **чин/чин** адлы гәдим түркдилли тајфа адына да раст кәлирик. **Чин (чинләр)** гәбиләси гәдим түркдилли печенег тајфасынын **кәнкәрли** тирәсинин бир голудур. **Чингобу** сөзүндәки **чин** компонентини гәдим түркдилли тајфа олан **чен/чин** тајфасы илә дә бағлајырлар. **Чен/чин** тајфалары печенегләрин кәнкәрли тирәсинә дахилдирләр.

VII әсрә аид мәнбәләрдә **чин (чен)** тајфасынын ады болгарларла бирликдә чәкилир. **Чинләри (ченләри) чинлиләрлә** дә әлагәләндирәнләр вар. К.Патканов **ченләри** Волга саһилләриндән көчән түркләр һесаб едир. Чинли тајфасынын башчысынын ады мә'хәзләрдә **Чин Бакур** кими чәкилир.

Еркән орта әсрләрдә **чинлиләр** әсасән Күр чајы саһилләриндә јашамышлар. Сонракы әсрләрдә дә онларын индики Борчалы әразиләриндә компакт јашамалары көстәрилир. XIII әсрә аид олан мәнбә **чин/чен** тајфаларынын III јүзилликдә Дарјал гапыларындан Күрчүстана кәләрәк Орбет галасында мәскунлашмасыны хәбәр верир; һәмин тарихи мәнбәјә көрә Орбелиани сојады да бу тајфа илә бағлыдыр. Габаглар **чинлиләр** адланан бу тајфа һазырда **Орбелиани** адландырылыр.

V әсрдә христианлығы гәбул етмиш **чинли** тајфасы һәм дә Ермәнистанда (Гәрби Азәрбајчанда) јашамышлар. III әсрдән та 745-чи илә гәдәр бүтүн ермәни гошун башчылары әсасән **чинлиләрдән** олмушлар. Онларын түркдилли олмалары инкаролунмаздыр. Онлар Чин Түркүстанындан көчүб бура кәлмишләр. Загафгазија әразиләриндә **чинли** тајфасы ады илә бағлы чохлу сајда топонимләр јајылмышдыр...

## ЧУВАРЛЫ КӘНДИ

Рајон мәркәзиндән 6 км чәнуб-гәрбдә, дағәтәји әразидә јерләшән кәнд. Әһалиси 400 нәфәрдир. Әһали тахылчылыг, үзүмчүлүк, һејвандарлыгла мәшғул олур. Кәнддә сәккизиллик мәктәб, клуб, китабхана, ушаг бағчасы, тибб мәнтәгәси вә с. вар. Көркәмли алим, академик Чинкиз Чуварлы бу кәнддәндир. Бу кәнддән тарихән чох көркәмли шәхсијјәтләр, алимләр, ичтимаи-сијаси хадимләр чыхмышлар. Кәнд 1993-чү илдә ермәни ишғалчылары тәрәфиндән зәбт олунуб...



Јашајыш мәнтәгәси өз адында Азәрбајчанын **чуварлы** тајфасынын гыпчаг дилләри групуна мәхсус олан **чув** јахуд **сув** (*су* сөзүнүн гәдим формасы) компоненти Азәрбајчан дилләриндә чохдан архаикләшмишдир. Әксәр тәдгигатчыларын фикринчә, ***чувар*** сөзү һәрфән ***"сучу"*** демәкдир. Доғрудан да, кечмиш заманларда Азәрбајчанда су бөлкүсүнә вә нөвбәсинә нәзарәт едән шәхсләрә ***"чувар"*** дејирдиләр.

1727-чи илә аид "Кәнчә-Гарабағ әјаләтинин мүфәссәл дәфтәри" тарихи сәнәдиндә – 466-чы сәһифәдә Дизаг наһијәсинә табе олан кәндләр сырасында **Чуварлы** кәндинин дә ады чәкилир.

Кәндин **магсудлулар, әлиханлар, мәһәммәдсәфиләр, шәрифләр, мәммәдлиләр, баһадурлар, јусифлиләр** вә с. адлы тајфа вә тирәләри вардыр...

**Чуварлы кәнди** гәдим тарихә малик олан јашајыш мәнтәгәләриндәдир. Тарихи сәнәдләрә көрә, Гарабағ ханы Ибраһимхәлил ханын гушчулары бурада јашајырдылар...

## ШАБАНДАҒ

**Шабандағ** - Фүзули рајону әразисиндә, Фүзули шәһәриндән 3 километр чәнубда јерләшән дағдыр. Еһтималлара көрә, бу ороним **Шабан** шәхс ады илә бағлыдыр...

## ШАҺ АББАС МӘСЧИДИ

Сәрдарлы кәндиндәки бу **мәсчид** башга әразиләрдә олан **Шаһ Аббас** мәсчидләри үслубунда тикилмишдир. Дејиләнләрә көрә, **мәсчид** XVI јүзиллијин сонларында Сәфәви һөкмдары **Шаһ Аббас** тәрәфиндән инша етдирилиб. **Шаһ Аббас** тәрәфиндән вә ја онун заманында тикилдији үчүн **мәсчид**ә белә ад верилмишдир...

## ШАҺБУДАГ КӘҺРИЗИ

Сарачыг кәнди әразисиндә гејдә алынан һидронимләрдән бири **Шаһбудаг кәһризи** адланыр. Јашы јүзилләри һаглајан бу кәһризин шәфалы, думдуру вә сојуг сују вар. **Кәһриз** - грунт суларыны топламаг вә јер сәтһинә чыхармаг үчүн јералты гурғудур. Кәһриз лағымлары бир-бири илә әсасән шагули гујулар васитәсилә бирләшдирилир. Кәһризләр пешәкар канканлар тәрәфиндән газылыр. Кәһризләрин сују тәмиз, дуру вә саф олур, ондан су тәчһизатында вә сувармада кениш истифадә едилир.

Азәрбајҹанда кәһриз системи е.ә. I әсрдән мөвҹуддур. XX әсрин орталарында Азәрбајҹанда 900-ә гәдәр **кәһриз** олуб. Топонимин **шаһбудаг** адланмасы илә бағлы мүхтәлиф фикир вә мүлаһизәләр сөјләнмәкдәдир...

## ШЕЈХ ИБРАҺИМ ТҮРБӘСИ

Ашағы Ајбасанлы кәнди әразисиндә гејдә алынан мараглы абидәләрдән бири дә үмуми һүндүрлүјү 6 метр олан **Шејх Ибраһим** түрбәсидир. **Шејх Ибраһим түрбәси** тәбии әһәнк дашы илә сәккизбучаглы шәклиндә инша едилиб. Түрбәнин күмбәзи бишмиш кәрпичләрдән һөрүлүбдүр. Күмбәзин үст һиссәси ағ рәнкли әлван метал тәбәгә илә сәлигәли шәкилдә үзләнмишдир.



**Шејх Ибраһим түрбәси** ел арасында **Ибә Ибраһим түрбәси** кими танныр. Түрбәнин кириш гапысында күнчләри чилаланмыш дашлардан истифадә едилмишдир. Кириш гапысынын һүндүрлүјү 150 см, ени исә 73 см-дир. Гапынын сол јухары күнчүндәки сал даш үзәринә ағач алтында ајаг үстә дурмуш гадын вә онун јанында исә ат шәкли һәкк олунмушдур. XIX әсрин икинчи јарысында түрбәјә зијарәт мәгсәдилә кәләнләр үчүн кириш гапысы тәрәфдән кичик дәһлиз дә тикилмишдир...

**Түрбә** 1632-1633-чү илләрдә (һичри 1042-чи ил) тикилмишдир. Китабәсиндә јарыпозулмуш шәкилдә *"Аллаһын Рәсулу Мәһәммәдә салам. 1042... Әвәзәли бин Әлимәрдан..."* сөзләри јазылыб. Еһтимал етмәк олар ки, Әвәзәли бу түрбәни тикән устанын адыдыр. Заһири көрүнүшчә сәккизбучаглы формада олмасына бахмајараг, түрбәнин дахили диварлары даирәви формада, һамар шәкилдә, әһәнк мәһлулу илә сuванмышдыр. Ишыгландырма үчүн беш тәрәфдә ејни сајда кичик өлчүлү (20 х 40см) пәнчәрә гојулмушдур.

**Шејхин** мәзары түрбәнин мәркәзиндә, дөшәмәдән 80 см һүндүрлүкдәдир. Мәзарын ашағы һиссәсиндәки даш парчасы үзәриндә әрәб графикасы илә *"Бисмиллаһ Иррәһман Иррәһим... 1302... Һүсејни Кәркәзи, Мәһәммәд, Фатимә, Әли, Һәсән, Һүсејн... әл-Мүзәффәр... Бәј ибн Шәриф бәј"*. Һәмин бу дашын гәбрин ашағы тәрәфинә башыашағы вәзијјәтдә гојулмасы чашғынлыг јарадыр. Һәм дә јазыда, көрүндүјү кими, **Ибраһим** ады јохдур. Күман етмәк олар ки, бу даш бураја сәһвән гојулмушдур...

## ШӘКӘРЧИК ЈАШАЈЫШ ЈЕРИ

Рајон әразисиндә гејдә алынан гәдим јашајыш јерләриндән бири **Шәкәрчик** јашајыш јеридир. Бу **јашајыш јери** рајон мәркәзиндән 2 километр шималда, **Шәкәрчик кәнди** әразисиндәдир. Елә бу сәбәбдән дә белә адланыр. **Шәкәрчик јашајыш јери** тунч дөврү абидәләриндән һесаб олунур. Бу тарихи абидә өлкә әһәмијјәтли дашынмаз тарих вә мәдәнијјәт абидәләри сијаһысындадыр...

## ШӘКӘРЧИК КӘНДИ

Рајон мәркәзинин 2 километрлијиндә, шәһәрин шимал-шәргиндә, дүзәнликдә јерләшән кәнд. Әһалиси 800 нәфәрдир. Кәнддә мәктәб, клуб, китабхана, ушаг бағчасы вә с. вар. **Шәкәрчик кәнди** 1993-чү ил августун 23-дә ерменилер тәрәфиндән ишғал олунуб...

Дејиләнләрә көрә бу кәнд вахтилә **Шәкәр** адлы варлы бир гадынын мүлкү, бостан јери олуб. XIX әсрин әввәлләриндә

гарабулаглы, дөвләтли бир киши бу јери пул илә ондан алыбдыр. О вахтдан һәмин әрази **Шәкәр ханымын бостаны, Шәкәрин јери** кими адландырылмышдыр. **“Шәкәр”** сөзүнә **“чик”** һиссәчијинин артырылмасы көрүнүр ки, әразинин кичик олмасы илә әлагәләндирилир.

**Шәкәрчик** әразисиндә тәдгигатлар заманы сүбут олунмушдур ки, бурада е.ә. I минилијин әввәлләриндә сон тунч дөврүнә аид јашајыш јерләри олуб. Археоложи ахтарыш вә кәшфијјат газынтысы заманы бу әразидән күпә, чам, чөлмәк, газан, хејрә вә с. кил габ гырыгларынын нүмунәләри ашкар олунмушдур ки, бунлар да әлдә вә дулус чархында һазырланмышдыр. Бурадан дәвәкөзү (обсидиан) гәлпәләри, дәндашы, дашы тохалар да ашкар едилмишдир. Габларын бәзисинин сәтһи сәлигә илә чилаланмыш, һамарланмыш, кәсмә нахышла бәзәдилмишдир. Тәдгигатлар буну демәјә әсас верир ки, гәдим дөврләрдә бу әразиләр отураг әкинчи-малдар тајфаларына мәхсус олмушдур.

1593-чү илә аид олан Османлы гајнағында **Шәкәр** мүлк, јурд, торпағынын ады кими чәкилир. Јашајыш мәнтәгәсинин әһалиси әсасән, **һачылылардан** ибарәт олмушдур. Бә’зи мәнбәләрдә **Шәкәрчик кәнди** јерләшән әразинин адына **Гаракөпәк** формасында да раст кәлирик.

Кәнд **Шәкәрчикләр** ады илә мәшһурдур. Кәндин адыны орта әсрләрдә Гарабағда јашамыш **чаваншир** тајфасына мәнсуб олан **шәкәрчикләр** тирәсинин ады илә бағлајан тәдгигатчылар да вардыр.

**Шәкәр** компоненти илә бағлы Салјан рајонунда **Шәкәрли кәнди,** Ағстафа рајонунда **Шәкәрли гәсәбәси,** Ләнкәран рајонунда **Шәкәрбағы кәнди,** Кәдәбәј рајонунда **Шәкәрбәј дағы** вә **кәнди,** Бабәк рајонунда **Шәкәрабад кәнди,** Көјчај вә Хочавәнд рајонларында **Шәкәр** кәндләри мөвчуддур...

## ШӘМСИ БУРНУ ВӘ ШӘМСИ ДӘРӘСИ

Азәрбајчан оронимијасында шәхс адларындан дүзәлмиш чохлу сајда чоғрафи адлар гејдә алынмышдыр. Белә оронимләрин чохусу микрооронимләрдир. Адәтән бу група дахил олан микрооронимләр әсасән мәнсубијјәт билдирән сонлугларла битир. Бу тип оронимләрә Фүзули рајону әразисиндә гејдә алынан **Шәмси бурну** вә **Шәмси дәрәси** антропонимик оронимләрини дә нүмунә көстәрмәк олар.

**Шәмси бурну** орографик објекти Фүзули бөлкәсинин Јухары Јағлывәнд кәнди јахынлығында, Кирс дағынын әтәјиндә гејдә алыныб. **Бурун** - гурунун, дағын, гајанын сиври бучаг шәклиндә дүзүнә тәрәф узанмыш һиссәси, чыхынтысыдыр. Топонимијада **бурун** термини илә бағлы 400-ә гәдәр ороним гејдә алыныб. Топонимин тәркибиндәки **Шәмси** сөзү XVIII әсрдә Чаваншир елинин Јағлывәнд ојмағында јашамыш **Шәмси бәј** адлы үнлү бир ағанын ады илә бағлыдыр.

Јухары Јағлывәнд кәнди әразисиндә гејдә алынмыш **Шәмси дәрәси** орографик објекти дә XVIII јүзилдә јашамыш һәмин **Шәмси бәјин** ады илә әлагәдардыр. Оронимин тәркибиндәки **-си** шәкилчиси мәнсублуг ифадә едир, **дәрә** сөзү мәнфи релјеф формасы ифадә едиб, релјефин **дар, чөкәк** формасыны билдирир...

## ШӘҺИДЛӘРИН ХАТИРӘ КОМПЛЕКСИ



Гарабағ мүһарибәсиндә Фүзули рајону шәһидләринин хатирәсинә учалдылмыш абидә белә адланыр. **Шәһидләрин хатирә комплекси** рајонда јарадылмыш ианә фонду һесабына тикилмишдир. Абидәнин лајиһәсинин мүәллифи танынмыш алим-ме’мар, һәмјерлимиз Ризван Гарабағлыдыр. Абидә комплексинин мәркәзиндә 8 күшәли түрбә лајиһәләндирилиб. Онун мәркәзиндә исә ејни сајда тәрәфләри олан ики пилләли, әбәди мәш’әл үчүн күрсү јерләшир. Түрбәнин өндәки 5 тәрәфи ачыг, архадакы 3 тәрәфи исә јарыөртүлү вәзијјәтдәдир.

Түрбәнин дамы сиври үчлүглү күмбәзлә өртүлүр. Сыра илә дүзүлмүш 7 әдәд бағлы шәкилли даш китабәләр түрбәнин дахилиндән кечир.

Абидәнин һәр бир елементи рәмзи мә'на дашыјыр. Комплексин мәркәзиндә дуран түрбә үмуми Гарабағ, 7 китабә исә Јухары Гарабағын әтрафында ишғал олунмуш рајонларын сајыны билдирир. Үмуми абидә дәмир бетондан олса да, үзләнмәсиндә ағ вә гара мәрмәрдән истифадә олунмушдур. Гара вә ағ рәнкләр һәр гаранлыг кечәнин бир ишыглы сәһәринә ишарәдир.

8 метр һүндүрлүјә малик олан **Шәһидләрин хатирә комплекси** Бакы-Фүзули автомобил јолунун Бејләган рајонундан Фүзули әразисинә дахил олан һиссәсиндә, јүксәкликдә учалдылмышдыр. Гарабағ уғрунда, Вәтән уғрунда әбәдијјәтә говушмуш Фүзули шәһидләринин хатирәсинә учалдылмыш бу абидә һәр тәрәфдән бир нечә километр узаглыгдан көрүнүр. Абидә илә магистрал јолун кәнарыны плитә дүзүлмүш сәки бирләшдирир...

## ШИКАЈЫМ

Рајон мәркәзи олан Фүзули шәһәриндә, шәһәрин шимал һиссәсиндә тәхминән XX әсрин 40-60-чы илләриндә "кәнч колхозчуларын мәктәби" белә адланырды. "**Шикајым**" адландырылан бу мәктәб јә'гин ки, "школа колхозној молодјожи" (**ШКМ**) сөзләринин абревиатурасыдыр.

## ШИРӘВИШ ДАШЫ

Гараколлу кәндиндән шималда, Дағоруг дејилән бир әразидә гејдә алынмыш орографик објектләрдән бири **Ширәвиш дашы** адланыр. Кечмишимизин јадикары олан **Ширәвиш дашы** илә бағлы әтраф кәндләрин әһалиси арасында чохлу әфсанәләр долашмагдадыр. Узунлуғу 2 метр олан бу дашын јухары һиссәси енли, ашағы һиссәси кетдикчә енсизләшән вә ахачаглыдыр. Дашын орта һиссәси 10 сантиметр дәринлијиндә олуб, үзүм ширәсинин дашыб төкүлмәмәсинә хидмәт едир.



Торпаг сәтһинә маили гојулмуш бу дашын һәр күнчүнә дөрд гарағач әкилиб.Һәр бир ағач 4-5 тон ағырлығында јүкү асанлыгла сахлаја биләчәк күчдәдир.Үзүм јығымы заманы дөрдбучаг вәзијјәтиндә олан бу ағачларын үст гатында бөјүк чардаг гурармышлар. Кәндин һөрмәтли ағсаггаллары һәмин чардағын үзәринә гара от дејилән јабаны от дөшәјәр, дәрилмиш үзүмү бу отун үзәринә төјүб әзәрмишләр. Ағсаггал үзүмү әздикчә онун ширәси гара отдан кечиб дамчы дашын үзәринә сүзүләр, орадан исә дашын ахачағына гојулмуш бөјүк габа төкүләрмиш...

**Ширәвиш дашынын** үзәриндә әкилмиш гарағачын мејвәләриндән вахтилә истифадә едилмишдир. Нохуд бојда олан гара мејвәләр пајызда јетишәрмиш. Ону дәриб дашын үстүнә төкәр, чубугла дөјүб һалва һалына салар, сонра дәрман маддәси кими истифадә едәрмишләр. Мејвәнин чәјирдәји илә *Ширәвиш* дашыны тәмизләјир, ону кәлән илә назырлајармышлар. **Ширәвиш** дашындан истифадә етмәк үзүмүн ибтидаи формада е'малындан башга бир шеј дејилмиш. Дашын формасындан илк бахышдан јә'гин етмәк олар ки, бу јерләрдә та гәдимдән үзүмчүлүклә мәшғул олублар. Ејни формалы **Ширәвиш** дашларына Абшерон рајону кәндләринин әразиләриндә дә раст кәлмәк мүмкүндүр...

## ШЫР-ШЫР

Фүзули рајон мәркәзинин 1 км шимал һиссәсиндә сүн'и јарадылан, Көндәлән көлүнә тәхминән 35 метр һүндүрлүкдән төкүлән чај, шәлалә. Сәс-күјлү, *шырылтылы* олдуғу үчүн јерли әһали бу шәлаләјә "**шыр-шыр**" дејир.

Шәлалә төкүлән јер бетон плитәләрлә әһатә олунмушдур. *Шыр-шыр шәлаләси* Гарабағда ән һүндүрдән төкүлән шәлаләдир. Һәтта, ән күләксиз һавада белә һүндүрлүкдән төкүлән чајдан су дамлалары јүз метрә гәдәр мәсафәјә сычрајыр. Шәлаләнин төкүлдүјү јердә ејни адлы сојуг булаг да вар. **"Шыр-шыр" шәлаләси** вә ејни адлы булаг јерләшән һәмин әрази Гарабағын ән дилбәр кушәләриндән бири һесаб олунур.

## ШЫХБАБА ТҮРБӘСИ

**Шыхбаба түрбәси** рајон мәркәзиндән 35 км чәнуб-шәргдә, Бабы кәндинин гәбристанлығында јерләшир. Шых Вејс (**Шыхбаба**) адлы пир-түрбә XIII әср ме'марлыг абидәси һесаб олунур. Бә'зи тәдгигатчылар **Шыхбаба** түрбәсинин көркәмли Азәрбајчан илаһијјатчы алими, шаир, сәркәрдә **Шејх Баби Јагубун** шәрәфинә тикилдијини гејд едирләр (Әлавә мә'лумат үчүн бах: *Бабы түрбәси, Бабы кәнди*).

## ШЫХЛЫ КӘНДИ

Рајон мәркәзиндән 2,5 км шәргдә, дағәтәји әразидә јерләшән кәнд. Әһалиси 500 нәфәрдир.Әһалиси әсасән тахылчылыг, һејвандарлыг вә үзүмчүлүклә мәшғул олур. Кәнддә мәктәб, клуб, китабхана, көрпү (XIX әср) вә с. вар. Јашајыш мәнтәгәси 1993-чү ил августун 23-дә ермәниләр тәрәфиндән ишғал олунуб.

**Шыхлы** јашајыш мәнтәгәсинин ады **газах** тајфасынын **шыхлы** тирәсинин ады илә әлагәдардыр. XVIII әсрдә Газахларын бир һиссәси сијаси һадисәләрлә әлагәдар Гарабағa көчүб орада мәскунлашдылар. Мәнбәләрдә **газахларын** мәншәчә хәзәрләрлә бағлылығы да әкс олунмушдур. XIX әсрдә **газахлар** гарапапаг, сарачлы, гафарлы, чәфәрли, гарабағлы, кәримбәјли, көдәкли, муғанлы, гарагојунлу, шаһидли, ајрумлу, кәркибашлы, чәмилли, **шыхлы (шыхлар),** чахырлы, кәнкәрли, салаһлы, кәсәмән вә башга тајфалардан ибарәт иди.

Көрүндүјү кими, кениш јајылмыш **газах** (*газах* сөзү "азад, мүстәгил инсан", "өз тајфаларындан аралы дүшмүш инсанлар" анламындадыр) етник бирлијинә аид олан етнотопонимләр ичәрисиндә шыхлы тајфалары да вар вә онлар да XVIII әсрин сијаси һадисәләри илә бағлы Гарабағa көләнләрин сырасында олуб. Бу тајфанын адыны XIX әср мәнбәләриндә бә'зән **шыхылу** кими дә гејд етмишләр. Чох күман ки, **шыхлы** тајфасы 1537-чи илдә Шәмкирдән Газах маһалына көчмүш Ағдолаглы Мәһәммәд ағанын оғлу **Шыхы** өвладларынын ады илә бағлыдыр...



**Шых** ојконимини **шејх** (титул, *"елмли, савадлы"* мә'насында) кими јозанлар да вар. Әски түркләрдә, түркмәнләрдә, азәри түркләриндә ата, махтум, **шых** вә с. мүгәддәсләр нәслинин нүмајәндәләри индијә кими өз мүгәддәсликләриндән истифадә едиб халгы мүхтәлиф хәстәликләрдән гуртармаг үчүн көмәклик едирләр...

Бә'зи гајнагларда мә'лум олур ки, **Шыхлы (Шыхылы) обасы** Чаваншир елинә мәхсус **Һачылы** ичмасына дахил олан шенликләрдән биридир. Шыхылы обасынын әһалиси һаггында XIX әсрин 1842, 1849, 1863, 1873 вә 1886-чы илләриндә гејдә алынан әһалинин сијаһыјаалынма сәнәдләриндә мүәјјән гәдәр мә'луматлар вардыр.

Кәнддә **гасымлылар, һәсәнлиләр, абдуллалар, сејидлиләр, оручлулар, мүрсәллиләр, сәфилиләр, ағаларлылар** вә с. адлы тајфа вә нәсилләр вардыр.

Шыхылы обасынын **Оручлу, Һәсәнли, Вәлили, Очагвердили, Чәфәрли, Мурадлы, Алылы, Севдималылы, Очаггулулар, Мәмишләр, Рәһимлиләр, Һүсејнлиләр, Мәммәдгулулар, Кәрбәлаји Сејид Шүкүрлүләр** адлы тајфа вә тирәләри вар...

*Шыхлы* адлы кәндләр Ағдашда, Дәвәчидә вә Газахда да вар. Ағдам, Гарадағ, Гах, Јардымлы, Коранбој, Масаллы, Сабирабад, Хачмаз, Чәбрајыл, Чәлилабад вә Шамахы рајонларындакы **Шыхлар кәнди** XVI әсрдән **газах** вә **газахлы** гызылбаш тајфаларындан бири кими танынан **шыхлы, шыхлар (шејхләр)** тирәсинин ады илә әлагәдардыр.

## ШОМУЛУТӘПӘ

Рајон мәркәзиндән 8 км шимал-шәргдә, Көндәләнчајын сағ саһилиндә јерләшән, илк вә орта тунч дөврләринә аид јашајыш мәскәни **Шомулутәпә** адланыр. **Тәпә** конус шәкилли, даирәви формалы сүн'и тәпәчикләрдән ибарәтдир. Шомулутәпәнин диаметри 80 метр, һүндүрлүјү 6 метрдир. Маили јамачлары сүн'и курганларла әһатәләнир. Кәшфијјат газынтылары заманы гара вә боз рәнкли чилалы, бојалы кил габлар, дән дашлары, ораг диши вә с. ашкар едилмишдир. Орадан тапылан нүмунәләр Шомулутәпәнин е.ә. III-II минилликләрдә әкинчи-малдар ичмаларына мәхсус олдуғуну көстәрир.

**Тәпә** әразисиндә **шому** биткиси олдуғу үчүн о, белә адландырылыб. **Тәпә** - мүсбәт релјеф формасы билдирән ҹоғрафи терминдир. Ағстафа рајону әразисиндә дә **Шомулутәпә** адлы е.ә.VI-IV минилликләрә аид јашајыш јери вардыр...

Рајон мәркәзиндән 8 км шимал-шәргдә гејдә алынан **Шомулутәпә** Тунҹ дөврү јашајыш јери, өлкә әһәмијјәтли дашынмаз тарих вә мәдәнијјәт абидәси һесаб олунур...

## ШОР БУЛАГ

**Шор булаг** һидроними Фүзули шәһәриндән 10 километр мәсафәдә гејдә алыныб. Һидроним **шор** вә **булаг** сөзләриндән ибарәтдир. **Булаг** һидронимик апелјативинин иштиракы илә Азәрбајҹанда јүзләрлә ҹоғрафи ад гејдә алыныб. Булағын **Шор** адланмасы онун сујунун дузлу, **шор** олмасы илә әлагәдардыр...

## ШОРЧА

Фүзули рајонунун Һорадиз кәнди јахынлығында гејдә алынан орографик објектләрдән бири **Шорча** адланыр. Ороним **шор** вә **ча** компонентләриндән ибарәтдир. **Шор** сөзү *"шоран", "шоранлыг", "дузлу"* анламындадыр. Топонимин тәркибиндәки **-ча** шәкилчиси кичиклик билдирир. Һәмин кичик әразинин сујунун вә торпағынын дадынын дузлу, **шор** олмасы илә әлагәдар олараг бу ороним белә адландырылмышдыр. Бу типли ҹоғрафи адлара Азәрбајҹанын әксәр рајонларынын әразиләриндә дә раст кәлмәк олар.

Вахтилә Ирәван губернијасынын Новабајазид вә Шәрур-Дәрәләјәз гәзаларында, Кәнҹә (Јелизаветпол) губернијасынын Газах гәзасында (һазырда Ермәнистанын Красносело рајонунда) **Шорча, Шорчалы** адлы ојконимләр дә мөвҹуд олмушдур...



## ШҮКҮРБӘЈЛИ КӘНДИ



**Шүкүрбәјли кәнди** рајон мәркәзиндән 20 км ҹәнуб-шәргдә, Көндәләнчајла Гуручај арасында, дүзәнликдә јерләшир. Әһалиси әсасән үзүмчүлүк, тахылчылыг вә һејвандарлыг илә мәшғул олур. Кәнддә мәктәб, клуб, китабхана вә с. вар. Кәнддә *гарачорлу, мәмишли, бабашлы, гурбанлы* вә с. тајфаларын нәсил вә тирәләри јашајыр.

Јашајыш мәнтәгәсини **Шүкүрбәј** адлы шәхс салмышдыр. **Шүкүрбәјли** ојконими **"Шүкүрбәјин нәсли јашајан кәнд, шүкүрбәјлиләр"** мә'насыны билдирир. Чох еһтимал ки, јашајыш мәнтәгәси кәндин илк сакинләриндән олан **Шүкүрүн** *(Шүкүрбәјин)* ады илә әлагәдардыр.

Мәнбәләрин вердији мә'луматлардан ајдын олур ки, **ҹәбрајыллы елинин** голларындан бири дә **шүкүрбәјли** адланыр. **Шүкүрбәјли** ојконими XVIII әсрдә јашамыш дөврүнүн бөјүк нүфуз саһиби олан **Шүкүр бәј Һүмбәтәли бәј** оғлунун ады илә әлагәдардыр...

Јерли мә'лумата көрә, кәндин әразиси Хәдиҹәханым адлы бир гадынын варлы атасы тәрәфиндән она мүлк кими һәдијјә верилмишдир. Тарихи мәнбәләрдә Вәзировларын мүлкү һесаб олунан **Хәдиҹәханым јурду** ојкониминин дә ады чәкилир...

Ҹәбрајыл вә Ҹәлилабад рајонларында да **Шүкүрбәјли** адлы кәнд вардыр.

# ФҮЗУЛИ РАЈОНУНУН ОЈКОНИМЛӘРИ

*Ајыбасанлы кәнди, Алагарғы, Алханлы кәнди, Амадили, Араз Дилагарда кәнди, Ааз Зәркәр кәнди, Араз Јаглывәнд кәнди, Аразбар (Арасбар), Арајатлы кәнди, Аргалы, Арыглы, Арыш кәнди, Арсландуз, Ашағы Бала Нурку, Ашағы Балагај, Ашағы Вејсәлли кәнди, Ашағы Диваналылар кәнди, Ашағы Әбдүррәһманлы кәнди, Ашағы (Араз) Јаглывәнд, Ашағы Јалынчаг, Ашағы Курдмаһмудлу кәнди, Ашағы Ќәлинчә кәнди, Ашағы Ќүзләк кәнди, Ашағы Рәфәдинли кәнди, Ашағы Сејидәһмәдли кәнди, Бабы кәнди, Бала Бәһмәнли кәнди, Бала Нурку, Балагај, Балчаг Әмир Сејид, Барани, Бәһмәнли кәнди, Биринчи Маһмудлу кәнди, Вејсәлли кәнди, Гадылы, Газахлар кәнди, Гајыдыш гәсәбәси, Гарабулаг, Гараговаг, Гараған, Гарадағлы кәнди, Гараколлу кәнди, Гарамәммәдли кәнди, Гараханбәјли кәнди, Гараханлы, Гаргабазар кәнди, Гарыбәнд, Гарјакин, Гасымабад, Гачар кәнди, Гашга, Гәрвәнд кәнди, Гызгәләм, Гобу Дилагарда кәнди, Горган кәнди, Гочәһмәдли кәнди, Гутушан, Давудан, Даныјал, Дәдәли кәнди, Дәлмә, Дәрвишбулаг кәнди, Дәмирли, Дәстәчу, Диваналылар кәнди, Дилагарда кәнди, Дири, Дөвләтјарлы кәнди, Дөрдчинар кәнди, Дуллар мәһәлләси, Дүррәханлы, Едилли јурду, Ејмирли, Әбдүррәһманлы кәнди, Әбулфәтан, Әләскәрли кәнди, Әлиһүсејнушағы кәнди, Әмирмәһәммәд, Әришә, Әһмәдалылар кәнди, Әһмәдбәјли кәнди, Зәркәр кәнди, Зәркәргыјыгчы кәнди, Икинчи Маһмудлу кәнди, Инчили, Ишыглы кәнди, Јаглывәнд кәнди, Јазылмәрә, Јалпирәһмәдли кәнди, Јенили, Јеничә, Јухары Ајыбасанлы кәнди, Јухары Вејсәлли Кәнди, Јухары Диваналылар кәнди, Јухары Әбдүррәһманлы кәнди, Јухары Јаглывәнд кәнди, Јухары Јалынчаг, Јухары Курдмаһмудлу кәнди, Јухары Ќүзләк кәнди, Јухары Рәфәдинли кәнди, Јухары Сејидәһмәдли кәнди, Јухары Чәчирли, Кәләдән, Кәләчи Кешили, Кәли Камалабад, Кәримбәјли кәнди, Кәрмәдән, Көјүк, Көһәрли, Көчәрли ојмағы, Курдләр кәнди, Курдмаһмудлу кәнди, Ќечәкөзлу кәнди, Ќәлинчә, Ќәнлинчи, Ќовшадлы кәнди, Ќоразыллы кәнди, Ќүзләк кәнди, Ќүллү, Ларичан, Ләлә јурду, Мандылы, Маһмудабад, Маһмудлу кәнди, Мердинли кәнди, Мәдәтли, Мәһәммәдчәлал, Мирзәнагылы кәнди, Мирзәчамаллы кәнди, Моллавәли кәнди, Молламәһәррәмли кәнди, Моллафазилли ојмағы, Молокан, Мургузлу, Мусабәјли кәнди, Мустафа Сәркарлы кәнди, Неһрәбаз, Нәсриjjә, Нурпаша, Нурку, Оналты, Пирәһмәдли, Пөрнәк, Рәбәд, Рәфәдинли кәнди, Ријан, Сарачыг кәнди, Сагғызлы мәһәлләси, Сарысу јурду, Сарыхан Сејидабад, Сејидәһмәдли кәнди, Сејидмаһмудлу кәнди, Сәрдарлы кәнди, Сојгаш, Султанлы, Тамәтли, Ташга, Тәркибалы, Туг кәнди, Үчбулаг (Һога) кәнди, Үчүнчү Маһмудлу кәнди, Фәтһабад, Фирдовсабад, Фиолетовка, Фүзули шәһәри, Ханархы, Хатынбулаг кәнди, Хатунабад, Хәләфшә кәнди, Хәрәлән Кәбирли, Хырда-пара Дизаг маһалы, Һачылы, Һога (Үчбулаг) кәнди, Һорадиз гәсәбәси, Һорадиз кәнди, Һункутлу кәнди, Һүсејнбәјли кәнди, Чаты, Чахырлы, Чимән (Чәмән) кәнди, Чобанбәјли, Чәјирли, Чәмилли кәнди, Чәркәлан, Чыргын, Чуварлы кәнди, Чунан, Шәкәрабад, Шәкәрчик јашајыш јери, Шәкәрчик кәнди, Шыхлы кәнди, Шукурбәјли кәнди...*

## ФУЗУЛИ РАЈОНУНУН ОРОНИМЛӘРИ

